AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

# TARİX-İ ALƏMARA-Yİ ABBASİ
# (ABBASIN DÜNYANI BƏZƏYƏN TARİXİ)
# I CİLD

Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu ağa Bakıxanov adına
Tarix İnstitutu Elmi şurasının 5 iyun 2009-cu il tarixli qərarı ilə nəşr edilir.

**BAKI - 2009**

Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru,
professor ***Oqtay Əfəndiyev,***
tarix elmləri namizədi ***Namiq Musalı***

**İsgəndər bəy Münşi Türkman.**

**İ 76** Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi).
I cild. Bakı, 2009, «Təhsil», 792 səh.

Oxuculara təqdim olunan bu kitab Səfəvi dövrünün ən məşhur müəlliflərindən biri olmuş və I Şah Abbasın sarayında xidmət etmiş görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşi Türkmanın (1560/61-1634) farsca yazdığı «Tarix-i aləmara-yi Abbasi» (Abbasın dünyanı bəzəyən tarixi) adlı üç cildlik əsərin birinci cildinin Azərbaycan dilinə tam tərcüməsidir. Mənbənin bu cildi Səfəvi sülaləsinin əcdadları, Azərbaycan Səfəvilər dövlətinin yaranması və inkişafı, ilk dörd Səfəvi şahının (I İsmayıl, I Təhmasib, II İsmayıl və Məhəmməd Xudabəndə) hakimiyyəti haqqında qiymətli məlumatlar verir və 1587-ci ildə I Şah Abbasın hakimiyyətə gəlməsi ilə sona çatır. Vətənimizin, qonşu ölkələrin və bir sıra digər Yaxın və Orta Şərq ölkələrinin tarixini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edən «Tarix-i aləmara-yi Abbasi» ilk dəfədir ki, Azərbaycan dilində işıq üzü görür. Tərcümə zamanı mənbənin Tehran nəşrindən və Bakıdakı əlyazmalarından istifadə edilmişdir. Əsər geniş ön söz, şərhlər və göstəricilərlə təchiz olunmuşdur.

İ 4306020600 2009
M53

© «Təhsil», 2009

## ÖN SÖZ

Azərbaycan min illərlə ölçülən dövlətçilik tarixinə və zəngin mədəniyyətə malik bir ölkədir. Qədim dövrlərdən son orta əsrlərədək Azərbaycan ərazisində Manna, Midiya, Albaniya, Atropatena, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər (Azərbaycan Atabəyləri), Elxanilər (Hülakülar), Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular dövlətləri təşəkkül tapmış, ölkəmiz bütün Şərq dünyasının ictimai-siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamış, bəşəriyyətə neçə-neçə dahilər bəxş etmişdir. 1501-ci ildə I Şah İsmayılın başçılığı altında qurulan Azərbaycan Səfəvilər dövləti özündən əvvəlki Azərbaycan dövlətlərinin birbaşa varisi və davamçısı olmuşdur. Azərbaycan ərazisində yaranmış bu dövlət çox keçmədən fəthlər nəticəsində genişləndi və Fərat çayından Ceyhun çayına qədər uzanan nəhəng imperiyaya çevrildi. Çoxsaylı xalqların yaşadığı müxtəlif vilayətləri əhatə edən bu yeni imperiyanın mərkəzi Təbriz, istinadgahı Azərbaycan idi. İmperiyanın ən ümdə hakim sinfi türk qızılbaş tayfalarının əmirlərindən ibarət idi, dövlətin mühüm vəzifələri məhz onların əlində cəmləşmişdi və ölkənin əyalətlərində bu tayfaların nümayəndələri hakimlik edirdilər. Səfəvilərin rəhbərliyi ilə siyasi cəhətdən mərkəzləşdirilmiş Azərbaycan torpağı özünün iqtisadi və mədəni yüksəliş dövrünü yaşayırdı. Əgər Səfəvilərin hakimiyyəti dövrünü klassik dövlətçilik ənənələrimizin və mədəni irsimizin qızıl əsri hesab etsək, heç də yanılmarıq. Elə bu səbəbdən də Səfəvi tarixinə dair qaynaqların xüsusi olaraq öyrənilməsi, tərcümə və nəşr edilməsi vətən tarixşünaslığımız üçün prioritet vəzifələrdən biri olmalıdır.

XX əsrin 50-ci illərindən etibarən Azərbaycan Respublikasında Səfəvi tarixinin ardıcıl surətdə öyrənilməsinə başlanılmış, bu sahədə çoxşaxəli araşdırmalar aparılmış, neçə-neçə elmi əsərlər çap olunmuş və bunların nəticəsində ölkəmizdə özünəməxsus ənənələrə malik olan Səfəvişünaslıq məktəbi formalaşmışdır. İndi qarşıda duran vacib məsələlərdən biri Səfəvi tarixi mənbələrinin sistemli şəkildə doğma dilimizə çevrilib nəşr olunmasından ibarətdir. Səfəvilərin hakimiyyəti zamanında onlarla tarixi əsər qələmə alınmışdır. Hələlik bu mənbələrdən yalnız üçü fars dilindən Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur[1]. Azərbaycan türkcəsində yazılmış daha iki Səfəvi qaynağı isə əlyazmalar əsasında ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya transfoneliterasiya edilərək yayımlanmışdır[2]. Lakin etiraf edilməlidir ki, hələ bu

---

[1] Qızılbaşlar tarixi («Tarix-e qezelbaşan»). Tərcümə və sərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993, 48 s.; Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə və müqəddimə Ə.H.Rəhimovundur). Bakı, 1996, 128 s.; Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar (Səfəvi dövrü - Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi). Fars dilindən tərcümə, müqəddimə və şərhlər: Ə.H.Rəhimli. Bakı, 1996,196 s.

[2] Səfəviyyə padişahları. Transfoneliterasiya edəni: C.Qəhrəmanov; çapa hazırlayanlar və ön sözün müəllifləri: H.Məmmədov və P.Kərimov // «Hikmət» jurnalı, Bakı, 2004, № 4, s.79-99; Şeyx Səfi

sahədə görüləsi çox iş vardır. Xüsusən də Səfəvi dövrünün sanballı salnaməçilərinin iri həcmli əsərlərinin tərcümə və nəşr edilməsinə önəm vermək zəruridir. Bu baxımdan dünya şöhrətli Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin fars dilində yazdığı «Tarix-i aləmara-yi Abbasi» («Abbasın dünyanı bəzəyən tarixi») əsəri ilk növbədə diqqəti cəlb edir. Bu əsər Səfəvilər dövlətinin yaranması və inkişafı tarixini izləmək, bu dövlətə daxil olan ölkələrin, xüsusən də Azərbaycanın o zamankı tarixini öyrənmək baxımından son dərəcə əhəmiyyətlidir.

***İsgəndər bəy Münşinin həyatı və dövrü.*** Səfəvilərin saray tarixşünaslığının ən görkəmli nümayəndəsi olan İsgəndər bəy Münşi Azərbaycanın yarımköçəri türkman tayfasına mənsub idi. Bu tayfa özündə XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu tayfa ittifaqlarına daxil olmuş, XVI əsrdə isə Səfəvilərin xidmətinə keçmiş pornak, mosullu, baharlu, bayandur və s. kimi oymaqları birləşdirirdi. İsgəndər bəy Münşinin bu oymaqlardan konkret hansına mənsub olması aydın deyildir. İsgəndər bəy Münşinin təvəllüd tarixi ilə bağlı mübahisə mövcuddur. Tədqiqatçıların əksəriyyəti onun h. 968-ci (m. 1560/61) ildə[3], N.D.Mikluxo-Maklay və Y.E.Bregel isə 969-cu (1561/62) ildə doğulduğunu yazırlar[4]. Bu məsələyə «Tarix-i aləmara-yi Abbasi» əsərinin məlumatları əsasında aydınlıq gətirmək mümkündür. İsgəndər bəy 1038-ci ilin ortalarında (1629-cu ilin əvvəllərində) tamamladığı «Tarix-i aləmara-yi Abbasi» əsərinin sonunda özünün 70 yaşa çatdığını qeyd edir[5]. Bu fakta əsasən, onun təvəllüdünün 968-ci (1560/61) il olduğu ehtimalı ortaya çıxır. Bundan əlavə, müəllif Şah Məhəmməd Xudabəndənin oğlu Həmzə mirzənin qiyamçı təkəlü və türkman əmirlərinə qarşı döyüşündən bəhs edərkən, həmin vaxt 26 yaşında olduğunu, «qələm sahibləri zümrəsinə» və şahzadənin «divan mənsubları silkinə» aid olmasına baxmayaraq, özünün də həmin hadisədə bir süvari döyüşçü kimi Həmzə mirzənin tərəfində iştirak etdiyini yazır[6]. Bir çox tədqiqatçılar bu döyüşün 994-cü (1586) ilin yazında baş verdiyini bildirərək, həmin məlumata əsasən, İsgəndər bəy Münşinin 968-ci (1560/61) ildə doğulduğunu göstərirlər. Lakin N.D.Mikluxo-Maklay bu fikirlə

---

təzkirəsi («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi). Tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı. Bakı, 2006, 932 s.

[3] И.П.Петрушевский. Очерки но истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Ленинград, 1949, с.32; А.А.Рахмани. О жизни и творчестве Искендера Мунши // Известия Академии Наук Азерб. ССР (серия общественных наук), 1958, № 1, с.28; yenə onun. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с. 12; О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах времени Шах Тахмаспа I // Краткие Сообщения Института Народов Азии АН СССР, т. 39, Москва, 1963, с.23; N.Fəlsəfi. Zendeqani-ye Şah Abbas-e Əvvəl. Tehran, 1334, c II, s. 423.

[4] Н.Д.Михлуко-Маклай. Описание персидских и таджикских рукописей Института Востоковедения. Вып. III (исторические сочинения). Москва, 1975, с. 168-193; Ч.А.Стори. Персидская литература: био-библиографический обзор в трех частях (перевел с английского, переработал и дополнил Ю.Э.Брегель). Москва: Наука, 1972, ч. II, с. 873.

[5] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi. Tehran. 1350, II c, s.1095.

[6] Yenə orada, I c, s.236.

razılaşmır və həmin döyüşü 995-ci (1587) ilin yazına aid edir. Bu hesabla o, mənbə müəllifinin 969-cu (1561/62) ildə anadan olduğunu qeyd edir. Əslində isə N.D.Mikluxo-Maklayın fərziyyəsi doğru deyildir. Çünki tarixi mənbələr sözügedən döyüşün 994-cü (1586) ildə baş verdiyini təsdiqləyirlər. Digər tərəfdən, Həmzə mirzənin həmin döyüşdən bir qədər sonra, 994-cü ilin zil-hiccə (1586-cı il dekabr) ayında sui-qəsd nəticəsində öldürüldüyü dəqiq məlumdur[7]. Buna görə də Həmzə mirzənin qiyamçılara qarşı döyüşünü 995-ci (1587) ilə aid etmək yanlışdır. Belə olan halda, İsgəndər bəy Münşinin 26 yaşı olarkən iştirak etdiyi döyüşün 994-cü (1586) ilin yazında baş verdiyi və bu minvalla onun təvəllüdünün 968-ci (1560/61) il olduğu aydınlaşır.

İsgəndər bəyin əsərinin girişində özü haqqında verdiyi məlumatdan aydın olur ki, o hələ uşaq yaşlarından adi elmləri öyrənməyə başlamış, daha sonra isə mühasibatçılığın bir növü olan siyaq elmini yüksək səviyyədə mənimsəyərək, bir müddət müxtəlif dövlət xadimlərinin xidmətində olmuş, inşa elminə yiyələnmiş və nəhayət, I Şah Abbasın saray münşiləri sırasına yüksəlmişdi[8].

İsgəndər bəy Münşi ayrı-ayrı hadisələrdən bəhs edərkən öz həyatı haqqında məqamlara toxunur. Bu məlumatlardan aydın olur ki, 982-ci (1574/75) ildə I Şah Təhmasibin xəstəliyi ilə əlaqədar hakimiyyətdəki qruplaşmalar arasında mübahisə baş verərkən o, Qəzvində, ustaclu tayfasının əmiri Hüseyn bəy Yüzbaşının məclisində idi[9]. Müəllifin öz yazdığına görə, o, 985-ci ilin zilhiccə ayının 3-də (12 fevral 1578-ci ildə) Şah Məhəmməd Xudabəndənin taxt-taca sahib olmaq üçün Qəzvinə gəldiyi zaman onu qarşılamağa çıxan əhalinin arasında olmuşdu[10]. 988-ci (1580) ildə İsgəndər bəy Münşi qızılbaş sərkərdəsi Salman xan Ustaclunun Gilan yürüşündə iştirak edir. 993-cü (1585) ildə isə o, Şah Məhəmməd Xudabəndənin ordusunun tərkibində Təbrizdə idi. 994-cü (1586) ildə Şahzadə Həmzə mirzənin dəftərxanasında xidmət edən İsgəndər bəy Münşi Sayinqala yaxınlığında qiyamçı türkman və təkəlü əmirlərinə qarşı baş vermiş döyüşdə əlində nizə tutaraq, süvari əsgər kimi iştirak edir.

1001-ci (1592/93) ildə o, «böyük münşilər» cərgəsinə daxil olur və I Şah Abbası (1587-1629) müşayiət edərək, münşilik, yəni katiblik xidmətini həyata keçirmək ücün İsfahana gedir. Onun irəli çəkilməsində Şah Abbasın baş vəziri olan məşhur Azərbaycanlı dövlət xadimi Etimadüddövlə Hatəm bəy Ordubadinin böyük

---

[7] Bu barədə istər İsgəndər bəy Münşi «Tarix-i aləmara-yi Abbasi»də, istərsə də digər bir Səfəvi tarixçisi Qazı Əhməd Qumi özünün «Xülasətüt-təvarix» əsərində geniş məlumat vermişdir. Bax: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981, с.196-198.

[8] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, göstərilən nəşr, c. I, s. 1-2; «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. с. 13.

[9] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, göstərilən nəşr, c.I, s.120.

[10] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi. AMEA M.Füzuli adına əlyazmalar İnstitutu, S-129, v. l86 a-b; S-297, v.147a.

rolu olmuşdur[11]. 1019-cu (1610) ildə Urmiya şəhəri yaxınlığında Hatəm bəy vəfat edənədək İsgəndər bəy Münşi birbaşa onun rəhbərliyi altında çalışmış və səfərlərdə onu müşayiət etmişdir. 1008-ci (1599) ildə müəllif Hatəm bəy Ordubadi ilə birlikdə Gilana səfər edir. İsgəndər bəy 1008-1009-cu (1599-1601) illərdə I Şah Abbasın özbəklərə qarşı Xorasan yürüşünə qatılmış, 1012-1016-cı (1603-1607) illərdə isə Osmanlılara qarşı Azərbaycanda aparılan hərbi əməliyyatlar zamanı şah məiyyətində olmuşdur. 1016-cı (1607) ildə bu əməliyyatlar Səfəvilər üçün uğurla bitdikdən sonra İsgəndər bəy Münşi Hatəm bəyin dəvəti ilə onun vətəni olan Ordubadı ziyarət edir və daha sonra onlar birlikdə İsfahana qayıdırlar. 1017-ci (1608-1609) ildə Osmanlı dövlətinə qarşı üsyan qaldıran Cəlalilərin Səfəvilər dövlətinə pənah gətirməsi zamanı İsgəndər bəy Hatəm bəylə birgə onların qarşılanması və qəbul edilməsi mərasimində iştirak edir. Hatəm bəyin vəfatından sonra oğlu Mirzə Əbu-Talib xan Ordubadi baş vəzir təyin olunur. İsgəndər bəyin onunla da yaxşı münasibətləri vardı. 1026-cı (1616/17) ilin qışında o, şah dəftərxanasının digər işçiləri ilə birlikdə Etimadüddövlə Mirzə Əbu-Talib xanın rəhbərliyi altında Təbrizdə qızılbaş əmirləri arasında tiyulların bölüşdürülməsi işinin sənədləşdirilməsində yaxından iştirak edir. 1035-ci (1626) ildə müəllif Şah Abbasın Bağdad yürüşündə iştirak edir. 1040-cı (1630/31) ildə isə o, ikinci kərə, lakin bu dəfə Şah Səfinin məiyyətində Bağdad səfərinə gedir. İsgəndər bəy Münşi 1043-cü (1634) ildə Təbrizdə və ya onun ətrafında vəfat etmişdir[12].

Səfəvi saray münşisi və tarixçisi Qazı Əhməd Qumi 1005-ci (1596/97) ildə yazdığı «Gülüstan-i hünər» əsərində İsgəndər bəy Münşi haqqında məlumat vermişdir. Əsərin Moskvada saxlanan və B.N.Zaxoder tərəfindən rusca tərcümə olunmuş nüsxəsindəki məlumatlar Qazı Əhmədin İsgəndər bəy Münşi haqqında yüksək fikirdə olduğunu göstərir: «İsgəndər bəy Münşi mənim övladım kimidir. Onun xoşagələn xüsusiyyətləri və tərifəlayiq xasiyyəti vardır. O. təliq, nəstəliq və şikəstə xətləri ilə çox yaxşı yazır. Bir müddət şah dəftərxanasında mühasibat kitablarının yazılması ilə məşğul olmuşdur. Şah dəftərxanasında siyaq elmini onun qədər bilən ikinci bir ustad katib yox idi. O, siyaq elmində istedadlıdır. Bir müddət sonra o, baş vəkilin səlahiyyətli nümayəndəsi oldu. Bundan sonra Darül-inşaya keçdi. O, məktub yazmaqda və sənədlərin tərtibində müqayisəyə gəlməzdir. Sultanların yazışmalarının, fərmanlarının və məktublarının qələmə alınması işi onun öhdəsindədir. Onun divan işlərində böyük təcrübəsi var. Sürətli yazmağı mükəmməl dərəcədə bacarır. Darül-inşada işlər ondan asılıdır. O, (ona tapşırılan)

---

[11] Hatəm bəy XIII əsrin görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin nəslindəndir və Ordubadlı Məlik Bəhramın oğludur. Onun ata-babaları nəsillikcə Ordubadın kələntərləri olmuşlar. Hatəm bəy Ordubadi də əvvəlcə Ordubadın kələntəri olmuş, daha sonra bir müddət İranın müxtəlif şəhərlərində qızılbaş hakimlərinin xidmətində çalışmış, I Şah Abbasın hakimiyyətinin əvvəllərində şəxsi bacarığına görə saraya dəvət edilmişdir. O, 1592-1610-cu illərdə baş vəzir vəzifəsini tutmuş və «etimadüddövlə» («dövlətin etimadlı adamı») titulunu daşımışdır.

[12] А.А.Рахмани. «Тарих-и ала марай-и Аббаси» как источник по истории Азербайджана, с. 13-18.

bütün işləri yerinə yetirir»[13]. «Gülüstan-i hünər»in Tehran nüsxəsində Qazı Əhməd, İsgəndər bəy Münşi ilə münasibətlərinin təfərrüatından söz açır: «(İsgəndər bəy Münşi) əvvəllər şah dəftərxanasına getmiş və şəriət dəftərxanasında yazıçılığa başlamışdı. Təliq xəttini gözəl yazardı. Elə ki həmin dəftərxananın işi mənə həvalə olundu, mən sənədləri və işləri ona tapşırdım. Bir müddət səfərlərdə bir yerdə olurduq. Onda böyük istedad müşahidə etdiyimə görə bəzi hökmlərin və müxtəlif hadisələrin yazılmasını ona tapşırdım. Mənimlə olan dostluğu sayəsində inşa işlərində, şahların hökmləri haqqında kitab yazmaq sahəsində get-gedə püxtələşdi və bu işə alışdı. Bir-iki ildən sonra Divanın vəzarətindən azad olaraq, Darül-inşaya getdi. Onun kimi siyaq elmində mahir şəxs, xoşnevis (xəttat) və münşi az tapılır. Sənədlərin tərtibi və tarixi kitabların yazılması indi ona tapşırılıb. (İsgəndər bəy Münşi) sürətlə və zərif kitablar yazmaqda dünyada yeganədir»[14].

«Tarix-i aləmara-yi Abbasi» İsgəndər bəyin qələmindən çıxmış yeganə əsər deyildir. I Abbasın ölümündən və onun nəvəsi Şah Səfinin (1629-1642) hakimiyyətə yüksəlməsindən sonra İsgəndər bəyə yeni şahın tarixini yazmaq həvalə olunur və o, Şah Səfinin tarixi haqqında kitab yazmağa başlayır. Lakin 1634-cü ildə vəfat etməsi İsgəndər bəyə bu əsəri tamamlamağa imkan vermir. Bu əsər 1938-ci ildə «Zeyl-i tarix-i aləmara-yi Abbasi» («Abbasın dünyanı bəzəyən tarixinin ardı») adı ilə İran alimi S.Xansari tərəfindən nəşr edilmişdir[15].

Bundan başqa, İsgəndər bəy Münşi tərəfindən tərtib olunmuş «Kitab-i tərəssül min münşəat-i Xoca İsgəndər bəy Münşi» adlı rəsmi sənədlər toplusu da mövcuddur və bu kitabın əlyazma nüsxəsi Niderlandın Leyden şəhərində mühafizə olunur[16].

***«Tarix-i aləmara-yi Abbasi» əsərinin quruluşu.*** İsgəndər bəy Münşi öz əsərinin ilkin variantını 1025-ci (1616) ildə hazır etmişdir. Lakin daha sonra o, əsərin yazılmasını I Şah Abbasın ölümünə, yəni 1038-ci (1629) ilə qədər davam etdirmişdir. Elə bu səbəbdəndir ki, «Tarix-i aləmara-yi Abbasi» bizə iki redaksiyada gəlib çatmışdır. Mənbənin 1616-cı ildə tərtib olunmuş birinci redaksiyası müqəddimədən və «səhifə» adlanan iki cilddən ibarətdir. Müqəddimə 12 məqaləyə bölünür. Birinci məqalə Şah Abbasın nəsil şəcərəsini və onun anadan olmasına qədərki Səfəvi tarixini əhatə edir. Qalan on bir məqalə Şah Abbasın şəxsi xüsusiyyətlərinin ayrı-ayrı məqamları haqqında yığcam məlumat verilməsinə və onun təriflənməsinə həsr olunmuşlar. Birinci cild Şah Abbasın anadan olmasından

---

[13] Кази-Ахмед. Трактат о каллиграфах и художниках (перевод Б.Н.Заходера). Москва, 1947, с. 102.

[14] Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s. 11-12.

[15] S.Xansari İsgəndər bəy Münşinin bu natamam əsərinə XVII əsrin digər bir Səfəvi tarixçisi Məhəmməd Yusifin «Xüld-i bərin» əsərindən Şah Səfinin hakimiyyətinin sonrakı illərinə dair materialları əlavə edərək, onu tamamlamışdır. Bax: Ч.А.Стори, указ. соч., ч. II, с.882-883; А. А. Рахмани. О жизни и творчестве Искендера Мунши, с.35-36.

[16] Ч.А.Стори, указ. соч., ч. II, с.873; А.А.Рахмани. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана, с. 17.

hakimiyyətə gəlməsinə qədərki hadisələri (yəni 1571-1587-ci illərin tarixini) əhatə edir. İkinci cilddə Şah Abbasın hakimiyyətinin ilk otuz ili (1587-1616-cı illər) əksini tapmışdır[17]. Müəllifin özünün işarə etdiyi kimi, o, əsərin bu ilk redaksiyasının I Şah Abbasa təqdim olunmasında baş vəzir Mirzə Əbu-Talib xan Ordubadinin vasitəçiliyindən istifadə etmişdir[18].

İsgəndər bəy Münşi əsərin son variantını 1629-cu ildə tamamlamışdır. Mənbənin Tehran nəşrində əsas götürülmüş bu son varianta əsasən, əsər «səhifə» adlanan üç cilddən ibarətdir. Birinci cild on iki məqalədən ibarətdir. Həcmcə iri olan birinci məqalə Səfəvi nəslinin şəcərəsini, Səfəviyyə şeyxlərinin həyatını, ilk dörd Səfəvi şahının - I Şah İsmayılın (1501-1524), I Şah Təhmasibin (1524-1576), II Şah İsmayılın (1576-1577) və Şah Məhəmməd Xudabəndənin (1578-1587) hakimiyyətləri dövrünün tarixini əhatə edir və I Şah Abbasın hakimiyyətə yüksəlməsi ilə sona çatır. Birinci cildin qalan məqalələri I Şah Abbasın şəxsiyyətinə və xasiyyətlərinə həsr olunmuşlar və həcmcə kiçikdirlər. Mənbənin ikinci cildi I Şah Abasın hakimiyyətinin 1587-1616-cı illərini əhatə edir. 1616-1629-cu illərin hadisələrini əhatə edən hissə isə əsərin üçüncü cildini təşkil edir[19].

***«Tarix-i aləmara-yi Abbasi» əsərinin mənbələri.*** İsgəndər bəy Münşi öz əsərini yazarkən əsas etibarilə dörd növ məlumat mənbəyindən yararlanmışdır: 1) oxuduğu kitablar; 2) şəxsi müşahidələri; 3) rəsmi dövlət sənədləri; 4) müxtəlif şəxslərdən eşitdiyi əhvalatlar.

Əsərinin birinci cildində o, bir sıra yazılı mənbələrdən istifadə etmişdir. O, öz mənbələri sırasında XIV əsr müəlliflərindən İbn Bəzzazın «Səfvətüs-səfa», Həmdulla Qəzvininin «Nüzhətül-qülub». XV əsr müəlliflərindən Əbdürrəhman

---

[17] Ч.А.Стори, указ. соч., ч. II, с. 874-875.

[18] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, S-129, v. 3a-b; А.А.Рахмани. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана, с. 21.

[19] Ə.Rəhmani («Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана, с. 19-24.) «Tarix-i aləmarayi Abbasi»nin son redaksiyasından bəhs edərkən birinci cildin bütün 12 məqaləsini «müqəddimə» hesab edir, əsərin 1587-1616-cı illərin hadisələrini əhatə edən hissəsini birinci cildə, 1616-1629-cu illərin hadisələrini isə ikinci cildə aid edir. Lakin onun bu bölgüsü mənbənin orijinal quruluşuna uyğun gəlmir. Çünki İsgəndər bəy Münşi 1587-ci ildən əvvəlki hadisələrin və Şah Abbasın xüsusiyyətlərinə və şəxsiyyətinə həsr olunmuş məqalələrin əsərin birinci cildini təşkil etdiyini aşkar surətdə qeyd etmişdir (Tarix-i aləmara-yi Abbasi, I c, s. 5,373). Bəzi müəlliflər isə «Tarix-i aləmara-yi Abbasi»nin son variantının ikinci və üçüncü cildlərini «ikinci cild» adı altında birləşdirirlər və əsərin ikinci cildini «ikinci cildin birinci hissəsi», üçüncü cildini isə «ikinci cildin ikinci hissəsi» hesab edirlər (bax: Ч. А. Стори, указ. Соч., ч. 2. с.875). İsgəndər bəy Münşi öz əsərinin müqəddiməsində 1025-ci (1616) ildən sonra baş verən hadisələri üçüncü cild kimi qələmə alacağını göstərir (Tarix-i aləmara-yi Abbasi, I c, s. 6), lakin əsərinin bəzi başqa yerlərində 1025-ci (1616) ildən sonrakı əhvalatları «ikinci cildin ikinci hissəsinə» aid edir (Tarix-i aləmara-yi Abbasi, I c, s.373; II c, s. 1114). Mənbənin Tehran çapının naşiri İrəc Əfşar kitabın əvvəlinə yazdığı «Yaddaş» adlanan hissədə mənbənin üç cilddən ibarət olduğunu göstərir. Biz müəllifin özünün müqəddimədəki qeydlərinə və mənbənin Tehran nəşrinin prinsiplərinə əsaslanaraq deyə bilərik ki, «Tarix-i aləmara-yi Abbasi»nin yekun variantı faktiki olaraq üç cilddən ibarətdir.

Caminin «Nəfəhatül-üns», Əbu-Bəkr Tehraninin «Kitab-i Diyarbəkriyyə», Seyid Zəhirəddin Mərəşinin «Tarix-i Təbəristan u Ruyan u Mazandaran», Mirxondun «Rövzətüs-səfa», XVI əsr müəlliflərindən İbrahim Əmininin «Fütuhat-i şahi», Qiyasəddin Xandəmirin «Xülasətül-əxbar» və «Həbibüs-siyər», Mir Yəhya Qəzvininin «Lübbüt-təvarix», Qazı Əhməd Qəffarinin «Tarix-i cahanara», Həsən bəy Rumlunun «Əhsənüt-təvarix», Əllami Əbülfəzlin «Əkbərnamə» kimi əsərlərinin adlarını çəkir[20]. O, istifadə etdiyi salnamələrdən məlumatları götürməklə kifayətlənməmiş, bir sıra hallarda onları təhlil və müqayisə etmiş, tənqidi münasibət bildirmişdir. Lakin təbiidir ki, İsgəndər bəy Münşi kimi öz dövrünün ziyalı və qabaqcıl bir şəxsiyyətinin mütaliə etdiyi və bəhrələndiyi əsərlərin adlarını bu siyahı ilə məhdudlaşdırmaq olmaz. Bunlarla yanaşı, o, bir sıra digər tarixi, ədəbi, dini-fəlsəfi və s. mövzularda yazılmış kitablarla, zəmanəsinin müxtəlif yönlü elmi ədəbiyyatı ilə tanış olmuş və bu tanışlıq onun yaradıcılığına bu və ya digər dərəcədə təsirini göstərmişdi.

I Şah Təhmasibin vəfatı ərəfəsindəki və ondan sonrakı hadisələri şərh edərkən artıq İsgəndər bəy Münşi hadisələrin müasiri, bir çox hallarda isə şahidi və ya iştirakçısı kimi çıxış edir. Dövlət dəftərxanasında işlədiyi üçün rəsmi sənədlərlə tanışlıq imkanı olan müəllif öz əsərini bir çox dövlət sənədlərinin və diplomatik yazışmaların mətnləri və faktları ilə zənginləşdirmişdir. Bundan əlavə. o, öz əsərinə müxtəlif tarixi şəxsiyyətlərdən və dövlət adamlarından eşitdiyi əhvalatları və təfərrüatları daxil etmişdir.

***Əsərin əlyazma nüsxələri.*** «Tarix-i aləmara-yi Abbasi» ən çox üzü köçürülən və yayılan tarixi mənbələrdən biridir. Kataloqlarda bu mənbənin tam və naqis nüsxələr daxil olmaqla XVII-XIX əsrlərdə köçürülmüş 200-dən çox əlyazması haqqında məlumat verilir. Bu əlyazma nüsxələri dünyanın bir çox kitab fondlarında - Aliqarlı, Bağdad, Berlin, Bombey, Buxara, Daşkənd, Düşənbə, Edinburq, Heydərabad, İrəvan, İstanbul, Kabil, Kembric, Kəlküttə, Qahirə, Lahor, Leyptsiq, Lids, London, Luknou, Mançester, Mədrəs, Məşhəd, Moskva, Münhen, Paris, Pətnə, Rey, Roma, Sankt-Peterburq, Tehran, Tiflis, Vyana, Yəzd və s. şəhərlərin müxtəlif kitabxanalarında saxlanmaqdadır[21].

Bakıda, Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunda «Tarix-i aləmara-yi Abbasi» əsərinin dörd əlyazma nüsxəsi mühafizə olunur. S-129/15093 və S-297/5313 şifrəli nüsxələr əsərin birinci cildini əhatə edirlər və XVIII əsrdə köçürülmüşlər. XVIII əsrə aid olan D-386/3825 və XVIII əsrdə köçürülmüş S-633/23576 saylı nüsxələr isə ikinci cildi əks etdirirlər[22].

---

[20] Tərcümə mətninə verdiyimiz şərhlərdə bu müəlliflər və onların əsərləri haqqında məlumatlar yer almışdır.

[21] Ч. А. Стори, указ. Соч., ч. II. с.875-880, ч. III, с. 1470.

[22] Каталог персидских рукописей (Академия Наук Азербайджана, Институт Рукописей им. М.Физули), т. II, составители тома: Н.Дж. Геюшов, Г.Г.Наджафов; редактор тома: М.З.Нагиев. Баку, 2000, с. 36-39.

S-129 nüsxəsi əsərin birinci cildinin son redaksiyasıdır. Nüsxənin əsas mətni Avropa istehsalı olan incə, parlaq və sarımtıl kağızlara yazılmışdır. Sərlövhələr qırmızı rəngdədir. Əlyazmanın xətti nəstəliqdir, ölçüsü 25,5 x 17 sm-dir və 319 vərəqdən ibarətdir. Cildi qalın kartondandır, üzərinə qara dəri üzlük çəkilmişdir və üzlüyün ortasına qızıl suyu ilə işlənmiş medalyon naxışı basılmışdır. Nüsxənin başlanğıcından bir vərəq, 258b vərəqindən sonra (Osman paşanın Təbrizə yürüşünü əks etdirən hissədən) isə yeddi-səkkiz vərəq düşmüşdür. Nüsxə XVIII əsrə aid olsa da, 1258-ci ilin rəcəb ayında (08.08.-06.09.1842) naməlum katib tərəfindən onun üzərində restavrasiya işi aparılmış, xarab olmuş 1-17-ci, 31-32-ci və 275-319-cu vərəqlər yenidən köçürülərək, kitaba əlavə edilmişdir. Əlavə olunmuş vərəqlər qalın və ağ kağızdan hazırlanmışdır.

Biz mənbənin tərcüməsini hazırlayarkən Bakı əlyazmalarını, xüsusən də daha təkmil bir kitab olan və əsərin son redaksiyasını əks etdirən S-129 nüsxəsini Tehran nəşri ilə tam müqayisə etdik və bu nüsxələrin köməyi ilə daha mükəmməl bir tərcümə mətni hazırlamağa çalışdıq. Bu araşdırmalar nəticəsində Tehran nəşrində mövcud olan bir sıra boşluqları aradan qaldırmağa, nöqsanları, təhrifləri və yanlışlıqları düzəltməyə və dəqiqləşdirməyə nail olduq. Müəyyən edildi ki, Tehran nəşrində bir sıra cümlələr, hadisələr, adlar, tarixlər və hətta bəzi fəsillər buraxılmışdır. Biz həmin parçaları Bakı nüsxələri əsasında tərcümə edərək, mətnə əlavə etdik. Qeyd etmək yerinə düşər ki, Azərbaycan tarixi ilə bağlı bir sıra mühüm faktlar, vətənimizin ərazisində baş vermiş bəzi hadisələr, bir neçə azərbaycanlı mədəniyyət xadimi haqqında məlumatlar və s. mənbənin Tehran nəşrinə daxil edilməmiş və Bakı əlyazmaları əsasında tərcümə olunmuşlar.

S-297 nüsxəsi mənbənin birinci cildinin ilk redaksiyasıdır. Əlyazma Avropada istehsal edilmiş parlaq olmayan qalın kağızlara köçürülmüşdür. Sərlövhələr qırmızı rəngdədir. Kitab nəsx elementlərinə malik nəstəliq xətti ilə qələmə alınmışdır. Ölçüsü 28,5 x 19,5 sm-dir, həcmi 252 vərəqdir. Nüsxə tünd qəhvəyi rəngli nazik və çatlaq dəri cildə tutulmuşdur. Əlyazmanın əvvəlindən və axırından bir neçə vərəq düşmüşdür. Bu nüsxə mənbənin birinci, yəni natamam variantından köçürüldüyü üçün struktur baxımından Tehran çapından və S-129 nüsxəsindən müəyyən qədər fərqlənir. Məsələn, bu nüsxədə I Şah Təhmasibin hakimiyyətinin sonunda dövlət və mədəniyyət xadimlərinin haqqında verilmiş məlumatlar daha yığcamdır və orada bəzi şəxslər ixtisara salınmışdır. Lakin buna baxmayaraq, Tehran çapında olmayan və S-129 nüsxəsi əsasında tərcümə mətninə daxil etdiyimiz əlavələrin əksəriyyəti S-297 nüsxəsində mövcuddur və hətta bəzi hallarda S-129 nüsxəsinin yanlışlıqlarını aradan qaldırmaq, mətnə düzəliş vermək və əlavələr etmək baxımından S-297 əlyazmasının böyük faydası olmuşdur.

Bunlardan əlavə, AMEA Əlyazmalar İnstitutunda mühafizə edilən, XVIII-XIX əsrlərə aid olan, şikəstə-nəstəliq xətti ilə yazılmış B-589/10505 şifrəli bir tarixi məcmuənin ilk 25 vərəqində «Tarix-i aləmara-yi Abbasi»nin birinci cildindən Azərbaycan və Gürcüstan haqqında olan bəzi fəsillər əksini tapmışdır.

Məcmuənin cildi kartondandır, ölçüsü 17 x 22 sm-dir və ümumi həcmi 65 vərəqdən ibarətdir[23]. Sözügedən məcmuəyə «Tarix-i aləmara-yi Abbasi»dən daxil edilmiş fəsillərdəki bəzi ayələr və şeir parçaları ixtisar olunmuş, Səfəvi şahları təmtəraqlı titullar və ləqəblərlə deyil, öz adları ilə ifadə olunmuşlar. Məsələn, İsgəndər bəy Münşi öz əsərində I Şah İsmayılı «Xaqan-i Süleyman-şən» («Süleyman şanlı xaqan»), I Şah Təhmasibi isə «həzrət-i şah-i cənnətməkan» («cənnətməkan şah həzrətləri») kimi qeyd etsə də, haqqında bəhs etdiyimiz məcmuədə onların adları, sadəcə olaraq, «Şah İsmayıl» və «Şah Təhmasib» deyə yazılmışdır.

***Əsərin nəşrləri.*** «Tarix-i aləmara-yi Abbasi» əsərinin farsca mətnindən götürülmüş ayrı-ayrı hissələr hələ XIX əsrdə rus şərqşünasları B.Dorn və V.V.Velyaminov-Zernov tərəfindən dərc olunmuşlar[24]. Mənbənin Mirzə Şərif tərəfindən tərtib olunmuş üçcildlik ilk tam nəşri 1896-cı ildə Tehranda daşbasma üsulu ilə çap olundu. Əsərin sonrakı nəşrləri hazırlanarkən bu daşbasma (litoqrafik) çapı əsas götürülmüşdür. 1955-1956-cı illərdə İran alimi İrəc Əfşarın redaktəsi ilə «Tarix-i aləmara-yi Abbasi» ikinci dəfə iki kitaba sığışdırılmış üç cild halında işıq üzü gördü. İ.Əfşar daş çapı mətnindəki bəzi boşluqları və çatışmazlıqları aradan qaldırdı. Məsələn, ilk Tehran çapında əsərin birinci cildinin II-XII məqalələri nəşr olunmamışdı. Lakin ikinci nəşr zamanı bu qüsur ortadan qaldırıldı və Tehranda saxlanan iki əlyazma nüsxəsindən götürülmüş həmin məqalələr nəşrin ikinci cildinin sonuna əlavələr kimi daxil edildilər[25]. İ.Əfşar tərəfindən hazırlanmış bu nəşr sonradan daha iki dəfə (1350 /1971 və 1382 / 2003-cü illərdə) çap olundu. Bu nəşrin qüsurlu cəhətlərindən biri onun zəruri şərhlərlə təchiz olunmamasından ibarətdir.

1985-ci ildə iranlı tədqiqatçı Şahrudi «Tarix-i aləmara-yi Abbasi»nin daşbasma mətnini bir kitab şəklində ofset üsulu ilə təkrar nəşr etdirmişdir. 1998-ci ildə Tehranda M.İ.Rizvani tərəfindən hazırlanmış üç cilddən ibarət nəşrdə də mənbənin litoqrafik mətni əsas götürülmüşdür. Onun nəşrinin fərqli cəhəti bundan ibarətdir ki, o, İranın şəxsi kolleksiyalarında mühafizə olunan dörd əlyazma nüsxəsinin köməyi ilə daşbasma çapının mətninə bir sıra düzəlişlər etmiş və dəqiqləşdirmələr aparmışdır. Lakin tərtibçi nüsxələr arasında mövcud olan yalnız ən mühüm fərqləri göstərməklə kifayətlənmişdir və buna görə də onun hazırladığı nəşri tam mənada elmi-tənqidi nəşr hesab etmək doğru deyildir[26].

---

[23] Bax: F.Seyidov. Tarixə dair əlyazmaları // Azərbaycan SSR EA Respublika Əlyazmaları Fondunun Əsərləri, II cild, Bakı, 1963, s. 13.

[24] B.Dorn. Muhammedanische Quellen zur Geschichte der südlichen Küstenlander des Kaspischen Mecres, Theil IV, St. Petersburg, 1858, s.238-421,510-514; В.В.Веляминов-Зернов. Исследование о Касимовских царях и царевицах, ч. II, С.-Петербург, 1864, с. 341-362.

[25] Yenə orada, s. 1097-1116.

[26] Mənbənin Şahrudi və Rizvani tərəfindən hazırlanmış nəşrləri haqqında məlumatı İran alimi N.Salehinin 1980-2000-ci illər arasında İranda nəşr olunmuş Səfəvi mənbələrinə həsr etdiyi məqaləsindən götürmüşük.

Göründüyü kimi, «Tarix-i aləmara-yi Abbasi» əsəri dəfələrlə çap olunsa da, onun mükəmməl elmi-tənqidi mətni hələ də hazırlanmamışdır. Beynəlxalq miqyasda İ.Əfşarın nəşri mötəbər və məşhur hesab olunduğu və geniş səpkidə istifadə edildiyi üçün biz mənbənin fars dilindən Azərbaycan dilinə tərcüməsini məhz İ.Əfşarın nəşri əsasında həyata keçirmişik və həmin nəşrin çatışmazlıqlarını, boşluqlarını doldurmaq, dəqiqləşdirmə aparmaq məqsədi ilə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan nüsxələrdən istifadə etmişik. Bu nüsxələrdən götürülmüş parçalar tərcümənin mətnində kursiv şəklində verilmişdir.

***Əsərin başqa dillərə tərcümələri.*** «Tarix-i aləmara-yi Abbasi» əsəri hələ Osmanlı baş vəziri Damad İbrahim paşanın (1718-1730-cu illərdə baş vəzir olmuşdur) göstərişi ilə Müdərris Məhəmməd Nabih Əfəndi tərəfindən Osmanlı türkcəsinə tərcümə edilmişdir. Bu tərcümənin sonu naqis olan əlyazması hal-hazırda İstanbulun Topqapı sarayı muzeyinin kitabxanasında mühafizə olunmaqdadır[27]. Mənbənin farsca mətnindən Türkmənistan tarixinə dair iqtibaslar A.A.Romaskeviçin redaktəsi altında rus dilinə tərcümə edilmişdir[28]. Lakin bu tərcümə olduqca sərbəst və müxtəsər şəkildə həyata keçirilmiş, şeir parçaları, təmtəraqlı ibarələr buraxılmış, hətta bəzi hallarda mənbənin məlumatları təhrif olunmuş və tərcümə zamanı müəyyən səhvlərə yol verilmişdir. Rus şərqşünası O.F.Akimuşkin İsgəndər Münşinin I Şah Təhmasib dövrünün xəttatlarına həsr etdiyi kiçikhəcmli fəsli Saltıkov-Şedrin adına kitabxanada saxlanan əlyazma əsasında rus dilinə tərcümə etmişdir[29]. Azərbaycan tarixçisi O.Ə.Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti XVI əsrdə» adlı monoqrafiyasında İsgəndər bəy Münşinin I Şah Təhmasib dövrünün sonundakı qızılbaş əmirlərinə həsr etdiyi parçanın rus dilində tərcüməsini vermişdir[30]. «Tarix-i aləmara-yi Abbasi» R.M.Seyvəri tərəfindən ingilis dilinə tam tərcümə olunaraq, iki cilddə nəşr edilmişdir[31]. Əsərin Azərbaycan dilinə tərcüməsi üzrə hələ ötən əsrin 50-ci illərindən etibarən bəzi təşəbbüslər göstərilmiş, lakin bu işlər ardıcıl və intensiv xarakter daşımamış, yarımçıq qalmışdır.

Oxuculara təqdim olunan bu kitab «Tarix-i aləmara-yi Abbasi»nin birinci cildinin fars dilindən Azərbaycan dilinə ilk tam tərcüməsidir. Tərcümə işi AMEA-nın baş planına daxil olmuş və bu sətirlərin müəllifləri tərəfindən A.Bakıxanov

---

[27] Topqapı Sarayı Müzesi Kütüphanesi Türkçe Yazmalar Katalogu. Hazırlayan: F.E.Karatay. İstanbul, 1961, cilt I, s. 329.

[28] Извлечения из «Тарих-и алам арай-и Аббаси» Искандера Мунши (под редакцией Л.А.Ромаскевича) // Материалы по истории туркмен и Туркмении, том II, Москва-Ленинград, 1938, с.65-102 (bu tərcümənin 65-75-ci səhifələri “Tarix-i aləmara-yi Abbasi”nin I cildinə aiddir).

[29] О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах времени Шах Тахмаспа I // Краткие Сообщения Института Народов Азии АН СССР, т. 39, Москва, 1963, с.20-32 (məqalədə həmin fəslin tərcüməsi və şərhləri 25-32-ci səhifələri əhatə edir).

[30] О.А.Эфендиев. Азербайджанское государство Сефевидов, с.216-218.

[31] Iskandar Beg Monshi. History of Shah Abbas the Great (translated by R.M.Savory), 2 vols, Boulder, Colorado: Westvicw Press, 1978.

adına Tarix İnstitutunun «Azərbaycanın orta əsrlər tarixi» şöbəsində yerinə yetirilmişdir. Mənbə üzərində apardığımız iş prosesində, bir tərəfdən əsərin tərcüməsinin müasir oxucu üçün daha doğma və anlaşılan tərzdə olmasına cəhd göstərilmiş, digər tərəfdən də tərcümə zamanı mənbənin özünəməxsus xüsusiyyətlərini və dəbdəbəli üslubunu qoruyub saxlamağa diqqət yetirilmişdir. Bəzi hallarda mətndəki şeir parçalarının bədii tərcüməsinə təşəbbüs göstərilmiş, bədii tərcümənin şeirin orijinal mənasına xələl gətirə biləcəyi yerlərdə isə sətri tərcüməyə üstünlük verilmişdir. Dövrün terminologiyasını qoruyub saxlamaq üçün dövlət quruluşu ilə bağlı olan istilahlar (vəzifə adları, hərbi terminlər, vergi növləri və s.) orijinalda olduğu kimi verilmiş və onların hər birinə dair şərh və izahlar təqdim olunmuşdur. Mənbənin mətnində olmayan, lakin cümlənin mənasının anlaşılması üçün gərəkli olan sözlər düzbucaqlı mötərizə [...] daxilində qeyd olunmuşdur. Mənbədə əksini tapmış, lakin tərcümə zamanı əlavə izaha ehtiyacı olan fikir və ifadələrdən sonra adi mötərizə (...) daxilində aydınlaşdırıcı məlumatlara yer verilmişdir. Hicri tarixlərinin miladi təqvimi ilə qarşılığı və tərcümə olunmuş bəzi özünəməxsus ifadələrin orijinal mətndəki yazılışının transfoneliterasiyası da adi mötərizə daxilində əks olunmuşdur. Kursivlə yazılmış parçalar Tehran çapında olmayan və tərcümə mətninə mənbənin Bakı əlyazmaları əsasında əlavə edilən hissələrdir. Yeri gəldikcə müxtəlif dillərdə olan ilkin mənbələr, müasir tədqiqat əsərləri, ensiklopediyalar və soraq-məlumat kitabları əsasında əsərin mətnində rast gəlinən bir sıra istilahlara, hadisələrə, coğrafi və şəxs adlarına dair lazımi şərhlər verilmişdir.

Tərcümə mətnində sözlərin yazılışı zamanı «Azərbaycan dilinin orfoqrafiya lüğəti»nin AMEA Nəsimi adına Dilçilik institutu tərəfindən hazırlanmış son nəşrindəki düzəliş və yeniliklər nəzərə alınmışdır. İlk dəfə bu cür iri həcmli və olduqca təmtəraqlı üsluba malik bir tarixi mənbə fars dilindən Azərbaycan dilinə tərcümə edildiyi üçün burada müəyyən qəliz cümlələrin və ifadələrin, həmçinin redaktə və korrektura baxımından bəzi xətaların olması mümkündür. Hörmətli oxucularımızdan bu cəhəti nəzərə almalarını xahiş edirik və söyləyəcəkləri irad və təkliflərə görə onlara əvvəlcədən öz təşəkkürümüzü bildiririk.

***Mənbənin öyrənilməsi tarixi.*** Səfəvi saray tarixşünaslığına yeni bir nəfəs gətirən İsgəndər bəy Münşinin yaradıcılığı ondan sonra gələn bir sıra salnaməçilərə təsir göstərmiş və onun «Tarix-i aləmara-yi Abbasi» əsərinin materiallarından hələ Səfəvilər zamanında tarixi əsərlərin yazılmasında istifadə edilmişdir. Hətta klassik tarixşünaslıq ənənələrini davam etdirən XIX əsr İran tarixçisi Rzaqulu xan Hidayət özünün «Rövzətüs-səfayi Nasiri» əsərini yazarkən «Tarix-i aləmara-yi Abbasi»dən xeyli dərəcədə bəhrələnmişdir.

Azərbaycan tarix elmində XIX əsrin birinci yarısından etibarən «Tarix-i aləmara-yi Abbasi» əsəri öyrənilməkdə və istifadə olunmaqdadır. A.Bakıxanov «Gülüstan-i İrəm» əsərində Səfəvilərlə bağlı məqamlara toxunarkən istifadə etdiyi

ən mühüm qaynaqlardan biri məhz İsgəndər bəy Münşinin bu əsəri olmuşdur[32]. M.F.Axundov istər elmi, istərsə də bədii əsərlərində İsgəndər bəy Münşinin yaradıcılığından faydalanmışdır. O, özünün «Aldanmış kəvakib» povestini «Tarix-i aləmara-yi Abbasi»nin motivləri əsasında yazmışdır. Bundan başqa, M.F.Axundov I Şah Abbas zamanında Bağdad uğrunda gedən Səfəvi - Osmanlı mücadiləsinə həsr etdiyi məqaləsindəki faktları İsgəndər bəy Münşinin adı çəkilən əsərindən götürmüşdür[33].

Azərbaycan tarixçisi Ə.Ə.Rəhmani İsgəndər bəy Münşinin bu əsərini ölkəmizin tarixinə dair mənbə kimi tədqiq etmiş və bu mövzuda dəyərli bir monoqrafiya nəşr etdirmişdir. Vətən tarixşünaslığının bir sıra nümayəndələri (O.Ə.Əfəndiyev, M.X.Heydərov, S.M.Onullahi, T.M.Musəvi, S.B.Aşurbəyli, M.X.Nemətova, Ə.M.Rəcəbli, Y.M.Mahmudov, Ş.F.Fərzəliyev, Ş.K.Məmmədova, Z.H.Bayramov, R.M.Məmmədova, R.Ə.Ağayev və b.), həmçinin bəzi filoloqlarımız (S.Mümtaz, H.Zərinəzadə, M.Abbaslı, Ə.Məmmədov, M.Qasımlı və b.) dönə-dönə «Tarix-i aləmara-yi Abbasi» əsərinə müraciət etmişlər.

Avropa tarix elmində sözügedən mənbənin ilk tədqiqatçıları XIX əsrdə Frank von Erdman, Silvester de Sasi, B.Dorn və V.V.Velyaminov-Zernov olmuşlar[34]. Sonradan Rus-sovet alimlərindən İ.P.Petruşevski, B.N.Zaxoder, A.A.Romaskeviç, O.F.Akimuşkin, N.D.Mikluxo-Maklay, Qərb şərqşünaslığının nümayəndələrindən E.G.Broun, Ç.A.Stori, L.L.Bellan, V.Hinz, V.F.Minorski, A.Lambton, R.M.Seyvori, H.R.Römer, K.M.Rohrborn, Ş.A.Quinn, Türkiyə tarixşünaslığında B.Kütükoğlu, F.Sümer, F.Kırzıoğlu, İran tarixçilərindən N.Fəlsəfi, Ə.Kəsrəvi, Ə.Nəvai, Ə.Vilayəti və bir çox digərləri «Tarix-i aləmara-yi Abbasi»dən geniş səpkidə istifadə etmişlər. Qətiyyətlə demək olar ki, bu əsər Səfəvi dövrünün tarixini öyrənən tədqiqatçıların ən çox istinad etdikləri mötəbər bir məxəzdir.

***Əsərin xüsusiyyətləri.*** Şübhəsiz ki, İsgəndər bəy Münşinin ana dili Azərbaycan türk dili idi. Lakin o, əsərini farsca yazmışdır. Çünki o zamanlar bir sıra Yaxın və Orta Şərq ölkələrində tarixi əsərlər ənənəvi olaraq fars dilində qələmə alınırdı. Buna baxmayaraq, «Tarix-i aləmara-yi Abbasi»də çox sayda türkcə sözlərə və istilahlara, hətta bəzi beytlərə və cümlələrə rast gəlirik. «Tarix-i aləmara-yi Abbasi» əsərinin üslubunda Teymurulərin saray tarixşünaslığının ənənələrinin təsiri duyulur. Bunu əsərin birinci cildinin sonunda müəllif özü də

---

32 А.Бакиханов. Гюлистани-Ирам (редакция, комментарии, примечания и указатели З.М.Буниятова). Баку, 1991, с.92.

33 M.F.Axundov. 1618-ci ildə Bağdad yaxınlığında Türkiyə ordusunun vəziyyəti. Əsərləri, II cild. Bakı, 1961, s.262-272.

34 De manuscripto persico İskenderi Manesii eruditis hus usque incognito disscruit F. Von Erdmann. Kazan, 1822; F. Von Erdmann. İskender Munschi und sein Werk // Zeitschrift der Deutcshen Morgenlandischcn Gesellschaft, Leipzig, 1861, band. 15, s.457-501; Silvestere de Sacy. Note sur l'histoire de Schah Abbas ectite en persane el intitulee «Tarikh-i alam arai» // Journal Asiatique, 1824, t.5, p.86. B.Dornun və V.V.Velyaminov-Zernovun əsərlərinin adları yuxarıda çəkilmişdir.

etiraf edir. Belə ki, o, «Tarix-i aləmara-yi Abbasi»ni məşhur Teymuri salnamələrindən olan «Mətləüs-səədeyn» və «Zəfərnamə» ilə müqayisə edərək, iftixar hissi ilə öz əsərini «zəmanənin «Mətləüs-səədeyn»i və dövranın «Zəfərnamə»si» adlandırır[35].

Mənbənin mətnində bir sıra «Quran» ayələrinə, hədislərə, şeir parçalarına, dəbdəbəli cümlələrə, təmtəraqlı ibarələrə rast gəlmək olur. Əsərin I Şah İsmayılın və I Şah Təhmasibin hakimiyyətləri dövrünə aid hissələrində başqa mənbələrdən götürülmüş kompilyativ məlumatlar çox olsa da, mənbədə həmin dövrə aid xeyli orijinal faktlara da təsadüf olunur. O, istifadə etdiyi mənbələrin məlumatlarına tənqidi yanaşır, onları müqayisə edir, şəxsən inandığı nəticələrə gəlir, bu mümkün olmadıqda isə müxtəlif versiyalar irəli sürür. Əsərdə II Şah İsmayılın və Şah Məhəmməd Xudabəndənin hakimiyyətləri çox geniş əks olunmuşdur və sinxron mənbələrin heç birində rast gəlmədiyimiz qiymətli bilgilərlə zəngindir. Çünki müəllif həmin hadisələrin şahidi olmuşdur. İsgəndər bəyin I Şah Abbasın hakimiyyəti dövrü ilə bağlı təfsilatlı şərhi onun şəxsi müşahidələri əsasında yazılmışdır və onun həmin dövrlə bağlı verdiyi məlumatlar əvəzsizdir, onların analoqu yoxdur.

İsgəndər bəy Münşi tarixi əsərini xidmət etdiyi şahın və sülalənin mənafeyi baxımından qələmə alsa da, o, Səfəvi dövrünün digər tarixçilərində görünməyən bir xüsusiyyəti ilə müsbət mənada fərqlənmişdir. İsgəndər bəy bəhs etdiyi hadisələri dəyərləndirməyə, sistemləşdirməyə və öz mülahizələrini irəli sürməyə çalışmışdır. O, öz əsərini bir çox məşhur orta əsr salnaməçilərinin etdikləri kimi illər üzrə deyil, mövzular, problemlər üzrə tərtib etməyə üstünlük vermişdir. Müəllif bəzən hadisələrin zahiri tərəfinə məhəl qoymayaraq, onların mahiyyətini açıqlamağa daha çox diqqət ayırır. Məhz bu baxımdan o, öz müasiri olan tarixçilərdən səviyyəcə yuxarıda dayanır.

Bir sıra əcnəbi tədqiqatçılar İsgəndər bəy Münşini və onun «Tarix-i aləmara-yi Abbasi» əsərini yüksək qiymətləndirmişlər. Məsələn, C.R.Uolş XVI-XVII əsrlərdəki Səfəvi tarixşünaslığını dəyərləndirərkən yazır: «Bu iki əsrdə yaradılmış tarixi əsərlər arasında İsgəndər bəyin «Aləmara» əsəri elə bir üstünlüyə malikdir ki, onunla həmin dövrün başqa tarixi əsərləri arasında müqayisə aparmaq hədsiz dərəcədə qeyri-mütənasib görünür. Bu əsər bütün İslam tarixşünaslığının ən sanballı əsərlərindən biridir və həqiqətən də, bu tarixşünaslığın ənənələri çərçivəsində yazılmış mükəmməl bir kitabdır»[36]. Bəzi araşdırmaçıların İsgəndər bəy Münşinin yaradıcılığına qarşı qeyri-obyektiv fikirlərini tənqid edən R.M.Seyvori «Tarix-i aləmara-yi Abbasi»ni «fars-dilli tarixşünaslığın ən böyük əsərlərindən biri» hesab edir, İsgəndər bəyi isə «Səfəvi tarixçilərinin öndəri»

---

[35] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi, I c, s. 373.

[36] J.R.Walsh. The Historiography of Ottoman-Safavid Relations in 16-th and 17-th Centuries // Historians of thc Middle East. Oxford University Press, 1962, p.200, n.8.

adlandırır. Onun fikrincə, dramatik narrativ ustası olan İsgəndər bəy Münşi «əsl sənət əsəri olan bir tarixi kitab yaralmışdır»[37].

***«Tarix-i aləmara-yi Abbasi» əsərinin Azərbaycan tarixi üçün mənbə kimi əhəmiyyəti.*** İsgəndər bəy Münşi, demək olar ki, Azərbaycanın hər yerini gəzib-dolaşmış, Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Əhərdə, Xoyda, Makuda, Gəncədə, Ordubadda, Şamaxıda, Bakıda və s. şəhərlərdə olmuşdur. O, öz əsərində bir Azərbaycanlı kimi vətəninin tarixinə xüsusi diqqət yetirmişdir. Azərbaycan XVI əsrdə Səfəvilər dövlətinin istinadgahı və mərkəzi idi. Məhz bu səbəbdəndir ki, İsgəndər bəy Münşi I Şah İsmayılın «Azərbaycanın səltənət və padşahlıq taxtı» uğrunda mübarizə apardığını qeyd edir, Azərbaycan məmləkətini bütün Səfəvilər dövlətinin «əsası və qoşun mənbəyi» adlandırır. Səfəvilər dövlətinin qurulmasında və inkişafında türk qızılbaş tayfalarının müstəsna fəaliyyəti danılmazdır. «Tarix-i aləmara-yi Abbasi» üzərində apardığımız hesablamalara əsasən deyə bilərik ki, mənbənin mətnində Azərbaycan Səfəvilər dövlətinin yaranmasından I Şah Abbasın hakimiyyətə gəlişinə qədərki dövrədək, yəni 1501-1587-ci illərin hadisələrindən bəhs edilərkən dövlətin idarə olunmasında fəal iştirak etmiş 300-dən artıq türk qızılbaş əmirinin adı çəkilir. Bu statistik hesablama Səfəvilər dövlətinin mərkəzi rəhbərliyində və bu dövlətə daxil olan əyalətlərin idarəçiliyində Azərbaycan tayfalarının oynadıqları mühüm rolun bariz göstəricisidir. Hətta I Şah Abbasın islahatlarından sonra da Azərbaycan Səfəvi imperiyasının ən mühüm vilayətlərindən biri olaraq qalmış, qızılbaş tayfaları isə dövlətin süqutuna qədər əhəmiyyətli qüvvə hesab olunmuşlar.

İsgəndər bəy Münşinin Azərbaycanın hərbi-siyasi tarixi, ictimai-iqtisadi vəziyyəti və mədəniyyət həyatı haqqında verdiyi bilgilər olduqca önəmlidir. Mənbənin oxuculara təqdim olunan birinci cildində Səfəvilərin Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizəsi, Azərbaycan Səfəvilər dövlətinin qurulması, XVI yüzillikdə Azərbaycan uğrunda Səfəvi - Osmanlı savaşları, Şirvan və Şəkinin Azərbaycan Səfəvilər dövlətinə birləşdirilməsi, ölkənin daxili ictimai-siyasi vəziyyəti, inzibati idarəçilik sistemi, əhalidən yığılan vergilər, torpaq mülkiyyəti formaları, şəhər həyatı, sosial-iqtisadi münasibətlər və s. haqqında maraqlı və dolğun məlumatlar mövcuddur.

Məlumdur ki, orta əsr Şərq tarixçiləri hadisələri təsvir edərkən, arabir məşhur şairlərin əsərlərindən parçalar iqtibas gətirirdilər. İsgəndər bəy Münşi də bu qaydaya riayət edərək. bir çox şairlərin yaradıcılığından nümunələr verir. O, xüsusən də dahi Azərbaycan şairi Nizami Gəncəviyə olan vurğunluğunu gizlətmir və bir sıra hallarda öz fikrini qüvvətləndirmək üçün onun hikmətli beytlərinə müraciət edir. İsgəndər bəy Münşi bir azərbaycanlı kimi öz ana dilində olan şeirlərdən də örnəklər təqdim etmişdir. Onun Şah İsmayıl Xətainin, Müseyib xan

---

[37] R.M.Savory. "Very Dull and Arduous Reading": A Reappraisal of The History of Shah Abbas the Great by Iskandar Beg Munshi // Hamdard Islamicus, Quarterly Journal of thc Hamdard National Foundation, Pakistan, III, No. 1, Karachi, 1980, p.19-37.

Təkəlünün, Şahqulu bəy Rumlunun türkdilli poeziyası haqqında verdiyi yığcam, lakin dəyərli məlumatlar böyük maraq doğurur. İsgəndər bəy Münşi görkəmli Azərbaycan alimi, şairi və rəssamı Sadıq bəy Əfşarın həyat və yaradıcılığına xüsusi diqqət yetirir. Mənbədə bir sıra azərbaycanlı elm və mədəniyyət xadimləri, həkimlər, xəttatlar və musiqişünaslar haqqında məlumat verilir.

Tam əminliklə demək olar ki, klassik tarixşünaslığımızın layiqli təmsilçisi olan İsgəndər bəy Münşinin «Tarix-i aləmara-yi Abbasi» əsəri nəinki Azərbaycanın, həm də İranın, Türkiyənin, Gürcüstanın, İraqın, Əfqanıstanın, Türkmənistanın, Özbəkistanın, Hindistanın və s. Şərq ölkələrinin və xalqlarının tarixini öyrənmək baxımından danılmaz əhəmiyyət kəsb edir.

Son olaraq, bu əsərin doğma dilimizə tam tərcümə edilməsi təklifi ilə çıxış etmiş və kitabın nəşrə hazırlanması prosesini daim diqqətdə saxlamış Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi t.e.d., prof. Y.M.Mahmudova təşəbbüskarlıq və qayğıkeşliyinə görə dərin təşəkkürümüzü bildiririk.

***Oqtay Əbdülkərim oğlu Əfəndiyev,***
***AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor***

***Namiq Seyfulla oğlu Musalı***
***tarix elmləri namizədi***

## İSGƏNDƏR BƏY MÜNŞİ

## «TARİX-İ ALƏMARA-Yİ ABBASİ»
## («ABBASIN DÜNYANI BƏZƏYƏN TARİXİ»)

### MÜQƏDDİMƏ

Rəhmli və mərhəmətli Allahın adı ilə!

Allahın üstün cah-cəlalını təsvir etmək ağıl və təsəvvür dairəsi xaricində olduğuna, bəşərin imkanı və bacarığı dərəcəsində, insan idrakının qüdrətində olmadığına və təsəvvürdən, xəyaldan kənar olan [Allahın] vahidlik bargahını[38] tərif və mədh etmək, şəhr etmək və qələmə almaq barmaq və qələmin gücündə olmadığına görə, bu qəflət artıran arzu ilə cəsarət addımını məqsəd yolunda irəli atanlar heyrət çölündə çaşıb qalmış, ilk istək və minnətdarlıq qədəmində palçığa batmışlar. Onlar nadanlıq məclisinin yuxarı başında əyləşənlərdir ki, düşüncə və ağıl dünyasından uzaq düşmüşlər. [Allahın] əbədiliyinin vücuda gəlməsini dərk etmək niyyəti ilə bilik məclisində yəqinlik şamı yandıranlar yaranma və əbədiyyət dedi-qodusunda çıxılmaz vəziyyətə düşmüş, boş xəyala dalıb qalmışlar. Necə ki bu barədə deyilmişdir:

**Beyt**

«Ağlımın dərinliyi səni sübut etmək iqtidarında deyil,
Səndən başqa sənin mahiyyətini bilən yoxdur».

Naqis və biliksiz ağlıma münasib qərara gəldim ki, xəyal addımı ilə o yana bu yana qaçmaqdan vaz keçib, sakitlik ətəyinə çəkiləm. Bəşəriyyətin dar imkanlarına, xüsusilə bilik bazarında az qüdrət sahiblərinin dar imkanlarına sığışmayan [mətləb] barədə sakit olub, ədəb möhürünü ürəyimə basam və acizlik, çarəsizlik əlimi üzrxahlıq ətəyindən asam, təşəkkür deyən dilimlə bu sözləri söyləyəm:

**Beyt**

«Sənin bütün əzəmətin olan bir yerdə,
Aləm sənin mərhəmət dənizindən bir damladır.
Bizim sənə təşəkkür və minnətdarlığımızın
Nə həddi ola bilər?!
Sənə layiq isə şükür və tərifdir».

---

[38] Bargah - farsca «saray» deməkdir. Burada məcazi mənada işlədilmişdir.

Seçilmiş və bəyənilmiş bargahın taxtını bəzəyən və doğru yolun mürşidləri[39] olan müqəddəs peyğəmbər[40] həzrətlərinin cəlalının, Mürtəzaya[41] (Həzrət Əliyə) aid ləyaqətli və iftixarlı [işlərin] və pak imamların[42] tərifi də Allahın başqa sifətləridir. Buna görə də bilik yolunda özümü azuqəsiz qoymamaq, heyrət və nadanlıq çölündə avara qalmamaq üçün bu mərhələni adlamadan geri qayıdıb, bir-başa mətləbə keçməyi daha vacib, daha münasib və ədəbsizlikdən kənar bildim.

Bu sözləri yazmaqda məqsədim odur ki, [mən] - Allahın bəndələrinin ən kiçiyi olan, «Münşi»[43] [ləqəbi ilə] məşhur olan İsgəndər, gəncliyimin ilk çağlarında mal-dövlət düşkünü olan ağılsızların məni azdırmaları nəticəsində, təbiətimə uyğun gələn və bələd olduğum adi elmləri öyrənməkdən əl çəkib, siyaq[44] elmini öyrənmək həvəsinə düşdüm. Bir müddət bu əvvəli-axırı bilinməyən işlə məşğul oldum. Naqis əqidəmə görə bu sahədə, bir sözlə, kamala çatdıqdan və dəyərli vaxtımın bir qədərini dövlət sahiblərinin işlərinə sərf etdikdən sonra uzağı düşünən ağlım məni qəflət yuxusunun sərxoşluğundan ayıltdı və öz-özümə dedim: «Özünə peşə seçdiyin bu nalayiq iş səni bilik və kamala çatmaqdan yüz mərhələ uzaqlaşdırdı. Sən ki coşqun mənalar dənizində üzürdün, nə üçün mərəkə qızışdıran avamlar kimi zahiri görünüşə aldanırsan?» Yaxşı düşünüb gördüm ki, vaxtım səmərəsiz keçib və təbiətim ümidsizliyə və peşmanlığa yaxınlaşıb. Bacarıq və istedad fənlərinə yiyələnmiş, inşa elminə hərtərəfli bələd olan bəzi hörmətli [adamların] ibrətli söhbətlərindən faydalandığım zaman, söhbət əsnasında onların nəzm və nəsrlə bəzənmiş, düşüncənin qızıl yazan qələmi ilə bəyan səhifəsində yazdıqları şirin, faydalı sözləri, rəngarəng, ürəyə yatan incəlikləri gördüyüm halda, zövqüm bu tərifəlayiq üsluba meyil edirdi:

**Misra**

«O həvəs ürəyimdə hasil oldu».

O işdən ətəyimi çəkib, bu həvəsin toxumunu ürəyimin tarlasına səpdim. Şövq əli ilə o əzizlərin ətəyindən yapışdım. Bu vasitə ilə mübarək ləqəbləri

---

[39] Mürşid - ərəbcə «doğru yol göstərən» anlamına gəlir. Dini rəhbərlər və təriqət başçıları «mürşid» adlanırdılar.

[40] İslam dininin banisi Məhəmməd peyğəmbər (m. 570-632) nəzərdə tutulur.

[41] Mürtəza (ərəbcə «bəyənilmiş» deməkdir) - Məhəmməd peyğəmbərin əmisi oğlu, kürəkəni və şiələrin birinci imamı Həzrət Əlinin (m. 598-661) ləqəbi.

[42] Pak imamlar - islamın şiə cərəyanının 12 imamı nəzərdə tutulur.

[43] Münşi - katib, sarayda yazı işləri ilə məşğul olan məmur.

[44] Siyaq elmi - ədədlərin hesablanmasından bəhs edən elm, hesab fənni. Orta əsrlərdə bir sıra Şərq ölkələrində dövlət xəzinəsinə daxil olan gəlirlərin və onların məsrəf olunmasının gizli saxlanılması, həmçinin mədaxil və məxaric dəftərlərində saxta düzəlişlər aparılmasına imkan verilməməsi üçün adi rəqəmləri əvəz edən xüsusi işarələr sistemi «siyaq» adlanırdı (bax: Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e qozide. Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və V.Z.Piriyevindir. Bakı, 1986, s.62).

«insanların ən xeyirlisi [Məhəmməd peyğəmbərin] - ona və nəslinə salam olsun - astanasının torpağı», «on iki imamın - onlara Allahın salamı olsun - haqq məzhəbinin rəvac verəni», «böyük hökmdar», «Həzrət Əmirülmöminin Heydərin[45] -ona və pak övladlarına Allahın salamı olsun - sadiq qulamı» kimi dürr saçan ifadələrdən ibarət olan, bununla da iki cahanın zinətini qazanan, pak Əhli-beytə[46] qulluq etməyi və onlara dost olmağın şərəfini iftixar və öyünmə mənbəyi bilən, özünü Nəcəf[47] şəhərində məlaikələrin yuva saldığı [Həzrət Əli] astanasının iti sayan, hər iki tərəfdən əzəmətli bağlılıq və böyük töhfə vasitəsilə[48] dünya hökmranları və keçmiş padşahlarla müqayisədə üstünlük və ucalıq rütbəsinə malik olan, şişirtmədən və sözbazlıq etmədən ilahi nurun mübarək alnından bərk vurduğunu deyə biləcəyimiz bir ali səviyyəyə sahib olan və öz ədalət günəşi ilə dünya sakinlərinin üzərinə şəfəq salan yüksək məqamlı, saf yaradılışlı, Səfəvi [sülaləsindən] olan bilikli padşah, Musəvi nəsilli, Hüseyni əsilli[49], Heydər soylu cahangir xaqanın (Şah Abbasın) dərgahında xidmətə götürülmək şərəfini qazandım və xilafət nişanlı sarayın münşiləri sırasına daxil oldum. İndi bu vərəqlərin yazılmasında əsl məqsədim də elə o səltənət nişanlı sultanın uğurlu əhvalatını qələmə almaqdan ibarətdir.

**Şeir**

«Ədalət üstündə duran dindar və insaflı şah,
Mürtəzanın sadiq xələfi Abbasdır ki,
Onunla zəmanə şad olsun,
Həmişəlik dünyanın padşahı olsun».

Lakin o əzəmətli məşğuliyyətin (münşiliyin) tələb etdiyi gecə-gündüz xidmət bu ləyaqətli işə (Şah Abbasın tarixinin yazılmasına) mane oldu. Belə ki, onu bacarığıma, zəka və istedadıma layiq bir şəkildə icra etmək müyəssər olmadı. Məqsədimin yüksəkliyindən çox xəcalət çəkərək, o işə giriftar oldum. Belə şəraitdə fürsət tapdığım hər bir məqamda həyat və məlumat kitablarını mütaliə edərək, bu şərəfli elmdən faydalanmaq istəyirdim.

---

[45] Heydər (ərəbcə «aslan» deməkdir) - Həzrət Əlinin ləqəblərindən biridir.
[46] Nəcəf- müasir İraqda, Fərat çayının sağsahil hissəsində şəhər. Həzrət Əlinin məzarı Nəcəf şəhərindədir.
[47] Əhli-beyt (ərəbcə «ev əhli» deməkdir) - Məhəmməd peyğəmbərin qızı Fatimə xanım və kürəkəni, həm də əmisi oğlu olan Həzrət Əli vasitəsi ilə davam etmiş sülaləsi.
[48] Burada Şah Abbasın ata və ana tərəfdən seyid hesab olunmasına işarə edilir.
[49] Burada Musəvi və Hüseyni deyilərkən Səfəvi sülaləsinin əslinin-nəslinin İmam Musa Kazim və İmam Hüseynə gedib çatdığına işarə olunur.

**Beyt**

«Elə ürəyim var ki, onun hər zərrəsinin bir istəyi var,
Dilənçilərin çuxası kimi, hər parçası bir yerdəndir».

Xülasə, keçmişə aid xəbərləri və uzun zaman xidmət ərzində gözümlə müşahidə etdiyim bu Cəmşid[50] cəlallı padşahın bəyənilmiş adətlərini ağıl tərəzisinə qoydum. Məlumdur ki, bilikli alim və söz ustası olan tarixçilər keçmiş hökmdarların ləyaqətli xasiyyətlərini bildirmək və onların həyatlarının hadisələrini bəyan etmək üçün qəribə ibarələr və əcaib məcazlarla neçə müfəssəl kitablar yazıb, söz ustalığını yüksək dərəcəyə çatdırmışlar. Mən [Şah Abbasın] əhvalatım həmin əsərlərlə müqayisə etdim. Heç bir yüksək mənsəbli cahangirin həyatının ona bərabər olduğunu görmədim. Öz-özümə dedim: «Bu yüksək rütbəli padşahın qulamı olmaq şərəfinə layiq görüldüyünə görə kamillik fənləri baxımından istedad sahiblərindən fərqlənmək istəyirsənsə, [bəs] nə üçün öz təbinin söz söyləyən tutisini dünyanı əks etdirən güzgü qarşısında danışdırmırsan? Nə üçün xəyalın səhifəsində dərin iz buraxmış bu ali mənşəli, misilsiz şəhriyarın[51] bəxtiyar həyatının hadisələrini yüksək çalışqanlığın gövhər saçan qələmi ilə bəyan səhifəsinə yazmırsan? Və nə üçün müqəddəs aləmin huri-soylularının[52] ən yaxşı zivəri və ünsiyyət sarayının könül açan seçilmiş töhfəsi olan, dünyanı bəzəyən və məclis zinətləndirən söz şahidlərinin qulağını və boynunu bu şaha layiq incilərlə bəzəmirsən ki, istedadlı və yetişmiş adamlar sırasında olmasan da, barı heç olmasa bu səadət verən işin uğurluluğu sayəsində sən öz taylarn arasında üstünlük şərəfi qazanasan və yaxın [adamların] arasında üstün durasan.

**Beyt**

«Gör sələflərdən sözdən başqa cahanda miras nə qalmışdır,
Nə üçün bu şanlı padşahın tərifi dünyada səndən yadigar qalmasın?»

Bəzən uzaqgörən ağlın tərbiyəcisi bu arzu körpəsinin üzünə sillə vururdu [və deyirdi] ki, sən hələ bilik məktəbində əbcəd[53] oxuyanlardansan, zəmanənin

---

[50] Cəmşid (Cəm) - Firdovsinin «Şahnamə» əsərində haqqında bəhs olunan qədim İranda hökmranlıq etmiş əfsanəvi Pişdadilər sülaləsinin dördüncü şahı (bax: Əbülqasim Firdovsi. Şahnamə. Tərcümə edəni: M.Əlizadə. Bakı, 1987, s.31-39).

[51] Şəhriyar - hökmdar, padşah.

[52] Huri - dini rəvayətlərə görə, cənnət əhlinə vəd edilən gözəl qızlar.

[53] Əbcəd - klassik ədəbiyyatda sayları ifadə etmək üçün rəqəmlərdən savayı, bəzən hərflərdən də istifadə olunur və bu hesablama üsuluna «əbcəd hesabı» deyilir. Əbcəd hesabına əsasən, ərəb əlifbasına daxil olan 28 hərfdən hər biri müəyyən bir ədədi ifadə edir. Əbcəd hesabından ayrı-ayrı şəxslərin təvəllüdü və ya vəfatını, əsərlərin yazıldığı, yaxud bitdiyi ili, əlamətdar tarixi hadisələrin ilini göstərmək üçün şeirdə istifadə olunmuşdur.

alimləri ilə necə şəriklik və bərabərlik iddiasında ola bilərsən? Əbəs yerə nə üçün özünü istedad sahiblərinin masqarasına çevirirsən? Çünki sözün ali məqamları o qədər yüksəkdir ki, hər bir təşəbbüssüz, cəhdsiz [adamın] əli onun cəlal çadrasının ətəyinə çatmaz və məna bəzəyən söz ustalarının durduğu yer o qədər gözəldir ki, hər adsız-sansız nadan oraya daxil ola bilməz.

**Şeir**

«Sözün qədri çox olsun, çünki o pak cəvahir
Səmadan torpaq aləminə gəlmişdir.
[Söz] sirr əhli ilə xəlvət qalmaq istərsə,
Müqəddəs adamlardan başqa özünə dost seçməz.
Nə vaxt bu gözəl çölün vəhşi ceyranları
Hər torpaq üstə gəzənlə ünsiyyət tapa biləcək?
Söz bir quşdır ki, [o], qanad çalanda
Ondan Kəyan[54] tacı yağar.
Bu cənnət quşu kimin başına qonarsa,
O adam İsgəndərdən[55] yuxarıda oturar».

Heyhat, heyhat! Hərflər və sözlər nigaristanında kiçicik bir zərrənin məna aləminin günəşi ilə müqayisədə rütbəcə hansı bərabərliyi ola bilər?! Və boş səhradakı kiçik bir saxsı parçası söz bəzəməyin dərin dənizində olan parlaq incilərlə necə bərabərlik iddiası edə bilər?! Sən hara, bu xam arzu hara. Bundan çəkinmək haqlı olduğuna görə bu fikirdən vaz keçirdim. Başqa bir zaman ümid gülşənində yuva salmış qəlbimin həvəsli bülbülü min hiylə ilə bu nəğməni oxuyurdu ki, qabiliyyət və tərifləmək səhifəsində sənin təfəkkür qələmin küt olsa da, amma iftixar meydanında tərifləyəcəyin [adamın] dünyanı gəzən ləyaqət atı sürətli və iti gedəndir. Bu [işdən əl çəkmək] fəaliyyətsizlik və təşəbbüssüzlükdür.

**Beyt**

«Sənin ki, təbiətində bilik diyarından
Min cürə hünər bir-birinin üstünə yığılmışdır».

---

[54] Kəyan (qədim farsca «böyük» deməkdir) - Firdovsinin «Şahnamə» poemasında qədim İranda ilk sülalə olan Pişdadilərdən sonra hakimiyyət sürdüyü bildirilən əfsanəvi bir sülalə. «Tarix-i aləmara-yi Abbasi» əsərində və bir çox digər mənbələrdə Kəyan sözü sadəcə olaraq «şah», «şahlıq», «şaha məxsus» kimi mənalarda işlədilir.
[55] İsgəndər - qədim dövrün böyük fatehi Makedoniyalı İsgəndər (e. ə. 336-323-cü illərdə hakimiyyətdə olmuşdur) nəzərdə tutulur.

Nə üçün bu ağılsızlığa və həqarətə razı olursan, sürətlə gedən qələmin cilovunu yoldan kənara çevirirsən və ümid yolunda qaçmağına mane olursan?

Sağlam təbiətli [adamlar] faydası hamıya məlum olan həyat və tarix kitablarını, xüsusilə yaxın zamana aid olan əhvalatları mütaliə etməyə böyük rəğbət göstərirlər. Söz ustalarının meydanı genişdir, dayanmaq yeri yoxdur. Çalışmaq iddiası ilə tələb meydanına qədəm qoy, Allahdan uğur dilə və Tanrının köməyinə hazır ol!

**Şeir**

«Qədəm qoy bu geniş yola səylə,
Bəxtin gücü və şahın səadəti ilə.
Xəzinədarsan və ruzigarın dəfinəsindən
Şaha layiq bu incini əldə et ki,
Sənin adın dillərə düşsün,
Allahın lütfü ilə arzuna çatasan».

Bir müddət bu fikirlə yaşadım. Bəhanə axtaran xasiyyətim və itaətə gəlməyən təbiətimlə çəkişirdim. Axırda uzaqgörən ağlım bu qərara gəldi ki, bu şafılıq tacını bəzəyən [Şah Abbasın] əziz həyatının sirlərini ibarələrin səlistliyi, münasib sözlər, kəlmə və məna bəzənişi qeydinə qalmadan qaralama halına gətirəm, düşüncə və arzular dəftərində qeyd edəm və əgər ömür vəfa edərsə, asılı adamların çarəsiz məşğul olduğu dünya işlərindən başım ayılarsa və ələ fürsət keçərsə, arif [Nizami] Gəncəvinin bu iki beytdə açdığı sirr kimi:

**Beyt**

«Sənin belə dəyərli incin olduğu halda,
İnci bəyənənə ehtiyacın olacaq.
Dəyərli sərvətin vardır, lakin
Bir kəs onu istəməsə, onun sənə nə faydası?!»

əgər nemət verən ali nəsəbli [padşah] bu şərəfli kitabı bitirməyə rəğbət işığı salarsa, bəhanə axtaran təbiətimlə zəmanə hökmdarının fərmanını qəbul edərəm, asimandan gələn köməklə və öz çalışqanlığımın yardımı ilə [bu əsəri] mənalar bazarının yaraşığı edib, söz ustalığı meydanını zinətləndirərəm və deyilmiş rəmzləri şərəfli ibarələr və lətif məcazlarla yazı silsiləsində düzüb, münasib məlahətli şeirlərlə bəzəyərəm, fitri bacarıq və təbii səylə bilik dənizindən zahir olma sahilinə o qədər qiymətli incilər və rəngərəng mənalar çıxararam ki, bu uca rütbəli padşah dünya şahlarına örnək olduğu kimi, bu çılpaq, kasıb, biçarə

[İsgəndər bəy Münşinin] əsəri fəzilətli istedad sahiblərinin dilində zərbülməsəl olar.

**Beyt**

«Əgər bəxtim indi mənə yar olarsa,
Mərifət qutusunun qıfılını mənə açar.
Cavanbəxt şahənşahın səadəti ilə
Bilik ölkəsində taxt qoyaram.
Müxtəlif çeşidli məna gülləri ilə
Üslubiyyat dükanını bəzəyərəm.
Bilik dənizindən o qədər dürr çıxararam ki,
Aləm qiymətli incilərlə dolar».

Bu çaşqınlığın dəhşətli çölündə ağıl mənə yol göstərərək, mənim üçün agahlıq məclisində hir çıraq yandırdı və məni məzəmmət edərək dedi ki, ey qəflət hadəsinin sərxoşu və ey çaşqınlıq səhrasının sərgərdanı! Padşahın bargahı müqəddəs yerlərin elə bir nümunəsidir və hökmdarın dərgahı ucalıq məqamlarının elə bir nişanəsidir ki, heç kəs o izzətli saraya çox yaxın olan adamların vasitəçiliyi olmadan oraya yol tapa bilməz və heç kim səltənət çadırının qapıçılarının iştirakı olmadan o qapıdan içəri girə bilməz. «O, bir şeyə ol deyərsə, dərhal olar» [ayəsinin][56] məzmununa uyğun surətdə, köməklik və icazə olmadan bu işin baş tutmasının mümkün olmayacağını anladım və axırda [bu iş üçün özümə bir hami] tapdım. Allaha şükür olsun ki, o, bu uca dövlətdə və səadətli səltənətdə yüksək dərəcəli, qədir-qiymətli bir adamdır və hökumət işlərinin məhvəridir. Fəzilətinin və kamalının çoxluğu ilə əsrin bilikli adamlarından irəlidə olan bu tədbirli şəxs vəzirlik kürsüsünə zinət bəxş etməkdədir və divan sahibliyinə malikdir. O, özünün istedad və qabiliyyətinə görə digər sağlam düşüncəli işbilənlərdən öndədir, səmimiyyət və sədaqətinə görə səadətli sarayın digər xidmətçilərindən üstündür və ata-babasının irsən göstərdiyi xidmətlərin qədimliyinə görə izzətli dərgaha yaxın olan adamlar arasında daha imtiyazlıdır. Süleyman peyğəmbərin vəziri olmuş Asəf[57] kimi, o da əbədi təməlli dövlətin işlərinin nizamlayıcısı, xaqan səltənətinin ən etibarlı adamı və sultan sarayının ən etimadlı şəxsidir.

---

[56] «Qurani-Kərim», «Yasin» surəsi, 82-ci ayə. Mənbədəki «Quran» ayələrinin tərcüməsi zamanı aşağıdakı nəşrlərdən istifadə olunmuşdur: «Qurani-Kərim» (ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev). Bakı, 1992; Kuran-ı Kerim ve Türkce anlamı (meal). Hazırlayanlar: H.Atay ve Y.Kutluay. Ankara, 1991.

[57] Asəf - dini rəvayətlərə görə, Süleyman peyğəmbərin Asəf ibn Bərxiya adlı çox ağıllı və tədbirli bir vəziri olmuşdur. Sonralar Şərq ədəbiyyatında Asəf adı aqil və səriştəli adamları bildirmək üçün rəmz kimi istifadə olunurdu (Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Tərtib edəni: A.M.Babayev. Bakı, 1993, s.14).

**Beyt**

«O, səxavət ölkəsinin hökmdarı olan cahan şahının müşaviridir;
Elə bil ki, asimanın məhvəri olan bir Asəfdir.
O, mülkün və millətin dayağı, dinin və dövlətin etimadıdır,
Fəzilət və hünər sahibidir, böyük də, kiçik də hamısı ona üz tutur.
Sanki gecə və gündüzün intizamı onun qələminin nəticəsidir».

O, həm irsi baxımdan, həm də öz səxsi xidmətlərinə görə xalqın işlərinin tənzimləyicisi olmağa layiqdir.

**Beyt**

«Peyğəmbərin əmisinin və Şahi-mərdanın[58] atasının adaşıdır,
Səxavət dənizinin misilsiz gövhəri Əbu-Talib xan».

O, yüksək səviyyəli və gözəl bir əsil-nəsəbə malikdir və öz ali şəcərəsi cəhətdən sanki fəzilət ümmanının bir incisidir. O, bəşəriyyətin ustadı Nəsir əl-millət vəd-din Tusinin - Allah onun ruhuna can versin - nəslindəndir.

Beləliklə, ağlın mənə yol göstərməsi nəticəsində könül sarayımda aydınlıq çırağı yandırdım. O bol işıqlı məşəlin köməyi ilə mənim agahlıq məclisim nura boyandı və xoşbəxt taleyin dəvəti ilə işə başladım. Bu işdə mənə köməklik göstərmiş o dövran yeganəsinin (Əbu-Talib xanın) rəhmətə qovuşmuş şərəfli atasının ləyaqətləri və məziyyətlərinin bir qismi ikinci cilddə zəmanə hökmdarı [Şah Abbasın] izzətli hakimiyyətinin hadisələri içərisində qələmə alınacaqdır.

**Beyt**

«Yüksək mövqeli və alicənab Hatəm bəy,
Onun ürəyi səxavət və mərhəmətli doludur.
O, eh bir nadir incidir ki, ata-babası
Ta Adəmə qədər istedad gövhərinin sədəfidirlər».[59]

Nə isə, bu minvalla xatirimin vərəqlərini və qəlbimin səhifələrini bütün vəsvəsələrdən təmizlədim və əqidəli bir ürəklə mənalar xəzinəsi və səadət mənbəyi

---

[58] Şahi-Mərdan (farsca «kişilərin şahı» deməkdir) - Həzrət Əlinin ləqəblərindən biri.

[59] Əsərin bu yerində İsgəndər bəy Münşi öz himayəçisi olan, «Tarix-i aləmara-yi Abbasi» əsərinin I Şah Abbasa təqdim olunmasında ona kömək edən, XIII əsrin məşhur Azərbaycan alimi Nəsirəddin Tusinin nəslindən olan və Səfəvi sarayında baş vəzir vəzifəsini tutan Etimadüddövlə Hatəm bəyin oğlu Əbu-Talib xan ürdubadini mədh edir və ondan gördüyü dəstəkdən bəhs edir.

olan bu möhtəşəm səhifələri Səfəvi mənşəli ulu xaqanın yüksək hökmdarlıq ləqəbləri ilə əzizlədim və bəzədim. Ümidim odur ki, əvvəla, bu səadət dəftəri və iqbal məcmuəsi gözəl taleli və mələk xasiyyətli o şəxsin (Əbu-Talib xanın) vəsatəti ilə ali hökmdarın - Allah cənnət bağını əbədiyyən onun məskəni etsin - nəzərində qəbul olunsun və ikincisi, [bu kitab] ali məclisin yaraşığı və o yüksək məqamlı Asəfin (Əbu-Talib xanın) ali kitabxanasının bəzəyi olsun və onun anlaşdmaz sözlərdən və süni dəbdəbədən xali olan təmtəraqsız, sadə ibarələri bütün zəmanə əhlinin xoşuna gəlsin. Bu «Alə-mara» kitabını yazmaqda əsl mətləbimiz bu astananın qulamı olmağın haqqını vermək və kama çatmış səadətli hökmdarın bəndəsi olmaq kimi bir nemətin əvəzində şükür etməkdir. Yəqin ki, bu tanınmamış şəxsin (İsgəndər bəy Münşinin) də adı bu əbədi dövlətin hadisələrini, yüksək məqamlı hökmdarın üstün ləyaqətlərini və onun comərd xüsusiyyətlərini yazmağın nəticəsi olaraq daima insanlar arasında anılacaq və hamı tərəfindən xatırlanacaqdır.

**Beyt**

«Hökmdarları vəsf edən Firdovsi,
Adlı-sanlılar kimi məşhur oldu.
Əgər Nizami «Xəmsə»ni yazmasaydı,
Onun adını heç yerdə heç kim xatırlamazdı».[60]

Ağıl mürşidi və hikmət pirindən icazə aldıqdan sonra bu bağda gül yığmağa tələsdim. Fikrimin [Şah] Abbas [barədə] yazan qələminin kəhər atını söz meydanında oynadaraq, [padşahın] doğulduğu gündən bu günə qədər - hal-hazırda 1025-ci (1616) ildir, [padşahın] şərəfli ömrünün yaşı qırx yeddiyə çatıb və hələ cavanlığının ən gözəl çağı, səadət və qüdrət baharının çiçəklənmə dövrüdür - əbədi dövlətinin zamanındakı hadisələri yazmağa başladım. Şüurumun işığı çatan hər bir şeyi artırıb-əskiltmədən qələmə aldım və bilmədiyim hər bir şey barədə, əlacsızlıqdan, nəql edənlərin sözlərinə inanıb, münşilik təmtərağına etina etmədən yazdım. Bu məşhur, heyrətamiz əsərə və qiymətli kitaba «Tarix-i aləmara-yi Abbasi» adı qoydum. Başqalarından alınmış sözlər və anlaşılmayan usandırıcı qeyri-adi ibarələri işlətməkdən çəkinməyi lazım bilib, xəbərlərin bəxtiyar görünüşlü surətlərini və əsərlərin yaxşı xasiyyətli şahidlərini daha sadə libasla bəzəyərək, zühur nuruna çıxardım. Lakin bu, ümumi qayda deyil. Zira yaraşır ki, arabir təbiət bağının bülbülü nəğmə oxumağın qollu-budaqlı ağacına qonub, söz söyləmək mahnısına başlasın və hərdən qələmin şirin danışan tutisi ibarə bəzəmək şəkəristanına gəlib, natiqliyin söz söyləmək ləzzətini artırsın. Müxtəsər, yazı zamanı qələmin dilinə gələn yaş və quru ibarə ilə kifayətlənib, onu keçmədim və münasib şeirlər gətirmək qeydinə qalmadım. Əgər arabir hansısa yerdə iki-üç beyt

[60] S-129,v.2b-3b.

yazılıbsa da, əksər halda səliqəliliyin təsiri və təbiət saflığının məhsuludur ki, yazı əsnasında öz-özünə fikrimə gəlib və söz söyləyən qələmin dili ilə deyilib.

Hərçənd ki, bu səhifələri yazmağın əsl məqsədi o həzrətin xoşbəxt əhvalı və o həzrətin mübarək həyatı dövründə, doğulduğu gündən dövlət pillələrinə qalxdığı zamana qədər baş vermiş hadisələrdir, amma məskəni cənnət olan Cəmşid məqamlı padşahın (Şah Təhmasibin) qorxunc vəfat hadisəsi, İsmayıl mirzənin taxta çıxması, yeri behiştdə olan İsgəndər şanlı Sultan Məhəmməd padşahın və başqa şahzadələrin əhvalı, özbəklərə və rumilərə[61] aid olan bəzi hadisələri xəbərlər səhrasının susuzlarını doydurmaq üçün xülasə şəklində vaqiəyazan qələmlə qeydə aldım ki, sözün telləri bir-birinə bitişsin və əsl mətləblə bağlı olmayan hekayələr anlaşılmamış və eşidilməmiş qalmasın. Bu qaralamada o həzrətin (Şah Abbasın) əziz, məşhur adı «həzrət-i əla şahi-yi zillullahi» («Allahın kölgəsi olan əlahəzrət şah»)[62], onun möhtərəm atasının məşhur adı «Nəvvab-i İsgəndər-şən» («İsgəndər şanlı nəvvab»)[63], böyük mövqeli babasının mübarək ismi «Şah-i cənnətməkan-i əleyin-aşiyan» («behişt sakini olan cənnətməkan şah»)[64] və ulu babasının şərəfli adı «Xaqan-i Süleyman-şən» («Süleyman şanlı xaqan»)[65] ibarələri ilə yazılmışdır. O yerdə ki «Nəvvab-i Məryəmşən-i Məhdi-Ülya» («Məryəm şanlı xanım Məhdi-Ülya») zikr olunur, o həzrətin möhtərəm anasıdır[66]. «Həzrəti-Cahanbani» («dünyanı qoruyan həzrət») isə Sultan Həmzə mirzə cənablarının əziz adını bildirir[67].

Ona cəhd edirəm ki, əgər o həzrətin ən şərəfli meyili bu mübarək nüsxənin başa çatdırılmasını münasib bilərsə, fürsət düşdükdə, hekayə-hekayə onun yüksək ərzinə yetirəm və əgər kitabda həqiqətlə uyğun olmayan bir şey yazılmış olsa,

---

[61] Səfəvi mənbələrində «Rum» və «rumi» deyilərkən Osmanlı dövləti və oranın əhalisi nəzərdə tutulur.

[62] Həzrət-i əla şahi-yi zillullahi (Allahın kölgəsi olan əlahəzrət şah) - I Şah Abbasın ləqəbi.

[63] Nəvvab-i İsgəndər-şən (İsgəndər şanlı nəvvab) - I Şah Abbasın atası Şah Məhəmməd Xudabəndənin ləqəbi. Nəvvab - ərəbcə «naiblər» deməkdir. Həmçinin tarixən hörmətli adamı bildirmək üçün cənablar, zati-aliləri, əlahəzrət kimi epitetlərin sinonimi şəklində də işlədilmişdir. Müəllif mübaliğəyə yol verərək, Şah Məhəmməd Xudabəndənin şan-şöhrətinin Makedoniyalı İsgəndər səviyyəsində olduğunu bildirmək üçün onu «İsgəndər şanlı nəvvab» adlandırır.

[64] Şah-i cənnətməkan (cənnətməkan şah) - I Şah Abbasın babası I Şah Təhmasibin ləqəbi.

[65] Xaqan-i Süleyman-şən (Süleyman şanlı xaqan) - I Şah İsmayılın ləqəbi. İsgəndər bəy Münşi 1 Şah İsmayılın şan-şöhrətinin qədim dövrün məşhur, müdrik və ədalətli hökmdarı Süleyman peyğəmbərin (e. ə. 965-935-ci illərdə hakimiyyətdə olmuşdur) şan-şöhrəti ilə bərabər olduğunu göstərmək məqsədi ilə onu «Süleyman şanlı xaqan» adlandırmışdır. Müəllifin Şah İsmayılı türklərə məxsus hökmdar titulu olan «xaqan» istilahı ilə xatırlaması diqqətçəkən faktdır.

[66] Nəvvab-i Məryəm-şən (Məryəm şanlı xanım) - Şah Məhəmməd Xudabəndənin arvadı və I Şah Abbasın anası Məhdi-Ülya Xeyrannisa bəyimin ləqəbi. «Məhdi-Ülya» ərəbcə «ulu beşik» deməkdir. Xeyrannisa bəyim bir neçə oğul şahzadənin anası olduğu üçün «Məhdi-Ülya» adı ilə tanınmışdı. Müəllif, Şah Abbasın anası olan bu qadına hörmətini bildirmək üçün onun şan-şöhrətini İsa peyğəmbərin anası Məryəm xanımla müqayisə etmək mənasında onu «Məryəm şanlı xanım» (Məryəm kimi şöhrətli xanım) epiteti ilə yad edir.

[67] Şah Abbasın qardaşı Həmzə mirzə əsərdə daha çox «Nəvvabi-Cahanbani» («dünyanı qoruyan nəvvab») deyə qeyd olunur.

[həmin məlumat] doğruluq bıçağı ilə məhv edilsin. Və əgər [verilən] xəbərlərdə bəzi məqamlar nəzərdən qaçıbsa, onu yenidən yazam və bu səmimiyyət qələmi ilə yazılmış əsəri təhqiqə, mükafata və təsdiqə çatdıram. İlk növbədə uğurla və bərəkətlə, peyğəmbərlik və imamlıq xanədanından çıxmış o həzrətin əsil-nəsəbinin şərhini, bəyənilmiş adətlərini və onu dünyanın başqa şahlarından və dövranın xaqanlarından fərqləndirən gözəl xasiyyətlərini xülasə olaraq kitabın müqəddiməsində qeyd edərək, hadisələrin təfsilatına başlayam. Bu «vilayət»[68] nişanlı xanədana qulluq və sədaqət yolu, duz-çörək qədir-qiyməti tələb edirdi ki, söz ustası olan vəsfedicilərin və gözəl üslublu tarixçilərin qaydası ilə öz havadarımın bəyənilmiş xasiyyətlərinin və gözəl sifətlərinin birini yüz, yüzünü min edib, misli olmayan şeylər yazan qələmlə ruzigar kitabında yadigar qoyam. Amma o həzrətin haqqı sevən gözəl təbiəti gerçəklikdən kənarda olan, boş danışan adamların aludə olduqları işləri bəyənmədiyinə görə o xoşagəlməz üslubdan uzaq durdum, qələm atının cilovunu çəkərək, onu ibarə bəzəmək və sünilik meydanında çapmağa qoymadım və doğru olmayan şeyi yazmadım. Bu mübarək kitabı bir müqəddimə, iki səhifə (cild) və bir xatimədən ibarət etdim ki, Allah-taalanın köməyi ilə iki-üç cilddə tamam olsun.

**Birinci cild:**

Müqəddimə: O həzrətin mübarək nəsəbnaməsinin xatırlanması, onun ali məqamlı əcdadlarının şərəfli adlarının, mənəvi səltənət və irşad[69] taxtında əyləşmiş yüksək dərəcəli şeyxlərin üstün səviyyələrinin və bu xanədanın dövlətinin zühur etməsinin bəyanı, o həzrətin səadətli təvəllüdünün şərhi, onun saf əhvalatının xülasəsi və onun gözəl vəsflərinin qısa icmalı haqqındadır və 12 məqalədən ibarətdir.

***Birinci məqalə:*** Kama yetmiş padşahların, o ali mənşəli şəhriyarların dövləti zamanında başvermiş hadisələr və cənnətməkan şahın vəfatı əhvalatı

---

[68] Şiə əqidəsinə görə, islam aləmində hakimiyyət irsən yalnız Məhəmməd peyğəmbərin nəslinə, Əhli-beytə məxsus olmalıdır. Bu prinsip «müqəddəs hakimiyyət» məfhumunu bildirən «vilayət» termini ilə ifadə olunur. Sünnilərdən fərqli olaraq, şiələr peyğəmbərdən sonra ilk üç xəlifənin (Əbu-Bəkr, Ömər, Osman) hakimiyyətini legitim saymırlar. Onlar «vilayət» prinsipinə əsasən, islam dünyasında məhz peyğəmbərin əmisi oğlu və kürəkəni olan Həzrət Əli və onun peyğəmbərin qızı Fatimə xanımla izdivacından doğulmuş nəslinin nümayəndələrini peyğəmbərin davamçısı və varisi, islam ümmətinin xəlifəsi və imamı olmağa layiq hesab edirlər. Özlərinin Məhəmməd peyğəmbər və Həzrət Əli nəslindən olduqlarını iddia edən Səfəvilər də siyasi və ideoloji mübarizə meydanında hakimiyyət məsələsi baxımından «vilayət» (peyğəmbər nəslinin hakimiyyəti) prinsipindən geniş surətdə istifadə edirdilər. Burada və bundan sonra şiə əqidəsindəki «vilayət» terminini inzibati ərazi vahidi olan vilayət sözündən fərqləndirmək üçün dırnaq içərisində yazacağıq.

[69] İrşad - doğru yol göstərmək, mürşidin öz müridlərini yönləndirməsi. Burada «irşad taxtı» dedikdə mürşidlik mövqeyi, təriqət rəhbərliyi nəzərdə tutulur.

barəsində, İsmayıl mirzənin və İsgəndər şanlı nəvvabın hakimiyyəti və Şah [Abbasın] İran səltənətinin[70] səadətli taxtına uğurla əyləşməsi haqqındadır.

***İkinci məqalə:*** O həzrətin ilahi dərgaha olan hüsnrəğbəti və bağlılığı, onun öz kəramətli əcdadlarmdan miras aldığı keyfiyyətlər haqqındadır.

***Üçüncü məqalə:*** Tanrının ona verdiyi düşüncənin və biliyin düzgünlüyü və onun təqdir səhifəsinə uyğun gələn tədbirlərinin gözəlliyi haqqındadır.

***Dördüncü məqalə:*** Ona sahibqiranlıq[71] rütbəsinin yaraşması barədə və onun həyatını təhdid edən təhlükələrin xoşbəxt sonluqla bitməsi haqqındadır.

***Beşinci məqalə:*** Onun ölkənin çiçəklənməsinə səbəb olan ədaləti, bəndələrin rifahını yüksəltməsi və yolların əmin-amanlığını təmin etməsi haqqındadır.

***Altıncı məqalə:*** Onun ilahi hikmətdən irəli gələn qəzəbi haqqındadır.

***Yeddinci məqalə:*** Onun cahandarlıq işlərində ortaya qoyduğu qaydalar haqqındadır.

***Səkkizinci məqalə:*** O həzrətin sadəliyi, dərviş xasiyyətinə malik olması, təvazökarlığı və bir-birinə zidd gələn xüsusiyyətləri özündə cəmləşdirməsi haqqındadır.

***Doqquzuncu məqalə:*** Onun alicənablıq və mürvət aləminin həqiqətpərvərlərinə xas olan tərzdə xidmətkarların hüquqlarını təmin etməsi və onların mülkiyyətindən uzaq durması haqqındadır.

***Onuncu məqalə:*** Onun aləm sultanlarının əhvalı, Adəm övladlarının təbəqələri, yeddi iqlimin[72] məmləkətlərinin və yollarının xüsusiyyətləri barədə məlumatlı olması haqqındadır.

---

[70] Demək olar ki, bütün farsdilli mənbələr Səfəvilər dövlətinin yaranmasmdan bəhs edərkən onu «Azərbaycan səltənəti» adlandırırlar (bax: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961, с.89,92,100). Lakin I Şah Abbas zamanında aparılan islahatların və paytaxtın İsfahana köçürülməsinin nəticəsi olaraq, bəzi mənbələrdə Səfəvilər dövləti haqqında «İran səltənəti» termini işlədilməyə başlanmışdı. Bu səbəbdəndir ki, İsgəndər bəy Münşi hətta XVI əsrin hadisələrindən bəhs etdikdə «Qızılbaş dövləti» termini ilə yanaşı, «İran səltənəti» ifadəsindən də istifadə edir. Lakin Şah Abbasın islahatları və bunun nəticəsində «İran səltənəti» anlayışının salnamələrdə özünə yer etməsi heç də dövlətin iranlılaşmasına və ya farslaşmasına dəlalət etmir. Səfəvilərin bir türk xanədanı və dövləti kimi mahiyyəti bu sülalənin hakimiyyətinin süqutuna qədər qorunub saxlanılmışdı. Qeyd etmək lazımdır ki, bu dövrdə Osmanlılar da öz dövlətlərini Rum adlandırırdılar. Halbuki indiki məqamda Türkiyədə «Rum» adı altında yunanlar başa düşülür. Həmin tarixi zamanda İran, Rum və s. bu kimi coğrafi adlar etnik kimlik bildirmirdi. İstər Səfəvi, istərsə də Osmanlı dövlətləri nə cür adlanmalarından asılı olmayaraq, türk dövləti idilər.

[71] Sahibqiran - orta əsr münəccimlərinə görə, Zöhrə və Müştəri ulduzlarının bir-birinə rast gəldiyi uğurlu bir zamanda anadan olmuş xoşbəxt şəxs. Bu ləqəb ilk dəfə Əmir Teymura aid edilmiş, daha sonra isə müsəlman Şərqinin bəzi digər hökmdarları da bu ləqəblə xatırlanmışlar.

[72] Yeddi iqlim - orta əsr müsəlman coğrafiyaşünaslığına görə, dünyanın insanlarla məskunlaşmış olan 1/4 hissəsi yeddi iqlimə bölünürdü (bax: Əbdürrəşid əl-Bakuvi. Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar /Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri/. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri Z.M.Bünyadovundur. Bakı, 1992).

***On birinci məqalə:*** Onun xeyirli əsərləri və məmləkətlərdə ali imarətlər tikdirib yaratması haqqındadır.

***On ikinci məqalə:*** Ali hökmdarın hakimiyyəti zamanındakı döyüşlərin, müharibələrin və fəthlərin bəyanı haqqındadır.

**İkinci cild:**

Onun bəxtəvər hakimiyyəti zamanının 1025-ci (1616) ilə müvafiq olan [əsərin] yazılması vaxtına qədərki uğurlu əhvalatları haqqındadır.

***Xatimə:*** Əvvəlki [müəlliflərin] kitablarından mütaliə etdiyim və ömrüm ərzində müşahidə etdiyim qəribə hekayətlər, əcaib və nadir rəvayətlər və dövran hadisələri haqqındadır[73].

İnşallah, ömür vəfa etsin ki, üçüncü cildi də yaza bilim. Bəsirət sahiblərindən xahişim odur ki, [bu əsərin] yaxşı və pis cəhətlərinə bəsirət və insaf gözü ilə nəzər salsınlar və tənqidçilikdə xırdaçılığa varmasınlar. Əgər [əsərdəki] məlumatlarda hansısa nöqsan nəzərə çarparsa, onun təqsir yükünü mənə danışılmış sözlərin ziddiyyətli olmasının üzərinə qoysunlar və eyibləri görə bilən gözlərini görməzliyə vursunlar.

## BİRİNCİ CİLDİN BİRİNCİ MƏQALƏSİ:

## ALLAHIN KÖLGƏSİ OLAN ƏLAHƏZRƏT ŞAHIN MÜBARƏK NƏSƏBNAMƏSİ VƏ ONUN PEYĞƏMBƏR VƏ İMAMLARIN NƏSLİNDƏN TÖRƏMİŞ YÜKSƏK SƏVİYYƏLİ ƏCDADLARININ ALİ MƏQAMLARI HAQQINDA

Bəsirət sahiblərinin tez qavrayan ürəklərinə gizli deyildir ki, bu ali sülalənin kökü peyğəmbərlərin sonuncusu («xatəmül-ənbiya»)[74] olan həzrətin (Məhəmməd peyğəmbərin) və Əliyyül-Mürtəzanın - onlara salam olsun - tayı-bərabəri olmayan pak soyuna və nəslinə gedib çıxır. [Şah Abbasın] nəsəbnaməsi bu cürdür: zəfər sahibi («əbülmüzəffər») Şah Abbas ibn Sultan Məhəmməd padşah ibn Şah Təhmasib ibn Şah İsmayıl ibn Sultan Heydər ibn Sultan Cüneyd ibn Şeyxşah [adı] ilə məşhur olan Sultan İbrahim ibn Sultan Xoca Əli[75] ibn Sultan Sədrəddin Musa ibn Şeyx Səfiəddin İshaq ibn Əminəddin Cəbrayıl ibn Saleh ibn Qütbəddin ibn Səlahəddin Rəşid ibn Məhəmməd əl-Hafiz ibn Əvəz əl-Xəvas ibn Firuzşah ibn

---

[73] «Tarix-i aləmara-yi Abbasi»nin burada əksini tapan mündəricatı İsgəndər bəy Münşinin ilkin yaradıcılıq planıdır. O, salnamənin II cildinin bitdiyi 1026-ci (1616) ildən sonra əsərin yazılmasını davam etdirmiş, III cildi hazırlamış və oraya I Abbasın ölümünə qədərki hadisələri də əlavə etmişdir. Lakin əsərin nəzərdə tutulmuş xatimə (son) hissəsini yazmaq ona müyəssər olmamışdır.

[74] Xatəmül-ənbiya (ərəbcə «sonuncu peyğəmbər» deməkdir) - Məhəmməd peyğəmbər xronoloji baxımdan 124 min peyğəmbərin ən sonuncusu olduğu və ondan sonra dünyaya başqa bir peyğəmbər gəlməyəcəyi üçün ona bu ləqəb verilmişdir.

[75] S-129, v.5a; S-297, v. 1 a. Tehran çapının (s.7) şəcərə hissəsində Xoca Əlinin adı unudulmuşdur.

Məhəmməd ibn Şərəf ibn Məhəmməd ibn Həsən ibn Məhəmməd ibn İbrahim ibn Cəfər ibn Məhəmməd ibn İsmayıl ibn Məhəmməd ibn Əhməd əl-Ərabi ibn Əbi-Məhəmməd əl-Qasim ibn Əbülqasim Həmzə ibn himmətli imam Əbi-İbrahim Musa əl-Kazim ibn natiq imam Cəfər əs-Sadiq ibn İmam Məhəmməd əl-Baqir ibn İmam Əli Zeynalabidin ibn İmam Əbi-Abdulla əl-Hüseyn ibn möminlərin əmiri, dindarların imamı, Allahm qalib aslanı Əli ibn Əbu-Talib. Onlara salam olsun![76]

Şəcərə bilicisi olan alimlərin və bəlağətli[77] tarixçilərin fikri yekdildir ki, o həzrət (İmam Əli) və peyğəmbərlərin sonuncusu (Məhəmməd peyğəmbər) Xəlil gülzarının gülü və İsmayıl bostanının nübarıdırlar[78]. Onlara salam olsun! Onların Ədnana[79] qədərki ulu ata-babalarının və kəramətli əcdadlarının kimliyi barədə fikirlər yekdil, Ədnandan bəşəriyyətin atası («əbülbəşər»)[80] olan Həzrət Adəmə - ona salam olsun - qədərki əcdadları haqqında isə rəylər müxtəlifdir. Amma nəsəbnamə alimlərinin qeydə alaraq şəcərə kitablarında yazdıqları bu cürdür: Ədnan ibn Ərəd ibn Hümeysə ibn Binnət ibn Həməl ibn Qiydar ibn İsmayıl ibn Xəlilürrəhman İbrahim ibn Tarux ibn Nahur ibn Saruğ ibn Qaleğ ibn Şaməx ibn Amir ibn Ərfəxəşd ibn Sam ibn Nuh peyğəmbər əleyhissəlam ibn Ləmək ibn Mətuşələx ibn İdris peyğəmbər əleyhissəlam ibn Bərd ibn Məhlayil ibn Qiynan ibn Ənuş ibn Şis peyğəmbər ibn Adəm əleyhissəlam[81] Nəsəbnamə biliciləri və xəbər sahibləri bütün müqəddəslərin öndəri olan [Məhəmməd peyğəmbərin] adlı-sanlı sələflərinin və yüksək səviyyəli ocdadlarının əhvalatı və onların hər birindən müşahidə edilmiş və insanların ən xeyirlisi olan həzrətin (Məhəmməd peyğəmbərin) nurunun şəfəqlərinin zühuruna müjdəçi olmuş qəribə işlər və qeyri-adi nişanələr və əlamətlər haqqında məlumat vermişlər və onların fəzilətlərinə və ləyaqətlərinə dair risalələr[82] tərtib etmişlər.

Bu kiçik zərrə (İsgəndər bəy Münşi) də müddəaya uyğun surətdə bu fənnin ustadlarının əsərlərinə əsaslanaraq, burada o məlumatların müxtəsər icmalını təqdim edir.

---

[76] Müasir tədqiqatçılar Səfəvi nəslinin kökünün peyğəmbər və imamlar soyuna gedib çatmasını göstərən şəcərələrin həqiqiliyini şübhə altına alırlar (bax: M.Abbaslı. Safevilerin kökenine dair // Türk Tarih Kurumu: «Belleten», sayı: 158, Nisan 1976, s.287-329).

[77] Bəlağət - fikri incə, aydın və gözəl ifadələrlə anlatmaq; natiqlik məharəti.

[78] Xəlil («dost», «yaxın yoldaş» deməkdir) - İbrahim peyğəmbərin ləqəbidir. İbrahim peyğəmbər İsmayıl peyğəmbərin atasıdır. Bu cümlədə Məhəmməd peyğəmbərin və Həzrət Əlinin İbrahim peyğəmbərin oğlu İsmayılın nəslindən olmasına işarə edilir.

[79] Ədnan - Məhəmməd peyğəmbərin 21-ci əcdadıdır. Dini mətnlərə görə, onun kökü İbrahim peyğəmbərin oğlu İsmayıl peyğəmbərə gedib çıxır.

[80] Əbülbəşər (ərəbcə «bəşəriyyətin atası» deməkdir) - dini rəvayətlərə görə, ilk insan hesab olunan Həzrət Adəmin ləqəbi.

[81] S-297, v.1a; S-129, v.5b. Bəzi orta əsr tarixçilərinin Ədnanın ata-babaları haqqında təklif etdikləri şəcərələrin natamam olduğu bəllidir. İsgəndər bəyin verdiyi şəcərə ilə digər şəcərələr arasında da müəyyən uzlaşmazlıq vardır. Bundan əlavə, «Tarix-i aləmara-yi Abbasi»nin öz nüsxələri arasında da bu baxımdan müəyyən fərqli cəhətlər nəzərə çarpır. Lakin S-297 nüsxəsinin şəcərəsi daha yaxşı vəziyyətdə olduğu üçün bu əlyazmadakı variant əsas alınmışdır.

[82] Risalə - kitabça, traktat.

İnsanların ən xeyirlisi olan [Məhəməd peyğəmbərin] kəramətli əcdadlarının bəyam. Abdulla [ibn] Abbasdan[83] - Allah ondan razı olsun - rəvayət edilir ki, Rəsul həzrətləri - ona və nəslinə salavat olsun - öz şəcərəsini bəyan edərkən Ədnana çatdıqda möcüzəvi dili ilə belə buyurdu: «Mənim Ədnandan əvvəlki sələflərimin adlan barədə məlumatlar tam məlum deyildir».

Ədnanın iki oğlu vardı. Amma peyğəmbər və imamın (Məhəmməd peyğəmbərin və İmam Əlinin) - onlara salam olsun - nuru [peyğəmbərin] «mən və Əli bir bütünük» hədisinin hökmünə uyğun surətdə bir simadan parlayıb işıldadı və onun (Ədnanın) Məəd adlı[84] kiçik oğlu keçdi. [Məədin] səkkiz oğlu oldu. Həmin oğulların arasında bu nəsildə zühur edən ənənəvi nurun daşıyıcısı Nəzar oldu. Onun künyələri[85] Əbu-Rəbiə və Əbu-İyaddır. Nəzar anadan olduqda atası onun alnından parlayan o nurun zühuruna görə şükür etməkdən ötrü qurbankəsmə mərasimini yerinə yetirərək, camaat üçün ehsan süfrəsi açdı. Daha sonra həmin feyz bəxş edən nur o yüksək xilqətlinin övladı Müzərin camalına keçdi. Müzər həmişə İbrahimin hənif dininə[86] və İsmayılın məzhəbinə uyğun şəkildə Ulu Tanrıya itaət edirdi və dünyanı bəzəyən nur onun mübarək çöhrəsindən təcəlla edərək, dövranın zülmünü və zülmətini dəf edirdi. Onun zahiri yaraşığı da mükəmməl idi. Ərəblər arasında dəvə saxlamaq qaydasının əsasını o qoymuşdur. Sonra o günəş timsallı nur onun cah-calallı oğlu İlyasın üzündə göründü. İlyas vahid Allaha inanan, dinpərvər və pəhrizkar bir adam idi. O, övladının olacağından ümidi üzülmüş atasının qoca yaşlarında anadan olmuşdu və labüd olaraq İlyas adlandırılmışdı[87]. O, öz tayfasının və əşirətinin böyüyü, Xəlil övladlarının əşrəfi və İsmayıl övladlarının sərvəri oldu. Deyirlər ki, o, Kəbə evini təvaf edərkən vəfat etdi[88]. Daha sonra həmin nurun işığı onun oğlu Müdrikənin camalından parladı. [Müdrikə] Amir adı ilə tanınırdı. Ondan sonra isə [nur] onun oğlu Xüzeymənin üzündən aşkar olub, aləmi bəzədi. Həmin günəş nişanlı nur sonradan Xüzeymənin [oğlu] Kənanənin surətindən parlayıb, cahanı işıqlandırdı. [Kənanə] Əbu-Nəsr künyəsinə malik idi. Onun oğlu Nəsr «Qüreyş» [adı] ilə tanındı. Bütün qüreyş qəbilələri onun nəslindəndirlər. Daha sonra onun oğlu Malik həmin nurun daşıyıcısına çevrildi. Ondan sonra isə onun oğlu Fəhər bu səadətlə fərqləndi.

---

[83] Abdulla ibn Abbas - Məhəmməd peyğəmbərin əmisi oğludur. Hədis kitablarında onun dilindən peyğəmbərin həyatı və fəaliyyəti haqqında çoxlu hədislər nəql edilmişdir.

[84] S-297, 1 a; S-129, 5 b.

[85] Künyə - ərəb dilində «əbu», «ibn» və «ümm» sözləri ilə başlanan ləqəb. «Əbu» ilə başlanan ləqəblərdə ata öz oğlunun adı ilə, «ibn» sözü ilə başlanan ləqəblərdə oğul öz atasının adı ilə, «ümm» gəlməsi ilə başlanan ləqəblərdə isə ana öz övladının adı ilə tanıdılırdı.

[86] Hənif dini - islamdan öncə Ərəbistanda bütpərəstliyə qarşı çıxaraq, təkallalılığı təbliğ edən dini cərəyan. Əsası İbrahim peyğəmbər tərəfindən qoyulmuşdur.

[87] İlyas - «məyusluğu uzaqlaşdıran» mənasındadır. Müzərin uzun müddət övladı olmadığı üçün çox məyus idi və buna görə do oğlu dünyaya gəldikdə ona İlyas adını qoymuşdu.

[88] Kəbə evi – Səudiyyə Ərəbistanın Məkkə şəhərində yerləşən və müsəlmanların ən müqəddəs ziyarətgahı olan məscid. Təvaf etmək - müsəlmanların Kəbə evininin və digər müqəddəs məkanların ətrafında dövrə vuraraq yerinə yetirdikləri ziyarət mərasimi.

[Həmin nur] ondan oğlu Qalibə çatdı, ondan da öz oğlu Lüveyə və [Lüveydən] öz oğlu Kəəbə ötürüldü. Kəəbin çoxsaylı oğullarından Mürrə bu şərəfə nail olmaqla qardaşlarından əziz oldu. Ondan da öz oğlu Kəlaba keçdi. [Kəlab] bəniqüreyş [tayfasının] böyüyü və başçısı idi. Ondan da oğlu Qusayın nəslinə ötürüldü. Onun övladları arasında isə Əbdülmənaf bu səadətə qovuşaraq, öz qardaşlarından üstün oldu. Onun sadiq xələfi Haşimdir ki, Ümrülüla adına malik idi və Haşim ləqəbi əldə etmişdi. O, qüreyş [tayfasının] rəhbəri idi. Səadət nurları onun təmiz alnından parlayır və ululuq, böyüklük əlamətləri onun günəş timsallı simasından görünürdü. Haşimilər nəslindən olmaq qüreyş [tayfası] içərisində böyük şərəf və yüksək dərəcədir.

Onun oğullarından Əbdülmütəllib bu nəsildə zühur edən ənənəvi nurun daşıyıcısı oldu. O, uca şan-şöhrət və yüksək mövqe sahibi kimi qüreyş qəbilələri arasında üstün bir şəxs idi. Qəbilə başçıları onun rəisliyini və böyüklüyünü qəbul edib, ona itaət göstərirdilər. Onun əsl adı Şeybə idi və məşhur tarixi əsərlərdə qeyd olunmuş bir səbəb üzündən Əbdülmütəllib [adı] ilə tanınmışdı[89]. Kəbə evinin kilidi onun əlində idi və o, oranın hacibi[90] vəzifəsini tuturdu. Zəmzəm quyusunun qazılması onun zamanında baş vermişdi[91]. Onun izzətli və cəlallı Tanrının dərgahına etdiyi hər bir dua Əhməd[92] nurunun uğuru sayəsində qəbul olunardı. Onun on iki oğlu vardı. «Rövzətüs-səfa» və «Xülasətül-əxbar»[93] müəlliflərinin

---

[89] Ərəb mənbələrinə görə, Məhəmməd peyğəmbərin babası Əbdülmütəllib anadangəlmə ağ saçlı olduğu üçün ona Şeybə («ağsaçlı») adını vermişdilər. O, atası vəfat etdiyindən uşaqlıqda Yəsrib (Mədinə) şəhərində öz dayılarının yanında qalırdı. Əmisi Mütəllib onu Məkkəyə gətirmiş və bu qabiliyyətli, istedadlı oğlana göz dəyməsin deyə, ilk vaxtlar onu öz köləsi kimi təqdim etmişdi. Beləliklə, Şeybə Məkkədə «Əbdülmütəllib», yəni «Mütəllibin qulu» kimi tanınmağa başladı. Sonradan onun kim olduğu aşkara çıxsa da, o, Əbdülmütəllib ləqəbi ilə çağırılmaqda davam etdi.

[90] Hacib - mənası «qapıçı» dcməkdir. Müqəddəs ziyarətgahların nəzarətçiləri və qoruyucuları da hacib adlanırdılar.

[91] Zəmzəm quyusu - Məkkədəki Kəbə məscidinin həyətində yerləşir. Dini mənbələrə görə, Zəmzəm bulağının meydana gəlməsi İbrahim peyğəmbərin oğlu İsmayıl peyğəmbərin zamanına aiddir. Həmin bulağın quyusu sonralar xarab olsa da. Məhəmməd peyğəmbərin babası Əbdülmütəllib onu bərpa etmiş və Zəmzəm suyunu yenidən istifadəyə vermişdi.

[92] Əhməd - Məhəmməd peyğəmbərin adlarından biridir.

[93] «Rövzətüs-səfa» (tam adı: «Rövzətüs-səfa fi sirətül-ənbiya vəl-müluk vəlxüləfa», yəni «Peyğəmbərlərin, hökmdarların və xəlifələrin tərcümeyi-halına dair saflıq bağçası») - Teymurilər dövrünün saray tarixçisi olan və Mirxond ləqəbi ilə tanınan Məhəmməd ibn Bürhanəddin Xvandşah ibn Mahmudun (1433-1498) dünyanın yaranışından Teymuri hökmdarı Əbu-Səidin 1469-cu ildəki ölümünə qədərki ümumi tarixə həsr etdiyi altıcildlik salnamədir. XVI əsrdə Mirxondun qız nəvəsi Xandəmir bu əsərə 1522-ci ilə qədərki hadisələrdən bəhs edən VII cildi əlavə etmiş, XIX əsrdə isə Rzaqulu xan Hidayət bu salnaməyə daha üç cild artıraraq, onu Nəsirəddin şah Qacar (1848-1896) zamanının hadisələrinə kimi davam etdirmişdir (Ч.А.Стори. Персидская литература: био-библиографический обзор в трех частях. Перевел с английского, переработал и дополнил Ю.Э.Брегель. Москва, 1972, ч. I, с.361-378, ч. II, с.975).

«Xülasətül-əxbar» (tam adı: «Xülasətül-əxbar lı bəyan əhvalül-əxyar», yəni «Xeyirxahların əhvalının bəyanı haqqında xəbərlərin xülaləsi») – Xandəmir ləqəbi ilə tanınan məşhur xorasanlı tarixçi Qiyasəddin ibn Hüməməddin Məhəmmədin (1475/76-1535/36) h. 905-ci ildə (m. 1499-1500) tamamlayıb, Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın vəziri, şair və alim Əlişir Nəvaiyə təqdim

sözlərinə görə, onun səkkizinci oğlu olan Abdulla sonuncu peyğəmbərin (Məhəmməd peyğəmbərin) atasıdır və Əbdülmütəllib nəzir demişdi ki, əgər Allah ona on oğul verərsə, özünün əziz övladlarından birini Allah yolunda qurban verəcəkdir. Tanrı dərgahında onun bu istəyi qəbul olunub baş tutduğuna görə o istədi ki, öz nəzirinə əməl etsin və bu məqsədlə öz oğulları arasında püşk atdı. Püşk Abdullanın adına çıxdı. Abdulla bu şad xəbərdən sevinib, ilahi təqdirə boyun əydi. Əbdülmütəllib onun itaətkarlığından və öz ali mənşəli atasına razılıq verməsindən sevincək olub, öz oğlu ilə birgə qurbangaha üz tutdu. Qüreyş [tayfası] bundan xəbərdar olub, onun arxasınca getdi və onu bu işdən çəkindirdi. Bu barədə o dövrdə misilsiz olan bir kahinənin rəyini soruşdular. Həmin kahinə onu fidyə ödəmək səmtinə yönləndirdi və qərar verdi ki, Abdullanın fidyəsi üçün övladlarının sayına görə on dəvə fidyə qoyub, dəvələrlə onun arasında püşk atsın; əgər püşk neçə dəfə Abdullanın adına çıxarsa, onda hər dəfə fidyəyə on dəvə artırsın və püşkün dəvələrə düşəcəyi vaxta qədər bunu davam etdirsin. Əbdülmütəllib onun dediyinə əməl etdi. Püşklər yenə də Abdullanın adına gəlirdi. Nəhayət, fidyəyə qoyulmuş dəvələrin sayı yüzə çatdıqda Şanlı və Uca Yaradan fidyəni qəbul etdi və püşk dəvələrə düşdü. Beləliklə, püşk neçə dəfə təkrar edildikdən sonra Abdullaya şəfa hasil olundu. Məhz bundandır ki, insanların ən xeyirlisi («xeyrül bəşər»)[94] olan həzrətin (Məhəmməd peyğəmbərin) ümmətinin kamil fidyəsi yüz dəvədən ibarət olaraq müəyyənləşdirilmişdir. İnsanların ən xeyirlisi olan həzrətin «mən iki qurbangahın oğluyam» deyə buyurduğu kəlam Abdullaya və İsmayıla işarədir. Tarix kitablarında yazıldığı kimi, Əhməd nurunun işartısı və Məhəmməd əlamətinin günəşə bənzər şəfəqləri Abdullanın təmiz alnından parlayırdı. Yəhudilər bir neçə dəfə son dərəcə nifrət və paxıllıq üzündən ona qəsd etməyə cəhd göstərsələr də, o, hər dəfə qeyb aləminin qoşunlarının köməyini almış və düşmənlərin zərəri ondan yan keçmişdi. Onda olan nurun zühurunun işartısı səbəbindən qüreyş [tayfasının] bütün xatunları onun günəş misallı camalına vurğun olub, ona qovuşmaq arzusuna düşmüşdülər. Lakin bu səadət Vəhəbin qızı Aminəyə nəsib oldu və onun amal ağacı murad səmərəsi yetişdirdi. «Fil ilində»[95] sonuncu peyğəmbər həzrətləri o hörmətli qadından vücuda gəldi və zülmət içində olan aləm onun dünyanı bəzəyən parlaqlığından işıqlandı. [Peyğəmbər] ana bətnində olan müddətdə, doğuş və südəmərlik zamanında və boya-başa çatma əyyamında, ta ona peyğəmbərlik verilən vaxta qədər o peyğəmbərlər sərvərindən və onun möhtərəm anasından qeyri-adi işlər, məxfi

---

etdiyi tarixi əsərdir. Bu əsər ümumi tarixə həsr olunmuşdur və müqəddimədən, on məqalədən və xatimədən ibarətdir (Ч.А.Стори. Персидская литература, ч. I, с.380-383).

[94]Xeyrülbəşər («insanların ən xeyirlisi» deməkdir) - Məhəmməd peyğəmbərin ləqəblərindən biri.

[95] «Fil ili» - burada Məhəmməd peyğəmbərin doğulduğu m. 570-ci il nəzərdə tutulur. Həmin ilin ərəblər arasında belə adlanmasına səbəb o idi ki, peyğəmbərin doğulmasından iki ay öncə Yəmən hakimlərindən olan Əbrəhə ibn Səbah əl-Əşrəm müqəddəs Kəbə evini dağıtmaq üçün tərkibində on iki fil olan qoşunu ilə Məkkəyə hücum etmiş, lakin müvəffəqiyyətsizliyə düçar olmuşdu. Məhz bu hadisəyə görə həmin il «fil ili» kimi məşhurlaşmışdı.

işarətlər və möcüzələr baş vermişdir. Qissə[96] və xəbər kitabları bu məsələlər barədə məlumat verirlər.

Müxtəsər, Adəm övladlarının rəhbəri [Məhəmməd peyğəmbərin] dünyanı bəzəyən camal günəşinin doğuşundan öncə, Abdulla iyirmi beş yaşında ikən gözəl Mədinədə aləmlərin rəbbi olan [Allahın] rəhmətinə qovuşub, Yəsribin[97] müqəddəs torpağında dəfn olundu. [Peyğəmbərin] səadətli mövludunun yeddinci ilində Aminə vəfat etdi. Əbdülmütəllib o sərvərin böyüdülməsini öz üzərinə götürdü. [Peyğəmbərin mövludunun] səkkizinci ilində Əbdülmütəllib də mərhəmətli [Allahın] rəhmətinə qovuşdu. Yetim qalmış o dürrün tərbiyəsi əmiləri arasında Əbü-Talibin öhdəsinə düşdü. Əbu-Talib, Əbdülmütəllibin yeddinci oğlu idi və adı İmran idi. O, qüreyş qəbilələri içində şərəf və ad-san sahibi idi. Sonuncu peyğəmbər həzrətləri o yüksək dərəcəli əmisinin hüsn-rəğbəti və şəfqəti ilə böyüdü və onun peyğəmbərliyinin onuncu ilinə qədər o sərvər (Əbu-Talib) həyatda qalaraq, o həzrətə köməklik etməkdə böyük səy göstərdi. Nəhayət, [peyğəmbərliyin] onuncu ilində [Əbu-Talib] haqqın dəvətinə boyun əydi. Əbu-Talibin və Xədiceyi-Kübranın[98] vəfatları səbəbindən Həzrət Rəsul həmin ili «hüzn ili» adlandırdı.

Əbu-Talib hücum edən aslan («heydəri-kərrar»), kafirlərin və müşriklərin[99] qənimi, aləmlərin Rəbbinin canişini və dostu, Allahın şiri («əsədulla»), möminlərin əmiri («əmirülmöminin») olan Əlinin - ona salam olsun - şanlı-şöhrətli atası idi. Əli ibn Əbu-Talibə müvafiq və müxalif olanların kitabları onun fəzilətlərinin və ləyaqətlərinin təsviri ilə doludur və onun üstün keyfiyyətlərini sadalamaqla qurtaran deyil. O, Həzrət Rəsuldan sonra Adəm övladlarının əşrəfidir və [peyğəmbərin onun haqqında dediyi] «əti ətimdən, qanı qanımdandır» hədisinin hökmünə əsasən, o, Allahın rəsulu ilə sanki ekiz bir qardaş kimidir. O həzrət asimandan gələn işarəyə əsasən, təmiz və pak Zəhra[100] ilə evləndi. İlahi sirlərin o iki xəzinəsindən və həmin iki qeyri-məhdud feyzlər mədənindən peyğəmbər nəslinin iki parlaq ulduzu (İmam Həsən və İmam Hüseyn) ay və günəş kimi doğdu. Onların yüksək şanı haqqında cənnət əhli rəhbəri [Məhəmməd peyğəmbərin] dürr saçan kəlamı nazil olmuşdur. Onların (Həzrət Əli ilə Fatimə xanımın) şərəfli adlarının və «oradan on iki bulaq fışqırdı» [ayəsinə][101] uyğun olaraq, onların dünyanı bəzəyən çeşmədən bəslənmiş ali məqamlı, kəramətli xələflərinin xatırlanmasından məqsəd Allahın kölgəsi olan əlahəzrət şahın mübarək şəcərəsi haqqında təsəvvür yaratmaqdan və bəyan səhifəsini o həzrətin əzəmətli və

---

[96] Qissə - hekayə, povest, novella mənalarını ifadə edir. Burada qissə deyilərkən peyğəmbərin həyatından bəhs edən əsərlər nəzərdə tutulur.

[97] Yəsrib - Səudiyyə Ərəbistanının Mədinə şəhərinin qədim adı.

[98] Xədiceyi-Kübra - peyğəmbərin həyat yoldaşı Xədicə xanım nəzərdə tutulur. O, m. 619-cu ildə vəfat etmişdir.

[99] Müşrik - Allaha şərik qoşan, kafir.

[100] Zəhra - Məhəmməd peyğəmbərin qızı Fatimə xanım nəzərdə tutulur.

[101] «Qurani-Kərim», «Əraf» surəsi, 160-cı ayə.

kəramətli əcdadlarının əhvalının təsviri ilə bəzəməkdən ibarətdir. Asimanın bürclərinin sayı kimi, imamların da sayı on ikidir, əvvəlincisi Əli və axırıncısı Mehdidir[102].

Xülasə, peyğəmbərlik və imamət gülzarının o iki güldəstəsinin, cah-cəlal və kəramət bostanının o iki sərvinin[103] (Həzrət Əli ilə Fatimə xanımın) soyundan gələn, Musəvi əsilli, Hüseyni nəsilli möhtərəm və alicənab şah [Abbasın] ali nəsəbnaməsi, yuxarıda işarə olunduğu kimi, on iki imamın yeddincisi olan himmətli imam Musa əl-Kazimə - ona salam olsun - çatır və o ali məqamlı imamdan törəyir. Buna görə də aləmi nurlandıran günəşdən daha parlaq olan kəramətli imamların sadalanmasından əl çəkib, o həzrətin ali məqamlı əcdadlarının xatırlanmasına keçirik. Şəcərə bilicisi olan alimlərin hamısının fikri yekdildir ki, [Şah Abbasın] mübarək soyu Həzrət Kazimin - ona salam olsun - adlı-sanlı övladlarından ali məqamlı imamzadə Əbülqasim Həmzəyə gedib çıxır. Ən doğru sözə görə, o, Turşizin[104] Susefid [adlı yerində] dəfn olunmuşdur və onun şərəfli qəbri həmin vilayətin sakinlərinin ziyarətgahıdır.

İbn Bəzzaz [adı] ilə məşhur olan Təvəkkül ibn İsmayıl, Şeyx Sədrəddin Musa həzrətlərinin həyatı zamanında o həzrətin ali mənşəli əcdadlarının vəsfləri haqqında şeyxlərin əhvalat və kəramətlərinin və övliyaların ali məqamlarının göstəricisi olan bir kitab yazmış və onu «Səfvətüs-səfa» adlandırmışdır[105]. O, öz əsərini Firuzşah Zərrinkülahın[106] həyatının təsviri ilə başladığı üçün bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi) də onun yolunu davam etdirib, zərli yazan qələmin köməyi ilə dünyanı bəzəyən səhifəni o həzrətin haqqında məlumat verməklə zinətləndirir.

***Firuzşah Zərrinkülah.*** «Səfvətüs-səfa»nın müəllifi deyir ki, dünyada təriqət sultanı olan İbrahim Ədhəmin oğlanlarından biri[107] ölkə tutmaq bayraqlarını

---

[102] Mehdi - zühuru gözlənilən qeyb olmuş gizli imam, şiələrin on ikinci imamı Məhəmməd Mehdi Sahib əz-Zaman.

[103] Sərv - mülayim isti iqlimlərdə bitən hündür və həmişə yaşıl ağac növü. Burada məcazi mənada işlənmişdir.

[104] Turşiz - İranda, Məşhəddən cənub-qərb tərəfdə, Türbəti-Heydəriyyə şəhərindən qərbdə yerləşən şəhər.

[105] «Səfvətüs-səfa» («Saflığın saflığı») - İbn Bəzzaz ləqəbi ilə tanınan Təvəkküli ibn İsmayıl ibn Hacı Məhəmməd əl-Ərdəbili tərəfindən Şeyx Səliəddinin oğlu Şeyx Sədrəddinin zamanında, h. 759 / m. 1358-ci ildə Şeyx Səfiəddinin həyatı və fəaliyyəti barədə farsca yazılmış irihəcmli bir əsərdir (Ч.А.Стори. Персидская литература, ч. II, с. 850.). «Səfvətüs-səfa» 1543-cü ildə I Şah Təhmasibin göstərişi ilə Mövlana Məhəmməd ibn Hüseyn Katib Nişati adlı bir katib tərəfindən fars dilindən Azərbaycan türkcəsinə tərcümə edilmişdir (bax: Şeyx Səfi təzkirəsi. «Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi. Tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı. Bakı, 2006).

[106] Firuzşah Zərrinkülah - Səfəvi sülaləsinin real tarixi şəxsiyyət kimi qəbul edilən ən qədim əcdadıdır.

[107] İbrahim Ədhəm - VIII əsrdə yaşamış, Bəlx hakimləri nəslindən olmuş və Suriyada vəfat etmiş bir ruhanidir. Onun xələflərindən hər hansısa bir hökmdar çıxmamışdır. Buna görə də tədqiqatçılar, guya İbrahim Ədhəmin övladlarından olan bir hökmdarın Azərbaycana yürüş etməsi və Firuzşahı Ərdəbil hakimi təyin etməsi barədə Səfəvi mənbələrində verilmiş məlumatların qeyri-dəqiq olduğunu hesab

qaldırıb, həmişə qəzavat və cihadla[108] məşğul idi. O zaman Muğan, Arran və o hüdudun xalqı iman bəzəyindən məhrum və islam şərəfindən bəhrəsiz idilər. O mücahid[109] sultan (İbrahim Ədhəmin oğullarından biri) qüvvətli qılıncının atəşi ilə o vilayətin ərazisini islamın nuru ilə işıqlandırıb, qaranlıq və kafirlik adətlərini aradan qaldırdı və zahiri nailiyyət və mənəvi inkişaf cəhətcə dini hökumət və dünyəvi rəyasətə qabil olan Əmir Firuzşahı Ərdəbil vilayətinə və onun ətrafına başçı və əmir [təyin] etdi. [Firuzşahın] o qədər var-dövləti, sərvəti, ilxısı, mal-qarası və qənimətləri var idi ki, Ərdəbil vilayətinə sığmırdı. O, oradan Gilanın[110] kənar meşələrinə gedib, Rəngin [adlı] yerdə iqamət saldı və o vilayətdə dini məsələlər və maarif işləri ilə məşğul olub, bilik və səxavət süfrəsini böyük və kiçiklər üçün açdı.

Əmir Firuzşah ömür atının cilovunu əcəl bələdçisinə tapşırdıqdan (öldükdən) sonra onun rəşid oğlu Əvəz əl-Xəvas sədaqət sahiblərinin rəisliyi və başçılığı şərəfinə çatdı və o yerdən Ərdəbilə tabe kəndlərdən olan İsfərəncan kəndinə gedib, qohum-əqrəba və müridləri[111] ilə oranı məskən seçdi. O da hörmətli atasının tapşırığı ilə camaat arasında səxavət və mehmanpərəstliklə məşhur oldu və tanındı. Bir müddətdən sonra o, səxavət və bilik evindən ənam süfrəsini yığıb axirət müsafirxanasında mənzil seçdikdən (öldükdən) sonra onun misilsiz oğlu Məhəmməd əl-Hafiz[112] mərhəmətli atasının yerinə keçdi. Əcaib hadisələrdən [biri] odur ki, o, yeddi yaşında ikən atası evindən qeyb və yox oldu. Bu xanədanın qohumları nə qədər axtarsalar da, onu tapa bilmədilər və onun yoxluğundan məyus olub, ona yas tutdular. Yeddi il bitəndən sonra o, on dörd gecəlik ay kimi, cövza[113] bürcündə, boynundan bir «Quran» asıldığı halda atası evinin qapısında göründü. Onun qeybliyi zamanında ağlayan və inildəyən o ali sülalənin xidmətçiləri və müridləri öz gözlərini o kəramət asimanının bədrlənmiş ayının mübarək görüşü ilə işıqlandırdılar, onların yası və matəmi şadlıq və şənliyə çevrildi. Onun əhvalatından soruşdular. [O] dedi ki, bir neçə həqiqət və doğruluq yolu ilə gedən müsəlman cinlər məni öz yanlarına apardılar, mehribanlıq və səmimiyyət qapılarını üzümə açıb, mənə şəriəti öyrətdilər və «Quran»ı əzbərlətdilər. Bu yeddi ildə mən onların arasında fəzilətlərə yiyələndim və nəhayət, indi vətənə gəldim. Müridlər onun mübarək qədəmlərini dini və dünyəvi səadətə səbəb bilib, [onu] böyük babalarının rəhbərlik taxtında oturtdular. O da öz ali mənşəli əcdadlarının gözəl

---

edirlər (E.G.Browne. A History of Persian Literature in the Modern Times /A.D. 1500-1924/. Cambridge, 1924, p.36; R.M.Savory. Iran under the Safavids. Cambridge, 1980, p.4).

[108] Qəzavat (ğəzavat) və cihad - din yolunda aparılan müqəddəs müharibələr.

[109] Mücahid - çalışan, səy edən; cihad edən, din yolunda vuruşan.

[110] Gilan - Xəzər dənizinin cənub-qərb sahillərini əhatə edən tarixi vilayət.

[111] Mürid - hər hansısa bir təriqət şeyxinin, mürşidin tərəfdarı, ardıcılı.

[112] Hafiz - «Quran»ı əzbərdən bilənlərə verilən ad. Əvəz əl-Xəvasın oğlu Məhəmməd «Quran»ı əzbərdən bildiyi üçün ona «Hafiz» ləqəbi verilmişdi (bax: О.А. Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 61).

[113] Cövza bürcü - Əkizlər bürcüdür. İran günəş təqviminin üçüncü ayına (22 may-21 iyun) uyğundur.

adətlərini davam etdirib, kamil möminlik və haqq ilə işlərini görərək, xalqa rəhbərlik və mürşidlik etməyə başladı. Onun ömür günləri sona çatdıqdan sonra əcdadlarının səccadəsində[114] oturmaq, füqəraya və miskinlərə haqq yolunda yemək vermək onun şərəfli oğlu Səlahəddin Rəşidə çatdı. O da rəhbərlik və nəciblik taxtını böyük atalarının adəti üzrə yaxşılıqla bəzədi və Ərdəbilin Kəlxuran [adlı] yerini məskən seçdi[115].

[O], müridlərin nəzir və hədiyyələrinə gözünü örtüb, əkinçiliyə meyil göstərir, tərəfdar və təbəələrini əkinçiliyə təşviq edirdi. O bütün zahidliyi və pəhrizkarlığı ilə bərabər, həm də zahiri hüsn-camala malik idi və insan tayfalarının qəlbinə məhəbbət və mərhəmət toxumu səpirdi. O, yetmiş il ömür sürdükdən sonra varlıq yükünü axirət mənzilinə apardı (öldü). Onun əziz oğlu Əmir Qütbəddin yüksək rütbəli atasının yerinə keçdi. O, müqəddəs, mütəşəkkil dəstənin başçısı və rəhbəri oldu. [O], bu sülaləyə mənsub olanları öz mərhəmət və məhəbbət qanadı altına alıb, böyük əcdadlarının adəti üzrə haqq yolu ilə getmək istəyənləri düzgün yolla aparmağa başladı. Müridlər o səadət dairəsinin qütbünə və kəramət fələyinin məhvərinə xidmət etməyi öhdələrinə götürməyi lazım bildilər. O seçilmiş xasiyyətli əmirin həyatı zamanı gürcü hakimlərindən biri kafir gürcü qoşunlarının bir dəstəsi ilə qəfildən Ərdəbil vilayətinə basqın etdi[116]. O azğın dəstənin hücumundan müsəlmanlara çox ziyan dəydi. Əmir Qütbəddin o təhlükənin qorxusundan, ismət pərdəsi arxasında oturanları (qadmları) darülir-şad[117] [Ərdəbilə] köçürüb, möhkəm yerdə gizlətdi. Günün axırında [yolunu] azmışların vəziyyətindən bir xəbər əldə etmək üçün gizləndiyi yerdən çıxan zaman kafirlərdən biri yetişib, o sərvərə ağır bir yara vurdu. O da yaralanaraq və inildəyərək, öldürülmüş [adamların] arasına düşdü. O qorxunc hadisə sovuşduqdan sonra cərrahlar [onu] müalicə etdilər, yara sağaldı və mübarək şəxs salamat qaldı. O əhvalatdan sonra bərəkətli və səxavətli nəsihət və rəhbərlik taxtı bəzənib, xalqın mürəkkəb və çətin işləri onun dürr tökən dilinin bəyanatından aşkar olurdu. O, özünün gözəl təbiətli, mübarək nəsəbli nəvəsi Səfi əl-həq vəl-həqiqə vəd-din İshaqın səadətli təvəllüdü zamanında sağ və həyatda olub, bir neçə il o əzizi görməklə gözünü işıqlandırmışdır.

Xülasə, o tərifəlayiq xasiyyətli əmirin ölüm vaxtı çatdıqda böyük atalarından miras qalmış və öz mübarək ailəsinin xəzinəsində saxladığı irşad və

---

114 Səccadə - üzərində namaz qılınan kiçik xalça və ya qumaşdan tikilmiş döşənək. Burada təriqət rəhbərinin, mürşidin məqamı mənasında işlədilmişdir.

115 Kəlxuran – Ərdəbil şəhərindən 3 km. şimal-qərbdə yerləşən bir kənddir (B.Səfəri. Ərdəbil dər qozərqah-e tarix. Tehran, 1353, c. I, s.60). Bu kənd Səfəvi əcdadlarının məskəni olmuş. Şeyx Səfiəddin də məhz orada dünyaya gəlmişdir.

116 Gürcü qoşunlarının Ərdəbilə basqını h. 607 / m. 1210-11-ci ildə baş vermişdir (bax: Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti. Bakı, 2004, s.99).

117 Darülirşad - «irşad məkanı» deməkdir. Səfəvi şeyxlərinin iqamətgahı Ərdəbildə yerləşdiyi üçün həmin şəhərin adına bu epitet əlavə olunmuşdur.

irfan[118] çiçəklərini və cavahirlərini öz sevimli oğlu Seyid Salehə tapşırıb, [bu] etibarsız aləmlə vidalaşdı, onun pak ruhunun quşu ülvi aləmin zirvəsinə uçdu. Seyid Saleh müqəddəslik və mürşidlik dənizindəki sədəflərdən [çıxan] bir inci idi və düzlük, yaxşılıq və rəhbərlik bürcündəki dürlərdən idi. Gözəl adının mənası onun zahiri görünüşündə öz əksini tapırdı və səadət şüaları onun açıq alnından aydın və aşkar idi. O, ehtiyacı olanların qeydinə öz atalarından daha çox qalırdı, xalqın ona olan hüsn-rəğbəti gündən-günə artırdı. Həmişə füqəra və möhtaclar onun [evinin] səadətli qapısına gəlib-gedirdilər; qətiyyən ona olan müraciətlərin çoxluğundan usanmazdı. O, axirət səfərinə hazırlığa başlayıb, şərəfli ruhu təmiz və vəfalı [adamların] ruhları ilə birləşdi və onun həyat bağının cavan ağacı (oğlu) Seyid Cəbrayıl o həzrəti Kəlxuran darülimanında[119] dəfn etdi.

***Sultan Seyid Cəbrayıl*** ayıqların və bilicilərin başçısı, Allahı tanıyan səccadədə oturanların ən seçilmişi idi. Dindarlıq, möminlik, pəhrizkarlıq və ibadətdə ali dərəcəyə çatmışdı. Şərəfli atasının adəti üzrə, onun doğulduğu və böyüdüyü yerdə - Kəlxuranda məskən saldı. O diyarın camaatı o nəcib [adamın] müqəddəs nəfəsindən səadət işığı alırdı. Nəhayət, Allahla yaxınlaşmaq həvəsi onu yadlarla söhbətdən və zəmanə əhli ilə münasibətdən çəkindirdi. O, [Allah yolunda] mücahidlik və zahidliyə başlayıb, zahir və batinini irfan nuru ilə bəzəmişdi, sakitliyi sevərdi və xalqla az danışardı. Onun şöhrəti hər tərəfə yayıldıqda tayfa əyanlarının əziz qızlarından bir namuslu, təmiz ürəkli, oruc tutan, gecə namazı qılan və zamanın gözəli olan Dövləti adlı bir qız o ali nəsəbli ilə evlənməyə meyil göstərdi. Allahı tanıyan bilikli başçıların nəslindən [olan Seyid Cəbrayılın] belindən gələn nütfənin mayalanması nəticəsində o ismətli [qadın] bəyənilmişlərin və seçilmişlərin sultanı Səfi əl-həqq vəl-həqiqə vəd-din İshaqa - onun sirri müqəddəs olsun - hamilə oldu. Hamiləlik zamanı o mübarək görünüşlü vücudun vasitəsilə o ismətli [qadının] camalı o qədər dünyanı işıqlandırırdı ki, elə bil həmişə dövlət sübhü və səadət nuru onun günəşə bənzər alnından işıldayır və parlayırdı.

İbn Bəzzaz «Səfvətüs-səfa» kitabında Sultan Sədrəddin dövrünün alimlərindən olan Mövlana Möhyəddinin dilindən o möhtərəm xanımdan Şeyx Səfiəddinin ali əhvalatına və kamil dərəcələrinə aid hamiləlik, doğulma və südəmərlik müddətində baş vermiş o qədər əcaib nişanələr və əlamətlər, qəribə işlər nəql etmişdir ki, bu müxtəsər kitabda onları yerləşdirmək mümkün deyildir.

Nəhayət, dünyanı işıqlandıran o ulduz (Səfiəddin) səadət və xoşbəxtlik üfüqündən parladı[120] və onun həyat dərəcələrindən altı dərəcə keçdi (altı yaşa çatdı). Hörmətli atası «Allah behiştə çağırır»[121] sədasına səs verdi, cənnət

---

[118] İrfan (ərəbcə «bilmək», «xəbərdar olmaq») - Allahı dərk etmək anlamında işlədilir.

[119] Darüliman - «iman məkanı» deməkdir. Kəlxuran kəndi Səfəvi şeyxlərinin vətəni olduğu üçün bu cür adlanırdı.

[120] Şeyx Səfiəddin h. 650 / m. 1252-ci ildə doğulmuşdur.

[121] «Qurani-Kərim», «Yunis» surəsi, 25-ci ayə.

bağlarında mənzil saldı və həmin yerdə, öz hörmətli atasının qəbrinin yanında dəfn edildi. Həqiqətən də, o həzrətin mübarək qəbri feyz və rəhmət məkanıdır və onun rövzəsinin[122] içərisi cənnətin bir hissəsidir. Allahın kölgəsi olan əlahəzrət şah öz alicənablıq memarının nəzərinə kiçik və cəlalsız görünən köhnə imarəti ucurub, son dərəcə əzəmətli və gözəl bir ali günbəz bina etdirmişdir.

O hidayət[123] taxtı sultanının (Seyid Cəbrayılın) sadiq oğlu, safların safı və din başçılarının başçısı Şeyx Səfi əl-millət vəd-dindir. Onun sirri mübarək olsun! Onun ali məqamlarını və gözəl xasiyyətlərini saymaqla qurtarmaz. Onun işıqlı məzarı isə feyz nurunun və tayı-bərabəri olmayan qüdrət sahibinin (Allahın) rəhmətinin qonma yeridir. Yüksək mərtəbəli atasının vəfatından sonra möhtərəm anası o ilahi feyzlə bəslənmişin tərbiyəsi ilə məşğul oldu. Uşaqlıqdan Allahın kəramət nuru onun üzərinə düşmüşdü. Onun mübarək alnından qeybi sirləri açmaq nuru işıldayır və parlayırdı. Həmişə qəbirlərin sirrindən, ölülərin əhvalından və buna bənzər məsələlərdən xəbər vermək kimi qəribə işlər görürdü və anasına nəql edirdi. Anası [isə] ona yüksək mərtəbələrə və ali dərəcələrə çatmaq müjdəsi verirdi. Bir müddət biliyə və zahiri kamilliyə yiyələnməklə məşğul oldu. [Sonra] o, gəzib səyahət etmək və mənəvi aləmin çətinliklərini dərk etmək həvəsinə düşüb, zahidlik və çalışma çölünə qədəm qoydu. Bilirdi ki, kamillik sahibi olan bir mürşidin rəhbərli[124]yi olmadan kamal dərəcələrinə çatmaq mümkün deyil. Buna görə də, bəzən ərdəbilli Şeyx Fərəcin[125], bəzən Şeyx Əbu-Səidin - bu uluların hər ikisi Şeyxüt-tayifə Şeyx Cüneyd Bağdadinin müridlərindəndirlər - məzarı kənarında ibadətlə məşğul olurdu, bəzən də vaxtını ilahiyyat alimi Şeyx Şihabəddin Mahmud Əhərinin[126] məzarı yanında keçirirdi. O, kamil bir mürşid axtarırdı. O, Şeyx Nəcibəddin Bozquş Şirazinin[127] fəzilət dərəcəsinin yüksəkliyini və gözəl halını öyrənəndə arzu dalınca qaçmaq həvəsi onu Şiraza tərəf yollandırdı.

Onun Şirazda çoxlu var-dövlət və nüfuz sahibi olan Səlahəddin adlı özündən böyük qardaşı vardı ki, o da orada əsilzadə qızlarından bir iffətlisi ilə

---

[122] Rövzə - ərəbcə «bağça» deməkdir. Bəzən müqəddəs şəxslərin məqbərələri də «rövzə» adlandırılırlar.

[123]Hidayət - insanları doğru yola dəvət etmək.

[124] S-129, v.9b. Tehran çapında (s.12) və S-297 nüsxəsində (v.4a) yanlışlıqla Şeyx Fərrux yazılmışdır. Əslində isə. S-129 nüsxəsində qeyd edildiyi və digər mənbələrlə, o cümlədən İbn Bəzzazın «Səfvətüs-səfa» əsəri ilə təsdiq olunduğu kimi, həmin şəxsin adı Şeyx Fərəc olmalıdır (bax: Şeyx Səfi təzkirəsi, s.60).

[125] Şeyxüt-tayifə Şeyx Cüneyd Bağdadi - yəni Əbülqasim Cüneyd ibn Məhəmməd Qavariri. Məşhur ilahiyyatçı alim və sufi şeyxi olmuşdur. Təqribən m. 820-ci ildə Bağdadda anadan olmuş, m. 910-cu ildə orada vəfat etmişdir. Sufilikdə «seyyidüt-tayifə» və ya «şeyxüt-tayifə», yəni «sufi tayfasının ağası, başçısı» ləqəbini almışdır (ASE, c. X, s.450).

[126] S-129, v.9b; S-297, v.4a. Tehran çapında (s.12) Əhəri əvəzinə Ameri yazılmışdır. Əslində isə, Bakı nüsxələrində olduğu kimi, Əhəri yazılmalıdır. Çünki bu şəxs əslən Cənubi Azərbaycanın Əhər şəhərindən olduğu üçün «Əhəri» nisbəsi ilə tanınmışdır (bax: Şeyx Səfi təzkirəsi, s.913).

[127] Şeyx Nəcibəddin Bozquş - XIII əsrin məşhur sufi şeyxidir. Əslən Azərbaycan türkü olsa da, Şirazda doğulmuş və orada yaşamışdır. O, görkəmli Azərbaycan alimi Şihabəddin Sührəvərdinin (1145-1234) şagirdi və davamçısı idi (bax: Şeyx Səfi təzkirəsi, s.893-894).

evlənib, bu qohumluq vasitəsilə Şirazda yaşayırdı. Şeyx qardaşı ilə görüşmək bəhanəsi ilə mehriban anasından səfər etmək icazəsi alıb, məqsədə tərəf yola düşdü. Yolda hər yerdə Allah adamlarına, dərvişlərə və möminlərə çatdıqda onlarla söhbət etməyə can atır, hər kəsdən bir şey öyrənirdi. O, Şiraza yetişən zaman Şeyx Nəcibəddin Bozquş artıq dünya evindən getmişdi. O, həmin vilayətin şeyxləri ilə görüşdü, lakin istədiyi feyz qapısı onun üzünə açılmadı. Bu arada böyük alimlərdən Mövlana Rəziəddinin yanına gəlib, «İza zəlzələ» surəsinə[128] qədər onun yanında təfsir[129] müzakirəsində iştirak etdi və təfsir dərsi vermək icazəsi aldı. Onun Şeyx Müslihəddin Sədi Şirazi[130] ilə də söhbəti oldu, [lakin] onunla görüş əziz xatirinə xoş gəlmədi. O vilayətin dərvişləri və səadət məzhəbli irşad sahibləri o həzrətin rütbəsini sufilik vadisinin yolunda özlərindən yüksək gördükdə onu seyidlər zümrəsindən və dini rəhbərlərdən olan Əmir Abdullanın yanına apardılar. Onun yanına çatdıqda, həqiqətən, bir adam gördü ki, bütün yaxşı sifətlərə və kamilliklərə malikdir və elə bir ayna müşahidə etdi ki, [Allahın] camal və calalının nuru onda əks olunur. Həzrət Şeyx Səfiəddin öz əhvalatını ona söylədi. [Əmir Abdulla] bir az fikrə getdikdən sonra başını qaldırdı və dedi:

- Ey gənc türk! Mücahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin üçün hasil olan [şeylər] mənim bəsirət gözümə çatmayıb. Sənin qarşında böyük bir alış-veriş durur. Lakin bu bazarda belə bir alış-veriş mümkün deyildir. Bu gün sənin gözündən pərdəni götürüb, səni məqsədə tərəf yönəldə biləcək ilahiyyət elmlərini bilən Şeyx Zahid Gilanidən başqa bir kəs yoxdur. Onun Gilanda, sizin vilayətinizin yaxınlığında, dəniz kənarında xəlvət yeri var[131].

Sonra o, Şeyx Zahidin xarici görünüşünü ona təsvir etdi. O həzrət Fars şeyxləri ilə vidalaşıb, onların saf ürəklərindən kömək diləyib, vətənə döndü. Qardaşı ona nə qədər mal-dövlət təklif etdisə, o həzrət qəbul etmədi. O, məqsəd yolunda tələb addımını irəli ataraq, böyük Allahın amanının zəmanəti ilə darülirşad Ərdəbilə çatdı. Şeyx Zahid iman nuru və batini elm sayəsində [bunu] dərk edib, öz müridlərinə üz tutaraq dedi:

- Ərdəbildə haqq axtarmaq çöllərində gəzənlərdən bir gənc bizlə görüşmək istəyir. Ondan böyük Allaha qədər yalnız bir pərdə qalmışdır.

Xülasə, Şeyx Səfiəddin Şeyx Zahidin yerini-yurdunu öyrənib, o tərəfə yola düşdü və kəramət nişanlı xanəgaha çatıb, zaviyədə[132]

---

[128] «İza zəlzələ» və yaxud «Zilzəl» surəsi «Qurani-Kərim»in 99-cu surəsidir.

[129] Təfsir - «Qurani-Kərim»in izahı.

[130] Şeyx Müslihəddin Sədi Şirazi - XIII əsrdə yaşamış məşhur İran şairidir.

[131] Şeyx Zahid (1218-1301) Lənkəranın Siyavrud kəndində doğulmuş və orada vəfat etmişdir. Həyatının bir hissəsini Hilyəkəran (indiki Şıxakəran) kəndində keçirmişdir. Hal-hazırda onun məzarı Lənkəranın Şıxakəran kəndindədir (V.Minorsky. A Mongol Decree of 720/1320 to the Family of Shaykh Zahid // BSOAS, London, 1954, vol. 16, part 3, p. 515-527; Məşədixanım Nemət. Azərbaycanda pirlər. Bakı, 1992,s.38-40).

[132] Xanəgah - bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer. Zaviyə - guşə, künc, bucaq; sufi təriqətlərinin məkanı. Xanəgahla eyni mənada işlənən sözdür.

namaz qılmaqla məşğul oldu. Mübarək ramazan ayı idi. Şeyx Zahidin adəti belə idi ki, o, orucluq ayı təzələndikdə öz hərəminə gedib, gecə-gündüz [Allaha] itaət və ibadətlə məşğul olardı, iftarı arvad-uşağı ilə yeyərdi və fitr bayramına qədər müridlərlə görüşməzdi. Səfiəddin o ali yerə çatan gün Şeyx Zahid öz hücrəsindən çıxıb, xidmətçilərdən birinə buyurdu:

- Bu gün dünyanın haqq axtaranlarından biri [buraya] qonaq gəlib, ibadətgahda namaz qılır. [Namazı] qurtarandan sonra onu mənim yanıma gətir.

Xidmətçi o haqq yolu ilə gedəni gətirdi və o, Şeyx [Zahidlə] görüşmək səadətinə çatdı. Şeyx [Zahid] onu Səfiəddin deyə çağırdı, onun ali rütbələrə və yüksək dərəcələrə çatacağı haqqında xoş xəbər verdi.

Şeyx Səfiəddin Şeyx Zahidin bütün xüsusiyyətlərini onun haqqında eşitdiklərinə uyğun görərək, kömək əli ilə onun ətəyindən yapışdı və layiq xidmətlər göstərməklə [onun] ən yaxın adamlarından oldu. Həzrət Şeyx Səfiəddinin pəhrizkarlığı və zahidliyi o yerə çatmışdı ki, hər həftədə bir dəfə iftar xörəyi yeyərdi. Şeyx Zahidin nəsihətləri nəticəsində o, üç gündə bir dəfə [yeməyi] qərara aldı. Nəhayət, Şeyx [Səfiəddin] o adəti də əziz xasiyyətindən tərk edib, gündə bir dəfə iftar yeməyə başladı. Ancaq bir tikə quru düyüyə qənaət edib, ət və yağdan çəkinərdi, heyvani qidanı qətiyyən yeməzdi. Səfiəddin haqqında çoxlu möcüzələr və kəramətlər nəql edilib. «Səfvətüs-səfa»da və Əmini Herəvinin «Fütuhat»[133] kitabında [bu haqda] müfəssəl yazılmışdır.

Xülasə, o kamil sifətlərə sahib olan [Şeyx Səfiəddin] həmişə ruhlar və kabuslar aləmində çalışaraq, dərrakəlilik gözünü açır və həqiqi röyalar görürdü. O cümlədən bir gecə yuxuda gördü ki, belinə bir qılınc bağlamış və başına samur dərisindən bir papaq qoymuşdur. Başından papağını götürən kimi mübarək başından bir günəş çıxır ki, aləmə işıq saçır. Bu yuxunu Şeyx Zahidə nəql edib, onun yozulmasını soruşdu. Açıq ürəkli Şeyx [Zahid] gözəl təbirlə bəyan edərək buyurdu:

- O qılınc və günəş sənin nəslindən qüdrətli bir padşahın çıxıb zühur etməsi əlamətidir. Tezliklə onun parlayışı günəş kimi bütün dünya əhlinə nur saçacaq, onun qüvvətli qılıncının alovundan yolunu azmış və dinsiz zalımlar məhv və yox olacaqlar.

Sözün qısası, o həzrət mücahidlik və zahidlikdə çox tərəqqi etdi və [onun] feyz mənbəyi olan batinindən ilahi sirlərin nuru parlamağa başladı. Şeyx Zahid o həzrəti özü ilə qohum edərək, parlaq Zöhrədən[134] faydalanmış Fatimə adlı pak qızını ona verdi.

---

[133] «Fütuhat» və ya «Fütuhat-i Əmini» - bu ad altında heratlı tarixçi Əmir Sədrəddin Sultan İbrahim əl-Əmininin (1477/78-1535) 1521-ci ildə yazmağa başladığı «Fütuhat-i şahi» («Şahın fəthləri») əsəri nəzərdə tutulur. Bu mənbə Səfəvi əcdadlarının ömür yolunu və 1513-cü ilə qədər I Şah İsmayılın qələbələrini əks etdirmək baxımından olduqca önəmlidir (Ч.А.Стори. Персидская литература, ч. II, с. 850-852; О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке. Баку, 1981, с.8-11). Tehran çapında (s. 13,14,18,20,32) bu əsərin adı yanlışlıqla «Fütuhat-i Yəməni» deyə yazılmışdır.

[134] Burada parlaq Zöhrə deyilərkən gözəlliyin rəmzi sayılan Venera planeti nəzərdə tutulur.

Şeyx Zahid həyatda olarkən ona (Səfiəddinə) mürşidlik və dini rəhbərlik icazəsi verirdisə də, o, qəbul etmirdi. Nəhayət, [Şeyx Zahid] öz vəfatı zamanı hidayət və övliyalıq tacını o həzrətə verdi və onun qabiliyyətli qamətini bu əziz paltarla bəzədi. Bədxah adamlar Həzrət Şeyx Zahidə etiraz etdilər ki, o həzrətin sadiq oğlu və doğma övladı, kamillik sahibi Şeyxzadə Cəmaləddin Əli durduğu halda, nə üçün onu [işlərə] icazə vermək və rəhbərlik etmək səadətinə layiq görmür və bu kürsüyə Şeyx Səfiəddini oturdur?

Şeyx [Zahid] şübhəni aradan qaldırmaq və müridləri sakit edib təsəlli vermək məqsədi ilə [onların] hər ikisini sınaqdan keçirmək qərarına gəldi. Soruşdu: «Oğlumun xəlvətxanası haradadır?» Dedilər: «Xanəgahın yanında». Soruşdu: «Səfinin xəlvətxanası haradadır?» Dedilər: «Şeyxin xəlvətxanasından oraya qədər yarım fərsəxdir»[135]. Dedi: «Hər ikisini çağıracağam ki, hər birinin rütbə və dərəcəsi sizə məlum olsun». O üç dəfə oğlunu çağırsa da, oğlu cavab vermədi. Səfini səsləyəndə cavab gəldi: «Gəldim, yetişdim, ya şeyxim və mürşidim!» Və [Səfiəddin] addımını otağa qoydu. Şeyx [Zahid] buyurdu: «Səfi, harada idin?» Dedi: «Öz xəlvətxanamda idim ki, şeyxin şövq artıran səsini eşidib, yanınıza gəldim». Şeyx [Zahid] üzünü camaata çevirib dedi: «Şanlı və uca Allah mənim nəzərimdə tutduğumu Cəmaləddinə deyil, Səfiyə vermişdir. Mən isə Allahın əmanətinə xəyanət etməyib, onu sahibinə çatdırdım».

Nəhayət, Şeyx Zahid Gilanın Siyavrud [kəndində], 700-cü ilin aylarında (16.09.1300 - 05.09.1301) o dünyaya getdi və həmən yerdə də dəfn edildi.

Din başçılarının sultanı Həzrət Şeyx Səfiəddin irşad, dərvişlik və ixtiyar libasını ondan (Şeyx Zahiddən) almışdır, o isə Seyid Cəmaləddindən, o isə Şeyx Şihabəddin Mahmud Əhəridən, o da yeddi vasitə ilə Seyyidüt-tayifə Şeyx Cüneyd Bağdadidən, o da Səriyyi Səqətidən, o da itaəti vacib olan İmam Əbül-Həsən Əli ibn Musa ər-Rza həzrətlərinin xadimi olan məşhur Kərxidən alıb.

Xülasə, Şeyx Zahidin vəsiyyətinə görə, o həzrət (Şeyx Səfiəddin) dini rəhbərlik və irşad taxtına keçdi və camaatı şəriətin doğru istiqamətinə və həqiqətin böyük və möhkəm yoluna çağırmağa başladı. O həzrətin Şeyx Zahidin qızından bir oğlu oldu; adını Sədrəddin qoydular. O həzrət (Səfiəddin) çoxlu məhrumiyyət çəkdiyindən və bədəninin zəifliyindən ömrünün axırlarında sidik kisəsi xəstəliyinə tutuldu. Bir müddət sufilik aləmində xəstəliyi bir növ dini dərman hesab edərək xoşlanırdı. Sonra isə zəiflik artdı və [o], yatağa düşdü. Xəstəlik zamanı ağrının şiddətindən taqətdən düşdüyü vaxtlar o həzrət indi öz nurlu və ətirli qəbri olan yerə gedib, orada bir qədər rahat olardı. [Sonra] hörmətli zövcəsi onu öz evinə gətirərdi, yenə ağrı şiddətlənəndə deyərdi: «Məni öz evimə aparın!». O həzrətin xidmətçiləri deyərdilər: «Siz öz evindəsiniz!». Buyurardı: «Mənim əsil evim oradır». Şeyxi oraya aparardılar. Neçə dəfə bu hadisə təkrar oldu. Ölüm zamanı Səfəviyyənin müqəddəs nişanlı müridlərini yığıb, müridlərə və övladına vəsiyyət etdi ki, şəriətin

[135] Fərəx – təxminən 6 km-ə bərabər olan uzunluq vahidi.

mübarək yolu ilə getməkdə davam etsinlər, şeyxlərin yolunu tutsunlar, yoxsullara hörmət edib, xörək verib, kömək göstərsinlər.

[Şeyx Səfiəddin] Həzrət Şeyx Sədrəddin Musa haqqında da buyurdu: «Mənim evimdə namaz qılmağı və bəndələri doğru yola çəkməyi oğlum Sədrəddinin öhdəsinə verirəm». Sonra isə nəsihət və öyüdə başladı. O vaxta qədər ki, Şeyx Səfinin qeybdən ilham alan, möcüzə yaradan dili danışmaq qabiliyyətini itirdi, onun son sözü bununla bitdi: «Ona (Məhəmməd peyğəmbərə) salavat göndərin və onu layiqincə salamlayın»[136]. 735-ci ilin məhərrəmül-həram ayının 12-də (12 sentyabr 1334), düşənbə günü[137], sübh namazından sonra [o], əcəl saqisinin[138] əlindən şərbət içdi və gözünü örtüb, mövcudluq aləminin qarışıqlıq evini müşahidə etməkdən əl çəkdi. [Səfinin] hörmətli zövcəsi isə Allahın dərgahına etdiyi dua və xahiş vasitəsilə on səkkiz gündən sonra o həzrətə qoşuldu və cənnət bağına getdi. «Biz Allahınıq və əlbəttə ki, onun dərgahına qayıdacağıq»[139]. «Bilin ki, Allahın övliyaları ölmürlər və lakin bir haldan başqa bir hala keçirlər».

**Beyt**

«Ürək sahibi olanlar heç vaxt ölməmişlər və ölmürlər,
Ölüm sözü bu tayfanın halını göstərmək üçün bir addır.
Sən fəna zövqünü dərk etməmisən, yoxsa nəzərində
Payız geyimi bahar geyimindən daha gözəl olardı».

«Fütuhat-i Əmini»də qeyd edilmişdir ki, o həzrətin (Şeyx Səfinin) vəsiyyətinə görə, Seyid Cəmaləddin İsfahani Şeyx Səfinin cəsədini yuyub, kəfənə bürüdü. Sultan Sədrəddin o zaman Sultaniyyə [şəhərinə][140] səfərdə idi. Səfəviyyənin ali sülaləsinin müridləri o mübarək cəsədi həzrət şeyxin seçdiyi və indi isə bütün tayfaların ziyarətgahı olan gözəl məkanda dəfn etdilər.

***Sultan Sədrəddin Musa***[141] başçılıq səmasından doğmuş on dörd gecəlik ay idi, xoşbəxtlik fələyindən parlayan bir günəş idi. Uşaqlıq və yeniyetməlik zamanından pəhrizkarlıq nuru mübarək alnından parlayır və irşad, yaxşılıq əlamətləri [onun] zahirindən görünürdü. Övliyalıq və irşad bağında o, başı uca bir sərv ağacı idi. Əslinin aliliyi və nəslinin hörməti baxımından böyüklər və izzətlilər

---

136 «Qurani-Kərim», «Əhzab» surəsi, 56-ci ayə.

137 Fars dilində həftənin günləri bu ardıcıllıqla düzülüb: şənbə, yekşənbə (bazar), düşənbə (bazar ertəsi), seşənbə (çərşənbə axşamı), çaharşənbə (çərşənbə), pəncşənbə (cümə axşamı) və cümə.

138 Saqi - su verən, su paylayan və satan; içki məclisində şərab paylayan. Burada «saqi» sözü məcazi mənada işlənmişdir.

139 «Qurani-Kərim», «Baqərə» surəsi, 156-cı ayə.

140 Sultaniyyə - Cənubi Azərbaycanın Zəncan şəhəri yaxınlığında Elxanilər dövründə salınmış orta əsr şəhəri. Hal-hazırda Zəncan - Qəzvin yolundan 6 km. cənubda yerləşən bir qəsəbədir.

141 Şeyx Sədrəddin 1304-1392-ci illərdə yaşamış, 1334-1392-ci illərdə şeyxlik etmişdir.

arasında tək və mümtaz (seçilmiş) idi. Çünki o, hörmətli atası tərəfdən nəsilbənəsil seyidlik və kəramət bürcünün ulduzu, xoşbəxt anası tərəfdən isə irşad sədəfinin dürrü idi və onun özündən əvvəlki yeddi əcdadı dini rəhbərlik, zahidlik və ədalət taxtında oturmuşdular.

«Fütuhat-i Əmini»də yazılmışdır: Şeyx Zahidin möhtərəm qızı ilə övliyalar sultanı olan həzrət (Səfiəddin) arasında kəbin kəsilən günü Şeyx Zahid kəbin məclisində ayağa qalxdı, məclisdə olmayan məchul bir şəxsin qarşısında hörmətlə baş əydi. Məclisdə olanlar bunun səbəbini soruşdular. Şeyx [Zahid] buyurdu: «Mənim nəvələrimdən olan Şeyx Səfinin övladlarını mənə nişan verdilər. Onların arasında mənim yerimdə oturacaq pəhrizkar bir səadət sahibi gözümə çarpdı və mən onun məqam və dərəcəsinin böyüklüyünü başa düşüb, ona baş əydim». O yüksək rütbəli şəxsin (Sədrəddinin) aya bənzər üzü təvəllüd üfüqündən parlayıb dünyanı işıqlandıranda övliyalar sultanı olan həzrət (Səfiəddin) iradət sahiblərinə və müridlərə xəbər verdi: «Bu əziz cavahir, Şeyx Zahidin kəbin məclisində baş əydiyi həmin səadətli övladdır».

O həzrət (Sədrəddin) neçə il böyük atasının yanında elm öyrəndi və [yaxşı] xasiyyətlər kəsb etdi, zahir və batin elmlərində kamala çatdı və onun dini rəhbərlik şöhrəti bütün dünyanı bürüdü.

«Nəfəhatül-üns»[142] kitabının müəllifi sirləri kəşf edən, zamanələrin seçilmişi olan Seyid Qasım Ənvarın[143] keyfiyyətləri barədə belə yazır: «Məlum deyil ki, dünyada günahsız imamlardan sonra Seyid Qasım Ənvarın dərəcəsində və rütbəsində bir adam tapılarmı?» Eyni zamanda, o yazıb ki, həmin ilahiyyat alimi (Seyid Qasım Ənvar) Həzrət Şeyx Sədrəddin Ərdəbilinin sadiq müridlərindəndir.

Nəhayət, o həzrət (Sədrəddin) hörmətli atasının vəfatından sonra irşad sərvətinin xəzinədarı olub, səadət nişanlı atasının [vəfat] hadisəsindən sonra Sultaniyyə səfərindən qayıtdı. O elm silsiləsinin müridləri onun dünyanı bəzəyən camalını görəndə matəm libasını çıxarıb, yasdan əl çəkdilər. Aydın yolla gedənlər və dindar tayfalar təmiz ürək və doğru niyyətlə həzrət şeyxin vəsiyyətinə görə, o həzrəti irşad taxtına oturtdular, onun istək həlqəsini [öz] qulaqlarına asdılar və ona itaət örtüyünü çiyinlərinə saldılar.

Şeyx Sədrəddinin [evinin] səadət qapısı hörmətli şahların və əyanların müraciət etdiyi yer oldu. Moğol əmirləri və əyanları[144] o irşad xəzinələrinin sahibinə böyük etiqad bəsləyirdilər. O, gündən-günə etibar və rəhbərlik mərhələlərinə yüksəlirdi. O, mübarək və müqəddəs bir yer olan və indi bütün tayfaların ziyarətgahına çevrilən əzəmətli binanı tikdirib, övliyalar sultanı [Şeyx

---

[142] «Nəfəhatül-üns» (tam adı: «Nəfəhatül-üns min həzəratül-qüds») - görkəmli fars-tacik şairi Əbdürrəhman Caminin (4414-1492) əsəridir. Bu əsər bir sıra məşhur sufi şeyxlərinin tərcümeyi-hallarını əhatə edir və h. 883 / m. 1478-1479-cu ildə Əlişir Nəvainin xahişi əsasında yazılmışdır.

[143] Seyid Qasım Ənvar - 1356-1433-cü illərdə yaşamış məşhur Azərbaycan şairi.

[144] Burada «moğol əmirləri və əyanları» deyilərkən Elxanilər (Hülakülər) dövlətinin əmirləri və əyanları nəzərdə tutulur.

Səfiəddinin] mübarək məqbərəsini və onun ətrafında olan binaları öz xalis halal malının [hesabına] son dərəcə gözəl və bəyənilən bir vəziyyətə gətirdi və oraya gözəl səsli hafizlər təyin etdi. O tarixdən bizim bu günümüzədək o rəhmət və feyz ocağında gecə-gündüz böyük Allahın kəlamının oxunması kəsilmir.

**Beyt**

«O müqəddəs cənnət məzarında
Behişt sarayı kimi bir bina salıb.
[Ora] Allahın feyzi ilə mübarək bir yer olub,
Ayla günəş o sarayın bir kərpici hesab edilir.
Günbəzinin zirvəsi fələyə qədər yüksəlib,
O binanın müqəddəsliyi Kəbədən nişan alıb.
O astananın gözətçiləri məlaikələr kimi gecə-gündüz
Allaha dua və zikr etməklə məşğuldurlar».

Allahı aramaq və şəriəti yaymaq yolunda o müqəddəs nişanəli [Sədrəddinin] ömrü bitəndə onun şərəfli oğlu Xoca Əli o gözəl xasiyyətlinin yerinə oturdu. O. öz əziz atasının yanında elm və kamal kəsb etmiş və yaxşılıq zinəti ilə bəzənmişdi. «Mənim yerimdə oturanlar mənim bayrağım altında olmalıdırlar» kəlamında deyildiyi kimi, [Xoca Əli] atasının mübarək cəsədini övliyalar sultanı olan Həzrət [Şeyx Səfiəddinin] ərşə bərabər olan günbəzinin altında dəfn edib, o hörmətli məkanın şərəfini artırdı.

«Azad oğul əziz ataların yolu ilə gedər» [sözündə deyildiyi kimi], Sultan Xoca Əli çalışmaqda və zahidlikdə, batini və nəfsi təmizləməkdə böyük atalarının yolu və hörmətli şeyxlərin sınanmış üsulu ilə hərəkət edərək, Allahın işarələrini öyrənib, asimandan gəlmiş kəlamın incəliklərini kəşf etmişdi. Gözəl xasiyyətli atasının [vəfatı] hadisəsindən sonra o, öz mübarək vücudu ilə irşad və dini rəhbərlik taxtını bəzədi. Müqəddəs Səfəviyyə sülaləsinin pak ürəkli sufiləri o təmiz qəlblidən (Xoca Əlidən) feyz və mübarəklik ruhu alırdılar və o həzrətdən çoxlu qəribəliklər görürdülər.

Deyirlər ki, Xoca Əli üç dəfə, hər dəfə də başqa cür tərzdə böyük əmir və sahibqıran Əmir Teymur Kürəkanla[145] görüşmüşdür. Birinci dəfə Əmir Teymur Xorasana[146] yürüş etmək məqsədilə Ceyhundan[147] keçdiyi zaman qamçısı suya

---

[145] Əmir Teymur Çingiz xanın sülaləsindən olan Saraymülk xanımla evlənmiş və bu səbəbdən tarixdə «Kürəkan» (yəni kürəkən) ləqəbi almışdır (bax: Doğuştan Günümüze Büyük İslam tarihi. Elmi müşavir ve redaktör H.D.Yıldız. IX. cilt. İstanbul, 1992, s.271-272). Sonradan bu ləqəb Teymurilər xanədanının digər hökmdarlarına da keçmişdir. Bəzi mənbələrdə Kürəkan ləqəbi təhrif olunaraq, Gürgan şəklinə salınmışdır.

[146] Xorasan - indiki İranın şimal-şərq hissəsini, Mərv vahəsini, indiki Türkmənistanın cənub vahələrini və Ərqanıstanın şimal və şimal-qərb hissəsini əhatə edən tarixi vilayət.

[147] Ceyhun – Amudərya çayının keçmiş adlarından biridir.

düşdü. Əmir Teymurun gözünə bir cındır paltar geymiş dərviş göründü ki, [Teymurun] qamçısını sudan çıxarıb əlinə verdi. Əmir Teymur bu hadisəni yaxşı əlamət hesab edib, (dərvişin) şərəfli əhvalını xəbər aldı. O dərviş dedi: «Vətənim Ərdəbildir, zühur etdiyim yer Dizful, dəfn olunacağım yer isə Qüdsi-Xəlil[148] olacaq». O [dərviş] sanki mənəvi aləmdən zühur etmiş bir surət idi. Əmir Teymurun Bağdaddan Xuzistana[149] qoşun çəkdiyi ildə Dizful çayı körpüsünün başında onun nəzərinə çiyninə qara xirqə[150] salmış bir dərviş çarpdı. [O] dedi: «Mən Ceyhun kənarında sənin əlinə qamçı verən dərvişəm. Başqa bir dəfə də görüşümüz Ərdəbildə olacaq».

Bir neçə ildən sonra Əmir Teymur Rum səfərindən[151] qayıdarkən özü ilə bərabər böyük bir dəstə Rum əsiri gətirərək, darülirşad Ərdəbilə çatdı. O, Şeyx Səfiəddinin böyüklüyü, onun yüksək məqam və dərəcə sahibi olması haqqında eşitmişdi. [O], [Şeyx Səfinin] mübarək qəbrinin ziyarətinə gedib, ziyarət qaydasına əməl etdikdən sonra o hörmətli məkanın dini rəhbərləri haqqında xəbər aldı. Xoca Əlinin əhvalından ona xəbər verdilər. [Əmir Teymur] onunla görüşmək məqsədi ilə şeyxin hücrəsinə tərəf yönəldi. Şeyx ibadət səccadəsi üzərində oturmuş, Allahın gözəl keyfiyyətlərini zikr etməklə məşğul idi. Hərçənd xidmətçilər padşahın gəlməsini ona (Xoca Əliyə) xəbər versələr də, amma o, buna etina etmədən, [Əmir Teymura] oturmağı təklif etdi. [Xoca Əli] öyüd və nəsihət xəzinələrinin qapısını açıb, onun şüur qulağını o parlaq dürlər vasitəsilə, gözəl xasiyyətli olmaq və Allahın bəndələri ilə yola getmək inciləri ilə ağırlaşdırdı. Əmir Teymur nəzərində üç şey tutmuşdu ki, əgər ürəyində tutduğu kimi zahir olarsa, öz iradət əli ilə o həzrətin irşad ətəyindən möhkəm tutsun. Hər üçü könlü istədiyi kimi zühur etdi. Ona görə də şeyx həzrətlərinə istək əli verib xahiş etdi ki, [şeyx] ondan bir şey istəsin. [Lakin] yoxsulluq və mənəviyyat aləminin padşahlarının zahiri aləmin padşahlarına nə ehtiyacı ola bilər və dünyanın xırda saxsı parçalarının Allahı tanımaq [kimi] bahalı cavahir bazarında nə satışı ola bilər?! [Xoca Əlinin] işıqlı qəlbi dünyəvi işlərlə məşğul olmadığından və gözəl təbiəti zahiri dünya şeylərinə fikir vermədiyindən mübarək dodaqlarını heç bir xahişi dilə gətirməkdən ötrü açmadı. Padşahın təkrar xahişi və təkidindən sonra Allahın razılığını almaq üçün rumlu qadın və kişi əsirlərin azad edilməsini istədi. Əmir Teymur qəbul barmağını gözü üzərinə qoyaraq, bütün əsirlərin azad edilməsi hökmünü verdi. Ərdəbil vilayətində və o hüdudda öz halal pulu ilə rəğbətli kəndlər və əkinlər satın alıb,

---

[148] Dizful - İranın qərbində, Xürrəmabadla Əhvaz arasında şəhər. Qüdsi-Xəlil - Fələstindəki Qüds şəhəri nəzərdə tutulur.

[149] Xuzistan - İranın cənub-qərbində yerləşən vilayət. Mərkəz şəhəri Karun çayının aşağı axarlarında yerləşən Əhvaz (Hüveyzə) şəhəridir.

[150] Xirqə - dərvişlərin geydikləri üst paltar.

[151] Burada «Rum səfəri» adı altında Əmir Teymurun Anadoluya yürüşü və onun üsmanlı sultanı İldırım Bayəzidə qarşı Ankara döyüşündə (20 iyul 1402-ci il) qazandığı qələbə nəzərdə tutulur.

mübarək məqbərəyə vəqf etdi və o hörmətli məkanı bəst və pənahgah[152] elan edib, o vilayətin xəracını[153] o ali xanədana təslim etməyi tapşırdı.

O zamandan o əsirlərin övladları və xələfləri, həqiqətən, bu vilayət nişanlı xanədanın əli ilə azad edildiklərinə görə bu kəramət nişanlı sülalənin müridləri və pak ürəkli sufiləri arasında olmuşlar. Xalq arasında belə yayılıb ki, Əmir Teymurun Hərzət Sultan Sədrəddin Musa ilə görüşü olmuş və [yuxarıda] deyilənlər ona aiddir. Amma daha doğrusu odur ki, [bu], Sultan Xoca Əli idi[154]. Tarix kitablarında və bu sülalənin əhvalatına aid nəsr və nəzmlə yazılmış başqa əsərlərdə bu həqirin (İsgəndər bəy Münşinin) nəzərinə bu rəvayətin çatmadığına baxmayaraq, onun geniş yayıldığını və dillərə düşdüyünü nəzərə alaraq, onu yazdım. Moğol «al-tamğa»sı ilə və qədim xətlə bəzənmiş, üzərində Əmir Teymurun möhürü olan vəqfiyyə dəftəri də Bəlx[155] səfərində Əndixud qalası alındığı zaman qazilərin[156] əlinə düşmüşdü. Bu, Allahın kölgəsi olan yüksək şərəfli Şah [Abbasın] nəzərinə çatdırıldı. Həzrət Sultan Xoca Əlinin yüksək rütbələri və kəramətlərinin zühur etməsinin bəziləri sözügedən səhifə üzərində yazılıbdır[157].

Xülasə, heç vaxt müqəddəs mənəvi ziyarətdən əl çəkməyərək və həmişə mənəvi dillə haqqı xatırladaraq, Allahı axtarma yollarında irəliləyən [Xoca Əli] şəriət qaydalarının möhkəmliyi sayəsində məqsəd Kəbəsinə çatmaq şövqü ilə hərəkətə gəldi. [Xoca Əli] irşad kürsüsünü və cənnət təbiətli müqəddəs bağın

---

[152] Bəst və pənahgah elə bir müqəddəs yer idi ki, təqib olunan bir kimsə orada sığınacaq alsaydı, onu orada həbs etmək mümkün olmazdı. Bu statusu alan məkanlar toxunulmazlıq imtiyazına malik idilər və oraya hökumət dairələri zorakı müdaxilələr edə bilməzdilər.

[153] Xərac - orta əsrlərdə islam ölkələrində müsəlman əhalidən alınan əsas torpaq vergisi idi. Lakin XV əsrdən xərac əvəzinə torpaq vergisi kimi malcəhət terminindən istifadə olunmağa başlandı. Bir çox hallarda Səfəvi mənbələrində xərac adı altında ümumiyyətlə vergi nəzərdə tutulur (А.А.Али-заде. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с.210-216; О.А.Эфендиев. Образование азербайджанское государства Сефевидов, с.41.

[154] Səfəvi salnaməçilərindən Qazı Əhməd Qumi və Mirzə bəy Cünabədi Teymurun Xoca Əli ilə deyil, Şeyx Sədrəddinlə görüşdüyünü bildirirlər (Mirzə bəy Cünabədi. Rövzətüs-Səfəviyye. Be kuşeş-e Q.Təbətəbayi Məcd. Tehran, 1378, s.90; E.Glassen. Die Frühen Safawiden nach Qazi Ahmad Qumi. Freiburg, 1970, farsca mətn, s.52). Lakin bir sıra digər mənbələr, o cümlədən də «Tarix-i aləmara-yi Abbasi» Teymurun məhz Xoca Əli ilə görüşdüyünü qeyd edirlər (Cəhanqoşa-ye xaqan. Müqəddimə və peyvəstha: A.Müztərr. İslamabad, 1986, s.29-33; Şeyx Hüseyn Zahidi. Silsilətün-nəsəb-e Səfəviyye. Berlin, 1924, s.47-49; Aləmara-ye Şah İsmail. Ba müqəddme-yo təshih-o təliq-e Ə.M.Sahib. Tehran, 1349, s.19-21; Aləmara-ye Səfəvi. Be kuşeş-e Y.Şükri. Tehran, 1350, s.23-26). Bu görüşün Ankara vuruşmasından sonraya təsadüf etdiyini və Teymurun Səfəvi nəslinə verdiyi vəqf sənədində Xoca Əlinin adı çəkildiyini nəzərə alsaq, Teymurun Sədrəddinlə deyil, onun oğlu Xoca Əli ilə görüşməsi daha inandırıcıdır.

[155] Bəlx - Amudərya çayından cənubda, Əfqanıstanın şimalında, Məzari-Şərif şəhərindən qərb tərəfdə yerləşən şəhərdir. Əndixud qalası - indiki Əfqanıstanın şimalında, Bəlxdən qərbdə və müasir Əfqanıstan - Türkmənistan sərhədinin yaxınlığında yerləşən Əndxoy şəhəri zonasında idi.

[156] Qazi (ğazi) - din yolunda müharibə edib, qalib gələn döyüşçü. Səfəvi mənbələrində qızılbaş əsgərləri «qazi» adlandırılırlar.

[157] İsgəndər bəy Münşinin bu məlumatının həqiqiliyi və həmin vəqfiyyə dəftəri haqqında bax: О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке. с.209.

xidmətini seyidlik və övliyalıq ağacının meyvəsi olan Sultan Şeyx İbrahimə tapşırdı və həqiqət əhli və inam sahiblərinin bir dəstəsi ilə birlikdə, «hər kim Allahın qoyduğu qaydaları yüksək tutarsa» [ayəsinə][158] görə Allahın evinin ziyarətinə tərəf yola düşdü və «gəldim, Allah, gəldim» deyə, sədaqət yolu ilə irəliləyərək, bu əmin-amanlıq vadisinə ayaq qoydu. [Xoca Əlinin] xoşbəxt oğlu gözəl xasiyyətli atasının ayrılığına dözə bilmədiyinə və bundan əlavə, Kəbəni ziyarət etmək şövqünə düşdüyünə görə, atasının ardınca xeyir nişanəli Hicaz[159] səfərinə getdi və çalışmaq addımı ilə tələb vadisinə ayaq qoydu. Mənzillər, mərhələlər keçib, arzu etdiyi Kəbənin ziyarətinə, yəni məlaikə təbiətli atasının ayağını öpmək şərəfinə çatdı. Oğul ilə ata birlikdə Həcc işlərini yerinə yetirib, oradan Qüdsi-Xəlilə getdilər və mələklərin hörmət etdiyi o yerdə peyğəmbərlərin ruhunu və Əqsa məscidini[160] ziyarət etdilər. O mübarək məkanda Sultan Xoca Əlinin əziz səhhəti təbii müvazinət yolundan çıxdı, axirət səfərinin tədarükünə başladı və irşad dəvəsinin cilovunu ürəkdən sevdiyi övladının bacarıqlı əlinə tapşıraraq, o xeyirli səfər yoldaşları ilə vidalaşıb, həyat sərvətini müqəddəs aləmin xəzinədarlarına tapşırdı. Sədaqətli oğul kəfən və dəfn işlərilə məşğul olub, o mübarək cəsədi o müqəddəs torpaqda dəfn etdi və müridlərindən, yoldaşlarından ibarət dəstə ilə o mübarək səfərdən qayıtdı[161]. Darülirşad Ərdəbil [onun] mübarək qədəminin uğurundan gözəlləşməyə başladı, o xanədana bağlı olanların gözü onun mübarək simasını gördükdə işıqlandı və onların hal dili bu mövzuda belə dedi:

**Beyt**

«Əgər o sərv ağacı bu bağçadan gedibdirsə,
Sən qalmısan dünyada ondan yadigar.
Dostların ürəyi sənin varlığınla şad olsun,
Ağıl binası səninlə abad olsun!».

Sultan Şeyx İbrahim - hal-hazırda Allahın kölgəsi olan əlahəzrət şah zamanında Şeyxşah [adı] ilə şöhrət tapmışdır. İbrahim «atalarının yolu ilə getdim» [ayəsinin][162] düzlüklə dolu olan məzmununa görə ata-babalarının göstərişi ilə irşad

---

[158] «Qurani-Kərim», «Həcc» surəsi, 32-ci ayə.
[159] Hicaz – Ərəbistan yarımadasının qərb hissəsində tarixi vilayət. Müqəddəs Kəbənin yerləşdiyi Məkkə şəhəri də Hicaza daxil idi.
[160] Əqsa məscidi - Fələstinin Qüds şəhərində yerləşən müqəddəs məscid.
[161] Həcc ziyarətindən qayıdarkən Qüdsdə vəfat edən Xoca Əlinin ölüm tarixi ilə bağlı iki fikir vardır. Səfəvi dövrünün tarixçilərindən Şeyx Hüseyn Zahidi, Xoca Əlinin 18 rəcəb 830-cu ildə (15 may 1427) vəfat etdiyini bildirir (Ş.H.Zahidi. Silsilətün-nəsəb-e Səfəviyye, s.45). Qazı Əhməd Qumi isə onun 830-cu (1426/27) ildə həccə yollandığını və ziyarətdən qayıdarkən, 832-ci ilin rəbiüs-sani ayında (08.01.-05.02.1429) Qüds şəhərində vəfat etdiyini yazmışdır (E.Glassen. Die Frühen Safawiden, farsca mətn, s.53-54).
[162] «Qurani-Kərim», «Yusif» surəsi, 38-ci ayə.

kürsüsünə oturdu və möhkəm yolla getmək istəyənləri şəriət və dindarlığın düz yoluna çağırdı. [Şeyx İbrahim] ətrafa xəlifələr[163] və əyanlar göndərdi və tez bir zamanda onun uca dərgahı böyüklərin və kiçiklərin müraciət etdiyi yer oldu. Xalq [Şeyx İbrahimin] yüksək rütbəli astanasının torpağını mərifət gözünün sürməsi hesab edirdi. İradət sahiblərinin çoxluğundan, onun hörmətli evini ziyarət edənlərə onun müqəddəs hüzurunda durmağa macal yox idi. Onun yüksək şan-şöhrəti gündən-günə artırdı. O vilayətin adamlarından bir nəfər belə [onun] itaəti vacib olan hökmündən boyun qaçıra bilmirdi. Onun səxavət və kəramət nemətlərindən yoxsullar və möhtaclar, bəlkə də, əhalinin hamısı faydalanırdı. Onun abad mətbəxi qızıl və gümüş qablarla dolu idi, o [özü] isə bağışlama və ehsan [işlərində] ata-babalarından yüksəkdə dururdu. Onun şahanə gözəl xasiyyətləri vardı, bəyənilmiş görkəmi padşaha layiq idi. Fələyin alçaq gərdişi ucbatından onun mübarək vücudu müxtəlif xəstəliklərə tutuldu. Zəmanə o xanədandan şənlik büsatını[164] yığdı, xəstəlik uzun müddət davam etdi, onun ömür günəşi zavala uğradı. Bu mənanın qığılcımı onun ürəyinə işıq saldı, həyatın və ölümün zərər və mənfəətinə göz örtərək, nəhayət, «O səndən, sən də Ondan razı olaraq Rəbbinə dön!» [ayəsinin][165] malını can qiymətinə alıb, bu asiman kimi uca astanaya malik xanədanının mənsublarını və ixlas sahiblərini yığıb, varlını və yoxsulu, gənci və qocanı təşvişə gətirən bu çarəsiz hadisədən onları xəbərdar edərək, gözəl nəsihətlər verib vəsiyyət etdikdən sonra onları öz misilsiz oğlu Sultan Cüneydə itaət etməyə çağırdı, [onu] öz vəliəhdi və canişini[166] təyin etdi, onunla əlaqədar çoxlu sifariş verdi. «Bu, bizim sizin öhdənizə qoyduğumuz və hər iki dünyada sizin öhdənizdə olan [şeydir]». Vəsiyyət etdikdən sonra [Şeyx İbrahimin] şərəfli ruhu Allahın dərgahına getdi və Həzrət Sultan Cüneyd onu kəfənə salıb, böyük ata-babasının yanında basdırdı.

***Sultan Cüneyd*** - yüksək uçan bir şahin, fələyə qalxan bir şah, irşad və kişilik səmasında parlayan on dörd gecəlik bir ay, zahiri və batini xilafət səmasında zühur etmiş bir günəş idi. O, başçılıq və dinpərvərlik kürsüsünə oturduqda irşad və

---

[163] Xəlifə - sufilikdə təriqət başçısı (mürşid) tərəfindən müəyyən bölgələrdə təriqət adından təbliğat aparmaq səlahiyyəti (irşad icazəsi) verilmiş şəxslərə deyilirdi. Səfəvilərin hakimiyyəti dövründə xəlifələrin fəaliyyətini əlaqələndirmək və onlara ümumi başçılıq etmək üçün «xəlifətül-xüləfa» («xəlifələr xəlifəsi») vəzifəsi mövcud idi. Bu vəzifə haqqında bax: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с. 265-266; R.M.Savory. The Office of Khalifat al-khulafa under the Safawids // Journal of the American Oriental Society, vol. 85, New-Haven, 1965, p.497-502.

[164] Büsat - hərfi mənada xalça, kilim, döşənək deməkdir. Mağazaların pəncərələrindən malların nümayiş etdirilməsinə və təmtəraqдж, zəngin vəziyyətə də büsat deyirlər. «Tarix-i aləmara-yi Abbasi»də büsat sözü həm həqiqi, həm də məcazi mənada işlədilmişdir. Həmçinin mənbələrdə «büsatı öpmək» ifadəsindən istifadə olunur ki, bu da müxtəlif şəxslərin şahın hüzuruna gələrək, onun oturduğu xalçanı öpmələrini, yəni ona təzim etmələrini, itaət bildirmələrini göstərmək üçün işlədilmişdir.

[165] «Qurani-Kərim», «Fəcr» surəsi, 28-ci ayə.

[166] Vəliəhd - bir padşahdan və rəhbərdən sonra onun yerinə keçib, səltənət və rəhbərlik taxtına oturan şəxs; hökmdarın varisi. Canişin - farsca «ca» («yer») və «nişin» («oturan») sözlərindən əmələ gəlmişdir. Bu termin iki mənada işlədilir: 1) hökmdarın və ya hər hansı bir rəhbərin varisi, vəliəhdi mənasında; 2) hökmdarın hansısa əyalətə təyin etdiyi hakim, vali mənasında. Burada canişin termini birinci mənada işlədilmişdir.

din elmi ilə şahlıq və səltənət iddiasında olduğunu xalqa xəbər verdi. İradət sahibləri hər tərəfdən onun mübarək astanasına üz qoydular. [Cüneydin] dini rəhbərliyinin əsas qayəsi iradət sahiblərini azğın kafirlərlə dini müharibələr və cihad etməyə ruhlandırmaq idi. [Sultan Cüneydin] gündən-günə calalı artırdı, onun tərəfdarlarının və müridlərinin sayı çoxalırdı. O zamanın padşahı, İraqeyn[167] və Azərbaycan hökmdarı olan Mirzə Cahanşah Türkman[168], Sultan Cüneydin müridlərinin çoxalmasından, onun var-dövlət və cah-calalının artmasından xəbər tutaraq, o həzrət barədə pis fikrə düşdü və öz mülkünün və dövlətinin dağılacağından qorxdu. Lakin buna baxmayaraq, [Cahanşah] mənfi şöhrət qazanmaqdan ehtiyat edərək, o həzrətlə müharibə etməyi münasib görmürdü. [Cahanşah] o həzrətin yanına dəfələrlə adam göndərdi, üstüörtülü və açıq şəkildə ona anlatdı ki, dövlət mərkəzindən hər hansı tərəfə getməyə şərəfli meyili varsa, oraya səfər etsin.

O həzrət (Cüneyd) o vaxt Diyarbəkrə getməyi məsləhət bilib, o tərəfə yönəldi. Səfəviyyə sülaləsinin tərəfdarlarından və səmimi sufilərdən böyük bir dəstə onunla bərabər gedərək, oıun xoşbəxtlik doğuran bayrağı altında toplandılar. Nəticədə, [Cüneyd] sonsuz calal və təntənə ilə Həsən-keyfə çatdı[169]. O zaman Diyarbəkrin yarısının hökmdarı (valisi) böyük əmir, qalibiyyət sahibi («əbun-nəsr») Həsən bəy Ağqoyunlu idi[170]. O, Mirzə Cahanşaha itaət etmirdi. Onların arasında düşmənçilik və tərslik qapıları açılmış və gediş-gəliş yolları bağlanmışdı. [Həsən bəy] Sultan Cüneydin səadətli məiyyətinin varid olmasından sonsuz razılıq və şənlik nümayiş etdirərək, çox hörmət və izzətlə o həzrəti qarşıladı, sufilərin əmir və əyanlarının hər birinə münasib vəzifə müəyyən etdi, onun mübarək gəlişini dövlət və səadət nişanəsi hesab etdi. Onların arasında tam ünsiyyət və birlik yarandı. Axırda bu yaxınlıq və dostluq qohumluğa çevrildi. [Həsən bəy] öz doğma bacısı Xədicə bəyimi o həzrətə (Cüneydə) verdi və bu qohumluqla öz dövlət təbilinin səsini yüksəltdi.

---

[167] İraqeyn (ərəbcə «iki İraq») dedikdə mərkəzi Bağdad şəhəri olan Ərəb İraqı (İraqi-Ərəb) və mərkəzi İsfahan olan Əcəm İraqı (İraqi-Əcəm) nəzərdə tutulur.

[168] Mirzə Cahanşah Türkman - 1435-1467-ci illərdə hakimiyyətdə olmuş Qaraqoyunlu hökmdarı Cahanşah nəzərdə tutulur. Türkman adı altında Qaraqoyunlu və Ağqoyunlu tayfaları başa düşülür. XV əsrdə Azərbaycanda dövlət qurmuş bu tayfalar xalqımızm tarixində mühüm rol oynamışlar. Səfəvilər dövləti qurulduqdan sonra onların bir qismi Səfəvilərin xidmətinə keçmişdi.

[169] Sultan Cüneyd 1447-1460-cı illərdə şeyxlik etmişdir. O, Qaraqoyunlu Cahanşahın təzyiqi ilə Ərdəbili tərk edib, Anadoluya getməyə məcbur olmuş, 1449- 1556-cı illər arasında Anadoluda və Şimali Suriyada müxtəlif hərbi-siyasi macəralar yaşadıqdan sonra Ağqoyunlu Uzun Həsənin o zamankı paytaxtı olan Diyarbəkrə sığınmışdı (bax: H.M.Yınanç. Cüneyd ibn İbrahim // İslam Ansiklopedisi, III. cilt, İstanbul, 1988, s.242-245; W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd. Ankara, 1992, s. 15-22, 26-27; О.А.Эфендиев. Образование азербайджанского государство Сефевидов, с.70-71). Həsən-keyf (Hısın-keyfa) –Türkiyədə, Diyarbəkrdən şərq tərəfdə yerləşən yaşayış məntəqəsi.

[170] Uzun Həsən 1453-cü ildə mərkəzi Diyarbəkr olan Ağqoyunlu bəyliyinin rəhbəri olmuş, 1468-ci ildə Qaraqoyunlu dövlətinə son qoyaraq, Azərbaycanda Ağqoyunlu dövlətini yaratmış və 1478-ci ildə vəfat etmişdir.

Sultan Cüneyd bir müddət o diyarda qaldıqdan sonra «vətən sevgisi imandandır» [hədisi] onun ürəyində alovlandı. [Sultan Cüneyd] Əmir Həsən bəydən [Ərdəbilə getmək üçün] izacə aldı. Qısa müddətdən sonra darülirşad Ərdəbil onun mübarək gəlişi sayəsində «sütunlar sahibi olan və şəhərlər içərisində misli olmayan İrəm şəhərinin»[171] həsrət çəkdiyi yerə çevrildi və tamaşa edənlərin gözü onun dünyanı bəzəyən camalını görməkdən nurlandı. Mirzə Cahanşahın ürəyindəki paxıllıq və kin odu bir daha alovlandı və onda olan vahimə [Cüneydin] Əmir Həsən bəylə qohumluq və bağlılıq etməsinə görə daha da artdı. [O], Sultan Cüneydin işinə aid bitib-tükənməyən fikirlər edirdi. Nəhayət, o həzrət (Cüneyd) onun (Cahanşahın) hiylə və kinindən xəbərdar olub, iradət sahiblərini çağırmaq üçün səba küləyi[172] kimi [tez] gedən qasidlər göndərdi, səltənət xəyalı ilə dövlət bayrağını qaldırdı və dini müharibə və cihad etmək savabına çatmaq istəyərək, sufi qazilərindən on min nəfərlə çərkəz[lərə qarşı] hərb [etmək] məqsədilə Şirvan[173] tərəfə yollandı. «Fütuhat-i Əmini» kitabında yazılmışdır ki, [Cüneyd] şirvanşahla müharibə etmək və Şirvan mülkünü zəbt etmək məqsədi ilə o tərəfə yola düşmüşdü.

Necə olursa-olsun, hər halda, Şirvan vilayətinin valisi Sultan Xəlil[174] Təbərsəran[175] tüğyançılarının təhriki ilə Sultan Cüneydə qarşı düşmənçilik təbili çaldırdı, onun Çərkəzə tərəf getməsinə mane oldu. O, döyüş təcrübəsinə malik bir qoşun toplayıb, onunla (Cüneydlə) üzləşməyə və vuruşmağa çıxaraq, zəfərli ordunun qarşısında səf çəkib, savaşa və döyüşə girdi. Bu tərəfdən mürşidi kamil[176] [Cüneydin] yolunda canlarından keçməyi sədaqətin ən aşağı pilləsi hesab edən sufi qaziləri mübarək ordu sıralarında döyüşə hazırlaşdılar. Hər iki tərəfdən döyüş odu alovlandı, Yəmən («yəməni») qılıncları işə düşüb, sürətlə uçan qartallar (hərbçilər) bir-birinin canına qəsd etmək üçün uçuşmağa başladılar. Öz canlarından keçən qazilər həqiqətən din [yolundan] azmışların yaramazlığını dəf etməyi lazım bilib, bacardıqları qədər çalışırdılar. Sultan Cüneyd bu mərəkədə şəxsən döyüşə girdi.

**Beyt**

---

[171] «Qurani-Kərim», «Fəcr» surəsi, 7 və 8-ci ayələr. İrəm şəhəri - Şərq rəvayətlərinə görə, qədim zamanlarda Yəməndə mövcud olmuş son dərəcə gözəl və zəngin bir şəhər idi.

[172] Səba küləyi - yüngül və lətif meh.

[173] Şirvan - Azərbaycanın şimal-şərq hissəsini təşkil edən, Kür çayı ilə Dərbənd səddi arasında yerləşən tarixi vilayət. VI əsrdən 1538-ci ilə qədər burada çox vaxt yarımmüstəqil fəaliyyət göstərən Şirvanşahlar dövləti mövcud olmuşdur. Çərkəz və çərkəzlər - farsdilli mənbələr Çərkəz (Çərkəs) adı altında Dərbənddən şimalda yerləşən əraziləri, çərkəzlər dedikdə isə orada yaşayan xalqları nəzərdə tuturdular.

[174] Sultan Xəlil (Şirvanşah I Xəlilulla) 1417-1465-ci illərdə hökmranlıq etmişdir (daha ətraflı bax: S.B.Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, 1997, s.291-300).

[175] Təbərsəran (Tabasaran) - Dağıstanın cənub-şərqində, Rubas çayı vadisində tarixi vilayət.

[176] Səfəviyyə şeyxləri «mürşidi-kamil» («kamil mürşid», «mükəmməl dini rəhbər») titulu daşıyırdılar. Sonralar bu tituldan Səfəvi şahları mənəvi hakimiyyət rəmzi olaraq istifadə edirdilər.

«Düldülü minən sultanın qaydasınca[177],
Hər həmlədə o azğınların qoşunundan,
Almaz kimi parlayan qılıncın şöləsi ilə,
Bir dəstəni bu qara torpaq üzərinə tökdün».

O həzrətin (Cüneydin) şəhid olması qəzavü-qədər lövhəsində yazıldığına görə şirvanşah qoşunları o həzrəti on dörd gecəlik ay kimi ortalığa alaraq, onun dünyanı gəzən atını yerə yıxdılar. O həzrət (Cüneyd) döyüşün qızğın vaxtında hadisə saqisi əlindən şəhidlik şərbəti içdi. O həzrətin adamlarından bir hissəsi döyüşə davam edib, şəhidlik qanı ilə üzlərini qızartdılar, bəzisi isə «taqət gətirmədiyin şeydən qaçmaq lazımdır» [hədisinə] müvafiq surətdə qaçmaq yoluna düşdülər. «Fütuhat-i Əmini»də yazılmışdır ki, Səfəviyyə xanədanının sufiləri o həzrətin (Cüneydin) hörmətli cəsədini darülirşad Ərdəbilə gətirib, müqəddəs bağçada (rövzədə) dəfn etdilər. Bu həqirə (İsgəndər bəy Münşiyə) məlum olduğuna görə isə, həmişə bu ali sülalənin tərəfdarı olan Təbərsəran əhalisindən bir kəslər o həzrətin mübarək cəsədini hərb meydanından çıxararaq, Quba Qülhan mahalına aid olan Quryan kəndində[178] münasib bir yerdə dəfn etmişdilər. İndi isə o şərəfli məkan feyz və rəhmət nurunun məskən tutduğu yerdir və o vilayətin xalqının ziyarətgahıdır. «Həbibüs-siyər» [əsərinin] müəllifi o həzrətin dəfn yerini qeyd etməyibdir. Yəqin ki, o, zamanın tələbinə uyğun olaraq və düşmənlərin onun məzarına zərər vuracağından qorxaraq, bu məsələnin gizli qalmasına çalışmış və o həzrətin dəfn yerini o vaxt məxfi saxlamışdır[179]. Xülasə, Sultan Cüneydin [ölüm] hadisəsindən sonra onun sevimli doğma oğlu, «vilayət» kürsüsünün sultanı, irşad sarayında oturan və böyük əmir Əbunnəsr Həsən bəyin bacısı oğlu olan Sultan Heydər - Allah onun sələflərinin ruhunu şad, xələflərinin ömrünü uzun etsin - uca rütbəli atasının yerinə keçdi.

---

[177] Düldül - Həzrət Əlinin atının adıdır. Bu şeirdə «Düldülü minən sultan» dedikdə Həzrət Əli nəzərdə tutulur və Cüneyd ona bənzədilir.

[178] S-129, v.l5b; S-297, v.8a. Cüneyd Samur çayının sol sahilindəki Qıpçaq kəndi yaxınlığında baş vermiş döyüşdə öldürülmüş və müridləri onun cəsədini Samurun sağ sahilinə keçirərək, Qubanın Qülhan kəndində (indiki Qusar rayonunun Həzrə kəndində) basdırmışdılar. Sonradan Şah Təhmasib ulu babasının şərəfinə bu məzar üzərində türbə tikdirmişdi A. Бакиханов. Гюлистани-и Ирам. Редакция, комментарии, примечания и указатели З.М. Буниятова. Баку, 1991, с.92). H. 951-ci ilin (25.03.1544 - 14.03.1545) axırlarına aid olan bu türbə haqqında bax: M.Nemət. Azərbaycanda pirlər, s.54.

[179] S-129, v.15b; S-297, v.8a-b. «Həbibüs-siyər» (tam adı: «Həbibüs-siyər II əxbar əfradül-bəşər», yəni «Bəşər fərdlərinə dair xəbərlər haqqında tərcümeyi-hal dostu») - Xandəmir ləqəbi ilə tanınan xorasanlı tarixçi Qiyasədin ibn Hümaməddin Məhəmmədin (1475/76-1535/36) 1524-cü ildə yazdığı və ümumi tarixə həsr etdiyi əsərdir. Əsərdə Səfəvi şeyxlərinin və I Şah İsmayılın tarixinə xüsusi diqqət yetirilmişdir (Ч.А.Стори. Персидская литература, т. I, с.383-393; О.А.Эфендиев. Образование азербайджанского государство Сефевидов, с 15).

«Tarix-i cahanara»da[180] Sultan Cüneydin şəhidliyinin 860-cı ildən (11.XII. 1455-28.XI.1456) sonrakı iki ildən birində baş verdiyi yazılmışdır[181].

***Sultan Heydər*** - «vilayət» bürcündən parlamış bir günəş, səltənət dənizi sədəfindən çıxmış bir dürr idi. Onun gözəl davranışının [məqsədi] ata-babalarının ənənələrini davam etdirmək və möhtərəm ürəyinin istədiyi şəhərlərə və məxluqa hökmdarlıq etmək idi. Taleyin gücü ilə Mirzə Cahanşahı məhv etmiş və hökmranlıq taxtında oturmuş mərhum hökmdar Həsən padşah bu sülalə ilə bağlılığını yenidən möhkəmləndirmək istədi, Aləmşah bəyim adıyla məşhur olan öz əziz qızı Həlimə bəyim ağanı ona (Heydərə) verdi və o namus bürcünün Zöhrəsini səadət səmasının Müştərisi ilə yaxın etdi[182]. O həzrət (Heydər) gündən-günə dövlət və rəislik dərəcələrinə yüksəldi, [onun] mübarək astanası say-seçmə adamların və sadə camaatın yığıncaq yeri oldu. [Sultan Heydər] bir gecə yuxuda (röyada) gördü ki, qeyb aləminin xəbərçiləri ona əmr etdilər ki, qıpqırmızı [parçadan] on iki imama inanma əlaməti olan on iki yarıqlı bir tac düzəldib, özünə tabe olanların başlarını o tacla bəzəsin. Sultan bu yuxunu görəndə başına şənlik papağı qoyub, o zamankı adət üzrə işlənən türkman taqiyəsini[183] şadlıq gətirən on iki yarıqlı Heydəri tacı ilə əvəz etdi. [Onun] yaxın adamları o həzrətin etdiyini təkrar etdilər. Bu xanədana bağlı olan bütün [adamlar] bu şərəfli tac vasitəsilə başqa camaatdan seçildilər. Buna görə də o yüksək şanlı təbəqə «qızılbaş» adı ilə məşhur oldu[184].

Xülasə, o həzrətin (Heydərin) cah-calalı gündən-günə artırdı, fələyə bərabər olan dərgahına iradət sahiblərinin axını daima güclənir və bütün camaat onun fəzilət süfrəsindən get-gedə daha artıq faydalanırdı. Nəhayət, [Heydər] zahiri və mənəvi səltənəti birləşdirərək, batində Allaha itaət edənlərin və şeyxlərin göstərişi ilə gedib, zahirdə isə sultanlar kimi ağalıq taxtında otururdu. Böyük əmir Həsən padşah hər sahədə Heydərin səadət astanasının xidmətçiləri ilə sonsuz dərəcədə dostluq və mehribanlıqla rəftar edirdi, öz bacı oğlu və kürəkəninin könlünün meyil

---

[180] «Nüsəx-i cahanara» («Dünyanı bəzəyən nüsxələr») və ya «Tarix-i cahanara» («Dünyanı bəzəyən tarix») əsəri - Səfəvi dövrünün tarixçisi Qazı Əhməd ibn Məhəmməd ibn Nəcməddin Əbdülqəffar əl-Cəfəri əl-Qəffari əl-Qəzvini (1515- 1567/68) tərəfindən h. 972 / m. 1564-65-ci ildə qələmə alınmışdır. Ümumi tarix səpkisində yazılan bu mənbədə Səfəvilərin tarixinə önəmli yer verilib və əsər I Şah Təhmasibə ithaf olunub (Ч.А.Стори. Персидская литература, т. II, с.410-413).

[181] S-129, v.15b; S-297, v.8b. Şeyx Cüneyd 4 mart 1460-cı ildə həlak olmuşdur.

[182] Zöhrə ulduzu - gözəllik rəmzi olan Venera planeti. Müştəri ulduzu - Yupiter planeti. Orta əsr münəccimlərinin fikrincə, fəzada Zöhrə və Müştəri ulduzlarının bir bürcdə bir-birilərinə rast gəlmələri xoşbəxtlik rəmzi sayılırdı.

[183] Taqiyə - araqçın tipli baş geyimi.

[184] Qızılbaşlar - Səfəvi tərəfdarı olan türk tayfalarına verilən ümumi ad. Bu tayfalar Şah İsmayılın atası Şeyx Heydər tərəfindən tərtib olunmuş 12 yarıqlı qırmızı tac qoyduqları üçün «qızılbaş» adlanmışlar. Qızılbaşlar arasında ən məşhur tayfalar şamlu, rumlu, ustaclu, təkəlü, qacar, əfşar, zülqədər, varsaq və s. idilər.

etmədiyi heç bir işə razı olmurdu. [Heydər] bir müddət könlü istədiyi kimi dövlət və səadətlə yaşadı və onun bəxt ağacı tuba ağacı[185] kimi kamal dərəcəsinə çatdı.

Türkman sultanlarının əhvalı [haqqında] tarixi [əsərin] müəllifi Mövlana Əbu-Bəkr Tehraninin[186] təfsilatla yazdığı kimi, Əmir Həsən bəy səltənət taxtına vida etdi. [Əvvəlcə] oğlu Sultan Xəlil, ondan sonra isə Sultan Yaqub hökmdarlıq taxtına oturdular[187]. Sultan Heydərin təbiətində dini müharibələr edərək savab qazanmaq meyli üstün olduğuna görə, öz xalası oğlu olan Sultan Yaqubun rəftarı o həzrətin könlünə yatmırdı. [Buna görə də] o, sufilərin əmirləri və Səfəviyyə sülaləsinin tərəfdarları ilə məsləhətləşərək, özünün dünyanı bəzəyən rəyi əsasında, sakinləri imandan xaric olan, cahillik və azğınlıq yolu ilə gedən Dağıstan tərəfə yürüş etmək və çərkəz kafirləri ilə dini müharibə etmək qərarına gəldi və saf sufilərin və təmiz etiqadlı mülazimlərin toplanması üçün ay kimi gəzən qasidlər göndərdi. Səmimi mücahidlər dəstə-dəstə onun calal və izzət cadırı ətrafında toplanaraq, böyük bir dəstə silah və yaraqla hazır oldu. O həzrət (Heydər) məqsədə doğru irəliləmə bayrağını qaldırdı. Dəstələrin izdihamı və cəsur qoşunun keçiş səs-küyü Sultan Xəlilin oğlu olan şirvanşahın[188] səltənət bünövrəsini silkələdi. [Şirvanşah] fikirləşdi ki, Sultan Heydər atasının qanını almaq və Şirvanı tutmaq istəyəcəkdir. O, «dostluq irsən keçir, kin də irsən keçir» kəlamında deyildiyi kimi, o həzrətə (Heydərə) qarşı kin və düşmənçilik göstərdi. Lakin [Heydərin] qaniçən qoşununun qarşısında müqavimət göstərmək şirvanşahın qüvvət və qüdrət dərəcəsinin xaricində olduğuna görə o, öz kürəkəni olan Sultan Yaqubun yanına bir-birinin ardınca səba [küləyi kimi] gedən qasidlər göndərdi və xəbər verdi ki, «Sultan Heydərin zahirən çərkəzlərə qarşı qəzavata getdiyinə baxmayaraq, mümkündür ki, Dərbənd və Təbərsəran hüduduna çatdıqda atının cilovunu Şirvan tərəfə çevirib, bu ölkəni almaq [üçün] bayrağını qaldırsın. İndi ki heç bir məmləkət [Sultan Heydərin] ixtiyarında olmadığı halda, o, müharibəyə can atan bir qoşun toplayıbdır, həmin vilayət (Şirvan) onun calal və şəninə tab gətirə bilməz. Əgər [Sultan Heydər] belə bir ölkəyə sahib olarsa, belə kiçik bir sahəyə qane olmayacaqdır və ölkə zəbt etmək qapıları onun arzusuna daha açıq olacaqdır».

Sultan Yaqub o sərvərlik səmasının günəşinə (Heydərə) qarşı kin və ədavət bəslədiyindən, qohumluq tellərini qırmağı mümkün və münasib bilərək, öz kinli ürəyində dünyada bədnam olmaq və axirətdə köməksiz qalmaq toxumu əkdi.

---

[185] Tuba - dini rəvayətlərə görə, cənnətdə gözəl və hündür bir ağacdır.

[186] Mövlana Əbu-Bəkr Tehrani - Ağqoyunlu hökmdarı Uzun Həsənin saray tarixçisi və «Kitab-i Diyarbəkriyyə» əsərinin müəllifidir (bax: О.А.Эфендиев. «Китаб-и Дийарбакрийс» Абу Бакра Тихрани как исторический источник// Источниковедческие разыскания - 1982. Тбилиси, 1985, с.112-118; Əbu-Bəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi: R.Şükürova. Bakı, 1998).

[187] Sultan Yaqub 1478-1490-cı illərdə hökmranlıq etmişdir.

[188] Sultan Xəlilin (yəni Şirvanşah I Xəlilullanın) oğlu olan şirvanşahın adı Fərrux Yəsardır. O, 1465-1500-cü illərdə hökmranlıq etmişdir.

[Sultan Yaqub] Süleyman Bicənoğlunu[189] dörd min atlıdan ibarət qaniçən türkman qoşunu ilə şirvanşahın köməyinə göndərdi. Şirvanşah, Sultan Yaqubun köməyinə arxalandığına görə Şamaxı ətrafında türkman və Şirvan əsgərlərindən böyük bir qoşun toplandı. Amma Sultan Heydər cəsarətli dini müharibələr edən qazilərlə Şirvanın şimal tərəfində olan Şəki yolu ilə o ərazilərə gəldi. Müzəffər qoşun keçərək, Dərbənd qalasının yanına çatdı. O (Dərbənd) dünyanın abad şəhərlərindən biridir. Babül-əbvab adıyla məşhurdur. Onun qalası İsgəndər səddi kimi asimana çatan, öz möhkəmliyi ilə məşhur olan divardır. Dillərdə, ağızlarda deyilir ki, onun hər bürcü fələyin bürclərinə bərabər, gözətçisi isə yüksək səmada oturanlarla dilbir və baş-başadır. Oranın əhalisi inadkarlıqla rəftar edərək, [qızılbaş] qoşununa qarşı təcavüz əli uzatdılar. O iqbal sahibinin (Heydərin) öhdəsinə o azmış camaatı cəzalandırmaq vəzifəsi düşdü. [O], qazilərə şəhəri və qalanı almağı əmr etdi. Rəşadət sahibləri qalanı almağa çalışaraq, o möhkəm qalanın bünövrəsini sarsıtdılar. Az qalmışdı onu ələ keçirsinlər ki, Heydəri sülaləsinin tərəfdarlarından biri Qara Piri Qacar arxadan gəlib xəbər gətirdi ki, türkman ordusundan bir dəstə sudan keçib, şirvanşah da Şirvan əsgərləri ilə onlara qoşulub, qalib qoşunlarla hərb etmək niyyətindədirlər. O kinli dəstənin yaxınlaşması xəbəri bir-birinin ardınca yetişdi. Dinpərvər sultan (Heydər) qalanın mühasirəsindən əl çəkib, o çirkin camaatla döyüşə hazırlaşdı. Sözün qısası, Təbərsəran hüdudunda o iki qaniçən qoşun bir-birilərinə yetişdilər, qoşun hazırlığına başlayaraq, vuruşma üçün səf çəkdilər. Müharibə odu elə alovlandı ki, dost və düşməndən bir çoxunun həyat xırmanını yandırdı.

**Beyt**

«O qorxulu, əzablı çöldə torpaq
İki qoşunun qanına bulandı.
Qılıncın kəsəri vulkan alovu kimi idi,
Nizələrin başından pəhləvanların qanı axırdı».

Bu tərəfdən isə sufilər təbəqəsi şirin canından əl çəkib, qılınc və nizə alovundan üz çevirmirdi. Bir sözlə, elə bir döyüş baş verdi ki, keçmişdə onun bərabəri az olmuşdur. Vuruşmanın qızğın dəmində Süleyman Bicənoğlu hərb meydanı döyüşçülərindən bir neçəsi ilə birlikdə o şərəfli sultanla (Heydərlə) vuruşmağa atılaraq, o sərvərə hücum etdi. Sultan Heydər öz mübarək vücudu ilə o pis taleli şəxslə döyüşə girib, nizəsinin ucu ilə o murdar xislətlini atın üstündən salaraq, qara torpaqla bərabər etdi. [Lakin] onu tanıdıqdan sonra bununla kifayətlənib, onun qətlindən vaz keçdi. O, (yəni Süleyman) təzədən ata mindi.

[189] Tehran çapında (s.20) Süleyman Biçioğlu kimi yazılmışdır.

[Heydərin] müqəddəs üzəngisinin yanında olan mülazimlər bu mehribanlığın və can bağışlamağın səbəbini soruşdular. [O] buyurdu:

- Hələ onun əcəli çatmamışdır. Mənim isə ömrümün günəşi batmaq üzrədir və bu döyüşdə mən şəhidlik şərbəti içəcəyəm. Əcəl gününün qismətinə və Allahın təqdirinə çarə yoxdur.

Sözün qısası, bu sülalənin dövlət günəşinin parlamasına [Allahdan] müəyyən bir zaman ayrıldığına görə müharibə və döyüş vaxtında can alan bir ox qəzavü-qədər barmağından çıxaraq, hərb meydanında ən qüdrətli süvari [olan Heydərin] vücuduna dəyib, onu öldürdü. Bu hadisə nəticəsində iş qazilərin əlindən çıxdı və qazilərin əli işdən üzüldü. O təbəqənin sonsuz yüksəkliyə qalxmış dövlət bayrağı yerə endi. Bu ali rütbəli sülalənin candan keçən sufilərinin bir çoxu o dinpərvərlik səmasının on dörd gecəlik ayı ətrafında əcəl saqisinin əlindən xoşagəlməz ölüm badəsi içdilər və ixtiyarsız halda torpağa yatdılar. «Fütuhat-i Əmini»də yazılıb ki, [həmin əsərin müəllifi] bu xəbərlərin gerçəkliyini Süleyman şanlı xaqanın buyuruğuna əsasən, Hüseyn bəy Lələ[190], Fərrux ağa kimi şəxslərdən və o hərb meydanında hazır olan bəzi digər qazilərdən eşitmiş və onların dediyi əsasında yazmışdır. Sözün qısası, Səfəviyyə xanədanının sufiləri o Xeyrülbəşər (Məhəmməd peyğəmbər) övladının mübarək cəsədini Təbərsəranda dəfn etdilər. Süleyman şanlı xaqan, Şeyxşahı cəzalandırmaqdan ötrü Şirvana ikinci dəfə yürüş etdikdə Sultan Heydərin şəhidlik hadisəsindən iyirmi iki il keçmişdi[191]. O, həmin mübarək cəsədi o məkandan çıxarıb, darülirşad Ərdəbilə köçürdü və onu hörmətli əcdadlarının mübarək qəbirləri yanında dəfn etdirdi.

Bu hadisə (Heydərin öldürülməsi) 893-cü ilin aylarında (1488) baş vermişdir[192]. Ona, bütün möminlərə və irşad yolunun mücahidlərinə Allah rəhmət eləsin! «Həbibüs-siyər» və «Tarix-i cahanara»nın müəllitlərinin sözlərinə görə, o kişilik bağının sərvindən (Heydərdən) və Həsən padşahın qızı olan möhtərəm xanımdan üç xoşbəxt şahzadə həyata gəlmişdir. Onların hər biri «vilayət» bağında bitmiş bir fidan və xilafət səmasında parlamış bir ulduz idi: xalq arasında Sultan

---

[190] Lələ - şahzadələrin qəyyumu, tərbiyəçisi ilə adlanırdı. Azyaşlı şahzadələrdən hər birinə görkəmli əmirlərdən biri lələ təyin edilir, həmin əmir şahzadənin təhlükəsizliyi, təlim-tərbiyəsi, bir dövlət xadimi və şəxsiyyət olaraq yetişdirilməsi kimi məsələlərə cavabdeh olurdu. Şamlu tayfasının başçılarından olan Hüseyn bəy, I Şah İsmayılın lələsi olduğu üçün Hüseyn bəy Lələ və yaxud Lələ bəy kimi tanınırdı.

[191] Şah İsmayılın Fərrux Yəsarın oğlu Şirvanşah II İbrahim Şeyxşahı cəzalandırmaq üçün Şirvana ikinci dəfə qoşun çəkməsi h. 915 / m. 1509-10-cu ilin qışında baş vermişdir.

[192] Şeyx Heydər 9 iyul 1488-ci ildə Təbərsəranda, Şahdağın ətəklərində baş vermiş döyüşdə öldürülmüşdür (Фазлуллах ибн-Рузбихан Хунджи. Тарих-и алам ара-йи Амини. Под редакцией З.М.Буниятова и О.А.Эфендиева. Баку, 1987, с.92-95; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.76). Onun ilkin məzarı indiki Xızı rayonunun Tıxlı kəndi yaxınlığında olmuş (M.Nemət. Azərbaycanda pirlər, s.56), lakin oğlu Şah İsmayıl özünün Şirvana ikinci yürüşü zamanı onun cəsədini Ərdəbil yaxınlığındakı Xiyav (Meşkin) şəhərinə köçürmüşdür (Şeyx Heydərin Xiyavdakı türbəsi haqqında bax: S.N.Xiyavi. Xiyav - qomşode-ye tarix. Tehran, 1380, s.45-57).

Əli padşah adı ilə məşhur olan Sultan Əli mirzə, İsmayıl mirzə və Sultan İbrahim mirzə, «Əhsənüt-təvarix» kitabının müəllifi tarixçi («müvərrix») Həsən bəyin[193] sözlərinə görə, Süleyman şanlı xaqanın Seyid Mahmud mirzə, Seyid Süleyman mirzə və Seyid Davud mirzə adlı qardaşları da olmuşdur. Lakin o, Seyid İbrahim mirzənin adını çəkməmişdir. [Tarixçi Həsən bəy Rumlu] Süleyman şanlı xaqan həzrətləri Gilan tərəfə gedərkən bu əziz qardaşlarının da onunla bərabər olduqlarını qeyd etsə də, onların hər birinin həyatı haqqında ətraflı yazmamışdır. Amma bu həqir adama (İsgəndər bəy Münşiyə) məlum olduğu qədərincə, Seyid Mahmud mirzə Sultan Heydərin əzəmətli övladlarının Şirazın İstəxr qalasına aparıldıqları ildə vəfat etmiş və Şirazın Ovcan adlı yerində dəfn olunmuşdur. İndi onun basdırıldığı yer «Sultan Seyid Əhməd Səfəvi məzarı» adı ilə məşhurdur. Seyid Süleyman mirzə isə Süleyman şanlı xaqan Xorasana yürüş etdiyi ildə Təbrizə gedib fitnə-fəsad törətməyə başlamış və Xorasandan gələn yalançı xəbərlərə inanan bir dəstə iğtişaşçı onun başına toplaşmışdı. Lakin Təbriz əhlifədakar sufilərlə ittifaq edərək, şəhərin ortasında onunla savaşmış və o qiyamçı dəstəni darmadağın edərək, onu qətlə yetirmişdilər. Sultan Əli padşahdan savayı, [Sultan Heydərin] digər oğullarının taleyi bu əsərin müəllifinə (İsgəndər bəy Münşiyə) məlum deyildir[194].

Sözün qısası, Süleyman Bicənoğlu qələbə çaldıqdan sonra Təbrizə döndü. [Beləliklə], Sultan Yaqubun Sultan Heydərin qiyam etməsindən və baş qaldırmasından olan qorxusu ortadan qalxdı.

## SULTAN HEYDƏR OĞLU SULTAN ƏLİ PADŞAHIN SƏADƏTLİ ƏHVALATI VƏ ULU YARADANIN TƏQDİRİ İLƏ O HƏZRƏTİN ŞƏHİD OLMASI

Bu xanədanın sədaqət və səmimiyyət mülkünün fatehləri olan səadət nişanlı sufiləri o dinpərvər və ədalətli sultanın ali nəsilli övladlarının həyatda qalıb ömür

[193] Tarixçi Həsən bəy - bu ad altında XVI əsrin məşhur azərbaycanlı salnaməçisi Həsən bəy Rumlu nəzərdə tutulur. O, ümumi tarixə həsr olunmuş «Əhsənüt-təvarix» («Tarixlərin ən yaxşısı») əsərinin müəllifidir. Əsərin ilkin variantı on cilddən ibarət olsa da, dövrümüzə qədər onun yalnız son iki cildi gəlib çatmışdır. Həmin cildlər müvafiq surətdə h. 807-899 (m. 1405-1494) və h. 900-985-ci (m. 1494-1578) illərin hadisələrini əhatə edirlər (bu əsər haqqında daha ətraflı bax: Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə /Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsəri üzrə/. Bakı, 1983).

[194] S-297, v.10 a; S-129. v.18a-b. Həsən bəy Rumlunun məlumatını incələyən T.M.Musəvi belə nəticəyə gəlir ki, Şeyx Heydərin Aləmşah bəyimdən 3 oğlu olmaqla yanaşı, digər bir arvaddan daha 4 oğlu olmuşdur və onların adları aşağıdakı kimidir: Seyid Həsən mirzə, Seyid Süleyman mirzə, Seyid Davud mirzə və Seyid Mahmud mirzə (T.M.Musəvi. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər /XVI-XVIII əsrlər/. Bakı, 1977, s.53-54). Süleyman mirzə, Şah İsmayıl ikinci dəfə Xorasana yürüş edən vaxt, h. 919 / m. 1513-cü ildə qiyam qaldırmış və öldürülmüşdür (G.Sarwar. History of Shah Ismail Safawi. Aligarh, 1939, p.71).

sürməsini eşitdikdə səmimi addımlarla arzu-dilək yolunda irəliləyərək, uğurlu bəxtin köməyi ilə gündən-günə Ərdəbil vilayətinə toplanıb, yaşı etibarilə irşad və səltənət taxtına [çıxmaq] ləyaqətinə çatmış Sultan Əli padşah həzrətlərinə tabe olaraq, ona sədaqət izhar etdilər. Onlar müharibə və qoşun çəkmək üçün hazırlaşmağa başladılar. İşarə və xəbərçilik edənlər Sultan Yaquba xəbər verdilər ki, Sultan Heydərin böyük oğlu səadət meyvəsi vermiş atasının yerində oturmuşdur və tezliklə onun dövlət bayrağı çox yuxarı qalxacaqdır. Sultan Yaqub haqq yolunu, aradakı qohumluğu və abır-həyanı nəzərə alıb, yüksək rütbəli şahzadələrin hörmətli anası olan və Aləmşah bəyim adlanan böyük bacısı Həlimə bəyimdən utanaraq, Sultan Heydərin oğullarını öldürmədi. Lakin o, cah-calallı əmirlərdən birini türkmanların böyük bir dəstəsi ilə Ərdəbilə göndərdi ki, o səadət dənizinin dürlərini ələ keçirərək, Fars vilayətindəki İstəxr qalasına[195] aparsın, o diyarın hakimi Mənsur bəy Pornaka tapşırsın ki, o qalada ömür keçirsinlər. Belə ki, bundan sonra iradət sahiblərinin və hörmətli sufiyyə təbəqəsinin əli onların dövlət atının yəhər bağına çatmasın. Amma o, bu mətləbdən xəbərsiz idi ki, yaradanın iradə və təqdiri yaranmışların qüdrət və tədbirindən yüksəkdir və qeyb aləminin xəzinəsində olan [şeylər] zühur etməlidir. «Ey mülkün sahibi olan Allahım, sən mülkü dilədiyin şəxsə verirsən, dilədiyindən çəkib alırsan, dilədiyini ucaldırsan, dilədiyini alçaldırsan»[196]. Allah-taala məmləkəti kimə istəsə verər. Həqiqətən, Sultan Yaqubun bu işi çox xoşagəlməz olub, onun dövlətinin üzərində bir ləkəyə çevrildi.

Sözün qısası, o tayfa Ərdəbilə çatdıqdan sonra Sultan Əli padşah vaxtın məsləhətini onda gördü ki, bir müddət ayağını salamatlıq ətəyinə çəksin və zamanə ilə uyğunlaşsın. Nəhayət, o, böyüklü-kiçikli hər şeyi yaradana təvəkkül edərək, [Sultan Yaqubun göndərdiyi] həmin çoxsaylı dəstənin müşayiəti ilə, hörmətli anası və əziz qardaşları ilə birlikdə İstəxrə tərəf yola düşdü, Siddiq (Yusif peyğəmbər) kimi qorxulu zindanda sakit oturdu və zamanənin cəfa və möhnətinə qatlaşdı.

**Şeir**

«Kişi zindana düşməklə şərəf qazanır,
Ona görə də Yusif zindanda oturdu.»[197]

Bu hadisə 896-cı ilin aylarında (14.11.1490 - 03.11.1491) olmuşdur[198]. Xülasə, o hörmətli vücudun vasitəsilə o qalanın torpağı bir müddət mərifətli

---

195 Fars - İranda, mərkəzi Şiraz şəhəri olan tarixi vilayət. İstəxr - İranın Fars vilayətində. Şiraz şəhərindən şimal-şərqdə yerləşən qala.
196 «Qurani-Kərim», «Ali-İmran» surəsi, 26-cı ayə.
197 Dini mətnlərə görə, Yusif peyğəmbər yeddi il Misir fironunun zindanında yatmışdı.
198 Burada İsgəndər bəy səhvə yol verir. Əslində, ilk mənbələrin məlumatlarına əsasən, Şeyx Heydərin övladları h. 896-cı ildə dcyil, onun öldürülməsindən bir qədər sonra, h. 893-cü ildə həbs olunmuşdular. Əsərin növbəti səhifələrindən aydın olacaq ki, İsgəndər bəy özü də Şeyx Heydər oğullarının dörd il

gözlərə sürmə oldu və o vilayətin sahəsi onların fəzilət ağacları vasitəsilə Xüldi-bərinə (cənnətə) çevrildi. Nadir təsadüllərdəndir ki, «Xüldi-bərin» sözü [əbcəd hesabı ilə] bu ibrətamiz hadisənin tarixidir. Bəli, neysan (aprel) buludunun damlası calal səmasının yüksəkliyindən düşməsə, sədəfin zülmət zindanında dustaq olmasa, dünya padşahlarının başındakı tacda dürr ola bilməz və heç bir gül bir tikanın məzəmmətini çəkməsə, qüdrətli padşahların çalmasının küncünə [sancılmağa] yaramaz. Bu hekayətin mislinin sınaqdan çıxması və bu rəvayətin bənzəyişinin həqiqət cəhrəsi almasının sübutu əbədiyyət sahibi («əbülbəqa») olan Süleyman şanlı xaqan Şah İsmayıl Bahadır xan həzrətlərinin mübarək əhvalatıdır ki, cocuqluq yaşında və uşaqlıq vaxtında Yusif kimi o əziyyətli zindanda qəm-qüssə çəkərək, nəhayət, taxt-taca və «ona mülk verdik» [ayəsinin][199] rütbəsinə çataraq, az bir zamanda əzə-mət və səadət qapılan onun üzünə açıldı.

Sözün qısası, Mənsur bəy Pornak fərmanı icra edərək, o xilafət xanədanının övladlarını qalada saxladı, lakin əqidə və sədaqət yolu ilə hərəkət edərək, o yüksək məqamlı rohbərin balalanna xidmət etməyi özünə vacib bilib, hər bir işdə onların şərəfli könüllərinin razılığını əldə edirdi. Ali nəsəbli şahzadələr parlaq dürlər kimi qala sədəfinin içərisində gizlənərək, dövrandan və zamandan təcrübə götürür və böyüyürdülər.

Bir müddət sonra Sultan Yaqubun həyat ağacı bu hörmətsizlik üzündən əcəl küləyi vasitəsilə yıxıldı və o, Qarabağın Sultanbudunda varlıq paltarını axirət mənzilinə apardı[200]. Tarix kitablarında yazıldığı kimi, Türkman əmirləri iki dəstəyə ayrıldılar. Bəziləri onun qardaşı Məsih mirzənin, digərləri onun oğlu Baysunqurun padşahlığını istədilər. Məsələ iki dəstə arasında müharibə ilə nəticələndi. Baysunqur səltənət taxtına oturdu. [Məsih mirzənin] qətlindən sonra mərhum padşah Əmir Həsən bəyin oğlu Maqsud mirzənin oğlu Rüstəm mirzəni əmisi [Məsih mirzənin] tərəfdarları ilə əməkdaşlıq etdiyinə və Məsih mirzəyə tərəf çıxanlara qoşulduğuna görə tutaraq, Əlincəq qalasına[201] göndərib, qalanın kutvalı[202] Seydi Əlinin dəstəsinə tapşırdılar. Baysunqurun hakimiyyətindən bir müddət keçdikdən sonra Aybə sultan[203] Əlincəq qalasının kənarına gedərək, Seydinin dəstəsini incə hiylələrlə aldadıb, öz tərəfinə çəkdi. [Onlar] Rüstəm mirzəni [qaladan] çıxarıb, özlərinə padşah etdilər. Qarabağdakı vuruşmada[204]

---

yarım ərzində həbsdə qaldığını və h. 898-ci ildə azadlığa çıxdıqlarını qeyd edir. Beləliklə, müəllif özü də Səfəvi şeyxzadələrinin h. 893-898-ci illər arasında həbsdə olduğunu təsdiq edir.

[199] «Qurani-Kərim», «Nisa» surəsi, 54-cü ayə.

[200] Sultanbud - indiki Beyləqan rayonu ərazisində təpəlik bir yerdir. Sultan Yaqub Ağqoyunlu 24 dekabr 1490-cı ildə vəfat etmişdir (Фазлуллах ибн-Рузбихан Хунджи. Тарих-и алам ара-йи Амини, с. 123).

[201] Əlincəq (Əlincə) qalası - Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, Əlincə çayının sağ sahilində, sıldırım dağ zirvəsində qala (daha ətraflı bax: R.Məmmədov. Əlincəqalanın orta əsrlər tarixi // Azərbaycan tarixinə dair materiallar, c. IX. Bakı, 1973).

[202] Kutval - qalanın rəisi, komendantı.

[203] Bu şəxsin əsl adı İbrahim idi. Mənbələrdə gah Aybə sultan, gah da Əbih sultan kimi xatırlanır.

[204] Burada «Qarabağdakı vuruşma» dedikdə Ağqoyunlu hökmdarı Sultan Yaqubun ölümündən sonra onun oğlu Baysunqurla digər bir şahzadə, yəni Uzun Həsənin oğlu və Sultan Yaqubun qardaşı Məsih

məğlub olanların bir çoxlan və sadə camaat onların başına yığışıb, Təbrizə getmək və Baysunqurla müharibə etmək qərarı aldılar və Arazın sahilinə gələrək [burada] durdular. Mirzə Baysunqur, Mirzə Rüstəmin fitnəsini dəf etməkdən ötrü Təbrizdən çıxdı. Mərəndə[205] yetişdikdə onun qaravulluğa göndərdiyi hər kəs bivəfalıq yolu ilə gedərək, Mirzə Rüstəmə qoşuldu. Təfriqəçilik getdikcə qoşunun hamısına yayıldı və Mirzə Baysunqurun ordusu elə bir hala gəldi ki, artıq onu saxlamağa qadir olmadı. Buna görə də [Baysunqur] çarəsizlikdən padşahlıq əşyalarını və ləvazimatını yerindəcə qoyaraq, xidmətçilərindən bir neçəsi ilə fərarilik vadisinə üz qoydu. [O], Qaradağın Əhər[206] yolu ilə Şirvana gedərək, dayısı şirvanşaha qoşuldu. Mirzə Rüstəm isə arzuladığı dövlətə çataraq, müzəffər və qalib şəkildə Təbrizə gəldi və səltənət taxtına oturdu[207]. Türkman əmirləri çiyinlərinə itaət örtüyü saldılar. O, (yəni Mirzə Rüstəm) layiqincə qoşun və rəiyyət saxlamağa başladı.

Lakin şirvanşah bacısı oğlu olan kürəkəninə yardım və kömək etmək üçün çalışqanlıq kəmərini bağlayaraq, Mirzə Baysunquru səltənətə gətirməyə çalışırdı[208]. Mirzə Rüstəm də Mirzə Baysunqurun işini [bitirməyin] fikrinə düşərək, onu rədd edib aradan qaldırmaqdan ötrü Bayanduri dövlətinin[209] əmirləri və böyükləri ilə məşvərət etdi. Nəhayət, xeyirxah adamların məsləhəti ilə belə qərara gəldi ki, xilafət səmasının parlaq ulduzlarını (Şeyx Heydərin oğullarını) İstəxr qalasından çıxararaq, rəhbərlik və sərdarlığa[210] layiq olan Sultan Əli mirzənin əzəmətli bayrağını şaha layiq tərbiyə yolu ilə qaldırsın və Baysunqurun fitnəsini dəf etmək, ata və babasının qanını almaqdan ötrü onu Şirvan tərəfinə göndərsin. Əgər qalib gələrsə və yaxud məğlub olarsa, hər iki halda [Mirzə Rüstəmin] zahiri və batini istəyi gerçəkləşər. Bu niyyətlə o, zahirən qohum-əqrəbalığı və möhtərəm bibisinin razılığını qazanmağı bəhanə edərək, şahzadələri hazır etməyi əmr etdi. Sultan Əli padşah 898-ci ildə (23.10.1492 - 11.10.1493), İstəxr qalasında dörd il yarım qaldıqdan sonra yola düşərək, hörmət və izzətlə Təbrizə çatdı. Rüstəm mirzə o həzrəti mehribanlıqla qucaqlayaraq, onun hörmət və şənini yüksəltməyə çalışdı. Bu

---

mirzə arasında Qarabağın Sultanbud adlı yerində baş vermiş döyüş nəzərdə tutulur (bax: Фазлуллах ибн-Рузбихан Хунджи. Тарих-и алам ара-йи Амини, с.143).

[205] Mərənd - Cənubi Azərbaycanda, Təbrizdən 60 km. şimal-qərbdə, Xoy - Təbriz avtomobil yolunun kənarında yerləşən şəhər.

[206] Qaradağ (Qaracadağ) - Cənubi Azərbaycanda, Araz çayının cənubunda, Təbrizdən şimal-şərqdə tarixi vilayət. Əhər - Cənubi Azərbaycanda, Təbrizdən 95 km. şimal-şərqdə, Əhər çayı sahilində, dağ ətəyində yerləşən şəhər. Qaradağ vilayətinin əsas şəhəridir.

[207] Rüstəm 28 may 1492-ci ildə hakimiyyətə gəlmişdir (Фазлуллах ибн-Рузбихан Хунджи. Тарих-и алам ара-йи Амини, с. 144). O, 1497-ci ilə qədər hakimiyyətdə olmuşdur.

[208] Fərrux Yəsar, Baysunqurun dayısı və qayınatası deyildi, onun ana babası idi. Belə ki, Ağqoyunlu hökmdan Sultan Yaqub, Şirvanşah Fərrux Yəsarın qızı Gövhər-sultanla evlənmiş və onların sonralar Ağqoyunlu hökmdarı olacaq iki oğlu doğulmuşdu: Baysunqur və Murad (S.B.Aşurbəyli. Şirvanşahlar dövləti, s.302).

[209] Bayanduri dövləti adı altında Ağqoyunlu dövləti nəzərdə tutulur. Çünki Ağqoyunlu tayfa ittifaqının başında bayandur tayfası dururdu və Ağqoyunlu hökmdarları da bu tayfaya mənsub idilər (T.H.Nəcəfli. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000, s.38-41).

[210] Sərdar – komandan, qoşun başçısı.

müqəddəs sülalənin tərəfdarları və ona sadiq olanlar gizləndikləri qaranlıq və nakamlıq küncləriindən çıxaraq, mələklərin pənahı olan astanaya üz qoydular. Gündən-günə o əqidə sahibi olan camaatın sıraları artmağa başladı.

Bu əsnada Mirzə Baysunqurun Şirvan ordusu ilə Azərbaycana daxil olduğu xəbərini alan Əmirzadə Rüstəm, Sultan Əli padşahı Aybə sultan və bir dəstə türkman əsgərləri ilə Baysunqur və şirvanlıları dəf etməyə göndərdi. Onlar Araz çayının sağ sahilinə çatdıqda çadırlar qurdular. Hər iki tərəfdə suyun kənarında bərə körpü vardı, aralarındakı get-gəl yolu bir ox məsafəsindən artıq deyildi. İki tərəfdən heç birinin qələbə çalmaq imkanı görünmürdü. Tərəflər [belə] durmağın uzandığından təngə gəldilər. Baysunqur Şirvana döndü. Sultan Əli padşah və Aybə sultan isə Təbrizə gəldilər.

Bu arada İsfahan hakimi Kosa Hacı Bayandur, Əmirzadə Rüstəmə qarşı çıxıb, üsyan qaldıraraq, Baysunqurun adına dövlət xütbəsi oxudu. Bu, Baysunqurun bir daha Azərbaycana saysız-hesabsız qoşunla gəlməsinə səbəb oldu. Əmirzadə Rüstəm yenə də rəhbərlik səmasının günəşi Sultan Əli mirzəni Aybə sultan və bir dəstə sufi və türkman əsgərləri ilə onun qarşısına göndərdi. Əhər və Meşkin[211] hüdudunda bu iki qəzəb və kinlə dolu ordu bir-birinə yetişdi, iki tərəf arasında döyüş qızışdı. O irşad taxtı sultanının qədəminin uğurundan Baysunqur tərəfdarları məğlub oldular. Bu vuruşmada Baysunqur öldürüldü. Sultan Əli mirzə müzəffər və qalib şəkildə, son dərəcə əzəmətlə və iqtidarla Təbrizə gəldi. Əmirzadə Rüstəm dostanə təşəkkür və minnətdarlıq edərək, o həzrəti sonsuz ehtiram və izzətlə Ərdəbilə tərəf yola saldı. O dinpərvərlik səmasının on dörd gecəlik ayı bu cənnətəbənzər vilayətdə ata-babalarının qaydası ilə hidayət və irşad taxtına oturdu. Əqidə və sədaqət sahibləri fələklə bərabər olan hörmətli astanaya gəlib-getməyə başladılar. Sufi dəstələrinin cəmləşməsi və iradət sahiblərinin izdihamı (çoxluğu) Mirzə Rüstəmin ürəyində düşmənçilik və paxıllıq atəşini alovlandırdı. [Mirzə Rüstəm] o həzrəti qardaşları ilə bərabər Təbrizə gətirdi. Zahirən hörmət etdiyinə baxmayaraq, sufilərin onun (Sultan Əlinin) yanına gəlib-getmələrindən xəbər tutub, mane olmaqdan ötrü gözətçilər qoymuşdu. [Lakin] sufilər və iradət sahibləri o ulu astanaya gələrək, gizlicə nəzirlərini verirdilər, [bununla da] bu astanaya öz bağlılıqlarını imtahan sınağından keçirirdilər.

Əmirzadə Rüstəm bu işdən xəbərdar olduqda Sultan Heydərin əhvalatını xatırladı. Nəticədə, xətalı fikrə gələrək, o həzrəti (Sultan Əlini) aradan götürməyə qərar verdi. Məclisdə olanlardan biri o həzrəti padşahın bu hiylə və xəyanətindən agah etdi. Bu hiylənin işığı [Sultan Əlinin] parlaq ürəyinə düşdükdə, «qabağında dayanılmayan şeylərdən qaçmaq peyğəmbərin ənənəsidir» [kəlamında] deyildiyinə uyğun olaraq, gecə gizlincə [ata] minib, Təbrizdən Ərdəbilə tərəf yola çıxdı. Əmir Rüstəm mirzə Aybə sultanı dörd min süvari ilə o ali rütbəli sultanın ardınca göndərdi. [Onlar] Ərdəbil kəndlərindən biri olan Şəmasidə o həzrətə çatdılar.

---

[211] Meşkin - Cənubi Azərbaycanda, Ərdəbildən şimal-qərbdə, Ərdəbillə Əhər arasında yerləşən tarixi vilayət. Mərkəzi şəhəri Xiyav (indiki Meşkin şəhəri) idi.

Deyilənə görə, Sultan Əli mirzə ilə birlikdə olanların sayı yeddi yüzdən çox deyilmiş. [Buna baxmayaraq] o, bu az adamla həmin çoxsaylı qoşuna qarşı döyüşə hazırlaşdı. Xeyirxah adamların bir qismi o həzrəti döyüşdən çəkindirmək və [başqa bir] çarə axtarmaq fikrinə düşdülər. O həzrət övliyalıq nuru ilə özünün şəhid olacağı şəklini tale səhifəsi üzərində gördüyünə görə sufiləri və Səfəvi sülaləsinin tərəfdarlarını yığıb, o vuruşmada şəhid olacağını onlara xəbər verdi. [Sultan Əli mirzə] xoşbəxt qardaşı, yəni hökmdarlıq nuru mübarək alnından parıldayan Süleyman şanlı xaqanı öz yerinə vəliəhd və qaimməqam təyin etdi. [Eyni zamanda], bu xanədanın mürşidlərinin irşad vaxtı işlətdikləri rəmz və sirləri hörmətli atası və şöhrətli babalarından irsən aldığı kimi [İsmayılın] ali qəlbinə əmanət tapşırdı, öz mübarək tacını o həzrətin başına qoyaraq, onu inandığı adamlara həvalə etdi və ona çoxlu sifarişlər verdi.

[Sultan Əli] ilhamverici dili ilə bəyan etdi ki, Mürtəza [Əli] xanədanının çırağı onun (İsmayılın) vücudundan parlayacaq, onun göylərə yüksələn bayrağının ayparası böyük əzəmətə çatacaq və onun ədalətinin işığı aləmdə yaşayanların üzərinə nur sacacaqdır. [Sultan Əli mirzə] vəsiyyətini bitirdikdən sonra döyüş meydanına qədəm basdı. Doğru danışan dili ilə dediyi kimi, düşmənlər qələbə çaldılar, o həzrət (Sultan Əli) isə şəhidlik şərbətini içdi (öldürüldü). Bu canyandıran hadisədən sonra əqidə sahiblərinin arasına təfriqə düşdü, hər kəs bir tərəfə dağıldı. Hüseyn bəy Lələ, o vaxt Xadim bəy adı ilə tanınan Xəlifətül-xüləfa və Dədə bəy o həzrətin mübarək cəsədini darülirşad [Ərdəbilə] gətirərək, Səfəviyyənin mübarək, nurlu məqbərəsində dəfn etdilər. Allah ona rəhmət eləsin!

«[Tarix-i] cahanara»nın müəllifi bu böyük hadisənin 898-ci ilin aylarında (23.X.1492-1LX.1493), yəni Sultan Heydərin şəhidliyindən beş il keçdikdə baş verdiyini qeyd etmişdir. Amma tarixçi Həsən bəy [Rumlu] Sultan Əli mirzənin şəhidliyini 900-cü ilin (02.X.1494-20.XI. 1495) hadisələri daxilində yazmışdır ki, bu da Sultan Heydərin şəhidliyindən yeddi il sonraya təsadüf edir. Doğrusunu Allah bilir[212].

## SÜLEYMAN ŞANLI XAQAN ŞAH İSMAYIL BAHADIR XANIN - ALLAH-TAALA ONU CƏNNƏT BAĞLARINDA SAKİN ETSİN - ƏHVALATININ XATIRLANMASI, O YÜKSƏK RÜTBƏLİ SULTANIN ZÜHUR ETMƏSİNİN VƏ MEYDANA ÇIXMASININ ŞƏRH EDİLMƏSİ VƏ ONUN DÜNYANI FƏHT ETMƏSİNİN BƏYAN OLUNMASI HAQQINDA

Ürəyaçma məclisinin nəğməçiləri və söz meydanının döyüşçüləri gözəl rəftarlı, bəyənilmiş xasiyyətli, fatehlik döyüşünün sıralarını bəzəyən, [Allahı] axtarma düzənliyini ötüb keçən, səadət məclisini zinətləndirən, cah-calal səmasının

[212] S-297, 12a. Sultan Əlinin ölüm hadisəsi 1494-cü ilin yazına aid edilir (W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, s.82).

dünyanı işıqlandıran günəşi, Heydəri dövlətinin dünyanı əks etdirən camı, on iki imamın («isna-əşəri»)[213] haqq məzhəbinin güzgüsü, sultanların [barmaqla] göstərdiyi sultan, ölkələrin şahlıq taxtını ələ keçirən, yəni Süleyman şanlı xaqanın zühur etməsini bu təranə ilə tərənnüm etmişlər və o Mürtəza [Əli] xasiyyətli, ali nəslə mənsub şahın ölkələri tutma, dünyanı fəth etmə xəbərlərini, onun igidlik, döyüşçülük əlamətlərini rəvayət etmə məclisində bu cür şərh etmişlər ki, gözəl təbiətli qardaşının şəhid olması, xəyanət və kin sahiblərinin ağalığı ələ keçirməsindən sonra pak etiqadlı sufilər şöhrətli qardaşının vəliəhdi olan o «vilayət» bürcünün dürrünü gizlincə şəhərə gətirdilər. Hər neçə gündən bir onun yerini dəyişdirirdilər.

Qırx gündən sonra o əqidəli adamlar yağıların və düşmənlərin xəyanəti qorxusundan Ərdəbildə qalmağı məsləhət görmədilər. Onun (İsmayılın) möhtərəm anası ilə məsləhətləşib, Gilan tərəfə getməyi vaxta daha münasib və əlverişli hesab etdilər. O namuslu qadın (Aləmşah bəyim) oğullarından ayrılmağa razılaşdı. Həmin günlərdə sufilərin böyükləri, xüsusən Hüseyn bəy Lələ Şamlu, axırda Xəlifətül-xüləfa ləqəbi almış Xadim bəy Talış, Əbdal bəy Dədə Zülqədər və başqaları hər iki adlı-sanlı qardaşı (İsmayılı və İbrahimi) götürüb, iki yüz mülazimlə bərabər Gilana tərəf yollandılar[214].

Tarix kitablarında, əlalxüsus «Həbibüs-siyər»də yazıldığı kimi, [onlar] Gilan vilayətinə çatıb, bir neçə gün Rəştdə qaldılar. Oranın valisi Əmir İshaq onlara lazımi xidmətlər göstərdi. Ondan sonra Lahican vilayəti o cənnət bağı yetişdirmələrinin şənlik gətirən mübarək qədəmlərinin üzündən behiştin qibtə etdiyi yerə çevrildi. Seyidlik xanədanından olub, şan-şöhrətinin ucalığı və rütbəsinin yüksəkliyi ilə başqa Gilan valilərindən seçilən və üstün olan, əsli və nəsli cəhətindən bəyənilən, gözəl əxlaq və xoş rəftar sahibi olmaqla məşhurlaşan Karkiya Mirzə Əli o cah-calal bağının yeniyetməsini və onun əziz qardaşı Seyid İbrahimi izzət və ehtiramla qarşıladı, səmimi təvazökarlıq və mehriban insanlıq nümayiş etdirdi. O həzrətin qardaşı Seyid İbrahim öz anası ilə görüşmək həvəsinə düşərək, dərvişliyə və dərviş təbiətinə malik olduğuna görə başına türkman taqiyəsi geyib, Ərdəbilə qayıtdı.

O həzrət (İsmayıl) isə canını [ona] qurban edən az sayda xidmətçiləri ilə həmən vilayətdə (Gilanda) sakin olub, qeybdən gələcək işarənin intizarında qaldı. Həmin vaxt o həzrətin şərəfli yaşı yeddidən çox deyildi. Belə ki, o həzrətin doğumu Həsən padşahın ölümündən on il keçdikdən sonra, 892-ci il rəcəb ayının 25-də, seşənbə günündə (17.07.1487) baş vermişdi. [Əbcəd hesabı ilə] bu hadisənin tarixi bu cürdür: «Be taleyi əqrəb ruy dad tülu-yi neyr-i Şah İsmail»

[213] İsna-əşəri (“on ikilik”) – 12 imama əsaslanan başlıca şiə cərəyanı.

[214] Həmin zaman Gilanda Ağqoyunlu dövlətindən asılı olan iki əmirlik mövcud idi: mərkəzi Rəşt şəhəri olmaqla, Qızılüzən çayının sol sahilindəki Gilan ərazilərini əhatə edən Biyepəs və mərkəzi Lahican olmaqla, Qızılüzən çayının sağ sahilindəki Gilan torpaqlarını əhatə edən Biyepiş əmirlikləri (И. П. Петрушевский. Государства Ахербайджана в XV веке // ССИА, вып. I, Баку, 1949, с.210).

(«Şah İsmayıl günəşinin doğması əqrəb bürcündə üz verdi»). Amma azyaşlı olsa da, fəhm və fərasətdə, ağıl və bilikdə elə təəccüblü bir əlaməti vardı ki, ilk baxışda dünyanı idarə etmək bacarığı onun mübarək çöhrəsindən görünür, işıqlı alnından ilahi nur saçılırdı. Bu məqamda iki müdrik nöqtə xatirimə gəldi. Biri odur ki, Səfəvilərin müqəddəslik nişanlı sufiləri olan qızdbaş təbəqəsinin dövlət sahibi olması Allahın istəyində qərar tutduğu üçün «qızılbaş» və «dövlət» sözləri [əbcəd hesabı ilə] ədədlərin cəmi baxımından bərabərdirlər. Digəri isə odur ki, Qızılbaş dövlətinin ibtidası və bu tayfanın yüksəlişinin başlanğıcı Süleyman şanlı xaqan həzrətlərinin səxsiyyəti ilə əlaqədar olduğu üçün «Qızılbaş dövlətinin başlanğıcı» («Bədv-i doulət-i Qezelbaş») sözləri [əbcəd hesabı ilə] ədədlərin cəmi baxımından o həzrətin doğum tarixinə bərabərdir[215]. Ali məiyyətin mülazimləri xilafət çəməninin bəzəyi olan o yeniyetməni gözəl etiqad zülalı ilə bəsləyirdilər, qeybdən ilham alaraq, onu yüksək şahlıq ünvanı ilə adlandırırdılar və azyaşlı olmasına baxmayaraq, mətin əqidə və iradə ilə onu mürşidi-kamil və şah [deyə] çağırırdılar.

Deyilənə görə, o, altı il yarım Gilanda qaldı, bəzi vaxt Biyepəsdə, bəzən Lahican bölgəsində yaşayırdı. Müqəddəs «Quran»ı oxumağı Mövlana Şəmsəddin Lahicaninin yanında öyrəndi. Karkiya Mirzə Əli və onun qardaşı Karkiya Sultan Həsən [ona] xidmət etməklə məşğul oldular.

Camaat arasında məşhur olub və «Tarix-i cahanara»da yazılıbdır ki, ilk vaxtlarda Türkman (Ağqoyunlu) padşahı Əmirzadə Rüstəm tərəfindən bəxtiyarlıq dəryasının o qiymətli dürrünü tələb etməkdən ötrü Gilana dəfələrlə adamlar gəlmişdilər. Amma Karkiya Mirzə Əli ağıllı, ürəyəyatan üzrxahlıqlar gətirərək, [Rüstəmin göndərdiyi adamları] geri qaytarırdı. Lakin tarixçi Həsən bəy bu yaxşı xidməti Tul-u Nar valisi Əmirə Müzəffərə aid edərək yazır ki, [İsmayıl] əvvəlcə onun mənzilinə təşrif aparmışdı. Hərçənd Aybə sultan Ərdəbildən [Əmirə Müzəffərin] yanına adam göndərib vədlər versə də, hədələsə də, o, həzrətin orada olmasını inkar edib, onu xilas etmək üçün lazım olan işləri gördü. Daha sonra [İsmayıl] oradan Gilana yollandı və artıq deyildiyi kimi, o həzrət Lahicanda məskunlaşdı.[216] Nəhayət, Türkman şahzadələrinin, mərhum hökmdar Həsən padşahın övladlarının arasında düşmənçilik düşdü və onlar bir-biri ilə [mübarizə aparmaqla] məşğul oldular. Onların arasında ziddiyyət və çəkişmələr o dərəcəyə çatdı ki, başqaları ilə düşmənçiliyə yer qalmadı.

O həzrətin [Gilanda] qaldığı vaxt onun kəramətli dərgahı sufilərin və müridlərin gəliş-gedişindən boş qalmırdı. Yeniyetməliyin ilk vaxtında bəzən ov

---

[215] Bu abzasda kursivlə verilmiş cümlələr aşağıdakı əlyazmalardandır: S-129, v.22a; S-297, v.l2b. «Qızılbaş» (100+7+30+2+1+300=440) və «dövlət» (4+6+30+400=440) sözlərinin hər biri əbcəd hesabı ilə 440 rəqəmini ifadə edir. İsgəndər bəy Münşi bu sözlərin əbcəd cəminin bərabər olduğunu qeyd etməklə qızılbaşların Səfəvi dövlətindəki önəmli rolunu simvolizə etmək istəyir. «Bədv-i doulət-i Qezelbaş» («Qızılbaş dövlətinin başlanğıcı») ifadəsinin əbcəd hesabı isə 892-yə bərabərdir ki, bu da hicri qəməri təqvimi ilə I Şah İsmayılın doğum tarixidir.

[216] S-129, v.22b; S-297, v.12b.

əyləncəsi ilə məşğul olub, Simamı, Əşkuru vo o vilayətin mənzərəli yerlərini gəzərdi. Həmişə dünyanı idarə etmək arzusu onun ürəyində yaşayır, öz himmətinin yüksəklərdə uçan şahinini məmləkət quzğununu şikar etmək məqsədi ilə uçururdu.

**Beyt**

«Möhkəm iradə ilə himmət ona yar idi,
O işdə bəxti onun köməkçisi idi.
Qəlbində cahanı idarə etmək mətləbi vardı,
İdarə edən Allah ona kömək edirdi.
Onun ürəyində ədalət, din atəşi vardı,
Əzəl gündən bundan başqa fikri yox idi.»

Türkman Ağqoyunlu sultanlarının dövlətində çaxnaşma və ara toqquşmaları xəbəri Süleyman şanlı xaqanın qulağına çatdıqda onun cahanı bəzəyən rəyi Gilandan çıxmaq qərarına gəldi. Karkiya Mirzə Əli qonaqpərəstliyə layiq təvazökarlıqla və dövlətsevərliklə, ehtiyatı nəzərə alıb, buna mane olaraq dedi:

- Hələ dövlət gülşəninin qönçəsinin açılmaq vaxtı yetişməmişdir. Yəni yaşının azlığı, düşmənlərin çoxluğu, tərəfdar və köməkçilərin çatışmazlığı üzündən zati-alilərinin (İsmayılın) zühur və çıxış etmə məqamı [hələ] çatmayıbdır. Bir az da gözləmək lazımdır ki, bu ali məqsəd üçün Allahın köməyi ilə şərait hazırlanmış olsun.

O həzrət Karkiyanın xətrinə daha bir müddət [Gilanda] qaldı. Nəhayət, 906-cı ilin aylarında (28.07.1500 - 16.07.1501) Həsən padşahın nəvələri olan, Sultan Yaqubun oğlu Sultan Muradla Yusif mirzənin oğlu Mirzə Əlvəndin arasındakı çəkişmələrdən sonra sülh bağlandı. İran məmləkətləri iki əmioğlu arasında bölündüyü zaman Süleyman şanlı xaqanın Gilanda qalmaq müddəti altı il yarıma çatdı. Daha artıq səbir etməyə hövsələsi yox idi. Qeybdən ilham alaraq, o vilayətdən çıxmaq qərarı aldı. O, Karkiya ilə vidalaşıb, zəmanənin qürur mənbəyinə çevrilmiş bir saatda xidmətçilərindən və canından keçən əqidəli tərəfdarlarından ibarət məhdud bir dəstə ilə məqsədinə tərəf yollandı[217]. Karkiya Mirzə Əli var-dövlətinin imkan verdiyi qədər peşkəşlər təqdim edərək, layiqincə xidmət göstərdi və bir neçə fərsəx onu müşayiət edərək, [İsmayılm] qulluğunda olan qüdrətli dövlət ağsaqqallarına lazımi məsləhətlər verdikdən sonra onları Allah amanında mətləbə tərəf yönəltdi. Elə ki Taroma çatdılar, Rum və Şam sufilərindən təqribən min beş yüz nəfəri sədaqət qapısından keçərək, [İsmayüın] fələk kimi uca dərga-hında cəmləşdilər. Oradan Xalxala təşrif gətirdilər. Xalxaldan Ərdə-bilə getdilər. Ərdəbil hakimi Sultan Əli bəy Cagirlü onlara mane ol-maq və qarşı

[217] İsmayılın Lahicandan ayrılması 905-ci ilin məhərrəm ayının ortalarında (1499-cu ilin avqust ayının sonlarında) baş vermişdir (О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 144).

çıxmaq mövqeyində durdu. Buna görə də Süleyman şanlı xaqan o vaxt qoşununun azlığı üzündən döyüşə girməyi sərfəli bilməyib, oradan Talış tərəfə getdi[218]. O il şiddətli soyuq və şaxta olduğundan [İsmayıl və tərəfdarları] Astara vilayətinin Ərcüvan[219] kəndində qışlağa qaldılar. Talış camaatı onlara xidmət göstərdi. Baharın əvvəlində zəmanə Səfəvi sülaləsi tərəfdarlarının ümid bağçaları kimi ilahi lütf buludlarının damcılarından təravətə və sevincə qovuşduqda [İsmayıl] qışlaq yurdundan hərəkət edib, yenə də darülirşad Ərdəbilə gəldi. Əvvəlcə o, övliyalar sultanı olan həzrətin (Şeyx Səfiəddinin) müqəddəs məqbərəsini və məskəni cənnət olan ulu əcdadlarının mübarək qəbirlərini ziyarət etmək şərəfinə nail olub, duaların qəbul olunduğu və uca [ilahi] aləmin hüsn-rəğbətinin qonduğu yer olan o hörmətli məkanda özünün haqsevən batinindəki ali məqsədlərə çatmasını Allahdan istəyərək, ziyarət qaydalarını yerinə yetirdikdən və dualarının qəbul edilməsinin əlamətlərini gördükdən sonra möhtərəm anası və qardaşı ilə görüşmək sevincinə çatdı.

O ilahi dərgahdan kömək alanın (İsmayılın) dövlətinin və fatehliyinin başlanğıcında və onun səltənət və hökmranlıq əyyamında üz vermiş hadisələrin təfsilatını bəyan etmək və onun səadətli əhvalatlarını və şiddətli müharibələrini şərh etmək, onun üzünə Allahın köməyi ilə açılan qələbələrin qapılarını sözlə təsvir etmək, diliqısa qələmlərin qüdrəti xaricində və məharətli tarixçilərin yazı bacarığının fövqündədir. «Həbibüs-siyər» kitabında qeyd olunanlar və Həsən bəy Rumlunun «Əhsənüt-təvarix»də, Mir Yəhya Seyfi Qəzvininin isə "Lübbüt-təvarix"də[220] yazdıqları [o hadisələrin] onda biri, bəlkə də, mində biridir. O cahangirin əhvalatını müfəssəl yazmaq bu müxtəsər kitabda mümkün olmadığına görə uzunçuluqdan əl çəkərək, o barədə xülasə verməklə kifayətlənirik. Çünki bu əsərin yazılmasında əsas məqsəd - Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti dövründə cərəyan edən hadisələri bəyan etməkdən ibarətdir.

Sözün qısası, [İsmayıl] əzəmətli əcdadlarının və kəramətli şeyxlərin ruhlarından xeyir-dua diləyib, darülirşad Ərdəbildən Qarabağa yola düşdü. Hər gün iradət sahibləri Keyhan calallı orduya qoşulurdular. [İsmayıl] Qarabağda Mirzə Cahanşahın nəvələrindən olan və qiyam etmək xəyalı və yüksəklərə çatmaq niyyəti güdən Sultan Hüseyn Barani ilə görüşdü. Onun rəftarından hiylə və xəyanət əlamətləri müşahidə edən [İsmayıl] ondan ayrılaraq, Göyçə-dənizə təşrif apardı və daha sonra Ərzincana[221] getdi. Orada Şamdan, Diyarbəkrdən, Sivasdan,

---

[218] S-129, v.23a-b; S-297, v. 13a. Talış – Azərbaycan Respublikasının cənub-şərqini əhatə edən tarixi vilayət.

[219] Ərcüvan - indiki Astara rayonunun Ərçivan kəndi. Astara şəhərindən 10 km. şimal-şərqdə, Xəzər dənizindən 4 km. arah, Ərçivan çayının sahilində, Lənkəran ovalığında yerləşir (ASE, c. IV, s.229).

[220] «Lübbüt-təvarix» («Tarixlərin cövhəri») – Səfəvi tarixçisi Mir Yəhya ibn Əbdüllətif əl-Hüseyni əs-Seyfi əl-Qəzvininin (1481-1555) I Şah İsmayılın dördüncü oğlu Bəhram mirzə üçün yazdığı ümumi tarix səpkili mənbədir. Əsər 1542-ci ilin hadisələrində sona çatır (Ч.А Стори. Персидская литература, т. I, с. 399-403; О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 15-16).

[221] Ərzincan - indiki Türkiyənin şərqində, Ərzurumla Sivas arasında, Fərat çayı sahilində şəhər.

Bayburddan[222] və o hüduddan üç-dörd min nəfərədək sufi və əqidə sahibləri ali taxtın ətəyinə gəldilər. O cümlədən Əbdi bəy Şamlu 300 nəfərlə və[223] Xan Məhəmməd Ustaclu böyük dəstə ilə aləmin pənahı olan dərgahın qulluğuna hazır olub, xidmət göstərmək səadətinə nail oldular və [İsmayılın] razılığını qazandılar.

Ərzincanda məşvərətdən və «kəngaş»dan[224] sonra Şirvana tərəf getmək və şirvanlılardan intiqam almaq [qərarı] onun nurlu ürəyində möhkəmləndi. O, sədaqətli sufilərdən səkkiz min nəfərlə[225] Şirvan tərəfə hərəkət etdi.

## SÜLEYMAN ŞANLIX AQANIN ŞİRVAN VALİSİ FƏRRUX YƏSARLA MÜHARİBƏSİNİN ŞƏRHİ, O VİLAYƏTİN FƏTHİ VƏ ORADA BAŞ VERMİŞ HADİSƏLƏRİN BƏYANI

Elə ki Süleyman şanlı xaqan Şirvana getməyi qərara alıb Kür çayı sahillərinə çatdı, Bayram bəy Qaramanlunu [çayı] keçməyə yer təyin etmək üçün irəli göndərdi. Orada [İsmayıla] belə bir xəbər çatdırıldı ki, şirvanşah o həzrətin gəlişindən agah olub demişdir:

- Əgər o, Şirvana gəlsə, atasının başına gələn [hadisə] onun da başına gələcəkdir.

[İsmayıl] bu söhbəti eşitdikdə onun dünyanı yandırıb-yaxan qəzəb atəşi alovlandı. O, Kür çayının kənarına çatanda qorxulu və xətərli dolu bir keçid olan Qoyun-ölümü keçidində atını suya vurdu. Saf etiqadlı sufilər ona qoşulub, hamısı salamatlıqla [çaydan] keçdilər. Elə ki Şamaxıya çatdılar, Şirvan valisi Fərrux Yəsar Cəbani yaylağına yollandı[226]. İyirmi min süvarisi və neçə min piyadası olan Şirvan valisi Fərrux Yəsarla Gülüstan qalası[227] yanında döyüş oldu və [İsmayılın] zəfər və qələbəsi ilə nəticələndi.

Şirvanın əyanlarından və o diyarın piyada və atlı qoşunlarından çoxu Fərrux Yəsarla bərabər, şir ovlayan qazilərin intiqam qılıncı ilə cəhənnəmə getdi. O həzrətin (İsmayılın) səltənət və hökmdarlıq təbilinin səsi o diyarda yüksəklərə qalxdı. O qışı [İsmayıl] Şirvanın Mahmudabad[228] [şəhərində] keçirdi. Şirvanşahın

[222] Şam - indiki Suriya, Sivas – Türkiyədə, Qızılirmaq çayının yuxarı axarları yaxınlığında şəhər. Bayburd - indiki Türkiyənin şərqində, Ərzurumla Trabzon arasında, Çorox çayı sahilində yerləşən şəhər.

[223] S-129, v.24a; S-297, v.13b.

[224] Kəngaş - hərbi müşavirə.

[225] Mənbənin Bakı əlyazmalarında bu rəqəm 7 min nəfər göstərilmişdir (S-129, v.24a; S-297, v.13b).

[226] S-129, v.24a; S-297, v.13b.

[227] Gülüstan qalası - Şamaxı şəhərinin şimal-qərbində, Qız qalası dağında yerləşən orta əsr qalası. IX əsrdən mövcud olduğu ehtimal edilir. Bu barədə daha ətraflı bax: H.Ə.Ciddi. Gülüstan qalası. Bakı, 1967.

[228] Mahmudabad - Azərbaycanın Şirvan vilayətində Elxani hökmdarı Mahmud Qazan xan tərəfindən salınmış orta əsr şəhəri. 1978-ci ildə Bakı - Salyan avtomobil yolunun 115 km-də «Qırxçıraq» adlanan yerdə arxeoloji axtarışlar zamanı aşkar edilən 16 kv.km. sahəyə malik yaşayış yerinin Mahmudabadın qalıqları olduğu ehtimal edilir (ASE, c. VI, s.395).

Şeyxşah ləqəbli böyük oğlu gəmiyə minib, dəniz yolu ilə Gilana getdi. O vilayətin adamlarının əksəriyyəti ona (İsmayıla) itaət etdilər. Şirvan padşahlarının o ölkədə olan bütün xəzinə və dəfinələri Süleyman şanlı xaqanın əlinə keçdi.

Bəzi qalaların, xüsusən Badikubə (Bakı) qalasının camaatı müqavimət göstərdilər. Badikubə qalası üç tərəfdən su ilə əhatə olunmuşdur. Heç bir əzəmət sahibinin əli onun xəndəklərinin[229] kənarındakı torpağın ətəyinə çatmır. Qalanın quruya çıxan tərəfində aqillərin ölçüyəsığmaz düşüncələri qədər dərin və geniş bir xəndək qazılmışdır. Oranın əhalisi bir qədər itaətsizlik edib qalanı saxladılar, lakin axırda ora zavalsız dövlətin gücü ilə fəth olundu. Şirvan əhlinin bir hissəsi Gülüstan qalasında olduğundan [İsmayıl] oradan [bu] qalanın yanına gəlib, o vilayətin məşhur qalalarından olan o uca qalanı mühasirə etdi. Mühasirə əsnasında qeyb aləmindən gələn səs o həzrətə Azərbaycanın səltənət və padşahlıq taxtının müjdəsini verdi. Röya aləmində [İsmayıla] işarə etmişdilər ki, səadət səmasında uçan şahinə kiçik sərçə ovlamaq layiq deyil. [O həzrət (İsmayıl) böyük əmirləri yanına çağırıb dedi: «Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?». Müqəddəs Səfəvi xanədanının etiqad sahibləri səmimiyyət və müridlik aləmində [İsmayılın] ilham söyləyən dilindən nə söz çıxırdısa, məhz onu həqiqət bilərək, ondan heç kənara çıxmadıqlarına görə Azərbaycan taxtı müjdəsinin şənlik sədasını Keyvan eyvanına[230] çatdırdılar.]

Bu əsnada xəbər yetişdi ki, Naxçıvanda olan Əmirzadə Əlvənd türkman qoşunlarının bir hissəsinə iki tərəfdən Şirvana gedərək Süleyman şanlı xaqanla döyüşə girişməyi əmr etmişdir. O həzrətin nurlu qəlbində qeyrət şöləsi alovlandı, birdən, Gülüstan qalasını almaqdan əl çəkərək, qeyb aləminin xəbərçilərindən alınmış işarə ilə qalanı tərk edib, Azərbaycana tərəf yönəldi.

## SÜLEYMAN ŞANLI XAQANIN MİRZƏ ƏLVƏND TÜRKMANLA MÜHARİBƏSİ VƏ SƏXAVƏTLİ ALLAHIN KÖMƏYİ İLƏ QƏLƏBƏ ÇALMASI HAQQINDA

Mirzə Əlvənd Naxçıvanda Süleyman şanlı xaqanın Azərbaycan tərəfə hərəkət etdiyini eşidib, Əmir Osman Mosullunu Ağqoyunlu qoşununun bir dəstəsi ilə o həzrətin üzərinə yolladı. Süleyman şanlı xaqan da Piri bəy Qacarı və Halvaçıoğlu Mirşikarı canını qurban edən qazilərdən bir dəstə ilə onları dəfetməyə göndərdi. Tərəflər arasında çox gərgin bir döyüş oldu. Səadətli [qızılbaş] qoşunları zəfər və qələbə qazandılar. Əmir Osman bir sıra türkman başçılan ilə birlikdə əsir düşüb, Süleyman şanlı xaqanın hökmü ilə öldürüldü. Əmirzadə Əlvənd [göndərdiyi] qoşunun məğlubiyyəti və Əmir Osmanın əsir düşməsi xəbərini

[229] Xəndək - qalanın ətrafının daha yaxşı mühafizə olunması üçün qazılırdı.

[230] Keyvan - Saturn planetini bildirir. Keyvan və ya Keyvan eyvanı sözləri klassik Şərq ədəbiyyatında ucalıq, yüksəklik rəmzi kimi işlədilmişdir. Orta əsr müsəlman atsronomları Saturn planetinə həm də Zühəl deyirdilər.

eşitdikdə Süleyman şanlı xaqana qarşı müharibə kəmərini qurşanıb, intiqam almaq və o həzrətin hücumunu dəf etmək naminə[231] öz yanında olan otuz min türkman döyüşçüsü ilə o həzrətin qarşısına çıxmağa tələsdi. Amma Süleyman şanlı xaqanın son dərəcə şücaətli və cəsur olması, özlərini pərvanə kimi atəşə atmağı əbədi həyat bilən qızılbaşların fədakarlığı onların ürəyində dəhşət və vahimə doğurmuşdu.

907-ci il aylarında (17.07.1501 - 06.07.1502) Naxçıvanın Şərur [düzündə] iki tərəf arasında döyüş oldu. Sayca yeddi min nəfər olan qızılbaş ordusunun dilavərləri fədakarcasına döyüşə atılıb, qəhrəmanlıq göstərdilər. O tərəfdən də türkman qoşunları var gücləri ilə çalışırdılar. Amma Allahın köməyi ilə üstünlük və qələbə müzəffər ordunun tərəfində oldu. Əmirzadə Əlvənd məğlub edildi. Türkmanların əyan və əmirlərinin böyüklərindən bir çoxu və saysız-hesabsız döyüşçüləri bu vuruşmada həlak oldular. Müzəffər ordunun əlinə çoxlu qənimət keçdi. «Tarix-i cahanara»da yazdıb ki, bu müharibədə türkman qoşunundan iyirmi min nəfər qətlə yetirildi. Doğrusunu Allah bilir[232]. Mirzə Əlvənd Azərbaycanda dayana bilməyib, Ərzincana qaçdı. Süleyman şanlı xaqan arzusuna çataraq, darüssəltənə[233] Təbrizə müzəffərcəsinə daxil olub, padşahlar qaydasınca səltənət taxtına oturdu.

On iki imamın - onlara salam olsun - haqq məzhəbi aşkara çıxdı, minbərlər üzərində gözəl ləqəblərlə imamların adlarına xütbə oxundu, mübarək ibarə olan «La ilahə illəllah və Məhəmmədən rəsulullah və Əliyyən vəliyullah» («Allahdan başqa bir ilah yoxdur, Məhəmməd Allahın elçisidir və Əli Allahın dostudur») sözləri və Allah tərəfindən seçilmiş [Şah İsmayılın] məşhur adı dinarların (sikkələrin) üzünün bəzəyi oldu. Azğınların qoyduqları dindən kənar adətlər aradan çıxdı, pak və gözəl davranışlı Əhli-beytin indiyədək sonsuz ehtiyatla yaşayan şiələri açıqdan-açığa imamların haqq məzhəbinin qaydalarına riayət etməyə başladılar. Buna müxalif olanlar gizli bucaqlara soxuldular. O həzrətin qüdrət və qüvvətinin şöhrəti ətrafa yayıldı, atəş yağdıran qılıncının alovu fələyə yüksəldi.

Mirzə Əlvənd bir dəstə toplayıb, ümidsiz bir hərəkətə əl ataraq, Ərzincandan Azərbaycana yönəldi. 908-ci ilin aylarında (07.07.1502-25.06.1503)[234] şahın zəfər nişanlı bayraqları Tərcan[235] yolu ilə Ərzincana yönəldiyi zaman [Mirzə Əlvənd] darüssəltənə Təbrizə gəlib, rəiyyətlərə və zənginlərə qarşı zülm əlini uzatdı, oradan da Ucana[236] tələsdi. Lakin [Şah İsmayılın] dünyanı fəth edən məiyyətinin yaxınlaşdığım eşitdikdə [orada] dayana bilməyib, Ucandan

---

[231] S-129, v.25a; S-297, v.14a.
[232] S-129, v.25a; S-297, v.14 b.
[233] Darüssəltənə - «sultanlıq məkanı», səltənətin mərkəzi, hansısa bir qüdrətli Şərq monarxik dövlətinin paytaxt şəhəri.
[234] S-129, v.25b; S-297, v.l4b.
[235] Tərcan - Türkiyənin şərqində, Ərzurum və Ərzincan şəhərləri arasında, Fərat çayının yuxarı axarları ilə Qarasu çayı arasında yerləşən bir yer adıdır.
[236] Ucan - Cənubi Azərbaycanda orta əsr şəhəri. Təbrizdən 50 km. cənub-şərqdə yerləşirdi. Hazırda Ucan Təbriz ostanlığına daxil olan Bastanabad bəxşiliyində kənddir.

Həmədana getdi, oradan da Bağdada yönəldi. Bəxt ondan üzünü çevirdiyindən, Qasım bəy Pornak ona müxalif çıxdığına görə orada da qala bilmədi və Diyarbəkrə getdi. Mardində[237] onunla Həsən padşahın qardaşı Cahangir mirzənin oğlu Qasım bəy arasında müharibə baş verdi. Qalib gəlməsinə baxmayaraq, səadət o sülalədən üz döndərdiyi üçün tez bir zamanda, 910-cu il aylarında (14.06.1504-03.06.1505) o vilayətdə öz mövcudluq yükünü axirət sarayına çəkib apardı (öldü).

Xaqan həzrətlərinin (Şah İsmayılın) «Namurad» dediyi Yaqub padşahın oğlu Sultan Murad Fars, İraq, Kirman[238] və Xuzistan məmləkətlərinin hökmdarı idi. O, haqqında bəhs etdiyimiz əhvalatlardan və xaqan həzrətlərinin istilalarından agah olduqda öz məmləkətlərinin qoşunlarını cəmləyib, istiqlaliyyət xəyalı ilə hərəkətə keçdi. Sultan Muradın gəlişi xəbəri Heydər soylu padşahın qulağına çatdıqda əvvəlcə o, Sultan Heydərin etibarlı qulamlarından olmuş, zəkah və ağrılı bir kişi olan Qənbər ağa adlı yaxşı nitqə malik elçisini onun yanına göndərib, onu dostluğa, itaətə və tabeçiliyə dəvət etdi. Bunun cavabında Sultan Murad nalayiq sözlər dilə gətirdi və o həzrətlə (Şah İsmayılla) döyüşmək məqsədi ilə Delican qəsəbəsindən[239] Həmədan yaxınlığına gəldi.

O, özü ilə yetmiş min nəfərə qədər türkman qoşunu, üç yüz araba («ərradə») ilə toplar, zərbzənlər[240] və [digər] yaraqlar gətirmişdi. Bu tərəfdən Süleyman şanlı xaqan səadətli əsgərlərlə Allahın mərhəmətinə, pak və günahsızların müqəddəs ruhlarının köməyinə arxalanaraq, şöhrətli qızılbaş tayfalarından müqəddəs üzənginin həndəvərində olan on iki min nəfərlə birlikdə düşmənlərin qarşısına yönəldi.

## SÜLEYMAN ŞANLIXAQANIN SULTAN MURADLA MÜHARİBƏSİ VƏ İRAQİ-ƏCƏMİN, FARSIN VƏ KİRMANIN ALLAHIN KÖMƏYİ İLƏ FƏTH EDİLMƏSİ HAQQINDA

908-ci ilin zilhiccə ayının 24-də, şənbə günü (21 iyun 1503) Həmədanın Almaqulağı [çölündə] iki tərəf arasında böyük bir döyüş baş verdi. Xaqan, Heydəri qolunun gücü ilə[241] və on iki imamın («isna-əşəri») dövlət günəşinin parlamasının şəfəqi ilə o saysız orduya qələbə çaldı. O dəhşətli vuruşmada türkman qoşunları darmadağın edildi. Süleyman şanlı xaqan həmişə ilham deyən dili ilə Sultan Muradı «Namurad» («muradına çatmayan») adlandırdığı kimi, Sultan Murad sərsəri və namurad halda qaçıb, Şiraza getdi. Bu döyüşdə saysız qənimət, səba

---

[237] Mardin - Türkiyə ərazisində, Diyarbəkrdən cənub-şərq tərəfdə, indiki Türkiyə - Suriya və Türkiyə - İraq sərhədləri yaxınlığında yerləşən şəhər.

[238] Kirman - İranın cənub-şərq hissəsində, Kuhrud silsiləsinin cənub qolu ilə Kuhbənan silsiləsi arasında yerləşən şəhər.

[239] S-129, v.25b-26a; S-297, v.14b. Delican - İsfahanla Həmədan arasında yerləşir.

[240] Zərbzən - artilleriyanın bir növüdür.

[241] Qeyd etdiyimiz kimi, Heydər - Həzrət Əlinin ləqəblərindən biridir. «Heydəri qolunun gücü ilə» dedikdə Həzrət Əliyə məxsus qol gücü başa düşülür.

[küləyi kimi] gedən ərəb atlan və hər diyardan saysız-hesabsız müxtəlif mallar zəfər çalmış əsgərlərin əlinə keçdi.

Süleyman şanlı xaqan hər tərəfə fəthnamələr göndərdi. Ətraf hökmdarlar və məmləkətlərin əyanları türkman sultanlarının fəlakətə uğradıqlarını və talesizliyə düçar olduqlarını yəqin etdilər və şahın gündən-günə möhkəmlənən şərəfli dövlətinə ümid bəsləyərək, aləmin pənahı olan dərgaha meyil etdilər. [Onlar] hər tərəfdən xilafət taxtının ətəyinə elçilər göndərərək, dünya sultanlarının fəthlərinə bərabər olan bu parlaq qələbə münasibətilə təbrik dedilər və saysız peşkəşlər və bəxşişlər təqdim etdilər. O baharda zəfər nişanlı bayraqlar Əlvənd dağının[242] ətəyinə təşrif gətirərək, baharın mübarək günlərini o cənnətə bənzər çəməndə eyş-işrətlə, şənliklə, söz-söhbətlə və əyləncələrlə keçirdilər.

Bu arada xəbərçilər məlumat verdilər ki, Sultan Murad darül-mülk[243] Şirazda yerləşərək, Fars məmləkətində hakimiyyəti ələ alıb məğlubiyyətinin əvəzini çıxmaq istəyir. Süleyman şanlı xaqan Süleyman taxtı (Şiraz) tərəfə hərəkət edib, gözəl bəxtli ordu və qalib əsgərlərlə darülmülk İsfahana getdi. Buradan qəflətən Şiraz tərəfə yürüş etdi. Sultan Murad, şahın mübarək məiyyətinin gəlməsi xəbərindən tam sarsılaraq, mübarək dövlətin hücumu qarşısında dayana bilməyəcəyini anlayıb, Şüştər[244] tərəfə qaçdı. Müzəffər bayraqlar tam calal və səadətlə Süleyman taxtının (Şirazın) üzərinə qədəm qoydu. Şiraz o başlıca şahın məskəni oldu. Farsın əhalisi və oyanları ali taxtın ətəyinə gəlib, layiqli peşkəşlər gətirdilər. Fars sakinlərinin hamısı Mürtəza xasiyyətli padşahın ədalət bayraqlarının kölgəsinə sığınaraq, dövranın hadisələrindən asudəlik tapdılar.

Amma namurad Sultan Murad müzəffər qazilərin qılıncının və oxunun qorxusundan Şüştərdə dayana bilmədi, oradan Bağdada getdi. Orada da Barik Pornakın ağalığı ucbatından vəziyyətin ürəyincə olmadığını müşahidə etdi. Xaqanın səadətli bayraqlarının cah-calalla yaxınlaşması xəbəri o diyarda yayıldıqda orada qala bilməyib, adı çəkilən Bariklə birlikdə Hələbə[245] getdi. Bir müddət Misir və Şam padşahı Sultan Qansu Qurinin dövlətinin kölgəsi altında qaldıqdan sonra Diyarbəkr və Rüstəmdara getdi[246]. [Sultan Murad] zülqədər

---

[242] Əlvənd dağı - Həmədan şəhəri yaxınlığındadır və hündürlüyü dəniz səviyyəsindən 3500 m. yüksəkliyə çatır.

[243] Şüştər - İranın cənub-qərbində, Əhvaz (Hüveyzə) şəhərindən şimalda, Karun çayının orta axarları kənarında yerləşən şəhər.

[244]Darülmülk - hansısa bir ölkənin və vilayətin mərkəz şəhəri, paytaxtı mənalarında işlədilir. Şiraz şəhəri 1500-1503-cü illərdə Ağqoyunlu Sultan Muradın paytaxtı olmuşdur.

[245] Hələb - indiki Suriya Respublikasının şimal-qərbində şəhər.

[246] Burada iki xəta vardır. Birincisi, Sultan Murad Bağdadı Barik bəydən öncə tərk etmişdi və ikincisi, o, Mazandaranda yerləşən Rüstəmdara getməmişdi. Bunu digər mənbələrlə yanaşı, İsgəndər bəyin özünün sonrakı məlumatları da təsdiq edir. Onun əsərinin növbəti fəsillərindən aydın olur ki, Şah İsmayılın 1507-ci ildə Mərəş və Əlbistan üzərinə yürüşü zamanı Sultan Murad artıq Əlaüddövlənin yanında idi. Bağdad isə 1508-ci ildə fəth olunmuşdur. Rüstəmdara sığman şəxs isə Ağqoyunlu hökmdarı Sultan Murad deyil, Ağqoyunlu sərkərdələrindən Murad bəy Cahanşahi olmuşdur.

tayfasının başçısı. Mərəş[247] vilayətinin valisi Əlaüddövlədən[248] razılıq alıb, o tərəfə hərəkət etdi. Onun sonrakı taleyi haqqında bir az sonra, Əlaüddövlənin aqibətindən bəhs olunarkən yazılacaqdır.

Xülasə, dünya padşahının müzəffər bayraqları Fars darülmülkünün işlərini nizama saldıqdan sonra Allahın köməyi ilə İraq tərəfə hərəkət etdi.

## İRAQ ÜSYANÇILARININ CƏZALANDIRILMASI, QALALARIN ALINMASI VƏ DÜNYA PADŞAHININ QƏLƏBƏ ÇALMASI HAQQINDA

Əmir Hüseyn Kiya Çəlavi bütün Rüstəmdarı, Firuzkuh dağlarını, Dəmavəndi, Həbəlrudu[249] və o tərəfləri öz əlinə keçirmişdi. [Onun] on iki min süvari və saysız-hesabsız piyadası vardı. [O], qalaların möhkəmliyinə və dağların yüksəkliyinə güvənərək, müxalifət və itaətsizlik fikrinə düşdü və üsyana qalxaraq, İraq məmləkətinin ətrafına əl uzatdı. İraqda vəziyyətlərindən narazı olan Bayanduri türkmanlarının bir qismi Murad bəy Cahanşuhlunun[250] sərkərdəliyi ilə Rüstəmdar dağlarını və Əmir Hüseyn Kiyanın dərgahını sığınacaq bilərək, onun başına yığışmışdılar. Buna görə də o, (yəni Əmir Hüseyn) əvvəlkindən daha çox qürur və lovğalığa qapılaraq, padşahın sidrə[251] nişanlı astanasının mülazimləri ilə ədəbsiz davranırdı. [Şah İsmayıl] səmalara yüksələn bayraqlarla Fars məmləkətinə getdiyi zaman İlyas bəy Ayğutoğlunu bir dəstə ilə onun şərini dəf etməyə göndərdi. Əmir Hüseyn Kiya bu xəbəri eşidən kimi, qızılbaş qoşunu toplanmadan öncə İlyas bəyin üzərinə hücum etdi. Sözügedən [İlyas bəy] Vəramin qalasına çəkildi. Cəlavilər qalanın ətəyinə gəlib, bir müddət onu mühasirədə saxladılar. Axırda əhdü-peyman əsasında onunla görüşüb, məkr, hiylə və xəyanətlə o sadə qəlbli türkü onun bir dəstə mülazimləri ilə birlikdə Rey[252] [mahalının] Kəbud-Günbəd [adlı yerində] şəhid etdilər.

Onun (Əmir Hüseynin) itaətsizliyi, özbaşınalığı və ədəbsizliyə cəsarət etməsi xəbəri cah-calallı padşahın qulağına catdı. [Şah İsmayıl] o bədxasiyyətlinin fitnəsini aradan qaldırmaq, Rüstəmdar dağlarında olanları cəzalandırmaq məqsədi ilə 909-cu (26.06.1503 - 13.06.1504) ilin baharının əvvəlində müzəffər əsgərlərlə Qum[253] qışlağından o tərəfə hərəkət etdi. İlk növbədə mətanət və möhkəmlikdə

---

[247] Mərəş (Maraş) - Türkiyənin cənubunda, Ceyhan çayından şərq tərəfdə yerləşən şəhər.

[248] Əlaüddövlə Zülqədər - 1480-1515-ci illərdə Zülqədər əmirliyinin başçısı. Zülqədər əmirliyi Türkiyənin Mərəş və Əlbistan bölgələrində mövcud olmuşdur. Bu əmirlik formal olaraq Məmlüklərdən asılı vəziyyətdə olsa da, əslində müstəqil siyasət yürüdürdü.

[249] Rüstəmdar, Firuzkuh. Dəmavənd və Həbəlrud - Xəzər dənizinin cənub sahilində yerləşən Mazandaran vilayətində yer adlarıdır.

[250] S-129, v.26b; S-297, v.15b.

[251] Sidrə (sidr) - şam fəsiləsindən olan hündür və həmişə yaşıl iynəyarpaqlı ağac cinsidir. Şərq ədəbiyyatında ucalıq, böyüklük rəmzi kimi qəbul olunur.

[252] Rey - Tehran yaxınlığında şəhər.

[253] Qum - İranda, Tehrandan cənub-qərb tərəfdə şəhər.

çərxi-fələyin uca qalasına bərabər olan Gülxəndan qalasını mühasirəyə aldı. Allahın qüdrəti və Heydəri qolun gücü ilə o Xeybərə bənzər qalanı ələ keçirdi[254]. Mühasirədə olanlara qarşı qətliam törədildi. [Şah İsmayıl] oradan Firuzkuh qalasına getdi. Bu qala da müzəffər dövlətin qüdrəti ilə Gülxəndan qalası kimi alındı. Qalanın kutvalı Əmir Əli Kiya Zəmandar[255] xeyli gərgin müqavimətdən sonra qalanı müdafiə etməkdən aciz qalaraq, şahın səadətli astanasına pənah gətirib, aman istədi. O, acizlik və çarəsizlik göstərən bir dəstə ilə birlikdə mübarizədən əl çəkib salamat qaldı, qalanları isə cəzalandılar.

Əmir Hüseyn Kiya on iki min atlı və çoxlu piyada ilə müzəffər əsgərlərin yolunu kəsərək, məkr və hiylə işlədib, hücum etmək üçün pusquda oturmuşdu. O, bu iki möhtəşəm qalanın alınması və mühasirədə qalanların qətliamından son dərəcə vahiməyə düşərək, qəflət yuxusundan ayıldı, yanlış əməllərindən peşman oldu. O, yanındakı bir dəstə adamla bu vilayətin ən əzəmətli qalası sayılan və möhkəm divarlara malik olan Usta qalasına sığındı. Tayı-bərabəri olmayan padşahın mübarək məiyyəti qalanın yanına gələrək, qalanın alınması üçün lazımi işlərə başladı. Tərəflər arasında hərdənbir ox, tüfəng atışması baş verirdi. Qalanın yanından geniş çay axırdı. Qaladakı adamlar daşları dələrək, [oradan] qalaya su aparırdılar. Bu cəhət [Şah İsmayılın] dünyanı bəzəyən fikrinə işıq saçdı. [Şah İsmayıl] dəniz kimi [geniş] idrakı ilə çalışdı ki, çayın suyunun məcrasını dəyişib, başqa tərəfə yönəltsin. Hərçənd suyun çoxluğu və çayın daşması [təhlükəsi] bu fikri ağıla sığışdırmasa da, o cəsarət dəryası (Şah İsmayıl) bu işə başlayaraq, bir neçə gün ərzində başqa istiqamətdə arx qazdırıb, çayın suyunu oraya yönəltdi. Çəlavilər sudan uzaq düşmüş balıqlar kimi iki-üç gün çapaladılar. Axırda onlar susuzluqdan aman fəryadı qaldırdılar. O möhkəmlikdə, o mətanətdə olan qala igid kişilər [tərəfindən müdafiə] olduğuna baxmayaraq, otuz üç gün içində qüdrətli dövlətin sərkərdələrinin əlinə keçdi. Qalada mühasirədəkilərin yaşı da, qurusu da yağıları yandıran dostpərvər padşahın qəzəb atəşinə düşdü. O kinli və qantökən tayfa iti qılıncdan keçirildi. Bir dəstə qələm əhlindən savayı, o tayfadan heç kəs xilas olmadı. Murad bəy Cahanşahi[256] qəzəb odunda yandırıldı; intiqam alan döyüşçülər onun ətini yedilər[257]. Əmir Hüseyn bayquş kimi dəmir qəfəs xarabalığında həbsə atıldı. Lakin o, gözətçilərin gözündən yayınaraq, özünü yaraladı. Bir neçə gündən sonra Reyin Kəbud-Günbəd yurdunda onun ruhunun quşu bədən qəfəsindən uçdu. Qəribə hadisələrdən biri odur ki, Əmir Hüseyn Kiya, İlyas bəy Ayğutoğlunu və onunla birlikdə olan qızılbaşları qətlə yetirdiyi yerdə öz əməlinin mükafatına çatdı və həmin yerdə axirət sarayına köçdü. Amma cansız

---

[254] Xeybər – Mədinədən Suriyaya gedən yol üstündə yerləsən, güclü istehkamlara malik olan yəhudi şəhəri idi. Bu şəhər m. 628-ci ildə Məhəmməd peyğəmbərin göstərişi ilə Həzrət Əlinin başçılıq etdiyi islam qoşunu tərəfindən fəth edilmişdi.

[255] S-129. v.27a; S-297, v.l5b.

[256] Mənbənin Bakı nüsxəsində Cahanşahi əvəzinə Cahanşahlu yazılmışdır (S-129, v.27b; S-297, v.15b).

[257] Burada «ətini yedilər» ifadəsi, çox güman ki, məcazi mənada yazılmış, qızılbaşların Murad bəydən aldıqları intiqamın şiddətini göstərmək məqsədi ilə işlədilmişdir.

bədəni qəfəsdə qalmışdı. Nəhayət, onun murdar cəsədi qəhrəman [Şah İsmayılın] qəzəb atəşində yandırıldı.

Bu arada türkman sultanzadələrinin dövləti dövründə Əbərquhun daruğası[258] olmuş Məhəmməd Kərrənin itaətsizlik və üsyan xəbəri Rüstəmdarı almaqla məşğul olan şahın qulağına çatdı.

Süleyman şanlı xaqan Əbərquh əyalətini ona bağışlamışdı. Lakin [Məhəmməd Kərrə] Yəzdə basqın etmiş, qəflətən şəhərə girərək, oranın hakimini qətlə yetirmiş, üsyan və özbaşınalıq bayrağını qaldırmışdı. O qorxusuz qiyamçını cəzalandırmaq üçün hökmdar (Şah İsmayıl) darülibadə[259] Yəzdə tərəf yürüş etdi və iki aya qədər şəhəri və qalanı mühasirədə saxladı. Axırda o bədbəxt mənfur [Məhəmməd Kərrə] şəhəri müdafiə etməkdən və döyüşməkdən aciz qalaraq, ərkdə (şəhərin iç qalasında) möhkəmləndi. Lakin müzəffər əsgərlər [iç] qalanı da alıb, ərkin nağaraxanası yerləşən hündür bürcdə Məhəmməd Kərrəni tutub, dəmir qəfəsdə həbs etdilər. Qalanları da cəzalandılar. Sonunda Süleyman şanlı xaqanın qiyamət oduna bənzər qəzəbinin şöləsi İsfahanın Nəqşi-cahan meydanında alışaraq, onun (Məhəmməd Kərrənin) cəsədini də «sələf»i Əmir Hüseyn Kiya Çəlavi kimi həmin qəfəsdə qəzəb atəşində yandırdı. Bu yürüşdə ilahi qüdrətin gücü ilə İraq mülkündəki digər üsyançılar da cəzalandırıldı. O vilayətin [sahəsi] müxalif və üsyançıların zir-zibilindən təmizləndi.

Xorasana getmiş bir dəstə türkmanın təhriki ilə cağatay qoşunu[260] Kirman məmləkətinin ətrafına təcavüz etmişdi[261]. Cağatay qoşunu tərəfindən ədəbsizlik edildiyindən, mərhum padşah Sultan Hüseyn mirzə[262] qələbələri təbrik etmək və cağatayların yöndəmsiz hərəkətinə görə üzr istəməkdən ötrü Əmir Kəmaləddin Sədri cahangir padşahın (Şah İsmayılın) hüzuruna göndərdi. Ancaq [onun]

---

[258] Əbərquh - İranın Fars vilayətində güclü islehkamlara malik olan və İstəxr - Yəzd yolunun təxminən tən ortasında yerləşən şəhər. Hal-hazırda Yəzd ostanlığına tabe olan rayon mərkəzidir və Yəzd şəhərindən 133 km. qərbdə yerləşir. Daruğa - moğolca «rəis» deməkdir. Səfəvilər dövründə şəhər idarəçiliyinin başında duran məmur «daruğa» adlanırdı. Daruğa şəhərin inzibati və hərbi-siyasi rəhbəri sayılırdı. Onun ixtiyarında silahlı dəstələr olurdu. Bundan əlavə, bazar daruğası, dəftərxana daruğası, mühasibat daruğası, fərraşxana daruğası kimi vəzifələr də vardı (bax: V.F.Minorsky. «Tadhkirat al-muluk»: A Manual of Safavid Administration circa 1137/1725. London, 1943, p. 141; Ş. K. Məmmədova. «Xülasətüt-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s. 55; M. X. Гейдаров. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку, 1987, с.84-85,132; З.Г.Байрамов. Местное и городское управление в Азербайджане в системе государства Сефевидов. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1985, с.17-19).

[259] Darülibadə - «ibadət məkanı» deməkdir. Bu epitet İranın Yəzd şəhərinə aid olunurdu.

[260] İsgəndər bəy Münşi, bir qayda olaraq, «cağatay» adı altında Teymurilərin qoşunlarını və tərəfdarlarını, «özbək» adı altında isə Şeybanilərin qüvvələrini nəzərdə tutur.

[261] S-129, v.28a; S-297, v.16a.

[262] Sultan Hüseyn mirzə (Sultan Hüseyn Bayqara) - Teymurilər sülaləsindən olan Xorasan hökmdarı (1469-1506).

göndərdiyi məktub əşrəfin[263] xoşuna gəlmədi, əksinə, onun qəzəb odunun alovlanmasına səbəb oldu. [Buna görə də] o, Yəzddən Təbəsə[264] tərəf yürüş edərək, şəhərə hücum etdi. Şəhərdə sakin olan cağatayların böyük hissəsi ölüm qılıncından keçirildi. Nəhayət, çoxlu qan töküldükdən sonra [Şah İsmayılın] qiyamət alovuna bənzər qəzəb odu bir az söndü və [o], bir həftədən sonra [geri] döndü. «Əhsənüt təvarix»də yazılıb ki, bu hadisədə yeddi min nəfər öldürüldü.

O biri ilin baharında[265] [Şah İsmayıl] Həmədan yaylağına getdi. Qışı Xoy və Səlmasda[266] keçirdi. Urumi[267] vilayətinə gəlmiş və məmləkətin kənarlarına əl uzatmış kürd Şər Saromun[268] fitnəsi Bayram bəy Qaramanlunun və Xəlifətül-xüləfa adı ilə məşhur olan Xadim bəyin səyləri ilə aradan qalxdı. [Onlar Saromun] iki[269] qardaşını, oğlunu və sərdarlarının çoxusunu ələ keçirib, ağır əzablarla cəzalandırdılar, onun bütün eli-ülusu hadisələrin taracına getdi. Durmuş xanın atası Əbdi bəy Şamlu və Sarı Əli Möhürdar Təkəlü bu səfərdə həlak oldular[270].

Rəşt valisi Əmir Hüsaməddinin xoşagəlməz davranışından əşrəfin kefi pozulduğundan 911-ci ildə (04.06.1505 - 23.05.1506) onu cəzalandırmaq üçün üzərinə qoşun göndərdi. Şahın məiyyəti də Taromdan Rəştə gəldi. Əmir [Hüsaməddin] acizlik və çarəsizlik göstərərək, tərcüman rüsumu[271] şəklində layiqli töhfə və hədiyyələr göndərdi və Əmir Nəcməddin Rəştinin vasitəçiliyi ilə [Şah İsmayıl] onun təqsirindən keçərək, geri döndü.

Həmin ildə hökm edildi ki, Sultan Heydərlə müharibədə müxaliflərlə birlikdə iştirak edənlər qətl olunsun. O zaman qoruçubaşı olan Əbdal bəy Dədə bunu icra etməyə məmur edildi. Bu səbəbdən müxtəlif türkman tayfalarından və qeyrilərindən çoxlu adam cəzalandırıldı.

---

263 Əşrəf - ərəbcə «ən şərəfli» deməkdir. İsgəndər bəy Münşi bu sözlə bir sıra hallarda Səfəvi şahlarını ifadə edir.

264 Təbəs - İranda, Məşhədlə Yəzd arasında, Dəşli-Lüt səhrasının şimalında yerləşən şəhər.

265 1505-ci ilin baharı nəzərdə tutulur.

266 Xoy və Səlmas - Cənubi Azərbaycanda, Urmiya gölündən şimal-qərbə tərəf yerləşən şəhərlərdir.

267 Urumi - Cənubi Azərbaycanın qərbində, Urmiya gölündən qərb tərəfdə yerləşən indiki Urmiya şəhəri nəzərdə tutulur.

268 Şir Sarom (Şir Sarim) – kürdlərin mükri tayfasının başçısı idi. İsgəndər bəy onu qəsdən «Şər Sarom» adlandırır.

269 S-129, v.28a; S-297, v.16b.

270 Möhürdar («möhrdar-i möhr-i hümayun») - şahın möhürünü saxlayan şəxs. Səfəvilərin erkən dövrlərində möhürdar vəzifəsini tutan şəxs böyük hörmətə malik idi. O, vəzifə təyinatları ilə bağlı fərmanlara və müxtəlif sənədlərə şahın möhürünü vururdu (daha ətrallı bax: О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.264-265).

271 Tərcüman rüsumu - dövlət qarşısında müəyyən təqsirləri olmuş şəxsdən alınan cərimə vergisi.

# ƏMİR ƏLAÜDDÖVLƏ ZÜLQƏDƏRİN DƏF EDİLMƏSİ ÜÇÜN HÖKMDARIN HƏRƏKƏTİ, DİYARBƏKR HADİSƏLƏRİ VƏ ALLAHIN KÖMƏYİ İLƏ O DİYARIN FƏTH EDİLMƏSİ HAQQINDA

O biri il hökmdarın qulağına çatdı ki, Sultan Murad Mərəş və Əlbistan[272] hakimi Əlaüddövlə Zülqədərin yanına gəlmiş, Əlaüddövlə isə onu özünə kürəkən etmişdir. [Sultan Murad] zülqədər qoşununu, Mosulun[273] və o hüdudun türkmanlarını öz başına yığaraq, Diyarbəkr vilayətini və ətraf qalaları almaqla məşğul olub, o vilayətdə istibdad və istiqlaldan dəm vurur. Süleyman şanlı xaqanın yüksək məqsədli qeyrəti tələb etdi ki, cahangir bayraqları o tərəfə qaldıraraq, [öz] mübarək könlünü ölkədə fitnəkarlıq salanların [əlindən] tamamilə asudə etsin.

Ay kimi gəzən qorucular məmləkətlərin qoşunlarını hazır etməyə məmur olundu. 913-cü il aylarında (13.05.1507 - 01.05.1508) [Şah İsmayılın] qələbə rəmzli bayrağı Ərzincan[274] tərəfə qaldırıldı. Cahanı gəzib-dolanan məiyyət öz gəlişinin kölgəsini o ölkəyə saldıqda Əlaüddövlə qızılbaşların gəlib yaxınlaşması xəbərini alıb, döyüşkən qoşunla Əlbistan tərəfə getdi və Durna dağı adlanan uca dağdakı qalaya arxalanaraq, döyüşmək və vuruşmaq intizarında dayandı. «Həbibüs-siyər» və «Fütuhat-i Əmini»nin müəlliflərinin yazdığına görə, Süleyman şanlı xaqanın mübarək məiyyəti Əlbistan tərəfə hərəkət etdi. İki ordu yaxınlaşdıqdan sonra tərəflər səflər çəkdilər. Döyüş elə alovlandı ki, qılınc və nizə parıltısından səmada Ülkər ulduzu yanırdı. Öldürülənlərin qanının çoxluğundan Bədəxşan[275] Əlbistan torpağına həsəd aparırdı. O qorxunc və təhlükəli mərəkədə zülqədər tayfası möhkəm dayanmışdı. İki gün səhərdən axşamadək toqquşma və vuruşma davam etdi. Vaxt hər iki ordunun arasına zülmət pərdəsi salanda tərəflər öz düşərgələrinə qayıdaraq, səhər açılanadək keşik çəkir və kəşfiyyat aparırdılar. Üçüncü gün Süleyman şanlı xaqan misilsiz bədəninə zirehli - geyim və xəftan[276] geyərək, qızılbaş ordusunun dilavərlərini düşmənləri dəf etməyə cəsarətləndirib, düşmənləri darmadağın etmək üçün böyük səy qoyaraq, döyüş meydanına qədəm basdı. O tərəfdən zülqədər [tayfasından olan] azğın düşmənlər şahın səadətli məiyyətinin qarşısına çıxdılar. Son dərəcə ağır bir döyüş baş verdi. Mənfur zülqədərlər öz vəziyyətlərində acizlik və zəiflik əlamətlərini müşahidə edib, qaçmağı dayanmaqdan üstün bildilər. Qələbə və uğur küləyi fələyi bürüyən

---

[272] Əlbistan - Türkiyənin cənubunda, Maraş şəhərindən şimalda, Ceyhan çayının yuxarı axarlarında şəhər.

[273] Mosul - indiki İraqın şimalında, Dəclə çayı sahilində şəhər.

[274] Tehran çapında (s.32) Azərbaycan yazılmışdır. Əslində isə, Bakı əlyazmalarına əsasən, Ərzincan olmalıdır (S-129. v.28b; S-297, v.16b).

[275] Bədəxşan - indiki Tacikistanın şərqini və Əfqanıstanın şimal-şərqini əhatə edən tarixi vilayət. Qiymətli qırmızı yaqut (ləl) mədənləri ilə məşhur olan bu vilayətin adı klassik Şərq ədəbiyyatında dönə-dönə tərənnüm olunmuşdur. Burada İsgəndər bəy Münşi Bədəxşanın qırmızı yaqutla zəngin olan torpağını döyüşdə axıdılan qırmızı qanlarla müqayisə edir.

[276] Xəftan - döyüş zamanı zirehin altından geyilən əlbisə.

bayrağa təkan verdi. Qızılbaş ordusunun dilavərləri o tayfanı darmadağın etdilər. [Onlar] zülqədərlərin əlindəki Diyarbəkr [vilayətinin] qalalarını güc və qələbə nəticəsində aldılar. Həmin ildə [Diyarbəkr] vilayətinin hakimliyi Xan Məhəmməd Ustacluya verildi. Həmin günlərdə Gülabi bəy Mosullu Türkmanın[277] oğlu Əmir xan Diyarbəkr və Mosul hüdudundan aləmin pənahı olan dərgaha gələrək, [şah tərəfindən] mehribanlıqla qəbul edildi. Süleyman şanlı xaqan o vilayəti nizama salıb, geri döndü.

Amma tarixçi Həsən bəy «Əhsənüt-təvarix»də qeyd edib ki, Süleyman şanlı xaqanla [Əlaüddövlə Zülqədərin] arasında toqquşma olmayıb. O, belə yazır ki, Süleyman şanlı xaqan Əlbistana gəldikdə Əlaüddövlə müqavimət göstərməyə tab gətirməyib, möhkəm və yüksək bir yer olan Durna dağına qaçdı. Uca məkanlı xaqan, Hüseyn bəy Ləhni müzəffər qoşunların bir dəstəsi ilə göndərdi ki, oradan axan böyük çaydan keçid yeri müəyyən etsin. [Hüseyn bəy Lələ] çayın o biri sahilinə keçib, düşərgə qurdu. Əksər qazilər arpa və saman axtarmağa getdilər. Bundan istifadə edən Əlaüddövlənin oğlu Sarı Qaplan onun (Hüseyn bəy Lələnin) üstünə gəldi. Onunla Lələ bəy arasında böyük bir döyüş baş verdi. Lələ bəyi atdan aşırdılar. Lakin onun Xəlil ağa adlı mülazimi öz atını çəkib, Lələ bəyi mindirdi və ağası uğrunda öz canını qurban verdi. Lələ bəy salamatlıqda oradan çıxdı. Əlaüddövlənin o möhkəm və yüksək dağa fərar etməsi [xəbəri] müzəffər hökmdarın qulağına çatdıqda onun ölkəsini və vilayətini talan və qarət edərək, geri qayıtdı. Tarixçi Həsən bəy «Həbibüs-siyər»in müəllifinə etiraz edir ki, özü həmin zaman yaşadığına baxmayaraq, olan [hadisənin] əksinə yazmışdır. Bu kiçik zərrə (İsgəndər bəy Münşi) hər iki fikri bəyan etdi. Bu iki rəvayət arasında ortaq məxrəc bundan ibarət ola bilər ki, dünya hökmdarının Əlbistanda olduğu günlərdə Əlaüddövlənin Sarı Qaplanı Lələ bəyin və [qızılbaş qoşununun] öncül dəstələrinin üzərinə göndərdiyi vaxt onların arasında vuruşma olmuş, ta üç gün boyunca qızılbaşlar və zülqədərlər arasında o hüdudda, dağların ətəklərində və kənarlarında ayrı-ayrı toqquşmalar baş vermişdir. Nəhayət, ola bilsin ki, üçüncü gün Süleyman şanlı xaqan o itaətsizlərin işini bitirmək üçün hərəkət etmiş, qalibiyyətli ordunun gəlişini görən Əlaüddövlə o hüduddan uzaqlaşıb Durna dağına getmiş və Süleyman şanlı xaqan da bundan sonra geri dönmüşdü[278]. Həqiqəti Allah bilir.

Xülasə, bu hadisə baş verdikdən sonra Xan Məhəmməd Diyarbəkrə gəldi. Gülabi bəy Mosullunun oğlu Qayıtmış bəy Həmid[279] şəhərində idi. [O], düşmənçilik edərək, qalanı bağlayıb, [oraya] daxil olmağa mane oldu. Xan Məhəmməd çarəsizlikdən bayırda qaldı. O ətrafdakı kürdlər qızılbaş ordusuna

---

[277] Gülabi bəy Mosullu Türkman - Sultan Yaqub dövrünün məşhur Ağqoyunlu əmiri (F.Sümer. Safevi devletinin kuruluşu və gelişmesinde Anadolu türklerinin rolü. Ankara, 1992, s.30).

[278] S-129, v.29a-b; S-297, v.17a.

[279] Həmid (əslində Amid) - Diyarbəkrin mərkəzinə verilən ad. Qala divarları qara daşdan tikildiyi üçün ona Qara Həmid və ya Qara Amid də deyərdilər.

qarşı çoxlu basqınlar etdilər. Xan Məhəmməd kürdlərin üstünə getdi. Onların arasında böyük bir vuruşma oldu. Kürdlərdən yeddi min nəfər öldürüldü. Xan Məhəmməd kürdlərlə hərbdən qalib və müzəffərcəsinə qayıtdı. Qayıtmış bəy ona müqavimət göstərə bilməyib, öz adamını Əlaüddövlə Zülqədərin yanına göndərdi və ondan kömək istədi, [əvəzində] şəhəri ona verəcəyinə söz verdi. Əlaüddövlənin vəziyyətində məğlubiyyət aşkar olduğuna baxmayaraq, Qayıtmış bəyin xahişi əsasında Həmid şəhərini almaq həvəsi ilə o qışda bir daha döyüşkən qoşun yığaraq, öz oğulları Sarı Qaplan [adı] ilə məşhur olan Qasım bəyin və Ərdüvanə bəyin başçılığı ilə on min nəfəri[280] Diyarbəkrə, Xan Məhəmmədə qarşı göndərdi. Xan Məhəmməd Ustaclu ordusunun sayca az olmasına baxmayaraq, şahın zavalsız bəxtinə arxalanıb, ustaclu tayfası ilə birlikdə o ulduz kimi [saysız] qoşunun qarşısında döyüş nizamı tutdu. [Xan Məhəmməd] qüdrətli dövlətin uğurlu bəxtinin gücü ilə müvəffəqiyyət və zəfər qazandı. İgidliklə və qorxmazlıqla Əlaüddövlənin başqa övladlarından seçilən Sarı Qaplan və qardaşı Ərdüvanə bəy bir çox adamla tululub qətl edildilər. Xan Məhəmməd qələbə və zəfər çalaraq, böyük təntənə və şöhrətlə Qayıtmış bəy Türkmanın üzərinə yürüdü. O isə şəhərin darvazalarını bağlayıb qalanı saxlamaq istədi, amma buna nail olmadı. Həmid şəhərinin əhalisi ondan üz çevirərək, qaziləri şəhərə buraxdılar. Qayıtmış bəy tutulub qətl edildi. Xan Məhəmməd Diyarbəkrdə müstəqil hakimiyyət sürməyə başladı. Onun şan-şöhrəti o ətrafda yayıldı.

Əlaüddövlə öz oğullarının başına gələn hadisədən sarsılıb, dağınıq qoşununu bir daha toplayaraq, oğulları Kor Şahrux və Əhməd bəyi on beş minə qədər süvari ilə qardaşlarının qanını almaq üçün Xan Məhəmmədin üzərinə göndərdi. Xan Məhəmməd də mərdanə müdafiəyə qalxaraq, şəhərdən çıxdı və zülqədər qoşunu ilə döyüşə girdi. Xan Məhəmmədin üç min adamı vardı.

Belə [rəvayət] yayılmışdır ki, sıralar düzüldükdən sonra zülqədər qoşununun tazı və tulaları irəli sıçrayaraq, ustaclu ordusunun itləri ilə boğuşmağa girdilər. Xan Məhəmməd bu itlərin döyüşünü fal hesab etdi. Təsadüfən, ustaclu itləri üstün gəlib, zülqədər itlərini qaçmağa [məcbur] etdilər. Bunu müşahidə edən Xan Məhəmmədin ürəyi toxtaqlıq qazandı, zəfər və qələbə müjdəsini qazilərə verdi. Tərəflər arasında böyük vuruşma oldu. Bu dəfə də Xan Məhəmməd şahın zavalsız bəxtinin köməyi ilə o [sayca] böyük qoşuna qalib gəldi. Əlaüddövlənin övladları Kor Şahrux və Əhməd bəy tutulub, çoxlu qohum-əqrəbaları və əmirləri ilə birgə o mərəkədə öldürüldülər.

Qəribə əhvalat və əcaib hadisələrdən biri də odur ki, ustaclular arasında bir kor da bu döyüşə gəlmişdi. Yoldaşları ona xor baxırdılar. O deyirdi: «Allah-

---

280 Tehran çapında (s.32) zülqədər qoşununun sayının iki min nəfərdən ibarət olduğu göstərilib. Halbuki bu rəqəm mənbənin mətnində zülqədərlərin uslaclulardan sayca qat-qat çox olması barədə verilən məlumatla ziddiyyət təşkil edir. Bakı əlyazmalarının həmin yerində zülqədər qoşununun sayının on min nəfər olduğu qeyd edilmişdir (S-129, v.29b; S-297, v.17b) və fikrimizcə, bu rəqəm daha həqiqətə uyğundur.

taaladan istəmişəm ki, dinin pənahı olan şahın səadəti ilə o koru (Kor Şahrux Zülqədəri) bu korun əlinə salsın». Allahın təqdiri ilə Kor Şahrux o korun əlinə keçdi. O yaramazların qılıncdan qurtulanları qaçıb, bəxtsizlik diyarına tərəf getdilər. Əlaüddövlə bu məğlubiyyətdən sonra oğulları və qohumlarına matəm tutaraq, qara keçə [paltar] geydi. Onun əmirləri də çiyinlərindən qara palaz asdılar. [Onlar] elə təziyə [matəm] tutdular ki, beləsi [keçmişdə] heç vaxt görünməmişdi. [Onlar] Diyarbəkrdən tamah dişlərini çəkərək, boş səylərindən əl çəkdilər. Onun (Əlaüd-dövlənin) dövlətinin calalı qalmadı.

Rum padşahı, Əlaüddövlənin dalbadal məğlubiyyəti, övladlarının öldürülməsi, əmirlərinin və ordusunun darmadağın edilməsi xəbərini alandan sonra ona qarşı keçmişdən ürəyində kin olduğuna görə fürsəti qənimət bilib, üzərinə qoşun çəkdi. İki tərəf arasında müharibə baş verdi. Əlaüddövlə rumilərlə döyüşdə öldürüldü və o sülalənin dövləti sona çatdı[281]. Zülqədər tayfasının bəzisi xəndgarın[282] mülazimi oldu, bəzisi də Süleyman şanlı xaqanın xidmətinə keçdi.

Əlaüddövlə Mərəş və Əlbistan məmləkətinin hakimi olub, səksən min zülqədər ailəsinin başçısı idi. Bu sülalədən dörd nəfər bu vilayətdə padşah olmuşlar: Məlik Aslan, Nasirəddin, Süleyman[283] və Əlaüddövlə[284]. Amma Əlaüddövlə atalarından daha qüdrətli və müstəqil olmuşdur. [O], Rum və Misir padşahları ilə münasibətlərində hiylə və məkrlə davranırdı. Rum elçiləri [onun yanına] gələndə öz mülazimlərindən bir neçəsinə misirlilərin paltarını geydirərək, [rumilərə] deyirdi ki, Misir padşahı [elçilərini] göndərmiş, məndən Rum ordusunu dəf etmək üçün yardım istəyir, mən isə xondgarla dost olduğumdan yardım etmirəm. Misir padşahı ilə də eyni cür rəftar edərək, hər iki tərəfdən mənfəət görürdü. Belə [rəvayət] yayılmışdır ki, Əlaüddövlə həmişə deyərdi: «Mənim iki qızıl toyuğum var, biri gümüş yumurta, o biri isə qızıl yumurta verir».

Xülasə, zülqədərlərlə müharibə meydanında, Əlaüddövlənin kürəkəni olmuş Sultan Murad rumilərin əlinə düşdü. Rum padşahı Sultan Səlim onu himayə edib, bir müddət yanında saxladı. [Sultan Səlim] Süleyman şanlı xaqanın üzərinə gedən illərdə onu özü ilə götürməyi münasib bilmədi. O, (yəni Murad) rumilərdən

---

281 Əlaüddövlə Zülqədər 13 iyul 1515-ci ildə Ördəkli mövqeyində baş vermiş döyüşdə vəziri-əzəm Sinan paşanın komandanlıq etdiyi Osmanlı ordusu tərəfindən məğlubiyyətə uğradılaraq qətlə yetirilmişdi (R.Yınanç. Dulkadır Beyliği. Ankara, 1989, s.98).

282 Xondgar (Xudavəndigar) - Osmanlı sultanlarının titulu.

283 S-129, 30b; S-297, v.18a.

284 İsgəndər bəy Münşinin Zülqədər bəyliyinin hakim sülaləsi haqqındakı məlumatı natamamdır. J.V.Hammer 1378-ci ildə qurulan Zülqədər bəyliyinin hökmdarlarının adlarını belə sıralayır: Zeynəddin Qaraca, Xəlil bəy, Sulu bəy, Nasirəddin Məhəmməd, Süleyman bəy (1442-1454), daha sonra Süleyman bəyin oğulları Arslan, Şahsuvar, Şahbudaq və Əlaüddövlə (1480-1515) bir-birinin ardınca hökmranlıq etmişlər (J.V.Hammer. Osmanlı tarihi. İstanbul, 1991, c. 1, s.268-270). Əlaüddövlənin qətlindən sonra Osmanlılardan vassal asılılığına düşən Zülqədər bəyliyinə Şahsuvaroğlu Əli bəy rəhbər təyin edilmiş, lakin 1522-ci ildə o da Osmanlı dövləti tərəfindən qətlə yetirilmiş və Zülqədər bəyliyi tamamilə ləğv edilmişdi (F.Sümər. Oğuzlar. Bakı, 1992, s.180).

ayrılaraq, bir çox fitnəkarları öz başına toplayıb, Urfa hakimi[285] Aca sultan Qacarın üzərinə getdi. [Aca sultan] səkkiz yüz nəfərlə [Murada qarşı] döyüşə girib, onun səkkiz min adamı üzərində qələbə çaldı. Sultan Murad mərəkədə öldürüldü. Aca sultan onun başı ilə üzüyünü nişanə kimi aləmin pənahı olan dərgaha göndərdi və Qudurmuş sultan[286] ləqəbi aldı. [Muradın] öldürülməsi ilə Ağqoyunlu sultanlarının dövləti də aradan getdi.

Bu hadisələr İraqi-Ərəbin fəth edilməsindən sonra baş verdiyinə baxmayaraq, [mən] onların [yuxarıda qeyd olunmuş hadisələrlə] əlaqəsini nəzərə alıb, [burada] yazdım.

## MÜBARƏK MƏİYYƏTİN İRAQİ-ƏRƏB TƏRƏFƏ HƏRƏKƏT ETMƏSİ, O VİLAYƏTİN FƏTH EDİLİB ALINMASI VƏ BU ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

O vilayətin fəth edilməsinin gerçəyi budur ki, İraqi-Ərəb məmləkətinin əyanları Sultan Muradın halının sarsılmasından xəbər alandan sonra türkman əmirlərindən Barik adlı birisi o ölkəni ələ keçirdi və onu [əlində] saxlamağa çalışdı. Şahın nurlu ürəyində o vilayəti almaq istəyi möhkəmləndi. Öncə Barikə zərlə toxunmuş [qızılbaş] tacı, xüsusi kəmər və xələt göndərərək, onu itaətə və sədaqətə dəvət etdi. Barik işin əvvəlində şahın xələtini qəbul edib, türkman taqiyəsini başından götürdü, şahın tac və xələtini geyməklə fəxr edib öyündü, sidrəyə bərabər [ali] sarayın xadimlərinə layiq peşkəşlər göndərdi və xahiş etdi ki, o ölkənin valiliyi ona verilsin. Amma şah bunu qəbul etmək fikrində deyildi. O, Barikə xəbər göndərdi ki, «Ətabati-aliyatı[287] ziyarət etmək niyyəti qəlbimizdə qətiləşibdir, onu ləğv etmək olmaz. Əgər onun (Barikin) sözlərindən sadaqət və səmimiyyət qoxusu gəlirsə, durmadan aləmin pənahı olan dərgaha gəlsin, başqa əmirlərin sırasına girsin, yoxsa, məkr və hiylə ilə bu dərgaha yol tapmaq olmaz».

Barik bir neçə gün [şahın] dövlətinə tərəfdar olduğunu nümayiş etdirdi. Lakin şahın o tərəfə gələcəyi aydın olduqda qalaya azuqə və döyüş sursatı yığmağa başladı, açıq-aydın müqavimət təbili döyərək, [şahın ona göndərdiyi] zərli tacı başından atdı. Buna görə də şahın o tərəfə getməsi qərara alındı. [Şah İsmayıl] Hüseyn bəy Lələni mənqəlay[288] [təyin] edərək, onu qabaqca yola saldı. Hüseyn bəy Bağdadın iki mənzilliyinə çatdıqda Barik özünü itirdi və o vilayətin əyanlarının əksəriyyətinin şah sarayının xadimlərinə itaət etmək meyilini görəndə özündə müqavimət və qalanı saxlamaq qüvvəti olmadığını bildi. Bir gecə o, Dəcləni gizli keçərək, sərsəm halda, Sultan Muradla bərabər, sonsuz əziyyətlə Hələb tərəfə

---

[285] S-129, v.30b; S-297, v.18a.

[286] Tehran çapında (s.33) «Miş sultan» yazılmışdır.

[287] Ətəbati-aliyat – hərfi mənası «uca astanalar» deməkdir. Bu ad altında şiə imamlarının İraqdakı məqbərələri nəzərdə tutulur.

[288] Mənqəlay - ordunun avanqard hissəsi.

qaçdı, oradan da, yuxarıda yazıldığı kimi, zülqədər [tayfasının] arasına getdi. Ertəsi gün şəhərin əhalisi və əyanları Nəcəf seyidlərinin böyüklərindən və o vilayətin ixtiyar sahiblərindən olan və şahın şərəfli dövlətinə tərəfdar olması şübhəsi ilə Barik tərəfindən tutulub qaranlıq quyuda həbs edilən Seyid [Məhəmməd] bəy Kəmunəni quyudan çıxarıb, öz şahısevənliklərini[289] izhar etdirdilər. Seyid Məhəmməd Kəmunə cümə günü came məscidinə gedib, şahın ləqəbləri ilə on iki imam («isna-əşəri») xütbəsini oxudu. Hüseyn bəy [Lələni] qarşılayaraq, Mirzə Pirbudaq bağında yerbəyer etdilər.

Hüseyn bəy Bağdadın fəth edilməsi həqiqətini xilafət məkanlı taxtın kölgəsinə çatdırdı. [Şahın] cahangir məiyyəti ov edə-edə, yavaş-yavaş yol gedərək, müzəffər və xoşbəxt bir şəkildə darüs-səlam[290] [Bağdada] yetişdi. Camaat böyük sevinc və şadlıqla [şahı] qarşılayaraq, [ona] xeyir-dua verdi. Süleyman şanlı xaqan darüssəlam [Bağdadın] fəthi münasibətilə Allaha şükür edərək, 914-cü ilin cəmadiüs-sani ayının 20-də (16 oktyabr 1508) darüssəlam [Bağdada] gəldi. Seyid Məhəmməd, şahın hörmət və izzətinə layiq görüldü. O vilayətin valiliyi Xadim bəyə verildi və orada o, Əbülmənsur («qaliblik sahibi») və Xəlifətül-xüləfa («xəlifələr xəlifəsi») ləqəbini aldı. [Şah] oradan məhəbbət və səmimiyyətlə Kərbəlanın[291] pak torpağına gedərək, Əbi-Abdulla əl-Hüseynin və Kərbəla çölü şəhidlərinin nurlu məzarlarının ziyarəti şərəfinə nail oldu. [Şah İsmayıl] behişt ehtiramına layiq olan o rövzənin bəzəkləndirilməsinə və zinətləndirilməsinə, onun xidmətçilərinin mükafatlandırılmasına sonsuz diqqət göstərdi. Oradan [şah] «sizin dostunuz ancaq Allahdır» [ayəsinin][292] nurunun zahir olduğu yer olan vilayətpənah şahın (Həzrət Əlinin) cənnətə bərabər rövzəsini ziyarət etmək məqsədi ilə Hillədən[293] Nəcəfi-Əşrəfə getdi. O böyük səadətə çatdıqda [Şah İsmayıl] o sidrə nişanlı [ulu] astananın xidmətçilərinə ehsan vermək üçün dərya kimi səxavətli əlini açdı. Nəcəfi-Əşrəfin valiliyi İraqi-Ərəbin bəzi mahalları ilə birlikdə Seyid Məhəmməd Kəmunəyə bağışlandı. [O], bu işlə məşğul oldu. [Şah İsmayıl] darüssəlam [Bağdada] qayıdaraq, ali nəsəbli imamlar Əbi-İbrahim Musa əl-Kazimin və Məhəmməd Təqi əl-Cavadın - hər ikisinə salam olsun - mübarək

---

[289] Şahısevən - bir sıra mənbələrdə, o cümlədən də «Tarix-i aləmara-yi Abbasi»də ilk Səfəvilər zamanından bəhs edən hadisələr şərh olunarkən bu söz, sadəcə olaraq, «şaha sədaqətli olmaq» mənasında işlədilir. Həmin hadisələrdə işlədilən bu sözü sonralar formalaşmış şahsevən tayfası ilə eyniləşdirmək düzgün deyildir (daha ətraflı bax. R.Tapper. Shahsevan in Safavid Persia // BSOAS, vol. 37, part 2, London, 1974, p.322-354).

[290] Darüssəlam - «sülh məkanı» deməkdir. Bu epitet Bağdad şəhərinə aid olunurdu.

[291] Kərbəla - indiki İraq Respublikasının mərkəzi ərazisində, Fərat çayının sağsahil hissəsində, əl-Milh gölündən şərq tərəfdə, Bağdaddan 100 km. cənub-qərbdə yerləşən şəhər. Şiələrin üçüncü imamı İmam Hüseyn Kərbəlada şəhid olmuş və orada dəfn edilmişdir. Bu səbəbdən Kərbəla müsəlman dünyasının ən müqəddəs şəhərlərindən və ziyarətgahlarından biri hesab edilir.

[292] «Qurani-Kərim», «Maidə» surəsi, 55-ci ayə.

[293] Hillə - İraqda, Kərbəladan cənub-şərqdə, Fərat çayının solsahil hissəsində, qədim Babil şəhərinin xarabalıqları yaxınlığında yerləşən şəhər.

qəbirlərini ziyarət etmək şərəfinə çatdı[294]. Oradan Samirəyə[295] gedib, həmin müqəddəs yerlərdə dua [oxuyub] ziyarət edərək, ehsan və ənam verdilər.

İraqi-Ərəbin işlərini nizama salıb, mübarək astanaların [xidmətçilərinin] maaşlarını müəyyən edərək, o məqbərələrə rəvac və rövnəq verdikdən sonra [şah] Xuzistanı almaq məqsədi ilə bayraq qaldırıb, o tərəfə getdi. [Şah İsmayıl] Luristan[296] hüdudunda Hüseyn bəy Lələni və Bayram bəy Qaramanlunu qələbə nişanlı əsgərlərdən on min nəfərlə Luristan hakimi Məlik Rüstəmin üzərinə göndərdi və şahın məiyyəti isə Hüveyzəyə tərəf hərəkət etdi. O vilayətdə yaşayan Müşəşə[297] ərəbləri o zaman alçaqlıq çölünə düşərək, vilayətpənah şahı (Həzrət Əlini) Allah hesab edirdilər.

Qəribə əhvalatlardan [biri] odur ki, xalq arasında belə yayılmışdı ki, o tayfa ibadət edərkən bıçaq və qılınc onlarda heç bir iz buraxmır. [Onlar] qılıncın tiyəsini qarınlarına dayayıb, «Əli Allahdır» və başqa boş-boş sözlər deyirlər, qılınc kaman kimi əyilir, onların bədəninə heç bir zərər dəymir. O tayfanın hakimi həmişə seyidlərdən biri olur. Bu zaman Sultan Möhsünün oğlu Sultan Fəyyaz atasının yerinə keçərək, hakim olmuşdu. O tayfanın arasında şəriət qaydaları yoxa çıxmışdı. Onlar yolunu azmışların çölündə daha irəli gedərək o vaxt Fəyyazı Allah hesab edirdilər. [Şahın] əzəmətli bayraqları Hüveyzə hüduduna çatdıqda, «Həbi-büs-siyər» müəllifinin dediyinə görə, Sultan Fəyyaz, Müşəşə tayfası ilə birlikdə şahın məiyyəti qarşısında ordu cərgələrini düzərək, vuruşa və döyüşə hazırlaşdı. Hüveyzə yaxınlığında böyük bir hərb oldu. Hüveyzə torpağı Müşəşə qanından nar kimi [qırmızı] lələ[298] dönmüşdü. Bədxah Fəyyaz azmışların bir çoxu ilə bərabər müzəffər qazilərin iti qılıncı sayəsində yoxluq yoluna tələsdi (öldürüldü).

## Şeir

«Müşəşə qanından o açıq çöldə,
Deyəsən, torpaq və zaman laləyə döndü.
O çöldə o qədər qan töküldü ki,

[294] Əbi-İbrahim Musa əl-Kazim - şiələrin yeddinci imamı. Məhəmməd Təqi əl-Cavad - şiələrin doqquzuncu imamı. Onlar Bağdadın Kazimeyn adlı yerində dəfn edilmişlər.

[295] Samirə - İraqda, Bağdaddan şimalda, Dəclə çayı sahilində şəhər. Şiələrin onuncu imamı Əli Nəqi və on birinci imamı Həsən Əskəri burada dəfn olunmuşlar.

[296] Luristan - İranın qərbində tarixi vilayət. Paytaxtı Xürrəmabad şəhəri idi. Əhalisi irandilli lur xalqından ibarətdir.

[297] Müşəşə (ərəbcə «parlaq» deməkdir) - Seyid Məhəmməd Müşəşə (ölümü: 1465/66) tərəfindən əsası qoyulmuş və Əliallahiliyə əsaslanan bidətçi dini hərəkat. Seyid Məhəmməd 1440-41-ci illərdə İraqın cənubunda ərəb tayfalarının Qaraqoyunlular əleyhinə üsyanına başçılıq etmiş, lakin onun üsyanı 1442-ci ildə yatırılmışdı. 1457-58-ci illərdə o, İranın Xuzistan vilayətində öz dövlətini yaratmağa nail oldu və ölümündən sonra onun nəsli o vilayətdə hökmranlıq etdi. 1508-ci ildə Xuzistan Şah İsmayıl tərəfindən ələ keçirildikdən sonra Müşəşəyilər şiə əqidəsini qəbul etdilər və Səfəvilərdən vassal asılılığına düşdülər.

[298] Ləl - yaqut növündən olan al qırmızı rəngli qiymətli daş.

Fələk belinədək qan içində oturdu.
O qədər cəsəd üst-üstə yığıldı ki,
Küləyin yolu o çöldə bağlandı.»

Luristana getmiş böyük əmirlər Məlik Rüstəmi özləri ilə bərabər uca taxtın ayağına gətirdilər. Bu hadisə belə olmuşdu ki, əvvəlcə Məlik Rüstəm onların qabağından qaçaraq, çətin yolları olan bir dağa sığınmışdı. Bəhram[299] kimi intiqamçı əsgərlər o dağın ətrafını tutaraq, onu sıxışdırmış, o isə aman və əhdü-peyman [istəyərək], əmirlərin yanına gəlmişdi. [Məlik Rüstəm, şahın] hüzurunda lur dilində[300] şirin sözlər danışıb, rəğbət qazandı. Onun uzun saqqallı olduğundan Süleyman şanlı xaqan onun saqqalını inci və ləl ilə bəzətdirmişdi. Bir müddət həmin halda şahın ordusunda qaldı, [sonra] Luristan hakimi təyin edilib, istədiyi kimi öz diyarına getdi.

Xülasə, [Şah İsmayıl] Müşəşə [tayfasını] fəth etdikdən sonra Hüveyzə hakimliyini böyük əmirlərindən birinə verib, Şüştər və Dizfula doğru yönəldi. Oranın hakimi itaət yolu ilə gedərək, uca taxtın ayağına gəldi, şəhər və qalanın açarlarını [şaha] təqdim etdi. O məmləkət Səlasil qalası[301] ilə birlikdə dərya [kimi geniş] qəlbli şahın əlinə keçdi. Süleyman şanlı xaqan o asimana ucalan qalanı etibarlı adamlarından birinə tapşırdı. Daha sonra müzəffər bayraqlar Fars vilayətinə öz kölgəsini saldı. [Şah İsmayıl] ov edə-edə darül-mülk Şiraza yönəlib, daha bir dəfə Müzəffərilər[302] [sülaləsinin] darülmülkündə xoşbəxtlik və rəiyyətpərvərlik taxtına qədəm qoydu. Lar və Hörmüz[303] valilərinin elçiləri xilafət məkanlı taxtın ayağına gəlib, layiqli peşkəşlər gətirdilər. O ölkələrdə şahın adı və ləqəbi ilə xütbə və sikkələri bəzədilər. [Şah İsmayıl] qışı Şirazda şənliklə keçirdi, baharda isə Həmədan yaylağında oldu. Bir müddət Əlvənd dağının ətəyində qaldı. Daha sonra İran hökmdarının şərəfli gəlişindən darüssəltənə Təbrizin [havası] gözəl ətirlə doldu.

---

[299] Bəhram - qan kimi qırmızı göründüyü üçün klassik Şərq ədəbiyyatında müharibə rəmzi sayılan Mərrix ulduzu (Mars planeti) həm də Bəhram adını daşıyırdı. Burada və əsərin bəzi başqa yerlərində «intiqamçı Bəhram», «qaniçən Bəhram» qeyd olunduğu zaman müharibə rəmzi olan Mərrix nəzərdə tutulur.

[300] Farsca mətndə «be zəban-e lori» yazılmışdır. Bunu həm «lur dilində», həm də «loru dildə» (yəni sadə dildə) kimi tərcümə etmək mümkündür.

[301] Səlasil qalası - İranın Şüştər şəhəri yaxınlığında tarixi qala.

[302] Müzəffərilər sülaləsinin banisi 1314-cü ildən etibarən Elxanilər (Hülakülər) dövlətinin Yəzddəki canişini olan Mübarizəddin Məhəmməd ibn Müzəffərdir. O, Elxanilər dövlətinin zəifləməsindən istifadə edərək, 1340-cı ildə Kirmanı, 1353-cü ildə Farsı, 1356-cı ildə isə İsfahanı ələ keçirmiş və müstəqil Müzəffərilər dövlətini yaratmışdı. Bu dövlətin paytaxtı Şiraz şəhəri idi. Müzəffərilər dövləti 1393-cü ildə Əmir Teymurun yürüşü nəticəsində aradan qalxmışdır (СИЭ, т. IX, Москва, 1966, с. 550; К.Э.Босворт. Мусульманские династии. Москва, 1971, с. 213-214).

[303] Lar - İranın cənubunda, Bəndər-Abbasdan şimal-qərb tərəfdə yerləşən şəhər. Hörmüz - İran körfəzi ilə Oman körfəzi arasında, Bəndər-Abbas limanı yaxınlığında ada.

Şirvan tərəfdən xəbər gəldi ki, Şeyxşah yenə də o vilayətdə ağalıq bayrağını qaldırıb, bac[304] və xərac verməkdən boyun qaçırır. Bu, şahın qiyamət atəşinə bənzər qəzəb odunu alovlandırdı. Şiddətli qışda və şaxtada [Şah İsmayıl] Şirvana tərəf yola düşdü, Cavadda[305] bərə körpü salıb, [Kür çayını] maneəsiz keçdi. Şirvanşah dayana bilməyib, Biqurd[306] qalasına tərəf qaçdı. Cah-calallı bayraqlar qələbə və səadətlə Şirvana gəldilər. [Şah İsmayıl] o vilayətin valiliyini Lələ bəyə verdi. O, Şamaxı şəhərində qaldı. Bakı və Şabran[307] qalalarının mühafizəçiləri itaət və tabeçilik göstərərək, darvazaların açarlarını təslim etdilər. Dərbənd əhalisi qalanın mətinliyinə və [xəndəyin ətrafındakı] torpaq səddinin yüksəkliyinə arxalanaraq, bir neçə gün var gücləri ilə müqavimət göstərdilər. Amma axırda aman istəyərək, itaət etdilər. Süleyman şanlı xaqan həmin qışda Şirvandan çıxaraq, Qarabağa təşrif gətirdi. Baharın əvvəlində Sultaniyyəyə tərəf hərəkət edərək, Xorasana yürüşün tədarükünə başladı.

## XORASANIN FƏTHİ DASTANININ BAŞLANĞICI

Rəvayət gülşəninin oxuyan bülbülləri və hekayət cəmiyyətinin dastan söyləyənləri Süleyman şanlı xaqanın atəşli qılıncının parıltısı ilə ələ keçmiş Xorasan fəthinin xoş xəbərlərini bu tərzlə nəql etmişlər ki, cahangir şahın təbilinin göy gurultusuna bərabər səsi dünya meydanında ucaldıqda dünya sultanları o padşahın cahangirliyi qorxusundan, haqlı olaraq, o həzrətlə dostluq edərək, töhfələr və hədiyyələr, elçilər və məktublar göndərməklə saziş və sədaqət yolu ilə gedirdilər. Müzəffər xaqan Əbülqazi Sultan Hüseyn mirzə Bayqara Xorasan, Mərvi-Şahican, Xarəzm, Toxarıstan, Zabilistan və Qəndəhardan tutmuş Kabilə və Bədəxşan hüduduna qədər məmləkətlərə hökmdarlıq edirdi[308]. Onun hakimiyyət müddəti neçə illər ərzində davam etmişdi. Onun ağıl-kamala çatmış və kama yetişmiş oğul və nəvələri çox idi. [Sultan Hüseyn Bayqara] o həzrətlə (Şah İsmayılla) sədaqət və dost münasibətlərində olub, həmişə yaxınlıq və məhəbbət

---

[304] Bac - ticarət yolları ilə yüklərin daşınması üçün nəzərdə tutulan, şəhər darvazalarında və ya gəmi keçidlərində alınan vergi növü. Bundan başqa, bac termini mənbələrdə bir çox hallarda xəracla yanaşı, onun sinonimin kimi də işlədilmişdir.

[305] Cavad - Azərbaycanda, Kür və Araz çaylarının qovşağında yerləşən tarixi şəhər.

[306] Biqurd qalası (Qələyi-Biqurd) - Şamaxı şəhərindən şimal-qərbdə, indiki Şamaxı rayonunun Qalaybuğurd kəndi yaxınlığında yerləşmiş orta əsr qalası.

[307] Şabran-Azərbaycanda orta əsr şəhəri. Xarabalığı Dəvəçi rayonunun Şahnəzərli kəndi yaxınlığındadır.

[308] Mərvi-Şahican (Mərv) - müasir Türkmənistan Respublikasının cənub-şərqində, Bayraməli və Marı (Mərv) şəhərləri yaxınlığında tarixi şəhər-qala. Xarəzm - Orta Asiyada, Amudərya çayının aşağı axarlarında tarixi vilayət. Hal-hazırda bir hissəsi Özbəkistana, bir hissəsi isə Türkmənistana daxildir Toxarıstan - indiki Özbəkistanın və Tacikistanın cənubunu və Əfqanıstanın şimalını əhatə edən tarixi vilayət. Zabilistan (Zabulistan) - tarixi Sistan vilayətinin bir hissəsi olub, Zabul şəhərini və onun ətrafını, əhatə edir, müasir İran - Əiqanıstan sərhədində, Hilmənd çayının mənbəyində yerləşir. Qəndəhar - müasir Əfqanıstanın cənubunda, Ərqəndab çayının sol sahilində yerləşən şəhərdir və orta əsrlərdə İrandan Hindistana gedən ticarət yolu üzərindəki mühüm bır məntəqə idi.

göstərirdi. Süleyman şanlı xaqan da o yüksək məqamlı padşahla ata-oğul kimi rəftar edirdi və Teymurilər sülaləsinə ehtiram göstərib, keçmiş və gələcək münasibətləri nəzərə alırdı. [Şah İsmayıl] məmləkətləri almağa başlayanda o müzəffər şahın əlində olan ölkələrə təcavüz etmədi. İki tərəf arasında həmişə məktublaşma və gediş-gəliş qapıları açıq idi. O uca rütbəli padşahın vəfatından sonra onun övladları arasında birlik olmadığına görə, onlardan iki-üç nəfər, xüsusən Bədiüzzaman mirzə, Müzəffər Hüseyn mirzə və Köpək mirzə müstəqillik iddiasında olduqlarından, «Həbibüs-siyər»də yazıldığı kimi, o sülalənin əhvalı pozuldu.

Nəslinin mənşəyi Şeyban ibn Cuci ibn Çingiz xana gedib çatan Məhəmməd xan Şeybani ibn Budaq sultan ibn Əbülxeyr xan ibn Dövlətşeyx-oğlan, Mavəraünnəhr[309] valisi Sultan Əhməd mirzə ibn Sultan Əbu-Səid Kürəkanın nökərliyi rütbəsindən yüksək hökmdarlıq səviyyəsinə [qədər] ucalmış və bu məmləkətlərdə qüdrətli padşaha çevrilmişdi[310]. [O], Teymuri sülaləsi şahzadələrinin əhvalının pərişanlığı və onların bir-biri ilə yola getmədikləri barədə eşitdikdə Xorasan mülkünə tamah etdi və müzəffər xaqanın (Sultan Hüseyn Bayqaranın) övladlarını məhv etmək fikrinə düşdü. [Məhəmməd xan Şeybani] 913-cü il aylarında (13.05.1507-01.05.1508) Xorasana qoşun çəkdi, o tədbirsiz şahzadələrlə müharibə edib, onlara qalib gəldi və onların həyatla əlaqələrini kəsdi. Xülasə, tarixlərdə yazıldığı kimi, o, Bayqara xanədanına od vurdu və onların məmləkətini özbəklərin əlinə və ixtiyarına verdi. Xalq arasında Şahibəy xan [adı] ilə məşhur olan Məhəmməd xan Şeybani uzaq Türküstandan[311] İraqadək [torpaqları] ələ keçirib, dövlət, əzəmət və iqtidar bayraqlarını göyə çatdırıb, elə lovğa və təkəbbürlü olmuşdu ki, heç bir əzəmətli və qüdrətli padşahı belə saymırdı, [O], şahın fələyə bərabər sarayının xadimləri ilə düşmənçiliyə başladı. [Şah İsmayılın] ölkələr fəth edən bayrağı ikinci dəfə Şirvana getdiyi ildə o, öz ordusunun bir qismini biyaban [çöl] yolu ilə Kirmana göndərib, o vilayətdə çoxlu dağıntılara, qətl və qarətə səbəb oldu.

Buna baxmayaraq, Süleyman şanlı xaqan iki-üç dəfə yaxşı danışan səfirləri, o cümlədən dövranın məşhur, istedadlı adamlarından olan Şeyxzadə Lahicini elçiliyə göndərib, [Şeybani xanı] fitnə-fəsaddan əl çəkməyə çağırdı. [Lakin Şeybani xan] öz qarabəxtliyi ucbatından [şahın] cavabında kobud sözlər yazıb,

---

[309] Tehran çapında (s.36,50) Dövlətşeyx-oğlanın adı Dövlətşeyx-oğlu kimi yazılmışdır. Mavəraünnəhr - Orta Asiyada Amudərya və Sırdərya çayları arasındakı ərazilər.

[310] Şeybani xan - əsl adı Məhəmməd Şahbəxt xandır. Mənbələrdə onun adı Şeybək xan və Şahibəy xan kimi də qeyd olunur. 1451-1510-cu illərdə yaşamış və 1500-cü ildə Orta Asiyada Şeybanilər dövlətinin əsasını qoymuş özbək xanıdır. Onun nəsəbnaməsi monqol-tatar hökmdarı Çingiz xana qədər gedib çıxır: Şeybək xan ibn Budaq sultan ibn Əbülxeyr xan ibn Dövlətşeyx ibn İbrahim-oğlan ibn Fulad-oğlan ibn Məngu-Teymur ibn Badakul ibn Cucibuğa ibn Bahadır ibn Şeyban xan ibn Cuci xan ibn Çingiz xan (bax: N.Fəlsəfi. Zendeqani-ye Şah Abbas-e əvvəl. Tehran, 1334, c. I, s.156-157).

[311] Türküstan - müasir Qazaxıstanı, Orta Asiyanı, Əfqanıstanın bir hissəsini və Çinin şimal-qərbini əhatə edən tarixi vilayət.

mənasız kəlmələr işlədib qeyd etmişdi ki, islam həccinə getmək arzusundadır, görəsən, onun [Şah İsmayılla] görüş yeri İraq və Azərbaycanın harasında[312] olacaqdır? Süleyman şanlı xaqan da gözəl ibarələrlə cavab məktubunda yazmışdı ki, biz də cinlərin və insanların imamının[313] mübarək məzarını ziyarət etmək fikrindəyik, inşallah, görüş yeri müqəddəs və ulu Məşhəddə olacaqdır.

[Şah İsmayıl] 916-cı il aylarında (10.04.1510 - 30.03.1511) Xərrəqan[314] yaylağında qələbə nişanlı əsgərlərin hazır olmasını əmr edərək, möhkəm ürək və zəfər arzusu ilə Xorasan tərəfə yönəldi. O, Simnandan[315] keçib, cəsarətlə Xorasan vilayətinə qədəm qoyduqda Xorasan vilayətinin özbək hakimləri dayanmağa tab gətirməyib, hər biri öz iqamətgahını boş qoyaraq, Heratda toplandılar. Həzarə[316] yürüşündən qayıtmış Şahibəy xan Heratda idi. O, Süleyman şanlı xaqanın cürətindən, igidliyindən və qorxusuz bir halda Xorasana gəlişindən xoflanaraq, fikir və narahatlıq dəryasına batdı. Onun ürəyində Süleyman şanlı xaqanın vahiməsi və dəhşəti gündən-günə artırdı. [O], müzəffər bayraqların müqəddəs Məşhədin ətrafına çatdığını eşitdikdə o həzrətin qarşısına çıxmaq və döyüşmək qərarına gələ bilmədi və öz qohumu Canvəfa mirzəni Herat qalasında qoyub, özü Mərvi-Şahicana tərəf hərəkət etdi. Canvəfa mirzə də dayana bilməyib, onun ardınca Mərvə getdi. Süleyman şanlı xaqan sevinc və şadlıqla, ürəyi asudə və könlü qorxudan uzaq şəkildə müqəddəs və ulu Məşhədə gəlib, Xorasan sultanının (İmam Rzanın) məlaikələr oturan astanasına gedərək, dua və ziyarət etdi. [Şah İsmayıl] o Kəbəyə bərabər astananın seyid və xidmətçilərinə xüsusi mehribanlıq göstərdi. Sonra [o], həmin «vilayət» və imamət taxtının sultanının (İmam Rzanın) ruhundan imdad diləyərək, Şahibəy xanı təqib etmək üçün Mərvə tərəf getdi. Müzəffər ordunun mənqəlayını təşkil edən əzəmətli qazilər Mərvin döyüş meydanına çatdıqda Canvəfa mirzə adlı-sanlı özbək bahadırlarından böyük bir dəstə ilə onların qabağına çıxdı. Mərvin Tahirabad [adlı yerində] iki tərəf arasında şiddətli vuruşma baş verdi. Qızılbaş qoşununun başçısı Dana Məhəmmədin bu mərəkədə şəhid olmasına baxmayaraq, Canvəfa mirzə böyük məğlubiyyətə uğrayaraq, qaçmağa üz qoydu. Qızılbaş qoşunu özbəkləri qalanın ətəyinədək qovaraq, onlardan bir çoxunu həlak torpağına saldı.

Bu arada misilsiz xaqanın mübarək çətirinin kölgəsi Mərvin yanına çatdı, qala ətrafında ay və günəş bərabərində alaçıqlar və düşərgə quruldu. Şahibəy xan daha da vahiməyə düşərək, Mərv qalasında möhkəmləndi. Şəhəri və qalanı saxlamaq üçün son dərəcə tədbir gördü, Mavəraünnəhrə adamlar göndərərək,

---

[312] S-129, v.33b; S-297, v.20a. «İraq və Azərbaycanın harasında» sözlərinin əvəzində Tehran çapında (s.37) sadəcə olaraq «hansı yerdə» yazılmışdır.

[313] İnsanların və cinlərin imamı – şiələrin səkkizinci imamı İmam Rza nəzərdə tutulur. Onun məzarı Xorasanın Məşhəd şəhərindədir.

[314] Xərrəqan yaylağı – Həmədandan və Dərcəzindən şimalda yerləşir.

[315] Simnan - İranın şimalında, Tehrandan şərq tərəfdə, Elburz dağ silsiləsi ilə Dəşti-Kəvir səhrası arasında yerləşən şəhər.

[316] Həzarə - Kabillə Herat arasında, Əfqanıstanın mərkəzi dağlıq hissəsində yerləşən tarixi vilayət.

özbək tayfaları sultanlarının hazır olmasını əmr etdi. Hər gün qala ətəyində tərəflər arasında toqquşmalar baş verir, hər iki tərəfdən bir çox adam öldürülürdü. Bir neçə gün belə keçdi və qələbə əldə edilmədi. Süleyman şanlı xaqan həmişə səf çəkməyi və düşmənlə üzbəüz döyüşməyi qala müharibəsindən üstün tutduğu üçün istəyirdi ki, aslandan qorxan tülkü kimi deşikdə gizlənmiş Şahibəy xanı incə tədbirlə qaladan [bayıra] çıxarsın. [Buna görə də] köç təbili çaldırıb, qala ətəyindən çəkildi. [Şah İsmayıl] Məhəmməd [Şeybani] xana məktub yazıb göndərdi: «Sən bizlə Azərbaycan və İraqda görüşməyə söz vermişdin, [amma] sözünə vəfasız çıxdın. Biz isə sözümüzə (vədimizə) əməl edərək, Xorasana gəldik. Buna baxmayaraq, burada da qarşımıza gəlmədin. İndi isə Azərbaycanda bəzi hadisələr baş verdiyinə görə bizim oraya qayıtmağımız lazım olub. Ona görə də köçüb gedirik. Haçan döyüşə hazır olsanız və Allah təqdir edərsə, görüşümüz baş tutar».

Şahibəy xan Süleyman şanlı xaqanın qayıtmasını acizlik və zəiflik hesab edərək, qızılbaş ordusunun hücumu qarşısından qaçıb qalada gizlənmək rüsvayçılığından bir qədər xilas olmaq üçün [Şah İsmayılı] təqib etmək qərarına gəldi. [Şahibəy xan] otuz min nəfər özbək qoşunu və yanında olan adlı-sanlı əmir və sərdarlarla şəhərdən [bayıra] çıxdı. [Şah İsmayılın] qəzavü-qədər kimi cərəyan edən fərmanına uyğun olaraq, üç yüz nəfərlə ordunun arxasında duran Əmir xan Mosullu özbək qoşununun yaxınlaşmasını müşahidə edərək, şahın işarəsinə əsasən, qaçıb müzəffər orduya qoşuldu. Məhəmməd [Şeybani] xan bu hadisəni qızılbaş ordusunun vahiməyə qapıldığının [əlaməti] hesab edərək, onu təqib etməkdə daha da cürətləndi. Süleyman şanlı xaqan onun gəlməsi xəbərini aldıqda şəhərin üç fərsəxliyində onun çayı keçməsinə qədər gözlədi. [Sonra] o çayın körpüsünü dağıtmağı bir dəstəyə tapşırdı. [Şah İsmayıl] geri dönərək, müzəffər üzəngisinin həndəvərində olan on yeddi min nəfərlə Mərvin Mahmudabad [adlı yerində][317] özbək qoşunları qarşısında ordusunu nizama saldı. Şahibəy xan naçar vuruşmaya hazırlaşıb, döyüş meydanına üz çevirdi. İki tərəfdən özbək bahadırları və qızılbaş ordusunun igidləri [bir-birlərinə] qarışdılar. Elə bir vuruşma baş verdi ki, qaniçən Bəhramın da ürəyi bu mərəkədə öldürülənlərə yandı.

**Şeir**

«Cahan şahının səadətinin gücü ilə
Özbəklərin bayrağı yerə sərildi.
İgidlərin qanı ilə yer boyandı,
Fələk aşkar zəfər ayələri oxudu.»

Canvəfa mirzə, Qənbər bəy və özbək əmirlərinin əksəriyyəti o vuruşmada öldürüldülər. Şahibəy xan bir dəstə qaçan özbək qoşunu ilə caşqın halda atla çıxışı

[317] Mərv Mahmudabadı - indiki Türkmənistan Respublikasının Mərv vilayətində Talxatanbaba adlı yaşayış məntəqəsidir.

olmayan bir yerə atıldı. Orada [onlar] bataqlıqda bir-birinin üstünə düşərək, yüz əzab və əziyyətlə can verdilər. Qazilərdən Adi Bahadır ləqəbi ilə tanınan Bozcalu Əziz ağa adlı birisi Şahibəy xanın cəsədini ölülərin altından çıxarıb, onun lovğalıq ucbatından heç bir şahı taca layiq görməyən başını bədənindən ayıraraq, [onu] əjdaha görkəmli bayrağın kölgəsində durmuş [Şah İsmayılın] dünyanı gəzən atının ayağı altına atdı[318]. Süleyman şanlı xaqan Allaha səcdə qılıb, şükürlər etdi. [Şahibəy xanın] bədəninin hər üzvünü bir vilayətə göndərdilər. Onun başının dərisini soyub, samanla dolduraraq, Sultan Məhəmməd Qazinin oğlu olan Rum padşahı Sultan Bayəzidə[319] göndərdilər, qafa tasını isə qızıla tutaraq, «Əhsənüt-təvarix» müəllifinin dediyinə görə, kef məclisi yoldaşlarının eyş-işrət məclisində qədəh kimi əldən-ələ gəzdirirdilər. Bu beyt onun halına uyğundur:

### Beyt

«Dövran gərdişindən qafam çevrilibdir piyaləyə,
Bu xaraba zaman məni döndərdi lap avarəyə».

Məşhur Xoca Kəmaləddin Mahmud Sağərçi, Şahibəy xanın vəziri[320] idi. Xoşbəxt padşah (Şah İsmayıl) o qızıla tutulmuş qafa tasını əlində tutub, ondan şənlik məclisində badə içəndə, [Xoca Kəmaləddin] Mərv qalasından gəlmiş və o səadət səmasının günəşinin (Şah İsmayılın) qarşısında əsir tutulanların sırasında durmuşdu. Süleyman şanlı xaqan ona xitab edib dedi:

- Xoca, bu qafa tasını tanıyırsanmı? Sənin padşahının başıdır.

[Xoca Kəmaləddin] dedi:

- Sübhanallah![321] [Gör] o, nə qədər səadət sahibi olmuş ki, indi də xoşbəxtliyini saxlamışdır. [Ona görə ki], yenə də sənin kimi səadət sahibinin əlindədir və sən ondan dəmbədəm şadlıq badəsi içirsən.

Bu söz əşrəfin könlünün sevincinə səbəb oldu. O, Xocaya hüsn-rəğbətlə nəzər saldı, onu Xorasan vəziri[322] təyin etməklə mərhəmət göstərdi və ucaltdı.

***Mazandaran padşahı Ağa Rüstəmin vəfatı.*** Mazandaran vilayətini zorla ələ keçirmiş Ağa Rüstəm Ruzəfzun, şahm xoşbəxt sarayının mülazimləri ilə düşmənçilik edərək həmişə deyirdi ki, mənim əlim Şahibəy xanın ətəyindədir. Bu zaman Süleyman şanlı xaqan onun (Şahibəy xanın) bir əlini kəsib, Bəhram kimi

---

[318] Mərv döyüşü adı ilə tanınan bu vuruşma 1 dekabr 1510-cu ildə baş vermişdir (О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 110; R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri /XV-XVI əsrləri. Bakı, 2004, s.103)

[319] Osmanlı hökmdarı Sultan II Bayəzid (1481-1512) Sultan II Məhəmməd Fatehin (1444-1446; 1451-1481) oğludur.

[320] Vəzir - mülki bürokratiyanın başçısı.

[321] Sübhanallah - hərfi mənası «Allaha eşq olsun!» deməkdir. Təəccüb və heyrət yerində də işlədilir.

[322] Səfəvilərin mərkəzi dövlət aparatında olduğu kimi, əyalət idarəçiliyində də vəzir, sədr, qorçubaşı kimi vəzifələr var idi (О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 110;

cəsarətli yasavullardan[323] birinə verərək göndərdi ki, həmin [kəsilmiş əli] Mazandarana aparıb, Ağa Rüstəmin ətəyinə atsın və desin ki, sənin əlin onun ətəyinə çatmadı, indi isə budur, onun əli sənin ətəyinə dəydi.

Ağa Rüstəm Təbəristanın[324] sərdarları ilə ali bir məclisdə olduğu zaman həmin yasavul o məclisə girərək, [heç kəsdən] qorxub çəkinmədən, ona tapşırılmış işi görüb, dərhal geri döndü. Heç kəs səsini çıxarmağa [belə] macal tapmadı. Başdan-başa hədə-qorxu olan o sifarişdən Ağa Rüstəmin ürəyi qısıldı, vahimə və dəhşətdən [halı] pisləşdi, günbəgün bədəni zəiflədi və axırda o biri dünyaya tələsdi.

Xülasə, bu gözəl qələbədən sonra ətraf və qonşu məmləkətlərə fəthnamələr göndərdilər. Bütün Xorasan vilayətində xütbə və sikkələr on iki imamın - onlara Allahın salavatı olsun - mübarək ləqəbləri və şahın şöhrətli adı ilə bəzəndi. Ceyhun kənarınadək [ərazi] qızılbaş əmirlərinin əlinə keçdi. Doğru yola çağıran imamiyyə məzhəbi Xorasanın bütün şəhərlərində yayıldı. Müzəffər bayraqlar Herata tərəf yönəldi. Şərəfli xaqanın (Sultan Hüseyn Bayqaranın) paytaxtı o taxt-taca layiq vücudun (Şah İsmayılın) təntənəsi sayəsində səma yüksəkliyini qazandı. Bu qəribə hadisənin tarixi [əbcəd hesabı ilə] «fəth-i şah-i dinpənah»dır[325] («dinin pənahı olan şahın qələbəsi»). O qışda gözəl Herat şəhəri kamil xasiyyətli [Şah İsmayılın] qışlaq və düşərgəsi oldu. Ətrafdakı vali və hakimlər səadətli astanaya tələsərək, Xorasanın fəthi münasibətilə onu təbrik edib, «mübarək olsun!» dedilər. O cümlədən, Sultan Əbu-Səid Kürəkanın oğlu Sultan Mahmud mirzənin oğlu Xan-Mirzə adı ilə məşhur olan Sultan Üveys mirzə Bədəxşandan səltənət taxtının ayağına gələrək, xüsusi ehtiramla qarşılandı və [şaha] yaxın adamların məclisinə daxil edildi. O, Hisari-Şadman[326] və Bədəxşan əyalətlərinin idarəçiliyini alıb, razılıqla geri döndü. Həmçinin Sultan Əbu-Səid Kürəkanın oğlu Ömərşeyx mirzənin oğlu Məhəmməd Babur mirzə Kabildən mahir elçilər göndərərək, sədaqətini göstərdi.

Baharın əvvəlində cahangir bayraqlar Mavəraünnəhri almaq məqsədi ilə Heratdan çıxdı. [Şah İsmayıl] Meymənə və Fəryaba[327] çatdıqda özbək sultanları - atası [Şeybani xan] öldürüldükdən sonra Səmərqəddə səltənət bayrağı qaldıran

---

[323] Yasavul - «yasa» (qayda, qanun) sözündən alınmışdır. Yasavullar şahın olduğu yerdə qayda-qanun yaradırdılar. «Söhbət yasavulları» adlanan yasavullar yalnız hörmətli əmirlərin oğullarından ibarət ola bilərdilər və Səfəvilərin erkən zamanlarında onların sayı səkkiz-doqquz nəfərdən çox olmazdı. Şahın xüsusi məclislərində onlar eşikağasılarla birlikdə xidmət göstərər, ictimai yığıncaqlarda isə onlar şahın bərabərində durardılar, məclisə isə eşikağasılar qulluq göstərərdilər. Həm yasavullar, həm də eşikağasılar ali divanın eşikağası başısına tabe idilər (Mirza Səmia. Təzkirətül-müluk. Be kuşeş-e S.M.Dəbirseyaqi. Tehran, 1368, s.27; V.F.Minorsky. «Tadhkirat al-muluk», s.133; (О.А.Эфендиев. Азербацджанское государства Сефевидов в XVI веке, с.268).

[324] Təbəristan - İranın Mazandaran vilayətinin köhnə adı.

[325] «Fəth-i şah-i din-pənah» əbcəd hesabı ilə h. 916-cı (m. 1510) ilə müvafiqdir.

[326] Hisari-Şadman - müasir Tacikistan Respublikası ərazisində, Kafirnihan çayının yuxarı axarları yaxınlığında şəhər.

[327] Meymənə - müasir Əfqanıstanda, Heratla Bəlx arasında yerləşən şəhər. Fəryab - Əfqanıstanda, Meymənə şəhərindən şimaldakı Dövlətabad şəhərinin ərazisində yerləşmiş orta əsr qalası.

Məhəmməd Teymur sultan, Buxara hakimi Übeydulla xan, Canibəy sultan və Mavəraünnəhrin başqa sultanları bir-birinə qoşularaq, [Ceyhun] çayının kənarına gəldilər və ali taxtm ətəyinə adamlar göndərib, sədaqət izhar edərək, layiqli peşkəşlər təqdim etdilər. [Onlar] öhdələrinə götürdülər ki, əgər çayın o tərəfini (Ceyhun çayından şimaldakı əraziləri) şah onların öhdəsinə buraxarsa, onlar ömür boyu xidmət etmək yolundan kənara çıxmayacaqlar. Süleyman şanlı xaqan onların xahişini qəbul edərək, İraqa getmək istədi. Xorasanın fəthini təbrik etmək məqsədi ilə Misir, Şam və Rumdan elçilər ali taxtın ətəyinə gəldilər. Onlardan sonra xilafət məqamlı taxtın ətəyinə Mazandaran hakimləri gəldilər. Mazandaranın yarısı Mir Büzürgün övladlarından olan Mir Əbdülkərimə, o biri yarısı isə Ağa Məhəmməd Ruzəfzuna verildi. Onların hər biri öz hallarına münasib öhdəliklər götürüb, məmnuniyyətlə geri qayıtdılar. Gilan hakimləri və Şirvan valisi Şeyxşah bac və xərac verməyi öhdələrinə alaraq, itaət örtüyünü saldılar.

Amma özbək sultanları öz əhdü-peymanlarına vəfasız çıxaraq, hökmdarın Xorasanda olmadığı zaman məmləkətin ətrafına əllərini uzadırdılar. Zəhirüssəltənə Məhəmməd Babur mirzənin xahişinə əsasən, şərəfli şah hökm verdi ki, o, öz səyi ilə Mavəraünnəhr məmləkətindən nə qədər fəth edərsə, onunku olsun. O, Kabildən öz irsi mülkünə tərəf yola düşdü. Bədəxşanda Xan-Mirzə ilə birlikdə Hisari-Şadman tərəfə getdi. Hisar və Bədəxşan vilayətində hakimiyyət sürən Cəmşid sultan və Mehdi sultan Özbək cağatay qoşununa qarşı müharibəyə tələsdilər. Məhəmməd Babur mirzə onlara qalib gəldi. Özbək sərkərdələrinin hər ikisi döyüşdə öldürüldülər. Hisar və Bədəxşan vilayəti şahın fərmanına müvafiq olaraq, Xan-Mirzəyə verildi. Və belə bir halın həqiqətini ali taxtın ətəyinə ərz etdilər ki, əgər şah tərəfdən kömək olarsa, ümid var ki, Mavəraünnəhrin başqa şəhərləri də fəth edilsin. Süleyman şanlı xaqan, Əhməd sultan Sufioğlunu və Şahrux sultan Möhürdar Əfşarı bir dəstə döyüş igidləri ilə onlara kömək və yardım etməyə göndərdi. Məhəmməd Babur mirzə böyük əmirlərə qoşuldu və onlar Səmərqəndə tərəf yönəldilər. Özbək sultanları Məhəmməd Babur mirzənin gəlməsindən və qızılbaş qoşunlarının onunla birlikdə olmasından xəbər aldıqda dövlətin mərkəzini boş qoyub, Türküstana tərəf getdilər. Babur mirzə Səmərqənd şəhərində və müzəffər əcdadlarının paytaxtında hökmdarlıq taxtında oturub, o behiştə bənzər şəhərdə o həzrətin (Şah İsmayılın) adına on iki imam («isna-əşəri») xütbəsini oxutdurdu. O, qızılbaş əmirlərinin qayıtmasına izin verib, əşrəfin hüzuruna layiqli peşkəşlər göndərdi[328].

Amma əmirlərin getməsindən sonra özbək sultanları yenə də çoxsaylı ordu və dağ kimi şövkətli qoşunla Mavəraünnəhrə gəldilər. Babur mirzə ixtiyarında olan az adamla düşmənin qarşısma çıxaraq, döyüş nizamı aldı. Onların arasında böyük vuruşma baş verdi. Cənab Baburun mülazimlərindən çoxu o müharibədə öldürülüb,

---

[328] Babur 1511-ci ilin oktyabrından 1512-ci ilin mayınadək Səmərqənddə hökmranlıq etdi (А.М.Фарзалиев, Р.М.Мамедова. Сефевиды и Великие Моголы в мусульманской дипломатике. Санкт –Петербург, 2004, с.53).

məğlub oldular. Babur mirzə Mavəraünnəhrdə qalmağa macal tapmayıb, Hisari-Şadmana gəldi. Özbək sultanları onu təqib edərək, Hisara gəldilər. Babur mirzə qalaya qapanaraq, Bəlxdə olan Bayram xan Qaramanlunun yanına adam göndərdi və kömək istədi. Bayram xan qızılbaş qoşununun bir dəstəsini onun köməyinə göndərdi. Qızılbaş ordusunun gəldiyindən xəbər tutan Özbəklər mühasirədən əl çəkərək, Mavəraünnəhrə qayıtdılar.

Bu halın həqiqəti və özbəklərin azğınlığı cah-calallı astananın ərzinə çatdırıldı. Ali divanın vəkili[329] olmaqla başucalığı qazanan, ulu dərgahdakı əzəməti, cah-calalı, böyüklüyü, etibarı və iqtidarı camaat arasında məşhur olan və haqqında «Həbibüs-siyər»də bir qədər yazılmış Əmir Nəcmi-Sani Xorasanın işlərini nizama salmaq və özbəklərin şərini dəf etməyə məmur edilərək, Xorasana göndərildi. [O], Bəlx hüduduna çatdıqda şahın əmri və işarəsi olmadan Mavəraünnəhri zəbt etmək fikrinə düşdü. O, Herat hakimi Hüseyn bəy Lələ, Xorasanın böyük əmirləri və Bəlx hakimi Bayram xanla birlikdə Amudərya çayından keçdi. Hisardan Məhəmməd Babur mirzə gələrək, qızılbaş ordusuna qoşuldu. [Onlar] əvvəlcə Xüzar qalasını, ondan sonra Qərşi[330] qalasını fəth etdilər. Əmir Nəcm, Qərşidə qətliam hökmü verdi. Şeyxüm mirzə Özbək on beş min nəfərə yaxın əsgər və rəiyyətlə birlikdə qətl edildi. Babur mirzə [Əmir Nəcmdən] Qərşi əhalisinin cağatay qəbilələrindən olan bir qisminin qanının bağışlanmasını xahiş etdi. [Lakin bu xahiş] qəbul edilmədi. Bu səbəbdən iki tərəf arasında düşmənçilik tozu qopdu. Əmir Məhəmməd Yusif Sədr, came məscidində sığınacaq tapan seyidlərdən bir dəstəsinin qanından keçilməsini istədi. Amma [bu da] qəbul edilmədi. Seyidlərin böyük hissəsi qətl edildi.

Bayram xanın qətl edilməsi, Əmir Nəcmin öldürülməsi və Şah İsmayılın ikinci dəfə Xorasana yürüş etmək qərarı. Bu [qırğınlar] Əmir Nəcmə xoşbəxtlik gətirmədi. Bundan sonra [Əmir Nəcmin qoşunları] Məhəmməd Teymur sultan və Əbu-Səid sultanın olduqları Qicduvan[331] qalasına gəlib, dörd ay ərzində qalanı mühasirədə saxladılar. Qızılbaş ordusunda ərzaq azaldı. Ordu azuqənin, heyvanlar isə arpanın qıtlığından əziyyət çəkirdi. Übeydulla xan və Canibəy sultan Buxarada idilər. Onlar qızılbaşların çətin vəziyyətindən xəbərdar olduqda hazırlıqlı qoşunla Əmir Nəcmin üzərinə gəldilər. Məhəmməd Teymur sultan da qaladan çıxıb, onlara qoşuldu. [Onlar] ramazan ayının 3-ü (12 noyabr 1512), yekşənbə günü Qicduvanın ətrafına çatdılar. Tərəflər arasında böyük döyüş baş verdi. Bu mərəkədə canalan bir

---

[329] Vəkil - Azərbaycan Səfəvilər dövlətində şahdan sonra ikinci şəxs hesab olunurdu. O, mahiyyət etibarilə şahın dünyəvi və dini cəhətdən müavini idi (R.M.Savory. The Principial Offices of the Safavid State during the Reign of Ismail I//BSOAS, London, 1960, vol. 23, p. 94; (О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 252).

[330] Qərşi - indiki Özbəkistanın cənubundakı Qaşqadərya vilayətinin inzibati mərkəzi olan və Buxaradan 150 km. cənub-şərqdə, Qaşqadərya çayı sahilində yerləşən Karşi şəhəri. Xüzar qalası - Özbəkistanın Qaşqadərya vilayətində, Karşi Şəhərindən cənub-şərq tərəfdə yerləşən indiki Quzar şəhəri.

[331] Qicduvan – Özbəkistanda, Buxaradan 40 km. şimal-şərqdə yerləşən şəhər.

ox qızılbaş ordusunun sərdarı və çərxçisi[332] Bayram xan Qaramanluya dəydi və o, atdan yıxıldı. Bu hadisə çərxçilərin məğlubiyyətinə və özbəklərin cəsarətlənməsinə səbəb oldu. Özbək qoşunu qəti hücuma keçdi. Qızılbaş əmirləri arasında çaxnaşma düşdü, cinahlar bir-birinə dəydi. Məhəmməd Babur mirzə döyüşə girməkdən çəkinərək, öz qoşunu ilə Hisara tərəf yönəldi. Əmir Nəcmin qürur və lovğalığından təngə gəlmiş qızılbaş əmirləri onu qorumağa səy göstərmədilər. O, (yəni Əmir Nəcm) müharibədə [düşmənin] əlinə keçərək öldürüldü. Xorasan əyanlarından bəziləri qaçaraq, Kərki[333] keçidindən Xorasana gəldilər. Bu hadisə 918-ci il aylarında (19.03.1512 - 08.03.1513) baş verdi.

Özbək sultanları fəth və zəfər qazandıqdan sonra Xorasanı almaq niyyəti ilə [Amudərya] çayından keçdilər. Bir müddət Xorasan ərazisi özbəklərin tapdağı altına düşdü. [Bu] xəbərlər asiman ucalığında olan dərgahın sakinlərinin ərzinə çatdıqda bir daha Xorasana yürüş etmək qərarına gələrək, o tərəfə doğru yönəldilər. Dəniz kimi dalğalanan ordu Kalpuş [adlı] yerə yetişdikdə əmirlərdən bəzisi müzəffər ordudan bir dəstə ilə Tus[334] tərəfə göndərildi. Özbək sultanları şahın müzəffər məiyyətinin gəlib yaxınlaşması xəbərindən hədsiz vahiməyə düşərək, yerlərində dayana bilmədilər və sarsılaraq, müqavimətdən aciz qaldılar. [Onlar] geri dönərək, Mavəraünnəhrə getdilər. Bu yürüşdən sonra o məmləkət bir daha şahın səadətə peyvənd olan şərəfli dövlətinin valilərinin idarəsi altına keçdi. Süleyman şanlı xaqan bir müddət Xorasanda qalaraq, özbəklərlə müharibədə ikiüzlülük və acizlik göstərən bəzi əmirlərə, xüsusən Mərv hakimi Dədə bəyə [qadın] örtüyü geyindirib, layiqincə cəzalandırdı. Şah məiyyətinin [Xorasanda] olmadığı vaxt özbəklərin tərəfinə keçmiş və şiə məzhəbli əhaliyə əzab-əziyyət vermiş bir dəstə fitnəkarlar zamanə qəhrəmanının (Şah İsmayılın) qəzəb atəşi ilə yandırıldılar və o vilayətin sahəsi düşmənlərin çör-çöpündən təmizləndi. [Şah İsmayıl] Herat hökumətini və Xorasanın işlərini Zeynal xan Şamlunun bacarıqlı əllərinə tapşıraraq, geri döndü.

## SÜLEYMAN ŞANLIXAQANIN ALLAHIN KÖMƏYİ İLƏ ÇALDIRAN [DÜZÜNDƏ] RUM PADŞAHI SULTAN SƏLİMLƏ MÜHARİBƏSİ HAQQINDA

920-ci il aylarında (26.02.1514 - 14.02.1515) Süleyman şanlı xaqan Həmədan yaylaqlarında olub, o ürəyaçan vilayətin səfalı yerlərini eyş-işrət məclisi ilə bəzədiyi zaman Rum xondgarı Sultan Səlimin gəlməsi xəbəri yayıldı. Bu hadisənin məzmunu belədir ki, Süleyman şanlı xaqan hakimiyyətə gəldiyi zaman Sultan Bayəzid Rum məmləkətlərinin hökmdarı idi. [Bayəzid] o həzrətə (Şah

---

[332] Çərxçi - hərbi əməliyyatlar zamanı ordunun ön dəstəsi. Çərxçilərin komandanı «çərxçıbaşı» adlanırdı. Sözügedən döyüşdə Bayram xan Qaramanlu çərxçıbaşı idi.
[333] Kərki - indiki Türkmənistanın Cərco vilayətində, Amudərya çayı kənarında rayon mərkəzidir.
[334] Tus - İranın şimal-şərqində, Xorasan vilayətindəki Nişapur şəhəri yaxınlığında yerləşən şəhər.

İsmayıla) dostluq və məhəbbət göstərərək, həmişə yaxınlıq və birlik nişanələri nümayiş etdirirdi. İki tərəf arasında dostluq münasibətləri vardı. 917-ci il aylarında (31.03.1511-18.03.1512) Sultan Səlim öz atası ilə düşmənçiliyə başladı və bu məsələ onların arasında müharibəyə və toqquşmaya gətirib çıxardı. Ordu başçıları, xüsusən yeniçəri[335] tayfası birləşərək, Sultan Səlimi padşah [elan] etdilər, onu (Bayəzidi) isə hakimiyyətdən saldılar. [O], bundan dərdə düşərək xəstələndi və 918-ci il aylarında (19.03.1512 - 08.03.1513) axirətdə qovuşdu. Sultan Səlim taxt-taca sahib oldu.

Sultan Bayəzidin Anadoluda olan oğlu Sultan Əhməd öz adına xütbə oxutdurdu. Əmirlər və vəzirlər hiylə ilə onu İstanbula çağırıb qətlə yetirdilər, onun oğlu Sultan Muradın üzərinə [isə] qoşun göndərdilər. O, öz əmisinin qüvvələrindən vahiməyə düşərək, əşrəfin hüzuruna gəldi. O, İsfahanda mehribanlıqla qarşılandı. Lakin elə həmin günlərdə təbii əcəllə vəfat etdi. [Şah İsmayılın] Sultan Murada yardım göstərəcəyini güman etdiyinə və Ərzincan hakimi Nurəli xəlifə Rumlunun həmin Sultan Muradla birlikdə rumilərlə müharibə edərək Sinan paşanı çoxlu adamlarla birlikdə qətlə yetirdiyinə görə Sultan Səlim o həzrətə (Şah İsmayıla) qarşı tərslik yolunu tutaraq, düşmənçiliyə başladı. İki tərəf arasında mübahisə mənbəyi olan Kəmax qalası[336] və Diyarbəkrin bəzi qalaları üstündə ziddiyyət kəskinləşdi və get-gedə başqa səbəblərdən də tərəflər arasında qorxulu vəziyyət yarandı.

Qeyd olunan (920/1514-cü) ildə [Sultan Səlim] həddən çox sayda cəngavər qoşunla Azərbaycana tərəf yollandı və Süleyman şanlı xaqana məktub yazaraq, ona öz gəlişi barədə xəbər verdi. O həzrət (Şah İsmayıl) İsfahandan Həmədan yaylaqlarına gəldi. Onun nurlu fikrində rumilərlə müharibə və düşmənçilik etmək xəyalı yox idi. Lakin [Səlimin] gözlənilməz və vaxtsız gəlişindən xəbər aldıqda qeyrətinin çoxluğundan, İran məmləkətlərinin müzəffər ordusunun[337] toplanmasının qayğısına qalmadan, fələyi bürüyən bayrağın altında hazır olan az miqdarda [qoşunla] düşmənin qarşısına tələsdi.

Həmən ilin rəcəb ayının 2-si, çaharşənbə günü (23 avqust 1514) Xoyun ətrafındakı Çaldıran çölündə [Şah İsmayıl] iyirmi min nəfərlə birlikdə o hədsiz-hesabsız ordu müqabilində döyüşə hazır oldu. Rumilər özlərinin vərdiş və adətləri üzrə arxa və qabaqlarını top və zəncirlə möhkəmlədib, on iki min nəfər tüfəng atan yeniçərini arabalar içərisindən doyüş odunu alovlandırmağa məmur etdilər. Sultan Səlim bu atəşli qalanı özünə hasar edərək, [ordunun] mərkəz və cinahlarını nizama saldı.

---

[335] Yeniçəri (hərfi mənası türkcə «yeni qoşun» deməkdir) - islamı qəbul etmiş xristian gənclərdən təşkil olunan və dövlət xəzinəsi hesabına saxlanılan Osmanlı piyada qoşunu.

[336] Kəmax (Tehran çapının 41-ci səhifəsində səhvən Kax yazılıb) - Ərzincandan cənub-qərbdə, Fərat çayının sol sahilində tarixi qala və yaşayış məskəni.

[337] Burada «İran məmləkətlərinin müzəffər ordusu» dedikdə İran əyalətlərindəki qızılbaş qoşunları nəzərdə tutulur.

Bu tərəfdən Xan Məhəmməd [Osmanlıların] topxana qalasını [nəzərə alaraq], gündüz döyüşə [girməyi] məsləhət görmədi və dedi ki, «onlarla köç vaxtı döyüşmək lazımdır»[338]. Lakin Durmuş xan öz şücaətinin qürurundan bu işə razı olmadı. Süleyman şanlı xaqan həzrətləri buyurdu ki, «mən karvanbasan quldur deyiləm; Allah necə istəyirsə, eləcə də olacaqdır». Xan Məhəmməd sakit oldu.

Süleyman şanlı xaqan Diyarbəkrdən hazırlıqlı qoşunla gəlmiş Xan Məhəmmədi müzəffər ordunun çərxçisi təyin etdi. Məntəşa sultanın böyük[339] qardaşı Sarı Piro Qorçubaşı Ustaclu da ona yoldaş oldu[340]. Böyük əmirlərdən Durmuş xan Şamlu, Nurəli xəlifə Rumlu, Xüləfa bəy, Hüseyn bəy Lələ və Xəlil sultan Zülqədər sağ cinaha, ustaclu sultanları və xanları, Baba İlyas Çavuşlunun oğlanları və bir başqa dəstə sol cinaha yerləşdirildi. Ordunun mərkəz hissəsi isə o həzrətin (Şah İsmayılın) vücudu ilə bəzəndi. Əmirlər sırasında olan Seyid Məhəmməd Kəmunə, vəzir Mir Əbdülbaqi və sədr Mir Seyid Şərif[341] o həzrətlə birlikdə mərkəzdə idilər. İki tərəfin igidləri irəli atıldılar və hərb atəşi alovlandı.

***Şah İsmayılın şücaətinin və onun şəxsən döyüşdə iştirak etməsinin bəyanı.*** «Tarix-i cahanara»da yazılmış və camaat arasında [belə] yayılmışdır ki, o həzrət (Şah İsmayıl) cərgələr düzüldüyü zaman bildirçin ovu ilə məşğul idi və döyüş və vuruşma qızışdıqdan sonra müharibə meydanına gəlmişdi. Rumilərin adlı-sanlı dilavərlərindən və zəmanənin şücaətli cəngavərlərindən olan Malqucoğlu Rum çərxçilərinin arasında idi. [O], həmişə Rum böyüklərinin yanında lovğalanaraq deyirdi ki, düşmən qoşunu içərisində şahdan başqa heç kəs mənə rəqib ola bilməz.

Vuruşma əsnasında o alçaq və yaramaz şəxs (Malqucoğlu) Süleyman şanlı xaqanla döyüşmək istəyərək, bir dəstə döyüşkən şücaətli rumilərlə ordudan ayrılıb, şah [ordusunun] «qol»una[342] doğru atıldı və o həzrəti döyüşə çağırdı. O başıbəlalı alçağın belə ali rütbəli padşahla mübarizə etməyə layiq olmadığına baxmayaraq, o həzrət qeyrətinin çoxluğu üzündən, sədaqətli əmirlərin razılığı və qoşunun köməyi olmadan, öz igidlik atını onunla çarpışmağa çapdı. [Şah İsmayıl] zülfüqar[343] nişanəli Heydəri qılıncı çəkərək, elə qəzəb və kinlə o bədbəxtin üzərinə hücum etdi ki, [Malqucoğlu] padşahın həmləsinin təsirindən özünü itirib, hərəkət etməyə [belə] macal tapmadı. O cəsarət meşəsinin aslanı (Şah İsmayıl) Heydəri qolunun gücü ilə ona elə zərbə endirdi ki, onun zirehini və poladdan olan xəftanını parça-

---

[338] Məhəmməd xan Ustaclu onu nəzərdə tuturdu ki, Osmanlılar yolda olarkən, hələ döyüş meydanında mövqe tutmamış, gecə vaxtı onlara qəflətən hücum etmək lazımdır.

[339] S-129. v.38a; S-297, v.23b. Məntəşa sultanın adı Tehran çapında (s.42) Məsna sultan deyə yazılmışdır.

[340] Qorçubaşı - şahın şəxsi qvardiyasının rəisi.

[341] Sədr - funksiyası dövlətin dini siyasətinin həyata keçirilməsinə başçılıq etməkdən ibarət olan yüksək saray vəzifəsi (bax: (О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 259-262; Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.47-49).

[342] Qol - ordunun mərkəz hissəsi.

[343] Zülfüqar - Həzrət Əlinin ikitiyəli qılıncıdır.

parça etdi və onun alçaq vücudunu ölüm torpağına atdı. Hər iki ordudan fəryad qopdu, göyün məlaikələri o qola və qoldakı gücə afərin qışqırdılar. Sözün qısası, hər iki tərəfin igidləri bir-birinin üzərinə töküldülər. Toz-torpağın qopmasından havalar qaraldı. O qorxunc mərəkədə Süleyman şanlı xaqan şəxsən döyüşə girib elə vuruşdu ki, Sam və İsfəndiyar[344] dastanını puç etdi. Rumilərin arasında yayılmışdır ki, o döyüşdə ali rütbəli şah dəfələrlə səadətli atını top arabalarının («ərradə»lərin) yanına qədər çapıb, onların [zəncirlərini] bir-birindən qırıb ayırırdı.

***Xan Məhəmməd Ustaclunun öldürülməsi.*** Qızılbaş ordusunun dilavərləri arabalara yaxınlaşaraq, üç yüz nəfər yeniçərini arabaların arxasında qılınc zərbəsi ilə tikə-tikə etdilər. Yeniçərilər və topçular döyüş odunu qızışdırmaqla məşğul idilər. Top, zərbzən və tütəng tüstüsünün çoxluğundan işıqlı aləm qaranlığa çökdü. Qızılbaş ordusunun igidlərindən bir çoxusu qorxu və vahimə bilmədən, özlərini od dəryasına ataraq, tüfəng [atəşindən] həlak oldular və onların həyat xırmanları yandı. Çərxçi Xan Məhəmməd Ustacluya top dəydi və o, ustaclu tayfasından bir dəstə ilə həmin mərəkədə tələf oldu.

***Seyid Məhəmməd Kəmunənin, Mir Əbdülbaqinin və sədr Mir Seyid Şərifin öldürülməsi.*** Rumilərə məlum olmuşdu ki, ali rütbəli padşah [ordunun] mərkəzində yoxdur. [Buna görə də] o tərəfə hücum etdilər. Döyüşün qızışıb alovlanmasından, saysız top və zərbzən atəşindən mərkəzdəki qoşun bir-birinə qarışdı. Seyid Məhəmməd Kəmunə, Mir Əbdülbaqi və sədr Mir Seyid Şərif - hər üçü mərkəzdə şəhidlik şərəfinə çatdılar. Böyük əmirlərdən Sarı Pirə Qorçubaşı Ustaclu, Hüseyn bəy Lələ, Xan Məhəmməd, Baba İlyas Çavuşlunun oğlanları və başqaları bu müharibədə öldürüldülər. Sultanəli Əfşar da rumilərin əlinə düşdü. Rumilər onu Süleyman şanlı xaqan hesab edərək, Sultan Səlimin yanına apardılar. O, öz adını dedikdə oradaca qətl edildi. Süleyman şanlı xaqan, düşmənin çoxluğunu, ordunun bir-birinə qarışdığını və mərkəzin dağıldığını müşahidə etdikdə əmr verdi ki, gərənay[345] çalınsın. Üç yüz nəfər o həzrətin başına yığıldı. Çarəsizlikdən, sədaqətli adamların təkid və israrı ilə [şah] mərəkədən üz çevirdi. Qızılbaş ordusunun mərkəzini dağıdıb qayıdan Rum dəstəsinə rast gələn [şah] onların cərgələrini yararaq getdi. Süleyman şanlı xaqanın atı bataqlığa düşdü. Xızır ağa Ustaclu atından endi. O həzrət onun atına mindi, [Xızır ağa] özü isə o həzrətin atını çıxararaq, onun dalınca getdi və Dərcəzində[346] [şahın] xidmətinə yetişərək, nəvaziş gördü.

Müxtəsər, yaxınlarının bir dəstəsi ilə [şah] o mərəkədən çıxıb, Dərcəzinə gəldi ki, müzəffər əsgərlərini toplayıb, bir daha qüdrətli bir şəkildə rumilərlə

---

[344] Sam - Firdovsi «Şahnamə»sinə görə, məşhur pəhləvan Rüstəm Zalın babasıdır. İsfəndiyar - «Şahnamə» qəhrəmanlarından biridir. Qədim İranın yarım əfsanəvi Kəyan sülaləsinin hökmdarı Gəştasbın oğludur.

[345] Gərənay - qədim tarixə malik olan, hərbi yürüşlərdə geniş surətdə istifadə edilən, borusu üzərində heç bir çalğı dəliyi olmayan və gur səs çıxaran nəfəsli musiqi alətlərimizdəndir (A.İ.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı, 2004, s.91).

[346] Dərcəzin (Dərgəzin) – Həmədandan şimalda yerləşir.

müharibə etsin. Sultan Səlim iftixar və fərəhlə Təbriz şəhərinə gəldi, lakin altı gündən artıq orada qala bilmədi. [Sultan Səlim] qızılbaşlarla müharibənin şiddətindən və Süleyman şanlı xaqanın inadkarlıq və igidliyindən əndişə edib, özünün nümayiş etdirdiyi cürət və cəsarətdən peşman oldu və öz diyarına qayıtmağı qərara aldı. Belə deyirlər ki, Çaldıran döyüşündə ölənlərin sayı çoxdur. Amma tarixçi Həsən bəy yazıb ki, bu vuruşmada dəqiq sözlə beş min nəfər qətlə yetirilmiş və bunların üç mini rumi, iki mini isə qızılbaş olmuşdur.

Sultan Səlimin çıxıb getməsi xəbəri Dərcəzinə çatdıqda Süleyman şanlı xaqan Azərbaycan darülmülkünə (Təbrizə) daxil oldu və Rum qosununun gəlişi vaxtı o diyarda baş vermiş pozuntuları aradan qaldırmaqla məşğul oldu. O, həmisə bu qüssəni unutdurmağın fikrini çəkirdi.

Sultan Səlim Ərzincana gedib, Yusif sultan Varsağa məxsus Kəmax qalasını mühasirəyə adlı. Yusif sultan qalanı öz qardaşına və varsaq [tayfasından] olan üç yüz nəfər qaziyə tapşıraraq, özü əşrəfin xidmətinə gəlmişdi. Sultan Səlim varsaq qazilərinə aman veriləcəyi haqqında məktub («amannamə») göndərib, onları itaətkarlığa dəvət etdi. Varsaq qaziləri dedilər ki, [Çaldıran] döyüşündə bizim mürşidimizə və vəlinemətimizə azacıq zərər dəymiş olsa da belə, biz o həzrətin rəiyyəti olmaq hüququndan heç zaman imtina etmərik və canımız bədənimizdə olduğu müddət ərzində o həzrətin düşmənlərinə qarşı döyüşəcəyik.

Bu sözlərdən sonra rumilər qalaya hücum etdilər və qalanı tutdular. Qazilər came məscidinə pənah apardılar və onların hamısı din və dövlət yolunda şəhidlik şərbətini içdilər. Sultan Səlim Kəmaxı ələ keçirib, Əlaüddövlənin üzərinə getdi və ondan sonra, asağıda yazılacağı kimi, Diyarbəkri istila etdi. Həmin hadisədən sonra ondan bir düşmənçilik hərəkəti baş vermədi.

Elə bil ki, Allahın mükəmməl hikmətinin zərurəti nəticəsində o həzrətə (Şah İsmayıla) göz dəymiş və o, belə bir məğlubiyyətə düçar olmuşdu. Çünki əgər bu [Çaldıran] döyüşündə də o həzrət zəfər qazansaydı, onda belə bir təhlükə vardı ki, qızılbaş tayfalarının sadəlövhlərinin o həzrətin şanı barəsindəki əqidəsi və inancı elə bir həddə çatardı ki, onların etiqad ayağı dinin və imanın doğru yolundan azıb, onları səhv gümanlara doğru aparardı[347].

Xülasə, Çaldıran hadisəsindən sonra [Şah İsmayıl] Diyarbəkr hakimliyini Xan Məhəmməd Ustaclunun qardaşı Qaraxana verib, onu o tərəfə göndərdi. O, Mardində qərar tutdu. Qarahəmid adı ilə tanınan Amid şəhərinin əhalisi xaincəsinə rumiləri çağıraraq, şəhəri onlara verdi. Qaraxan Mardindən çıxıb, rumilərin gəlişini dəf etməyə getdi. Onun qarşısına beş min adam göndərdilər. O, həmin dəstə ilə vuruşub qalib gəldi. Belə ki, rumilərin əksəriyyəti qətl edildi. [Diyarbəkr] şəhərinin kənarına çatdıqda əhalinin rumilərlə müttəfiq olduğunu gördü. Qalanı almaqdan

---

[347] S-129, v.39a-b; S-297, v.24a-b. Burada əlyazmalardan iqtibas edilən parçanın əvəzində Tehran çapında (s.43) qısaca olaraq belə yazılmışdır: «Müharibənin şiddətindən qızılbaş tayfaları (arasında) o həzrətin (Şah İsmayılın) ad-sanı (şöhrəti) o dərəcəyə çatdı ki, onların etiqad ayağı din və imanın düz yolundan çıxaraq, səhv fikirlərə düşdülər».

ümidsiz oldu. Məmləkət rumilərin əlində idi. Onun hakimliyinin ikinci ili olan 922-ci (1516) ildə rumilər iyirmi min piyada və süvari ilə onunla döyüşə gəldilər. O, Qudurmuş sultan Qacarla[348] birlikdə onlarla müharibəyə hazırlaşdı. Mardinin Üləngi-Qoruq[349] [adlı] yerində iki tərəf arasında vuruşma baş verdi. Qaraxan o böyük qoşuna qalib gəldi. [Amma düşməni] təqib edən zaman bədbəxtlikdən ona bir tüfəng gülləsi dəydi, atdan düşərək can verdi. Bu haldan qızılbaşlar pərişan oldular, rumilər [isə] açıq-aşkar basılma və məğlubiyyətdən sonra qələbə çaldılar. [Onlar] xondgardan yardım alaraq, Diyarbəkr [vilayətini] ələ keçirdilər. Qızılbaşların əli o vilayətdən üzüldü. Bu xəbərlər Süleyman şanlı xaqana çatdıqda Qaraxana yardım üçün bir dəstə təyin etmişdi. Lakin o öldürüldükdən sonra bundan vaz keçdi.

Xülasə, bu hadisələrdən sonra Süleyman şanlı xaqan məmləkətin bütün zəruri işlərinə baxmayaraq, gecə-gündüz müharibəyə hazırlaşmaq və Rum diyarına qoşun çəkmək fikrində idi. [Bu vaxt], 926-cı (1520) ildə Sultan Səlim əbədi dünyaya köçdü və onun yerinə oğlu Sultan Süleyman oturdu. Onun tərəfindən heç bir düşmənçilik əlaməti olmadığına görə, üləmalar düşmənçilik hərəkəti olmadığından ordu [yeritməyi] düzgün hesab etmədilər. Sultan Süleyman öz hakimiyyətinin başlanğıcında Rus və Firəng məmləkətlərinə[350] qoşun çəkib, qəzavat və cihadla məşğul olduğuna görə [üləmalar] o həzrəti (Şah İsmayılı) da kafirlərlə müharibəyə çağırırdılar. Buna görə də Süleyman şanlı xaqan bir neçə il qazilik savabını qazanmaq üçün müzəffər əsgərləri Gürcüstana müharibəyə göndərib, özü eyş-işrət və şadlıqla vaxt keçirirdi[351].

[Şah İsmayılın] cahanı bəzəyən fikri bu qərara gəldi ki, xoşbəxt şahzadələrdən birini Xorasan əyalətinə təyin edərək, oraya göndərsin. İlk dəfə o, mübarək alnından hökmdarlıq bacarığı parlayan böyük oğlu, səadətli və cavanbəxt Təhmasib mirzəni oraya göndərərək, Əmir xan Mosullu Türkmanı da onun lələsi olmaq və vilayətin işlərini saf-çürük etmək üçün oraya təyin etdi. Bir neçə vaxtdan

---

[348] S-129, v.39b; S-297, v.24b. Tehran çapında (s.43) bu şəxsin adı Durmuş sultan Qacar deyə yazılmışdır. Əslində isə o, Bakı əlyazmalarında qeyd olunduğu kimi, Qudurmuş sultan Qacar olmalıdır. Həsən bəy Rumlunun yazdığına görə, əsl adı Qaraca və ya Aca sultan olan bu əmir Çaldıran vuruşmasından sonra Şərqi Anadolu uğrunda gedən döyüşlərin birində özünün 800 nəfərlik süvari dəstəsi ilə Ağqoyunlu Sultan Muradın 8 minlik qoşununa qalib gəlmiş və Sultan Muradı qətlə yetirib, başını Şah İsmayıla göndərmişdi. Öz döyüşçülərindən on dəfə çox olan qoşuna qalib gəldiyi üçün Şah İsmayıl ona «Qudurmuş sultan» ləqəbi vermişdi (A Chronicle of the Early Safawis being the Ahsanu't-tawarikh of Hasan-i Rumlu, edited by C.N.Seddon, vol. I, Baroda, 1931, p.151). Bu əhvalatı İsgəndər bəy Münşi də nəql etmişdir.

[349] S-129, v.39b; S-297, v.24b. Tehran çapında (s.43) səhvən Üləngi-Furəq yazılmışdır. Üləng - köhnə türk dilində çəmən deməkdir.

[350] Firəng məmləkətləri adı altında Avropa ölkələri nəzərdə tutulur.

[351] Şah İsmayılın əmri ilə Div sultan Rumlunun komandanlığı altında qızılbaş qoşunları 1516, 1517 və 1521-ci illərdə Gürcüstana hərbi yürüşlər etmiş, bu yürüşlər nəticəsində gürcü hökmdarları Şah İsmayılın Naxçıvandakı düşərgəsinə gələrək, öz itaətkarlıqlarını bildirməyə və hər il bac və xərac ödəməyi qəbul etməyə məcbur olmuşdular (О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 63-64).

sonra [Şah İsmayıl] o həzrəti (Təhmasib mirzəni) ali taxtın ətəyinə gətirib, Sam mirzə ilə Durmuş xanı [oraya] göndərdi. O həzrətin (Şah İsmayılın) ömrünün son günlərinədək Xorasan məmləkətində əmin-amanlıq hökm sürdü.

926-cı (1520) il aylarında Şirvanın valisi Şeyxşah istək və səmimiyyətlə səadətli astanaya üz çevirib, bütün nəyi varsa [İsmayıla] peşkəş edərək, özünü bu astananın bəndələri sırasında hesab etdi[352]. O, Şirvanşahlıq xanədanının namuslu pərdəsi [altında] tərbiyə almış qızını ismət örtüklülərin sırasına keçirdi (onu Şah İsmayıla ərə verdi)[353]. Bu xoş xidmətlər müqabilində Şirvan vilayəti yenə də ona verildi.

## I ŞAH İSMAYILIN VƏFATI

930-cu il aylarında (10.11.1523 - 28.10.1524) amansız ruzigarın qədim adəti üzrə, ləzzətləri məhv edən [ölüm] o dövran Xosrovunun, zəmanə Keyqubadının[354] həyat mülkünə hücum etdi. [Şah İsmayıl] cavanlıq aləmində, həyatdan əsl ləzzət alma çağında, ömründən otuz yeddi il keçib, otuz səkkiz yaşında ikən səltənət taxtı və həyatla vidalaşıb, Sərab[355] mahalının Mənqutay adlı yerində əbədi dünyaya köçdü[356]. Onu övliyalar sultanı olan həzrətin (Şeyx Səfiəddinin) müqəddəs rövzəsində basdırdılar. «Tab müzcəhu» («məzarı nurlansın») ifadəsi [əbcəd hesabı ilə] bu tarixə müvafiqdir. «Xosrov-i din» («din başçısı») kəlməsi də [əbcəd hesabı ilə] o səltənət nişanlı sultanın vəfat tarixidir. Bir başqası isə bu tarixi «zill» («kölgə») sözündə tapmış, o barədə belə bir şeir yazmışdır:

**Nəzm**

«Dünyanın pənahı olan Şah İsmayıl,
Elə ki günəş kimi örtüyə bürünüb cahandan getdi,
«Zill» (kölgə) sözü onun [vəfat] tarixi oldu,
Kölgə günəşin tarixi oldu».

---

[352] Mənbənin Bakı əlyazmalarında bu hadisə 929-cu (1523) ilə aid edilir (S-129,v.40a;S-297,v.25a).

[353] Şah İsmayılla Şeyxşahın qızının toyu 26 zilhiccə 929 / 5 noyabr 1523-cü ildə Təbriz şəhərinin bir fərsəxliyində olmuşdu (Qiyasəddin Xandəmir. Tarix-e həbibüs-siyər fi əxbar əfrad-e bəşər. Tehran, 1333, c. IV, s.599-601).

[354] Keyqubad - qədim İranda hökmranlıq etdiyi bildirilən yarıməfsanəvi Kəyan sülaləsinin birinci hökmdarı. Məşhur pəhləvan və sərkərdə Rüstəm Zal onun xidmətində olmuşdur (A.M.Babayev. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi, s.116).

[355] Sərab - Cənubi Azərbaycanda, Təbrizdən 124 km. Şərqdə, Təbriz - Ərdəbil avtomobil yolu kənarında şəhər.

[356] I Şah İsmayıl 19 rəcəb 930 / 23 may 1524-cü ildə vəfat etmişdir (О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 69).

O həzrətdən dörd adlı-sanlı şahzadə yadigar qaldı. Onların hamısı uşaq yaşında idi. Təhmasib mirzə və Bəhram mirzə türkman mosullu əmirlərindən birinin möhtərəm qızından doğulmuşlar. Əlqas mirzə və Sam mirzə isə müxtəlif xatunlardandırlar. [Şah İsmayılın] qızlarının adlarını [burada yazmaqda] fayda yoxdur.

O həzrət (Şah İsmayıl) şeir nəzm etməkdə ali təb sahibi idi. Amma türkcə şeir deməyə daha çox rəğbəti vardı. Təxəllüsü isə Xətai idi. Sultan Səlimlə müasir olduğundan Mövlana Ümidi[357] bu şeirdə buna işarə etmişdir:

**Şeir**

«Cah-calal evində qəzavü-qədər,
İslimi, Xətai nəqşini çəkər»[358].

## MƏRHƏMƏT PƏNAH, CƏNNƏTMƏKAN VƏ XOŞ AQİBƏTLİ ŞAH TƏHMASİBİN - ONA RƏHMƏT VƏ BEHİŞT NƏSİB OLSUN – SƏADƏTLİ ƏHVALATI HAQQINDA

Ali məqamlı şahzadələr arasında Cəmşid rütbəli cənnətməkan şah yüksək nəsəbli övladların ən böyüyü və əzizi olub, xoşbəxt Xosrov və Keyqubad taxtına layiq idi. O bəxtiyar həzrət 919-cu il zilhiccətül-həram ayının 26-sı, çaharşənbə günü (22 fevral 1514) İsfahanın Şahabad kəndində anadan olmuşdur. Agahlıq büsatının uzaqgörənləri o həzrətin Şahabad adlı yerdə doğulmasını xoşbəxtlik və bəxtiyarlıq [əlaməti] bilərək, onun padşahlıq və hökmdarlıq falına baxdılar. Dəqiqlikləri bilən üstürlabçılar[359] doğulan xoşbəxtin ulduz falından belə nəticəyə gəldilər ki, tezliklə [Şah Təhmasibin] hörmətli vücudu şahlıq tacının zinətini artıracaq, [onun] dövlətinin günəşi aləmi işıqlandıracaqdır. Qeybdən gələn ilham sayəsində [əbcəd hesabı ilə] «aftab-i aləm-əfruz» («dünyanı işıqlandıran günəş») o əzizin təvəllüd tarixidir.

Süleyman şanlı xaqanın dövründə o, kiçik yaşlarında özünün başqa qardaşlarından fərqləndirilərək, Xorasan mülkünün səltənətinə təyin edildi, gözəl Herat şəhərində böyüdü. O həzrətin lələsi Əmir xandan nalayiq hərəkətlər

[357] Mövlana Ümidi Tehrani - I Şah İsmayılın müasiri olmuş İran şairidir. Əsl adı Ərcəspdır. 1519-cu illə 1524-cü il arasında öldüyü güman edilir (E.G.Browne. A History of Persian Literature in the Modern Times /A.D.1500-1924/, p.230-233).

[358] İslimi və Xətai nəqşləri - orta əsrlərdə təsviri sənətin dəbdə olan yeddi növü sırasına daxil olan naxışlardır. Bundan əlavə, şeirlərini daha cox farsca yazan Sultan Səlimin poetik təxəllüsü İslimi, əsasən türkcə yazıb-yaradan Şah İsmayılın təxəllüsü isə Xətai idi. Şair Mövlana Ümidi burada bədii maneradan istifadə etmiş, «İslimi nəqşi» deyərkən Sultan Səlimi, «Xətai nəqşi» deyərkən isə Şah İsmayıl Xətaini nəzərdə tutmuşdur (daha ətraflı bax: M.P.Qasımlı. Şah İsmayıl Xətainin poeziyası. Bakı, 2002, s.106-108).

[359] Üstürlab - astranomiyada bucaqölçən alət, rəsəd alətidir. Burada İsgəndər bəy Münşi «üstürlabçı» deyərkən astroloqları, münəccimləri nəzərdə tutmuşdur.

görüldüyü üçün o, hakimlikdən azad edildi. [Buna görə də] o həzrəti ali taxtın ətəyinə çağırdılar və o, yüksək səviyyəli atasının (Şah İsmayılın) yanında izzət və hörmətlə yaşadı. İlk günlərdən zati-alilərinin (Təhmasibin) davranışından səltənət və hökmdarlıq əlamətləri aşkar və peyda olub, onun mübarək alnından ilahi nur parlayırdı.

Məskəni behişt olan xaqanın (Şah İsmayılın) vəfatından sonra [Təhmasibin] mətin qaməti səltənət və padşahlıq qiyafəsi ilə bəzəndi. O, on bir yaşında ikən, «doğrudan da, Allah sizə əmr edir ki, əmanətləri yiyəsinə verəsiniz» [ayəsindəki][360] hökmün məzmununa uyğun olaraq, şahlıq taxtına oturub, padşahlıq məclisini bəzədi.

Zati-alilərinin (Şah Təhmasibin) taxta çıxması («cülus»u)[361] 930-cu ilə müvafiq gələn piçi ilinin[362] rəcəb ayının 19-da, düşənbə günündə (23 may 1524) olmuş və o, yüksək səviyyəli atasının yerinə keçmişdir. Qeybdən gələn ilhamla [əbcəd hesabına əsasən] «cay-i pedər gerefti» («atanın yerini tutdun») bu tarixə müvafiqdir.

**Tarix**

«Ey aləm şahı Təhmasib, Allahın köməyi ilə
Qazi şahdan sonra qızıl taxta çıxdın.
Atanın yerini tutdun, cahanı ələ keçirdin,
Səltənət tarixin belə oldu: atanın yerini tutdun.»

«Allah bizimlədir» [kəlamının] sirrinə məhrəm olan vilayətpənah şah həzrətlərinə (Həzrət Əliyə) böyük etiqad və sonsuz səmimiyyət bəslədiyinə görə [Şah Təhmasib] özünə «bənde-yi şah-i vilayət» («vilayət şahının, yəni Həzrət Əlinin qulu») adlandırmışdı. Gözəl təsadüfdən, «bənde-yi şah-i vilayət» onun taxta çıxmasının tarixi oldu və [bu sözlər] onun fərman möhüründə yazıldı.

«Qul olmaq şərəfdir Nəcəf şahına[363],
Əzəldən seçdi bu yolu Təhmasib.

---

[360] «Qurani-Kərim», «Nisa» surəsi, 58-ci ayə.
[361] Cülus - bir padşahın taxtda oturaraq, hökmdarhğa başladığı gündür.
[362] Səfəvi mənbələrində bir sıra hallarda tarixlər hicri iliylə yanaşı, həm də heyvan adlarına əsasən tərtib olunmuş qədim türk təqvimi ilə göstərilirdi. Bu təqvim 12 illik dövrlərə əsaslanır. 12 ilin hər biri müəyyən bir heyvanın adını daşıyır: 1) siçqan yıl (siçan ili); 2) ud yıl (öküz ili); 3) pars yıl (bars, pələng ili); 4) tavaşqan (tovşqan) yıl (dovşan ili); 5) luy yıl (naqqa ili); 6) yılan yıl (ilan ili); 7) yunt yıl (at ili); 8) quy yıl (qoyun ili); 9) piçi yıl (meymun ili); 10) taxaquy (təxaquy) yıl (toyuq ili); 11) it yıl (it ili); 2) tonquz yıl (donuz ili). Bu illərin hər biri Novruz bayramı ilə başlayıb, növbəti ilin Novruzuna qədər davam edərdi.
[363] Ərəstun - qədim yunan filosofu Aristotel (e.ə.384-322). O, Makedoniyalı İsgəndərin müəllimi olmuşdur.

Cülusu möhründə belə yazıldı:
Vilayət şahının qulu Təhmasib.»

O həzrət dindar, şəriətpərvər, ədalətli, Allahın köməyinə arxalanan, hədsiz uğurlara nail olan, dövranın alimlərinə dərs verən, yeddi və dörd nəticələrinin xülasəsi[364], hikmət və bilikdə Ərəstun[365] və İsgəndərdən, hökmdarlıq etməkdə Cəmşid və Kəsradan üstün bir şah idi.

O həzrətin padşahlıq və hökmdarlığının əvvəllərində dövlət işləri bir neçə cəhətdən qarışıqlığa uğramışdı. Belə bir günün arzusunda olan alcaq düşmənlər dünyanın ən abad ölkəsi və Kəyan taxtgahı olan İran mülkünə şərqdən və qərbdən tamah göstərərək, fitnəkarlığa başladılar. Əmirlər və yüksək dövlət məmurları arasında vəkillik və tayfa təəssübkeşliyi üstündə mübarizə başlayaraq, toqquşma və müharibəyə çevrildi. Vaxtaşırı dərgahın böyük əmirlərindən və dövlətsevər ağsaqqallardan biri vəkil vəzifəsini öhdəsinə götürərək, dövlət işlərində ixtiyar sahibi olurdu. O həzrət bu dövrün əvvəllərində azyaşlı olduğuna görə işlərə qarışmayıb, gah qəzavü-qədərin işlərinə tamaşa edirdi, gah da ali təbiətinə və ağıldan aldığı dərslərə görə işləri öz axarına buraxaraq, sədaqətli və vəfalı [adamları] ayırmağa çalışırdı. Bəzi vaxtlarda öz əziz vücudunu yüksək vəzifə arzusunda olan naqis şəxslərin şərindən qoruyurdu. Xoş taleyin gücü və uğurlu bəxtinin köməyi sayəsində, düşmənlərin çox, dostların isə az olduğuna baxmayaraq, [o], həm öz əziz canını, həm də zavalsız dövləti hifz edirdi.

[Şah Təhmasib] öz xoş taleyinin tuba misallı fidanı kimi dövlət və iqtidar çəmənində böyüyüb, həddi-büluğa çatdıqda Allahın dəstəyi, ağlının mətinliyi, biliyinin çoxluğu və düşüncəsinin kamilliyinə görə, iddiaçı əmirləri, özbaşınalıq edən saymazları gözəl tədbirlərlə aradan qaldıraraq, səltənət və hökmdarlıq işlərini şəxsən öz əlinə aldı. Məmləkətin pusqusunda duran dövlət düşmənləri [onun] odlu qılıncının parıltısından məhv oldular. Onun istək qönçəsi həmişə bahar fəsli keçirən səltənət və hökmdarlıq bağında çiçəklənərək, elə iqtidar və istiqlaliyyətə çatdı ki, heç bir kəs onun itaəti vacib olan fərmanından boyun qaçıra bilmirdi. O Allah tərəfindən seçilmişin gözəl xasiyyətləri hədsiz-hesabsızdır, onlardan bir qədərini belə yazmaq dəftərxana («darülinşa») katiblərinin qələmi gücündən

---

364 Yeddi və dörd rəqəmləri klassik Şərq ədəbiyyatında müqəddəs rəqəmlərdir və müəyyən rəmzi mənalar ifadə etməkdədirlər. Belə ki, dörd rəqəmi dünyanı formalaşdıran 4 ünsürü (torpaq, od, su , hava), 4 müqəddəs kitabı (Tövrat, Zəbur, İncil, Quran), 4 cəhəli (şimal, cənub, şərq, qərb), ayın 4 həftəsini və s., yeddi rəqəmi isə orta əsr Şərq elminə görə, 7 iqlimi, 7 planeti (Zühəl, Müştəri, Mərrix, Şəms, Zöhrə, Ütarid, Qəmər), göyün 7 qatını, həftənin 7 gününü və s. bildirir. Həmcinin 7 və 4 rəqəmlərini bir-birinə vurduqda 28 rəqəmi alınır ki, bu da ərəb əlifbasındakı hərflərin ümumi sayını göstərir. Göründüyü kimi, 4 və 7 rəqəmləri rəmzi mənada kainatın və dünyanın bir sıra biliklərini və rəmzlərini özündə cəmləşdirir. Beləliklə, İsgəndər bəy Münşi Şah Təhmasibi «yeddi və dörd nəticələrinin xülasəsi» adlandırmaqla onun elmi biliklərinin hərtərəfli və yüksək səviyyədə olmasına işarə etmişdir.

365 Nəcəf şahı - Həzrət Əli İraqın Nəcəf şəhərində dəfn olunduğu üçün «Nəcəf şahı» adlandırılmışdır.

xaricdir. Onun yüksək və şərəfli hakimiyyəti dövründə [baş vermiş] hadisələrin, müharibələrin, məmləkət və şəhərlərin alınmasının, onun uğurlu zamanındakı böyük əhvalatların müfəssəl təsviri mərhum tarixçi Həsən bəy Rumlunun o həzrətin zamanında yazdığı və «Əhsənüt-təvarix» adlandırdığı kitabda bəyan etdiyi kimidir və bu kiçik zərrənin (İsgəndər bəy Münşinin) onları yazmaq qabiliyyəti yoxdur.

**Nəzm**

«Nə üçün şah məclisinə tələsim,
Halbuki orada qapıçı qədər [dəyərim] yoxdur.
Ona tərif necə yazım ki,
Mindən birini yazmaqdan acizəm.»

Bu əsərdə məqsəd - Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti zamanındakı hadisələri yazmaqdan ibarətdir və sözü çox uzatmaq fikrimiz yoxdur. Lakin, eyni zamanda, yalnız bu «Aləmara» kitabını o dünyanı bəzəyən Şah [Təhmasibin] əhvalatından tamamilə məhrum etməmək üçün «Abbasinamə» [kitabını] yazan qələmimi bir at kimi söz meydanında bacardığım qədər çapdırıram.

O cah-cəlal dairəsinin mərkəzi [Şah Təhmasibin] səltənət taxtına əyləşməsi xoşbəxtliklə və uğurla baş tutduqdan və hökmdarlıq taxtı onun mələk təbiətli vücudu ilə bəzəndikdən sonra vəkillik işi Div sultan Rumlunun əlinə keçdi. O, Bəlxdən gələrək, Çayan sultan Ustaclunun vəfatından sonra əmirülümərа[366] olmuşdu. Bir il keçdikdə saray əmirlərinin böyüyü və qoşun başçısı olan Köpək sultan Ustaclu adı ilə məşhurlaşan Mustafa sultanla[367] onun arasında vəkillik və səltənət işlərinin idarəsi üstündə münaqişə və çəkişmə üzə çıxdı. Bu əsnada Kuçum xan və Übeyd xanın Xorasana gəlmələri xəbəri orduda yayıldı. Div sultan zamanın məsləhəti və Köpək sultanın razılığı ilə vəkilliyi onun [öhdəsinə] buraxıb, Xorasana getməyi və özbəklərin fitnəsini dəf etməyi bəhanə edərək, o tərəfə yönəldi. Fars və İraqın böyük əmirlərinə Div sultanın başına cəmləşmək və düşmənləri ortadan qaldırmaq barədə itaət olunması vacib fərmanlar yazıldı. O, (yəni Div sultan) Lar yaylağında[368] dayandı. Tezliklə adlı-sanlı əmirlər, xüsusən

---

[366] Əmirülümərа («əmirlər əmiri») - ilk Səfəvilər dövründə qızılbaş tayfa qoşunlarının baş komandanı. Çayan sultan Ustaclu (əsil adı Məhəmməd bəy Süfrəçi Ustaclu) - 1509-1523-cü illərdə əmirülümərа vəzifəsini tutmuşdur. Onun ölümündən şonra oğlu Bayəzid sultan əmirülümərа təyin edilmişdi. Lakin 1524-cü ildə, Şah İsmayılın ölümündən bir qədər öncə Bayəzid sultan Ustaclu da vəfat etmiş və əmirülümərа vəzifəsi Div sultan Rumluya keçmişdi (О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов в XVI веке, с.154,165).

[367] S-129, v.41b; S-297, v.26a. Köpək sultan Ustaclu I Şah İsmayıl dövründə əmirülümərа olmuş Çayan sultanın qardaşı idi. Tehran çapında (s.46) Çayan sultanın adı Xanan sultan yazılmışdır.

[368] Lar yaylağı – Təbəristan (Mazandaran) vilayətinin hüdudunda yerləşir.

İsfahan hakimi Çuxa sultan Təkəlü, Həmədan hakimi[369] Qaraca sultan Təkəlü, Şiraz hakimi Əli sultan və başqaları saysız-hesabsız qoşunla onun başına yığışdılar. O, bütün qoşun böyüklərini xoş rəftarla, ehsan və hədiyyələr verməklə əvvəlkindən daha artıq dərəcədə özünə tabe edərək, vəkillik mənsəbini Köpək sultanın əlindən almaq üçün onlardan kömək istədi, onlarla əhdü-peyman bağladı. Xorasan məsələsi bəxtin gücü və asiman qoşununun əmirlərinin [əli ilə] həll edildiyindən Div sultan böyük qoşun və izdihamla fələyin qulamlıq etdiyi şah ordusuna tərəf yollandı.

Ustaclu əmir və əyanları, xüsusən Qarınca sultan, Köpək sultanı müharibə odu ilə qızışdıraraq, düşmənləri dəf etməyə çağırsalar da, [o, bunu] qəbul etmədi. [Köpək sultan] dedi: «Heyif olsun ki, bir dərgahın mülazimləri və şah həzrətlərinin dostları olan iki böyük qoşun arasında fani dünyanın işləri üstündə çəkişmə və müharibə baş verə bilər». O, Div sultanla razılıq əldə etmək üçün Təbrizdən çıxıb, Türkman kəndinədək[370] onunla görüşə getdi. [Onlar] bir-biri ilə dostcasına görüşdülər, birlikdə ali dərgaha tərəf getdilər. Təbrizin yaxınlığındakı Çərəndabda [onlar] xoşbəxt və şövkətli şaha səcdə etmək şərəfinə çatdılar. [Köpək sultan] vəkillik işini Div sultana buraxdı. Div sultan nifaqa səbəbkar bildiyi Qarınca sultanı və bir neçə nəfəri qətlə yetirdi və Köpək sultanı bütün ustaclu el-obası ilə Gürcüstana müharibəyə göndərərək, saraydan uzaqlaşdırdı. Bununla da kifayətlənməyib, onların (ustacluların) olmadığı zaman təkəlü əmirlərini razı salmaq üçün [ustacluların] tiyullarını[371] ləğv etdi və onları ortadan qaldırmaq istədi. Həqiqətən də, belə [bir] iş dövlət sahibinə və ağsaqqallığa layiq iş deyildi və bu, ona səbəb oldu ki, o tərəfdən də narazılıq və düşmənçilik qapıları açıldı, [ustaclular da] birlik və müttəfiqlik qapılarını bağladılar.

***Ustaclu əmirlərinin təkəlü əmirləri ilə vuruşması.*** 932-ci (18.10.1525 - 07.10.1526) ildə [Köpək sultan] öz tayfası və qoşunu ilə Sultaniyyəyə gəldi. Orada ustacluların başqa əmir və əyanları, xüsusən Məntəşa sultan, Faruq sultan, Xan Məhəmmədin qohumu[372] Qılıc xan və digərləri onun başına yığılaraq, Div sultan və onun tərəfdarlarına qarşı müharibə kəmərini bağladılar. Bu tərəfdən Div sultan və Çuxa sultan barışıq və sülhdən bəhs edərək, Qasım xəlifə Varsağı onlara nəsihət verməyə və onları fələyi bürüyən şah çətirinin kölgəsində duran ordu ilə qarşıdurmadan çəkindirməyə göndərdilər. O, (yəni Qasım xəlifə) fitnə və toqquşma atəşini söndürmək üçün çox çalışdı. [Lakin] onlar Div sultanın sözünə inanmadılar. Onların müharibə etməsi Allahın iradəsindən asılı olduğuna görə onun vasitəçiliyi

[369] S-129, v.42a; S-297, v.26a.
[370] Türkman kəndi – Cənubi Azərbaycanda, Miyanə şəhərindən qərbdə, Təbriz - Zəncan yolu üzərindəki indiki Türkmənçay kəndidir.
[371] Tiyul - Azərbaycan Səfəvilər dövlətində geniş yayılmış şərti torpaq sahibliyi forması. Tiyul, əsasən hərbi əyanlara onların dövlətə göstərdikləri xidmət müqabilində verilirdi (daha ətraflı bax: И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX века. Ленинград, 1949, с.184-221).
[372] S-129, v.42b; S-297, v.26b.

[elçiliyi] heç bir nəticə vermədi. Hər iki tərəf döyüşə hazırlaşdı. Səmimi adamlar bu iki müntəzəm qoşunu müşahidə edərkən ürək qanı və göz yaşı ilə təəssüf edirdilər ki, nə üçün bu hər iki dəstə fələk qüdrətli şahın üzəngisi ətrafında birləşib [ümumi] düşmənlərə qarşı vuruşmurlar?

Sözün qısası, onların arasında böyük bir döyüş oldu. Təkəlü əmirləri ustaclulara məğlub oldular. Burun sultan və Qaraca sultan Təkəlü öldürüldülər. Köpək sultan və Məntəşa sultan, şahın durduğu mərkəz («qol») hissəyə yaxınlaşdıqları zaman onların gözləri günəş kimi qızıla tutulmuş mübarək çətirin asimana ucalan bayrağının ayparasını gördükdə əllərini [bu] işdən çəkib, geri döndülər. Şahın müzəffər üzəngisi həndərəvində olan böyük əmirlər və qorçular Div sultanın əmri ilə onları təqib edərək, böyükdən-kiçikdən bir çoxunu öldürdülər.

Əzilmiş və məğlub olmuş ustaclular Əbhərə[373] çəkilib, oradan Gilana getdilər və Rəşt valisi Müzəffər sultana sığındılar. O, yeddi-səkkiz min piyada [qoşunu] köməyə göndərdi. Ustaclu əmirləri bir daha döyüşmək məqsədi ilə hökmdar ordusuna tərəf yönəldilər. Bu hərəkət şahın xoşuna gəlmədi. [Onun] qiyamət oduna bənzər qəzəbi alovlandı. O, şəxsən onların üzərinə sürətlə hərəkət («ilğar»)[374] etdi. O, Div sultanı, Çuxa sultanı və Məhəmməd xan Zülqədəroğlunu bir dəstə ilə irəli göndərdi. Qalibiyyətli ordunun mənqəlayı Məncil və Xərzanvilə çatan zaman ustaclu əmirləri Gilan meşələrindən çıxdılar və bir daha vuruşma odu alovlandı. Nəhayət, qələbə və zəfər küləyi şah əmirlərinin bayrağına əsdi, gilanlılardan bir çoxu öldürüldü, Köpək sultan, Məntəşa sultan və Qazaq sultan məğlub olub, qaçmağa [üz qoyaraq] böyük çətinliklə Gilana getdilər.

***Badincan sultan Rumlunun öldürülməsi.*** Köpək sultan gecə-gündüz fikirləşirdi ki, Div sultan və Çuxa sultandan necə intiqam alıb, vəkillik işini ələ keçirsin. 933-cü il (08.10.1526 - 26.09.1527) aylarında [ustaclular] yenə də Gilandan çıxaraq, darülirşad Ərdəbilə yönəldilər. Badincan sultan Rumlu doxsan yaşlı bir kişi idi və yaşının çoxluğu və ahıllığı səbəbindən xərifləmişdi. Həmin zaman o, Ərdəbildə idi. Rumlu, çepni[375] və talış tayfalarından üç-dörd min adam toplayıb, vuruş və döyüş məqsədi ilə ustaclu əmirlərinin qabağına çıxdı. Qaradərədə iki tərəf arasında vuruşma baş verdi. Badincan sultan o kiçik qüvvə qarşısında qaçmağa üz qoydu və bu əsnada öldürüldü. Ustaclu əmirləri müzəffərcəsinə və qalibiyyətlə şəhərə daxil oldular. Onlar orada övliyaların sultanı olan həzrətin (Şeyx Səfiəddinin) və Səfəviyyənin böyük şeyxlərinin - Allah onların torpağını müqəddəs etsin - [məzarlarını] ziyarət edib, oradan Təbrizə tərəf yönəldilər. Cəmşid calallı cənnətməkan şah onların gəlməyindən xəbər tutub, Div

---

[373] Əbhər- Cənubi Azərbaycanda, Zəncanla Qəzvin arasında yerləşən şəhər.

[374] «İlğar» - qədim türkcə sözdən yaranmış hərbi termin. Qoşunun müqavimətə rast gəlmədən sürətli hərəkətini bildirir.

[375] S-129, v.43a; S-297, v.27a. Tehran çapında (s.48) «çəkəni» yazılmışdır. Halbuki Bakı əlyazmalarında yazıldığı kimi, burada söhbət kürd əsilli çəkəni tayfasından deyil, türk mənşəli çepni tayfasından gedir.

sultanı, Çuxa sultanı və Məhəmməd xan Zülqədəroğlunu səkkiz min döyüşçü və böyük qorçulardan[376] min nəfərlə onları dəf etməyə göndərdi. Köpək sultan və onun rəfiqləri Div sultanın, şah qorçularının və əmirlərin gəlməsindən xəbər alıb, Çuxursəədə[377] tərəf getdilər. Əmirlər və qoruçular Şərurda onlara çataraq, döyüşə hazır oldular.

Ustaclu əmirləri o gün elə vuruşdular ki, dastanlarda qeyd olunan Samın ruhu onlara afərin dedi. Döyüş və vuruş əsnasında Məhəmməd xan Zülqədər ustaclu qoşununun arxasına keçərək, onlara hücum etdi. Köpək sultan ağır yaralanıb öldü. Çuxa sultan isə təkəlü qoşunu ilə qabaq sıralardan hücuma keçdi. Köpək sultanın ölümündən sonra ustaclu tayfası məğlubiyyətə uğrayaraq, qaçmağa üz qoydu. Məntəşa sultan və Faruq sultan ordu sıralarını yararaq, mərdliklə o mərəkədən canlarını qurtarıb, böyük çətinliklərlə özlərini Gilana çatdırdılar. Zülqədəroğlu [Məhəmməd xan] zülqədər tayfasının ustaclular tərəfindən məğlub edilməsinin, onun atası Kor Şahrux və onun qardaşlarının [ustaclular tərəfindən] Diyarbəkr hadisələri zamanı qətlə yetirilməsinin intiqamını almaq imkanını bu vuruşmada əldən vermədi[378].

Müxtəsər, ustacluların qılıncdan qurtularılan bir müddət Gilanda yaşadıqdan sonra, o biri il - 934-cü ildə (27.09.1527 -14.09.1528) Div sultan Çuxa sultanın təhriki ilə öldürüldü, vəkillik mənsəbi onun (Çuxa sultanın) əlinə keçdi.

936-cı il aylarında (05.09.1529 - 24.08.1530) ustaclu [tayfası] Gilanda üç ilə[379] yaxın qaldıqdan sonra, şahın müzəffər bayraqları ikinci dəfə özbək Übeyd xanın fitnəsini ortadan qaldırmaq məqsədi ilə Xorasana gedərkən, Gilanda olan Məntəşa sultanın atası, Faruq sultan, Qazaq sultan və ustaclunun başqa əyanları səmimiyyət və sədaqətlə fələyə bərabər dərgaha yönəldərək, qılınc və kəfənlə zəmanə şəhriyarının hüzuruna tələsdilər. [Şah Təhmasib] o camaata rəğbət və sayğı göstərmədi, amma onlarla düşmənçilik və münaqişə də etmədi. Onlar da onunla yola gedirdilər.

***Şamlularla təkəlülərin arasında döyüş.*** Çuxa sultan, şahın mübarək ürəyinin razılığını əldə edərək, gündən-günə öz ixtiyar və iqtidarını artırdı. Amma təkəlü tayfası həddindən artıq özbaşınalıq edirdi. Batində onların davranışından şahın ürəyində narazılıq vardı. 937-ci il aylarında (25.08.1530 - 14.08.1531) Hüseyn xan Şamlu Şirazdan gələrək, İsfahanın Kənduman [adlı yerində] səltənət taxtının ətəyində şahın nəvazişlərinə nail oldu. Çuxa sultan ona qarşı fitnə quraraq, onu öldürmək istədi. [Hüseyn xan] təkəlülərin sözləşməsindən xəbərdar olaraq, bir

---

376 Qorçular - türkcə «qorumaq» felindən yaranmışdır. Şahın şəxsi qvardiyasının döyüşçüləri belə adlanırdılar.

377 Çuxursəəd - orta əsrlərdə Azərbaycanın tarixi ərazilərinin şimal-qərb hissəsini təskil edən vilayət. Sələvilər dövründə mərkəzi İrəvan şəhəri olan Çuxursəəd bəylərbəyiliyi mövcud idi.

378 Məhəmməd xan Zülqədəroğlu - Zülqədər bəyliyinin başçısı Əlaüddövlə Zülqədərin nəvəsi, 1508-ci ildə Diyarbəkr bəylərbəyisi Məhəmməd xan Ustaclunun qoşunlarına qarşı döyüşdə öldürülmüş Kor Şahrux Zülqədərin oğlu idi.

379 S-129. v.43b; S-297. v.27b. Tehran çapında (s.48) səhvən 20 il yazılmışdır.

gecə qoşununa cəbbə və yaraq geydirib, Çuxa sultanın çadırının üzərinə gəldi. [Çuxa sultan] təşvişə düşərək, özünü hökmdar divanxanasının çadırına saldı. Mübarək dövlətxanada[380] şamlu və təkəlülər arasında döyüş baş verdi. Keşikdə dayanan zülqədər qorçularından Misir Qoruqlu adlı [birisi] Çuxa sultanı ağır yaralayaraq öldürdü. Təkəlülər onun ölümünü gizli saxlayaraq, müdafiəyə davam etdilər.

Hüseyn xan o qaranlıq gecədə çox çalışdı, amma səhər vaxtı dəstə-dəstə, qoşun-qoşun yetişən təkəlü əmirlərinin hücumu [nəticəsində] məğlubiyyətə uğrayaraq, qaçmağa üz qoydu və məqsədinə çatmamaqdan məyus olub, İsfahana getdi. Bu hadisədə şamlu gənclərindən bir çoxu öldürüldü. Təkəlü əmirləri Çuxa sultanın Şahqubad adlı böyük oğlunu onun yerinə vəkil edib, bütün şamlu, ustaclu, zülqədər və əfşar oymaqları ilə düşmənçilik və intiqam yoluna düşdülər. Çarəsizlikdən, o oymaqların camaatı da onlarla düşmənçilik və ədavətə başladılar. İmamzadə Səhl-Əli - ona Allahın salamı olsun - məzarı yaxınlığında[381] onların arasında müharibə oldu. Təkəlü əmirləri Çuxa sultanın dövründəki kimi iqtidar sahibi olmaq istəyərək, bütünlüklə dövlətxanaya gəldilər ki, cənnətməkan şahı öz aralarına apararaq, düşmənlərini dəf etsinlər. Yenicə dünyanı idarə etməyə başlayan cənnətməkan şah o tayfanın xoşa gəlməyən davranışlarından qəzəblənərək, o başıpozuq və özbaşına hərəkət edənləri aradan qaldırmaq əmrini verdi. Böyük qorçular hökmdar dövlətxanasında onları güllə yağmuruna tutdular. Təkəlülər Cəmşid rütbəli şahın köməyindən ümidlərini üzüb, qaçmağa üz qoydular. Tale onlardan üz çevirdiyinə görə onların dövlətinə zillət tozu qondu. O tayfadan çoxları öldürüldü.

Bu ibrətli əhvalatın tarixi «afət-i təkəluyan»dır («təkəlülərin müsibəti»). Bu hadisədən sonra onları həsrət bürüdü və [onlar] Bağdad tərəfə getdilər. Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü, Qunduz sultanı, Hüseyn sultanı və ədəbsiz təkəlü fitnəkarlarından bir neçəsini öldürərək, onlarm başlarını aləmin pənah olan dərgaha göndərdi. Bu hadisədən sonra o həzrət (Şah Təhmasib) Hüseyn xan Şamlunun adına rəğbət məktubu göndərib, onu [yanına] çağırdı. Ona və Abdulla xan Ustacluya hörmətli qızılbaş tayfalarının əmirəlüməralıq mənsəbi verildi. Onların hər ikisi Süleyman şanlı xaqanın bacısı oğulları idilər. Oymaqlar arasında gedən çəkişmə və dedi-qodu aradan qalxdı. Sədaqətli adamlar mürşidi-kamilin mübarək könlünün razılığını öz istəklərindən üstün tutub, ədəb dairəsində davrandılar. O həzrət (Şah Təhmasib) səltənət və hökmdarlıq işlərini şəxsən ələ alıb, istiqlaliyyət və mütləqiyyət bayrağını göylərə qaldırdı.

---

[380] Dövlətxana – hökumət evi, dövlət sarayı və ya şahın məskunlaşdığı hər hansı bir iqamətgah.

[381] İmamzadə Səhl-Əli məzarı - İranın Ərak şəhərindən 36 km. cənubda yerləşən Astana qəsəbəsindədir (bax: Qızılbaşlar tarixi /"Tarix-e qezelbaşan”/. Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993, s.43).

Amma ən aşağı mərtəbədən yüksək dərəcəyə çatmış Azərbaycan əmirülümərası Ülamə Təkəlü[382] qane olmayıb, Çuxa sultanın yerinə vəkil və səltənətin idarəedicisi («muxtarüssəltənə») olmaq fikrinə düşdü. Bu xam xəyalla o, tayfa və qoşunu ilə hökmdar ordusu tərəfə hərəkət etdi. Cənnətməkan şah onun fitnəkar xəyalından xəbərdar olub, onun üzərinə hücum etdi. Adı çəkilən (Ülamə Təkəlü) o həzrətin əzəmətindən qorxuya düşərək, ildırım və külək sürəti ilə Azərbaycana qaçıb, özünü Van qalasına[383] saldı və [oraya] sığındı. O, orada bu dövlətdən üz çevirərək, Rum padşahı Sultan Süleymandan razılıq alıb, İstanbula getdi. O, orada fitnə-fəsadı təhrik etməyə başladı. Sultan Süleyman dörd dəfə Əcəm diyarına[384] qoşun çəkərək, hədsiz-hesabsız ordu ilə gəldi: ilk dəfə Ülamənin təhriki ilə, ikinci dəfə Qazi xan Təkəlü və [Məhəmməd xan] Zülqədəroğlunun şər və təhriki ilə, üçüncü dəfə Əlqas mirzənin yalan sözləri ilə, dördüncü dəfə isə Ərzurum[385] hakimi İsgəndər paşanın fəsad və fitnəkarlığı nəticəsində. Hər dəfə də Cəmşid calallı cənnətməkan şah qeyb ordusundan və [Allahın] şəksiz mərhəmətlərindən yardım alaraq, möhkəm iradə və qəti tədbirlərlə onun fitnəsinin qabağını aldı. Bu hadisələrin həqiqəti Xorasan əhvalatı yazıldıqdan sonra icmal şəklində bəyan qələmi ilə yazılacaqdır.

## XORASAN HADİSƏLƏRİ VƏ ÖZBƏK XANLARININ SÜLEYMAN ŞANLI XAQANIN VƏFATINDAN SONRA O SEVİNC BƏXŞ EDƏN SƏADƏT NİŞANLI DİYARA GƏLİB-GETMƏLƏRİ HAQQINDA

Bu şirin hekayəti söyləyən [İsgəndər bəy Münşi] bilikli adamların sözləri əsasında belə rəvayət edir ki, Übeyd xan ibn Mahmud sultan ibn Əbülxeyr xan ibn Dövlətşeyx-oğlan, Şeyban ibn Cuci ibn Çingiz xanın nəslindən idi və Şeybək xan ibn Budaq sultan ibn Əbülxeyr xanın həqiqi əmisi oğlu idi[386]. Belə deyilir ki, o, həmişə Xorasan mülkünü və gözəl Herat şəhərini ələ keçirməyin arzusunda olsa da, Süleyman şanlı xaqanın cahangir qılıncının şöləsinin və Şeybək xanın başına gələnlərin qorxusundan Buxara mülkünə qısılıb qalmışdı. Süleyman şanlı xaqanın [vəfatı] hadisəsindən sonra Cəmşid məqamlı cənnətməkan şah həzrətlərinin yaşının azlığı səbəbindən və özbaşına qızılbaş əmirlərinin arasındakı düşmənçilik xəbərlərinin gəlməsi üzündən [Übeyd xan] elə güman etdi ki, İran mülkü sahibsizdir və bir neçə başıpozuğun əlindədir. Buna görə də o, Xorasan mülkü

---

382 Ülamə Təkəlü - əvvəllər Osmanlı ordusunda sipahi olmuş, 1511-ci ildə Şahqulu üsyanında iştirak edərək, Azərbaycana gəlmiş, Səfəvilərin xidmətinə keçmiş, dövlət vəzifələrinə irəli çəkilmiş və Şah Təhmasib zamanında Azərbaycan əmirülümərası təyin olunmuşdu (F.Sümer. Safevi devletinin kuruluşu, s.32, 33,59-60,61). Onun sonrakı taleyi haqqında İsgəndər bəy ətraflı məlumat verir.
383 Van - Türkiyənin şərqində, Van gölündən şərqdə yerləşən şəhər.
384 Əcəm diyarı - Səfəvilər dövləti nəzərdə tutulur.
385 Ərzurum - Türkiyənin şərqində, Ərzincanla Qars arasında, Qarasu çayı kənarında yerləşən şəhər.
386 Əslində isə Übeydulla xan Şeybani xanın qardaşı oğludur (R.Ə.Ağayev. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri, s. 110).

üçün tamah dişlərini qıcıyıb, altı dəfə işğalçılıq əzmi ilə Xorasana qoşun çəkdi. Lakin qulağa qeyb aləmindəki Süruşdan[387] belə bir nida çatdı:

**Beyt**

«Dünyanın toz-torpağa bürünmüşlərinə həqarətlə baxma!
Nə bilirsən, bəlkə, bu tozanağın arxasından bir süvari peyda olcaqdır?!»

[Übeyd xan] bu yürüşlərə baxmayaraq, məqsədinə nail olmadı. Hər dəfə cənnətməkan şah həzrətləri onun fitnəsini dəf etmək üçün hərəkətə gəlib, özünün qələbə ayətli bayraqlarını bir günəş kimi Xorasan mülkünün ərazisi üzərinə qaldıranda o, aradan çıxıb fərar etməyə qərar verirdi. Belə ki, o, dəfələrlə bu hərəkəti təkrar edib özünü sınadı. Hər dəfə [Şah Təhmasibin] cahangir məiyyəti [Xorasanda] olmadıqda [Übeyd xan] o tərəfə üz tutub, qalaları ələ keçirməyə və məmləkəti xaraba qoymağa məşğul oldu. Xülasə, o, qan tökməkdən və fitnə salmaqdan təngə gəlmədi. On iki il[388] ərzində Xorasan mülkünə özbəklər təpik döydülər, zəiflər və təbəələr atların tapdaqları altında məhv oldular və o vilayətin sakinləri onun zülmündən cana gələrək, asudəliyin nə olduğunu bilmədilər.

## ÜBEYD XANIN BİRİNCİ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA

Süleyman şanlı xaqanın qaçılmaz [ölüm] hadisəsinin xəbəri Mavəraünnəhrə çatan ildə Übeyd xan, Çingiziyyə [nəslinin] xanlarını və sultanlarını özünə yardımçı edib, Səmərqənddə səltənət bayraqlarını qaldıran və Çingiziyyə padşahlarının törəsinə uyğun surətdə Mavəraünnəhrin və Türküstanın sikkə və xütbə sahibi olan Kuçum xan ibn Əbülxeyr xanla, ondan başqa, Əbu-Səid sultanla və Daşkənd valisi Sevincək Məhəmməd sultanla ittifaqda qaniçən özbəklərdən ibarət çoxsaylı bir qoşunla Ceyhun [çayından] keçərək, Xorasana gəldi. Sam mirzənin lələsi və Xorasanın bəylərbəyisi olan Durmuş xan Şamlu Heratın bürclərini və qala divarlarını möhkəmləndirib, qalanı müdafiə etməyi qərara aldı və darvazaların mühafizəsinə təcrübəli adamları təyin edib, qalanı müdafiə etmək üçün lazım olan işləri gördü. Özbək sultanları tamam qələbəlik və izdihamla Herata gəlib, şəhəri əhatəyə aldılar və onların hər biri bir tərəfdə mövqe tutdu. Hər gün döyüş baş verdi. Neçə ay tərəflər arasında hərb və savaş atəşi şölələndi. Şamlu qaziləri igidlik və mərdlik nümunələri göstərərək, mühasirə müddətində bir nəfərin belə qalaya yaxın düşməsinə imkan vermədilər.

Bir gün Murad bağında[389] Übeyd xan və Sevincək Məhəmməd sultan bir ziyafət təşkil edib, söhbətləşməyə məşğul idilər. Sefid bağında isə özbək

---

387 Süruş - islamda Allaha çox yaxın olan dörd mələkdən birinin, yəni Həzrət Cəbrayılın ləqəbidir.
388 Bakı əlyazmalarında «on-on iki il» yazılmışdır (S-129, v.45a; S-297, v.28b)
389 Murad bağı - Heratda Sultan Hüseyn Bayqara tərəfindən salınmış bir bağdır.

gözətçiləri yerləşmişdilər. Durmuş xan, şamlu döyüşçülərindən bir dəstəsini o tərəfə göndərdi. Sefid bağında tərəflər arasında böyük bir vuruş baş verdi. Özbək qoşunu məğlub oldu və qazilər Murad bağına getdilər. Bu xəbər Übeyd xana çatdı. Söhbət büsatı dərhal yığışdırıldı. Onlar elə qorxdular ki, Sevincək Məhəmməd sultan yıxılıb suya düşdü, Übeyd xan isə yüz təşviş içində özünü bir yabıya yetirərək, öz əsgərləri ilə qaçıb aradan çıxdı. Sözün qısası, o, mühasirə günlərinin, döyüş və vuruşun uzanmasından kədərləndi, qalanı zəbt etməkdən ümidini üzdü və köç edib, öz diyarına yollandı.

## ÜBEYD XANIN İKİNCİ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA

931-ci ilə müvafiq olan növbəti ildə (29.10.1524 - 17.10.1525) Durmuş xan vəfat etdi. Həmçinin müqəddəs Məşhədin hakimi olan Burun sultan Təkəlü təkəlülərlə ustaclular arasında baş vermiş bir döyüşdə qətlə yetirildi və bu xəbər Məşhədə çatdı. Bu səbəbdən Xorasanın əhvalına pərişanlıq yol tapdı və orada düşmənə müqavimət göstərə biləcək nüfuzlu bir sərdar olmadı. Ulu orduda dərgah əmirləri arasında ziddiyyət və düşmənçilik baş qaldırıb, dava-dalaşa gətirib çıxardı. Bu xəbərlər Mavəraünnəhrə çatdıqda, Xorasan mülkünə məftun olan və heç vəchlə bu sevdadan əl çəkə bilməyən Übeyd xan, ahəngdar təbin nəticəsi olan bu beytlərdə deyildiyi kimi:

**Beyt**

«Yenə canım Xorasan mülkünün həvəsindədir,
Bədənim cansız qalıb, mən can həvəsindəyəm.

Onun şimalı Ruhulla[390] kimi ruh bəxş edəndir, Məgər o da Malan körpüsünün havasına malikdir», fürsəti qənimət sayıb, yenidən o vilayətin fəthi üçün çalışqanlıq kəmərini bağlayaraq, 932-ci ilin aylarında (18.10.1525 - 07.10.1526) Çaharcu[391] bərə körpüsündən keçdi və Mərvə gəldi. Oradan da özbək sultanları və bahadırları ilə müqəddəs və ulu Məşhədə çatıb, o şərəfli şəhəri güclü surətdə mühasirəyə aldı. Burun sultanın ailəsi və köçü şəhərdə idi. Yaxın yerlərdən oraya cəmləşmiş olan qızılbaş qaziləri bir müddət [şəhəri] mühafizə edib qorudular, igidlik və mərdlik nümunələri göstərdilər. Lakin azuqənin azlığı səbəbindən mühasirədəkilərin işi çətinləşdi, aclıq yayıldı və heç bir tərəfdən imdad yeli əsmədi. Übeyd xan o şəhəri istila edib, öz etimadlı əmirlərindən birini o şəhərdə qoyaraq, Astarabada[392] yollandı. O, həmin hüduda çatdıqda Astarabad hakimi Zeynal xan Şamlu döyüş təcrübəsinə malik olan sınaqdan çıxmış bir dəstə

---

[390] Ruhulla - İsa peyğəmbərin ləqəblərindən biridir. Rəvayətə görə, İsa peyğəmbər möcüzə göstərib, nəfəsi ilə ölüləri dirildərmiş. Bu misrada həmin möcüzəyə işarə olunur.
[391] Çaharcu - indiki Türkmənistanın Amudərya çayı sahilindəki Cərco şəhərinin köhnə adı.
[392] Astarabad - İranın şimalında, Xəzər dənizindən 36 km. şərqdə yerləşən şəhər.

şücaətli [əsgərləri] qaravul kimi onların qabağına göndərdi. Qazilərlə onlardan qat-qat çox olan özbək qaravulları arasında böyük bir döyüş baş verdi. Qızılbaş qoşunu düşmən qoşununun qələbəsini müşahidə etdi və «taqət gətirmədiyin şeydən qaçmaq lazımdır» [hədisinə] əsasən, dörd fərsəx döyüşə-döyüşə geri çəkildi.

Zeynal xan və qazilər öz ailələrini və köçlərini götürüb, Rey vilayətinə gəldilər. Übeyd xan Astarabadı öz oğlu Əbdüləziz xana verdi və Bəlx tərəfə yollandı. Özbəklərin tüğyan etməsi və onların Astarabadı istila etməsi [xəbərləri Şah Təhmasibin] uca ordusuna çatdıqda Əxi sultan Təkəlü, Ağzıvar xanın atası Dəmri sultan Şamlu və Şahəli sultan Ustaclu qızılbaş qoşununun bir dəstəsi ilə Zeynal xanın köməyinə göndərildi və onlar Reydə Zeynal xana qoşulub, birlikdə Astarabada sarı üz tutdular. Əbdüləziz xan onlara müqavimət göstərməyə tab gətirməyib, Astarabadı tərk etdi və atasının yanına getdi. Böyük əmirlər şəhərə daxil oldular. Übeyd xanın beyninin qəsrində qeyrət tüstüsü ucaldı və o, Bistam[393] tərəfə qayıtdı. Əxi sultan, Dəmri sultan və Şahəli sultan mənqəlay şəklində Astarabaddan çıxıb, Bistam çəmənində Übeyd xanla üzləşdilər. Qızılbaş qoşunu üç min nəfərə çatmırdı. Özbək qoşunu isə iyirmi mindən artıq idi. Hərçənd o azsaylı dəstənin özbək padşahı ilə vuruşması ağıl qanununa müvafiq deyildi, amma özbəklərin əlləri onların yaxalarına çatdığından, əmirlər vuruşmaqdan savayı çarə tapmayıb, zərurət üzündən döyüş səfləri tərtib etdilər. Tərəflər arasında böyük bir döyüş və şiddətli bir vuruş baş verdi. Həqiqətən, o gün qorxusuz dilavərlər o dəhşətli savaş meydanında elə bir döyüş etdilər ki, zəmanə heyrət barmağını təəccüb dişləri arasına qoydu. Hələ də Bistam döyüşünün çətinliyi özbəklər arasında həm say-seçmə, həm də sadə adamların dillər əzbəridir. Əxi sultan dəfələrlə özünü Übeyd xanın [ordusunun] mərkəzinə vurub, az qaldı ki, onun [ordusunun] mərkəzini darmadağın etsin. Lakin [özbək ordusunun] mərkəz («qol») hissəsindəki bahadırlar oxlardan yaylım atışları etməyə başladılar. Əxi sultan, təkəlü döyüşçülərindən bir çoxları ilə birlikdə ox zərbələri ilə həlak oldu. Übeyd xan zəfər qazandı. Dəmri sultan ələ keçirilib öldürüldü.

Bu xəbəri alan Zeynal xan şəhərdə qala bilməyib, Firuzkuha getdi. Übeyd xan bu dəfə Astarabadı özbəklərin adlı-sanlı əmirlərindən olan Zəmiş bahadıra verib, Herata yollandı və ətrafa və yan-yörəyə pumavullar[394] göndərib, həmin il Quryanda[395] qışlaq etdi. 935-ci ilə (15.09.1528 - 04.09.1529) müvafiq olan növbəti ildə [Übeyd xan] Herat qalası üzərinə getdi. Qardaşı Durmuş xanın ölümündən sonra Herat hakimi olmuş Hüseyn bəy Şamlu qalanı təmir etməklə, bürcləri və divarları möhkəmləndirməklə məşğul olub, qalanı müdafiə etmək üçün lazım olan işləri gördü. Bir müddət tərəflər arasında mərdanə döyüşlər baş verdi. Mühasirə yeddi ay çəkdi. Qalada ərzaq tapılmaz oldu. Hüseyn xan qalada olan bütün

---

393 Bistam (Bəstam) - İranın şimal-şərqində, Elburz dağ silsiləsinin yaxınlığında tarixi şəhər. Hal-hazırda İranın Şahrud şəhristanının Püştbəstam nahiyəsinin inzibati mərkəzidir.

394 Purnavul (yaxud purtavul) – özbək ordusunun kəşfiyyatçı dəstələri.

395 Quryan - indiki Əfqanıstanın şimal-qərbində, Herat şəhərindən qərbdə yerləşən şəhər.

rəiyyətləri, şəhər və bölükat[396] sakinlərini [qaladan] çıxardı. Nəticədə, onların azuqəsi ilə qazilər daha bir neçə gün dolandılar.

Bu əsnada özbəklər arasında Zeynal xanın qətli xəbəri yayıldı. Xəbərdə deyilirdi ki, [Zeynal xan] Damğanda Səbzəvar[397] hakimi Çəkürgə sultanla ittifaqda Zəmiş bahadırın üstünə gəlib, onunla döyüşmüşdür və ilahi qəzavü-qədər üzündən Zəmiş bahadır əvvəlcə məğlub vəziyyətə düşsə də, sonradan qalib gəlmiş, Zeynal xanla Çəkürgə sultan hər ikisi qətlə yetirilmişlər. Übeyd xan bu hadisədən sevindi və fərəhləndi. Elə həmin gün Übeyd xan öz əmirülümərası olan Canvəfa mirzə oğlu Yari bəyin[398] təhriki ilə böyük bir hücum təşkil edərək, hər tərəfdən qala üzərinə həmləyə keçdi. Şamlu bahadırları özbəklərin cəsarətli basqınını qəhrəmancasına dəf edib, onlardan bir çoxlarını qala ətrafında həlak torpağına tökdülər. Yari bəyə tüfəng [gülləsi] dəydi. Məchul bir tüfəngçi onun başını kəsib, Hüseyn xanın yanına gətirdi. Übeyd xan onun ölümü səbəbindən son dərəcə kədərləndi. Onun malik olduğu şadlıq və sevinc qəm-qüssə ilə əvəz olundu. Ona məlum oldu ki, göstərdiyi bütün bu səylərə və cəhdlərə baxmayaraq, Heratı zəbt etmək mümkün olmayacaqdır. Bu arada şahın qələbə ayətli bayraqlarının Xorasan tərəfə gəlişi, Zəmiş bahadırın qələbə ayətli ordunun mənqəlayı ilə döyüşü və Zəmiş bahadırın öldürülməsi xəbərləri ona çatdı. O, çoxlu kədər və sonsuz qüssə içində Malan körpüsündən köç edib, Buxara yolunu tutdu ki, gedib Çingiziyyə xanlarından kömək alaraq, yenidən Xorasan mülkünə çaxnaşma və qarışıqlıq salsın.

## ÜBEYD XANIN ÖZBƏK XANLARI İLƏ BİRLİKDƏ ÜÇÜNCÜ DƏFƏ XORASANA GƏLMƏSİ, ŞAHIN SƏADƏTLİ MƏİYYƏTİNİN ORAYA YOLLANMASI, CAMIN XOSROVCƏRD [ADLI YERİNDƏ] DÖYÜŞÜN BAŞ VERMƏSİ, CƏLAL VƏ KƏRAMƏT SAHİBİ OLAN [ALLAHIN] İMDADI İLƏ HƏZRƏT ŞAHIN ZƏFƏR QAZANMASI HAQQINDA

Qələm, nəğmə oxuyan bülbül kimi, belə bir dastan söyləyir ki, Cəmşid məqamlı cənnətməkan şah həzrətləri özünün əbədiyyət təməlli səltənəti əyyamında bütün din və dövlət işlərini izzətli Rəbbin iradəsinə həvalə edib, ilahinin iltifatlarına arxalanırdı. Bu səbəbdən həmişə onun mətləb və məramları lütfkar Allahın dərgahında qəbul olmuş və döyüş meydanlarında düşmənlər üzərində qələbə qazanmışdır. Onun əbədiyyətə peyvənd olmuş səltənəti zamanının müharibələri arasında o həzrətin səadətli hakimiyyət dövrünün əvvəlində onunla Übeyd xan və özbək xanları arasında baş vermiş və onun zəfər və qələbə əldə

[396] Bölükat - şəhərətrafı ərazilər.

[397] Səbzəvar - İranda şəhər. Xorasanda, Nişapur şəhərindən 106 km. Qərbdə yerləşir. Beyhak nahiyəsinin inzibati mərkəzidir.

[398] Bakı nüsxələrində Bari bəy yazılmışdır (S-129, v.46b; S-297, v.29b).

etməsi ilə sona çatmış Cam[399] vuruşması aləmdə məşhurdur və Adəm övladlarının dillərində və ağızlarında əzbərdir. Bu mövzunun qısa şərhi ondan ibarətdir ki, bir-birinin ardınca və dalbadal Xorasan qasidləri səadət nişanlı dərgaha gəlib, o diyarda bəla tufanının yüksəyə qalxdığını və özbəklərin fitnə selinin tüğyan etməsi ucbatından o məmləkətin sakinlərinin iztirab dənizinə qərq olduqlarını bildirirdilər. Buna görə də Cəmşid rütbəli şah həzrətləri əmirlər və dövlət ərkanı ilə birlikdə bu məsələni götür-qoy etdi. Hamının rəyi bu oldu ki, Xorasana hərəkət etmək və özbəkləri dəf etmək lazımdır.

Qüdrətli qoşunlar zəfər nişanlı məiyyətdə cəmləşdilər və cahangir bayraqlar Xorasana tərəf hərəkətə gəldilər. Vəkil Çuxa sultan, Ülamə sultan Təkəlü və Məhəmməd xan Zülqədəroğlu müzəffər qazilərin bir dəstəsi ilə ordunun mənqəlayı olub, qabaqcadan yola düşdülər. Zəmiş bahadır Damğan qalasına sığındı. Böyük əmirlər qalanı mühasirəyə aldılar və özbəkləri tüfəng atəşinə tutdular. Hər gün [Özbəklərin] döyüş meydanı bahadırlarından bir dəstəsi gəlib, qazilərlə hərb edirdilər. Neçə gün tərəflər arasında savaş və döyüş atəşi alovlandı. Nəhayət, adlı-sanlı [özbək] bahadırlarından bir çoxları tüfəng atəşləri və qantökən qılınc zərbələri ilə məhv edildi. Mühasirədəkilərin işi çətinə düşdü. Şahın məiyyətinin gəlib çatmasının yaxın olması xəbəri də onları qorxuya saldı. Onlar hər tərəfdən xilas və nicat yolunu bağlı görüb, fərar yolunu axtardılar. Bir gecə Zəmiş bahadır bir neçə nəfərlə fərar etmək məqsədi ilə bellərinə ip bağlayıb qaladan çıxdılar. Qazilər və qala ətrafındakı [qızılbaş] gözətçiləri bundan xəbərdar olub, onların hamısını dustaq etdilər. Elə həmin an onlar [ölümlə] cəzalandırıldılar. Ertəsi gün qala bir həmlədəcə fəth olundu. Bütün özbəklər qazilərin qılınclarına yem oldular.

Dünyanın şərəfli hökmdarı [Şah Təhmasibin] günəşə bənzər bayraqları dəniz kimi coşan, dərya kimi dalğalanan qoşunla Kalpuş yolundan müqəddəs və ulu Məşhədə çatıb, cinlərin və insanların imamı olan həzrətin mələikələrin sakin olduqları astanasını ziyarət etmək şərəfinə nail oldular, o rövzənin sultanı olan İmam Rzanın - ona salam və dua olsun - ruhundan imdad istədilər və darüssəltənə Herata getmək əzmi ilə müzəffər bayraqlar Cam tərəfə qaldırıldı.

Amma Übeyd xan [yuxarıda] qeyd olunan tərzdə Heratdan köç edib Buxaraya çatdıqda Kuçum xandan və Çingiziyyə nəslindən olan sultanlardan kömək aldı, Mavəraünnəhrin, Türküstanın, Əxsinin, Əndicanın, Otrarın, Qəlmaqın, Kaşğarın, Qırğızın və Qazax[ıstan]ın bütün vilayətlərindən, ta Dəşti-Qıpçağa[400]

---

[399] Cam - İranın tarixi Kuhistan vilayətinin şimal-şərq hissəsində yerləşən şəhər.

[400] Əxsi (Axsi) - indiki Özbəkistanın şərqində, Fərqanə vadisində, Nəmənqan şəhərindən cənub-qərb tərəfdə, Kasançayın Sırdəryaya töküldüyü yerin yaxınlığında tarixi şəhər. Otrar - Orta Asiyada tarixi şəhər olmuşdur və xarabalıqları müasir Qazaxıstan Respublikasının Timur dəmir yolu stansiyasından 7 km. şimal-şərqdə, Sırdərya çayının orta axarında yerləşir. Qəlmaq - kalmıklar nəzərdə tutulur. Kaşğar - qədim türk şəhəridir və hal-hazırda Çin Xalq Respublikasının qərbində, Sintzyan-Uyğur Muxtar vilayətinin tərkibində, Kaşğar çayı sahilində yerləşir. Əndican - indiki Özbəkistan Respublikasının şərq qurtaracağında, Fərqanə vadisinin cənub-şərq hissəsində, Əndicançay sahilində şəhər. Dəşti-Qıpçaq - orta əsrlərdə Dunay çayının mənsəbindən və Qara dənizin şimal sahillərindən başlamış, İrtış çayına və

kimi ərazilərdən çoxsaylı bir qoşun və dağ kimi əzəmətli bir ordu topladı və Kuçum xanla, Yaraq xanla, Fulad sultanla, Əbdüləziz sultanla, Əbdüllətif sultanla, Canibəy sultanla, Gəldi Məhəmməd sultanla, Əbu-Səid sultanla, Sevincək Məhəmməd sultanla, Gəskən Qara sultanla və s. özbək sərdarları və hər qəbilənin mötəbər əmirləri ilə birlikdə dəmir və polad kimi ürəklərə malik döyüşçülərdən ibarət olan, coşğun bir dənizə bənzəyən qoşunlarla Xorasana doğru üz tutdu.

**[Şeir]**

«Hamısı canavardan törəmiş, yırtıcı xasiyyətlidir,
Ağılları isə bir tük qədərdir.
Onların rəftarından betərdir onların xasiyyətləri,
Hamısının üzü-gözü qaşqabaqlıdır.»

Xülasə, Çingiz xanın meydana çıxmasının əvvəlindən ta o vaxtadək bu qədər çoxsaylı və izdihamlı bir qoşun Amudərya çayını keçməmişdi.

Şahın bəxtəvər ordusu Camın Xosrovcərd [adlı yerində] səadətlə gəlib dayandı. Özbək xanları da o tərəfdən gəlib, Zurabada çatdılar. Qızılbaş qoşununun qaravulları bir neçə nəfər özbəyi tutub gətirdilər və özbək sultanlarının cəmləşməsi, onların saysız-hesabsız qoşununun keyfiyyət və kəmiyyəti barədə həqiqət məlum oldu. [Özbək ordusunun] etimada qabil olan sayı heç bir əsərdə bu həqirin (İsgəndər bəy Münşinin) nəzərinə çatmayıbdır. «Lübbüt-təvarix» əsərinin müəllifi Mir Yəhya Seyfi [həmin döyüşdə özbəklərin sayını] yüz iyirmi min[401] yazıb. Amma camaat arasında məşhurdur ki, özbək qoşununda purnavullardan və ələmançılardan[402] savayı, səksən min işə yarayan bahadır olubdur. Qızılbaş ordusunda isə «xurcunçu»lardan savayı, məvacib alan süvarilərin sayı iyirmi dörd min nəfər idi.

***Şah Təhmasibin özbək padşahı Übeyd xanla döyüşü haqqında.*** Sözün qısası, məhərrəmül-həram ayının 9-cu günü olan tasua günündə, 935-ci ildə (23 sentyabr 1528) özbək sultanları Camın Sarıqamış [adlı yerində] şahın asiman ehtişamlı ordusunun yaxınlığına gəldilər. Gecə vaxtı tərəflər bir-birinə qarşı gözətçilik etdilər. Aşura[403] gününün (24 sentyabr) sübhündə hər iki tərəf səflərin

---

Balxaş gölünə qədər uzanan və cənubda Xarəzm vilayəti və Sırdəryanın aşağı axarları ilə həmsərhəd olan tarixi vilayət.

[401] S-129, v.47b-də 108 min yazılmışdır. Lakin, əslində Tehran nəşrində (s.54) olduğu kimi, «Lübbüt-təvarix»də 120 min rəqəmi göstərilmişdir (Mir Yəhya Qəzvini. Lübbüt-təvarix. Rusiya EA Şərqşünaslıq İnstitutunun V-660 saylı əlyazma nüsxəsi, vər.l72b).

[402] Ələmançı - özbək ordusunun yardımçı dəstələri.

[403] Aşura - ərəbcə «onuncu gün» deməkdir. Hicri-qəməri tarixi ilə 61-ci ilin məhərrəm ayının 10-da (10 oktyabr 680-ci ildə) İraqın Kərbəla çölündə şiələrin üçüncü imamı İmam Hüseyn özünün 72 tərəfdarı ilə birlikdə şəhid edildiyi üçün şiə müsəlmanların həmin hadisənin ildönümü münasibətilə hər il məhərrəm ayının 10-da təşkil etdikləri matəm mərasimi «Aşura» adlanır.

tərtib edilməsinə məşğul oldu. Qızılbaş əmirlərinin böyüyü olan vəkil Çuxa sultan Təkəlü, Ülamə sultan Təkəlü, Hüseyn xan Şamlu, Şiraz hakimi Həmzə sultan Xamuslu[404] Zülqədər, Məhəmməd xan Zülqədəroğlu, Əhməd sultan Ustaclu, Yaqub sultan Qacar, o vaxt hələ «sultan» [rütbəsinə malik] olan[405] Məhəmməd xan Şərəfəddin oğlu Təkəlü, Həsən[406] sultan Rumlu, Əhməd sultan Əfşar və s. əmirlər və böyük qorçular bu döyüşdə iştirak edirdilər. Cənnətməkan şah həzrətləri zəfər dəbilqəsi başında, fəth zirehi və xəftanı əynində, mükəmməl və müsəlləh vəziyyətdə, qalibiyyətli qorçularla birlikdə mərkəzdə qərar və aram tutmuşdu. Qoşunun sağ və sol cinahlarına («meymənə» və «meysərə»)[407] adlı-sanlı əmirlər və bacarıqlı şəxslər təyin olunmuşdu. Ustad Şeyxi bəy Topçubaşının məsləhəti ilə Firəng zərbzənlərinin yükləndiyi arabalar səfin qarşısında yerləşdirilmişdi. Beləliklə, [Şah Təhmasib] dünya qədər təvəkkül və qeybdən gələn imdad qoşunu ilə döyüş meydanına üz tutub, o qaniçən [özbək] ordusunun bərabərində qərar tutdu. Hər iki tərəfdən kurkə[408], şeypur və gərənay sədaları səmanın günbəzinə yüksəldi. Bayraqlar dalğalandırıldı, zurnalar çalındı. Hər iki tərəfdən cavanlar döyüşə atılıb, bir-birinə hücum çəkdilər. Bu tərəfdən qızılbaş dilavərləri koramal ilana oxşayan nizələri ilə öz ərəb cinsli, odlu-alovlu təbiətli atlarının üzərindən yaramaz özbəkləri həlak torpağına tökdülər. O tərəfdən də özbək bahadırları qalibiyyətli [qızılbaş] ordusunu od saçan meteor kimi ox yağışına tutub, ürəkdeşən iti oxlarla dəbilqələri igidlərin başlarına tikirdilər. Hər iki qoşunun mübarizləri igidlik və mərdanəlik göstərirdilər. Öldürülənlərin çoxluğundan dağ və çöl bərabər olmuşdu.

**Nəzm**

«Bir tərəfdən şöhrətli döyüşçülər,
Digər tərəfdən kin-küdurətli özbəklər.
Bir tərəfdən dəmir donlu igidlər,
Digər tərəfdən fırıldaqçı özbəklər.
Az-çox savaşda sınanmış igidlər,

---

[404] Xamuslu və ya camuslu - zülqədər tayfasına daxil olan obalardan biridir (bax: F.Sümer. Safevi devletinin kuruluşu, s.181).
[405] Səfəvi ordusunun əmirləri xan, sultan və bəy rütbələri daşıyırdılar. Xan rütbəsi sultandan, sultan rütbəsi isə bəydən üstün hesab olunurdu. Bundan əlavə, həmin dövrlərdə bir sıra hallarda şah ailəsinin nümayəndələrinin, hətta qadınların da adlarına sultan titulu artırırdılar. Lakin bu zaman sultan istilası hərbi rütbəni deyil, şah ailəsinə mənsubluğu ifadə edirdi. (Ş. F.Fərzəliyev. XV-XVI əsrlərdə Azərbaycanda işlədilən bəzi ad, ləqəb və titulların etimologiyası haqqında // Azərb. SSR EA, Xəbərlər, tarix, fəlsəfə və hüquq seriyası, 1977, № 3, s. 82-83).
[406] S-129 nüsxəsində (v.48a) Hüseyn yazılmışdır. Lakin istər Tehran çapında (s.54), istərsə də S-297 nüsxəsində (v. 30b) bu əmirin adı Həsən deyə qeyd olunmuşdur.
[407] Orta əsr müsəlman şərqinin hərbi terminologiyasında sağ cinah ərəbcə "meymənə", sol cinah isə "meysərə" adlanırdı.
[408] Kurkə - böyük təbil deməkdir, zərb musiqisi alətlərindəndir. Bu söz əski türk kəlməsidir və əslində "kurka" kimi səslənir (Məhəmməd Müin. Fərhəng-e farsi, III c., Tehran, 1345, s. 3121).

Qəzəb və kinlə bir-birilərinə həmlə etdilər.
O qədər çox adam öldürüldü ki, təpələr yarandı,
Buna bənzər bir gün hələ dünya görməmişdi.
Torpaq pəhləvanların qanından laləzar oldu,
Bu zülmü görən fələk dedi: ay aman!»

Xülasə, o iki savaşçı kütlə arasında elə bir hərb baş verdi ki, fələyin sipəhsaları qantökən qılıncı əlindən buraxıb, heyrət barmağını rəhm dişlərinin arasına qoydu. Dövranın gözü o şiddətdə bir müharibə müşahidə etməmiş və iranlılarla turanlılar arasında buna bənzər digər bir hadisə baş verməmişdi[409]. Süvarilərin çapma-qovmasından elə bir tozanaq qalxmışdı ki, dünyanı işıqlandıran günəş hicab və niqab içində görünməz olmuşdu.

Qızılbaş qoşununun sarsılması və qoşunun sağ və sol cinahlarının məğlubiyyətə uğraması. Qızılbaş ordusunun əhvalında zəiflik və sınıqlıq əlamətləri meydana gəldi. Bu əsnada özbək sultanları Çuxa sultana, təkəlü və şamlu əmirlərinə və qızılbaş ordusunun sağ cinahındakı digər adlı-sanlı simalara hücum edib, onları məğlubiyyətə uğratdı. Sol cinah əmirləri də sarsıntıya məruz qalıb, düşmən qoşununun ardıcıl həmlələri qarşısında dura bilməyərək, qaçmağa başladılar. Özbək ordusu qızılbaş qoşununun qaçanlarını təqib etmək üçün hərəkətə gəlib, həmin çöldə və səhrada ziyanverici qarışqalar və çəyirtkələr kimi, könüllərin tarlasına zərər vurmağa başladılar. Necə ki, şair deyib:

**Şeir**

«Çəyirtkə tək oxla dolanda hava,
Həyat tarlasına səpildi bəla».

Cəmşid məqamlı cənnətməkan şah həzrətləri röya aləmində müşahidə etmişdi ki, əlahəzrət məsum imamlar - onlara salam olsun - o həzrətə bu döyüşdə qalib gələcəyinə dair müjdə vermişlər. O həzrət qətiyyətinin kamilliyi, etiqadının gözəlliyi, rəşadət, şücaət və cəsarətinin çoxluğu üzündən öz dayandığı yerdən tərpənmədi və onun mübarək simasında əsla sarsıntı əlamətləri görünmədi. Onun yanında üç min nəfər döyüşkən mübariz var idi.

**Nəzm**

«Hamısı akula (köpəkbalığı) kimi dəlisov kişilər,
Hamısı fələk sütunu kimi öz yerində möhkəm».

---

[409] Burada iranlılar və turanlılar deyilərkən etnik deyil, coğrafi prinsip əsas alınmışdır. Müəllif iranlılar adı altında İranda məskunlaşmış qızılbaş türkləri, turanlılar adı altında isə Orta Asiyadakı özbəkləri nəzərdə tutmuşdur.

O, həmin üç min nəfərlə birlikdə mərdlik fəzasının qütbü kimi mətinlik və vüqar ayağını möhkəm saxlayıb, öz məkanında aramla dayanmışdı və izzətli Allah öz əzəli inayəti sayəsində sanki o azsaylı dəstəni düşmənin nəzərindən gizlədib qoruyurdu. Bir qədər keçdikdən sonra tozanaq bir az yatdı və cənnətməkan şahın nəzərinə döyüş meydanında çoxsaylı bir dəstənin arasında ucalan ağ bayraq sataşdı. O həzrətə məlum oldu ki, o bayrağın yanında duranlar Übeyd xanla Kuçum xandır və onlar öz şəxsi («xassə») qoşunları ilə mərkəzdə mövqe tutublar. Qızılbaşları təqib etməkdən qayıdan dəstə-dəstə özbək bahadırları sözügedən xanlara qələbə təbrikini verirdilər. Übeyd xan onlardan soruşdu:

- Uzaqdan bir dəstə qoşun görünür və bir müddətdir ki, yerində qalıb. Deyəsən, qızılbaş ordusunun qalıqlarıdır.

O, bir neçə nəfərə əmr etdi ki, gedib oradan bir xəbər gətirsinlər. Lakin özbək camaatı ona dedi:

- Qızılbaş qoşununun halına elə bir məğlubiyyət və pərişanlıq üz verib ki, bu səhrada onlardan bir nişan qalmayıbdır. O gördüyünüz isə qızılbaş ordusunun dördayaqlılarının (heyvanlarının) qaraltısıdır.

Beləliklə, onların bəsirət gözü o qaraltını müşahidə etməyə bağlı qaldı.

***Qızılbaş şahının mərdanə həmləsi.*** Bu halda cənnətməkan şah özü ilə birlikdə o məkanda dayanmış olan səadət ölkəsinin döyüşçülərinə əmr etdi ki, mərdanəliklə [özbək] qoşununun üzərinə həmlə edib, ta ağ bayrağın yanına çatıncayadək sürətlə gedən atlarının yüyənlərini geri dartmasınlar, iti qılıncdan və qantökən şəmşirdən savayı, heç bir silaha əl atmasınlar və hər kimə bir yara vurdularsa, onun işini bitirmədən digər birisinin üzərinə həmlə etsinlər ki, məğlub olub qaçmaq - ar və utancdır, mərdliklə ölmək isə - dövranda yaxşı ad-san qazanmaq deməkdir.

**Beyt**

«Ya murad ilə fələyin üzərinə ayaq qoyarıq,
Ya da ki, mərdliklə qeyrət naminə baş qoyarıq».

Canlarını qurban edən o əqidəli dəstənin sırasından əvvəlcə şamlu və zülqədər qorçuları mürşidi-kamilin əmrini canü-dildən qəbul edib, misri qılıncları sıyırdılar, geniş ətəkli qalxanları başlarına qaldırdılar və bu dürüst əzmlə və doğru düşüncə ilə Allaha təvəkkül edərək, sağ cinahdan hücuma keçdilər. Bunun ardınca sol cinah da tez hərəkətə başlayıb, qeyb aləmi qoşununun yardımı ilə hamısı fədaicəsinə o qəddar qoşunun və qaniçən özbəklərin üzərinə cumdular. Üç min ədəd ildırım qüvvətli qılınc birdən sıyrıldı. Hər kimə bir yara vurdularsa, mürşidi-kamilin göstərişinə əməl edərək, ondan əl çəkib, bir başqasının işini həll etməyə məşğul oldular. Sayı xeyli çox olan özbək qoşununun əksəri qazilərin almaz kimi

[iti və parlaq] qılınclarının dalbadal zərbələrindən yaralı və iqtidarsız hala salınaraq, müdafiə olunmaq fürsəti tapmadılar. [Özbəklərin] mərkəzi alt-üst oldu. Onlar bir-birlərindən ayrı düşdülər. Kuçum xanla Übeyd xan elə bir qorxuya qapıldılar ki, fərar etməkdən savayı çarə görmədilər. Beləliklə, bir igidcəsinə həmlə nəticəsində, canını qurban edən fədailər o saysız-hesabsız qoşunu məğlubiyyətə uğratdılar.

***Qızılbaş ordusunun qələbəsi və özbəklərin məğlubiyyəti.*** Binatün-nəş[410] kimi təfriqə düşmüş pərakəndə qızılbaş qoşunları məyusluq və ümidsizlikdən sonra fəthə və zəfərə ümidvar olub, Yeddiqardaş («Sürəyya») ulduzları kimi bir yerə cəmləşdilər. Özbək sultanları elə bir qələbədən sonra belə bir məğlubiyyətlə üzləşib, istər-istəməz, səy və çalışqanlıq qədəmi ilə qaçış yolunu tutdular. Deyirlər ki, böyük qorçulardan biri Übeyd xana çatıb, onun belinə bir zərbə vurdu. Lakin [Übeyd xan] həmin zərbədən özünü itirdiyi və həqir cüssəyə malik olduğu üçün [qorçu] onu tutmağa rəğbət göstərməyib. ondan əl çəkdi ki, ondan daha yaxşısını ələ keçirsin. Bəziləri isə deyirlər ki, [həmin qorçu] onun dəbilqəsinə toppuz vurmuş, həmin zərbədən onun qulaqlarında qüsur yaranmış və həmin hadisədən sonra camaat arasında «Kar Übeyd» [adı] ilə məşhurlaşmışdı.

[Übeyd xan] Mavəraünnəhrin və Daşkəndin üləmalarından[411] qırx nəfərini özü ilə gətirmişdi ki, onun bayrağı altında durub, [özbəklərin] zəfər və qələbəsi üçün dua etsinlər. Lakin haqq onların tərəfində olmadığı üçün onların duaları qəbul edilmədi və onların hamısı bayrağın altında öldürüldülər. Sözün qısası, Kuçum xan və Übeyd xan yüz təşviş və üzgünlüklə o qaniçən burulğandan salamatlıqla canlarını qurtardılar. Bir göz qırpımında o şər dəstəsindən iyirmi min nəfər şimşək kimi təsir edən qılıncların şöləsi ilə yandırıldı və «onları tutduğunuz yerdə öldürün» [ayəsinə][412] müvafiq olaraq o alçaqlar qətlə yetirildi.

Cənnətməkan şah həzrətlərinin dilindən deyilib ki, o həzrətlə birgə özbəklərin mərkəzinə həmlə etmiş üç min nəfərlik dəstədən min yeddi yüz nəfəri qorçular, qalanları isə əmirlərin qoşunları idilər. Canibəy sultan öz tabeçilərindən və özbək qoşunundan bir çoxları ilə birlikdə qızılbaş qoşunundan qaçanları təqib etməkdən axşam vaxtı qayıdıb, qızılbaş ordusunun çıraqlarını Übeyd xanın ordusu hesab edərək, şah ordusunun arxasında yerbəyer oldu. Səhərisi günün, yəni məhərrəmül-həram ayının 11-ci gününün (25 sentyabr 1528) sübh çağında [qızılbaşlar] onların qaraltısını gördülər. Aydın oldu ki, onların hamısı yağmaçılıq məqsədi ilə süvar olmuş özbək qoşunudurlar. Cənnətməkan şah atlanıb, bədbəxtlərin üzərinə getdi. Çuxa sultan mane olmaq istəyib dedi:

---

[410] Binatün-nəş - Böyük və Kiçik Ayı bürclərinin ulduzları. Klassik Şərq ədəbiyyatında bir sıra hallarda dağınıqlıq, pərakəndəlik rəmzi kimi işlədilmişdir.

[411] Tehran çapında (s.56) «üzəma» («böyüklər») yazılsa da, Bakı nüsxələrində «üləma» (din alimləri, din xadimləri) qeyd olunmuşdur (S-129, v.49a; S-297, v.31b). Fikrimizcə, burada «üləma» sözünün işlədilməsi daha çox yerinə düşür. Çünki mətndən göründüyü kimi, Übeyd xan bu şəxsləri döyüş meydanında dua oxumaq üçün gətirmişdi. Dua oxumaq isə din xadimlərinin, üləmanın işidir.

[412] Qurani-Kərim», «Nisa» surəsi, 89-cu ayə.

- Qızılbaş qoşunu pərakəndə olduğuna görə getmək məsləhət deyildir. Məbada, bir xətər dəyə bilər.

Lakin həzrət igidliyinin və qəhrəmanlığının çoxluğu üzündən o aqilanə sözü nəzərə almadı, o alçaqların üzərinə hücum etdi və bir igidcəsinə həmlə ilə o dəstənin işini bitirdi. O [özbək] dəstəsindən çoxları qazilərin qılınclarına yem oldular. Canibəy sultan bir qədər sabitqədəmlik etdi. Onun adamları mərdliklə döyüşdülər. Lakin axırda fərar yolunu tutdular. Yüksək bəxtin və uca səadətin qüvvəti ilə zavalsız dövlətin başçılarına keçmiş zamanlarda az-az görünmüş bir qələbə nəsib oldu. Xoşbəxt [qızılbaş] qoşununun hər nəfəri bərabərində on nəfərə malik olan saysız-hesabsız zəlalət qoşunu məğlub olaraq, talesizlik diyarına üz qoydu və həqiqətlə dolu olan «sizin səbirli iyirmi adamınız onların iki yüz adamını məğlub edər» [ayəsinin][413] məzmunu baş verdi. [Şah Təhmasib] Allaha şükür etməyə məşğul olub, məmləkətlərinin müxtəlif tərəflərinə və səmtlərinə fəthnamələr göndərdi və Xorasan məsələlərinə intizam verdi. Bu döyüşdə Hüseyn xan Şamlu mərdanəliklər göstərdiyi üçün Herat əyalətinin hakimliyi əvvəlki qaydada ona tapşırıldı. [Şah] hərəkət yüyənini İraqi-Ərəbə tərəf döndərdi. Zülfüqar xan Türkman Bağdadda yağı olduğu üçün hökmdar İraqi-Ərəbə getməli oldu.[414] Bu [hadisənin] şərhi [irəlidə] qələmə alınacaqdır.

## ÜBEYD XANIN DÖRDÜNCÜ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA

Übeyd xan şahın müzəffər məiyyətinin geri qayıtmasından agah olduqda, 935-ci ilə müvafiq olan həmin ildə (15.09.1528 -04.09.1529) Buxaranın ətrafından və yan-yörəsindən hədsiz-hesabsız qoşun toplayıb, yenidən Xorasana gəldi. O, Sevincək Məhəmməd sultanı və öz oğlu Əbdüləziz sultanı qabaqcadan müqəddəs və ulu Məşhədə göndərdi. Qızılbaş əmirlərindən o vaxt hələ «sultan» [rütbəsinə malik] olan Ağzıvar xan Şamlu, Əhməd sultan Əfşar və Yaqub sultan Qacar müqəddəs Məşhəddə idilər. Məşhədin qala divarları hələ tam hazır olmadığından şəhəri küçəbənd (barrikada) edib, müdafiəyə məşğul oldular və iki ay ərzində tərəflər arasında hərb atəşi alovlandı. Übeyd xan özü də Mavəraünnəhrin Bəhram kimi qəhredici ordusu ilə şəhər ətrafına gəlib, hücuma keçdi və kücəbəndlər üstündə gərgin döyüş baş verdi. Lakin qızılbaşlar daha artıq müqavimət göstərməyə və hərb etməyə tab gətirməyib, döyüşü davam etdirməyi məsləhət bilmədilər və bir gecə Məşhəddən çıxdılar. Əhməd sultan öz ölkəsi olan Fəraha[415] getdi və Fərah qalasını möhkəmləndirib oturdu. Ağzıvar xanla Yaqub sultan isə hər ikisi Məzinan tərəfə getdilər.

Sübh vaxtı özbəklər qızılbaşların getməyindən agah olub, onları təqib etməyə tələsdilər. Amma əmirlərə çata bilmədilər. Übeyd xan Məşhədi öz etimadlı

[413]«Qurani-Kərim», «Ənfal» surəsi, 65-ci ayə.
[414] S-129, v.50a; S-297, v.32a.
[415] Fərah - müasir Əfqanıstanın qərbində, Fərəhrud çayı sahilində yerləşən şəhər.

əmirlərindən birinə tapşırıb, Herata yollandı və şəhəri mühasirəyə aldı. Lakin bundan öncə, elə həmin il Hüseyn xan və şamlu qaziləri qalanı müdafiə etməyə qalxmış, şəhər uğrunda neçə ay ərzində tərəflər arasında hərb və döyüş atəşi alışmış və şəhər ətrafında («bölükat») taxıl az tapılan, bəlkə də, tapılmaz olmuşdu. Buna görə də Hüseyn xan və şamlu ağsaqqalları azuqənin çatışmazlığı və qalanı müdafiə etmək üçün ləvazimatların olmaması üzündən [şəhəri] tərk edib getməyi məsləhət bildilər. Ortaya sülh söhbəti atıldı. Aralıqda səfirlər gedib-gəldilər. Qərara alındı ki, Übeyd xan [şəhərdən] bir neçə köç mənzili kənarda dayansın ki, qızılbaşlar öz uşaqları, arvadları, yükləri və əşyaları ilə [şəhərdən] çıxıb getsinlər və özbək sultanlarından heç birisi onları təqib etməsin. Übeyd xan sülhə rəğbətlənərək, bir neçə köç mənzili geri çəkildi. Əhdü-peyman möhkəmləndikdən sonra Hüseyn xan bütün qazilərlə və şiə məzhəbli sakinlərlə birlikdə sağ-salamat [şəhərdən] çıxıb, Sistan[416] tərəfə getdi. Sistan valisi Məlik Mahmud onlara insani iltifatlar göstərdi. Hüseyn xan yağı və yolkəsən olan Püştzərrə [camaatı] üzərinə gedib, onların mallarını qarət etdi və oradan da Kic və Məkran[417] vilayətinə gedib, çoxlu taxtü-tarac etdi. Daha sonra isə oradan Şiraza gəldi. Onun əhvalatının davamının şərhi tezliklə zərif yazan qələmlə qeyd olunacaqdır. Sözün qısası, Übeyd xan Xorasan mülkünün hamısını istila edib, yenidən zülm və tüğyan bayraqlarını o mülkdə qaldırdı. Özbək qoşunu Xorasan əhlinə qarşı çoxlu zülmkarlıq və sitəmkarlıqlar etdi. Sünni olduqları yəqin olan xeyli adamları mal-dövlət tamahı üzündən rafizilik[418] və şiəlik bəhanəsi altında qətlə yetirdilər. Öldürülənlərdən biri də məzlum şair Mövlana Hilalidir. Onu Heratın «Çaharsuq»unda[419] qətlə yetirmişdilər. Onun qətlinin bəhanəsi bu idi ki, Übeyd xana çatdırmışdılar ki, guya cənab Mövlana [Hilali] [Übeyd] xanı həcv[420] edibdir və bu rübaini onun yazdığını bildirmişdilər:

**Beyt**

«Neçə vaxtdır ki, ey Übeyd, talançılıqla məşğulsan,

---

[416] Sistan - Xorasandan cənubda yerləşən tarixi vilayət. Hal-hazırda tarixi Sistan vilayətinin bir hissəsi mərkəzi Zabul (Zabil) olmaqla İranın tərkibinə daxildir. Digər hissəsi isə Əfqanıstanın Nimruz əyalətini təşkil edir və mərkəzi Zərənc şəhəridir (Малик Шах-Хусайн Систани. Хроника воскрешения царей / Тарих-и ихйа ал-мулук/. Перевел с персидского: Л.П.Смирнова. Москва, 2000, предисловие, прим.1).

[417] Kic və Məkran vilayəti - Sistan vilayətindən cənuba doğru, Ərəbistan dənizi sahilində yerləşən tarixi vilayət. Əslində vilayətin adı Məkran idi, Kic isə onun paytaxt şəhəri idi. Hal-hazırda tarixi Məkran vilayətinin qərb hissəsi İrana aiddir, Kic şəhəri də daxil olmaqla şərq hissəsi isə Pakistanın tərkibinə daxildir (Малик Шах-Хусайн Систани. Хроника воскрешения царей, прим. 72).

[418] Rafizi - inkar edən, dindən çıxan deməkdir. Sünnilər şiələri həqarətlə «rafizi» adlandırırdılar.

[419] Çaharsuq (farsca «dörd bazar» deməkdir) - dörd bir tərəfində alış-veriş işlərinin getdiyi və əhalinin gur olduğu meydan. Türk dilindəki «çarşı» sözü həmin bu «çaharsuq» istilahından alınmışdır.

[420] Həcv - hansısa bir şəxsin yaramazlıqlarını, mənfi xüsusiyyətlərini kəskin formada tənqid etmək, ona qarşı kin və nifrət bildirmək üçün yazılan satirik şeir növü.

Xorasan mülkünü sən tarac edirsən.
Qarət edib, yetimlərin malını aparırsan,
Mən kafir olum, əgər sən müsəlmansansa.»

Halbuki o, Übeyd xanın mədhinə parlaq bir qəsidə[421] nəzmə çəkmişdi ki, bu iki-üç beyt[422] o cümlədəndir:

«Xorasanın sinəsinə sanki təzə can gəldi,
Yəni ki, oraya Übeydulla xan gəldi.
Onun qızıl nallı atı günəşə bənzəyir,
O, şərqdən qərbə getdi, yenidən ortaya çıxdı.
Şeirdə xəta olar, xətamın üstündən xətt çək ki,
O xəta ya qələmin səhvindən düşüb,
Ya dilin səhvindən gəlib.»

Lakin buna baxmayaraq, heç bir faydası olmadı və o, malik olduğu var-dövlət üzündən öldürüldü.

***Şah Təhmasibin özbək padşahı Übeyd xanı cəzalandırmaq əzmi ilə Xorasana getməyi.*** Özbəklərin Xorasanı istila etməsi xəbəri cənnətməkan şahın mübarək qulağına çaldıqda, Bağdad məsələləri şəhriyarın iradəsinə uyğun şəkildə din və ədalət yoluna müvafiq surətdə həll edildiyindən, 936-cı ilin (05.09.1529 - 24.08. 1530) əvvəlində [Şah Təhmasib] özbəklərin fitnəsini dəf etmək məqsədi ilə öz səadətli yüyənini Xorasan səmtinə yönəldib, ölkə ərazisinin müxtəlif tərəflərinə və yerlərinə ay kimi gəzən qorçular göndərdi ki, [əmirlər] özlərini qələbə şüarlı orduya yetirsinlər. Qısa vaxt ərzində çox-çox və dəstə-dəstə qüdrətli qoşunlar iradə və sədaqət üzlərini asimana tay olan ali astanaya tutaraq, [şahın yanındakı] səadətli əsgərlərə qoşuldular. Tarixçi Həsən bəy yazır ki, o yürüşdə yetmiş min nəfər müzəffər orduda cəmləşmişdi.

Amma Übeyd xan gözəl Herat şəhərini zəbt edib, özünü Xorasan mülkünün sahibi hesab edirdi. O, Fərah qalasını tutmaq üçün hərəkətə keçib, Əhməd sultan Əfşarın üzərinə getdi və qalanı mühasirəyə aldı. Oranı tutmaq üçün çoxlu səy göstərsə də, bir iş görə bilmədi və mühasirədən əl çəkib, Herata gəldi. Bu zaman [Şah Təhmasibin] səadətli məiyyətinin günəş kimi işıq saçıb gəlməsinin avazı o vilayətdə yayıldı. [Übeyd xanın] sabitlik və möhkəmliyinin təməlinə sarsıntı düşdü. O, Heratdan Mərv tərəfə getdi və Çingiziyyə xanlarının yanına şirindil elçilər göndərib xahiş etdi ki, təcili surətdə köməyə gəlsinlər. O, oradan cənnətməkan şah həzrətlərinə yöndəmsiz məktublar yazıb göndərdi və Mərvdə

---

[421] Qəsidə - əruz vəznində yazılan lirik şeir forması.

[422] Tehran çapında (s.58) və S-297 nüsxəsində (v.32b) «iki beyt» deyə yazılmışdır. S-129, v.50b əsasında mətnə düzəliş edilmişdir.

oturub, yardım və kömək gələcəyini gözlədi. Turan sultanları gəlib, Mərvdə cəmləşdilər. Yenidən [Übeyd xan] qızılbaş padşahı ilə müharibə etmək barəsində hər tayfanın aqilləri və ağsaqqalları ilə «kəngaş» etdi. Onların əksəriyyətinin rəyi bu oldu ki, müharibə olmasın. Həmin il [özbək] sultanlarının ən böyüyü olan Səmərqənd hökmdarı Kuçum sultan vəfat etmişdi və onun oğlu Əbu-Səid öz atasının yerinə əyləşmişdi. O, mütləq surətdə Übeyd xanın əleyhinə çıxıb dedi:

- Bu müddət ərzində hər nə qədər Xorasana gəlib qızılbaşlarla müharibə etmişiksə, xəsarətdən savayı bir fayda görməmişik. Əgər sən özün təkbaşına müqavimət göstərə bilərsənsə, öz hərəkətində sərbəstsən. Biz isə qızılbaşlarla döyüşmək barəsində sənə yoldaş deyilik. Ən önəmli və vacib iş odur ki, sən də öz məmləkətinlə qane olub, bu faydasız təlaşdan əl çəkəsən.

Cuci nəslindən olan əksər sultanlar [Əbu-Səidin] sözünü bəyəndilər və [Übeyd xana] kömək etmək fikrində olmadılar. Übeyd xan sultanların köməyindən ümidini üzməli oldu. Onun göndərdiyi adam da əşrəfin hüzurundan qayıdıb gəldi, [qızılbaş] qoşununun cəmləşməsi və çoxluğu xəbərini və [Übeyd xanın] məktubuna uyğun üslubda yazılmış [Şah Təhmasibin] cavabını gətirdi. Orada bu beyt qeyd olunmuşdu:

**Beyt**

«Sən karsan və sənin bəxtin kordur,
Axı kor və karın əlində nə zor ola bilər?!»

Nə isə, [Übeyd xan] həsrət dolu ürəklə və inildəyən könüllə Xorasandan əlini üzüb, Buxaraya yollandı. Cənnətməkan şah həzrətləri səadət və bəxtəvərliklə Xorasana gəldi, öz parlaq bayrağının ayparasını o vilayətin ərazisi üzərinə qaldırdı, darüssəltənə Heratda xoşbəxtcəsinə dayandı, o diyarın xəstə ürəklilərinin iltihablı yaralarının üstünə rahatçılıq məlhəmi qoydu, Xorasan hökumətini öz doğma qardaşı Bəhram mirzəyə bəxş etdi, Qazi xan Təkəlünü [Bəhram] mirzənin lələsi və Xorasanın əmirülümərası[423] [təyin] etdi, hər mahala əmirlər və hakimlər təyin etdi və camaatın işlərini yenidən nizam-intizama saldı. Lakin qarətçi özbək ordusunun yürüşü zamanı o diyar xarabalığa döndüyündən, müzəffər əsgərlərin orada qalması o diyarın hərbçilərinin və rəiyyətinin dolanışığına mənfi təsir göstərdiyinə görə [şah ordusunun] İraq səmtinə qayıtması lazım gəldi. Dünya hökmdarı (Şah Təhmasib) öz qələbə nişanlı yüyənini o tərəfə döndərdi.

## ÜBEYD XANIN BEŞİNCİ KƏRƏ XORASANA GƏLMƏSİ VƏ FƏRAR ETMƏSİ HAQQINDA

[423] Azərbaycan Səfəvilər dövlətinin əyalət idarəçiliyi hərbi xarakter daşıdığından vilayət hakimi və ya bəylərbəyi rəhbərlik etdiyi vilayətin əmirülümərası (əmirlər əmiri, qoşun başçısı) hesab olunurdu.

Elə ki cənnətməkan şahın geri qayıtması xəbəri Buxarada Übeyd xana catdı, növbəti ildə, yəni 937-ci ildə (25.08.1530 -14.08.1531) o, Qəmiş-oğlanı bəzi özbək əmirləri ilə purnavulluq etmək və xəbər gətirmək üçün Xorasana göndərdi. Onlar Amudərya çayından keçib, Sərəxs[424] yolundan müqəddəs və ulu Məşhədə gəldilər. Müqəddəs Məşhədin hakimi Məntəşa sultan Ustaclu və Nişapur[425] hakimi Dəmri sultan oğlu[426] Ağzıvar xan Şamlu bir-birilərinə qoşulub, Qəmiş-oğlanın və özbəklərin üzərinə gəldilər. Tərəflər arasında bir qədər toqquşma oldu. Qazilər düşməndən bir neçə nəfəri qətlə yetirdilər. Özbəklər müqavimət göstərməyə tab gətirməyib, döyüşdən əl çəkdilər və geri qayıtdılar. [Qızılbaş] əmirlərinin də hər biri öz məkanına getdi.

938-ci ildə (15.08.1531 - 02.08.1532) Übeyd xan yenidən qeyri-məhdud qoşun toplayıb, Xorasana üz qoydu və Herat şəhərinin ətrafını tutub, mühasirəyə başladı. O, öz əmirlərini Xorasan vilayətinin müxtəlif tərəflərinə və səmtlərinə göndərdi. O, öz oğlu Əbdül-əziz sultanı müqəddəs Məşhədə, Qəmiş-oğlanı Astarabada, Xangəldi bahadırı Səbzəvara, digər bir dəstəni Bistam vilayəti ərazisinə göndərdi. Məntəşa sultan, Ağzıvar xan və Xorasandakı digər əmirlər qalmağı məsləhət görməyib, hamısı öz hakimlik etdikləri yerləri boş qoyaraq çıxıb getdilər. Amma Damğan hakimi olan Zülqədər sultan özbəklərin gəlişindən xəbərdar olub, gəraylı[427] [tayfası] arasına adam göndərərək kömək istədi. Mirzə Əlixan xəlifə Gəraylı çoxsaylı bir qoşunla ona qoşuldu. O, Bistam ətrafında özbəklərlə üzləşib döyüşdü. Qazilər qalib gəldilər, özbəklər isə məğlub olub qaçdılar. Onlardan bir dəstəsi qətlə yetirildi, bəziləri isə əsir alındı. Amma Astarabada getməyə məmur edilmiş Qəmiş-oğlan cəsarət və bahadırlıq ayağını önə qoyub, çoxsaylı bir dəstə ilə ta Məhvəri-Savucbulağ [adlı yerə qədər] at çaparaq, orada Astarabad hökumətinə təyin olunmuş[428] Məhəmməd xan Zülqədəroğlunun ordugahı üzərinə tökülüşüb, onun yüklərini («ağruq»)[429] qarət etdi və geri qayıtdı.

***Übeyd xanın Herat qalasını mühasirə etməsi.*** Übeyd xan Herat qalası ətrafında mövqe tutub, qalanı fəth etmək üçün tədbirlər görməyə başladı. Qazilər isə qüvvətləri və bacarıqları yetdiyi qədər özbəklərdən müdafiə olundular.

---

[424] Sərəxs şəhəri İranın şimal-şərq qurtaracağında, müasir İran – Türkmənistan sərhədində yerləşir və iki yerə bölünüb. Belə ki, sərhədin hər iki tərəfində, həm İranda, həm də Türkmənistanda Sərəxs şəhəri mövcuddur.

[425] Nişapur - İranın şimal-şərqində, Xorasan vilayətində, Məşhəddən qərbdə, Məşhəd və Səbzəvar şəhərləri arasında yerləşən şəhər.

[426] S-129, v.51b. Digər Bakı nüsxəsində yanlışlıqla «Xaf hakimi Ağzıvar xan Şamlu və Nişapur hakimi olan Dəmri sultan» deyə qeyd olunmuşdur (S-297, v-33a). Heç şübhəsiz ki, bu, katib xətasıdır. Çünki İsgəndər bəy Münşinin yuxarıda qeyd etdiyi kimi, Ağzıvar xanın atası olan Dəmri sultan bu hadisədən xeyli əvvəl, Übeyd xanın Xorasana ikinci yürüşü zamanı, yəni 932-cı (1525-26) ildə baş vermiş Bistam döyüşündə həlak olmuşdu.

[427] Gəraylı - Astarabad vilayətində yaşayan türk tayfası (V.F.Minorsky. «Tadhkirat al-muluk», p.170).

[428] S-129, v.51b; S-297, v.33b. Bakı əlyazmalarının birində (S-129) Məhvəri-Savucbulağ əvəzinə Məxmuri-Savuxbulağ, digərində (S-297) isə Məxvəri-Savux-bulağ yazılıb.

[429] Ağruq - türkcə «ağır» sözündən yaranmışdır və ordunun yüklərini bildirən termindir.

Azərbaycanda Ülamə Təkəlü yağı olub Ruma getmişdi və fitnə salmışdı. O sərhəddə çaxnaşma və qarışıqlıq alovu alışmışdı. Cənnətməkan şahın qarşısında böyük bir məşğuliyyət dururdu və onun Xorasana yürüş etməyə fürsəti yox idi. Buna görə də Übeyd xan rahat şəkildə qala ətrafında oturub, mühasirədəkilərə təzyiq göstərməyə səy edirdi. Nəhayət, mühasirə müddəti bir il yarıma gedib çatdı. Azuqə və çörək çatışmazlığı ucbatından mühasirədəkilərin işi ağırlaşdı. Qazi xan xalqı şəhərdən çıxardı və onların azuqələri qazilərin əlinə keçdi. Onlar aclığı dəf etmək üçün bir müddət [həmin azuqədən] istifadə etdilər. O hadisələr zamanı təkəlü tayfasından biçarə rəiyyətə çoxlu sitəmlər və zülmlər dəydi. [Təkəlülər] onların üzdə olan mallarını əllərindən alıb, onları şəhərdən çıxardılar. Bundan sonra isə hətta gizlədilmiş malların da axtarışına məşğul oldular. Şəhərlilərin çıxıb getməsindən sonra onların evlərini, məskənlərini qazıb, əksər dəfinələri tapdılar və qarət etdilər. Sözün qısası, get-gedə qida o dərəcədə yoxa çıxdı ki, qazilər it və pişik yeməklə dolanmağa başladılar. Axırda o da ənqa quşu[430] kimi qəhətə çəkildi. Məşhurdur ki, Qazi xanın iki mötəbər ağası arasında bir it üstündə münaqişə olmuş və buna görə xanın qarşısında məhkəmə qurulmuşdu. Hər ikisinin iddiası bu idi ki, o it mənim zərbəmlə verə yıxılmışdır və mənim ovumdur. Axırda Qazi xan o itin leşini iki yerə bölüb, hər birinə yarısını verdi.

Hər gün Bəhram mirzənin və [Qazi] xanın əmri ilə at əti ilə bir qab düyü hazırlayırdılar. Onun yarısını məclisdə qaşıq-qaşıq mötəbər ağalar arasında bölüşdürürdülər, qalan yarısını isə öz xidmətçilərinə verirdilər. Qidanın yoxluğu elə bir qüvvət süstlüyü yaratmışdı ki, adamlar əsa ilə yeriməyə başlamışdılar. Übeyd xan qalaya adam göndərib, ortaya sülh söhbətini atdı. Qazi xan razı olub bildirdi ki, Übeyd xan bir-iki köç mənzili geri otursun, biz isə Bəhram mirzə və qızılbaş qoşunu ilə birlikdə salamatlıqla [Heratdan] çıxıb şəhəri təslim edək. Lakin Übeyd xan bununla razılaşmayıb dedi ki, onlar gəlib mənim çadırımın örkəninin altından keçib getsinlər. Bəhram mirzə və Qazi xan bu zilləti özlərinə sığışdırmadılar. Bir neçə gün sonra Səmərqənd padşahı Əbu-Səid xan ibn Kuçum xanın atalığı[431] şəhərə gəldi ki, sülhü qərarlaşdırsın, amma baş tutmadı. Qazi xan tamam əldən düşsə də, din və dövlət düşmənlərinə qarşı döyüşü davam etdirib, qalanı müdafiə etməyə səy göstərdi.

***Şah Təhmasibin Xorasan səmtinə hərəkət etməsi.*** Elə ki bu xəbərlərin həqiqəti və mərdimazar özbəklərin [Xorasandakı] istilası Azərbaycanda [şahın] cah-calallı qulaqlarına çatdı və Ülamənin fitnəsi tam sakitləşdi, cənnətməkan şah Xorasan tərəfə hərəkət etmək qərarına gəldi. 939-cu il aylarında (03.08.1532 - 22.07.1533) qələbə ayətli bayraqlar o tərəfə doğru hərəkətə gəldilər. Bu muştuluğu

[430] Ənqa quşu - klassik Şərq ədəbiyyatına görə, Qaf dağında yaşadığı iddia edilən və insanların gözünə görünməyən əfsanəvi bir quşdur. İsmi olub cismi olmayan, yəni adı olub özü olmayan, tapılmayan şeylərə məcazi mənada «ənqa quşu» deyilir.

[431] Atalıq - hansısa azyaşlı və ya gənc hökmdarın, yaxud şahzadənin lələsi, tərbiyəçisi, qəyyumu mənasındadır.

çatdırmaq üçün Herata sürətli gedən qasidlər göndərdilər. Herat ac-yalavaclarının ahının qığılcımları dövranın xırmanına atəş salan vaxt xoş xəbərli qasid çatıb, fərəh bəxş edən müjdəni gətirdi. [Bu xəbər] can qüvvəti və cənnət qidası kimi oldu. Sevinc və şənlik səy-küyü asimanın ən yüksək nöqtəsinə çatdı, şadyanalıq nağaraları səsləndirildi.

Übeyd xan şairlik bacarığına malik bir kişi idi. O, həmin günlərdə bu beytləri yazıb, Qazi xanın vəziri olan Möhürdar [ləqəbi] ilə məşhur Xoca Əmir bəyin yanına şəhərə göndərdi.

**Beyt**

«Ey külək, əgər Xorasan əhlinə güzar etsən,
Mütləq çatdırarsan onlara sifarişimizi.
Lütf üzündən o güruha deyərsən ki,
Sizə qarşı kinliyik bizim hamımız.
Çünki sizin qürur və cahillik qələminiz,
Bizim adımıza bir məktub yazıb.
Ey Xoca, bundan belə yaşamaqdan ümidi üz,
O səbəbdən ki, xanlıq sikkəsi vurulubdur adımıza».

Xoca söz qoşmaq qabiliyyəti olan bir kişi idi və zəmanənin istedadlılarından idi. O, bu beytlərin cavabında yazıb göndərdi:

**Beyt**

«Ey boşboğaz, məgər sən eşitməmisənmi ki,
Gəlib çatmaqdadır ulduz həşəmətli möhtərəm şahımız.
Biz həzrət şahın bəndələriyik və əzəldən
Qeyd olub rəhmət dəftərində davamımız.
Sənin etdiyin xanlıq iddiasına cavab olsun,
Bu bir beyt şirin kəlamlı Hafizimizdən:[432]
Elə olur qaş-göz etməyi və nazı düz qamətli gözəllərin
Ki, gəlir cilvəyə bizim şən sərvü-sənubərimiz».[433]

Bəlxdən Übeyd xana köməyə gəlmiş Gəskən Qara sultan və Canibəy sultan qızılbaşlara gizlincə dostluq münasibəti göstərirdilər. Onlar Bəhram mirzə üçün bir baş südəmər quzu və atdan hasil olunmuş kərə yağı göndərmişdilər. Onların adamları gecələr arıq yabıları xəndəyin kənarına gətirib, tamam baha qiymətə

[432] Hafiz Şirazi - XIV əsrin məşhur İran şairi.
[433] Xoca Əmir bəyin Übeyd xanın cavabında yazdığı bu şeirdəki son beyt olduqca təhqiramiz sətiraltı mənaya malikdir.

[qızılbaşlara] satırdılar və ruzi verən [Allah] bir müddət onların ətindən qazilərin ruzisini təmin etmişdi.

Sözün qısası, cənnətməkan şah həzrətləri Xorasana hərəkət etməyi qərara aldıqdan sonra Əlqas mirzəni Bədr xan Ustaclu ilə birlikdə qabaqcadan göndərdi. Onlar Bistama çatanda Bədr xan öz yoldaşları ilə «canəqi»[434] qurub qərara aldılar ki, Astarabad tərəfə sürətli yürüş edərək, qəflətən Qəmiş-oğlanın üzərinə getsinlər. Onlar «müharibə hiyləgərlikdir» kəlamına əməl etdilər və cənab [Əlqas] mirzənin ali məiyyətində döyüş meydanı mübarizlərindən min beş yüz nəfər Bistamdan sürətlə hərəkət edib, sübh vaxtı, əksər özbəklər hamamda olarkən şəhərə gəlib, şadyanalıq nağarası səsləndirdilər. Hansı özbəyə çatdılarsa, onu baş yükündən azad etdilər. [Özbəklərdən] hər hansı birisi lüt və üryan halda hamamdan bayıra çıxırdısa, özünü fanilik dənizinə qərq olmuş görüb, gedər-gəlməzə yollanırdı. Qəmiş-oğlan bu hadisənin baş verməsindən qorxaraq və çaşaraq, şəhərdə sərgərdan olmuşdu. O. yüz təşviş içində yeddi-səkkiz nəfərlə birlikdə aradan cıxıb, Mərv tərəfə qaçdı, onun dörd qardaşı isə beş yüz nəfərə qədər [Özbəklə] birgə qətlə yetirildilər. Onların başları şahın məiyyətinin qarşısına göndərildi.

Sufiyan xəlifə Rumlunu rumlu qazilərindən üç yüz nəfərlə və gözüböyüklü tayfasından bir dəstə ilə Səbzəvara yolladılar. O, dörd min özbəklə Səbzəvarda olan Xangəldi bahadırın üzərinə gecə basqını edib, onların bir hissəsini qırdı. Özbəklər Nişapur tərəfə getdilər. O əsnada Cəmşid məqamlı şah özbək qoşununun çoxluğundan xəbər tutub, Hüseyn xan Şamlunu, Ağzıvar xan Şamlunu və Əmir sultan Rumlunu[435] Sufiyan xəlifənin köməyinə göndərdi. Onlar Nişapur hüdudunda bir-birilərinə qoşulub, orada özbəklərlə döyüşdülər və qalib gəlib, müqəddəs və ulu Məşhədə yollandılar. Yeddi min nəfərlə birlikdə[436] Məşhəddə olan Əbdüləziz xan şah məiyyətinin gəlişindən və əmirlərin yaxınlıqda olmasından xəbər tutub, [Məşhəddə] qalmağa tab gətirməyərək, Herat tərəfə qaçdı və öz atasına qoşuldu.

***Übeyd xanın Heratdan fərar etməsi və özbəklərin qaçıb getməsindən sonra mühasirədəkilərin rahat olması.*** Übeyd xan üfüqlər hökmdarının günəş kimi nur saçan bayraqlarının və onun qoşunlarının gəlişinin yaxın olmasından agah olub, hər dəfə olduğu kimi, bu dəfə də fərar etməyə qərar verib, Buxara yoluna çıxdı və özbək sultanlarının hər biri öz vilayətlərinə tələsdilər. Şahın zərnigar çətirinin günəşi Herat üfüqündən doğub, 939-cu ilin cəmadiüs-sani ayının 22-də (19.01.1533) şəhər bağında yerləşdi. [Şah Təhmasib] orada hökmdarlıq taxtı üzərində əyləşdi. Pərişanlıq diyarının pərakəndələri olan böyüklər və əyan-əşraflər onun mübarək kölgəsi altında daldalanacaq axtarıb, ondan hüsn-rəğbət vədi aldılar. Qazi xan məzlumların mallarını müsadirə etmək üstündə danlanıldı. Fəqirlərə və zəiflərə dövlət xəzinəsindən («xəzaneyi-amirə») külli miqdarda bəxşişlər verildi. O ildə [şah] Heratda qışlaq etdi. Bir müddət sonra isə

---
[434] Canəqi - məşvərət məclisi.
[435] Tehran çapında (s.61) Əmə sultan Rumlu yazılmışdır.
[436] Bakı nüsxələrində "altı-yeddi min" qeyd olunmuşdur (S-129, v. 53a; S-297, v 34b).

Mavəraünnəhrə yürüş etmək, Übeyd xanı cəzalandırmaq və özbəklərə qulaqburması vermək üçün şəhərdən çıxdı. Üləngneşin ədalətli və dindar hökmdarın ordugah yeri oldu. Xorasanda Mavəraünnəhrə yürüşlə bağlı səs-səda yayıldı. Hüseyn xan və Məntəşa sultan bəzi əmirlərlə birlikdə Qərcistanın[437] zəbt olunmasına məmur edildilər və onlar o vilayəü fəth edib, geri qayıtdılar. Adlı-sanlı əmirlər Mavəraünnəhr yürüşünə hazırlıq görüb, topxana lovazimatlarının və yaraqların sərəncam edilməsinə məşğul oldular.

Lakin bu vaxt orduda Azərbaycandan və İraqdan gələn qorxulu xəbərlər yayıldı. Rum qoşununun yürüşü və Sultan Süleymanın o sərhədə və ölkəyə gəlişi haqqında olan bu xəbərlər həmin layiqli işə (Mavəraünnəhr yürüşünə) əngəl yaratdı. Şah məiyyətinin İraq tərəfə qayıtması lazım gəldi. Təkəlü camaatında qalanı müdatiə etmək qüdrəti qalmadığından, həm də rəiyyət və acizlər Qazi xanın və onun adamlarının yöndəmsiz hərəkətlərindən şikayətçi olduqlarından darüssəltənə Heratın hökuməti kama yetmiş şahzadə Sam mirzəyə tapşırıldı, Ağzıvar xan Şamlu isə [Sam] mirzənin lələsi, atalığı və Xorasanın əmirülümərası təyin edildi. Bundan sonra [Şah Təhmasib] hərəkət yüyənini İraqa tərəf döndərib, sürətli və təcili bir şəkildə Allahın köməyi ilə yola düşdü.

## XORASANIN VƏZİYYƏTİ, ÜBEYD XANIN ALTINCI DƏFƏ O SƏADƏT NİŞANLI DİYARA GƏLİŞİ, ŞAH MƏİYYƏTİNİN ORAYA YOLLANMASI, ÜBEYD XANIN ƏHVALATININ SONA YETMƏSİ VƏ BUQƏLƏMUN FƏLƏYİN ZƏRURƏTİNƏ UYĞUN SURƏTDƏ BAŞ VERMİŞ MÜXTƏLİF HADİSƏLƏR HAQQINDA

Xəbərlər məclisinin natiqlərinin, tərcümeyi-hallar və əsərlər rəvayət edənlərin sözlərindən belə aydın olur ki, Cəmşid məqamlı cənnətməkan şah həzrətləri [Xorasandan] qayıtdıqdan sonra Sam mirzə və Ağzıvar xan bir müddət Heratda qalıb, Xorasan mülkünün nizam-intizamının təmin olunmasına və acizlərin və təbəələrin əhvalındakı pərişanlığın aradan qaldırılması ilə məşğul oldular. Übeyd xan isə Buxarada ayağını bekarçılıq ətəyinə yığıb, Xorasanın vəziyyətini diqqətlə araşdırmaqda idi. Nəhayət, Hüseyn xanın öldürülməsi və şamlu tayfasının sarsılması xəbəri Herata çatdı. Bu, Sam mirzənin və Ağzıvar xanın vahimələnməsinə səbəb oldu. Onlar bir dəstə araqarışdıranın təhriki ilə müxaliflik və qiyamçılıq kimi qeyri-mümkün xəyallara düşüb, zənginlərin mallarına təcavüz əllərini uzatdılar və müsəlmanlardan əzab və işgəncə ilə müəyyən məbləğlər alıb, Qəndəharı zəbt etmək iradəsi ilə o səmtə doğru hərəkətə gəldilər. Fərahda onlar Murad sultan Əfşarı da özlərinə qoşdular. Qəndəharın ətrafına çatdılar və qalanı mühasirə etdilər. Hümayun padşahın qardaşı Mirzə Kamran tərəfindən Qəndəhar hakimi olan Xoca Kəlan Cağatay qalanı müdafiə etməyə başladı.

---

[437] Qərcistan - indiki Əfqanıstanın şimal-qərbində, Muğrab çayının yuxarı axarlarında tarixi vilayət. Tarixi Xorasan vilayətinin bir hissəsi idi.

Neçə ay ərzində tərəflər arasında həngamə, döyüş, savaş və vuruş baş verdi. Lakin bayırdakıların arzu əli məqsəd ətəyinə çatmadı. Nəhayət, Mirzə Kamran Lahorda[438] iyirmi min nəfər cəmləyib, Qəndəharda mühasirədə qalanları xilas etmək üçün gəldi. Sam mirzə və Ağzıvar xan, Mirzə Kamranın gəlişinin yaxın olmasından agah olub, qala ətəyindən köç edərək, bir-iki mənzil geri oturdular. Mirzə Kamrana aydın oldu ki, ali mənşəli şahzadə (Sam mirzə) kama yetmiş Şah [Təhmasibin] rüxsəti olmadan Qəndəharı zəbt etmək həvəsinə düşüb. Buna görə də [Mirzə Kamran] o dəstəyə qarşı müharibə və müdafiə kəmərini bağlayaraq, döyüş meydanına üz tutdu. Sam mirzə və Ağzıvar xan yanlarında olan iki-üç min nəfərlə birgə Mirzə Kamranın qarşısında döyüş səfi tərtib etdilər. Tərəflər arasında böyük bir vuruşma və şiddətli bir döyüş baş verdi. Qızılbaşlar igidlik və mərdlik göstərərək, cağatay ordusunun «cəvanğar»ını və «bərangar»ını[439] tar-mar etdilər. Qaçma-qovma zamanı Ağzıvar xanın atı bir çalaya düşüb aşdı və o, atdan yıxıldı. Cağatay ordusundan naməlum bir kəs onun üstünə gəlib, onu əsir tutdu. Onun Ağzıvar xan olduğunu bilən kimi dərhal qətlə yetirdilər. Cağatay ordusu cəsarətləndi, qızılbaşlar isə ruhdan düşdülər. Buna görə də Sam mirzə hərb meydanından yüyənini çevirib, Gərmsir[440] tərəfə getdi, əməlindən heyifsiləndi, peşman oldu və onu Cəmşid məqamlı şaha qarşı müxalif çıxmağa rəğbətləndirmiş bir neçə nəfər araqarışdıranı orada qətlə yetirib, onların başlarını cahanın pənahı olan dərgaha göndərərək, günahının əfv olunmasını xahiş etdi.

Sam mirzənin məğlubiyyəti və Ağzıvar xanın qətli xəbəri Buxarada Übeyd xana çatdıqda o, əvvəlcə Seydim mirzəni bəzi özbək əmirləri ilə birlikdə beş-altı min nəfərlə Xorasana qarətçiliyə göndərdi. Seydim mirzə dörd-beş min nəfərlə[441] Cam tərəfə getdi, özbək sərdarlarının digər bir dəstəsi isə Xəvaf[442] tərəfə yollandı. Müqəddəs və ulu Məşhədin hakimi Sufiyan xəlifə Rumlu azsaylı dəstə ilə Seydim mirzəni dəf etməyə yollandı. Camda iki tərəf arasında şiddətli döyüş baş verdi. Özbəklər məğlub oldular. Onların məğlubiyyət və fərarından sonra Sufiyan xəlifə Xəvafdakı özbəklərin üzərinə getdi. O dəstə də məğlub oldu. Özbəklərdən bir çoxu qətlə yetirildi.

***Xəlifə sultan Şamlunun öldürülməsi.*** Gəskən Qara sultan ibn Canibəy sultanın tərəfindən Qərcistan hakimi olan Bayram-oğlan qarət üçün Herata gəldi. Sam mirzə və Ağzıvar xan tərəfindən Heratda qoyulmuş Xəlifə sultan Şamlu səksən yaşlı ahıl bir kişi idi. O, şəhərin və şəhər ətrafının («bölükat»ın) camaatından, habelə təfriqə düşmüş hərbçilərdən başına bir dəstə toplayıb, özbəklərin qarşısına çıxmağa tələsdi və on fərsəxə qədər yol gedib, Özbəklərə

---

[438] Lahor – müasir Pakistanda şəhər, Pəncab əyalətinin inzibati mərkəzi.
[439] Cəvanğar – qoşunun sol cinahı. Bərangar – qoşunun sağ cinahı.
[440] Gərmsir – Əfqanıstand, Hirmənd çayı boyunda tarixi vilayət.
[441] S-129 nüsxəsində (v. 54a) “dörd min nəfər” yazılmışdır. Lakin S-297 nüsxəsində və Tehran çapında (s. 62) “dörd min nəfər”dir.
[442] Xəvaf – Xorasanda, Nisa yaxınlığında yerləşən bir şəhər idi. (bax: Əbdürrəşid əl-Bakuvi. Kitab təlxis əl-asar, s.91).

çatdı. Tərəflər arasında döyüş baş verdi. Herat qoşununun əksəriyyəti sərsəri və naşı adamlardan ibarət idi və sərdara çox da məhəl qoymurdular. Buna görə də bir iş görə bilməyib, məğlub oldular. Təhlükə vaxtı aradan çıxmaq mərdanəlik əlaməti sayılsa da, Xəlifə sultan bu mərəkədən salamatlıqla qurtula bilmədi və qətlə yetirildi[443].

Sözün qısası, sağ qalanlar qaçmağı qənimət bilib, şəhərə gəldilər. Bayram-oğlan bol qənimətlər ələ keçirib, oradan geri qayıtdı. Heratda qalmış qızılbaş camaatı Heratın sahibsiz olduğunu görüb, şəhərətrafı əhalinin razılığı ilə özbəklərin xofu qarşısında müqəddəs Məşhədə, Sufiyan xəlifənin yanına adam göndərdilər və onu Herata çağırdılar. [Sufiyan] xəlifə öz oğlunu müqəddəs Məşhəddə qoyub, Herata gəldi.

Sufiyan xəlifə şücaətli, igid, mərdanə və bu müqəddəs [Səfəvi] sülaləsinin sadiq sufisi idi. Amma onun təbiətinə dəlilik hakim kəsilmişdi və o, çoxlu divanə əməllər və işlər törətmişdi. Bəzi aqillər onu sarsaq adam hesab edirdilər. O, Heratda bir dəstə yaramazın sözü ilə cövr və zülmkarlıq qapılarını xalqın üzünə acıb, xahiş-minnətləri rədd edərək, şəhər və bölükat camaatından hər kimdən ki bir az zəngin olduğu güman edilirdi, onun malını müsadirə və əxz etməyə başladı. Dəliliyinin yetərincə çox olması səbəbindən son dərəcə saxtakarlıq və əbləhliklə deyirdi:

- Yuxuda ikən on iki imam həzrətlərindən - onlara salam olsun - mənə işarə edildi ki, filankəsdən bu məbləğdə vəsait alıb qazilərə ver və düşmənləri dəf et! İmamın hökmünə çarə yoxdur.

O, hətta onun [Herat] hakimliyinə yiyələnməsindən sevinən və bu həvəslə şəhərə gələn öz dostlarının üstünə də vergi yükü qoyurdu və ağlaya-ağlaya məclisdə hədyan-hədyan danışıb deyirdi:

- Mən hərçənd həzrət imamların hüzurunda xahiş etsəm də ki, filankəs mənim dostumdur və məni bu işə vadar etməyin, lakin onlar mənim xahişimi qəbul etmədilər. İmamın buyruğundan azacıq da olsa boyun qaçırmaq mümkün deyildir.

Sözün qısası, o, bu hədsiz dəlicəsinə hiylə ilə çoxlu qızıl topladı. Camaat onun zülmündən cana doydu.

***Übeyd xanın müqəddəs Məşhədi mühasirə etməsi.*** Bu əsnada Übeyd xan bəla qoşunu ilə Amudərya çayından keçib, 942-ci il aylarında (02.07.1535 - 19.06.1536) müqəddəs Məşhədin hüduduna çatdı və o şərəfli şəhəri mühasirəyə aldı. Sufiyan xəlifənin adamları şəhər camaatı ilə birlikdə şəhər bürclərini və divarlarını möhkəmləndirib, son dərəcə mərdanəliklə oranın mühafizəsinə və qorunmasına girişdilər. Özbəklər hərçənd qalanı tutmaq üçün xeyli səy göstərsələr də, nəticəsi az oldu və onlar əsla o şəhərə daxil olmağa yol tapa bilmədilər.

Sufiyan xəlifə Məşhədin mühasirəsindən agah olduqda öz adamlarına yazdı ki: «Mərdanə olun! Mən də özümü oraya yetirəcəyəm, Übeyd xanı tutacağam və

---

[443] Bu döyüş 19 zilqədə 941-ci / 22 may 1535-ci ildə İsfizar yaxınlığında baş vermişdi (A Chronicle of the Early Safawis, 1.1, p.264-265).

onun dərisinə saman təpib, şaha göndərəcəyəm». Nə isə, o, tamahkarlıqda özündən də öndə olan Xızır Çələbi adlı vəkilini Heratda qoyub, orada qalan adamlarına məlum məbləğdə cərimələr və vergilər yazıb verərək əmr etdi ki, onları əhalidən toplasınlar. Daha sonra o, divanəliklə özü ilə üç min nəfər götürüb, özbək padşahı ilə döyüşmək əzmi ilə müqəddəs Məşhədə yollandı. Yolda ikən onun gözünə uzaqdan bir saman xırmanı sataşdı və özü gedib, oradan bir çuval saman toplayıb dedi ki, «bunu Übeyd xanın dərisinə təpmək üçün yığıram; çünki özbəklərin basqını üzündən Məşhəd yaxınlığında saman qalmamışdır».

Übeyd xan [Sufiyan] xəlifənin gəlişindən agah olub, təfəkkür dənizinə daldı. Çünki ona ar gəlirdi ki, özü padşahlıq əzəmətinə malik olduğu halda, şahın əmirlərindən birinin qarşısına çıxıb, onunla vuruşsun. Həm də onun qulağına söz çatmışdı ki, [Sufiyan] xəlifədə hərb vaxtı elə bir dəlilik baş qaldırır ki, o, düşmən qoşununun çoxluğundan əndişə etmir və neçə dəfə belə olub ki, o, kiçik qızılbaş dəstəsi ilə özbəklərin çoxsaylı qoşunu üzərinə həmlə edərək qalib gəlib və özbəklərlə döyüşlərdə cəsarətlənib. Übeyd xan qorxurdu ki, yenə də elə bir hadisə baş verə bilər. Özbək əmirlərinin isə heç birisi [Übeyd] xanın iştirakı olmadan onunla döyüşməyi öhdələrinə götürmürdülər. Zərurət üzündən Übeyd xan müharibə Kəmərini bağlayıb, bir dəstəni qaravul kimi qabaqcadan göndərdi, öz oğlu Əbdüləziz sultanı isə Xarəzm valisi Əli sultanla və Sevincək Məhəmməd sultanla birlikdə ordunun mənqəlayı təyin etdi. Özü də onların ardınca hərəkətə gəldi. Sufiyan xəlifə özbəklərin ən öndə gələn dəstəsi ilə üzləşib döyüşdü və qalib gəldi. Həmin özbək dəstəsinin sərdarı qazilərin əlinə düşdü. O, [Sufiyan] xəlifəyə dedi:

- Nə ağılla sən üç min nəfərlə birlikdə, yanında ən azından otuz min nəfər olan özbək padşahına qarşı döyüşə gedirsən? Mütləq, indi geri qayıdıb, özünü Herat qalasına yetir!

Lakin [Sufiyan] xəlifə qürurunun çoxluğu və dəliliyin ona üstün gəlməsi səbəbindən döyüşməkdə israr etdi və o gecə döyüşə hazırlaşdı. Sübh çağı özbək ordusunun mənqəlayı göründü. Sufiyan xəlifə döyüş səfi tərtib etdi. Hər iki tərəf silaha əl atdı. Həqiqətən də, qızılbaş qaziləri özlərini o qoşun dəryasına vurub, o mərəkədə elə vuruşdular ki. fələklər təəccüb və heyrət gözləri ilə onlara baxdılar. Qızılbaş ordusunun qələbə çalacağından ehtiyatlanan Übeyd xan mərkəzdən hərəkətə gələrək, çoxsaylı qoşunla özünü [qızılbaş] ordusunun səflərinə vurdu. Qazilər qüvvətləri və qüdrətləri yetdiyi qədər özbək bahadırlarının həmləsini dəf etsələr də, axırda müqavimət göstərməyə aciz qalıb, fərar yolunu tutdular. Divanəliyi ucbatından özünü işə salan Sufiyan xəlifə yanındakı qazilərdən bir neçə nəfərlə birlikdə döyüş meydanı yaxınlığında yerləşən viranə bir hasarın daxilinə sığındı, azuqəsiz və sursatsız bir şəraitdə özünü düşmənin mühasirəsinə saldı.

***Sufiyan xəlifənin öldürülməsi.*** Übeyd xan hasarın ətrafında oturdu. [Qızılbaşlar] otuz beş gün ərzində at əti ilə dolanıb, özbəklərə müqavimət

göstərdilər. Özbəklər yavaş-yavaş «sibə»ləri[444] irəli çəkib, həmləyə başladılar və axırda o viranəliyi ələ keçirdilər. Sufiyan xəlifəni tutub öldürdülər. «Əhsənüt-təvarix»in müəllifi yazır ki, Sufiyan xəlifə Xorasanda hakimlik etdiyi qısa zaman ərzində dörd min yeddi yüz nəfərə qədər özbəyi döyüş meydanında qətlə yetirmişdi.

Sözün qısası, bu xəbər Herata çatdıqda [Sufiyan] xəlifənin vəkili Xızır Çələbi şəhərdə olan qızılbaşlarla birlikdə şəhər və bölükat əhalisini hazır etdi ki, qalanı müdafiə etmək üçün tədarük görməyə başlasınlar. Lakin bölükat [əhalisi] razı olmadı. Onlar Xızır Çələbinin cövründən, zülmündən və əməllərindən cana doymuşdular və bu səbəbdən şəhərlilərə qarşı müxaliflik edib, Übeyd xanı çağırmaq üçün gizlincə adam göndərdilər. [Übeyd] xan şəhərin ətrafına çatıb, mühasirə işləri ilə məşğul oldu. Qazilərlə şəhər əhalisi son dərəcə əlverişsiz şəraitdə beş ayadək Übeyd xana müqavimət göstərərək, şəhəri saxladılar. Axırda şəhər əyanlarından biri Übeyd xanın yalançı vədlərinə uyub, yoldan çıxdı və bir gecə məxfi surətdə üç yüz nəfər özbəyi özünün qoruduğu bürcdən yuxarı çəkdi. Özbəklər şəhərə tökülüşdülər. Qazilər çoxlu döyüşdən və saysız-hesabsız səylərdən sonra məğlub olub, İxtiyarəddin qalasına[445] qaçdılar. Özbəklər o gözəl şəhəri istila etdilər. Xalq arasında bəla tufanı yüksəldi. Özbəklər zülm əllərini müsəlmanların mallarına uzadıb, azuqələri və dəfinələri işgəncə ilə tutub aldılar. Übeyd xan [İxtiyarəddin] qalasına adam göndərdi və şərt kəsdi ki, Xızır Çələbi, Sufiyan xəlifənin varlı və yoxsul xocalardan aldığı mal-dövlətlə birlikdə qalanı təslim edərsə, onda o və onun yoldaşları qətl və qarətə məruz qalmayacaqlar. Bu əhdü-peymandan sonra [Xızır Çələbi və onun adamları] qaladan çıxdılar. Özbəklər onları çılpaq və üryan edib, hamısını Buxara səmtinə göndərdilər. Onlar yolda qətlə yetirildilər.

Daha sonra Übeyd xan özbəkləri qətl və qarətdən çəkindirib, məmləkəti idarə etməyə başladı və on dörd ay ərzində darüssəltənə Heratda hökumət kürsüsünə əyləşib, dövlətdən kam aldı. Amma hər gün neçə nəfər günahsız insan rafizilik və şiəlik töhmətinə giriftar edilərək, iki nəfər cahil və nadanın şahidliyi əsasında Çaharsuqda qətlə yetirilirdilər. O qorxusuz qaniçənin zülmü və ədalətsizliyi günbəgün artmaqda idi. Xəstə ürəklilərin ciyər odlayan ah-naləsi və nahaqdan öldürülən şəxslərin varislərinin fəryadı və fəğanı asimanın ən yüksək nöqtəsinə gedib çatırdı.

***Übeyd xanı dəf etmək üçün Şah Təhmasibin Xorasana gəlməsi.*** Nəhayət, bu xəbərlər Azərbaycanda Cəmşid məqamlı cənnətməkan şahın qulağına çatdıqda o, özbəklərin şərinin dəf olunmasını qarşıya məqsəd qoyub, 943-cü il aylarında (20.06.1536 - 09.06.1537) adlı-sanlı əmirlərlə və qələbə şüarlı əsgərlərlə Xorasana tərəf hərəkətə gəldi, köçbəköç yol getməyə başladı. Übeyd xan Heratdan çıxıb,

---

[444] Sibə - səngər; qalanı və ya şəhəri mühasirə etmiş qoşunun tutduğu mövqelər.
[445] İxtiyarəddin qalası - Herat şəhərinin şimalında yerləşən qala.

hələ də qızılbaşların əlində qalan müqəddəs və ulu Məşhədi zəbt etmək əzmi ilə yürüş edən vaxt şah məiyyətinin gəlişinin avazı o diyarda yayıldı. Baxərzdə [Übeyd xana] aydın oldu ki, şah həzrətləri Nisaya və Əbivərdə[446] çatıbdır və tezliklə onun əjdaha görkəmli mübarək bayraqlarının ayparası darüssəltənə Heratın üfüqündən doğacaqdır.

***Übeyd xanın fərar etməsi.*** Həmin gün [Übeyd xan] Baxərzdən Herat tərəfə geri qayıdıb, özü ilə birlikdə olan Çingiziyyə [nəslinin] kiçik və böyük sultanlarını toplayaraq, «kəngaş» məclisi qurdu və getmək, yoxsa qalmaq barədə onlarla məşvərət etdi. O dedi:

- Qızılbaşlar bu qışda səfər məşəqqətinə qatlaşıb, uzaq yoldan gəlmişlər və çoxlu zəhmət çəkmişlər. Biz say baxımından onlardan çoxuq və öndəyik. Əgər qalıb döyüşsək, çox güman ki, bu dəfə qalib gələrik.

Lakin özbək sultanları və tayfa başçıları hamısı yekdilliklə dedilər ki, bizim şah həzrətləri ilə müharibə etməyə taqətimiz yoxdur. Übeyd xan hərçənd bu mövzuda söz desə də, qəbul edilmədi. Buna görə də o, zərurət üzündən, qışın ortasında, günəş Dolça bürcündə olarkən, ağlayıb-sızlayaraq Malan körpüsünə vida edib, Bəlx yolundan Buxaraya yollandı.

Üfüqlər hökmdarı [Şah Təhmasibin] parlaq günəşi Herat sakinlərinin arzuları üzərinə işıq saçdı. [Şah] böyük bir əzəmət və cah-calalla o cənnət timsallı şəhərdə dayandı. Kədər və pərişanlıq ölkəsinin biçarələri o ədalətli hökmdarın ülvi kölgəsi altında qərar tutub, özbək istilasının əziyyətindən sonra asudəlik tapdılar. Sam mirzə Təbəsə getmişdi və Təbəs qalasında idi. Möhürdar Şahqulu xəlifə Zülqədər ədalətli şəhriyarın fərmanına əsasən, bəzi əmirlərlə Təbəsə gedib, onu aləmin pənahı olan dərgaha gətirdi. [Sam mirzə] əşrəfın hüzurunda xəcalət başını aşağı əyib, gözündən peşmançılıq yaşlarını axıtmağa başladı. Cəmşid məqamlı cənnətməkan şah onun təqsirini əfv etdi. Lakin fitnə törədicisi və fəsad baiskarı olmuş onun mülazimlərindən bəziləri cəzalandırıldı. Xorasan hökuməti kama yetmiş cavanbəxt şahzadə Sultan Məhəmməd mirzəyə tapşırıldı, Məhəmməd xan Şərəfəddin-oğlu Təkəlü isə onun lələsi və [Xorasan] əmirüləmərası [təyin] edildi.

***Şah Təhmasibin Qəndəharı tutmaq üçün hərəkət etməsi.*** Qış fəsli sona yetdi və ürəyaçan bahar təravət və sevinclə zühur etdi. Hərçənd Sam mirzə müxaliflik çölünə çıxaraq, özbaşına Qəndəhar üzərinə gedib bir iş görə bilməmişdi, buna baxmayaraq, həmin vaxt qardaşlıq münasibəti səbəbindən o həzrətin (Şah Təhmasibin) qeyrət damarı hərəkətə gəldi və o, qızılbaşlarla döyüşdə igidlik etmiş cağatay camaatından intiqam almaq istədi. Bu məqsədlə [Şah Təhmasib]

[446] Baxərz - İranın şimal-şərqində, Cam şəhərindən cənubda yerləşən tarixi yer adı. Nisa və Əbivərd - indiki Türkmənistanın cənubunda yerləşmiş tarixi şəhərlər. Əbivərd hal-hazırda Aşqabaddan 120 km. cənub-şərqdə, Kaaxka şəhərinin 8 km-də yerləşir. Qədim Nisa şəhərinin xarabalıqları isə Aşqabaddan qərbdə, Türkmənistanın Bagir kəndi yaxınlığında aşkar olunmuşdur (V.F.Minorsky. «Tadhkirat al-muluk», p.168; О.Экаев. Туркменистан и туркмены в конце XV - в первой половине XVI века / по данным «Алам ара-и Сефеви»/. Ашхабад, 1981, с.31).

Qəndəharı və Zəmindavəri[447] tutmağa yollandı. Hirmənd[448] çayı kənarında o, Əmir sultan Rumlunu çoxlu qoşunla qabaqcadan göndərdi. Qəndəhar hakimi Xoca Kəlan kama yetmiş şəhriyarın səadətli gəlişindən xəbərdar olduqda onun sabitlik və qərarlılığının təməli sarsıldı. O, öz əqrəbalarından Gənci Xoca adlı birisini qalada qoyub, özü Sind tərəfə getdi. Şahın fələyi bürüyən mübarək çətirinin günəşi Qəndəhar diyarının üfüqündən doğduqda Gənci Xoca şahənşahın təzyiqinin və hücumunun qorxusundan itaət və tabeçilikdən savayı bir çarə tapmayıb, cahanın pənahı olan dərgaha tələsdi, şəhərin və qalanın açarlarını uca sarayın xadimlərinə təslim etdi. Mələklər ordusuna malik olan şah həzrətləri o vilayətin hakimliyini Budaq xan Qacara verdi, daha sonra isə müzəffər və qalib şəkildə hərəkət yüyənini Herat tərəfə döndərdi.

Elə ki o həzrətin Qəndəhar yürüşündən qayıdışı xəbəri Buxaraya çatdı, Übeyd xanın və özbək sultanlarının canına böyük bir vahimə düşdü. Onlar Bəlxdən, Səmərqənddən və Buxaradan yaxşı nitq qabiliyyətinə malik elçilərini töhfə və hədiyyələrlə aliməkan şahın səltənət dərgahına göndərib, Qəndəharın fəthi barədə təbriklərini çatdırdılar. O həzrət bir neçə gün ehtiyac sahiblərinin mətləblərinin və məramlarının yerinə yetirilməsi ilə məşğul olub, o vilayətin zəruri məsələlərini qüdrətli dövlətin mənafeyinə uyğun şəkildə nizam-intizama salaraq, 944-cü il aylarında (10.06.1537 - 29.05.1538) ilahi yardımın yol göstərməsi ilə birbaşa İraq tərəfə yollandı. Məhəmməd xan Şərəfəddin-oğlu kama yetmiş adlı-sanlı şahzadənin xidmətində Xorasan hüznlülərinin əhvalındakı pərişanlığı aradan qaldırmaqla və qəlbi qırıq olanların vəziyyətini yaxşılaşdırmaqla məşğul oldu, rəiyyətlərin və təbəələrin rifah halının yüksəldilməsinə çalışdı.

***Özbək padşahı Übeyd xanın vəfatı.*** Übeyd xan ondan sonra ayağını ədəb dairəsi içinə yığıb, faydasız gəl-get etməkdən əl çəkdi və bir-iki il ondan bir hərəkət baş vermədi. Nəhayət, 946-cı il aylarında (19.05.1539 - 07.05.1540), zülmə məruz qoyduğu məzlumların ahının təsirindən, [Übeyd xan] böyrünü xəstəlik yatağı üzərinə qoydu və ağır bir xəstəliyə tutularaq, Heratı tutmaq və Malan körpüsünü seyr etmək arzusu ilə Buxarada can verib, axirət dünyasına tələsdi. Xorasan sakinləri o imansız qaniçənin zülmündən və tüğyanından xilas oldular.

Xorasan əhvalatlarının bir qismi bu səhifələrdə qeyd olundu. Biz mövzunun ardıcıllığına riayət edərək, yuxarıda qeyd olunmuş Xorasan hadisələri ilə eyni vaxtda baş vermiş müxtəlif hadisələri ərz etmədik. İndi isə vaxt gəlib çatmışdır ki, Azərbaycan sərhədindəki qəribə hadisələri və Rum sultanının o hüduda və ölkəyə qoşun çəkməsini bəyan səhifəsi üzərinə yazaq, sonra isə yenə də Xorasan əhvalatlarının ardından bəhs edək.

---

[447] Zəmindavər - Əfqanıstanın cənubunda, Şərqi Sistanda, dağlıq ərazidə yerləşən vadi və tarixi mahal. Qəndəhardan Hindistana gedən yol Zəmindavərdən keçirdi.
[448] Hirmənd (Hilmənd) çayı - Əfqanıstanda, Hindiquş dağlarının Baba silsiləsindən başlayıb, Hamun gölünü su ilə təmin edir və İran ərazisində, Zabul şəhəri ətrafında, axarsız Sistan çökəkliyində qurtarır.

## RUM XONDGARI SULTAN SÜLEYMANIN ƏCƏM DİYARINA QOŞUN ÇƏKMƏSİ VƏ ONUN KƏSRA VƏ CƏM TAXTINI BƏZƏYƏN [ŞAH TƏHMASİBLƏ] MÜBARİBƏSİ HAQQINDA

Yuxarıda ona işarə edildi ki, mələk ordulu, Cəmşid rütbəli Şah [Təhmasibin] səadətli hakimiyyəti zamanında Rum padşahı Sultan Süleyman bədbəxt fitnəkarların təhrik və fəsadı ilə dörd dəfə Əcəm diyarına ordu çəkmiş və Cəmşid rütbəli cənnətməkan şahla müharibəyə başlamışdı. Birinci dəfə [bu müharibə] Ülamə Təkəlünün təhriki ilə oldu. Bu macəranın icmal yolu ilə şərhi ondan ibarətdir ki, Süleyman şanlı xaqan həzrətləri zamanında Ülamə Təkəlü yasavullar sırasında idi, get-gedə xidmət pillələrini aşıb, orduda hərbi fəaliyyətinə görə əmirlik rütbəsinə yüksəldi. Çuxa sultanın qüdrət və ixtiyar sahibi olduğu zaman o, Azərbaycanın əmirülümərası olmuşdu. Çuxa sultan öldürüldükdən sonra onun beynində lovğalıq və qürur buxarı yüksəldi və istədi ki, Çuxa sultanın yerinə qüdrətli vəkil olub, dövlət işlərini ələ keçirsin. Məqsədinə çatmadığına görə, qeyd edildiyi kimi, bu xanədanın [onu] yetişdirdiyini unudub, bu əbədi dövlətdən üz çevirərək, Ruma getdi. Orada fitnə törədib, xondgarı Əcəm diyarını tutmağa təhrik etdi. Xondgar əvvəlcə əlli min nəfərlə Fil paşanı bu tərəfə göndərdi. Bitlis[449] hakimi Şərəf xan Rudəki Kürd bu xoşbəxt sülalənin (Səfəvilərin) təbəələrindən idi. Fil paşa öncə onun üzərinə gedib, onu vilayətdən çıxardı və istədi ki, Van sərhədinə qoşun çəksin. Cənnətməkan şah güclü ordu ilə onun üzərinə hücum etdi. Fil paşa fələk calallı şəhriyarın qorxusu və əzəməti qarşısında müqavimətə tab gətirməyib, topları qoyaraq qaçdı.

O qaçdıqdan sonra müzəffər bayraqlar Übeyd xan Özbəyin fitnəsini aradan qaldırmaq üçün Xorasan tərəfə hərəkət edərək, darüssəltənə Heratdan Mavəraünnəhrə getmək istədikdə Ülamə xondgarın yanına bir-birinin ardınca elçilər göndərib dedi ki, qızılbaş padşahı Xorasandan Mavəraünnəhrə ordu çəkərək, özbək qoşunları ilə vuruşmaqla və o diyarda moğol və tatarlarla müharibə etməklə məşğuldur və [buna görə də] Azərbaycan və İraq boşdur. Sultan Süleyman onun sözü ilə hədsiz qoşunla İstanbuldan Azərbaycan tərəfə hərəkət etdi. O, öz böyük vəziri («vəziri-əzəm») İbrahim paşanı səksən min nəfərlə mənqəlay təyin edərək, özü onun ardınca yola düşdü. İbrahim paşa Ülamə ilə birləşib, onu Ərdəbilə və başqa paşaları isə Azərbaycan şəhərlərinə göndərdi və əksər mahalları ələ keçirdi. Bu xəbər Üləng-neşində əzəmətli şəhriyara çatan kimi o, Mavəraünnəhr yürüşündən əl çəkərək, yubanmadan Xorasandan İraqa yönəldi və iyirmi bir köç mənzili ilə Reyin Kəbud-Günbəd [adlı yerinə] çatdı. Şahın mübarək məiyyətinin dönüş xəbəri İbrahim paşaya çatdığı zaman qoşununun çoxluğu və ordusunun bolluğuna baxmayaraq, onu qorxu bürüdü və Sultan Süleymana xəbər göndərdi ki, qızılbaş padşahı Xorasandan iyirmi bir köç mənzili ilə Reyə gəlmiş,

[449] Bitlis (Bidlis) - Türkiyədə, Van gölündən cənub-qərb tərəfdə yerləşən bir şəhərdir.

mənim üzərimə sürətlə hərəkət edir, nökərlər isə padşahların əzəməti qarşısında tab gətirə bilməzlər.

**Beyt**

«Onunla vuruşa sən özün gəlsən,
Meydanda yalnız sən ona bərabər ola bilərsən».

Sultan Süleyman tam sürətlə Təbrizə gəlib, İbrahim paşaya qoşuldu[450]. Sürətli hərəkətin şiddəti nəticəsində qazilərin atlarının əksəriyyəti yararsız hala düşmüşdü. Xorasan yürüşündən qayıtdıqlarına və ordu arasında yorğunluq göründüyünə görə qazilər dincəlmək və Azərbaycana yürüşə və rumilərlə müharibəyə hazırlaşmaq üçün öz evlərinə dağıldılar. Belə ki, Qəzvində şahın məiyyətində yeddi min nəfərdən artıq [döyüşçü] qalmamışdı. [Şah] Bəhram mirzəni, Əlqas mirzəni, Hüseyn xan Şamlunu bəzi əmirlərlə ordunun mənqəlayı təyin edib, Təbrizə tərəf göndərdi. Müzəffər bayraqlar da onların ardınca gedib, Əbhərə çatdılar. [Burada] xəbər gəldi ki, xondgar Təbrizdən İraqa tərəf yönəlmiş, Bəhram mirzənin [başçılıq etdiyi] qızılbaş qoşunları ilə Rum ordusunun mənqəlayı olan İbrahim paşa arasında Qızılüzən çayının bu tərəfində döyüş baş vermiş, Bəhram mirzə və əmirlər vuruşa-vuruşa dağlara çəkilmiş və saysız-hesabsız Rum ordusu hücum edərək, köçbəköç irəliləməkdədir. Bu xəbərlərdən müzəffər ordu sıralarında böyük sarsıntı yarandı. Sədaqətli adamlar bu zavalsız dövlətin tale qüdrətinə inanırdılar, amma riyakar və ikiüzlülər fikirlərini dəyişmişdilər.

Bu əsnada Kuhi-Giluyə[451] hakimi Əlvənd xan Əfşar xeyli qoşunla gəlib yetişdi, öz nizam-intizamlı qoşununu şahın nəzərinə çatdırdı. Hər tərəfdən bir dəstə gəlib, hökmdar ordusuna qoşuldu.

Cənnətməkan şah istədi ki, Bəhram mirzənin və [onunla birlikdə olan] əmirlərin köməyinə getsin. Amma [bu arada] xəbər gəldi ki, Sultan Süleyman hədsiz qoşunla Miyanəci[452] keçib, Sultaniyyəyə çatmışdır. Bəhram mirzə və əmirlər qayıdaraq, şah ordusuna qoşuldular. Bu əsnada Əlaüddövlə Zülqədərin oğlu Kor Şahruxun oğlu Məhəmməd xan Zülqədər əşrəfin xidmətində böyüdüyünə və oğul kimi sayıldığına baxmayaraq, batinindəki inadını zahirə çıxarıb, atasının qızılbaşlarla baş vermiş əhvalatına görə Burun sultan Təkəlünün oğlu Hüseyn xan və bir sıra digər şəxslərlə birlikdə dönük çıxaraq, düşmənlərə qoşuldu. Cənnətməkan şah dəfələrlə çirkin işlər görmüş Hüseyn xan Şamlu, Qazi xan

[450] İbrahim paşa Təbrizə 13 iyun 1534-cü ildə, Sultan Süleyman isə həmin ilin sentyabr ayının 27-də daxil olmuşdu (J.V.Hammer. Osmanlı tarihi, c. I, s.481).
[451] Kuhi-Giluyə - İranın Fars vilayətinin şimal-qərb tərəfi belə adlanırdı.
[452] Miyanəc (Miyano) - Cənubi Azərbaycanda, Təbrizdon 175 km. Cənub-şərqdə, Qızılüzən çayı kənarında yerləşən şəhər.

Təkəlü və Məlik bəy Xoyi[453] kimi digər nifaq təbiətli əmirlərə də güvənmirdi. Buna görə də o, candan keçən mübarizlərin toplanmasına kimi bir neçə gün döyüşü təxirə saldı. Nəhayət, «göylərin və yerin qoşunları Allahındır» ayəsinin[454] sirri aydın oldu və qeyb qoşunları Rum ordusunun hücumunu dəf etməyə başladı. Əqrəb [bürcünün][455] 13-cü günündə Sultaniyyədə şiddətli qar yağdı. Necə ki, Kamal İsmayıl[456] deyibdir:

**Beyt**

«Çiyidin pambıqda gizləndiyi kimi,
Dağların cismi qar içində gizlənmişdir.»

Orada Rum ordusunun çadırları qar içində gizləndi. Rum ordusundan çoxlu adam qar altında qalıb, soyuqdan həlak oldu. Şairlərdən birisi bu hadisəyə aid belə deyib:

**Beyt**

«Sultaniyyəyə gedib o qəribə çəmənə baxdıqda
İki min gorsuz-kəfənsiz ölü gördüm.
Dedim: Bu qədər osmanlını kim öldürüb?
Səhər küləyi ayağa qalxıb dedi: Mən.»

Sultan Süleyman daha İraqda qala bilmədi. Azərbaycan yolu ilə qayıtmaq [burada] azuqənin azlığından çətin olduğu üçün o, abad olan Şəhrizur[457] yolu ilə getdi ki, bu qışı Mosulda keçirsin. Ülaməni isə [Məhəmməd xan] Zülqədərlə birlikdə Təbriz tərəfə göndərdi. Cənnətməkan şah onların üzərinə yürüş etdi. Qazi xan Təkəlü də duz-çörəyi unudub, hökmdarın ordusundan qaçaraq, Təbrizə getdi, Ülaməni və onun adamlarını xoşbəxt hökmdarın (Şah Təhmasibin) gəlməsindən xəbərdar etdi. Onlar Van tərəfə qaçaraq, Van qalasına sığındılar. Cənnətməkan şah Hüseyn xan Şamlunun Sam mirzə ilə dostluğundan şübhələnərək, ona güvənmirdi. Bu əsnada o, (yəni Hüseyn xan) qaçmaq istəyirdi. [Şah] onu qətlə yetirdikdən

---

[453] S-297, v.38b. Bu şəxs Cənubi Azərbaycanın Xoy şəhərindən olduğu üçün Xoyi adlanırdı. Lakin Tehran çapında (s.67) onun soyadı yanlış olaraq Cüveyni kimi göstərilmişdir.
[454] «Qurani-Kərim», «Fəth» surəsi, 4-cü ayə.
[455] Əqrəb bürcü - İran günəş təqviminin səkkizinci ayı olan aban ayına (23 oktyabr-21 noyabr) uyğundur.
[456] Kamal İsmayıl (Kəmaləddin İsmayıl ibn Məhəmməd İsfahani) - XIII əsrin İran şairidir. 635 / 1237-ci ildə dünyasını dəyişmişdir. 12 min beytlik divanı vardır (Pənahi Makulu. Ədəbi məlumat cədvəli. Bakı, 1962, s.192).
[457] Şəhrizur - müasir İran - İraq sərhədi yaxınlığında, İraqın Süleymaniyyə şəhərindən cənub-şərq istiqamətdə, Diyala çayı vadisində yerləşən qədim şəhər.

sonra Vana tərəf yürüdü. [Şah] onları Van qalasında mühasirə edərək, o qışı qalanın yanında keçirdi.

Amma Sultan Süleyman Mosula tərəf yönəldiyi zaman Bağdad hakimi Məhəmməd xan Şərəfəddinoğlunun və təkəlü tayfasının yanına adam göndərərək, onları xondgara itaət etməyə və Bağdad qalasını təslim etməyə çağırdı. Məhəmməd xan bu işdən imtina etdi. Lakin böyüklər və ağsaqqallar təkəlü əmirlərindən olan Çuxa sultanın öldürülməsi, Ülamə və Qazi xanın qaçması səbəbi ilə cənnətməkan şahdan vahiməyə düşərək, elliklə xondgara itaət və dostluq etməkdə əlbir olub, qalanın açarını xondgara göndərərək, onu [Bağdada] çağırdılar. Xondgar Mosul qışlağını tərk edib, Bağdada yola düşdü. Sufi bir kişi və dövlətə sədaqətli olan Məhəmməd xan Şərəfəddinoğlu, şahın əmrinə əsasən, şəhər və qaladan əl çəkərək, körpünü uçurdu, şahısevən olan qohum və təbəələrindən ibarət təxminən üç yüz nəfərlə Bəsrə[458] yolu ilə Dizfula çatdı və oradan Şiraza gəldi. Təkəlü qoşunlarının qalanı Sultan Süleymanı qarşılayaraq, onu Bağdada gətirdilər və o il Bağdadda qışlaq etdilər.

## SULTAN SÜLEYMANIN İKİNCİ DƏFƏ [AZƏRBAYCANA] GƏLMƏSİ

O biri il, 941-ci ildə (13.07.1534 - 01.07.1535) Sultan Süleyman ikinci dəfə Bağdaddan Əcəm diyarına qoşun çəkərək, İraq vilayətinə qədəm qoydu və Dərcəzinədək gəldi. Buna görə də cənnətməkan şah Van qalasının yanından köçüb, Təbrizə yönəldi. Orada mötəbər əmirlərdən sayılan və başqa ikiüzlülər sırasında olan Məlik bəy Xoyi də öldürüldü. Oradan isə [şah] cəngavər ordu ilə Rum ordusuna tərəf hərəkət etdi. Müzəffər ordunun çərxçiləri Dərcəzin yanında xondgarın ordusunun mənqəlayına çatıb, döyüşə girib, qələbə çaldılar.

***Rum sultanının qaçması.*** Sultan Süleyman qızılbaş ordusunun qələbəsi və rumilərin məğlubiyyəti xəbərini eşitcək əsəbiləşərək, öz əmirlərini məzəmmət etdi və dedi: «Kiçik bir dəstə qaravul və çərxçi qarşısında məğlub olmuşsunuzsa. qızılbaş padşahı ilə necə döyüşəcəksiniz?» O, bundan məyus olub, vuruşmaqdan və qarşıdurmadan əl çəkib, Dərcəzindən köç etdi və Ruma tərəf getdi, bəlkə də, qaçdı. Şahın müzəffər bayraqları onun ardınca hərəkət etdilər. Van qalası ətrafına çatdıqda Bəhram mirzəni və bəzi əmirləri rumiləri təqib etməyə göndərdilər. Şah ordusu Van çəmənində dayandı. Van qalasında olan rumilər şahın əzəmət və cəlalı qarşısında tab gətirməyib qaçdılar.

Bundan öncə xondgar Diyarbəkrin əmirülüməarası Məhəmməd paşanı Ülamə və bəzi əmirlər və paşalarla birlikdə iki min yeniçəri ilə Van qalasında olan adamların köməyinə göndərmişdi. Onlar Vostana çatdıqda cənnətməkan şaha onların gəlməsi xəbəri çatdı. Bir dəstə cəngavər döyüşçülərlə [şah] onların üzərinə sürətlə hərəkət etdi. Rum ordusunun qaraltısı görünəndə qızılbaş

[458] Bəsrə - indiki İraqın cənubunda, Dəclə və Fərat çaylarının qovuşduğu Şəttülərəb çayı üzərində mühüm liman şəhəri.

qoşununun əksəriyyəti gecə yuxuya dalmışdı. Sürətli hərəkətin şiddətindən müzəffər üzənginin ətrafında iki min nəfərdən artıq [döyüşçü] yox idi.

***Rum qoşununun məğlubiyyətə uğraması.*** Sinan paşanın öldürülməsi. Ülamə şahlığın müzəffər bayraqları arasında o həzrətin (Təhmasibin) «çapmaq, basqın etmək» mənasındakı «yüyürük» adı ilə məşhur olan şəxsi parlaq bayrağının ayparasını görüb, [onu] tanıdı və Məhəmməd paşaya dedi:

- Şah həzrətləri özü şəxsən buraya gəlmişdir. Vuruşmaq əlverişli deyil. Biz o həzrətin əzəməti və calalı qarşısında dayana bilmərik.

Lakin Məhəmməd paşa öz qoşununun çoxluğundan və qızılbaşların azlığından qürurlanıb, döyüş nizamını aldı. Şiraz hakimi Qazi xan Zülqədər və bir dəstə müzəffər qorçulardan ibarət olan səadətli qoşunun bir həmləsi ilə [Məhəmməd paşa] məğlub edilərək, geri oturduldu. Bir göz qırpımında böyük bir dəstə qətl edildi və xondgarın mötəbər adamlarından bəziləri əsir alındı. Sağ qalanlar Ərciş qalasına[459] tərəf getdilər və adam göndərib, xondgardan yardım istədilər. Xondgar, Sinan paşanı əmirlərdən və sancaqbəyi paşalarından böyük bir dəstəsi ilə onların köməyinə göndərdi.

Qızılbaş ordusunun cəngavərlərindən Budaq xan Qacar çoxsaylı bir qoşunla onlarla rastlaşaraq, böyük bir hərb etdi Sinan paşa bu döyüşdə öldürüldü, böyük bir dəstə qətl edildi və əsir alındı. Sınan paşanın ölüm xəbəri Sultan Süleymana çatan kimi İbrahim paşanı Rum ordusunun qalanı ilə oraya göndərdi O isə Ərciş tərəfə hərəkət edən Bəhram mirzə və onunla birlikdə olan başqa əmirlərin üzərinə böyük bir qoşun göndərdi. İki tərəfin qaravulları arasında vuruşma baş verdi. Rumilər məğlub oldular İbrahim paşa qızılbaşlarla daha döyüşmək istəməyərək, Ərciş qalasında olan bütün adamları özü ilə götürüb, xondgarın ordusuna tərəf yönəldi Zavalsız dövlətin gücü ilə Ərciş qalası da ələ keçirildi oranın kutvallığı Əhməd sultan Sufioğluya tapşırıldı.

## RUM XONDGARI SULTAN SÜLEYMANIN ƏLQAS MİRZƏNİN TƏHRİKİ İLƏ ÜÇÜNCÜ DƏFƏ BU SƏRHƏDƏ VƏ BU ÖLKƏYƏ GƏLMƏSİ HAQQINDA

Mükalimə meydanının sərkərdələri xəbər ordusunun sıralarını belə düzmüşlər ki, Ülamə Təkəlü Əcəm məmləkətinin gözəlini Rum sultanının nəzərində elə məharətlə təsvir etmişdi ki, [Sultan Süleyman] heç vaxt onun arzusunu yadından çıxarmırdı və hər gecə onu ələ keçirmək xəyalını etmədən yata bilmirdi. Nəhayət, anlamaz və qanmaz şahzadə Əlqas öz düşüncəsinin azlığı ucbatından, özündən daha ağılsız olan bir dəstə adamın azdırması ilə hər iki dünyada öz xoşbəxtlik və səadətinin səbəblərini məhv edərək, aləmi yaradan Allahın meyili ilə yüksəlişə nail olmuş o cürə mehriban qardaşa (Şah Təhmasibə)

---

[459] Ərciş – Türkiyənin şərqində, Van gölünün şimalında yerləşən şəhər-qala.

xidmətdən üz çevirərək, Ruma getdi. Sultan Süleyman onun vücudundan Əcəm mülkünün alınması üçün bir fürsət kimi yararlanaraq, belə bir xam xəyala qapılıb və cahillər başçısının (Əlqasın) boş sözlərinə uyub, bu tərəfə hərəkət etdi.

Bu əhvalatın tarixi belədir ki, cənnətməkan şah həzrətləri Əlqas mirzəni başqa qardaşlarından çox sevirdi və onlardan daha artıq ona sevgi və mehribanlıq göstərirdi. Belə ki, Şirvan vilayətini aldıqdan sonra qardaşlarından onu üstün tutaraq, «şirvanşah» adını ona verdi və onu o vilayətin hökumət və ixtiyar sahibi etdi. Şahın [ona] göstərdiyi ehtiram və məhəbbət qardaşlarının həsədinə səbəb idi. Nadan [Əlqas] mirzə bəzi fitnəkarların azdırması və təhriki ilə o həzrətin onu bəsləyib böyütməsinin qarşısında nankorluq və qiyam etdi. [Əlqas mirzə] Şirvanda çoxlu qoşun, səltənət və padşahlıq ləvazimatını hazır gördükdə ayağını itaət dairəsindən kənara qoydu və müxaliflik qapılarını açaraq, o həzrətin razı olmadığı işlər görməyə başladı. Əşrəfin mübarək könlü ondan döndü və onun fitnəsini dəf etmək istədi. Adı çəkilən (Əlqas mirzə) o həzrətin üz çevirməsi səbəbindən qəflət yuxusundan bir qədər ayılaraq, nalayiq işlərindən peşman olub, təəssüf etdiyini bildirdi. [Əlqas mirzə] öz anasını və oğlu Əhməd mirzəni cənnətməkan şahın hüzuruna göndərərək söz verdi ki, bütün ömrü boyu ayağını itaət yolundan kənara qoymayacaq. Cənnətməkan şah onun üzrxahlığını qəbul edərək, onun təqsirindən keçdi. [Şah] Seyid Məhəmməd Kəmunə, Sevindik bəy Qorçubaşı, Məsum bəy Səfəvi, Şahqulu bəy Xəlifə Möhürdar və Bədr xan Ustaclu kimi dövlətin böyük əmirlərindən və ağsaqqallarından bir neçə nəfəri onun anası ilə göndərdi ki, ona and içdirsinlər ki, bir daha nalayiq işlər görməyəcək. Əmirlər, göstərişə əsasən, işləri görüb qayıtdılar[460]. Qərara alındı ki, o qışda iki tərəfdən kafirlər diyarına qoşun yeridib, müharibə və cihad etsinlər.

***Əlqas mirzənin fərar etməsi və onun Rum sultanına qoşulması.*** Cənnətməkan şah Gürcüstana qəzavat yürüşünə, Əlqas mirzə [isə] Çərkəz üzərinə qəzavata getdi. Amma əmirlər Şirvandan döndükdən sonra [Əlqas] öz adına sikkə zərb edib xütbə oxutdurdu, öncəkindən daha çox müxalifət və üsyan nümayiş etdirdi. Cənnətməkan şah Gürcüstan yürüşündən döndükdən sonra, verdiyi anda xələf çıxan [Əlqasın] imansızlığı və ədəbsizliyi barədə xəbər aldı. Onu tənbeh etmək və cəzalandırmaq lazım gəldi. Hələ [Əlqas] Çərkəzdə olarkən [şah] İbrahim xan Zülqədəri, Gökcə sultan Qacarı və Şahverdi sultan Ziyadoğlunu bir dəstə müzəffər qoşunla sürətlə Şirvana göndərdi. [Onlar] o vilayəti ələ keçirib, Gülüstan qalasını mühasirə etdilər.

Əlqas mirzə bu xəbəri eşitcək Çərkəz vilayətindən qayıdıb, Dərbəndə gəldi. [Əmirlər] iki dəfə onun üzərinə qoşun çəkdilər, hər dəfə də əmirlər onun ordusuna qalib gəldilər. Qızılbaşların arasındakı fitnəkar və bədxah [ünsürlər] bu döyüşlərdə öldürüldülər. Bu xəbərlər əşrəfin diqqətinə çatdıqda bəzi əmirləri [onların] köməyinə göndərdi. Böyük əmirlər onun üzərinə hücum etdilər. [Şah Təhmasibin]

---

[460] Bu əhvalat 1546-cı ildə baş vermişdir (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с. 83).

qələbə ayətli bayraqları da o tərəfə hərəkət etdi. [Əlqas mirzə] şahın mübarək məiyyətinin və adlı-sanlı əmirlərin qəlib çıxması xəbərini eşidən kimi sonsuz qorxu və dəhşətlə Xınalıq[461] tərəfə qaçdı. Onun adamları dəstə-dəstə ondan ayrılaraq, müzəffər orduya qoşuldular. Əmirlər onu təqib edərək, Samur kənarında ona çatdılar. O, (yəni Əlqas mirzə) özünü o qədər itirmişdi ki, ayaqqabı geyməyə fürsət tapmayıb, qırx-əlli nəfərlə Dağıstan tərəfə, Şamxalın yanına getdi, oradan da gəmiyə minib, Kəfəyə[462] getdi və Kəfədən də İstanbula gedərək, Sultan Süleymanın yanına gəldi.

Dərbənd qalası və Gülüstan qalası bir müddət Əlqas mirzənin adamlarının əlində idi. Müzəffər qoşunlar onları mühasirə etdilər və nəhayət, onları qalib dövlətin başçılarının əlinə keçirdilər. Mehtər Dövlətyar və bəzi xainlər cəzalandırıldılar. Cənnətməkan şah Şirvan vilayətini adlı-sanlı şahzadə İsmayıl mirzəyə həvalə etdi və Gökcə sultanı şahzadənin xidmətində qoyaraq, geri döndü[463].

Əlqas mirzə bir neçə gün İstanbulda qaldıqdan sonra yalan sözlər və boş danışıqlarla Sultan Süleymanı həvəsləndirdi. [O], 955-ci (1548) ildə böyük bir qoşun və dağa bənzər bir ordunu Rum, Şam, Misir məmləkətlərindən və Qaraman, Rəbiyə[464] və İraqi-Ərəb ölkələrindən toplayaraq, çoxlu top, araba, zərbzən və saysız-hesabsız yeniçərilərlə İstanbuldan çıxıb, Əcəm vilayətinə tərəf hərəkət etdi. Uca rütbəli şah da darüssəltənə Təbrizdən döyüş məqsədilə çıxaraq, qoşun yığmaq üçün bir ay Şənbi-Qazanda[465] dayandı. Orada Şirvan qoşunu ilə İsmayıl mirzə və başqa əmirlər və hakimlər ətrafdan və müxtəlif yerlərdən gəlib, hökmdar ordusuna qoşuldular. Ali rütbəli şah işbilən adamlar göndərdi. Onlar Təbrizdən Rum sərhədinədək düşmənin yoluna od vuraraq, bütün taxıldan və ot-ələfdən əsər-əlamət qoymadılar. Təbriz xalqı qanovları elə qapadı ki, içməyə belə su tapılmırdı; yemək də həmçinin.

[Şah] böyük əmirlərdən Abdulla xan Ustaclunu Bədr xan Ustaclu, Hüseynxan sultan Rumlu, Şahverdi sultan Ziyadoğlu və başqaları ilə birlikdə qoşuna mənqəlay təyin edərək, Mərəndə tərəf göndərdi. Müzəffər məiyyət Təngiz yaylağına tərəf yönəldi, o yaylağın otlaqları dünya hökmdarının dayanacaq yeri oldu. Rum sultanı bu ölkəyə çatdıqda Ülamə Təkəlünü bir dəstə Rum qoşunu ilə Van qalasını mühasirə etməyə göndərdi və Xoydan Əlqas mirzəni bəzi paşalar və

---

[461] Xınalıq - Azərbaycanın Quba rayonunda, Quba şəhərindən 60 km. cənub-qərbdə, Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdə yerləşən kənddir (ASE, c. X, s.89).

[462] Kəfə - Krım yarımadasındakı Feodosiya şəhərinin köhnə adı.

[463] Bu hadisələr 1547-ci ildə cərəyan etmişdir (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с. 83-86).

[464] Rəbiyə (Diyar-Rəbiyə) - orta əsrlərdə indiki Diyarbəkrin qonşuluğunda, Dəclə və Fərat çayları arasında yerləşən və Diyarbəkr vilayəti ilə birlikdə əl-Cəzirə adlı tarixi ölkənin tərkibinə daxil olan tarixi vilayəl (Əbdürrəşid əl-Bakuvi. Kitab təlxis əl-asar, s.89).

[465] Şənbi-Qazan - Hülakü hökmdarı Qazan xanın (1295-1304) Təbrizin cənub-qərbində saldırdığı şəhərcik (V.Z.Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003, s.300).

sancaqbəyilərlə qırx min nəfərə qədər [qoşunla] Mərəndə, avanqardda duran əmirlərin üzərinə göndərdi. Özü isə qalan döyüşkən ordu ilə Təbrizə tərəf hərəkət etdi. Mərəndə getmiş böyük əmirlər Ziyadoğlunu bir dəstə xoşbəxt ordunun döyüşçüləri ilə qaravulluğa göndərmişdilər. [Onlar] Rum ordusunun ön hissəsinə çatan kimi onlarla rumilər arasında böyük müharibə və şiddətli döyüş baş verdi. Bu vuruşmada Ziyadoğlu qəhrəmanlıq göstərdi. Mərənd çəmənində olan əmirlər dəstə-dəstə yetişən Rum qoşunlarının çoxluğundan ehtiyat edərək, dağa tərəf çəkildilər. Onlar [vəziyyətdən] xəbərdar olmaq üçün bir dəstəni Mərənddə saxlamışdılar.

Əlqas mirzə və rumilər Mərəndə çatan zaman xəbər almaq üçün orada qalan qızılbaş dilavərləri hücum qəsdi ilə özlərini onlara yetirib, döyüşə atıldılar və atlarını çaparaq, hərbçilərə layiq şəkildə vuruşdular. Rumilər bu kiçik dəstənin ardınca böyük bir qüvvənin pusquda durduğunu düşünərək, döyüşə [girməyə] cəsarət etmirdilər. Nəhayət, iki tərəf arasında ağır bir toqquşma və şiddətli bir vuruşma baş verdi. Qızılbaşlar vuruşa-vuruşa əmirlərə qoşuldular. Rumilər o kiçik dəstənin cəsarət və mərdliyindən narahat oldular. Abdulla xan və qızılbaş əmirləri Mərənd çəmənindən getdikdən sonra onlar (rumilər də) geri dönməyi məsləhət bilərək, oradan qayıdıb, Təbrizin Çərəndab [adlı yerində] Sultan Süleymana qoşuldular. Abdulla xan və əmirlər də Əşkənbər yaylağında mübarək məiyyətə qoşuldular. Cənnətməkan və aliməqam şah həzrətləri xoşbəxt ordunun döyüşçülərini Rum ordusunun yan-yörəsinə və ətrafına göndərdi. [Onlar] basqınlar edərək, gecə-gündüz düşmənləri rahat qoymurdular, hər gün bir dəstəni ələ keçirib qətlə yetirirdilər. Elə [vəziyyət] yaranmışdı ki, rumilər azuqə əldə etmək üçün öz ordularından bir addım [belə] bayıra qoya bilmirdilər. Azuqə və at arpası Rum ordusunda ənqa quşu kimi əsla tapılmırdı. Çörək olmadığından dövlətli ilə yoxsul bərabər idi. Rumilər aclıqdan şəhəri qarət etməyə başladılar, amma yeyinti məhsullarından heç nə onların əlinə keçmirdi. Sultan Süleymanın Təbriz şəhərində qaldığı dörd gün ərzində minlərlə at və qatır əldən düşüb, yoxluq otlağına getdi.

***Sultan Süleymanın Təbrizdən fərar etməsi.*** Sultan Süleyman bu yürüşdən peşman olub, geri dönməkdən başqa bir çarə tapmadı. Əşkənbərdən mübarək ordu tamamilə köç etdiyi gecə qızılbaş ordusunun tezliklə gəlib çatacağı xəbəri Rum ordusunda yayılan zaman Sultan Süleyman köç təbili çaldırıb, əvvəlcə ağır əşyaları və yükləri göndərdi, sonra isə özü sübhədək atının üstündə oturub, səhər yola düşdü. Təbrizin lotu-potuları və qara camaatı rumiləri qətl və qarət etməyə başladı. Təbrizdəki əclaf və alçaqların ölümcül iti xəncərinin yarasından [rumilərdən] çoxlu adam yoxluq yoluna getdi. Rumilərin Çərəndabda olduqları bu bir neçə gündə [baş vermiş] qəribə hadisələrdən biri [odur ki], elə ildırım [çaxdı], tufan qopdu ki, toz-torpaq qalxdı; hava elə qaranlıqlaşdı ki, iti baxan və uzaq görən [adamlar] işıqlı gündüzü qaranlıq gecədən ayıra bilmədilər. Rumilər gedəndən sonra zülmət və qaranlıq çəkilib getdi və hava mülayimləşdi.

İran hökmdarının dərya kimi coşan qoşunları onun qəzavü-qədər kimi icra edilən fərmanına görə, rumiləri təqib edərək, hər yerdə təsirli hücumlar edirdilər.

Sultan Süleyman Vana tərəf gedib, qala dələn toplar və badliclər[466] qurub, qalanı almaqdan ötrü tədbirlər gördü, çox çalışdı. Van qalasının kutvalı Şahəli sultan Çepni[467] rumilərin çoxluğundan və hücumundan qorxu və vahiməyə düşərək, qalanı təslim edib, bayıra çıxdı. Xondgar, Rüstəm paşanı Van qalasında qoydu. Çuxursəədlə Ərzurum arasında yerləşən, bir tərəfdən də Gürcüstanın Mesx[468] [mahalına] bitişik olan və iki tərəfin əsgərlərinin gəlib-getməsi nəticəsində xarab olmuş Qars qalasını rumilər bərpa etdilər. [Onlar] Amasya, Ərzurum, Toqat, Sivas, Aqşəhr[469] və başqa şəhərlərdən dörd-beş min nəfər camaatı və mənsəb sahiblərindən oraya göndərmişdilər. Bu zaman Sultan Süleyman, Osman Çələbi adlı öz qullarağasını dörd-beş min nəfər süvari döyüşçü ilə oranı qorumağa göndərdi, özü isə Muşabad[470] tərəfə getdi.

Cənnətməkan şah həzrətləri [düşməni] təqib etməkdən əl çəkməyərək, İsmayıl mirzəni Gökcə sultan Qacarla o camaatın üzərinə Qarsa göndərdi. Onlar ildırım və külək süräti ilə hücum edib, qala civarında adı çəkilən qullarağasına və Rum qoşununa çatdılar. Onların arasında döyüş baş verdi, Müzəffər əsgərlər Rum qoşununa qalib gəldilər. Rum əsgərlərindən iki-üç min nəfər qətlə yetirildi. Qarsın abad edilməsi üçün ətrafdan toplanmış və başqa yerlərdən buraya köçürülmüş dörd-beş min adam da qazilərin qılıncının yemi oldu; quru da, yaş da qəzəb atəşi ilə yandırıldı. Qılıncdan qurtulanlar canlarının qorxusundan özlərini qalaya saldılar. Məhvedici dəstələr qalanı mərkəz kimi araya götürüb, üç gün ərzində mühasirədəkiləri elə ağır vəziyyətə saldılar ki, onlar aman deyə bağırdılar. Qullarağası Osman Çələbi və mühasirədəki altı yüz nəfərə yaxın adam aman alıb, bayıra çıxdılar. Qullarağası görüş zamanı qılıncla Toyğun bəy Qacarın[471] çiyninə dəlicəsinə zərbə endirdi. Rumilərin hamısı qılınca əl ataraq, şahzadəyə və məclisdə olanlara hücum etdilər. Buna görə də [rumilərə qarşı] ümumi qətliam baş verdi və o camaatdan bir nəfər belə nicat tapmadı. Qazilər kama yetmiş şahın buyruğu ilə qalanı dağıdıb, hökmdarın ordusuna qoşuldular.

***Şah [Təhmasibin] əmirlərindən hər birinin Sultan Süleymanın əmirlərinə qalib gəlməsi.*** Bu zaman Bəhram mirzə öz ölkəsi olan Həmədandan böyük qoşun və döyüş meydanı igidlərindən bir dəstə ilə gəlib yetişdi. Cənnətməkan şah həzrətləri onu Bayburd tərəfə göndərdi, İsmayıl mirzəni də ona yoldaş etdi. [Şah]

---

[466] Badlic - artilleriya növüdür.

[467] S-129, v.61b; S-297, v.41a. Bu şəxsin adı Tehran çapında (s.72) səhvən Şahəli sultan Çəkəni kimi yazılıb.

[468] Mesx (Mesxi) - Gürcüstanın cənubunda, Axısqa və Axalkalakidən Dmanisiyə qədər uzanan tarixi vilayət.

[469] Qars - Türkiyənin şimal-şərqində şəhər. Amasya - Türkiyədə, Yaşılirmaq Çayının orta axarlarında yerləşən şəhər. Toqat - Türkiyənin Amasya və Sivas şəhərləri arasında, Yaşılirmaq çayı dərəsində yerləşən şəhər. Aqşəhr - Türkiyədə, Toqatdan şərqdə, Sivasdan şimal-şərqdə, Koyluhisarla Suşehri arasında, Kelkit Çayı vadisində yerləşən yaşayış məntəqəsi. İndiki adı Akşardır. Bu Aqşəhri Gürcüstandakı Aqşəhr (Axalkalaki) və Konya yaxınlığında yerləşən Akşehirlə qarışdırmamaq lazımdır.

[470] Muşabad – Türkiyənin şərqində, Xınısdan cənubda və Əxlatdan qərbdə yerləşən indiki Muş şəhəri.

[471] Tehran çapında (s.72) bu şəxsin adı Təbğun bəy Qacar deyə yazılmışdır.

güclü dəstələrdən birini Əxlata və başqa bir dəstəni Adilcevaza göndərdi[472]. [Şah] Özü isə müzəffər və xoşbəxt tərzdə Xınıs və Pasin[473] ölkəsinə basqın edib, Muşabad vilayətinə tərəf yönəldi. Sultan Süleyman sördü ki, ali rütbəli cənnətməkan şah həzrətləri gündən-günə ətrafdan və kənardan gələn müzəffər və qələbə nişanlı qızılbaş əsgərləri ilə onu təqib etməkdən əl çəkmir. Əlqas mirzə xondgara demişdi ki, qızılbaş tayfaları ürəkdən məni istəyirlər və əgər Əcəm vilayətinə qədəm qoyaramsa, dəstə-dəstə mənim başıma toplaşacaqlar. Rumilər belə bir tədbir görməyə qərar verdilər ki, Əlqas mirzə və Ülamənin hərəsini bir tərəfə göndərsinlər və qızılbaşlar onların fitnəsini dəf etməklə məşğul olduğu zaman xondgarın ordusu salamat geri dönsün. Buna görədə Əlqas mirzəni beş min nəfərlə Kərkük və Şəhrizur[474] yolu ilə İraqa tərəf, Ülaməni on iki min nəfərlə[475] Ərzurum paşası ilə bərabər həmin vilayətə (Ərzuruma) tərəf göndərdilər. Xondgar öz yükləri («ağruq») ilə Bitlis yolundan keçərək, özünü Diyarbəkrə çatdırdı.

Cənnətməkan şah [isə] Muşabad vilayətinə qədər gedib, o yerləri yaxıb yandırdı, o diyarda abadlıqdan [əsər-əlamət] qoymadı. Ülamə Təkəlünün xondgarın ordusundan ayrılaraq Rum qoşununun bir dəstəsi ilə Tərcanda olduğu və Ərzuruma getdiyi xəbəri [şahın] cah-calallı qulağına çatanda ali rütbəli şah səba [küləyi] kimi gedən atını o tərəfə sürətlə hərəkət etmək məqsədi ilə cövlana gətirdi. O, hərəkətdə səba və şimal [küləklərindən] irəli gedirdi. Müzəffər əsgərləri dəstə-dəstə onun ardınca çatırdılar. Ülamə ilə birlikdə olan Rum qoşunları xoşbəxt padşahın hücumundan xəbərdar olan kimi o ordunun başçılarını hədsiz dəhşət və vahimə bürüdü. [Onlar] canlarının qorxusundan, qılınc və ox işlətmədən Tərcanı buraxıb, qaçmaq yolunu seçdilər. Şah məiyyəti zəfər və xoşbəxtliklə Tərcana çatdı. Rumilər qaçdığına görə qazilər onların ardınca bir neçə gün yol gedərək, hərbi qənimət («axtarma»)[476] gətirirdilər. [Qızılbaş ordusu] oradan Ərzincan tərəfə yönəldi. Bir müddət o vilayətin yerində mübarək çadırlar quruldu.

Ətrafa getmək əmri almış adlı-sanlı əmirlər - Şahqulu sultan Əfşar və yoldaşları Əxlatın əhalisini və mal-qarasını çapıb taladılar, beş min at, yüz min qoyun və əlli min inək ələ keçirib, salamatlıqla və qənimətlə qayıtdılar. Qaravulluğa getmiş Kuhi-Giluyə hakimi Mahmud xan Əfşar, Keçəl Şahverdi

---

[472] Əxlat və Adilcevaz – Şərqi Anadoluda, Van gölünün şimal-qərb sahilində şəhərlər.

[473] Pasin – Ərzurumun şərqindəki Dəvəboynu dağından Qarsdakı Soğanlı dağlarına və Aladağa qədər uzanan və Araz çayının yuxarı axarları boyunca yerləşən ovlaq və tarixi mahal. Xısın – Pasin ovalığından cənubda, Ərzurumla Əxlat arasında yerləşən yaşayış məntəqəsidir. Tehran çapında (s.72) Xınısın adı Həmiş, Pasinin adı isə burada və Tehran çapının digər yerlərində Masis olaraq yazılmış, lakin S-129 nüsxəsi (v. 62a, 65b) əsasında düzəldilmişdir.

[474] Tehran çapında (S-73) Kərkükün adı Kərkuyə kimi yazılmışdır. Kərkük - indiki İraq Respublikasının şimal-şərqində, Dəclə çayına tökülən Kiçik Zab və Tauq çayları arasındakı ərazidə yerləşən və orta əsrlərdən etibarən İraqın türk əhalisinin vətəni olan bir şəhərdir.

[475] Tehran çapında (s.73) və S-297 əlyazmasında (v.41b) «on iki min» yazıldığı halda, S-129 nüsxəsində (v.62a) «iki min nəfər» qeyd olunmuşdur.

[476] Axtarma - türkcə «axtarmaq» felindən götürülmüşdür və vuruşmadan sonra qalib tərəfin döyüş meydanını axtararaq, öldürülmüş düşmənlərin üzərindən topladığı qəniməti bildirən termindir.

Ustaclu və başqaları xondgarın bir dostə qapıqulu[477] və qaravullarına təsadüf etdilər. Onların arasında böyük döyüş baş verdi. Rumilər məğlub oldular. Müzəffər ordunun on min nəfəri ilə Adilcevaz və ətrafını çapıb-çalmağa getmiş Əli sultan Tatıoğlu Zülqədər Gözəl dərəsində xondgar ordusundan ayrılmış rumilərin paşa və başçılarının böyük bir dəstəsi ilə toqquşaraq, onlara qalib gəldi. Döyüş meydanı dilavərlərinin bir dəstəsi ilə Bayburd tərəfə getmiş xoşbəxt şahzadələr Bəhram mirzə və İsmayıl mirzə, Məhəmməd paşa Mək (?) oğluna[478] çatıb, müharibə mahnısı oxudular. Bəhram kimi intiqam alan ordu Bayburd ərazisini Rum əsgərlərinin qanına boyayaraq, çoxlu adam qətlə yetirdilər.

Sözün qısası, qızılbaş ordusunun başçılarının hamısı zəfər və qələbə ilə Keyvan calallı orduya yönələrək, əldə etdikləri çoxlu baş, «axtarma» və nemətləri Ərzincanda xoşbəxt və səadətli şahın nəzərinə çatdırıb, hər biri göstərdikləri xidmətə layiq surətdə şahın mərhəməti ilə təltif edildilər. Sultan Süleymanın Əcəm diyarına gəlməsindən vurulan itki və ziyan birə on ödənildiyindən və bu yürüşdə müzəffər qazilərin intiqam qılıncı ilə iyirmi min nəfərə yaxın rumi öldürüldüyündən, [qızılbaşlar] Ərzincandan yüyənlərini geri çevirib, İrəvana gəldilər, İrəvandan da Qarabağ tərəfə getdilər. Buradan [şah] İsmayıl mirzəni, Abdulla xanı və Gökcə sultanı Şirvana göndərib, Sevindik bəy Qorçubaşını böyük qorçuların bir dəstəsi ilə Şəki vilayətinə basqın etməyə yolladı.

Bu zaman xəbər yetişdi ki, xondgarın İraqi-Ərəb diyarına göndərdiyi Əlqas mirzə Şəhrizur yolu ilə gəlmiş, orada olan Bəhram mirzənin oğullarını ələ keçirmişdir. Onun gəlməsindən İraq mülkündə fitnə və fəsad atəşi alovlandı. Buna görə də İsmayıl mirzə, qorçubaşı və qorçular[479] müzəffər orduya qayıtdılar. Fələk əsaslı ordunun müzəffər bayraqları Əlqasın fitnəsini dəf etmək üçün İraq tərəfə hərəkət etdilər.

## ƏLQAS MİRZƏNİN RUMUN KÖMƏYİ İLƏ İRAQA GƏLİŞİ VƏ QAYITMASI VƏ ONUN ƏHVALATININ SONU HAQQINDA

Amma Əlqas mirzənin əhvalatı belədir ki, [o], Həmədana gəlib, Bəhram mirzənin ev-eşiyini ələ keçirdi, oradan Quma tərəf yönəldi. Bu şəhəri aldıqdan sonra [o], pis təbiətli kürdlərdən bir dəstəni Rey vilayətini talamağa göndərdi. Qumdan Kaşana gəlib, oranı ələ keçirdi. [Əlqas mirzə] oradan İsfahan mülkünü almaq niyyəti ilə o cənnətə bənzər diyara tərəf yönəldi. İsfahanın əhalisi və əyanları ona qarşı hər cürə dostluq qapılarını qapayaraq, şəhərin bürc və qala

[477] Qapıqulu - Osmanlı sultanından məvacib alan hər növ nizami qoşun əsgərlərini bildirmək üçün istifadə edilən ümumi istilahdır (Фарах Гусейн. Османо – Сефевидская война 1578-1590 гг. Баку, 2005, с. 194, Bakı nüsxələrində «qapıqulu» əvəzinə «qapı xəlqi» yazılmışdır (S-129, v.62b; S-297 v 42a)

[478] Çox güman ki, «Məlik oğlu» olmalıdır.

[479] S-129,v.63a;S-297,v.42a.

divarlarını möhkəmləndirdilər və döyüşməyə çıxdılar. Cənnətməkan şah həzrətləri Xalxal[480] və Tarom yolu ilə Qəzvinə təşrif gətirib, oradan Bəhram mirzəni və Şiraz hakimi İbrahim xan Zülqədəri Əlqasın üzərinə göndərdi. O nankor şahzadə, şahın müzəffər məiyyətinin gəlməsi, Bəhram mirzə və İbrahim xanın gəlib yetişməsinin yaxın olduğundan xəbərdar olduqda əhvalı pozuldu, isfahanlıların dəstəyindən ümidini üzüb, Fars diyarına getdi. [Əlqas] yol üstündə İzədxast qalasını ələ keçirdi. Sakinlərin [bundan sonra] heç bir yerdə qala qapılarını onun üzünə bağlamamaları üçün ibrət olsun deyə, orada qətliam törətdi və bir cox acizi və rəiyyəti intiqam qılıncından keçirdi. Buna baxmayaraq, Bəndi-əmirin darvazalarını onun üzünə bağlayıb, onu Şiraza getməyə qoymadılar. [O], Əli-Ərdəkan kəndindən keçərək, Ağqalanın (Qəleyi-sefid)[481] kənarına getdi. İbrahim xanın qardaşı Cüneyd bəyin və zülqədərlərin ev-eşiyi orada idi. O qalanın alınması çox çətin olduğundan [Əlqas] orada bir iş görə bilməyib, Şulistan və Behbehan[482] yolu ilə Şüştərə tərəf getdi. Mir Əbdülvəhhab Şüştəri və oranın əhalisi şəhər və qalanın qapılarını onun üzünə bağlayaraq, çəkişmə və vuruşma qapılarını açdılar. [Əlqas] onların da münasibətindən məyus olub, Dizfula getdi. Orada da bir iş görə bilmədi. Tam məyusluq və ümidsizliklə Bağdada tərəf yönəldi və bir müddət oralarda qaldı.

O biri il, 956-cı (1549) ildə Sultan Süleymanın çağırış hökmü ona yetişdi. [Əlqas] hər tərəfdən nankorluğa düçar olmuş və onu bədbəxtlik bürümüşdü. O, xondgara qarşı da hiylə və fırıldaq işlədərək, Ruma getməkdən imtina etdi. O, özü ilə apardığı Bəhram mirzənin ailəsini geri göndərdi. Rum böyükləri anladılar ki, onun əlindən bir iş gəlmir və onun o vilayətdə qalması qarışıqlığa və fəsada, şəhərlərin əmin-amanlığının pozulmasına səbəbdir və [onlar] onu müxaliflikdə ittiham edərək, Sultan Süleymanı onu (Əlqası) dəf etməyə inandırdılar. Xondgar onu ələ keçirmək üçün üzərinə böyük bir qoşun göndərdi. Rumilər qəfildən onun ordusuna hücum etdilər. Əlqas mirzə təşvişə düşərək, o vilayətdən bayıra atıldı və kiçik bir dəstə ilə Ərdəlan[483] ölkəsinə gəldi.

Bu əhvalatın həqiqəti [şahın] mübarək qulağına çatdıqda Bəhram mirzəni, Şahqulu xəlifə Möhürdarı və İbrahim Zülqədəri iyirmi min nəfərlə onun üzərinə göndərdi. Onlar Mərivan qalası yanında ona çataraq, onu məğlub etdilər. Əlqas mirzə başını itirmiş, sarsılmış və etdiklərindən peşman olmuş halda Mərivan qalasına - Surxab Ərdəlanın yanına getdi. Onu [təhvil] vermək [haqqında şahın] mübarək hökmü Surxabın adına göndərildi. Onun padşah hökmünə itaət etməkdən başqa çarəsi yox idi. Əlqas mirzə xahiş etdi ki, bacısının əri olan Şah Nemətulla Yəzdi gəlib onu aparsın. Mürtəza (Həzrət Əli) nəslindən olan cənab (Şah Nemətulla Yəzdi) xoşbəxt padşahın fərmanına əsasən, Surxabın yanına gedib,

---

[480] Xalxal – Cənubi Azərbaycanda, Ərdəbildən cənubda yerləşən şəhər.

[481] Qəleyi-sefid (Ağ qala) – İranın Fars vilayətində, Nevbancandan şimal-şərqdə güclü qala.

[482] Behbehan – İranın cənub-qərbində, Şirazla Əhvaz (Hüveyzə) arasında şəhər.

[483] Ərdalan-İranın qərbində, Kirmanşahdan şimalda yerləşir (V.F.Minorsky. "Tadhkirat al-muluk", p.171).

[Əlqas] mirzəni ondan alıb, əşrəfin hüzuruna gətirdi. [Əlqas] hökmdarın yanına gələn kimi cənnətməkan şah həzrətləri cəvahir yağdıran sözlərlə ona buyurdular:

- Ey mənim məhəbbətsiz qardaşım! Mən sənə nə pislik etmişəm ki, ata nəslindən üz çevirdin, özünü qüdrət zirvəsindən rəzalət və alçaqlıq quyusuna atdın, düşmənə qoşuldun, bu qədər fitnə-fəsada və qan tökülməsinə səbəb oldun?!

[Əlqasın] xacalət və utanmaqdan savayı cavabı yox idi. Başını peşmanlıqla aşağı salıb, təəssüf etdi. Cənnətməkan şahın qardaşlıq damarı hərəkətə gəldi, ona rəhm etdi və onun qanından keçdi. Amma qızılbaş tayfaları arasında fəsad törətdiyinə görə [Əlqas] daha etimada layiq deyildi. Hörmətli sufi təbəqəsinin ağsaqqalları onun xilas olması ilə razı deyildilər. Cənnətməkan şah camaatı razı salmaq üçün [Əlqası] Qəhqəhə[484] qalasına göndərdi ki, orada qalsın. Qərara alındı ki, onun oğlu Sultan Əhməd mirzə də atası ilə həmin qalada olsun. Axırda Sam mirzə və onun oğlunun da yeri o qalada oldu. Hər dörd padşahzadənin ömrü o qalada sona çatdı. Xülasə, haqqı bilməyən o kəm ağıllı [Əlqasın] törətdiyi o böyüklükdə fitnə uğurlu taleyin gücü və mübarək bəxt ulduzunun yardımı ilə aradan qalxdı, onun üsyan və tüğyan atəşi də Allahın buludunun damcıları ilə söndü. Allaha şükür olsun!

## SULTAN SÜLEYMANIN DÖRDÜNCÜ DƏFƏ AZƏRBAYCANA GƏLMƏSİ, HƏMİN ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR VƏ O İKİ YÜKSƏK RÜTBƏLİ PADŞAHIN ARASINDA SÜLH BAĞLANMASI HAQQINDA

961-ci (1554) il aylarında, Əlqasın törətdiyi fitnədən beş il keçdikdən, bir sözlə, üsyan və qarışıqlıq sakitləşdikdən sonra Ərzurum bəylərbəyisi İsgəndər paşa fitnəyə başladı və onun təhriki ilə Sultan Süleyman bir dəfə də Əcəm diyarına qoşun çəkdi. Bu hadisənin məzmunu belədir ki, Rum xondgarı üçüncü dəfə Əlqas mirzənin təhriki ilə gəlib, yuxarıda deyildiyi kimi, geri döndüyü zaman cənnətməkan şah da dərya kimi əsib-coşan qızılbaş ordusu ilə onun ardınca hərəkət edərək, Diyarbəkr və Ərzincanadək [ərazini] kinli ordunun [ayağı] ilə tapdalayıb, bir dəqiqə belə intiqam almaqdan vaz keçmədi. Sultan bir müddət [Əcəm vilayətinə] gəlməkdən imtina edib, dini müharibə məqsədi ilə Firəngə (Avropaya) getdi. Cənnətməkan şah da islam ölkəsinə qoşun çəkməkdən vaz keçərək, Gürcüstana dini müharibəyə getdi. Dörd-beş il xalqlar dinc yaşadı, bir sözlə, sərhədlərdə sakitlik yarandı. Və əgər kürd üsyançılarından azacıq pis davranış vaqe olurdusa, onu boş buraxıb, toqquşma üçün əsas saymırdılar. [Şah Təhmasib]

[484] Qəhqəhə qalası - Cənubi Azərbaycanda, Meşkin şəhərindən 70 km. şimalda, dağ başında yerləşən tarixi qala. Hal-hazırda Ərdəbil ostanına daxil olan Meşkin şəhristanının Ərşəq bəxşiliyindəki Yaft dehistanının ərazisinə daxildir (Qəhqəhə qalası haqqında daha ətraflı bax: S.N.Xiyavi. Xiyav: qomşode-ye tarix, s. 144-167).

xondgara dostcasına məktub yazaraq, camaatın güzəranının yaxşılığı naminə sülh söhbəti ortaya atıb, ölkənin seyidlərindən Şəms Fələk Dəvvar [adı] ilə məşhur olan Mir Şəms Vəlixani[485] vasitəsilə göndərdi.

İsgəndər paşa fəsad törədən, fitnəkar bir adam idi. Əvvəllər o, Van hakimi idi və o qədər də hörməti yox idi. [O], qəfildən Vandan Xoya gəldi və bu sülalənin (Səfəvilərin) tabeçisi olan Hacı bəy Dünbülini bir qism Xoy rəiyyətləri ilə [birlikdə] öldürdü. Buna görə də o, təltif edilərək, Ərzurum bəylərbəyisi oldu və elə həmin il öz şücaət və igidlik şöhrətini o sərhəddə yaymaq istədi. [O], Hüseynxan sultan Rumlunun üzərinə, İrəvana gəldi. Hüseynxan sultan döyüşə girməyi münasib bilməyib, bir tərəfə çəkildi. [İsgəndər paşa] İrəvanda bir qədər dağıntı törədib, adamları qətl edərək qayıtdı. Onun tərəfindən törədilmiş bu iki kobud hərəkətə [cavab olaraq] bu tərəfdən rəiyyətlərin asayişi üçün heç kəs onu tənbeh etməyə və cəzalandırmağa qalxmadığından o, (yəni İsgəndər paşa) ayağını ədəb dairəsindən bayıra qoydu. [O], son dərəcə qürurlanaraq, sərhəd əmirlərinə ədəbsiz sözlər yazdı, həddini aşan əməllərə cəsarət etdi və fitnə törətməyə çalışdı. O cümlədən, cənnətməkan şah həzrətləri bəzi qacar əmirlərini Gürcüstana qarşı dini müharibə aparmaq məqsədi ilə Dadiana[486] tərəf göndərdiyi zaman [İsgərdər paşa] böyük ordu ilə hücum edərək, döyüşə gedən əmirlərin üzərinə tökülüb, qacar qazilərindən bir çoxunu öldürdü. [Beləliklə], o, abırsızlığı və həyasızlığı ifrat dərəcəyə çatdıraraq, bütün rahatlığı pozdu. Bu əsnada əşrəfin məktubuna Sultan Süleymanın hədə-qorxu ilə dolu cavabı yetişdi. [O], İsgəndər paşanın təhriki ilə təhdidlər yağdıraraq, Əcəm diyarına gələcəyini bildirirdi. Buna görə də şahın aləmi yandıran qəzəbi alovlanıb, ordunun toplanmasına fərman verdi. Müzəffər ordunun məskəni olan Ağmisqal yaylağına az bir zamanda müxtəlif tərəflərdən və yerlərdən qızılbaş tayfaları cəmləşdi. [Şahın] dünyanı bəzəyən rəyi belə qərara gəldi ki, Rum ordusunun hərəkətindən qabaq o yerlərə qoşun çəkib, sərhədlərdə abadlıqdan əsər-əlamət qoymasınlar. İsgəndər paşaya isə layiqli qulaqburma verib, onu qəflət və təkəbbür yuxusundan oyatsınlar. Zəfər nişanlı əsgərləri dörd dəstəyə bölüb, hər dəstəni ali rütbəli əmirlərdən birinin başçılığı ilə bir tərəfə göndərdilər. Qələbə ayətli bayraqlar Əxlata tərəf yönəlib, Əxlat qalasını mərkəz kimi araya aldılar. Hər tərəfə getmiş adlı-sanlı əmirlər Van, Bitlis, Pasin, Adilcevaz və Ərciş ölkələrini Muş çölünədək yandırdılar və qarət etdilər. Rumi və kürd əmirlərindən kim onların qabağına çıxdısa, [qızılbaşlar] onlarla şiddətli döyüşlər və əzəmətli

[485] Həsən bəy Rumlu onun adını Əmir Şəmsəddin Dilicani kimi qeyd edir (A Chronicle of the Early Safawis, t.l, p.379).

[486] Dadian - Gürcüstanın qərbindəki Minqreli vilayəti nəzərdə tutulur. Minqreli vilayəti tarixən Abxaziya ilə İmereti arasında yerləşmişdir. Lakin Şah Təhmasibin belə azsaylı dəstəni Gürcüstanın içərilərində yerləşən bir vilayətə göndərməsi haqqında burada verilən məlumat qeyri-dəqiqdir. Şah Təhmasib öz təzkirəsində 500 nəfəri Qarabağdan Gürcüstanın Dadili (Dav-eli) vilayətinə göndərdiyini və İsgəndər paşanın 10 minlik qoşunla onlara basqın edib qalib gəldiyini yazır **(Şah Təhmasibin təzkirəsi, s.67).** Dadili tarixi vilayəti hal-hazırda Türkiyənin şimal-şərqində, Gürcüstana yaxın ərazidə yerləşir. Beləliklə, burada söhbət Minqreliyə (Dadiana) deyil. Dadiliyə olan yürüşdən getməlidir.

vuruşmalar edərək, onlara qələbə və zəfər çalırdılar. Rumi və kürd əmirlərindən və böyüklərindən bir çoxu öldürüldü və əsir alındı. [Qızılbaş əmirləri] bol qənimətlərlə şah ordusuna geri döndülər. Qayıtdıqdan sonra əmirlər İsgəndər paşanı cəzalandırmağa getdilər. [Şah Təhmasibin əmri ilə] adlı-sanlı əmirlərdən Bədr xan Ustaclu, Çuxursəəd hakimi olmuş Şahqulu sultan Ustaclu, Məhəmməd xan Mosullu Türkman, Qarabağ hakimi[487] Şahverdi sultan Ziyadoğlu Qacar və başqa əmirlər, həmçinin bir sıra böyük qorçular və digərləri xoşbəxt şahzadə İsmayıl mirzənin başçılığı ilə Ərzuruma göndərildilər.

Qızılbaş ordusunun gəlməsi xəbərini alan İsgəndər paşa Ərzincan, Bayburd, Kəmax, Mərəş və Trabzondan, Gürcüstanın Dadian yə Guryal[488] vilayətlərindən onun yanına toplanmış Rum əmirləri və sancaqbəyilərlə məsləhətləşirdi ki, bayıra çıxıb vuruşsunlar, yoxsa qalanı müdafiə etsinlər. Rum əmirləri döyüşməyi münasib bilməyib dedilər ki, padşahzadə böyük qoşun və dağ kimi bir ordu ilə gəlib, bizim onlarla müharibəyə gücümüz yoxdur. Lakin kürdlərdən və rumilərdən ibarət çoxlu qoşunu olan və özünü sərhəddə şücaəti və igidliyi ilə məşhur etmiş İsgəndər paşanın lovğalıq sarayına dikbaşlıq və qürur buxarı yol açmışdı. [O], ağıllıların, düşüncə və tədbir sahiblərinin dediklərini eşitməyib, müharibə etmək qərarına gəldi və sınaqdan çıxmış gənclərdən ibarət bir dəstəni orduya mənqəlay edib, irəli göndərdi, özü isə şəhərin yarım fərsəxliyində qoşun cərgələri düzərək, beş yüz nəfər tüfəng atan yeniçəri, iyirmi dəst[489] top arabası, zərbzən və firəngini[490] sıranın önünə qoyaraq, döyüşə və vuruşmaya hazır oldu.

Bu tərəfdən səadətli ordunun çərxçiləri irəli getdilər. Düşmən qaravulları görünən kimi igidlər o izdihamlı dəstənin üzərinə atıldılar və onların işini könülləri istədiyi kimi bitirdilər. Rum qoşununun sağ qalanları [öz ordularının] mərkəz («qol») hissəsinə qatıldılar. Qızılbaş ordusundan rumilərin arasına vəhşət və qorxu düşdü. Müzəffər ordunun çərxçiləri rumilərin mərkəz qoşunu üzərinə hücum etdilər. Onlar ön cəbhədən, sağ («meymənə») və sol («meysərə») cinah başçıları soldan və sağdan döyüşə başladılar və müharibə bazarı qızışdı. Qızılbaş ordusunun döyüşçüləri qələbə və qüdrət nişanələri göstərərək, düşmənlərin bir çoxunu ölüm torpağına atdılar.

***İsgəndər paşanın məğlubiyyəti.*** İsgəndər paşa qızılbaş qoşunlarının igidliyini və qəhrəmanlığını müşahidə etdikcə, [onun] içərisində qeyrət odu alovlandı. [O], böyük bir dəstə ilə mərkəzdən çıxaraq, çərxçilər dəstəsinə hücum etdi. İki tərəf arasında son dərəcə gərgin döyüş baş verdi. Bu çarpışma gedən

---

[487] Qarabağ Azərbaycanın tarixi vilayətlərindən biridir. Səfəvilər zamanında mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyiliyi mövcud idi.

[488] Guryal - Gürcüstanın qərbində yerləşən tarixi Quriya vilayətinin müsəlman mənbələrində adı. Bu vilayət həm də Quriyan adlanırdı.

[489]S-297 əlyazmasında (v.44a) «bist həşt» (iyirmi səkkiz) yazılsa da, Tehran çapında (s.76) «bist dəst» (iyirmi dəst) qeyd olunmuşdur. Eyni zamanda, S-129 nüsxəsində (v.65a) də iyirmi yazılmışdır.

[490] Burada «firəngi» dedikdə Avropa istehsalı olan və ya Avropa üsulu ilə hazırlanmış artilleriya nəzərdə tutulur.

zaman kama yetmiş şahzadənin cah-calalının parlaqlığı ilə bəzənmiş qələbə şüarlı ordunun böyük mərkəz («qol») hissəsi göründü. İsgəndər paşanın nəzəri o hədsiz-hesabsız qoşuna düşdükdə Rum ordusunun əhvalında acizlik və sarsıntı əlaməti müşahidə olundu. Buna görə də [o], əlini işdən və müharibədən götürdü, qaçmağı qənimət bilib, döyüşdən üz çevirdi və təlaş içində tələsik qalaya atıldı.

Müzəffər ordunun dilavərləri məğlub olmuş Rum ordusunu qalanın darvazasınadək təqib etdilər. Rumilərdən, kürdlərdən və yeniçərilərdən üç min nəfərə yaxını qazilərin iti qılıncından keçirildi. İsgəndər paşanın qardaşı Ramazan bəy, xondgarın qulamlarının Məhəmməd adlı qullarağası, Rumun bir neçə nəfər mötəbər əmirləri, xüsusən Mərəş hakimi, Malatya[491] hakimi, Trabzon hakimi, Pasin əmiri, sancaqbəyilər və kürd əmirləri ələ keçirildi. Əsir tutulanlar arasında Misir və Şam padşahı Sultan Qansu zamanında Hələb hakimi olan, daha sonra öz vəlinemətinin sülaləsinə xəyanət edən və Sultan Səlimin yanına gəlib, onu Misir, Şam və Hicaz məmləkətlərinin işğalına həvəsləndirən Xeyirbəyin qardaşı oğlu Mahmud bəy də vardı[492]. Qüdrətli [qızılbaş] dəstələri o vilayətin ətrafında qarət və talan odu alovlandırıb, qələbə və zəfərlə, çoxlu qənimətlərlə qayıtdılar. [Onlar] köç nidası səsləndirərək, dünyanın pənahı olan orduya tərəf yönəldilər. Cənnətməkan şah Əxlat qalasını alıb, Ərciş qalasını mühasirə etdiyi zaman [onlar] orduya qoşulub, büsatı öpmək səadətinə nail oldular. İgidlik nümayiş etdirmiş bəziləri, xüsusən Ziyadoğlu nəvaziş görüb, təltif edildi. Əsirləri əşrəfin nəzərləri qarşısına gətirdilər. [Əsirlərin] əksəriyyəti cəzalandırıldı.

Əxlat qalasının alınına əhvalatı belədir ki, şahın məiyyəti qalaya çatıb [oranı] mühasirəyə aldıqda mühasirədəkilər qalanı müdafiə etməyə başlayaraq, neçə gün qüvvətləri yetdiyi və bacarıqları çatdığı qədər səy göstərdilər. Axırda şəhəri və qalanı saxlamaqdan aciz olaraq, vasitəçilər göndərdilər və qalanı təslim etdilər. Qalanın xarab edilməsinə hökm verildi. O cür möhkəm bir qala az bir zaman içində yerlə yeksan oldu. [Şah] oradan Ərciş qalasına tərəf yönəlib, Ərciş qalasını mühasirə etməyi buyurdu. Qalanın hakimi qala divarlarının möhkəmliyinə, dayanıqlılığına və qalanın müdafiə ləvazimatına arxalandı və rumilərin topçuları və tüfəngçiləri şah ordusunun üzərinə top və tüfəng [atəşi] yağdırdılar. Mühasirədəkilər qalanın müdafiəsinə mərdanə səy göstərirdilər. Bu tərəfdən də cəsarətli qazilər mərdliklə irəli atılıb, «sibə»ləri qalanın ətəyinə çatdırdılar. Xasseyi-şərifə topçubaşısı Dərviş bəyin qalanın yanında düzəltdiyi böyük topu bürclərə və hasarlara tərəf yönəldib, divarların bünövrəsini sarsıtdılar. Sözün qısası, qala camaatı üç aya qədər qüdrət və qüvvətlə qalanı müdafiə etdi, dördüncü ayda isə aciz və taqətsiz oldu. Qalada bir dəstə kürd vardı. O tayfanın ümumi adəti belədir ki, iş çətinləşəndə onların hər biri öz canının hayına qalır. Məhz buna görə də [qaladakı kürdlər] zamanın [tələbinə] yar və yoldaş olaraq və dövranın [gedişinə] münasib və müvafiq olaraq, bir-biriləri ilə ittifaqa girib, qala hakimini

[491] Malatya - Türkiyədə, Fərat çayından qərb tərəfdə şəhər.
[492] S-129, v.65b; S-297, v.44b.

qətlə yetirdilər və qızılbaşları [qala divarlarından] yuxarı çəkdilər. Qalib dövlətin qüdrəti ilə Ərciş qalası ələ keçirildi. Yüksək şərəfli [şahın] buyuruğuna görə, [qala] xarab və viran edildi. Oradan zəfər nişanəli bayraqlar Bargiri qalasına[493] tərəf qaldırıldı. [Şahın] ali iradəsi o möhkəm qalanı almaq məqsədi ilə döyüş və hərb vasitələrini işə saldı. Qalada mühasirə olanlar da mərdanəliklə müdafiəyə qalxdılar. Bir neçə gün aralarında mübarizə və mücadilə atəşi alovlandı, ta o vaxta qədər ki, mühasirədəkiləri hədsiz qorxu bürüdü və [onlar] aman istəmək qərarına gəldilər. Qala hakimi aman istəyərək bağışlandı.

Bargiri qalası alındıqdan sonra [Şah Təhmasib] İsmayıl mirzəni Sevindik bəy Qorçubaşı ilə Kürdüstana hücum etməyə və bəzi əmirləri isə mahmudi [tayfasının] üsyançılarını qətl və qarət etməyə göndərdi. Müzəffər əsgərlər pis xasiyyətli kürdləri öldürüb qarət etdikdən sonra bol qənimətlərlə şahın ordusuna qoşuldular. Azərbaycana yürüş etmək məqsədi ilə Hələbə gəlmiş olan Sultan Süleyman bu il azuqənin qıtlığı üzündən [oraya yürüşdən] vaz keçərək, Hələbdə qışlaq etdi və gələn il yürüşə çıxmaq üçün lazımi hazırlıq görməklə məşğul oldu. Qışlaq vaxtı olduğundan qələbə nişanəli bayraqlar son dərəcə əzəmət və calalla o xoşbəxt yürüşdən qayıdaraq, Naxçıvana gəldilər. O ildə şah orada qışladı.

O biri il, 961-ci (1554) ildə Sultan Süleyman çoxsaylı ordu ilə Hələb qışlağından hərəkət edərək, bu diyara tərəf yönəldi. Cənnətməkan şah Naxçıvandan Bazarçay[494] yaylağına getdi. Müzəffər qoşunlardan bir dəstəni İsmayıl mirzənin, divan əmiri Məsum bəy Səfəvinin və Şahqulu xəlifə Möhürdarın başçılığı ilə Van, Vostan və o hüduda tərəf, başqa bir dəstəni Bəhram mirzənin oğlu Sultan Hüseyn mirzənin başçılığı və Şahverdi sultan Ziyadoğlunun məşvərətçiliyi ilə başqa bir tərəfə göndərdilər ki, Rum ordusunun yolu üstündə olan [hər şeyi] yandırıb, o hüdudda abadlıqdan [heç nə] qoymasınlar. Müzəffər qoşunlar buyruğa əməl edərək, sağ-salamat və qənimətlə qayıdıb, Bazarçay yaylağında şah ordusuna qoşuldular.

Sultan Süleyman yaylaq fəslini keçirib, yağışın damlalarının sayı qədər ordu ilə sərhədə yaxınlaşdı. Cənnətməkan şah səadətli qoşunun döyüşçülərinin bir qismini işbilən, tədbirli və müharibədə sınanmış şücaətlilərin başçılığı ilə qaravulluğa təyin etdi ki, rumilərin dörd tərəfindən xəbərdar olub, fürsətdən qənimət əldə edərək, işin xeyrini əldən verməsinlər. Qızılbaş ordusunun dilavərləri və çoxbilmiş köhnə əsgərlər rumilərin malına tamah dişi qıcıdıb, hər mərhələdə nəzərəçarpan hücumlar edərək, bir dəstəni bəla kəməndinə salırdılar. Heç elə bir gün olmurdu ki, əşrəfin nəzərləri qarşısına qalxanlar, «axtarma»lar və əsirlər gətirilməsin. Sultan [Süleyman] Naxçıvana çatanadək Rum qoşunlarından bir çoxu müzəffər qazilərin intiqam qılıncı ilə fanilik yoluna getdi.

---

[493] Bargiri - Türkiyənin şərqində, Van şəhərindən 77 km. şimal-şərqdə yerləşən yaşayış məntəqəsi.
[494] Bazarçay yaylağı - Azərbaycanın tarixi torpaqlarından olan Zəngəzur mahalında, Bərgüşad çayının yuxarı axarlarında yerləşir.

Xondgar Naxçıvana gəldikdə cənnətməkan şah müzəffər əsgərləri gözdən keçirdi. Qırx min nəfərə qədər nizə atan, məvacib alan süvari, hamısı səba [küləyi] kimi gedən ərəb atlarına minmiş halda, silah və yaraqla nəzərdən keçirildi; şah ordusunda toplanmış başqa adamlar da bu cürə. Orduya baxış keçirildikdən sonra Bazarçay yaylağından düşmənlə döyüşmək qəsdi ilə Kəsralar[495] dəbdəbəsi və Kəyan təntənəsi ilə hərəkət etdilər. Sultan Süleyman azuqənin qıtlığından Naxçıvanda qala bilməyib, şəhəri yandırdı, oradan köçmə təbili vuraraq, Ərzurum tərəfə qayıtdı. Şahın mübarək məiyyəti onun ardınca hərəkət etdi. Hər düşərgədə qızılbaş qaravulları Rum ordusunun bir hissəsini öldürür və əsir edirdilər.

Həmin günlərdə Sultan Süleymanın yaxın və məhrəm adamlarından olan Sinan bəy ordudan bayıra qaravulluğa çıxmışdı. [O], qızılbaş ordusunun qaravullarına rast gələrək, döyüş və çarpışmadan sonra əsir düşdü. Sultan Süleyman Sinan bəyin tutulmasından pərişan oldu, [özünün] faydasız gəlib-getməsindən usandı və yumşaq xasiyyətli və xeyirxah adam olan, həmişə xondgarı sülhə çağıran böyük vəziri («vəziri-əzəm») Məhəmməd paşaya sülh arzusunu bildirdi. Məhəmməd paşa da sərhəd əmirlərinə məktublar yazaraq, sülh məsələsini izhar etmiş, şahın dərgahından xahiş etmişdi ki, Sinan bəy şahın hüzurundan azad edilib geri qaytarılsın və sülh işinin hazırlığı üçün onunla bir adam göndərilsin. Cənnətməkan şah Məhəmməd paşanın müraciətini və bu tərəfin xeyirxah adamlarının vasitəçiliyini nəzərə alıb, Sinan bəyi azad etdi. Sultanların bir-birilərinə qarşı düşmənçilik və ədavəti məmləkətin viran olmasına, ədalətli hökmdarların [bir-biri ilə] sülh münasibətləri isə əmniyyətə, ordu və rəiyyətin əhvalının yaxşılaşmasına səbəb olduğuna görə hər iki tərəf hadisələrin təpiyi və atların ayaqları altında qalan acizlərin və rəiyyətlərin halını [nəzərə alıb], sülhə razı oldular. [Şah Təhmasib] müzəffər qorçular sırasında olan qacar ağsaqqallarından Şahqulu bəyi Sinan bəylə birlikdə göndərdi. O tərəfdən də Sultan Süleyman sülh və barışığa meyil edib, Şahqulu bəyi hədiyyə və bəxşişlərlə geri göndərdi. Buna görə də cənnətməkan şah rumilərin ardınca getməkdən dönərək, müzəffər bayrağın kölgəsində toplanmış, döyüşə və vuruşa hazır olan, qələbə çalan əsgərlərlə Gürcüstana cihad etməyə yönəldi. O həzrətin cihadı və Gürcüstanın zəbt edilməsinin şərhi tezliklə bu dəftərin sonrasmda yazılacaqdır.

***Sultan Süleymanın Şah Təhmasiblə sülh bağlamasının bəyanı.*** Sözün qısası, böyük vəzir Məhəmməd paşanın razılığı ilə Şahqulu bəy gəldikdən sonra eşikağası Fərruxzad bəy Qaradağlu vasitəsilə xondgara gözəl bir məktub göndərildi, sədaqətin və dostluğun əsası qoyuldu. Sultan Süleyman tərəfindən də məhəbbət üslublu məktublarla etibarlı elçilər gəldi. İki tərəfdən razılaşma, dostluq və əhdü-peyman münasibətləri mehriban məktublar, töhfələr və hədiyyələr göndərilməklə möhkəmləndi. Üzərində çəkişmə gedən mahalların bəzisi o tərəfə, bəzisi isə bu tərəfə aid edildi. İki tərəfin qoşunlarının gəlib-getməsindən əzab

[495] Kəsra - Sasani hökmdarı Xosrovu bildirir. Lakin bir çox hallarda bu söz, ümumiyyətlə, hökmdar mənasında işlədilir.

çəkən müsəlmanlar rahat oldular. Əcəmin istedad sahibləri o sülhün tarixini «əs-sülh xeyr» («sülh yaxşıdır»)[496] deyə tapmış və bəlağət sapına düzmüşlər:

«Bəxt mələyi bu köhnə dünyada
Səs saldı ki, sülh yaxşıdır».

O iki hökmdarın həyatda qaldığı müddət ərzində iki tərəf arasında dostluq yoluna riayət olunur və əməl edilirdi.

974-cü ildə (19.07.1566 - 07.07.1567) Sultan Süleyman əbədi aləmə köçdü[497]. Onun oğlu Sultan Səlim taxt-tac sahibi oldu. Oğul atasının yolu ilə getdi. Aralıqda məktublaşma, mötəbər elçilərin gəliş-gedişi, töhfə və hədiyyələrin göndərilməsi qapıları açıq idi. O, səkkiz il sultanlıq etdikdən sonra 982-ci ildə (23.04.1574 - 11.04.1575) əbədi dünyaya tərəf üz çevirdi[498]. Onun oğlu Sultan Murad padşahlıq taxtına ayaq qoydu. O, həmçinin cənnətməkan şahın sağlığı dövründə və İsmayıl mirzənin taxtda oturduğu günlərdə sülh və dostluğun möhkəm yolunda dayanmışdı. Amma [o], İsmayıl ıııirzə cənablarından sonra İsgəndər şanlı Sultan Məhəmməd padşahın dövründə öz atalarının əhdü-peymanını pozub, rahat dünyanı qarışdırdı və insanların üzünə bəla qapılarını açdı. O hadisələrin şərhi öz yerində bəyan qələmi ilə yazılacaqdır. İndi isə ənbər qoxulu qələm atı ölkələr və şəhərlərin zəbti və Gürcüstanın yolunu azmış kafirləri ilə [şahın] etdiyi qəzavat və cihadı şərh etmək meydanında çapdırılacaqdır.

## ŞİRVAN VİLAYƏTİNİN ALINMASI VƏ O SƏFALI VƏ BOL MƏNFƏƏTLİ MƏMLƏKƏTİN CAHAN ŞAHININ UĞURLU TALEYİ İLƏ ƏLƏ KEÇMƏSİ HAQQINDA

Cənnətməkan və behiştməskən şahın fəth dairəsinə çəkdiyi ölkələrdən birincisi bol mənfəətli Şirvan məmləkətidir. Onun valiləri Ənuşirəvan Kəsra[499] nəslindən olub, şirvanşah [adı] ilə məşhurdurlar. Ata-babadan o vilayətdə hökmdar olan məzkur valilər zümrəsindən Fərrux Yəsar və onun atası Əmir Xəlilulla ibn Sultan İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad ibn Fərruxzad ibn Fəramərz ibn Güştasb ibn Fərruxzad ibn Mənuçöhr[500] - bu [sonuncusu] «Xaqan» [ləqəbi] ilə

---

[496] Bu xronoqram səhvdir. Çünki «əs-sülh xeyr» sözlərinin əbcədlə cəmi 969-cu (1561-62) il edir. Halbuki sülh müqaviləsi 962-ci (1555) ildə bağlanmışdır.

[497] Sultan Süleyman 6 sentyabr 1566-cı ildə vəfat etmişdi.

[498] II Sultan Səlim 1566-1574-cü illərdə hökmdarlıq etmiş və 15 dekabr 1574-cü ildə vəfat etmişdi. Onu oğlu III Murad (1574-1595) əvəz etdi.

[499] Ənuşirəvan Kəsra - Sasani şahı I Xosrov Ənuşirəvan (531-579) nəzərdə tutulur. Şirvanşahlar özlərini Sasani nəslindən hesab edirdilər (S.B.Aşurbəyli. Şirvanşahlar dövləti, s.310).

[500] Buradakı şəcərə S-297 nüsxəsi (v.46a-b) əsasında verilmişdir. B-589 (v.1b) nüsxəsindəki şəcərə də bu şəcərəyə oxşardır. Lakin orada Güştasbla Mənuçöhrün adlarının arasında Fərruxzadın adı yazılmayıbdır. Mənbənin Tehran çapında (s.79) Şirvanşahların şəcərəsi təhrif olunmuşdur: Fərrux Yəsar

məşhurdur, Xaqani[501] onun məddahı olmuş və buna görə də Xaqani təxəllüsü götürmüşdür - hörmətli Səfəviyyə sülaləsi ilə düşmənçilik edərək, öz yerində deyildiyi kimi, Sultan Cüneyd və Sultan Heydərlə savaşıb, [onları] şəhid etmişdilər. Axırda Fərrux Yəsar Süleyman şanlı xaqanın intiqam qılıncı ilə öldürüldü və o xanədanın halı sarsıldı. Fərrux Yəsar oğlu Şeyxşahın oğlu Sultan Xəlil incəlikləri bilən müdrikliklə Süleyman şanlı xaqanın dərgahına gəlib, itaət və köləlik yolunu güdərək, nəvaziş və mehribanlıq gördü və şahın lütfkarlığı sayəsində yüksək [Səfəvi sülaləsinə] qohum olmaq dərəcəsi və şərəfli şirvanşahlıq rütbəsi ilə başıuca oldu. O həzrətin (Şah İsmayılın) [vəfat] hadisəsindən sonra [Sultan Xəlil] vəsiyyətə görə cənnətməkan şahdan rəğbət və mərhəmətli münasibət görərək, bir neçə il əzəmət və səadətlə keçirdi[502].

942-ci ildə (02.07.1535 - 19.06.1536), ali şahlıq taxtına çıxmasından on iki il keçdikdən sonra Sultan Xəlil fani aləmlə vidalaşıb, əbədi dünyaya getdi. Ondan bir nəsil qalmadı. Şirvan əmirləri onun qardaşı oğlu olan uşaq yaşlarındakı Şahrux ibn Sultan Fərrux ibn Şeyxşahı səltənət taxtına oturtdular. Şirvan əmirlərinin özbaşınalığı və başıpozuqluğu nəticəsində o xanədanın dövlət qanunu qüvvədən düşüb, o sülalədə nizam-intizam qalmadı və o diyarda hərc-mərclik peyda oldu. Bu əsnada bir qələndər[503] oğlan iddia etdi ki, mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm. Onun başına çoxlu qoşun yığıldı. [O], Salyanı ələ keçirdi və Şamaxıya gəldi. Şahruxun adamları əmirlərin özbaşınalığına və orduda birliyin olmadığına görə ona qarşı çıxa bilməyib, Şamaxıdan qaçaraq, Biqurd qalasına getdilər. Qələndər oğlan şirvanşahın paytaxtı Şamaxını tutdu. Qələndərin ətrafındakılar da adsız-sansız, dağınıq, yersiz-yurdsuz adamlar olduğundan və o camaatın arasında ağıllı, işbilən bir adam olmadığından, nadanlıq və tədbirsizlik üzündən Şamaxını qoyub, Salyana tərəf qayıtdılar. Biqurd qalasında olan Şirvan böyükləri onun getməsindən agah olub, Şahrux mirzənin məiyyətində onun ardınca

---

ibn Fəramərz ibn Güştasb ibn Fərruxzad ibn Əmir Xəlilulla ibn Sultan İbrahim ibn Sultan Məhəmməd ibn Fərruxzad ibn Mənuçöhr. Həmçinin S-129 nüsxəsində də (v.68a) bu şəcərə yanlış əks etdirilmişdir: Fərrux Yəsar ibn Fəramərz ibn Kiyasif ibn Fərruxzad (ibn) Əmir Xəlilulla ibn Sultan İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad ibn Fərruxzad ibn Mənuçöhr. S.Aşurbəylinin tədqiqatına əsasən, Şirvanşah Fərrux Yəsarın III Mənuçöhrə (1120-1160) qədər şəcərəsi belə olmalıdır: Fərrux Yəsar ibn I Xəlilulla ibn I İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad ibn Fərruxzad ibn II Axsitan ibn III Fəribürz ibn I Gərşəsb ibn I Fərruxzad ibn II Mənuçöhr (S.B.Aşurbəyli. Şirvanşahlar dövləti, s.153-162, 175-193, 199-201, 280-300). Beləliklə, «Tarix-i aləmara-yi Abbasi» əsərinin əlimizdə olan çap və əlyazma nüsxələrini incələdikdə aydın olur ki, bu nüsxələr arasında Şirvanşahların şəcərəsi ilə bağlı ən dolğun məlumat S-297 əlyazmasında əksini tapmışdır. Oradakı şəcərə ümumən S.Aşurbəylinin üzə çıxardığı faktlarla üst-üstə düşsə də, bəzi yanlışlıqlara malikdir. Belə ki, həmin əlyazmada II Axsitanın adı xatırlanmamış, Gərşəsb əvəzinə Güştasb, Fəribürz əvəzinə isə Fəramərz yazılmışdır.

[501] Xaqani - XII əsrin məşhur Azərbaycan şairi Əfzələddin Xaqani Şirvani.

[502] Burada adı çəkilən Sultan Xəlil, yəni Şirvanşah II Xəlilulla atası II İbrahim Şeyxşahın (1502-1524) ölümündən sonra, 1524-1535-ci illərdə hökmranlıq etmişdir. O, I Şah İsmayılın qızı Pərixan xanımın əri idi (О.А.Эфендиев. Некоторые сведения о последних ширваншахах Дербентской династии (1500-1538 гг.) // Ближный и Средний Восток (сборник статей). Москва, 1962, с.87-93).

[503] Qələndər - sərgərdan həyat keçirən sufi, dərviş.

tələsdilər və Salyan ətrafında ona yetişərək, döyüşə girdilər. Şahruxun adamları qalib gəldi. Qələndər məğlub oldu və şirvanlıların əlinə düşdü. Şeyx Padar onu qətlə yetirdi. Amma Şirvan əmirləri öncəkindən daha artıq ədalətsizliyə başlayıb, müsəlmanların malına və namusuna əl uzadırdılar. Şahrux azyaşlı olduğuna görə [onlara] mane ola bilmirdi. Xalq Şirvan zalımlarının zülmündən cana doyub, zəmanə hökmdarının dərgahına yalvar-yaxar etdi. Qorçubaşı Padar və hərbçilərdən də bir dəstə gəlib, fəryad etdilər:

**Beyt**

«Ey İsgəndər səviyyəli, Yəcucun[504] zülmündən aman!
Ey zəmanə Süleymanı, divlərin cövründən aman!»

***Şirvan qalalarının ələ keçirilməsinin şərhi.*** Cənnətməkan şah o səfalı vilayəti ələ keçirməyi, zalımları, azğınlıq və üsyan edənləri aradan götürməyi şahlıq öhdəsinin vəzifələrindən bilərək, 945-ci ildə (30.05.1538 - 18.05.1539) şahzadə Əlqası Məntəşa sultanla, bir sıra qacar və talış əmirləri ilə və Qarabağ camaatı ilə birlikdə iyirmi min nəfərlə Qorçubaşı Padara qoşub, o vilayəti almaq üçün göndərdi. Qüvvətli dəstələr gəmi ilə Kür çayından keçib, Şirvana gəldilər. Şirvan camaatı itaətsizlik, üsyan və qiyam edərək, o vilayətin qalalarını bacarıqlı kişilərlə möhkəmlədib, müqavimətə, vuruşa və döyüşə qalxdılar. Qala fəth edən mübarizlər əvvəlcə Surxab və Kilidi-Gilan[505] qalasını aldılar, ondan sonra Qəbələ qalasını ələ keçirdilər. Buradan Şirvanın ən möhkəm qalası olan Gülüstanın bürcünə cəhd kəməndi ataraq, güclü dəstələrdən birinə onun mühasirəsini həvalə etdilər.

Şahrux mirzə Biqurd qalasında olduğuna görə müzəffər əsgərlər o tərəfə yönəldilər. Şahrux mirzənin vəkili Hüseyn bəy şücaətli bir qoşunla qızılbaş ordusunun qarşısına çıxdı. [Onlar] Biqurd dərəsində üz-üzə gələrək döyüşdülər. Səadətli ordunun döyüşçüləri həmin dərəni düşmən qanı ilə doldurdular. Hüseyn bəy məğlub olub, qalaya tərəf qaçdı, divar və bürcləri möhkəmləndirərək, qalanı müdafiə etməyə hazırlaşdı. Qızılbaş ordusunun dilavərləri mühasirəyə başladılar. Hər gün tərəflər arasında müharibə və qətl, döyüş və dava odu alovlanırdı. Şirvanlılar müqavimət və üsyanda inad edirdilər. [Buna görə də] mühasirə müddəti dörd ay çəkdi. Şəki vilayətinin valisi Dərviş Məhəmməd xan şirvanlıların köməyinə gəldi, gecə hücumu etmək qəsdi ilə qızılbaş ordusunun yanına çatdı, nağara vurduraraq, zurna çaldırdı. Ad-san axtaran igidlərdən və cəngavər qorçulardan bir dəstə onları dəf etməyə yönəlib, onları məğlub etdilər. Dərviş Məhəmməd xan öz adamlarından bir çoxunu ölümə verərək, heç bir iş görə

[504] Yəcuc və Məcuc - qədim dini rəvayətlərə görə, Nuh peyğəmbərin oğlu Yafəsin nəslindən olan bəstəboy, döyüşkən və olduqca zalım şimal xalqlarıdırlar.
[505] Bu qalanın adını «Gəldi-gələn» kimi də oxumaq mümkündür.

bilməyib, geri döndü. Şirvanlılar üçün daha heç bir ümid [yeri] və kömək qalmadığından onlar müqavimət göstərməkdən və qalanı müdafiə etməkdən aciz qalaraq xəbər göndərdilər ki, əgər ali rütbəli şah səadət və xoşbəxtliklə təşrif gətirərsə, qalanı şah həzrətlərinə təslim edərik. Əmirlər həqiqəti [şaha] ərz etdilər. Cənnətməkan şah Mərənddən Şirvana tərəf yola düşərək, o vilayətin sahəsini padşahın fələyi bürüyən çətirinin günəşinin nuru ilə işıqlandırdı. Şah qalanın ətəyinə əzəmətlə çatdığına görə o biri gün vəkil Hüseyn bəy böyüklər və əyanlarla [qaladan] çıxdı. Şahrux mirzəni gətirdilər. Qalanın və xəzinələrin açarlarını fələkdən üstün sarayın xadimlərinə verdilər. Gülüstan qalasının kutvalı da bayıra çıxıb, qalanı təslim etdi. Vəkil Hüseyn bəy Şirvan böyüklərinin əksəriyyəti ilə birlikdə düşmənçilik, ədəbsizlik və üsyan etdiklərinə görə cəzalandılar. Az sonra Şahrux mirzə də yoxluq diyarına getdi. O vilayətin hakimliyi şahzadə Əlqas mirzəyə verildi. [Şah Təhmasib] Azərbaycana tərəf üz çevirdi. O zamanın şairləri Şirvanın fəthi barədə nəzmlə gözəl qəsidələr və tarixçələr düzəltmişlər. O cümlədən bu iki beyt yazıldı:

«Keyvan eyvanına muştuluq çatdı,
Şirvan fəthinin səs-sorağı yayıldı.
Yüz il sonra bir fəth olarsa,
Yazarlar onun tarixini: fəthi-Şirvan.»

[«Fəth-i Şirvan» sözlərinin əbcəd hesabı ilə cəmindən] yüz rəqəmi çıxılarsa, tarix düz gəlir[506].

Əlqas mirzə doqquz il Şirvanın mütləq hakimi oldu, padşaha layiq zinət və cəvahiratın bolluğu, dəbdəbə və ordunun çoxluğu ucbatından yoldan çıxıb, öz vəlinemətinə qarşı üsyan etdi və [yuxarıda] yazıldığı kimi, əbədiköməksiz qalmağa düçar oldu. Cənnətməkan şah o vilayəti öz möhtərəm oğlu İsmayıl mirzəyə verib, Gökcə sultan Qacarı onun xidmətində qoydu.

Şahzadə Şirvanda qərar və aram tutduqdan sonra Şirvan sultanlarının nəslindən olan və Qaytaq[507] camaatı arasında yaşayan Mirzə Bürhan adlı birisi 954-cü ildə (21.02.1547 - 11.02.1548) Şirvana gəlib, Qülhanda məskən saldı. Bir dəstə fitnəkarlar və Şirvan qoşununun qalıqları o mənfurun başına yığışdılar və meşəlikdə və cəngəllikdə yerləşərək, döyüş və vuruşmaya hazır oldular. İsmayıl mirzə və Gökcə sultan çoxlu qoşunla üsyançıları dəf etməyə yönəldilər. Müzəffər ordunun çərxçiləri ilə qəhr olmuş güruhun arasında ağır bir döyüş baş verdi.

---

[506] Şeirin məzmununa uyğun olaraq, «fəthi-Şirvan» («Şirvan» sözünü «yey» hərfi olmadan yazmaq şərti ilə) sözlərinin əbcəd hesabı ilə cəmindən, yəni 1045 ədədindən 100 rəqəmi çıxıldıqda 945 rəqəmi alınır ki, bu da hicri tarixi ilə Şirvanın qəti olaraq Azərbaycan Səfəvilər dövlətinin tərkibinə birləşdirilməsi ilidir və miladi təqvimi ilə 1538-ci ilə uyğundur.

[507] Qaytaq - Dağıstanın dağətəyi ərazisində yerləşən, indiki Qaytaq (Kaytaq) rayonunun, qismən də Qayakənd, Serqokalinsk və Daxadayevsk rayonlarının ərazilərini əhatə edən tarixi mahal.

Şahzadənin ali məiyyəti müharibə meydanına yetişəndə Şirvan qoşunu müqavimət göstərə bilməyib məğlub oldu. Bürhan mirzə yüz əziyyət və məşəqqətlə özünü Dağıstana çatdırdı. O tayfadan (Bürhan tərəfdarlarından) çoxu öldürüldü. Rum xondgarının nankor Əlqas mirzə ilə birlikdə gəlməsi xəbəri yəqinləşəndə, qəzavü-qədər kimi icra edilən [şah] fərmanına görə, İsmayıl mirzə və Gökcə sultan səadətli orduya tərəf hərəkət etdilər. Bürhan mirzə Şirvan vilayətini boş görüb Şamaxıya gəldi, o mülkə sahib olmaq üçün əlini uzatdı və bir neçə gün o vilayətdə hakimiyyət bayrağı qaldırdı. Lakin tale o sülalədən üz çevirdiyinə görə onun ömür çırağı sönüb, o biri dünyaya tələsdi.

Sultan Süleymanın geri dönməsindən və Əlqasın ələ keçməsindən sonra, 956-cı (1549) ildə o vilayətin hakimliyi Süleyman şanlı xaqanın bacısı oğlu və kürəkəni olan, Xan Məhəmməd nəslinə mənsub Qaraxan oğlu Abdulla xan Ustacluya verildi. Şirvanlılar Bürhan mirzəyə bir neçə gün itaət etdiklərinə görə Abdulla xandan qorxuya düşərək, bir yerdə sığnaq etdilər, Bürhanın qohumlarından Mehrab adlı bir oğlanı səltənətə yüksəltdilər və müxaliflik zaviyəsində qərar tutdular. Abdulla xan onların üzərinə getdi. Şirvanlılar müqavimət göstərməyə tab gətirməyib məğlubiyyətə düçar oldular. Mehrab mirzə qaçıb aradan çıxdı. Onun əksər adamları qətlə yetirildi. Qılıncdan qurtulan şirvanlılar öz bədbəxtlikləri ucbatından yenə də fitnə-fəsada başladılar və Mehrabın qohumu Qurbanəli mirzəni özlərinə hakim edərək[508], Xəzər dənizindəki adalardan birinə pənah aparıb sığınacaq tapdılar. Xan neçə dəfə məktub göndərib [onları] çağırsa da, gəlməyə razı olmayıb, üsyan və tüğyan etməkdə davam etdilər. Abdulla xan onların üzərinə getdi. Qızılbaş qaziləri atlarını suya sürüb, o fitnəkar dəstənin üstünə gedərək, hərb odunu alovlandırdılar. O qiyamçı dəstənin əksəriyyəti qəzəb və cəza qılıncı ilə öldürüldü. Qazilər bol qənimət ələ keçirib, geri döndülər. Abdulla xan Şirvanda mütləq hakim olub, o tərəflərdə məşhur oldu və bir neçə il rahat və xoşbəxt [günlər] keçirdi.

961-ci (1554) ildə Sultan Süleyman dördüncü dəfə Azərbaycana qoşun çəkdikdə keçmiş valilərin[509] nəslindən olan Qasım adlı birini Kəfə yolu ilə Şirvana göndərdi. Adı çəkilən Qasım Dərbənddən keçib o vilayətə qədəm qoyduğu zaman şirvanlılar bir daha üsyana qalxdılar və Abdulla xandan üz çevirib, Qasımın başına toplandılar. Abdulla xan müzəffər qızılbaş qoşunları ilə onu dəf etməyə tələsdi. Möhkəm bir yer olan Təngədə[510] iki tərəf üz-üzə gəldi. Abdulla xan o yerin istehkamlı olduğuna görə orada bir iş görə bilməyib, Şamaxıya qayıtdı. Qasım Biqurd qalasına gəlib, orada döyüş və toqquşmaya hazırlaşdı. [O], on iki min rumi, şirvanlı və yeniçəri ilə Abdulla xanın üstünə gəldi. Xanla birlikdə olan qızılbaş ağsaqqalları müzəffər qoşunun azlığından və azğın şirvanlıların sayca çoxluğundan

---

[508] S-129, v.69b; S-297, v.48a; B-589, v.3b.

[509] «Keçmiş valilər» dedikdə Şirvanşahlar sülaləsi nəzərdə tutulur.

[510] Təngə - indiki Quba rayonunda, Vəlvələ çayının Yan silsiləni kəsdiyi yerdə, təqr. 750 m. hündürlükdə yerləşən dar dərədir. Afruca kəndi yaxınlığındadır (ASE, c. IX, s.252).

narahat olaraq, döyüşə girməkdən çəkinirdilər. [Amma] Abdulla xan ilahi qüdrətin yardımına və padşahın səadətinin gücünə arxalanaraq, o vaxt ixtiyarında olan iki min nəfərlə[511] birlikdə düşmənlə müharibəyə girdi. Gülüstan qalası yanında toqquşdular; aralarında döyüş və vuruşma alovu şiddətləndi. Müzəffər qoşunun döyüşçüləri və sınaqdan çıxmış bahadırlar o yolunu azmış düşmən dəstəsinin üzərinə cəsarətli hücumlar etdilər. Günün axırınadək döyüş və toqquşma davam etdi. Axşam vaxtı o fəlakətə məruz qalmışların bəxt ulduzu fanilik və zaval məğribində qürub etdi. Düşmən ordusu məğlubiyyətə uğradı. Qazilərin yəməni qılıncları başları [kəsib] səpələməyə başladı. O əcəli çatmışlardan bir çox adam fanilik dəryasına qərq oldular. O, başıpozuqların kəlləsindən minarələr tikildi, qılıncdan qurtulanlar isə Təbərsərana tərəf qaçdılar. Bu müharibədə ya öldürülmüş və yaxud fəlakət və unudulma diyarına tələsmiş Qasımın əhvalı bu səhifələri yazana naməlum qalmışdır. Amma Qazı Əhməd Qəffari «Tarix-i cahanara»da yazmışdır ki, məğlubiyyətdən sonra o, mərəkədən [sağ] çıxdı, [lakin] onun halının axırı məlum olmadı.

Abdulla xan o diyarda öncəkindən daha uca əzəmət və iqtidar bayrağını qaldıraraq, üsyançıları iti qılıncla tərbiyələndirdi, rəiyyətləri və təbəələri ədalət və mərhəmət qanadı altına aldı və məmləkətin vəziyyətini sabitləşdirdi. Abdulla xan şirvanlıların, Təbərsəran və Dağıstan xalqının ürəyində elə qorxu və dəhşət yaratmışdı ki, ona qarşı çıxmaq fikri böyük və kiçiklərdən heç birinin xəyalına [belə] gəlmirdi. O, on altı il həmin vilayətdə müstəqil hakimiyyət sürdükdən sonra 974-cü ildə (19.07.1566 - 07.07.1567) əbədi dünyaya getdi. O vilayətin hakimliyi Araz xan Rumluya verildi. Cənnətməkan şahın həyatının sonunadək o vilayətin hakimliyi onun əlində idi.

## 958-ci İL AYLARINDA ŞƏKİ VİLAYƏTİNİN FƏTHİ BARƏDƏ SÖHBƏT

Cənnətməkan şahın fəth etdiyi məmləkətlərdən biri də Şəki vilayətidir. Onun iki tərəfi Şirvana, bir tərəfi Gürcüstana, o biri tərəfi isə Dağıstana və Elburz dağına bitişir. Ata-babadan oranın hakimi Həsən bəy idi. [Onlar] Şirvanşahlar nəslinin bir qoludurlar. Süleyman şanlı xaqan zamanında [Həsən bəy] Gürcüstan valilərinin istilası səbəbindən izzətli astanaya pənah gətirib, o həzrətdən (Şalı İsmayıldan) yardım və iltifat gördü. Süleyman şanlı xaqanın vəfatından sonra[512], elə həmin ildə Gürcüstanın Kaxet[513] hakimi Ləvənd xan Gürcü[514] Şəkiyə qoşun çəkdi, onunla Şəki valisi arasında müharibə oldu. Həsən bəy gürcülərlə

[511] S-129, v.70a; S-297, v.48b; B-589, v.4a. Tehran çapında (s.82) «on iki min nəfər» yazılmışdır.

[512] S-129, v.70b; S-297, v.48b; B-589, v.4b.

[513] Kaxet (Kazeti) – Gürcüstanın şərqində Qanıq-Alazan və Qabırrı (İori) çaylarının yuxarı axarlarında tarixi vilayət və dövlət.

[514] Ləvənd xan Gürcü – 1518-1574-cü illərdə Kaxet çarı olmuş Levan nəzərdə tutulur.

müharibədə şəhid oldu. Şəkinin böyükləri onun oğlu Dərviş Məhəmmədi özlərinə hakim qoydular. O, atasının əksinə olaraq, qüdrətli dövlətin başçıları ilə (Səfəvilərlə) düşmənçiliyə başladı və ondan dəfələrlə pis davranış müşahidə olundu. Bundan əvvəlki əhvalatda deyildiyi kimi, cənnətməkan şah Şirvanı almaq üçün qoşun göndərəndə, Dərviş Məhəmməd xan qızılbaş ordusuna gecə basqını etdi. Buna görə də 958-ci (1551) ildə səadətli qoşunların cah-calallı və müzəffər bayraqları o vilayəti almaq üçün o tərəfə hərəkət etdi.

Şah həzrətlərinin yürüş xəbəri o ətrafdakı hakimlərin təmkin və asayişini təməldən sarsıtdı. Ləvənd xan Gürcü o həzrətə xidmətkarlıq kəmərini belinə bağlayıb, ümidlə aləmin pənahı olan dərgaha getdi, Ərəş şəhərində[515] səltənət taxtının ayağına gəlib, şahın nəvazişləri ilə başucalığı qazandı. Dərviş Məhəmməd xanın adına cəlbedici və rəğbətli şah hökmü göndərildi və o, xidmətə, itaətə dəvət olundu. O, öz bəxtsizliyi üzündən əbədi səadət səbəbi olan bu dövlətdən üz çevirib, qalaların möhkəmliyinə güvənərək, öz üzərinə müxaliflik qalxanı çəkdi. Şəki sərdarlarının bəzisi Kiş qalasını[516] möhkəmlədib, oraya sığındılar. Dərviş Məhəmməd xan özü Gələsən-Görəsən qalasına[517] gedib, qalanı müdafiə etməyə hazırlaşdı. Ora elə bir qala idi ki, son dərəcə yüksək və möhkəm olduğundan heç bir calal sahibi oranı ələ keçirə bilməmişdi. Bir dəstə də Elburz dağının ətəyində möhkəm bir yeri sığınacaq («sığnaq») edib, vuruşa və döyüşə hazır durdular. Günəşlə müqayisədə bir zərrə olan o dəstənin müxalifət və itaətsizliyindən ali nəsəbli şahın qiyamət atəşinə bənzər qəzəb odu alovlandı və o, müzəffər məiyyət döyüşçülərindən Sevindik bəy Qorçubaşını, Bədr xanı və Şahqulu sultan Ustaclunu müzəffər əsgərlərdən bir dəstə ilə Kiş qalasını almağa göndərdi. Abdulla xan Ustaclu və Ləvənd xan Gürcünü isə Gələsən-Görəsən qalasını almağa göndərdilər. Şahqulu xəlifə Möhürdarı da güclü bir dəstə ilə Sığnağa qarşı getməyə təyin etdilər.

***Şəki qalalarının alınması haqqında.*** Adlı-sanlı əmirlər və müzəffər qoşunlar mühasirə və qala almaq işlərinə başladılar. Top, zərbzən və badlic zərbəsi ilə binalar və hasarlar dəlmə-deşik oldu, bürclər və divarlar dağıldı. Qalalarda mühasirə edilənlər öz əhval güzgülərində acizlik və üzgünlük surəti gördülər. Kiş qalasının kutvalı qılınc və kəfənlə zəmanə şahının dərgahına tələsib, qala qapılarının açarlarını təslim etdi və bağışlandı. Şah fərmanına görə, qala xarabalığa çevrildi, bürcləri və divarları yerlə yeksan oldu. Adı çəkilən qala alınandan sonra dünya şahının xoşbəxt məiyyəti Sığnağa tərəf yönəldi. Sığnaqdakı camaat Kiş qalasının alınması və səadət düşüncəli padşahın [oraya] gəlməsindən xəbərdar

---

[515] Ərəş – indiki Yevlax rayonunun Xaldan kəndindən 3 km. Şərqdə yerləşmiş orta əss şəhəri.
[516] Kiş qalası - XIV-XVI əsrlərdə indiki Şəki rayonunun Kiş kəndi yaxınlığındakı eyniadlı qala.
[517] Gələsən-Görəsən qalası – Şəki şəhərindən 5-6 km. şimalda, Kiş çayının qərb sahilində, Qaratəpə dağının Zirvəsində yerləşmiş orta əsr qalası. XV əsrin əvvəllərində tikildiyi ehtimal olunur (daha ətrallı bax: M.N.Nəsirli, R.A.Məmmədov. «Gələsən-Görəsən» qalası haqqında // Azərbaycan Tarixi Muzeyinin Əsərləri, VI c.,Bakı, 1961).

olduqda o həzrətin dəbdəbə və calalından qorxu və dəhşətə düşərək, xəlayiqin pənahı olan dərgaha dəstə-dəstə gəlib, öz acizlik və fəqirlik üzlərini ehtiyac torpağına sürtürdülər.

Dərviş Məhəmməd xan gördüyü işdən heyifsilənib peşman olaraq, bir gecə Gələsən-Görəsən qalasından çıxıb, son dərəcə çaşqınlıq və narahatlıqla özünü belə bir qanlı təhlükədən qurtarmaq üçün yol axtarırdı. Bədbəxtlikdən, fəlakət rəhbərinin yol göstərməsi ilə özünün bəxtiqara qoşunlarından dörd yüz nəfərlə birgə [onun] yolu Abdulla xan və Ləvənd xan[518] Gürcünün ordusu ətrafına düşdü. Cəsarətli qazilər onun qaçmasından xəbərdar olub, ardınca hərəkətə keçdilər. [Onlar] az bir məsafə qət etdikdən sonra o dəstəyə rast gəldilər. O camaat səmərəsizcəsinə döyüşə atıldı. Onların əksəriyyəti qazilərin iti qılıncı və qantökən xəncəri ilə qətl edildi. Dərviş Məhəmməd xan, Çərəndab sultan Şamlunun Kosa Pirqulu adlı mülazimi ilə əlbəyaxa oldu. Gözəl davranışlı, bəyənilmiş xasiyyətli padşahın səadətinin gücü ilə Pirqulu ona qalib gəldi, başını bədənindən ayırdı, ali taxtın ətəyinə gətirərək, o həzrətin xoşbəxt atının ayağına atdı və mükafatlandırıldı.

**Beyt**

«Bir baş ki, şah fərmanına qarşıdır,
Bədənindən ayrı düşsə yaxşıdır».

Şəki vilayəti tamamilə qüdrətli dövlətin başçılarının əlinə keçdi. O vilayətin sahəsi fəsad [törədən] çör-çöpdən və zir-zibildən təmizləndi və şərəfli şahın ölkəsinə qatıldı.

## CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN DİNİ MÜHARİBƏLƏRİ, İMANSIZ GÜRCÜ KAFİRLƏRİNİN DARMADAĞIN EDİLMƏSİ VƏ GÜRCÜSTANIN FƏTHİ BARƏDƏ SÖHBƏT

Dindar və şəriətpərvər padşahın haqsevər fikrində həmişə din uğrunda müharibə (qəzavat) etmək ehtiyacı vardı. Lakin dövlətin böyük tədbirləri ucbatından, şərqdə və qərbdə güclü düşmənləri olduğundan [bu] iş təxirə düşür və geri qalırdı. Buna baxmayaraq, fürsət ələ keçdiyi zaman Gürcüstan xristianlarına («nəsrani»lərinə) qarşı dini müharibə etməklə, oranın qalalarını və vilayətlərini ələ keçirməklə məşğul olurdu. O, öz hakimiyyətinin əvvəllərində və səadət aqibətli, dünyanı bəzəyən günlərində dörd dəfə o diyara qoşun çəkmiş, daha bir neçə dəfə isə oraya qoşun göndərmişdi. Gürcüstanın yeddi vilayətindən Kaxet, Kartil[519] və Mesx o vilayətlərdir ki, din mücahidlərinin qılınclarının zərbəsi ilə oranın kafirləri itaət boyunduruğu salıb, oranın hakimləri o həzrət tərəfindən təyin edilib cizyə və

[518] S-129, v.71b; S-297, v.49b; B-589, v.6a.
[519] Kartil (Kartli) - paytaxtı Tiflis şəhəri olmaqla Şərqi Gürcüstanda tarixi vilayət və dövlət.

xərac verməyi öhdələrinə götürmüş, o həzrətin məşhur adına və ləqəblərinə sikkə vurdurub xütbə oxutmuşlar. Bu halın şərhi qısaca olaraq ondan ibarətdir ki, Şirvan və Şəki vilayəti Gürcüstana daha yaxın olduğundan oranın valiləri istiqlala və qüdrətə malik olmadıqları vaxtlarda gürcü kafirləri həmin mülklərin sərhədlərinə qoşun çəkərək, müsəlmanlara hücum edirdilər. Oranın hakimləri bacardıqları kimi müdafiəyə qalxır və iki tərəf arasında toqquşma və vuruşma baş verirdi.

Şahın zavalsız səadət təntənəsinin şöhrəti o vilayətdə yüksələn zaman Ləvənd xan Gürcü, deyildiyi kimi, padşahın mərhəmət kölgəsinə pənah gətirib, itaət və tabeçilik göstərdi və xərac verməklə lazımi işləri yerinə yetirdi. Gürcüstan valiləri zümrəsindən Qurquranın[520] oğlu Keyxosrov da kölə kimi özünü şahın yüksək astanasının mülazimləri sırasına daxil edib, həmişə səltənət qapısına xidmət göstərərək, o həzrətin köməyinə güvənirdi. Amma Kartil valisi Luarsab[521], Başı-açıq valisi Baqrat[522] və Dadian valisi müxalifətə keçərək, lazımi itaət göstərmirdilər. [Onlar] ali hökmdara itaət və xidmət edən adı çəkilən Keyxosrovun ölkəsinə basqın edirdilər. Neçə dəfə müzəffər əsgərlər onlara qarşı göndərilmişdi. Başı-açıq və Dadili[523] valiləri lazımi cavab və cəza almışdılar. Luarsabdan bəzi vaxtlar nalayiq davranışlar görünürdü. [O], islam ölkələri sərhədlərinə əlini uzadırdı. Buna görə də gürcü üsyankarlarını cəzalandırmaq şahın öhdəsinə düşdü və qəzavat savabı qazanmaq istəyi onun bu təşəbbüsünü qüvvətləndirdi.

## UĞURLU MƏİYYƏTİN İLK DƏFƏ ALLAHIN KÖMƏYİ İLƏ GÜRCÜSTANA YÖNƏLMƏSİ HAQQINDA

947-ci il aylarında (08.05.1540 - 26.04.1541) ədalətli təbiətə malik əşrəfin qəlbində dini müharibə və cihad etmək niyyəti qərarlaşdı. O, zahirən əyləncə, gəzinti və ova çıxmaq məqsədi ilə Qarabağa tərəf hərəkət etdi. Oradan isə sınaqdan çıxmış cəngavərlərdən bir dəstə ilə Gürcüstana tərəf yürüş edib, yolunu azmışların qara ürəklərindən daha da qaranlıq olan bir gecədə Tiflis şəhərinə basqın etdi. Kafirliyin o qaranlıq mərkəzində qətl və qarət atəşi yandırıldı. Onların kişiləri qılıncın yemi oldu, arvad-uşaqları isə müzəffər qazilərin əlində əsir və dustaq oldular. Luarsab tərəfindən Tiflis hakimi olan Gülbad Gürcü bir dəstə gürcü ilə qalaya qaçmışdı. İslamın heybət və əzəmətindən onu dəhşət və qorxu bürüdü. O, aman istəyi ilə qaladan çıxdı və islamı [qəbul etmək] səadətinə qovuşdu.

---

[520] Qurqura - 1516-1535-ci illərdə Mesxi (Samtsxe-Saatabaqo) hökmdarı olmuş IV Kvarkvare nəzərdə tutulur. Qurquranın oğlu Keyxosrov - 1545-1573-cü illərdə Mesxi hökmdarı olmuş II Keyxosrov. Mesxi hökmdarları xristianlaşmış qıpçaqlardan idilər və «atabəy» titulu daşıyırdılar.

[521] Luarsab - 1534-1558-ci illərdə Kartli çarı olmuşdur.

[522] Başı-açıq - Qərbi Gürcüstan ərazisində paytaxtı Kutaisi şəhəri olan tarixi İmereti vilayətinin türkcə adı. Baqrat - 1510-1548-ci illərdə Başı-açıq (İmereti) çarı olmuş III Baqratdır.

[523] Dadili (Dav-eli) - hal-hazırda Türkiyənin Ərzurum vilayətinin Şenkaya, Olur, Oltu, Narman, Tortum ilçələrini və Artvin vilayətinin Yusufeli ilçəsini əhatə edən və o zamanlar xristianlaşmış qıpçaq atabəylərinin ölkəsinin (Samtsxe-Saatabaqo) bir hissəsini təşkil edən tarixi mahal.

Gürcü əmirlərindən bəzisi müzəffər əsgərlərin qorxusundan son dərəcə uca və yüksək, olduqca qüdrətli və möhkəm qala olan Bertis[524] [qalasına] sığındılar. İslam ordusunun döyüşçüləri fələk məqamlı və fəza ehtişamlı padşahın fərmanına görə, o əzəmətli qalanı dairəvari şəkildə araya aldılar. O fitnəkar dəstə hədsiz qorxuya düşüb, qalanı təslim etməkdən başqa bir çarə tapmadı. Müzəffər qazilər o məkanda sakin olan kafirlərin hamısını ələ keçirib, bəxti yar olan hər bir kəsə Allahın yol göstərən işarəsi ilə xeyirli kəlmeyi-şəhadəti dedirdib buraxırdılar. Başqa kafirlər isə cəhənnəm zaviyəsinə göndərildilər.

Luarsab o azğınların başqa bir qismi ilə özünü Bumədkur[525] adlı yüksəkliyə çəkdi. Bu, hündürlükdə Elburz dağı ilə bərabərlik iddiasında olan bir dağdır. Onun zirvəsinə çıxmağı yalnız xəyal və təsəvvür etmək olar. Mücahid qazi padşah son dərəcə təntənə və cah-calalla o azğın camaatın başçısını ələ keçirmək üçün çalışma tərlanını uçuşa buraxdı. Səadətli əsgərlər o dağların zirvələrini kəklik kimi ötüb, güclə və zorla Əlvənd [dağına] bənzər o zirvəyə dırmaşıb, o fitnəkar dəstəni ələ keçirdilər. Əxlaqsız kafirlərin çoxu o dağın dar keçidlərində öldürüldü, qılıncdan qurtulanlar isə fəlakət çölündə avara oldular. Luarsab oradan qaçaraq, özünü çətin [keçidli] dağlara və sıx ağaclı meşələrə saldı və döyüş meşəsi aslanlarının pəncəsindən xilas oldu. Hər halda, o cəzalandırıldığına görə şahın müzəffər bayraqları Tiflisə tərəf hərəkət edərək, o hüdudun sahəsini üsyankar kafirlərin murdar vücudundan təmizləyib, uğurla geri döndülər.

## UĞURLU CƏNNƏTMƏKAN ŞAHIN İKİNCİ DƏFƏ GÜRCÜSTANA HƏRƏKƏTİ HAQQINDA

953-cü ildə (04.03.1546 - 20.02.1547) Əlqas mirzədən müxaliflik əlamətləri göründü. Həmən günlərin hadisələri [qələmə alınan] zaman yazıldığı kimi, şahın məiyyəti onu cəzalandırmaqdan ötrü hərəkət etdi. O, öz anasını aləmin pənahı olan dərgaha göndərərək üzr istədiyi vaxt cənnətməkan şah Şirvana getməkdən vaz keçib, günəş oğlaq bürcündə olduğu zaman, qışın ortasında göyə qaldırılan bayrağın kölgəsində cəm olmuş hədsiz qoşunla Gürcüstanda cihad etmək və imansız gürcüləri darmadağın etmək məqsədi ilə Şüregeldən[526] hərəkət etdi.

---

[524] Bertis (Birtvisi) - Tiflisdən cənub-qərbdə, Alget çayının solunda yerləşən möhkəm qala (bax: F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi /1453-1590/. Ankara,1993,s.l72).

[525] S-129, v.72b; B-589, v.7a: Nəvidkur; S-297, v.50b: Yəğmədkur. Gürcü mənbələrində bu dağın adı Kvataxevi deyə qeyd olunmuşdur (Парсадан Горгиджанидзе. История Грузии. Перевод с грузинского В.С.Путуридзе, Р.К.Кикнадзе. Тбилиси, 1990, с. 30).

[526] Şüregel - indiki Türkiyə - Ermənistan sərhədində, Qars-Arpaçayı boyunda yerləşən və Gümrü şəhəri zonasını və Qars vilayətinin Arpaçay ilçəsinin Qızılçaqçaq və Başgediklər bucaqlarını içinə alan tarixi mahal (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.102).

Səadətli məiyyət Bəhram kimi qəzəbli qoşunla Aqşəhrdə[527] dayanmağı qərara aldıqda Kaxetin Zəgəm və Girem[528] hakimi Ləvənd xan və camaat arasında Bəgrat adı ilə məşhur olan Başı-açıq hakimi Məlik Baqrat cahanın pənahı olan dərgaha gəlib, peşkəş, bac və xərac verməklə o səadətli yürüşdə kölə kimi müzəffər məiyyətdə mülazim oldular.

O zaman qışın soyuğu və şaxtanın şiddəti o dərəcədə idi ki Kür çayının suyu donub, bərklikdə qranitlə bərabərlik iddiasındaydı. Gecə-gündüz yağan qarın çoxluğundan Gürcüstanın dağı və çölü baxanların gözündə eyni cür görünürdü. Bu halda islam qoşunları kafirlərin və azğınların üzərinə basqın etdilər. İmansız gürcülərin məskən və yurdlarına çatdıqda qazilərin yəməni qılıncları baş kəsməyə başlayıb, o ölkənin torpağını kafirlərin və keşişlərin qanına boyadılar və o pis məzhəblilərin evini qəzəb odunda yandırdılar. Kinli qoşunun əlinə bol qənimət düşdü. [Onlar] çoxlu qənimət ələ keçirərək, zəfər və qələbə ilə o səadətli yürüşdən qayıtdılar və Bəndiyə gəldilər. Yol əsnasında Başı-açıq məliki getmək icazəsi alaraq, qiymətli xələt alıb nəvazişlər görərək, öz ölkəsinə getdi. Amma Ləvənd xan kama yetmiş əşrəfin xidmətində bir neçə xoş gün keçirdi. Nəhayət, Gəncə şəhərində onun səmimilik və köləlik nəqdi yenidən mübarək ürək sikkəxanasında qəbul edilərək, qızılla tikilmiş paltarlar, ərəb atları, daş-qaşla bəzədilmiş çalğı alətləri, başqa qiymətli xələtlər və çoxlu hədiyyələr alaraq, iftixar və başucalığı ilə öz vilayətinə getdi. Yaxşısını Allah bilər!

## FƏLƏK RÜTBƏLİ, SƏMA ASTANALI ŞAHIN ÜÇÜNCÜ DƏFƏ GÜRCÜSTANA HƏRƏKƏT ETMƏSİ

958-ci (1551) il aylarında Şəki vilayəti qüdrətli dövlətin başçılarının əlinə keçdi. Fələk calallı ordu hələ o vilayətdə olduğu zaman Qurqura oğlu Keyxosrov aləmin pənahı olan dərgaha xəbər göndərdi ki, Luarsab, Valhuş və Şermazan Gürcü onun vilayətinə zorakılıq əlini uzadaraq, onun bəzi ərazilərini almışlar, Ərzurumdan İsgəndər paşa da o tərəflərə gəlib, Ərduvanuh qalasını işğal etmişdir[529]. Keyxosrov o həzrətin (Şah Təhmasibin) tabeçisi və xəracverəni

---

[527] S-129, v.72b; S-297, v.50b; B-589, v.7b. Aqşəhr (Ağ şəhər) - indiki Gürcüstanın cənubundakı Axalkalaki şəhəri (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.453). Tehran çapında (s.85) «dər Aq-şəhr» («Aqşəhrdə») əvəzinə «dər an şəhr» («o şəhərdə») yazılmışdır.

[528] Zəgəm - Azərbaycanın indiki Zaqatala rayonunda tarixi bir qala olmuşdur. Onun yerləşdiyi ərazi Şəki hakimlərinin ərazisi olsa da, gürcü çarları tərəfindən zəbt edilərək, bir müddət Kaxetə tabe edilmişdi. Girem (gürcücə «Qremi») - Gürcüstanın şərqində, Kaxet vilayətində, Alazan çayının sol sahilində, Telavi və Kvareli şəhərləri arasında mövcud olmuş tarixi şəhər.

[529] Valhuş (Vakhuş, Vakhuşt) - Gürcüstanın Mesx vilayətinin Diyamidze zadəgan nəslindən idi (K.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.544). Şermazan isə Lori bölgəsinin knyazlarından olmuşdur. Bu iki şəxs Samtsxe-Saatabaqo (Mesxi) hökmdarı II Keyxosrovun vassalı olsalar da, onun Səfəvilərə itaət göstərməsini qəbul etməmiş və Kartli çarı Luarsabla ittifaqa girərək, Keyxosrova qarşı qiyam qaldırmışdılar (К.Н.Мелитаури. Строительство и архитектура Вардзии. Тбилиси, 1975, с.55-56).

olduğuna görə [şah] ona yardım göstərmək və cihad etmək qəsdi ilə qızıl qanadlı səadət quşunu o tərəfə uçmağa buraxdı. [Sah Təhmasib] Şəkidən yürüşə başlayıb, çoxlu dərə-təpədən keçərək Gürcüstan vilayətinə çatdı. Azmış kafirlər dağ ətəklərini və qaranlıq mağaraları özlərinə məskən etmiş, hər dəstə çətin gediləsi dağlardan birinə pənah aparmış, bəzi başqa böyüklər və aznavurlar[530] qalalarda oturmuşdular.

İslam ordusunun mücahidləri dinsizlərin daldalanıb pənah apardıqları sığınacaqlara igidlik və mərdliklə hücum etdilər. O pozğunlar dəstəsindən neçə min nəfər qazilərin oxunun və qılıncının zərbəsi ilə cəhənnəmə getdi. O vilayətin qalalarından bir neçəsini fəth edib, çoxlu gözəl gürcü qızlarını və Yusif sifətli qılman kimi qulamları əsir aldılar. Bol qənimətlər müzəffər ordunun əlinə keçdi. Gürcü böyüklərinin bir dəstəsi yüksək bir dağın belində, sıldırım qayanın üstündə olan və ucalıqda göy səması, mətinlik və möhkəmlikdə Xeybər qalası ilə bərabərlik [iddiasında] olan Dirman[531] qalasına və oradakı kilsəyə sığınmışdılar. Yüksək məqamlı cənnətməkan şah həzrətləri Bədr xan Ustaclunu və Şahverdi sultan Ziyadoğlunu qüvvətli dəstələrin biri ilə həmin qalanın üzərinə göndərdi. Onlar o qalanı mərkəz kimi araya aldılar. Savaş tələb edən bahadırlar və ad-san axtaran döyüşçülər ətəklərini bellərinə yığaraq və gen ətəkli qalxanları başlarına çəkərək, mərdanə hücum və yürüş etdilər və Pərvərdigarın köməyi ilə divarın üstünə çıxdılar. Xristianlar (məsihilər) bu halı müşahidə etdikdə çaşıb heyran qaldılar, mübarək dinin möcüzəsi onların hərəkət yolunu bağladı; nə qaçmağa yol tapdılar, nə də döyüşməyə taqət. Onların kişiləri qılıncdan keçirildi, qadın və uşaqları isə əsir alınıb tutuldular.

O qaladakı kilsə Allahın yaratdığı qəribə şeylərdəndir. Heç bir ağıla sığmaz ki, [o kilsə] insan cinsindən olan bir sənətkarın əli ilə yaradılmış olsun. Sözün qısası, adı çəkilən qalanın ortasında bir parça daş dağın içərisi on gəz[532] hündürlüyündə kəsilərək, dörd uzun və geniş platformadan ibarət bir kilsə düzəldilmiş, onun bayır və içəri divarı üzərində qızıl və göy lacivərdlə büt şəkilləri çəkilmişdir. İkinci otağın ortasında bir taxt qoyulub, qırmızı qızıl və qiymətli cavahirlərdən düzəldilmiş bir büt heykəli o taxtın üstünə oturdulub, iki parça qiymətli və parlaq ləl o cansız heykəlin iki gözündə yerləşdirilmişdi. Bu işi bilənlər

---

Ərduvanuh qalası - Ərdanuç (Ardanuc) qalası olmalıdır. Bu qala indiki Türkiyənin şimal-şərq bucağında, Artvin şəhərindən cənub-şərqə doğru, Çorox çayının sağsahil vadisində yerləşirdi. Ərdanuç adı Bakı əlyazmalarında Ərdanuh kimi yazılıb (S-129, v.73a; S-297, v.51a).

[530] Aznavur - gürcü döyüşçüləri.

[531] Dirman - Həsən bəy Rumlu bu qalanın adının Derzabad olduğunu bildirir (A Chronicle of the Early Safawis, 1.1 p.352-354). S-129, v.73b-də və B-589, v. 8a-da bu qalanın adı Dəryar, S-297, v.51a-da isə Dərnar yazılıb. Əslində isə bu qalanın adı gürcü mənbələrində Vardzia qalası deyə qeyd olunmuşdur (П.Горгиджанидзе. История Грузии, с. 31-32). Vardzia qalası orta əsr abidəsi olub, Gürcüstanın Cavaxeti bölgəsində, Kürün sol sahilində, qayalıq kompleksindəki mağaralar şəbəkəsi əsasında yaradılmış istehkamlardan və monastırdan ibarətdir (daha ətraflı bax: К. Н. Мелитаури. Строительство и архитектура Вардзии. Тбилиси, 1975).

[532] Gəz - təxminən 3 futa bərabər uzunluq vahidi.

onların (lələrin) hər birinin dəyərini əlli tümən[533] müəyyən etdilər. Həmin kilsənin içərisindən yüz əlli zərə[534] yaxın çox dar və ensiz bir yol kilsə evlərinin üst tərəfinə qraniti dələrək çıxır; zamanın hadisələrini və dövranın dəyişməsini nəzərə alaraq, burada daldalanmaq üçün iki gizli köşk düzəldilmişdi. Kilsənin bayır [tərəfə baxan] evlərində polad qapılar, içəridə isə bir qızıl qapı qoyulmuşdu.

Cənnətməkan şah həmin kilsəyə tamaşa etmək üçün ayaqlarına əziyyət verib, dinsiz keşişlərdən iyirmi nəfəri kafirlik dininin o məbədində atəş yağdıran qılıncla cəhənnəmə göndərdi. Kilsənin yetmiş batman[535] misdən tökülmüş olan zəngini gürcülərin həyat şirəsi kimi sındıraraq, polad və qızıl qapıları çıxarıb, o bədbəxt fəsadcıların anbarında yığılmış başqa bəzək və zinət şeyləri və saysız-hesabsız mallarla birlikdə abad xəzinəyə nəql etdilər. O qalanı dağıdaraq, divarlarını yerlə yeksan etdilər. Qalanın dəlmə-deşiklərinə və gizli yerlərə sığınmış Ənan bəy[536], Levan, Şermazan və başqaları kimi gürcü əmirləri ayrı-ayrı gələrək, [şahın qarşısında] yer öpmək səadətinə nail oldular. Şahın məiyyətinin yetişməsi xəbərini alaraq, İsgəndər paşanın və Rum qoşunlarının hücumu barədə arxayınlaşan Qurqura oğlu Keyxosrov cahanın pənahı olan dərgaha layiq peşkəşlə gəlib, şahın mərhəmət və məhəbbətini qazandı. Müxaliflikdə inad göstərən Valhuş və Şermazan oğlu hər ikisi qətl edildi. Onlara [məxsus olan] Lumk ölkəsi[537] və Aqşəhr Keyxosrova verildi.

[Şah Təhmasib] oradan qələbə və zəfərlə Kartil ölkəsinə gəldi. Qalib qoşun o vilayətin ətraf və kənarını çapıb-taladı. Luarsabın tabeçilərindən hər kəs ələ keçdisə, cihad qılıncına məruz qaldı. O vilayətdən çoxlu mallar apardılar, saysız-hesabsız əsir, iri və xırda mal-qara əzəmətli qazilərin əlinə keçdi. [Sonra] Qarabağ tərəfə yönəldilər və hökmdarın qışlağı orada oldu.

## CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN DÖRDÜNCÜ DƏFƏ GÜRCÜSTANA QOŞUN ÇƏKMƏSİ

Bu aqibəti xeyir olan dördüncü yürüşün hadisələrinin şərhi müxtəsər olaraq odur ki, 961-ci (1554) il aylarında cənnətməkan sah həzrətləri ilə Rum, Misir və Şam məmləkətləri hökmdarı arasında sülh müqaviləsi bağlandı, qayda və sərhədlər

---

[533] Tümən - monqolca «on min» deməkdir. Səfəvilər dövründə pul vahidi kimi 1 tümən 10 min dinara bərabər idi.
[534] Zər - 107 sm-ə bərabər uzunluq vahidi.
[535] Batman - çəki vahidi. Zamana və məkana görə müxtəlif çəkilərə malik olmuşdur. Bir Təbriz batmanı 2,994 kq-a bərabər idi.
[536] Ənan bəy - bu şəxsin əsl adı gürcü mənbələrində qeyd olunduğu kimi, Amoan olmuşdur (П.Горгиджанидзе. История Грузии, с.32).
[537] Lumk - əslində Tümük (gürcü mənbələrində: Tmoqvi) olmalıdır. Tümük qalası Axalkalaki şəhərindən qərbdə, Kür çayı sahilində yerləşirdi və bu qalanın ətrafı Tümük ölkəsi adlanırdı.

aydınlaşdırılıb müəyyən edildi[538]. Hər iki tərəfdən qətl və qarət əziyyətlərinə [məruzl qalan Gürcüstan vilayətlərindən Mesx, Kartil və Kaxet bu tərəfə aid oldu, Başı-açıq, Dadian və Quriyan[539] vilayəti Trabzon və Baratlı[540] hüdudlarınadək Rum hökmdarına mənsub oldu. Kartil valisi Luarsab qızılbaş döyüşçülərinin qılıncının qorxusundan uca dağlara pənah aparmışdı. O, fürsət tapanda ayağını ədəb dairəsindən bayıra qoyaraq, yaramaz işlər görürdü, Tiflis vilayətinə və qızılbaş qoşunlarının ixtiyarına və nəzarətinə keçmiş ərazilərə təcavüz əli uzadırdı. Oranın camaatı da din və millət cəhətdən bir olduqlarına görə onun tərəfini saxlayırdılar. [Şah Təhmasibin] dünyanı bəzəyən rəyi belə oldu ki, qələbə nişanəli bayraq o tərəfə qaldırılsın, o pis məzhəbli azğınlar aradan götürülsün və onun bütün məmləkəti islam ölkələrinə birləşdirilsin.

Beləliklə, «müşrikləri tamamilə öldürün» [ayəsində][541] deyildiyi kimi, imansız müşriklərdən ki, «doğrudan da, Yəcuc və Məcuc bu ərazidə fəsad törədirlər» [ayəsi][542] onlara aiddir, hər kəs cizyə[543] vermək düyününə baş qoymazsa, ona iti qılıncın hökmünü vermək və azğın camaatın həyat təməlini o vilayətin ərazisindən yox etmək qərara alındı. Bu haqq niyyətlə qələbə nişanəli bayraq o tərəfə hərəkətə gəldi. İslam ordusu Baratlıya çatdıqda o ölkənin kafirləri müzəffər qazilərin qılınc və nizələrinin qorxusundan piyada və atlının keçməsi üçün çətin olan darısqal, sıx meşələrə və ağacla dolu ormanlara dağıldılar. Bəziləri də yüksək dağlarda, mətin və möhkəm qalalarda gizləndilər. Cihad meydanının döyüşçüləri təvəkkül və mərdlik sipərini çiyinə salıb, meşə və ormanlara üz qoyaraq, [onları] dəstə-dəstə ələ keçirib, amansız qılınca məruz qoydular. Onların arvad və uşaqlarını əsir edib, saysız mal-qara qənimət aldılar. Luarsab yüz hiylə ilə o təhlükədən canını qurtarıb, özünü sığınacağa saldı.

---

538 Burada sülh müqaviləsinin tarixi kimi 961-ci ilin verilməsinə səbəb odur ki, Səfəvilərə əsir düşmüş Oltu sancaqbəyisi Sinan bəylə Səfəvi elçisi Şahqulu ağa Qacar Ərzurumda olan Osmanlı sultanının düşərgəsinə 28 şəvval 961-ci / 26 sentyabr 1554-cü ildə gəlmişlər və səhəri gün, yəni 29 şəvval 961-ci / 27 sentyabr 1554-cü ildə Ərzurumun İlicə adlı yerində Səfəvilərlə Osmanlılar arasında müharibəni dayandıran barışıq imzalanmışdır (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.238-239). Sülh müqaviləsi isə Səfəvi eşikağasıbaşısı Fərruxzad bəy Qaradağlunun Sultan Süleymanın hüzuruna göndərilməsi nəticəsində 29 may 1555-ci ildə Amasya şəhərində imzalandı О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 96).

539 Quriyan - Gürcüstanın qərbində, Minqreli vilayətindən cənubda, Acarıstanla Rioni çayı arasında yerləşən və qərbdən Qara dənizə çıxan tarixi vilayət.

540 Baratlı - Tiflis şəhərindən qərbdə, Alget çayının mənbələrində yerləşən bu vilayətin adı Osmanlı qaynaqlarında «Baral-eli», gürcücə «Sa-Baratiano» adlanır. «Tarix-i aləmara-yi Abbasi»nin Tehran çapında (s.87) bu vilayətin adı səhvən «Trablis» yazılıb (bax: F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.236). Bakı əlyazmaları əsasında tərcümə mətnində düzəliş edilərək, Baratlı yazılmışdır (S-129, v.74b; S-297, v.52b; B-589, v.9b).

541 «Qurani-Kərim», «Tövbə» surəsi, 36-cı ayə.

542 «Qurani-Kərim», «Kəhf» surəsi, 94-cü ayə.

543 Cizyə - orta əsrlərdə müsəlman ölkələrində qeyri-müsəlman əhalidən toplanan vergi.

Baratlı vilayətinin ərazisi müşriklərin imansızlığa bulaşmış vücudundan təmizləndikdən sonra səadətli məiyyət Luarsabın paytaxtı Qoriyə[544] tərəf hərəkət edərək, çətin yollardan və sıx ağaclı yerlərdən keçib, o vilayətin sahəsini də Baratlıda olduğu kimi[545] yaramaz kafirlərin vücudunun ot-alağından təmizlədilər. Gürcü böyükləri və aznavurları bir neçə qala və divarları möhkəmləndirib, hər yerdə hərbi adamlardan bir dəstə yerləşdirdiklərinə görə, ölkə fəth edən bayraqlar həmin qalalar tərəfə qaldırıldı. Əvvəlcə Mərdanqub[546] qalasını mühasirə etdilər. Həmin qalaların mühafizəçiləri qala divarlarının möhkəmliyinə güvənərək, döyüşməyə və vuruşmağa başladılar. İgid qazilər qalanın ətrafında döyüşərək, mühasirədəkilərin işini çətinə saldılar. Bəd məzhəbli gürcülər aciz olduqlarını görərək, «aman», - deyə bağırdılar. Qalanın kutvalı Parsadan bəy bayıra çıxıb, qalanı təslim etdi. Adı çəkilən qalanı aldıqdan sonra oranın ən möhkəm qalası olan və Luarsabın anasının qaldığı Amdin[547] qalası üzərinə getdilər. Ora yüksək bir qaladır, sanki əbədiyyət memarı dəyirmi asiman səviyyəsində onu bina etmişdir. Belə ki, təsəvvür və xəyal quşu hər nə qədər səylə qanad çalarsa, onun səviyyəsində uça bilməz və ruzigar hadisələrinin əli nə qədər uzanarsa, onun səddinin ətəyinə çata bilməz. O möhkəm qalanın gözətçiləri qaziləri dəf etməyə üz çevirdilər, onların arasında döyüş və vuruşma odu alovlandı. Səadət gücü ilə o Xeybərə bənzər qala az bir səylə alındı. Luarsabın anası aznavurların əksəriyyəti ilə birlikdə ələ keçdi. O dinsizləri cihad qılıncı ilə cəhənnəmə göndərdilər. Şahverdi sultan Ziyadoğlunun səyi və mərdliyi ilə neçə başqa qala da gündən-günə yüksələn dövlətin başçılarının əlinə keçdi.

Dəniz kimi coşan qoşunların əlinə bu yürüşdə otuz mindən artıq əsir keçdi. O cümlədən gürcü böyüklərinin, əyanlarının və aznavurlarının qadınları, qızları və oğulları xüms[548] əvəzinə şah cənablarına çatdı. Bu dəfə Luarsab özünü elə adsız-sansız etdi ki, onun yeri-məskəni heç məlum olmadı. Buna görə də saflıq nişanəli dindar padşah Gürcüstandan Qarabağa tərəf dönərək, o tərəflərdə gəzib ov etdikdən sonra zavalsız dövlətin paytaxtına (Təbrizə) yönəldi.

---

[544] Qori - Gürcüstanda, Tiflisdən şimal-qərbdə, Kür çayı sahilində şəhər.

[545] S-129, v. 74b; S- 297, v.52b.

[546] Mərdanqub qalası - Gürcüstanın Qori şəhəri yaxınlığındakı tarixi qaladır. Bu qalanın adı «Əhsənüt-təvarix»də Mərdanğub, «Tarix-i aləmara-yi Abbasi»nin S-129 nüsxəsində (v.75a) Mərdanqub, B-589 nüsxəsində (v.10a) Mərdub, gürcü mənbələrində isə Martkoph deyə qeyd olunur. «Tarix-i aləmara-yi Abbasi»nin Tehran çapında (s.87) Mərdabəut yazılıb. F.Kırzıoğlu bu qalanın adını «Məzarət» kimi göstərir (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.237).

[547] Amdin - əslində İdin (Eden, Aten) olmalıdır (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.237). B-589 nüsxəsində (v.10a) doğru olaraq İdin, S-297 əlyazmasında (v.52b) isə səhvən Əbdin yazılmışdır. Bu qala Gürcüstanın Qori şəhəri yaxınlığında yerləşirdi.

[548] Xüms - şəriət qanunlarına görə, seyidlərə verilən vergi məbləği.

## KAMINA ÇATAN PADŞAHIN SƏADƏTİNİN GÜCÜ VƏ ƏSAS SƏBƏBKARIN (ALLAHIN) İSTƏK VƏ İRADƏSİ İLƏ LUARSABIN ÖLDÜRÜLMƏSİ HAQQINDA

Gürcü valiləri arasında Luarsab şücaətinin və cəsarətinin bolluğu və köməkçi və işbilən adamların çoxluğu ilə seçilirdi. Buna görə də həmişə onda itaətsizlik və lovğalıq özünü büruzə verirdi. O, itaət etməyi və xərac verməyi boynuna götürmürdü. Hərçənd cənnətməkan şah həzrətləri onu aradan qaldırmağa çalışmış və dediyimiz kimi, dəfələrlə Gürcüstana yürüş edilmişdisə də, Luarsabın həyat qədəhi hələ dolmadığından o, ələ keçirilməmişdi. Cənnətməkan şah dördüncü dəfə Gürcüstan səfərindən döndükdən sonra Luarsab yenə Qoriyə gəldi, sağ qalan dinsizlər onun yanına toplandı, bir-iki il belə dolandılar. O, bir qədər işləri yoluna saldıqdan sonra yenə də itaətsizliyə başlayıb, dinin pənahı olan şaha qarşı müxalif olmaqda inad göstərdi.

[O], 963-cü ildə (16.11.1555 - 03.11.1556) Qoridən çıxıb, divanın amanında və ixtiyarında olan Luhəs[549] qalasına və onun ətrafındakı ərazilərə gəlib, üsyan və qiyam əlamətləri göstərdi. O sərhədin mühafizəsinə məmur olan Qarabağ bəylərbəyisi Şahverdi sultan Ziyadoğlu Qacar onun qiyamından xəbər tutan kimi Qarabağ qoşununu yığıb, onu dəf etməyə yönəldi. O, Luarsabın olduğu yerə yaxınlaşdıqda Luarsab hiylə və tədbir üzündən, müqavimət qüdrəti olmadığına görə qaçmağı seçdi. Qızılbaş qoşunu gürcüləri təqib edərək, o vilayətin ətraf və kənarlarına səpələndilər, talan və qarətlə məşğul oldular. Bu əsnada Luarsab məkr və hiylə pusqusundan bayıra çıxıb, aznavurlardan bir dəstə ilə Şahverdi sultanın [ordusunun] mərkəzinə hücum etdi. Qızılbaş ordusunun əksəriyyəti dağıldığından Ziyadoğlunun yanında qalan bir kiçik dəstə var gücü ilə döyüşərək məğlubiyyətə uğradı. Ziyadoğlu müharibə qayda-qanunlarını nəzərə alaraq, hərb meydanından salamat bayıra çıxdı. Gürcülər qaziləri təqib edərək, səkkiz yüz nəfərədək qızılbaşı şəhid etdilər. Luarsab «İncil» oxuyan keşişlərdən bir dəstə ilə təpənin üstündə durmuşdu. Məhəmməd sultan Çepni qazilərin bir dəstəsi ilə ona rast gəldi və o camaatla döyüşə girişməyə məcbur oldu. Luarsab çəldlik və mərdlik atını cövlana gətirdi və Məhəmməd sultan Çepniyə hücum etdi. Allahın iradəsi ilə onun atı büdrədi, Luarsab atından ayrı düşdü. Çepni qazilərindən Zakir adlı birisi ona bir neçə öldürücü zərbə vurdu. Kafirlər onun üzərinə hücum etdilər. Məhəmməd sultan Luarsabın atını ələ keçirib mindi və oradan çıxdı. Gürcülər adı çəkilən Zakiri bir necə çepni qazisi ilə birlikdə öldürdülər. Luarsabın ömür və hakimiyyət bayrağı devrilərək, həmin anda öldü. Gürcülər onun cənazəsini götürdülər, qəbiristanlığa

[549] S-129 (v.75b) və S-297 (v.53a) nüsxələrinə əsasən Kuməs qalası. «Əhsənüt-təvarix»də və B-589 nüsxəsində (v.10b) Kumiş qalası adlandırılır. Gürcü mənbələrində bu yerin adı Qaris və ya Qaris-Varxuna kimi yazılmışdır (П.Горгиджанидзе. История Грузии, с.35; «Парижская хроника». Перевел с грузинского Г.Г.Аласаниа. Тбилиси, 1991,30).

aparıb dəfn etdilər və onun oğlu Simayunu[550] hakimiyyətə gətirib, Qoridə məskən saldılar.

## LUARSABIN ÖLDÜRÜLMƏSİNDƏN SONRA GÜRCÜLƏRİN ƏHVALININ DAVAMI VƏ ONUN OĞLU SİMAYUN XANIN ƏBƏDİ DÖVLƏTİN BAŞÇILARININ ƏLİ İLƏ TUTULMASI

Simayun xan atası yerində Kartil xristianlarının (məsihilərinin) hakimi oldu və dörd-beş il Qoridə yaşadı. Hər tərəfə səpələnmiş gürcülər ona qoşuldular, nəticədə, bir cəmiyyət yarandı. O da atasının tapşırığı ilə itaətsizlik və üsyan yolu ilə gedərək, 968-ci ildə (22.09.1560 - 10.09.1561) Tiflisi almaq kimi xəyala sığmayan niyyətlə öz məkanından və məskənindən hərəkət etdi. [O], məsihilərin başqa hakimlərindən döyüşçü və kömək istədi, böyük bir cəmiyyət onun yardımına gəldi. Ləvənd xanın oğlu Gürgin (Georgi) də atasının icazəsi ilə və ya özbaşına olaraq, məzhəb təəssübkeşliyi və millət həmrəyliyi ilə Kaxetdən bir dəstə ilə onun köməyinə gəldi. Nəticədə, gürcülərin böyük bir qoşunu toplandı.

Bu xəbər Ziyadoğluya çatdıqda Qarabağ əmirlərini və o hüdudun qoşunlarını yığıb, müşrikləri aradan qaldırmağa yönəldi. Qazilər gürcü camaatının yolu bağlamaq üçün qazdıqları xəndəyi dolduraraq, onu keçdilər və müşriklərə yetişərək, o azğın camaatın qarşısında döyüş nizamı aldılar. İslam ordusunun çərxçiləri gürcülərlə döyüşə girişdilər və müharibə qızışdı. Hər iki tərəfdən mərd kişilər və döyüş meydanı dilavərləri böyük şücaət göstərirdilər. Azğın kafirlər mətanət və dözüm ayağı üstündə dayanaraq, qazilərin həmlələrini dəf edirdilər. Şahverdi sultan Ziyadoğlu kafirlərin vuruşma şiddətini və onların döyüş meydanında bu cürə təmkin və mətanət göstərdiyini gördükdə mərkəzdə duran qoşunla birdən çaparaq, gürcü qoşunu sıralarına hücum etdi. Döyüş meydanından [qopan] tozanaq tez gərdiş edən fələyə çatdı. Gürcülər onun hücumuna tab gətirməyib, qaçmağa üz qoydular. Ləvənd xanın oğlu Gürgin azğın kafirlərdən min nəfərlə birlikdə öldürüldü, [gürcülərin] sağ qalanları isə dağıldılar və səpələndilər. Simayun kiçik bir dəstə ilə Qori tərəfə qaçdı. Ziyadoğlu qələbə və zəfərlə Gəncəyə qayıtdı. Gürcülərin mötəbər əmirlərindən Cəcnə bəy aznavurların bir dəstəsi ilə tutulub, aləmin pənahı olan dərgaha göndərildi. Ləvənd xan öz oğlunun yasında boynundan qara palaz asdı. Kaxetin aznavurları və mötəbər [adamları] onunla birlikdə qara [paltar] geyərək, matəm saxladılar.[551]

---

[550] Simayun - Kartli çarı Simon nəzərdə tutulur. O, 1558-1569 və 1578-1600-cü illərdə Kartli çarı olmuşdur.

[551] Gürcü mənbələrinə görə, bu döyüş 1561-ci ildə Tsixedidi adlı yerdə baş vermişdir («Парижская хроника», с. 30).

Bu hadisədən sonra Luarsabın Davud adlı oğlu aznavurlardan bir dəstə ilə qardaşı Simayuna müxalif olaraq[552], ağlın yol göstərməsi və tale rəhbərinin işarəsi ilə könüllü surətdə aləmin pənahı olan dərgaha yönəldi və darüssəltənə Qəzvində dindar və ədalətli padşahın [qarşısında] yeri öpmək səadətinə çataraq, islamı [qəbul etmək] şərəfinə nail oldu. Cənnətməkan şah ona mehribanlıq və mərhəmət göstərib, onu yüksək oğulluq məqamına qaldıraraq, ali divanın ixtiyarında olan Tiflis vilayətini və onun ətrafındakı yerləri ona verdi. Hərdənbir dərgah əmirlərindən biri Tiflis qalasının kutvallığına, Davud xanın lələliyinə və onun işlərinin idarə edilməsinə təyin edilirdi. Amma Simayun xan və onun adamları müxaliflik və itaətsizlikdə israr edərək, Tiflis qalasını və onun ətrafını ələ keçirməyi qarşıya məqsəd qoyub, bu boş xəyallardan heç vaxt əl çəkmirdilər. [Onlar] iki-üç dəfə oranı ələ keçirmək üçün yürüş etdilər və bir iş görə bilməyib geri döndülər.

975-ci (08.07.1567-25.06.1568) ildə [Simayun] kafir qoşununu yığaraq, çoxlu süvari və piyada ilə Tiflisə yönəldi. Davud xan da ona tabe olan aznavurlarla və müsəlman qoşunları ilə şəhərdən çıxıb, qardaşı ilə müharibə etməyə tələsdi. İki tərəf biri-birinə yetişəndə, qızılbaşlar və aznavurlar düşmənin [sayca] çoxluğuna görə özlərində müqavimət qüdrəti görməyərək, vuruşmağı münasib bilməyib, qayıtmağı və qalanı müdafiə etməyi üstün tutdular. Lakin qızılbaş qoşununun sərdarı İbrahim xəlifə Qaramanlu cahillik və lovğalıqdan döyüşə girib şəhid oldu.

Davud xanın adamları «ey Davud, bu gün bizim Calut və onun qoşunları qarşısında taqətimiz yoxdur»[553] deyə bağırdılar. [Onlar] ona qarşı çıxdılar. [O], çarəsiz qalaraq, qaçmaq yolunu tutdu və qızılbaşlardan kömək istəyib, Hüsam bəy Qaramanlu ilə birlikdə bir qoşun cəmləyərək, qardaşının üstünə getdi. Lakin bu dəfə də bir iş görə bilməyib məğlub oldu və[554] Tiflisə gəldi. Simayun xan iki dəfə qardaşına və onun adamlarına qələbə çalıb, üsyan və qiyamını gücləndirdi. O, Tiflis əhalisinin ona itaət edəcəyi və qalanın asanlıqla onun əlinə keçəcəyi xəyalı ilə gürcü qoşununu toplayıb, Tiflisin üzərinə gəldi, qalanı mühasirə etdi. Qızılbaşlardan bir dəstə qalanın müdafiəsi və mühafizəsinə qalxdığına görə Simayun xan oranı almaq üçün gücü çatmadığını gördü, həm də şəhər əhalisinin yardımından ümidsiz olub, köç təbili çaldıraraq Qoriyə getdi.

Simayunun üsyan etməsi və onun islam hüdudlarına və sərhədlərinə əl uzatması xəbəri fələk məqamlı astanaya çatdıqda qəzavü-qədər kimi cərəyan edən bir hökm verildi ki, Şəki hakimi olan Şamxal sultan Çərkəz qacar əmirləri və başqaları ilə birlikdə Gürcüstana gedib, Davud xanın köməyinə çatsınlar,

---

552 B-589, v.11b; S-297, v.54a. Tehran çapında (s.89) Davudun «atasına müxalif olduğu» yazılmışdır. Halbuki artıq həmin zaman onun atası Luarsab həyatda deyildi və hakimiyyət qardaşı Simayunun əlində idi. Buna görə də Bakı nüsxələrində Davudun qardaşı Simayuna müxalif olması haqqında əksini tapmış fikir daha mötəbərdir.

553 "Qurani-Kərim", "Bəqərə" surəsi, 249-cu ayə.

554 S-129, v.76b; S-297, v.54b, B-589, v.12a.

Simayunun şərini o tərəflərdə aradan qaldırsınlar. Böyük əmirlər bu əmri icra edərək, 976-cı ildə (26.06.1568 - 15.06.1569) Gürcüstana qoşun çəkdilər. Simayun səadətli qoşunların yetişməsi xəbərini biləndə özündə müqavimət gücü görmədiyindən o ətrafın yüksək dağlarına çəkildi. Qələbə nişanəli qazilər Elburz dağı ilə bərabər və Qaf zirvəsi ilə bir olan o dağa tərəf hərəkət edib, onun ətraf və ətəklərini tutdular. O möhkəm yeri özlərinə pənahgah və sığınacaq etmiş imansız kafirlər qazilərə qarşı müharibəyə və müdafiəyə başladılar. İki tərəf arasında hərb və qətl odu alovlandı. Simayun kiçik bir dəstə ilə cahillik və lovğalıq atını minib, qazilərə həmlə etdi, bir-iki nəfəri şəhidlik şərəfinə çatdırdı. Şamxal sultanın qulamlarından Cəmşid adlı birisi ona hücum edərək, onu öldürücü nizə zərbəsi ilə zəlillik torpağına saldı. Qazilərdən başqası onun köməyinə gəlib, [Simayunu] tutdular. Gürcülər öz başçılarını bəla kəməndinə düşmüş görəndə qaçmağı fürsət bilərək, müharibədən üz çevirdilər. Simayunun ətrafındakı adamlardan bəzisi öldürüldü, bəzisi ələ keçdi.

Böyük əmirlər zəfər və qalibiyyətlə Gürcüstan qəzavatından qayıdaraq, Simayunu başqa əsirlərlə xilafət məkanlı taxtın ayağına göndərdilər. [Simayun] darüssəltənə Qəzvində xoşbəxt və müzəffər hökmdarın nəzərinə çatdı. Bir müddət onu şah dövlətxanasında saxlayırdılar ki, bəlkə, islamı [qəbul etmək] şərəfinə nail olsun; o isə məsihi dinindən dönmürdü. Nəhayət, [onu] Ələmut[555] qalasına göndərdilər. Cənnətməkan şah sağ ikən o, həmin qalada idi. İsmayıl mirzənin vaxtında [onu] oradan çıxardılar. Cənnət məqamlı, İsgəndər şanlı nəvvab (Şah Məhəmməd Xudabəndə) zamanında o, müsəlmanlığı [qəbul etmək] səadətinə nail oldu, «həqiqətdə möminlər qardaşdır» [hədisinin] zərurətinə əsasən, o həzrət tərəfindən yüksək qardaşlıq ləqəbi ilə başıuca edildi və öz irsi mülkünün hakimliyinə qaldırılmaqla arzusuna çataraq, Gürcüstana yollandı. Həqiqətən də, o, İsgəndər şanlı nəvvabın haqqını-hörmətini gözləyib, dövlətin xeyrinə olan işlər gördü. O hadisələrin ətraflı şərhi öz yerində bəyan qələmi ilə yazılacaqdır.

## QƏNDƏHAR VƏ ZƏMİNDAVƏR VİLAYƏTİNİN, HİRMƏND [ÇAYI] KƏNARINDAKI GƏRMSİRATIN FƏTHİ VƏ O VİLAYƏTDƏKİ KEÇMİŞ ƏHVALATLARIN BƏZİLƏRİ HAQQINDA

Cənnətməkan şah zamanında fəth olunmuş vilayətlərdən biri də Qəndəhar və onun ətrafıdır. [Bu] hadisənin şərhi belədir ki, adı çəkilən vilayət qalibiyyətli xaqan Sultan Hüseyn mirzə Bayqaranın zamanında onun və oğlu Bədi əz-zaman mirzənin hökmü ilə Əmir Zünnun Ərğunun və onun övladı olan Şüca bəyin ixtiyarında idi. [Sultan Hüseyn] mirzənin [vəfat] hadisəsindən və o sülalənin əhvalının alt-üst olmasından sonra Xorasan məmləkəti Şahibəy xan Özbəyin hakimiyyəti altına düşdükdə Şüca bəy onun yanına gedib, vassallığı qəbul edərək

[555] Ələmut – Qəzvindən şimal-şərqdə,Qəzvinlə Xəzər dənizi arasında güclü bir qala.

nəvaziş gördü. Lakin elə həmin il günahları bağışlanmış mərhum padşah Məhəmməd Babur mirzə ibn Ömər-şeyx mirzə ibn Sultan Əbu-Səid mirzə ibn Sultan Məhəmməd ibn Mirzə Miranşah ibn böyük əmir Sahibqiran Əmir Teymur Kürəkan Kabildən Qəndəhara qoşun çəkdi. Şüca bəy və Əmir Zünnunun [digər] övladları arğun tayfası ilə birlikdə o həzrətə qarşı müharibəyə tələsdilər, lakin məğlub oldular və Baburun qoşunu zəfər qazandı. Qəndəhar və Zəmindavər vilayəti Əmir Zünnunun xəzinələri, dəfinələri və mal-dövləti ilə birlikdə o həzrətin əlinə keçdi. O, həmin vilayətin hakimliyini öz möhtərəm qardaşı Nasir mirzəyə tapşırıb, Kabilə qayıtdı.

Şeybək xan Özbək Qəndəhar hadisəsindən xəbərdar olduqda saysız qoşunla o vilayətə yollandı. Əmir Zünnun övladları onu qarşılamağa tələsdilər və özbək qoşununun çərxçisi təyin edilib, Qəndəharın üzərinə gəldilər. Nasir mirzə bir neçə gün müdafiə olunsa da, axırda məmləkətdən əlini çəkib, qardaşının yanına, Kabilə getdi. Şeybək xan əvvəlki qaydada o əyalətin yüyənini və o vilayətin hakimliyini ərğunluların əlinə təhvil verib, geri döndü.

Daha sonra Süleyman şanlı xaqan zühur edib ortaya çıxdı və Şeybani xan o həzrətin dünyanı tutan qılıncı ilə öldürüldü. Xorasan məmləkəti o cənnət məskənli padşahın (Şah İsmayılın) hakimiyyəti altına keçdi. Şüca bəy ona sədaqət ərizəsi və peşkəşlər göndərdi, bir müddət Qəndəhar əvvəlki qaydada [Şüca bəyin] ixtiyarında qaldı vo o, üzünü Heratda qərar tutmuş xoşbəxt [Səfəvi] şahzadələrinə və qızılbaş bəylərbəyilərinə doğru çevirdi. Nəhayət, Zəhirəddin Məhəmməd Babur yenidən Kabildən Qəndəhara qoşun çəkib, [oranı] mühasirə etdi. Şüca bəy bir müddət qalanı müdafiə etdi. Mühasirə müddəti uzun çəkdi. Axırda elə oldu ki, 926-cı (1520) ildə Durmuş xan Xorasana gəldi. Şüca bəy[556] Herat bəylərbəyisi Durmuş xan Şamluya yalvar-yaxar etdi və ondan kömək istədi. Durmuş xan [Babur] padşahdan xahiş etdi ki, Şüca bəy sədaqətini izhar etdiyi və şah dərgahının qulamı olduğunu bildirdiyi üçün aramızdakı sədaqət və münasibət bunu tələb edir ki, ona qarşı təcavüzkarlıq etməyəsiniz. Durmuş xanın xahişinə əməl edən Babur padşah Qəndəharın mühasirəsindən əl çəkib, Kabilə geri qayıtdı. Şüca bəy özünün Molla Baqi adlı etimad bəslədiyi adamını Qəndəharda qoyub, Xorasana getdi. Onun [Qəndəharda] olmadığı vaxt həmin etimadlı şəxs etimadsız çıxıb, cənab Babura tabeçiliyini və tərəfkeşliyini izhar edərək, məmləkəti Baburluların ixtiyarına verdi. Babur padşah həzrətləri o vilayəti öz oğlu Mirzə Kamrana verdi və həmin tarixdən etibarən Qəndəhar Mirzə Kamranın tabeçilərinin əlində qaldı.

Cənnətməkan şahın mübarək taxtda əyləşməsindən sonra, onun hakimiyyətinin on birinci ili olan 941-ci il aylarında (13.07.1534 - 01.07.1535) Sam mirzə Qəndəharı zəbt etmək həvəsinə düşüb, Qəndəharın üzərinə getdi. Mirzə Kamran tərəfindən oraya hakim təyin olunmuş Xoca Kəlan qala qapılarını bağlayıb, səkkiz ay ərzində qalanı müdafiə etdi. Mirzə Kamran Lahorda lazımınca

[556] S-129, v.78a; S-297, v.55b.

qoşun toplayıbköməyə gəldi. Tərəflər arasında böyük bir vuruşma baş verdi. [Qızılbaşlar] mürşidi-kamilin razılığı olmadan o yürüşə çıxdıqları üçün onların arzusu baş tutmadı. Ağzıvar xan həmin döyüşdə öldürüldü. Sam mirzə məqsədinə yetmədən geri döndü. Mirzə Kamran isə Xoca Kəlanı əvvəlki qaydada Qəndəharda qoyub, geri qayıtdı.

943-cü il aylarında (20.06.1536 - 09.06.1537) cənnətməkan şahın səadətli məiyyəti altıncı dəfə Übeyd xanın fitnəsini dəf etməkdən ötrü Xorasana gələn vaxt [Şah Təhmasib] Qəndəharı zəbt etmək və qızılbaşlarla döyüşdə igidlik göstərmiş cağatay camaatından intiqam almaq məqsədi ilə darüssəltənə Heratdan çıxıb, o tərəfə doğru hərəkət etdi. Cah-calallı bayraqların təntənəsi o hüdudda yayıldıqda və [şahın] mübarək çətiri o diyarın üzərinə öz gəlişinin kölgəsini saldıqda, həmin əhvalat yazılarkən qeyd olunduğu kimi, Xoca Kəlan orada qalmağa tab gətirməyib, Sind tərəfə getdi. Onun Qəndəharda qoyduğu Gənci Xoca səadətli məiyyəti qarşılamağa çıxıb, qalanın açarlarını təslim etdi. Sözügedən vilayət qüdrətli dövlətin başçılarının əlinə keçdi. O mülkün hakimliyi Budaq xan Qacara şəfqət olundu.

Dünya hökmdarının (Şah Təhmasibin) İraq tərəfə qayıtmasından sonra Mirzə Kamran yenidən qoşun toplayıb, Lahordan çoxsaylı bir dəstə ilə Qəndəhara gəldi. Rum sultanının gəlişi və Əlqasın yağı çıxması üzündən cənnətməkan şah həzrətlərinin İraqda və Azərbaycanda başı olduqca bərk qarışmışdı və onun Xorasana yürüş etməyə fürsəti yox idi. Buna görə də Budaq xan hərbçilik qaydalarına əsasən, vaxtın tələbinə əməl edərək, özünü mühasirəyə salmayıb, məmləkətdən əl çəkdi. Mirzə Kamran [Qəndəhar] qalasını möhkəmləndirib, geri qayıtdı.

951-ci il aylarında (25.03.1544 - 14.03.1545) mərhum hökmdar Məhəmməd Hümayun padşah ibn Babur padşah əfqan ordusunun təzyiqi ilə Hind vilayətindən İrana gəldi[557] və cənnətməkan şah həzrətlərinin hüzurunda Qəndəhar məsələsi barədə Mirzə Kamranın yöndəmsiz hərəkətlərindən xəcalətini izhar etdi. Qərara aldılar ki, əgər Qəndəhar onun əlinə keçərsə, o, oranı [Səfəvi sülaləsinin] səadətli astanasının mülazimlərinə təslim edəcəkdir. O həzrət (Hümayun padşah) öz vədinə vəfa etdi və Qəndəhar qalası müzəffər əsgərlər tərəfindən fəth olunduqdan və Əsgəri mirzə ələ keçirildikdən sonra oranı həmin yürüşdə qoşunun sərdarı və adlı-sanlı şahzadə Sultan Murad mirzənin lələsi olan Budaq xan Qacara təhvil verdi. O əsnada şahzadə vəfat etdi və hələ Hümayun padşahın məsələsi həll olunmadığından, o həzrətin (Hümayun padşahın) mülazimləri olan cağatay camaatının sığınacaq yeri olması üçün Qəndəhar yenidən Budaq xandan alınıb, Bayram xan Türkmana tapşırıldı ki, o, hər iki tərəfə rəğbəti olan bir adamdır və o həzrətin (Hümayun padşahın) məsələsi həll olunana və onun hakimiyyəti vüsət tapana qədər [Bayram xan] oranı idarə etsin. Hümayun padşahın Kabildə və

[557] Hümayun padşah – Böyükl Moğollar sülaləsindən olan Hindistan hökmdarı (1530-1556), Zəhirəddin Məhəmməd Baburun oğlu.

Bədəxşanda Mirzə Kamrana qarşı münaqişəyə məşğul olduğu illər ərzində Qəndəharı Bayram xan idarə etdi. Şah həzrətləri isə Hümayun padşaha hörmət əlaməti olaraq və Bayram xanın xidmətkarlığını və sədaqətini nəzərə alaraq, Qəndəhar məsələsinə göz yumub, oranı tələb etmirdi. Nəhayət, sözügedən mərhum [Hümayun] padşah kamına çatıb, Qəzneyn[558], Kabil və Hindistan səltənətində və padşahlığında istiqlal əldə etdi. Lakin o, hələ Qəndəharı qızılbaşlara təhvil verməzdən öncə vəfat etdi. Onun möhtərəm oğlu Cəlaləddin Məhəmməd Əkbər padşah öz yüksək rütbəli atasının yerinə əyləşdi.

Həmin vaxt Bayram xanın tərəfindən Şah Məhəmməd Qəlati Qəndəharı idarə edirdi. 963-cü ildə (16.11.1555 - 03.11.1556) Zəmindavər hakimi Bahadır xan Özbək Qəndəharın üzərinə qoşun çəkib istədi ki, [oranı] Şah Məhəmmədin əlindən alsın. Sözügedən [Şah Məhəmməd] əşrəfin hüzuruna adam göndərib bildirdi: «Qəndəhar Sizin dərgahınızın mülazimlərinə aid olduğu üçün qızılbaş qoşunu təyin edin ki, özbaşına olaraq oranı zəbt etmək istəyən Bahadır xanın şərini dəf etsinlər və məmləkəti ələ keçirsinlər». Buna görə də cənnətməkan şah həzrətləri Bəhram mirzənin oğlu Sultan Hüseyn mirzəni Əliyar sultan Əfşar, Vəli xəlifə Şamlu və bəzi [digər] əmirlərlə ittifaqda Şah Məhəmməd Qəlatiyə yardım etməyə göndərdi. Vəli xəlifənin oğlu Şahverdi xəlifə şamlu qoşununun bir dəstəsi ilə Bahadır xanın üzərinə sürətlə hərəkət edib, qəflətən onun üstünə basqın etdi və tərəflər arasında şiddətli bir döyüş baş verdi. Döyüşdən və vuruşdan sonra Bahadır xan Hindistan tərəfə qaçdı. Amma Şah Məhəmməd Qəlati məkr və hiyləyə əl ataraq, Qəndəhar qalasını sözügedən [Sultan Hüseyn] mirzənin və əmirlərin üzünə bağlayıb, qalanı müdafiə etməyə başladı. Böyük əmirlər Zəmindavər vilayətini zəbt edib, Qəndəhar məsələsinin həqiqətini əşrəfin hüzuruna ərz etdilər.

Cənnətməkan şah 965-ci il aylarında (24.10.1557 - 13.10.1558) Əli sultan Tatıoğlu Zülqədəri çoxlu qoşunla Qəndəharın fəthinə məmur edib, o vilayətin hakimliyini Sultan Hüseyn mirzəyə namizəd etdi. Dərya kimi dalğalanan qoşunlar Qəndəharı əhatəyə aldılar və qalanı tutmaq üçün əməliyyata başladılar. Şah Məhəmməd Qəlati döyüşə və vuruşa başladı. Dörd ay ərzində tərəflər arasında ox və tüfəng atışmaları oldu, hərb və mücadilə atəşi alovlandı. Axırda [Şah Məhəmməd] müqavimətdən aciz qalaraq, aman istədi və əhdü-peyman bağlandıqdan sonra qalanı təslim edib, Hind diyarına yollandı. Sultan Hüseyn mirzə Qəndəhar əyalətində hökmranlığa nail oldu və iyirmi ilə yaxın bir müddətdə ali dərəcəli dövlətin sayəsində o diyarda hakimlik edərək, izzət və rahatlıqdan kam aldı. O, İsmayıl mirzənin hakimiyyəti zamanında təbii əcəllə vəfat etdi. İnşallah, onun oğullarının əhvalatı bu dünyanı bəzəyən («Aləmara») əsərin ikinci cildində, Allahın kölgəsi olan əlahəzrət şahın əziz [hakimiyyəti] dövrünün hadisələri içində müşk saçan qələmlə yazılacaqdır.

---

[558] Qəzneyn (Qəznə) – indiki Əfqanıstanda, Kabildən cənub-qərb tərəfdə, Kabil – Qəndəhar avtomobil yolu üzərində şəhər.

İndi isə sözlərin ardıcıllığına riayət edərək, məqamı gəldiyi üçün Xorasan əhvalatlarının ardını hadisələri yazan qələmlə qeydə alıb, daha sonra o həzrətin (Şah Təhmasibin) səadətə peyvənd olmuş hakimiyyəti zamanının digər hadisələrinin və əhvalatlarının şərhinə keçək.

## ÜBEYD XANIN ÖLÜMÜNDƏN SONRA XORASAN ƏHVALATLARININ ARDI VƏ CAHANI VƏ CAHAN SAKİNLƏRİNİ YARADAN [ALLAHIN] İRADƏSİ İLƏ O ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Bundan öncə, yuxarıda ənbər qoxusu saçan qələmlə yazıldı ki, Übeyd xan ibn Mahmud sultan ibn Əbülxeyr xan həyatda olduğu müddət ərzində Xorasan mülkünə təcavüz əlini uzatdı və qaniçən özbəklərin gəliş-gedişi ucbatından o diyarda çoxlu xarabalıqlar törəndi. Onun ölümündən sonra neçə il Xorasanda əmin-amanlıq hökm sürdü. Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü darüssəltənə Heratda ədalət bayrağını qaldırıb, adlı-sanlı şahzadə Sultan Məhəmməd mirzənin tabeçiliyində hakimlik məsələləri ilə məşğul oldu. O, Qərcistana qoşun çəkib, Qərcistan hakimi Bayram-oğlanın simasında oradakı özbəklərlə böyük müharibə edərək qalib gəldi və özbək sultanları bir müddət Xorasana gəlməyə cürət etmədilər.

Nəhayət, 957-ci (1550) il aylarında, Übeyd xanın ölümündən on bir il keçdikdən sonra, onun yerinə Buxarada padşah olmuş oğlu Əbdüləziz xan da axirət dünyasına tələsdi. Bu hadisənin ardınca Buraq xan ibn Sevincək sultan ibn Əbülxeyr xan, Əbdüllətif sultanla və Şah Məhəmməd sultanla ittifaqda Daşkənddən, Səmərqənddən və Hisari-Şadmandan Xorasana qoşun çəkib, tamam qələbəlik və izdihamla Herat üzərinə gəldi. Məhəmməd xan Şərəfəddinoğlu qalaya və şəhərə istehkam verməklə kifayətlənməyib, Herat şəhərinin bayırında da küçəbəndlər (barrikadalar) tərtib etdi və hər küçəbəndin başında təcrübəli sərdarlar, topçular və tüfəngçilər qoydu. Bir neçə gün qızılbaşlarla özbəklər arasında küçəbəndlər üstündə döyüş və vuruş baş verdi. Özbəklər heç bir küçəbəndi ələ keçirib istila edə bilmədilər. Sözügedən [özbək] sultanlarının ən şücaətlisi olan Şah Məhəmməd sultan Sistan və Fərah vilayətlərini qarət etməyə getdi. O, oradan geri qayıdıb Herata gəldikdə Buraq xana qarşı etiraz dilini uzadıb dedi ki, nə üçün indiyəcən küçəbəndlər alınmayıbdır? Və iddia etdi ki, mən sabah küçəbəndləri ələ keçirməyincə atdan enməyəcəyəm. Növbəti gün o, adlı-sanlı bahadırlardan ibarət çoxsaylı bir dəstə ilə bu əzmlə atlanaraq, Şah Zeyd məzarının yaxınlığındakı küçəyə üz tutdu və igidcəsinə oranın mühafizəçiləri üzərinə həmlə etdi. Küçəbəndin müdafiəçiləri müqavimətə tab gətirməyib, fərar edərək, küçəbəndin arxasına çəkildilər. Şah Məhəmməd və özbəklər küçəbəndin sonuna kimi gəldilər. Bu əsnada qəzavü-qədər sapandından canalan bir daş çıxıb, yekəbaş [Şah Məhəmməd] sultanın başına dəydi. O, sərsəm halda qürur atından yerə yıxıldı.

Həmin vaxt Məhəmməd xanın mülazimlərindən olan məchul bir şəxs onun başının üstünü alıb, onun bədənini baş yükündən azad etdi. Həmçinin bir neçə adlı-sanlı bahadır əsir alındı. Şah Məhəmməd sultanın [öldürülməsi] xəbəri Buraq xana çatdıqda onu xof və dəhşət bürüdü və o, köç etmək təbilini səsləndirib, Mavəraünnəhrə getdi.

Məhəmməd xan Şərəfəddinoğlunun ölümündən və onun oğlu Qazaq xanın dustaq edilməsindən sonra dünya sakinlərinin şahzadəsi Sultan Məhəmməd mirzə ulu orduya getdi və yenidən Xorasan mülkünün hakimliyinə mənsub olundu; Şahqulu sultan Yegan Ustaclu isə onun lələsi təyin edilərək, şahzadənin ali üzəngisi həndəvərində Xorasana yollandı. Abdulla xan ibn İsgəndər xan ibn Canibəy sultan və Xosrov sultan basqın etmək məqsədi ilə Amudərya çayından keçib, Xorasana, [Sultan Məhəmməd] mirzənin və [Şahqulu] sultanın yolunun üstünə gəldilər. Xorasan qoşunu [Sultan Məhəmməd] mirzənin başına cəm olmadığı və həmin vaxt [Sultan Məhəmməd] mirzə ilə [Şahqulu] sultan döyüşə hazır olmadıqları üçün Türbəti-Heydəriyyə[559] qalasına sığındılar. Özbək sultanları qalanı mühasirə etdilər. Düşmənləri dəf etmək üçün Xorasan əmirlərinin hər biri öz məkanından hərəkətə gəldilər. Lakin hələ ordunun toplanması baş verməzdən öncə İraq qoşununun gəlişi xəbəri yayıldı. Özbək sultanları qalmağa tab gətirmədilər. Əvvəlcə Xosrov sultan ehtiyat edərək köçüb getdi. Növbəti gün isə Abdulla xan köç təbilini səsləndirib, Buxaraya qayıtdı. Onların gedişindən sonra Mavəraünnəhr sultanlarından heç birisi Xorasana gəlmək iradəsi göstərmədi.

Bir dəfə Pir Məhəmməd xan ibn Canibəy sultan Bəlxdən müqəddəs Məşhəd hüduduna gəlib, sonra geri qayıtdı. Daha sonra o, öz dayısı Tülək bahadırı töhfə və hədiyyələrlə birlikdə, üzrxahlıq etmək üçün xəlayiqin pənahı olan dərgaha göndərdi. Tülək bahadır şahın qəbulunda olmaq şərəfinə nail olub, geri qayıtdı.

Başqa bir dəfə Özbək xan ibn Rüstəm sultan ibn Canibəy sultan 967-ci ildə (03.10.1559 - 21.09.1560) Əndixud və Şirğandan[560] səkkiz min nəfər qaniçən özbəklə Sərəxs, Zurabad və Cam hüduduna gəlib, bir qədər qarətçilik və soyğunçuluq edərək, öz diyarına yollandı. Cam hakimi Zeynal xan İbrahim xan oğlu Zülqədər, Mir Hüseyn sultan Firuzcəngi çağırıb, özbəkləri dəf etmək barədə onunla məşvərət etdi. Sözügedən [Mir Hüseyn sultan] və cağatay əmirlərindən olan Kutval [adı] ilə məşhur Hacı sultan hər ikisi tərtib olunmuş qoşunlarla Zeynal xana qoşuldular. [Zeynal xan] onların köməyindən faydalanaraq, [özbəkləri] təqib etmək fikrinə düşdü. Sözügedən əmirlər təqib etməyi məsləhət görmədilər. Zeynal xan təqibə göndərdiyi bir dəstənin məğlub olmasına baxmayaraq, cahilliyinin və qürurunun çoxluğu ucbatından iki min beş yüz qızılbaş və cağatayla birlikdə

[559] Türbəti-Heydəriyyə və ya sadəcə, Türbət - İranın Xorasan vilayətində, Məşhəd və Cünabəd şəhərləri arasında yerləşən tarixi qala.

[560] Şirğan - Əfqanıstanın şimalında, Əndixud şəhərindən cənub-şərqdə, Bəlx şəhərindən qərbdə və Meymənə şəhərindən şimal-şərqdə yerləşən indiki Şibirqan şəhəri.

onların arxasınca gedib, Xatvan[561] körpüsündə özbəklərə çatdı. Özbək xan qızılbaşların bərabərində iki-üç min nəfər qoyub, özü yeddi min nəfərlə hiyləgərlik pusqusunda oturdu. Əvvəlinci həmlədə özbəklər məğlub oldular. Zeynal xanın adamları qənimət və mal-dövlət arzusu ilə qarətçilik etməyə tələsdilər. Elə bu vaxt Özbək xan pusqudan çıxıb, əmirlərin səfinə hücum etdi və bir həmlədəcə onların qoşununu darmadağın edib, pərakəndə saldı. Qızılbaşlar gücləri yetdiyi qədər mərdliklə döyüşdülər. Min nəfərə yaxın qızılbaş və cağatay Zeynal xanla və Mir Hüseyn sultanla birlikdə öldürüldülər. Hacı sultan Kutval qoşunun qalıqları ilə birgə yüz təşviş və ahla o qorxunc mərəkədən çıxıb getdi. Zeynal xanın tədbirsizliyi və cahilliyi ucbatından belə bir qalibiyyətli qoşuna fəlakət üz verdi. Özbək xan öz diyarına qayıtdı.

## CƏNNƏTMƏKAN ŞAHIN DARÜLXİLAFƏT BAĞDADA VƏ XUZİSTANA UĞURLU HƏRƏKƏTİ VƏ DÜNYA SAKİNLƏRİNİN PƏRVƏRDİGARININ YARDIMI İLƏ ÜSYANÇILARI DƏF ETMƏSİ HAQQINDA

Əvvəlki vərəqlərdə cahanın şahı, yəni Cəmşid calallı cənnətməkan şah həzrətlərinin hakimiyyəti zamanının hadisələri [təsvir olunarkən] ikidilli qələmlə bəyan səhifəsi üzərində yazıldı ki. [Şah Təhmasibin] mübarək taxtda əyləşməsinin, səltənət və hökmranlığının əvvəllərində, Süleyman məkanlı xaqan həzrətlərinin (Şah İsmayılın) qorxusundan sakitlik guşələrində gizlənmiş ətrafdakı qiyamçılar və başqaldıranlar başlarını üsyan cibindən çıxarıb, düşmənçilik və müxalifət nişanələri göstərirdilər. O həzrət, qısaca yazıldığı kimi, uzun müddət düşmənləri aradan qaldırmaq, qiyamçıları cəzalandırmaq, məmləkətin və millətin mühüm işlərini nizama salmaq üçün səfərlərə çıxmağın əziyyətinə və yürüşlər etməyin çətinliklərinə dözdü, zəruri münaqişələrdən rahat olmadı.

Hökmdarın hərəkətə keçməsinə [səbəb olan] böyük hadisələrdən biri darüssəlam Bağdad, Dizful və Ərəbistan hakimlərinin üsyanı və qiyamıdır. [Bu] əhvalatın şərhi belədir ki, o həzrətin səadətli hakimiyyətinin əvvəlində Sufi Xəlil Türkmanın nəvəsi İbrahim sultan Mosullu darülxilafət[562] Bağdadın hakimi idi. Onun (İbrahim sultanın) əmisi Noxud sultanın oğlu olan Zülfüqar isə Kəlhur hakimi idi və o, öz ürək lövhəsində müxaliflik və itaətsizlik naxışı yazıb, Bağdadın valiliyi və hökmdarlığı həvəsinə düşdü. İbrahim sultan Mahidəşt yaylağında olan zaman [Zülfüqar] iki yüz nəfər mükəmməl süvari ilə sürətli yürüş edərək, özünü onun ordugahına yetirdi. İbrahim sultanın mülazimləri Zülfüqarın belə vaxtsız gəlişindən [İbrahim] sultana qarşı xəyanət hiss edib dedilər ki, onun öncə bildirmədən və xəbər vermədən, ani bir şəkildə və bu cür sürətlə buraya gəlməsi

[561] Bakı nüsxələrinə görə: Xatun (S-129, v.80b; S-297, v.58a).
[562] Darülxilafət - «xilafət məkanı» deməkdir. Bağdad şəhəri əsrlər boyunca Abbasilər xilafətinin (750-1258) paytaxtı olduğu üçün bu epitetlə xatırlanmışdır.

xeyirli və sağlam bir davranış deyildir[563]. Lakin [İbrahim] sultan buna məhəl qoymayıb, bir neçə yaxın adamları ilə birlikdə öz divanxanasında rahatlıqla oturmuşdu. Bu zaman Zülfüqar onun ordusunun kənarına çatıb, ona basqın etdi. Bu vəziyyəti görəndə, İbrahim sultan özünü itirdi, adamlarını yığmağa və müdafiə olunmağa fürsət tapmadı. Canının qorxusundan özünü hərəmsaraya atdı. Zülfüqar bir dəstə ilə piyada olub, hərəm çadırının iplərini qılıncla kəsdi, [çadırı] onun başına yıxdı. [İbrahim] sultanı yanında olan bir neçə adamla birlikdə iti qılıncla parça-parça etdilər. Orduda qarışıqlıq və çaxnaşma baş verdi. Mülazimlərin əksəriyyəti yığışıb, [İbrahim] sultanın öldürüldüyünü gördükdə Zülfüqara itaət etdilər. Ərəb əmirlərindən olan Seyid Süleymanın oğlu Seyid bəy Kəmunə dörd yüz nəfərlə gəlib yetişdi. Zərurətdən o da Zülfüqara qoşuldu. Həmin hadisədən sonra [Zülfüqar] tam qalibiyyətlə darüssəlam [Bağdada] gəlib, o şəhərə sahib oldu. [O], öz qohum və əqrəbasından çoxlarını zor və zülm qılıncı ilə qətl etdi, bütün İraqi-Ərəbi özünə tabe edərək, orada öz hakimiyyət bayrağını qaldırdı.

Bu xəbər ədalətli şəhriyarın ərzinə çatdıqda, 936-ci ildə[564] (05.09.1529 - 24.08.1530) cah-calallı bayraqlar müzəffər əsgərlər və səadətli qoşunlarla İraqi-Ərəb tərəfə hərəkətə gəldi. Az bir zamanda darüssəlam [Bağdadın] sahəsi fələk təntənəli şahın cah-calallı çadırlarının qurulduğu yer oldu. O vaxt günəş xərçəng bürcündə, hava isə istiliyin od yandıran dərəcəsində idi.

**Beyt**

«O qədər isti idi havanın hərarəti,
Axar suda xərçəngin kəsilmişdi taqəti».

Bəd xasiyyətli Zülfüqar bir dəstə fəsadçıya inanıb arxayın olaraq, şəhərin darvazalarını bağladı, qalanı müdafiə etməyə, döyüşə və vuruşa başladı. Səadətli məiyyətin mübarizləri Bağdad qalasını mühasirəyə alıb, hər gün qaragün düşmənlərlə mücadilə və müharibə etdilər; arada döyüş odu alovlandı. Zülfüqarın qardaşları Əli bəy və Əhməd bəy işlərin aqibətini nəzərə alaraq, o nemət qədri bilməyən [Zülfüqarı] dəf etməyi qərara aldılar. [Onlar] fürsət tapıb, o bədbəxtin üzərinə getdilər, onun başını iti qılıncla bədənindən ayırıb, ali taxtın ayağına gətirdilər. Bağdad qalası şahın mübarək bəxtinin gücü ilə, bəlkə də, məhz Allahın köməyi ilə fəth edildi. Zülfüqarın fəsadçı mülazimləri şahın qəzəbinin qorxusundan özlərini Dəcləyə atdılar ki, bəlkə, nicat sahilinə çatalar. Amma onların əksəriyyəti fəna dalğalarına qərq oldular.

O həzrət (Şah Təhmasib) sonsuz əzəmət və calalla darülxilafət [Bağdada] gəldi, onun ədalət nuru vilayətin ətrafına düşdü. O, qəzavü-qədər hökmü kimi nüfuzlu bir hökm verdi ki, şəhərdəki heç bir canlını Zülfüqarın zamanındakı

---

[563] S-129, v.81a; S-297, v.58a-b. Tehran çapında (s.94) bu hissə naqisdir.
[564] S-297 nüsxəsində (v.58b) səhvən 959-cu il yazılmışdır.

əməllərə görə məsuliyyətə cəlb etməsinlər. Xalq əbədi dövlətə dua etməyə başladı. Ərəb qəbilələrinin başçıları layiqli töhfələrlə gözəl danışan elçilər göndərərək, [şahı] Bağdadın fəthi münasibətilə təbrik etdilər. Cənnətməkan şah havanın istiliyinin şiddətlənməsinə və mübarək bədəninin qızdırmaya tutulmasına görə o vilayətdə dayanmayıb, darüssəlam [Bağdadın] valiliyini və hakimliyini o zamanadək «sultan» [rütbəsinə malik] olan Məhəmməd xan Şərəfəddinoğluya tapşırıb, İraqi-Ərəbdən İraqi-Əcəmə tərəf döndü və salamatlıqla şahlıq mərkəzinə çatdı.

Amma Xuzistan və Ərəbistan yürüşünə səbəb o oldu ki, Dizfulda valilik edən və əslən o vilayətin Rənaş kəndindən olan Əlaüddövlə Rənaşi başını itaət və tabeçilik boyunduruğundan çıxarıb, müxaliflik meydanında gəzirdi. Buna görə də Xuzistana yürüş etmək zərurəti meydana çıxdı. 948-ci il aylarında (27.04.1541-16.04.1542), [Şah Təhmasibin] mübarək taxta çıxmasından on səkkiz il keçdikdə dünyanı tutan bayraqlar o tərəfə hərəkət etdi. Luristan Xürrəmabadı müzəffər əsgərlərin dayanacaq yeri olanda Luri-Kuçek[565] [vilayətinin] əmiri Cahangir Abbasi səltənət taxtı sütunlarını öpmək səadətinə çatdığından ehtiram və məhəbbət gördü.

Səadətli məiyyətin yetişməsi xəbəri Dizful və onun ətrafındakı qiyamçıların dözüm və müqavimət qərarını tamamilə sarsıtdı. Adı çəkilən Əlaüddövlə qorxu və dəhşətdən məmləkəti tərk edib, ildırım və külək sürəti ilə Bağdad tərəfə qaçdı. Dizful vilayətinin ərazisi səadətli çadırların qurulduğu yer olduqda Müşəşə nəslindən olan Hüveyzə hakimi Seyid Şücaəddin pak ürək və səmimiyyətlə fələk etibarlı ali astanaya üz çevirdi, ehtiram və məhəbbət gördü və əvvəlki qaydada o vilayətin valiliyi ona mərhəmət edildi. [Şah Təhmasib] Şiraz hakimi İbrahim xan Zülqədəri bir çox əmir və əsgərlərlə Bayat qalası[566] üsyançılarını çalıb-çapmağa göndərdi. O tərəflərdə də mühüm işlər istənilən kimi nizama düşdükdən sonra [şahın] qələbə çalan cilovu İraqa çevrildi. Xülasə, o həzrət taxta çıxmasından sonra otuz ilədək ölkəni səadət və xoşbəxtliklə idarə etmək üçün oraya-buraya səfərlər edirdi.

Daha sonra Van vilayəti rumilərin əlinə keçdiyindən və ora darüssəltənə Təbrizə yaxın olduğundan, mübarək paytaxt və əbədi olan səltənətin məkanı üçün darüssəltənə Qəzvini seçdilər. Orada dövlətxana və ali bir bağın layihəsini saldılar və üç-dörd il ərzində orada binaların tikilməsindən sonra [Şah Təhmasib] iyirmi ilədək Qəzvin dövlətxanasından heç bir tərəfə hərəkət etmədi. Və gündən-günə onun dövlətinin bayrağı ucalırdı və dünya sultanları onun Keyvana bənzər dərgahına pənah gətirib, bu sözləri deyirdilər:

---

[565] Luri-kuçek (Kiçik Lur) - İranın Luristan vilayətinin şimal-qərb hissəsi bu cür adlanırdı (Qızılbaşlar tarixi, s.44).

[566] Bayat qalası - İranın Luristan vilayətində, Tib çayının mənbəyi yaxınlığında yerləşirdi (F.Sümər. Oğuzlar, s.227).

**Şeir**

«Ey şah, sənin qapın aləm şahlarının qibləsidir,
Fələk sənin tərəfindədir və dünya sənə tabedir.»

## CAHAN SULTANLARINDAN OLAN GÜNAHLARI BAĞIŞLANMIŞ HƏZRƏT HÖKMDAR HÜMAYUN PADŞAH KÜRƏKANIN İRAN ƏRAZİSİNİN ŞƏHRİYARININ SƏADƏT NİŞANLI DƏRGAHINA GƏLMƏSİ HAQQINDA

Özündə maddi və mənəvi səltənəti cəmləşdirmiş müqəddəs nişanəli Səfəvi sülaləsinin mənşəyinin vilayət və kəramət xanədanına gedib çıxdığı günəş kimi aydın olduğuna görə cahan sultanları və ölkələrin hökmdarları nicat tapmaq üçün öz əllərini uzadıb, dili pak olan bu xanədanın möhkəm ipindən yapışmışlar. Hind və Firəng məmləkətlərinin uzaq yerlərindən [hökmdarlar] səmimi istək və sədaqətlə [Səfəvi sarayına] elçilər, məktublar və hədiyyələr göndərir, həmişə sədaqət və ittihada əsaslanan münasibətləri inkişaf etdirirdilər. O kəslər ki, həyatın enişli-yoxuşlu mərhələlərindən keçərkən bir hadisə baş verdikdə saf niyyət və təmiz məqsədlə bu kəramət nişanəli sülaləyə yalvarıb-yaxarmışlar, onlar həmin aləm hökmdarlarının zahiri dəstəyi və batini köməklikləri ilə həm maddi, həm də mənəvi cəhətlərdən müvəffəqiyyətlə öz arzularının hədəflərinə nail olmuş, yüksək səviyyələrə və uca mərtəbələrə qalxmışlar. Lakin hər kim ki, [Səfəvi sülaləsinə sığınarkən] xəyalında yaramaz dünyəvi qərəzlər tutaraq düşüncə və etiqaddan bir bəhrəyə malik olmamışdır, onların ümid ağacı murad səmərəsindən uzaq düşmüş, onlar öz pozğun niyyətlərindən irəli gələn istəklərinə çatmamışlar.

Bu mövzunun doğruluğunun sübutu mərhum hökmdar Məhəmməd Hümayun padşah ibn Babur padşah ibn Ömərşeyx mirzə ibn Sultan Əbu-Səid Kürəkanın xeyirli əhvalatı və Rum məmləkətinin hökmdarı Sultan Süleyman ibn Sultan Səlimin oğlu, pis etiqadlı padşahzadə Sultan Bayəzidin iztirablı əhvalatıdır. Onların hər ikisi zəmanənin hadisələrinin əlindən cənnətməkan şahın astanasına pənah gətirmişdilər. Dürüst əqidəyə və gözəl ixlasa malik olan, adı yuxarıda qeyd olunmuş mərhum [Hümayun] padşah mətləbinin hədəfinə yetişsə də, pak etiqadlı olmayan Sultan Bayəzid səadətin məskən tutduğu bu qapıdan kömək ala bilmədi, onun halının axırı acınacaqlı oldu və cəzaya düçar qaldı.

[Həmin əhvalatların] şərhi belədir: Geniş Hindistan məmləkətinin hökmdarı olan və Qəndəhar, Kabil və Bədəxşandan başlayaraq ta Benqal[567] torpaqlarına qədər uzanan əraziləri öz taxt-tacının ixtiyarı altında və öz hökmünün dairəsi çərçivəsində saxlayan günahları bağışlanmış mərhum [Hümayun] padşah asimanın

[567] Benqal - Qanq və Brahmaputra çaylarının aşağı axarlarında tarixi vilayət. Hal-hazırda Qərbi Benqal (mərkəzi Kəlkətə şəhəri olmaqla) Hindistanın tərkibində ştatdır, Şərqi Benqal ərazisində isə paytaxtı Dəkkə şəhəri olmaqla müstəqil Banqladeş dövləti yerləşir.

təqdiri, dövranın hadisələri səbəbindən və alın yazıları nifaq olan namehriban qardaşlarının ona ittifaq etməmələri üzündən, «Tarix-i Əkbəri» əsərinin müəllifi Şeyx Əbülfəzlin öz bəlağətli kitabında ətraflı şəkildə qeyd etdiyi kimi[568], Qanq çayı kənarında [baş vermiş döyüşdə] hətta onun mülazimlərinə nökərçilik etməyə layiq olmayan Əfqan Şirxan qarşısında böyük bir məğlubiyyətə uğrayaraq, əlacsız qalıb, atını suya vurdu. Elə oldu ki, onun xidmətində olan Sultan Hüseyn mirzə Bayqaranın nəvəsi Məhəmməd Zaman mirzə bütün cağatay əmirləri və əsgərləri ilə birgə ölüm dalğaları içində qərq oldu. O həzrət (Hümayun) də suyun içində atından ayn düşmüşdü. Bir «səqqa»[569] canfəşanlıq edib, özünü suya ataraq o həzrəti [oradan] çıxardı.

Xülasə, [Hümayun padşah] məğlub və pərişan bir vəziyyətdə o vurhavurdan qurtulub, Aqra[570] şəhərinə gəldi, oradan da Lahora yollandı. Lakin müxtəlif səbəblər üzündən Lahorda da qalmağa macal tapmayıb, varım-dövlətini itirmiş bir halda Sind[571] vilayətinə gəldi. Əmir Zünnun Ərğunun övladları həmin mülkü zorla ələ keçirmişdilər. Onlar həmdəmlik darvazalarını onun üzünə bağlayıb, ona qarşı düşmənçilik qapılarını açdılar. O, məcbur olub Qəndəhara yollandı. Elə ki Saldəşk vilayətinə çatdı, Qəndəhar hakimi olan kiçik qardaşı Əsgəri mirzə, padşahın acınacaqlı bir vəziyyətdə olmasından xəbər tutaraq, vəlinemətləri olan böyük qardaşlarının (Hümayunun) əleyhinə nifaq törətməyə məşğul olan digər bir qardaşı Mirzə Kamrana yarınmaq üçün [Hümayuna qarşı] hiyləgərlik və xəyanət mövqeyində durub istədi ki, o həzrəti ələ keçirib, dustaq etsin. O, belə bir yaramaz niyyətlə izdihamlı bir dəstə götürərək, Qəndəhardan çıxıb Hümayunun ordugahına yollandı. Lakin təmiz ürəkli, yaxşı əqidəli insanlardan biri o pis düşüncəli cahilin çirkin fikrindən agah olub, özünü ordugaha yetirərək, padşah cənablarını o qəddarın hiyləsindən xəbərdar etdi.

O həzrət dövranın gərdişinə heyrət edərək, bu müşkül işin çarəsini İrana getməkdə və «vilayət» nişanlı [Səfəvi] xanədanına sığınmaqda gördü. [Bu məqsədlə] o, özünün ali ordugahını, yüklərini və əşyalarını yerindəcə buraxıb, bu hadisədən bir qədər öncə Sind vilayətində yoxluğun gizlinliyindən mövcudluğun meydanına yenicə qədəm qoymuş südəmər körpə olan xoşbəxt və səadətpərvər şahzadə Cəlaləddin Məhəmməd Əkbəri insanların pərvərdigarı olan Allaha tapşıraraq, onu xidmətkarlarla birlikdə ordugahda qoydu. Çünki o səadətli körpənin aparılması müşkül və çətin bir iş idi. Amma onun möhtərəm anasını bir neçə nəfər

---

568 S-129, v.83a; S-297, v.60a. Əllami Əbülləzl ibn Şeyx Mübarək 1554-1602-ci illərdə yaşamışdır. O, Böyük Moğollar sülaləsindən olan Hindistan hökmdarı I Əkbərin (1556-1605) sarayında xidmət etmiş, məşhur dövlət və din xadimi, ədib və tarixçi olmuşdur. Onun «Mükatibat-i Əllami» və «Əkbərnamə» («Tarix-i Əkbəri») kimi əsərləri mühüm tarixi mənbələrdəndir (А. М. Фарзалиев, Р. М. Мамедова. Сефевиды и Великие Моголы, с. 8,12).

569 Səqqa - hərfi mənası tuluqla su daşıyan adam, suçu və ya tuluqçudur. Ordunun su təchizatı və ordu üçün zəruri olan suyun daşınıb gətirilməsi ilə məşğul olan adamlar «səqqa» adlanırdılar.

570 Aqra - Hindistanda, Dehlidən cənub-şərq tərəfdə yerləşən şəhər.

571 Sind – Pakistanda tarixi vilayət.

məhrəm xədimlərlə birlikdə özü ilə getmək izzətinə nail edən [Hümayun] təvəkkül biyabanına qədəm qoydu. Əmirlərdən, seçkin şəxslərdən, fədakar mülazimlərdən altmış-yetmiş nəfər, sədaqəti özlərinə şüar edən, o cənaba vəfadarlıq göstərən xidmətçilərdən ibarət bir dəstə ilə birlikdə onunla yol yoldaşı olmaq və birgə getmək şərəfinə yetişdilər. Onların arasında ən əzəmətli şəxs Əlişəkər bəy Türkmanın nəvəsi olan Bayram xan Bahadır idi. Onun ata-babası türkmanların (Ağqoyunluların) tənəzzülü vaxtı İran mülkünü tərk etmişdilər. Onun özü Allahın təqdiri ilə Kabilə gəlib, Baburun yanında qulluğa daxil olmuş və həmin sülaləyə göstərdiyi ləyaqətli xidmətlərin müqabilində ali mənsəblərə yüksəlmişdi. Haqqında danışdığımız bu hadisələr cərəyan edən vaxt o, Hümayunun dövlət [işlərinin] təşkilatçısı idi.

Onlar bütün biyabanlıqdan ötüb keçərək, çöl yolu ilə Sistan vilayətinə gəldilər və oradan [Hümayun] öz xətti ilə, ətirsaçan bir qələmlə sədaqət dolu bir məktub və şövq dolu bir səhifə yazaraq, onu ali şərəfli [Şah Təhmasibin] hüzuruna göndərdi. O [məktubun] surəti aşağıdakı kimidir.

***Hümayunun cənnət dərgahlı həzrət şahın hüzuruna Allahın köməyi ilə yazdığı sədaqət üslublu məktubun surəti:*** «Həqiqi dostların münasibətlərində vacib olan dua və ixlas vəzifələrimi yerinə yetirdikdən sonra bildirirəm ki, bəndəliyim az və utanılacaq əməllərim çox olduğuna görə mən özümü kamillik vəsflərinin məzhəri və Allahın kölgəsi olan əlahəzrətin (Şah Təhmasibin) həşəmət və calal fəzasının günəşi qarşısında bir zərrə hesab edib, ona doğru gəlirəm. Bu vaxtadək özümü açıq-aydın bir surətdə Sizin tərəfdarlarınız sırasına aid etməsəm də, Sizə münasibətdə məhəbbət və ixlas kəməndini qəlbimin qübbəsinə bağlamışdım. Çeşidli səadət və kəramətlərin vasil və hasil olmasının məkanı olan zati-alinizin misilsiz hüzurunun həmişə həsrətini çəkirdim və şərəfli simanıza doğru üz tutmağa hər an həvəs göstərirdim. İş elə gətirdi ki, alçaq zəmanənin axarı və alt-üst olmuş buqələmun çərxi-fələyin gərdişi üzündən böyük Hind ölkəsinin genişliyindən Sindin zülmlü darısqallığına gəlib çıxdım.

Nə sərgüzəşt vardısa, gəldi mənim başıma,
Dəryada, dağda, çöldə bəla çıxdı qarşıma.

İndi ki, bu mücahidin iqbal qanadları əzəmət və calal günəşinin camalını müşahidə etmək üçün pərvaza gəlmişdir, rəhman olan Allahdan ümid odur ki, arzularımın əsasını təşkil edən sizinlə görüşmək səadətinə nail olduqdan sonra başıma gələn hadisə və əhvalatlardan ərz edilməyə qabil olanları Sizə söyləyəcəyəm, inşallah!»

Xülasə, elə ki o həzrət (Hümayun) Sistana yaxınlaşdı, oranın hakimi olan Əhməd sultan Şamlu öz qardaşını layiqli töhfələrlə onun qabağına göndərdi və daha sonra özü də əyan və əşrəflərlə birlikdə onu qarşılamağa çıxıb, ona xidmət göstərmək xoşbəxtliyinə yetdi. [Əhməd sultan Şamlu] padşahın qədəmlərinin təşrif

gətirməsi barədə həqiqəti Xorasan əmirülümərası Məhəmməd xan Şərəfəddinoğluya elan etdi və bu [sonuncu] da öz növbəsində [sürət baxımından] səba və şimal küləklərinə tay olan bir qasidi ali taxtın ətəklərinə göndərib, [Hümayun padşahın] ali məiyyətinin gəlişini ərz etdi. Bunun ardınca o həzrətin (Hümayunun) sədaqət üslubunda yazılmış naməsi xeyirxah hökmdarın nəzərinə çatdı. Comərdlik ədəb-ərkanının məzhəri və mərdlik məfhumunun mənbəyi olan [Şah Təhmasib] [Hümayun] padşahın qədəmlərinin təşrif gətirməsi müjdəsini aldıqda çoxlu sevinc və hədsiz şadyanalıq nümayiş etdirərək, məktubun cavabını sonsuz fərəh, istək və görüşmək diləyi ilə öz şərəfli xətti ilə qələmə alıb, bu beyti də oraya əlavə etdi:

**Beyt**

«Əgər ki, yolunuz məqamımıza düşmüşdür,
Sanki səadət quşu damımıza düşmüşdür».

Həzrət (Şah Təhmasib) tərəfdən yüksək məqamlı [Hümayun] padşaha münasibətdə göstərilmiş şəfqət və mehribanlıq hökmdarlar nəslinin davamçısı olan [Hümayun padşaha] və onun ali məiyyətinin mülazimlərinə hörmət və ehtiram etmək barədə Məhəmməd xan Şərəfəddinoğlunun adına yazılmış bir fərmanının məzmunundan görünür. Bu, Hümayunun hakimiyyət zamanının hadisələrini əvvəldən-axıra qədər nəql etmiş Əllami Əbülfəzl ibn Şeyx Mübarəkin «Tarix-i Əkbəri» əsərindən də məlum olur. Sözün qısası, 951-ci il aylarında (25.03.1544-14.03.1545)[572] o yüksək məqamlı padşah Sistandan çıxıb, seyr edə-edə, yavaş-yavaş məsafələri qət edərək, darüssəltənə Herata çatdı və bir müddət dövranın gərdişindən kədərlənmiş xoş niyyətli xatirini şənləndirmək üçün ov etmək şadlığı ilə ürəyinin kaşanəsinin qəmini qovdu. Məhəmməd xan Şərəfəddinoğlu [Şah Təhmasibin] əməl olunması vacib olan fərmanında göstərilən tərzdə dəbdəbəli qoşunla və cürbəcür bəzəkli zinətlərlə cah-calal dairəsinin mərkəzi olan [Hümayun padşahı] qarşılamağa və ona xidmət göstərməyə çıxıb, Malan körpüsü üzərində onunla görüşmək səadətinə nail oldu.

Onlar şəhər bağına təşrif gətirən gün dünya sakinlərinin şahzadəsi Sultan Məhəmməd mirzə ona tapşırılmış qaydada [Hümayun padşahı] qarşıladı. Həzrət (Hümayun padşah) gəlib çatdıqda [şahzadə] atdan yerə enib, onu salamlamaq adət-ənənəsini yerinə yetirdi. O həzrət də öz növbəsində piyada olub, şahzadəni mehribancasına ağuşuna çəkdi və birlikdə atla yol getdikləri vaxt irəli keçmək və geri qalmaq cəhətlərində şahzadəyə münasibətdə böyüklüyün və xeyirxahlığın üsulu və qaydası olan təvazökarlıqlar göstərdi. Eyni zamanda, şahzadə ona

[572] S-129, v.84b; S-297, v.61a.

münasibətdə öz oğulluq davranışlarını nümayiş etdirib təvazökarlıq və insaniyyətçilik ədəb-ərkanını əldən vermədi.

Həzrət (Hümayun padşah) bir müddət həmin ürək oxşayan bölgənin gözəl yerlərində, fərəh bəxş edən bağlarında və bostanlarında, xüsusilə də Murad bağında, Zağan bağında və Cahanara bağında[573] eyş-işrət tərtib edib, qüssəli xatirinə sevinc qazandırdı. Məhəmməd xan hökmdarın fərmanına gündəlik əməl edərək, artıqlaması ilə layiqli xidmətlər göstərdi və [Hümayun padşahın] nurlu nəzərləri qarşısına dəyərli hədiyyələr gətirib ona təqdim etdi.

***Hindistan padşahı Məhəmməd [Hümayun] şahın Qəzvinə gəlməsi.*** [Hümayun padşah] bir neçə gün Heratda qalaraq, yol yorğunluğundan və vaxtlı-vaxtsız at çapmağın möhnətindən qurtulub rahatlıq tapandan sonra oradan İraq tərəfə yollanmağa və üfüqlər hökmdarı (Şah Təhmasib) ilə söhbətləşməyə meyil etdi. Yolboyu hansı şəhərə və vilayətə çatırdısa, oranın hakimləri və əyan-əşrəfləri [Şah Təhmasibin verdiyi] əmrə uyğun olaraq, xidmətkarlıq mərasimi icra edib, ona peşkəşlər təqdim edirdilər. [Hümayun padşah] darüssəltənə Qəzvinə gəldikdə o mülkün kələntəri[574] olan Xoca Əbdülqəni Cəladətinin[575] mənzilləri o həzrətin iqamət yerinə çevrildilər. O, bir müddət həmin mənzillərdə dincəlməyə və istirahətə məşğul oldu, oradan Bayram xanı əşrəfin hüzuruna göndərib, onunla görüşmək xahişini izhar etdi və bu qitəni nəzmə çəkib göndərdi:

Ey şah, mənim ali himmətim bir ənqa quşu kimi,
Çətinliyin ən yüksək zirvəsində məskən tutubdur.
Bu alçaq zəmanə məni elə bir hala salıb ki,
Mənim təbiətimin tuti quşu darıya möhtac qalıbdır.
Mənə qarşı düşmənçilik edən şir, kin və ədavət üzündən,
Bu anda mənim üzərimə həmlə etmişdir.
Şahdan xahişim budur ki, mənə kömək etsin,
Necə ki Ərjən çölündə Əli Salmana kömək edibdir.

Burada verilmiş məna vilayətpənah şahın (Həzrət Əlinin) möcüzələri və kəramətləri haqqında bir hekayətə işarədir. Camaat arasında məşhur olan bu hekayətdə deyilir ki, bir dəfə [Həzrət Əli] Ərjən çölündə Salmanı şirin pəncəsindən

---

[573] Murad bağı, Zağan bağı və Cahanara bağı Heratda yerləşirdilər.
[574] Kələntər (farsca «böyük» deməkdir) - daruğadan sonra şəhər idarəçiliyində ikinci mühüm vəzifə sayılırdı. Əgər daruğalar şəhərin hərbi-siyasi və inzibati rəisi idilərsə, kələntərlər şəhərin mülki və sosial-iqtisadi həyatına başçılıq edirdilər (daha ətraflı bax: М.Х.Гейдаров. Социально-экономические отношения, с.81-84,113; З.Г.Байрамов. Местное и городское управление в Азербайджане, с.17).
[575] S-129 əlyazmasında (v.85a) Cəladəti əvəzinə Çəlavi, S-297 nüsxəsində (v.61b) isə Həlavi yazılmışdır.

xilas edibdir. Bu məqamda [Hümayun tərəfindən] bu hadisənin xatırlanması münasib və ağrılı bir hərəkət idi.[576]

Bayram xanın gəlişindən sonra cənnətməkan şah Surluq[577] yaylağına təşrif gətirdi. [Hökmdarlar arasında] görüş orada baş verdi. [Hümayun padşah] fələk cəlallı ordugahın bir fərsəxliyinə çatdıqda vəzir Qazı Cahan, qorçubaşı Sevindik bəy Əfşar, Bədr xan Ustaclu, möhürdar Şahqulu xəlifə Zülqədər, digər əmirlər və dövlət ərkanı ilə birlikdə yüksək məqamlı həzrət [Şah Təhmasibin] istəkli qardaşları Bəhram mirzə və Sam mirzə onu qarşılamağa gəldilər. Onlardan sonra bir-birinin ardınca dəstə-dəstə böyük yüzbaşılar, say-seçmə qorçular, xidmətçilər və məiyyət təbəqəsindən olan müxtəlif şəxslər tam dəbdəbə və bər-bəzəklə gəlib çatdılar, təzim etmək qaydasını və salamlamaq adətini yerinə yetirdilər. Daha sonra onlar [Şah Təhmasibin] asiman kimi uca bargahına çatdıqda atdan enib, piyada irəlilədilər.

Cənnətməkan şah öz şəxsi çadırından eşiyə çıxıb, xilafət bargahının səadətə bürünmüş büsatının üzərini öz qədəmləri ilə şərəfləndirərək, böyüklərin qaydası və hökmdarların adət-ənənəsi ilə o ali məqamlı padşahla görüşdü, onunla mehribancasına qucaqlaşdı. Sanki iki ulduzun bir-birinə yaxınlaşması və günəşlə ayın qovuşması baş verdi. [Şah Təhmasib] o həzrətin əlini tutub, onu çadırına gətirdi və onlar bir-biriləri ilə iki yekdil dost kimi nifaqsız, səmimi söhbət etdilər. Hər iki tərəf könül oxşayan həqiqətlə zinətlənmiş sevinc artıran sözlər söylədilər. O həzrətin (yəni Hümayunun Şah Təhmasibə) təqdim etdiyi töhfələr və hədiyyələr arasında bir neçə parça Bədəxşan ləli və bir parça bahalı almaz vardı. [Şahın] izzətli büsatının haşiyəsinin hüzurunda olan Həsən bəy Rumlu və «Tarix-i cahanara» əsərinin müəllifi Qazı Əhməd Qəffari həmin almazın vəzninin dörd tam üçdə iki misqal[578] olduğunu yazmışlar.

Uzun sözün qısası, cənnətməkan şah həzrətləri həmin bir neçə gün ərzində hər gün xüsusi tərzdə bir söhbət tərtib edib, hökmdarlara layiq şənliklər və şahanə məclislər təşkil etdi. O, həmin yığıncaqlarda dəmbədəm şəfqətli kəlmələrlə və mehribancasına həmrəyliklərlə həzrətin (Hümayun padşahın) hüznlü xatirinə şadlıq bəxş etdi. Surluqda[579] cərgə ovu təşkil olundu. Bir neçə günlük yol məsafəsindən ov heyvanlarını qovub, bir yerə cəmləşdirdilər. Elə ki cərgə tərtib olundu, onlar birlikdə cərgənin içərisinə gəldilər. Əvvəlcə Hümayun padşah həzrət şahın təklifinə uyğun olaraq, Bəhram mirzə və Sam mirzə ilə bərabər ox atmağa başlayıb, hər biri şikar vurmaqda, cəldlikdə və çeviklikdəki məharətlərini göstərdilər. Daha sonra

---

[576] S-129, v.85a; S-297, v.61b. Burada adı çəkilən Salman, Məhəmməd peyğəmbərin səhabələrindən və Həzrət Əlinin yaxın tərəfdarlarından olmuş Salman-i Farsidir.

[577] S-129, v.85a; S-297, v.61b. Surluq yaylağının adı Tehran çapında (s.98) səhvən Buzluq yaylağı kimi yazılmışdır.

[578] Misqal - 4,68 qrama bərabər çəki vahidi.

[579] S-129, v.85a; S-297, v.62a. Tehran çapında (s.99) Səvaliq yazılmışdır.

cənnətməkan şah həzrətləri özünün «Bəhrami» kamanını[580] əlinə alıb, ali məqamlı [Hümayun] padşahın və onun silahdaşları olan, ox atmaq sahəsində misilsiz olduqlarını iddia edən cağatay cavanlarının bərabərində, qaçışlarının yeyinliyi səbəbindən göz şüaları ilə izlənilməsi mümkün olmayan çoxsaylı sürətli ceyranları yerə sərdi. Xülasə, elə ox atışları etdi ki, sürünün canından fəryad qopdu. [Şah Təhmasibə] «əhsən» və «afərin» deməkdə fələyin məhvəri və asimanın qövsü dilbir və həmfikir oldular. Elə ki ox atmaqdan bezdilər, çoxsaylı kök əndamlı maralları və ov heyvanlarını iti qılıncla yerə sərməyə başladılar.

Seyrdən, şikardan və hədəfə ox atmaqdan («qabaq-əndazi»)[581] əl çəkəndən sonra [Şah Təhmasib] müəyyən olunmuş bir gündə ali şənlik və böyük ziyafət («toy») təşkil etdi. Məclisin axırında həzrət (Hümayun padşah) üçün töhfələr, hədiyyələr və təltiflər təyin olundu. Bunlar nağd puldan, cavahirdən, tacdan, daş-qaşla bəzədilmiş kəmərdən, İraqda, Rumda, Firəngdə, Çində və Xətayda[582] [istehsal olunmuş] zərnigar qumaşlardan, əsləhədən və yaraqlardan, sıx halqalı «Davudi» zirehdən[583], cavahiratla bəzədilmiş tüfənglərdən, yorğa ərəb atlarından, Bərdənin minik qatırlarından, dağa bənzər bir qatarlı dəvələrdən, hərəm və divanxana üçün [nəzərdə tutulmuş] çoxlu çadırlardan və alaçıqlardan, naxışlı atlas, məxmər və darayi parçalardan toxunmuş sadə və naxışlı sayəbanlardan[584] və xeymələrdən, bütün avadanlıqları ilə birlikdə karxanalar büyutatından[585], təbildən,

---

580 Tarixi mənbələrdən və Nizami Gəncəvinin «Yeddi gözəl» poemasından yaxşı məlumdur ki, Sasani hökmdarı V Bəhram (421-439-cu illər) ox atmaqda və ov etməkdə mahir bir şəxs olmuş və çoxlu cüyür («gur») ovladığı üçün ona Bəhram-Gur ləqəbi verilmişdi. Burada «Bəhrami kaman» ifadəsi «Bəhram-Gurun kamanına oxşar kaman» mənasında işlədilmişdir.

581 «Qabaq-əndazi» - türkcə «qabaq» və farsca «əndaxtən» («atmaq») sözlərindən yaranmışdır. Bu, xüsusi bir oyun və ya idman yarışı idi. Bu yarışda «qabaq» adlanan hədəf qoyulur və iştirakçılar bu hədəfə müəyyən məsafədən ox atırdılar (bax: H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri /Səfəvilər dövrü/. Bakı, 1962, s.349-350).

582 Xətay - Şərqi Türküstan. İndi Çin Xalq Respublikasının şimal-qərb ərazisini təşkil edir.

583 E. ə. 1000-965-ci illərdə hökmranlıq etmiş Davud peyğəmbər Süleyman peyğəmbərin atasıdır. Davud peyğəmbər dəmir məftildən zirehli geyim toxumaqda ən istedadlı şəxs hesab olunmuş. Onun bu bacarığı Şərq ədəbiyyatında mədh edilmişdir. «Davudi zireh» kəlməsi zirehin möhkəmliyinin, davamlılığının çox yüksək səviyyədə olduğunu obrazlı şəkildə ifadə etmək üçün işlədilmişdir.

584 Sayəban (farsca mənası: «kölgəsalan») - kölgəlik yaratmaq üçün çadır kimi düzəldilən örtü.

585 Büyutat - ərəbcə ev, mənzil mənalarını verən «beyt» sözünün cəm formasıdır. Səfəvilərin dövlət quruluşunda «büyutat» istilahı altında saray təsərrüfatları nəzərdə tutulurdu. Mirzə Səmianın «Təzkirətül-müluk» əsərinə görə, saray büyutatı 33 karxanadan ibarət idi. Onların hər birinin başında sahibi-cəm adlanan məmur dururdu. Bu karxanalar həm ev təsərrüfatı və məişətini əhatə edən mətbəx, qab yumaq mənzili, müxtəlif anbarlar, kitabxana, at tövləsi kimi büyutatdan, həm də əsl dövlət manufakturaları səciyyəsinə malik olan toxuculuq, dərzilik, zərrabxana, cəbbəxana, zərgərlik, dəmirçilik, rəssamlıq emalatxanaları kimi büyutatdan ibarət idilər. Büyutatın fəaliyyəti şahın və onun ailəsinin, həmçinin çox-saylı saray əyanlarının qidaya, geyimə, əşyalara və s. olan tələbatını ödəmək məqsədi güdürdü. Büyutat təsərrüfatlarına ümumi rəhbərlik naziri-büyutat adlanan məmur tərəfindən həyata keçirilirdi (Mirza Səmia. Təzkirətül-müluk, s.12; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.263-264).

ələmdən və nağaraxana əşyalarından ibarət idilər. Qonaqpərvərliyə yaraşan bir tərzdə bunları [Hümayun padşaha] təqdim etdilər. Həmçinin o həzrətin əmirlərinin və müqərrəblərinin[586] hər birinə tutduqları mövqeyə uyğun olan qiymətli hədiyyələr və bol ənamlar mərhəmət etdilər. Bayram xana ələm və nağara şəfqət olundu və o, həmin uca sülalənin yüksək «xanlar xanı» mənsəbinə təyin edildi.

[Səfəvi xanədanının] xoşbəxt şahzadələrin arasında Sultan Məhəmməd mirzədən və İsmayıl mirzədən kiçik, digər şahzadələrdənsə böyük olan Sultan Murad mirzə qızılbaş tayfalarının [döyüşçülərindən ibarət] on iki min nəfərlə birlikdə, mötəbər əmirlərdən sayılan və [Sultan Murad] mirzənin lələsi və atalığı olan Budaq xan Qacarın sərkərdəliyi ilə və Kirman hakimi Şahqulu sultan Əfşar, Sistan hakimi Əhməd sultan Şamlu, onun qardaşı Hüseynqulu sultan, Çayan sultanın nəvəsi Ayğut mirzə, Div sultan Rumlunun oğlu Ədhəm sultan, Əli sultan Təkəlü, Məhəmmədi mirzə Mosullu, Yadigar Məhəmməd sultan Mosullu, Sani xəlifə Rumlu, Fərah hakimi Səncab sultan Əfşar, Məhəmməd sultan Adaşoğlu Ustaclu[587] və s. əmirlər və əsgərlərin, həmçinin Keçəl Şahverdi Ustaclunun başçılığı altında şahın xüsusi qorçularından və dərgah mülazimlərindən üç yüz nəfərin iştirakı ilə o həzrətə (Hümayun padşaha) kömək etməyə təyin olundu. Onlara tapşırıldı ki, o həzrətin xidmətində olsunlar, onun hökm və fərmanını öz mürşidlərinin və vəlinemətlərinin ikinci hökmü və fərmanı hesab etsinlər, onun əmrindən boyun qaçırmasınlar, onlara nə buyursa əməl etsinlər və o həzrətdən rüxsət almasalar geri qayıtmasınlar.

Cuci mənşəli Şeyhani sultanzadələrindən və tatar firqəsindən Heydər sultan adlı bir şəxs vardı ki, Cam döyüşündə Kuçum xan və Übeydulla xanla birlikdə olmuş, lakin [qızılbaşların qazandığı] qələbədən sonra iki oğlu ilə bərabər Şah [Təhmasibin] xidmətinə gəlib, onun tərəfinə keçmişdi. O istəyirdi ki, qızılbaşlar arasında Bəhram mirzədən və Sam mirzədən də üstün bir səviyyədə olsun. Surluqda təşkil olunmuş ov mərasimi zamanı o, tabeçilik qayda-qanununu nəzərə almayıb, [şahın] hökmünün ziddinə gedərək, şahzadələrlə bərabər cərgə ovunda iştirak etməyə cəhd göstərdi. Lakin mülazim Həsən bəy Ustaclu qamçı ilə onun atının başına vuraraq, onun bu istəyinə mane oldu. O, bu hadisədən inciyib küsdü və bu məqamda Hümayun padşaha qoşulmaq istədi. Şah həzrətləri etiraz etmədi və o, özünün Əliqulu və Bahadır adlı iki oğlu ilə birlikdə Hümayun padşahın xidmətinə keçdi. Daha sonra onlar Hindistanda Bayram xanın köməyi ilə yüksək rütbələrə və uca mənsəblərə nail oldular. Hümayun padşahın ölümündən sonra [Heydər sultanın] oğulları o sülalənin onlara verdiyi nemətə nankor çıxıb,

---

[586] Müqərrəb - ərəbcə «yaxın adam» deməkdir. Orta əsrlərdə bir sıra Şərq ölkələrində sarayda vəzifə daşıyan məsul şəxslər şaha yaxın olduqları üçün bir qayda olaraq «müqərrəb» adlandırılırdılar. Səfəvi dövlətində bu şəxslər «müqərrəbül-xaqan» və ya «müqərrəbül-həzrət» tituluna malik idilər (bax: Mirzə Səmia. Təzkirətül-müluk, s.18).

[587] S-129, v. 86a.

Hindistanda çoxlu yöndəmsiz hərəkətlər törətdilər. Lakin bu hadisələrin təfsilatını burada yazmaq münasib deyildir[588].

***Hindistanlı Məhəmməd [Hümayun] şahın Təbrizə və Ərdəbilə getməsi.*** O həzrət (Hümayun) Təbrizə getmək həvəsini, Təbriz şəhərinə olan rəğbətini və övliyaların və alimlərin sultanı Şeyx Səfi əl-millət vəd-dinin nurlu qəbrini ziyarət etmək istəyini açıqlayaraq, əşrəfin hüzurundan mürəxxəs olub, darüssəltənə Təbrizə təşrif apardı. Təbriz əhalisi dünya şahı [Təhmasibin] fərmanına uyğun olaraq, şəhəri bəzək-düzəyə bürüdü, Qeysəriyyəni və [digər] bazarları zifaf otağına gedən gəlinlər kimi bəzədi və tamam bər-bəzək və zinətlə həmin fəza ehtişamlı padşahı qarşılayıb, ona rəğbət doğuran xidmətlər göstərdi. Sahibabad meydanında o ulu mənşəli hökmdarın nəzərləri qarşısında çovqan və digər oyunlar göstərərək və təbrizlilərin qaydası və ənənəsi olan gülməcələr icra edərək, onun şərəfli xatirinin sevincini artırdılar.

[Hümayun padşah] oradan Səfəvi şeyxlərinin - Allah onların ruhlarını müqəddəsləşdirsin - ziyarətini məqsəd tutub, darülirşad Ərdəbilə yollandı və həmin [ziyarətin] böyük səadətinə nail olub, yüksək səviyyəli şeyxlərin müqəddəs ruhlarından kömək istədi. O şərəfli bölgədə yaşayan şeyxavənd[589] seyidləri səmimi-qəlbdən layiqli xidmətlər icra edib, onu yolboyu bir neçə mərhələdə müşayiət etdilər.

***Hindistanlı Məhəmməd [Hümayun] şahın rəhmətlik Şah Təhmasibin hüzurundan ayrılması.*** [Hümayun şah] oradan Miyanəc çəmənində yerləşən ulu ordugaha təşrif gətirib, bu dəfə vidalaşmaq mərasimini yerinə yetirdi. O, qüvvətli ürək və gözəl əməllə məqsədinə doğru üz tutdu. Hümayun şahın ölkəsinin ərazisinə çatanadək hər yerdə onlara qaydasınca və üslubunca layiqli xidmətlər göstərdilər. O həzrət seyr edə-edə məsafələri qət edib, Xorasana gəldi. Orada kama çatmış şahzadə ilə, əmirlərlə və əsgərlərlə görüşdü. Beləliklə, o, bu [Səfəvi] sülaləsinin dəstəyindən, dostluğundan və səadətli qoşunların yoldaşlığından güc alıb, əqidəsinin dürüstlüyü və saflığı ilə haqlı niyyətinə yetişmək üçün yola düşdü. Hindistanın tuti sözlü, şəkər dilli tarixçiləri bu hadisənin şərhini müfəssəl surətdə, bəlağətli bir üslubla təsvir etdikləri kimi, o, qısa bir zamanda qiyam və tüğyan arzusunun səbəbindən beyinlərinin cövhəri pozulan və nifaq törədən namehriban qardaşlarına üstün gəldi, Kabil, Qəzneyn və Bədəxşanda baş qaldıran şəxslərin başlarını itaət buxovuna keçirdi, özünün hökmranlıq bayrağını Hindistan üzərində dalğalandırıb, həm maddi, həm də mənəvi cəhətlərdən kamına çatdı.

**Beyt**

«Həzrət şahın qapısına Hinddən gələn Hümayunun,

---

[588] S-129, v. 86a-b.

[589] Şeyxavənd - Səfəvi sülaləsi ilə qohum olan və Şeyx Səfiəddin nəslindən gələn qızılbaş tayfası. Onların vətəni Ərdəbil idi

Xeyirli taleyini gör və uğurlu bəxtinə bax!»

[Bu məsələ barədə] bundan ziyadəsini İran tarixi hadisələri daxilində yazmaq münasib olmadığına görə qələmin dili o təqdirəlayiq xislətlərə malik olan [Hümayun padşahın] əhvalatının xırdalıqlarına toxunmayacaqdır.

## RUM HÖKMDARI SULTAN SÜLEYMANIN OĞLU SULTAN BAYƏZİDİN ZƏMANƏNİN QƏHRƏMANI VƏ İRANIN HÖKMDARI [ŞAH TƏHMASİBİN] DƏRGAHINA GƏLMƏSİ HAQQINDA

Bu hadisənin mahiyyəti belədir: Sultan Bayəzid öz yüksək məqamlı atasının fərmanı ilə Kütahya sancağına malik idi[590]. 966-cı ildə (14.10.1558 - 02.10.1559) Sultan Süleyman onun iqtidar əlini həmin vilayətin hökumətindən üzərək, oranı onun Konyada olan böyük qardaşı Sultan Səlimə verdi, hələ üstəlik [bu sonuncuya] vəliəhdlik müjdəsi verməklə də nəvaziş göstərdi. Buna görə də hakimiyyət arzusu ilə alışıb-yanan Sultan Bayəzidin könül sobasında paxıllıq və həsəd atəşi alovlandı. O, qardaşlıq çeşməsini düşmənçiliyin çör-çöpü və zir-zibili ilə doldurdu və batil xəyallarını və bihudə istəklərini həyata keçirmək üçün işsiz-gücsüz adamlara çoxlu qızıl verib, başına saysız-hesabsız qoşun və dəstə topladı. O, yüksək şöhrətli atasının fərmanına riayət etməyi üsyankarlıqla əvəz edib, böyük bir qoşunla Sultan Səlimin dəf edilməsi üçün hərəkətə keçdi. [Sultan Səlim] öz qardaşının tüğyan etməsi barədə həqiqəti yüksək məqamlı atasının hüzuruna çatdırdı. Bu cəsarət və ədəbsizlik səbəbindən Sultan Süleymanın Sultan Bayəzidə qəzəbi tutdu və o, öz etimadlı paşalarını yağış kimi qoşunla onun üstünə göndərdi ki, onu ələ keçirib, məmləkətdə qarışıqlığa və çaxnaşmaya bais olan və dövlət işlərinin nizamının pozulmasına gətirib çıxaran fitnəyə bulaşmış vücudunu ölkə üzərindən qaldırıb yox etsinlər.

***Rum xondgarı Sultan Süleymanın oğulları olan Sultan Səlimlə Sultan Bayəzid arasında müharibə və Sultan Bayəzidin məğlubiyyəti.*** Sultan Səlim atasının fərmanına uyğun olaraq, həmin qoşuna qoşulub, izdihamlı bir qüvvə ilə qardaşına qarşı müharibəyə tələsdi. İki gün ərzində tərəflər arasında xeyli dərəcədə ağır bir döyüş baş verdi[591]. [Döyüşün] birinci günü sübhdən axşama qədər hərb dəyirmanı elə dövr etdi ki, hər iki tərəfin həyat buğdasından səkkiz min piyada və süvari üyüdüldü. [Döyüşün] ikinci günü Sultan Bayəzid həmin [rəqib] qoşunun məğlubiyyətə uğradılması üçün səy göstərərək, canından keçən fədailərdən ibarət

---

[590] Sancaq - türkcə «sancmaq» felindən yaranıb və əvvəllər bayraq mənasında işlədilib. Osmanlı dövlətində «sancaq» həm də inzibati ərazi vahidini bildirirdi və bu ərazi vahidinin başında «sancaqbəyi» adlanan məmur dururdu.

[591] Osmanlı şahzadələri Səlimlə Bayəzid arasında döyüş 29-30 may 1559-cu ildə Konya şəhəri yaxınlığında baş vermişdir. Bu şahzadələr arasındakı münaqişə haqqında daha ətraflı bax: J.V.Hammer. Osmanlı tarihi, II c, s.43-44.

bir dəstə ilə döyüş meydanına qədəm qoydu və Sultan Səlimin ordusunun sağ və sol cinahlarının elə bir tərzdə məğlub və pərakəndə etdi ki, davadan qaçanlar ta İstanbula qədər dayanmaq bilmədilər. Xülasə, o gün Sultan Bayəzid elə bir döyüş göstərdi ki, onun üzərindən əlli il keçməsinə baxmayaraq, indi də Rumda həmin döyüşün və onun göstərdiyi şücaət və cəngavərliyin xüsusiyyətləri məclislərdə söylənilməkdədir.

Lakin həmin əsnada Sultan Səlim ordunun mərkəzində durduğu bir dəstə ilə birlikdə özünü Sultan Bayəzidə çatdırıb, onu bir həmlə ilə məğlub etdi. Niyyəti batil olduğuna görə [Sultan Bayəzid] apardığı müharibədən bir səmərə hasil edə bilmədi. O, məhz üsyanının şükümsüzlüyü səbəbindən məğlubiyyətə uğrayıb, başılovlu və çaşqın bir vəziyyətdə Amasyaya qaçdı. Orada qəflət və qürur yuxusundan bir az ayılıb, törətdiyi əməllərdən peşman oldu və onu yanlış yola çəkmiş, fitnə-fəsadın xəmir mayası olmuş üç nəfər mülazimini qətlə yetirib, onların başlarını İstanbula, ali şöhrətli qapıya göndərərək, təqsir və günahlarının əfv olunmasını xahiş etdi. Amma Sultan Süleymanın öz pis taleli oğlunun əməllərinə münasibətdə qəzəb atəşi elə alışmışdı ki, həmin iki-üç nəfər gözlərini qan tutmuş şəxsin öldürülməsi ilə sakitləşmədi və yenidən böyük bir qoşunu İsgəndər paşanın sərkərdəliyi ilə onun üzərinə göndərdi.

***Sultan Bayəzidin Rum məmləkətindən fərar etməsi və onun İrana gəlməsi.*** Sultan Bayəzid bu dəfə özündə həmin çoxsaylı ordu ilə üz-üzə gəlmək tabını və döyüşmək qüdrətini görməyərək, yüklərini və əşyalarını yerindəcə atıb, özünün dörd oğlu və hələ də yanında qalmış paşalarından, mülazimlərindən və yeniçərilərindən on min nəfərlə birlikdə fərar yolunu tutdu. Xondgarın qoşunu onları bir neçə mənzil təqib etdi. [Qiyamçılar] hər mənzil başında geri çəkilə-çəkilə döyüşdülər. Quduz Fərhad, Axsaq Seyfəddin və bir sıra digər fədakar mülazimlər döyüşə-döyüşə Sultan Bayəzidi və onun oğullarını o vurhavurdan sağ-salamat qurtarıb, Qızılbaş məmləkətinin hüdudlarına çatdırdılar. Elə ki Sultan Bayəzid Şah [Təhmasibin] bəxtəvər dövlətinin ərazisinə daxil oldu, əşrəfin xidmətinə adam göndərib, onu öz halından xəbərdar etdi. [Şahın] izzət büsatının müqərrəblərindən və ulu məclisinin mötəbərlərindən olan yüzbaşı Həsən bəy Ustaclu padşahanə yaraq və əşyalarla onu qarşılamağa göndərildi və ona göstəriş verildi ki, sərhəd əmirləri və [o tərəflərdəki] vilayətlərin əyan-əşrəfi ilə birlikdə [Sultan Bayəzidi] qarşılamağa tələsib, hər yerdə ona layiqli təzimlər və rəğbət doğuran iltifatlar etsinlər, qonaqpərvərlik və xidmətkarlıqdan irəli gələn vəzifələri yerinə yetirsinlər. Eyni zamanda, Azərbaycanın və Şirvanın mütləq ixtiyarlı vəziri olan Mirzə Ətaulla İsfahaniyə tapşırıldı ki, onlarla birlikdə ulu dərgaha qədər gəlsin və yolboyu divan malından [xərcləyərək] dini zərurətləri təşkil etsin. Onlar buyuruqlara əməl edərək, xidmət göstərməkdə əskiklik etmədilər. Darüssəltənə Təbrizin böyükləri və əyanları şəhəri dəbdəbəyə bürüyüb, Qeysəriyyəni və [digər] bazarları bəzəyərək, elə bir qarşılanma mərasimi təşkil etdilər ki, keçmiş zamanlarda beləsi az-az görülmüşdü.

***Sultan Bayəzidin Qəzvinə gəlməsi.*** [Sultan Bayəzid] Təbrizi tərk edib, ulu dərgaha tərəf yaxınlaşdıqda [Şah Təhmasib] rüknüs-səltənətül-qahirə (qüdrətli səltənətin dayağı) olan Məsum bəy Səfəvini şahanə yaraqlar, əşyalar və zinətlərlə onun qabağına göndərdi. Cənnətməkan şah həzrətləri darüssəltənə Qəzvinin Səadətabad meydanında ali ziyafət təşkil etmiş, şahanə büsat bəzəyib, əlvan xalçalar döşətdirmiş və zərnigar çadırlar və naxışlı sayəbanlar qurdurub, elə bir məclis tərtib etmişdi ki, ruzigarın gözü hələ belə bir yığıncaq görməmişdi və zəmanənin qulağı onun bənzərini eşitməmişdi. [Sultan Bayəzid] şəhərə daxil olan gün böyük əmirlər, hərbçi və əsnaf təbəqələri[592], xidmətçilərdən, məiyyətdən və bazar adamlarından ibarət camaat, şəhər sakinləri və şəhərətrafı yerlərin adamları dəstə-dəstə onu qarşılamağa çıxıb, tamam səhranı, çölü və dağı bürüdülər[593].

Sultan Bayəzid təkəbbürlü, qapalı və soyuq xasiyyətli bir adam idi. Bir çox şəxslərdən eşidilmişdir ki, Təbrizdəki qarşılanma mərasimi zamanı hər nə qədər sənət adamlarının məharətləri, oyunbazların və cürbəcür zinətlərlə bəzənmiş dəstələrin şən hərəkətləri baş versə də, həddən ziyadə səylər göstərilsə də, o, heç bir tərəfə nəzər salmamış və gözlərini atının iki qulağı arasından kənara yayındırmamışdı.

Uzun sözün qısası, Sultan Bayəzid onunla birlikdə gələn və hamısı Rum qaydasında əsləhə və silahlarla mükəmməl və müsəlləh vəziyyətdə olan piyadalardan, yeniçərilərdən və süvarilərdən on min nəfərlə Qəzvinin Səadətabad meydanına gəldi. O, [Şah Təhmasibin] asiman kimi uca bargahının büsatının yaxınlığına çatanda atdan yerə endi. Cənnətməkan şah bir neçə addım irəli gəlib, əl sıxmaq qaydasını yerinə yetirdi və ona şəfqətamiz təvazökarlıqlar və məhəbbətəngiz istiqanlılıqlar göstərib, mehribanlıq nümayiş etdirdi. Lakin [Sultan Bayəzid] özünü lovğa və təkəbbürlü aparmaqdan əl çəkməyib, əsla danışmadı. O, hər zaman lazım ola bilən mütəfəkkircəsinə söhbətləşmək xüsusiyyətinə malik deyildi. Nə başınızı ağrıdım, rəsmi qarşılanma mərasimindən sonra onu ürək oxşayan mənzillərdə yerləşdirdilər və onun gündəlik ehtiyacları təmin olundu.

Elə ki bir neçə gündən sonra yol yorğunluğu [Sultan Bayəzidin] canından tamamilə çıxdı, [Şah Təhmasib] həmin Səadətabad meydanında qonaqpərvərlik təşkil edib, izzət büsatı qurdurdu və meydanın səthini Süleyman sarayında olduğu kimi qızılı və gümüşü xalılarla elə zinətləndirdi ki, Gülüstani-İrəm[594] oraya paxıllıq etdi və cənnət bağı oraya həsəd apardı. Elə bir behişt tərzində ziyafət

[592] Əsnaf - ərəbcə «siniflər» deməkdir. Orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən də Azərbaycanda sənətkarların birləşdikləri sex təşkilatları əsnaf adlanırdı (daha ətraflı bax: М.Х.Гейдаров. Социально-экономические отношения, с.45-87). Burada «əsnaf təbəqələri» deyilərkən müxtəlif peşə sahibi olan sənətkarlar nəzərdə tutulmuşdur.

[593] Şahzadə Bayəzid Şah Təhmasiblə Qəzvin şəhərində 22 məhərrəm 967 / 24 oktyabr 1559-cu ildə görüşmüşdür (bax: Şah Təhmasibin təzkirəsi. Tərcümə və müqəddimə Ə.H.Rəhimovundur. Bakı, 1996, s.5).

[594] Gülüstani-İrəm (İrəm bağı) - Şərq əsatirlərinə görə, qədim zamanlarda Hud peyğəmbərə qarşı düşmənçilik edən və Ad qövmündən olan Yəmən hökmdarı Şəddad cənnətə

bəzədildi ki, fələklərin nəzərləri min gözlə ona tamaşa etdilər. Sultan Bayəzid öz oğulları, əmirləri, xüsusi müqərrəbləri və mülazimləri ilə birlikdə həmin behişt nişanəli məclisə dəvət edildi. [Şah Təhmasib] onun xatirini şənləndirmək üçün rəsmiyyətçilikdən uzaq olan, ürək oxşayan söhbətlər etdi, saatbasaat əhvalını soruşub, onun könlünü ələ aldı və onunla isti ünsiyyət qurdu. Xansalarlar şərbətləri, mürəbbələri, meyvələri və xörəkləri nə qədər lazımdırsa və belə bir ziyafətə nə cür gərəkdirsə, anbaan daşıyıb gətirirdilər.

Bu məclisdə [Sultan Bayəzidə] on min tümən İraq şahisi[595] məbləğinə bərabər nağd qızıl, daş-qaşla bəzədilmiş alətlər, qumaş parçalar, əşyalar və yaraqlar hədiyyə edildi və onun mülazimləri böyük əmirlərin və mahal hakimlərinin yanına müxtəlif yerlərə mehman təyin olundular ki, onların ehtiyacları təmin edilsin və onlara qonaqpərvərlik göstərilsin. [Sultan Bayəzid] əşrəfin hüzurunda olduğu müddətdə yerli ülufədən[596], onun qarşılanması zamanı dəfələrlə qarşısına göndərilən hədiyyələrdən və bu məclisdə verilən ənamlardan savayı, təqribən daha on beş min tümən məbləğində nağd vəsaitlər, cavahirlər, qaş-daşla bəzədilmiş alətlər, qızıl və gümüş qablar, görkəmli töhfələr, nəfis kitablar, zərbafta və yun toxumalı Kirman və Cuşqan[597] xalçaları, əlvan təkyələr və müxtəlif diyarlarda istehsal olunmuş qumaşlar ona hədiyyə olaraq təqdim edildi.

Xülasə, o həzrət (Şah Təhmasib) sultanzadəyə münasibətdə onun layiq olduğundan artıq dərəcədə şahanə hüsn-rəğbət və böyük hədiyyələrlə qayğı göstərdi. Lakin o, qiyamçılıq və nifaq yolunun yolçusu idi və ipə-sapa yatmayan nəfsə malik idi. Buna görə də onun əhvalatının məzmunu ziyanla və fəlakətlə bitdi. Belə ki, o, yüksək məqamlı şah həzrətlərinin köməyi ilə Rum diyarına qoşun çəkməyi və yenicə asayiş tapmış aləmə qarışıqlıq salmağı təklif edirdi. Onun bu niyyəti bir neçə cəhətdən əşrəfin ürəyinə yatmadı. Çünki, əvvəla, o həzrətlə (Şah Təhmasiblə) xondgar arasında çoxlu mücadilələrdən, qan tökülməsindən və məmləkətlərin xaraba və viran qalmasından sonra sülh bərqərar olmuş, bu barədə [tərəflər arasında] əhdü-peyman bağlanmış və bununla da fitnə-fəsad aralıqdan

---

bənzətmək üçün misilsiz dərəcədə gözəl bir bağ saldırmış və bu bağa «Gülüstani-İrəm» adını vermişdi. Lakin bu, ona uğursuzluq gətirmiş və o, Allahın qəzəbinə gələrək, həmin bağla birlikdə məhv olmuşdur. Gülüstani-İrəm «behiştə və cənnət bağına bənzər» mənasında işlədilir.

[595] Şahi - Azərbaycan Səfəvilər dövlətinin gümüş sikkəsi (Səfəvilərin pul zərbi sistemi haqqında daha ətraflı bax: А.М.Раджабли. Монетное дело в Сефевидском государстве. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1963; А.М.Раджабли. Нумизматика Азербайджана. Очерки истории монетного дела и денежнего обращения Азербайджана. Баку, 1997).

[596] Ülufə və ələfə - ərəbcə «quru ot», «saman» sözündəndir. Orta əsrlərdə Azərbaycanda və Yaxın Şərqin bir sıra ölkələrində dövlət adamlarını, məmurları, elçiləri, çaparları ərzaqla, onların minik heyvanlarını isə yemlə təmin etmək üçün onların keçdikləri ərazilərdə kəndlilərdən ülufə və ələfə adı ilə vergi alınırdı (И.П.Петрушевский. Очерки, с.275-276; А.А.Али-заде. Социально-экономическая и политическая история Азербайджана, с.233-236).

[597] Cuşqan (Cuzqan) - Həmədan vilayətində qəsəbə (T.D.Həsənzadə. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri. Bakı, 2001, s.197).

qaldırılmış, dərdli könüllərin irinli yaraları sağalmağa başlamış, bir qədər rahatlıq və dinclik meydana gəlmişdi. Buna görə də [Şah Təhmasib] «onlar Allahın əhdini yerinə yetirərlər, anlaşmanı pozmazlar» ayəsinin[598] məzmununa uyğun olaraq, verdiyi vədin ziddinə getməyi və onu pozmağı düzgün hesab etmirdi və müsəlmanların rahatlıq və dincliyinin pozulmasına bais olmaq və «möhkəm and içdikdən sonra onu pozmayın» [ayəsinin][599] hökmünə əsasən, özünü açıq-aşkar tənqid hədəfinə çevirmək istəmirdi. İkincisi, valideynə qarşı çıxmaq və ona üsyan etmək nankorluğun əlamətidir və həm bu dünyada, həm də axirətdə köməksiz qalmağın mənbəyidir. [Sultan Bayəzid isə] öz atasının üzünə ağ olmuş, ona qarşı üsyan etmişdi. Buna görə də kəramət xanədanından törəmiş, irşad və kamal zinəti ilə bəzənmiş, ağıl və bilik yaraşığı ilə rövnəqlənmiş o həzrət (Şah Təhmasib) layiq bilmədi ki, batil işə kömək etsin.

***Şah Təhmasibin xondgardan Sultan Bayəzidin əfvini xahiş etməsi.*** Buna baxmayaraq, [Şah Təhmasib] onun bu [Səfəvi] xanədanına pənah gətirməsini nəzərə alıb, böyük səy göstərdi ki, ata və oğul arasındakı düşmənçiliyi və qarşıdurmanı aradan qaldırsın və Sultan [Süleymanın] qəzəb alovunu dostcasına öyüd-nəsihət və rica suları ilə söndürsün. Buna görə də etimadlı şəxsləri xondgarın hüzuruna göndərib, onun günahlarının və təqsirlərinin əfv olunmasını xahiş etdi. Lakin Sultan Süleyman [Sultan Bayəziddən] elə incimişdi ki, heç bir vəchlə onun həyatda qalmasına razı olmadı. [Sultan Süleyman] onun mövcudluğunun Osmanlı dövlətinin bünövrəsinin laxlamasına səbəb olacağını düşünürdü. Xondgar öz etimadlı adamlarından olan və sülh müqaviləsinin bağlanmasında rol oynamış Sinan bəyi əşrəfin xidmətinə göndərdi.

[Sinan bəy Şah Təhmasibin hüzurunda] əhdü-peymanın davamlılığından danışdıqdan və dostcasına söhbətləşdikdən sonra Sultan Bayəzid barəsində qəti dəlillər və əsaslar üzərində dolğun bir söhbət apardı. [Sultan Süleyman Sinan bəy vasitəsilə göndərdiyi] məktubun haşiyəsində öz xətti ilə yazmışdı: «Onu (Bayəzidi) tutub, tərəfimizdən göndərilən adamlara təhvil verərsiniz. Əgər onu sağ-salamat ələ vermək şərəfli könlünüzə yatmırsa, onda onun fitnə və bezikdirmə çırağı olub cahanı seyr edən gözlərini görmə nurundan məhrum ediniz». Bu cür rəftarın comərdlik və mürvət yolundan uzaq olduğunu hesab edən cənnət məskənli şah həzrətləri Sinan bəyə xoş üz göstərərək, yenidən [Osmanlı sarayına] şirin dilli adamlar və yaxşı nitq qabiliyyətinə malik elçilər göndərib, [Sultan Süleymandan] artıq dərəcədə xahiş etdi ki, [Sultan Bayəzidə] iqta[600] olaraq bir mahal verilsin, o gedib orada məskunlaşsın və əgər bundan sonra onun tərəfindən ədəbsiz hərəkətlər üz verərsə, onda şərəfli xatirinizdə onun barəsində hər nə fikir varsa, onu orada icra etmək çətin olmaz.

---

[598] «Qurani-Kərim», «Raad» surəsi, 20-ci ayə.
[599] «Qurani-Kərim», «Nəhl» surəsi, 91-ci ayə.
[600] İqta (ərəbcə torpaq payı anlamındadır) – orta əsrlərdə müsəlman ölkələrində feodallara verilmiş şərti torpaq mülkiyyəti (daha ətraflı bax: Z. M. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı. S. 127-130).

Bu əsnada Sultan Bayəzid öz iç üzünü zühura çıxararaq, öz yaxın adamları ilə razılığa gəldi ki, həzrət şaha münasibətdə xəyanət edib, onun onlara göstərdiyi dostluq əvəzində onun misilsiz bədəninə xətər yetirsin və əgər həmin çirkin niyyəti həyata keçirə bilsə, Qəzvində bir qalada möhkəmlənsin, xondgarın yanına adam göndərib mədəd və kömək istəyərək, Əcəm vilayətinin valisinə çevrilsin. Yox, əgər bu iş onun istədiyi kimi baş tutmazdısa, onda o, Ağrıca tərəfə, türkmənlərin sayinxani tayfasının yanına gedib, oradan gəmiyə oturaraq, Kəfəyə qaçmağı düşünürdü.

Onun yaxın adamları sırasına aid olan Qara Uğurlu və Mahmud Çərkəz bu planın mahiyyətini xəlvətcə əşrəfin nəzərinə çatdırdılar. Lakin cənnətməkan şah pak təbiətli bir şəxs olduğuna görə bu hekayəti ağzıgöyçək bədzatların uydurması hesab edib, buna inam göstərmədi. Amma Sultan Bayəzid onların həzrət şahla xəlvətcə söhbətləşməsindən agah oldu və onların hər ikisini tutub məhbus etdi. Cənnətməkan şah, Sultan Bayəzidin şübhələrini aradan qaldırmaq və onun qəlbini rahatlaşdırmaq üçün bir gün Qəzvinin Səadətabad bağında söhbət təşkil etdi və öz müqərrəbləri və məxsusi adamları ilə birlikdə öz nəfis vücuduna zərli parçalardan önlüklər bağlayıb, doğrudan da, hər bir hissəsi cənnət bağçalarından nişan verən həmin o behiştə bənzər bağın bir guşəsində qeysərzadənin[601] nəzərində aşpazlıq kefinə məşğul olaraq, onunla səmimi söhbət etdi. Bu zaman Sultan Bayəzidin yaxın adamlarından olan Ərəb Məhəmməd Trabzoni özünü şaha çatdırdı və yavaşca dedi:

- Söylənilməsi vacib olan iki kəlmə sözüm var ki, onları şahın yaxşılığı və xeyirxahlığı müqabilində ona deməyə borcluyam. Lakin istəyirəm ki, [bu sözləri] xəlvətdə ərz edim.

Sultan Bayəzid bu hadisədən xəbər tutub, gecə ikən onu və həmin iki nəfəri (Qara Uğurlunu və Mahmud Çərkəzi), bir sözlə, onların hər üçünü qətlə yetirdi. Onun bu yaramaz hərəkəti səbəbindən yüksək məqamlı həzrət şahın tükü ürpəşdi. Bu əməlin səbəbi barədə [Sultan Bayəzidə] sual etdilər və o, [onları] şahın şərəfli könlünü qübarlandırdıqları üçün [öldürdüyünü] ərz etdi.

Qəzvinin sadə camaatı bu halın baş verməsindən və əşrəfin əhvali-ruhiyyəsinin korlanmasından xəbərdar olduqda qeysərzadənin evinin qapısına hücum çəkib, onu nankorluqda və hörmətsizlikdə xeyli ittiham etdilər. Bu vəziyyət əşrəfin xatirinin rizasına müvafiq olmasa da, qeyri-ixtiyari baş verdi. Bundan sonra həmin adamlara (Sultan Bayəzidə və tərəfdarlarına) etimad qalmadı. Buna görə də [Şah Təhmasib] onun şərinin dəf edilməsi fikrinə düşüb, dövlətsevərlərin məşvərəti və məsləhəti ilə onun tutulmasını qərara aldı. Bir gün qərarlaşdırılmış qaydada onu çağırdılar. O, dövlətxanaya gələn kimi həzrət şah məclisdən qalxdı. Böyük əmirlər

---

[601] Klassik Şərq ədəbiyyatında Roma və Bizans imperatorları Sezar adının təhrif olunmuş forması olan "qeysər" titulu ilə tanınırdılar. İstanbulun türklər tərəfindən fəthindən və Bizans imperiyasının süqutundan sonra qeysər titulu Osmanlı sultanlarına şamil edilməyə başlandı. Səfəvi mənbələrində qeysər adı altında Osmanlı sultanları nəzərdə tutulur. Qeysərzadə - qeysər oğlu deməkdir.

onu (Bayəzidi) tutub həbs etdilər. Onun Lələ paşa, Fərrux bəy, Əli bəy Çaşnigirbaşı[602], Sinan bəy Miraxur və s. kimi bir sıra fəsadçı mülazimləri qətlə yetirildilər, onun oğulları isə əmirlərə tapşırıldılar. Ali taxtın ətəklərində və müxtəlif mahallarda olan onun əksər adamları saf düşüncəli sufilərin qılınclarına yem oldular. Lakin [onun mülazimlərindən] bəziləri savab diləkli xeyirxahların imdadı ilə xilas olub, öz diyarlarına yollandılar.

Sülh müqaviləsinin[603] önəmli şərtlərindən biri bu idi ki, tərəflərin adamlarından hər kim fərar edib digər tərəfə sığınmaq istəyərsə, ona himayə edilməsin və o, geri göndərilsin. Buna görə də 969-cu ildə (11.09.1561 - 30.08.1562) Sultan Süleyman Mərəş hakimi Əli paşanı və öz çaşnigirbaşısı Həsən ağanı etimadlı ağalarından və cavuşlarından iki yüz nəfərlə birlikdə [Sultan Bayəzidi] tələb etmək üçün [Səfəvi sarayına] göndərdi. Lakin [Bayəzidlə öz arasında yaranmış] nifaqa və narazılığa baxmayaraq, [Əli paşa və Həsən ağa] amansız və zalım adamlar olduqlarından cənnətməkan şah onlara etimad göstərmədi (Bayəzidi onlara təhvil vermədi) və [bu məqsədlə] ixtiyar sahibi olan, Allahı tanıyan ağsaqqalların göndərilməsini istədi. Bu səbəbdən ikinci dəfə [Sultan Süleyman tərəfdən] aydın fikirli, başbilən bir kişi sayılan, Osmanlı xanədanının əməkdarlarından olan Xosrov paşa bir sıra etimadlı ağsaqqallarla bərabər gəldi. Sultan Süleyman öz xətti ilə o həzrətə (Şah Təhmasibə) iki kəlmə [məktub] yazıb göndərmişdi. [Həmin məktubda] nəsilbənəsil aralıqdakı əhdü-peymanın təzələnməsinin və bunun and içilməklə möhkəmləndirilməsinin vacibliyi izhar olunur, sülh şərtləri xatırlanaraq və dostcasına sözlər ifadə olunaraq, Sultan Bayəzidin və oğullarının göndərilməsi istənilirdi. Bu təklifə etiraz etmək əhdü-peymanın pozulmasına, həngamə qopmasına və müsəlmanların vəziyyətinin korlanmasına gətirib çıxaracaqdı. Bu xahişə əməl etmək isə camaatın və Allah bəndələrinin rifahına səbəb olacaqdı. Məhz buna görə də o həzrət (Şah Təhmasib) bütün camaatın asayişini nəzərə alıb, sülh sərtlərindən vaz keçmədi və o xain fitnəkarı dörd oğlu ilə birlikdə sağ-sağlam Xosrov paşaya və onun adamlarına təhvil verdi. Beləliklə, cənnətməkan şah həzrətləri ilə Rum sultanı arasında sülhün əsasları bu ildə daha da möhkəmləndi və gözəl bir təsadüfdən, qeybdən gələn bir əlamətdən «sülh yaxşıdır» («əs-sülh xeyr») sözləri [əbcəd hesabı ilə bu hadisənin] tarixinə müvafiq gəldi[604].

Heç kimin xəyalından keçmirdi ki, onlar (Xosrov paşanın he-yəti) bu vilayətdə [Bayəzidə] bir xətər yetirərlər. Amma onlar xond-gann fərmanı ilə

[602] Çaşnigir (farsca "dada baxan") – hökmdarların yeməklərinin qabaqcadan dadına baxan və bununla da yeməyin zərərsiz və dadlı olduğunu müəyyənləşdirən adam. Çaşnigirlərə çaşnigirbaşı adlanan məmur rəhbərlik edirdi.

[603] Burada Şah Təhmasib və Sultan Süleyman Qanuni zamanında Səfəvilərlə Osmanlılar arasında 29 may 1555-ci ildə bağlanmış Amasya sülh müqaviləsindən bəhs olunur.

[604] S-129, v.90a-b.

tərəddüd etmədən və təxirə salmadan o beş nə-fərin hamısım (Bayozidi və dörd oğlunu) qətlə yetirdilor və onların cəsədlərini Ruma apardılar[605].

**Misra**

«Beş [nəfər] azaldı Osmanlı zümrəsindən»[606].

Əgər 5 rəqəmini çıxsaq, onda [əbcəd hesabı ilə] bu hadisənin tarixi olan 969-cu il alınar ki, bu da ibrətamizdir. Söz ustadlarının dili bu hadisənin mahiyyətini belə tərənnüm etmişdir:

**Beyt**

«Ey şah, yenə azdır sənə kim hər nə qədər şükr etsə,
Çünki ağılla, ədalətlə xalqı etdin asudə.
Din düşmənlərini sən elə məhv etdin ki, sakitcə,
Nə əlin bulaşdı, nə də qılıncın oldu aludə».

Həqiqətən də, bu hadisə nəticəsində onun (Sultan Bayəzidin) fitnəyə bulaşmış vücudunda baş qaldırmış böyük çaxnaşma və fəsad aradan qalxdı və hər iki səmtdən sakitləşmiş fitnələrin hərəkətə gələcəyindən, camaatın əzab-əziyyətə düçar olacağından ehtiyatlanan hər iki tərəfin xalqları bu iztirab girdabının əlindən təskinlik tapdılar, onların sakitləşmiş ürəkləri daha da rahatlandı.

## ÇİNGİZİYYƏ SULTANLARININ SƏADƏT DƏSTGAHLI DƏRGAHA GƏLMƏLƏRİ HAQQINDA

Ağlın dəlaləti və xoşbəxt taleyin yol göstərməsi ilə cənnətməkan və behiştməqam şahın fələk bargahına bənzər dərgahına gəlmiş Çingizilərin ali nəslinə mənsub adlı-sanlı sultanlardan əvvəlincisi Şeyban ibn Cuci ibn Çingiz xanın nəslindən olan Din Məhəmməd xan ibn Ulus xan və onun qardaşı Əli sultandır. Onlar 943-cü ildə (20.06.1536-09.06.1537) cənnətməkan şah dördüncü dəfə Ubeyd xanı dəf etmək üçün Xorasana qoşun çəkən zaman o həzrətə

---

[605] Şahzadə Bayəzidin və oğullarının öldürülməsi 969-cu ilin zilqədə / 1562-ci ilin iyul ayında baş vermişdi. Burada adı çəkilən Xosrov paşa Van hakimi idi.

[606] «Pənc kəm əz zümreyi-Osmaniyan». Bu maddeyi-tarixi Səfəvi dövrünün məşhur tarixçisi və şairi Zeynalabidin Əli Əbdi bəy özünün «Təkmilətül-əxbar» («Xəbərlərin təkmili») əsərində yazmış, sonradan digər Səfəvi tarixçiləri bu misranı öz əsərlərinə daxil etmişlər. Osmanlı sülaləsinə mənsub beş şəxsin (şahzadə Sultan Bayəzidin və onun dörd oğlunun) öldürülməsindən bəhs edən bu misradakı «zümreyi-Osmaniyan» (yəni Osmanlı zümrəsi) ifadəsinin əbcəd hesabı ilə cəmi 974-ə bərabərdir. Misranın məzmununa uyğun olaraq, bu rəqəmdən (974-dən) 5 çıxdıqda 969 rəqəmi alınır ki, bu da hicri-qəməri tarixi ilə həmin hadisənin baş verdiyi ildir.

münasibətdə itaət kəmərini bellərinə bağlayaraq, istək və sədaqət üzlərini fələk kimi ali astanaya doğru çevirdilər, hökmdara təzim etmək səadətinə qovuşub, izzət büsatına və iltifat kamına nail oldular. Nisa və Əbivərd ölkələri və onların ətrafındakı ərazilər [Şah Təhmasib tərəfindən] Din Məhəmməd xana verildi. Şahın qayğısı sayəsində o və qardaşı adı çəkilən vilayətlərdə və onun hüdudlarında möhkəmlənib, istiqlal əldə etdilər. Onların qüdrətləri və dərəcələri günbəgün yüksəldi və get-gedə Əli sultan tamam Urgənc[607] vilayətinə yiyələndi. O, əvvəlcə [şaha] itaətkarlıq yoluna sadiq qalıb, yaxşı xidmətlər həyata keçirirdi.

945-ci ildə (30.05.1538 - 18.05.1539) Übeyd xan Xarəzm ərazilərini işğal etdikdə o vilayəti öz oğlu Əbdüləziz sultana və öz qohumu olan sultanlara verdi. Buna baxmayaraq, o, (yəni Übeyd xan) hələ Vəzir şəhərində[608] olarkən Din Məhəmməd xan Urgənc ətrafındakı özbəklərdən və yaka-türkmənlərdən ibarət bir dəstə ilə Übeyd xanın əmirlərinin və sultanlarının üstünə getdi və böyük qənimət ələ keçirərək, [öz qoşunundakı] özbəklərə [qızılbaş] tacı geyindirib, qızılbaş [ordusunun] ona köməyə gəlib çatdığı barədə şayiə yaydı. Tərəflər arasında baş vermiş döyüş nəticəsində Übeyd xanın əmirləri məğlubiyyətə uğradılar, onların mötəbərlərindən bir neçə nəfər əsir tutuldu və çox hissəsi isə qətlə yetirildi.

Bu məğlubiyyətdən sonra Übeyd xanın canına elə bir qorxu və iztirab yol tapdı ki, o, Vəzir şəhərindən dəvəyə minib, Buxaraya qaçdı və bu qüssədən həmin il axirət aləminə qovuşdu. Əbdüləziz xan atasının yerinə Buxarada padşah oldu. Din Məhəmməd xan əsirləri və öldürülənlərin başlarını səadətin məskən tapdığı dərgaha göndərdi və bununla da cənnətməkan şahın nurlu xatirinin şadlıq və fərəhlə dolmasına səbəb oldu. [Şah Təhmasib] Din Məhəmməd xan üçün iftixar xələti göndərib buyurdu ki, hər il Xorasanın gəlirindən ona mükafat və bəxşiş («cəldu») olaraq üç yüz tümən məbləğində ənam verilsin. Nə qədər ki bu iki qardaş şaha tabeçilik yolunun yolçusu idilər və bir-birinin ardınca onların elçiləri əşrəfin hüzuruna gəlirdilər, onlara münasibətdə iltifat və qayğıkeşlik göstərilirdi.

[Şah Təhmasibin yanına gələn Çingiziyyə sultanlarından] bir digəri Xarəzm sultanzadələrindən olan Heydər sultandır. O, bir müddət Übeyd xanın yanında olmuşdu. Hümayun padşahın gəlib-getməsi əhvalatı təsvir olunarkən yazıldığı kimi, o, Xorasanın İsfar (İsfizar?) [adlı yerində] fələk bargahlı dərgaha gəlib, [Şah Təhmasibdən] nəvaziş gördü və bir müddət əşrəfin qalibiyyətli üzəngisi həndəvərində oldu. Hümayun padşahın sahın hüzuruna gəldiyi ildə Surluqda cərgə ovu təşkil edilmişdi. Hələ əmirlərə və əyanlara [ov məkanına] daxil olmaq izni verilməmişdi və yalnız Sam mirzə ilə Bəhram mirzə ov edirdilər. Bu zaman Heydər sultan istədi ki, şahzadələr və hökmdarlarla birlikdə cərgəyə daxil olub,

---

607 Urgənc (Ürgənc) - orta əsrlərdə tarixi Xarəzm vilayətinin paytaxtı olan və hal-hazırda xarabalıqları Türkmənistanın Taşauz vilayətinin Kunyə-Urgənc qəsəbəsi ərazisində yerləşən şəhər. Bu Urgənci Özbəkistanın eyniadlı müasir şəhəri ilə eyniləşdirmək düzgün deyildir.

608 Vəzir şəhəri - Türkmənistanın şimalında, Dəryalıq çayı sahilində yerləşmiş orta əsr şəhəri. Hal-hazırda onun yerində Div-kəsən qəsəbəsi mövcuddur (O.Экаев. Туркменистан и туркмены, с. 14).

ova başlasın. Lakin eşikağasılar ona mane oldular. Bəhram mirzənin mülazimlərindən biri onun atının başına bir qırmac vurdu. [Bəhram] mirzə isə özünü görməməzliyə vurdu. [Heydər sultan] bu hadisədən incidi və xahiş etdi ki, onu Hümayun padşahla birlikdə göndərsinlər. Şah həzrətləri Hümayun padşahın xatirinə ona icazə verdi. Yuxarıda qeyd edildiyi kimi, o, özünün Əliqulu və Bahadır adlı iki oğlu ilə birgə Hümayun padşahla getdi. [Heydər sultan] Qəndəhar qalası ətrafında baş vermiş döyüşdə mərdlik göstərib, daha sonra Kabil yolunda vəfat etdi. Oğulları [Hümayun padşaha] mülazimlik etdilər və hər iki qardaş Hindistanda ali məqamlara yüksəldi. Onların Əkbər şaha qarşı törətdikləri əməllər haqqında «Tarix-i Əkbəri»də yazılmışdır və [bu əməlləri] İran tarixinin hadisələri içərisində [qələmə almaq] münasib deyildir[609].

## XARƏZM VALİSİ YUNİS XAN VƏ ONUN QARDAŞI PƏHLƏVANQULU SULTAN HAQQINDA

Elə ki Dost xan onlarla (Yunis xanla və Pəhləvanqulu sultanla) döyüşüb qələbə çaldı[610] və onların məmləkətini zəbt etdi, Yunis xan öz qardaşı ilə birlikdə ali taxtın ətəklərinə pənah gətirib, 964-cü ildə (04.11.1556-23.10.1557) darüssəltənə Qəzvindəki səadətli dərgaha gəldi. Onlar hökmdara (Şah Təhmasibə) təzim etmək şərəfinə nail oldular və bu hadisənin tarixi [əbcəd hesabı ilə] «amədəni-xarəzmiyyə» («xarəzmlilərin gəlişi») sözləri oldu.

Amma axırda Din Məhəmməd xan və Əli sultan qardaşları şahın onlara göstərdiyi dəstək və iltifat müqabilində nankorluq edib, inad və təkəbbür üzündən, fürsət düşdükdə Xorasan və Astarabad məmləkətlərinin həmsərhəd ərazilərinə əl uzatdılar. Din Məhəmməd xan bir dəfə 950-ci ildə (06.04.1543 - 24.03.1544) Sədrəddin xan Ustaclu Astarabad hakimi olarkən həmin vilayətə qoşun çəkdi. Sədrəddin xan səhrada açıq döyüşə girməyi sərfəli bilməyib, şəhərə və qalaya sığındı. Din Məhəmməd xan şəhər və qalanı mühasirəyə alsa da, [heç nəyə nail olmayıb] geri qayıtdı. Digər bir dəfə isə [Din Məhəmməd xan] müqəddəs Məşhədin ətrafınadək gəlib çıxaraq, daha sonra geri döndü. Lakin bundan sonra cahanın pənahı olan dərgaha elçilər göndərib üzrxahlıq izhar etdi. Buna görə də onun ölümündən sonra həmin qayda ilə onun oğlu Əbülməhəmməd xan hökmdarın lütf və şəfqətinə layiq görüldü, atasının ölkəsi və ənamı ona təqdim olundu. Lakin o da bir zaman [Şah Təhmasibə] xilaf çıxmaq və üsyan etmək yolunu tutdu. Belə olduqda Məsum bəy Səfəvi bəzi əmirlərlə ittifaqda və Bəhram mirzənin oğlu İbrahim mirzə ilə birlikdə əşrəfin əmrinə uyğun olaraq, onu cəzalandırmaq üçün məmur edildilər. [Əbülməhəmməd xan] Əbivərd qalasına çəkildi və bir müddət mühasirədə qaldı. Axırda o, üsyankarlıqdan əl çəkib and içdi ki, bundan sonra bu cür əməllər törətməyəcəkdir. Yuxarıda adı qeyd olunmuş [İbrahim] mirzə və

[609] S-129, v.91a-b.
[610] S-129, v.91b; S-297, v.66a.

əmirlər həqiqəti [şahın] ərzinə çatdırıb, [onun] hökmünə uyğun olaraq, geri qayıtdılar.

Amma Din Məhəmməd xanın qardaşı Əli sultan haqqı tanımayan, bədxasiyyət bir adam idi. O, az bir vaxt ərzində qürur və lovğalıq badəsinin təsirindən sərməst oldu. Pis xilqəti və cilovlanmaz tamahkarlığı onu [şaha qarşı] müxalifliyə və tüğyana sövq etdi. O, öz təcavüzkarlıq əlini Xorasan məmləkətinin hüduduna uzatdı. Bir neçə dəfə o, siyahpuş tayfasından olan iğtişaşçıların və oxlu tayfasından olan üsyançıların köməyi ilə Astarabad diyarına qoşun çəkib, o vilayətdə çaxnaşma və qarışıqlıq saldı. Amma şahın azacıq diqqəti və səadətli qoşunların köməkliyi sayəsində onun fitnə-fəsadı dəf olundu. Nəticədə, aşağıda aydın olacağı kimi, o, özünə qazandırdığı əbədi ziyandan savayı bir iş görə bilmədi.

İndi isə ardıcıllığın pozulmaması üçün Astarabadın vəziyyətini və o mülkdə baş verən hadisələrin şərhini qələmə almaq zəruridir.

## ASTARABAD HADİSƏLƏRİNİN ŞƏRHİ, MƏHƏMMƏD SALEH BİTİKÇİNİN ƏHVALATININ BƏYANI VƏ OXLU TAYFASINDAN OLAN ABANIN XARƏZM ÖZBƏKLƏRİNİN YARDIMI İLƏ TÜĞYAN ETMƏSİ HAQQINDA

Astarabad şəhəri sabiq zamanlarda Cürcan[611] və Təbəristan vilayətlərinin hökumətgahı olmuşdur. Oranın camaatının əksəri saleh, mömin və pəhrizkar adamlar olmasına baxmayaraq, onların əhvali-ruhiyyəsi vəsvəsə, ehtiras və qalmaqaldan xali deyildir. Elə bil ki, Cürcan meşəsinin və dağının havası onlarda çaxnaşma əhvali-ruhiyyəsi yaradır. [Astarabad əhalisi arasında] özlərini siyahpuşlar («qarageyimlilər») adlandıran bir toplum var ki, onların qiyamçılıq və tüğyan həvəsləri zehinlərinə fəsad qarışdırmış və onların firavanlıq sərmayəsini kasadlaşdırmışdır. O bölgənin qalmaqalçılarından digər bir qismi ictimaiyyət arasında yaka-türkmənlər kimi tanınan və Xarəzm sultanlarından asılı olan sayinxani qəbilələri toplumudur. Onlar dikbaşlıqları və özbaşınalıqları üzündən özlərini Astarabadın böyük səhrasına və geniş çölünə vurub, Gürgan və Ətrək çayları[612] arasında məskunlaşmışdılar. Onlar məmləkətə zərər və ziyan yetirirdilər. Buna görə də o mülkün ərazisi qalmaqaldan xali olmur və oranın hakimlərinin başı döyüşdən və savaşdan açılmırdı. Amma Allah-taalaya şükür olsun ki, Allahın kölgəsi olan əlahəzrət şahın əbədi dövləti zamanında onun qəhrəmanlığının güclü məşəlinin işığı ilə tüğyanın yaratdığı zülm və qübar zülməti məhv oldu və yoxa çıxdı. İndi hər iki tərəfin (siyahpuş və sayinxani tayfalarının) şuluqçuları başlarını aşağı salıb, firavanlıqla yaşayırlar.

---

[611] Cürcan (Gürcan) – İranda tarixi vilayət. Xəzər dənizinin cənub-şərq sahillərini əhatə edir.

[612] Gürcan çayı İranın şimal ərazisindədir və Xəzər dənizinin cənub-şərqinə axıb tökülür. Ətrək çayı öz mənbəyini Kopetdağ silsiləsindən götürür və İran-Türkmənistan sərhədində Xəzər dənizinə tökülür.

Cənnətməkan şahın zamanında baş vermiş hadisələrin icmalı bundan ibarətdir ki, 944-cü ildə (10.06.1537 - 29.05.1538) şahın dünyanı tutan bayraqları dördüncü dəfə Xorasan yürüşündən İraq tərəfə hərəkətə gəldikdən sonra Übeyd xanın o vilayətə gediş-gəlişinin arası kəsildi. Xoca Müzəffər Bitikçinin Məhəmməd Saleh adlı bir qardaşı oğlu vardı ki, təbiətində cahillik mövcud idi, tüğyan etmək sevdasına düşmüşdü və özbaşınalıq badəsi onun beyninin cövhərini dumanlandırmışdı. O, bu əbədi dövlətə itaət etməkdən üz çevirərək, öz mahalının ağası olmaq istəyi ilə başına Astarabad siyahpuşlarından ibarət bir dəstə yığıb, dikbaşlıq etməyə başladı və bəzi qəsəbələri ələ keçirib, Sultan Qazinin oğlu olan, Daşkəndin və Fərqanə[613] şəhərlərinin valisi Budaq xanın isə bacısı oğlu olan və o zaman öz dayısının yardımı ilə Xarəzmi zəbt etmiş Ömər Qazi sultanın yanına adam göndərərək, ondan xahiş edib, kömək istədi. Ömər Qazi sultan o nadan cahilin sözü ilə əsassızcasına bir ordu götürüb, Astarabad səmtinə hərəkət etdi və Məhəmməd Saleh öz siyahpuşları ilə birlikdə Cürcan meşəsindən çıxıb, onlara qoşuldu. O vaxt Astarabad hakimi olan Sədrəddin sultan Ustaclu özbəklərin və siyahpuşların ittifaq etməsindən və birləşməsindən xəbər tutub, özündə müqavimət qüdrəti görmədi, malik olduğu ağıl və təcrübəyə əsaslanaraq, Astarabaddan Bistama gəlib, həqiqəti ali taxtın ətəklərinə çatdırdı. Məmləkətin yiyəsiz qaldığını görən Məhəmməd Saleh [Astarabad] şəhərinə daxil oldu, özbəklərin himayəsi ilə həmin vilayətdə öz hakimiyyət bayrağını dalğalandırdı və Xarəzm valisinə və onun adamlarına layiqli töhfələr, hədiyyələr və peşkəşlər verdi. Ömər Qazi sultan o vilayətin (Astarabadın) idarə olunmasını onun öhdəsinə buraxıb, Xarəzmə qayıtdı.

Onun getməsindən sonra Məhəmməd Saleh qəflət və qürur badəsindən sərməst olub, əbləhcəsinə öz səltənət xalçasını sərdi və başına hökmdarlıq və istiqlal havası düşdü. Amma gecə-gündüz vaxtını eyşdə və işrətdə keçirirdi. Bir həftə ərzində kef çəkib, bihuş oldu. O, kefcilliyin tüğyanı və məstliyin həddən aşması şəraitində, dünyanın [insanla] məskunlaşmış dörddə bir hissəsindəki şəhərləri əbləhlik badəsində ona yoldaş olan şəxslərə paylayırdı və hər bir vilayəti öz aqibətini düşünməyən mülazimlərindən birinə tapşırırdı. Onun özündən də axmaq olan həmin səfehlər ona səcdə edib, dualarını və minnətdarlıqlarını bildirirdilər. Belə bir əhvalat məşhurdur ki, bir gün onun mülazimləri arasında hər birinin ürəyindən keçən bir şəhərə hakim təyin olunmaq istəyindən, məmləkət bölgüsü üstündə qalmaqal baş vermişdi.

Sözün qısası, elə ki yuxarıda təsvir etdiyimiz hadisələrin xəbəri qalibiyyətli və qüdrətli padşahın qulağına çatdı, o, Əmir sultan Rumluya, Şahəli sultan Ustacluya və Həsən sultan Şamluya müzəffər qoşunların bir hissəsi ilə Sədrəddin xana köməyə getməyi tapşırdı. Amma Sədrəddin xan böyük əmirlərin gəlib çatmasından Öncə Ömər Qazi sultanın geri qayıtmasından, Məhəmməd Salehin

[613] Fərqanə vadisi – Tyanşahda dağlararası çökəklikdir. Bu vadi hal-hazırda Özbəkistan, Qırğızıstan və Tacikistan respublikalarının tərkibinə daxildir. Özbəkistanın şərq hissəsində mərkəzi Fərqanə şəhəri olan Fərqanə vilayəti mövcuddur.

qəflətdə olmasından və onun ağlının başında olmamasından xəbər tutub, təcrübəli doyüşçülərdən ibarət bir dəstə ilə Bistamdan çıxıb, Astarabada gəldi. Mübarək ramazan ayı (1538-ci ilin fevral ayı) idi. Məhəmməd Saleh günahkar yoldaşları ilə birgə həmin müqəddəs günlərdə qürur badəsi üzündən elə şüursuz və məmləkət işlərindən o qədər xəbərsiz idi ki, xanın nağara və şeypurunun avazı və qazilərin zurnalarının sədası onun və yoldaşlarının qulağına çatandan sonra anladılar ki, qızılbaş qoşunu şəhərə gəlmişdir. Onlar qorxaq və çaşqın bir vəziyyətdə cəngəllik tərəfə qaçdılar. Sədrəddin xanın mülazimlərindən kəngərlü tayfasından olan Şahverdi bəy adlı bir cavan Məhəmməd Salehi ələ keçirib, xana təhvil verdi və bunun müqabilində layiqli mükafat aldı. Sədrəddin xan [Məhəmməd Salehi] ali taxtın ətəklərinə göndərdi. Onu darüssəltənə Təbrizdə hökmdarın hüzuruna gətirdilər və şahın fərmanına uyğun olaraq, onu bir küpün içinə qoyub, Nəsriyyə[614] minarəsinin başına çıxardılar və oradan yerə tulladılar. Onun bədbəxtliyə aludə olmuş vücudu qiyamçıların gözlərinə tutiya oldu.

[Məhəmməd Saleh] iqtidarda olduğu günlərdə bir çox qəbahətli əməllər törətmiş, müsəlmanların namusuna sataşmışdı. Amma özünün təriflənməsi üçün səfehcəsinə böyük səy göstərir, bu məqsədlə çoxlu bəxşişlər verir və yaltaqlara, şairlərə və nəzm sahiblərinə hörmət edirdi. Heyrəti Astarabadi onun mədhi haqqında bir qəsidə demişdir ki, mətləsi belədir:

«Sənin bayrağın cahanda güzgüsüdür həqiqətin,
Qəlbimiz dağarcığıdır, bil ki, sənə itaətin».

Elə ki qəsidəni oxuyarkən:

«Ey səadət ölkəsinin xosrovu Məhəmməd Saleh,
Sanki ilahi lütfüdür başdan-ayağa zinətin»

beytinə çatdı, [Məhəmməd Saleh] hökmdarlıq külahını yan qoyub, bu beytə mükafat olaraq [şairə] yeddi xərvar[615] ipək hədiyyə etdi. Lakin onun xəbəri yox idi ki:

«Şah deyil külahı yan qoyub hər taxtda oturan,
Hərbi və mülki işləri bilməlidir hökmran».

Astarabadda olan hadisələrdən digəri Əli sultan Özbəyin basqınıdır. O, bir dəfə Xarəzmin bəzi mahallarını istila etdiyi 955-ci (1548) ildə pis xilqətli özbəklərdən altı min nəfərlə Astarabad üzərinə gəldi. Sədrəddin xandan sonra

614 Tehran çapında (s.107) Bəsriyyə yazılmışdır.
615 Xərvar (farsca «eşşək yükü») - Yaxın Şərq ölkələrində və Orta Asiyada mövcud olmuş çəki vahidi. Təxminən 300 kq-a bərabərdir.

[Astarabad] hakimi olmuş Şahəli sultan Ustaclu səadətli qoşunla ona qarşı müharibəyə girişdi. Astarabad yaxınlığında tərəflər arasında amansız bir döyüş baş verdi. Ustaclu qaziləri mərdanəlik göstərərək, qüdrətli dövlətin gücü sayəsində zəfər qazandılar və qaçan [özbək] dəstəsini Günbədi-Qabusadək[616] təqib edib, onların bir çoxunu qətlə yetirərək, başlarını ali taxtın ətəklərinə göndərdilər.

Digər hadisə odur ki, Şahəli sultanın öldüyü və Astarabad hökumətinin Keçəl Şahverdi Ustacluya həvalə edildiyi 957-ci (1550) ildə yaka-türkmən camaatı yağı oldu. Onların yağı çıxmalarının səbəbi aşağıdakı kimidir. Elə ki Keçəl Şahverdi [Astarabada] hakim təyin olundu, yaka-türkmən sərdarları sultanı (Keçəl Şahverdini) təbrik etməyə və ona «mübarək olsun!» deməyə gəlib, peşkəşlər gətirdilər. Onların arasında oxlu tayfasının sərdarı olan Aba[617] adlı bir cavan da vardı ki, mükəmməl yaraşığa və gözəlliyə, olduqca xoş lətafətə və hüsn-camala malik idi. Şahverdi sultan sərdarlar zümrəsi arasından yalnız Abaya qalmağı təklif edib, ona eşqini izhar etdi və bu əhvalatın xəbəri türkmənlər arasında yayıldı. Aba bədnam olacağının qorxusundan, rüxsət almadan gecə ikən atına minib, öz elinin arasına gəldi və öz tayfadaşlarının şübhələrindən yaxa qurtarmaq üçün sultanın türkmənlərin daruğası olan Şatır bəy[618] adlı qohumunu qətlə yetirib, yağı oldu.

Sultan onu cəzalandırmaq üçün yola düşdü. Elə ki oxlu tayfasının yaşadığı yerə çatdı, əsgərlərinə həmin tayfanı soyub-talamağı əmr etdi. Şahverdi sultan bir neçə nəfər xas mülazimi ilə təpənin başına çıxıb qarətə tamaşa edən zaman, haqqında bəhs etdiyimiz Aba türkmənlərdən ibarət bir dəstə ilə gözlənilməz bəla kimi sürətlə sultanın başının üstünü alıb, onu qətlə yetirdi. Sultanın öldürülməsindən agah olan ustaclu qaziləri fərar edib, şəhərə gəldilər. Damğan və Bistam hakimi olan Əmir Qeyb sultan Ustaclu bu xəbəri eşidərək, Astarabada yollanıb, şəhəri mühafizə etdi və vəziyyət barədə gerçəklikləri cah-calallı hökmdarın ərzinə çatdırdı.

Aba Oxlunun tüğyan və fitnəkarlıq xəbəri əşrəfin parlaq şəxsiyyətinə aydın olduqda, 962-ci ildə (26.11.1554 - 15.11.1555) Gökcə sultan Qacar, Əli sultan Tatıoğlu Zülqədər, Çərəndab sultan Şamlu və Mustafa sultan Varsaq o fitnəkarın qaldırdığı fitnənin dəf olunmasına məmur edildilər. Elə ki onlar oraya çatdılar, haqqında bəhs etdiyimiz Aba səadətli qoşunlara qarşı müqavimət göstərməyə tab gətirməyib, Xarəzm tərəfə qaçdı və Əli sultan Özbəkdən kömək istədi. Əli sultan qarət və talan törətmək həvəsi ilə ciddi bir qüvvə götürüb, Cürcana yollandı. Lakin o, böyük əmirlərin ordusuna yaxınlaşıb, qızılbaş qoşununun keyfiyyət və kəmiyyətindən agah olduqda gəlişindən peşman olub, əmirlərlə dostluq münasibəti

---

[616] Günbədi-Qabus - İranın şimalında, Gürgan çayının orta axarının sol sahilində, Cürcan şəhərindən şimal-şərqdə yerləşən şəhər.

[617] Tehran çapında (s. 106-109) Aya kimi yazılsa da, bu şəxsin həqiqi adı Aba olmalıdır (bax: Материалы по истории туркмен и Туркмении, т. II, Москва-Ленинград, 1938, с.67).Tərcümənin mətninə Bakı nüsxələri (S-129, v.93b; S-297, v.66b) əsasında düzəliş edilərək, Aba yazılmışdır.

[618] Bu şəxsin adı S-129, v.93b-də Şahnəzər bəy kimi yazılıb. Halbuki istər Tehran çapında (s.107), istərsə də S-297 əlyazmasında (v.68a) Şatır bəydir.

yaratmağa çalışdı və tərəflər bir-birlərinə töhfələr və hədiyyələr göndərdilər. Qərara alındı ki, bundan sonra Aba öz halında qalıb, ayağını ədəb dairəsindən kənara qoymayacaq və əmirlər də ona heç bir zərər vurmayacaqlar. Sülh və əhdü-peyman bağlandıqdan sonra [Əli sultan Özbək] Xarəzmə geri qayıtdı. Gökcə sultan bu səfərdə öldü. Digər əmirlərin hər biri öz ölkələrinə getdilər.

Haqqında bəhs etdiyimiz Aba bu çaxnaşma və yağılıqdan özünə ad-san qazandığına görə öz tayfadaşları üzərində üstünlük əldə etməyə çalışdı və onun beyninə xudbinlik və böyüklük arzuları yol tapdı. 965-ci ildə (24.10.1557 - 13.10.1558) İbrahim xan Zülqədər Astarabad hakimi təyin edilərkən o, üsyankar türkmənlərdən ibarət bir dəstə toplayıb, tam qüvvə üstünlüyü ib Astarabad üzərinə gəldi. İbrahim xan onun dəf olunması üçün özündə qüdrət görməyib, onun əməlləri barəsində həqiqəti və onun tüğyanını əşrəfin xidmətinə ərz etdi. Həmin vaxt cənnətməkan şah həzrətləri darüs-səltənə Qəzvində qalırdı. O, möhürdar Şahqulu xəlifə Zülqədəri Bədr xan Ustaclu, Yadigar Məhəmməd sultan Tərxan Türkman, Rüstəm xan Əfşar və s. kimi adlı-sanlı əmirlər üzərində sərkərdə təyin edib, İbrahim xanın köməyinə göndərdi ki, [Abanı] dəf etmək yolunda səy göstərib, onun fitnəyə bürünmüş vücudunu həyat lövhəsindən silib atsınlar. Böyük əmirlər qoşun və ləşkər təşkil edib, lazımi qayda ilə Astarabad şəhərinə gələrək, İbrahim xana qoşuldular və hamısı birlikdə həmin qiyam əhlinin başçısı üzərinə gedib, türkmən camaatı arasına vəlvələ saldılar. Haqqında bəhs etdiyimiz Aba o [qızılbaş] qoşununun qarşısını almağa tab gətirmədi və öz məskənini və yüklərini ataraq, fərar etdi. Qazilər onun elini və ulusunu qarət və yağma edib, həmin yerdə düşərgə saldılar. Bu əsnada Aba mərdimazar türkmənlərdən ibarət bir dəstə ilə peyda olub, döyüşə girdi. Səadətli qoşunlar da hərbi səf çəkib, ona qarşı müharibəyə məşğul oldular. Sürətlə yol gəlməyin yorğunluğundan və asimandakı sərinliyi büryan edən havanın yandırıcı istiliyindən qazilərin atları əldən düşüb, şətrənc (şahmat) atları kimi cansızlaşmışdılar. Türkmənlərə qarşı döyüş axşamacan davam etdi. Elə ki axşamın zülmət pərdəsi döyüş iştirakçılarının üzərinə çəkildi, tərəflər dava-dalaşdan əl çəkib, gözətçilər təyin etdilər. Ertəsi gün Aba oxlu tayfasından ibarət bir dəstə ilə döyüş meydanına gəldi. Hər iki tərəfdən həyata keçirilən ardıcıl həmlələrdən sonra [Aba] öz zəifliyinin və qızılbaş ordusunun qüdrətinin təsirini müşahidə edib, geri çəkildi və döyüşü udmaq imkanının olmadığını anlayaraq, Xarəzmə yollandı.

Böyük əmirlər onu təqib edərək, Ətrək çayınadək irəlilədilər və səhranın yandırıcı havasında qoşunun sərdarı olan Şahqulu xəlifəni birdən-birə qarın sancısı tutdu və o, vəfat etdi. Qoşunun digər əmirləri və əyanları Bədr xanın sərdarlığını qəbul etsələr də, hər biri özbaşına hərəkət etdilər və hər tərəfə soyğunçuluq və qarətə gedib, o qədər çox ora-bura [at] çapdılar ki, atlarını yorub əldən saldılar. Elə bu zaman qaravullar xəbər gətirdilər ki, Əli sultan Özbək yenidən düşmənçilik və bədzatlıq edərək, döyüşkən bir qoşunla Aba Oxlunun köməyinə gəlmişdir. Bədr xan ətraflı surətdə götür-qoy etmədən atlanıb, özbəklərlə döyüşə tələsdi. Qızılbaş

qoşunundakı bahadırların inadkarlıq və mətanətindən çəkinən Əli sultan işini ehtiyatlı tutmuş, öz ordusunun ətrafında xəndək qazdırmışdı və daha sonra xəndəyi istehkama çevirib, orada qalaya oxşar bir şey yaratmışdı. Bu tərəfdən qazilər xəndəyin kənara gedib, döyüşə başladılar və özbəklər xəndəyin arxasından qazilərə ox və tüfəng aldılar. Özbəklərlə müharibə əsnasında Aba iki yüz nəfərlə birlikdə [qızılbaş] qoşununun arxasına keçdi. Əmirlər Bədr xana hər nə qədər desələr də ki, «düşmənlər məkr və hiylə qapılarını açmışlar və qoşunun arxasını Abanın məkr və hiyləsinin zərərindən qorumaq üçün bir dəstə göndərmək lazımdır», lakin o, bu təklifə etinasız yanaşdı və düşmənə əhəmiyyət verməyib, özbəklərlə döyüşə davam etdi. Nəhayət, iş o yerə çatdı ki, Aba [qızılbaş qoşununun] mehtərlərinin və cilovdarlarının olduğu yerin arxasına keçib, oradakı xidmətçiləri dövrəyə aldı. Türkmənlərin oxlarının qorxusundan bir-birinə dəyən xidmətçilər xəndəyin kənarında olan və bəziləri hətta xəndəyi keçib özbəklərlə əlbəyaxa vuruşan [qızılbaş] süvarilərinə doğru çəkildilər. Bundan cəsarətlənən özbəklər çoxlu ox və tüfəng atdılar və [qızılbaş qoşununun] cəmləşdiyi cərgələri ürəkdeşən oxlarla və canyandırıcı tüfənglərlə pərən-pərən etdilər. Beləliklə, əmirlər və qazilər hərbçilik adətlərinə və qaydalarına müvafiq hərəkət etməyib, ehtiyat tədbirləri görmədikləri üçün böyük bir məğlubiyyətə uğrayaraq, özlərini ixtiyarsızcasına, üzərində heç bir körpü və keçid yeri olmayan Gürgan çayına vurdular və onların bir çoxları fəna girdabında qərq oldular. Bu döyüşdə min nəfərə yaxın qızılbaş cavanı qətlə yetirildi və əsir düşdü. Əmirlər arasından İbrahim xan və Rüstəm xan qətlə yetirildilər, Bədr xan, Yadigar Məhəmməd xan və bəzi digərləri isə əsir düşdülər. Qalan əmirlər salamatlıqla Damğana çatdılar.

Əli sultan Özbək də döyüş meydanını tərk edib getdi. Cilovdarların əllərindən buraxdıqları və o səhrada otlamaqda olan gümüş və qızılla bəzədilmiş yəhərlərə malik atlarla bərəbər, mal və əşyalardan ibarət bol qənimət düşmənlərin əlinə keçdi. Aba qələbə qazanıb, iqtidar əldə etdiyindən Xoca Müzəffər Bitikçinin[619] oğlu Xoca Məhəmmədin qızını zorla götürüb apardı. O qız Abanın vəhşiliyinə görə onu rədd etsə də, axırda ona ərə getməyə ikrahla razılıq verməyə məcbur oldu. Aba o ismətli qızı öz nikahına saldı və Bitikçilər nəslinin mülazimləri o qadının yanına toplaşıb, ona xidmət göstərməyə başladılar. Amma o qadın gecə-gündüz bu fikirdə və düşüncədə idi ki, özünü Abanın əlindən xilas etsin. Aba ondan özünə qarşı vəfasızlıq hiss edib, onun mülazimlərini öldürməklə təhdid etdi. [Qadının] mülazimləri canlarının qorxusundan onunla (Abanın qadını ilə) araya söz qoydular ki, əgər bu gecə bir tədbir görməsək, sabah hamımız öldürülmüş olacağıq. Xatun öz mülazimləri ilə vədələşib dedi:

- Gecə yarısı çadırın qapısına bir neçə at gətirib hazır olun ki, mən sizi münasib vaxtda xəbərdar edəcəyəm.

---

619 S-129, v.95a; S-297, v.67a. Tehran çapında (s.109) Bitikçi əvəzinə Təbəkçi yazılmışdır.

Onlar qadının göstərişinə əməl etdilər. Gecə yarısı Aba yuxuda olarkən və onun qaravulçuları yağmurlu hava üzündən keçələrini başlarına çəkib mürgüləyərkən qadının mülazimləri arasından Mühibbəli adlı birisi cürət edərək, o aslanabənzər qadının işarəsi ilə onun yataq çadırına girib, [Abanın] başını bir qılınc zərbəsi ilə bədənindən ayırdı. Banu ərinin başını götürüb, özünü qaravulçularına və yoldaşlarına çatdırdı. Onlar ildırım tezliyi və külək sürəti ilə Astarabada tələsdilər. Mühibbəli o qiyamçının başını cahanın pənahı olan dərgaha gətirib, darüssəltənə Qəzvində Firidun məqamlı, Cəmşid vüqarlı şaha təqdim edərək, mükafat və bəxşiş aldı. Bununla da Astarabadda o bədzatın fitnə atəşi söndü.

Əli sultan və qızıl hərisi olan tamahkar özbəklər ödənc verilməsi müqabilində əsirlərin buraxılmasını təklif etdilər. Bu xəbər cənnətməkan şahın qulağına çatdıqda onların azad olunması üçün heç bir həbbə[620] də vermədi. [Əsirlərin] hər birinin yaxınları və qohumları qızıllar göndərib, onları əsirlikdən xilas etdilər. Amma ondan sonra [əsirlikdən azad olunmuş] bu adamların əşrəfin hüzurunda heç bir hörməti olmadı və əşrəfin onlara etinasızlığı üzündən qısa müddət ərzində yoxluq diyarına yollandılar (öldülər).

«Hakimiyyəti zamanında saflardan və tör-töküntü adamlardan, Hər hansı biri ki, onun ürəyinin tağından düşdüsə, öldü».

Əli sultan da həmçinin 973-cü ilə (29.07.1565 - 18.07.1566) uyğun olan həmin əyyamda ömrünə və hakimiyyətinə vida edib, axirət aləminə daxil oldu və onun ölümündən sonra türkmənlər ayaqlarını ədəb çərçivəsinə sığışdırdılar. Beləliklə, cənnətməkan şahın həyatda olduğu qalan müddət ərzində Astarabad vilayətində əmin-amanlıq hökm sürdü və qeyd edilməyə qabil olan heç bir hadisə baş vermədi. [Əli sultanın ölümündən] sonra bütün Xarəzm vilayətinin hakimiyyəti Hacim xan ibn Əta sultan adı ilə məşhur olan Hacı Məhəmməd xanın əlində cəmləşdi. O, [Şah Təhmasibin] xilafət məqamlı taxtının ətəklərinə elçilər göndərib, səmimi duyğularını izhar edərək, həmişə sədaqət yolu ilə addımladı və 983-cü ildə (12.04.1575 - 30.03.1576) hələ həddi-büluğa çatmamış oğlu Məhəmmədqulu sultanı aləmin pənahı olan dərgaha göndərdi. Sultan Heydər mirzə istisna olmaqla, şahzadələr, əmirlər və əyanlar onu qarşılamağa gedərək, şəhərə gətirdilər. Məhəmmədqulu sultan qızılbaşlar arasında boya-başa çatıb, səadətli şahın (I Abbasın) cülusu zamanına qədər ali taxtın ətəklərində qaldı və luy ili olan 1001-ci ildə (08.10.1592-26.09.1593) Bistam çəmənliyində icazəsiz olaraq hökmdarın ordusundan tək-tənha ayrılıb, Xarəzm vilayətinə getdi. İndi onun oğlu Uluğ sultan izzət və iltifatla kama çatmış hökmdarın (Şah Abbasın) xidmətindədir.

Beləliklə, Astarabad əhvalatlarının bir qismi qeyd olundu. İndi isə Qəzvinin paytaxt olduğu əyyamda üz vermiş hadisələr qələmə alınacaqdır ki, bunların da ən mühümü Gilan ərazisinin fəthidir.

---

[620] Həbbə - həm dən, dənli bitkilər mənasını verir, həm də dirhəmin 1/48 hissəsi və 0,071 qrama bərabər olan kiçicik çəki vahididir.

## GİLAN ƏRAZİLƏRİNİN FƏTH VƏ ZƏBT OLUNMASI, BİYE-PİŞ VALİSİ XAN ƏHMƏDİN ÜSTÜNƏ QOŞUN GÖNDƏRİLMƏSİ VƏ ÖZ AQİBƏTİNİ DÜŞÜNMƏVƏN O ŞƏXSİN ƏLƏ KEÇİRİLMƏSİ BARƏDƏ SÖHBƏT

Cənnətməkan şahIN hakimiyyəti zamanında fəth edilmiş vilayətlərdən biri də Gilan vilayətidir. Bu vilayət iki hissədən ibarətdir. Onun Biyepiş adlanan hissəsi o vaxtlar Xan Əhməd ibn Sultan Həsən ibn Xan Əhməd Mazi ibn Sultan Həsən ibn Karkiya Sultan Məhəmməd ibn Nasir Kiya ibn Mir Seyid Məhəmməd ibn Mehdi Kiya ibn Rza Kiya ibn Seyid Əli Kiyanın ixtiyarında idi. Biye-pəs adlanan hissəsi isə özlərini İshaq peyğəmbərin - ona salam olsun - nəslindən sayan və bu səbəbdən İshaqiyyə sultanları kimi məşhurlaşan sülalənin nümayəndəsi olan və Müzəffər sultan adı ilə tanınan Əmirə Dibac ibn Əmirə Hüsaməddin ibn Əmirə İshaq ibn Əmirə Məhəmmədin[621] hakimiyyəti altında idi.

Hələ Süleyman şanlı xaqan öz qardaşı Sultan Əli padşahın ölüm hadisəsindən sonra Gilana təşrif aparıb bir neçə il Lahicanda qaldığı zaman Xan Əhməd Mazinin əmisi Karkiya Əli və onun qardaşları Seyid Haşım və Sultan Həsən ona xoşagələn xidmətlər göstərmişdilər. Buna görə də cənnətməkan şah həzrətləri o sülalənin sabiq və birbaşa xidmətlərinin keyfiyyəti səbəbindən ona (Xan Əhmədə) münasibətdə lazımi qayğıkeşlik nümayiş etdirirdi. Belə ki, onun atası Sultan Həsənin 943-cü ildə (20.06.1536 - 09.06.1537) baş vermiş ölümündən sonra Xan Əhməd hələ bir yaşında südəmər körpə ola-ola [Şah Təhmasib tərəfindən] atasının yerinə [Biye-piş hakimi] təyin edilmişdi. O sülaləyə (Biye-piş hakimləri nəslinə) müxalif olan kəslərin və Gilanın iddia sahibi olan əmirlərinin ona (körpə Xan Əhmədə) münasibətdə ziyankarlıq edə biləcəklərini nəzərə alan Gilan əmirlərindən biri və [mərhum] Sultan Həsənin vəkili olan Kiya Xurkiya Talqaninin bir neçə dəfə təkrarladığı xahişləri nəticəsində [Şah Təhmasib] Bəhram mirzəni Gilana göndərdi ki, bir müddət əyaləti başqalarının qəsb etməsinə imkan verməsin. Lakin Bəhram mirzə zorakı adamların sözlərinə əməl edib, Kiya Xurkiyanı həbs etdi. Buna görə də gilanlılar ondan incidilər və o, Gilan vilayətini tərk etdi. Elə ki Xan Əhməd həddi-buluğa çatdı, cənnətməkan şah günbəgün onun mövqeyini yüksəltdi. [Xan Əhməd] Neyney adlı bir qızla evləndi və bu izdivacdan Sultan Cəng adlı oğlu dünyaya gəldi. Cənnətməkan şah o oğlana Sultan Həsən adını qoyub, ona öz oğlu kimi davrandı və axırda ona qohumluq müjdəsi verdi (onunla qohum oldu).

---

[621] S-129, v.96a; S-297, v.70a. Əmirə Dubac - Gilanın Biye-pəs vilayətinin hakimi O, 1518 və ya 1519-cu ildə Şah İsmayılın Təbriz sarayına gəlmiş, Şah İsmayıl ona hörmətlə «Müzəffər sultan» adını vermiş və öz qızı Xanış bəyimlə onu evləndirmişdi. Lakin sonradan Əmirə Dubac Səfəvilərə xəyanət etmiş, 1534-cü ildə Osmanlı hökmdarı Sultan Süleymanın Ucandakı düşərgəsinə gedərək, ona tabe olduğunu bildirmişdi. Osmanlı ordusu Azərbaycanı tərk etdikdən sonra Əmirə Dubac Şirvana qaçmış, lakin orada yaxalanmış və Şah Təhmasibin əmri ilə edam olunmuşdu O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.264-265).

Biye-pəs valisi Müzəffər sultan da [Səfəvi] xanədanı ilə qohumluq şərəfinə nail olsa da, sonradan xilaf çıxdı və üsyan qaldırdı. Belə ki, Rum xondgarı Sultan Süleymanın birinci dəfə Əcəm diyarına qoşun çəkdiyi il [Müzəffər sultan] bu əbədi dövlətdən (Səfəvi dövlətindən) üz çevirərək, Təbrizin Ucan adlı yerinə qədər onu qarşılamağa gedib, ona itaətkarlıq və tabeçilik izhar etdi. Sultan Süleymanın çıxıb getməsindən sonra [Müzəffər sultan] Gilana qayıtdı. Lakin onun mülazimlərindən olan Əmirə Xatəm Rəşti ona qarşı çıxıb, onun Rəştə getməsinə yol vermədi. Tərəflər arasında çox ağır bir müharibə baş verdi. Müzəffər sultan məğlub oldu və Gilanda qalmağa macal tapmadı. O, gəmiyə minib, dəniz yolu ilə Şirvana getdi. O vaxtlar Sultan Xəlil şirvanşah idi. O da bu [Səfəvi] sülaləsi ilə qohumluq şərəfinə nail olmuşdu. Həmin vaxt şirvanşah [Sultan Xəlil] Müzəffər sultanı tutub, yanında saxladı. Onun məqsədi bu idi ki, əgər bacararsa Müzəffər sultanın günahının əfv olunmasını [Şah Təhmasibdən] xahiş etsin və əgər [bu xahiş şah tərəfindən] qəbul edilməsə, onda əşrəfin istəyi nə olacaqsa ona əməl etsin. Amma elə həmin günlərdə Sultan Xəlil axirət dünyasına köçdü. Cənnətməkan şah həzrətləri Müzəffər sultanı gətirmək üçün Şirvana adam yolladı. Şirvan əmirləri onu təhvil verməkdən özgə bir çarə tapa bilmədilər. Beləliklə, 942-ci ildə (02.07.1535-19.06.1536)[622] Müzəffər sultan cahan şahının (Təhmasibin) bəxtəvərliyi sayəsində xilafət məqamlı [Səfəvi sülaləsinin] mülazimlərinin əlinə keçib, darüssəltənə Təbrizdə şahın hüzuruna gətirildi və hökmdar fərmanına uyğun olaraq, onu dəmir qəfəsə salıb, Həsən padşah məscidinin iki minarəsi arasından asaraq, ona od vurdular. Onun övladı Sultan Mahmudxan cənnətməkan şahın bacısı oğlu olmasına və atasının müxalifliyi və üsyanı zamanı heç bir xəta törətməməsinə baxmayaraq, öz irsi mülkünün hökumətindən məhrum edildi. Onun ölkəsi (Biye-pəs) [Xan Əhmədin oğlu] Sultan Həsənə verildi.

Beləliklə, şahın qayğıkeşliyi və şəfqəti sayəsində Xan Əhməd bütün Gilan ərazilərində hökmü keçən valiyə çevrildi və onun hakimiyyət bayrağı asimana ucaldı. O, hərəsi öz irsi mülklərində hakimlik edən Gəskər[623] hakimi Əmirə Sasani və Kuhdəm[624] hakimi Mirzə Kamranı qəhr və qələbə ilə o vilayətlərdən qovub, həmin yerləri ələ keçirdi və onun hakimiyyəti öz ata-babasının heç vaxt malik olmadıqları bir səviyyəyə çatdı. Lakin o, öz bədbəxtliyi, cahilliyi və özbaşınalığı ucbatından şahın ona göstərdiyi qayğı və şəfqətin qədrini bilməyib, bir dəstə az düşüncəli ağzıgöyçəklərin və öz aqibətlərini fikirləşməyən şəxslərin təhriki ilə hökmdarın razılıq vermədiyi işləri görməyə başladı. Eyni zamanda, cənnətməkan şah ulu orduda sərgərdan olan Əmirə Sasana rəhm edib, Gəskər vilayətini yenidən ona bağışlayaraq, onu oraya göndərdi. Lakin Xan Əhmədin tərəfindən Gəskər hakimi təyin olunmuş Səid adlı bir sipəhsalar onun göstərişinə əsasən, [şahın] hökmünə tabe olmadı. Onunla Əmirə Sasan arasında böyük bir döyüş baş verdi və

[622] S-129, v.96b; S-297, v.70b.
[623] Gəskər - Astaradan Rəştə doğru gedən yolun üzərində, Gilanda yerləşən tarixi mahal.
[624] Kuhdəm - Gilanda, Rəştlə Lahican arasında, Qızılüzən (Səfidrud) çayı kənarında yerləşən bölgə.

Əmirə [Sasan] qüdrətli dövlətin səadətli qoşunlarının köməyi ilə onun üzərində qələbə çaldı. [Xan Əhmədin] sipəhsaları bir çoxları ilə birlikdə öldürüldü. Xan Əhməd havanın yüksək dərəcədə isti keçdiyi yayın ortasında öz oğlu Sultan Həsənə qoşun verib, onu Əmirə [Sasanın] üstünə, Gəskərə göndərdi. Lakin Sultan Həsən havanın üfunəti səbəbindən həmin səfərdə vəfat etdi. Xan Əhməd bununla kifayətlənməyərək, böyük bir qoşunla öz işğal və istila bayrağını o diyarda ucaltdı. Cənnətməkan şah nəsihətlə dolu bir məktub göndərib, onu doğru yola dəvət etsə də, bu öyüd-nəsihətin ona bir faydası olmadı. Nəhayət, cənnətməkan şah, Müzəffər sultanın nəvəsi olan və nənəsi tərəfdən cənnətməkan şaha qohumluğu çatan Cəmşid xana qayğı göstərərək, Biye-pəs ölkəsini Xan Əhməddən alıb, ona verdi və Məsum bəyin oğlu Sədrəddin xanı talış tayfasından və digər tayfalardan olan bir sıra əmirlərlə birlikdə oraya göndərdi ki, Biye-pəsi Cəmşid xan üçün zəbt etsinlər.

Xan Əhməd tərəfindən Rəşt hakimi olan Kiya Rüstəm onun buyuruğu əsasında qoşun topladı, Sədrəddin xana və qüdrətli [qızılbaş] dəstələrinə qarşı döyüşə girdi və əsir düşdü. Xan Əhməd zərurət üzündən əlini Biye-pəsdən çəksə də, amma Biye-pəsə daxil olan Kuçesfəhan[625] bölgəsini öz ixtiyarında saxlayıb, oranı təhvil vermədi. Gilana gedib öz irsi mülkünə yiyələnmiş Cəmşid xan Kuçesfəhan üzərinə hərəkət etdi. Tərəflər arasında münaqişə və döyüş baş verdi. Cənnət bargahlı şah həzrətləri ağsaqqal, xeyirxah və sülhpərvər bir kişi olan Yolqulu bəy Zülqədəri elçi kimi Gilana göndərdi və ona Xan Əhmədin həmişəlik səadətinə səbəb ola biləcək belə bir fərman imzalayıb verdi: «Bütün bu qəbahətli və utanmaz hərəkətlərinə baxmayaraq, irsi mülkün olan Biye-piş Gilanının sənin ixtiyarında qalmağına icazə veririk. Biye-pəs vilayəti isə oğulluğum Cəmşid xana aiddir. Sən oraya müdaxilə etmə və bir-birinizlə ata və oğul kimi rəftar ediniz!».

Lakin Xan Əhməd yerinin möhkəmliyinə, oradakı meşə və cəngəlliklərin sıxlığına güvənərək, fəsadçıların hərzə-mərzə sözləri və yaramazlıq meşəsinin çaqqalları olan cahillərin və özbaşına fitnəkarların boş-boş danışıqları ilə yoldan çıxdı. O, sülh yaratmaq məqsədi ilə bir neçə adamla gəlmiş Yolqulu bəyin üstünə qəflətən öz əmirlərindən Şahmənsur adlı birisini qoşunla birlikdə göndərdi və beləliklə, onu (Yolqulu bəyi) yoldaşları olan qazilərlə bərabər qətlə yetirdilər. Bu qəbahətli əməl şahın qiyamət alovuna bənzər qəzəb odunu alışdırdı və o, [Xan Əhmədin] tənbeh edilməsini və cəzalandırılmasını qarşıya məqsəd qoydu. 975-ci (08.07.1567 -25.06.1568) ildə [Şah Təhmasib] böyük bir qəzəb və kinlə müzəffər əsgərlərə Gilana yürüş etməyi əmr etdi. Bir tərəfdən xoşbəxt şahzadə Sultan Mustafa mirzəni Əmir xan Türkman, Qoç[626] xəlifə Möhürdar, [Mustafa] mirzənin lələsi Nəzər sultan Ustaclu və s. əmirlərlə birlikdə, digər tərəfdən isə Qarabağ hakimi İbrahim sultan Ziyadoğlunu, Sədrəddin xanı, Bayandur xanı, Talış əmirlərini və o hüdudun piyada və süvarilərindən ibarət qoşunları, Gəskər hakimi

[625] Kuçesfəhan - İranda Gilan vilayətinin Rəşt şəhristanının beş nahiyəsindən birini təşkil edir və mərkəzi Kuçesfəhan qəsəbəsidir. Kuçesfəhan qəsəbəsi Rəşt şəhərindən 15 km. qərbdə yerləşir.
[626] S-297 əlyazmasının bu yerində (71 b) səhvən Nuh yazılmışdır.

Əmirə Sasani[627], Mirzə Kamran Kuhdəmini və Cəmşid xanın vəkili Əhməd sultan Biye-pəsini göndərdilər ki, Xan Əhmədin ölkəsini əhatə edib, onu ələ keçirsinlər. Həmçinin səltənətin dayağı («rüknüssəltənə») Məsum bəy Səfəvi də qüdrətli qoşunların bir hissəsi ilə birlikdə bu əməliyyata cəlb olundu.

Həmin vaxt Xan Əhməd Deyləman yaylağında[628] idi. Əmir xan və Nəzər sultan onun üstünə hərəkət etdilər. O, öz canının qorxusundan Lahican şəhərinə çəkildi və Lahican sipəhsaları Əmir Cahangiri və meşə sipəhsaları Şahmənsuru on min piyada və süvari ilə zəfər şüarlı əsgərlərin üzərinə göndərdi[629]. Gilan qoşunu dar bir dərədə gilanlıların dilində «binəbər» adlanan taxtabənd qurdu və həmin taxtabəndin arxasında onlar çoxlu sayda əlindən iş gələn bacarıqlı tüfəngçilər və kamandarlar yerləşdirdilər. Lakin Məsum bəy və ali şöhrətli əmirlər o məkana çatan kimi bir igidcəsinə həmlə ilə o alçaq güruhu pərən-pərən salıb qaçmağa məcbur etdilər. [Gilan əsgərlərinin] bir qismi oxların hədəfinə tuş gəldi, bir hissəsi isə qılınclara yem oldu. Digər tərəfdən, Sədrəddin xan, Bayandur xan, Talış və Gəskər əmirləri və Biye-pəs döyüşçüləri öz irəlilədikləri istiqamətdə Əmir Bahadırdan və onun tabeçilərindən ibarət olan başqa bir Gilan qoşunu onlarla qarşıdurmaya girsə də, onlar döyüşüb qalib gəldilər. Əmir Bahadır bir neçə nəfər [Biye-piş] əmirləri və sipəhsalarları birlikdə qətlə yetirildi. [Bu döyüşlərdən sonra] Xan Əhməd qəflət yuxusundan bir qədər ayıldı, acizlik və biçarəlik mövqeyində duraraq, öz sədri Mövlana Əbdürrəzzağı oyanlardan bir neçə nəfərlə birlikdə səadətin məskən saldığı dərgaha göndərib, öz üzgünlüyünü və peşmançılığını izhar etdi. Amma [şahın] qəzəb şöləsi alovlandığından, onun hiyləgərliyə bulaşmış mücərrəd söz-söhbətlərinə əhəmiyyət vermədi.

Xan Əhməd başılovlu və çaşqın bir vəziyyətdə Lahicandan Əşkur tərəfə qaçdı. Gilanın böyükləri o vilayətin ərazisində sığınmağa bir yer axtararaq, çaqqallar kimi meşədə sərgərdan oldular. Ali şöhrətli əmirlər Lahican şəhərinə gəlib, əyaləti işğal etdilər və oranın rəiyyətinin [öz tərəflərinə] cəlb olunması işinə başladılar. Aparılan təhqiqat nəticəsində Xan Əhmədin Əşkura getdiyi aydın olduqda səadətli qoşunun mübarizlərinin bir dəstəsi bədxahların ürəyindən də dar bir yol olan Tonakabon[630] yoluna çıxıb, irəliləməyə başladılar. Bu, elə bir yoldur

---

[627] S-129, v.97b; S-297, v.71b.

[628] Deyləman yaylağı - Gilanın Rəşt şəhərindən cənub-qərbdə yerləşir.

[629] S-297, v.71b-72a. Tehran çapında (s.112) «Lahican sipəhsalan» əvəzinə «Ləştə-nəşa (?) sipəhsalan» yazılmış, Şahmənsurun adı çəkilməmiş və Gilan ordusunun sayının 12 min olduğu göstərilmişdir: «Ləştə-nəşa sipəhsaları Əmir Cahan-giri piyada və süvarilərdən ibarət 12 minlik qoşunla birlikdə zəfər şüarlı əsgərlərə qarşı döyüşməyə göndərdi». S-297 nüsxəsində olan məlumat S-129 nüsxəsində (v.97b) təkrarlansa da, orada «meşə sipəhsaları Şahmənsur» əvəzinə yanlışlıqla «Şahmənsur Ləştə-nəşa» (?) yazılmışdır. Görünür, Biye-pəs əmirliyinin ordusu iki hissədən ibarət idi: Lahicanda olan şəhər qarnizonu (ona «Lahican sipəhsaları» komandanlıq edirdi) və şəhərdən kənardakı dağlıq-meşəlik zonada yerləşən qoşun dəstələri (onlara «meşə sipəhsaları» başçılıq edirdi).

[630] Tonakabon - İranın Mazandaran vilayətinin qərb hissəsində, Mazandaranın Gilanla həmsərhəd olan zonasında yerləşən tarixi mahal. Mazandaran ostanının indiki Şahsavar şəhristanının bütün ərazisi əvvəllər Tonakabon adlanırdı. Hal-hazırda isəTonakabon Şahsavar şəhristanının nahiyələrindən biridir.

ki, əgər oradan keçən süvari bir balaca doğru yoldan sapıb, hər hansısa bir tərəfə meyil etsə, şübhəsiz ki, adam və at yıxılıb, həlak olarlar. Səadətli qoşun məhz belə bir yoldan üsulluca keçib, Tonakabona çatdı və orada Xan Əhmədin bacısının əri olan Məlik Üveys Rüstəmdari ələ keçirildi. Xan Əhməd üç-dörd ay ərzində meşəli dağlarda və qalın cəngəlliklərdə, sərgərdanlığın rəzilliyi və qazilərin əlinə keçməyin qorxusu altında, hər gün bir yerdə və hər gecə bir məkanda qalmaqla narahatçılıq içində dolandı.

Elə ki qış gəlib çatdı, şaxtanın qoşunları hücum çəkdi, havanın üzü civəli oldu və qarın çoxluğundan dağla səhra bərabər oldu, cənnətməkan şah Allahqulu sultan Aycəkoğlu Ustaclunu və Mirzə Əli sultan Qacarı böyük qorçulardan və Bəhram kimi intiqamçı mübarizlərdən ibarət bir dəstə ilə Əşkura göndərdi. Onlar o vilayətin meşə və cəngəlliklərində düşərgə salıb, axtarışa başladılar və onun qaldığı məkanı soraq edib öyrəndilər. Bayram[631] xan Qaramanlunun oğlu Hüsam bəy cəngavər qorçulardan və igidlərdən ibarət iyirmi nəfərlə birlikdə sübhə yaxın Xan Əhmədin üstünə tökülüşdü. O, iztiraba düşüb, heç bir tərəfə qaça bilmədi və özünü gizlətmək məqsədi ilə bir çalaya atdı. Qazilər axtarış edərək, onu ələ keçirib, Allahqulu sultanın yanına apardılar, bu [sonuncu] da öz növbəsində onu Məsum bəy Səfəvinin hüzuruna apardı.

Uzun sözün qısası, Məsum bəy adlı-sanlı əmirlər və zəfər şüarlı qorçularla birlikdə Xan Əhmədi, onun ailəsini və yaxınlarını aləmin pənahı olan dərgaha gətirərək, onu darüssəltənə Qəzvində müzəffər şəhriyara təqdim etdi. O, xəcalət çəkə-çəkə və etdiklərindən peşman ola-ola acizlik və bicarəlik izhar etdi. Şahın mürvəti bunu lazım bildi ki, onun törətdiyi bütün bu üsyan və itaətsizliyə baxmayaraq, onu hakimlikdən kənarlaşdırsa da, qanını bağışlasın. Buna görə də onun halına rəhm edib, ona bir zərər vurmadı. [Xan Əhməd] Qəhqəhə qalasında məhbus edildi. Lahican əyalətinin hakimliyi Allahqulu sultan Aycəkoğluya həvalə olundu. Hüsam bəy Qaramanlu da əmirlik rütbəsinə layiq görüldü və Əşkur ona verildi. Oranın hər yerinə hakimlər təyin olundu və ədalət bərqərar edildi. Gilan hakimlərinin şəriətə zidd təyin etdikləri saysız-hesabsız vergilər əyalətin üzərindən götürüldü. Rəiyyət və yoxsullar qayğı ilə əhatə olundular. Beləliklə, hökmdarın ədalət büsatı o vilayətə yayıldı və Xan Əhməd bir müddət Qəhqəhə qalasında qalmalı oldu.

«O, ömrünü [o vaxta qədər] naz-nemət və səadət içərisində keçirdiyi üçün qalanın cəfasına tab gətirməyərək, bu rübaini nəzmə çəkib, [şahın] ordugahına göndərdi:

**Rübai**

«Pis fırlandı çərxi-dövran, ağlaram,

[631] S-129, v.98a; S-297, v.72a. Tehran çapında (s.l 12) Bayram əvəzinə Bəhram yazılmışdır.

Zamanın cövründən yaman ağlaram,
Bükülmüş qəddim ilə gecə-gündüz,
Qəhqəhədə olsam da, qan ağlaram».

Ulu ordugahın hazırcavablarından biri onun cavabında bu rübaini demişdir:

**Rübai**

«Sənin işlərin hamısı qəhqəhə olan zaman,
Sənin üzündən çəkirdi bütün səltənət ziyan.
Doyunca ağlamaqda ol sən bu gün
Qəhqəhədə, Bu Qəhqəhənin səbəbi o qəhqəhədir, inan!»

Cənnətməkan şah onun vəziyyətinin yaxşılaşdırılmasına meyil göstərib, onu Qəhqəhə qalasından çıxararaq, geniş bir yer olan və xoşagələn mənzillərə malik olan Şirazın İstəxr qalasına göndərdi ki, bir neçə xidmətkarlarla birgə orada qalsın. Orada o, halına layiq yeməklər, içkilər və geyimlərlə təmin olundu və bir neçə il həmin məkanda asudə dolanıb, həmişə vəzifə sahiblərinin xatirini qarışdıran dünyəvi məşğuliyyətlərdən kənarda durdu. Onun hər iki qalada həbsdə qalmağının ümumi müddəti on il sürdü. Nəhayət, İsgəndər şanlı nəvvab öz cülusunun başlanğıcında onu möhtərəm hərəmi Məryəm şöhrətli Məhdi-Ülya ilə qohumluq və əqrəbalıq əlaqəsinə malik olduğu üçün qaladan çıxararaq, yenidən öz irsi mülkünə hakim təyin etdi və onu bu [Səfəvi] xanədanı ilə qohum olmaq şərəfinə ucaltdı. Bu əhvalatın təfsilatı öz yerində bəyan qələmi ilə qeyd ediləcəkdir.

979-cu ildə (26.05.1571 - 13.05.1572) vaxtlarını məxfilik zaviyəsində keçirən Gilanın hərbçiləri və alçaqları öz rahatlıqlarının ənginliklərini təlatümə gətirib (öz rahatlıqlarını pozub), asayiş və sabitliyə zərbə vurdular. Belə ki, Allahqulu sultanın havanın istiliyi səbəbindən Lahicandan yaylağa getmiş olduğu vaxt bir dəstə alçaq baş qaldırıb, üsyan və tüğyan etdi. Onlar Seyid Hüseyn adlı birisinin Xan Əhmədin əcdadları ilə qohum olduğunu bildirib, onu öz hakimləri elan etdilər, Əmirə Dəmac adlı bir nəfəri isə sipəhsalar və qoşun başçısı edib, müxaliflik və yağılıq sədalarını ucaltdılar. Gələcəyi düşünməyən bir sıra fitnəkar səfehlər ətraf yerlərdən gəlib onların başına toplaşaraq, böyük bir dəstə ilə Lahicandakı qalada olan sufi (qızılbaş) camaatının üstünə yeridilər və onlarla döyüşməyə başladılar. O qalanın hasarı möhkəm olmadığından oranı ələ keçirib, sufi camaatını qətlə yetirdilər, hətta onların arvad-uşaqlarını da intiqam qılıncından keçirdilər. [Qiyamçılar] Allahqulu sultanın oğlu Bəktaş bəyin üstünə tökülüşdülər. O, özünü yüz təşviş və əziyyətlə oradan çıxarsa da, onun əksər adamları həlak şərbətini içdilər.

Əmirə Sasan Gəskərdən bir dəstə igidlə birlikdə yağıların üzərinə gəlib, onlarla vuruşdu. Lakin Dəmacın əsgərlərinin sayı iyirmi min nəfərdən çox

olduğuna görə, Əmirə [Sasan] böyük bir məğlubiyyətə uğrayaraq, çoxlu səylər və hədsiz əziyyətlər bahasına döyüş meydanından çıxıb getdi.

Bu xəbərin sorağı şahın nurlu şəxsiyyətinin hüzuruna gəlib çatdıqda ulu dərgahdan Qoç xəlifə Möhürdar və Əmir Qeyb bəy Ustaclu bir sıra əmirlər və sərdarlarla birgə onların dəf olunmasına təyin edildilər. Həmçinin ustaclu və qəriblü tayfalarından olan üç yüz nəfər qorçu da bu əməliyyata cəlb olundu və onların hamısı birlikdə məqsədə doğru yollandılar. Yürüş zamanı bir gün qorçular arasında gedən söhbət əsnasında şücaət və igidlikdən söz düşdü. Bunun nəticəsində döyüşkən cavanlardan və savaş meydanının mübarizlərindən ibarət yüz otuz nəfər [qorçu] əmirlərin icazəsi olmadan ilk olaraq o vilayətə qədəm qoydular. Onlar Lahicanın bir mənzilliyindəki Kuke və Keym[632] məntəqələrinə çatdıqda ağıldan kasad və nadan olan giləklər qorçuların gəlişindən agah olub, elə zənn etdilər ki, [qorçular] az olduqlarından onları əsir tuta bilərlər və bu da qızılbaşlar arasında xof və vahiməyə səbəb olar, [qızılbaşların] qalan hissəsi bu tərəfə doğru irəliləməyə cürət etməz. Onlar bu gümanla azsaylı [qorçu] dəstəsini qarşılamaq üçün hərəkətə keçdilər.

Böyük qorçular «neçə dəfə olub ki, azsaylı dəstə çoxsaylı dəstəyə qalib gəlib» [ayəsinə][633] güvənərək, Allahın izni ilə mərdlik göstərib, həmin yaramazlar kütləsinə həmlə etdilər. Gilan ordusu bir-birinin ardınca dəstə-dəstə gəlib, vuruşma yerinə çatdılar və döyüş atəşi alovlandı. Qorçular gilanlıların çoxluğundan qətiyyən çəkinməyib, bir-birləri ilə arxa-arxaya duraraq, elə hərb etdilər ki, onun keyfiyyəti hələ də dillərdədir və o bədbəxtlərdən (gilanlılardan) bir çoxlarını qırıb yerə tökdülər. Bu əsnada ziyankar qoşunun sipəhsaları və sərdarı Əmirə Dəmaca bir tüfəng gülləsi dəydi və o, öz həyat atından yıxılıb, ölüm torpağına düşdü. O başdanxarabın öldürülməsi ilə alçaqlar kütləsinə qorxu və hürkü qalib gəldi və onlar vahimə üzündən məğlub oldular. Gilan qoşunundan min nəfərdən çox adam qətlə yetirildi, qılıncdan qurtulanlar isə bəxtsizlik diyarında pərakəndə oldular.

Bahadırlar bolluca qənimət ələ keçirib, igidcəsinə Lahicana getdilər. Taleyin gücünün köməkliyi ilə baş vermiş bu qəribə hadisə səbəbindən yenidən şahın böyük qorçularının şücaət və qəhrəmanlığının avazı ətraflara və ucqarlara yayılaraq, yüksək və aşağı təbəqələrdən olan insanların dillərinə düşdü. Böyük əmirlər camaatın nəzərində təqsirkar bilinib, məzəmmət və danlaq hədəfinə çevrildilər. Allahqulu sultan Gilan əyalətinin hakimi vəzifəsindən azad olundu. Həmin vilayətin hakimliyi cavanbəxt şahzadə İmamqulu mirzənin ləләsi Pirə Məhəmməd xan Ustacluya tapşırıldı və o, şahzadə ilə birlikdə oraya yollanaraq, cənnətməkan həzrətin həyatda qaldığı müddətdə o vilayətdə hakimlik etdi.

Allahqulu sultan bir sıra yaxınlarının və oğlu Bəktaş bəyin adamlarının öldürülməsinə baxmayaraq, bu hadisənin onun qəfləti və qüruru üzündən baş verməsinə görə mürşidi-kamilin nəzərində etimaddan düşdü. Belə ki, saf etiqadlı

[632] S-297 nüsxəsində (v.73a) Kamə və Keym yazılmışdır.
[633] “Qurani-Kərim”, “Bəqərə” surəsi, 249-cu ayə.

sufilər onu dövlətxananın qapısından içəri buraxmadılar. Lakin o, öz evinə də getməyib, üç ay ərzində günahkarların qaydasınca şaxtanın və qışın şiddətində dövlətxananın qapısı ağzında qar və yağışın altında oturaraq, təqsir və günahlarının əfv edilməsini xahiş etdi. Nəhayət, mübarək ramazan ayı (17.01. - 15.02.1572) gəlib çatdıqda cənnətməkan şah həzrətləri seyidlərin və din alimlərinin xahişi ilə onun günahlarından keçdi və ona rüxsət verdi ki, öz mənzilinə getsin. Bayram günü [Allahqulu sultan] sufilik ədəb-ərkanı ilə əşrəfə səcdə etmək şərəfinə nail oldu. Amma hökmdarın mübarək xatiri ona qarşı incikliyə bürünmüşdü və onun hökmdarın yanında heç bir hörməti yox idi. [Allahqulu sultan] o həzrətin (Şah Təhmasibin) vəfatından sonra təkəlülər tərəfindən qətlə yetirilmişdir.

O həzrətin hakimiyyəti zamanında məmləkətdə baş vermiş digər hadisələr sırasında istər kürdlərin və lurların arasından çıxmış, istərsə də Talış və Rüstəmdardan baş qaldırmış asilərin və qiyamçıların tənbeh olunub cəzalandırılmasını və müxtəlif yerlərdə baş vermiş iğtişaşların qüdrətli dövlətin mənsublarının gördükləri tədbirlərin keyfiyyəti və qılıncların şöləsi ilə yatırılmasını misal göstərmək olar. Mətləbi çox da uzatmamaq üçün bunlar barədə yazmağı lazım bilmirik. Lakin burada o cümlədən olan, nankorluq və qiyam edərək, axırda öz əməllərinin cəzasına çatan bir neçə nəfər haqqında yazılacaqdır ki, xəyanətkarlar üçün böyük bir ibrət olsun və bu dövlətin duz-çörəyi ilə bəslənən heç bir kəs nankorluğa cürət etməsin. Çünki Əli nəsli ilə düşmənilik edən hər bir kəs məhv olar.

## CƏNNƏTMƏKAN ŞAHIN ZAMANINDA NANKOR QİYAMÇILARIN BAŞ QALDIRMASI VƏ ONLARIN CƏZALANDIRILMASI HAQQINDA

Cənnətməkan şah zamanındakı xəyanətkarların və nankorların başında haqq tanımayan Əlqas gəlir. Onun əhvalatının şərhi Sultan Süleymanın yürüşləri zamanı baş vermiş hadisələrin içində qələmə alınmışdır. Digər [xəyanətkar] Müzəffər sultan Gilcanidir. [Onun qiyamı haqqında] Gilanın fəthi [fəslində] yazılmışdır. Digər birisi Məhəmməd Saleh Bitikçidir ki, Astarabad hadisələri daxilində qeyd olunmuşdur və burada təkrarlanmasına ehtiyac yoxdur. Eləcə də Zülfüqar Türkmanın Bağdadda törətdiyi və haqqında yuxarıda bəhs olunmuş hadisə də bu qəbildəndir.

Digər birisi Astara hakimi Əmirə Qubad Talışdır. O, həmin vilayətin hakimi vəzifəsinə yüksəlməsinə baxmayaraq, başını itaətkarlıq yaxasından kənara çıxardı, üsyan törətməyə və qiyam qaldırmağa cürət etdi. [Şahın əmri ilə] 946-ci il aylarında (19.05.1539-07.05.1540) möhürdar Şahqulu xəlifə Zülqədər aslan ovlayıcı qazilərdən ibarət bir dəstə ilə [Əmirə Qubadı] tənbeh etməyə və cəzalandırmağa göndərildi. Həmçinin Süleyman bəy Topçubaşı da Ərdəbil mütəvəllisi Mir Əşrəflə birgə bir dəstə mülazimlə o tərəfə getməyə təyin olundular. Onlar [Şahqulu] xəlifənin gəlişindən öncə oraya çatdılar. Əmirə Qubad öz

ağılsızlığı və axmaqlığı üzündən meşələrin və cəngəlliklərin keçilməzliyinə ümid bağlayıb, qalibiyyətli qoşuna qarşı döyüşmək əzmi ilə öz süvariləri və piyadaları ilə birlikdə irəli gəldi. [İki qoşun] Ərcüvan mövqeyində üz-üzə gəldilər. Böyük bir vuruşma baş verdi. Həmin gün qazilər, xüsusən də Süleyman bəy Topçubaşı igidliklər göstərdilər. Axırda [Əmirə Qubad] vuruşmanı davam etdirə bilməyərək, meşə və cəngəllik tərəfə qaçdı və bəxtsizlik diyarının avarasına çevrildi. Qazilər divə bənzər talışlardan təxminən səkkiz yüz nəfəri qətlə yetirdilər və onların başlarını ali taxtın ətəyinə göndərdilər. O vilayətin hakimi vəzifəsi sədaqətli sufilərdən olan Bayandur xana verildi və indiyə qədər də o vilayət onun xələflərinə məxsusdur.

Digər birisi Xoca Məlik Xəvafinin oğlu Xoca Kələndır. O, cənnətməkan şah tərəfindən tərbiyə edilmiş və bu [Səfəvi] sülaləsinin neməti ilə bəslənmişdi. Lakin o, şeytanların onu çaşdırması nəticəsində doğru yoldan azıb, Xəvafin ən möhkəm qalası olan Əstar qalasını zəbt edərək, üsyan və tüğyan bayrağını qaldırdı. 944-cü ildə (10.06.1537-29.05.1538) cənnətməkan şah zülqədər [tayfasının] qazilərini, Kirman hakimi Şahqulu sultan Əfşarı və Əli sultan Tatıoğlunu onu dəf etməyə təyin etdi. [Xoca Kəlan] qalanı gücləndirib, müdafiəyə hazırlıq gördü. Böyük əmirlər ona nəsihət vermək üçün Ustad Şeyxi Topçunu göndərdilər ki, bəlkə, o, sözə baxıb, özbaşınalığı tərk etsin və öz həddini bilsin. Lakin o, cahillik edərək, Ustad Şeyxini oxla vurub həlak etdi. Əmirlər qalanı mühasirə etdilər. Üç ay müddətində döyüş və vuruş baş verdi. Amma qala fəth olunmadı. Axırda məhz asimanı və ulduzları yaradan [Allahın] köməyi ilə o cür mətanətə və dəyanətə malik qala elə bir tərzdə ələ keçirildi ki, bəsirət sahiblərinin gözləri bərələ qaldı. Qazilər Xoca [Kəlan] adlanan o qiyamçını qaladan çıxarıb, aləmin pənahı olan dərgaha göndərdilər. Onu Təbrizin Nəsriyyə minarəsində xayasından asdılar və o cür can verib, cəzasına çatdı.

Digər birisi Qazaq Təkəlüdür ki, öz ağılsızlığı və həddini aşması ucbatından ağzıgöyçəklərin sözlərinə aldanıb, pis əməllər törətdi və özünü məhv etdi. O, öz atası Məhəmməd xan Şərəfəddinoğlunun göstərdiyi sədaqətli xidmət və dövlətsevərlik səbəbindən atasının ölümündən sonra onun yerinə darüssəltənə Heratın bəylərbəyisi və kama çatmış şahzadə Sultan Məhəmməd mirzənin lələsi vəzifəsinə yüksəldildi. Lakin o, zülm və sitəm etməyə meyilləndi və rəiyyətin malını-mülkünü qəsb etməyə başladı. Get-gedə mal-dövlətinin bolluğuna və malik olduğu şahanə mülkiyyətə arxalanaraq, ayağını itaətkarlıq yolundan kənara qoydu və müstəqillik xəyalı ilə öz ətrafına çoxlu məiyyət və qoşun topladı. Onun üsyan, tüğyan və zülm etməsi xəbəri əşrəfin nurlu qəlbinə aydın olduqda ali əmr yazıldı ki, Əli sultan Özbəyin zəbt etdiyi Xəbuşan qalasını fəth etmək və bəzi digər işləri həyata keçirmək üçün Əmir xan Mosullu, Vəli xəlifə Şamlu, Nəzər sultan Ustaclu, Sədrəddin xan, Şahqulu sultan Əfşar, Əmir Qeyb sultan və başqaları kimi bəzi İraq əmirləri ilə Xorasana göndərilmiş Məsum bəy Səfəvi Sultan İbrahim mirzə və onun

qardaşı Bədiüzzaman mirzə ilə birlikdə Herata getsin və onun qiyamını yatırsın. Məsum bəy Səfəvi hökmdarın göstərişinə uyğun olaraq, o tərəfə yollandı.

Bu əsnada Qazağın qardaşları Mustafa bəy və Müseyib bəy ondan üz döndərərək, Quryanda olan Vəli xəlifə Rumlunun yanına getdilər. Qazaq digər bir qardaşı Hüseynqulunu və oğlu Cəfər bəyi iki-üç min nəfərlə onların üstünə göndərdi. Elə ki bu xəbər Məsum bəyə çatdı, o ildırım və külək sürəti ilə hərəkətə gəldi. Bir dəstə ilə birlikdə ordunun mənqalayı olan Vəli xəlifə Şamlu hamıdan daha tez çaparaq Quryana yetişdi. Heratdan da Quryana kömək gəldi və Quryanda böyük bir döyüş baş verdi. Təkəlülər möhkəm dayanmışdılar. Lakin, elə ki Sultan İbrahim mirzənin, Məsum bəyin və əmirlərin qoşununun qaraltısı göründü, təkəlü qoşununa müqayisəyəgəlməz bir qorxu yol tapdı və onlar məğlub olub, qaçmağa başladılar. O tayfadan min səkkiz yüz nəfər döyüşdə qətlə yetirildi. Qılıncdan qurtulanlar özlərini [Herat] şəhərinə saldılar. Əmirlər onları təqib edərək, şəhərə üz tutdular. Qoşununun məğlubiyyəti və əmirlərin şəhərə yaxınlaşması xəbəri Qazağa çatdı. O istədi ki, son bir cəhd etsin. Lakin müyəssər olmadı. Təkəlü qoşununun içinə elə bir pərakəndəlik düşdü ki, [Qazağın] oğlu Cəfər bəy öz atasından ayrılıb, Kabil və Hindistan tərəfə getdi. Naçar qalan [Qazaq] kama çatmış şahzadə [Sultan Məhəmməd mirzəni] və onun oğlu Sultan Həsən mirzəni götürüb, müdafiə olunmaq üçün İxtiyarəddin qalasına sığındı. Əmirlər səhərə daxil oldular. Məsum bəy qalanın yanına gedib, Qazaq Təkəlünü xeyli danladı və şahzadələri ondan alıb [qaladan] bayıra çıxarmağa nail oldu. Növbəti gün istisna[634] mərəzinə və xəstəliyinə malik Qazaq [qaladan] bayıra çıxdı. Həmin bir neçə gündə elə o xəstəlikdən vəfat etdi. O, öz rahatlığının qədrini bilmədi və öz nankorluğunun cəzasına çatdı.

Həmçinin bu qəbildən olan bir çox digər hadisələr də baş vermiş və nankorluğa, üsyankarlığa cürət etmiş hər bir kəs öz əməlinin cəzasına çatmışdır. Lakin bunların hamısının qələmə alınması sözün uzanmasına səbəb olacaqdır[635]. Çünki bunların xırdalıqlarının şərh olunması, əsas məqsədimizi təşkil edən Allahın kölgəsi olan əla-həzrət şahın əbədi hakimiyyəti zamanının hadisələrinin yazılması məramına uyğun gəlmir. Buna görə də [Şah Təhmasib dövrünün] digər hadisələri, xüsusiyyətləri və onların təfərrüatı üçün Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» kitabına baxa bilərsiniz. İndi isə bir neçə cahan padşahının elçilərinin səadətin məskən saldığı dərgaha gəlib-getməsindən bəhs edən fəsil qələmə alınacaqdır.

---

[634] İstisqa – bədən boşluqlarına su toplanma xəstəliyi, sulu şiş.

[635] S-129, v.100a-101b. Qazaq Təkəlü 964 / 1556-57-ci ildə atası Məhəmməd xan Şərəfəddinoğlunun ölümündən sonra Herat hakimi olmuş, 972 / 1564-65-ci ildə qiyam etmiş, vəzifədən kənarlaşdırılıb həbs olunmuş və vəfat etmişdir (F.Sümer. Safevi devletinin kuruluşu, s.91-92).

## ƏTRAF HÖKMDARLARIN ELÇİLƏRİNİN MƏLƏKLƏRİN TƏVAF ETDİKLƏRİ DƏRGAHA GƏLMƏLƏRİ HAQQINDA SÖHBƏT

Elə ki yüksək məqama malik cənnət məskənli şah həzrətləri hökmranlığın zərurətindən irəli gələn çətinliklərdən və dünya işlərinə intizam vermək kimi böyük bir məşğuliyyətdən rahatlıq tapdı, ondan sonra iyirmi il müddətində darüssəltənə Qəzvində əyləşib, heç bir tərəfə yollanmadı. Onun xosrovani taxtının dəbdəbəsinin mövcudluğundan hökmdarlıq döşəyinin və xoşbəxt Kəyan kürsüsünün zinətləndiyi həmin müddət ərzində günbəgün onun dövlətinin bayrağı asimana ucalırdı, onun səadət zirvəsinin quşu yüksəklərə uçurdu və qürurlu padşahlar yaxşı nitq qabiliyyətinə malik elçiləri onun səltənət dərgahına göndərib, layiqli töhfələr, hədiyyələr və arada bağlantı yaradan təbərrüklər yollamaqla o həzrətlə aralarındakı maddi münasibəti və mənəvi əlaqələri möhkəmləndirirdilər.

O həzrətin şərəfli hüzuruna dəfələrlə elçi göndərmiş cahan sultanları və hökmü keçən padşahlar arasında ilk növbədə zəmanə qeysərlərinin sərvəri və Osmanlı padşahlarının ən böyüyü olan Rum xondgarı Sultan Süleymanın adını çəkmək lazımdır. O iki iqbal sahibi (Şah Təhmasib və Sultan Süleyman) arasında neçə-neçə illər ərzində davam edən müharibə və qırğından sonra və hər iki tərəfdən hücumlar edilib döyüşlər və vuruşlar baş verdikdən sonra [Osmanlı] vəziri-əzəmi Məhəmməd paşa və Osmanlı xanədanının etimadlı şəxsləri qüdrətli [Səfəvi] dövlətinin ərkanına sülh barəsində məktublar yazıb, ali taxtın ətəklərinə adam göndərdilər. Buna görə də bu tərəfdən (Səfəvi şahı tərəfdən) Mir Şəms Vəlixani [Osmanlı sarayına] elçiliyə getdi. Lakin Sultan Süleyman ona dedi:

- Osmanlı dövləti yaranandan ta indiyə qədər həmişə başqa ölkələrin sultanları bizim dərgahımıza elçilər, töhfələr və hədiyyələr göndərmişlər. Biz isə heç bir sultana elçi və töhfə göndərməmişik və bu, Osmanlı sülaləsinin qanunu çərçivəsinə daxil deyildir. Mən vəzirlərin adam göndərməsindən və onların məktublarından xəbərdar deyiləm.

Nəhayət, iş elə gətirdi ki, [Sultan Süleymanın] yaxın adamlarından olan Sinan bəy yuxarıda qeyd olunan tərzdə Qanlı-çəməndə[636] [Səfəvilərə] əsir düşüb, [daha sonra] azad edildi və bununla da tərəflər arasında sülh bağlandı[637]. Bundan sonra Sultan Bayəzidin [Səfəvi dövlətinə] gəlişi baş verdi. Sultan Süleyman Sinan bəyi elçi sifəti ilə o həzrətin (Şah Təhmasibin) hüzuruna göndərdi. O, 966-cı ildə (14.10.1558 - 02.10.1559) darüssəltənə Qəzvində büsatı (şahın ayaqları altına sərilmiş xalçanı) öpmək səadətinə nail olub, [Sultan Süleymanın şaha göndərdiyi] məktubu oxudu və dostluq və məhəbbət izhar etdi. Söhbət əsnasında cənnətməkan şah buyurdu:

[636] Qanlı-çəmən - Türkiyənin şimal-şərqində, Qarsın Soğanlı dağlarının qərb tərəfində yerləşir.
[637] Yuxarıda qeyd olunduğu kimi, bu sülh müqaviləsi 29 may 1555-ci ildə Türkiyənin Amasya şəhərində bağlanmışdır.

- Hansısa bir yerə elçi göndərmək Osmanlı sülaləsinin qanunu çərçivəsinə daxil deyildi. İndi nə oldu ki, həzrət xondgar qanuna xilaf çıxıb, sənin kimi möhtərəm bir şəxsi elçiliyə göndərdi?

Sinan bəy məqbul bir cavab verərək və çox xoşagəlimli bir nöqtəyə toxunaraq bildirdi:

-Yadlara elçi göndərmək qanuna xilafdır. Lakin indi ki, aramızda uzlaşma və dostluq meydana gəlmiş, uyuşmazlıq ittihadla əvəz olunmuş və yadlıq aradan götürülmüşdür, bu halda dostların bir-birinin yanına gəlib-getməsi qayda və qanuna xilaf deyildir.

Cənnətməkan şah ona «əhsən» dedi. Bu mövzunu belə tərənnüm etmişlər:

**Beyt**

«Göndəriləndə varsa qabiliyyət.
Onu göndərən də müdrikdir əlbət.»

Sinan bəyin getməsindən sonra Mərəş hakimi Əli paşa və xondgarın çaşnigirbaşısı Həsən ağa üç yüz nəfərlik elçi heyəti ilə gəldi. Mülazimləri və xidmətkarları ilə birlikdə onların ümumi sayı yeddi yüz altmış nəfərə[638] çatırdı. Elçiliyə gəldiklərinin ilk günündə Səadətabad bağında büsatı öpmək səadəti onlara nəsib oldu. Onlar xondgarın başdan-başa öz xətti ilə yazmış olduğu dostcasına məktubu nurlu hökmdarın nəzər-diqqətinə çatdırdılar. Ertəsi gün onlar mübarək dövlətxanada qəbul edilmək bəxtəvərliyinə qovuşub, özlərinə münasibətdə iltifat gördülər və daş-qaşla bəzədilmiş xəncər və qılınc kəmərlərindən, Firəngdə və digər diyarlarda istehsal olunmuş qumaşlardan ibarət töhfə və hədiyyələri gətirib mübarək dövlətxananın yüksək dirəkli Çehelsütun eyvanında şahın qarşısına qoydular. O həzrət də öz növbəsində qeyd olunan elçilərə onların tutduqları mövqeyə münasib gələn bolluca ənamlar və iftixar xələtləri təqdim edib, onları yola saldı.

969-cu ildə (11.09.1561 - 30.08.1562) Osmanlı xanədanının böyüklərindən sayılan, yüksək təfəkkür və zəka sahibi, dünya sakinlərinin asayişini düşünən və aqil bir kişi olan Xosrov paşa xondgarın qapıçıbaşısı[639] Əli ağa ilə birlikdə, Sultan Bayəzidin əhvalatından bəhs olunarkən qeyd edildiyi tərzdə, dostluq üslubunda təvazökarcasına yazılmış bir sədaqət məktubu gətirdilər. Onların ardınca xondgarın etibarlı adamlarından olan İlyas bəy adlı birisi fələyin məhvəri olan dərgaha gəlib, Rumdan gətirdiyi qeysər hədiyyələrini və ərməğanlarını Əcəmin şəhriyarı olan və Kəsra və Cəmşid mülkündə hökmranlıq edən [Şah Təhmasibə] təqdim etdi. Hədiyyələr arasında hər biri misilsizlikdən dəm vuran, yəhərləri daş-qaşla və

[638] S-297 nüsxəsində (74b) 700 nəfər yazılmışdır.
[639] Qapıçıbaşı - saray qapıçılarının başçısı.

qızılla bəzədilmiş, çulları isə Rum zərbaftasından toxunmuş qırx baş[640] Şam və ərəb cinsli bədöv atlar və əlli min tümən İraq şahisinə bərabər olan beş yüz min ədəd əşrəfi və flori[641] məbləğində nəfis qumaşlar və mallar vardı. Hökmdar gözəl xüsusiyyətlərə malik olduğu üçün o hədiyyələrin hamısını möhtərəm şahzadələrdən, dərgah əmirlərindən, məmləkətin sərhədlərinin hakimlərindən, qorçulardan və qızılbaş tayfalarının əyanlarından ibarət insan təbəqələrinə hər birinin dərəcələrindən asılı olaraq paylayıb, böyük özbək sultanlarından da Bəlx hakimi Pir Məhəmməd xan, Buxara padşahı Abdulla xan, Səmərqənd valisi Sultan Əbu-Səid xan, Urgənc sultanları olan[642] Əbülməhəmməd xan və Hacim xan üçün Rum sultanının töhfələrindən hissə və paylar göndərdi.

Sultan Süleymanın ölümündən sonra oğlu Sultan Səlim qeysər mülkünün malikinə və İsgəndər taxt-tacının sahibinə çevrildi[643]. 975-ci ildə (08.07.1567 - 25.06.1568) onun Məhəmməd xan adlı elçisi tamam şövkət və həşəmətlə darüssəltənə Qəzvinə gələrək, [Sultan Səlimin] ata-oğul münasibəti üslubunda yazılmış və dostcasına diləklərin yer aldığı ənbər qoxulu məktubunu gətirib, sülh müqaviləsinin qaydalarına riayət olunmasını və ata-oğul münasibətlərinin təməllərinin möhkəmləndirilməsini tam təkid etdi.

976-cı ildə (26.06.1568 - 15.06.1569) həcc ziyarətinə gedən və kilüssəltənə Məsum bəy Səfəvi həcc yolunda bir sıra yoldaşları və oğlu Xanmirzə ilə birlikdə öldürülüb, şəhidlik dərəcəsinə çatdı. Rumilər bu yaramaz hərəkətin qəti surətdə bədəvi ərəblər tərəfindən törədildiyini bildirdilər. Sultan Səlim özünün Əli ağa adlı mötəbər elçisini həmin hadisəyə görə üzr istəmək və özünə məzəmmətdən bəraət qazandırmaq üçün əşrəfin xidmətinə göndərdi və o həzrət müsəlmanların halının rifahını, insanların əhvalının əmin-amanlığını və sabitliyini nəzərə alaraq, üzrxahlığı qəbul etdi.

Çingiz xanın nəslindən olan özbək padşahlarından 948-ci ildə (27.04.1541 - 16.04.1542) o vaxtlar Bəlxin və onun ətrafının hakimi olan və Xan-Çöhrə[644] adı ilə tanınan Gəskən Qara sultan və Übeyd xanın Buxara padşahı olan oğlu Əbdüləziz xan öz tərəflərindən Xudaybirdi[645] bahadırı elçi sifəti ilə xilafət taxtının ətəklərinə göndərib sədaqətlərini bildirmiş və sabiq düşmənçiliyi bir kənara qoyduqlarını

---

[640] S-297 nüsxəsinə (v.74b) görə, 43 baş.

[641] Əşrəfi - çəkisi 3,45 qr. olan qızıl sikkə. 1422-1438-ci illərdə Misirdə Məmlük sultanı Əşrəf Seyfəddin Bars bəy tərəfindən kəsilmiş və onun adı ilə adlandırılmışdır. Azərbaycan Səfəvilər dövlətində kəsilmiş müvafiq çəkili qızıl sikkələr də əşrəli adlanırdı. Flori (florin) - 1252-1533-cü illərdə İtaliyadakı Florensiya şəhər-dövlətinin 3,5 qr. çəkisində qızıl sikkəsi.

[642] S-129, v.102b; S-297, v.75a.

[643] II Səlim - 1566-1574-cü illərdə hakimiyyətdə olmuşdur.

[644] Digər versiyaya görə, Xan-Həmzə (S-297, v.75a).

[645] Cağatay türkcəsində olan Xudaybirdi şəxs adı Bakı nüsxələrində (S-129, v.103a; S-297, v.75a) Azərbaycan türkcəsinə uyğunlaşdırılaraq, Xudaverdi yazılıb. S-297 nüsxəsində (75a) Əbdüləziz xanın adı Abdulla xan kimi qeyd olunub.

izhar etmişdilər. Xarəzm və Urgənc sultanlarının elçiləri də əksər vaxtlarda [Səfəvi sarayına] gəlib-gedirdilər.

Həmçinin Dəkənin[646] böyük sultanları tərəfindən, ələlxüsus Əhmədnaqar[647] valisi Nizamşahdan, Heydəri-Kərrarın (Həzrət Əlinin) xanədanının məhəbbətini saxlayan, onları uca tutan və özünü pak imamların - hamısına Allahın salamı olsun - şiəsi sayan Qolkonda və Heydərabad[648] valisi Qütbşahdan və Bicapur[649] valisi Əli Adilşahdan yaxşı nitq qabiliyyətinə malik elçilər dəfələrlə gələrək səmimi dostluqlarını və onların məmləkətlərində o həzrətin şanlı və təmiz adına on iki imam xütbəsi oxunduğunu izhar etmiş, töhfə və hədiyyələr gətirmişdilər. [Şah Təhmasib də] onlara daş-qaşla bəzədilmiş taclardan, qızıl yəhərli atlardan, xəncər kəmərlərindən və s. ibarət xüsusi xələtlər pay vermişdi. 971-ci ildə (21.08.1563 - 08.08.1564) Bəkr və Sind valisi Sultan Mahmud xan özünün Əbülmükarim adlı xoş müjdəli elçisini uca məqamlı dərgaha yollayıb, əqidəsinin gözəlliyini, [Səfəvi sülaləsi ilə] irsi səmimiyyətini və keçmiş əlaqələri nəzərə çatdırmış və layiqli hədiyyələr göndərmişdi.

Firəngin yüksək şöhrətli sultanlarından Portuqal padşahı Dan Sinan 958-ci (1551) ildə bacarıqlı bir elçisini töhfə və hədiyyələrlə [Səfəvi sarayına] göndərib, səmimi dostluğunu izhar etmişdi[650]. Bu təbəqə (Portuqal padşahları) özgə dindən olmalarına baxmayaraq, şahın səltənət astanası ilə dostluq münasibətləri qurmaqda

---

[646] Dəkən (Dekan) - Hindistanda yarımada.

[647] Tehran nəşrinin (s.l 16) mətnində Əhmədnaqar şəhərinin adı yanlış olaraq «Əhmədabadi-Pətn» kimi yazılmışdır. Nizamşahlar sülaləsi 1490-1633-cü illərdə mərkəzi Bombeydən şərqdə yerləşən Əhmədnaqar şəhəri olmaqla Hindistanın Dəkən yarımadasının şimal-qərb hissəsində mövcud olan Əhmədnaqar sultanlığında hakimiyyət sürmüşlər (СИЭ, т. X, Москва, 1967, с.201). 952 / 1545-ci ildə Nizamşahların hökmdarı Bürhan (1508-1553) özünün Xurşah ibn Qubad əl-Hüseyni adlı elçisini Şah Təhmasibin sarayına göndənniş, həmin elçi 19 il müddətində Səfəvilər dövləti ərazisində qalmış və 971 / 1563-1564-cü ildə Hindistana qayıdaraq, 1565-ci ildə orada vəfat etmişdi. Xurşahın yeddi məqalədən ibarət «Tarix-i elçi-yi Nizamşah» («Nizamşah elçisinin tarixi») adlı salnaməsi Azərbaycanın və bir sıra digər Şərq ölkələrinin tarixini öyrənmək üçün dəyərli mənbədir (bax: O.A. Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с. 17-18).

[648] Heydərabad - Hindistanın Dəkən (Dekan) yarımadasında, Qodavari, Moncra və Krişna çayları arasında, Krişna çayına tökülən Musi çayının sahilində yerləşən və hal-hazırda Hindistanın Andhra-Pradeş ştatının inzibati mərkəzi olan bir şəhərdir. Bu şəhər 1512-1687-ci illərdə mövcud olmuş Qütbşahlar sülaləsi tərəfindən idarə olunan Qolkonda sultanlığının paytaxtı idi (СИЭ, т. VIII, Москва, 1965, с.334). Qütbşahlar sülaləsinin nümayəndələri Azərbaycanın Qaraqoyunlu sülaləsinin nəslindən idilər (bax: Ч. А. Стори. Персидская литература, ч. II, с.844).

[649] Bicapur sultanlığı - 1489-1686-cı illərdə Hindistanın Dəkən yaylasında mövcud olmuş dövlət. Paytaxtı Bicapur şəhəri idi və türk mənşəli Adilşahlar sülaləsi tərəfindən idarə olunurdu. Bicapur şəhəri Bombeydən 570 km. cənub-şərqdə, Heydərabaddan qərb tərəfdə, Krişna və Bhima çayları arasındakı ərazidə yerləşir (СИЭ, т. II, Москва, 1962, с.435; Jean-Paul Roux. Türklerin tarihi: Pasi-fik'ten Akdeniz'e 2000 yıl. İstanbul, 2007, s.353). Burada adı çəkilən I Əli Adilşah 1558-1580-ci illərdə hökmranlıq etmişdir.

[650] S-129 nüsxəsində (v.103a) bu Portuqal padşahının adı Dan Şosan kimi yazılmışdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu elçilik Portuqaliya kralı III Juan (1502-1557) tərəfindən göndərilmişdi.

sultanlar arasında iftixarlı və öyünülәsi bir yer tutmuşdurlar. Başqa bir dəfə 982-ci ildə (23.04.1574 - 11.04.1575) yanında xidmətkarlardan savayı əlli nəfər mülazimi olan böyük bir mötəbər [Portuqal] elçisi aradakı əlaqələrin təməlini və qarşılıqlı etimadın dəbdəbəsini möhkəmlətmək üçün səadət özüllü [Səfəvi] dövlətinin paytaxtına gələrək, Portuqal padşahı tərəfindən neçə-neçə nadir töhfələr gətirmişdi ki, islam diyarında onların tayı-bərabəri bəsirət və görmə qabiliyyətinə malik şəxslərin nəzərinə az-az dəymişdi[651]. Amma Cərun[652] xristianları tərəfdən müsəlman dininə müxalif bəzi əməllərin törədilməsi və oradakı məscidlərin fəaliyyətlərinin dayandırılması səbəbindən sözügedən elçilər [şahdan] iltifat görmədilər və o həzrətin həyatda olduğu müddət ərzində geri qayıtmaq icazəsi ala bilmədilər. Onlar yeri cənnət olan İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın cülusu zamanında rüxsət alıb, öz diyarlarına tələsdilər.[653]

## XAQANIN HAKİMİYYƏTİ ZAMANINDA ASİMANİ ZƏRURƏT ÜZÜNDƏN BAŞ VERMİŞ NADİR HADİSƏLƏR VƏ QƏRİBƏ ƏHVALATLAR

Cənnətməkan şahın zamanının qəribə hadisələrindən biri 956-cı (1549) ildə Xorasandakı Qain[654] vilayətinin beş kəndində böyük bir zəlzələnin baş verməsidir. Həmin zəlzələ vaxtı üç min[655] adam torpağın altında qalıb, yoxluğun gizlinliklərinə gömülmüşdü. O vilayətin Mövlana Baqi adlı bir qazısı[656] vardı ki, həm də münəccim idi və həmin beş kənddən birində yaşayırdı. O, yaşadığı kəndin əhalisinə xəbər vermişdi ki, fəzanın vəziyyətinə və ulduzların təsirinə əsasən, bu gecə böyük bir zəlzələ gözlənilir və zəruri ehtiyat budur ki, kənddən çıxıb, evlərdə qalmasınlar. Lakin kənd camaatı ona qulaq asmadı. Qazı öz adamları ilə kəndi tərk edib, gecə yarısınadək səhrada qaldı və orada onlara şaxta təsir etdi. Bunun nəticəsində o, öz oğullarının sözü ilə kəndə qayıtdı və elə həmin saat zəlzələ baş verdi. Qazı öz oğullarının və adamlarının hamısı ilə birlikdə yerin altında qaldı və onların başları torpaq niqabının altında örtülmüş oldu.

---

[651] Həmin elçilik gələn zaman Portuqaliya kralı Don Sebastyan (1557-1578) idi.
[652] Cərun - İranın cənubunda, Hürmüz boğazında yerləşən indiki Bəndər-Abbas liman-şəhərinin köhnə adı. Cərun limanı XVI əsrdən portuqalların işğalı altında olmuş və yalnız I Şah Abbasın zamanında, 1614-cü ilin sonunda Səfəvi ordusu portuqalları oradan qovub çıxarmışdır. Həmin vaxtdan etibarən Cərun limanı Şah Abbasın şərəfinə Bəndər-Abbas adlanmağa başlamışdır (R.M.Savory. wan under the Safavids, p.115)
[653] Portuqaliya Səfəvilərlə əlaqə quran yeganə Avropa ölkəsi deyildi. Azərbaycan Səfəvilər dövlətinin bir sıra digər Avropa dövlətləri ilə də münasibətləri vardı (bu barədə bax: Я.М.Махмудов. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западно-европейскими странами /вторая половина XV - начало XVII вв/. Баку, 1991).
[654] Qain - İranın şərq hissəsində, Cünabəd şəhərindən cənubda yerləşir.
[655] S-297 nüsxəsində (75b) 3 min əvəzinə sadəcə min yazılmışdır.
[656] Qazı – dini hüquq əsasında hökm çıxaran şəriət məhkəməsi hakimi.

Digər [qəribə hadisə] budur ki, 980-ci ildə (14.05.1572 -02.05.1573) asimandakı Şimal qütbü tərəfdə bir alov peyda oldu və [bu alov] doqquz ay ərzində davam etdi. Deyilənə görə, Ənuşirəvanın atası Qubadın müasiri olmuş Rum qeysərlərindən Ənəs adlı birisinin zamanında da Şimal qütbü tərəfdə belə bir alov meydana gəlmiş və[657] yeddi ay ərzində camaat onu görə bilmişdi. Daha sonra [həmin alov] kül olub aşağı tökülmüş və bunun ardınca Rumda böyük bir taun baş vermişdi. Buna görə də indi bu alovun da bədbəxtlik gətirəcəyini düşünürdülər və bunun şişirtmə olmadığı tezliklə aydın oldu. Çünki elə həmin il yenə də Şimal qütbü altında böyük bir fəlakət üz verdi. Əsgəri xan Tatar Rus məmləkətini fəth etmək istəyinə düşərək, oğlu Dövlət Gərayla birlikdə həmin vilayətə qoşun çəkdi. Məşhur Rus padşahı Knyaz İvan-i Uluğ[658] onunla döyüşməyə tələsdi. Tərəflər arasında hərb atəşi elə şöləlendi ki, hər iki tərəfdən bir neçə min adamın canı yandı və onların külünü fanilik küləyi göyə sovurdu. Ruslar hücum edib, tatar padşahzadəsi Dövlət Gərayı əsir tutdular. Əsgəri xan bir iş görə bilməyərək, məğlubiyyətb geri döndü[659]. Bu fəlakət və qırğın da həmçinin taunla eyni səbəbdən olub, şimal tərəfdə baş vermişdi.

Digər [qəribə hadisə] budur ki, Xorasandakı Qain vilayətində dövranın əcaib hadisələrindən də qəribə olan bir hadisə baş verdi. Göydən buğda dənəsinə oxşar dənələr yağdı və camaat onları toplayıb, çörək bişirdi.

Səadət aqibətli əyyamda baş vermiş başqa bir hadisə odur ki, 962-ci ildə (26.11.1554 - 15.11.1555) bəngdən[660] istifadə etmiş başıpozuq qələndərlərdən və qələndərə bənzər lotulardan ibarət bir dəstə Sultaniyyənin Surluq yaylağında cənnətməkan şahın nurlu nəzərləri qarşısına gəlib, əqidə libası və etiqad gözəlliyi pərdəsi altında özlərinin pis inanclarını zühura gətirərək, o həzrətin Mehdi olduğunu bildirdilər. O həzrət qəti dəlillər əsasında hər nə qədər onları bu pozğun

---

[657] S-129, v.103b; S-297, v.75b. İkinci nüsxədə «Ənuşirəvanın qardaşı Qubad» yazılmışdır. Halbuki Sasani hökmdarı I Qubad I Xosrov Ənuşirəvanın qardaşı deyil, atası olmuşdur (bax: Z.M.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, s.41). Burada Sasani şahı Qubadın müasiri olaraq adı çəkilən Rum qeysəri Ənəs m. 491-518-ci illərdə hökmranlıq etmiş Bizans imperatoru I Anastasidir.

[658] S-129, v.103b. Knyaz İvan-i Uluğ dedikdə Böyük Moskva knyazı və Rus çarı IV İvan Qrozni (1533-1584) nəzərdə tutulur. Buradakı «uluğ» sözü türkcə ulu, böyük mənasındadır. Tehran çapında (s. 117) və S-297 əlyazmasında (v.76a) İvan Qrozninin adı anlaşılmaz və yanlış tərzdə yazılmışdır.

[659] Burada söhbət 1572-ci ilin avqustunda, Moskvadan 60 km. cənubda yerləşən Molodi kəndi yaxınlığında Krım tatarlarının xanı I Dövlət Gəray xanın (1551-1577) ordusu ilə knyaz M.İ.Vorotinskinin komandanlıq etdiyi rus qoşunları arasında baş vermiş vuruşmadan gedir. I Dövlət Gəray xan o vaxtadək rus torpaqlarına bir neçə uğurlu hərbi səfər təşkil etmiş, 1571-ci ildə isə hətta Moskvanı tutub yandırmağa nail olmuşdu. Lakin Molodi vuruşması onun məğlubiyyəti ilə sona çatmış və o, ağır itkilər verərək, Krıma qayıtmağa məcbur olmuşdu (daha ətraflı bax: А.Р.Андреев. Неизвестное Бородино: Молодинская битва 1572 года. Москва, 1997). İsgəndər bəy Münşinin bu döyüş haqqındakı məlumatında bəzi yanlışlıqlar var. Birincisi, Dövlət Gərayın atasının adı Əsgəri xan deyil, Mübarək Gəray xan olmuş və o, 1517-ci ildə ölmüş, təbiidir ki, bu yürüşdə iştirak etməmişdi. İkincisi, Rus çarı İvan Qroznı bu döyüşə şəxsən qatılmamışdı. Üçüncüsü. Dövlət Gəray xan ruslara əsir düşməmiş, sağ-salamat Krıma dönmüşdü.

[660] Bəng - uyuşdurucu maddə.

əqidədən döndərmək istəsə də, onlar əhəmiyyət verməyib, mübaliğəni ifrat həddə çatdırdılar. Bu, ona gətirib çıxardı ki, dindar və şəriətpərvər padşah həmin pis etiqadlı güruhu cəzalandırmaq qərarına gəldi. Fərraşlar onların başlarını bir-bir toxmaqla döyəcləyərək, onları yoxluq diyarına göndərdilər. Bunlardan əlavə, digərləri də vardı ki, həmin yanlış kəlmələri dilə gətirib, o pozğun əqidədən dönmürdülər. Buna görə də bəngə aludə olmuş qələndərlərdən qırx nəfərə qədəri cəzalandırıldı.

Cənnətməkan şahın [hakimiyyəti] əyyamının axırlarında baş vermiş digər bir hadisə darüssəltənə Təbrizin alçaqlarının və əclaflarının cəzalandırılmasıdır. Bu hadisənin şərhi aşağıdakı kimidir. Çuxursəəd hakimi Şahqulu sultanın oğlu Allahqulu bəy Ustaclu Təbriz daruğası idi. Delcuyək[661] küçəsinin alçaq adamları onun mülazimini tutub, çoxlu azğınlıqlar törətdilər. Daruğa da o məhəllənin avaralarından və lotu-potularından birini tutub qətlə yetirdi. [Qətlə yetirilən şəxsin] əqrəbaları daruğanın rüxsəti olmadan onun cəsədini «siyasətgah»dan (edam məkanından) götürüb, əclaflar cəmiyyəti ilə birlikdə təmtəraqlı bir mərasim təşkil edərək, qəbiristanlığa aparıb dəfn etdilər. Daruğa bu hadisədən hirslənib istədi ki, avara və alçaqları tənbeh etmək üçün onun cəsədini məzardan çıxarıb, ibrət olsun deyə, dara çəkdirsin. Alçaq adamlar buna mane olmağa qalxıb, daruğaya qarşı çıxmağa cürət etdilər. Lakin daruğa öz fikrində israr etdi. Nəticədə, tərəflər arasında döyüş və vuruş baş verdi və əclaflar öz hərəkətlərində həddi aşıb, ifrat dərəcəsinə çatdılar. Belə ki, Allahqulu bəy əclafların atdıqları oxların və tüfənglərin qorxusundan böyük bir xiffətlə və rüsvayçılıqla özünü mənzilinə salıb, orada mühasirədə qaldı. Onun bir sıra mülazimləri və tabeçiləri yaralandılar və onlardan bir neçə nəfəri isə öldürüldü. Bu çaxnaşma və qovğa zamanı cahillik meyxanəsinin sərxoşları və axmaqların toplandığı qalmaqal evinin davaaxtaranları olan hər məhəllənin əclaflarının və hər küçənin lotu-potularının başlarına özbaşınalıq sevdası düşdü və onlar iğtişaş və fəsad törətməyə başladılar. Şəhər əhalisi arasında mövcud olan ikitirəlik yenidən baş qaldırdı və onlar bir-birlərinin qanına susamağa başladılar. Təbrizin Qeysəriyyə bazarında və Çaharbazarında alış-veriş işləri dayandırıldı, karvansarayların və dükanların qapıları bağlandı, insanların küçədə gediş-gəlişi kəsildi. Möhtərəm şəxslər, kətxudalar, ticarətçilər və dərvişlər əziyyətə düçar olub, yaramaz avaraların və alçaqların meydana gətirdikləri sabitsizlikdən cana doydular. O güruh (üsyançılar) tərəfindən bir çox qəbahətli əməllər törədildi, məmləkət xarabalığa doğru üz çevirdi.

Elə ki bu halın həqiqəti hökmdarın müqəddəs ərzinə çatdırıldı, o, rəiyyətin qətl və cəza hədəfinə çevrilməməsi üçün Baba Süleymanın aqil və bacarıqlı oğlu Yusif bəy Çavuşlunu daruğa təyin edib göndərdi ki, həmin camaatı doğru yola döndərib, o fitnənin atəşini nəzakət suyu və tədbir gözəlliyi ilə söndürsün. Yusif bəy həmin camaatla dil tapıb, düşmənləri bir-biri ilə barışdırdı. Hər məhəllənin

---

[661] Başqa mənbələrə əsasən: Dərcuyə.

kətxudaları zamin durub and içdilər ki, bundan sonra fəsad baş verməyəcəkdir. Bu minvalla bir-iki ay ərzində şəhərdə əmin-amanlıq hökm sürdü. Lakin daha sonra Pəhləvan Yari[662] adlı birisi Yusif bəyin iki nəfər mülazimini öldürüb, yenidən həngamənin yaranmasına bais oldu. Yenə də alçaqlar və əclaflar baş qaldırıb, fitnə və fəsad törətməyə başladılar. Yusif bəy [şaha] ərz etdi ki, bu iğtişaşın hərəkətverici qüvvəsi olan araqarışdıran camaatın sayı dörd yüz nəfərdən çox deyildir və əgər bunların cəzalandırılması təxirə salınarsa, onda bu, ümumi fəsadın baş qaldırmasına səbəb olacaqdır. Buna görə də Xəlifə Ənsarın oğlu Söhrab bəy [şah tərəfdən] Təbrizə getməyə və alçaqları dəf etməyə məmur edildi. Elə ki onun böyük dəstəsi şəhərə çatdı, Yusif bəy də öz adamları ilə birgə ona qoşuldu. Onlar əclafların axtarışına başladılar. Avaralar və alçaqlar vahiməyə düşüb gizləndilər. Zamin durmuş olan hər məhəllənin kətxudalarını tutub, onlardan həmin məhəllənin qiyamçılarını tələb etdilər. Əlacsız qalan kətxudalar o camaatı (üsyançıları) ələ keçirib, yoxluq diyarına göndərdilər. O təbəqənin (üsyançıların) adlı-sanlı cavanlarından qırx-əlli nəfərə qədərini ibrət olmaq üçün dar ağacından asdılar. Bu hadisə zamanı [ümumən] iki yüzdən çox adam öldürüldü və həmin iğtişaş və fəsad sakitləşdirildi[663].

Digər bir hadisə odur ki, 965-ci ildə (24.10.1557 - 13.10.1558) Qəzvinə böyük bir sel gəldi. Şəhərin Əhraz küçəsində iki minə qədər ev sel gəlməsi üzündən viran və xarab oldu, evlərinin su altında qalması və mənzillərinin bünövrəsini suyun yuyub aparması üzündən o məhəllənin sakinlərinə çoxlu zərər və ziyan dəydi.

Başqa bir hadisə isə budur ki, 981-ci ildə (03.05.1573 -22.04.1574) darülirşad Ərdəbildə taun epidemiyası yayıldı və otuz min nəfərə yaxın insan taun xəstəliyindən tələf oldu.

## BEHİŞT SAKİNİ OLAN CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN VƏFATININ VƏ HƏMİN VAXT TANRININ İRADƏSİ VƏ TƏQDİRİ İLƏ ÜZ VERMİŞ BÖYÜK BİR HADİSƏNİN HAQQINDA

Xəbərlərdən vaqif olan kimsələrin könüllərinə və bizdən öncəkilərin tərcümeyi-hallarını və əsərlərini mütaliə edənlərin ürəklərinə gizli qalmasın ki, Cəmşid məqamlı cənnətməkan həzrətin mübarək əhvalatının və o həzrətin səadət təməlli hakimiyyətinin zamanında baş vermiş hadisələrin icmalı zərif yazan bir qələmin köməyi ilə yazıya alındıqdan sonra, indi kədərli qələm o zəmanə

[662] Tehran çapında (s.l 18) Pəhləvan Bari yazılmışdır.

[663] Burada haqqında bəhs olunan Təbriz üsyanı 1571-1573-cü illərdə baş vermişdir. Bu üsyan haqqında daha ətraflı И.П.Петрушевский. Восстание ремесленников и городской бедноты в Тебризе в 1571-1573 гг. // ССИА, вып. I, Баку, 1949, с.214-224; S.M.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı, 1983, s.179-182; М.Х.Гейдаров. Социально-экономические отношения, с.143-145).

yeganəsinin «Ondan (Allahdan) başqa hər şey yox olmağa məhkumdur» ayəsinə[664] müvafiq gələn və hər bir cavan və qoca üçün zəruri olan qəm bəxşedici [ölüm] hadisəsinin şərhində göy əskiyə bürünüb, qara qələmdən da qara olan qanlı göz yaşı ilə bəyan səhifəsini qaralayacaqdır. Bu mövzunun təfsilatı belədir ki, calal sahibi olan Allahın bəyənilmişi [Şah Təhmasibin] vəfatından iki il öncə onun şərəfli səhhətinə birdən-birə ağır bir xəstəlik yoluxdu. Bu naxoşluğun çətinliyi və bu əziyyətin şiddəti iki ay sürdü. Xəstəlik əsnasında mərəz iki dəfə şiddətlənsə də, onu yüngülləşdirmək mümkün oldu və axırda Allah öz şəfaxanasından ona təcili bir şəfa qismət etdi.

[Şah Təhmasibin] xəstəliyi əyyamında böyük şahzadələr, əmirlər və dövlət ərkanı iki firqəyə bölündü və hər firqənin səltənət və padşahlıq məsələsi barədə öz xəyalı vardı. O həzrətin böyük oğlu olan İsgəndər şanlı nəvvab gözlərinin zəifliyi ucbatından neçə il idi ki, görməkdən xali və məhrum qaldığından, onu vəliəhdliyə, məmləkəti əldə saxlamağa və dikbaş qızılbaş tayfalarını idarə etməyə münasib hesab etmirdilər. İstər qoşundan, istərsə də rəiyyətdən olan xalqın və sadə camaatın əksəriyyəti yüksək şöhrətli atasının fərmanına uyğun olaraq illərdən bəri Qəhqəhə qalasında ixtiyarsız olan İsmayıl mirzənin tərəfdarı idi. Lakin onlar bu mənadan xəbərsiz idilər ki, bizi yaradanın qüdrəti yaradılmışların iradəsinin fövqündədir və Tanrının əziz tutduğu bir adamı heç kimsə xar edə bilməz. Onlar, həmçinin bilmirdilər ki, tezliklə xilafət və padşahlıq o həzrətə (Məhəmməd Xudabəndəyə) və onun nəslinə aid olacaqdır.

Nə isə, o vaxtlar dövlətin möhkəmliyinin dayağı sayılan və ulu orduda Məntəşa sultanın nəvəsi olan məşhur Murad xan Süfrəçibaşı, Həsən bəyin oğlu Hüseyn bəy Yüzbaşı, tir və kaman qorçusu Piri bəy Qoçulu, Məhəmməd bəy Qoyunçuoğlu Əmiraxurbaşı[665] və Allahqulu sultan Aycəkoğlu kimi mühüm şaxslərə malik ustaclu tayfası İsmayıl mirzədən ehtiyat edirdi. Onlar İsmayıl mirzədən sonra digər şahzadələrdən yaşca böyük, üstün təbiətli atasının qayğısı ilə əhatələnmiş və ali taxtın ətəklərində hazır olan adlı-sanlı şahzadə Sultan Heydər mirzəni səltənətə yüksəltmək üçün birləşmişdilər. Həmçinin atasının yerinə [Heydər] mirzənin lələsi təyin olunmuş vəkil Məsum bəyin oğlu Sədrəddin xan şeyxavənd tayfasının bütün əyanlar təbəqəsi və [Heydər] mirzənin anasının qohumu olan gürcü camaatı ilə birlikdə onlarla (ustaclu tayfası ilə) bu məsələdə ittifaq edib, bir-birləri ilə əhdü-peyman bağlamışdılar. Ali dərəcəli şahzadələrdən Sultan Mustafa mirzə ustacluların arasında böyümüşdü, onun lələliyi ustaclu əmirlərinə məxsus idi və qardaşları arasında ən çox o, Sultan Heydərə məhəbbət bəsləyir, səmimi-qəlbdən onun hakimiyyətə gəlməsinə razı olub, bu işin həyata keçməsinə səy göstərirdi. Bəhram mirzənin oğlu Sultan İbrahim mirzə cənnətməkan şahın kürəkəni olub, əbədi dövlətin hökumətində ümdə şəxs idi və o

[664] "Qurani-Kərim", "Qəsəs" surəsi, 88-ci ayə.
[665] Əmiraxurbaşı – şahın at tövləsinin rəisi, baş mehtər.

da öz halının firavanlığı üçün sözügedən şahzadəyə (Heydər mirzəyə) öz yoldaşlığını izhar etmişdi.

Digər tərəfdən Hüseynqulu xüləfa Rumlu, Əmiraslan sultan Əfşar və Heydər sultan Cabuq Türkman isə İsmayıl mirzəni hakimiyyətə gətirmək barədə ittifaq etmişdilər. Bütün əfşar, rumlu və türkman tayfaları bu məsələdə onlarla yekdil və dilbir idilər. Həmçinin ağlının və biliyinin çoxluğu baxımdan hakim sülaləyə mənsub qadınlar arasında tam üstün olan, atasının hüzurunda əziz və istəkli sayılan, rəy və məşvərət sahibi olan, tay-tuşlarının həsəd apardığı örpəkli şahzadə Pərixan xanım [şahzadə] analarının səltənət və padşahlıq iddiasında bulunan və faktiki olaraq [şahın] böyük oğlu və vəliəhdi sayılan Sultan Heydər mirzəyə olan kin-küdurətlərini nəzərə alaraq, onun vəliəhdliyinə razı olmadı və İsmayıl mirzə tərəfdarlarının uğur qazanması üçün səy göstərdi. Pərixan xanımın doğma qardaşı Sultan Süleyman mirzə, rumlu [tayfası] arasında yaşayan Sultan Mahmud mirzə, əfşar [tayfası] arasında olan Sultan Əhməd mirzə, Pərixan xanımın dayısı Şamxal sultan Çərkəz və [Pərixan xanımın] ana tərəfdən qohumları olan çərkəz camaatı da Sultan Heydər mirzəyə müxalif olduqlarını izhar etdilər. Onlar batinən İsmayıl mirzənin hakimiyyətə gəlməsi üçün ittifaq etsələr də, zahirən Sultan Heydər tərəfdarlarını xəyanət və məkrdə ittiham edirdilər və belə deyirdilər:

- Bu xanədanın sufilik və müridlik yoluna əsasən, mürşidi-kamil birdir və nə qədər ki, mürşidi-kamil həyatdadır, mürşidliyi və padşahlığı digər bir şəxsin adına yazmaq sədaqətsizlik əlamətidir. Şahın qaçmaz [ölüm] hadisəsindən sonra isə o kəs mürşid və padşah olmalıdır ki, şah öz vəsiyyətinin hökmü ilə onu özünün vəliəhdi və varisi təyin etmiş olsun. Əgər fərz etsək ki, o həzrət öz oğullarından heç birini vəliəhd təyin etmədən dünyasını dəyişərsə, onda sədaqətin və sufiliyin yoluna və qaydasına görə, böyük oğul vəliəhd olmalıdır[666]. Cənnətməkan şahın böyük oğlu olan İsgəndər şanlı nəvvab Sultan Məhəmməd mirzənin gözləri zəif olsa da, ondan sonra o həzrətin (Sultan Məhəmmədin) doğma qardaşı İsmayıl mirzə [şahın] böyük övladıdır və biz sufilik yolunda bundan savayı heç nə bilmirik.

Onlar özlərini «şahısevən» adlandıraraq, Sultan Heydər tərəfdarlarını vəfasızlıqda və xəyanətdə günahlandırıb ittiham etdilər, onlara «iki-birli»[667] adı qoydular və həmin təbəqəyə tənə vurmağa başladılar.

Bu səs-səda və söz-söhbət hər iki firqənin arasında yayıldı. Lakin ali taxtın ətəklərində olan adlı-sanlı böyük əmirlərin, qızılbaş əyanlarının və oymaqların ağsaqqallarının bir çoxu birinci təbəqənin (Heydər mirzə tərəfdarlarının) tərəfini tutdular və yenidən hökmdar sarayında hər iki firqənin arasında bir-birinə qarşı kobud sözlər işlədilməyə başlandı.

Nəhayət, bacarıqlı həkimlərin müalicəsi təqdirə müvafiq düşdü, cənnətməkan hökmdarın xəstəliyi sağalmağa üz qoydu və günbəgün onun sağaldığı hiss olundu. Pərixan xanımın anası öz qızının və qardaşlarının qızışdırması və

[666] S-129, v.105b-106a; S-297, v. 77b.

[667] Yəni ikidə bir öz qərarını dəyişən, səbatsız, vəfasız adamlar.

təhriki ilə bu əhvalatı hökmdarın şərəfli ərzinə çatdıraraq, Sultan Heydər mirzənin öz atasına münasibətdə xəyanət və vəfasızlıq etdiyini söyləyib, o həzrətin mübarək xatirini həmin şahzadədən döndərdi və İsmayıl mirzə tərəfdarlarını əsl sufi, sadiq və dövlətsevər insanlar kimi təqdim etdi. Beləliklə, şahın xəstə olduğu günlərdə izzətli hərəmxananın məhrəmləri hərəm pəncərəsinin arxasından yol tapıb, əşrəflə danışmaq şərəfinə nail olurdular. Həmçinin qızılbaş əyanlarından olan söhbət yasavulu Kor Şahəli Rumlu şahın hüzuruna gələrək, [Heydər mirzə tərəfdarlarının] əhvalatını xatirində qalan təfsilatı ilə [şaha] nişan verib, açıq-aşkar surətdə dedi:

- Münasib olan budur ki, indən belə hökmdar öz şərəfli zatını bu camaatın (Heydər mirzə tərəfdarlarının) hiyləsindən və məkrindən qorusun.

Bu minvalla adı çəkilən şahzadə (Heydər mirzə) və onun tərəfini saxlayanlar ulu orduda xəyanət və nifaq törətməkdə töhmətləndirildilər. Amma cənnətməkan şah hər iki tərəfin çürük qərəzlərini öz fəsahət nuru və ali fitrəti ilə aşkara çıxardı, könlünün aynası ilə onların niyyətlərini əks etdirdi və uzaqgörən zəkasının diktəsinə əməl edib, mübarək ağzını bu söz-söhbətə münasibət bildirmək üçün açmadı. Bəlkə, o, bununla həmin camaatı bu cür əhvalatları bəyan etməkdən daşındırmaq məqsədi güdürdü. Lakin, bununla yanaşı, qaradağlu tayfasının ağsaqqalı olan eşikağasıbaşı[668] Fərruxzad bəyin Sultan Heydər tərəfdarları sırasına aid olmasını, Qəhqəhə qalasının hakimi Xəlifə Ənsarın da qaradağlu oymağından olmasını və onun Fərruxzad bəyin qohumlarından olub onun sözündən çıxmamasını nəzərə alan hökmdarın işıqlı fikri Sultan Heydər tərəfdarlarının Xəlifə Ənsar vasitəsilə İsmayıl mirzəyə qarşı qəsd edə biləcəklərindən ehtiyatlanaraq, əfşar tayfasından olan on iki nəfər qorçuya tapşırdı ki, Qəhqəhəyə gedib, şahzadəni mühafizə etsinlər. Bu hadisə İsmayıl mirzə tərəfdarlarının qüvvətlənməsinə səbəb oldu.

Gürcü tayfasının əyanlarından olan Zal bəyin bacısı hökmdarın qadınlarından biri olub, yüksək mövqeli şahzadələrdən bir-ikisinin anası idi. Həmin bu Zal bəy Sultan Heydərin ən qatı tərəfdarlarından idi. O, həmişə hamamda cənnətməkan şaha xidmət göstərərdi. O həzrətin (Şah Təhmasibin) hamama təşrif aparacağının qərarlaşdırıldığı gün İsmayıl mirzə tərəfdarları toplaşıb, bəyan etdilər:

- Zal bəy xəyanətkarlar zümrəsindəndir. Dövlətsevər sufilər olan bizlərin ona etimadımız yoxdur və rəva bilmirik ki, tayı-bərabəri olmayan mürşidimiz və vəlinemətimiz zəifliyə və naxoşluğa düçar olmuş bir vaxtda o, (yəni Zal bəy) hamama gedib, ona xidmət göstərsin. Çünki biz onun xəyanət etməyəcəyinə əmin deyilik.

Gürcü, şeyxavənd və ustaclu tayfaları, Sultan Heydərin bütün tərəfdarları bu barədə söz-söhbətə başladılar. Gürcülər dedilər:

- Axı biz nə etmişik ki, bizi hökmdara xidmət göstərməkdən uzaqlaşdırırlar?

---

[668] Eşikağasıbaşı – sarayın baş təşrifat müdiri. Onun tabeçiliyində çoxsaylı saray xidmətləri (yasavullar, eşikağasılar, xacəsaraylar, qapıçılar, carçılar və s.) vardır.

Sözün qısası, cənnətməkan şahın hamama getdiyi gün Hüseynqulu[669] xüləfa Rumlu, Əmiraslan sultan və özlərini «şahısevən» adlandırmış digər şəxslər sufilərdən, rumlu tayfasından və başqa tayfalardan dörd-beş min nəfərlə Zal bəyə mane olmaq üçün əsləhə və yaraq qurşanıb, mübarək dövlətxananın qapısına cəmləşmişdilər. Eyni zamanda, gürcü, şeyxavənd və ustaclu camaatları və onların tərəfkeşlərindən də dörd-beş min nəfər toplaşıb, Zal bəyi himayə etmək üçün səy göstərirdilər və istəyirdilər ki, mükəmməl silahlanmış vəziyyətdə sarayın qapısına gəlsinlər. Əgər belə olsaydı, ümumi fitnə-fəsad və qırğın baş verə bilərdi. Tərəflərin bu vəziyyətdə olduğu axşam bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi) Hüseyn bəy Yüzbaşının məclisində idi. O, (yəni Hüseyn bəy Yüzbaşı) bu gedişatdan xeyli narahat idi və istəmirdi ki, tərəflər arasında dava-dalaş baş versin. O, sabaha qədər bu fikir və düşüncə ilə baş sındırdı. Nəhayət, onlar çoxlu adam yığmalarına baxmayaraq, səhər əsləhə və yaraq qurşanmadan, adi qaydada sarayın qapısına gəldilər. Lələsi Nəzər sultan öldükdən sonra [şahın] əmrinə əsasən ustacluların və [Nəzər sultanın] adamlarının arasında olan Sultan Mustafa mirzə də onlarla birlikdə gəlmişdi. [Sultan Heydər mirzə tərəfdarları] bayırda dayanmış rəqiblərindən olan cahillərin və fəsadçıların onlara qarşı çoxlu sayda kinayəli sözlər deməlerinə baxmayaraq, həmin döyüşçülərə əhəmiyyət verməyib, Çehelsütun eyvanına qalxdılar və oradan İsmayıl mirzə tərəfdarlarına qarşı öz etiraz səslərini ucaltdılar. Hüseyn bəy Yüzbaşı Hüseynqulu xüləfaya xitabən dedi:

- Bu nə fəsaddır ki, qızılbaşlar arasında salırsan və nə üçün camaata yaraq qurşandırıb, onları sarayın qabağına gətirmişsən? Allaha həmd və şükür olsun ki, padşahımızın, mürşidimizin, vəlinemətimizin başı salamatdır. Axı bizim və sizin nə həddimiz var ki, bu cür özbaşına hərəkət edək?!

Bu sözlərin ardınca o, [Hüseynqulu xüləfanı] araqarışdıran və fitnəkar adlandırıb, ixlas və sufilik yoluna qədəm qoydu. Öz növbəsində Hüseynqulu xüləfa və ardıcılları da çirkin, kobud sözlər dilə gətirdilər. Amma elə ki şahzadə Sultan Heydər mirzə oraya təşrif gətirdi, İsmayıl mirzə tərəfdarları daha artıq hədlərini aşa bilmədilər. Cənnətməkan şah bu hadisədən xəbər tutsa da, özünü görməməzliyə vurmağı məsləhət bilib, Zal bəyi çağırdı ki, həmişəki qaydada hamama gələrək, xidmət göstərməklə məşğul olsun. [İsmayıl mirzə tərəfdarları] kütləsi bundan sonra söz deməyə macal tapmayıb, xəcalət çəkərək dağılışdılar. Bununla da Sultan Heydər tərəfdarları sanki yeni həyat tapıb, iftiraçıların töhmətlərindən və paxılların tənələrindən xilas oldular.

[Şah Təhmasibin] mübarək zatına kamil səhhət qismət olandan sonra o, bir daha bu cür söhbətlərin ərz olunmasına imkan vermədi və bu halları təftiş etməyə də meyil göstərmədi. Eyni zamanda, o, ustaclu tayfasının qüdrət sahibi olan əmirlərindən bir neçəsini müxtəlif xidmətlərə məmur edərək, onları saraydan

---

669 S-129, v.106b; S-297, v. 78b. Tehran çapında (s. 120) Hüseynəli yazılmışdır.

uzaqlaşdırdı. Məsələn, Murad xana Kəcur[670] qalasını zəbt etməyi tapşırıb, Rüstəmdara göndərdi və Piri bəy Qoçuluya[671] Rey hökumətini verib, o tərəfə yolladı. Elə həmin il Rum padşahı Səlim xan vəfat etdiyindən və onun yerinə oğlu Sultan Murad taxtda əyləşdiyindən cənnətməkan şah istədi ki, Sultan Səlimin ölümünə başsağlığı vermək və Sultan Muradın cülusunu təbrik etmək üçün aqil və uzaqgörən böyük əmirlərdən birini Ruma elçiliyə göndərsin. O, əvvəlcə Hüseyn bəy Yüzbaşını bu xidmətə təyin etdi. Sultan Heydər tərəfdarları bundan narahat olub düşündülər ki, cənnətməkan şahın onu göndərməkdə məqsədi şahzadə (Sultan Heydər mirzə) tərəfdarları və köməkçiləri olan ustaclu əmirlərini pərən-pərən salmaqdır və Hüseyn bəyi öyrətdilər ki, bir bəhanə ilə Ruma getməkdən boyun qaçırsın. O, özünü belə bir bəhanə ilə təmizə çıxarıb ərz etdi:

- Əşrəfin mübarək zatının sağlamlığı üçün nəzir demişdim ki, səkkizinci imamın ziyarəti niyyəti ilə müqəddəs Məşhədə gedərəm. Ömrümə etimad olmadığı üçün ümidvaram ki, mənə ziyarət rüxsəti verməyiniz daha zəruridir.

O, bu bəhanə ilə üzrxahlıq edərək, [Ruma] getməkdən yayınmaq istədi. Şərəfli hökmdar onun üzrxahlığını qəbul edib, ustaclu tayfasının mötəbər əmirlərindən digər birisi olan Çuxursəəd hakimi Məhəmmədi xan Toxmağı bu xidməti yerinə yetirməyə göndərdi. Eyni zamanda, Hüseyn bəy özünün yoxluğu vaxtında mətləbə müvafiq olmayan bir hadisənin üz verəcəyindən ehtiyatlanaraq, Məşhədə getməkdən də vaz keçdi. Cənnətməkan şah da özünü bilməməzliyə vurub, bu mövzuda heç bir söz demədi və sözügedən şəxs (Hüseyn bəy) əvvəlki qaydada yüksək rütbəli və mötəbər bir adam olaraq qaldı, get-gedə izzət və etibarını artırdı. Sultan Mustafa mirzənin ləlәsi Nəzər sultan Ustaclu vəfat etdiyindən şahzadənin ləlәliyi və atalığı vəzifəsi Nəzər sultanın əyaləti və ölkəsi ilə birlikdə Hüseyn bəyə verildi və o, məsud bir saatda [Sultan Mustafa] mirzəni öz mənzilinə gətirib, şahanə bir ziyafət təşkil edərək, ona layiqli peşkəşlər və payəndazlar[672] təqdim etdi. O, həmçinin ali əmr əsasında şahzadə cənablarını salamlamağa və Hüseyn bəyin ləlәliyini təbrik etməyə gəlmiş adlı-sanlı şahzadələrin hər birinə layiqli peşkəşlər verdi.

Uzun sözün qısası, oymaqlar arasındakı fitnə və düşmənçilik atəşi və hər iki firqənin dedi-qoduları ulu dərgahda sakitləşdirildi. Bundan sonra cənnətməkan şah daha iki il xoşbəxtlik və bəxtəvərliklə hakimiyyət sürdü. Nəhayət, iki il keçdikdən sonra, 984-cü ilə (31.03.1576 - 20.03.1577) müvafiq olan siçqan ilində[673] [Şah Təhmasibin] mübarək zatına bədbəxt hadisə üz verdi. O, hamamda olarkən nürə[674]

---

[670] Kəcur – İranın Mazandaran vilayətində bir qaladır.

[671] Bu şəxsin adı S-297 nüxsəsində (v.79a və s.) yanlışlıqla Piri bəy Bozcalu kimi yazılmışdır.

[672] Payəndaz - farsca «ayaq altına salınan», «ayaq altına atılan» mənasını verir. O zamanlar yüksək rütbəli, vəzifəli şəxslərə təqdim olunan hədiyyələr payəndaz adlanırdı.

[673] Bakı nüsxələrində belə yazılmışdır: «984-cü ilə müvafiq olan siçqan ilinin başlanğıcından iki ay keçdikdə» (S-129, v.108a; S-297, v.79b). Bu yazılış daha həqiqətəuyğun görünür. Çünki Şah Təhmasibin ölümü siçqan ilindən iki ay keçəndə, yəni 1576-cı ilin mayında baş vermişdi.

[674] Nürə - bədəndə olan lazımsız tükləri təmizləmək üçün maddə.

onun bədəninin aşağı hissələrini yandırıb yaraladı və yarası bərk ağrı verməyə başlayıb, qızdırmaya səbəb oldu. Məharətli təbiblər müalicə və dava-dərman etməyə başladılar. Heç bir kəsin bu xəstəliyin ölümlə nəticələnəcəyini güman etmədiyi və məhrəmlərinin və yaxınlarının zənn etmədikləri bir halda, seşənbə günü, səfər ayının 14-ü (13 may 1576) axşamı [Şah Təhmasibin] səhhəti sağlamlıq yolundan üz döndərdi, həyəcan və iztirab əlamətləri zahir oldu və onu zəiflik bürüdü. Adlı-sanlı şahzadələr gecənin yarısınadək yüksək məqamlı atalarının xidmətində oldular. Lakin o, axırda «mənim elə bir təşvişim yoxdur» deyərək, onların hamısını mürəxxəs etdi ki, evlərinə getsinlər. Orada qalan Sultan Heydər mirzədən savayı, digər şahzadələrin hamısı dağılışdılar.

[Sultan Heydər mirzənin] orada qalmasının səbəbləri barədə iki zahat vardır. Biri odur ki, cənnətməkan şah həzrətləri Sultan Heydər mirzəni [digər şahzadələrdən] fərqləndirib, ona qalmağı əmr etmişdi. Digər rəvayət budur ki, [Sultan Heydər mirzənin] anası [Şah Təhmasibin ölümü] hadisəsindən sonra bayırda düşmənlərdən və rəqiblərdən möhtərəm oğluna bir xətər toxunacağını və onun mübarək dövlətxanada qalmasının daha güvənli olduğunu zənn edərək ona demişdi:

- İndi yüksək mənsəbli atanın halı bərbaddır və ehtimal çoxdur ki, o, bu gecə əcəlin zərurətindən vəfat etsin. Sən ki atanın yetişdirməsi və varisisən, padşahlıq taxtını qoyub haraya gedirsən?! Yaxşısı budur ki, dövlətxanada qalasan və faciəvi hadisə (Şah Təhmasibin ölümü) baş verdikdə şahlıq tacını başına qoyub, mübarək Çehelsütun eyvanına gedəsən, hökmdarlıq xalçası üzərinə cülus edəsən. Bir halda ki, xəzinələrin, «qurxana»nın (silah anbarının) və yaraqxananın açarı səndədir və əsgərlərin də dünya malında gözü vardır, xəzinələrin qapısını açıb, yüzbaşılara, qorçulara və qoşun əyanlarına böyük ənamlar verməklə onları şirnikləndirərsən və mənfəətləndirərsən, tərəfdarların dövlətxanaya toplaşarlar və yeni hökmdarın padşahlıq taxtına cülus etməsi camaat tərəfindən müşahidə olunar. Gerçəklikdə əlləri məqsədə çatmaqdan uzaq olan İsmayıl mirzə tərəfdarlarının da itaət etməkdən savayı çarələri yoxdur və hər kim ki gəlib [sənin] ayağını öpməkdən (itaət etməkdən) boyun qaçırsa, onu cəzalandırarsan.

Anasının rəyi şahzadəyə xoş gəldi və o, [sarayda] qaldı. Gecə yarısına yaxın ölüm nişanələri hökmdarın mübarək simasında zahir oldu. Ayın 15-i gününün sübh çağında onun fatehliklə dolu olan ruhunun quşu müqəddəs səmtə qanad açdı və bu müdhiş hadisənin baş verdiyi səfər ayının 15-də (14 may 1576) qeybdən gələn ilhamla «gurəş por-nur» («qəbri nurla dolsun») ifadəsi [əbcəd hesabı ilə] bu hadisənin tarixinə müvafiq gəldi. Səltənət sülaləsinə mənsub olan möhtərəm xanımlar can odlayan bu müsibət səbəbindən səbir paltarlarını yırtıb, fəğan və ahu-zar etməyə başladılar və möhtərəm hərəmxananın xidmətçiləri o uca şahənşahın matəmində yas libası geyinib, zülmətli gecə kimi qarageyimli oldular. Aləm bir-birinə dəydi, camaat həyəcan və iztirab burulğanına düşdü, bütün ürəklər kədərdən paralandı, könüllər pərişan oldu. Axı necə də olmasın?! Elə bir üstün xüsusiyyətli

günəşin üzü tutuldu ki, dünya adamları onun ümumi qayğısından rahatlıq və asudəlik kamına qovuşmuşdular və elə bir görkəmli ay yox oldu ki, onun nurlu rəyinin şüalarından cahan asayiş və sabitlik işığına bürünmüşdü. O dövran yeganəsinin xoşagəlimli vəsllərini yazmaqla qurtaran deyil. Hərçənd dəftərin əvvəlki hissələrində qələmin dili ilə bu barədə bir icmal bəyan olunmuşdur, lakin bu məqamda da o mübarək şəxsin bəyənilmiş cəhətlərindən cüzi bir qismini qeyd etmək vacibdir.

Uzun sözün qısası, o həzrət öz hökmranlığı əyyamında nə vaxt ki, səltənət və ölkə idarə etmək işlərindən rahatlıq tapıb asudə olurdu, şərəfli vaxtını ehtiyac sahiblərinin işlərini nizama salmağa və onların mətləblərini, məqsədlərini yerinə yetirməyə sərf edirdi. Onun parlaq şəriətə rəvac verməyə, üləmaya qayğı göstərməyə, ibadət sahiblərinin və iman əhlinin ehtiramını saxlamağa, dini mərkəzlərin, mədrəsələrin və xeyriyyə məkanlarının («büqa əl-xeyr») intişar tapmasına və rövnəqlənməsinə və məscidlərin təmir edilməsinə böyük həvəsi vardı. Həmişə «əmri-məruf» və «nəhyi-münkər»[675] kimi dini məsələlər onun nurlu şəxsiyyətinin nəzər-diqqətində idi. Belə ki, o, dürüst niyyətlə və etiqad gözəlliyi ilə gəncliyinin çiçəklənən vaxtında, cavanlığının cücərən dövründə və ətrafında nəfsani ləzzətlər ola-ola, asimani bir yardımla tövbə etmək arzusuna düşüb, mübarək cülusundan doqquz il keçdiyi və iyirmi yaşında olduğu 939-cu ildə (03.08.1532 - 22.07.1533) sədaqət dili ilə «Allah qarşısında tövbə edirəm» kimi xoşagələn kəlməni söylədi və səmimi-qəlbdən bütün günahlardan tövbə edib, mənəvi cəhətdən o qədər sağlamlaşdı ki, tövbəni pozmaq heç vaxt xəyalından keçmədi. Şərəbxanaların, qumarxanaların və əxlaqsızlıq yuvalarının adlarını dəftərlərdən silib atdılar. Get-gedə qızılbaş tayfalarının bütün əmirləri o həzrətə müvafiq olaraq, tövbəyə rəğbət göstərdilər və 963-cü ildə (16.11.1555 - 03.11.1556) böyük əmirlər və səadətli sarayın mülazimləri günahlardan əl çəkdilər. Şəriətə zidd olan pis əməllər bütün məmləkətlərin və şəhərlərin camaatına qadağan olundu. Bu əhvalatın qəribəliyi üzündən «toubət-i nəsuhan» («səmimi tövbə») sözləri [əbcəd hesabı ilə] bu hadisənin tarixinə müvafiq gəldi.

**Əbcəd tarixi:**

«Din ölkəsinin sultanı adil Şah Təhmasib
And verdi və din ordusunu etdi tövbəkar.
Tövbə etmək tarixi oldu «səmimi tövbə»,
Bu bir ilahi sirdir, sən onu etmə inkar».

---

[675] «Əmri-məruf» (insanları yaxşı yola dəvət etmək) və «nəhyi-münkər» (insanları pis yoldan çəkindirmək) - islamın şiə cərəyanının vacib dini əməllər məcmusunun («füruiddin»in) prinsiplərindəndirlər.

Xülasə, o həzrətin bəxtəvər hakimiyyəti zamanında Allahın xəlq etdikləri və bəndələri möminliyi və pəhrizkarlığı öz həyat tərzlərinə və şüarlarına çevirərək, Allaha itaət və ibadət etməklə yaşayırdılar. [Şah Təhmasib] «əmri-məruf» və «nəhyi-münkər» kimi dini məsələləri xeyli inkişaf etdirərək, qissəxanlara və mərəkəgirlərə[676] hər hansı bir fırıldaq əlamətinə malik olan işlərdən əl çəkməyi buyurmuşdu. O, həmçinin «xasseyi-şərifə» sərkarının[677] ixtiyarında olan beş yüz tümən dəyərində yüksək keyfiyyətli tiryəki haram olduğu üçün axar suya atdırmışdı. On dörd məsum[678] həzrətlərinin - onlara salam olsun - hər birinin mövludu münasibəti ilə müəyyən bir məbləğ nəzir verirdi və hər il mövlud pulunu şiəliyi dəqiq olan böyük seyid təbəqələrindən birinə verirdi ki, onlar arasında bölüşdürülsün. Böyük və mötəbər şəhərlərin əksəriyyətində həmin şəhərin binəva kişi və qadın füqəralarına və möhtaclarına təsəddüq[679] çörəyi adlanan qida verilməsini əmr etmişdi. Şiə şəhərlərində, xüsusən də müqəddəs və ulu Məşhəddə, Səbzəvarda, Astarabadda, Qumda, Kaşanda, Yəzddə, Təbrizdə və Ərdəbildə qırx nəfəri kişi cinsindən və qırx nəfəri qadın cinsindən olan yetimlərin geyimləri və ehtiyacları təmin olunur, şiə məzhəbli pəhrizkar müəllimlər və müəllimələr və doğru şüarlı xidmətkarlar təyin olunaraq, onlar tərbiyə edilir və onlardan hansısa biri həddi-buluğa çatdıqda digəri ilə əvəz olunur, onun yerinə yetkinlik yaşına çatmamış birisi gətirilirdi.

Məmləkətin rəiyyətlərinin və ölkə yollarından istifadə edənlərin ödədikləri vergilərin yüngülləşdirilməsi istiqamətində atılan addımlardan ən önəmlisi yol tamğası[680] vergisinin ləğvidir. Bu vergi keçmiş sultanlar zamanında sürəklilik qazanmışdı, tacirlərdən və zəngin yol adamlarından alınırdı və hər il [bu vergidən] otuz min[681] tümən İraq şahisi məbləğində vəsait hasil olunurdu. Bir dəfə [Şah Təhmasib] yuxuda ikən Həzrət Sahib əz-Zamanı - ona Allahın salamı olsun - gördü və röya aləmində ondan bu [vergini ləğv etmək] barədə göstəriş aldı. Bunun nəticəsində 972-ci ildə (09.08.1564 -28.07.1565) tacirlərdən və yol adamlarından

676 Qissəxan - nağıl danışan, hekayə söyləyən. Mərəkəgir - orta əsrlərdə küçələrdə, meydanlarda tamaşalar göstərən aktyorlara deyilirdi.
677 «Xasseyi-şərifə» şaha və şah ailəsinə məxsus mülkiyyətə, «xasseyi-şərifa sərkarı» isə həmin mülkiyyətə nəzarəti həyata keçirən idarəyə deyilirdi.
678 On dörd məsum - şiə əqidəsinə görə, bu sıraya Məhəmməd peyğəmbər, onun qızı Fatimə xanım və on iki imam daxildirlər.
679 Təsəddüq – sədəqə, nəzir mənasındadır.
680 Tamğa – sənətkarlıq və ticarət müəssisələrindən toplanan və yollarda gömrük haqqı olaraq alınan vergi idi. Bu vergini yığanlara tamğaçı deyilirdi. XIII əsrdə, Elxanilərin hakimiyyəti zamanı tətbiq olunmağa başlamışdı (А.А.Али-заде. Социально-экономическая и политическая история, с. 216-223).
681 S-129, v.109a; S-297, v.80b. Tehran çapında (s.123) 30 min tümən əvəzinə min tümən yazılmışdır. Bakı əlyazmasında qeyd olunmuş 30 min rəqəmi həqiqəti əks etdirir və tamğadan bu qədər illik gəlir götürülməsi faktı dövrün digər mənbələrinin məlumatları ilə də təsdiq olunur (Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi, s.37).

bu verginin alınması dayandırıldı, tamğaçıların əli-ayağı məmləkətdən yığışdırıldı və bu vergidən heç bir əsər-əlamət qalmadı.

**Beyt**

«Tamğanın ləğvi ilə tamğaçıya çəkildi dağ,
Həmin dağdan savayı, qalmadı tamğadan soraq.»

Mali-möhtərifə, məvaşi və mərai[682] kimi vergilər məmləkətin əksər yerlərində, xüsusi ilə də şiələrin məskun olduqları mahallarda rəiyyətin üzərindən götürülüb, dəftərlərdən silindi. Gözəl əməllərinin bərəkəti səbəbindən [Şah Təhmasibin] hakimiyyəti zamanı əlli dörd il sürdü. O, bu müddəti xoşbəxtlik və səadətlə keçirdi. İslam dövründə [o vaxtadək] Müstənsir Billah Ələvidən[683] başqa heç bir padşah əlli dörd il hökmranlıq etməmişdi. [Şah Təhmasibin] səadətli hakimiyyəti dövründə hərbçilər və rəiyyət rahatlıq və asudəlik kamına qovuşmuşdular. Səltənətin bütün işlərinə elə bir nizam-intizam verilmişdi ki, indiyədək İran ərazisində bu cür idarəetmədən irəli gələn məsələlər nümunə və qanundur. Dünyanı qorumaq təməlinin banisi olan [Şah Təhmasibin] yaşayış müddəti altmış dörd il, bir ay, iyirmi beş gün olmuşdur. O, Süleyman şanlı xaqanın [hakimiyyəti] zamanında səkkiz il ərzində yüksək şanlı atası tərəfindən Xorasanda hakimlik etmişdir və daha sonra əlli üç il, altı ay və iyirmi altı gün İran mülkündə hökmranlıq sürmüşdür.

**Beyt**

«Vəfasız dünyadan getdi Süleyman məkanlı şah,
Ona rəhmət eyləsin Ulu Yaradan.
O, şahənşahlıq mənsəhini öz xələfinə miras qoydu,
Səfər ayında, bahar çağı taxt-tacdan əl çəkdi.
Mən həyəcandan ilin tarixini soruşdum,
Söylədi: De ki, doqquz yüz səksən dörd idi»[684].

Seyidlər, üləmalar və əksər əyanlar, bütün xalq bu qəm gətirən hadisə günündə lərzəyə gəldilər və bu müsibətdən o qədər dərd çəkib pərişan oldular ki, sanki aləm alt-üst olmuşdu və məhşər gününün əlaməti camaat arasında zahir

---

[682] Mali-möhtərifə - sənətkarlıqdan alınan vergi. Məvaşi - maldarlardan saxladıqları mal-qara üçün alınan vergi. Mərai - otlaqlardan istifadə müqabilində alınan vergi (М.Х.Гейдаров.. Социально-экономическая отнашения, с. 51, 114, 119-122; О.А. Эфендиев. Образование азербайджанского государства Сефевидов, с. 41).

[683] Müstənsir Billah Ələvi - Misirdə hökmranlıq etmiş Fatimilər sülaləsinin xəlifəsidir və m. 1036-1094-cü illərdə 58 il hakimiyyətdə olmuşdur.

[684] S-297, v.81a.

olmuşdu. O həzrətin səltənət zamanı uzun olduğundan Əcəm torpağında bu padşahın yoxluğunda nə olacağını görə bilən bir kimsə yox idi. Çünki aləm sultanlarından yalnız onun adını eşitmiş və o həzrətdən başqa hökmdar görməmişdilər. Bu böyük hadisə ümumən xalqa ağır gəlirdi. Məşhur üləmalar və kəramətli fəqihlər, xüsusilə də müctəhid Mir Seyid Hüseyn Cəbəlamili əmirlərin məsləhəti ilə mübarək dövlətxanaya gəlib, onun pak cəsədinə şəriət qaydası ilə qüsl verdi[685] və [cəsədi] hərəm bağçası ilə divanxana arasında yerləşən «Şirvani yurdu»nda əmanət qoydular. İsmayıl mirzənin hakimiyyəti zamanında, onun əhvalatından bəhs edərkən yazılacağı kimi, [Şah Təhmasibin cəsədi] ulu Məşhədə köçürülüb, İmam Rzanın cənnət asudəliyinə malik rövzəsində dəfn edildi.

Onun [hakimiyyəti dövrünün] abidələri bunlardır: Tehran şəhərinin qala divarlarının və müqəddəs Məşhədin qala divarlarının inşa edilməsi; cinlərin və insanların imamı [olan İmam Rzanın] mübarək günbəzinin üzərinin qızıl suyuna boyanaraq qızıla tutulması; darüssəltənə Qəzvindəki mübarək dövlətxananın inşası; Qəzvində bir neçə hamamın və Çaharbazarın tikilməsi; Səadətəbad adı ilə tanınıb, cahanda yaxşı şöhrət tapmış və cənnət bağlarından bir nümunə olan Baği-İrəmin salınması; və darüssəltənə Təbrizin Sahibabad ərazisində bir məscidin tikilməsi. Allah rəhmət eləsin! Ümidimiz budur ki, pak və təmiz Əhli-beyt həzrətlərinə bəslədiyi gözəl etiqadın nəticəsi olaraq, qiyamət günündə peyğəmbər və imam nəslinin məsumları ilə bir yerdə olsun, o Allah dərgahının bəyənilmişləri ilə birgə cənnət bağlarında yaşayıb, nur saçsın.

[Şah Təhmasibin] vəfatından bir qədər sonra bəzi şahzadələrin və əmirlərin səyi ilə İsmayıl mirzə səltənət taxtında qərar tutdu. Amma onun əhvalı, əməlləri və fəaliyyəti savab yola uyğun gəlmirdi və o, öz qohumlarını aradan qaldırmağa çalışırdı. O, ömründən və hakimiyyətindən bir xeyir tapa bilmədi, həyatının çırağı tezliklə söndü və haqq öz yerini tutdu. Dövlət və padşahlıq taxtı Allahın kölgəsi olan əlahəzrət şahın adlı-sanlı atası İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın - Allah ona rəhmət eləsin və ona cənnət bəxş etsin - şərəfli vücudu ilə zinətləndi və bəzəndi.[686]

İndi vaqiənevis[687] üçün zəruridir ki, o həzrətin (Şah Təhmasibin) adlı-sanlı övladlarının və Heydər nəslindən olan digər şahzadələrin, həmçinin böyük əmirlərin, dövlət ərkanının və [Şah Təhmasibin] ölümü vaxtı İran məmləkətlərinə nizam verən hər bir tayfanın böyüklərinin adlarını qələmə alsın ki, onların, demək olar, hər birinin adı əhvalatların təsviri zamanı qələmin dilinə gətirildiyinə görə hadisələrin və xəbərlərin oxuyucuları onların halından bir məlumat hasil etsinlər.

---

[685] Qüsl – islam dininə görə, insan bədəninin yuyulub təmizlənməsi qaydasıdır. Mətnin bu yerində qüsl vermək dedikdə cəsədin kəfənlənməzdən öncə dini adət-ənənə əsasında yuyulması nəzərdə tutulur.
[686] S-297, v.81a-b.
[687] Vəqiənevis – hadisələri yazan, salnaməçi, tarixçi.

## XOŞBƏXT ŞAHZADƏLƏRİN, CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN ÖVLAD VƏ NƏVƏLƏRİNİN VƏ ONUN ALİ MƏQAMLI QARDAŞI OĞULLARININ ŞANLI ADLARI HAQQINDA

[Şah Təhmasibin] övladlarından və nəvələrindən, həmçinin onun qardaşlarının övladlarından ibarət olan, o həzrətin həyatı dövründə onun qayğısının və rəğbətinin kölgəsi altında səadət və izzət kamına qovuşmuş Səfəvi nəslindən olan əziz şahzadələr otuz beş nəfər idilər. Bunların iyirmi üçü oğlan və on ikisi qızdır. Aşağıda aydın olacağı kimi, bütün bu oğulların, oğulların övladlarının və qızların cümləsindən o həzrətin həyatı zamanında ölüm paltarı geyərək, mövcudluq libasını əbədiyyət mənzilinin başına çəkmiş və adlarının sadalanmasının faydası olmayan kəslərdən savayı, şahzadələrin sayı iyirmi ikidir.

[Şah Təhmasibin] oğulları doqquz nəfərdir. Əvvəlincisi İsgəndər şanlı nəvvab Sultan Məhəmməd mirzədir. Hökmdarlıq mərtəbəsinə ucalmış üç adlı-sanlı şahzadədən savayı, digər bəxtəvər şahzadələrin təvəllüd tarixləri bu kəmtərə (İsgəndər bəy Münşiyə) bəlli olmadığından onların doğum tarixləri ərz olunmayacaqdır. [Buna baxmayaraq], onların adları, aydın xüsusiyyətləri və təmiz əhvalatları qələmə alınacaqdır. Sözün qısası, o həzrət (Sultan Məhəmməd mirzə) cənnətməkan şahın səadətli cülusundan səkkiz il keçdikdə, 938-ci ildə (15.08.1531 - 02.08.1532) Bayanduriyyə tayfasının böyük əmirlərindən olan Musa sultan Mosullu Türkmanın Sultanım adlı qızının bətnindən doğulmuşdur. «Fərzənd-i Şah Təhmasib-i əvvəl Məhəmməd aməd» («1 Şah Təhmasibin oğlu Məhəmməd gəldi») sözləri [əbcəd hesabı ilə] bu əziz mövludun tarixidir. O, bu uca [Məhəmməd] adı ilə tanındı və «Xudabəndə» («Allahın bəndəsi») ləqəbi ilə çağırıldı. O, günahları bağışlanmış atasının vəfatı zamanı qırx altı yaşında idi. O həzrət hələ altı yaşında olarkən, 943-cü ildə (20.06.1536 - 09.06.1537) Xorasan diyarının hakimi vəzifəsinə yüksəldilmiş və Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü onun ləti və əmirüləmərası təyin edilmişdi. O həzrət darüssəltənə Heratda hökmranlıq taxtına əyləşdi və Məhəmməd xan o dövlət bağçasının nübarına xidmət etməyin məsuliyyətini daşıdı. Beləliklə, o, neçə illər ərzində adı çəkilən darüssəltənədə asudəlik, xoşbəxtlik, ruhi fəzilət və kamillik qazanmaqla yaşayıb, bütün cari işlərdən xəbərdar və agah oldu. Xasiyyətcə fəhmli, fərasətli, səxavətli idi. Elə böyük bir alicənablığa malik idi ki, onun alicənablığının nəzərində dünyanın bütün zənginliklərinin qədir-qiyməti yoldakı toz-torpaqla eyni idi. Bəzən şeir nəzm etməyə baş qoşub, «Fəhmi» təxəllüsündən istifadə edərdi. Zarafat, məzə və xoşhallılıq adəti və şüarı idi.

Bir müddətdən sonra Cəmşid məqamlı cənnətməkan şaha o xilafət və şəhriyarlıq sədəfinin və o ədalət bürcünün dürrünü, yəni səadətə qovuşmuş sevimli oğlu [Sultan Məhəmməd mirzənin] didarını görmək hissi qalib gəldi və onu ali taxtın ətəklərinə çağırıb, o həzrətin doğma qardaşı olan İsmayıl mirzəni Herata

göndərdi. Lakin qısa bir zamandan sonra dövlətin asayişi səbəbindən və onun (İsmayıl mirzənin) tərəfindən hökmdarın təbiətinə müvafiq olmayan qeyri-mülayim hərəkətlərin baş verməsi üzündən [Şah Təhmasib] onu (İsmayıl mirzəni) geri çağırıb, Qəhqəhə qalasına göndərdi və yenidən şahzadə (Sultan Məhəmməd mirzə) həzrətləri həmin şərəfli mənsəbə təyin olunmaq iftixarına nail oldu. Məsum bəy Səfəvi əmirlərdən və əsgərlərdən bir dəstə ilə Qazaq Təkəlünün fitnə-fəsadını aradan qaldırmaq üçün göndərildikdən sonra, həmin əhvalat yazılarkən qələmə alındığı kimi, [Şah Təhmasib tərəfindən] hökm verildi və bu əmrə əsasən, şahzadə (Sultan Məhəmməd mirzə) həzrətləri sevimli oğlu Sultan Həsən mirzə ilə birlikdə ali taxtın ətəklərinə gələrək, [şahla] görüşdükdən və əhdü-peymanı təzələdikdən sonra getməyə rüxsət aldı. Şahqulu sultan Yegan Ustaclu onun lələsi və əmirülümərası təyin olundu.

Həmin əyyamda o həzrətin (Sultan Məhəmməd mirzənin) Heratda gözləri zəifləməyə başladı. Lakin o, buna əhəmiyyət verməyib, müalicədən yayındı. Məharətli cərrahlar və göz həkimləri («kəhhal»lar) müalicə aparmağın zəruriliyini vurğulasalar da, o həzrət bu [müalicə] işinin çətinliyinə qatlaşmadı. Get-gedə gözlərinin zəifliyi qüvvətləndi və axırda gözləri tamam tutuldu. Eyni zamanda, o həzrətlə lələsi Şahqulu sultan arasında müxtəlif cəhətlərdən mübahisə yarandı və onlar bir-birlərinin bəd rəftarından şikayətlənməyə başladılar. Cənnətməkan şah öz sevimli oğlunun şərəfli xatirinə qayğı əlaməti olaraq, o həzrəti darülmülk Şiraza göndərib, onun əziz oğullarından Sultan Həsən mirzəni [şah] ordugahına gətizdirdi, səltənət və səadət xanədanının göz bəbəyi olan yüksək dərəcəli misilsiz şahzadəni, yəni Allahın kölgəsi olan əla-həzrət şahı isə möhtərəm atasının əvəzinə Xorasan mülkünün səltənətinə təyin etdi. O həzrət (Sultan Məhəmməd mirzə) də hökmdarın fərmanına uyğun olaraq, o səltənət bağçasının nübarını (Abbası) Heratda qoyub, özü digər bəxtəvər övladları ilə birlikdə Şiraza yollanaraq, vaxtilə Müzəffərilər sülaləsinin paytaxtı olmuş bu şəhərdə sərvərlik büsatı üzərinə qədəm qoydu. Orada Vəli sultan Qalxançıoğlu Zülqədər onun lələsi və idari işlərinin icraçısı oldu və o həzrət bir müddət həmin fərəh bəxş edən, könül oxşayan şəhərdə qalıb, yaşayışını asudəliklə sürdürdü. Nəhayət, günahları bağışlanmış Şah [Təhmasibin] vəfatından sonra İsmayıl mirzənin hakimiyyəti əyyamında onun şərəfli əhvalında bir sarsıntı meydana gəldi və o, qeybdən bir hadisənin baş verməsini gözlədi. Nəticədə, qəzavü-qədərin zərurəti ilə İsmayıl mirzənin [ölüm] hadisəsi üz verdi və o həzrət (Sultan Məhəmməd mirzə) anadangəlmə uğurlu bəxtinin köməyi ilə yüksək hökmdarlıq mərtəbəsinə çatdı. Bu məsələ öz yeri gələndə təfərrüatı ilə qələmə alınacaqdır.

O həzrət elə bir padşah idi ki, [kimsəyə] qüssə və kədər bəxş etmək onun xəyalından keçmirdi. Ədəb-ərkanlı davranmaq, bütün mülazimlərinə və qohum-əqrəbalarına əl tutmaq və şəfqət göstərmək kimi qaydalara və dünyanın adət-ənənələrinə lazımınca riayət edərdi. Səltənəti və padşahlığı əyyamında dərya qədər nəcib əli ilə ehsan paylamaqda idi. Müxtəlif tayfalardan olan insanlar onun verdiyi

ənamlardan və onun fəzilətlərindən faydalanırdılar. O, əmirlərin, qorçuların və saray mülazimlərinin sabiqdən qalmış külli məbləğdə olan məvaciblərinin hamısını dövlət xəzinəsindən ödəyərək, öz adlı-sanlı atasının zamanından qalmış borcları verdi. Bu minvalla cənnətməkan şahın neçə illərlə topladığı var-dövlət paylanıb səpələndi.

[Məhəmməd Xudabəndənin hakimiyyəti vaxtı] zəmanənin gərdişindən və dövranın hadisələri ucbatından əmniyyət və rahatlıq xalqdan uzaq düşsə də, möhnət və bəla qapıları rəiyyətin üzünə açılsa da, hərbçilər ənam və ehsan dənizinə qərq olub, ali mərtəbələrə yüksəlməkdə idilər. Nəticədə, dini və dünyəvi xeyirxahlıqları nəzərdə saxlayan ilahi hikmətin zərurətindən məmləkətin və qoşun əhlinin əhvalına neçə-neçə fəlakətlər yol tapdı. İtaətsiz qızılbaş tayfaları müxtəlif istəklərə çatmağı qarşılarına məqsəd qoydular. Hər başda bir sevda oyandı və qoşun arasında ikitirəlik yayıldı. Şərqdən və qərbdən olan ətraf padşahlar Əcəm məmləkətlərinə tamah salıb, buraya öz təcavüz əllərini uzatdılar. Rum hökmdarı Sultan Murad xan öz ata-babasının əhdü-peymanını pozaraq, ard-ardına və dalbadal Şirvan və Azərbaycan üzərinə qoşun göndərdi. İsgəndər şanlı nəvvab qoşunun ittifaqsızlığı, oymaqların arasındakı münaqişə və orduda birliyin olmaması ucbatından qüvvətli düşmənə qarşı müdafiə olunmağa qüdrət tapmadı. Onun mülayim xasiyyətindən istifadə edənlər fitnə-fəsada rəvac verirdilər.

Lakin kama yetmiş xoşbəxt şahzadə Sultan Həmzə mirzə adlı-sanlı atasına kömək etmək üçün dövlət və hökmranlıq üzəngisinə ayaq qoydu. O, ətrafında olan bir dəstə adamla taqəti və bacarığı çatdığı qədər cəhd göstərib, düşmənə çox dafürsət vermirdi. Amma fələyin böyük qəziyyələrindən və dövranın ibrətamiz hadisələrindən biri olan o yüksək məqamlı şahzadənin şəhidlik hadisəsi baş verdikdən sonra rumilər tam üstünlük qazandılar. Bu hadisənin nəticəsi olaraq, onlar on ilə yaxın müddətdə işğal etməyə çalışdıqları bütün Şirvan vilayətini, darüssəltənə Təbrizi və Azərbaycanın əksər mahallarını, Tiflis qalasını, Axısqanı və Gürcüstanın bəzi mahallarını öz ixtiyarlarına keçirməyə nail oldular. Özbək padşahı Abdulla xan da Xorasan əmirləri arasındakı düşmənçiliyi görüb, o diyarı işğal etmək həvəsinə düşdü. O, Xorasana qoşun çəkdi və keçmişdəki yüksək şanlı padşahların taxtgahı olmuş darüssəltənə Heratı və bəzi mahalları ələ keçirdi. Dövranın hadisələrindən onsuz da kədərə və qüssəyə bürünən İsgəndər şanlı nəvvab öz ümid gözünün işığı olan sevimli oğlu [Sultan Həmzə mirzənin] ölümünün qəmindən tamamilə iztiraha düçar oldu və hökmdarlıq işlərindən birdəfəlik əl çəkdi. Belə olan halda İraq əmirləri xoşbəxt şahzadələrin arasından Əbu-Talibi öz nüfuzları üçün sərmayəyə çevirdilər. Amma o, kiçik və azyaşlı olması səbəbindən xalqın könlündən keçən xoş arzular baş vermədi. Hadisələrin səmum küləyinin əsməsi dövlət çəmənində başdan-başa pəjmürdəlik yaratdı. Camaat heyrət və əlacsızlıq dənizinə qərq olmuş sədəf kimi ağzını açıb, Allahın lütfkarlıq buludunun qətrələrini gözləməkdə idi.

Elə bu vaxt iqbal yeli əsməyə başladı. Allahın kölgəsi olan əla-həzrət şahın fələyi bürüyən bayrağının təntənəsi Xorasan tərəfdən yüksəldi. O, (yəni Şah Abbas) 995-ci (12.12.1586-01.12.1587) ilə müvafiq olan tonquz ilinin[688] başlanğıcından altı ay keçdikdə Allahın köməyi ilə müqəddəs və ulu Məşhəddən darüssəltənə Qəzvinə gəldi və əhədi dövlətin mərkəzinin zülmətə qərq olmuş sahəsini özünün fələyi bürüyən bayrağının parlaq ayparası ilə işıqlandırdı. O zaman darüssəltənə İsfahanda olan İsgəndər şanlı nəvvab dövlətin paytaxtı [Qəzvinə] təşrif gətirib, səadətli oğlu ilə görüşdən sevincək və şadman oldu və o həzrətin comərdliklə dolu olan vücudunu özü üçün böyük bir sevinc mənbəyi hesab edib, səltənət və padşahlıq işlərini həvəslə və rəğbətlə onın bacarıqlı əlinə və qabiliyyətli pəncəsinə tapşırdı. İkinci cilddə yazılacağı kimi, məmləkətləri bürümüş böyük fitnə-fəsad asimandan gələn yardımla az bir zamanda aradan qaldırıldı və müxtəlif çaxnaşmalar səbəbindən sarsılmış olan dövlətin mətinlik səddi pərvərdigarın köməyi ilə möhkəmləndirildi.

Xülasə, Allahın kölgəsi olan əlahəzrət şah zamanında İsgəndər şanlı nəvvab bir neçə il o həzrətin alicənablıqla feyzlənmiş vücudu ilə xoşbəxt və xoşhal olub, dövran məşğuliyyətlərindən asudəlik tapdı və istirahət guşəsində dincəldi. Axırda, 1004-cü ildə (06.09.1595-24.08.1596) Qəzvin dövlətxanasında onun şərəfli zatına xəstəlik üz verdi və bunun nəticəsində o, ali ruhlar məclisində əyləşənlərə yoldaş və müqəddəslik aləmində rahatlıq tapanlarla sirdaş oldu (vəfat etdi). Onun şərəfli cəsədi bir müddət İmamzadə Hüseynin - ona salam olsun - mübarək astanasında dəfn edildi. Daha sonra isə Allahın kölgəsi olan əlahəzrət şahın səyləri ilə pak məqbərələrin və ali astanaların olduğu yerə aparılıb, kəramətli imamların - onların hamısına Allahın salamı olsun - ziyarətgahlarına köçürüldü və o müqəddəs məkanlardan birində, bəyan edilməkdənsə, gizli saxlanılması vacib olan bir yerdə dəfn edildi[689].

O həzrətin (Sultan Məhəmməd mirzənin) oğullarından əvvəlincisi Gilanın mötəbər əmirlərindən biri və Qazı Cahanın kürəkəni olan Mir Əbdüləzim Seyfi Hüseyninin qızından doğulmuş Sultan Həsən mirzədir. Onun doğum tarixi mənə məlum deyildir. Amma bəllidir ki, yüksək mənsəbli babası [Şah Təhmasibin] vəfatı vaxtı on səkkiz yaşında idi. Buradan belə çıxır ki, o, 966-cı ildə (14.10.1558 - 02.10.1559) anadan olmuşdur. Cənnətməkan şah bu cavanbəxt və xoşbəxt şahzadəni ali taxtın ətəklərinə çağırmış və o, bir müddət o həzrətin himayəsinin kölgəsi altında yaşadıqdan sonra Mazandaran vilayətinin yarısına hakim təyin olunmuşdu. O, cənnət bargahlı şahın vəfatı zamanı Mazandaranda qalmaqda idi.

[688] Tonquz (donuz) ili 1587-ci ilin Novruz bayramında başlamışdır.

[689] S-297, v.82a-83a. Ölmüş şəxslərin cəsədlərini İraqa aparıb, imamların məqbərələri yanında, xüsusən də Kərbəlada dəfn etmək uzun müddət şiələr arasında yayılmış bir adət olmuşdur. İraqi-Ərəbdə basdırılmış Məhəmməd Xudabəndənin məzarının yeri ona görə gizli saxlanılırdı ki, İsgəndər bəy Münşi bu sözləri yazan zaman həmin ərazilər Osmanlıların əlində idi.

Fəhm və fitrət cəhətdən bacarıqlı idi və təb sahibi idi. Bu rübai onun xoş niyyətli xatirindən doğmuşdur:

**Rübai**

«O üzün ki, badədən lalə bitibdir onda,
Şərabın təsiriylə jalə bitibdir onda.
O əl ki, bir piyalə ahb sənin əlindən,
Torpağa dönsə də, piyalə bitibdir onda.»

[Sultan Həsən mirzə] əmisi İsmayıl mirzənin hakimiyyəti dövründə şəhidlik dərəcəsi tapmışdır. Bu hadisənin şərhi İsmayıl mirzənin hakimiyyət zamanının əhvalatları yazılarkən qələmə alınacaqdır.

[Sultan Məhəmməd mirzənin oğlu olan] ikinci yüksək dərəcəli şahzadə Mazandaran valisi Mir Abdulla xanın pak qızı, Məryəm şöhrətli Məhdi-Ülya Xeyrannisa bəyimdən doğulmuş Sultan Həmzə mirzədir. O vaxt (Şah Təhmasib ölən vaxt) on yaşı vardı və uca şanlı atası ilə birlikdə Şiraz şəhərində idi. O. İsgəndər şanlı nəvvabın hakimiyyəti zamanında vəkillik dərəcəsi və vəliəhdlik rütbəsi əldə etdi. O, uca şanlı atasının on ilə yaxın çəkən hökmranlığı dövründə atasının hüzurunda əziz və istəkli idi və dövlət işlərinin idarəedicisi və təşkilatçısı idi. Axırda kəcrəftar fələyin dönüklüyü ucbatından öz dəlləyi olan qeyri-pak bir oğlanın əli ilə şəhidlik dərəcəsi tapmışdır. Bu hadisə onun yüksək məqamlı atasının hakimiyyəti zamanının hadisələri içərisində qələmə alınacaqdır.

[Sultan Məhəmməd mirzənin] üçüncü oğlu dünyanın və dünya sakinlərinin şahı və şahzadəsi, yəni Allahın kölgəsi olan əlahəzrət Şah Abbas Bahadır xandır ki, Məryəm şöhrətli Məhdi-Ülyadan doğulmuşdur. O vaxt (Şah Təhmasib vəfat edən zaman) onun şərəfli ömründən beş il yarım keçmişdi və o, Xorasan hakimi vəzifəsinə mənsub edilərək, Heratda yaşayırdı[690].

***Şah Abbasın anadan olmasının bəyanı.*** O səadət və bəxtiyarlıq gülşəninin nübarının və ulu Tanrının bəyənilmişinin uğurlu mövludu düşənbə gecəsində, ayların ən parlağı olan mübarək ramazanda, bəzi ayları 978-ci ilə (05.06.1570 - 25.05.1571) və bəzi ayları isə 979-cu ilə (26.05.1571 - 13.05.1572) müvafiq gələn türk təqviminin yunt ilinin axırlarında darüssəltənə Heratda baş vermişdir[691].

---

[690] S-297, v.95a.

[691] Buradan belə nəticə çıxır ki, I Şah Abbas 1570-ci ilin Novruzundan 1571-ci ilin Novruzuna kimi zamanı əhatə edən türk təqviminin yunt ilinin sonlarında, hicri-qəməri tarixinin 978-ci ilinin ramazan ayında (27.01-25.02.1571), həftənin düşənbə (bazar ertəsi) günündə anadan olmuşdur. Həmin il ramazan ayının düşənba günləri 1, 8, 15 və 22 fevrala təsadüf etmişdir (В.В.Цыбульский. Современные календари стран Ближнего и Среднего Востока. Москва, 1964, с.85). Yəni I Abbas 1571-ci ilin fevralında doğulmuşdur.

Onun dünyaya gəlişi ilə sanki cah-calal üfüqündən aləmi işıqlandıran elə bir günəş doğdu ki, zülmətli aləmi bəxtiyarlıq tələtinin nuru ilə rövşən etdi və sanki iqbaldan qaynaqlanan elə bir xoşbəxtlik ulduzu parladı ki, dünya adamları üzərinə öz qayğıkeşlik və xeyirxahlıq şüalarını saldı. Asiman carçıları o mübarək mövluddan cahan adamlarına əmin-amanlıq müjdəsi verdilər və qəzavü-qədər fərmanlarının icraçıları sevinc və şadlıq qapılarını yer üzünün sakinlərinin üzlərinə açdılar.

**Beyt**

«Kəramət bürcündən, uğurlu bəxtdən
Doğuldu aləmə nur saçan günəş.
Allahın lütfüylə par-par parladı,
Hümayun ulduzu şahlıq bürcündən.
İşıqlandı dövran onın nurundan,
İşıltısı insanlarda parladı.»

Günəş doğuşuna bənzəyən bu uğurlu doğumdan dünya adamlarında ümid tarlası cücərib, «pərvin» sünbülü kimi bar verdi və onun taleyinin sahibi Ütarid ulduzu (Merkuri planeti) olduğundan cahan adamlarının diləklərinin səhifələri ədalət və lütfkarlığın qızıl xətti ilə zinətləndi və yazıldı.

Onun təvəllüd vaxtından ta səltənət meracına qalxmasınadək o həzrətin xeyirli həyatında nadir hadisələr və qəribə əhvalatlar baş vermişdir. Bunlardan biri odur ki, o xoşbəxtlik və başucalıq məfhumlarının göz bəbəyinə (körpə Abbasa) süd vermək və onun qayğısını çəkmək səadətinə nail olmuş xidmətçi qadının həmin zaman heç bir övladı dünyaya gəlməmişdi ki, onun döşlərində süd olmuş olsun. Lakin o, qayğıkeşlik və mehribanlıqla döşünü o həzrətin mübarək ağzına qoydu və körpə onu əmən vaxt Allahın fərmanı və qadının günahsızlığının hikməti ilə o möhtərəm qulluqçunun döşündən süd fışqırdı. O xoşbəxtlik dənizinin gövhəri (körpə Abbas) həmin südü tamam rəğbətlə nuş etdi və xariqüladə olan bu qəribə işin baş verməsindən sonra o iffətli qadın həmin sevimli körpəyə dayəlik etmək səadətinə qovuşdu. Bu hadisə qəribə əhvalatların ən nadiri olduğuna görə qələmə alındı.

Dəqiq biliyə malik zəkalı insanlar bilirlər ki, bir şəxsin mənşəyi saf olarsa, dini və dünyəvi məsələlərdə bir sıra heyrətamiz işlər onun mübarək zatına əmanət qoyular, o, ilahi qüdrətin himayəsində olar və qəzavü-qədər emalatxanası onu bəsləyər və nizama salar. Bu məsələyə dair təəccüblü örnəklər vardır. Adlı-sanlı şahzadələr zümrəsindən məhz o xilafət və xoşbəxtlik dəryasının gövhərinin incisi (Şah Abbas) hər iki tərəfdən nəcib nəsildəndir. O, uca məqamlı atası və yaxşı xasiyyətli anası tərəfindən seyidlik və vilayət şəcərəsinin səmərəsi və səltənət və xilafət bağçasının barlı-bəhərli ağacıdır. Çünki o həzrətin ata və ana tərəflərindən

əcdadları gözəl davranış sahibləri, Allah əhli və onun dərgahının bəyənilmişləridirlər və bu böyük lütf səbəbindən o, uca Səfəvi sülaləsinin digər şahzadələri və hökmdarları ilə müqayisədə maddi və mənəvi səltənətə yüksəlmək baxımından üstünlüyə və imtiyaza malikdir. Belə ki, o səltənət və bəxtiyarlıq tacının mübarək gövhərinin (Şah Abbasın) atası İsgəndər şanlı nəvvab Əbu-qalib Sultan Məhəmməd şah Cəmşid məqamlı, cənnət məkanlı və behişt məskənli Şah [Təhmasib] həzrətlərinin böyük oğludur. Onun (Sultan Məhəmməd şahın) parlaq şöhrəti o qədər çox, məkanı o qədər yüksək, əsil-nəsəbi o qədər ali və ad-sanı o qədər ucadır ki, onun cahan vəsfedicilərinin təriflərinə və bəlağət söyləyənlərin mədhlərinə ehtiyacı yoxdur və o Yaqub[692] nişanəli xaqanın şərəfli şəcərəsi ali məqamlarını saymaqla qurtarmaq olmayan övliyalar sultanı və saflıq nümunəsi Şeyx Səfi əl-həqq vəl-həqiqət vəd-dinə gedib çıxır. O ilahi sirlər bilicisinin (Şeyx Səfiəddinin) kökü də bu şərəfli əsərin başlanğıcında qələmə alınan növlə peyğəmbər və imamlar nəslinə çatır.

Şah Abbasın ana tərəfdən əsil-nəsəbinin bəyanı. Onun şərəfli anası böyük banu Məhdi-Ülya Xeyrannisa bəyim özündə seyidliklə sultanlığı birləşdirən Mazandaran valisi Mir Abdulla xanın qızıdır ki, [bu sonuncu da öz növbəsində] aşağıdakı tərtiblə Mir Büzürg ləqəbi ilə məşhur olan rəhmətlik Seyid Qivaməddinin nəslindəndir: Mir Abdulla xan ibn Sultan Mahmud xan ibn Mir Əbdülkərim ibn Seyid Məhəmməd ibn Seyid Mürtəza ibn Seyid Əli ibn Seyid Kəmaləddin. Bu sonuncusu böyük Əmir Teymur Kürəkanın müasiri olmuş və tarix kitablarında yazıldığı kimi, Mahanə qalasına çəkilib, ona qarşı mühasirə şəraitində döyüş və vuruş aparmışdır. Həmin bu cənab adı çəkilən Mir Büzürgün oğlu idi. [Mir Büzürgün] şərəfli əsl-nəsəbi Seyid Əli əl-Mərəşiyə bağlanır və həmin səbəbdən bu sülalənin seyidlərini «Mərəşi» adlandırırlar. O cənab [Seyid Əli əl-Mərəşi] də öz növbəsində, «Tarix-i cahanara»da qeyd olunduğu kimi, səcdə edənlərin imamı və ariflərin qibləsi olan Həzrət İmam Zeynalabidinin - ona salam olsun - nəvə-nəticələrindəndir.

Sözün qısası, o rəhmətlik cənab (Mir Büzürg) yüksək hörmətə Hüseyni seyidlərindən olmuş, özündə maddi və mənəvi səltənəti birləşdirmiş, siyasi və dini məqamların meracına qalxmış, ruhani və dünyəvi dəqiqliklərin kəşfedicisinə çevrilmişdi. O, əvvəlcə Allahın köməyi ilə çalışqanlıq ətəklərini nəfsani arzulardan çəkib, din yolunda səy göstərmiş və möminlik vadisinə qədəm qoymuşdu. Bu sahədə yüksək məqamların dərəcələrinə ucaldıqdan sonra gizli [ilahi] divandan qismən Təbəristan məmləkətinin və o vilayətə daxil olan yerlərin halının rahatlığı hüsn-rəğbətlə o rəbbani arifə həvalə olunduğundan, təqdirə uyğun olaraq, Mazandarana tələsib, o diyarda məskunlaşdı və onun ulu xanəgahı həmin mülkün yüksək və aşağı təbəqələrdən olan insanlarının ziyarət yerinə çevrildi. O vilayətin

[692] Yaqub peyğəmbər nəzərdə tutulur. Burada Məhəmməd Xudabəndənin Yaqub peyğəmbərə bənzədilməsi onların hər ikisinin gözlərinin tutulması ilə əlaqədardır.

Çəlavilər sülaləsindən olan valisi Əfrasiyab o həzrətin təəssübkeşləri sırasına daxil olduqdan sonra onun müridlərinin çoxluğundan və [ziyarətə gələn] camaatının izdihamından narahat olub, o cənaba qarşı xəyanət mövqeyi tutaraq, onun dəf edilməsinə qərar verdi və özü şəxsən yaramaz adamlardan ibarət bir dəstə ilə seyidin xanəgahı üzərinə getdi. Beləliklə, şəriətə görə onun hücumunun dəf edilməsi o cənab (Mir Büzürg) üçün vacib oldu və o, müdafiə mövqeyi tutdu. İlahi təqdirə əsasən, qəzavü-qədərin əli ilə atılmış bir ox Əfrasiyaba dəyib, onu qətlə yetirdi və o cənab (Mir Büzürg) zəfər və qələbəyə nail olub, həmin mülkdə qılıncla xüruc edərək, maddi səltənəti özünün mənəvi xilafəti ilə birləşdirdi. O həzrətin xoşbəxt əhvalatının təfsilatı «Tarix-i Təbəristan» əsərinin müəllifi Seyid Zəhirəddinin[693] müfəssəl şəkildə qələmə aldığı tərzdədir və onun icmalı «Tarix-i həbibüs-siyər»də də qeyd olunmuşdur. Lakin həmin əhvalatın təfərrüatının burada yazılması uzunçuluğa səbəb olacağından, sözləri tərtibə salan qələm bundan vaz keçərək, Allahın kölgəsi olan əlahəzrət şahın səadətli təvəllüdünün şərhindən ibarət olan məqsədə geri qayıdır. Sözün qısası, o təmiz və iffətli Məhdi-Ülyanın ata-babaları nəsilbənəsil Təbəristan diyarında vali və hökmran olmuşlar.

Elə ki Allahın yaratdığı o nurun səadətli doğumu darüssəltənə Heratda baş verdi, səltənət və bəxtiyarlıq şəfəqləri onun mübarək alnında zahir oldu, xilafət və hökmdarlıq parıltısı bəxtəvər simasında işıq saçdı və parladı. Həmin vaxt adı çəkilən darüssəltənədə olan bilikli münəccimlər və fəzilətli ulduzşünaslar, xüsusilə də Mövlana Əbdüssəməd Herəvi ulduz falına baxmaqla o iqbal bürcünün ulduzunun taleyini məlum edib xəbər vermişdilər ki, tezliklə o həzrət yüksək hökmdarlıq rütbəsinə çatacaq, onun dövlətinin günəşi səadət üfüqünün ayparası arxasından doğacaq, onun dövlətinin şüaları dünya adamlarına ziya bəxş edəcək və bütün camaat onun mərhəməti və qayğıkeşliyi sayəsində rahatlıq tapacaqdır. Bəlağətli şairlər onun əziz mövludunun tarixini [əbcəd hesabı ilə] «padişah-i həft iqlim» («yeddi iqlimin padşahı») adlandırıb, bu üsulla nəzmə çəkmişlər:

**Tarix**

«Padşahlıq çəməninin pöhrəsi,
Cahanın gülzarında tutdu qərar.
Onun mövlud ili tale qələmindən,
Dürüst bir biçimdə qeydə alındı.
Bu tarix haqqında qəflətən bir səs,

[693] «Tarix-i Təbəristan» - burada söhbət XV əsr tarixçisi Seyid Zəhirəddin ibn Nəsirəddin Mərəşinin h. 881 / m. 1476-77-ci ildə Gilanın Biye-piş vilayətinin hakimi II Sultan Məhəmmədin oğlu və varisi Karkiya Mirzə Əli üçün yazdığı «Tarix-i Təbəristan u Ruyan u Mazandaran» («Təbəristanın, Ruyanın və Mazandaranın tarixi») əsərindən gedir (Ч.А.Стори. Персидская литература, ч. II, с. 1073-1074).

«Yeddi iqlimin padşahı» dedi»[694].

O yüksək məqamlı şəxsiyyətin səadətli təvəllüdünün baş verməsi barədə xəbəri onun adlı-sanlı atası (Sultan Məhəmməd mirzə) öz uca mənsəbli atasına (Şah Təhmasibə) çatdıraraq bildirdi ki, onun şanlı və əziz adının təyin olunması barədə hökmdarın fikri nədirsə, buyursun ki, o, bu adla çağırılsın. Təsadüfən, İsgəndər şanlı nəvvabın ərizəsi cənnətməkan şah həzrətlərinin mübarək nəzərinə çatan gün o, asimani bir ilhamla təkrar-təkrar bu beyti mübarək dili ilə söyləyirdi:

«Əlinin Abbası döyüşkən aslan,
Hicaz qoşununda odur komandan»[695].

[Şah Təhmasibin] cavab ərizəsi gəlib çatarkən də bu beyt orada qeyd olunmuşdu. Adət üzrə yoxluğun gizlinliyindən mövcudluq sahəsinə qədəm qoyan (yenicə dünyaya gələn) hər bir şahzadəyə dövlət xəzinəsindən xalça və beşik ləvazimatı bağışlanırdı. Cənnətməkan şah o səltənət və şəhriyarlıq bağçasının sərvi üçün mübarək dövlətxananın Çehelsütun eyvanında öz altına sərilmiş mübarək xalçanı beşik ləvazimatı ilə birlikdə göndərdi və sanki bəyənilmiş xüsusiyyətlərə malik zatına xas olan fərasət və irşadla anladı ki tezliklə o əzəmət və böyüklük bürcünün dürrü şahlıq taxtını bəzəyəcək və padşahlığın varisi olacaqdır və çox keçməz ki, onun dövlətinin günəşi cah-calal məşriqindən doğaraq, öz vüsal şəfəqlərini həmin [hökmdarlıq] məqamının və Keyvan misallı [Çehelsütun] eyvanının üzərinə salıb, bu gündən-günə çiçəklənən dövlətin həmişə-bahar gülşəninə yenidən canlanma və təravət bəxş edər, fitnəkarların və dağıdıcıların törətdikləri fəlakətlər üzündən pəjmürdəliklərin yol tapdığı səltənət və səadət çəməninə iti qılıncının zülalı ilə bahar günlərinin təravətini bağışlayıb, dövlətin qüvvəsi, iqbalın müjdəsi, rəyinin düzgünlüyü, şəxsiyyətinin dərrakəsi, ağlının gücü və tədbirinin gözəlliyi ilə bədxahların və pis əməl sahiblərinin layiqli cəzasını verər.

Xülasə, südəmər vaxtından ta səltənət və hökmdarlıq zamanına qədər qeybdən gələn və o həzrətin yüksək səltənət və hökmdarlıq mərtəbəsinə çatacağını xəbər verən nişanələrin, əlamətlərin və işarələrin sayı çoxdur. O cümlədən, cənnətməkan şahdan nəql olunan və doğru danışan rəvayətçilərdən eşidilmiş bir-iki qəribə, xariqüladə hadisə vardır ki, onlar yüksək ehtişamlı [Şah Abbasın] mənəvi səviyyəsinin ucalığına münasib olduğu üçün kəlamın uzanmasından çəkinməyərək, onları burada qeyd etmək vacibdir. [Bu hadisələrdən] biri budur ki, o dövlət və səadət bağçasının nübarının doğumu haqqında xoş xəbər yüksək cah-calallı saraya çatmazdan öncə cənnətməkan şah o həzrətin (Şah Abbasın) böyük qardaşı olan və uca mənsəbli babasının hüzurunda bulunan Sultan Həsən mirzə cənablarına

---

694 «Padişah-i həft iqlim» («yeddi iqlimin padşahı») ifadəsinin əbcəd hesabı ilə cəmi 978-ci hicri ilinə bərabərdir.
695 Bu şeirdə «Əlinin Abbası» deyilərkən Həzrət Əlinin oğlu Həzrət Abbas nəzərdə tutulmuşdur.

müraciət edərək buyurmuşdu ki, darüssəltənə Heratdan qasid gəlib elə bir xəbər gətirəcək ki, mənimlə sənin gözlərimizə sevinc dolacaq. Məhz bundan sonra qasid gəlib, qeyd edildiyi kimi, o həzrətin təvəllüd müjdəsini gətirdi. [Qəribə hadisələrdən] digəri odur ki, ali dərəcəli şahzadənin səadətli təvəllüdündən sonra [Şah Təhmasibin] əmrinə uyğun olaraq darüssəltənə Herata getmiş bir böyük qorçu oradan geri qayıtdıqda cənnətməkan şah o bəyənilmiş xüsusiyyətli [şahzadənin] görkəmi və xüsusiyyəti barədə ondan soruşdu. Həmin şəxs sanki düşüncəsinin azlığından və dərrakəsinin yoxluğundan o həzrətin (körpə Abbasın) xüsusiyyətlərini lazım olduğu kimi bəyan etmədi. Həzrət şah hiddətlənib buyurdu:

- Axı sənin o yüksək məqamlı şahzadənin halından nə xəbərin ola bilər?! O, bu kəramətli xanədanın göz bəbəyi olacaq və sülalənin çırağını şölələndirəcəkdir.

Bu sözlərin ardınca [Şah Təhmasib] yuxarıda qeyd olunmuş «Əlinin Abbası döyüşkən aslan, Hicaz qoşununda odur komandan» beytini bir daha mübarək dilinə gətirdi. [Şah Təhmasibin] mübarək dilindən çıxan hər nə vardısa, tezliklə baş verirdi. Bu [Səfəvi] sülaləsinin hər biri dünyəvi hakimiyyət istedadına və bacarığına malik olan ali dərəcəli şahzadələri arasından bu uca mərtəbəyə qalxmaq şərəfi yalnız o xilafət bağçasının sərvinin (Şah Abbasın) qabiliyyətli qamətinə rast gəldi və məhz o, ən yüksək maddi və mənəvi səviyyələrə ucaldı. O bəyənilmişin əziz əhvalatının şərhində təfərrüata yol vermək burada kəlamın böyüməsinə və sözün uzanmasına gətirib çıxarsa da, o həzrətin əhvalatının başlanğıcından, onun Xorasan mülkünün hakimliyinə təyin olunmasının səbəbindən və o dəyərli gövhərin darüssəltənə Heratda qalmasından bir neçə hekayəni sözləri tərtibə salan qələmlə bu məqalə daxilində qeyd etmək lazım görüldü.

Bilikli aqillərə və müdrik ziyalılara səmanın şərqindən doğan günəş kimi zahir və aydındır ki, hərgah ilahinin yüksək divanında «ey mülkün sahibi olan Allahım, sən mülkü dilədiyin şəxsə verirsən, dilədiyindən çəkib alırsan» [ayəsinə][696] uyğun surətdə uca səltənət və səadət mənsəbi hansısa bir dövlət sahibinin şanlı adına təqdir qələmi ilə yazılarsa və əgər əhvalatın başlanğıcında o iqbal yiyəsinin zəfər məfhumlu halına qarşı hər biri dünyanın zahiri görənlərinin nəzərində ruhani mənsubluğun qırılmasına səbəb olan çeşidli təzyiqlər və möhnətlər yönələrsə, onda əzəli bəlağət hikmətinin zərurətindən Tanrının himayəsi o cahan bəyənilmişinin müqəddəs zatını elə bir növlə hadisələrin fəlakətlərindən və zərərlərindən mühafizə edər ki, bu iş dövranın dərrakə sahiblərinin heyrətinə səbəb olar və axırda məna aləminin uzaqgörənləri baş verənlərin gedişatından anlayarlar ki, o xoşagəlməz hadisələrdə əzəli [Allahın] qüdrət əli ilə minlərlə hikmət və dövlətin xeyrinə olan məsələlər əmanət qoyulubdur, Allahın himayəsi altında olan dövlət sahibinin əziz vücudu dünyanın bəlasından və az düşüncəli yüngülbeyinlərin zülmündən və xəyanətindən müdafiə və mühafizə olunmaqdadır.

---

[696] «Qurani-Kərim», «Ali-İmran» surəsi, 26-cı ayə.

## Beyt

«Bütün dünya qılıncları cövlan etsə havada,
Bir damar da kəsə bilməz, imkan verməsə Xuda».

Mələklərin qoruduqları Cəmşid səviyyəli həzrət şah və şahzadə, Allahın lütfünün məzhəri, Həzrət Rəbbin həbibi [Məhəmməd peyğəmbərin] əmisi [Abbasın] adaşı, yəni Allahın kölgəsi olan əlahəzrət şahın mübarək əhvalatının surəti barədə bu girişi verməkdə məqsəd ondan ibarətdir ki, çoxlu böyük şövkətli hökmdarlar öz fəaliyyətlərinin başlanğıcında dövranın hadisələrinə qatlaşıb axırda qismətin gücü və öz uğurlu bəxt ulduzlarının müjdəsi ilə rəhbərlik meracına ayaq basaraq, böyük mətləblərə və uca məqsədlərə nail olsalar da, [dünyanın] yaranışının başlanğıcından və [insanların] xəlq olunmasının ibtidasından bəri ki, insanın nəcib vücudunun «and olsun ki, biz Adəm oğullarını şərəfli qıldıq» ayəsinin[697] kəramətinin şərəfi ilə iftixarlı və şübhəsiz «biz səni yer üzünün xəlifəsi etdik» ayəsinin[698] xitabı ilə imtiyazlı olub və xoşbəxt sultanların müqəddəsliyinin parıltısının fərqi xilafət və bəxtiyarlıq tacına bəzək və zinət vurub, o həzrətin südəmər və körpə çağlarından başlayaraq ta dövlət meracına qalxmasınadək ona üz verən dövran hadisələri, ona zidd olanların qəsdləri, düşmənlərin pis əməlləri, peşəsi səfehlik olan qəflətə bürünmüş satqınların xəyanətləri və onun öz [hakimiyyəti] əyyamında ölkə idarəçiliyi, hökmdarlıq və dünya işlərinə intizam bəxş etmək yolunda çəkdiyi məşəqqətlər və təşvişlər yüksək dərəcəli hökmdarlardan heç birisinin başına gəlməmişdir. Bu kimi məsələlərdən bir qismi bu dəftərin sonrakı hissələrində yeri gəldiyincə qeyd olunacaqdır.

Tifillər üçün şiddətli əzaba çevrilən hadisələrdən biri onun öz mehriban ata və anasından ayrı düşməsidir. Belə bir hadisə yaşayış çağının başlanğıcında və südəmər əyyamında, hələ şərəfli ömründən bir il altı ay keçməmiş, o həzrətin mübarək həyatında baş vermiş və o, öz ata-anasından ayrı düşmüşdü. Bu mövzunun təfərrüatının və bu əhvalatın baş verməsinin icmalı aşağıdakı kimidir. Darüssəltənə Herat şəhərində Həzrət [Şah Təhmasibin] oğlu olan [Xorasan] vilayətinin valisi Əbülmüzəffər Məhəmməd mirzə ilə lələsi Şahqulu sultan Yegan arasında araqarışdıranların fəsadı ilə ixtilaf meydana gəlmişdi. Onlar bir-birinin rəftarından narazı qalmış, bir neçə dəfə ali taxtın ətəklərinə şikayət ərizəsi göndərmişdilər. Cəmşid məqamlı cənnətməkan şah həzrətləri bundan sonra onların arasında sağlam münasibət və barışıq yaratmağın mümkün olmaması səbəbindən şərəfli xatirinin iradəsi ilə belə qərara gəldi ki, Allahın kölgəsi olan kama çatmış şah (Abbas) həzrətlərinin doğma qardaşı olan və o zaman yeddi yaşında bulunan adlı-sanlı xoşbəxt şahzadə Sultan Həmzə mirzəni atasının yerinə darüssəltənə Heratda [hakim] təyin edib, onun ali şöhrətli atasını vaxtı ikən Müzəffərilər

[697] "Qurani-Kərim", "İsra" surəsi, 70-ci ayə.
[698] "Qurani-Kərim", "Sad" surəsi, 26-ci ayə.

dövlətinin paytaxtı olmuş darüssəltənə Şiraza göndərsin. Bu barədə hökmdar fərmanı yazıldı. Sultan Məhəmməd mirzə cənabları və onun möhtərəm hərəmi hökmdar fərmanının gəlib çatmasından sonra sevinc və şadlıq izhar etsələr də, öz sevimli övladları olan Sultan Həmzə mirzəni orada qoyub gedəcəklərinə görə çox kədərləndilər. Gözlərinin qarası olan o oğlandan ayrı düşmək onlara çətin və ağır gəlirdi. Onlar yenidən [Şah Təhmasibə] ərizə yazıb, belə bir xahiş etdilər: «O möhtərəm oğul (Həmzə mirzə) ata və anasına qəlbən çox bağlıdır və əgər bizdən ayrı düşərsə, ehtimal ki, bu ayrılığa və hicrana tab gətirməz, mənəvi sıxıntı keçirər və bundan da ona zərər dəyməsi qorxusu yarana bilər. Həmçinin anası da onsuz yaşaya bilməz. Səltənətin göz bəbəyi olan Abbas hələ südəmər bir tifil olduğuna və öz dayəsindən savayı heç kimə bağlılığı və ülfəti olmadığına görə, əgər şəhriyarın əmri olarsa, o, Heratda qalsın ki, Sultan Həmzə mirzə öz ata-anası ilə birlikdə Şiraza yollansın».

Cənnətməkan şah həzrətləri [Məhəmməd] mirzə cənablarının könlünün xoş olmasının qeydinə qaldığı üçün bu xahişi qəbul edib, bu barədə hökm verdi və İsgəndər şanlı nəvvab əlahəzrət Şah [Abbası] Heratda qoyub, özü yuxarıda qeyd olunduğu kimi, digər oğulları ilə birgə Şiraza yollandı. O iqbal gülşəninin nübarının hökmükeçən sultanların taxtgahı olmuş Heratda və agahlıq büsatının təməlində qalmasından müşahidə etmişlər ki, tezliklə o səltənət və səadət bostanının bəzəkli çəməninin fidanı iqbal bağçasında boy atıb, murad səmərəsi ilə dövlətin barverəni olacaq və kama qovuşacaqdır. Belə ki, cənnətməkan şah həzrətləri də öz uşaqlıq çağında Süleyman şanlı, behişt məskənli xaqanın (I Şah İsmayılın) fərmanına uyğun olaraq, o gözəl şəhərdə boy atmışdı və axırda qardaşları arasından məhz o, İran səltənətinin səadətli taxtına şərəfli vücudu ilə əyləşmişdi. Həmçinin o həzrətin (Şah Təhmasibin) adlı-sanlı övladlarından da hər kim ki, Xorasan səltənətinə sahib olmuşdur, sonradan hökmdarlıq rütbəsinə yiyələnmişdi. O cümlədən, o iqbal sahibi (Şah Abbas) da iki yaşında ikən Xorasan məmləkətinin səltənətinə və hakimiyyətinə yiyələnmiş və öz ali şöhrətli atasının və behişt məskənli babasının yerinə əyləşməklə şərəflənmişdi. Şahqulu sultan onun lələsi vəzifəsinə təyin olunmuş və o əziz cövhərin xosrovani beşiyini sədaqətli ağuşunda saxlayaraq, onu bəsləmişdi.

Vaqiəyazanın qələmi bu iqbal səmasının günəşinin (Şah Abbasın) uğurlu əhvalatından xoşbəxt bir başlanğıcı bəyan səhifəsinə yazdıqdan sonra, indi qələmini sürətlə digər şahzadələrin həyatlarının şərhinə çevirir.

İsgəndər şanlı nəvvabın dördüncü oğlu Əbu-Talib mirzədir O cənnətməkan şah həzrətlərinin xəstələndiyi ildə Məryəm şöhrətli xanım Məhdi-Ülyanın bətnindən təvəllüd tapmışdı və uca mənsəbli babasının vəfatı ilində iki yaşında idi. O, valideynlərinin tərbiyəsinin hücrəsində boy atmışdı. Bu cildin axırında qeyd olunacağı kimi, 994-cü (1586) ilə müvafiq gələn it ilində mərhum şahzadə Sultan Həmzə mirzə şəhidlik dərəcəsinə çatdıqdan sonra Əbu-Talib mirzə ali divanın vəkili («vəkalət-i divan-i ali») vəzifəsinə təyin olunaraq, Əliqulu xan Fəthoğlu

Ustaclu və Vəli xəlifə Şamlunun oğlu İsmayılqulu xan Təvaçıbaşının[699] simasında o zamanlar dövlət işlərinin ixtiyar sahibi olan əmirlərin və dövlət ərkanının razılığı və dəstəyi ilə vəliəhdliyə nail oldu. Tonquz ili olan 995-ci (1587) ildə Allahın kölgəsi olan əlahəzrət şahın mübarək gəlişinin təntənəsi İraqa yayıldıqda və o, irsi səltənət taxtına cülus etdikdə Əbu-Talib mirzə kiçik qardaşı Təhmasib mirzə ilə bir müddət qalada (həbsdə) saxlandılar. Nəhayət, bars ili olan 998-ci ildə (10.11.1589 - 29.10.1590) onlar İsfahanın Təbərrük qalasında olarkən əmirlərdən və əyanlardan bəzilərinin səyi ilə hər ikisi kor edildilər.

[Sultan Məhəmməd Xudabəndənin] beşinci oğlu Təhmasib mirzədir. O, Şah [Təhmasibin] vəfatından sonra yoxluğun gizlinliyindən mövcudluğun ərazisinə qədəm qoyaraq, darülmülk Şirazda şanlı xanım Məhdi-Ülyanın bətnindən təvəllüd tapmış və yüksək mənsəbli babası dünyadan köçdüyü üçün o həzrətin şərəfli adı ilə adlandırılmışdı. O da qardaşları kimi valideynlərinin qayğısı və şəfqətinin kölgəsi altında boy atdı. Təxaquy ili[700] olan 993-cü (1585) ildə, öz yeri gələndə bəhs olunacağı kimi, təkəlü və türkman tayfaları Əmir xan Türkmanın qətli səbəbindən mərhum şahzadə Sultan Həmzə mirzə ilə münaqişəyə başladıqda onu (Təhmasib mirzəni) Təbrizdən oğurlayaraq, özləri ilə İraqa apardılar. Onlar şahzadə [Təhmasib mirzəni] himayə etmək mövqeyində duraraq, Nəvvabi-Cahanbani Sultan Həmzə mirzə ilə döyüşüb, məğlub oldular. Şahzadə (Təhmasib mirzə) əsir düşüb, Ələmut qalasında məhbus edildi. Yuxarıda qeyd edildiyi kimi, o, axırda İsfahanın Təbərrük qalasında qardaşı ilə birlikdə kor edildi.

Beləliklə, İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın əziz övladlarının adları bir-bir qeyd edildikdən sonra, indi cənnətməkan şahın kama çatmış digər adlı-sanlı övladlarının adları bəyan qələmi ilə yazılacaqdır.

O həzrətin (Şah Təhmasibin) ikinci oğlu İsmayıl mirzədir. O da Musa sultan Mosullunun qızı olan böyük xanım Sultanımdan təvəllüd tapmışdır və Sultan Məhəmməd mirzə cənablarının doğma qardaşıdır. [İsmayıl mirzə] adlı-sanlı atasının yanında böyümüş, həmişə onun şəfqət və tərbiyəsinin nəzərləri altında olmuş və həyatının üzərində şahın qayğıkeşlik nurları əks olunub parlamışdır. 962-ci ildə (26.11.1554 - 15.11.1555) islam məmləkətlərinin bəyənilmişi Şah Nemətulla Yəzdinin cənnətməkan şah həzrətlərinin bacısı olan mərhumə Xanış bəyimdən vücuda gəlmiş qızı onun (İsmayıl mirzənin) nikahına daxil oldu. Bu münasibətlə Təbrizin Şimalabad adlı könül oxşayan bağında böyük bir şənlik məclisi təşkil edilib, elə bir toy quruldu ki, hələ də həmin ziyafət və şadyanalıq qızılbaşlar arasında aşağı və yuxarı təbəqədən olan insanların dillərində əzbərdir. Beləliklə, o həzrətin (Şah Təhmasibin) atalıq şəfqətinin çoxluğu şəraitində onlar

---

[699] Tehran nəşrində (s.132) «təvaçıbaşı» əvəzinə səhvən «topçubaşı» yazılmışdır. Təvaçılar müharibə gözlənilən təqdirdə dövlətin tabeliyində olan əyalətlərə gedərək hərbi qüvvə toplayan əmirlər olmuşlar. Onlar döyüşçüləri səfərbər edir, ordunun haraya toplaşacağını bildirirdilər (Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi, s.61). Təvaçıların başçısı «təvaçıbaşı» adlanırdı.

[700] Həmin tarixdə türk təqviminin təxaquy ili 21.03.1585-20.03.1586-cı ili əhatə etmişdir.

(İsmayıl mirzə və xanımı) bu cür şahanə şənlikdə və xosrovanə şadlıq məclisində qazının hüzurunda durdular (nikah bağladılar). O səadətli yığıncağın iştirakçılarının hər birisi öz vəziyyətinə münasib və zəmanənin tələbatına uyğun məbləğdə şabaş (nəmər) verdilər. Şənlik və saz əhli və nəğmə deyən müğənnilər həmin toyda toplanmış şabaşın (nəmərin) çoxluğundan razı qaldılar.

Lakin o, (yəni İsmayıl mirzə) bu ali mərtəbənin və şahanə şəfqətlərin qədrini bilməyib, yüksək mövqeli atasının mübarək xatirinə acıq gələn işlərə baş qoşdu. Buna görə də şah həzrətləri şahzadənin hökmdarın hüzurunda qalmasını məsləhət bilməyərək, 963-cü ildə (16.11.1555 - 03.11.1556) Sultan Məhəmməd mirzə cənablarını darüssəltənə Heratdan orduya (şahın düşərgəsinə) tələb edib, İsmayıl mirzəni Herata göndərdi. Hökmdarın fərmanına əsasən. Əli sultan Təkəlü onu Herata çatdırdı və Sultan Məhəmməd mirzəni [saraya] gətirdi. Lakin Əli sultan Savucbulağ[701] yaxınlığında [hökmdarın] qəzəbinə tuş gəlib, qorçuların təpik zərbələri ilə həlak edildi. Bunun ehtimal edilən yeganə səbəbi kimi onun [İsmayıl] mirzə cənablarını [Herata] apararkən onunla gizli əhd və şərt kəsmiş olmasını göstərmək olar. Doğrusunu Allah bilir.

Eyni zamanda, [İsmayıl] mirzənin Xorasandakı davranışı da Əşrəfin xoşuna gəlmirdi. Bəzi məmləkət mənafeləri və dövlətin maraqlarının qorunması üçün qısa bir müddət sonra şahzadə cənabları o vilayətin hakimliyindən də azad edildi və hökmdarın əmrinə müvafiq olaraq, qorçubaşı Sevindik bəy Əfşar Herata gedib, onu Təbəs və Yəzd yolu ilə gətirib gəldi. Elə ki onlar gəlib Savəyə[702] çatdılar, vəkilüssəltənə Məsum bəy Səfəvi gedib, onu (İsmayıl mirzəni) Savədən Qəhqəhə qalasına apardı. Yuxarıda qeyd olunduğu kimi, Sultan Məhəmməd mirzə cənabları yenidən Herata təşrif apardı. İsmayıl mirzə isə on doqquz il, altı ay və iyirmi bir gün ərzində o qalada qalmalı oldu. Atasının ölümü vaxtı o, qalada məhbus idi və qırx yaşı vardı. O zaman onun Şah Nemətulla Yəzdinin qızından doğulmuş bir qızdan savayı, övladı yox idi[703]. Cənnətməkan şahın ölümündən və Sultan Heydər mirzənin şəhidliyindən sonra o, yüksək səltənət və hökmdarlıq mərtəbəsinə çatdı. İnşallah[704], həmin hadisə bu dəftərin sonrakı hissələrində öz yeri gəldikdə qələmə alınacaqdır.

[Şah Təhmasibin] üçüncü oğlu Sultan Heydər mirzədir. O, gürcü böyüklərindən və əyanlarından birinin cənnətməkan şah həzrətlərinin pak zövcələri silkinə mənsub olan möhtərəm bir qızından təvəllüd tapmışdı. Onun doğum tarixi bu əsərin müəllifinə məlum deyildir. Amma o, cənnətməkan şah həzrətlərinin vəfatı zamanı iyirmi iki yaşında idi. Bu hesabla götürsək, o, 962-ci ildə (26.11.1554 -15.11.1555) anadan olmuşdur. [Sultan Heydər mirzə] doğumundan atasının ölümünə qədər ulu dərgahda yaşamış və yüksək mövqeli atasının

---

[701] Savucbulağ - İran Azərbaycanında, Urmiya gölündən cənubda yerləşən indiki Mehabad şəhəri.
[702] Savə - İranda, Həmədanla Rey arasında yerləşən şəhər.
[703] S-297, v.95a.
[704] S-129, v.116b.

tərbiyəsinin və şəfqətinin kölgəsi altında böyümüşdür. Mötəbər əmirlərdən birinin oğlu olan Sədrəddin xan [hökmdarın] əmri ilə şahzadəyə xidmət göstərməyə cavabdeh edilmişdi. Şah həzrətlərinin bu şahzadəyə böyük bir rəğbəti vardı. Eyni zamanda, o da atasının razılığına müvafiq gələn davranış nümayiş etdirirdi. Ömrünün axırlarında bəzi dövlət işlərinin və səltənət məsələlərinin həllinə çox da baş qoşmayan [Şah Təhmasib] onları şahzadə [Sultan Heydər mirzəyə] tapşırırdı. [Sultan Heydər mirzə] atasının onu lap çox istəməsi baxımından digər qardaşlarına nisbətdə imtiyaza malik idi. Məhz o səbəbdən idi ki, şahzadələrin və qızılbaş tayfalarının əmirlərinin nəzərində [Sultan Heydər mirzənin] qədir-qiyməti günbəgün artırdı. Bütün bunlar ona gətirib çıxarmışdı ki, [Sultan Heydər mirzə] o həzrətin (Şah Təhmasibin) zahiri hüsn-rəğbətinin təsirindən, özünün cavanlıq qürurundan və nəfsani təxəyyüllərindən öz-özünə vəliəhd və padşah olacağını qərarlaşdırmışdı. Əksər qoşun başbilənləri, xüsusən də şeyxavənd və ustaclu tayfaları, həmçinin gürcü təbəqəsi və qeyriləri onun səltənət başına keçəcəyinə könül bağlayıb, cənnətməkan şahın ölümündən bir-iki il öncə baş vermiş xəstəliyi vaxtı hövsələsizlik göstərərək, sufiliyə və ixlasa zidd olan bəzi pis işlər törətmişdilər. Bu məsələ yuxarıda [Şah Təhmasibin] xəstəlik günlərinin hadisələri daxilində ətraflı şəkildə qələmə alınmışdır. Bu hadisələr üzündən şahzadəyə (Sultan Heydər mirzəyə) bir qədər xəcalət vurulmuş oldu. Buna baxmayaraq, o həzrət (Şah Təhmasib) xəstəlikdən sağaldıqdan sonra heç bir tədbir görməyərək, özünü bilməməzliyə vurdu. Buna görə də onun möhtərəm oğlu [Sultan Heydər mirzəyə] münasibətdə iltifatsızlıq üz vermədi və o, əvvəlki qaydada [şahın] hüsn-rəğbətinin nəzərləri altında yaşadı. Nəhayət, o, bu cildin sonrakı hissələrində gözəl yazan qələmlə ətraflı surətdə qeyd olunacağı kimi, adlı-sanlı atasının qəmgin [vəfat] hadisəsindən bir gün sonra, 984-cü ilin səfər ayının 16-da (15.05.1576) şəhidlik dərəcəsi tapdı. Onun hakimiyyətinin fərmanı qəzavü-qədər lövhəsində əksini tapmadığı və ömrünün gündəliyi sona çatdığı üçün başına belə bir iş gəldi. Çox əməlisaleh, pəhrizkar, rəhimdil idi və insanlara münasibətdə şəfqətli, mehriban və ədalətpərvər idi. Bir qızından savayı, başqa bir övladı yox idi.

O həzrətin (Şah Təhmasibin) dördüncü oğlu Sultan Süleyman mirzədir. O, Şamxal sultan Çərkəzin hökmdarın pak zövcələri zümrəsinə daxil olan bacısından təvəllüd tapmışdı və günahları bağışlanmış atasının (Təhmasibin) vəfatı vaxtı iyirmi bir yaşında idi. Cəmşid məqamlı cənnətməkan şah həzrətləri onu tifillik çağında müqəddəs və ulu Məşhəd şəhərinə göndərdi, Məşhəd hakimini şahzadənin lələsi təyin etdi, şahzadəyə fəzilət və kamal öyrətmək üçün bir müəllim ayırdı, həmçinin cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) məqbərəsinin xadimbaşılığı vəzifəsi ona həvalə olundu və o, bir müddət bu xidmətlə məşğul oldu. 978-ci ildə (05.06.1570 - 25.05.1571) Şahvəli sultan Tatıoğlu Zülqədər müqəddəs Məşhədin hakimi vəzifəsindən çıxarıldıqda şahzadə orduya (hökmdar iqamətgahına) çağırıldı. O, ulu dərgaha gələrək, yüksək mövqeli atasının hüzurunda əziz və möhtərəm oldu. Cənnətməkan şahın ölümündən sonra, işi-gücü

şahzadələrin aradan qaldırılmasından ibarət olan İsmayıl mirzənin hakimiyyəti əyyamında bu şahzadənin işini bitirməyi öz dayısı Şamxal sultan Çərkəzə tapşırdılar. Bu sonuncu şəxs də İsmayıl mirzənin yanında özünə etibar qazanmaq üçün onun aradan götürülməsi işini icra etdi. Bu barədə [İsmayıl mirzənin] hakimiyyəti zamanının hadisələri içərisində bəyan qələmi ilə yazılacaqdır.

O həzrətin (Şah Təhmasibin) beşinci oğlu Sultan Mustafa mirzədir. Onun anası gürcü tayfasından olub, cənnətməkan şah həzrətlərinin kənizləri sırasına daxil idi. [Sultan Mustafa mirzə] yüksək mövqeli atasının vəfatı zamanı iyirmi yaşında idi, öz atasının hüzurunda yaşayırdı və iki qızı vardı[705]. Cənab mirzənin lələliyi ustaclu [tayfasının] böyük əmirlərinə məxsus idi və o, ustaclular arasında böyümüşdü. Çox qabiliyyətli, bacarıqlı və xoşsima bir şəxs idi. Gilanın Biye-piş [vilayətinin] fəthi əyyamında ki, gilanlılar bir-iki dəfə yağı olmuşdular və onların üzərinə qoşun göndərilmişdi, o zaman cənab mirzə də həmin xidmətə məmur edilib, döyüşdən qalib çıxmış və əyalət hakimi rütbəsi alaraq, ordu və qoşun sahibi olmuşdu. Mirzənin lələsi Nəzər sultan öldükdən sonra onun lələliyi Nəzər sultanın yerinə əyalət hakimi dərəcəsi əldə etmiş Hüseyn bəy Yüzbaşıya verildi. O, (yəni Sultan Mustafa mirzə) bütün məsələlərdə Sultan Heydər mirzə ilə müttəfiq idi. Cənnətməkan şahın ölümündən sonra ustaclu əmirləri Sultan Heydər mirzəni padşahlığa yüksəltmək üçün ittifaq edib dövlətxana üzərinə getdikləri vaxt [Sultan Mustafa] mirzə onlarla birlikdə idi. Sultan Heydər mirzənin şəhid olmasından sonra onun tərəfdarları arasında təfriqə düşən zaman [Sultan Mustafa] mirzə Qəzvindən çıxıb, öz mülazimlərindən olan bayat elinin yanına getdi. Lakin Hacı Üveys sultan Bayat onu ələ keçirib İsmayıl mirzənin hüzuruna gətirdi və onun işini bitirmək Pirə Məhəmməd xan Ustacluya tapşırıldı. Ustaclu əmirləri öz faydalarını onun tələf edilməsi və edam olunmasında görüb, Pirə Məhəmməd xanın evində o növcavan şahzadəni boğaraq həlak etdilər. Bu məsələ İsmayıl mirzənin hakimiyyətinin hadisələri daxilində təsvir olunacaqdır.

O həzrətin (Şah Təhmasibin) altıncı oğlu onun bir cariyəsindən təvəllüd tapmış Sultan Mahmud mirzədir. O, yüksək məqamlı atasının hakimiyyəti sona çatarkən on səkkiz yaşında idi. Bir müddət Gilanın Biye-piş [vilayətinə] hakim təyin olunub, Lahican şəhərində yaşamışdı. Lakin gilanlıların yağı çıxmaları və fitnə-fəsad salmaları üzündən, [şahın] əmrinə əsasən, geri çağırılmışdı. O, cənnətməkan şahın [hakimiyyəti] zamanının axırlarında Şirvan hakimi vəzifəsinə gətirildi və Araz xan[706] onun lələsi və atalığı təyin edildi. Amma yüksək mövqeli atasının vəfatı zamanınadək ali taxtın ətəklərində qalıb, Şirvana getmədi və rumlu tayfası arasında yaşamadı. Lakin Araz xanın oğulları onun xidmətində durmağa cavabdeh idilər və [rumlu tayfasının] əmirləri İsmayıl mirzənin tərəfdarları olduqlarından [Sultan Mahmud] mirzə cənabları da bu məsələdə onlarla müttəfiq

---

[705] S-129, v.95a.

[706] Tehran çapında Araz (Aras) xan əvəzinə (s.134) Əvəs xan yazılmışdır.

idi. O da İsmayıl mirzənin hakimiyyəti zamanında Məhəmməd Bağır mirzə adlı tifil oğlu ilə birlikdə şəhidlik şərbətini içdi. Bu barədə daha sonra yazılacaqdır.

O həzrətin (Şah Təhmasibin) yeddinci oğlu İmamqulu mirzədir. O, gürcü təbəqəsinin mötəbər şəxslərindən olan Zal bəy Gürcünün bacısından təvəllüd tapmışdı və yüksək mövqeli atasının vəfatı zamanı on dörd yaşında idi. Cənnətməkan şah həzrətləri onu Gilanın Biye-piş [vilayətinin] darülmülkü və hökumətgahı olan Lahicana vali təyin etmişdi. O, həmin şəhərdə məskunlaşmışdı və Pirə Məhəmməd xan Ustaclu onun lələsi idi. İsmayıl mirzənin cülusu zamanı Pirə Məhəmməd xan Gilandan çıxıb yeni hökmdarı qarşılamağa gedərkən [İmamqulu mirzə] cənablarını da özü ilə gətirdi. [İmamqulu mirzə] Zəncanrudun Qarabağ üləngində qardaşının görüşünə gəlib çatdı. O, bir müddət [İsmayıl mirzənin] zahirən mərhəmət və şəfqətinin nəzərləri altında yaşasa da, nəhayət, darüssəltənə Qəzvində digər qardaşları ilə birlikdə ömrünə və həyatına vida edərək, axirət aləminə tələsdi. Bu barədə daha sonra yazılacaqdır.

O həzrətin (Şah Təhmasibin) səkkizinci oğlu Sultan Əli mirzədir. O, Sultan Mustafa mirzə ilə eyni anadan doğulmuşdu. [Şah Təhmasib ölərkən] on dörd yaşında idi və Gəncə şəhərində yaşayırdı. Qarabağ bəylərbəyisi İbrahim sultan Ziyadoğlu onun lələsi idi. İsmayıl mirzə zamanında qacar [tayfasının] ağaları, hökmdarın əmrinə uyğun olaraq, onu orduya (saraya, şah düşərgəsinə) gətirdilər. O, şahzadələrin şəhid edilməsindən bir qədər sonra Qəzvinə çataraq, qardaşının hüzuruna gəlməyə nail oldu. İsmayıl mirzənin göstərişi ilə onun gözləri çıxarılıb kor edildi. Bu səhifə yazılarkən o, hələ də həyatdadır və bu gün Allahın kölgəsi olan əlahəzrət şahın rəğbətinin və şəfqətinin kölgəsi altında əziz, istəkli və asudə bir vəziyyətdə yaşayışını sürdürməkdədir.

[Şah Təhmasibin] doqquzuncu oğlu Sultan Əhməd mirzədir.

Şah həzrətləri ona «Sultan Əhməd Bağdadi» deyə xitab edərdi. Onun anası cariyələr zümrəsindən idi. O həzrətin (Şah Təhmasibin) vəfatı zamanı bu şahzadənin on üç yaşı vardı. Lələsi Əmiraslan sultan Ərəşlü Əfşar idi və bir müddət onunla birgə İsfahanda qalmışdı. Elə həmin ərəfədə hökmdarın əmrinə uyğun olaraq, orduya gətirilib, adlı-sanlı atasının hüzurunda hörmət və izzətlə yaşamışdı. Əfşar tayfası, xüsusilə də ərəşlülər İsmayıl mirzənin tərəfdarları silkinə daxil olduqlarından [Sultan Əhməd mirzə də] lələsinin istəyinə tabe olaraq, bu yolu tutmuşdu. Lakin İsmayıl mirzə zamanında o da digər şahzadələr kimi yoxluq yoluna göndərildi (öldürüldü).

***Şah Təhmasibin qızlarının adları.*** Cənnətməkan şahın möhtərəm qızları səkkiz nəfər olmuşdur. Əvvəlincisi Gövhər-sultan bəyimdir. O, mərhum Bəhram mirzənin oğlu Sultan İbrahim mirzənin həyat yoldaşı idi. [İbrahim] mirzənin öldürülməsindən sonra bir neçə gün ərzində etdiyi nalənin və ahu-zarın, çəkdiyi qəm-qüssənin və matəmin çoxluğundan zəiflik yatağına uzanıb, axirət səfərinə yollandı. Onun bir qızından savayı, başqa övladı yox idi.

İkincisi Pərixan xanımdır. O, Bəhram mirzənin oğlu Bədiüzzaman mirzəyə nişanlı olsa da, hələ onunla ailə həyatı qurmamışdı. [Pərixan xanım] yüksək mövqeli atasının yanında əziz, istəkli və çox mötəbər idi və camaat müşkül məsələlər barədə ondan xahiş edib, bunları onun vasitəsi ilə həll edərdi. O, ağlının və biliyinin bolluğu səbəbindən hökmdarın hüzurunda müşavir və üstün şəxs idi. Onun həyatı ilə bağlı bəzi məsələlər cənnətməkan şahın xəstəliyi əyyamının hadisələri içərisində qeyd olunmuşdur və onun əhvalatının qalan sətirləri də bundan sonra yazılacaqdır. Xülasə, o, cənnətməkan şahın vəfatından sonra İsmayıl mirzənin [hakimiyyətə gəlməsi] yolunda çox səy göstərsə də, bunun müqabilində mükafatlandırılmadı. [İsmayıl mirzənin] ölümündən sonra Sultan Məhəmməd mirzə cənablarının hakimiyyətə yiyələnməsi zamanı əhəmiyyətsiz bir şəxsə çevrildi və aradan götürüldü. Bu hadisənin ətraflı şərhi bu kitabda öz yeri gələndə qeyd olunacaqdır.

Üçüncüsü Xədicə-sultan bəyimdir. O, Biye-pəs hakimi Cəmşid xanın həyat yoldaşı idi. Cəmşid xanın ölümündən sonra, Allahın kölgəsi olan səadətli əlahəzrət şahın hökmranlığı zamanında Mir-miran Yəzdinin oğlu Şah Nemətullaya ərə getmişdir və indiyədək həyatda qalmaqdadır. Cəmşid xandan iki oğlu olmuşdur. Lakin onların hər ikisi cavanlıq vaxtı vəfat etmişlər.

Dördüncüsü Zeynəb bəyimdir. Cənnətməkan şah onu Anaxanım deyə çağırardı. O, şah həzrəthrinin hüzurunda izzət və ehtiram sahibi idi[707]. «Qorçiyi-şəmşir» («qılınc qorçusu») vəzifəsini tutan Şahəli bəy Şamlu onun lələsi idi. Anası Hurixan xanım Gürcüstanın möhtərəm qadınlarından idi. İsmayıl mirzə onu Durmuş xan Şamlunun nəvəsi olan və Herat hakimliyinə göndərilən Əliqulu xana nişanlasa da, onlar evlənmədilər. Çox ağıllı və mülayim bir qadındır. Hal-hazırda, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında uca hərəmin banusudur, o həzrətin hüzurunda böyük hörmətə malikdir və ta bu kitabın yazılmasına qədər uca hərəmdə əziz və möhtərəmdir. Onun xeyriyyəçilik və əl tutmaq kimi əməlləri olmuşdur. Ümid odur ki, ömrü uzun olsun.

Beşincisi Məryəm-sultan bəyimdir. O, yuxarıda adı çəkilən ali xanımın doğma bacısıdır. İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın zamanında Gilanın Biye-piş [vilayətinin] valisi olan Xan Əhməd sultana ərə getmişdi və öz yeri gələndə qeyd olunacağı kimi, o, Xan Əhmədin bu [Səfəvi] dövlətindən üz döndərməsindən sonra Ruma getdi. Buna baxmayaraq, Xan Əhməddən doğulan mərhum şahzadəsini öz ata xanədanına yolladı. O, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında vəfat etsə də, onun qızı hal-hazırda səltənətin möhtərəm xanımlarındandır.

Altıncısı Fatimə-sultan xanımdır. O, İsgəndər şanlı nəvvab zamanında Əmir xan Mosullu Türkmana ərə getmiş, lakin bir neçə gün sonra onun evində vəfat etmişdi.

---

[707] S-129, v.119a.

Yeddincisi Şəhrəbanu bəyimdir. O, İsgəndər şanlı nəvvabın zamanında cənnətməkan şahın bacısı oğlu olan Şahəli mirzə Ustaclunun övladı Salman xana ərə getmiş, lakin o da bir müddət keçəndən sonra onun mənzilində vəfat etmişdi. O, Cəmşid xanın zövcəsi olan Xədicə bəyimlə bir anadan idi. Onların anası Dağıstan hakiminin qızı idi.

Səkkizincisi İmamqulu mirzənin doğma bacısı Xanış bəyimdir. O, Mirmiranın oğlu Şah Nemətulla Yəzdiyə ərə getmiş və onun mənzilində vəfat etmişdi. Onun Səncər mirzə adlı bir oğlu vardır.

Cənnətməkan şahın qardaşı olan Bəhram mirzənin oğullarından, oğullarının oğullarından və qızlarından ibarət övladlarının on üç nəfəri o həzrətin (Şah Təhmasibin) vəfatı zamanı həyatda idilər. Onun oğullarının sayı üç nəfər idi.

Əvvəlincisi Sultan Hüseyn mirzədir. O, cənnətməkan şahın zamanında Qəndəhar vilayətinin və Zəmindavərin mirzə-valisi olmuş və ali dərəcəli əmisinin fərmanı ilə neçə-neçə illər ərzində o vilayətin mütləq hakimi olmuşdur. O, İsmayıl mirzənin hakimiyyəti zamanında təbii əcəllə vəfat etdi. Onun beş oğlu vardı. [Birinci oğlu] Məhəmməd Hüseyn mirzə atasının ölümü vaxtı on səkkiz yaşında idi. Atası onu onun bacısı Oğlanpaşa bəyimlə birlikdə orduya (şah iqamətgahına) göndərmişdi və onlar cənnətməkan şahın hüzurunda birbaşa şahzadələr silkinə qatılaraq, əziz və istəkli olmuşdular. Lakin [Məhəmməd Hüseyn mirzə] İsmayıl mirzə zamanında şəhid edilmişdir. [İkinci oğlu] Müzəffər Hüseyn mirzə on beş yaşında idi. O, İsgəndər şanlı nəvvabın cülusu zamanında atasının yerinə Qəndəhara vali təyin edildi. [Üçüncü oğlu] Rüstəm mirzə on iki yaşında idi. Həmin vaxt Zəmindavər hakimliyi ona verildi. [Dördüncü və beşinci oğullar olan] Səncər mirzə və Əbu-Səid mirzənin hər ikisi azyaşlı idi. [Sonuncu] dörd qardaşın əhvalatı İsgəndər şanlı nəvvabın və Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyət zamanlarının hadisələri daxilində təfsilatı ilə qələmə alınacaqdır. [Sultan Hüseyn mirzənin] yuxarıda adı çəkilən qızı İsgəndər şanlı nəvvab zamanında xoşbəxt şahzadə Əbu-qalib Həmzə mirzəyə ərə verildi. Ondan sonra o, Allahın kölgəsi olan əlahəzrət şahın səadətli sarayının möhtərəm qadınları silkində qərar tutdu və bir neçə ildən sonra o həzrətin izzətli hərəmxanasında fərman tapdı (vəfat etdi).

Bəhram mirzənin ikinci oğlu İbrahim mirzədir. Onun anası Şirvan vilayətinin əsilzadələrinə mənsub idi. O, cənnətməkan şah həzrətlərinin kürəkəni idi və o həzrətin vəfatı zamanı ulu dərgahda eşikağası mənsəbi ilə əzizlənmiş və şərəflənmiş bir vəziyyətdə idi. O, yüksək qabiliyyətə, istedada, ağıla və idraka malik idi və ali dərəcəli əmisinin hüzurunda əziz, möhtərəm, sözükeçən, əhəmiyyətli, rəyi dinlənən və məşvərətçi bir şəxs idi. Daha sonra qeyd edəcəyimiz kimi, İsmayıl mirzənin zamanında şəhidlik şərbətini nuş etmişdir. Onun cənnətməkan şahın qızından doğulmuş bir qızı vardı. Həmin o qız dini elmlərə yiyələnib, fəzilətli və mömin bir xanım olmuşdu. O, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında Şirazdan çıxıb, Beytül-həramın (Kəbənin) ziyarətinə yollanaraq, Məkkeyi-müəzziməda böyük Dəstəgi nəslinin seyidlərindən olan və adlı-sanlı

ruhanilərdən və zəmanənin ən dindar adamlarından sayılan Əmir Nəsirəddin Hüseyni Şiraziyə ərə getmiş, həmin müqəddəs şəhərdə qalıb yaşamışdır.

[Bəhram mirzənin üçüncü oğlu] Bədiüzzaman mirzədir. O, yüksək mövqeli əmisinin fərmanı ilə Sistandakı Nimruz[708] vilayətinin valisi olmuşdur. Teymur xan Ustaclu onun lələsi və atalığı idi. Onun Bəhram adında kiçik bir oğlu va iki qızı[709] vardı. İsmayıl mirzə zamanında onun (İsmayıl mirzənin) fərmanına əsasən, Teymur xan onların hər ikisini (ata vo oğulu) aradan qaldırdı.

Salnaməçi («vaqiənigar») öz qələmini cövlan etdirib, onu xoşbəxt şahzadələrin bir-bir sadalanması meydanında çapdırdıqdan sonra, indi vaxtı gəlib çatmışdır ki, qələmin gözəl yazan mürəkkəbi o həzrətin vəfatı zamanı əyalət hakimi rütbəsini daşıyan və «məmaliki-məhrusə»də[710] hökumət işləri və hakimliklə məşğul olan yüksək qızılbaş tayfalarının böyük əmirlərinin, ehtiramlı xanlarının və qeyrilərinin sadalanması tərəfinə meyil etdirilsin və bəyan səhifəsi o əqidəli camaatın qeyd olunması ilə zinət tapsın.

## BƏZİLƏRİ ULU DƏRGAHDA, BƏZİLƏRİ İSƏ [AYRI-AYRI] MƏMLƏKƏTLƏRDƏ OLAN YÜKSƏK DƏRƏCƏLİ XANLARDAN VƏ SULTANLARDAN İBARƏT ADLI-SANLI ƏMİRLƏR HAQQINDA

Allahın mərhəmətinə tuş gəlmiş şah (Təhmasib) həzrətlərinin vəfatı zamanında əmirlik rütbəsi daşıyan böyük əmirlərin, yüksək dərəcəli xanların, kiçik və böyük sultanların əksəri təbil, ələm, süvari qoşun və məiyyət sahibi idilər. Ali divanın dəftərlərindəki qeydlərdən aydın olur ki, həmin vaxt onların sayı yüz on dörd nəfər olmuşdur. Onlar arasında hər tayfanın və hər oymağın mötəbərlərindən və böyüklərindən bir neçə nəfərin adı bu səhifədə qələmə alınacaqdır. Lakin onların hamısının əhvalatlarının təfsilatı ilə şərh olunmasında fayda yoxdur.

***Şamlu tayfasının əmirlərinin adları:*** Şamlu tayfası qızılbaş tayfalarının ən mühümüdür, xidmətlərinin, hüquqlarının və fədakarlıqlarının qədimliyinə görə digərlərindən irəlidədir və oymaqların ən öndəgedənidir. Cahanı fəth edən xaqanın (I Şah İsmayılın) zamanında, bu dövlətin və xanədanın zühuru vaxtında və cənnətməkan, səadətli Şah (Təhmasib) həzrətlərinin hakimiyyətinin əvvəllərində şamlu tayfası arasında böyük əmirlər və yüksək şöhrətli xanlar vardı. Misal üçün: əbədiyyətə qovuşmuş Süleyman şanlı xaqan Şah İsmayıl Bahadır xanın lələsi Hüseyn bəy, o həzrətlə (Şah İsmayılla) qohum olmaq şərəfinə nail olan Əbdi bəy və onun oğlu Durmuş xan, [sonuncunun] qardaşı və cənnətməkan şah həzrətlərinin

---

[708] Nimruz - tarixi Sistan vilayətinin bir hissəsini təşkil edir. Hal-hazırda Nimruz Əfqanıstanın cənub-qərbində yerləşən bir vilayətdir və inzibati mərkəzi Zərənc şəhəridir.
[709] S-297, v.96a.
[710] Məmaliki-məhrusə - «(Allah tərəfindən) qorunan məmləkətlər» mənasını verir və bu ad altında Səfəvilər dövlətinə tabe olan vilayətlər nəzərdə tutulur.

bacısı oğlu olan Hüseyn xan[711], Zeynal xan, Ağzıvar xan və başqaları. Şamlular həmin zaman böyük mənsəblər və layiqli tiyullar baxımından digər oymaqlardan imtiyazlı idilər.

Amma bəhs etdiyimiz zamanda (Şah Təhmasibin ölümü vaxtı) onlardan nağara və ələm sahibi olanların sayı beş nəfərdən artıq deyildi. Onların ən əzəmətlisi müqəddəs və ulu Məşhədin hakimi olan Vəli xəlifə Ovçu idi və o, digər [şamlu] əmirlərindən daha çox qoşuna və ləşkərə malik idi. Əksər şamlu əmirzadələri onun qoşununun tərkibinə daxil idilər. Fulad xəlifə Həmədan vilayətinin hakimi idi. Digəri Astarabad hakimliyindən azad edilərək ulu dərgahda olan Süleyman[712] xəlifədir. Digər birisi isə Kübə İbrahim [ləqəbi] ilə məşhur olan İbrahim sultandır[713].

***Ustaclu tayfası*** da dünyanı fəth edən Süleyman şanlı xaqanın və cənnətməkan şahın zamanlarında böyük əmirlərə malik olmuşdur. Misal üçün: Diyarbəkr hakimi Xan Məhəmməd, onun qardaşı Qaraxan, Qılıc xan[714], Çayan sultan, Köpək sultan, Məntəşa sultan, Sədrəddin xan, Faruq sultan, Abdulla xan, Çuxursəəd hakimi Şahqulu sultan və qeyriləri. Onların hamısı «məmaliki-məhrusə»də ölkə sahibi olmuşlar. Cənnətməkan şah həzrətlərinin cülusunun əvvəllərində ölkədaxili qarışıqlıqlar və Div sultan Rumlu ilə Çuxa sultan[715] Təkəlünün inadı üzündən, həzrət şahın cülusu hadisələrinin şərhi zamanı qələmə alındığı kimi, ustaclu əmirləri qəzəbə düçar olub, bir müddət Gilanda baş girlədilər. Amma təkəlülərin ağalığına son qoyulduqdan və onların hegemonluğu aradan qaldırıldıqdan sonra [ustaclu əmirləri] yenidən irəli çəkilib, tamam-kamal etibar əldə etdilər. O həzrətin ölümü zamanı bu tayfadan bir çoxları əmirlik rütbəsi daşıyıb, təbil, ələm, ordu və qoşun sahibi idilər və mötəbər tiyullara malik idilər.

Onların ulu dərgahdakı böyüyü Həsən bəy Yüzbaşının oğlu Hüseyn bəy idi. O, əmisi Nəzər sultanın [ölümündən sonra onun] yerinə əmirlik alıb, şahzadə Sultan Mustafa mirzənin lələsi təyin olunmuşdu. O, əşrəfin hüzurunda böyük qədir-qiymətə və dərəcəyə malik idi, rəy və məşvərət sahibi kimi dövlət işlərinə müdaxilə edə bilirdi. Onun yaxşı təşkil olunmuş qoşunu vardı və o, qüdrətli dövlətin dayaqlarından biri sayılırdı.

[Ustaclu əmirlərindən] digəri Teymur xanın oğlu Murad xan Süfrəçi idi. O, ulu dərgahın böyük əmirlərindən idi. Amma cənnətməkan şahın ölümü zamanı o, Kəcur qalasını fəth etməyə getmişdi və [şah] ordusunda deyildi.

Digər birisi Gilan əyalətinin [hakimi vəzifəsindən] uzaqlaşdırılaraq ulu dərgahın əmirlərindən olan Aycəkoğlu[716] Allahqulu sultan Kərampadır.

---

[711] Hüseyn xan Şamlu əslində Şah Təhmasibin bacısı oğlu deyildi, bibisi oğlu idi (Şah Təhmasibin təzkirəsi, s.17).

[712] S-129, v.120b-də Salman.

[713] S-129, v.120b.

[714] S-129, v.120b-də Fəth xan.

[715] S-129, v.120b.

[716] S-297, v.96b.

Digər birisi Piri bəy Qoçuludur. O da dərgah əmirlərindən idi, amma həzrət şahın ölümü vaxtı öz iqtası olan Reydəki Vəramin [məntəqəsinə] getmişdi.

«Məmaliki-məhrusə»nin əmirlərindən olan digər bir [ustaclu əmiri] Biyepiş əmirülümərası və İmamqulu mirzənin lələsi Pirə Məhəmməd xan Çavuşlu idi. O, qoşun sahibi olan böyük əmirlərdən idi.

Digər birisi Çuxursəədin əmirülümərası və böyük, mötəbər əmirlərdən biri olan Məhəmmədi xan Toxmaqdır. O, ordusunun və qoşununun say çoxluğuna görə tayfadaşlarından öndə idi və cənnətməkan şahın ölümü zamanı Ruma elçi getmiş, İsmayıl mirzənin [hakimiyyəti] zamanında geri qayıtmışdı.

Digər birisi darüssəltənə Heratın hakimi və Xorasanın əmirül-ümərası olan Şahqulu sultan Yegandır. O, İranda hökmranlığa nail olan ali dərəcəli, qüvvət sahibi şahzadə Abbas Bahadır xanın lələliyi xidmətinin səadəti ilə əzizlənmiş və şərəflənmişdi.

Digər birisi Nəzər sultan Asayişoğludur. O, Heratda yasaqkeş idi və Lusuyədə[717] və Quryanda ölkəsi vardı.

Digər birisi Şahqulu sutan Yeganın Sərəxs hakimi olan oğlu İbrahim sultandır.

Digər birisi ustacluların şərəfli oymağından olan Xorasan çərxçibaşısı Vəli xandır. O, Xəvaf və Baxərz hakimi idi.

Digər birisi Xorasan əmirlərindən olan və o vaxtlar Turşiz hakimi vəzifəsini tutan Mahmud xan Sufioğludur[718].

Digər birisi Murad xanın atası Teymur xan Şeyxlərdir[719] ki, Sistanın hakimi və Bədiüzzaman mirzənin lələsi idi.

Digər birisi Şüştər və Dizful hakimi olan və mötəbər əmirlərdən sayılan Ayğut[720] sultan Çavuşlu idi.

Digər birisi [ustacluların] mahi-fəqihlü[721] oymağından olan və Bəndi[722] hakimi vəzifəsini tutan Şahqulu sultan Qarıncaoğludur. O, Tiflisdə Davud xan Gürcüyə kömək etməyə və onun problemlərini həll etməyə məmur edilmişdi.

Digər birisi Keçəl Şahverdinin oğlu Mustafa sultandır. O, Xorasanda idi. Ustaclu tayfasının əmirlərinin hamısını bir-bir sadalamaqda bir o qədər də fayda

---

[717] Lusuyə - əslində Kusuyə olmalıdır. Əfqanıstanın şimal-qərbində, Hərirud çayı yaxınlığında yer adıdır.

[718] S-297 nüsxəsində (v.96a) Vəli xəlifənin soyadının Rumlu, Mahmud xan Sufioğlunun isə adının Məhəmmədi xan kimi yazılması aşkar yanlışlıqdır.

[719] S-129, v. 121a. Şeyxlər - ustaclu tayfasına daxil olan önəmli bir qəbilə idi (bax: K.Sümer. Safevi devletinin kuruluşu, s. 163-164).

[720] Tehran çapında (s. 139) Əlğus, S-297 nüsxəsində (v.96a) isə Əyqub yazılmışdır.

[721] S-129, v.l21b-də cayi-fəqihlü yazılıb.

[722] S-297, v.96a. Tehran çapında (s. 139) Sədi yazılmışdır. Bakı nüsxəsində qeyd olunmuş Bəndi yer adı daha həqiqətəuyğundur. Çünki Tehran çapının başqa bir yerində (s.85) də bu yerin adı çəkilir və h. 953 / m. 1546-cı ildə qızılbaş ordusunun Gürcüstan yürüşündən Gəncəyə qayıdan zaman Bəndidən keçdiyi qeyd olunur.

yoxdur. Buna görə də [ustaclu əmirlərinin siyahısı] yuxarıda adları qeyd olunan şəxslərlə ixtisar olunub yekunlaşdırıldı.

***Türkman tayfası:*** onların böyüyü Gülabi xanın nəvəsi Əmir xan Mosulludur. Onun əcdadı olan əvvəlki Əmir xan Süleyman şanlı xaqan həzrətləri zamanında Diyarbəkrdən öz qoşunu və məiyyəti ilə birlikdə cahanın pənahı olan dərgaha gəlmiş, Şahibəy Özbəyə qarşı Mərvdə baş vermiş döyüşdə mərdanəlik göstərmiş və bir müddət Xorasanın əmirülümərası və cənnətməkan şah həzrətlərinin lələsi olmuşdu. [Onun nəslindən olan və indi haqqında bəhs etdiyimiz] Əmir xan da şanlı-şöhrətli mötəbər əmirlərdən idi və cənnətməkan şahın ölümü zamanı Reyin Xəvar[723] [məntəqəsində] olurdu. O, İsgəndər şanlı nəvvab zamanında Azərbaycan əmirülümərası olub, bu [Səfəvi] sülaləsi ilə qohum olmaq şərəfinə yetdi.

Əvvəllər qeyd olunduğu kimi, Əmir xanın qohumu olan Məhəmməd xan Mosullu bir müddət Sistan hakimi olmuş, həzrət şahın ölümü zamanı Sistandan kənarlaşdırılıb, Xorasandakı Türbət məntəqəsində və onun ətrafında ölkəyə malik olmuşdur. O, İsgəndər şanlı nəvvabın cülusu zamanında qüdrətli dövlətin dayaqlarından birinə çevrilmişdi.

Digər birisi türkman tayfasının böyük əmirlərindən olan və İsfahanda qalan Mürtəzaqulu[724] xan Pornakdır. O, İsmayıl mirzə zamanında müqəddəs Məşhədin hakimi və Xorasanın yarısının əmir-ülümərası təyin olundu.

Digər birisi Söhrab xəlifənin oğlu Süleyman xəlifədir. O, Xorasanda Tun[725] və Təbəs hakimi idi.

Digər birisi Qum hakimi və ulu dərgahın böyük əmirlərindən biri olan Heydər sultan Cabuq Tərxandır.

Digər birisi, Yadigar Məhəmməd Tərxanın oğlu Əbülməsum sultan ulu dərgahın əmirlərindən idi.

***Rumlu tayfası:*** həmin vaxt onların böyüyü Şirvanın əmirülümərası və mötəbər əmirlərdən biri olan Araz[726] xan idi.

[Rumlu tayfasından] digər birisi Hüseynqulu xüləfa ulu dərgahda xəlifətül-xüləfa mənsəbinə malik idi. O, nağara və ələm sahibi olan bir əmir olmasa da, amma yetərincə mötəbər və yüksək dərəcəli bir şəxs idi. Diyarbəkrdən və Rumun hər tərəfindən ali taxtın ətəklərinə gəlib toplaşmış sufi camaatı hamılıqla ona tabe idi.

---

[723] Xəvar - İranda, Rey şəhərindən 115 km. şərqdə, Reylə Simnan arasında yerləşən şəhər.

[724] S-297, v.96b. Tehran çapında (s.139) Şahqulu, S-129 nüsxəsində (v.121b) isə Əliqulu yazılmışdır. Halbuki «Tarix-i aləmara-yi Abbasi»nin sonrakı yerlərində və digər mənbələrdə dəfələrlə adı çəkilən bu məşhur şəxs Mürtəzaqulu xan Pornakdır.

[725] Tun - İranın şərqində, Cünabəd şəhərindən cənub-qərb tərəfdə yerləşən şəhər.

[726] Tehran çapında (s.140) və S-129 nüsxəsində (v.l21b) Araz (Aras) əvəzinə Marus yazılmışdır.

Digər birisi Xoy və Səlmas[727] hakimliyindən çıxıb ulu dərgahda olan Dəli Budaqdır. [Rumlu əmirlərindən] digər birisi olan Qurban sultan[728] da ulu dərgahda idi.

***Zülqədər tayfası:*** onların ulu dərgahdakı böyüyü Şahqulu xəlifənin oğlu olan möhürdar[729] Məhəmmədqulu xəlifə Qoruqlu idi. O, qüdrətli dövlətin dayaqlarından idi və yaxşı təşkil olunmuş qoşuna malik idi.

Digər birisi, İbrahim xan Hacıların əmisi oğlu olan Məhəmməd xəlifə Astarabad hakimi idi.

Digər birisi Vəli sultan Qalxançıoğlu[730] darülmülk Şirazın hakimi və Sultan Məhəmməd mirzənin lələsi idi.

Digər birisi Təbət ağa Xorasandakı Cam [şəhərinin] hakimi idi.

Digər birisi Şahqulu[731] xəlifə böyük əmirlərdən olub, Darahcərd, Lar və Bəhri-Fars hakimi idi və Darabcərddə yaşayırdı[732].

Digər birisi, İbrahim xan Hacıların[733] oğlu Mənsur bəy Xoyda idi

***Əfşar tayfası:*** onların ulu dərgahdakı böyüyü Əmiraslan sultan Ərəşlü idi. O, əfşar tayfasının böyük əmirlərindən olub, çoxsaylı orduya və qoşuna malik idi və Sultan Əhməd mirzənin lələsi idi.

[Əfşar əmirlərindən] digər birisi Xəlil xan da şanlı-şöhrətli əmirlərdən idi. O, Kuhi-Giluyə hakimi idi və on min əfşar ailəsinin rəisi idi.

Digər birisi Mahmud sultan böyük bir əmir idi və Savə hakimi idi.

Digər birisi Yaqub sultanın qardaşı Qulu[734] sultandır. O, qardaşının yerinə Kirman hakimi təyin olunsa da, hələ ulu dərgahda idi və Kirmana getməmişdi. O, İsmayıl mirzə zamanında qorçubaşı təyin olunmuş və dövlətin dayaqlarından birinə çevrilmişdi.

Digər birisi, Xəlil xanın qohumu olan İsgəndər xan Həzarcəribdə[735] idi. O, İsgəndər şanlı nəvvab zamanında Kuhi-Giluyə hakimi təyin edilmişdi.

Digər birisi Yegan sultan Xorasandakı Fərah və İsfizar[736] bölgələrinin hakimi idi.

---

[727] S-297. v.96b.

[728] Digər varianta görə, Fərman sultan (S-129, v.122a; S-297, v.96b).

[729] S-297, v.96b.

[730] Tehran çapında (s.140) və S-129 nüsxəsində (v.121b) səhvən Qılmançıoğlu yazılmışdır.

[731] Bakı əlyazmalarında Şahəli deyə qeyd olunmuşdur (S-129 v 122a; S-297, v.96b).

[732] S-129, v.122a; S-297, v.96b. Lar – Darabcərdlə İran körfəzi arasında yerləşən qəsəbə. Darabcərd - İranın Fars vilayətində, Şirazdan cənub-şərq tərəfdə yerləşən şəhər İndiki adı Darabdır. Bəhri-Fars - İran körfəzi. Görünür, zülqədər tayfasından olan bu əmir Şirazla Bəndər-Abbas arasındakı Darabcərd, Lar və s. kimi ərazilərin, həmçinin o səmtdəki İran körfəzi sahillərinin hakimi idi.

[733] S-129, v.122a. Tehran çapında (s.140) Hacı sözü yazılmayıb.

[734] S-129. v.122a; S-297, v.96b. Tehran çapında səhvən Yusifqulu yazılmışdır.

[735] Həzarcərib - İranın Mazandaran vilayətinin inzibati mərkəzi olan Sari şəhəri yaxınlığında yaşayış məntəqəsidir və hal-hazırda Sari şəhristanının 14 nahiyəsindən birini təşkil edir.

[736] İsfizar - indiki Əfqanıstanda, Heratdan cənubda, Xarutrud çayı kənarında yerləşən Şindand şəhərinin köhnə adı.

Digər birisi Xosrov sultan Koroğlu Xorasanda idi. Əfşar tayfasından digər əmirlər də var idi. Lakin [yuxarıda adları çəkilən] bu bir neçə nəfəri qeyd etməklə kifayətlənirik.

***Qacar tayfası:*** Şahverdi sultan Ziyadoğlunun övladı Yusif xəlifə İbrahim sultanın əvəzinə Qarabağ bəylərbəyisi və Sultan Əli mirzənin lələsi təyin olunmuşdu. Amma o, hələ ulu dərgahda qalmaqda idi.

[Qacar əmirlərindən] digər birisi Mirzə Əli sultan ulu dərgahın mötəbər əmirlərindən idi və divanbəyi[737] vəzifəsini daşıyırdı.

Digər birisi Əli xəlifə Ağcalu[738] Damğan vo Bistam hakimi idi. Həmçinin Yusif xəlifənin qardaşı Süleyman bəy Ziyadoğlu və eləcə də Süleyman sultan Şikəmoğlu əmirlik mərtəbəsinə nail olmuşdular.

Təkəlü [tayfası]: Solağ Hüseyn böyük əmir idi və Gilanda ölkəyə malik idi. Həmçinin Ərdoğdu xəlifə də o tayfanın böyük bir əmiri idi və Gilanda ölkəyə malik idi.

Məhəmməd xanın qohumu Vəli sultan Şərəfəddinoğlu Xorasanda balaca bir ölkəyə malik idi və bu tayfa Ülamənin yağı çıxması səbəbindən etibardan düşmüşdü. Lakin İsmayıl mirzə [öz hakimiyyəti zamanında] təkəlülərə qayğı göstərdi və onlar yenidən etibar qazandılar.

***Talış tayfası:*** Bayandur xan bu tayfanın böyük əmiri idi və Astarada olurdu.

[Talış əmirlərindən] digər birisi Həmzə sultan ulu dərgahın mötəbər əmirlərindən idi[739].

***Bayat tayfası:***[740] Hacı Üveys sultan mötəbər əmir idi.

***Bayburdlu tayfası:***[741] Qaraxan Çuxursəəddəki Şüregel və Ələşkərd[742] bölgələrinin hakimi idi.

***Alpavut tayfası:***[743] İbrahim xəlifə Çuxursəəddə ölkəyə malik idi.

***Xınıslu***[744] ***tayfası:*** Hüseynxan sultan mötəbər əmir idi.

---

[737] Divanbaşı və ya divanbəyi - dövlətin məhkəmə sisteminə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən yüksək rütbəli məmur (Mirzə Səmia. Təzkirətül-müluk, s. 12-13; V.F.Minorsky. «Tadhkirat al-muluk», p. 119-120).

[738] Bakı nüsxələrində (S-129, v.122a; S-297, 96b) Ağcaqoyunlu yazılmışdır və bu variant daha doğrudur. Çünki Tehran çapının (s.203) başqa bir yerində Əli xəlifənin soyadı Ağcaqoyunlu olaraq göstərilmişdir. Ağcaqoyunlular qacar tayfasının bir qolu idilər.

[739] Səfəvi ordusundakı talış tayfasının türk mənşəli olması haqqında ehtimal vardır (V.F.Minorsky. «Tadhkirat al-muluk», p.14, n.4). Bu talışlar o zamanlar gilək adlanan irandilli talışlardan fərqli idilər.

[740] S-129, v.122b; S-297, v.96b.

[741] S-297, v.96b.

[742] Ələşkərd - Şərqi Anadoluda, Kağızmandan cənubda yerləşən ovalıq.

[743] S-129,v,122b.

[744] Tehran çapında (s.141) və S-129 nüsxəsində (v.122b) xıtıslu, S-297 nüsxsində (v.96b) xınuşlu yazılıb.

***Kürd tayfaları:*** Bitlis əmirzadələrindən olan Şərəf xan Rudəki cənnətməkan şahın xidmətində tərbiyə tapıb mötəbər olmuşdu və Gilanın Tonakabon [mahalına] hakim təyin edilmişdi.

[Kürd əmirlərindən] digər birisi Xəlil sultan Siyahmənsur Nihas və Surluq hakimi idi.

Digər birisi Oğlan Budaq Çəkəni Xorasanın Xəbuşan[745] [məntəqəsinin] hakimi idi. Zəngənə isə[746] Fars [əyalətinin] əmirlərindən idi. Digər birisi Qılıc xəlifə Pazuki[747] Çuxursəəd əmirlərindən idi. Digər birisi Teymur xan Ərdəlan Həsənabad və Pələngan[748] hakimi idi.

Bunlardan savayı, Şah Rüstəm Abbasi və qardaşı Məhəmmədi hər ikisi Luri-kuçek hakimi idilər. Cənnətməkan şah o ölkəni həmin iki qardaş arasında bölmüşdü: Xavə və Eysər Şah Rüstəmə, Xürrəmabad və s. yerlər isə Məhəmmədiyə aid edilmişdi. Məhəmmədidən müxalif əməl çıxsa da, amma Şah Rüstəm bəndəlik yolunda davamlı idi və sədaqətlilərdən idi.

***Çepni tayfası:***[749] Mahmud xəlifə və Məhəmməd sultan Cəlaloğlu hər ikisi Qarabağda Ziyadoğluların qulluğunda idilər.

***Qazaqlar tayfası:***[750] Dönməz sultan Qarabağda idi.

***Cağatay tayfası:*** Gəraylı [oymağının] əmiri Mirzə Əli xəlifə Xorasanda idi. Mir Hüseyn sultan Firuzcəngin oğlu İbnihüseyn müqəddəs Məşhədin Binadgan [məntəqəsində] idi və axırda Sərəxs hakimi təyin olunmuşdu. Xorasanda «Kutval» ləqəbi ilə məşhur olan Hacı Məhəmməd sultan Savə və ona tabe ərazilərin hakimi idi və böyük seyidlərdən idi.

***Şeyxavənd tayfası:*** Məsum bəy Səfəvinin oğlu Sədrəddin ulu dərgahın əmirlərindən olub, adlı-sanlı şahzadə Sultan Hüseyn mirzənin xidmətində idi. Onun qardaşı Seyid bəy böyük əmirlər silkinə daxil idi, Astarabadın hakimi idi və cənnətməkan şahın ölümü ərəfəsində hakimlikdən çıxarılmışdı.

Seyid bəy Kəmunə [adı] ilə məşhur olan Seyid Süleyman Nəcəfi-əşrəfin seyidlərindən və nəqiblərindən[751] idi. O, Süleyman şanlı xaqanın zamanında dövlətsevərlik göstərdiyi üçün yüksəldilərək əmirlər silkinə daxil edilmiş,

---

[745] Xəbuşan - İranda, Xorasan vilayətində, Məşhəddən şimal-qərbdə, Ətrək çayının yuxarı axarlarında və Kopetdağ silsiləsinin ətəklərində yerləşən indiki Kuçan şəhərinin köhnə adı.

[746] S-129,v.122b.

[747] S-129, v.l22b. Tehran çapında (s.141) səhvən Baruki yazılıb.

[748] S-129, v.l22b. Tehran çapında (s.141) səhvən Pəlkan yazılıb.

[749] S-129, v.l22b. Tehran çapında (s.141) səhvən çəkəni tayfası yazılıb.

[750] S-129, v.122b. Qazaqlar - XVI əsrdə Qarabağdakı ən mühüm türk qızılbaş tayfalarından biri idi (F.Sümer. Safevi devletinin kuruluşu, s.200).

[751] Nəqib - məna etibarilə hansısa bir icmanın rəhbəri və ya vəkili deməkdir. Səfəvi zamanında şəhər idarəçiliyində nəqib vəzifəsi vardı. Nəqiblər şəhər əsnaflarının mənəvi və inzibati başçısı idilər v ə kələntərlərinköməkçiləri və müavinləri hesab olunurdular. Onlar şəhərin adlı-sanlı şəxsləri arasından təyin edilirdilər. Nəqiblərin başçısı «nəqibül-nüqəba» (nəqiblər nəqibi) adlanırdı (daha ətraflı bax: M. X. Гейдаров. Социально-экономические отношения, с. 36, 65, 72,82-83,113; V.F.Minorsky. «Tadhkirat al-muluk», p. 148-149).

Bağdadın Hillə [məntəqəsinin] hakimi təyin olunmuş və Çaldıran vuruşmasında şəhid olmuş Seyid Məhəmməd Kəmunənin övladlarından idi. Cənnətməkan şah həzrətləri onu öz etibar nəzərləri altına alaraq, dərgahın mötəbər əmirlərindən birinə çevirmiş və mübarək möhürün daşıyıcısı vəzifəsinə layiq görmüşdü.

Bunlardan əlavə, məmləkətlərdə hər tayfadan və hər təbəqədən olan başqa əmirlər və hakimlər də var idi ki, onların haqqında burada bəhs etmək fayda kəsb etməz.

Böyük yüzbaşılar, möhtərəm qorçular, eşikağasılar və yasavullar. Cənnətməkan şah həzrətlərinin ölümü zamanı böyük yüzbaşıların, mənsəb sahiblərinin, qorçuların və dərgahın digər mülazimlərinin ümumi sayı altı min nəfər idi. Bunlardan dörd min beş yüz nəfəri qorçu və min beş yüz nəfəri «qorçiyani-daş», yasavul, bukavul[752] və b. şəxslərdən ibarət olan digər camaat idi. Yasavullardan, mötəbər qorçulardan, eşikağasılardan, qur və divan yasavulbaşılarından, mirşikarlardan[753] və topçubaşılardan ibarət olan bu camaatın arasında hər təbəqədən və hər tayfadan bir çoxları vardı ki, onlar əmirlik səviyyəsinə çatmışdılar. Onlar əmirlik rütbəsinə layiq görülməsələr də, nüfuz baxımından əmirlərdən heç də əskik deyildilər. Onların hər biri öz tutduqları mövqeyə görə əlli nəfərdən beş nəfərə qədər işə yarayan nökərlərə malik idilər. Padşah xassəsinin mülazimləri olan həmin altı min nəfərin səhih sayla göstərilmiş xidmətkarlarının və nökərlərinin sayı təxminən iyirmi min nəfər idi, bəlkə, daha çox idi. Qorçular döyüşkənlikdə və şücaətdə elə bir ad çıxarmışdılar ki, əgər bir döyüşdə yüz nəfər şah qorçusu olsaydı, onlar min nəfər digər qoşun təbəqəsinə bərabər olardılar.

## BÖYÜK SEYİDLƏR, EHTİRAMLI ÜLƏMALAR, VƏZİRLƏR, QƏLƏM SAHİBLƏRİ VƏ BƏLAĞƏTLİ ŞAİRLƏR HAQQINDA

Əsər müəllifinin nöqsanlı xatirinə çatdı ki, cənnətməkan şah həzrətlərinin xoşbəxtliklə əlamətdar olan [hakimiyyəti] zamanında ali taxtın ətəklərində və məmləkətin əyalətlərində olmuş yüksək dərəcəli seyidlər, bərəkət mənbəyi olan sədrlər, kəramətli üləmalar, əmmamə sahibləri, vəzirlər, mustovfilər, istedad

---

[752] Tarixi ədəbiyyatda bukavul barədə mövcud olan mülahizələr onun şənlik təşkilatçısı, süfrəyə və xörəyin dadına baxan, saqi və s. olduğunu göstərir. Lakin XIII-XIV əsr mənbələrinin məlumatlarından göründüyü kimi, həmin zaman bukavullar ordu hissələrində yüksək mövqe tutmuşlar. Onlar ordunun quruluşu və effektli fəaliyyəti üçün dəqiq tədbirlər görməli, baş divandan ordu üçün ayrılmış təxsisatı almalı, qənimətləri ordu hissələri arasında ədalətlə bölməli. orduda nizam-intizamın möhkəmlənməsinə çalışmalı idilər (V.Z,.Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə, s.323-324). Səfəvilərin dövlət quruluşunu əks etdirən «Təzkirətül-müluk»da bukavul terminınə rast gəlmirik. Ehtimal ki, İsgəndər Münşi burada bukavul terminini birinci mənada, yəni saray təşrifat məmuru, eşikağasının sinonimi kimi işlətmişdir.

[753] Mirşikar - şahın ov işini təşkil edən məmurlar. Mirşikarlara ümumi rəhbərlik mirşikarbaşı və ya ovçubaşı adlanan vəzifəli şəxs tərəfindən həyata keçirilirdi (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.265.

sahibləri və bəlağət şüarlı şairlər təbəqəsi haqqında bir fəsil tərtib etsin və fəzilətli şəxslərin xeyirli əhvalatlarından bəziləri və onların hər birinin kamillikləri hadisələri yazan qələmlə qeyd edilsin.

***Seyidlərin, şeyxlərin və üləmaların haqqında.*** Bu yüksək səviyyəli təbəqənin əzizliyi və ehtiramına görə onların adlarının ali şöhrətli şahzadələrin adlarından dərhal sonra qeyd edilməsi münasib olsa da, hadisələrin əksərində əmirlərin və igidlik sahiblərinin adları daha çox çəkildiyi və onların əhvalatları tarixin axarının izlənilməsi baxımından zəruri olduğu üçün [şahzadələrin ardınca əmirlərin adları] cəsarət qələmi ilə yazıldı.

## SƏVİYYƏSİ, DƏRƏCƏSİ VƏ ŞANI UCA OLAN SEYİDLƏRİN ADLARININ ALLAHIN KÖMƏYİ İLƏ QƏLƏMƏ ALINMASI

Tamamilə gözəl və pak nəsildən olan böyük seyidlər əziz və istəkli sayılırdı, onlara artıq dərəcədə hörmət və ehtiram göstərilirdi. Bu mövzunun sübutu həddən ziyadə sayğıya və hörmətə malik olan Təbrizin Üskuyə[754] seyidləridirlər. Onlar bir müddət cənnətməkan şahın hüdudsuz ehtiramı ilə əhatə olunmuşdular. Onların əhvalatının icmalını burada yazmaq münasib görüldü. Haqqında bəhs etdiyimiz bu seyidlər dörd qardaş olmuşlar: Mir Sədrəddin Məhəmməd, Əmir Nizaməddin Əhməd, Əmir Qəmərəddin və Əmir Əbülhamid. Onların babası olan Mir Əbülqasim yüksək şöhrətli seyidlərdən idi, maddi və mənəvi kamillikləri özündə cəmləşdirmişdi və sultanların hüzurunda hörmət və izzət sahibi idi. Amma onlar cənnətməkan şahın hüzurunda yüksək səviyyəyə tərəqqi edib, elə bir mehribançılıq, izzət və etibar mərtəbəsinə çatdılar ki, o vaxtadək heç bir zamanda heç bir kəs sultanların hüzurunda o yaxınlığın, o ixtiyarın və o iqtidarın heç onda birinə də nail olmamışdı. Onlann mümkün və qeyri-mümkün olan hər bir arzusu hələ dilə gətirilmədən, him-cim və işarə ilə təxirə salınmadan həyata keçirilmiş olardı. Hətta dövlət işlərində qənaət etmək lazım gəldikdə belə, onların həftəlik ənamları və ehsanları günbəgün, yubadılmadan ödənilərdi. Onlar o dərəcədə arsız idilər ki, «sərkari-xassə»dəki hansısa libasa, töhfələrə və hədiyyələrə onların gözü düşsəydi, həmin saat hökmdarın fərmanı ilə onlara təslim edilərdi. Əksər vaxtlar [diləklərini] ərz etməyə möhtac olmamışlar[755]. O həzrət (Şah Təhmasib) dəfələrlə onların Üskuyə ərazisində olan mənzilinə qədəm qoyub, şəhərdən oraya təşrif aparmışdır və onların xatirinə sevinc və fərəh gətirmişdir.

Lakin haqqında bəhs etdiyimiz həmin seyidlər hökmdarın onlara layiq gördüyü bu mərtəbənin və bu dərəcənin qədrini bilməyib, öz səadətlərini qoruyub saxlamağı bacarmadılar. Onlar özlərinə aid məsələləri ağılsızcasına dilə gətirməyə

[754] Üskuyə (Üskü) – Təbrizdən cənub-qərb tərəfdə yerləşən bir kənddir.

[755] S-129, v.l23b. Tehran (s.143) çapında «olmuşlar» yazılıb ki, bu da cümlənin məzmununa uyğun gəlmir. Burada söhbət ondan gedir ki, Üskuyə seyidləri öz arzuları barədə əksər vaxtlar heç xahiş etməzdən öncə şah onların arzularını yerinə yetirərmiş.

başladılar. Çünki onlar divan işlərinə vaqif deyildilər və ali üsul və qaydadan heç nə bilmirdilər. Beləliklə, gerçəklikdən uzaq olan istəklərə düşdülər. Onların getgedə baş qaldıran müxalif diləkləri əşrəfin könlünün onlardan inciməsinə səbəb oldu. Belə ki, onlar səltənət karxanasının işlərində əvəzləmə və dəyişikliklər etmək istədilər. Məsələn, vəkil, vəzir, sədr və s. kimi vəzifələrə kimlərisə təyin etmək arzusuna düşdülər. Belə olduqda, onların hiyləgərliklərinin başlanğıcında onların himayəçisi olan, lakin sonradan onların pis xüsusiyyətlərini görüb mövqeyini dəyişən vəzir Qazı Cahan ağlabatan dəlillər əsasında tədricən onları o həzrətin (Şah Təhmasibin) gözündə etibardan saldı və hökm olundu ki, onlar öz evlərində oturub, bundan sonra çağırılmayınca ulu dərgaha gəlməsinlər. Lakin onlara verilmiş soyurğallar[756] onlardan geri alınmadı. Bu hekayəti söyləməkdə məqsəd o həzrətin bu yüksək hörmətli [seyidlər] təbəqəsina bəslədiyi gözəl etiqadın nə dərəcədə olduğunu göstərməkdir.

Bu «vilayət» nişanəli [Səfəvi] sülaləsində [qayda] bu cür idi ki seyidləri və ruhaniləri[757] himayə etmək, onların işlərinə cavabdeh olmaq, vəqflərin idarə olunması və şəriətin yayılması üçün vəsaitlərin xərclənməsi kimi öhdəliklər daşıyan sədarət (sədr) vəzifəsi yüksək dərəcəli və pəhrizkar seyidlərdən savayı, digər bir kimsəyə tapşırılmazdı. Şanı uca olan bu [seyidlər] təbəqəsinin zümrəsindən iki nəfər cənnətməkan şah həzrətləri zamanında ali sədarət mənsəbinə təyinat almışdı. [Şah Təhmasibin] hakimiyyətinin əvvəlində Əmir Qivaməddin Hüseyn[758] İsfahani sədrlikdə Mir Cəmaləddin Astarabadiyə şərik edilmiş, bu sonuncunun ölümündən sonra Əmir Qivaməddin Hüseynlə birlikdə Hillə ruhanilərindən olan Mir Nemətulla Hilli şərikli sədrlik rütbəsinə layiq görülmüşdür. Əmir Qivaməddin Hüseynin ölümündən sonra Mir Nemətulla Hilli ilə yanaşı, «Əllamətül-üləmayi» («Alimlərin ustadı») ləqəbini daşıyan Əmir Qiyasəddin Mənsur Şirazi sədarət vəzifəsinə şərik edildi. Daha sonra Mir Nemətulla «Xatəmül-müctəhidin» («Müctəhidlərin möhürü») ləqəbini daşıyan

---

[756] Soyurğal (monqol-tatar dilində ehsan, bəxşiş, hədiyyə, güzəşt deməkdir) - monqollar dövründə meydana çıxmış və irsən ötürülən feodal torpaq mülkiyyətidir. Meydana gəldiyi ilk dövrlərdə hərbi əyanlara iri ərazilər şəklində soyurğal verilirdisə, Səfəvilər zamanında aparılan mərkəzləşdirmə siyasəti nəticəsində hərbi əyanlara irsi mülkiyyət olan soyurğal əvəzinə müvəqqəti mülkiyyət olan tiyulların verilməsinə başlandı. Səfəvilərin hakimiyyəti dövründə soyurğalların həcmi xeyli kiçilmişdi. Artıq bütöv vilayətlər deyil, kiçik ərazilər, ayrı-ayrı kəndlər soyurğal kimi verilirdi, həm də soyurğallar artıq hərbçilərə deyil, əsasən din xadimlərinə, alimlərə və inzibati işçilərə bağışlanırdı (daha ətraflı bax: И.П.Петрушевский. Очерки, с.145-183; О.А.Эфендиев. Институт «сойургал» и централистическая политика правителей Аккоюнлу и первых Сефевидов // Формы феодальной земельной собственности и владения на Ближнем и Среднем Востоке. Москва, 1979).

[757] S-129, v.124a-da ruhanilər və din xadimləri mənalarını bildirən «ərbabi-əmaim» (hərfi tərcüməsi: «əmmamə sahibləri») ifadəsi yer almışdır. Lakin Tehran çapında (s.144) «ərbabi-ğənaim» («qənimət sahibləri») sözləri əksini tapmışdır ki, bu da aşkar yanlışlıqdır.

[758] S-129, v.124a; S-297, v.97b. Tehran çapında (s.144) Hüseyn əvəzinə Həsən yazılmışdır. Halbuki digər mənbələrə əsasən bu şəxsin Hüseyn olduğu təsdiqlənir (A Chronicle of the Early Safawis, 1.1, s.224).

Şeyx Əli Əbdüləali ilə düşmənçilik və rəqabət etməsi və «Xatəmül-müctəhidin»ə müxalif olan Şeyx İbrahim Qətifi ilə dost olması səbəbindən sədarətdən uzaqlaşdırılaraq Hilləyə getdi və «Əllamətül-üləmayi» təkbaşına sədr oldu. Lakin onunla «Xatəmül-müctəhidin» arasında da pis münasibət yarandı. Mir («Əllamətül-üləmayi») onu («Xatəmül-müctəhidin»i) cahillikdə günahlandırdı və o da öz növbəsində Miri [dini məsələlərə] laqeydlikdə ittiham etdi. Bir gün əşrəfin hüzurunda onlar arasında söz döyüşünə gətirib çıxaran elmi mübahisə baş verdi. Get-gedə onların bu mübahisəsi böyük bir qəbahət halına gəlib çatdı. Şah [Təhmasib] həzrətləri «Xatəmül-müctəhidin»in tərəfini saxlayıb, Miri («Əllamətül-üləmayi»ni) sədarət vəzifəsindən çıxardı. Bu sonuncu şəxs həmin hadisədən sonra bir neçə gün ərzində icazəsiz olaraq Şiraza yollandı. Zəmanə müctəhidinin istəyinə uyğun olaraq, sədarət mənsəbi elmi və əməli kamillikləri özündə cəmləşdirmiş Mir Müizzəddin Məhəmməd İsfahaniyə tapşırıldı və o, səkkiz il müddətində təkbaşına və tam ixtiyarla sədrlik etdi. Axırda o, Həkim Kazeruninin[759] fırıldağı nəticəsində işdən çıxarıldı. Ondan sonra Mir Əsədulla Mərəşi Şüştəri ali sədarət mənsəbinə layiq görüldü və o, həyatda olduğu qalan müddət ərzində sədr oldu. Onun ölümündən sonra Şah Təqiəddin Məhəmməd İsfahani bu vəzifəyə təyin edildi. Lakin əşrəfin mübarək xasiyyətinə xoş gəlməyən əməllər törətdiyinə görə o da tutduğu vəzifədən azad olundu və sədarət mənsəbini bilikli ruhanilər zümrəsindən olan Mir Məhəmməd Yusif Astarabadi ilə Mir Əsədullanın oğlu Mir Seyid Əli arasında bölüşdürüldü.

***Mir Qiyasəddin Məhəmməd*** - «Mirmiran» [adı] ilə məşhur olub, Şah Təqiəddin Məhəmmədin qardaşı idi. O, həmin vaxtlar İsfahanın Həsəniyyə seyidlərinin böyüklərindən idi və «nəqibül-nüqəba» (nəqiblər nəqibi) idi. İrsi mənsəbə talib olub, axırda ali sədarət rütbəsi ilə şərəfləndirildi. Cənnətməkan şah həzrətlərinin vəfatı zamanı sədarət xalçası üzərində əyləşmişdi. Çox gözütox və pəhrizkar bir adam idi. Darüssəltənə İsfahanda külli miqdarda əmlaka və mülkiyyətə sahib olduğundan öz şəxsi qazancı ilə dolanardı. İki oğlu vardı. Onlardan biri Mirzə Məhəmməd Məxdum zəmanənin fəzilətlilərindən və ziyalılarından idi, digər oğlu Məhəmməd Əmin də yetərincə əməlisaleh, dindar və pəhrizkar idi.

Məmləkətlərin seyidləri təbəqəsindən olan digər bir şəxs Mirmiran Yəzdidir. O, bu [Səfəvi] sülaləsi ilə qohum olmaq şərəfinə layiq görülmüş Şah Nemətullanın oğludur. Şah Nemətulla Vəli adı ilə məşhur olan rəhmətlik Şah Nemətullanın sülaləsinin müridləri onu öz pirləri (mürşidləri) hesab edir, onun səadət nurundan bəhrələnirdilər. O, şahın qayğıkeşliyi və şəfqəti ilə əhatə olunmuşdu və çoxsaylı soyurğallara malik idi. Bu nəslin ixtiyarında olan əmlakın və onlara bağışlanmış mülkiyyətin gəliri beş min tümənə yaxın idi. O, şahənşahın rəğbəti və iltifatı sayəsində darülibadə Yəzddə əzəmət və xoşbəxlik taxtına əyləşib,

[759] Kazerun – İranın Fars vilayətində, Şirazdan qərbdə yerləşən şəhər.

ömrünü şadlıq və bəxtəvərliklə keçirirdi. Onun oğulları olan Şah Nemətulla və Şah Xəlilullanın hər ikisi bu [Səfəvi] sülaləsi ilə qohum olmaq şərəfinə nail olmuşdular. Lakin cənab Mir(miran Yəzdi) bu [Səfəvi] sülaləsinin qayğıkeşliyinin qədrini bilmədiyindən və Nəvvabi-Cahanbani Sultan Həmzə mirzə zamanında və Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyətinin başlanğıcında bəzi nalayiq hərəkətlər etmək, xüsusən də üsyandan və tüğyandan dəm vuran Bəktaş xan Əfşara yardım etmək və sədaqət yoluna zidd olan digər əməllər törətmək səbəbindən, bu əbədi [Səfəvi] dövləti qarşısında etdiyi günahlara görə cəzalandırıldı. Ona görə də bu sədaqətpərvərin (İsgəndər bəy Münşinin) xatiri rüxsət vermir ki, cənab Mirzənin (Mirmiran Yəzdinin) əhvalını, yüksək şanını, böyüklüyünü və ululuğunu olduğu kimi qələmə alsın.

***Şah Qasım Nurbəxş*** – miskinlərin öndəri olan Seyid Məhəmməd Nurbəxşin kəramətli törəmələrindəndir. Bu sonuncu adını çəkdiyimiz şəxs Reyin Türüşt qəsəbəsində sakin idi, nəciblik, böyüklük və uca şanlılıq kimi əlamətlər ona aid xüsusiyyətlərdən idi və onun pak yaşayışı insanların dillərində əzbər idi. Onun nəslindən olan [Şah Qasımın] özü Şah [Təhmasibin] rəğbətinin və iltifatının nəzərləri altında idi və Nurbəxşiyyə nəslinin müridlərinin «mərce»si (dini rəhbəri) idi. Rey və Şəhriyar vilayətlərində və oraların hüdudlarında yaxşı torpaq sahələrinə və tarlalara malik idi və əşrəf tərəfindən verilən soyurğal paylarının miqdarına görə [Səfəvi] dövləti ərazisində olan əksər seyidlərdən üstün idi.

***Mir Seyid Hüseyn əl-Hüseyni Cəbəlamili*** - «Xatəmül-müctəhidin» Şeyx Əli Əbdübalinin qızının oğludur. Cənnətməkan şah həzrətlərinin zamanında Cəbəlamildən[760] gələrək, bir müddət darülirşad Ərdəbildə tədrislə, şeyxülislamlıqla və şəriət məsələlərinin həlli ilə məşğul oldu. Daha sonra ulu dərgaha gəlib, müctəhid olmaq iddiasına düşdü və cənnətməkan şahın qayğısı ilə əhatə olundu. Yüksək ruha və fitrətə, kamil xasiyyətə və dərin hafizəyə malik idi. Bəzən ulu ordunun şəriət məsələlərini həll etməklə məşğul olardı. Bir çoxları gün ərzində onun ali məhkəməsinə müraciət edərdilər və o cənabın göstərişinə uyğun olaraq məhkəmənin katibləri və üzvləri şəriət sənədlərində onun imzası yerində «seyyidül-mühəqqiqin» (ruhani alimlərin rəhbəri), «sənədül-müdəqqiqin» (din tədqiqatçılarının istinadgahı), «varis-i ülum-i ənbiya vəl-mürsəlin» (peyğəmbərlərin elmlərinin varisi) və «xatəmül-müctəhidin» (müctəhidlərin möhürü) yazardılar. Üləmaların bu vəziyyətə dair daxilən etirazları olduğuna və öz-özlüklərində bununla razılaşmadıqlarına baxmayaraq, nüfuzlu din alimlərindən heç biri bu barədə danışmağa cürət etmirdi. [Mir Seyid Hüseyn əl-Hüseyni Cəbəlamilinin] çox fəsahətli nitq qabiliyyəti vardı və şirindil adam idi.

Cənnətməkan şah həzrətlərinin hüzurunda dövlət ərkanının, hətta yüksək dərəcəli şahzadələrdən heç birinin izah edə bilmədiyi müşkül məsələlərin şərh edilməsi cənab Mir [Seyid Hüseyn əl-Hüseyni Cəbəlamilidən] xahiş olunardı.

---

[760] Cəbəlamil – Livanda əhalisi şiələrdən ibarət olan tarixi bölgə.

Onun xahişləri Həzrət [Şah Təhmasibin] hüzurunda keçərli idi. Onun camaata, xüsusən də dövranın hadisələri ucbatından çətin vəziyyətə düşənlərə çox köməyi dəymişdir. Fiqh haqqında, isna-əşəriyyə (on iki imam) məzhəbinin həqiqiliyi və bidətçi məzhəblərin rədd edilməsi barədə əsərləri vardır.

***Mir Fəxrəddin Simaki*** - darülmömininin Astarabadın Simak məntəqəsinin böyüklərindən, zəmanəsinin fəzilətlilərindən, alimlərindən və ziyalılarından olub, seyidlərin və alimlərin fəxri olan Qiyasəddin Mənsur Şirazinin tələbələrindən idi. Ulu dərgahda yaşayıb, cənnətməkan şah həzrətlərinin mərhəmətinin nəzərləri altında olmuşdur. Hər gün əqli və nəqli elm tələbələrinin bir çoxları o cənabın dərslərində iştirak edərək, onun elmindən yararlanardılar və onun yüksək səviyyəli izahatlarından fayda götürüb bəhrələnərdilər. İlahiyyat elminin «təcrid» mövzusuna dair şərhlər yazmışdır[761]. Onun sözləri elm tələbələri arasında etibarlıdır.

***Mir Rəhmətulla Pişnamaz*** - Nəcəfi-əşrəfin seyidlərindən və əsrinin fəzilətlilərindən idi. Ulu dərgahda pişnamazlıq mənsəbinə malik idi. Şahanə şəfqətlə əhatə olunmuş və hökmdarın izzət və ehtiramına tuş gəlmişdi. Yetərincə dindar və pəhrizkar adam idi. Ərəbcə çox yaxşı şeirlər deyərdi. Fiqh, təfsir və hədis elmlərində ali mərtəbəyə malik idi. Günahları bağışlanmış müctəhid Şeyx Zeynəddinin - Allah ona rəhmət eləsin - birbaşa şagirdi olmuşdur. Şərəfli həyatının əksər vaxtlarını dərs deməyə və elmi bəhslərdə iştirak etməyə sərf edərdi və fikrini ifadə etməkdən xali olmazdı.

***Mir Əlaünnəbi İmadülmülk Mərəşi***[762] - darüssəltənə Qəzvinin Mərəş seyidlərindəndir. Bəzi vaxtlarda ulu dərgahda «qazi-yi müəskər-i zəfər-əsər» («müzəffər qoşunların qazısı») vəzifəsində olmuşdur. Gilanın fəthindən sonra tay-tuşlarından üstün tutularaq, o vilayətin sədarət mənsəbinə yüksəldilmişdi. Maddi və mənəvi kamillikləri özündə cəmləşdirən bir şəxs olub, üsul və rical[763] elmlərində dövrünün öndəgedəni idi və eyni zamanda, yaxşı bir hədis bilicisi idi. Yetərincə xoşsöhbət, hazırcavab və xoşagələn təbiətə malik bir insan idi və həmişə behişt zinətli məclisdə hökmdarla digərlərindən daha çox danışmaq və söhbətləşmək şərəfinə nail olurdu. Möminlik və pəhrizkarlıqda kamil idi. Zahiri camalı da yaraşıqlı idi. Sərbəstcəsinə və xoştəbiətliliklə etdiyi söhbətlər nəticəsində idrak sahiblərinin və həmsöhbətlərinin xatirinin sevincini artırardı.

***Mir Məhəmməd Mömin Astarabadi*** - Astarabadın böyük seyidlərindəndir və Fəxrəddin Simakinin bacısı oğludur. Çox fəzilətli, dindar və gözəl əxlaqlı idi və yaxşı təbiətə sahib idi. Bəzən şeir yazmağa meyil göstərərdi. Rəğbət doğuran qəsidələri, qəzəlləri və rübailəri vardır. Möminlikdə və dindarlıqda ali dərəcəyə malik idi. O, həzrət xaqanın fərmanına uyğun olaraq, günahları bağışlanmış

[761] İlahiyyat elmində "təcrid" anlayışı dünyadan əl çəkib Allaha yönəlmək mənasında işlədilir.
[762] S-129, v.125b; S-297, v.98b.
[763] Üsul elmi («üsuliddin») - dini etiqadın təməl prinsiplərini ehtiva edir. Rical elmi - əsas etibarilə dini ənənənin tanışmış şəxsiyyətlərinin tərcümeyi-halları haqqındadır.

şahzadəyə (Sultan Heydər mirzəyə) təlim verməklə məşğul idi və İsmayıl mirzənin hakimiyyəti ələ keçirməsi zamanı İranda qalmayıb, Hindistanın Dəkən vilayətinə getdi. Böyük Dəkən vilayətində ulu Qütbşahlar sülaləsinin şiəliyi qəbul etməsi səbəbindən Məhəmmədqulu Qütbşahın yanında xidmətə daxil olub, o vilayətdə olduqca mötəbər bir şəxsə çevrildi, vəkillik («vəkalət») və rəislik («pişvayi») mərtəbələrinə layiq görüldü. İndi bu səhifənin yazıldığı və hicri təqviminin 1025-ci (1616) ilə çatdığı bir məqamda o, hələ də həyatdadır və haqqında bəhs etdiyimiz cənab mirzənin vasitəsilə müxtəlif diyarların ehtiyac sahibləri öz xahişlərini o ulu sülaləyə bildirirlər.

Seyidlərin və üləmaların fəxri olan «İşraq» təxəllüslü[764] Mir Məhəmməd Bağır Damad - mərhum Seyid Məhəmməd Damad Astarabadinin doğma xələfi və mərhum və rəhmətlik müctəhid Şeyx Əli Əbdüləalinin qızının oğludur. Onun atası bu səbəbdən (Əbdüləalinin kürəkəni olması üzündən) «Damad» [adı] ilə tanınmışdı. [Mir Məhəmməd Bağır] çox fəhmli və gözəl xasiyyətli bir şəxs kimi tərif olunur. O, kiçik yaşlarında müqəddəs və ulu Məşhəddə yaşamış, feyz bəxş edən müdərrislərdən və fazillərdən elmləri öyrənmiş və qısa müddət ərzində böyük bir tərəqqi etmişdi. İsgəndər şanlı nəvvab zamanında şanlı orduya gələrək, ulu dərgahın alimləri və fazilləri ilə söhbətləşmək şərəfinə nail olmuşdu. O, bir müddət Mir Fəxrəddin Simaki Astarabadi ilə və başqa ziyalılarla mübahisələr edərək, əqli və nəqli elmlərdə öz zəmanəsinin öndəgedəninə çevrilmişdi. Onun fəzilətinin və kamalının nurları indi də elmi təbəqənin amal sahəsini işıqlandırır, onun günəş misallı təbiətinin ulduzunun parıltısı və işartısı dünya sakinlərinin üzərinə işıq saçır. O, cənnətməkan şah həzrətlərinin vəfatı tarixindən ta hicri təqviminin 1025-ci (1616) ilinə müvafiq olan indiki zamana qədər heç bir vaxt mütaliədən və elmi mübahisədən xali olmamışdır, şərəfli vaxtının bir anını da bekarçılıqla keçirməmişdir və həqiqətən də, maddi və mənəvi kamillikləri özündə cəmləşdirmişdir. O, ruhani və dünyəvi kamilliklərin kəşfedicisi idi. Əksər hikmət elmlərində, qəribə riyazi fənlərdə, fiqh, təfsir və hədis biliklərində yüksək dərəcəyə çatıb, ali rütbəyə və ictihada[765] yiyələnmişdi. Əsrin fəqihləri şəriət fitvalarını o cənabın təsbihləri əsasında mötəbər sayırdılar. Əksər elmlər barədə əsərləri vardır və çoxsaylı əsərlərindən bu kiçik zərrəyə (İsgəndər bəy Münşiyə) məlum olanları bunlardır: «Kitab-i siratül-müstəqim və üfüqül-mübin» («Doğru yol və aydın üfüq haqqında kitab») əsəri dəyərli hikmətlər və kəlam elminin dəqiqlikləri ilə doludur; «Kitab-i rəvaşeh-i səmaviyyə» əsəri imamların hədislərinin şərhindən bəhs edir; «Kitab-i katı və şərh-i Kuleyni» («Kifayətedici kitab və Kuleyninin şərhi») əsəri[766];

[764] S-129, v.126a; S-297, v.99b.
[765] İctihad (hərfən ərəbcə «çox çalışmaq» mənasını verir) - din alimlərinin çatdıqları ən yüksək səviyyə olan müctəhidlik məqamını bildirir, həmçinin müctəhidlərin «Quran» və hədislərin tədqiqi əsasında verdikləri şəriət hökmlərinə də «ictihad» deyilir.
[766] Məhəmməd ibn Yaqub Kuleyni (öl. h. 329 / m. 941) - şiə ilahiyyatçısıdır. O, «Kafi» və ya «Üsul-i kafi» adlı dördcildlik hədis toplusunun tərtibçisidir.

«Sidrətül-müntəha»[767] adlanan «Quran» təfsiri; imal [elminin] xüsusiyyətlərinə[768] həsr olunmuş «Təazat» («Aşkarlamaq» və ya «Peyda etmək») adlanan risalə; «Kitab-i xülse-yi məbkutiyyə» («Ruhani aləmin kəşfi kitabı») əsəri; «Üyunul-məsail» («Məsələlər çeşməsi») əsəri; «İmazat» («Parlaqlıq») əsəri; «Zəvabitür-rizae» əsəri; «Səbe-yi şəddad» əsəri; «Haşiye-yi şərh-i müxtəsər-i üsul və qiyasat-i həqqül-yəqin fi hədi-sül-aləm» («Dinin əsaslarının müxtəsər şərhinə dair haşiyə və aləm hədisləri əsasında inkaredilməz həqiqətin müqayisəli təhlili») əsəri; İbn Kəmunənin şübhəsini aradan qaldırmaq üçün yazdığı «Kitab-i təqdisat» («Müqəddəslik kitabı») əsəri.

Bunlardan əlavə neçə-neçə digər risalələr və kitablar da cənab Mir [Məhəmməd Bağır Damadın] müəllifliyi ilə araya-ərsəyə gəlmişdir. Ümid odur ki, hansı əsərini hələ yazıb bitirməyibdir, onu da tamama yetirməyə müvəffəq olaraq, şərəfli xatirinin gizlinlərini zühur cilvəgahına gətirsin. Cənab Mirin hafizəsi o qədər güclüdür ki, ömrünün əvvəlində və boya-başa çatmasının başlanğıcında təbiət xəzinəsindən onun hafizəsinə əmanət qoyulmuş əyarlı nağd pulun hamısını özündə elə saxlamışdır ki, təbiət xəzinəsindən onda olan bir sikkə də dövran fəlsəfəsinin sobasında məhv olmamışdır.

Allaha itaətdə, möminlikdə və ibadətdə ali dərəcəyə və yetərincə yüksək mərtəbəyə malikdir. Xülasə, vaxtını mütaliəyə, elmi mübahisəyə və Allaha ibadətə sərf etmişdir və etməkdədir. Bəzən şeir yazmağa da meyil göstərir. Doğrudur, bu, onun ali mərtəbəsinin aşağı pilləsi olsa da, bu məsələ barədə ariflərin seçkini olan adlı-sanlı söz ustadı Şeyx Nizamidən - Allah ona rəhmət eləsin - məşhur olan bu beyti:

«Ulu Tanrı insanlardan cərgələr qurdu,
Peyğəmbərlərin ardınca şairlər durdu»

nəzərə alaraq, doğru deyən dili ilə şeirlər söyləyir. Təxəllüsü «İşraq»dır. Qəzəllər, qəsidələr və məsnəvilər, xüsusilə də Şeyx Nizaminin «Məxzənül-əsrar» («Sirlər xəzinəsi») əsərinə nəzirə olaraq, özündə mənalar dənizini əks etdirən məsnəvi ərsəyə gətirib, söz ustadlığı ilə məşğul olmuşdur. Cənab Mirin poeziyasından Həzrət Xatəmül-ənbiyanın (Məhəmməd peyğəmbərin) - ona və nəslinə Allahın salamı olsun - tərifi barədə bəlağət sapına düzülmüş bir rübai bu səhifədə uğur və bərəkətlə qələmə alınır:

### Rübai

[767] Sidrətül-müntəha - dini rəvayətə görə, göyün yeddinci qatında olan əfsanəvi ağac.
[768] İmal elmi - şəriət hüququnda («fiqh»də) ifadələrə və istilahlara məna verməyi, onları aydınlaşdırmağı nəzərdə tutan bir elmidir (F.Devellioğlu. Osmanlıca - Türkçe Ansiklopedik Luğat, 24. baskı, Ankara, 2007, s.432).

«İki dünya zinətindir, ey sonuncu peyğəmbər,
Sənin ayağın altında fələklər olmuş minbər.
Sənin şəxsinin kölgəsi düşməmiş yerə, çünki
Sən nursan, günəş özü sənin kölgəndir, ey sərvər!»

[Mir Məhəmməd Bağır Damad] hal-hazırda darüssəltənə İsfahandadır. Ümid odur ki, onun şərəfli mövcudluğu illərlə həyat gülşəninin zinətini artırsın və elm tələbələri onun günəş misallı zəkasının parlaqlığından feyz alsınlar.

Mir [Şücaəddin] Mahmud İsfahani - Xəlifə Sultan adı ilə tanınan və İsfahanın böyük dərəcəli seyidlərindən olan mərhum Mir Seyid Əlinin oğludur. Onların nəsli həmin şəhərdə «Xəlifə seyidləri» kimi məşhur olub, bu adla tanınırlar. Onların əcdadları və ululari Mazandaran vilayətindən olub, o diyarın valisi olmuş Mir Büzürgün kəramətli nəslindəndirlər və zəmanənin hadisələri ucbatından İsfahana yollanıb, orada məskunlaşmışlar. Bu Xəlifə Sultan çox xoş təbiətli, şən söhbətli və zarafatcıl adam idi və cənnətməkan şahın şəfqətinin və iltifatının nəzərləri ilə əhatə olunmuşdu. Yuxarıda adı çəkilmiş cənab Mir Şücaəddin Mahmud fəzilətli və ziyalı bir seyid olub, ali fitrət sahibi idi. O, ənənəvi elmlərdə, xüsusilə də əqli və hikmət elmlərində zəmanənin öndəgedəni idi. Onun şərəfli məclisi elm tələbələrindən, dərslərdən və elmi bəhslərdən xali olmazdı. Hər zaman füqəralar, dərvişlər, elm tələbələri və qohum-əqrəbaları onun mülkiyyətinin xalis məhsulundan yardım alardılar.

***Şah Təqiəddin Məhəmməd*** - darülmülk Şirazın «Nəsabə seyidləri» nəslindəndir. Çox fəzilətli və bilikli olub, Əllamə Şah Fəthulla Şirazinin tələbələrindən idi. «Əllamətül-üləmayi» rütbəsinə malik Mövlana Mirzəcan Şirazi ilə mübahisə edib, əqli və fəlsəfi elmlərdə açıq-aşkar tərəqqiyə nail olmuş və fazillər torpağı olan Şirazın elm öyrətmək və tədris etmək taxtına əyləşmişdi. Fazillərdən və elm tələbələrindən bir çoxları onun dərslərində iştirak edib, onun savadından bəhrələnirdilər. O, həmin dövrün ziyalıları zümrəsindəndir.

***Mir Mahmud Şulistani*** - Şulistanın böyük seyidlərindəndir. Fəzilətli, dindar, gözəl əxlaqlı, yaxşı bilikli bir seyid olub, Şeyx Zeynəddinin - Allah ona rəhmət eləsin - sevimli şagirdlərindən idi və üləmaların sultanı olan Əmir Qiyasəddin Mənsur Dəştəgi Şirazinin yanında əqli elmləri öyrənmişdi.

***Əmir Əbülvəli Əncu və onun qardaşı***[769] ***Mir Əbülməhəmməd*** - Mir Şahmahmud Əncəvi Şirazinin övladlarıdırlar. Mir Əbülvəli fəzilətli bir seyid və şiəlik təəssübkeşi olan bir fəqih idi. O, fəzilətdə və kamalda qardaşından irəlidə idi. Onun fiqhi məsələlər barədə fikirləri fəqihlər arasında digərlərinin fikirlərindən üstün tutulurdu. O, ilk vaxtlarda İmam Rzanın yüksək məqamlı mübarək astanasında «touliyyət»ə[770] məmur edilib, bir müddət mübarək məqbərəyə xidmət

[769] S-129, v.127b.
[770] Touliyyət – vəqfin idarə olunması. Touliyyət işini icra edən şəxs "mütəvəlli" adlanırdı.

göstərməklə məşğul olmuşdu. Lakin həmin vəzifədə işləyərkən, onunla müqəddəs Məşhədin hakimi Şahvəli sultan Zülqədər arasında baş verən münaqişə üzündən, feyz bəxş edən məqbərənin «touliyyət»indən azad edilərək, ulu orduya gəldi və qardaşı ilə şərikli Qazan [xan] vəqflərinin mütəvəllisi oldu. Cənnətməkan şahın [hakimiyyəti] əyyamının axırlarında müqəddəs Səfəviyyə məqbərəsinin «touliyyət»i Mir Əbülvəliyə tapşırıldı, onun qardaşı isə təkbaşına Qazan [xan] vəqfinin mütəvəllisi oldu. İsgəndər şanlı nəvvabın [hakimiyyəti] zamanında müzəffər qoşunların qazısı («qazi-yi müəskər-i zəfər-əsər») mənsəbi cənab Mirzəyə həvalə olundu və o, Allahın kölgəsi olan əlahəzrət şahın cülusu zamanında ali sədarət mənsəbinə yüksəldilərək, həmin önəmli vəzifənin icrası ilə məşğul oldu. Onun mənalı həyatının qalan hissəsi öz yeri gələndə qeyd olunacaqdır.

Onların digər bir qardaşı Şah Müzəffərəddin Əlidir. O, darülmülk Şirazın fazillərindən idi və orada şeyxülislamlıq mənsəbinə və şah ailəsinə məxsus mülkiyyətin halallıq işləri üzrə vəkili («vəkalət-i həlaliyyat-i sərkar-i xasse-yi şərifə») vəzifəsinə ucalmışdı. İsgəndər şanlı nəvvabın [hakimiyyətə keçməsi] zamanında o həzrətin səadətli məiyyətinin tərkibində Şirazdan çıxıb əbədi səltənətin mərkəzinə gələrək, müzəffər qoşunların qazısı («qazi-yi müəskər-i zəfər-əsər») mənsəbi ilə şərəfləndirildi. İsgəndər şanlı nəvvabın ona xüsusi rəğbəti və şəfqəti vardı.

***Mirzə Məxdum Şərifi*** - Mir Şərif Şirazinin oğlu və vəzir Qazı Cahan Seyfi Hüseyni Qəzvininin qız nəvəsi idi. Ulu dərgahda yaşayırdı. Fəzilət və kamal sahibi idi. Yüksək fəhmə və fitrətə malik idi. Yaxşı təfsirçi və hədisçi idi və çox xoşsöhbət idi. Yaxşı moizə deyərdi və bərəkətli ömrünün əksər vaxtlarında öz evinin yaxınlığındakı Qəzvinin Heydəriyyə məscidində moizə oxumaqla məşğul olardı. Onun moizə oxuduğu minbərin altında çoxlu camaat toplaşardı. Lakin sünniliyə aludə olmaqda şübhəli bilindiyi üçün cənnətməkan şah həzrətlərindən çox da rəğbət və iltifat görməmişdi. Amma bəzi vaxtlarda dünya sakinlərinin şahzadəsi olan Pərixan xanımın rəğbət və iltifatının işartısı yaxınlıq və qonşuluq səbəbindən onun həyatı üzərində parlamışdı. O, İsmayıl mirzə zamanında tam etibar qazanmış və sədarət [vəzifəsinin] yarısı ona tapşırılmışdı. Lakin sünnilik məzhəbində ifratçılıq etməsi, düşüncəsiz və diqqətsizcəsinə öz əməlləri üzərindən pərdəni qaldırması səbəbindən işdən çıxarıldı. Bu barədə öz yeri gələndə qeyd olunacaqdır.

***Şah İnayətulla İsfahani*** - darüssəltənə İsfahanın başda gələn seyidlərindən idi. O, ulu dərgahda «qazi-yi əskər-i zəfər-əsər» mənsəbinə malik idi və öz vəzifəsini lazımi qaydada yerinə yetirirdi. Olduqca şəriətpərvər və pəhrizkar idi. İsmayıl mirzə zamanında ali sədarət [vəzifəsinin] yarısı ona həvalə olunsa da, İsgəndər şanlı nəvvabın hakimiyyəti dövründə tutduğu vəzifədən çıxarılaraq, doğma vətəninə yollandı.

***Mir Seyid Əli Şüştəri*** - Mir Əsədulla Sədrin şanlı oğludur. Onun atası neçə il cənnətməkan şahın xidmətində təkbaşına ali sədarət rütbəsi ilə əziz və istəkli

olmuşdu və həyatının axır günlərində yaşının çoxluğu və qocalığı səbəbindən öz vəzifəsindən əl çəkib, yerinə yuxarıda adı çəkilmiş sadiq oğlu Mir Seyid Əlini qoydurdu. O, bir müddət yüksək dərəcəli atasının naibliyi, bir müddət isə Mir Məhəmməd Yusif Astarabadinin şərikliyi ilə həmin xidmətin icrası ilə məşğul oldu. Bəzi vaxtlarda isə İmam Rza məqbərəsinin feyz bəxş edən vəqflərinin mütəvəllisi olaraq, müqəddəs və ulu Məşhəddə yaşadı. O, öz zəmanəsinin böyük seyidi, pakizə adamı idi və bəyənilən fəzilətlərlə və xoşa gələn xasiyyətlərlə vəsflənmişdi. Vəzifədə olduğu əyyamda öz çalışqanlığının və pəhrizkarlığının ətəklərini tamahkarlıq çirkabına bulaşdırmamışdı. Onların ata-babaları Şüştər vilayətində olduqca ulu və möhtərəm sayılırdılar və oranın camaatı üçün nümunə idilər. Onun qardaşı Mir Əbdülvəhhab dövlətsevərliyinin çoxluğunun və göstərdiyi gözəl xidmətlərin müqabilində Dizful əmiri təyin olunmaq şərəfinə nail olmuşdu və o mülkün şəriət qaydaları («şəri») və ictimai ənənələr («ürfi») əsasında idarə olunması onun rəyinə və düşüncəsinə həvalə olunmuşdu.

***Mir Kəmaləddin Məhəmməd Astarabadi və Mir Əbülqasim İsfahani*** - İmam Rza məqbərəsinin feyz bəxş edən sərkarının (vəqflərinin) mütəvəllilıəri idilər. Onların hər ikisi cənnətməkan şahın həyatının sonunadək o feyz bəxş edən vəqflərinin vacibi və sünnəti «touliyyət»i ilə məşğul oldular. Mir Kəmaləddin Astarabadın böyük seyidlərindən idi. Mir Əbülqasim isə İsfahanın Xəlifə seyidləri nəslindən idi. Onun soyu «Mazandaran seyidləri» [adı] ilə məşhur idi. O, Cəmşid məqamlı şah (Təhmasib) həzrətlərinin [hakimiyyəti] zamanının axırlarında [İmam Rzanın] feyz bəxş edən məqbərəsində xidmət göstərməyə mənsub edilmişdi. Mir Kəmaləddin «sünnəti touliyyət»i, Mir Əbülqasim isə «vacibi touliyyət»i həyata keçirirdi. Burada «sünnəti» ibarəsinin mənası odur ki, «sərkar-i xasse-yi şərifə»dən vəqf kimi dövlət qulluqçularının, müdərrislərin, vəzifə sahiblərinin, seyidlərin, alimlərin, fazillərin və ləyaqət sahiblərinin ixtiyarına verilmiş mülkiyyətin gəlirləri cənnət məskənli xaqan həzrətlərinin «sünnət» (Məhəmməd peyğəmbərin ənənəsi) əsasında qəbul etdiyi göstərişlər əsasında xərclənərdi. Buna sünnəti deyərlər. «Vacibi» isə ona deyərlər ki, vəqflərin gəliri və nəzirləri vəqfedicinin müəyyən etmiş olduğu şəkildə istifadə olunmalıdır.

***«Həmədan qazızadəsi» kimi məşhur olan***[771] ***Mirzə İbrahim Həmədani*** - Təbətəbayi əl-Hüseyni seyidlərindəndir. Atası Həmədanda qazılıq və şəriət məsələlərinin təsəddisi mənsəbini tuturdu. [Mirzə İbrahim] bir müddət Mirzə Məxdum İsfahaninin yanında tələbəlik etmiş, sonra isə darüssəltənə Qəzvində «əllamətül-üləma-yi» Mir Fəxrəddin Simakinin xidmətində məşhurlaşmışdı. Əqli elmlərin tədqiqi ilə məşğul olub, fəlsəfə («hikəmiyyat») sahəsində böyük bir tərəqqi etmişdi. Cənnətməkan şahın ölümündən sonra Həmədanda irsi qazılıq mənsəbini tuturdu. Amma özünün qazılıq işləri ilə məşğul olmağa az həvəsi vardı. Ona görə də onun naibləri məhkəmə işlərinin həlli ilə məşğul olurdular, onun özü

---

[771] S-129, v.128b; S-297, v.102a.

isə şərəfli vaxtının əsas hissəsini mütaliəyə və elmi mübahisəyə sərf edirdi. Elm tələbələrinin bir çoxları onun dərsində iştirak etməkdən zövq alardılar. Əqli və fəlsəfi elmlərdə kitabları və dəqiq şərhləri vardır. Məsələn, «Risale-yi isbat-i vacib-i qədim və cədid», «Şərh-i şəfa-yi Şeyx Əbu-Əli» (Şeyx Əbu-Əli ibn Sinanın «Şəfa» kitabına şərh), «Haşiye-yi şərh-i işarat» («İşarətlərin şərhinə dair qeydlər») və s. Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti zamanında yenidən ulu orduya gəlib, hökmdarın nəvazişli nəzərləri ilə əhatələndi, rəğbət doğuran soyurğallarla və bəxşişlərlə əzizləndirildi və bolluca ənamlarla mükafatlandırıldı. Belə ki, bir dəfə onun borcunu ödəmək üçün dövlət xəzinəsindən yeddi yüz İraq tüməni ayrılmışdı və onun öhdəsində olan borclar bununla yüngülləşmişdi. Xülasə, onun sözlərini dövrün zəkalı alimləri, fazilləri və ziyalıları doğru sayardılar. 1026-cı (1617) ilə uyğun gələn ilan ilində Gürcüstan səfərindən rüxsət alıb Həmədana yollandığı zaman yolda ikən ömrünü başa vurdu.

***Mir Cəfər Möhtəsibül-məmalik***[772] - Təbətəbayi əl-Hüseyni seyidlərindən olan Mir Rastinin oğludur. Onun böyük Əbdülvəhhabiyyə seyidləri ilə yaxın qohumluq əlaqəsi vardı. Cənnətməkan şahın xidmətində «möhtəsibül-məmalik» rütbəsinə layiq görülərək, həyatda olduğu müddətcə o mənsəblə əzizləndi və şərəfləndi. Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyətinin əvvəlində Fani dünya ilə vidalaşdı. O, çox yaxşı əxlaqlı, dərviş xasiyyətli, gözəl təbiətli, xoş rəftarlı bir kişi idi.

***Mirzə Əbdülhüseyn Cahanşahi***[773] - Mir Fəsihin oğludur. O da Hüseyni seyidlərindən idi və Əmirə Cəfərlə əmioğlu idilər. Onun anası Cahanşahın sülaləsinə mənsub möhtərəm qadınlardan biri olduğu üçün ona Mirzə Əbdülhüseyn Cahanşahi deyərdilər. O, darüssəltənə Təbrizdə yüksək Cahanşahiyyə məqbərəsinin civarında yaşayırdı və Müzəffəriyyə adı ilə məşhur olan həmin məqbərənin «touliyyət»i anası tərəfindən ona məxsus idi. İsgəndər şanlı nəvvabın [hakimiyyəti] zamanında və Əmir xan Türkmanın hakimliyi əyyamında darüssəltənə Təbrizin kələntərliyi [vəzifəsi] ona məxsus idi. Çox uca şanlı və mötəbər [şəxs] idi. Rumilərin istilası vaxtı İra

***Şah Əbdüləli Yəzdi*** - darülibadə Yəzdin yüksək dərəcəli, böyük şöhrətli seyidlərindən idi. Onun ata-babaları Kirmanın Bəm[774] vilayətində yaşamışdılar və darülibadə Yəzdə sonradan köçmüşdülər. Sözügedən şəxs orada şəriət məhkəməsində məsələləri həll etməklə məşğul idi. Olduqca pəhrizkar və tamahsız bir adam idi. Onun yüksək Nurbəxşiyyə nəsli ilə qohumluğu vardı. Üzərində onun möhürü və sicili olan şəriət sənədləri o diyarın xalqı arasında çox etibarlı idi.

---

[772] Möhtəsibül-məmalik - şəhər bazarlarına nəzarət edən, malların qiymətini təsdiqləyən mərkəzi dövlət aparatı məmuru. Hər bir şəhərdə möhtəsiblər olurdu və onlar baş möhtəsibə, yəni möhtəsibül-məmalikə tabe idilər (bax: (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.267-268; З.Г.Байрамов. Местное и городское управление в Азербайджане, с. 19-20).

[773] S-129, v.129a.

[774] Bəm – Kirmandan cənub-şərqdə, Kuhbəndan silsiləsinin cənub yamaclarında yerləşən şəhər.

***Mir Kəlan Astarabadi*** - darülmöminin Astarabadın böyük seyidlərindən və «əllamətül-üləmayi» Mir Fəxrəddin Simakinin qohumlarından idi. Fiqh elmində çox məharətli idi. Olduqca şənsöhbət, xoştəbiət, dindar, mömin və pəhrizkar bir adam idi. Cənnətməkan şahın ömrünün axırında o həzrətin (Şah Təhmasibin) doğma bacısı, mərhum, bağışlanmış şahzadə Sultanının on dörd məsum həzrətlərinin - onlara salam olsun - xatirəsinə vəqilər bağışlayaraq, «touliyyət»i o həzrətin (Şah Təhmasibin) şərəfli zatına və ondan sonra onun şahlıq taxtına əyləşəcək və padşahlıq kürsüsünə cülus edəcək hər bir övladına verdi, [Mir Kəlanı isə] vəkil təyin etdi. O, yüksək dərəcədə dindarlığı və düzgünlüyü ilə ad çıxarmışdı.

***Mir Seyid Əli Xətib*** - o da Astarabad seyidlərindən idi. Ulu dərgahda xətib mənsəbinə malik idi və bəzi vaxtlarda möhtəsibül-məmalik olmuşdur. «Əmri-məruf» və «nəhyi-münkər» məsələlərində çox ifrata varmışdı. Belə ki, o, riyadan və dünyəvi qərəzlərdən şübhələnirdi. Xasiyyətinin tündlüyü və nəfsinə qalib gəlməyi səbəbindən alimlər və fazillər təbəqəsinin başbilənləri ona baxıb, yaşayış tərzlərinə düzəlişlər edirdilər, lakin yenə də onun əlindən və dilindən xilas ola bilmirdilər.

***Mir Tahir Kaşi*** - Kaşan seyidlərindən idi və ulu dərgahda Mir Seyid Əli Xətibin köməkçisi idi.

***Mir Zeynalabidin Möhtəsib Kaşi***[775] - o da Kaşan seyidlərindəndir. «Mir Kəllə» adı ilə məşhurlaşmışdı. Mir Yəhya Ələvi Qəzvininin kürəkəni idi. O, Mir Seyid Əlinin və Mir Tahirin yanında üçüncü [xətib] idi və cəmi işlərdə onların ardıcılı idi. İsmayıl mirzə zamanında onlar qəzəbə tuş gəldikdə, fərmana əsasən Mir Zeynalabidin möhtəsib vəzifəsinə yüksəldildi.

***Mir Əbu-Talib İsfahani***[776] - İsfahan seyidlərindən olub, imami təbəqəsindən idi və İsfahanda yerləşən, səcdə edənlərin imamı və ariflərin qibləsi İmam Zeynalabidinə - ona salam olsun - mənsub olan şərəfli zaviyənin mütəvəllisi idi. Əqli və fəlsəfi elmlərdə öz düşüncəsinə görə özünü tay-tuşlarından üstün sayardı.

***Mir Məhəmməd Əşrəf Astarabadi***[777] - Astarabadın Derazgisu seyidlərindəndir. Dindarlığına, əməlisalehliyinə və pəhrizkarlığına görə şahın etimadına layiq görülmüşdü. Həmişə cənnətməkan şahın şəriət naibi kimi cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) məqbərəsini ziyarət və təvaf etməyə gedib, ziyarət şərtlərinə lazımınca əməl edirdi. O, hökmdarın hüsn-rəğbətinə və qayğıkeşliyinə tuş gəlmişdi.

O həzrətin (Şah Təhmasibin) zamanında «məmaliki-məhrusə»də bir çox digər seyidlər də vardılar ki, onlar o həzrətin vəfatı vaxtından öncə ölüm paltarı geyinmişdilər və artıq həyatda deyildilər. Məsələn, behişt bəzəkli məclisin

---

[775] S-129, v.129b; S-297, v.100b.
[776] S-129, v.129b; S-297, v.100b.
[777] S-129, v.129b; S-297, v.101b.

iştirakçılarından olan «əllamə-tül-üləma fi zəmanə» («zəmanə alimlərinin ustadı») Dəstqeyb Şirazi, özünü Mir Şərif Əllamə Cürcaninin nəvələrindən sayan Mir Seyid Şərif Şərifi Şirazi. Fars [vilayətinin] halallıq işləri üzrə vəkili («vəkili-həlaliyyat») və şeyxülislamı olan Şah Əbu-Turab Əncu, Xorasan seyidlərindən Mirzə Əbu-Talib Rizəvi, onun oğlu Mirzə Əbülqasim, Mir Əbdülkərim Xadim, Muxtar Səbzəvari nəslindən olan Mir Şəmsəddin Əli Sultan, Nişapur seyidləri, Kirmanın Bəm seyidləri, Həsən padşah Türkmanın oğlu Yusif mirzənin qızının nəslindən olan Təbrizin Əbdülvəhhabiyyə seyidləri, İsfahanın Gülüstanə və Məmuriyyə seyidləri və s. İndi bu təbəqələrin hər birindən o həzrətin vəfatı zamanı həyatda olan şəxslər qeyd olunacaqdır.

***Müqəddəs Məşhəd [şəhərininl seyidləri*** - böyük Rizəvi və Musəvi seyidlərinin bir hissəsi müqəddəs və ulu Məşhəd [şəhərində] İmam Rzanın mübarək məqbərəsində xadimlik edirdilər və izzət, etibar kürsüsünə əyləşmişdilər. Bu ali səviyyəli təbəqənin bir zümrəsini təşkil edən Mirzə Əbu-Talib Rizəvi və onun şərəfli övladı Mirzə Əbülqasim olduqca alicənab, yüksək şöhrətli, mallarının, mülkiyyətlərinin, sərvətlərinin və istehsalatlarının çoxluğuna görə nadir və imtiyazlı şəxslər idilər. Xorasanın, xüsusilə də müqəddəs və ulu Məşhəd [şəhərinin] seyidlərinin ən böyükləri o cənabın və onun şərəfli xələfinin ali dərəcəsini və böyüklüyünü qəbul edirdilər. Onlar bu baxımdan digər Rizəviyyə seyidlərindən və qohum-əqrəbalarından seçilirdilər və xüsusi qayğı ilə əhatə olunmuşdular. [Mirzə Əbu-Talib] cənab Mir Şəmsəddin Əli Sultanla qohumluq yaratmış və bu sonuncunun möhtərəm qızı Mirzə Əbülqasımın arvadı olmuşdu. Lakin ruzigarın qəzavü-qədəri və tərəflərin nasazlığından dolayı, onlar bu qohumluqdan əziyyət və dərddən savayı bir fayda görmədilər. Ata və oğulun vəfatından sonra Mirzə Əbülqasımdan Mirzə Əbu-Talib və Mirzə İbrahim adlı övladlar qalmışdı. Onların hər ikisi Allahın kölgəsi olan əlahəzrət şahın xoşbəxt [hakimiyyəti] zamanında boya-başa çatmışlar və hicrinin 1025-ci (1616) ilinə təsadüf edən hal-hazırkı vaxtda onlar şahın mehribanlığının və mərhəmətinin kölgəsi altında əziz və möhtərəmdirlər və bu səbəbdən tay-tuşları onlara həsəd aparır. Onların mülkiyyətində qalmış irsi soyurğalların və digər əmlak və sərvətin sayəsində yüksək səviyyəli ömür sürməkdədirlər.

***Mir Müseyib Nəqib.*** Mir Məhəmməd Cəfər ibn Mir Məhəmməd Səid və Mirzə Uluğ da həmçinin Rizəviyyə seyidlərindəndirlər. Mır Müseyib nəqabət (nəqiblik) mənsəbinə malik idi və tay-tuşları arasında mötəbər və əziz bir şəxs idi. Mir Məhəmməd Cəfər fəzilət və kamal qazanmaqla məşğul idi və axırda fəqihlik sahəsində və əqli elmlərdə böyük tərəqqi edib, ictihad mərtəbəsinə gəlib çatmış, amma çox ehtiyatcıl olması və etiqadının düzgünlüyü səbəbindən müctəhidlik iddiasına düşməmişdi. Olduqca mömin, dindar və pəhrizkar idi. Şübhəli yemək-içməkdən çəkinərdi. Mirzə Uluğa gəldikdə isə, o, Mirzə Əbu-Talibin əmisi oğludur. Yetərincə dərviş-sayaq, həlim və sağlam nəfsli bir şəxs idi. O, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında ucaldı və hökmdarın qayğısına tuş gəldi.

Beləliklə, Məşhədin əziz seyidlərinin və ulu Musəviyyə nəslinin hamısının burada sadalanmasının sözün uzanmasına səbəb olacağı üçün bu müxtəsər [qeydlərlə] kifayətlənirik.

***Səbzəvarın böyük seyidləri:*** Mir Şəmsəddin Əli Sultanın oğlu Mirzə Mahmud yüksək səviyyəli Bəni-Muxtar seyidlərindəndir. Onun ulu babası Mir Şəmsəddin Əli Mazi[778] böyük Kürəkaniyyə sülaləsindən olan cağatay sultanları zamanında öz adamları, məiyyəti, süvari dəstələri və xidmətçiləri ilə ərəb diyarından Xorasana gəlib, Səbzəvarda məskunlaşmış və əmlakını və sərvətini xeyli artıraraq, öz adamlarını əkinçiliyə və tikintiyə rəğbətləndirmiş, külli miqdarda qazanc əldə etmişdi. «Həbibüs-siyər» əsərində qeyd olunur ki, heç bir zaman Hicaz və İraqi-Ərəb tərəfdən Mir Şəmsəddin Əli [Mazi] səviyyəsində yüksək şöhrətli, üstün təbiətli, çoxlu mülazimlərə və var-dövlətə malik olan bir seyid Əcəm vilayətinə gəlməmişdi. Bu baxımdan, Allahın mülkü olan göy və yer Bəni-Muxtar nəslinə adil bir şahiddir. Zəmanə sultanlarının rəğbət və iltifatının nurlarından gələn şəfəqlər o yüksək şöhrətli seyidin əhvalı üzərinə düşdü və o, hüsn-rəğbətə tuş gəlib, hörmət və ehtirama layiq görüldü. Ümumən İran məmləkətlərinin, xüsusən də Xorasan vilayətinin «nəqibül-nüqəba»sı (nəqiblər nəqibi) kimi böyük dərəcəli bir mənsəb o cənaba tapşırılmışdı. Yüksək səviyyəli Səfəviyyə padşahlarının xoşbəxt əyyamında və Qızılbaş dövlətinin meydana çıxması zamanında onun şərəfli övladları əvvəlkindən daha artıq dərəcədə şahanə lütfkarlıqlarla əzizləndilər. Mirzə Mahmudun atası Mir Şəmsəddin [Əli Sultan] özbəklərin qüdrətli çağlarında Übeyd xan Özbək Xorasana basqınlar edən zaman dövlətsevərlik nümayiş etdirmiş və bunun əvəzində cənnətməkan şah həzrətləri tərəfindən yüksək əmirlik rütbəsi və şanlı xan titulu ilə mükafatlandırılmış, həmçinin sabiq mənsəbindən əlavə, hökmdarın şərəfli zatının naibinə, bütün Xorasan vilayətinin seyidlərinin və kələntərlərinin öndərinə və sərvərinə, oranın ərbablarının və əhalisinin ağsaqqalına çevrilmişdi. Aşağıdakı məşhur beyt, haqqında söz açdığımız həmin ali məqamlı seyidin barəsində söylənmişdir. Görün, şair nə deyibdir:

«Xorasandan çıxıb gəldi Mir Şəmsəddin-i Əli,
«Xorasandan günəş doğdu» - deyən iraqlı düz deyir».

Bundan başqa, o uca nəslin ixtiyarında olan mülkiyyətin əlli tümən İraq şahisindən artıq məbləğ təşkil edən bütün vergiləri soyurğal kimi Cənab Mirə və onun böyük övladına bəxş olundu. İndi Mirzə Mahmud o nəslin içində ali dərəcəyə malikdir. O, sözügedən şəxsin (öz atası Mir Şəmsəddin Əli Sultanın) vəfatından sonra həmin mülkün izzət, etibar, öndərlik və kələntərlik taxtında əyləşmişdir.

---

[778] Tehran çapının bu yeri anlaşılmazdır və oraya Əli Həddad adlı bir şəxsin adı da əlavə olunmuşdur. Əsərin bu parçası Bakı nüsxələri əsasında təshih edilmişdir (S-129, v.130b; S-297, v.102b).

Mir Məhəmməd Gəskən də Səbzəvar bölgəsindəndir və o vilayətdə çoxlu əmlaka və sərvətə sahib idi. O, zahiri izzət və nüfuzuna görə öz tay-tuşlarından üstün idi. Ali fəhm və fitrətə malik olması ilə şöhrət tapmışdı. Şairlər, nədimlər[779] və idrak sahibi olan adamlarla mehribancasına rəftar edərdi. Şeir sahəsində yüksək zəkaya və mərtəbəyə malik idi. Bəzən şeir nəzm etməyə məşğul olurdu. Bu beyt ondan məşhurdur:

«Bağ içindəki gecəgülü axşam qaranlığında xəlvət açır üzünü,
Gül üzlü gözəllər də abır-həyanı ondan öyrənsələr bəsdir».

***Darülmöminin Astarabadın seyidləri:*** Astarabadın ali dərəcəli seyidlərindən ibarət bir sıra əziz şəxslər ulu dərgahda idilər. Onların adları yuxarıda qeyd olunmuşdur. Onlardan savayı, Mir Həbibulla Bərməki, Mir Qiyasəddin Şəmşəki və «Padşah Mir Hüseyn» [adı] ilə məşhur olan Mir Hüseyn kimi bir neçə nəfər digərləri əşrəfin xidmətində idilər və dərgahın qorçuları və mülazimləri silkində qərar tutmuşdular. Bəziləri isə İmam Rzanın müqəddəs məqbərəsinin xidmətçiləri silkinə daxil idilər. Qalanları öz doğma vətənlərində (Astarabadda) yaşayırdılar. O cümlədən, rəhmətlik sədr Mir Cəmaləddinin nəvəsi Mir Təqiəddin Məhəmməd ibn Əminəddin Hüseyn darülmöminin Astarabadda yaşayırdı və o bölgədə böyük nüfuza malik idi. Vaxtı ikən Mir Cəmaləddin göstərdiyi xidmətlərin əvəzində cənnətməkan şahın şahanə qayğıkeşliyinə tuş gəlmişdi. [Səfəvi] sülaləsinin qırx tümənə qədər malı, mülkiyyəti və əmlakı onların soyurğalına və ixtiyarına verilmişdir. Cənnətməkan şahın vəfatından sonra bir müddət o vilayət qüdrətli və nüfuzlu bir hakimdən xali olduqda cənab seyid (Mir Təqiəddin Məhəmməd) əvvəlkindən daha artıq nüfuz və iqtidar əldə etdi. Amma siyahpuşların özbaşınalığı əyyamında və qızılbaşların vəziyyətinin çətinliyi zamanında onun övladları [Səfəvi] sülaləsinin onlara göstərdiyi qayğıkeşlik və xeyirxahlıq müqabilində onlara vacib olan sədaqət və dövlətsevərlik nümayiş etdirmədilər.

***Mir Ziyaəddin Fendereski*** - o da Astarabadın yüksək dərəcəli seyidlərindən idi. Fenderesk bölüyündə yaşayırdı və oranın camaatının ağsaqqalı sayılırdı. Böyük və mötəbər bir seyid idi. Çoxlu əmlakı və sərvəti vardı. Qalmaqal və üsyan əyyamında ayaqlarını ədəb ətəkləri daxilinə yığışdıraraq, siyahpuş sərdarlarına qoşulmadı və Fendereskdə öz halını hifz etməyə məşğul olaraq, çaxnaşma və iğtişaş məkanı olan Astarabada az-az getdi. Allahın kölgəsi olan əlahəzrət şah öz hakimiyyəti dövründə Xorasana səfər edərkən o, Bistamda özünü günəş ehtişamlı orduya yetirib, əşrəfin hüzuruna gəlmək şərəfinə nail oldu. Onun ölümündən sonra oğlu Mirzə bəy dövlətsevərlik nümayiş etdirdi, əksər vaxtlarda əşrəfin yanında mülazim oldu və şahanə iltifata layiq görülərək, behişt bəzəkli məclisin iştirakçısı

[779] Nədim – keçmişdə yüksək rütbəli şəxsləri maraqlı söhbətlər, gülməli sözlər və lətifələr əyləndirən adam.

olmaq səadətinə nail oldu. O, şahın bağışladığı soyurğalların və ənamların miqdarına görə tay-tuşlarından çox üstün idi və əlahəzrətin sözügedən seyidə münasibətdə xüsusi şəfqəti vardı.

***Təbrizin Əbdülvəhhabiyyə seyidləri:*** Əbdülvəhhabiyyə nəslinin böyüklərinin əksəri darüssəltənə Təbrizdə yaşayırdılar. Bəhs olunan dövrdə (Şah Təhmasibin ölümü vaxtı) onlardan bəziləri Yəzddə, Kaşanda və İsfahanda da yaşayırdılar. Onların ulu əcdadı olan Əbdülvəhhab böyük səviyyəli və yüksək şöhrətli bir seyid idi və zəmanə sultanlarının qayğısı ilə əhatə olunmuşdu. O, Həsən padşahın oğlu Yusif mirzə ilə qohum olmaq şərəfinə nail olmuş və onun övladlarından biri olan Seyid Həsən bəy həmin Yusif mirzənin möhtərəm qızından doğulmuşdu. Buna görə də cənnətməkan şah həzrətlərinin zamanında Həsən padşahın Təbrizin Sahibabad [ərazisində] yerləşən və Nəsriyyə [adı] ilə məşhur olan ulu məqbərəsinin «touliyyət»i əksər vaxtlar bu nəslə mənsub idi və indi də onun övladlarına məxsusdur.

Haqqında danışılan [Əbdülvəhhabiyyə] seyidlərinin digər bir nümayəndəsi də Mir Nemətulladır. O, yüksək dərəcəli, dindar və pəhrizkar bir seyid idi. Onun Cahanşah sülaləsinin qızlarına qohumluğu və əqrəbalığı çatırdı. O, rumilərin istilası vaxtı İraqa gəlib, Kaşanda şəriət məsələlərinin mütəsəddisi, axırda isə İsfahan qazısı olmuşdu. Vəzifədə olduğu müddətdə özünü tamahkarlığa aludə etməmişdi. Yaşı doxsanı adlamışdı. Onun qardaşı Mir Əbül-qasim darüssəltənə Təbrizin qazısı vəzifəsində idi.

İsfahan və Həmədan vilayətlərində də böyük seyidlər yaşayırdılar. Bunların arasında Əmir Siracəddin Qasım vardı ki, çox alicənab və mötəbər [bir adam] idi. Onun Luristan valisi Əmir Cahangir Abbasinin sülaləsinə qohumluğu çatırdı. Cənnətməkan şah zamanında Əmir Cahangir üsyan qaldırdı, lakin məğlubiyyətə uğradı. Onun oğulları Məhəmmədi və Şah Rüstəm Bağdadda qərar tutmuşdular. Əmir Siracəddin Qasımın xahişi ilə onların təqsiri bağışlandı və öz irsi mülkləri onlara qaytarıldı. Həmin zaman (Şah Təhmasibin ölümü vaxtı) onun (Əmir Siracəddin Qasımın) oğlu Mirzə Abdulla olduqca dindar və mömin [bir şəxs] idi. O, öz ustadından dini təbliğat və ibadətə rəhbərlik etmək rüxsəti almışdı və onun özünün də ixtiyarı vardı ki, layiq bildiyi hər kəsə bu işlər barəsində izin və rüxsət versin. Luristanın və o ətrafın əhalisinin həmin bu Mirzə Abdullaya böyük etiqadı vardı. Onlar onu mürşid, özlərini isə onın müridləri hesab edirdilər. [Əmir Siracəddin Qasımın və onun oğlu Mirzə Abdullanın] külli miqdarda əmlakı və mülkiyyəti vardı ki, indi onların əmmaməli xələfləri arasında bölüşdürülmüşdür. Onların nəsli şah (Abbas) həzrətləri tərəfindən layiqli soyurğallar və bəxşişlərlə mükafatlandırılmaqdadır[780].

Beləliklə, ali dərəcəli seyidlərin və bərəkət mənbəyi olan nəqiblərin səadət minvallı tərcümeyi-hallarından bir qismi imkan daxilində qələmə alındı. İndi isə

---

[780] S-129, v.132a.

cənnətməkan şah həzrətlərinin vəfatı zamanı həyatda olan bir sıra kübar şeyxlərin, üləmaların və fazillər təbəqəsinin xoşbəxt tərcümeyi-halları gözəl yazan qələmin vasitəsilə səhifələr üzərinə yazılacaqdır. Bu pərişan şəxs (İsgəndər bəy Münşi) mətləbin uzanmasına görə oxuculardan üzr istəyir.

## MÖHTƏRƏM ŞEYXLƏR, BİLİKLİ ÜLƏMALAR, HİKMƏT VƏ EHTİRAM SAHİBİ OLAN FAZİLLƏR HAQQINDA

O ali təbəqədən olan üstün fəzilət və bilik sahiblərinin başında mərhəmətli zəmanə müctəhidi Şeyx Əli[781] Əbdüləalinin sadiq oğlu, əsrin və dövrün nadir şəxsiyyəti olan ***Müctəhidüs-Sani Şeyx Əbdüləal*** gəlir. O, əqli və nəqli elmlər sahəsində zəmanənin öndəgedəni idi. Çox xoşsöhbət, yaxşı görünüşlü və əxlaq sahibi olan bir adam idi. Tam ixtiyar və istedadla ali müctəhidlik kürsüsünə əyləşmişdi və dövrün əksər üləmaları o cənabm ictihadına əməl edirdilər. Əksər vaxtlarda xoşagəlimli Kaşan şəhərində yaşayıb, dərs demək və ibadət etməklə məşğul olurdu. O, şəriət məsələlərinin həlli və camaatın islah olunması kimi işlərlə məşğul olmaq üçün bir sıra şəxslər təyin etmişdi. Bəzən şəxsən özü də parlaq şəriətin ehkamları əsasında çətin məsələləri həll etməyə meyil göstərərdi. Nə vaxt ki, ulu dərgaha təşrif gətirsəydi, cənnətməkan şah həzrətləri o cənabın hörmətini və ehtiramını həddən artıq saxlayardı. Sarayda və Kaşanda olmasından asılı olmayaraq, onun qapısı həmişə üləmaların və ziyalıların müraciət yeri idi. Əksər üləmalar üsuliddin və füruiddin[782] məsələlərində onun sözlərinə əməl edərdilər. O cənabın ictihadları üləmaların əksəriyyətinin təsdiqinə məruz qalardı və həqiqətən də, onun mələksifət zatı o zamanlar İran mülkünü və dünya insanlarını zinətləndirirdi.

***Şeyx Əli Menşar*** - fəzilətli və fəqih bir ərəb idi. O, rəhmətlik müctəhid Şeyx Əbdüləalinin savadlı şagirdi olmuşdur. Onun şəriət məsələləri barədə fitvaları mötəbər və etibarlı idi. Şəriət və ictimai məsələlərin yoluna qoyulmasında düzgün fikirli olub, tay-tuşlarının öndəri idi. Cənnətməkan şah həzrətlərinin hüsn-rəğbətinin və iltifatının nurları onun əhvalı üzərində parlamış və dünyada məşhur olan darüssəltənə İsfahan kimi böyük bir vilayətin və şəhərin şeyxülislamlıq mənsəbi ona tapşırılmışdı. O, həmin vəzifədə tam ixtiyar sahibi olaraq, sözügedən vilayətin dini və dünyəvi məsələlərinin tənzimlənməsi və zülmkarlığın hökm sürməsinin qarşısının alınması sahəsində bacarıqla çalışmışdır.

---

[781] S-129, v.132b; S-297, v.103a.

[782] Üsuliddin və füruiddin - şiə əqidəsinə görə, müsəlmana vacib olan ehkamları əhatə edirlər. Belə ki, üsuliddin («dinin əsasları, kökləri») islam dininin etiqadla, inancla əlaqədar məsələlərini əhatə edir və 5 maddədən ibarətdir. Füruiddin («dinin budaqları») isə islam dininin vacib əməlləri ilə bağlı məsələləri əhatə edir və 10 maddədən ibarətdir. Bir sözlə, üsuliddin müsəlmana nəyə inanmaq lazım olduğunu, luruiddin isə hansı əmələri yerinə yetirməyin vacib olduğunu öyrədir.

***Mövlana Abdulla Şüştəri*** - şərəfli təvəllüdünün baş verdiyi yer darülmülk Şüştərdir. Əvvəlcə bir müddət faydalı ab-havaya malik Şiraz şəhərində əqli elmləri öyrənməklə vaxtını keçirmişdi. Əqli elmlər üzrə təhsil almağa həvəsli olduğuna görə Ərəbistana səfər edərək, o diyarın bir çox ruhaniləri və ziyalıları, xüsusən də Cəbəlamil fəqihləri ilə söhbət etməyə nail olmuşdu. O, orada şəriət və irşad üsullarının ustası kimi püxtələşərək, bu sahədə kamal dərəcəsinə çatdı və oradan ulu orduya gəlib, cənnətməkan şahın büsatını (şahın ayağı altındakı xalçanı) öpmək səadətinə qovuşduqdan sonra müqəddəs və ulu Məşhəd [şəhərində] məskunlaşmağa və İmam Rzanın mübarək məqbərəsində mücavirlik[783] etməyə rüxsət aldı. O, ilahi nurların parlaqlığının və günahsızlıq feyzlərinin mövcud olduğu o şərəfli məkanda bir müddət qalaraq, camaata elm, hidayət və irşad verməklə, məzhəbi yaymaqla məşğul oldu və əhali qəflətdən və sapına məsləklərdən xilas olub, hidayət və agahlıq yoluna düşdü. Xülasə, onun davranışları böyüklü-kiçikli hamı tərəfindən bəyənilirdi. Allahın kölgəsi olan əlahəzrət şahın səadətli cülusu vaxtı əksər vaxtlarda müqəddəs Məşhəddə o həzrətlə nəsihətamiz söhbətlər etməklə məşğul olmuş və həmişə şahın mərhəmət nəzəri ilə əhatə olunmuşdu. Axırda iş elə gətirdi ki, bu səadət dəftərinin ikinci hissəsində öz yeri gəlincə yazılacağı kimi, 997-ci hicri ilində (20.11.1588 - 09.11.1589) mübarək məqbərə özbəklərin əlinə keçdikdə, onlar cənab Mövlananı tutub Mavəraünnəhrə apardılar. Orada onunla həmin vilayətin üləmaları arasında mübahisə və fikir mübadiləsi baş verdi. O, Əhli-beytin məqbul saydığı qaydada təqiyyə[784] edib, özünü şafei [məzhəbinin ardıcılı] kimi təqdim etsə də, Mavəraünnəhr cənabları və Həzrət Hənəfi [məzhəbinin][785] təəssübkeşləri onu qətlə yetirmək dərəcəsinə qədər ifrata vardılar. Onlar o səadət inanclı xeyirxah alimi yekdəh və qələmyonan bıçaqla yüksək şəhidlik dərəcəsinə çatdırdılar və bununla kifayətlənməyərək onun şərəfli cəsədini Buxara meydanında ədalətsizlik atəşi ilə yandırdılar. Allah rəhmət eləsin!

***Mövlana Mirzəcan Şirazi*** - dərin savadlı bir ruhani idi. O, bilikli alimlərdən və fəzilətli ziyalılardan biri olub, darülmülk Şiraz [şəhərində] böyük imtiyaza malik idi. O, Əllamətül-üləmayi Mövlana Cəlaləddin Məhəmməd Dəvvaninin birbaşa şagirdlərindən olan Xoca Kəmaləddin Mahmud Şirazinin mədrəsəsində elmlərə yiyələnərək, böyük bir tərəqqi etmişdi. Əqli elmlər sahəsində nadir bir şəxs idi. Cənnətməkan şah həzrətləri zamanında şərəfli Şiraz bölgəsində tədris kürsüsünə əyləşdi. Elm öyrənmək üçün o xoşagəlimli bölgəyə gəlmiş tələbələrin bir çoxları onun dərsində iştirak edib, əqli elmlərə yiyələnirdilər. Onun tələbələrinin əksəriyyəti elmi bilik səviyyəsinə çatmış və tədris rütbəsinə

[783] Mücavir - məqbərə xidmətçisi.

[784] Təqiyyə - hansısa bir şəxsin müəyyən təhlükələrdən qurtulmaq üçün öz əsl dini əqidəsini və məzhəbini gizlətməsi.

[785] İslamın sünni cərəyanının 4 əsas məzhəbi vardır və bu məzhəblər öz banilərinin adları ilə adlanırlar: hənəfi, şafei, maliki və hənbəli.

yüksəlmişdilər. Hikəmiyyat (fəlsəfə) ilə bağlı ali bir əsəri və özündən əvvəlki alimlərin kitablarına dair dəqiq şərhləri vardır. İsmayıl mirzə zamanında ulu dərgaha gəldi. Ulu dərgahın üləmaları onun sünni olduğunu güman etdilər. O da İsmayıl mirzənin şəfqətindən faydalanmaq üçün bu gümanı nəinki inkar etmədi, əksinə, öz dili ilə bunu təsdiq edən sözlər danışdı. Buna görə də o, İsmayıl mirzənin ölümündən sonra İranda qala bilməyərək, Mavəraünnəhr və Hindistan tərəfinə getdi və o vilayətdə həyatla vidalaşdı, axirət mənzilinə köçərək, torpaq altında məqam tutdu.

***Xoca Əfzələddin Tərkə*** - əsl adı Məhəmməddir. Darüssəltənə İsfahanın Tərkə qazıları nəslindən idi. Əvvəlcə əqli və nəqli elmlərin öyrənilməsinə baş qoşub, bu sahədə açıq-aydın tərəqqi etdi. Daha sonra İsfahandan səadət nişanəli orduya getdi. Orada o, cənnətməkan şahın şəfqətli nəzərləri ilə əhatə olunaraq, bir müddət Mir Əlaülmülk Mərəşlə şərikli surətdə «qazi-yi əskər-i zəfər-əsər» («zəfər nişanlı qoşunun qazısı») mənsəbini tutdu və ulu orduda tədris işlərini həyata keçirdi. Onun mədrəsəsində bir sıra tələbələr onun dərslərindən və mühazirələrindən zövq alırdılar. İsmayıl mirzə zamanında digər üləmalardan fərqli olaraq, əziz və möhtərəm tutulurdu və əksər vaxtlarda [hökmdarın] məclisinin iştirakçıları zümrəsində olurdu. İsmayıl mirzənin ölümündən sonra İsfahana gedərək, orada həmişə Tərkə nəslinə mənsub olmuş qazıhq işləri ilə məşğul oldu. Lakin hakimlərin və türklərin onunla yola getməməsi üzündən vəzifədən əl çəkib, tədris işlərinə baş vurdu. Daha sonra o, İmam Rzanın müqəddəs məqbərəsinin xadimliyi mənsəbinə təyin olunaraq, müqəddəs və ulu Məşhəd [şəhərində] o xoşagələn vəzifənin icrası ilə məşğul oldu. 991-ci (1583) ilə uyğun gələn quy ilində İsgəndər şanlı nəvvab və dünya sakinlərinin şahzadəsi Sultan Həmzə mirzə Xorasan yürüşündən qayıdarkən o, hökmdarın məiyyətində müqəddəs Məşhəddən İraqa gələrək, Rey vilayətində gözlərini həyat səhifəsinin mütaliəsinə yumub, əbədiyyət aləminə qovuşdu.

***Mövlana İmadəddin Əli*** - Astarabad əhlindən idi. Qiraət və təcvid elmində[786] tam məharət sahibi idi. O, bu elmə dair müfəssəl və müxtəsər risalələr yazmışdır. O, cənnətməkan şah zamanında üləmalar zümrəsindən idi və o həzrətin xidmətində böyük dərəcəyə və səviyyəyə malik idi. Elm əhlinin və çətinliyi olan füqəranın ehtiyaclarını dilə gətirər və onların həllinə çalışardı. Camaat arasında əziz və möhtərəm idi. «Quran» oxuyanlar onun elmindən faydalanırddar[787].

***Əsrin yeganəsi və dövranın vahidi Şeyx Bəhaəddin Məhəmməd*** - rəhmətlik Əbdüssəmədin doğma xələfidir. [Əbdüssəməd] Cəbəlamilin böyük şeyxlərindən idi və bütün elm sahələrində, xüsusilə də fiqh, təfsir, hədis elmlərində və ərəb filologiyasında («ərəbiyyət») bilikli və ziyalı bir şəxs idi. O, gənclik əyyamının və cavanlıq dövrünün əsas hissəsini «şəhidi-sani» («ikinci şəhid») və

---

[786] Qiraət və təcvid elmləri «Qurani-Kərim»i düzgün tələffüzlə oxumaq qaydalarını ehtiva edirlər.
[787] S-129,v.l33b.

əbədiyyətin seçilmişi Şeyx Zeynalabidinin - Allah rəhmət eləsin - söhbətində keçirmişdi. Onlar hədislərin şərhində, rical elmində, ictihad məsələlərinin təhsilində və ümumi bilik səviyyəsində bir-birlərinə tən gəlirdilər. Cənab Şeyx [Zeynalabidin] şiə olduğu üçün rumilərin əlində şəhidlik dərəcəsinə çatdıqdan sonra sözügedən şəxs (Əbdüs-səməd) doğma vətənindən ayrılıb, Əcəm tərəfə gəldi. O, şahın behişt bəzəkli məclisinin iştirakçısı olmaq izzəti ilə əzizlənib, cürbəcür mərhəmətlərə layiq görüldü. Zəmanə üləmalarının izni və razılığı ilə o, ali fəqihlik və ictihad mərtəbəsinə yüksəldi. Millət üləmaları arasında cümə namazının tərtibinin şərtləri barədə ixtilafların mövcud olduğu və uzun müddətdən bəri bu mübahisənin həllinin tərk edilib boş buraxıldığı bir halda, o, bu məsələni gözəl bir şəkildə hazırlayıb təqdim etdi və çoxsaylı möminlər kütləsi ona əməl elədi Axırda ümumən Xorasan vilayətinin və xüsusən darüssəltənə [Heratın] şeyxülislamlıq mənsəbi və orada şəriət hökmlərinin icrasına nəzarət etmək ona tapşırıldı. Uzun müddət həmin könül oxşayan bölgədə parlaq şəriətə rəvac verdi və o xeyir-bərəkətli torpaqlar üzərində qayda-qanunun təmin olunmasını həyata keçirib, dini elmlərin tədris olunmasına, risalələrin və kitabların yazılmasına, müşkül məsələlərin həllinə və [elmi] anlaşılmazlıqların və çətinliklərin aradan qaldırılması ilə məşğul oldu. Nəhayət, Beytül-həramı həcc etmək və insanların ən yaxşısı olan həzrətin (Məhəmməd peyeəmbərin) və ali məqamlı imamların - hamısına Allahın salamı olsun - müqəddəs məzarlarını ziyarət eləmək səadətini dərk etmək şövqünə bürünərək, o tərəflərə yollandı. O, orada qalıb, həmin yerin alimləri ilə vaxtını keçirdi. Axırda əcəli gəlib çatdı və həyat evi kitabının büsatını bir tərəfə buraxıb, gözünün nuru ilə axirət aləminin dəftərini mütaliə etməyə başladı (vəfat etdi).

Sözügedən şəxsin doğma xələfi (Şeyx Bəhaəddin Məhəmməd) elə bir şəxs idi ki, cahan sarayının gülşəni onun şərəfli vücudundan zinətlənib, dəyər qazanmışdı. O, kiçik yaşlarında möhtərəm anası ilə birlikdə Əcəm vilayətinə gəlib, öz ata-babasının və əcdadlarının yolu ilə gedərək, böyük ciddi-cəhdlə elmləri öyrənməyə və biliklərə yiyələnməklə məşğul oldu. O, təfsir, hədis, ərəb filologiyası, fiqh və s. bu kimi elmlərdə yüksək məqamlı atasından irsən ona keçmiş qabiliyyət sayəsində kamal mərtəbəsinə çatdı. Kəlam elminin və bəzi əqli elmlərin hikmətlərinə Mövlana Abdulla Müdərris Yəzdinin söhbətinin zövqü sayəsində yiyələnmiş, riyazi fənləri Molla Əli Müzəhhəbin, [İmam Rzanın] feyz bəxş edən məqbərəsində müdərris işləyən Mövlana Əfzəl Qaininin və o fənnin bilicisi olan bəzi digərlərinin yanında öyrənmiş, təbabət elmini və tibbi qanunları isə haqqında təbiblərin sadalanması vaxtı məlumat veriləcək olan «zəmanə Büqratı»[788] adlanan Həkim İmadəddin Mahmud vasitəsilə mənimsəyib, ondan kamal bəhrəsi qazanmışdı. Xülasə, o cənab qısa vaxt ərzində əqli və nəqli elmlərdə böyük tərəqqi tapmış, hər bir fənn sahəsində zəmanə fazillərinin öndəgedəninə çevrilmiş və müxtəlif elm fənləri üzrə onun bilik dənizinin damcılarından süzülən

---

[788] Büqrat - qədim Yunanıstanın məşhur həkimi Hippokratın (e. ə. 460-377) müsəlman mənbələrində adı.

mötəbər əsərləri nüfuzlu alimlərin nəzər-diqqətini cəlb etmişdi. Onun əsərlərinə misal olaraq bunları sadalamaq olar: «Quran-i məcid» əsərinin təfsirinə dair «Ürvətül-vüsqa» («Qırılmaz Pağlıhq») əsəri; özündə səhih hədislərin toplusunu və hər bir hədisin faydası, sübutu və şərhi məsələlərini əks etdirən «Kitab-i cəbəlül-mətin» («Mətanətli dağ kitabı»); «Kitab-i məşriqüş-şəmseyn» («İki günəşin doğması kitabı») və «Təfsir-i ayat-i ehkam və əhadis-i səhihə» («Ehkam ayətlərinin və səhih hədislərin təfsiri») əsərləri - «Haşiye-yi təfsir-i Qazi» («Qazının təfsirinə haşiyə») əsəri; «Qəvaid-i şəhidi» («Şəhidlik qaydaları») əsərinə haşiyə; «Səhife-yi ka-milə» («Kamil səhifə») əsərinin şərhi barədə «Kitab-i hədayiqüs-salehin» («Salehlər bağçası kitabı») əsəri; «Kitab-i eynül-həyat fi təfsir-i ayat» («Ayələrin təfsirinə dair dirilik bulağı kitabı») əsəri; «Kitab-i çehel hədis» («Qırx hədis kitabı»); astronomiya («heyət») barəsində «Şərhüş-şərh-i Çəğmini» («Çəğmininin şərhinə dair şərh») əsəri[789]; «Haşiye-yi şərh-i müxtəsər-i üsül» («(Dinin) əsaslarına dair müxtəsər şərhə haşiyə») əsəri; «Haşiye-yi mütəvvəl» («Geniş haşiyə») əsəri; yenə astranomiya («heyət») barədə «Risale-yi təşrihül-əflak» («Fələklərin şərhinə dair risalə») əsəri; «Risale-yi xülasətül-hesab» («Qısa hesab risaləsi») əsəri; üstürlab haqqında «Risale-yi səhifə» («Səhifə risaləsi») əsəri; «İsna-əşəriyyat» («On iki imam (əqidəsi)») əsəri; «Ərbəe-yi təharət» («Paklıq dördlüyü») əsəri; «Sovm» («Oruc») əsəri; «Sələvat» («Namazlar») əsəri; «Həcc» əsəri; «Kitab-i zübdətül-üsul» («(Dinin) əsaslarının xülasəsi kitabı») əsəri; xəstəliklərin sünnət (Məhəmməd peyğəmbərin qoyduğu ənənə) vasitəsilə müalicəsi barədə «Miftahül-fəlah» («Səadətin açarı») əsəri.

Bunlardan başqa, neçə-neçə digər əsərləri də vardır ki, hal-hazırda bu səhifənin yazılması vaxtı olan hicrinin 1025-ci ilində (1616) onların bəziləri artıq tamamlanmış, bəzisi isə, o cümlədən də Əcəm xalqının sadə hissəsinin faydalanması üçün hökmdarın göstərişinə əsasən dini elmlər barədə yazılmaqda olan «Came-yi Abbasi» («Abbasa həsr olunmuş məcmuə») əsəri və s. hələ tamamlanmamışdır. Ümid odur ki, bu əsərlər də Allahın köməyinin səadəti, o xeyirxahlıq öndərinin və azadələr seçilmişinin səyinin bərəkəti sayəsində tamama çatsın.

Sözün qısası, Şeyx Əli Menşarın ölümündən sonra o cənab darüssəltənə İsfahanın şeyxülislamlığı, vəkaləti-həlaliyyəti və şəriət mütəsəddiliyi mənsəblərinə təyin olundu. O, bir müddət tam ixtiyarla o vəzifələrin icrasını həyata keçirdi. Axırda şövqə gəlib, Beytül-həramı həcc etməyə getmək istədi. Bu səfərin zövqü onu tutduğu vəzifələrin icrası ilə məşğul olmaqdan yayındırdı və o, xeyirli səfərə

---

[789] Mahmud ibn Məhəmməd Ömər Çəğmini - XIV əsrdə yaşamış astronom, təbib və riyaziyyatçıdır. Xarəzm vilayətinin Çəğmin məntəqəsindəndir. Onun ən məşhur əsəri astronomiya barəsində ərəbcə yazdığı «Kitab əl-müləxxəs fil-heyət» («Astronomiya haqqında müxtəsər kitab») risaləsidir. Onun bu əsərinə çoxsaylı şərhlər yazılmışdır. Çəğmininin h. 745 / m. 1344-cü ildə vəfat etdiyi güman olunur (Əbülqasim Qurbani. Zendeginame-ye riyazidanan-e doure-ye islami əz səde-ye sevvom ta səde-ye yazdəhom-e hicri. Tehran, 1375, s.219).

yollandı. Həmin böyük səadətə qovuşduqdan sonra onun şərəfli xasiyyəti fəqirlik və dərvişlik həyat tərzinə büründü. O, dərviş qiyafəsində təkbaşına səfərə çıxmağı qərara alıb, bir müddət İraqi-Ərəbdə, Şamda, Misirdə və Beytül-müqəddəsdə (Qüdsdə) gəzib-dolaşdı və səyahət əyyamında Allahdan agah olan bir çox alimlərlə, ziyalılarla, təsəvvüf başçıları ilə, sufilərlə, Allah əhli ilə və guşənişin zahidlərlə görüşüb, onların zövq verən söhbətlərindən fayda götürərək, maddi və mənəvi kamilliklərə yiyələndi. İndi o, zahiri və batini elmlərdə zəmanənin öndəgedənidir və bütün alimlərin və fazillərin etiqadına görə, ali rütbəyə malikdir. Əlahəzrət Şah [Abbasın] bu xoşbəxt zamanında o zəmanə yeganəsinin şərəfli vücudu həmişə hökmdarın xidmətindədir və istər səfərdə, istərsə də sarayda olarkən, əksər vaxtlarda [hökmdarın] hüzuruna təşrif gətirib, onun feyz bəxş edən söhbətindən sevinc tapır. Şeir və şairliyin o cənabın üstün səviyyəsi qarşısında aşağı pillə olmasına baxmayaraq, onun söz ustalığı zövqü çox yüksəkdir və söz ustadlığı sahəsində öz tay-tuşlarından irəli keçmişdir. O cənabın ərəbcə və farsca yazdığı məlahətli, mənalı, incə, könül oxşayan və şirin şeirlər camaatın dilində əzbərdir. Xüsusən də Mollayi Rumun məsnəvisi[790] üslubunda «Qürər və dürər» («Parıltılar və incilər») adlı əsəri nəzmə çəkmişdir. Bu iki beyt həmin əsərdəndir:

**Beyt**

«Din yolunda çətin olmaz vəziyyət,
Bədənə yorğunluq gəlsə, cana əziyyət.
Mətləbin böyüksə dərdin asandır,
Sürü tozu qurd gözünə dərmandır».

Onun rəngarəng sözlərindən, bəlağətli ibarələrindən, axıcı və həzin şeirlərindən, hər fənn üzrə elmi düşüncələrindən və hər barədə zərif hekayələrindən ibarət olan yeddicildlik bir məcmuə tərtib ediblər və ona «Kəşkül» adı qoyublar. Xülasə, o, elə bir ləpələnən dənizdir ki, dalğaları ətraflara və ucqarlara gedib çatır. mdi o zəmanə yeganəsinin şərəfli vücudu caharını bağına zinət bəxş edir və İran torpağına təravət saçır. Elm tələbələrindən və dövr fazillərindən bir çoxları onun məclisində iştirak etməyin faydasından yararlanırlar. Ümid odur ki, ömrü uzun olsun, xalq onun fəzilətindən və kəlamlarından həzz alsın və bəhrələnsin.

***Şeyx Lütfulla Təbəsi*** - müqəddəs mahaldan olub, Şeyx İbrahim Təbəsinin nəvəsidir. Dərin bilikli fazillərdən və zəmanənin fəqihlərindən biri idi. Şərəfli mövludu Cəbəlamilin Təbəs məntəqəsində baş verib. Gənclik illərinin əvvəlində səkkizinci imamı - ona salam və dua olsun - ziyarət üçün ehram bağlayıb, mələklərin sığınacaq tapdıqları o astanada uzun müddət elm öyrənməyə vaxtını

[790] Məşhur sufi şair Mövlana Cəlaləddin Ruminin (1207-1273) «Məsnəvi-yi mənəvi» əsəri nəzərdə tutulur.

sərf edərək, Mövlana Abdulla Şüştərinin və müqəddəs Məşhədin digər üləmalarının söhbətlərinin bərəkəti sayəsində fiqh elmində yüksək səviyyəyə çatdı və [İmam Rzanın] feyz bəxş edən məqbərəsinin müdərrisləri zümrəsinə daxil edildi. Allahın kölgəsi olan əlahəzrət şahın zamanında tədris işlərindən əlavə, həm də yüksək xadimlik mənsəbinə layiq görülərək, o mübarək məqbərənin vəzifəli şəxslərindən biri oldu. Özbək istilası zamanı o tayfanın müsibətindən xilas olub, ulu dərgaha gəldi. Bir müddət Qəzvində dərs demək və mühazirələr oxumaqla məşğul olduqdan sonra ali əmrə müvafiq olaraq oradan darüssəltənə İsfahana köçüb, mübarək Nəqşi-cahan sarayının bərabərində Allahın kölgəsi olan şahın böyük səyləri nəticəsində yaradılmış məscidin yanında məskunlaşdı. İndi orada xalqa imamlıq etməklə və fiqhdən, hədisdən, Allaha itaətdən və ibadətdən dərs deməklə məşğuldur. O həzrət həm də «sərkar-i xasse-yi şərifə»nin vəqflərindən sorumludur və bir çoxları vacibi namazlar qılarkən ona iqtida[791] edirlər.

Şeyx Məhəmməd Davud Astarabadinin oğlu[792] Şeyx Həsən Davud Xadim Astarabadi - İmam Rzanın müqəddəs və nurlu məqbərəsinin yüksək məqamlı xadimləri silkinə daxildir. Onun şərəfli atası cənnətməkan şah zamanında olduqca əziz və möhtərəm bir adam hesab olunurdu və behişt bəzəkli məclisdə doğru danışan dili ilə digərlərindən daha çox həqiqətə əsaslanan moizəvi kəlamlar söyləyərdi. O, dini məsələlərdə tələbkarlığı ifrat həddinə çatdırırdı. O, dünyəvi qərəzlərdən xali olduğu üçün cəmşidməqam və cənnətməkan şah həzrətləri onun nəsihətlərini dinləyər və qəbul edərdi. Beləliklə, haqqında bəhs edəcəyimiz şəxsin atası olduqca dindar və pəhrizkar bir adam idi.

Onun özünə gəldikdə isə, o, özbək istilası vaxtı salamatlıqla İraqa gəlib, bir neçə il hökmdarın hüsn-rəğbətinin kölgəsi altında yaşamış, əksər səfərlər zamanı hökmdarın məiyyətində olmuşdu. Özbəklərin qovulmasından və Xorasanın yenidən fəth olunmasından sonra o, şahın lütfkarlığına tuş gəlib, [İmam Rza məqbərəsinə] keşikçilərin başçısı («sərkeşik») təyin olunmaqla, ziyarətgahın digər xadimlərindən üstün tutuldu. Daha sonra hökmdarın şərəfli zatının yardımı ilə mübarək məqbərənin xadimbaşılığı və kiliddarlığı mənsəbləri də ona həvalə olundu və o, gecə-gündüz şahın himayədarlığı sayəsində orada xidmət göstərdi. İndi bu səhifənin yazılması zamanı o, həmin müqəddəs astanada rahatlıqla yaşamaqdadır.

***Şeyx Fəzlulla Ərəb*** - müqəddəs və ulu Məşhədin salehləri və ruhaniləri cümləsindən olan bir fəqihdir və [İmam Rzanın] feyz bəxş edən məqbərəsinin məsul işçilərindəndir. Çox dindar və pəhrizkar bir şəxs idi. Özünü ədalətli şəxslər

[791] İqtida (ərəbcə "yamsılamaq", "təqlid etmək" mənasını verir) – camaat namazı zamanı müsəlmanlar hansısa bir din xadiminin və ya mömin bir adamın arxasında duraraq, ona iqtida edirlər. Belə ki, ibadətə başçılıq edən şəxs ("pişnamaz") namazın hərəkətlərini etdikcə camaat da onun ardınca həmin hərəkətləri yerinə yetirir, yəni bir növ onu "təqlid edir".

[792] S-129, v.135b. Digər nüxsəyə görə: Şeyx Məhəmməd Astarabadinin oğlu Şeyx Həsən (S-297, v.106a).

sırasına aid edərək, müqəddəs Məşhədin came məscidində imamlıq və pişnamazlıqla məşğul olurdu. Bir çoxları ona iqtida edərdilər. Həqiqətən də, o, buna layiq idi. O, özbək istilası zamanı bəzi digər salehlər və ruhanilər kimi şəhidlik dərəcəsi tapdı.

Cənnət məskənli rəhmətlik şah həzrətlərinin vəfatı zamanı müqəddəs və ulu Məşhəddə pişnamaz olmuş bir sıra digər salehlər və ruhanilər, fəzilət və kamal sahibləri də vardı. Lakin əgər salnaməçinin qələmi o təbəqədən olan məşhur şəxslərin adlarını yazmağa başlayarsa, bu, uzunçuluğa aparıb çaxarar. Buna görə də burada bu bir neçə nəfər əziz şəxsin sadalanması ilə bu mövzu ixtisar edildi.

***Mövlana Məhəmməd Əli Təbrizi*** - Mövlana İnayətullanın oğludur. Sağlam nəfsli, fəzilətli, pəhrizkar, olduqca ləyaqətli və zəmanənin pakizəsi olan bir şəxs idi. Onun atası Molla İnayətulla cənnətməkan şah həzrətlərinin zamanında bir müddət darüssəltənə Təbrizdə şeyxülislam və «vəkil-i həlaliyyat-i sərkar-i xasse-yi şərifə» vəzifələrini tutmuşdu. Şərəfli atasının ölümündən sonra [Mövlana Məhəmməd Əli Təbrizi] yüksək dərəcəyə malik idi. O, Təbrizin [Osmanlılar tərəfindən] istilası zamanı İraqa gəlib, Rey vilayətində məskunlaşdı və o diyarda axirət səfərinə yollanaraq, əbədiyyət aləminə qovuşdu. Ona və cəmi möminlərə[793] Allah rəhmət eləsin!

## VƏZİRLƏR, MUSTOVFİLƏR, QƏLƏM ƏHLİ, CAMAAT ARASINDA TACİKİYYƏ [ADI] İLƏ TANINAN BU TƏBƏQƏNİN MƏŞHURLARIVƏ S. BU KİMİ ŞƏXSLƏR HAQQINDA

Cənnətməkan şah həzrətlərinin vəfatı zamanı qələm sahiblərindən heç kim ali divanın vəziri vəzifəsini daşımırdı. Bu dəyərsiz zərrəyə (İsgəndər bəy Münşiyə) məlum olduğu qədərincə, cənnətməkan şah zamanında sabiq böyük vəzirlərin sayı on iki nəfər olmuşdur. Onun hakimiyyətinin əvvəllərində ali divanın vəziri kürsüsündə Xoca Cəlaləddin Məhəmməd Keçəçi[794] əyləşmişdi. O, Mirzə Şahhüseynin qətlindən sonra Süleyman şanlı xaqan, əbədiyyət sahibi Şah İsmayılın - Allah qəbrini nurla doldursun - zamanında vəzir təyin olunmuşdu. O, Mirzə Şahhüseynlə dost idi. Deyirlər ki, o, vəzir təyin olunduğu gün cənab Mirzə [Şahhüseynin] ölümü barədə bu rübaini demişdi:

«Ey cahanın gözünün nuru, de, necə dözüm,
Sən getdin, gecə kimi qara oldu gündüzüm.

---

[793] S-129, v.135b.

[794] S-129, v.l36a-da Xandəmiri yazılmışdır. S-297 nüsxəsində (v.l06b) isə Xoca Cəlaləddin Məhəmməd Təbrizi yazılmışdır. Əslində Keçəçi və Təbrizi nisbələri bir-birini tamamlayır. Keçəçilər Təbrizin məşhur nəsillərindən idilər və Şah İsmayılın ilk vəziri, «Azərbaycanın açarı» ləqəbini daşıyan Əmir Zəkəriyyə Keçəçi Təbrizi də bu nəsildən idi (bax: О.А.Эфендиев. Образование азербайджанского государства Сефевидов, с.146).

Sanki biz bir-birinə bağlı iki şam idik,
Əyyam səni öldürdü, mən də yanıram özüm».

«Yetərincə hay-küy salan şəxs oyundan qalxdıqdan sonra o hay-küy yatdı» beytinin məzmunu, haqqında bəhs etdiyimiz Xocanın vəziyyətinin təsdiqinə çevrildi. Süleyman şanlı xaqanın vəfatından və cənnətməkan xoşbəxt şahın hakimiyyətə gəlməsindən sonra o, əmrə əsasən, o həzrətin vəzirliyi rütbəsi ilə şərəfləndirildi. Lakin hələ onun vəzirlik dövranı heç bir il olmamışdı ki, o zamanlar vəkil vəzifəsini daşıyan və iqtidar sahibi olan Div sultan Rumlu onun barəsində bədgüman oldu və onlar arasında narazılıq baş qaldırdı. Bunun nəticəsində [Div sultan] onu həbs etdirərək, yandırılmasını əmr etdi. Onu həsirə bürüyüb yandırdıqları vaxt öz halına münasib olan bu beyti oxudu:

«Bəla məhəlləsində ev tutdum, atəş bürüdü məni,
Kim ki bəla məhəlləsində ev tutsa, belə olacaq».

***Qazı Cahan Seyfi Həsəni ən-Nəsəb*** - əvvəllər Mirzə Şahhüseynin vəziri idi. Sonradan o, şahın ali divanının vəziri olmuş, lakin təkəlülərlə ustaclular arasında baş vermiş qarşıdurma əsnasında bu fitnədən kənara qaçıb, Gilana sığınmışdı.

Onun Gilana getməsindən sonra Çuxa sultanın vəziri Mir Cəfər Savəci, Çuxa sultanın iqtidarda olması səbəbindən divan vəziri təyin olundu, lakin onun vəzirlik əyyamı o qədər də uzun sürmədi. O da əmirlərin düşmənçiliyi üzündən qətlə yetirildi.

Ondan sonra İsfahanın Nurkamaliyyə nəslinin böyüklərindən olan Əhməd bəy Nurkamal[795] ali divanın vəziri təyin olunmaq şərəfinə nail olub, altı il tam ixtiyarla vəzir oldu.

Ondan sonra bu [Səfəvi] dövlətinin yolunda Biye-pəs hakimi Müzəffər sultana qarşı mübarizədə müəyyən zəhmətlər çəkmiş və onun əlindən xilas olaraq əşrəfin hüzuruna gəlmiş Qazı Cahan yenidən öz qabiliyyətinin və istedadının çoxluğu və o həzrətin ona göstərdiyi xüsusi şəfqət səbəbindən, Nəcmi-Saninin qohumu olan Mir İnayətulla Xuzani İsfahani[796] ilə şərikli olaraq [vəzir təyin edildi]. Lakin bu sonuncusunun bəzi nalayiq əməlləri əşrəfin xoşuna gəlmədi. Xüsusən də o, ali məclisin pişxidmətləri zümrəsindən olan və şahın himayəsi altında olan Basliq bəy adlı bir oğlana münasibətdə eşqi və aşiqliyi ucbatından ittiham olunaraq, hökmdarın qəzəbinə düçar oldu. O, dövlətə qarşı müxalifət etməsi və yağı olması Gilan hadisələri yazılarkən qeyd olunmuş Müzəffər sultanla

[795] S-297 nüsxəsində (106b) Nurkamal əvəzinə Türkman, Nurkamaliyyə əvəzinə Türkmaniyyə yazılmışdır. Lakin bu yanlışdır. Çünki o dövrün digər mənbələrində də bu şəxsin adı Əhməd bəy Nurkamal İsfahani kimi qeyd olunur (Şah Təhmasibin təzkirəsi, s.25; Budaq Münşi Qəzvini. Cəvahirül-əxbar. Müqəddimə, təshih və təliqat: M.Bəhramnejad. Tehran, 1378, s.160,162).
[796] S-129,v.136b;S-297,v.106b.

birlikdə dəmir qəfəsə salınaraq, Təbrizin Sahibabad [ərazisində] yerləşən Həsən padşah məscidinin iki minarəsi arasından salladılıb yandırıldı. Zərif sözlü şairlərdən biri bu hadisənin [əbcəd] tarixi barədə bu qitəni[797] demişdir:

Xoca İnayətulla ki, həmişə
Dəm vururdu müdriklikdən, ağıldan,
Pis əməl törədib, mənsəbdən düşdü.
Dedim: «Ey qəmə, möhnətə yoldaş olan!
Eşq qəmindən yaranan bıı hadisənin tarixi nədir?»
Dedi: «Basliq [adlı] oğlanın eşqindən»[798].

Onun ölümündən sonra Qazı Cahan şəriksiz vəzir olub, on beş il ərzində tam əzəmət və iqtidarla təkbaşına vəzirlik etdi. Şah həzrətləri işlərin dəqiqlikləri haqqında daim vaxtı-vaxtında məlumat almaq istədiyindən [Qazı Cahan] həmişə divani məsələlər barədə ona məlumat verir və bu işin öhdəsindən müvəffəqiyyətlə gəlirdi. Lakin o, vəzifədə olduğu son zamanlarda vaxtında hesabat verə bilmirdi və bu işdə fasilələr meydana gəlirdi. Buna görə də cənab Qazı işin öhdəsindən artıq lazımınca gələ bilmədiyini anlayaraq, yaşının çoxluğunu və ahıllığını əsas gətirib, tutduğu vəzifədən istefa etdi. O, xahiş edərək, şah həzrətlərini bu [istefanı] qəbul etməyə razı saldı və şah onu vəzirlikdən azad etdi. [Qazı Cahan] 960-cı (1553) ildə Tanrının rəhmətinə qovuşdu. Onun ölüm tarixi barədə deyilmişdir:

«Əgər on çıxarsan «Qazı Cahan»dan,
Ölüm tarixindən taparsan nişan»[799].

O cənabın bəyənilmiş vəsfləri dillərdə və ağızlarda əzbər idi. Doğrudan da, bu böyük dövlətdə onun kimi özündə qabiliyyət, istedad, fəzilət və kamal məfhumlarını cəmləşdirmiş bir vəzir görünməmişdi. Onun şanının və ululuğunun yüksəkliyini sözlə təsvir etmək mümkün deyildir. O boyda şan-şöhrətə, əzəmətə və cah-calala malik olmasına baxmayaraq, camaatla münasibətlərini təvazökarlıq və sadəlik əsasında qurardı. Heç vaxt gözəl davranışdan və təvazökar ədəbdən əl çəkməzdi. Hər bir elm sahəsindən olan alimlərin arasında baş verən mübahisələrə xoş niyyətli müdaxilələr edərdi. Onun sözünü nüfuzlu alimlər mötəbər hesab edərdilər. İnşa yazmaqda və səlis danışmaqda mahir idi. Onun yazdığı ibarələr həm

[797] Qitə - əruz vəznində yazılan lirik şeir forması.

[798] «Ze eşq-e pesər Basliq» («Basliq adlı oğlanın eşqindən») ifadəsi əbcəd hesabı ilə bu hadisənin tarixini bildirir və h. 942-ci (02.07.1535-19.06.1536) ilə müvafiqdir.

[799] «Qazı Cahan» sözlərinin əbcəd hesabı ilə cəmi 970-ə bərabərdir. Bu cəmdən 10 çıxdıqda 960 alınır ki, bu da hicri-qəməri təqvimi ilə hadisənin baş verdiyi ili göstərir.

inşa səhifələri yazanlar, həm də siyaq və hesabla məşğul olanlar üçün tutarlı bir örnək idi. Gözəl xətlə yazmaq baxımından kamal dərəcəsinə malik idi.

Ondan sonra qələm sahiblərindən dörd nəfər vəzirlik mənsəbinə layiq görülmüşdü:

Qiyas Kəhrə [adı] ilə məşhurlaşmış və Şərif Təbrizi [adı] ilə təriflənmiş Xoca Qiyasəddin Əli yaxşı bir mühasib idi və bəzi vaxtlarda mustovfi əl-məmalik[800] də olmuşdu.

***Ağa Məhəmməd Fərəhani*** - Fərəhan[801] vilayətinin əyanlarından idi.

***Xoca Əmir bəy Keçəçi Təbrizi***[802] - Mir Zəkəriyya Keçəçinin qohumlarından olub, Əmir bəy Möhürdar [adı] ilə məşhur idi. O, qabiliyyəti, istedadı və fəziləti özünə şüar etmiş bir kişi idi. Əvvəlcə möhürdar Qazı xan Təkəlünün vəziri olmuş, sonra bir müddət Xorasanda da vəzir olmuşdu. Cəfr, əcdad (ədədlər) və nirəncat[803] elmlərində böyük məharətə malik idi. O, günəşin qabağını tutmaqda ittiham olunub, bir müddət Ələmut qalasında məhbus edilmişdi. İsmayıl mirzə zamanında həbsdən nicat tapsa da, Öz həyat vədəsini ölüm mələyinə tapşırdı (öldü).

***Mirzə bəy Əbhəri*** - Əbhərin köhnə nəsillərindən idi. Əvvəlcə qorçubaşı Sevindik bəy Əfşarın[804] vəziri olmuş, sonra bir aralar divan vəziri vəzifəsini tutmuşdu. Vəzirlik məsələləri bir müddət bu əziz şəxs tərəfindən həyata keçirilmişdi.

Bütün bunlardan sonra divan əmiri Məsum bəy Səfəvi yüksək vəzirlik mənsəbinə layiq görüldü. O, mülki və hərbi işləri özündə cəmləşdirmişdi və neçə il dövlətin intizamını həyata keçirərək, hökmdarın qayğısı ilə əhatə olunmuşdu. Cənnətməkan şah həzrətləri o cənaba «əmioğlu»[805], yəni «əmizadə» deyə xitab edərdi. Cəmşid məqamlı şah həzrətləri ilə Rum məmləkətinin hökmdarı Sultan Səlim ibn Sultan Süleyman arasında sülh qaydaları bir daha təsdiq olunduqdan sonra Əcəm diyarından Beytül-hərama hacıların gediş-gəlişi bərpa olunduqda sözügedən şəxs doğru dəlillər əsasında o ali ziyarəti həyata keçirmək arzusuna düşərək, hər iki padşahdan icazə və rüxsət alıb, zamanə fazilləri zümrəsindən olan oğlu Xanmirzə ilə birlikdə yola çıxdı. Lakin rumilər ona qarşı xəyanətkarlıq etdilər. Belə ki, o, artıq ehram bağlamış bir vəziyyətdə ikən bədəvi ərəblərin libasını geyib, bir gecə onun üzərinə tökülüşdülər və onu oğlu və bir neçə nəfər dostu ilə birlikdə həcc karvanının ortasında şəhidlik dərəcəsinə çatdırıb, bu yaramaz hərəkəti ərəb quldurlarının törətdiyini bildirdilər.

---

800 Mustovfi əl-məmalik - dövlətin maliyyə idarəsinin başçısı.

801 Fərəhan - Həmədan çevrəsində yerləşirdi (bax: Əbdürrəşid əl-Bakuvi. Kitab təlxis əl-asar, s.101).

802 S-129. v.137a; S-297, v.100b..

803 Cəfr - hərflərlə fala baxmaq üsulu. Nirəncat - sehrbazlıq, cadugərlik.

804 Sevindik bəy Qorçubaşı - əfşar tayfasının əmirlərindən olub, 945 (1538-39) - 969-cu (1561-62) illərdə Azərbaycan Səfəvilər dövlətində qorçubaşı vəzifəsini tutmuşdu О.А.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с.255).

805 «Əmioğlu» sözü orijinal mətndə də türkcə verilmişdir.

Sözügedən şəxs səfərdə olduğu əyyamda onun vəziri Əmir Siracəddin Əli Qumi bu vəzifəni icra etməklə məşğul idi. Məsum bəyin öldürülməsindən sonra bir neçə il ərzində heç kim vəzirlik kürsüsünə təyin olunmadı. Yalnız [Şah Təhmasibin] həyatının axırlarında Mir Seyid Hüseyn Fərəhani və Xoca Cəmaləddin Əli Təbrizi[806] bu ali mənsəbə layiq görülərək, bir il ərzində o xidməti yerinə yetirdilər. Lakin onların davranışı əşrəfin xoşuna gəlmədi və o, onların hər ikisini o ali mənsəbdən azad edib, bir daha heç kimsəni bu vəzifəyə təyin etmədi.

## BÖYÜK MUSTOVFİLƏR VƏ DƏFTƏRXANA İŞÇİLƏRİ

Cənnətməkan şah zamanında ali divanın məlum və məşhur olan böyük mustovfiləri on nəfər olmuşlar. [Bunlardan] yeddi nəfəri mustovfi əl-məmalik, üç nəfəri isə mustovfiyani-bəqaya[807] idilər.

[Mustovfi əl-məmaliklərdən] əvvəlincisi Mir Məsud Cərbadqanidir. Digərləri bunlardır: Xoca Hüseyn Namsaruni, Qiyas Kəhrə Şirazi [adı] ilə məşhur olan Xoca Qiyasəddin Əli, Xoca Qasım Nətənzi, Xoca Məlik İsfahani, Mir Qiyasəddin Mahmud Şəhristani və məşhur Mirzə Şükrulla İsfahani. Bu yeddi nəfər mustovfi əl-məmalik olmuşlar. Bu təbəqə (mustovfi əl-məmaliklər) içərisində şanının ucalığına, böyüklüyünə, iqtidarına və xidmət zamanının sürəkliliyinə görə həmkarlarından üstün olan və camaat arasında nəfsi dəyanəti, təmizliyi, düzgünlüyü, xalqın xeyrini güdməyi və haqq tərəfdarları olması ilə məşhurlaşan şəxs Xoca Qasım Nətənzi idi. O, həmin [Nətənz] vilayətinin oyanlarından və əhalisindən idi. O, hesab biliciliyi və siyaq elmi qanunları sahəsində mahir idi və digərlərindən daha artıq dərəcədə padşahın qayğıkeşlik və şəfqət nəzərləri ilə əhatə olunmuşdu. Həmişə behişt bəzəkli məclisdə xalqın ehtiyaclarının təmin olunmasına, müsəlmanların vəziyyətinin yaxşılaşdırılmasına və hökmdarın şəninə dualar söylənməsinə səbəb olacaq xeyirli kəlmələri açıq-aşkar, çəkinmədən dilə gətirərdi. Dünyəvi qərəzlərdən uzaq olduğuna və xeyirxah niyyətlər güddüyünə görə onun fikirləri qəbul edilərdi və onun xidmətləri həmişə əşrəfin mübarək xatirinə xoş gələrdi. Həqiqətən də, nəcib və xeyirxah insan idi. O, «bəqaül-xeyrat»ın (xeyriyyə mərkəzlərinin) banisi idi. Ona olan hörmətin çoxluğu üzündən onun ölümündən sonra onun möhtərəm övladları da atalarının göstərdiyi xidmətin müqabilində [şahın] qayğıkeşliyinə və şəfqətinə layiq görülərək, uca mənsəblərə yüksəldildilər.

Onun [ölümündən] sonra yuxarıda adı çəkilmiş Mir Qiyasəddin Mahmud mustovfi əl-məmalik oldu. Lakin o, qısa müddətdən sonra işdən çıxarıldı. Bir

[806] S-297, v.l07a.

[807] Mustovfiyani-bəqaya - borc qalıqları üzrə mustovfilər mənasını verir. Belə ki, əhalinin bir qisminin vaxtında verə bilmədiyi vergilər «bəqaya» («qalıqlar») adlanırdı və borc kimi onların adına yazılırdı. Onlar bu vergini sonrakı illərdə hissə-hissə ödəyirdilər və bu vergi borclarının haqq-hesabını aparmaq mustovfiyi-bəqayanın işi idi.

müddət mustovfi mənsəbini hökmdarın dəftərxana avaracanevisləri[808] arasında bölüşdürüldü və hər bir mustovfi öz öhdəsinə düşən işləri yerinə yetirməyə başladı. Bir müddət isə [mustovfi əl-məmalik] səlahiyyətlərini icra etmək üçün bir-iki nəfər naib təyin olundu. Nəhayət, yenidən yuxarıda adı çəkilmiş Mir Qiyasəddin Mahmud mustovfi əl-məmalik vəzifəsinə gətirildi. O, heç də dərvişsayaq xasiyyətdən, nəfsi təmizlikdən və pəhrizkarlıqdan xali olan bir adam deyildi. Bu dəfə onun xidmət müddəti davamlı oldu. Cənnətməkan şahın vəfatından üç il öncə o, işdən çıxarıldı və yuxarıda adı çəkilmiş Mir Şükrulla bu rütbə ilə başucalığı tapdı. O, Xoca Həbibulla İsfahaninin oğludur. Atası sağlam nəfsli, təmkinli, vüqarlı, nəcib, yaxşı xəttə malik, gözəl davranışlı bir kişi olub, neçə-neçə illər ali divanda xidmət göstərməyə məmur edilmişdi və bir neçə il ulu dərgahda heç bir divan mənsəbinə təyin olunmamasına baxmayaraq, behişt bəzəkli məclisə yol tapıb, məclis iştirakçıları zümrəsinə və divannevislər[809] firqəsinə daxil edilmişdi.

Beləliklə, qeyd olunduğu kimi, Mir Qiyasəddin Mahmud Şəhristani işdən çıxarılaraq, Mirzə Şükrulla ilə əvəz edildi və cənnətməkan şahın vəfatı zamanınadək təkbaşına həmin xidmətin həyata keçirilməsi ilə məşğul oldu. İrəlidə işarə ediləcəyi kimi, o, İsmayıl mirzə zamanında vəzir və etimadüddövlə oldu, İsgəndər şanlı nəvvabın zamanında isə Xorasanın vəziri və müməyyizi[810] təyin edildi, həm də [İmam Rzanın] feyz bəxş edən məqbərəsinin mülkiyyətinin «touliyyət»i ona tapşırıldı. Amma malik olduğu vüqardan irəli gələn və simasından müşahidə olunan təkəbbür və lovğalıq ucbatından və zəmanə xudpəsəndlərinin heç də xoşagəlimlilərindən olmadığı səbəbindən onunla Xorasanın bəylərbəyisi arasında narazılıq yarandı və onun işləri lazım olduğu kimi getmədi. O, Damğana gəlib, orada fani dünyadan əbədiyyət aləminə köçdü.

Mustovfivani-bəqavava gəldikdə isə, onların əvvəlincisi İsfahanın Məmuri seyidlərindən olan Mir Hidayətulla Məmuridir. O, mustovfiyi-bəqaya təyin olundu və qısa bir müddət mustovfi olduqdan sonra vəfat etdi. Qardaşı Mir Məhəmməd Məmuri onun yerinə təyin edildi. O, haqq-hesab məsələlərini dərindən bilən bir adam olub, on il həmin vəzifəni həyata keçirməklə məşğul oldu. Amma axırda onun xidməti əşrəfin xoşuna gəlmədi və onu işdən azad etdi.

Ondan sonra Mir Şahqazi İsfahani mustovfiyi-bəqaya təyin olundu. O, İsfahan seyidlərindən idi və onların nəsli Ələqəbənd seyidləri [adı] ilə məşhurdur. O, haqq-hesabdan başı çıxan, işi bacaran bir adam idi. Cənnətməkan şah zamanında bir neçə il müməyyizlik və s. divan xidmətləri ilə məşğul olmuşdu və işin öhdəsindən layiqincə gəlirdi. O, həzrətin vəfatına qədər sözügedən xidməti

---

[808] Avaraca (avarecat) - elə bir kitaba və ya sənədə deyilirdi ki, onun əsasında fərdi vergi ödəyiciləri tərəfindən vergilər ödənilirdi. Avaraca işlərinə avaracanevis adlı məmur rəhbərlik edirdi və o, mustovfi əl-məmalikə tabe idi. Avaraca idarəsi yalnız dövlət torpaqları ilə bağlı olan vergilərlə məşğul olurdu O.A.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с.269).

[809] Divannevis - saray divanında yazı işləri ilə məşğul olan məmur.

[810] Müməyyiz – vilayət müfəttişi mənasındadır.

həyata keçirməklə məşğul oldu. İsmayıl mirzə zamanında Mirzə Şükrulla vəzir və etimadüddövlə olduqda onu da mustovfi əl-məmalik təyin etdilər. İsgəndər şanlı nəvvab zamanında o, əmrə əsasən, həmin mənsəbə təsdiq olundu və o işdə tam ixtiyar sahibinə çevrildi. Lakin vəzir Mirzə Salman sözügedən şəxsin əleyhinə düşüncələrə qapıldı və onun təhriki ilə sözügedən şəxs mənsəbdən azad olunaraq, [həmin mənsəb] əvvəllər Heratda İsgəndər şanlı nəvvaba xidmət göstərmiş Xoca Məhəmməd Bağır Herəviyə aid edildi. Mir Şahqazi doğma vətəninə sarı üz tutub, oradan da Bey-tüllahül-həramı həcc etməyə getdi və o xeyirli səfər zamanı fani cahanla vidalaşıb, əbədiyyət aləminə yollandı.

***Naziri-büyutat[811] vəzifəsini tutan səxslər:*** Bu həqir zərrənin (İsgəndər bəy Münşinin) xəbərdar olduğu qədərincə, Qazı İmad İsfahani[812] tam səlahiyyətli nazir idi. Onunla Mehtər Camal İsfahani arasında münasibətlər soyuqlaşdıqda bu sonuncu şəxs onu işdə nöqsanlara yol verməkdə və divan malını mənimsəməkdə ittiham etdi. Buna görə də o, işdən çıxarıldı və ondan külli miqdarda vəsaitin müsadirə edilməsi əmr olundu. Amma Mehtər Camal sözügedən şəxsin işdən çıxarılmasından sonra özü onun müsadirə vəsaitinə zamin duraraq, onu izzət və ehtiramla İsfahana yola saldı. [Qazı İmad] xeyirxah düşüncəli bir kişi idi.

Ondan sonra Xorasanın tam səlahiyyətli vəziri Ağa Kəmaləddin Zeynalibad Kirmaninin oğlu Ağa Cəmaləddin nazirlik mənsəbinə layiq görüldü. Mütəmadi bir müddətdən sonra o da düşmənlərinin və ona zidd olan adamların onu yanlış əməllər törətməkdə ittiham etməsi üzündən [hökmdarın] qəzəbinə tuş gəldi və cənnətməkan şahın ölümünədək Ələmut qalasında məhbus oldu. O, İsmayıl mirzə zamanında [həbsdən] xilas oldu və İsgəndər şanlı nəvvab zamanında yenidən bir qədər etibar qazandı. Axırda yaşının çoxluğu, ahıllığı və həbs müddətində əldə etdiyi zəiflik ona qalib gəldi və onun həyat müddəti sona çatdı.

***Cənnətməkan şahın ölümü zamanı üç nəfər nazir idi:***

1) Ağa Cəmaləddinin işdən çıxarılmasından sonra Mirzə Salman əksər büyutatların naziri oldu. O, Ağa Mirzə Əli Cabiri İsfahaninin oğludur. Atası bir neçə il Fars [vilayətinin] hakimi İbrahim xan Zülqədərin vəziri olmuşdu. Sözügedən şəxs (Mirzə Salman) gözəl Şiraz torpağında fəzilət və kamal qazandıqdan və böyük qabiliyyətə, inkişafa və bacarığa yiyələndikdən sonra ulu orduya gələrək, Azərbaycanın vəziri Mirzə Ətaullanın dəstəyi ilə bir neçə il o vilayətin «hərz» (mühafizə) xidməti ilə məşğul olmuşdu. Daha sonra o, həmin şəxs tərəfindən saraya göndərilib, qabiliyyət və bacarığa malik olduğu üçün şahın qayğıkeşliyi ilə əhatə olundu. O, artıq qeyd olunduğu kimi, Ağa Cəmaləddin Kirmaninin işdən çıxarılıb həbs edilməsindən sonra xasseyi-şərifənin əksər büyutatlarının naziri olmaq mənsəbinə yüksəldilərək, hökmdar məclisinin yaxın adamları silkinə daxil oldu və ta o həzrətin vəfatınadək tam səlahiyyətlə həmin xidməti icra etdi. İsmayıl mirzə zamanında hökmdarın ona olan qayğısı və

---

[811] Naziri-büyutat - «büyutat» adlanan saray təsərrüfatlarının ümumi başçısı.

[812] S-129, v.139a.

dəstəyi o qədər həddən ziyadə artdı ki, onun böyük əmirlərdən hər hansı birinə təzim etmək üçün vəzirlik kürsüsündən qaxmaması əmr olundu. İsmayıl mirzənin ölümündən və İsgəndər şanlı nəvvabın hakimiyyətə gəlməsindən sonra o, vəzir və etimadüddövlə təyin olunaraq, əvvəlkindən daha artıq səlahiyyətə və həmin ali mənsəbdə yüksək dərəcəyə nail oldu. Onun həyatının təfərrüatı İsgəndər şanlı nəvvabın [hakimiyyət] zamanının hadisələri içərisində qələmə alınacaqdır.

***Xoca Əbülqasim*** - Fərəhan vilayətinin əyanlarından olub, ali divanın möhürdarının vəziri idi. Düzgün qələmli, doğru sözlü, dürüst danışıqlı, gözəl davranışlı və sadə rəftarlı bir kişi idi. Onun hərəkətləri Əşrəfin xoşuna gəlmiş və xasseyi-şərifə sərkarının ixtiyarındakı büyutatlardan bəzilərinin naziri təyin edilməklə tərəqqi tapmışdı. O, cənnətməkan şah həzrətlərinin vəfatı zamanınadək həmin xidmətlə məşğul idi. İsmayıl mirzə zamanında da bir müddət o xidmətə cavabdeh olmuşdu. Böyük etibara malik idi. Axırda ətəyini o vəzifədən çəkib, doğma vətəninə üz tutdu.

***3) Mir Əbülfütuh*** - xasseyi-şərifə sərkarının imarət naziri olub, Mir Fəzlulla Şəhristani İsfahaninin qardaşı idi. Onlar Süleyman şanlı xaqanın zamanında mustovfi əl-məmalik vəzifəsini daşımış Mir Seyid Şərif Şəhristaninin övladlarındandırlar. Onların nəsli həmişə bu dövlətdə ali mənsəblərə layiq görülmüşdü. Yuxarıda adı çəkilmiş Mir Fəzlulla bir müddət İsfahanın vəziri və oranın divan məsələlərinin icraçısı olmuşdur. Vəzifədə olduğu vaxt ərzində əmlakı və mülkiyyəti xeyli artmış və o, onları vəqf kimi sənədləşdirmişdi. Mir Əbülfütuha gəldikdə isə, o, bir müddət tamam dindarlıq və düzgünlüklə imarət naziri («nəzarəti-imarət») vəzifəsi ilə məşğul oldu. Onun Mirzə Məhəmməd adlı fazil, fəqih və [dini] fitva sahibi olan bir oğlu vardı ki, dünyanın mənsəblərinə və məşğuliyyətlərinə baş qoşmamışdı və onun fitvaları zəmanənin fəqihləri arasında mötəbər idi.

Əhmədi bəy Ləşkərnevis[813] sabiq ləşkərnevis Məhəmmədi bəyin qardaşıdır. Cənnətməkan şahın [hakimiyyəti] zamanının əvvəllərində ləşkərnevis [vəzifəsini tutan] Xoca bəy Şirazi olduqca əziz və mötəbər bir şəxs olub, əmirlər və əsgərlər arasında etibara və iqtidara sahib idi. Belə ki, hamı onu vəzir səviyyəsində bilib, onu vəzirliyə müntəzir hesab edirdi. Onun ölümündən sonra yuxarıda adı çəkilmiş Əhmədi bəyin qardaşı olan Azərbaycanın avaraca-nevisi Məhəmmədi bəy bu yüksək şərəfli mənsəbə təyin olundu. O, ağıllı, qabiliyyətli, istedadlı, düşüncəsi və huşu yerində olan bir kişi idi. O da əziz, mötəbər bir şəxs idi, dövlət məmurlarına örnək sayılardı və şahın şəfqəti və himayəsi ilə əhatə olunmuşdu. Belə ki, Cəmşid məqamlı şah həzrətləri ona «kiçik vəzir» deyə xitab edərdi. Onun ölümündən sonra yuxarıda adı çəkilmiş qardaşı Əhmədi bəy ləşkərnevis oldu və cənnətməkan şahın vəfatı və İsgəndər şanlı nəvvabın hakimiyyətə gəlməsi əyyamına qədər bu xidməti yerinə yetirdi. Onların nəslinin əsli-kökü Şirazdandır və onlar orada «Xakiyyə

---

[813] Ləşkərnevis - qoşunla bağlı qeydiyyat işlərini aparan katib.

təbəqəsi» [adı] ilə məşhurdurlar. Amma bir müddətdir ki, Şirazdan çıxmışlar. Xakiyyə nəslindən bir neçə nəfər İraqda, Azərbaycanda və ulu orduda yüksək mənsəblər və divan xidmətləri ilə əzizlənmiş və şərəflənmişlər. Haqqında bəhs etdiyimiz şəxs qabiliyyətə, yaxşı xəttə, fəzilətə və kamala malik olan bir adam idi və qələm sahiblərinin istedadlılarından idi. O, Allahın kölgəsi olan əlahəzrət şahın səadətli cülusunun əvvəllərində ölmüşdü.

Böyük qorçuların vəziri («vəzir-i qorçiyan-i əzəm») Əliqulu bəy adlı şəxs ərəbgirlü oymağından idi. Atası Hüseynəli bəy aqil adam idi və təliq[814] xətti ilə yaxşı yazırdı. Xəttatlığı [İmam Rzanın] feyz bəxş edən məqbərəsinin münşisi Mövlana Bəhaəddin Hüseyndən yaxşıca öyrənmişdi. Bu əbədi [Səfəvi] dövlətinin yaranmasından etibarən «vəzarət-i qorçuyan-i əzəm» mənsəbi onların nəslinə mənsub idi. O da (Əliqulu bəy də) öz nəslinin göstərmiş olduğu xidmətlərin müqabilində bu mənsəbə layiq görülmüş və həyatda qaldığı müddətcə bu rütbə ilə əzizlənmişdi. O, Allahm kölgəsi olan əlahəzrət şahın hakimiyyətinin əvvəllərində öldü.

***Mirzə Fəthulla*** adlı şəxs böyük qorçuların mustovfisi («mustovfi-yi qorçuyan-i əzəm») idi. O, əvvəllər qorçu mustovfisi və axırda mustovfi əl-məmalik olmuş Xoca Məlikin qohumlarındandır. Həmin bu Mirzə Fəthulla cavanlığının başlanğıcında bu xidmətə layiq görülərək, [şahın] nəvazişinə və qayğıkeşliyinə tuş gəlmişdi. Həmişə ali məclisin iştirakçılarından olub, qorçu vəzirindən daha artıq dərəcədə qorçularla bağlı məsələlərə dəxli vardı.

***Ali dəftərxananın işçiləri:*** Mir Əbu-Turab Nətənzi mustovfiyi-mal vəzifəsini tuturdu. Bu vəzifəyə indi zabitnevis və müfridənevis də deyirlər[815]. O, Nətənz [bölgəsinin] Əl-Vəşiyyət seyidlərindəndir və mustovfi Xoca Qasımın kürəkəni idi. Dövlət dəftərxanasında qələm sahibləri onu haqq-hesab elmində mühasiblərin ustadı sayırdılar.

---

[814] Təliq - ərəb əlifbası ilə yazılan əsas bədii xətt növlərindən biri, XIV əsrdə İran xəttatı Salman İsfahani tərəfindən təqi və rüqə xətlərinin əlaqələndirilməsi nəticəsində yaradılmışdır. Kursiv xətti olan təliq sürətlə yazılma xüsusiyyətinə malikdir (ASE, c. IX, s.248). Nəsx və təliq xətlərinin əlaqələndirilməsi ilə nəstəliq xətti yaradılmışdı. Nəsx - ərəb əlifbası ilə yazılan bədii xətt növü. Bu xəttin ixtiraçısı İbn Müğlə sayılır, ən gözəl xəttatı isə azərbaycanlı Mirzə Əhməd Neyrizi olmuşdur. Nəsx xəttinin yaranmasının kökləri X əsrə gedib çıxsa da, onun formalaşmasının ən əsas və həlledici mərhələsi XIII əsrə təsadüf edir (M.M.Adilov. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı, 2002, s.111).

[815] Mustovfiyi-mal (yaxud zabitənevis, müfridənevis) - mustovfi əl-məmalikin rəhbərliyi altında işləyirdi. Onun tabeliyində katiblər vardı və onlar avaraca idarəsindən kənarda qalan divan vergilərinin qeydiyyatı ilə məşğul olurdular. Buraya yol rüsumları, tülün ticarəti vergisi, çobanbəyi və s. bu kimi vergilər aid idi. Əgər avaracanevis dövlət torpaqlarının vergiləri ilə məşğul olurdusa, mustovfiyi-mal şah ailəsinə məxsus («xassə») torpaqlardan gələn vergilər və həmçinin dövlət torpaqlarından gələn, lakin avaraca idarəsi tərəfindən qeydiyyatı aparılmayan təsadüfi gəlirlərlə məşğul olurdu O.A.Эфендиев. Азербайджанское государства Сефевидов в XVI веке, с.268-169).

Hidayət bəy Şirazi ali divanda sahibi-tövcih[816] idi. O, sabiq sahibi-tövcih Xoca Həbibullanın qohumlarındandır. Onların nəslindən bir çoxları bu «vilayət» nişanlı [Səfəvi] sülaləsi qarşısında müxtəlif xidmətlər göstərmişlər və şahanə etimada layiq görülmüşdülər. Sözügedən şəxs düşüncəli, düzgün qələmli, məlumatlı, sağlam nəfsli və pəhrizkar bir kişi idi.

Avaracanevislər arasında Xoca Məhəmməd Əmir Azərbaycan və Şirvanın avaracanevisliyi ilə məşğul idi. O, «Xan» ləqəbi ilə məşhur olub, mustovfi Qasımın oğlu idi və haqq-hesab məsələlərindən yaxşı baş çıxarırdı.

Xoca Rəşid bəy Şiraz əsillidir və Hidayət bəyin qohumlarındandır. O, İraq avaracanevisliyi ilə şərəfləndirilmişdi. Sufi xasiyyətli, dərviş görkəmli, pak etiqadlı və Allahı tanıyan bir kişi idi.

Xorasanın və Kirmanın avaracanevisi Ağa Əsəd Nətənzi idi. «Suxtə» («yanmış») adı ilə məşhur olan şirazlı Əsədin oğlu Mir Nemətulla isə atasının yerinə Fars [vilayətinin] avaracanevisi təyin olunmuşdu.

Ağa Seyfəlmülük Tehrani «mustovfi-yi ərbab-i təhavil»[817] vəzifəsində idi. O, böyük istedada malik olmasa da, söhbəti xoş, sözü şirin olan parlaq bir insan idi. Bu cəhətdən o, behişt bəzəkli məclisə yol taparaq, məclis iştirakçıları zümrəsinə daxil olmuş və şahın hüsn-rəğbəti ilə əhatələnmişdi.

«Məmaliki-məhrusə»nin bövük vəzirləri arasında iki nəfər xüsusilə əzəmətli, yüksək şöhrətli və iqtidar sahibi idi. Onlardan biri əvvəlcə vəziri-möhr olmuş, sonra isə bütün Azərbaycanın və Şirvanın vəziri və müməyyizi təyin olunmaq şərəfinə layiq görülmüş Mirzə Ətaulla İsfahanidir. Digəri isə yuxarıda işarə edildiyi kimi, Xorasanın vəziri və müməyyizi olan Ağa Kəmaləddin Zeynalibad Kirmanidir. Lakin cənnətməkan şahın vəfatı zamanı Ağa Kəmaləddin artıq ölmüşdü. Yaşlanmış və qocalmış Mirzə Ətaulla isə artıq o mənsəbdən azad edilmişdi. Onların hər ikisi ağıllı, sağlam nəfsli və rəiyyətpərvər vəzir olmuşlar. Onların xeyirxahlığı və yaxşı ad-sanı barədə söhbətlər Xorasanda və Azərbaycanda xalqın dilində əzbərdir və onların əməlləri həmin vilayətlərdə örnək və qanun kimi bir şeydir.

Cənnətməkan şahın vəfatı zamanı dövlətin əyalətlərində vəzirliklə məşğul olanlardan biri sabiq vəziri-tərxan[818] Xoca Şahhüseyn Saruninin oğlu Mirzə

---

[816] Sahibi-tövcih - mustovfi əl-məmalikə tabe olan və ödənişlər üzrə qəbzlərin verilməsinə nəzarət edən maliyyə məmuru idi.

[817] «Mustovfi-yi ərbab-i təhavil» - büyutat təsərrüfatlarına təhvil verilən mülkiyyət, xammal və məhsulların məsul nəzarətçisi idi.

[818] Vəziri-tərxan - Səfəvilərin dövlət quruluşuna dair ən mühüm mənbə sayılan Mirzə Səmianın «Təzkirətül-müluk» əsərində və V.F.Minorskinin Səfəvilər idarəçilik sisteminə həsr olunmuş tədqiqatında bu və ya buna bənzər adda dövlət vəzifəsinə rast gəlinmir. Lakin istilahın lüğəti mənasına əsasən bəzi mülahizələr irəli sürmək mümkündür: 1) Tərxan sözü türkcə əmir deməkdir. «Tərxani» adlı tarixi bir termin vardır ki, bu, həm təqaüd bildirir, həm də Elxanilər dövründə və ondan sonra dövlət tərəfindən əmirlərə və s. dövlət qulluqçularına maliyyə və ya ərazi formasında bağışlanan irsi tiyulları, bəxşişləri ifadə edirdi (Məhəmməd Müin. Fərhəng-e farsi, c.I, Tehran, 1342, s.1045). Əgər «vəziri-tərxan» ifadəsinin əslini «vəziri-tərxani» kimi qəbul etsək, onda belə çıxır ki, bu

Hidayətulladır. O, Gilanın Biye-piş [vilayətinin] vəziri vəzifəsinə mənsub edilib, həmin vəzifənin yerinə yetirilməsi ilə məşğul idi. Amma buna baxmayaraq, o, Gilana getməmişdi və ulu dərgahda yaşayırdı. O, İsgəndər şanlı nəvvab zamanında mustovfi əl-məmalik oldu. Öz yeri gələndə qələmə alınacağı kimi, Mirzə Salman Heratda qətlə yetirildikdən sonra o, ali divanın vəziri və etimadüd-dövlə təyin olundu. Amma məsələlərə çox da müdaxilə edə bilmirdi və ali vəzirlik vəzifəsinin tam səlahiyyət sahibinə çevrilmədi.

Əvvəllər Hüseyn bəy Yüzbaşı Ustaclunun vəziri olmuş Xoca Qasım Əli Azərbaycanın vəziri vəzifəsinə yüksəldilərək, bir neçə il o xidmətlə məşğul oldu. Amma o da cənnətməkan şahın vəfatınadək ulu dərgahda qalıb, Azərbaycana getmədi. Xeyirxah düşüncəli bir kişi idi və sağlam nəfsli olmağı ilə məşhur idi. Onun əsli təbrizli idi, İsfahan əhlinə də qohumluğu çatırdı. Onun qardaşı Xoca İnayətulla Tərkə öz qardaşının yerinə Hüseyn bəyin oğlu Həsən bəyin vəziri olmuşdu. O, zəmanəsinin mötəbər vəzirlərindən olub, ləyaqətli, insanpərvər və gözəl rəftarlı bir kişi idi.

Xoca Mahmud Şərif Tehrani darülibadə Yəzdin vəzirliyindən azad olunub, darüssəltənə İsfahanın vəziri təyin edilmişdi. Onun məşhur Ağa Təlayi Dəvatdar Qəzviniyə qohumluq əlaqəsi vardı[819]. O da xoşrəftar və sağlam nəfsli bir adam idi.

Yuxarıda adı çəkilmiş Ağa Təlayinin oğlu Mirzə Bədiüzzaman darülmömінin Kaşanın vəziri idi. O və qardaşları sağlam nəfsli olduqlarına və rəiyyətlə gözəl rəftar etdiklərinə görə şahın şəfqət nəzərlərinə tuş gəlmişdilər. Onun bir qardaşı Ağa Məhəmməd Zaman darüssəltənə Təbrizdə bəzi xidmətlərin həyata keçirilməsinə məmur edilmişdi, digər qardaşı Əhməd bəy isə Xorasanın bəzi mahallarının vəziri idi.

***Mir Fəzlulla Şəhristaninin*** «Zadə Məxdum» [adı] ilə məşhur olan oğlu Mirzə Əbdülbaqi darüssəltənə Qəzvinin vəziri Mir Seyid Əli Rizəvi Quminin ölümündən sonra həmin mülkün vəziri təyin olunaraq, o xidmətin həyata keçirilməsi ilə məşğul olmuşdu. Yuxarıda qeyd olundu ki, Fəzlulla külli miqdarda əmlak və mülkiyyət sahibi idi və özünün bütün əmlakını vəqf edərək, «touliyyət»ini böyük oğluna vermişdi. Lakin həmin bu Mir[zə] Əbdülbaqi öz ağılsızlığı və bəxtinin zaylığı üzündən onların hamısını yox edib, özü də cənnətməkan şah həzrətlərinin vəfatından sonra səmərəsiz arzuları, yersiz iddiaları

---

məmur dövlətin təqaüd məsələlərini və ya dövlət qarşısında mühüm xidmətlər göstərmiş şəxslərə və onların nəslinə irsən bəxşiş və təqaüdlərin verilməsi işini nizama salmaq funksiyası daşımışdır. 2) Fars dilində «tərxanə» sözü vardır ki, bu, tərsanə sözünün sinonimi kimi işlədilir. Əgər bu variantı nəzərə alsaq və «vəziri-tərxan» sözünü «vəziri-tərxanə» kimi oxusaq, onda belə nəticəyə gəlmək olar ki, bu məmur dövlətin gəmiçilik işlərini tənzimləməklə məşğul olmuşdur.

[819] Dəvatdar - şahın şəxsi mürəkkəbqabısını və qələmini saxlayan, münşi əl-məmaliklə birlikdə fərmanların və hökmlərin tərtibində iştirak edən saray məmuru. «Dəvatdari-ərqam» və «dəvatdari-ehkam» adlanan iki növ dəvatdarın olduğunu bilirik (Mirza Səmia. Təzkirətül-müluk, s.26-27,57-58; V.F.Minorsky. «Tadhkirat al-muluk», p.133).

və qaba istək və tələbləri ucbatından cürbəcür bəlalar çəkib, halı pərişan oldu və həyatı təşvişlər girdabına düşdü.

***Mirzə Əhməd*** - Mirzə Nurulla Küfrani İsfahaninin oğludur. O, Fars [vilayətində] şah ailəsinə məxsus mülkiyyətin vəziri («vəzir-i sərkar-i xasse-yi şərifə») idi. Cənnətməkan şah həzrətlərinin onun atası Mirzə Nurullaya xüsusi hörməti vardı və sözügedən şəxs də atası kimi şahın qayğısı ilə əhatə olunmuşdu. O, İsgəndər şanlı nəvvab zamanında o həzrətə hələ Şirazda olarkən göstərdiyi gözəl xidmət səbəbindən nəzarəti-küll (naziri-büyutat) mənsəbinə layiq görülərək, təkbaşına mütləq ixtiyar sahibi olan bir nazirə çevrildi.

***Mir Seyid Hüseyn Xətib Qaini*** darüssəltənə Heratın xasseyi-şərifəsinin bəzi yerlərinin vəziri olub, o mülkdə olduqca mötəbər və məşhur idi.

Əvvəllər qorçubaşı Əhməd bəy Əfşarın vəziri olmuş Mirzə Məhəmməd Kirmani darülirşad Ərdəbilin vəziri idi.

İndi ki, dövlətin əyalətlərinin vəzirləri içərisində məşhurlardan olan bu bir neçə nəfərin adları bəyan qələmi ilə qeyd olundu, digər vilayət vəzirlərinin təfsilatı barədə geniş məlumat verilməsinin faydası yoxdur. Buna görə də onların təsviri bununla yekunlaşdırıldı.

Taciklərdən[820] və vəzirlərdən ibarət digər bir qrup da vardı ki, onlardan bəziləri əşrəfin xidmətində şərəf və izzət sahibi olan əmirlərin yanında çalışıb işdən çıxarılmışdılar, bəziləri isə hələ də işləməkdə idilər. Onlardan biri Xoca Hidayətulladır. O, Əmir Qeyb sultanın vəziri idi. Taciklər arasında məhz ona əbləğ[821] hədiyyə edilmişdi. O, həmin əbləği başına taxırdı və bu hədiyyə ilə tay-tuşlarından seçilərək, iftixarlı başını uca çərxi-fələyə doğru yüksəldirdi.

Digər birisi ***Xoca Ziyaəddin Salmani İsfahanidir***. O, Abdulla xan Ustaclunun vəziri idi. Bu sonuncunun ölümündən sonra o, ulu orduya gəlib, məclis iştirakçıları zümrəsindən oldu.

Digər birisi «Axsaq Müşrif» [adı] ilə məşhur olan ***Xoca Həsən Naxçıvanidir***. Onun heç bir mənsəbi olmasa da, məclis iştirakçıları zümrəsindən idi.

***Xoca Şahmənsur Fərahani*** isə Heydər sultan Tərxan Türkmanın vəziri idi. O da hökmdarın məclisinə daxil olmaq icazəsinə malik idi.

Məsum bəyin vəziri olan ***Mir Siracəddin Əli Qumi*** onun yuxarıda qələmə alınmış şəhidlik hadisəsindən sonra divan mənsəblərindən birinə layiq görüldü. Amma əvvəlki kimi [şahın] xidmətində olmaq imkanına malik idi.

---

[820] Tacik - Səfəvi mənbələrində farslar bu cür adlandırılırlar. Lakin bu ad bəzi hallarda etnik mənsubiyyət bildirməyib, ümumilikdə oturaq əhaliyə şamil olunurdu.

[821] Əbləğ - hökmdarlar və əmirlər üçün nəzərdə tutulan, başa və ya papağa taxılan bəzək.

***Büyutat müsriflərindən***[822] bir neçə nəfəri izzət və etibar sahibi idilər: Dövlət xəzinəsinin müşrül ***Mirzə Babayi Şirazi*** əşrəfin xidmətində əziz və mötəbər idi və şahın etimadına layiq görülmüşdü.

***Mirzə Qasım Şirazi*** təvilə müşrifi idi. Əksər vaxtlarda at tövləsində və at meydanında xidmət göstərmək səadətinə nail olmuşdu.

Mirzə Babayinin qohumu ***Mirzə Məhəmməd Peşkəş*** əziz və mötəbər bir peşkəşnevis idi. ***Mirzə Həsən İsfahani*** rikabxana və qayçaçıxana[823] müşrifi idi. Mir Şahmirin qardaşı Mir Seyid Seyfi əvvəllər xəzinə müşrifi olmuş, daha sonra şütürxan[824] vəzifəsini icra etmək şərəfinə nail olmuşdu. Bunlardan savayı, digər müşriflər olsa da, bu bir neçə nəfərin sadalanması ilə bu mövzu ixtisar edildi.

Ulu dərgahda tacikiyyə təbəqəsinin böyüklərindən və əyanlarından ibarət digər bir qrup da vardı ki, onlardan bəzilərinə [hökmdarın] hüzurunda olmaq ixtiyarı verilmişdi. Bu şəxslər konkret olaraq hər hansı bir vəzifə tutmasalar da, behişt bəzəkli
məclisdə iştirak etmək və oraya daxil olmaq hüququna malik idilər. Bunların arasında darülmöminin Qumun Musəvi seyidlərindən olan ***Mir Haşım Qumi*** xüsusi yer tuturdu. O, şirin sözlü, zarafatcıl bir kişi olub, əmlak, mülkiyyət, sərvət, var-dövlət sahibi idi və əşrəfin hüzurunda söz demək, mətləb ərz etmək, ehtiyac sahiblərinin diləklərini çatdırmaq baxımından digərlərindən üstün idi. Bəzən burnuna ali divanın vəziri təyin olunacağının xoş qoxusu dəysə də həmin rütbəyə nail ola bilmədi. Cənnətməkan şah həmişə onunla zarafat edir və məzələnir, ona qarşı zarafatyana hüsn-rəğbət göstərir və əksər vaxtlarda onunla münasibətdə izzət və hörmətlə davrandığı əsnada onu gözlənilmədən cəzaya və müsadirəyə giriftar edirdi. O, cənnətməkan şahın vəfatınadək əziz və möhtərəm bir şəxs olaraq qaldı. Amma qaba istək və tələblərdən də xali deyildi.

Bu təbəqənin əhali və əyanlarından digər birisi ***Xoca Əbdürrəşidin oğlu Xoca Əbdülqadir Kirmani*** idi. O, öz vilayətinin əsilzadələrindən, böyüklərindən və əyanlarından olub, əmlakının və sərvətinin, gəlirinin və mənfəətinin çoxluğuna görə seçkin və üstün bir şəxs idi. Hökmdarın fərmanına uyğun olaraq, darülaman Kirmandan ali taxtın ətəklərinə gələrək, behişt bəzəkli məclisin iştirakçıları zümrəsinə daxil oldu. Bəzən ona ali divan vəzirliyi vəd olunsa da, o da Mir Haşım kimi izzət və etibara malik olmasına baxmayaraq, vəzifə sahiblərinin ona qarşı olan sərt münasibətindən asudəlik tapmadı. Axırda öz razılığı və istəyi ilə on iki min tümən peşkəş alaraq Kirmana qayıtmaq və o vilayətdə əkinçilik və quruculuq işləri ilə məşğul olmaq icazəsi istəsə də, onun bu arzusu qəbul edilmədi. O, cənnətməkan

[822] Müşrif - saray təsərrüfatlarının («büyutat»ın) müfəttişləri müşrif adlanırdılar. Onlar büyutata rəhbərlik edən «sahib-cəm»lərlə birlikdə büyutatın idarə olunmasında mühüm rol oynayırdılar (bax: V.F.Minorsky. «Tadhkirat al-muluk», p.134).

[823] Rikabxana - qarderob anlamındadır və burada şah ailəsinin qarderobu mənasında işlədilmişdir. Qayçaçıxana - sarayın dərzi sexi. Bunların hər ikisi «büyutat»a daxil idi.

[824] Şütürxan - şahın dəvələrinin saxlanmasına başçılıq və nəzarət edirdi.

şahın vəfatınadək ulu orduda qaldı və İsgəndər şanlı nəvvab zamanında getmək rüxsəti alıb, doğma vətəninə yollandı. Amma həmin vilayətdə özbaşınalıq bayraqlarını qaldıran və öz xeyri üçün vergilər yığan Bəktaş xan Əfşarın xoşagəlməz davranışları ucbatından orada qalmağa macal tapmayıb, imamların məqbərələri tərəfə yola düşdü və bir müddət darüssəlam Bağdadda və onun hüdudlarında yaşayıb, xiffət və etibarsızlıqla üzləşəcəyinin qorxusu səbəbindən vətənə [qayıtmaq] arzusuna düşmədi. Elə həmin vilayətdə də onun həyatının əyyamı sona çatdı.

Bunlardan savayı, hörmətli adamlardan, ərbablardan və əhalidən bir çoxları da vardı ki, onlar da ulu dərgahda və behişt nişanəli məclisdəki söhbətlərdə iştirak etmək hüququna malik olub, xidmətə məmur edilmişdilər. Lakin onların hamısının burada sadalanması uzunçuluğa səbəb ola bilərdi.

Münsilər arasında ***Məhəmmədi bəy Təbrizi Keçəçi*** vardı ki, o, Mir Zəkəriyyanın qohumlarından olub, münşi əl-məmalik[825] idi və uzun sürən bir xidmətkarlıq yolu keçmişdi. Onun ölümündən sonra münşi əl-məmalik vəzifəsi təkcə bir nəfərə tapşırılmadı. Belə ki həmin bu Məhəmmədi bəylə qohumluq əlaqəsinə malik olan ***Mirzə Məhəmməd ibn Xoca Əlibəy Sorx-i Kirmani,*** onunla yanaşı, ***Qazı Abdulla Xoyi***[826] ***və Xoca Əlaəddin Mənsur Kərəhrudi*** [üçlükdə] münşi əl-məmalik vəzifəsinin həyata keçirilməsi ilə məşğul olaraq, məclis iştirakçıları zümrəsinə daxil oldular. Mirzə Məhəmməd, İsmayıl mirzə zamanında münşi əl-məmalik olub, yetərincə əziz və möhtərəm bir şəxsə çevrildi, İsgəndər şanlı nəvvab zamanında Mirzə Salman qətlə yetirildikdən sonra isə mustovfi əl-məmalik oldu və nəhayət, Əbu-Talıb mirzə zamanında vəzirlik mənsəbinə yüksəldi. Onun əhvalatının təfərrüatı Allahın kölgəsi olan əlahəzrət şahın səadətlə dolu zamanının təsviri vaxtı bəyan qələmi ilə yazılacaqdır. Onların hər üçü qabiliyyət və istedad sahibi olub, xoşnevislər (xəttatlar) zümrəsindən idilər. Amma Qazı Abdulla inşa fənnində tay-tuşlarından üstün mərtəbəyə malik idi.

## MƏSİH[827] NƏFƏSLİ HƏKİMLƏR HAQQINDA

İran məmləkətlərində bu fəzilət nişanəli təbəqədən bir çoxları vardı. Burada onlardan əşrəfə qulluq göstərmək şərəfinə nail olmuş bir neçə nəfərdən və bu təbəqədən olan məşhurlardan bəhs etməyə təşəbbüs olunmuşdur.

---

825 Münşi əl-məmalik - dövlətin baş münşisi, saray münşilərinin başçısı.
826 Tehran çapında (s.167) Xoyi əvəzinə səhvən Cüveyni yazılmışdır. XVI əsrin məşhur Azərbaycan alimi, xəttatı və şairi Qazı Abdulla Xoyi haqqında bax: Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi, s.105; M.Tərbiyət. Danişməndani-Azərbaycan /Azərbaycanın görkəmli elm, sənət adamları/. Tərcümə edənlər: İ.Şəms, Q.Kəndli. Bakı, 1987, s.18.
827 Məsih - İsa peyğəmbərin ləqəblərindən biridir. Dini rəvayətlərə görə, İsa Peyğəmbər nəfəsi ilə ölüləri dirildərmiş. Burada İsgəndər bəy Münşi həkimlərin istedadını göstərmək üçün «Məsih nəfəsli» ifadəsindən istifadə etmişdir.

***Həkim Qiyasəddin Əli Kaşi*** - düzgün sözlü, doğru danışan və sadəlövh bir kişi idi və tədavüldə olan elmlərin mənimsənilməsinə lazımınca səy göstərib, tibb elmində kamal dərəcəsinə çatmışdı. Onun ölümündən sonra qardaşı ***Həkim Nurəddin*** əşrəfə qulluq göstərmək şərəfinə layiq görülüb, [saray] həkimləri silkinə daxil oldu. O, xəstəliklərin müalicəsində möcüzələr göstərirdi, onun sözü həkimlər arasında bir örnək və qanun idi və çox sədaqətli və dürüst bir insan olduğu üçün cənnətməkan şahın hüzurunda həmkarlarından daha artıq etimada malik idi.

***Həkim Kəmaləddin Hüseyn Şirazi*** - fəzilətli, bilikli və gözəl əxlaqlı bir həkim idi. Əvvəlcə Şah Nemətulla Yəzdinin baş həkimi olub, ona xidmət göstərmiş, onun ölümündən sonra isə ulu dərgahın həkimləri silkinə daxil edilmişdi. Dərrakəsinin ixtiyarı ilə möcüzələr göstərir və təbiətinin köməyi ilə Məsih kimi rahatlıq bəxş edirdi. Xətaya yol verən [həkimlər] silkindən uzaq gəzən xroniki xəstəlik mübtəlaları və müxtəlif mərəzlərin daşıyıcıları əksər vaxtlarda onun müalicəsi sayəsində səhhət tapırdılar. İçki içməyi ilə məşhur olub, bəzi riyakarlar kimi özünü dindar göstərməyə çalışmırdı. O, təbiblərin bədənin sağlamlığı üçün ümumən caiz hesab etdikləri küp şərabından qəbul etməsi ehtimalı üzündən cənnətməkan şahdan bir o qədər də rəğbət görmədi və İsgəndər şanlı nəvvab zamanında Xan Əhməd Gilaninin hüzurunda işləmək üçün o vilayətə (Gilana) getdi. Bir müddət onun hüzurunda əziz və çox mötəbər bir şəxs olaraq yaşadı və sözügedən vali onunla tibbi məsələlərlə bağlı mübahisələr edərdi. Həyatının müddəti elə orada sona çatmışdır.

***Sədrüşşəriə Giluninin oğlu***[828] ***Həkim Əbu-Nəsr Gilani*** - gözəl xasiyyətli, xoşsöhbət və xoşsima bir adam idi və olduqca yaxşı müalic (həkim) idi. Ulu dərgahda əksər müalicələri xəstəliyə müvafiq gələrdi və o sahədə böyük şöhrət tapmışdı. Cənnətməkan şahın xəstəliyi zamanında gecə-gündüz onun xidmətində durmuşdu. Lakin ona göstərilən xüsusi rəğbət və iltifata görə digər həkimlərin cahilcəsinə ona təzim etmələrini umurdu. Axırda bu məsələ ona səbəb oldu ki, cənnətməkan şahın ölümündə onu müalicədə xəyanətə yol verməkdə ittiham etdilər və o, hökmdar sarayında qorçuların əli ilə qətlə yetirildi.

***Mirzə Məhəmməd Şirazi*** - Həkim Kəmaləddin Hüseynin qohumudur. Fəzilətli, bilikli, gözəl əxlaqlı bir həkim idi və xəstəliklərin müalicəsində «yədi-bəyza»[829] kimi iş görərdi. Zəmanənin əksər həkimləri onun sözünü mötəbər, müalicə üsullarını isə yüksək etimada layiq sayırdılar və bunları özləri üçün nümunə hesab edirdilər. Yüksək dərəcəsi olmayan təbiblərdən bir çoxları onun şagirdi olmaqla fəxr edərdilər. Həqiqətən də, o, zəmanənin Büqratı (Hippokratı) və dövranın Əflatunu (Platonu) idi. Onun da taleyi Həkim

---

[828] S-129,v.143a;S-297,v.109b.

[829] Yədi-bəyza («ağ əl») - dini mətnlərdə və klassik ədəbiyyatda bu ad altında Musa peyğəmbərin möcüzə göstərən əli nəzərdə tutulur.

Kəmaləddin Hüseyninki kimi olmuşdu. Belə ki, o da şərab içməyi ilə məşhurlaşmış və padşahın rəğbətindən məhrum qalmışdı. Bəzi vaxtlar ulu orduda, bəzi vaxtlar isə darülibadə Yəzddə yaşamışdır.

***Həkim İmadəddin Mahmudun*** həmin bu iki bilikli həkimə əqrəbalığı və qohumluğu çatırdı. Elm və hikmətdə hamı arasında başbilən, bilik və təcrübə üzrə aləmdə məşhur idi. Onun tibb elmi, məcunların tərtibi, xroniki xəstəliklərin və hərarət artımının müalicəsi, xüsusilə də kiçik (adi) qoturluq və camaat arasında «atəşək» (qanqrena) adı ilə məşhur olan böyük qoturluq barəsində yazdığı bəyənilən risalələr və qeyri-adi əsərlər təbiblər arasında etimadlıdır. O, əvvəllər Şirvan hakimi Abdulla xan Ustaclunun yanında xidmət etmişdir. Lakin bir məsələ üstündə Abdulla xan ona olan münasibətini mənfi yöndə dəyişərək, ona qarşı qəzəb atəşini alovlandırdı və onu şaxtalı bir havada dəlicəsinə cəzalandıraraq, qarın içərisində basdırdı. Sübh oluncaya qədər onu qarın altından çıxarmadılar. Həmin hikmətli cənab ifrat həddə tiryək atmaqla öz çarəsinə baxıb, o bəladan sağ çıxmağı bacarsa da, onu titrətmə tutdu və həyatda olduğu müddətcə bu titrətmə onu tərk etmədi. Artıq özü tiryəki olduğu üçün tiryəkə çox bağlılığı vardı. Cənnətməkan şah cinlərin və insanların imamı olan [İmam Rzanın] müqəddəs astanasını inkişaf etdirməyə və oranı rövnəqləndirməyə həddən artıq meyil göstərərək, hər sahə üzrə ən yaxşılardan olan mütəxəssisləri həmin məqbərəyə xidmət göstərməyə təyin etdiyindən sözügedən şəxsi də həmin feyz bəxş edən ziyarətgahın təbibliyinə məmur etdi. O, bir müddət müqəddəs və ulu Məşhəddə xəstələrin müalicəsi ilə məşğul oldu. Həqiqətən də, o, özündə seçkin şəxslərə və fəzilət sahiblərinə xas olan xüsusiyyətləri, kamalı və üstünlükləri cəmləşdirmiş bir adam idi.

***Həkim Əbülfəth Təbrizi*** - Təbriz şəhərinin məşhur[830] təbiblərindəndir. Cüssəcə kiçik adam olduğundan camaat arasında ona «həkimi-kuçek» («kiçik həkim») deyərdilər. O, şəhərdəki digər təbiblərdən səviyyəcə çox üstün idi. Xəstəliyin diaqnozunun qoyulması və naxoşluğun vəziyyətinin müəyyənləşdirilməsi baxımından onun misli-bərabəri yox idi. Əgər xəstənin ağlı başında olmasaydı, onda o, heç bir sual verməyə ehtiyac hiss etmədən onun nəbzini ölçmək bu şüur pozğunluğunun səbəbini anlayıb, nasazlığın hansısa yemək-içməkdən, zay xörəkdən və zay şərbətdən olduğunu bildirərdi. Əgər bir xəstəlik olsaydı, onun səbəbini izhar edərdi və əksər vaxtlarda onun diaqnozları düz çıxardı. O, bu işi möcüzə həddinədək çaldırmışdı. Bu hikmətli cənab, İsmayıl mirzənin hakimiyyəti zamanında onun xidmətində böyük hörmət və dərəcə əldə etmiş, izzətli sarayın müqərrəbləri və məhrəmləri sırasına daxil olmuşdu. Hökmdarın yanındakı hörməti və dərəcəsinə görə digər həmkarlarından və tay-tuşlarından üstün idi. İsgəndər şanlı nəvvab zamanında Əmir xan Mosullu Türkman Təbriz hakimi və Azərbaycan əmirülümərası olarkən bu hikmətli cənab, xanın mülazimləri silkinə daxil olaraq, onun xidmətində böyük hörmət qazandı.

[830] S-297, v.110a.

Əmir xanın [qiyam] hadisəsindən sonra onun tərəfdarı olması səbəbindən Nəvvabi-Cahanbani onun halına iltifat göstərmədi. Amma Allahın kölgəsi olan əlahəzrət şah zamanında böyük tərəqqi edərək, yenidən mübarək sarayın məhrəmlərindən birinə çevrildi. Axırda «bir nöqtə artırmaqla məhrəm (yaxın adam) mücrim (günahkar) oldu»[831] misrasındakı mənaya uyğun olaraq, giriftar olub, cana nuş olmayan ölüm şərbəti ilə doldurulmuş həyat peymanəsini son damlasınadək başına çəkib, ölüm yatağı üzərinə uzandı.

***Həkim Yarəli Tehrani*** - Həkim Xeyri [adı] ilə məşhurdur. Savadlı, məlumatlı bir şəxs olub, fəzilət və kamal sahiblərindən idi və çox xoşsöhbət, şən təbiətli və zarafatsevər idi. Cənnətməkan şahın sözügedən şəxsə böyük rəğbəti və iltifatı vardı. Qəriblərin və ac-yalavacların müalicəsi xidmətinin həyata keçirilməsi, xeyriyyə şərbətxanasının («şərbətxaneyi-xeyri») işlərinin idarə olunması o cənaba tapşırılmışdı. Buna görə də o, Həkim Xeyri [adı] ilə məşhur olmuşdu. Onun iki nəfər qabiliyyətli oğlu vardı: Həkim Nurəddin Əli və Həkim Şərəf. [Onların] hər ikisi atalarının tərbiyəsi ilə əhatə olunmuşdular və həmin işdə ona kömək edirdilər. Səxavətli və qonaqpərvər bir kişi idi. Həyatının axırlarında o və iki oğlu öz əkinçilik təsərrüfatlarının, imarətlərinin və halal məhsullarının hesabına yol üstündə dərvişlər süfrəsi açıb, əzizlərə və gəlib-gedənlərə xidmət göstərməklə məşğul idilər.

***Mir Ruhulla Qazı-Cahani*** - Qəzvinin yüksək dərəcəli Seyfi-Hüseyni seyidlərindəndir. Onun atasının və babasının bəyənilmiş vəsflərinin şöhrəti o qədər çoxdur ki, onların bəyan edilməsinə ehtiyac yoxdur. Onun əhvalı üzərində cəlal və əzəmət nişanələri zahir olub görünürdü, yetərincə ixlaslı və gözəl rəftarlı olması səbəbindən böyüklər və əyanlar arasında təriflənirdi və fəzilət və bilik zinəti, qabiliyyət və istedad bolluğu ilə bəzənib-düzənmişdi. Tədavüldə olan elmləri mənimsədikdən sonra tibb elmindən zövq alaraq, bu şərəfli fəndə tamam məharət sahibinə çevrilmişdi. Xəstəliklərin müalicəsi üə az məşğul olmasına baxmayaraq, əməliyyatlardakı və xəstəliklərin müalicəsindəki nailiyyətləri görkəmli təbiblərin xoşuna gəlmişdi. Əksər təbibzadələr onun hüzurunda tibb elminə dair mübahisələr edib, onun şagirdi olmaqla iftixar edərdilər. Şikəstə-nəstəliq[832] xətti ilə çox gözəl yazırdı. İsgəndər şanlı nəvvab zamanında Qəzvində naxoşluğa düçar oldu, qəzavü-qədər təbibi əlini onun müalicəsindən çəkdi və o, öz cavanlıq dövründə əbədiyyət aləminin sakininə çevrildi.

---

[831] Ərəb əlifbasında «hey» hərfinə bir nöqtə artırıldıqda «cim» hərfi alınır. Bu yolla əgər «məhrəm» sözündəki «hey» hərfi bir nöqtə artırılmaqla «cim» olarsa, onda həmin söz «mücrim» (yəni günahkar) kimi oxunacaqdır.

[832] Nəstəliq - ərəb əlifbası ilə yazılan bədii xətt növü. XIV əsrin II yarısında Azərbaycan xəttatı Mir Əli Təbrizi tərəfindən nəsx və təliq xətlərinin əlaqələndirilməsi nəticəsində yaradılmışdır. Şikəstə - ərəb əlifbasında sürətlə yazmaq üçün əlverişli olan və mətndə az yer tutan stenoqrafik bədii xətt növü. Şikəstə xətti XVII əsrin II yarısında nəstəliq xətti əsasında yaradılmışdır. Bu yazı xəttat Şəfiə tərəfindən hazırlanmış və taliqanlı Əbdülməcid adlı bir dərviş tərəfindən təkmilləşdirilmişdir (M.M.Adilov. Azərbaycan paleoqrafiyası, s.112,114)

Dövlətin əyalətlərində digər bacarıqlı həkimlər də vardı. Məsələn: Həkim Nurəddin Əli Yəzdi, Mir Əbülqasim Şirazi, Həkim Əla Təbrizi və Ətibba İsfahani. Lakin burada məqsəd cənnətməkan şahın xidmətində olan və ulu orduda əziz tutulan şəxslərin sadalanmasından ibarət olduğu üçün qələmin dili onların hamısının vəsf olunmasından çəkilir və digər istedadlıların haqqında məlumat verməyə başlanılır.

## O DÖVRDƏ ZƏMANƏNİN MİSİLSİZLƏRİ OLAN XOŞNEVİSLƏR (XƏTTATLAR) HAQQINDA

O dövrdə digər ustadların xətləri üzərinə ləğv qələmi çəkmiş xoşnevislər zümrəsindən olan bir sıra nəstəliq yazanlar vardı ki, onlar artıq həmin zaman (Şah Təhmasibin vəfatı vaxtı) bu fani dünya ilə vidalaşmışdılar. Bu sıraya aid olan Mövlana Əbdi Nişapuri, Mövlana Şahmahmud Zərrinqələm, Mövlana Dost Herati, Ustad Behzadın[833] bacısı oğlu Mövlana Rüstəməli, Mənsur Hafiz Babaxan[834] Türbəti və Mövlana Malik Deyləmi Qəzvini dövranın öndəgedənlərindən və zəmanənin xoşnevislərindən idilər. Ona görə də burada [Şah Təhmasibin ölümü vaxtı] hələ həyatda olanlardan bəhs olunacaqdır.

Herat əhlinin və ümumiyyətlə, Xorasan və İraq camaatının inamına görə, [xəttatların] birincisi ***Mövlana Mahmud İshaq Siyavuşani,*** ikincisi isə Mir Seyid Əhməd *Şəmriz-i*[835] Məşhədidir. Onların hər ikisi Mövlana Mirəlinin[836] birbaşa şagirdləridirlər. O dövrdə heç kim nəstəliq xəttini həmin bu Mövlana Mahmud qədər incəlik və mütənasibliklə yaza bilmirdi. Herat əhli onun xəttini Mir Seyid Əhmədin xəttindən yaxşı hesab edirdi. Onların bu inamı ona əsaslanır ki, cənab Mövlana (Mirəli) ona icazə vermişdi ki, öz yazılarını Mövlananın adından yazsın. Lakin məşhədlilər bu dəlili qəbul etmirlər və Mövlana Mirəlinin şeirindən olan bu bir neçə beyti öz iddialarının [doğruluğunun] sübutu kimi göstərirlər[837]:

---

[833] Kəmaləddin Behzad (təqr. 1450-1535/36) - məşhur miniatürçü rəssam. Heratda doğulmuş, Herat miniatürçüsü Mirək Nəqqaşın və azərbaycanlı rəssam Pir Seyid Əhməd Təbrizinin şagirdi olmuş, uzun müddət Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın sarayında çalışmış, daha sonra Təbrizə köçərək, Səfəvi sarayında xidmət etmişdir. 1522-ci ildə Şah İsmayılın fərmanı ilə saray kitabxanasının müdiri təyin olunmuşdur. Təbrizdə vəfat etmişdir.

[834] Digər versiyaya görə, Babacan (Кази-Ахмед. Трактат о каллиграфах и художниках. Перевод Б.Н.Заходера. Москва, 1947, с.153)

[835] S-129,v.144b.

[836] Mövlana Mirəli - görkəmli İran xəttatıdır. Əslən Heratdandır və Hüseyni seyidlərindəndir. Nəstəliq xəttinin ustadı olmuş, bir müddət Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın saray kitabxanasında çalışmış və «katibüs-sultani» («sultanın katibi») ləqəbi ilə tanınmışdı. 935/1529-cu ildən etibarən Buxarada yaşamış və 951/1543-44-cü ildə orada vəfat etmişdir. Xəttatlıq haqqında «Midadül-xütut» («Xətlərin qələmi») adlı əsərin müəllifidir (О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах времени Шах Тахмаспа // Краткие Сообщения Института Народов Азии, № 39, Москва, 1963, с.26).

[837] S-129, v.144b; S-297, v.110b.

**Şeir**

«Xoca Mahmud gərçi az müddət
Oldu şagirdi bıı fəqir-i həqirin.
Onun barəsində bir təqsirə yol verilmədi,
Gərçi o da heç bir təqsir etmədi.
Onun özü yaxşı və pis hər nə yazırsa,
Hamısını bu fəqirin adına eləyir».

Deyirlər, Xoca Mahmud bu qitəni eşidib söylədi:

- Mövlana burada «yaxşı və pis» deməklə səhvə yol verib. [Çünki] mən yalnız pis[838] yazdıqlarımı onun adına edirəm.

Əgər bu, həqiqətən, baş veribsə, məzə və zarafat surətinə malik olmasına baxmayaraq, hər halda, son dərəcə ədəbsizcəsinədir.

Məşhəd əhli isə ***Mir Seyid Əhmədi*** üstün tutur. Həqiqətən də, cənab Mir (Seyid Əhməd) xoşnevislər arasında taysız-bərabərsiz və qitənevislər[839] arasında misilsiz idi. O, təkcə Xorasanda və İraqda deyil, bütün üfüqlərdə böyük şöhrətə malik idi və xəttatlar onun xəttinin yüksək səviyyəli olmasını etiraf edirdilər. Həqiqətən də, o, bu işdə seçilirdi və tay-tuşlarından üstün idi. Onun xətti çox şöhrətlidir və onun xətti ilə yazılmış qitələri aləmin tərəflərinə və səmtlərinə, xüsusilə də Hindistana, Mavəraünnəhrə və Ruma[840] aparırlar. Bir çoxları ona şagirdlik edərək, ondan feyzyab olmuşlar. Amma axırda tərzini dəyişib yeniliklər etmiş, bu isə səriştə sahiblərinin xoşuna gəlməmişdi.

Nəstəliq yazanlardan digər birisi ***Mövlana Məhəmməd Hüseyn Təbrizidir.*** O, Mövlana İnayətullanın oğludur və haqqında üləma zümrəsi daxilində bəyan qələmi ilə yazılmış Mövlana Məhəmməd Əlinin qardaşıdır. Baxmayaraq ki, İraq və Azərbaycan əhlindən olan nəstəliq yazanların tərəfindən qələmə alınmış nəstəliq xətti Xorasan xoşnevislərinin nəzərində bir o qədər də nüfuza malik deyildir və bu üslub Xorasan əhlinə mənsubdur, amma sözügedən şəxs nəstəliqin məşqində böyük tərəqqi edib çox məzmunlu qələmə malik olmuşdu və onun qələmindən məşq səhifəsi üzərinə tökülmüş hər şey eyibsiz idi və düzəliş edilmək zərurətinin bulaşığına bulaşmamışdı. Bundan əlavə, elə böyük bir tərəqqi etmişdi ki, əgər imkan tapsaydı, keçmiş ustadların xətti üzərinə ləğv etmək qələmini çəkərdi. Lakin cavanlıq aləmində ikən onun həyat qələmi qəzavü-qədərin bəlası ucbatından qırıldı və onun ömür səhifəsi zövq sətirləri ilə doldurulmamış qaldı. İndi əgər onun bir

---

[838] S-297, v.110b.

[839] Qitənevis - xəttatlıqda və nəqqaşlıqda bir ayrıca vərəqin üzərinə yazılmış nümunələr «qitə», bu cür sənət örnəkləri yaradanlar isə «qitənevis» adlanırdılar.

[840] S-129, v.144b; S-297, v.111a.

məşq səhifəsi kimdə olarsa, onu əlbəəl gəzdirərlər və tələbələr onu bir-birlərinin əlindən qaparlar.

***Mir Müizzi Kaşi*** - o zamanlar xoşnevislik iddiası edirdi və yaxşı yazırdı. Kitab köçürməklə deyil, ayrı-ayrı qitələr yazmaqla məşğul idi. Lakin Kaşan və İraq əhlinin ona göstərdikləri böyük etimad əslində gerçəklikdən uzaq idi. O, yuxarıda adları qeyd olunmuş Xorasan xoşnevislərinə tay ola bilməzdi.

***Mövlana Babaşah İsfahani*** - İraqın nəstəliq yazanlarından idi. Kitab köçürmək üzrə üfüqlərdə məşhur idi. Həqiqətən, İraqda onun kimi bir katib (kitab köçürən) yetişməmişdi və o zaman heç Xorasanda da beləsi yox idi. O, vaxtını kitab köçürməyə sərf edər və bununla da özünə pul qazanardı. Böyüklər və əyanlar onun xəttini sevirdilər və ona qayğı göstərirdilər. Onun köçürdüyü kitablar İraq camaatı arasında geniş yayılmışdı. Amma hal-hazırda az-az ələ düşür. Əksəriyyətini ətraf və kənar ölkələrə aparıb, orada baha qiymətə satmışlar.

Mir Sədrəddin Məhəmməd - ***Mirzə Şərəf ibn Qazı Cahanın***[841] oğludur. Nəstəliqlə yazardı. Zəmanənin xoşnevislərindən idi. Qəzvinin Seyfi Hüseyni seyidlərindəndir. O və qardaşı Mir Ruhulla hər ikisi böyük seyidlərdən və dövrün istedadlılarından idilər. Onların babasının və atasının şöhrəti o qədər çox, qabiliyyətləri istedadları, fəzilətləri, maddi və mənəvi kamillikləri o qədər boldur ki. onları vəsf etməyə ehtiyac yoxdur. Mirzə Şərəfin xüsusi bir tərzdə bəlağət sapına düzdüyü və məlahətinin çoxluğuna görə o dövrün söz ustadları arasında əks-səda yaratmış aşiqanə qəzəlləri bu iddiaya ədalətli bir şahiddirlər. Onun şərəfli övladları, «azad oğul atasının yolu ilə gedər» [kəlamına] uyğun olaraq, tədavüldə olan elmlərin mənimsənilməsində tay-tuşları üzərində üstünlük qazanmış, hər ikisi gözəl əxlaq bolluğu ilə parlamış və fəzilət və bilik zinəti ilə bəzənmişdilər. Münasib bu olardı ki, Mirin və qardaşının şərəfli adı böyük seyidlərin və ehtiramlı böyüklərin zümrəsi daxilində yazılaydı. Lakin onların hər ikisi öz zəmanələrində istedadlı və hacarıqlı şəxslər olduqlarından cənab Mirin adı xəttatlar sırasında, onun qardaşının adı isə[842] təbiblər silki daxilində bəyan qələmi ilə yazıldı. Bir sözlə, cənab Mir yaxşı bir nəstəliq ustası və İraqın özünü təsdiq etmiş xoşnevislərindən olan Mövlana Malik Deyləmi Qəzvininin şagirdi idi və xətt təlimini ondan öyrənmişdi. Yazı zamanı Cənab Mir çəpəki çərtilmiş qələmlə işləyərdi. Cavanlıq əyyamında o, çox incəliklə və zövqlə yazardı. Amma axırda gözlərinin zəifləməsi üzündən məşqi tərk edib, əvvəllər yazdıqları ilə kifayətlənməli oldu. O, nəstəliq üslubunda Mövlana Sultanəlinin[843] xəttini təqlid etmək və onu dəqiqliklə qələmə almaq baxımından [digərlərindən] üstün idi. O,

---

[841] S-129, v.l45a; S-297, v.111a. Tehran çapında (s.171) Şərəf əvəzinə Əşrəf yazılıb.

[842] S-129, v. 145a-b; S-297, v. 111 b.

[843] Mövlana Sultanəli (tam adı: Mövlana Nizaməddin Sultanəli ibn Məhəmməd) - əslən İranın Məşhəd şəhərindən olan görkəmli xəttatdır. 1435/36 - 1520-ci illərdə yaşamışdır. 1460/61 -ci ildən etibarən Teymurilərin süqutuna kimi Herat sarayında çalışmış və xəttatlıqdakı məharətinə görə «qiblətül küttab» («katiblərin qibləsi») ləqəbini almışdı (О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах, с.28).

Mövlana Sultanəlinin xəttini Mövlana Mirəlinin xəttindən daha üstün tuturdu və onun təqlidində digərlərindən irəli getmişdi.

Bu məqamda zəmanənin həmin iki nadir şəxsiyyətinin xətlərinin gözəlliyi barədə bir şərhi qələmə almaq yerinə düşür. Deyirlər ki Mövlana Mirəli bu fəndə böyük tərəqqi edib, çox məşhurlaşmışdı. O, Mövlana Sultanəlinin ondan üstün olmadığını dəfələrlə iddia etsə də, səriştə sahibləri Mövlana Sultanəlinin tərəfini tutmuşlar. Bir gün cənab Mir[əli] Mövlana [Sultanəlinin] yanına gəlməzdən öncə onun üç nadir və xoşagəlimli qitəsini götürmüş və hər üçünün üzünü köçürüb, onları bir-birinin arasına qoyaraq, Mövlana [Sultanəlinin] yanına gəlmişdi. Belə olan halda, Sultanəli öz xəttini müəyyənləşdirməkdə çətinlik çəkmiş və çox düşündükdən sonra Mir[əlinin] onun səviyyəsində olduğunu qəbul etmişdi.

Sözün qısası, cənab Mir (Sədrəddin Məhəmməd) çeşidli qabiliyyət və istedadlarla zinətlənmişdi. O, illərlə tarix kitablarını mütaliə etmiş, köhnə və yeni şairlərin şeirlərini oxuyub öyrənmiş və elə bir təzkirə[844] yazmışdı ki, sabiq zamanlarda beləsi az-az tərtib olunmuşdu. Dünyanın [insanla] məskunlaşmış dörddə bir hissəsində kimdən bir ahəngdar misra meydana gəlmişdisə, Cənab Mir onun əhvalatını öyrənib, öz təzkirəsinə daxil etmişdi. Şairlərin əksəriyyəti haqqında orada yazmışdı[845]. Lakin o, həyatının vaxtlarını bu işə sərf etsə də, onu istədiyi kimi tamamlaya bilmədi. Musiqi və ədvar (musiqi kompozisiyası) elmində böyük səy göstərib, [bu sahədə] dövranın öndəgedəninə çevrilmişdi. Qövl (süita) və əməl (nəğmə) təsnif etməkdə mahir idi. Onun zərif təranələri xoştəbiətlilərin məclislərini bəzəyirlər və zəmanə nəğməkarlarının dillərindən düşmürlər. O, İsgəndər şanlı nəvvab zamanında xoşbəxt şahzadə Sultan Həmzə mirzənin məclis iştirakçılarından və yaxın adamlarından idi. Allahın kölgəsi olan əlahəzrət şahın səadət nişanəli zamanında o, əvvəlkindən daha artıq dərəcədə iltifatlı nəzərə tuş gəlib, həmişə [şahın] müqəddəs üzəngisinin həndəvərində oldu və Xorasan yürüşlərinin birində axirət səfərinin ahəngini sazlayaraq, əbədiyyət aləminə yollandı.

***Mirzə Şahhüseyn İsfahaninin oğla[846] Mirzə İbrahim İsfahani*** – o da qabiliyyətli, istedadlı, yaxşı xəttə malik olan bir vəzirzadə idi. Cənab Mirzə də cənab Mir (Sədrəddin Məhəmməd) kimi çəpəki çərtilmiş qələmlə yazırdı. Amma onun xətti Mir [Sədrəddin Məhəmmədin] xətti səviyyəsində deyildi. Səxavətli təbiətə malik, çalışqan, qələndər üslublu və dərviş xasiyyətli bir adam idi. Əlinə düşən hər nə vardısa, onu səmimiyyət süfrəsi üzərinə qoyurdu və onun daim hay-

---

[844] Təzkirələr orta əsrlərdən etibarən İslam Şərqində geniş yayılmış bio-biblioqrafik mənbələrdir. Elm, mədəniyyət və sənət sahələrində məşhur olmuş şəxsləri (məsələn, övliyaları, musiqiçiləri, xəttatları, şairləri və s.) əhatə edən və ya hansısa bir tanınmış şəxsiyyətin tərcümeyi-halını ehtiva edən təzkirələr mövcuddur. Təzkirələrin ən məşhur növü şairlərdən bəhs edən şüəra təzkirələridir. Bu əsərlərdə şairlərin həyat yolunun əsas cəhətləri və onların yaradıcılıqlarından nümunələr əksini tapırdı (daha ətraflı bax: V.A.Musalı. XV-XVII əsr türk təzkirəçiliyi. Bakı, 2007).

[845] S-129, v. 145b; S-297, v. 111 b.

[846] S-129, v.l45b; S-297, v.111b.

küylü olan evi heç vaxt ziyalıların və şairlərin gediş-gəlişindən, camaatın izdihamından xali olmazdı. Bəzən böyük adamlar kimi nemət bolluğu içərisində yaşayar, bəzən isə həftənin günlərini arpa çörəyi yeməklə kifayətlənər və təvəkkül qapısı ağzında oturub, mənsəb əhlindən və əyanlardan bir qədər qayğıkeşlik əldə edərdi. Amma çox şux təbli və ünsiyyətcil bir kişi idi. Cənab Mirzənin hüzurunda həm aşağı mənşəli, həm də yüksək mənşəli şəxslər barəsində zarafat olunar, onların xəbisliyi və qeybətcilliyi lağa qoyulardı. Bundan əlavə, o, şeirlərin fəhm edilməsində və fars sözlərinin dəqiq mənasının dərk olunmasında öz misilisizliyini iddia edirdi. Onun fars lüğəti barədə risaləsi indi İraqda yayılmışdır[847].

Hər bir təbəqədən olan adamlar arasında digər nəstəliq yazanlar da vardı. Məsələn, Şatır Məhəmmədin oğlu, Şatir Əlinin isə nəvəsi olan ***İsa bəy*** rənglə yazmaqda[848] misilsiz və əvəzsiz idi. ***Pirbudaq bəy Qaplan oğlu Şamlu*** nəstəliqdə tərəqqi etmişdi və türklər arasında [bu sahə üzrə] üstün şəxs idi. Benlü Vəli Ərəbgirlünün oğulları da nəstəliq yazan idilər. Əgər ənbər ətri saçaraq yazan qələm bu camaatın mislindən olan hər bir adamı vəsf etməyə başlayarsa, onda uzunçuluq olar.

Təliq yazanlar zümrəsi arasında o dövrdə tayı-bərabəri olmayan xoşnevis ***Xoca Əlaəddin Mənsur Münşidir.*** O, hökmdarın məclisinin münşilərindən idi və onun adı artıq münşilər silki daxilində qeyd olunmuşdur. Xoşnevislər sırasına aid olduğu üçün onun haqqında təkrar bəhs etməkdən çəkinilməyərək, burada yenidən qeyd olundu. O, Kərəhrud[849] ölkəsinin kələntərzadələrindəndir. O, Mövlana Dərvişin[850] xəttini yaxşı təqlid edirdi və o dövrdə özünü təsdiq etmiş bir ustad idi. Həmçinin bu [təliq] xəttinin yaxşı yazanlarından olduqlarını iddia edən digər şəxslər də onun xəttinin kamillik mərtəbəsində olduğunu etiraf edirlər. Amma çox kobud yazır və dairələri çox böyük çəkir. Əslində kitab, fərman və nişan yazarkən bu üsul daha xoşagəlimlidir. Çünki ***Sultan Yaqub*** Türkmanın münşisi olan və təliq xətti ilə yazmaqda misli olmayan Mövlana Əbdülbəy[851] də [mətndəki hərfləri]

---

[847] Mirzə İbrahim İsfahaninin h. 980-cı (m. 1572/73) ildə tərtib etdiyi «Nüsxe-yi Mirzə» və ya «Risale-yi Mirzə» adlı fars dilinin izahlı lüğəti nəzərdə tutulur (О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах, с.30).

[848] S-129, v.146a.

[849] Kərəhrud- İranın Qum və Ərak şəhərləri arasında yerləşən yaşayış məntəqəsi.

[850] Mövlana Dərviş Abdulla - əslən Bəlxdən olan xəttat və münşidir. XV əsrin məşhur xəttatı Mövlana Əbdülbəyin tələbəsi olmuş, Teymuri hökmdarlarından Sultan Əbu-Səidin və Sultan Hüseyn Bayqaranın hakimiyyəti zamanında Herat sarayında yaşayıb-yaratmışdır (О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах, с.30).

[851] Mövlana Əbdülbəy - XV əsrdə yaşamış münşi və xəttatdır. O, əvvəlcə Teymuri hökmdarı Sultan Əbu-Səidin Heratdakı sarayında çalışmış, sonralar isə Azərbaycana gələrək, Ağqoyunlu Sultan Yaqubun münşisi olmuşdur. H. 907-ci (m. 1501-1502) ildə Təbrizdə vafat etmişdir (О.Ф.Акимушкин. Искандер Мунши о каллиграфах, с.30).

qeyri-bərabər ölçüdə yazardı və dairələri iri və böyük şəkildə əks etdirərdi[852]. Xoca (Əlaəddin Mənsur) şikəstə-nəstəliq [xətti] ilə də yaxşı yazırdı.

***Mirzə Ətaullanın oğlu Mirzə Əhməd*** də təliq xətti ilə yaxşı yazanlardandır. O, əvvəllər Xoca Əlaəddin Münşinin şagirdi olaraq dairəvi[853] yazsa da, axırda böyük tərəqqi etmiş və Mövlana Dərvişin küt qələmlə yazdığı şikəstə üslubunu çox yaxşı mənimsəmişdi. Onun xəttinin dairələri, Xoca Əlaəddin Mənsurun xəttinin əksinə olaraq, dairəvi deyildir, həmçinin çox da sulu deyildir. O, cənnətməkan [şahın] zamanının mötəbər vəzirzadələrindən idi. Onun atası Azərbaycanın və Şirvanın vəziri olub, cənnətməkan şahın qayğısı ilə əhatə edildiyi və [şah tərəfindən] ona göstərilən hüsn-rəğbət səbəbindən taciklərin həsəd hədəfinə çevrildiyi zaman o, (yəni Mirzə Əhməd) ulu orduda məclis iştirakçısı idi və xidmət əhlindən idi. Cənnətməkan şahın mürəkkəbqabısının və qələm dəvatının saxlanması, qələminin yonulması kimi işlər onun öhdəsində idi. Axırda rəqibləri [ona qarşı] qeybət və qarayaxma [kampaniyasına] başlayıb, onu [hökmdarın] feyz bəxş edən nəzərindən saldılar. O, bir müddət pərişan bir halda düşüb qaldı. Amma haçan ki Ruma məktub yazardılar, onu da hazır edərdilər və o da məktubun inşasında iştirak edərdi. Cənnətməkan şahın xəstələnməsindən sonra o, Şüştərin və Xuzistanın vəziri oldu. İsgəndər şanlı nəvvab zamanında o, Mürşüdqulu xanın vəziri təyin olunaraq, Xorasana getdi. Çox özündənrazı, lovğa və dikbaş adam olduğundan Xorasandakı qarışıqlıqların təkanvericisinə çevrildi və Türbət qalasında öz qardaşı oğlu tərəfindən öldürüldü.

***Mirzə Məhəmməd Hüseyn*** - Mirzə Şükrullanın oğludur. Atası cənnətməkan şahın mustovfi əl-məmaliki idi və onun adı vəzirlərin adları cərgəsində yazılmışdır. Əvəzsiz təliq yazan və misilsiz və taysız-bərabərsiz bir xoşnevis idi. Mirzə Əhməddən sonra o, tərəqqi edib, təliq xəttini kamillik həddinə çatdırdı. O da Mövlana Dərvişin üslubunu mənimsəmişdi. Amma bu əsərin müəllifinin (İsgəndər bəy Münşinin) etiqadınca, onların hər ikisi öz xətlərinin dirəklərini Mövlana Dərvişin qələminin təməli üzərində ucaltsalar da, onların hər ikisi özünəməxsus tərzə sahibdirlər və onların hər birinin heç də Mövlana Dərvişin xəttindən səviyyəcə aşağı olmayan əlahiddə xətt tərzi vardır. Mirzə Məhəmməd Hüseyn Şirazinin xətt tərzi Mirzə Əhmədin xəttindən daha suludur. O, əlahəzrət (Şah Abbas) zamanında Hind tərəfə gedib, Hindistan hökmdarının xidmətkarları və münşiləri silkinə daxil oldu və elə orada tünd qara rəngli ölüm xəttini öz yaşayış səhifəsi üzərinə yazdı.

***Mirzə Hüseyn Münşi*** - Həsən bəyin vəziri olmuş Xoca İnnayətullanın oğludur[854]. Təliqlə yaxşı yazırdı və Xoca Əlaəddin Mənsurun şagirdi idi. O,

---

[852] S-129, v.146a; S-297, v.112a. Ərəb əlifbasında müəyyən hərflər var ki, onların aşağı hissəsi dairəvaridir və həmin dairələr mətnin aşağı hissəsinə düşür. «Cim», «hey», «xey», «sin», «şin», «sad», «lam» və s. bu cür hərflərdəndir.

[853] S-297, v.112a.

[854] S-129, v.146b; S-297, v.112b.

hökmdarın darülinşasının mühərrirləri silkinə daxil idi. Ustadının üslubuna uyğun olaraq, dairəvi yazırdı. Kitab köçürməkdə çox sürətli idi və şikəstə-nəstəliqlə də çox gözəl yazırdı. Mövlana Məhəmməd Əmin Münşi Qəzvini və s. kimi digər xoşnevislər də vardı.

Süls[855] xətti ilə yazanlar təbəqəsindən isə [öz] dövrünün ustadı və [öz] zəmanəsinin yeganəsi ***Mövlana Əlabəy Təbvizi*** idi. Onun xəttinin gövhəri [digər] xətlərin incilər xəzinəsi arasında yaqut kimi parlayır. [Baxmayaraq ki] o, Abdulla Seyrafi[856] üslubunda yazırdı, lakin o, onun yazılarının və digər yaxşı ustadların yazılarının üstündən ləğv xətti çəkmişdi. Bu, təkcə Təbriz biliciləri üçün deyil, [bütün] səriştəli kişilər üçün aydın olan bir həqiqətdir. Onun şagirdlərindən Mövlana Əli Rza Təbrizi, Mahmud bəy Salimin oğlu Həsən bəy və kitabə yazan («kitabənevis») Mövlana Əbdülbaqi tərəqqi etmişlər. Mövlana Əli Rza Allahın kölgəsi olan əlahəzrət şahın zamanında nəstəliq xəttinə meyil salaraq, qısa müddət ərzində çox tərəqqi etdi və həmin sənətdə böyük bir məşhurluq qazandı. Həqiqətən, o, [öz] zəmanəsinin vahidi idi. Mövlana Yusif Kitabdar da xoşnevis idi.

Təbrizdə, Şirazda, Xorasanda və İraqda bəzi digər [xəttatlar] da vardı ki[857], əgər şikəstə yazan qələm onların hamısının haqqında yazmağa başlayarsa, bu qissə uzun çəkəcəkdir. Buna görə də bu təbəqənin yalnız məşhurlarının və onlardan padşahın qulluğunda duranların adları burada qeyd olundu və qələmin bəyan dili digərlərinin təsvirindən uzaq tutuldu.

## DÖVRANIN MƏHARƏTLİLƏRİ OLAN, GÖZƏL RƏSMLƏR ÇƏKƏN VƏ O VAXTLAR ZƏMANƏNİN VƏRƏQLƏRİNİ ÖZ MÖVCUDLUQLARI İLƏ BƏZƏYƏN VƏ ZİNƏTLƏNDİRƏN NƏQQAŞLAR HAQQINDA

### Şeir

«Hansı nəqqaşda ki, Behzad əli var,
Sözlərdən naxışlar düzəldib yazar».

[855] Süls - X əsrdə ərəb xəttatı Əbu Əli Məhəmməd ibn Müğlə tərəfindən yaradılmış bədii xətt növü (ASE, c. IX, s.101). Bu xəttin inkişafında azərbaycanlı xəttatlar Mübarəkşah Təbrizinin və Abdulla Seyrafinin əvəzsiz xidmətləri olmuşdur. Seyrafinin «Qəvaid-i xətt-i süls» («Süls xəttinin qaydaları») adlı əsəri dövrümüzədək gəlib çatmışdır (M.M.Adilov. Azərbaycan paleoqrafiyası, s.115).

[856] Abdulla Seyrafi - XIV əsr Azərbaycan xəttatıdır. O, Xoca Mahmud Sərrafın oğludur. Əslən Təbrizdəndir. Seyid Heydər Qondənevisin şagirdi və Hülaku hökmdarı Elxan Əbu-Səidin (1316-1335) müasiri olmuşdur. Məşhur xəttat kimi şöhrət qazanmış, müsənna adlı bədii xətt növünü yaratmış, Təbrizin bir sıra məşhur abidələri onun xətti ilə bəzədilmişdir. 1341-ci ildə vəfat etmişdir (M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.301-303).

[857] S-129, v.147a; S-297, v.112b.

Cəmşid məqamlı cənnətməkan şah həzrətlərinin özü şəxsən nadir işləri olan bir nəqqaş və möcüzəli rəsmlər çəkən incə qələmli bir müsəvvir[858] idi. O həzrətin şərəfli ismini o dövrün sənətkarları arasında çəkmək bir növ arsızlıq olsa da, onun xeyir məfhumlu əhvalatının bu gözəl nəqşlə daha da bəzənəcəyini nəzərə alaraq, onun haqqında burada yazmağa cürət etdik. O həzrət məşhur müsəvvir Ustad Sultan Məhəmmədin[859] şagirdi olmuş, qələminin rəsmxəttini və incəliyini kamillik mərtəbəsinə çatdırmışdır. Cavanlığının başlanğıcında onun bu işə çox zövqü və şövqü vardı. Bu şərəfli sənətin tağı [zirvəsi] olan və qələmlərinin incəliyi üfüqlərdə şöhrət tapmış Ustad Behzad və Ustad Sultan Məhəmməd kimi bu fənnin misilsiz sənətkarları saray kitabxanasında işləyirdilər. İsfahanın böyük seyidlərindən olan nəqqaş Ağa Mirək İsfahani təkbaşına [şahla] xüsusi həmdəm olmaq və onun məclisində isinişmək hüququ almışdı. O həzrətin (Şah Təhmasibin) bu təbəqəyə böyük ülfəti vardı. O, ölkə idarəçiliyi məşğuliyyətlərindən və məmləkət məsələlərinin həllindən rahatlıq tapdıqca nəqqaşlıq üzrə məşq etməyə girişərdi. Axırda elə oldu ki, işinin çoxluğu ucbatından bu peşə ilə [məşğul olmaq] fürsəti tapmadı, həmçinin yuxarıda adları çəkilən ustadlar da həyat lövhəsindən öz varlıqlarının surətini kənarlaşdırdılar (vəfat etdilər). Ona görə də o həzrət bu işlə az məşğul olmağa başladı. Hələ həyatda qalmaqda olan bəzi kitabxana işçilərini isə xidmətdən azad etdi ki, gedib özləri üçün işləsinlər. [Şah Təhmasib] ömrünün axırlarında xassə qulamı olan, süls xətti ilə yaxşı yazan və o həzrətdən qayğıkeşlik görən Mövlana Yusifi kitabdar təyin edib, xasseyi-şərifənin mülkiyyətində olan kitabları ona həvalə etdi.

Cənnətməkan şahın vəfatından sonra həyat səhifəsini zinətləndirməkdə davam edən bu sənətin ustadları sırasından əvvəlincisi - dövrün nadiri və zəmanənin vahidi olan Mövlana Müzəffər Əlidir ki, özünün çox məharətli qələmi ilə insaf əhlini çöhrəsini şənləndirmişdir. O, Ustad Behzadla qohumluq əlaqəsinə malikdir və onun yanında sənət öyrənib, kamillik mərtəbəsinə tərəqqi etmişdir. Nadir işləri olan ustadlardan və gözəl rəsmlər çəkən görkəmli sənətkarlardan bir çoxları onu bu fəndə misilsiz hesab etmişlər. Yaxşı müsəvvir və əvəzsiz nəqqaş idi. Hökmdar sarayının və Çehelsütun eyvanının üzərindəki təsvirlər sözügedən şəxsin əl işləridirlər və zərli qələmlə işlənmiş təsvirlərin əksəri ona məxsusdur. Cənnətməkan şahın qüssə gətirən [vəfat] hadisəsindən sonra o da öz mövcudluq səhifəsinin üzərinə ölüm naxışı saldı.

***Mir Zeynalabidin*** - cənnətməkan şahın ustadı olmuşdur. Olduqca sağlam nəfsli, gözəl əxlaqlı bir kişi idi və dövranın pakizəsi idi. Özünü ağır aparırdı və

---

[858] Müsəvvir - rəssam.

[859] Sultan Məhəmməd - Azərbaycanın məşhur miniatürçü rəssamı və XVI əsr Təbriz miniatür məktəbinin ən görkəmli nümayəndəsi. Təxminən XV əsrin 70-ci illərinin sonlarında Təbrizdə anadan olmuşdur. Şah İsmayılın və Şah Təhmasibin dövründə sarayda çalışmış, Təhmasibə rəssamlıq sənətini öyrətmişdir. 1555-ci ildə Təbrizdə vəfat etmişdir (daha əlraflı bax: К.Керимов. Султан Мухаммед и его школа. Москва, 1970).

ədəb-ərkanı özünə şüar etmişdi. Həm sadə xalqın, həm də əsilzadələrin yanında əziz idi və yaxşı kompozisiya quran bir nəqqaş, misilsiz bir müsəvvir olub, insan çöhrəsi çəkməkdə pakizə bir sənətkar idi. Onun şagirdləri bir nəqqaşlıq karxanası açıb, iş görürdülər. Amma özü həmişə şahzadələr, əmirlər və əyanlar üçün iş görüb, onlar tərəfindən mükafatlandırılardı və böyüklərin çeşidli rəğbət və mərhəmətləri onun əhvalının səhifələri üzərində parlayardı. İsmayıl mirzə zamanında kitabxana yenidən işə salınarkən sözügedən şəxs də kitabxana işçilərindən oldu.

***Sadiqi bəy Əfşar*** - o, əfşar tayfasının türklərindən idi[860]. Özünəməxsus təbiətə malik olan rəngarəng bir şəxs idi. Sadiqi təxəllüsündən istifadə edirdi və cavanlığının başlanğıcından nəqqaşlıq üzrə məşq etməyin zövqünü tapıb, zəmanənin nadiri olan Ustad Müzəffər Əlinin yanında gecə-gündüz çalışmağı qərara aldı. [Həmin şəxs] onun əhvalı üzərində qabiliyyət və tərəqqi nişanələrini müşahidə edib, ona [nəqqaşlığı] öyrətməyə səy göstərdi. [Sadiqi bəy] onun şagirdi olaraq, kamillik mərtəbəsinə yüksəldi. Bir müddət nəfsinin qüruru və təbiətinin dikbaşlığı üzündən, nəqqaşlıq işində uğurlu gələcəyin olmadığını və zəmanənin öz arzularına uyğun tərzdə dövr etmədiyini düşünərək, o peşəni tərk etdi və zahirpərəstlik libasını soyunub, qələndərlər zümrəsi ilə birlikdə səyahət etdi və gəzib-dolaşdı. O vaxtlar Həmədan hakimi olan Əmir xan Mosullu onun halından xəbər tutub, onu qələndərlik libasından çıxararaq, öz mülazimi etdi və onunla insaniyyətçiliklə davrandı. O, öz türklüyünün təbiətindən və öz qızılbaşlığının ənənəsindən irəli gələn igidlik və şücaət iddiası edib, o zamanın şücaətlilərini utandırardı. İsgəndər şanlı nəvvab zamanında İsgəndər xan Əfşarın və onun qardaşı Bədr xanın[861] mülazimətində olmuş və Astarabaddakı yaka[862] türkmənlərinə qarşı döyüşdə dəlilik həddinə çatan igidliklər göstərmişdi. Amma heç vaxt nəqqaşlıq peşəsindən əl çəkməmişdi. Axırda böyük bir tərəqqi edərək, əvəzsiz bir rəssam, incə qələmli bir nəqqaş və misilsiz bir tərrah[863] olmuşdu. O, məharətli qələmi ilə minlərlə bədii rəsm yaratmış, qabiliyyət və istedad zinəti ilə bəzənmiş, şairlik və söz ustadlığı yaraşığı ilə süslənmişdi. Rəğbət doğuran qəsidələri, qəzəlləri və məsnəviləri vardır. Döyüş barədə bu məsnəvi beytini yaxşı demişdir:

---

860 S-129, v.147b; S-297, v.113b. «Sadiqi» təxəllüsünə malik Sadıq bəy Əfşar məşhur Azərbaycan rəssamı, şairi və alimidir. 1533-cü ildə Təbrizdə anadan olmuşdur. Rəssamlıq fəaliyyəti ilə yanaşı, dövrünün görkəmli şairlərindən bəhs edən türkcə «Məcməül-xəvas» təzkirəsini, rəssamlıq haqqında farsca «Qanunüs-süvər» mənzum risaləsini, «Risale-yi həzziyyat» əsərini, 1 Şah Abbasın qələbələri haqqında «Fəthname-yi Abbas-i namdar» poemasını, müxtəlif hekayələr, türkcə və farsca lirik şeirlər və s. yazmışdır. 1609-10-cu ildə vəfat etmişdir (daha ətraflı bax; M.Q.Muradova. Sadıq bəy Sadiqinin həyat və yaradıcılığı. Bakı, 1999).

861 S-129, v.148a; S-297, v.113b. Tehran çapında (s. 175) belədir; «Bədr xanın və İsgəndər xan Əfşarın...».

862 S-129, v.l48a.

863 Tərrah - yaxsı eskiz, layihə, rəsm çəkən şəxs.

**Şeir**

«Peykan (ox) çəyirtkələrinin uçuşmağından,
Həyat tarlasına səpildi bəla.
Həmin gün hərə bir zərbə aldı,
Kimisi qılıncla, kimisi yumruqla».

Lakin o, bu fənnin (nəqqaşlığın) sənətkarları zümrəsindən olduğu üçün onun adı şairlər silki daxilində qeyd olunmayacaq və onun haqqında yalnız burada məlumat verilməklə kifayətləniləcəkdir. O, İsmayıl mirzə zamanında kitabxana işçilərindən idi. Amma Allahın kölgəsi olan əlahəzrət şah[864] zamanında o, yüksək dərəcəli kitabdarlıq mənsəbinə təyin olunub, şəfqət və mehribanlıqla əhatə olundu. Amma olduqca bədxasiyyət, lovğa və kəmhövsələ idi. Qılıqsızlığı, kobudluğu və bədxasiyyətliliyi ucbatından heç vaxt nəfsani qərəzlərdən rahatlıq tapmazdı. Həmişə dostlarına və [digər] insan oğullarına münasibətdə təbiətinə uyğun davranaraq, pis rəftarda həddini aşardı və onlar ləyaqət bazarında rəva görülməyən bu cür kasad malı ondan satın alırdılar (onlar onun kobud rəftarına dözməli olurdular). O, ayağını dairədən və insafdan kənara qoyaraq, hamıya münasibətdə qaba xasiyyət nümayiş etdirmək baxımından ifrata varırdı. Məhz buna görə o, [şaha] yaxınlıqdan və yüksək mövqedən uzaqlaşdırıldı və yuxarıda qeyd olunmuş xidmətdən məhrum edildi. Amma həyatının axır günlərinədək onun mənsəbi əlindən alınmadı və o, ali divandan kitabdarlıq [vəzifəsinin] məvacibini almaqda davam etdi.

***Mövlana Hacı Əli Münşinin oğlu***[865] Mövlana Əbdülcabbar Astarabadi - təliq [xətti ilə] yazandır. Əvvəlcə nəqqaşlıq fənlərini öyrənmiş, o sahədə ali rütbəyə malik olmuşdur. Xəttatlıq üzrə də məşq etmiş və yaxşı kitab üzü köçürən [xəttat] kimi formalaşmışdı. Çox parlaq, xoşsöhbət, zarafatcıl və şirindil bir kişi idi. Böyüklər və əyanlar onunla söhbətləşməyə rəğbət göstərib, ona işləmək fürsəti vermirdilər. Bir müddət Gilana gedib, Gilan valisi Xan Əhmədin məclisinin mülazimləri və nədimləri sırasına daxil olmuşdu. Həmin mülkdə qarışıqlıq düşdükdən və Xan Əhməd həbs olunduqdan sonra o, darüssəltənə Qəzvinə gəlib, orada yaşamağa başladı. Bir nəqqaşlıq karxanası açsa da, ömrünün əksər vaxtlarını əmirlərin və əyanların məclisində iştirak etməyə sərf edərdi. Özünü işə az həsr edirdi. Onun oğlu Xoca Nəsir də atası kimi, bəlkə də, atasından [irsən] miras aldığı üçün [nəqqaşlıqda] istedad sahibi olmuşdu və şagirdlərlə işləyirdi. [Mövlana Əbdülcabbar] digərlərindən daha çox Sultan Heydər tərəfdarlarının sərkərdəsi olan Hüseyn bəy Yüzbaşı ilə əlaqə və münasibət saxlayırdı. Buna görə də İsmayıl mirzə zamanında o, kitabxana xidmətindən məhrum edildi və onun oğlu kitabxana işçiləri silkinə daxil olundu. İsgəndər şanlı nəvvab zamanında Xan Əhməd təzədən Gilan

---

[864] S-129, v.l48a; S-297, v.114a. Tehran çapında (s.175) səhvən «cənətməkan şah» yazılmışdır.
[865] S-129, v.148b; S-297, v.114a.

hakimi təyin olunduqda o, yenidən onun yanında çalışmaq qərarına gəlib, Gilana getdi və həmin vilayətdə axirət aləminə yollandı.

***Səyavuş bəy Gürcü - cənnətməkan şahın qulamı idi***[866]. O həzrət (Şah Təhmasib) onun hərəkətlərindən qabiliyyətli olduğunu müşahidə edib, ona nəqqaşlığı məsləhət gördü. O, Ustad Əli Müsəvvirin şagirdi oldu. Elə ki o, bu sənətdə məharət dərəcəsini əldə etdi, onun qələminin zərifliyi əşrəfin xoşuna gəldi və özü şəxsən öz nəfis vücudu ilə ona təlim keçməyə meyil göstərdi. O, həzrətin (Şah Təhmasibin) şagirdi olduğu üçün insan surətinin görünüşü barədə az təsvir çəkərək, öz qüdrət qələmini əşyaların təsviri sahəsində işlətdi və böyük tərəqqi etdi. Çox incə qələmli idi. Dəqiq işləyən və misli olmayan bir müsəvvir idi. Onun [bu sənətdə] qalxdığı zirvəni fəth etmək heç bir ustadın işi deyildi. Onun qurduğu kompozisiyalar eyibsiz idi. İsmayıl mirzə zamanında kitabxana işçilərindən oldu. İsgəndər şanlı nəvvab zamanında isə o və qardaşı Fərrux bəy cavanbəxt və səadətli şahzadə Sultan Həmzə mirzənin etibarlı adamları silkinə daxil oldular. Onlar əlahəzrət şah zamanında bir müddət əşrəfin qulluğunda oldular və o həzrətin müqəddəs üzəngisinin həndəvərində onların ömürlərinin cizgisi yox oldu.

***Mövlana Şeyx Məhəmməd Səbzəvari*** - zarafatcıl, şirin sözlü, görkəmli və xoşsöhbət bir kişi idi. O, boyakarlıq və insan surəti çəkmək sahəsində misilsizlikdən dəm vururdu. Həqiqətən, onun bu iddiası doğru idi və nəqş çəkən ustadların hamısı bu barədə onunla razı idilər. Nəstəliqlə çox yaxşı yazırdı və ustadların yazı parçalarının üzünü elə köçürürdü ki, onların hansının əsl, hansının köçürmə olduğunu müəyyənləşdirmək hətta səriştəli xəttatlar üçün də xeyli çətin olurdu. Əcəmdə firəng (avropalı) surətini ilk dəfə o çəkmiş və yaymışdı. Amma heç kəs ondan daha yaxşı rəng düzəldə və insan çöhrəsini təsvir edə bilmirdi. Səbzəvarda Sultan İbrahim mirzənin yanında xidmətə daxil olmaq qərarına gəlmiş, sonradan onunla birlikdə İraqa gəlmişdi. İsmayıl mirzə zamanında o, kitabxana işçilərindən oldu. Ondan sonra Allahın kölgəsi olan əlahəzrət şahın uğur nişanəli zamanının [irəlidə olduğunu] anlayaraq, Xorasana getdi və daha sonra o həzrətin xidmətində mübarək dövlətxananın yeni imarətində çalışıb, həmin astananın bəndəsi olaraq can verdi.

***Mövlana Əli Əsğər Kaşi*** - misilsiz ustad idi. Gözəl şəkillər çəkirdi. Cilalamaq və boyakarlıq sahəsində tək olub, dağ və ağac şəkilləri çəkməkdə taytuşlarından irəlidə idi. O da Sultan İbrahim mirzənin xidmətində olurdu. İsmayıl mirzə zamanında kitabxana işçilərindən oldu. Onun oğlu Ağa Rza təsvir və portret çəkməkdə böyük tərəqqi edib, zəmanənin nadir şəxsiyyətinə çevrilmişdi və hal-hazırda da örnək sayılır. O, ruhi dünyası baxımından incə bir qələmə malik olsa da, həmişə güləşmə idmanı ilə məşğul olub, bu hərəkətindən zövq alardı. İstedad sahiblərinin söhbətlərindən kənarda durub, idmançılar təbəqəsinə ülfət bəsləyərdi. Hal-hazırda bu əməldən əl çəkmişdir. Amma işləməyə az həvəs göstərərdi. O da

---

[866] S-129, v.148b; S-297, v.114a.

Sadiqi bəy kimi bədməzac, kəmhövsələ və soyuq ünsiyyətlidir. Lakin, həqiqətən də, təbiətində gözütoxluluq vardır. O, Allahın kölgəsi olan əlahəzrət şah zamanında hüsnrəğbət hədəfinə çevrildi və xeyli mükafat aldı. Amma dəymə-düşər hərəkətləri ucbatından etibar sahibi ola bilmədi. Həmişə müflisdir və halı pərişandır. Bu beyt onun düşdüyü vəziyyətə münasib gəlir:

**Beyt**

«Mənim talibələrimin hamısı cahan şahları olsalar da,
Mənim İsfahanda məişət qayğılarından ciyərim qan olubdur».

***Mirzə Məhəmməd İsfahani*** - nazik qələmli müsəvvir idi. Xoca Əbdüləziz Kakanın şagirdi olmuşdur. Pardaxlamaqda və kompozisiya yaratmaqda misilsiz idi. Xırda naxışlar çəkməkdə bu təbəqədən heç kəs onunla bərabərlik səviyyəsində deyildi. O, İsmayıl mirzə zamanında kitabxana işçiləri sırasına daxil oldu[867].

***Mövlana Həsən Bağdadi*** - qızılı su ilə naxış vurmaq sahəsində zəmanənin vahidi və dövranın yeganəsi idi. Bir sözlə, o, qızılı naxış çəkmək fənnini möcüzə həddinədək inkişaf etdirmişdi. Cəmi ustadlar onun bu üslubunu həmin işdə örnək alırdılar. Hətta bu sahədə yüksək zirvəyə qalxa bilmiş Mürəhhib Mövlana Yarinin əsərlərinin də onun incə işləmələri və dəqiq tərtibatları bərabərində bir parlaqlığı yoxdur. Cənnətməkan şah öz əyyamının axırlarında onu tutdurub, daim əlini kəsdirməklə təhdid edirdi. Amma axırda o, Həzrət Əbu-Abdulla əl-Hüseynin (İmam Hüseynin) mübarək günbəzində iş görüb, həmin müqəddəs məqbərəyə bəzək və zinət vurduğu üçün onun cəzalandırılmasından imtina olundu. O da tövbə etdi ki, bir daha [pis] əməllərə baş qoşmayacaqdır. İsmayıl mirzə zamanında o, kitabxana işçiləri sırasına daxil oldu. Onun oğlu da atasının sənətkarlığından bəhrə tapıb, qızılı su ilə naxış vurmaq və təsvir çəkmək kimi məharətləri özündə cəmləşdirmişdi.

***Mövlana Abdulla Şirazi*** - o da qızılı su ilə yaxşı naxış vururdu. Amma Mövlana Həsən səviyyəsində deyildi. Xoşsöhbət, zarafatcıl və şirindil bir kişi idi. Sultan İbrahim mirzənin xidmətində olub, [ona] yaxınlığına və dərəcəsinə görə digər tay-tuşlarından irəlidə idi. [İbrahim] mirzənin [ölüm] hadisəsindən sonra İsmayıl mirzənin kitabxana işçiləri sırasına daxil oldu.

Həmin vaxt Məhəmmədi Herəvi, Qəsri bəy Kosa və s. kimi digər nəqqaşlar və müsəvvirlər də vardı. Amma biz uzunçuluğa varmayaraq, bu [nəqqaşlar] təbəqəsinin məşhurlarından və bu fənnin istedadlılarından bir neçə nəfəri qeyd etməklə kifayətləndik.

[867] S-129, v.149b; S-297Ş v.115a.

## CƏNNƏTMƏKAN ŞAHIN VƏFATI ZAMANI SÖZ USTADLIĞI SAHƏSİNDƏ ÇALIŞAN ŞAİRLƏR TƏBƏQƏSİ VƏ NƏZM SAHİBLƏRİ HAQQINDA

«Ulu Tanrı insanlardan cərgələr qurdu,
Peyğəmbərlərin ardınca şairlər durdu.»

Sözlərə bəzək vurub, onları nəzmə çəkən və gözəl məna silsilələri tərtib edən ali şairlər təbəqəsindən o zamanlar ulu orduda və "məmaliki-məhrusə"də şeir qoşmaq məharətinə malik olan şairlər və bəlağətli söz ustadları saysız-hesabsız idi. Cənnətməkan şah həzrətləri öz hakimiyyətinin əvvəllərində bu təbəqənin halına böyük hüsn-rəğbət göstərirdi. Hətta bir müddət [şairlərdən] Mirzə Şərəf Cahan və Mövlana Hidayət hökmdarın yığıncağının həmsöhbətlərindən və müqəddəs məclisin iştirakçılarından olmuşlar. Lakin [Şah Təhmasib] həyatı əyyamının axırlarında əmri-məruf və nəhyi-münkər məsələlərinə böyük diqqət yetirdiyindən və bu ali təbəqəni (şairləri) içki düşkünü sayaraq, onları salehlər və dindarlar cümləsindən hesab etmədiyindən onların halına çox da hüsn-rəğbət göstərmir və onları qitə və qəsidə yazmağa həvəsləndirmirdi. Mövlana Möhtəşəm Kaşi o həzrətin mədhinə bir qəsidə və zəmanənin hörmətli xanımı olan şahzadə Pərixan xanımın mədhinə digər bir qəsidə nəzmə çəkərək, Kaşandan [saraya] göndərmişdi Bu qəsidə adı çəkilən şahzadə (Pərixan xanım) vasitəsilə [şaha] ərz edilmişdi. Bunun müqabilində cənnətməkan şah buyurmuşdu:

- Mən razı deyiləm ki, şairlər məni mədh etməyə və tərifləməklə məşğul olsunlar. Qoy onlar qəsidələri «vilayət»in pənahı olan şah həzrətlərinin (Həzrət Əlinin) və məsum imamlar həzrətlərinin - onlara salam olsun - mədhinə desinlər və belə olan təqdirdə də mükafatı əvvəlcə o həzrətlərin müqəddəs ruhlarından, sonra isə bizdən təvəqqe etsinlər. Çünki zərif fikirlərlə, yüksək mənalarla və gerçəklikdən uzaq məcazlarla sözləri bəlağət sapına düzüb, hökmdarlara aid edirlər. Bunların (şairlərin) yalanları onların (hökmdarların) bunun müqabilində söylədikləri «əhsən»lərdən qaynaqlanır. Buna görə də şairlərin onların şəninə dedikləri sözlərin əksəri yerli-yerində olmur. Amma əgər [şairlər öz şeirlərini] müqəddəs həzrətlərə həsr etsələr və onların ulu nişanəli şanını tərifləsələr, bundan daha yaxşı və münasib olar.

Nə isə, cənab Mövlana şeirin müqabilində əşrəfdən mükafat ala bilmədi. Elə ki bu xəbər Mövlanaya çatdı, o, mərhum Mövlana Həsən Kaşinin hidayət taxtının sultanı olan şahi-vilayət həzrətlərinin (Həzrət Əlinin) şəninə nəzm sapına düzdüyü həftbəndə sanki ilahi bir ilhamla cavab deyib, onu [şahın] hüzuruna göndərdi və [bunun əvəzində] layiqli mükafat aldı. Bunu görən dövlətin paytaxtının şairləri həftbəndlər deməyə başladılar. Onlardan əlli-altmış nəfərə qədərinin parlaq həftbəndləri tədricən [şahın] ərzinə çatdırıldılar və hamısı bəxşiş və mükafatlar almaqla iftixara və başucalığına nail oldular. Xülasə, indi bu təbəqədən olan,

bəziləri ulu orduda, bəzi digərləri isə dövlətin əyalətlərində yaşayan, öz həmkarlarından seçilmiş və irəli getmiş məşhurlar haqqında bəhs olunacaqdır.

Əvvəlincisi ***Mövlana Zəmiri İsfahanidir***. Zəmanənin görkəmli və seçkin söz ustadlarından idi və dövranın yeganəsi idi. Rəml[868] elmini yaxşı bilirdi. Ona görə də, özünə Zəmiri[869] təxəllüsü götürmüşdü. Onun daxili aləmi mənalar mənbəyindən, fikrinin zinəti sübhani fəsahətdən ibarət idi. Bu təbəqənin hamısı onu söz ustadlarının başçısı hesab edirdi. Onun gözəl intizamlı sözləri saysız-hesabsızdır. Çox iti fikirli idi. Hər gün onun təbinin mətləsindən[870] ən azı on qəzəl doğurdu. Köhnə şairlərin bir çox deyimlərinə cavab söyləmişdir və ali təkbeytlər parlaq incilər kimi onun [şairlik] təbinin ləpələnən dənizindən zühur sahillərinə gəlib çıxmışdır. O cümlədən, onun Samiri[871] sehrinə bənzəyən və bir divana bərabər olan bu beyti Baba Fəganinin[872] «Divan»ının başlanğıcındakı qəzələ cavabdır:

**Beyt**

«Cəza günü vədəsi deyildir yalan,
Bədənə gələcək tərpəniş və can».

Bu beyti də [Allahın] ali mədhi barəsində deyib:

**Beyt**

«O gün ki, Onun ulu qəsrinin eyvanı yüksəldi,
Yaradanın qüdrətiylə quru torpaq dirçəldi».

Burada onun aşiqanə beytlərindən bir neçəsi verməklə kifayətlənirik:

**Beyt**

«Sən dodağımdan öpdün və mən zövqdən yıxılıb özümdən getdim,

---

868 Rəml elmi – qum üzərində fala baxmaq üsuludur.

869 Zəmir - ərəbcə hər şeyin iç üzü, batini, daxili mənası anlamına gəlir.

870 Mətlə - həm günəşin və ya başqa bir ulduzun doğduğu yer mənasında işlədilir, həm də qəzəlin ilk beytini bildirir.

871 Samiri - dini rəvayətlərə görə, Musa peyğəmbər zamanında İsrail tayfasından olan bir dinsiz və hiyləgər şəxsdir. O, xalqı cürbəcür yalanlarla aldatmaq və fırıldaqçılıq etmək sahəsində peşəkar imiş.

872 Baba Fəgani Şirazi - İranın məşhur şairlərindən biridir. O, Sultan Yaqub Ağqoyunlu zamanında poeziyada çox tərəqqi etmiş, Şah İsmayılın hakimiyyəti dövründə Xorasana köçərək, əvvəlcə Əbivərddə, sonra isə Məşhəddə məskunlaşmış və 925 / 1519-cu ildə Məşhəddə vəfat etmişdir. Onun 6 min beytdən artıq şeirlər divanı vardır Şeyx Müfid Davər. Təzkire-ye miratül-füsəha. Şiraz, 1371, s. 478-479; Seyid Əzim Şirvani. Təzkirə. Əsərləri, III cild. Bakı, 1974, s.466-467).

Ona görə də bilmədim ki, o öpüşün keyfiyyəti sənə necə təsir etdi».

Bu beyt də Mövlanadan məşhurdur və çox yüksək səviyyəlidir. Bəziləri bunu onun oğlu Daeyiyə aid edirlər:

**Beyt**

«Yaradan surətini yaradıbdır gör nə taraz,
Bundan artıq yaraşıq gözəllik qabına sığmaz».

Müqəddəs Kərbəlaya gedən yolda o cənabın ayağını şaxta aparmış, o da bu barədə bir qitə demişdir. Bu beyt[lər] həmin qitədəndir:

**Beyt**

«Ey ürək, başla getmək lazımdır Kərbəlaya ki,
Nail olasan din və dünya padşahını təvaf etməyə.
Qələt elədim ki, başla deyil, ayaqla getdim,
Ona görə də şaxta ayağımı məndən qopardı.
Günah məndən oldu, şaxtanın təqsiri yoxdur.
Lakin imamdan üzr diləyirəm ki,
Onun ziyarəti arzusundan məst olub,
Elə vəziyyətə düşdüm ki, başla ayağı ayırd edə bilmədim».

Onun yüksək beytləri və könül oxşayan rəngarəng mənaları çoxdur və şeir qoşan söz ustadları arasında məşhurdur. Mir Təqi Kaşi öz təzkirəsində ona xüsusi yer vermişdir[873].

***Mövlana Möhtəşəm*** - Kaşan şəhərindəndir. Şairlik baxımından aləmdə şöhrət tapmışdır və onun şeirləri təmtəraqla doludur. O sənətkarlıq və məharəti ki, həmin bu Mövlana şeirə tətbiq edibdir, nəzm sahiblərinin düşüncəsinin əli ona çatmaz. O cümlədən, İsmayıl mirzənin mədhinə bir qəsidə demişdi ki, onun bir misrası [həmin hökmdarın] hakimiyyətə gəlməsinin [əbcəd] tarixini əks etdirir. Gözəl qəsidələri çoxdur, qəzəlləri, tərkibbəndləri və tərcibbəndləri[874] saysız-

---

[873] Mir Təqi Kaşi (Təqiəddin Məhəmməd ibn Şərəfəddin Əli əl-Hüseyni əl-Kaşi) - «Xülasətül-əşar və zübdətül əfkar» («Şeirlərin xülasəsi və fikirlərin seçilmişi») adlı çoxcildli və müfəssəl şüəra təzkirəsinin müəllifidir. O, təzkirənin yazılmasına böyük zaman sərf etmiş və bu əsəri h. 975-1016 / m. 1567-1607-ci illər ərzində yazıb tamamlamışdır (Ə.G.Məani. Tarix-e təzkireha-ye farsi, c. I. Tehran, 1348, s.524-556).

[874] Tərkibbənd və tərcibənd - klassik Şərq ədəbiyyatında lirik şeir formaları.

hesabsızdır. Şəhidlərin ağası və Ali-əbanın[875] beşincisi olan [İmam Hüseyn] haqqında bir mərsiyə[876] nəzmə çəkmiş, orada yüksək səviyyəli beytlər və dəqiq mənalar qeyd edilmişdi. [Bu mərsiyə] o zamanlar qulaqlarda sırğa idi və hal-hazırkı günlərdə də ondan yadigar qalmışdır. O, bununla indiyədək şairlərin çata bilmədikləri rəhmətlik Şeyx Azərinin[877] mərtəbəsini vurub keçmişdir. Bu iki beyt o [mərsiyədəndir]:

**Beyt**

«O yüksək məqamlı imamın başı nizəyə taxılan gün,
Sanki günəş başıaşağı göydən yerə düşdü.
Qorxuram onun qatilinin cəzası elə yazılsın ki,
Rəhmət dəftərinin üzərindən birdəfəlik xətt çəkilsin».

Yuxarıda işarə edildi ki, cənab Mövlana iffətli şahzadə Pərixan xanımın mədhinə bir qəsidə demişdi. Bu iki-üç beyt həmin qəsidədəndir:

**Beyt**

«Heç bir naməhrəm o örtüklü aya və günəşə,
Heç öz yuxusunda da nəzər sala bilməz.
Çünki həmin an hissiyyat karxanasının memarı,
Onun gözündən yuxunu dərhal kənarlaşdırar.
O xanım əgər özü öz surətinin əksinə nəzər salsa,
Qorxuram ki, isməti onun özünə də məzəmmət edər.
Elə buna görə də onun əksinin görünüşünü,
Qəzavü-qədər həm aynadan, həm də sudan kənar etsin».

Mövlananın düşüncəsindən doğmuş rəngarəng aşiqanə qəzəllər çoxdur. Onun bu mətləsi olduqca gözəl və lətifdir:

**Beyt**

---

875 Ali-əba - islamın beş müqəddəs şəxsiyyəti (Məhəmməd peyğəmbər, onun qızı Fatimə xanım, peyğəmbərin kürəkəni və əmisi oğlu Həzrət Əli, Fatimə ilə Əlinin oğulları İmam Həsən və İmam Hüseyn) nəzərdə tutulur.

876 Mərsiyə - ölümlə, yasla əlaqədar qəmgin, kədərli şeir növü.

877 Şeyx Azəri - XV əsrin məşhur İran şairidir. Əslən xorasanlıdır. «Cəvahirül-əsrar», «Bəhmənnamə», «Tuğra-yi hümayun» və s. əsərləri vardır (Pənahi Makulu. Ədəbi məlumat cədvəli, s.23).

«Uca qədd-qamətlilərin boynu sənin kəməndindədir,
Sən bir rənasan, boy-buxunun necə də gözəl yaradılıb».

Bu müxtəsər [əsərin] tutumu bəlağət nişanəli şairlərin şeirlərinin yazılması məkanına çevrilə biləcək qədər geniş olmadığından burada bu məlumatlar qısa verilir.

***Şairlərin məlahətlisi («əmləhüş-şüəra») Mövlana Vəli:*** Cənab Mövlana Xorasanın Qain vilayətinə daxil olan Dəşti-Bəyaz bölgəsindəndir. Şirindil şair, rəngarəng, xoşsöhbət və yaxşı natiqlik qabiliyyətinə malik bir insan idi. Məlahətli qəzəllərinin hər bir beyti təmizlikdə kamala çatmış bir dürdanə, parlaq qəsidələri isə olduqca fəsahətli və bəlağətli idi. Cənnətməkan şah zamanında özünün şəxsi istəyi ilə doğma vilayətinin əziz seyidlərindən olan Xocazadə ilə birlikdə orduya gələrək, bir müddət darüssəltənə Qəzvində yaşayıb, Mövlana Zəmiri və dövlətin paytaxtının digər şairləri ilə həmdəm və həmsöhbət oldu və İsgəndər şanlı nəvvab zamanında Xorasana getdi. Xorasanın [özbəklər tərəfindən] istilası vaxtı Yetim sultan Özbək onu öz qarşısında oynadaraq alçaltmış, axırda isə onu qətlə yetirmiş və bunu əsaslandırmaq üçün demişdi:

- Şairlər acıdil olurlar. Mövlana məndən incidiyinə görə mən düşündüm ki, məbada, o, mənə həcv yazar və bu, ruzigarm səhifəsində əbədi qalar.

Xorasan əhlindən bir şəxs onun cavabında dedi:

- Axı hansı həcv bundan betər ola bilər ki, cənab sultan zəmanənin vahidi olan belə bir şəxsin qətlinə fərman verib bu əməli törətdi və öz ruzigarının səhifəsinə bədnamlıq damğası vurdu?!

Yetim sultan bu sözü təsdiq etdi. Lakin həmin sözləri deyən adam da bu cəsarətinin müqabilində qətlə yetirildi. Bu məqamda lazım gəldi ki, [Mövlana Vəlinin] Həzrət Əli ibn Əbu-Talibin - ona salam olsun - mədhi və tərifi barədə nəzm sapına düzdüyü qəsidələrindən bir neçə beyt qeyd olunsun:

**Beyt**

«Ey fanilik vərəqləri üzərindəki ölüm
sözünü öz taleyindən uzaqlaşdıran!
Əgər sənin kimi bir ədalət banisi
Cahan üzərinə abadlıq xələtini geyindirərsə,
Ondan sonra bayquş öz rahatlığı üçün viranəliyə həsrət qalar.
Bulud qətrələr saçmağa başlasa, qətrələr yığılıb bir ümman olar».

Mövlananın rəngarəng qəzəlləri və aşiqanə şeirləri çoxdur. Bu bir neçə beyti təqdim etməklə kifayətlənirik:

**Beyt**

«O, məni kor hesab edir, halbuki görmə qabiliyyətim var.
Mən onun möhnət gətirən ayağının izini görüb tanıya bilirəm».

* * *

«Ürəyim sənə qovuşmaq yolunda hərarətlə döyünməlidir,
Şövq gözüm bu məsələyə görə nigaran qalmalıdır.
Şövq imkan vermədi ki, yaralı ürəyimin üzərinə bir əl qoyum,
Bu iş gizlin olmasa da, hələlik sənə bəlli olmamalıdır.
Sənin həsrətinlə hər iki cahanı tərk etdi Vəli,
Gərək sən də öz mehribanlığınla ona layiq olasan».

***Mövlana Vəhşi Yəzdi*** - sözün ustası olan şairlərdən və fəzilət yayan söz ustadlarından idi. Həmişə darülibadə Yəzddə yaşamışdır. Qəzəl və məsnəvi sahəsində dövranın yeganəsidir. Onun təbinin nəticəsində nəzm sapına düzülmüş olan «Fərhad və Şirin» kitabı camaat arasında məşhurdur və orada o, çox şirin beytlər, bəlağətlə bəzənmiş rəngarəng mənalar yazmışdır. Həmin kitabda yüksək şairanə beytlər çoxdur. Burada həmin əsərdən olan bu məşhur qitəni [yazmaqla] kifayətlənirik:

**Qitə**

«Pərvizin yolu üstündə casuslar durmuşdu,
Ki, onun atı olan Şəbdizin hər addımından xəbərdar olsunlar.
Ona görə də, əgər o atın nalı bir daşa dəysəydi,
Və o təmas nəticəsində daşdan qığılcım çıxsaydı,
Hələ həmin qığılcımda istiliyin təsirləri sönməmiş,
Bu barədə Şirinin məclisində xəbər tutardılar».

Onun qəzəllər divanındakı çoxlu aşiqanə beytlər doğmaların və yadların dillərində dolaşmaqdadır. Bu baxımdan yadda qalan bir neçə məşhur beytlə kifayətlənirik:

**Beyt**

«Ruzigardan bir az can sağlığı və bir qədər də aman istəyirəm ki,
Öz canımı o canana qurban edə bilim.
Əgər yara qovuşmasalar, uşaq xasiyyətli xəstələrdirlər aşiqlər,
Onların dərdlərinin əlacı iki gün yar ilə bir yerdə olmaqdır».

**Beyt**

«Diləyimdir toz qonmasın ətəyinə nəciblərin,
Dağıdarsa əgər fələk, kökündən bu viranəni.
Eşqin camından mey içmək deyildir hər kəsin işi,
Dodağında tutsun gərək ki, Vəhşi bıı peymanəni».

***Xoca Hüseyn Sənayi Xorasani*** - müqəddəs və ulu Məşhəddəndir. O zamanlar Sultan İbrahim mirzənin xidmətində idi və o cənabdan mükafatlar alardı. Qəsidə deyən bir şairdir. Yüksək mənaları vardır. Amma şeirlərində elə dərin mənalara yer vermişdir ki, dövranın əksər söz sərrafları onları anlamağa çətinlik çəkirlər və bu bir neçə beyt də o cümlədəndir:

**Beyt**

«Su güzgüsü öz üzündə göstəribdir səmanı,
Suya bax ki, başaşağı edibdir asimanı».
* * *
«Gecənin pərdəsi o tərəfdən qəhr versə də,
Bu tərəfdən sübhün şamı sümüklərə istilik şöləsi gətirir».
* * *
«O köpük ki, su üstə yaranmış sən tək dilbərdən,
Qiymətlidir su içində sədəf ilə gövhərdən».
* * *
«Adam aynaya baxarsa, olar nə?
Onun əksi əks olunar əksinə».
* * *
«Gün tək parlar, fəqət ziya saçmaz qılınc tiyəsi,
Qızıl qandan yara saçar o qılıncın yiyəsi».

***Mir Heydər Miəmmayi Kaşani***[878] - Hüseyni seyidlərinin Təbətəbayi nəslindəndir. Orada (Kaşanda) soyurğal sahibidir. Müəmma üslubunda misilsiz, maddeyi-tarix[879] deməkdə əvəzsizdir. Yaşı doxsanı adlayıb və hələ heç vaxt aşiqlik zümrəsini tərk etməyibdir. Cənnətməkan şah zamanında Kaşanda oranın vəziri olan, maddi hüsn-camalla və mənəvi əxlaqla zinətlənmiş Mirzə Cəfər Bədiüzzaman oğlu ilə həmdəm və həmsöhbət olmuşdu. Sonradan Mirzə Cəfər Hindistana gedərək, orada Asəf məqamına (vəzirlik mənsəbinə) nail olmuşdu.

---

[878] S-129, v.l52a; S-297, v.117a.

[879] Müəmma - klassik Şərq poeziyasında mənzum tapmaca. Müəmmalarda əsas fikir müxtəlif üsullarla gizli ifadə edilir. Müəmma yaratmaq şairlərdən dərin bilik tələb edirdi. Maddeyi-tarix - klassik Şərq şeirində müəyyən hadisələrin, əsərlərin tarixini, görkəmli şəxslərin təvəllüd və ölüm illərini göstərmək üçün istifadə olunan ifadə tərzi. Maddeyi-tarixlər bəzən rəqəmlərin açıq-aşkar sadalanması ilə, bəzən isə əbcəd hesabı ilə verilirdi (Ə.M.Mirəhmədov. Ədəbiyyatşünaslıq: ensiklopedik lüğət. Bakı, 1998, s.121).

Cənab Mir (Heydər) Allahın kölgəsi olan əla-həzrət şahın səadətli cülusu zamanında Mirzə (Cəfər) ilə görüşmək arzusunun şövqünə qapılaraq, Hindistana getdi. Onun vasitəsilə [Mir Heydər] yüksək məqamlı bir hökmdar olan Cəlaləddin Məhəmməd Əkbər padşahın hüzuruna gəlib, o həzrətin məclisinin iştirakçıları sırasına daxil oldu. Asəf xan (yəni Mir Cəfər) təbiətində qənaətcillik olmasına baxmayaraq, min tümən İraq şahisinə bərabər olan otuz min rupi «əkbəri» məbləğində vəsaiti cənab [Mir Heydərə] mükafat verdi. O, padşahdan da mükafat alıb, bir müddət o vilayətdə yaşadıqdan sonra Beytullahul-həramı həcc etmək arzusuna düşüb, həmin səadətə qovuşmaq şərəfinə nail oldu və iki il Məkkeyi-müəzzimədə qaldı. Daha sonra [Məhəmməd peyğəmbərin] «vətən sevgisi imandandır» kəlamına uyğun olaraq, şövqünün iradəsi onun yaxasından tutub, onu Kaşan bölgəsinə çəkib apardı və o, hökmdardan ənamlar və soyurğallar hədiyyə aldı. Mir [Heydərin] şeirləri arasında saysız-hesabsız qitələr, qəsidələr, qəzəllər və maddeyi-tarixlər vardır. Bu səhifədə onun münacatla (Allaha müraciətlə) əlaqədar bir rübaisini qeyd etməklə kifayətlənirik:

**Rübai**

«Zahid günah etmir ona görə ki,
qəhharsan (cəzalandıransan) sən,
Biz günaha qərq olmuşuq ona görə ki,
qəffarsan (bağışlayansan) sən.
O sənin qəhharlığından danışır,
biz isə qəffarlığından deyirik,
Ya Rəbb! Görən, hansı adını daha çox xoşlayırsan sən?»

***Mövlana Məlik Təyfur Əncidani və qardaşı Mövlana Daeyi*** - hər iki qardaş hal sahibi olub, fəzilət və kamal əhlindəndirlər. Məlik Təyfur cənnətməkan şah zamanında Qəzvinin mədrəsə və minbərlərində olardı. Sərgərdan, səyyar və aşiqanə bir adam idi. Son dərəcə mömin və dindar olub, xoşüzlü və xoşsimalı cavanlardan idi. Üzündə bol xətt (saqqal) saxlayardı. Cazibədar təbiəti vardı. Əlahəzrət şah (Abbas) zamanında öz amalının yüklərini Qəzvindən Kaşan səmtinə çəkib apardı. Fəqirliyinə və əlinin aşağı olmasına baxmayaraq, təbiətindəki qənaətcillik sayəsində arpa çörəyinə də qənaət etmiş, özünü heç vaxt tamah əhlinin sırasına daxil etməmişdir. Onun şeirlərindən olan bu bir beyt bir divana bərabərdir:

**Beyt**

«Sitəm qılıncına malik olan şəxs qantökəndir,
Qorxuram ki, ayağını axırda qatilin evinin qapısına gedib çıxar».

Bu beyt də ondandır:

**Beyt**

«Sən bir fırıldağa bax ki,
Saqi eyni tuluqdan mənim piyaləmin içinə qan,
Camaatın badəsinin içinə isə mey tökür».

Bəzən elə olurdu ki, onun qardaşı Mövlana Daeyi Kaşana gəlib, Kaşan şairləri və camaatı ilə söhbət edirdi. O da qənaətcil, dərviş xilqətli bir kişi idi. Onun çoxlu məlahətli şeirləri vardır. Rəğbət doğuran qəsidələri və qəzəlləri vardır. Burada onun şeirlərindən bir rübaini [yazmaqla] kifayətlənirik:

**Rübai**

«Qara zülfün canımı dərdə saldı,
Məni ilan kimi qəlbimdən çaldı.
Bu naçar aşiqin qəmli ürəyi,
Ruzigardan gör necə zərbə aldı».

***Mir Valehi Qumi*** - möminlər şəhəri («mədinətül-möminin») Qumun seyidlərindəndir. Şirin kəlamlı bir şairdir. Söhbəti rəngarəng, sözləri baməzə və duzludur. Musiqi elmində mahirdir, qövl (süita) və əməl (nəğmə) baxımından bəstəkardır, təsnifləri ahəngdardır, aşiqanə şeirləri isə çoxlu ustadanə mənalara malikdir. Burada onun bu bir neçə məşhur beyti ilə kifayətlənildi:

**Beyt**

«Bülbülün yuvasına meh ayaq qoydu və dedi ki,
Əsirlərin xanimanı xarab olmalıdır».

**Beyt**

«Biz tifil kimiyik, cahan məktəbdir, sənin eşqin ədibdir,
Sənin vüsalın və hicrin bizim şənbə və adinəmizdir»[880].

[880] Adinə - cümə günü. O zamanlar cümə günləri qeyri-dərs və istirahət günləri idi. Məktəbin qeyri-dərs günlərini özünün hicran günlərinə bənzədən şair demək istəyir ki, şagird həmin günlərdə öz məktəbindən və müəllimindən ayrı düşdüyü kimi, o da öz sevgilisindən ayrı düşmüşdür.

***Mövlana Məlik Qumi*** - xoş şeirlərə malik olan bir şairdir. Şairliyinin başlanğıcında onun şeirlərində digərlərinin şeirlərində olmayan bir ləzzət var idi. Cavanlığının əvvəlində şeirdə tərəqqi edərək, kəlamı yetərincə şirinlik qazandı və püxtələşdi. Daha sonra İrandan Hindistanın Dəkən [vilayətinə] getdi və orada Adilşahın xidmətində qalıb yaşadı. O, Mövlana Zühuri ilə birlikdə Adilşahın adına doqquz min beytdən ibarət olan «Kitab-i nəvrəs» («Gənc kitab») əsərini yazmış, onların hərəsi bu əsər üçün dörd min beş yüz beyt demişdi ki, bunları da üst-üstə gələndə doqquz min edir. Burada onun bir neçə beyti qeyd olunur:

**Beyt**

«Biz zaman laləsinin nəzərində gül bülbülüyük,
Bizim qəfəsimiz heyrət gülünün kolundan sallanıbdır»

* * *

«Aşiqlərinin yalvarışları səni nazlı etməkdədir,
Sən başdan-ayağa vəfalı idin, səni mən bivəfa etdim».

* * *

«Ciyərimdən gələn hər nalə zamanı
Ürəyimdən atəş çıxarıram mən.
Yumurtada olarkən yandı əndamım,
Qoymadı ki, qol-qanad çıxarım mən.
Qoy sənin ürəyinin əlindən tutmaqla,
Bu xətər dolu vadidən çıxım mən».

* * *

«Ürəyindən keçirdi ki, bir müddət mənimlə birgə olsun,
Lakin naz-qəmzəsi dilə gəldi və onu peşman elədi».

***Mövlana Fəhmi*** - müdrik bir şair və söz ustadıdır. Mövlana Möhtəşəmdən sonra o, Kaşanda misilsizlikdən dəm vururdu. O, digərlərindən əziz və imtiyazlı, sözü isə hamının yanında keçərli, bərəkətli və qəbuledilən idi. İsfahanın vəziri üçün dediyi bu qəsidə çox xoş ədalıdır:

**Beyt**

«Günəşin zənguləsinin papağı sübhün başındadır,
O, Xoca Bəkratın əhdi ilə sevinc gətirmişdir».
Onun aşiqanə qəzəllərindən bu bir neçə beyt məşhurdur:

**Beyt**

«Sənin cilvələrin mənim kimi birisi üçün heyifdir,
Qoy mən sənin həsrətin ilə ölüm».

* * *

«Sən heç kəsdən əl çəkməzsən, canına rəxnə salmadan,
Səni gördüm, çaşıb-qaldım,
Bilmirəm ki, mənidəmi yaraladın, yoxsa yox».

**Beyt**

«Məndən savayı, bütün aləm səninlə şadimandır,
Əgər mənimlə olsan, sənə minnətdar olaram».

***Mövlana Hatəm Kaşi*** - şirin sözlü bir şair idi. O, çox qarabuğdayı və qara rəngli bir adam olduğu üçün Kaşan şairləri onu «hindli» deyə ələ salardılar və onun hüzurunda bilə-bilə Hindistandan söz açardılar. Onun bu zarafatdan canı sıxılırdı. Bir gün o, qara rəngli şalvar geyinmişdi. Hazırcavablardan biri ona demişdi ki, molla, məgər şalvarının ətəyini çırmalamısan? Cənab Mövlana həmişə bu zarafatın qurbanı olurdu. O, qəzəl üslubunda əvəzsiz idi. Bu bir neçə beyt onundur:

**Beyt**

«Gecə vaxtı mey kuzəsi mənim məstlikdən ağlamağıma
O qədər güldü ki, axırda qarnını yerə qoydu».

**Beyt**

«Aləmdə hər kəsin gözündən düşmüşəm,
Çünki hələ də bədnəzər mənim arxamca baxır».

**Beyt**

«Mənim ciyərimin parəsi olmadan ahım getməsin çərxi-fələyə,
Bu cür ləl parələri ilə asimanın tabağı doludur».

**Beyt**

«Məhşərdə səndən soruşsalar ki, Hatəmi niyə öldürdün?
Başına dönüm, onda nə cavab verəcəksənsə,
İndi onu mənə de ki, mən də orada eyni cavabı verim».

**Beyt**

«Naz-qəmzələr hamının həyatını məhv etdi,
İndi gözlər Xızırın[881] və Məsihin gəlib
onlara həyat verməsini gözləyirlər».

**Beyt**

«Mən namazdayam, lakin ürəyim o bütə (gözələ) səcdə edir,
Lənət olsun o kəsə ki, mənim namazıma gülür».

***Mir Hüzuri Qumi*** - əməlisaleh bir seyid və dövranın pakizəsi idi. İllər uzunu imamların [İraqdakı] müqəddəs məqbərələrində («Ətəbati-aliyat») xidmət və ibadət etməklə vaxtını keçirmişdi. Cənnətməkan şahın vəfatı və İsmayıl mirzənin hakimiyyətə gəlişi əyyamında Mir Hüzuri də bu ali [şairlər] təbəqəsinin toplanış məkanına çevrilmiş darüssəltənə Qəzvinə təşrif gətirdi. O zamanlar Mir (Hüzuri) artıq qocalmışdı və bu [şairlər] təbəqəsi yaşının çoxluğu, seyid mənşəli olması və ruhaniliyi səbəbindən onunla izzət və ehtiramla rəftar edirdilər. Şeiri az olsa da, qəzəl sahəsində istedadlı və şirin sözlüdür. Bu beyti yaxşı deyibdir:

**Beyt**

«Sənin vədələrinin intizarını çəkməyin zövqü mənə bəsdir,
Heç bir eyş-işrət sənin intizarını çəkməyə bərabər ola bilməz».

***Mir Səbri Ruzbehan İsfahani*** - İsfahan şəhərində yaşamışdır. Onun ata-babası Ordustan seyidlərindən idi. Qəzəl deyən bir şairdir və bu beytlər ondandır:

**Beyt**

«O kimdir ki, utancaqlıq və həya səbəbindən pərdə arxasında oturub,
Və sarsaq xasiyyətlər görməkdən alnı qırışıb».

* * *

«Allahdan arzum budur ki,
Ürəyimə əzab verən şəxsə rəhm olunmasın».

**Rübai**

---

[881] Dini rəvayətlərə və xalq inanclarına görə, Xızır peyğəmbər abi-həyatı (dirilik suyunu) tapıb içmiş və əbədi həyata nail olmuşdu. Onun dara düşənlərin köməyinə yetişməsi haqqında rəvayətlər folklorumuzda mövcuddur.

«Ey bivəfa, sənin mehriban olduğunu ürəyimdən keçirmirəm,
Şəndə mehribançılığın olduğunu heç güman etmirəm.
Öz qəmini və səbrini, hər nə tapsan, gətir, ey ürək,
Əgər bacarsan, sən də de ki, mən bu xasiyyətə malik deyiləm».

***Mirzə Hesabi Nətənzi*** - Nətənz qəsəbəsindəndir[882] və Məhəmməd Qasım Mustovfinin qohumudur. İstedadlı və qabiliyyətli bir cavan idi. Yaxşı şeir deyərdi. Musiqi elmində mahir idi. Onun dəstələdiyi baməzə təsniflər və çəkdiyi bədii nəqşlər İraq camaatı arasında məşhurdur. Qəzvin şəhərində vaxtını gülüzlü [gözəllərin] eyş-işrətinə və yaxşıların söhbətlərinin idrakına sərf etmişdir. Kitabı yazarkən onun bu iki beyti xatirimdə məşhur idi:

**Beyt**

«Hesabi sənin didarının həsrətini çəksə də,
Müddəi yenə də ona həsəd aparır».

**Beyt**

«Həkim məclisdə mühüm bir məsələ barəsində bir söz dedi,
Hamı o sözün fikrinə getdi, mən isə
cananın dodaqlarının fikrinə getdim».
* * *
Ey Hesabi, yar gəlir dəbdəbə ilə görüşə,
Mən isə özümü itirmişəm, ağlım gedib başımdan».

***Qazı Nur İsfahani*** - İsfahan vilayətində yerləşən Əndənan[883] məntəqəsindəndir. Elm tələbələri zümrəsindən idi və Qəzvində Xoca Əfzəl Tərkə ilə həmsöhbət və həmdəm olub, ondan fəzilətlər kəsb edərdi. Bəzi vaxtlarda isə Mir Fəxrəddin Simakinin məclisində tələbəlik edirdi və o vaxtlar hələ şeirlə və şairliklə şöhrət tapmamışdı. Çox az şeiri vardır. Amma olduqca xoş təbiətli və şirin sözlüdür. Onun [şairlik] təbinin dənizindən hər nəyi ki, ləpələr zühur sahilinə çıxarıblar, misilsiz və bənzərsizdirlər. Deyilənə görə, Şeyx Feyzi Hindi[884] bu beyti onun şəninə deyib:

**Beyt**

---

[882] S-129, v.153a; S-297, v.118b.
[883] Digər varianta görə: Əndəman (S-129, v.154a; S-297, v.118b).
[884] Şeyx Feyzi Hindi - XVI əsr Hindistan şairidir. Şeirləri fars və hind dillərindədir. «Mərkəz-i ədvar», «Süleyman və Bilqeys», «Həft kişvər» və s. əsərləri vardır (Pənahi Makulu. Ədəbi məlumat cədvəli, s.383).

«Mənim sözlərimdə xılt yoxdur, heç təəccüblənmə,
Çünki mən bu [söz] badəsini
Ürək pərdəsinin süzgəcindən keçirib saf etmişəm».

Bu səbəbdən onun şeirlərinin hamısı seçkindir. Bu bir neçə beyt onun qəsidə və qəzəllərindən götürülmüşdür:

**Beyt**

«Hərdən ki, sənin gözün ox təki kamanə gəlir,
Bu oxun zərbələri gör neçə min canə gəlir.
Kamanı çəkmiş idin xəstədilin qəsdi ilə,
Atışın yersiz olsa da, oxun nişanə gəlir.
Dırnağımla bədənimdən sümükləri çıxarım,
Çünki oxun onları etməyə viranə gəlir.
Eşqinin xəstələri əcəl zəhrin öylə içər,
Bunu gördükdə mənim iştahım dəhanə gəlir.
Sevginin bazarında eşqimi elan edirəm,
Bu bazarda zəbanını üstün hər zəbanə gəlir.
Açmışam can dükanının qapısın, müntəzirəm,
Bilirəm, canan ora qarətə, talanə gəlir».

***Qasım bəy Haləti*** - o, əslən türkdür və türkman oymağına mənsubdur. Rey vilayətində anadan olmuş və Tehran şəhərində yaşamışdır. Bir müddət Qəzvində fazillərin və alimlərin yanında elmləri öyrənmişdi. Söz ustadlığı sahəsində özünü tay-tuşlarından üstün sayardı. Qəsidələr və qəzəllər yazmışdır. Mirzə Salmanı və Müseyib xanı mədh edərdi. Bu beytləri qocalıb əldən düşdüyü vaxt qələmə almışdır:

«Əsalı qocayam, qalmışam naçar,
İldən-ilə ömrüm olur ahu-zar.
Baxışım dumanlı, əllərim titrək,
Gözüm zəif, ayağımda ağrılar»[885].

***Mövlana Hüzni*** - elm tələbəsi olub, fəzilətli və şux təbiətli bir kişi idi. Çox yaxşı şeir deyərdi və yaxşı fəhmi vardı. Müşkül beytlərin və dəqiq düşüncələrin mənasının açımında şairləri dolaşdıran hər nə çətinlik ki vardı, o, onları asanlıqla izah edərdi. Yetərincə şən təbiətə malik idi. İstəyirdi ki, üləma və fazillər

[885] S-129, v. 154b; S-297, v. 119b.

zümrəsindən olsun. Lakin şairlərə lazım olan şeir fəhmi, sərgərdanlıq, bekarçılıq və zövq sahibi olmaq kimi xüsusiyyətlərdə tay-tuşlarından irəli getdiyi üçün şairlikdə şöhrət tapdı və onun bu beyti aləmdə məşhurdur:

**Beyt**

«Züleyxa çəməndə idi və həsrətlə yada salırdı,
Zindana atılmış məclislər yaraşığını»[886].
Bu beyt[lər] də ondandır:

**Beyt**

«Ciyərimin istisindən dünən nəmli gözüm yandı,
Gözümün çırağı sənin yolunda səhərəcən yandı.
Gözümün torunda yağ qalmadı və gördüm ki,
Ürəyimin parəsi və ciyərimin pürkaləsi yandı».
* * *
«Qan gözümdən axır, ey gül, sən bu məclisdə dayanma!
Yolunda can qoyuram mən, çıx get, bu manqalda yanma!»

Mövlananın bu məqtəsi[887] də böyük şöhrətə malikdir və həqiqətən, aşiqanə bir beytdir:

**Beyt**

«Hələ bu eşqin əvvəlidir, ey Hüzni az ağlaginən,
Çünki ağlayan zaman qəlbin dərdi təzələnir».

***Mövlana Həlaki Həmədani*** - dərviş xilqətli bir kişi idi. Savadı yox idi və qətiyyən heç nə oxumamışdı. Nə ki şeir deyərdi, küçədə və bazarda kimi görsəydi xahiş edirdi ki, onun üçün qələmə alsınlar. Bir müddət bu məsələ camaatdan gizli qalmışdı. Qəsidə və qəzəlləri vardır. Onun bu beyti çox məşhurdur:

**Beyt**

«Sən mənim bütün əməllərimi bilsən də,
Özünü bilməməzliyə vurursan.

---

[886] Bu beytdə Şərq ədəbiyyatında xeyli məşhur olan «Yusif və Züleyxa» dastanına işarə edilib.
[887] Məqtə - qəzəlin və ya qəsidənin son beyti. – Kəşmir - Hindistanın şimalında tarixi vilayət.

Sənin bu rəftarına həlak olsun Həlaki Həmədani».

İsmayıl mirzəni [hakimiyyətə gəlməsi münasibətilə] təbrik etmək üçün bir qəsidə demiş, onu bir neçə gün ərzində səltənətin mərkəzinə çatdırıb təqdim etmiş və bunun müqabilində on iki min tümən ənam almışdı. Bunu görən şairlər həvəsə düşərək, [İsmayıl mirzə haqqında] bəlağət sapına parlaq qəsidələr düzsələr də, iltifat görmədilər.

***Məzhəri Kəşmiri*** - xoşsimalı, yaraşıqlı və gözəşirin hüsn-camala malik bir cavan idi. O, öz hüsn-xətti ilə ləğv qələmini yaxşı [şeir] deyənlərin səhifəsi üzərinə çəkmiş və onun sözləri cahanın söz ustadları arasında əks-səda salmışdı. Yetkinliyinin başlanğıcında səyahət etmək və şairlərin söhbətini idrak etmək üçün ürək oxşayan Kəşmir[888] vilayətindən İrana gəldi və bir müddət bu diyarda gəzib-dolaşdıqdan sonra yola düşüb, birbaşa öz vətəninə qayıtdı. Onun şeirlərindən burada bu bir neçə beyt qeyd olunur:

**Beyt**

«Nə hacətdir bilmirəm ki, o gözəlin eyibsiz camalını görməklə
Məndə onun arzusu ilə bir təmənna atəşi alovlandı.
O gəldi, məni həyəcanlandırdı və o qədər oturdu ki,
Onunla aşinalıqdan öz ürəyimə təsəlli verə bildim.
Məcnunun gözü başqa heç kimi görmədi,
O, özünə yalnız Leylini aşina bildi.
Əgər axirətdə cəzalanmağı istəmirsənsə,
Öz içindəki şər-xatam cəfa qılıncı ilə öldür.
Onu elə məhv et ki, sənin xatirində
Ondan heç bir əsər-əlamət qalmasın».

***Darüssəltənə Qəzvinin şairləri:*** o zamanlar [Qəzvində] şairliklə məşğul olan neçə-neçə təb sahibləri vardı. Burada onlardan bir neçə nəfər məşhurun haqqında yazmaqla müxtəsər olunacaqdır. O mülkün camaatı əliaşağı və yoxsul olmalarına baxmayaraq, tamah sahibi olan şairlər və nədimlər arasında yayılmış olan mükafat almaq məqsədi ilə dövlət adamlarına qitə və qəsidə həsr etmək kimi mühərriranə fəaliyyət onlardan az müşahidə olunmuşdur. Ona görə də [Qəzvin şairlərindən] aşağıda adları yazılan bu bir neçə əzizin hərəsi bir işdən özləri üçün yaşayış vəsaiti qazanmışlar. O cümlədən:

***Mövlana Füruği Əttar*** - söz sərrafı, hal sahibi olan bir kişi idi. Əttarlıq[889] sənəti ilə məşğul idi. Onun dükanının qapısı nəzm sahiblərinin toplanış yeri idi. O, alış-veriş əsnasında şairlərlə şeir söhbətləri edərdi. Onun qəzəllərindən olan bu iki-

---

[888] Kəşmir – Hindistanın şimalında tarixi vilayət.
[889] Əttar - dərman maddələri, ədviyyat, ətriyyat və müxtəlif bitki yağları hazırlayan və satan adam.

üç beyt çox yayılmış və əttarların tabağı kimi, tatar müşkünün qoxusunu dövranın söz ustadlarının burnuna çatdırmışlar:

**Beyt**

«Ona görə rahatlıqla ölə bilmirəm ki, hicrini çəkən zaman,
Elə bir zülm qalmadı ki, sən mənə etməyəsən».
* * *
«Sənin zülmünün qarşısında acizəm mən,
Həsədimi çəkənlər sənin beynini doldururlar.
Hərçənd aşina öldürənsən və biganəpərvərsən,
Lakin mən yenə də təsəlli tapıram və şad oluram.
Çünki hər kim ki, sən namehribana könül verir,
Onu torpaqla qana elə qərq edirsən ki, can verir».

***Mövlana Təbxi Qəzvini*** - qısaboylu, dərviş xilqətli və şirin qiyafəli bir kişi idi. Dərd və qəm haqqında çox isti söhbətlər edərdi. Əksər vaxtlarda çaşt[890] və şam yeməkləri zamanı müflis şairlər və muradına çatmayan binəvalar ehtiyac üzündən onun təbbax dükanına[891] yığılırdılar. Bu iki-üç beyt ondan məşhurdur:

**Beyt**

«O gün onun iti mənim sümüyümü sındırdı,
O vaxtdan bəri hələ də sümüyümdən naləli səda gəlir».
* * *
«Ey Təbxi, sənin vücudundur bu yolda sənin hicabın,
Ürəyindən bir ah çıxarıb yandır bu hicabı».
O, Mir Hümayunun[892] «Divan»ına cavab demişdi.
Mirin «Divan»ındakı qəzəllərindən bu beyt xatirimdə idi:

**Beyt**

«Başıma tarladan qəm samanı qonur,
Bir arpayla xırman olmaz deyiblər».

***Sultan Füqərayi*** - əvvəllər sərraflıq[893] və dərziliklə məşğul olmuşdu. Fəqirlik əhlindən olub, dərviş görkəmli idi. Şeirdə Xoca Hafiz Şirazinin bədii

---

[890] Çaşt - səhər və günorta yeməkləri arasında olan vaxtdır. Çaşt yeməyi səhər və günorta yeməkləri arasında qəhvəaltı yeməyini bildirir və məna baxımından ingilis dilindəki «lunch» anlayışına uyğundur.
[891] Təbbax - «yemək bişirən», təbbax dükanı isə «yeməkxana» deməkdir.
[892] XVI əsr Hindistan şairlərindəndir.

tənzimlərinə riayət edərdi. Xocanın «Divan»ına cavab demişdi və özünün ona tay olduğunu iddia edirdi. Bir müddət Hindistan vilayətində gəzib-dolaşdıqdan sonra yenidən İrana gələrək, əlahəzrət Şah [Abbasın] büsatına yol tapdı və onun qayğıkeşlik nəzərinə tuş gəldi. O, müqəddəs və ulu Məşhəddə məskunlaşmaq arzusuna düşərək, [İmam Rzanın] feyz bəxş edən məqbərəsində bir vəzifəyə təyin olundu. Lakin əcəl onun ömür səhifəsinin sonuna imza qoydu və o, özünün bu arzusuna çatmadan öldü. Onun Hafizin qəzəllərinə cavablarından bu iki beyt xatirimdə idi:

**Beyt**

«Mənim fənayi-mütləqim[894] əbədiyyət kimyasının iksiridir,
Xoş olsun o kəsə ki, belə bir kimyagərliyi bilir».

**Beyt**

«Bu evin qapısı heç kimin üzünə bağlanmasa da,
Məlaikələr meyxananın qapısına gəlməzlər».

***Kaka-yi Qəzvini*** - qarabuğdayı və şirin qiyafəli bir kişi idi. Səyyar meyvə satışı və baqqallıqla məşğul olaraq, özünə çörəkpulu qazanırdı. Burada yazılan bu iki-üç beyt onun bir məşhur qəzəlindəndir:

**Beyt**

«Qətl vədəmi sabaha o pəripeykər verdi,
Lakin qorxuram ki, sabah başqa bir vədə versin.
Çün edirəm taqətsizlik, mən tərəfə az nəzər sal,
Hər kim ki, bədməstlik edər, saqi onun meyini az verər.
Vaxtını zövqlə keçirən adamı tez başdan çıxarar eşq sevdası,
Şihnənin[895] tutduğu yaramazın töhməti tez baş verər».

***Mövlana Şərmi*** - bir dərzi oğlan idi. Bazarda dərziliklə məşğul idi. Çox utancaq və yaraşıqlı idi. Şairlərdə az təsadüf edilən utancaqlıq və həyasının çoxluğu səbəbindən təxəllüsü «Şərmi» («Utancaq») idi. Raməndi dilində, Hafiz

---

[893] Sərraf - pulun dəyərindən yaxşı baş çıxaran, pul mübadiləsi ilə məşğul olan adam.
[894] Fənayi-mütləq – sufilikdə mənəvi təkamülün yeddinci mərtəbəsidir.
[895] Şihnə - bugünkü deyimlə polis rəisi anlayışına uyğun gəlir.

Sabuni tərzində duzlu şeirləri vardır və axırda qəzəl üslubunda tərəqqi etmişdi[896]. Bu ali və təravətli beyt ondandır:

**Beyt**

«Mən öz dırnağımla [közü qoparıb] yaramı təzələyəcəyəm,
[Və qanım elə çıxacaq ki,]
Sanki bağımın güllərinə təravət vermişəm»[897].

## XOŞA VAZLILARIN898 MÜTRÜBLƏRİN VƏ NƏĞMƏ ƏHLİNİN ADLARI

Cənnətməkan şah dinin qadağan etdiyi işlərdən çəkindiyi üçün şəriət nöqteyi-nəzərindən əyləncə əhlinin əhəmiyyəti və etibarı qalmamış və bu təbəqədən əşrəfin xidmətində olanlar işdən çıxarılmışdılar. Ona görə də Ustad Hüseyn Bəlyani və [hökmdarın] səadətli nağaraxanasının zurnaçısı olan Ustad Həsəndən savayı, bu təbəqədən heç kəs [şahın] xidmətində deyildi. [Şah Təhmasib] öz həyat əyyamının axırlarında hekayə danışmaqda yüksək dərəcəyə malik olan, avazı və məlahətli səsi üfüqlərdə şöhrət tapmış Hafiz Əhmədi, Hafiz Lələ Təbrizini və s. kimi bu təbəqədən hələ də orduda qalmaqda olan məşhurları da, şahzadələrin onların söhbətlərinə rəğbət göstərəcəkləri, lələ və dədə[899] [mənsəblərinə malik] olan bəzi əmirlərin onların ucbatından təbiətlərini illətə verəcəklərini və orduda günahlara meyil və rəğbətin baş qaldıracağını ehtimal edərək, işdən çıxardı. Zurnaçı Ustad Həsəni [onun-bunun] məclislərinə getdiyi üçün onu tutub məhbus etdilər və axırda ona and içdirdilər ki, [hökmdarın] səadətli nağaraxanasından savayı, heç bir [digər] yerdə zurna çalmayacaqdır. Amma həmin təbəqədən o əsnada (Şah Təhmasibin ölümü vaxtı) sağ olan adamlar İsmayıl mirzə zamanında yenidən orduya toplandılar.

---

[896] Raməndi dili - qədim İran ləhcələrindən biridir. Hafiz Sabuni XVI əsrin İran şairlərindəndir. Əslən qəzvinli olan bu şəxs müxtəlif dillərdə və ləhcələrdə şeirlər yazmağı bacarırdı (Sadiq bəy Əfşar. Məcməül-xəvas. Müqayisəli mətnin tərtibi, tərcümə, transfoneliterasiya, ön söz, izahlar və adlar göstəricisi Ə.Bağırovundur. Bakı, 2008, s.214; Seyid Mahmud Xeyri. Fərhəng-e süxənvəran və sərayəndeqan-e Qəzvin /be kuşeş-e Nəqi Əfşari/. Qəzvin, 1370, s.56).

[897] Mənbənin Bakı nüsxələrinin şairlərdən bəhs edən fəslində Mövlana Zəmiri, Mövlana Vəli, Qazı Nur və Şərmi kimi şairlərin Tehran çapına düşməyən bəzi digər beytləri də yer almışdır.

[898] S-129, v.156a; S-297, v.120b.

[899] Səfəviyyə təriqətində xəlifə, dədə, pirə kimi mənsəblər vardı və bunlar təriqət ideologiyasının yayılmasına, qızılbaşlar arasında təriqət ədəb-ərkanına riayət olunmasına xidmət edirdilər. Səfəvi şahzadələrindən hər birinin lələsi (yəni qəyyumu) ilə yanaşı, «dədə»si də olurdu. Lələ şahzadənin dünyəvi baxımdan tərbiyəçisi və himayəçisi, dədə isə onun təriqət məsələləri üzrə müəllimi hesab olunurdu. Lələlər və dədələr qızılbaş tayfalarına mənsub şəxslərdən təyin edilirdi.

Hekayət danışanlar arasında bir ***Hafiz Əhməd Qəzvini***[900] vardı ki, hekayət danışmaq sahəsində və avazının qüdrətinə görə həmkarlarından və tay-tuşlarından üstün idi.

***Hafiz Cəlacil Baxərzt***[901] - xanəndəlik və hekayət danışmaq kimi sahələri özündə birləşdirmişdi. Hər iki sahədə kamillik mərtəbəsinə malik idi və həqiqətən də, o vaxtlar bu təbəqənin digər [nümayəndələrindən] üstün idi. O, İsmayıl mirzə zamanında «çalçıbaşı» oldu. Bu beyt onun halını əks etdirir:

**Şeir**

«Faydasız səhranın olar gözəl zövqü-səfası,
Əgər orada ucalsa Cəlacilin sədası».

O əlahəzrətin (Şah Abbasın) zamanında böyük ehtiram və dərəcə əldə etdi. Axırda darüssəltənə Qəzvində axirət səfərinin ahəngini sazına köklədi.

***Hafiz Müzəffər Qumi*** - beyinlərdə belə bir fikir var ki, xanəndəlik Xorasan əhlinə, hekayət danışmaq isə İraq əhlinə məxsusdur. Hafiz Müzəffər İraq əhlindən olsa da, Xorasan üslubunda xanəndəlik edərdi və həqiqətən də, o, bu səhədə İraqda zirvə idi.

***Hafiz Haşım Qəzvin***[902] - o vaxtlar digərləri ilə bir bərabərdə olmayıb, bir o qədər də şöhrətə malik olmasa da, sonralar tərəqqi etdi və onun avazının şöləsi asimana gedib çatdı. Mərhum şahzadə Sultan Həmzə mirzənin xidmətində böyük ehtiram və dərəcəyə nail olub, həmkarlarından və tay-tuşlarından irəli getdi.

Sazəndələr zümrəsindən ***Mirzə Məhəmməd Kamança*** - əvəzsiz sazəndə idi. [Kamançadan savayı], həm də ud çalardı. İsmayıl mirzə zamanında xidmətə daxil olub, həmtaylarından və həmkarlarından üstün oldu.

***Udçalan Ustad Qulu bəy Hüseynin oğlu***[903] ***Məhəmməd Mömin*** - tayı-bərabəri olmayan bir udçalan və əvəzsiz bir sazəndə idi. Onun sazında elə bir mizrab tezliyi, əl ləzzəti və məlahətlilik vardı ki, digərlərinin əli ona çatmazdı və həqiqətən də, o, bu fəndə yek və tək idi. Axırda Xan Əhməd Gilaninin xidmətinə daxil olmağı qərara alıb, Gilana getdi və hələ cavanlığının başlanğıcında ikən ömrü orada sona çatdı.

***Şahsuvar*** - tənburi-çahartar[904] [alətində] çalardı. Ustadlıqda misilsizlikdən dəm vururdu. Amma onun musiqi ifası çox da duzlu və məlahətli deyildi.

---

900 S-129, v.156b; S-297, v.120b.
901 S-129, v.156b; S-297, v.120b.
902 S-129, v. 156b; S-297, v. 120b.
903 S-129, v.156b; S-297, v.121a.
904 Tənburi-çahartar – tənburun bir növü olub, mizrabla səsləndirilən simli musiqi alətlərimizdəndir. Üzərində dörd sim olduğu üçün «çahartar» (farsca "dörd simli") adlandırılmışdır (A.İ.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti, s.56-57,181).

***Şəmsi Şütürguhi*** - tayı-bərabəri olmayan bir ustad olub, mükafat sahibi idi və şirin təsnifləri vardı. O, mərhum şahzadə Sultan Həmzə mirzə zamanında xidmətə daxil oldu və o həzrətin xidmətində əziz və möhtərəm olub, şəfqət və qayğıkeşliklə əhatə edildi. O, əlahəzrət şah (Abbas) zamanında da böyük ehtirama və dərəcəyə malik idi.

***Ustad Məsum Kamança*** - tayı-bərabəri yox idi. Vəramin bölgəsində qardaşlarından bir neçəsi ilə birlikdə feyzyab olub, sazəndəlik dərəcəsinə çatmışdı. Nəğmə çalmaq səhəsində orada qardaşlarından daha üstün səviyyədə idi.

***Ustad Sultan Mahmud Tənburə*** - bu sahədə (tənbur çalmaqda) misilsiz və bənzərsiz idi. O, müqəddəs və ulu Məşhəddə Sultan İbrahim mirzənin xidmətində olmuş və oradan başqa bir yerə getməmişdi.

***Mirzə Hüseyn Tənburə*** - o, bu fəndə böyük tərəqqi etmişdi və tənbur çalmaqda İraqda misilsiz və taysız-bərəbərsiz idi. Amma cavanlıq aləmində ikən əbədiyyət dünyasına köçdü.

***Ustad Sultan Məhəmməd Çəngi*** - çəng[905] çalmaqda ustad idi və bu sənəti kamillik mərtəbəsinə çatdırmışdı.

Ətrafda digər sazəndələr çox olsalar da, biz bu bir neçə nəfərin adını çəkməklə mövzunu ixtisar etdik.

Qissəxanlardan, «Şahnamə» oxuyanlardan və s. bu kimi adamlardan ibarət bir təbəqə də vardı. Biz burada onlardan iki-üç nəfərin adını yazmaqla bu mövzunu bitiririk:

***Mövlana Heydər Qissəxan*** - [öz sahəsində] zəmanənin əvəz-olunmazı idi. O dövrdə onun bənzəri və tayı yox idi.

***Mövlana Məhəmməd Xurşid İsfahani*** - o da yaxşı qissəxan idi. Amma səriştə sahibləri Mövlana Heydəri ondan üstün tuturdular. Onun qardaşı ***Mövlana Fəthi*** misilsiz bir «Şahnamə» oxuyan idi. Şişirtmədən və qərəzçilik etmədən demək olar ki, onun avazının şöləsi bir fərsəx yayılardı. Uzun sözün qısası, o, bu şivəni kamillik həddinə çatdırmışdı.

## MƏRHUM ŞAHZADƏ SULTAN HEYDƏR MİRZƏNİN ŞƏHİD OLMASI, İSMAYIL MİRZƏNİN SƏLTƏNƏT VƏ PADŞAHLIQDA QƏRAR TUTMASI VƏ ONUN ƏHVALATI HAQQINDA

Daha öncə bəhs olunduğu kimi, cənnətməkan şahın kədərli [vəfat] hadisəsi üz verdikdə səltənətə və padşahlığa iddiaçı olan Sultan Heydər mirzə iki səbəbdən birinə görə - ya yüksək hörmətli atasının işarəsinə uyğun olaraq, yaxud da ki, öz anasının rəyi və tədbiri ilə dövlətxanada qalmışdı. O, oranı məqsədinə çatmaq baxımından daha əlverişli yer hesab etsə də, axırda iqbalının yoxluğu və bəxtinin qara olması ucbatından öz mətləbindən uzaq və həyatın nemətindən kənar düşdü.

[905] Çəng - qədim simli çalğı aləti. Müasir arfanın «əcdadı» hesab edilir (A.İ.Nəcəfzadə, göst. əsər, s.60-61).

Bunun bir səbəbi və əlaməti ondan ibarətdir ki, şahzadə naqis ağıllı və az düşüncəli qadınların sözünə əməl edib, yardımçılarını və tərəfdarlarını bayırda qoyaraq, özü sarayın içində qaldı. Bunun digər bir səbəbi odur ki, təsadüf üzündən [həmin gecə] hökmdar sarayının keşikçiləri İsmayıl mirzənin tərəfdarları ilə müttəfiq olan camaatdan idilər. Şahzadə ona zidd olan adamların həmin gecə keşikçi olmalarından və dövlətxananın qapılarını bağlayıb onun yaxşılığını istəyənlərdən heç kimi içəri buraxmamaları ehtimalının mövcudluğundan xəbərsiz olmuş, bunları təxmin etməyərək orada qalıb, özünü həmin camaatın məhbusuna çevirmişdi. Daha bir səbəb isə bundan ibarətdir ki, onun əleyhdarı və İsmayıl mirzənin tərəfdarı olan zəmanənin aqil qadını Pərixan xanım həmin gecə Sultan Heydər mirzənin əlində dustaq olmasına baxmayaraq, [Sultan Heydər mirzəni] bəzi yaltaq və yağlı sözlərlə aldatmağa nail oldu. Hadisənin təfsilatı belədir ki, bu vəziyyət yaranan gecə saray hərəmxanasında olan Pərixan xanım özünün şahzadənin əlində əsir və dustaq vəziyyətdə olduğunu gördü, mülayimlik və mütilikdən savayı bir carə tapmayıb, acizlik və əlacsızlıq üzündən ona ərz etdi:

- Qadınlar yüngülbeyin olurlar. Əgər ağlımın nöqsanlı və düşüncəmin az olması səbəbindən məndən bir təqsir baş veribsə, ümidvaram ki, səhv addımlarımı əfv edib, canımı bağışlayacaqsınız. Mən bu gündən etibarən tabeçilik və xidmətkarlıq yolunun yolçusu olacağam və bundan sonra mən biçarədən hcç vaxt əşrəfin razılığına xilaf olan bir hərəkət baş verməyəcəkdir.

O, bunları söylədikdən sonra dərhal qardaşının ayağını öpüb, [Sultan Heydər] mirzənin anasına dedi:

- Şahid ol ki, padşahın ayağını öpməkdə və əşrəfin hakimiyyətə gəlişini təbrik etməkdə heç kəs məndən qabağa düşmədi.

Şahzadə çox sadəlövh olduğundan bu yaltaqlığa aldanıb, bacısına lütfkarlıq və mehribanlıq göstərərək dedi:

- Hərgah sən mənimlə dost olub, qardaşın Sultan Süleymanı və dayın Şamxal sultanı mənimlə mehriban etsən, onda mənim yanımda atamızın zamanındakından daha da əziz olacaqsan.

Ülyahəzrət [Pərixan] xanım bu sözləri təsdiq etmək üçün ona and içməyi təklif etdi və o, (yəni Sultan Heydər mirzə) boynundan asdığı «Quran»ı çıxarıb and içdi. Belə olduqda [Pərixan] xanım rüxsət istədi ki, öz mənzilinə gedib, qardaşını və dayısını onun xidmətinə gətirsin. Şahzadə onun vədinə etimad edib, rüxsət verdi. [Pərixan xanım] hərəm bağçasından at meydanına gedən yolla çıxıb getdi və öz dayısı Şamxal sultanı [Sultan Heydər mirzənin hüruna] gətirib, dərgahın açarlarının ona tapşırılmasına nail oldu Beləliklə, [Şamxal sultan] hamısı şahzadənin düşmənlərindən ibarət olan üç yüz nəfər çərkəzlə birlikdə hərəmxanada ixtiyar sahibinə çevrildi. Bunun nəticəsində, aşağıda qeyd olunacağı kimi, [Sultan Heydər mirzənin] əleyhdarları məhz onların [mövqe tutduğu] istiqamətdən hərəm bağçasına daxil olub, şahzadəni qətlə yetirdilər. Lakin ülyahəzrət xanım öz sadədil qardaşına qarşı bu cür xəyanət etsə də, axırda bu bədxahlığının əvəzində bəlaya

düçar oldu ömürdən və dövlətdən bir fayda tapmadı. Bu məsələnin şərhi öz yeri gələndə qeyd olunacaqdır.

Sözün qısası, [Sultan Heydər] mirzə ertəsi gün səhər tezdən şahlıq tacını başına qoydu, cənnətməkan şahın qılıncını belindən asdı və o həzrətin mübarək möhürünün vurulduğu bir vəsiyyətnamə üzə çıxarıb iddia etdi ki, bu vəsiyyətnamə başdan-ayağa o həzrətin şərəfli xətti ilə yazılmışdır. [Həmin vəsiyyətnamədə] onun (Sultan Heydər mirzənin) vəliəhd təyin olunduğu bildirilir və xanədanın bütün şahzadələrinin, əmirlərinin, sufilərinin və tərəfdarlarının ona itaət etməsi əmr olunurdu. [Sultan Heydər mirzə] həmin yazını çalmasının bir küncünə qoyub, Çehelsütun eyvanına gəldi. Şahzadənin əleyhdarları deyirdilər ki, o vəsiyyətnamə heç də xaqanın mübarək xətti ilə deyil, xətti əşrəfin xəttinə oxşayan hərəmxananın möhtərəm qadınlarından biri tərəfindən o həzrətin ölümündən sonra yazılmışdır və üzüyü o həzrətin əlindən çıxarıb, oraya möhür vurmuşlar. Doğrusunu Allah bilir.

Xülasə, şahzadə cənabları yüzbaşılara, qorçulara, eşikağasılara, həmin vaxt dövlətxanada olan keşik və xidmət əhlinə çoxlu mülayimlik göstərib, onlara ənamlar və yaxşı vədlər verərək, bir neçə dəfə əmr etdi ki, dövlətxana dərgahının qapısını açıb, özünün bayırda toplaşmış mülazimlərini içəri buraxsınlar. Lakin həmin camaat səhərdən günortayadək onunla şərti olaraq ədəblə rəftar edib, dövlətxananın qapılarını açmamaq üçün münasib səbəblər gətirərək üzrxahlıq etdilər, müxtəlif bəhanələrlə vaxt keçirdilər və ona bu bəhanələrlə təsəlli verdilər. Kirman hakimi Qulu bəy Əfşarın qohumu olan hərəm yüzbaşısı Vəli bəydən belə bir inandırıcı rəvayət nəql edirlər:

- Mirzə həzrətləri məni çağırdı və mənə Kirman hakimi və qorçubaşı təyin ediləcəyim barədə vəd verib göndərdi ki, dərgahı mühafizə edən qorçuların yanına gedib, onlara qapıları açaraq mirzənin şəxsi mülazimlərini içəri buraxmaq barədə göstəriş verim. Mən qapının qarşısına qədər gedib geri qayıtdım və dedim ki, qorçular həyasızlıq edib belə deyirlər: «Padşah vəfat etmiş, qızılbaş tayfaları iki firqəyə bölünmüş və hər bir dəstə bunlardan hansınasa qoşulmuşdur. Lakin biz bu iki firqədən heç birinə daxil olmayaraq, mübarək dövlətxananı qorumağı, hərəmxananı və padşahın namusunu mühafizə etməyi qarşıya məqsəd qoymuşuq. Hər iki firqəyə daxil olan əmirlər və dövlət ərkanları həmrəylik nümayiş etdirməyincə hər iki tərəfdən olan dövlətsevərlərin və ağsaqqalların asayiş yaratması sayəsində işlər yoluna düşməyincə və vəlinemətin hüququnun müdafiəsindən savayı fikrindən digər bir iş keçməyən biz sədaqətlilərin könlü fəsadların və təcavüzkarlıqların baş verməyəcəyi barədə arxayın olmayınca, heç kimsənin dövlətxanaya girib-çıxmasına macal verməyəcəyik».

Belə olduqda şahzadə bildi ki, həmin camaat bu sözləri ona hiylə və məkrlə deyirlər. O, əlini qılıncına atdı və dedi:

- Mən öz qətlimi yəqinləşdirmişəm.

Lakin onun anası pərdənin arxasından bu halı müşahidə edib, fəryad qopararaq, [onun intihar etməsinə] mane oldu. Şahzadə ona etirazını bildirib,

hərəmxanaya getdi və günün axırına qədər iztirablı bir vəziyyətdə gah eşiyə çıxıb, gah içəri girib, özü üçün müəyyənləşdirdi ki, həmin camaatın həbsi altında qalıb və onun yardımçılarının və tərəfdarlarının içəri daxil olmağa macalı yoxdur.

O ki qaldı əmirlərə və dövlət ərkanına, onlar sübhə yaxın [Şah Təhmasibin ölümü barədə] kədərli hadisədən xəbər tutdular. Əmiraslan xan Əfşar özü ilə birlikdə Sultan Əhməd mirzəni də götürüb, Hüseynqulu Xüləfanın mənzilinə getdi. Araz xan Rumlunun[906] oğullarının mənzilində olan Sultan Məhəmməd mirzə də oraya gəldi və İsmayıl mirzə tərəfdarlarının hamısı oraya cəmləşdilər. Şeyxavənd camaatı, ustaclu tayfası, gürcülər və Sultan Heydərin digər tərəfdarları isə Hüseyn bəy Yüzbaşının evinə toplaşdılar. Onların başçıları Məsum bəy Səfəvinin oğlu Sədrəddin xan[907], Həmzə sultan Talış, Seyid bəy Kəmunə, Əlixan bəy Gürcü və Allahqulu xan Aycəkoğlu idilər. Onlar həmin mənzildə olan Sultan Mustafa mirzənin hüzurunda cəmləşdilər. Bəhram mirzənin oğlu İbrahim mirzə də oraya gəldi. Xülasə, burada böyük bir dəstə yığıldı. Üzdə olan əmirlərdən Heydər sultan Çabuq Türkman, Kirman[908] hakimi Qulu bəy Əfşar, möhürdar Məhəmmədqulu Zülqədər, Mirzə Əli sultan Qacar və bəzi digərləri isə günün axırına kimi öz mənzillərində qalıb, heç bir dəstəyə qoşulmadılar.

Uzun sözün qısası, hər iki dəstə öz məqsədlərinə çatmaq üçün səy göstərirdilər. Sultan Heydər tərəfdarları öz qüvvət və iqtidarlarına o qədər arxayın idilər ki, o biri dəstəni hesaba almırdılar. Onların niyyəti bu idi ki, kütləvi surətdə dövlətxananın qapısına gedərək, saraya daxil olsunlar, [Sultan Heydər] mirzəni ələ keçirib, onu taxtda əyləşdirsinlər və buna qarşı çıxan hər bir kəsi dəf etməklə məşğul olsunlar. Onlar Qəhqəhə qalasında məhbus olan İsmayıl mirzədən xatircəm idilər. Çünki qala rəisi («haris»)[909] Xəlifə Ənsar Qaradağlu onların müttəfiqi idi və o, Sultan Heydər mirzə hakimiyyətə gəldikdən sonra [İsmayıl mirzənin] barəsində hər nə hökm olunacaqdısa, ona əməl edəcəkdi. Amma onların arasında olan bəzi aqil adamlar deyirdilər ki, keşikdə duran qorçular dövlətxananın qapılarını bağlayaraq şahzadəyə xilaf çıxdıqları bir halda, dövlətxananın qapısına getdiyimiz zaman bizimlə onların arasında döyüşün baş verməsi və o camaatın zərurət üzündən şahzadəyə qəsd etməsi ehtimalı vardır. Buna görə də onlar hər saat öz rəylərini dəyişdirib, başqa bir fikrə düşürdülər. Ən nəhayət, belə qərara gəldilər ki, günün sonunda keşik növbəsinin dəyişəcəyi vaxta qədər səbir etsinlər və günün axırında «bu gecə keşik növbəsi ustaclu tayfasına məxsusdur və biz qaydaya uyğun olaraq, öz xidmətimizi yerinə yetirməyə gedirik» deyə, bu bəhanə ilə dövlətxanaya

---

906 Tehran çapında (s.193) Dərs xan Rumlu yazılıb.

907 S-129, v.158b; S-297, v.122b.

908 S-129, v.158b; S-297, v.122b.

909 Haris - lüğəti mənası «mühafizəçi», «gözətçi» deməkdir. İsgəndər bəy Münşi bir çox hallarda hansısa məntəqədəki, xüsusən də qalalardakı qarnizonların komandirlərini «haris» adlandırır və onu «kutval» termininin sinonimi kimi işlədir.

getsinlər. Lakin bu zaman o camaatın arasında olan Allahqulu sultan Aycəkoğlu dedi:

- Yaraq qurşanaraq padşahın dövlətxanası üzərinə getmək sufilikdən və sədaqətdən uzaqdır. Həm də bununla yanaşı, o işdən bir mətləb hasil olmayacaqdır. Nə qədər ki, Xüləfanın evinə bir o qədər də çox adam toplaşmayıb, gəlin əvvəlcə onun üzərinə gedib, onun işini ürəyimiz istəyən şəkildə həll edək, o dəstəni pərən-pərən salaq. Elə ki o dəstənin darmadağın olunması hamının qulaqlarına çatdı, dövlətxana əhli heç bir çətinlik olmadan qapını açıb, öz xidmətkarlıqlarını nümayiş etdirəcəkdir.

Doğrudan da, ağılla görülməli olan iş məhz bu idi. Lakin bəxtsizlik bu təbəqənin halına tuş gəldiyindən hər birisi bir aləmə iddiaçı olan o camaatın biliyinin və uzaqgörənliyinin üzərinə qürur və qəflət pərdəsi çəkildi.

Ağıllı, dünyagörmüş, düşüncəli və tədbirli bir kişi olan Hüseynqulu Xüləfaya gəldikdə isə, o, Sultan Heydər tərəfdarlarının onun üzərinə gələcəklərindən böyük narahatçılıq keçirirdi və bunu təxirə salmaq üçün tədbirlər görürdü. Bu məqsədlə o, əvvəlcə təcrübəli və ağsaqqal kişilərdən olan Budaq Rumlunu və Şahqulu sultan Təbətoğlu Zülqədəri[910] Sultan Mahmud mirzə tərəfindən Sultan Mustafa mirzənin, Hüseyn bəyin və onların ardıcıllarının yanına göndərdi ki, məsləhət meydanına ayaq qoyub, fitnə və fəsadın ortadan qalxmasına səy göstərsinlər. Onun onlara göndərdiyi ismarışın xülasəsi belə idi: «Gəlin, ikitirəlikdən əl çəkək, hamımız bir-birimizlə ittifaq edib, əvvəlcə qəm libasını geyinərək, cənnətməkan şahın təziyəsinin vacibatını və onun mübarək cəsədinin yuyulub kəfənə tutulmasını yerinə yetirək. Ondan sonra isə ağsaqqalların hamısı birlikdə oturub sülh və fəsad məsələlərini və hər iki təbəqənin arzu və istəklərini öz aramızda müzakirə edərək, dinin və dövlətin mənfəəti baxımından nə məsləhət olarsa, dinin və dövlətin mühafizəsini bu iki şahzadədən hansı daha yaxşı yerinə yetirə bilərsə və [şahlığa] daha layiq olarsa, onu padşah seçərik».

[Hüseynqulu Xüləfa] bu təklifin faydasız olacağını bilsə də, vaxt udmaq üçün onları göndərdi. Onlar gəlib ismarışı çatdırdılar. Bu biri tərəfdən onlara kobud cavablar verildi və bir müddət vaxt bu qilü-qalla keçdi. Bundan sonra [Hüseynqulu Xüləfa] digər bir tədbir görüb, bir nəfəri Qəzvinin bir fərsəxliyinə göndərərək ona tapşırdı ki, özünü tələskənliklə şəhərə yetirib, [yalandan] İsmayıl mirzənin gəlişi barədə müjdə versin. Əvvəlcədən qərara alındığı kimi, süvari öz atı ilə birlikdə tərə qərq olmuş bir halda özünü şəhərə çatdırıb elan etdi ki, budur, İsmayıl mirzə gəlib çatmaqdadır. Dərhal şəhərdə xəbər yayıldı ki, cənnətməkan şah on iki gün[911] bundan öncə bir nəfəri şahzadəni çağırmaq üçün gizlincə göndərmişdir, onu təcili surətdə gətirib gəlirlər və artıq indi o, sürətlə və

---

[910] Tehran çapında gah Təbətoğlu, gah Beytoğlu yazılmışdır. Əslində birinci variant düzdür (bax: F.Sümer. Safevi devletinin kuruluşu, s.131). Ona görə də biz hər yerdə Təbətoğlu formasına üstünlük verdik.

[911] Bakı nüsxələrində «on-on iki gün» yazılmışdır (S-129, v.159b; S-297, v.123b).

tələskənliklə gəlib çatmaqdadır. Təbiətcə onu istəyən camaat və sadə adamlar səs-səda və hay-küy salıb, Xüləfanın evinə tərəf üz qoydular və orada böyük bir qələbəlik yarandı. Sultan Heydər tərəfdarları bu xəbərdən xeyli kədərləndilər və pərişan oldular. Bu, günün axırına kimi onların hərəkətə başlamasının təxirə düşməsinə bais oldu. Nəhayət, günün axırında aydın oldu ki, bu xəbər yalandır və məhz Xüləfanın əməlidir. Amma, həqiqətən, bu tədbirin təsiri böyük oldu. Günün axırında camaatın əksəri Sultan Heydər tərəfdarlarının vəziyyətini kədərlə müşahidə edib, onların hakimiyyətə yiyələnəcəklərindən ümidsiz oldu. O vaxta qədər öz mənzillərində oturmuş Məhəmmədqulu xəlifə Möhürdar, Heydər sultan Çabuq Türkman və s. kimi bəzi əmirlər Xüləfanın evinə getdilər.

Hüseyn bəy və onun ardıcılları günün axırında dövlətxananın keşiyini təhvil almaq üçün getməyə qərar verib, Sultan Mustafa mirzənin iştirakı ilə atlanaraq, dövlətxanaya sarı üz qoydular. Hərbçilərin atlanması, qələbəliyi və izdihamı vaxtında Sultan İbrahim mirzə bunlardan ayrılaraq, o həndəvərdə yerləşən evinə getdi. Həmçinin Allahqulu sultan Aycəkoğlu öz mənzilinə gedib, onlarla birlikdə hərəkət etmədi. Hüseyn bəy əvvəlcə xiyabandan keçən ənənəvi yolla irəlilədi. Elə ki onlar [Məhəmmədqulu] xəlifə Möhürdarın və Qulu bəy Əfşarın evinin yanına çatdılar, onların adamları küçəni bağlayıb, damdan çoxlu ox və tüfəng ataraq, o camaata yol vermədilər. Hüseyn bəy döyüşməyi məsləhət bilməyərək. o yoldan dönüb, dövlət xəzinəsinin («xəzaneyi-amirə») arxa tərəfindən keçən yolla irəlilədi. Xəzinənin mühafizəçiləri onların xəzinənin üstünə gəldiklərini güman edərək, onlara mane olmağa başlayıb, əvvəlcə çoxlu ox və tüfəng atdılar. Bunu görən Hüseyn bəy fəryad edib dedi:

- Bizim heç kimlə savaşımız yoxdur. Keşik çəkməyə gedirik. Axı sizin bizimlə nə işiniz var?

Bu sözlərdən sonra o camaat döyüşdən əl çəkdi. Hüseyn bəy və dostları dövlətxanaya çatıb, qapının qıfıllı olduğunu gördülər. Hərçənd qapını döysələr də, qapı açılmadı. Onlara xəbər çatdı ki, Xüləfa və onun ardıcılları xiyaban yolu ilə gələrək, hərəm bağçasına bitişik olan at meydanına daxil olublar. Sultan Heydər tərəfdarları həyəcanlandılar ki, məbada, o camaat onlardan öncə həmin yolla hərəm bağçasına girər və şahzadəyə qəsd edər. Buna görə də onlar dövlətxananın qapısını nəcəq[912] zərbələri ilə sındırdılar və dövlətxananın üzərinə tökülüşdülər. Həmin vaxt [Sultan Heydər] mirzə hərəmxanada idi. [Sarayın] qapıları bağlı olduğundan onun tərəfdarları hansı tərəfə getdilərsə, yol tapa bilmədilər, nəhayət, süfrəxana tərəfdən [saraya] daxil oldular. Onlar hansı qapıya çatırdılarsa, onu sındırıb içəri daxil olurdular və «Şah Heydər» deyə qışqıraraq evlərə girirdilər.

Amma digər tərəfdən Xüləfa və ardıcılları at meydanına gəlmiş, Şamxal sultan isə hərəm bağçasının qapısını açıb, əksəri süvari olan o camaatla birlikdə hərəm bağçasına daxil olmuşdu. Onlar da şahzadəni axtarmaqla məşğul oldular.

---

912 Nəcəq və ya nacaq - baltaya bənzər bir silahdır (H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, s.390).

Sultan Heydər ona müxalif olanların hücum etdiklərini gördükdə hərəmxanadan çıxmaq istəsə də, qapıları bağlı və dər-divarı özünə müxalif görüb, bayıra yol tapmayaraq, yenidən [hərəmxananın] içərisinə getdi və anasının yanında oturdu. O, ümid edirdi ki, qızılbaşlar şah hərəminin hörmətini saxlayaraq içəri girməzlər və öz adamları gəlib çatanadək o, bir qədər özünü orada hifz edə bilər. Amma o bilmirdi ki, sədaqət sahiblərinin həyatının bəxtəvərlik qayəsi olan hərəm bağçasına girmiş süvarilər dəstəsi ədəb-ərkana riayət etməyəcəkdir. O camaat öz ayaqlarını ədəb dairəsindən kənara çıxarıb, hərəmxanaya və qadınların arasına gəldilər və onu (Sultan Heydər mirzəni) tələb etdilər. Başqa bir əlacı olmayan şahzadə qadın libası geyinərək, öz anası, kənizlər və qadınlarla bərabər evdən bayıra çıxıb, digər bir evə getməyə başladı. Deyilənə görə, hərəm eşikağasıları zümrəsindən olan Əli bəy Şamlu onu tanıyıb işarə etdi ki, sizin axtardığınız [şəxs] budur. Sultan Süleyman mirzənin qulamı Cəmşid bəy Çərkəz və yüzbaşı Vəlixan bəy Rumlu [Sultan Heydər mirzənin] üzərinə atılaraq, onu tutub gətirdilər. Xüləfa və Şamxal sultan dərhal onun qətlinə göstəriş verdilər. Tanrıdan bixəbər olan həmin iki nəfər (Cəmşid bəy Çərkəz və Vəlixan bəy Rumlu) ona nəcəq, qılınc və xəncər vuraraq, səadət gülşənində boy atıb inkişaf etmiş və yanından səba küləyinin belə əsməyə macalı olmamış o səltənət bağçasının sərvini yerə sərdilər. Elə həmin andaca onun çərxi-fələyin çənbərində əyilməmiş mübarək başını bədənindən ayırdılar və şahzadə [Sultan Heydər mirzənin] dayısı Əlixan bəy Gürcü, Zal bəy Gürcü və şahzadənin digər fədailəri qapıları sındırıb, «Şah Heydər» deyə-deyə və nərə çəkə-çəkə hərəmxana qapısının yaxınlığına çatdıqda həmin başı eyvanın damından həmin dəstənin üzərinə tullayıb bağırdılar: «Budur sizin padşahınızın başı».

Bu vəziyyəti gördükdə o adamların (Sultan Heydər mirzə tərəfdarlarının) hücum etmək və hakimiyyətə yiyələnmək atəşləri məyusluq suyunun təsiri ilə söndü. Onların əlləri işdən və işləri əldən çıxmış oldu. O tayfadan tale üz döndərdiyindən, əllərində kama çatmış cavanbəxt şahzadə Sultan Mustafa mirzə kimi hakimiyyətə yüksəlmək səadətinə malik olan iyirmi yaşlı bir gəncin olmasına baxmayaraq, Sultan Heydər tərəfdarları təbəqəsinin əvəz olaraq onu padşahlığa ucaltması mümkün olmadı. Onların bəsirət gözü bu vəziyyəti gördükdə tutqun və qaranlıq oldu və onlar şəhərdə qalıb öz hallarına digər bir çarə qılmağa qüdrət tapmayaraq, kütləvi surətdə dövlətxanadan çıxıb, səhraya üz qoydular ki, orada at üstündə bir məşvərət edərək, söyləyəcəkləri rəylər əsasında bir qərar qəbul edib, ona əməl etsinlər. Fələk xoşbəxt hökmdarın (Şah Abbasın) səltənət və padşahlıq əşyalarını qəzavü-qədər lövhəsində qeyd olunan vəchlə tərtib etdiyi üçün bu təbəqənin heç bir tədbiri baş tutmadı və onların doğru hesab etdikləri işlər xəta ilə nəticələndi.

Xülasə, dövlətxanadan çıxdıqdan sonra onların döyüşçülərinin və camaatlarının yüksək vəzifəyə, ad-sana və titullara malik olmayan üçdə iki hissəsi öz evlərinə getdilər. Sultan Mustafa mirzənin və Hüseyn bəyin yanında bir o qədər də çox adam qalmadı. Onlar əlacsız qalıb, fərar etdilər. Elə ki səhər açıldı, [onların

yanında] qalanların hamısı bir-birindən qorxub çəkinməyə başladılar. Ustaclu tayfasından olan bəziləri onlardan ayrılaraq Vəraminə gedib, Sultan Heydər tərəfdarlarından olan Piri bəy Qoçuluya qoşuldular. Kəzzaz[913] və Kərəhrudda, həmçinin onların ətrafında məskən tutmuş on min ailədən ibarət bayat tayfası Sultan Mustafa mirzənin mülazimləri olduqlarından həmin şahzadə o camaatın yanına getmək istədi. Belə olduqda təfriqəçilik və pərakəndəlik baş verdi. Belə ki, iki-üç mənzil yol boyunca şahzadə ilə bərabər irəliləyən Hüseyn bəy bayat tayfasının xəyanət edəcəyindən ehtiyatlanıb, büsbütün qarşılıqlı hörmət və dostluq münasibətlərinə malik olduğu Luristani-fili [vilayətinin] yarısının hakimi Məhəmmədi Lurun[914] yanına getməyi arzu etdi. O, öz qardaşlarını şahzadənin yanında qoyub, özü onlardan ayrıldı, üst paltarlarını çıxarıb, öz əşyalarını bir çobana verərək, özü çoban paltarı geyindi və özünü Luristana yetirmək üçün piyada yol getməyə başladı. Lakin o, yüksək həyat səviyyəsinə malik, pakizə xilqətli və üstün mənsəbli bir şəxs olduğu üçün piyada yol getməyin və çox ac qalmağın cəfasına dözə bilməyərək, özünü bir yaşayış məskəninə verdi. O səhrada məskən salmış çöl adamları davranışından və simasından onun yüksək mənsəbli bir şəxs olduğunu müşahidə edib bildilər ki, o, dava-dalaşdan qaçanlardan biridir. Hacı Veys bəy Bayatın adamlarından olan Xoca Fərrux adlı birisi onu tanıyaraq tutub saxladı və İsmayıl mirzə Qəzvinə daxil olan gün onu da Qəzvinə gətirdilər.

Amma Mustafa mirzənin əhvalatı bu cür oldu ki, o şahzadə bayat tayfasının yanına gəlib çatan kimi Hacı Veys onu ələ keçirdi. O, şahzadəyə çox da ehtiram göstərmədi. O, zahirən [Sultan Mustafa mirzəyə] münasibətdə ədəb qaydalarına riayət etsə də, batinən şahzadəyə nəzarət etmək üçün bir dəstə təyin etdi və o saat Qəzvinə adam göndərib, Xüləfaya və İsmayıl mirzənin [digər] tərəfdarlarına bildirdi ki, şahzadəni tutub saxlamışam və padşahın səadətli məiyyəti Qəhqəhə qalasından səltənətin paytaxtına gəlib çatdığı vaxt mən də onu ali taxtın ətəklərinə gətirib gələcəyəm. Onun, Hüseyn bəyin və Sultan Heydər mirzənin [digər] tərəfdarları təbəqəsinin əhvalatının geridə qalan hissəsi İsmayıl mirzənin hakimiyyəti əyyamının təsviri zamanı bəyan qələmi ilə yazılacaqdır.

Uzun sözün qısası, Xüləfa və İsmayıl mirzənin [digər] tərəfdarları Sultan Heydər mirzənin qətlindən və düşmənlərinin təfriqə düşməsindən sonra o gecə dövlətxananın keşiyində bir dəstə [əsgər] qoyub, öz mənzillərinə qayıtdılar və o təbəqədən böyük bir dəstə elə həmin gecə atlanıb, Qəhqəhə qalasına sarı üz tutdular. Həmçinin o vurhavurdan sağ çıxmış ustaclu tayfasından olan bəziləri də İsmayıl mirzənin xidmətinə yollandılar. Həmin günün səhərisi bir sıra əmirlər və şahzadələr hökmdar sarayına yığışdılar. İbrahim mirzə atlanmaq zamanı gələndə o camaatdan (Sultan Heydər mirzə tərəfdarlarından) ayrılıb dövlətxananın üzərinə gəlməməsindən yararlanaraq, özünü İsmayıl mirzə tərəfdarı adlandırıb,

---

[913] Kəzzaz - Həmədandan cənub-şərqdə, Kərəhrud yaxınlığında yaşayış məntəqəsi.
[914] S-129, v.161a. Tehran çapında (s.196) Lur əvəzinə «Tərke» yazılıb.

dövlətxanaya gəldi. Əmirlər ona lazım olduğu kimi təzim etdilər və ehtiram göstərdilər. Allahqulu sultan Aycəkoğlu da atlanmaq vaxtı onlardan ayrılıb öz evinə getməsindən istifadə edərək, Pirə Məhəmməd xanın oğlu Əlixan bəylə və bir sıra digər ustaclu əmirləri ilə birlikdə dövlətxanaya gəlib, əmirlər cərgəsində oturdu. Amma onun orada bir abır-hörməti qalmamışdı. Zal bəy Gürcü, Həmzə sultan Talış və bir çox digər Sultan Heydər tərəfdarları da vardı ki, [Qəzvində] qalmaqda idilər. Onların bəzisi yaralı idi, bəziləri isə Hüseyn bəydən ayrılıb, onunla getməmişdilər. Onların hamısını evlərindən tutub, dövlətxanaya gətirdilər və intiqam qılıncının zərbəsi ilə gedər-gəlməzə göndərdilər.

Sədrüşşəriə Gilaninin oğlu Həkim Əbu-Nəsr xasseyi-şərifənin təbibləri silkinə daxil idi və Sultan Heydər tərəfdarları zümrəsindən idi. O, cənnətməkan şahın vəfatından sonra [Sultan Heydər] mirzəyə yoldaş olub, dövlətxanada qalmışdı. Yuxarıda qeyd olunmuş hadisələr cərəyan edən vaxt o, eşiyə çıxmağa yol tapmayıb, dövlətxananın mənzillərindən birindəki buxarının içində gizlənmişdi. Bəzi inadkarların təhriki və qızışdırması ilə hovuzxananın qorçuları onu müalicə zamanı [Şah Təhmasibə] xəyanət etməkdə və [Sultan Heydər] mirzənin göstərişinə əsasən, nürənin tərkibinə yaraya bais olan əzabverici zəhər qatmaqda ittiham edərək, onu [buxarıdan] çıxarıb, tikə-tikə doğradılar.

[Sultan Heydər] mirzənin lələsi olan Sədrəddin xan Şeyxavəndi həbsə aldılar ki, padşah onun barəsində hər nə hökm edərsə, yerinə yetirsinlər. [Həmin zaman] hökm və fərmanın istinad nöqtəsi Pərixan xanıma məxsus idi. Əmirlər arasında isə bu cür böyük bir işi həyata keçirmiş Hüseynqulu Xüləfanın başı lovğalıq və qürurdan fələyə dəyirdi və şahzadələrin əmirlərinin heç biri onun fərmanından boyun qaçırmırdılar. Xanım həzrətlərinin buyuruğu ilə əmirlər zümrəsindən olan Heydər sultan Çabuq Türkmanı İsmayıl mirzəni gətirmək üçün Qəhqəhə qalasına göndərdilər.

Üləmalar və şeyxlər toplaşıb, cənnətməkan şahla Sultan Heydər mirzənin cəsədlərinə qüsl verdilər. Cənnətməkan şahın cəsədini tabuta yerləşdirib, əbədi mövcud olan [Tanrının] rəhmətinə tapşıraraq, dövlətxanadakı Şirvani evinə qoydular. Sultan Heydər mirzənin cəsədini isə İmamzadə Hüseynin - ona və əcdadına salam olsun - astanasına aparıb, orada dəfn etdilər.

Xülasə, bu hadisənin baş verdiyi seşənbə günü, ayın 15-dən (14 may 1576) növbəti həftənin cümə gününə qədərki on gün ərzində darüssəltənə Qəzvində fitnə və çaxnaşma atəşi elə bir səviyyədə alovlandı ki, həm aşinaları, həm də biganələri yandırdı. Xalq arasında böyük [qiyamət] gününün vahiməsi yayıldı. Məhəllələrin əclaf və alçaq adamları qarışıqlıq və fəsad saldılar. Hər kəsin ki, kiminləsə ədavəti vardı, heç tərəddüd etmədən onu qətlə yetirməyə çalışırdı. Heç bir kəsin qüdrəti yox idi ki, qızılbaş iğtişaşçılarının və əclaf adamların ziyankarlığının qorxusundan başını evdən bayıra çıxara bilsin. Hər kəs öz vəziyyətinə münasib sayda yaraqlı adamlar toplayıb, öz mühafizəsini təşkil edirdi.

Nəhayət, səfər ayının 24-nə (23 may 1576) təsadüf edən növbəti həftənin cümə günü carçılara əmr verildi ki, Mirzə Əli sultan[915] Qacarla birlikdə məhəllələrdə car çəksinlər ki, küçəbəndlər (barrikadalar) açılmalıdır, başqasına hücum edən şəxs cəzalandırılacaqdır və bazarlar öz fəaliyyətlərini bərpa edərək, alış-verişlə məşğul olmalıdırlar. Həmçinin əhalini came məscidinə cəlb etdilər. Bütün şahzadələr və əmirlər də came məscidində hazır oldular və orada səltənət və padşahlıq xütbəsi İsmayıl mirzənin adına oxundu. Xətib əvvəlcə cənnətə köçmüş şahın təziyəsi üçün şahanə bir mərsiyə deməyə başladı və elə ki, o, «şəhər möhnət və qəmlə doludur, ey şəhriyar, haradasan?» misrasını oxudu, zəmindən və zamandan fəryad və fəğan qalxdı.

İsmayıl mirzənin gəlişinədək hər gün cəmi əmirlər Hüseynqulu Xüləfanın evinə yığışıb, ona mülazimlik edirdilər və onunla bərabər, Pərixan xanımın evinə gəlib, mülk və malla bağlı işlər baxımından zəruri olan məsələləri onun ərzinə çatdırırdılar. Heç bir kəsin həddi və ixtiyarı yox idi ki, xanımın hökmündən və fərmanından çıxa bilsin.

Gilanın Simam, Əşkur və Simgər məntəqələrində olan Solağ Hüseyn və Ərdoğdu xəlifə bu əsnada darüssəltənə Qəzvinə gəldilər. Təkəlü tayfasından olan fəsadçılar istədilər ki, sabiq zamanlardan ustaclularla təkəlülər arasında olan ədavəti təzələsinlər. Belə ki, cənnət məskənli şahın zamanında, xüsusən də Herat hakimi Məhəmməd xan Şərəfəddinoğlunun övladı Qazaq xanın[916] qiyamının yatırılması vaxtı ustaclu tayfasından təkəlülələrə qarşı pisliklər baş verrmişdi və bu səbəbdən də təkəlülər [şahın] xidmətində durmağın səadətindən, ehtiram büsatından və yüksək rütbələrdən uzaq düşmüşdülər. İndi bu həngamədə onların əlinə belə bir fürsət keçmişdi ki, [ustaclulardan] intiqam alsınlar. Buna görə də [təkəlülər] həmin tayfadan olan Allahqulu sultan Aycəkoğlunu və Qəzvindəki ustaclu əmirzadələrinin böyük bir hissəsini qətlə yetirmək istədilər və bu barədə Hüseynqulu Xüləfa ilə məsləhətləşdilər. Bu sonuncu şəxs ustacluların dövlətxana üzərinə getdikləri gün Allahqulu sultanın «doğru fikir budur ki, əvvəlcə Hüseynqulu Xüləfanın üstünə gedək» dediyini eşitmişdi və bir dəfə söhbət əsnasında ona kinayə ilə demişdi ki, əgər Sultan Heydərin tərəfdarları sənin təklifinə əməl etsəydilər, onların işi yaxşı baş tutardı. Məhz bu cəhətə görə o, özünü kənara çəkərək, [təkəlü] camaatına bir o qədər də mane olmağa çalışmadı və onlar onun rəftarından özlərinə qarşı bir əngəlin olmadığını müşahidə edib, kütləvi surətdə atlanaraq, Allahqulu sultanın evinə sarı üz tutdular. [Allahqulu sultanın adamları] bundan xəbər tutub, qapıları bağladılar və müdafiə mövqeyi tutdular. Lakin onun sədaqətsiz mülazimlərindən əksəri kömək göstərməkdən əl çəkərək, öz başlarının çarəsinə baxdılar. Onlar içərisində qətiyyət sahibi olan qırx nəfər mətanət göstərib, döyüşməklə məşğul oldular. Təxminən min beş yüz nəfərdən

[915] S-129, v,162a; S-297, v.126b. Tehran çapında (s.197) Sultan Əli mirzə Qacar yazılıb.

[916] S-129, v.162b; S-297, v.126b. Tehran çapında (s.197) Qara xan yazılmışdır.

ibarət olan təkəlülər qapıdan və damdan içəriyə tökülüşüb, o camaatı qılıncdan keçirdilər. Allahqulu sultanı, onun neçə-neçə oğlunu və qohumunu, həmçinin Pirə Məhəmməd xanın oğlu Əlixan bəyi, çavuşlulardan və digər ustaclu əmirlərindən bir neçəsini, cəmi iyirmi dörd nəfəri qətlə yetirdilər, onların evlərini qarət və tarac elədilər və hətta onların arvad-uşaqlarını çılpaq və üryan etdilər. Həmçinin əclaf, alçaq adamlar və qara camaat da təkəlülərin bəhanəsindən yararlanaraq, Sultan Heydər tərəfdarlarının evlərini qarət və talan etməyə başladılar. Heç kimsə onların qarşısını alıb mane ola bilmədi. Hüseyn bəyin, Sədrəddin xanın, Həmzə sultanın və s. Sultan Heydər tərəfdarlarının evlərindən elə zinətli bər-bəzəklər, mallar və əşyalar çıxdı ki, onlar heç xəyal xəzinəsinə də sığmazdı. O təbəqənin arvad-uşaqlarının başına son dərəcə xiffət və rüsvayçılıq gəldi.

Xəvar və Reydə olan Əmir xan Mosullu Türkman, Hüseynxan sultan Xınıslu ilə ittifaqa girərək, Piri bəy Qoçulunu və onunlu birlikdə Vəramində olan ustacluları qətlə yetirmək arzusuna düşdü. Onlar onun evinin üstünə gedib, oranı mühasirəyə aldılar. Onun qoşununun əksəriyyəti qaçıb dağılışdı. [Piri bəyin] yanında yalnız ad-sana və rütbəyə malik olan otuz-qırx nəfər adam qaldı və onlar oxa, kamana əl ataraq, tirkeşlərində[917] ox qalana qədər vuruşdular. Sayları on min nəfərədək olan türkmanlar və xınıslular çoxlu səy göstərərək, Piri bəyi bütün o adamlarla birlikdə qətlə yetirdilər. Onların malları və əşyaları talan edildi.

Bütün bu çaxnaşma və qovğaların səbəbi o idi ki, on-on beş gün ərzində Qəhqəhə qalasından heç bir xəbər gəlməmişdi. Əmirləri narahatlıq bürümüşdü ki, məbada, Sultan Heydər tərəfdarları Xəlifə Ənsar Qaradağlunun razılığı ilə İsmayıl mirzəyə qarşı qəsd etməyi düşünmüş olsunlar. Ona görə də aləmi sahibsiz təsəvvür edən adamlar intizamsızlıq etməyə başlamışdılar. Nəhayət, İsmayıl mirzədən və onun qaladan çıxması barədə səhih bir xəbər gəlib çatdı. [Pərixan] xanım hökm etdi ki, təkəlü əmirləri padşahı qarşılamağa gedib, şəhərdə qalmasınlar. Onlar yola çıxdılar. Bununla da çaxnaşma və qovğa bütünlüklə sakitləşdi. Onların gedişindən sonra eşikağası mənsəbinə malik olan Sultan İbrahim mirzə ilə nazir (naziri-büyutat) Mirzə Salman birlikdə səltənət və padşahlıq əşyalarını, padşahın zərli[918] çətirini, nağarasını və büyutatını götürüb, onu qarşılamağa getdilər və Zəncan çəmənində onun hüzuruna yetmək şərəfinə nail oldular.

## İSMAYIL MİRZƏNİN İRAN TAXTINA ƏYLƏŞMƏSİ VƏ ONUN HAKİMİYYƏTİ ZAMANINDA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Öncədən qeyd edildi ki, cənnətməkan şahın yüksək məqamlı övladı və İsgəndər şanlı nəvvabın doğma qardaşı olan İsmayıl mirzə öz cavanlığından irəli

[917] Tirkeş – ox qabı.
[918] S-129, v.163a; S-297, v.127a.

gələn bəzi yanlış dostluq əlaqələrinə malik idi[919]. Məsələn, o, qızılbaşlardan olan bəzi başıpozuqlarla oturub-dururdu ki, bu da cənnətməkan şahın şərəfli xatirinə xoş gəlmirdi. Buna görə də [şah] onu hökmdar ordugahında saxlamağı məsləhət görməyərək, İsgəndər şanlı nəvvabı darüssəltənə Heratdan geri çağırdı və onun əvəzinə [İsmayıl mirzəni] Xorasana hakimlik etməyə göndərdi, Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü isə [İsmayıl] mirzənin lələsi təyin edildi. Lakin [İsmayıl mirzənin] Xorasandakı davranışı da hökmdar tərəfindən bəyənilmədi. Həm də şahda təkəlü tayfasına münasibətdə bir qədər etimadsızlıq yaranmışdı. Buna görə də fərmana əsasən, İsgəndər şanlı nəvvab yenidən Herata göndərildi, o, (yəni İsmayıl mirzə) isə geri çağırıldı. Ona heç şahla görüşmək şərəfinə nail olmaq imkanı da verilmədi. Qorçubaşı Sevindik bəy ali əmrə uyğun olaraq, onu Qəzvin ətrafından keçirib, Qəhqəhə qalasına apardı. Qalaya hər neçə ildən bir yeni hakim təyin olunurdu və onlar şahzadənin mühafizəsində dururdular. O, bu minvalla on doqquz il, altı ay və iyirmi bir gün qalada yaşadı.

Bu əsnada (Şah Təhmasibin vəfatı vaxtı) qala hakimliyi Xəlifə Ənsar Qaradağluya məxsus idi. Həmin vaxt sayları səkkiz nəfərdən çox olmayan bir qorçular dəstəsi cənnətməkan şahın əmri ilə şahzadəni (İsmayıl mirzəni) qorumaqla məşğul idi. Cənnətməkan şahın vəfatı və Sultan Heydər mirzənin qətli xəbəri ona da gəlib çatdı. Təsadüfən, həmin vaxt Xəlifə Ənsar ova getmişdi və qalanın yaxınlığında deyildi. İsmayıl mirzə Xəlifə Ənsara etimadsızlıq göstərir, onu Sultan Heydər tərəfdarı hesab edir və Sultan Heydərin qətlinə əmin olmayıb, bunun yalan ola biləcəyini ehtimal edirdi. Buna görə də o, qorçularla müttəfiq olub, Xəlifənin qalada olan iyirmi nəfərə qədər mülazimini bir iş bəhanəsi ilə tək-tək çağırtdırıb, onları tutub saxlatdırdı və dəqiq xəbər gəlib çatana, yuxarıda qeyd olunmuş hadisələrin doğruluğu aydın olana və ardıcılları və tərəfdarları [qala ətrafına] toplaşanadək qalanın qapılarını örtüb, giriş-çıxış yollarını bağladı.

Xəlifə Ənsar şikargahda[920] olarkən bu barədə qəti xəbər eşidib bildi ki, Sultan Heydər mirzənin başına iş gəlib. O, qalanın ətəyinə gəlsə də, qapının bağlı olduğunu gördü. Nə qədər yalvarıb-yaxararaq bəndəliyini izhar etsə də, xeyri olmadı. Xülasə, üç gün ərzində heç bir canlıya qalaya daxil olmaq imkanı verilmədi. Axırda ordu əhlindən və Azərbaycan əhalisindən ibarət böyük bir kütlə qalanın ətəyində hazır olduqda və Sultan Heydərin qətl hadisəsi təsdiqləndikdə qapı açıldı, çox-çox adamlar qalaya gedib, [İsmayıl mirzəyə] səcdə etmək şərəfinə nail oldular. Ustaclu tayfasından da bir dəstə adam [qala ətrafına] gəlmişdi. Onların arasında Sultan Heydər mirzənin həmsöhbətlərindən olan bir kişi də özünün bir neçə nəfər adamı ilə birlikdə vardı və İsmayıl mirzə qiyabi olaraq onları tanıyırdı. Onları qalada qətlə yetirdilər. Digər ustaclu əyanları qorxuya və vahiməyə düşərək,

[919] Burada İsgəndər bəy Münşi «yanlış dostluq əlaqələri” deyərkən İsmayıl Mirzənin bəzi qızılbaş rəisləri ilə sövdələşməyə gedərək dövlət çevrilişi edə biləcəyinə işarə edir.
[920] Şikargah – od edilən yer, ov məkanı.

özlərini darülirşad Ərdəbilə çatdırdılar və övliyalar sultanı [Şeyx Səfiəddinin] müqəddəs məqbərəsinə sığındılar.

Bir sözlə, İsmayıl mirzə Qəzvindən onun ardınca gəlmiş Heydər sultan Çabuqun gəlib çatmasından və özünün seçdiyi saatda əsgərlərin toplanmasından sonra qaladan çıxıb, Heydər sultanın alaçığında məskunlaşdı. Hər gün çoxlu adamlar gəlib, ona səcdə etmək və ayağını öpmək şərəfinə nail olurdular. Qaradağlu camaatı Xəlifə Ənsarı qətlə yetirmək istədi. O, özünü əşrəfin hüzuruna çatdırıb ərz etdi:

- Başdan-ayağa təqsirkaram və cəzaya layiqəm. Əgər əşrəf mənim qətlə yetirilməyimə razıdırsa, onda göstəriş versin ki, astananın mülazimləri bu hökmü icra etsinlər. Yox, əgər bu bəndənin əfv olunması barədə sərəncam verilərsə, onda mənə mümkün qədər rəğbət və iltifat göstərilsin ki, mən bu xəcalətdən və başıaşağılıqdan qurtulum.

İsmayıl mirzə buyurdu:

- Mən nəzir demişdim ki, əgər düşmənlərin tələsindən xilas olsam və tale mənim üzümə gülsə, heç kimdən intiqam almayacağam. Sən xidmətkarlıq və nökərlik borcunu yerinə yetirib, öz vəlinemətin olan [Şah Təhmasibin] əmrinə riayət edərək, məni həbsdə saxlamısan və mənim təlimatlarıma məhəl qoymamısan. Yaxşı nökər bu cür olmalıdır ki, ona tapşırılan işi yerinə yetirərkən heç kimə, hətta mənim kimi bir şah oğluna etina etməmiş olsun.

[Bu sözləri dedikdən] sonra [İsmayıl mirzə] hökm etdi ki, sözügedən şəxs əvvəlki təki əmirlər silkinə aid edilsin. Beləliklə, [Xəlifə Ənsarın] canı narahatlıqdan bir qədər xilas oldu və onun [öldürüməsi] barəsində istək qaradağluların xatirindən silindi.

Sözün qısası, İsmayıl mirzə üç gün sonra qalanın ətəyindən köç etdi. O, yolu asta-asta qət edərək, darülirşad Ərdəbilə gəldi, müqəddəs məqbərəni ziyarət etmək şərəfinə yetdi və oradan çıxıb, mənzilbəmənzil irəlilədi. Zəncan çəmənində Sultan İbrahim mirzə, nazir Mirzə Salman və cənnətməkan şahın xidmət əhlinin əksəriyyəti hərəmxanadan, divanxanadan və padşah büyutatından ibarət mübarək dövlətxananın çadırlarını qurmuşdular və padşahın zərnigar çətirini onun üstünə vurmuşdular. [İsmayıl mirzə] böyük bir əzəmət və şövkətlə ordugaha gəlib, dövlətxanaya daxil oldu və İbrahim mirzə onunla görüşmək şərəfinə nail olub, xeyir-dua və təbrik səcdəsini yerinə yetirdi. İsmayıl mirzə onu mehribanlıqla ağuşuna çəkib, əhvalını soruşdu, onunla nəvazişlə rəftar etdi, ona «qardaş» deyə müraciət edərək, onu özünün məclis həmdəminə və daimi həmsöhbətinə çevirdi.

Onlar həmin yerdə olarkən Pirə Məhəmməd xan Ustaclu da Gilandan gəlib, özü ilə İmamqulu mirzəni gətirdi. Bundan öncə yazıb bəyan etmişdik ki, Murad xan Ustaclu, Sultan Heydər mirzə tərəfdarlarının ümdə şəxslərindən idi və cənnətməkan şah xəstəlikdən sağaldıqdan sonra onu Kəcur qalasını fəth etməyə göndərmişdi. O, hələ qalanın ətəyində ikən cənnətməkan şahın vəfatı və Sultan Heydər mirzənin şəhidliyi hadisəsi baş verdi. Murad xan Kəcurdan Lahicana gedib,

Pirə Məhəmməd xana qoşuldu. Pirə Məhəmməd xan ustaclu əmirləri arasında İsmayıl mirzənin dostu olmaqda ittiham edilirdi. Çünki cənnətməkan şah onu bəzi əmirlərlə birlikdə xəzinənin gətirilməsi və İsmayıl mirzənin xəzinədən mənimsəmə hallarının araşdırılması üçün qalaya göndərdiyi il onunla gedənlərin hamısı cənnətməkan şaha xoş gəlmək üçün şahzadəyə qarşı çoxlu hörmətsizliklər etmişdilər. Amma Pirə Məhəmməd xan onunla ədəblə davranmışdı və camaat arasında söz-söhbət yayılmışdı ki, o, şahzadə ilə əhdü-peyman kəsib, öz qızını ona nişanlamışdır. Cənnətməkan şahın sufiləri və sədaqətli şəxsləri onu İsmayıl mirzə ilə dostluqda ittiham edirdilər.

Elə ki onların Lahicana toplaşmağı calal sahibi olan [İsmayıl mirzənin] qulağına çatdı, o, Pirə Məhəmməd xanı öz tərəfdarlarından biri hesab etməsinə və ondan xatircəm olmasına baxmayaraq, narahat oldu ki, birdən Murad xan onu sədaqət yolundan döndərər, onlar İmamqulu mirzədən istifadə edərək, möhkəm yer və mətin sığmacaq olan Gilanda qalarlar və ustaclu tayfası oraya yığışıb, tüğyan bayrağını qaldırar. Buna görə də o, dəftərxana daruğası Əlixan bəy Türkmanı Pirə Məhəmməd xanın yanına göndərib, ona [aşağıdakıları] çatdırdı: «Aramızdakı əhd və şərt qalada bağladığımız kimidir. Ustaclu tayfası barədə tərəfinizdən hər nə xahiş olunarsa, uğurla yerinə yetiriləcəkdir. Amma Murad xan qızılbaşlar arasında fitnə və fəsada bais olub, ikitirəlik saldığına görə onun gözlərini çıxararaq, qardaşım İmamqulu mirzəni də götürüb, səadətli məiyyətimizi qarşılamağa gəlin». Elə ki Əlixan bəy Gilana çatdı, Pirə Məhəmməd xan dərhal ali əmrə itaət göstərdi və «başım-gözüm üstə» kəlməsini dilə gətirdi. Əlixan bəy ona tapşırılrnış işi yerinə yetirib, geri qayıtdı.

Pirə Məhəmməd xan adı çəkilən şahzadə ilə birlikdə [İsmayıl mirzəni] qarşılamaq üçün yola çıxdı. Onlar Zəncan çəmənində [İsmayıl mirzə ilə] görüşmək səadətindən feyzyab oldular və onlara göstərilən şahanə iltifatdan başucalığı tapdılar. İsmayıl mirzə İmamqulu mirzəni «oğul» adlandırıb, onu mehribanlıqla ağuşuna çəkdi. Daha sonra onlar oradan çıxıb, mənzilbəmənzil irəliləyərək, böyük təntənə, əzəmət və şadlıqla, yavaş-yavaş məsafəni qət edib, pəncşənbə günü, rəbiül-əvvəl ayının 16-da (13 iyun 1576) Qəzvinin ətrafına gəlib çatdılar. Şahzadələr, Hüseynqulu Xüləfa və şəhərdə olan böyük əmirlər [İsmayıl mirzə ilə] görüşmək səadətindən feyz aldılar. [İsmayıl mirzə astroloji cəhətdən] uğurlu saatı gözləməyi qərara alıb, şəhərə gəlmədi və şəhərdən şimalda düşərgə saldı.

O, həmin yerdə olarkən əynində keçə geyinən çobanların paltarı və başında keçə papaq olan Hüseyn bəyi [o vaxtadək] heç kəsin görmədiyi bir rüsvayçılıqla gətirib gəldilər. Camaat ətrafdan və qıraq-bucaqdan ona tənə və lənət edirdi və onu bıçaqla, qılıncla və xəncərlə hədələyirdilər. Mühafizəçilər isə buna mane olurdular. O, İsmayıl mirzənin hüzuruna gətirildikdə səcdə etdi, düşdüyü vəziyyətin zərurəti üzündən ətrafına və yan-yörəsinə baxaraq, məclisdə iştirak edənləri nəzərdən keçirib dedi:

- Sübhanallah! Deməli, bütün bu adamların içərisindən bircə mən günahkar oldum.

İsmayıl mirzə buyurdu:

- Bir sıra digərləri Sultan Heydərə tərəfkeşlik etmək məsələsində səndən üstün olsalar da, hamının kasası sənin başında sınmışdır.

Hüseyn bəy dedi:

- Ey padşah! Aləm Sultan Heydər tərəfdarı olsa da, axırda sənin bəxtin yüksəldi və Allah-taala öz istəyini həyata keçirdi. Əgər intiqam almaq istəsən, onda gərək bir aləm adamı qətlə yetirəsən.

İsmayıl mirzə əvvəlcə onun sözlərini təsdiq etdi və bu hadisə onun qətlinin təxirə düşməsinə səbəb oldu. Onu məclisə göndərdilər və ali divanın qorçularına[921] tapşırdılar. Onun edam olunmasına tərəfdar olan məclis iştirakçıları, xüsusən də Xüləfa bu sözlərdən sonra dillərini udub sakitləşdilər. Ertəsi gün [İsmayıl mirzə] oradan cənnətməkan şahın saldırdığı və İrəm bağının bir nişanəsi olan Səadətabad bağına təşrif gətirib, oranı seyr etdi. O, özünün mülahizəsi ilə saatın [astroloji cəhətdən] münasib olmadığı qərarına gəlib, mübarək dövlətxanaya daxil olmadı. Onun bir neçə gün Hüseynqulu Xüləfanın evində qalması qərarlaşdırıldı və o, bağdan çıxıb, onun mənzilinə getdi. O, orada olarkən Sultan Mustafa mirzəni Hacı Veys sultan Bayat özü ilə gətirib gələrək, əşrəfin ayağını öpmək şərəfinə nail oldu. İsmayıl mirzə şahzadənin (Sultan Mustafa mirzənin) üzündən öpdü və ona nəvaziş göstərib, qardaşlarının yanında əyləşməsini əmr etdi. Şahzadə əyləşmək istədikdə qardaşlarının heç birisi ona təzim etmədi. O, özündən bir yaş böyük olan Sultan Süleyman mirzədən aşağı başda yer seçib, özünü digər qardaşlarına təqdim etdi.

İsmayıl mirzə qardaşlarına nəsihət verməyə başlayıb, onlara dildə mehribanlıq göstərərək dedi:

- Əgər siz mənə münasibətdə məhəbbət və səmimiyyət məqamında dursanız, inşallah, mən sizə elə bir tərzdə davranacağam ki, heç bir padşah öz qardaşları ilə o cür davranmamış olsun.

Amma onun dili bü sözləri desə də, ürəyi bu söhbətdən xəbərsiz idi və onun xəyalında olan gizli fikirlər onların yox edilməsi və edam olunmasından başqa bir şey deyildi. O, axırda öz xəyalında olanları həyata keçirdi və bu hadisələr öz yeri gəldiyində qeyd olunacaqdır.

Hüseyn bəyin qardaşları olan Fəthulla bəyi, Şahqulu bəyi, Nəzərəli bəyi və Şahverdi bəyi də gətirib gəldilər. Onları ustaclu əmirləri silkinə aid olan Murad xan Kəngərlüyə tapşırdılar və o, öz sədaqət və etibarını nümayiş etdirməkdən ötrü Xüləfanın evində onların dördünü də qətlə yetirdi. O vaxt bu cür qərar verilmişdi

[921] S-129, v.165a-da ali divan qorçuları («qorçiyan-i divan-i ali») əvəzinə «qorçiyan-i evoğlu» yazılmışdır. Burada «ev» dedikdə şah sarayı, «evoğlu» dedikdə isə saray xidmətçisi nəzərdə tutulur. Beləliklə, nüsxə fərqinə baxmayaraq, bu iki istilahın hər ikisi eyni mənanı bildirir və hər iki ad altında saray qorçuları nəzərdə tutulur.

ki, yad oymağa tapşırılanlar saxlanılırdı, öz oymağına tapşırılanlar isə dərhal qətlə yetirilirdilər.

[İsmayıl mirzə] on dörd gün Xüləfanın evində qaldı. Əksər əmirlər əvvəlki kimi Pərixan xanımın evində toplaşırdılar və bu məsələ padşahın nüfuzunun dərəcəsinin və onun üstünlüyünün inkar edilməsinə bais olan bir vəziyyət kimi başa düşülürdü. Sözü-gedən xanımın vəkilləri padşahanə dəbdəbə, qayda və təmtəraqla onun evində cənnətməkan şahın zamanındakından daha yüksək səviyyəli bir tərtibat yaratmışdılar. Qapıçılar, hacıblər və mülazimlər dərgahın tərtib və nizamını sultanlara xas olan üsulla qurmuşdular. Xanım həzrətləri belə düşünürdü: bir halda ki İsmayıl mirzənin hakimiyyətə gəlməsi onun səyləri nəticəsində baş vermişdir və o, həmçinin cənnətməkan şah zamanında da hökmdarın köməkçisi və yardımçısı olmuşdur, deməli, buna görə də onun cənnətməkan şahın bacısı Sultanımdan daha çox padşahlıq işlərinə müdaxilə etməyə haqqı vardır. Lakin iş elə gətirdi ki, bu, əks nəticə verdi və əmirlər arasında xanımın evinə toplaşmaq məsələsi barədə kinayəli söz-söhbətlər yayıldı. Onlardan birisi bu məsələni izah edib dedi:

- Məgər dostlar anlamayırlarmı ki, qadınların məmləkət işlərinə qarışması səltənətin və padşahlığın namusuna layiq deyildir və kişilərin hökmdar ailəsinə mənsub qadınlarla oturub-durması sülalənin ləyaqətinə qarşı qəbahətdir.

Bununla da əmirlər işin həqiqi tərəfindən agah olub, tərəddüdlərdən qurtuldular. Bu əsnada əşrəfin könlü Xüləfadan narazı düşdü və onun şövkətini sındırmaq qərarına gəldi. Bunun əqli zərurətdən doğan və təfəkkür mizanında ağır gələn zahiri səbəbi o idi ki, Xüləfanın təbiətinin qədəhi qəflət və lovğalıq şərabı ilə ağzınacan dolmuş, lazımi həddi vurub keçmişdi. O, İsmayıl mirzəni hakimiyyətə məhz özünün gətirdiyini hesab edib, onun üstünə böyük bir minnət qoyurdu. Belə bir yük isə adətən padşahların xatirinə çox ağır gəlir və onlar bu işi görmüş adamı rahat buraxmırlar. Bunun digər bir səbəbi isə ondan ibarət idi ki, Sultan Heydər mirzənin qətlindən bir neçə gün ötdükdən sonra [Qəhqəhə] qalası ətrafından heç bir xəbər gəlmədikdə və insanlar narahatçılıq keçirməyə başladıqda Xüləfa demişdi:

- Camaatın həyəcanlanmağına səbəb nədir ki?! Sultan Mahmud mirzə də cənnətməkan şahın oğludur və padşahlığı layiq olan qabiliyyətli bir cavandır.

Həmin vaxt Pərixan xanım da ərz etmişdi:

- Çox güman ki, cənnətməkan şahın vəfatı xəbərinin qalaya çatdığı ilk gecədə Sultan Heydər tərəfdarları İsmayıl mirzəni aradan götürmüşlər. Əgər bu məsələ aşkara çıxarsa, onda Sultan Mahmud mirzəni padşah edərik.

Lakin elə həmin əsnada əşrəfin zatının sağlam olması xəbəri qaladan gəlib çatmışdı.

İsmayıl mirzənin Xüləfanın evində qaldığı bir neçə gün ərzində [Xüləfaya] müxalif olan şəxslər ona bu əhvalatı xəlvətdə ərz edərək, padşahda ona qarşı pis münasibət yaratdılar. Ola bilsin ki, mən səhv deyirəm və bu [iki səbəbdən] heç biri

olmamışdır. Bəlkə də, həqiqi intiqamçı olan şanlı və ulu Allah «hər kim zalımlığını əyan etsə, onun cəzasını Allah verər» kəlamının gerçəkliyini təsdiq etmək üçün İsmayılın onun (Hüseynqulu Xüləfanın) barəsindəki fikrini dəyişdirmiş və fələk məzlum şahzadə Sultan Heydər mirzənin nahaqdan tökülmüş qanının qisası üçün o zalım xislətli [Hüseynqulu Xüləfanın] iqtidarma bundan daha artıq tab gətirməmişdir. Tezliklə rəhmətlik şahzadənin öldürülməsinə səy göstərənlərin və onun qatillərinin hər biri bir bəlaya giriftar oldu. Uzun sözün qisası, İsmayıl mirzədə Xüləfaya qarşı etimadsızlıq yarandı. O, ona ali divanın vəkili və hökmdarın naibi olmaq kimi yüksək mənsəblər təklif etdi. Bir şərtlə ki, xəlifətül-xüləfa vəzifəsi digər bir şəxsə verilsin. İsmayıl mirzənin mətləbinin mənası bu idi: sufilər Xüləfanı mürşidi-kamilin xəlifəsi və naibi hesab edirdilər, onun hökmünü mürşidin ikinci hökmü sayırdılar və həmin vaxt həmin [sufi] təbəqəsindən on min nəfərə qədər adam Qəzvində yaşayırdı. Onlar candildən Xüləfanın hökmünə tabe idilər və Xüləfa onların yardımı ilə bütün bu hegemonluğa və iqtidara sahib olmuşdu. Buna görə də [İsmayıl mirzə] onu imtahana çəkmək məqsədi ilə dedi:

- Sənin səviyyən xüləfalıq mərtəbəsini ötüb keçmişdir. İndi gərək sən ali divanın vəkili vəzifəsini tutasan.

Sözügedən şəxs bunun cavabında dedi:

- Mən xəlifəlik mənsəbini əldən verməzəm. Əgər vəkillik onun üstünə əlavə olunarsa, lap yaxşı. Əks təqdirdə, vəkilliyə razı deyiləm.

O, ona görə belə danışırdı ki, öz vəzifəsini vəkillikdən üstün sayırdı. Bu hadisədən sonra İsmayıl mirzə onun söhbətindən incikliyini izhar edib, ondan narazılığını dilə gətirdi və rumlu əmirlərinə xitabən dedi:

- Əgər sufilər və taliblər mürşidi-kamilin sözündən çıxsalar və onun göstərişinə tabe olmasalar, onda sufiliyin yoluna və Səfəviyyə şeyxlərinin qaydalarına əsasən onlara nə mükafat düşür?

Onlar söylədilər:

- Mürşidi-kamilin buyuruğundan boyun qaçıran və ona tabe olmayan hər kəs xəta sahibidir və rədd olunmuş bir şəxsdir.

Onda [İsmayıl mirzə] dedi:

- Bəs, onda Xüləfa nə üçün mənim sözümə əməl etməmişdir?

Bu söhbət Xüləfaya çatdıqda, səhər əşrəfin hüzuruna gəldi ki, bəzi sözləri ərz etsin. Lakin elə ki o, evin qapısına çatdı, eşikağasılar və haciblər göstərişə əsasən, ona mane olub dedilər:

- Bu ev sənə məxsus olsa da, hal-hazırda padşah bu evdə məskunlaşmışdır. Bura padşahın qaldığı yer olduğuna görə, qızılbaş dövlətxanası sayılır. Sən isə bizim mürşidimiz olan padşahın yanında təqsir və xəta sahibisən. Bir halda ki mürşidi-kamil səni bağışlamayıb, sənin dövlətxanaya daxil olmağın sufilik davranış tərzi və yolu baxımından caiz deyildir. Mürşidi-kamil icazə verənə qədər sən dərgahın qapısında əyləşməlisən.

Xüləfa əsla təsəvvür etmədiyi və ağlından keçirmədiyi bu vəziyyəti müşahidə etdikdə beyninə heyrət tüstüsü yol tapdı və günortayadək evin qapısı ağzında günahkarlar kimi əyləşdi. Rumlu camaatının və başqalarının böyük əksəriyyəti günün əvvəlində ona xoş münasibət göstərdi. İsmayıl mirzə bir nəfəri bayıra göndərib bildirdi ki, «Xüləfa öz mənzilinə getsin; əgər bizim ona hər nə sözümüz olarsa, özümüz onunla söhbətləşərik». Xüləfa bu cavabdan ümumən qəlb rahatlığı əldə etdi. Hamı belə təsəvvür edirdi ki, padşah onun mənzilinə gedib, onun könlünü arxayın edəcəkdir. Lakin onun evdə oturduğu iki gün sakit keçdi və [İsmayıl mirzə ilə onun arasında] heç bir görüş baş vermədi. Həmin günlərdə rumlu əmirləri adət üzrə ona yoldaş idilər. Üçüncü gün [İsmayıl mirzə] rumlu əmirlərindən biri, dürüst və doğru etiqadlı bir türk kişisi olan Dəli Budağı çağırıb soruşdu ki, Xüləfa nə deyir? O, cavab verdi:

- Xüləfa padşahın hökmündən boyun qaçırdığı üçün heyifsilənir və peşmandır. O, işarə olunacaq hər bir xidməti, hətta bu astananın itsaxlayanı olmağı da canına minnət bilib, onu icra edəcəkdir.

İsmayıl mirzə dedi:

- Əgər sən doğru deyirsənsə və o, bizim əmrimiz qarşısında mütidirsə, biz onun göstərdiyi xidmətin müqabilində ona elə bir vəzifə tapşırarıq ki, bu, onun dünya və axirət dərəcələrinin yüksəlməsinə səbəb olar. Onu ulu Məşhədin qorçularının qorçubaşısı təyin edirik ki, orada cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) müqəddəs məqbərəsində xidmət göstərsin, həm Xorasanda dünyəvi etibar əldə etsin, həm də axirət üçün savab qazanmış olsun. Gərəkdir ki, sən onu dərhal ata mindirib, yola salasan.

Belə olduqda Dəli Budaq, rumlu əmirləri və Xüləfanın digər tərəfdarları bildilər ki, İsmayıl mirzənin ona etimadı yoxdur, onun orduda olması mümkün deyildir və lovğalıq və qürur başı ali divanın vəkilliyinə əyilməyən bir şəxsə Məşhədin qorçubaşısı olmaq kimi [aşağı] bir vəzifənin təklif edilməsi qəzəb və iltifatsızlıq əlamətidir. Çünki o, bu vəzifəni heç öz mülazimlərinə də rəva bilməzdi. Bütün rumlu tayfası ondan uzaq durdu, hətta mülazimləri də onun evinin qapısına getmədilər və o, öz vəziyyətinə mat-məəttəl qaldı. Bu əsnada Dəli Budaq gəlib, ona şahın ismarışını çatdırdı və onun söz deməsinə imkan verməyərək, o saat onu ata mindirib, şəhərdən bir fərsəx kənarlaşdırdı. Sonra özü şəhərə qayıdıb, dərhal onun yaraqlarını və əşyalarını yükə tutaraq göndərdi. Xüləfa Damğana çatdıqda Damğan hakimi olan Əli xəlifə Ağcaqoyunlu ona belə bir hökm təqdim etdi ki, Xüləfa Damğanda qalmalıdır və bundan sonra isə [şah tərəfindən onun barəsində] hər nə hökm olunarsa, ona əməl ediləcəkdir. Bir neçə gündən sonra Kor Şahəli Rumlu ali əmrə əsasən, Damğana gedərək, onun (Xüləfanın) ibrət görən gözlərini dünyanın əcaib və qəribə surətlərini müşahidə etməkdən məhrum və xali edib, onun görmə qabiliyyətini məhv etdi.

Xülasə, İsmayıl mirzə Xüləfanı şəhərdən çıxartdırdıqdan sonra onun mənzilini tərk edib, şah atı («əsbi-şahi») meydanı ilə Pərixan xanımın evinin

arasında yerləşən Şahqulu sultan Yegan Ustaclunun evinə gəldi. Orada Pəhxan xanım və səltənətin mötəbər qadınları onunla görüşmək şərəfindən feyzyab oldular. [Pərixan] xanım həzrətləri ondan özünə münasibətdə böyük mehribanlıq umsa da, bu, baş vermədi. Daha sonra [İsmayıl mirzə] özünün təyin etdiyi saatda mübarək dövlətxanaya gəldi və sarayda çoxlu dəyişikliklər və yeniliklər etdirdi, bəzi mənzillərdə təmir başlatdırdı. Orada bütün gün açıq-aşkar iş gedirdi. Bu səbəbdən də [İsmayıl mirzə] gah Yegan Şahqulunun mənzilində, gah Pərixan xanımın evində, gah da ki, Səadətabad bağında qalırdı.

Qızılbaş tayfaları məmləkətlərin müxtəlif tərəflərindən və səmtlərindən dərgaha üz tutdular. Darüssəltənə Qəzvində camaatın çoxluğu və izdihamı o dərəcəyə çatdı ki, küçələrdə və bazarlarda get-gəl çətinləşdi. Darüssəltənə Qəzvində sultanların töhfə və hədiyyələri, əmirlərin, ətraf hökmdarların və məmləkətlərin ərbablarının və əhalisinin peşkəşləri o qədər cəmləşdi ki, onların sayı-hesabı məlum deyildi. O, taxta çıxacağı günü seçdiyindən, bütün səltənət və padşahlıq işlərini təxirə salıb, həmin günü gözləməkdə idi. İnsanlar günləri sayırdılar və cülus gününün intizarını çəkirdilər. Qızılbaş tayfaları onun əmr və buyuruqlarına o dərəcədə müti olmuşdular ki, əgər onun tərəfindən bir kimsəyə qarşı mənfi münasibət hiss olunsaydı, onda o şəxsin yaxınları və qohumları Sultan Heydər tərəfdarı olduğu bəhanəsi ilə həmin adamı qətlə yetirərdilər. Bu səbəbdən ustaclu tayfasından bir çoxları gedər-gəlməzə göndərildilər. Hətta Sarı Laçın və Ruma elçi getmiş Məhəmmədi xan Toxmağın qardaşı Allahqulu bəy hər gün əşrəfin xidmətində durmalarına baxmayaraq, dövlətxanadan çıxıb öz mənzillərinə getdikləri vaxt onların öz əmisi oğlu Əbu-Turab bəy Ayğut mirzə oğlu dar bir küçədə xəyanət pusqusunda durmuş adamlarından bir neçəsi ilə birlikdə qılınclarını sıyırıb, o iki əmirzadəni tikə-tikə doğramışdılar. Orduda bu cür əməllər baş versə də, bunlara qarşı töhmət tədbirləri görülmürdü. Ona görə də insanlar bundan ürəklənirdilər və bu xoşagəlməz işlər əyalətlərə də sirayət edirdi. Hər kəs hər yerdə ustaclu əyanlarından birini qətlə yetirməyə özündə qüdrət tapır və təxirəsalınmaz bir şəkildə bu işi həyata keçirməyə təşəbbüs göstərirdi.

Fərah hakimi Hüseyn sultan Əfşar və o sərhədin darüssəltənə Heratda olan digər əmirləri də Allahın kölgəsi olan əlahəzrət şahın lələsi vəzifəsini tutan Herat bəylərbəyisi Şahqulu sultan Yeganı öldürmək üçün birləşmişdilər. Cənnətməkan şahın [vəfatı] hadisəsindən sonra Şahqulu sultan Yegan Heratın yan-yörəsindəki mahalların əmirlərini sərhədin qorunması səbəbindən çağırmışdı. Belə olduqda həmin bu Hüseyn sultan Əfşar öz-özlüyündə Şahqulu sultanın qətlinə qərar verib, əmirlərlə sözü bir yerə qoyaraq, Məlik darvazasının bayırında toplaşdılar. Onların öz aralarında razılaşmaları ustaclu əyanlarının qulağına çatdı. Onlar da [Şahqulu] sultanın evinin qarşısında yığışıb, yaraq və əsləhə qurşanaraq, savaşa və döyüşə hazırlaşdılar. [Hüseyn sultanla müttəfiq olan] əmirlər ona (Şahqulu sultana) belə bir ismarış göndərdilər:

- Ustaclu tayfası padşahın qəzəbinə tuş gəlmiş və etimadını itirmişdir. Ona görə də biz Herat şəhərinin və qalasının sənin əlində qalmasına yol verməyəcəyik, ustacluların (dövlət işlərinə) müdaxiləsinə imkan yaratmayacağıq, qalanı və məmləkəti özümüz qoruyacağıq və daha sonra bura padşah tərəfindən kimə tapşıralacaqsa, ona təhvil verəcəyik. Tələbimiz ilk növbədə ondan ibarətdir ki, [Şahqulu] sultan şəhərdən çıxsın. Ondan sonra əgər o, ulu dərgaha getmək istəyərsə, yola düşsün, əgər istəməzsə, bir guşədə oturub, padşahın əmr və fərmanını gözləsin.

Ustaclu camaatı onlarla söz güləşdirməyə başlayıb, cavab verdi:

- Biz padşahın göstərişinə uyğun olaraq, bu məmləkətin hakimi və mühafizəçisi olmuşuq. Bir halda ki, padşah tərəfindən bizim bu mövqedən uzaqlaşdırılmağımız haqqında hökm gəlməmişdir, hökumətdən və məmləkətdən əl çəkməyəcəyik.

Hər iki tərəfin cahilləri və fəsadçıları cuşa gəlib, hay-küy saldılar. Hər iki tərəfdən qoşunların hərəkəti və qilü-qal baş verdi. Heratda olan xeyirxah fikirli insanlar fitnə alovunu söndürmək imkanına malik olsalar da, padşah cənablarının bütün ustaclu təbəqəsinə mənfi münasibət bəslədiyini nəzərə alıb, özlərini kənara çəkdilər və fitnəni aradan qaldırmaq mövqeyində durmadılar. Nəcib düşüncəli, ağıllı bir türk kişisi olan Şahqulu sultan bədnamlıq qorxusu altında ustaclu tayfasını yaraq qurşanmaq və qoşun çəkmək fikrindən daşındırdı və camaatla görüşmək qapılarını bağlayıb. bir kənara çəkildi, əlini məmləkət işlərindən götürüb, İsmayıl mirzə tərəfindən onun və Herat hökumətinin barəsində nə hökm gələcəyini gözləməyə başladı. Lakin o biri dəstədə olanlar bununla qane olmayıb, qəflətən onun evinin üzərinə hücum çəkdilər. Evdə olanların hamısı müdafiə olunmağa başlasalar da, bir iş görə bilmədilər. Əfşar tayfasından olan adamlar evə soxularaq, onun əsləhəsiz və yaraqsız bir vəziyyətdə dayanıb, öz adamlarını döyüşməkdən çəkindirdiyi bir halda, qılınclarını qaldıraraq, onun üstünə tökülüşdülər və onu qətlə yetirdilər. Bu hadisələr zamanı onun evi tarac edildi. Bu əhvalatın baş verməsindən sonra Heratdakı ustaclu camaatı pərən-pərən düşdü. Onların arasında qarət edilmişlərin və pərişan vəziyyətə düşmüşlərin bəziləri Şahqulu sultanın Sərəxs hakimi olan oğlu İbrahim sultanın yanına getdilər, bəziləri isə orduya yollandılar. Həmin vaxt altı yaşında olan kama yetmiş hökmdar, yəni Allahın kölgəsi olan əlahəzrət şah Heratda lələsiz və mühafizəsiz qalmışdı. Heratda olan əfşar tayfası və başqaları İsmayıl mirzənin ona hüsn-rəğbətinin olmadığını ehtimal edərək, ona çox da iltifat göstərməmişdilər.

Şahqulu sultanın qətl xəbəri orduya çatdıqda İsmayıl mirzə Sultan Hüseyn bəy Şamlunun oğlu və Durmuş xanın nəvəsi olan Əliqulu bəyi təlimatlandıraraq, onu xanlıq rütbəsinə və bu [Səfəvi] sülaləsi ilə qohum olmaq şərəfinə yüksəldib, darüssəltənə Heratın hökumətini və Xorasanın əmirülüməralığını ona tapşırdı. Şahqulu sultanın öldürülməsi məsələsinə gəldikdə isə, o, heç bir tədbir görmədi və [günahkarları] töhmətləndirmək məqamında durmadı. Orduda olan ustaclu

əyanlarının xatiri əvvəlkindən daha artıq dərəcədə pərişan oldu və onlar düşdükləri vəziyyətə mat-məəttəl qaldılar. Onların heç birisi gecələr öz yataqlarına arxayınlıqla uzana bilmirdilər və bir an belə narahatçılıqdan qurtula bilmirdilər. Btı əsnada mötəbər ustaclu əmirlərindən sayılan, Çuxursəədin bəylərbəyisi vəzifəsini tutan və [Şah Təhmasibin ölümündən öncə] elçi kimi Ruma göndərilmiş olan Məhəmmədi xan Toxmaq qayıdıb, darüssəltənə Qəzvinə gəldi və İsmayıl mirzənin ayağını öpmək şərəfinə nail oldu. Lakin o da təvəqqe etdiyi qədər hüsn-rəğbət və iltifat görmədi. Bəlkə də, [İsmayıl mirzənin] fikrindən keçirdi ki, Çuxursəəd ölkəsini ondan alıb, onun yerini onun əmisi oğlu Əbu-Turab sultana versin. Tiflisdə olan Şahqulu sultan Qarıncaoğlu Ustaclu da [İsmayıl mirzənin hüzuruna] gəlib, iltifat tapmadı. Beləliklə, ustaclu tayfası qızılbaşlar arasında xəcalətli və iztirablı bir vəziyyətdə gecəni gündüz edirdi. Nəhayət, onlar (ustaclular) bir-birləri ilə ittifaq edib, sufilik yolunun yolçusu oldular və dedilər:

- Biz mürşidi-kamilin yanında təqsir və xəta sahibləri olduğumuza görə nə qədər ki, mürşidi-kamil əfv fərmanı verərək təqsir və xətamızı bağışlamayıbdır, evimiz, arvadımız, uşağımız və asayişimiz bizə haramdır.

Bu tayfanın bütün əmirləri və yüzbaşıları mübarək dövlətxananın qapısına toplaşıb, dərgahın qapısı ağzında məskən saldılar, gecə-gündüz orada qalmağa başladılar. Pirə Məhəmməd xan və Məhəmmədi xan Toxmaq da özlərini ustaclu günahkarları silkinə aid edib, həmin camaatın arasında oturdular. Bu məsələ əşrəfin xatirinə xoş gəlmədi və o, təkrar-təkrar izhar etdi:

- Bir halda ki, Pirə Məhəmməd xan heç vaxt bu camaatın sırasına daxil olmamışdır, bəs, indi nə üçün özünü oraya daxil edərək, günahkarlara himayə və şəfaət göstərir?

Amma adı çəkilən şəxs bu sözlərdən sonra da onlarla yoldaşlığı tərk etmədi və onlar təxminən on gecə və gündüz dövlətxananın qabağında əyləşib, əfv müjdəsini gözlədilər. Bu vaxt ərzində onlar orada sayəbanlar qurub, oraya çoxlu miqdarda ləvazimatlar və zinət əşyaları gətirərək, hər gün ziyafət təşkil edirdilər və gümüş qabları, şahanə əşyaları nifrət və həsəd sahiblərinin nəzərləri qarşısına çıxarırdılar. On gündən sonra İsmayıl mirzə Sultan Heydər mirzənin qətli gecəsi ustaclu camaatı tərəfindən atılaraq Çehelsütun eyvanının yanındakı ağaclardan birinə sancılmış və hələ də orada qalmaqda olan bir oxu ordan çıxardı və onu müqərrəblərdən birinin əlinə verib, ustaclu kütləsinin arasına göndərərək, onlara bu sözləri çatdırdı:

- Bir halda ki, siz ixlas və sufilik iddiası edirsiniz, bəs, bu nə oxdur və o hansı camaatdır ki, bu oxu mürşidi-kamilin dövlətxanasına və cənnətməkan şahın cəsədinə sarı atmışdır?

Onlar bunun cavabında dedilər:

- Biz bu sülalənin dövlətinin ortaya çıxmasının lap başlanğıcından əsillikcə-nəsillikcə bu astananın xidmətində durmuşuq. Bizim bu dərgahdan savayı pənahımız və ümidimiz yoxdur. Tayfamızdan olan bir sıra bədbəxtlər digərlərinin

təhrikinə aldanaraq, doğru yollarını azıb, yanlış işlərə əl atdılar və hər kəs ki, bu əməli etmişdir öz cəzasına çatıb və çatacaqdır. Digərlərinin nə günahı var ki?! Buna baxmayaraq, hamımız günahkarıq və cəzaya layiqik və əşrəfin tərəfindən bizə hər nə edilərsə, sədaqətlilik nöqteyi-nəzərindən lütf və məhəbbətlə ona razı olarıq.

**Şeir**

«Gər qılınc yağsa kuyinə ol mahın,
Oraya baş qoyarıq, hökm Allahın».

Bu əsnada onların üstünə bir dəstə göndərildi ki, sayəbanları onların başına yıxsınlar və qara camaat onların əşyalarını qarət etsin. Sayəbanlar yıxıldıqdan sonra əhali oraya hücum çəkib, qarət etməyə başladı. Beləliklə, həmin [ustaclu] camaatı görünməmiş bir rüsvayçılıqla pərakəndə olub, özlərini öz məskənlərinə çatdırdılar.

***Sultan Mustafa mirzənin və Sultan Süleyman mirzənin öldürülməsi.*** O hadisədən sonra bir neçə gün Pirə Məhəmməd xan gözdən düşmüş bir vəziyyətdə qaldı. Bir neçə gündən sonra [İsmayıl mirzə] onu çağırdı və ona bunları bildirdi:

- Sultan Mustafa Sultan Heydərlə dost olması səbəbindən, Sultan Süleyman isə bacısı Pərixan xanım tərəfindən etibarsızlıq baş verərkən ondan təvəqqe olunan hərəkətlər zühura gəlmədiyi üçün mənimlə ədavətə malikdirlər. Mən onlardan əmin deyiləm.

Pirə Məhəmməd xan ərz etdi:

- Əgər onların ucbatından padşahın mübarək xatiri qəm-qüssəyə qərq olmuşdursa, onda onları qalalardan birinə göndərsin ki, ömürləri qalada həbs olunmuş vəziyyətdə keçsin.

İsmayıl mirzə istehza ilə dedi:

- Sultan Mustafa ustaclu tayfasının yetirməsidir. Onu sizə, Süleymanı isə öz dayısı Şamxal Çərkəzə tapşıracağam ki, istəsəniz qalada saxlayarsınız, istəsəniz bəsləyib padşah edərsiniz.

Ertəsi gün hökm olundu ki, Hacı Veys sultan Sultan Mustafa mirzəni Pirə Məhəmməd xanın mənzilinə aparıb, ona təhvil versin və bu barədə ondan qəbz alsın. Həmçinin Sultan Süleyman mirzəni də öz dayısının mənzilinə göndərdilər. Bir neçə gün ustaclu tayfasının arasında bu barədə müzakirələr baş verdi. Onlar əllərini cənnətməkan şahın övladının qanına batırmaq istəməsələr də, bu tayfanın aqilləri bilirdilər ki, İsmayıl mirzə şahzadənin tələf edilməsindən və edam olunmasından savayı, başqa bir şeyə razı olmaz və onların bunu etməkdən özgə əlacları yoxdur. Axırda hamının rəyi bunda qərar tutdu ki, ona (Sutan Mustafa mirzəyə) qarşı saymazlıqla davransınlar. Şahzadə özünün malik olduğu ağıl və fərasətlə bunun mənasını anlayıb, Pirə Məhəmməd xanın mənzilində olduğu həmin

bir neçə gün ərzində hər gecə qətlə yetiriləcəyini gözlədi və vaxtını ibadətlə keçirdi. Nəhayət, bir gecə həmin tayfaya mənsub olan bir necə nəfər əzazil adam şahzadənin yataq otağına gedib, onu boğdular.

Şamxal sultan da Sultan Süleyman mirzəyə qarşı həmin əməli törətdi. Onların hər ikisi eyni gecədə şəhidlik şərbətini içdilər və onların cəsədləri İmamzadə Hüseynin müqəddəs astanasına aparılıb, orada dəfn olundular. Bu hadisələrdən sonra Pirə Məhəmməd xan [İsmayıl mirzənin] şəfqətini və himayədarlığını qazandı. Onun qızı ilə nişanlı olan İsmayıl mirzə həmin qızla nikah bağladı, şahanə bir toy etdi və zifaf yatağına girdi. Bundan əlavə, o, Şamxal sultan Çərkəzin qızını və Hüseyn xan Xınıslunun[922] qızını da özünə istədi. O qızların hər ikisini eyni gecədə hərəmxanaya gətirdilər. [İsmayıl mirzə] ustacluların kürəkəni olduqdan sonra onlara münasibətdə şəfqət mövqeyi tutub, Yegan Şahqulunun övladları olan İbrahim sultana və Mürşüdqulu sultana qayğıkeşlik göstərdi. O, İbrahim sultanı Qəzvin hakimi, Mürşüdqulu sultanı isə Sistan hakimi təyin etdi. Bununla da ustaclu təbəqəsi öz hörmətini geri qaytardı və bir də heç kəs onlara qarşı təcavüz edə bilmədi.

Adlı-sanlı şahzadələrdən olan Sultan İbrahim mirzə [şahın] xüsusi məclisinin müsahibi və həmdəmi idi. [İsmayıl mirzə] ona dedi ki, sən cənnətməkan şahın oğlu səviyyəsində idin, başdan-ayağa onun xidmətində durmuşdun, indi də mənim qardaşım yerindəsən və bizim eşikağasıbaşımız olmaq sənə münasib olan bir iş deyil. O, onun vəzifəsini dəyişib, möhürdar təyin elədi ki, bütün vaxt ərzində [İsmayıl mirzənin] nəzərləri qarşısında əyləşib, onunla danışmaq və söhbətləşmək şərəfinə nail olsun. Eşikağasıbaşı mənsəbi isə Hüseynqulu sultan Şamluya tapşırıldı. Cənnətməkan şahın mustovfi əl-məmaliki olan Mirzə Şükrulla İsfahani ali divanın vəziri təyin edildi. Mustovfiyi-bəqaya Mir Şahqazi isə mustovfi əl-məmalik vəzifəsinə gətirildi.

Cülus üçün təyin etdiyi günə hələ çox vaxt qaldığından [İsmayıl mirzə] məmləkət məsələlərinin intizamına müdaxilə etmədi və öz diləklərini ərz etmək üçün ali taxtın ətəklərinə toplaşmış olan türklərdən və taciklərdən, hərbçilərdən və rəiyyətdən ibarət camaatın mətləblərinin həll edilməsini taxta çıxacağı günə vəd etdi. Bu arada o, dövlətxanada elə imarətlər düzəltdirirdi ki, bu iş üçün orada hər gün mahir ustalar çalışırdılar və hər bir sənətkarın üstündə qızılbaşların mötəbər şəxslərindən biri sərkar dayanırdı. Bir sözlə, o, səltənətinin əsasını və padşahlığının təmtərağını elə bir qayda ilə qurdururdu ki, sanki qeysərlə xaqanı özünün aşağı səviyyəli mülazimlərindən sayırdı. Onun əzəmətinin və hökmranlığının şan-şöhrəti, səltənət və iqtidarının cah-calalının avazı ətraf üfüqlərdə elə bir tərzdə ucalmışdı ki, ona qarşı çıxmaq fikri şövkətli padşahların xəyalına gəlmirdi və bütün sərhədlər əmirlərdən, mühafizlərdən və əsgərlərdən xali olduğu halda, heç bir düşmənin qüdrəti çatmırdı ki, itaətkarlıq yolunu tərk edərək, məmləkət

---

[922] S-129, v.169b. Tehran çapında (s.198) Xəbəşlü yazılmışdır.

torpağına qədəm qoya bilsin və ya Qızılbaş dövlətinin sərhəd və hüdudlarından bir oğlaq apara bilsin. Həqiqətən də, o, nadir cah-calala və böyük mətanətə malik idi.

Elə ki cülusun vəd edildiyi gün yaxınlaşdı, [İsmayıl mirzə] əvvəlcə cənnətməkan hökmdarın ruhunun yad edilməsi üçün aş ehsan verməyi və onun dövlətxanada olan pak cəsədini İmamzadə Hüseynin müqəddəs məqbərəsinə apararaq, müvəqqəti olaraq orada saxlatmağı qərara aldı ki, payız vaxtı onu müqəddəs və ulu Məşhəd şəhərinə göndərsin. Buna görə də [Şah Təhmasibin] yaraqlarını və əşyalarını İmamzadə məqbərəsinə apardılar. Sonra çoxlu çadırlar və alaçıqlar qurub, böyük bir məclis təşkil etdilər və on iki min qab müxtəlif yeməklər və halvalar hazırladılar. Hər min qab qidanın hazırlanmasına və paylanmasına nəzarət etmək böyük əmirlərdən birinin öhdəsinə verilmişdi. Daha sonra [Şah Təhmasibin] pak cəsədini dövlətxanadan çıxardılar. Günahları [Allah tərəfindən] bağışlanmış həmin cənazəni İsmayıl mirzə çiynində tutmuşdu və digər şahzadələr də ona yardım edirdilər. Dövlətxanadan bayıra çıxdıqda İsmayıl mirzə atlandı, amma şahzadələr İmamzadə Hüseynin müqəddəs məqbərəsinədək cənazəni öz çiyinlərində aparıb, oraya çatdırdılar. Bu zaman bəzi əmirlər də onlara kömək edirdilər. Məqbərəyə çatdıqda cəsədi İmamzadənin qəbrinin civarında sənduqəyə qoyub, sənduqəni yavaşca məqbərəyə yerləşdirdilər və hafizlər Tanrı kəlamını oxuyub xətm etdilər. Oradan aş məclisinə gedib, on iki min qab xörəyi və halvanı çəkdilər, hamısı mömin olan fəqirlər və miskinlər, hərbçilər və rəiyyətlər o qidadan bəhrələndilər.

[İsmayıl mirzənin] könlü bu işlərdən rahatlıq tapdıqdan sonra vəd edilən gündə, yəni cəmadiül-əvvəl ayının 27-də (22 avqust 1576), çaharşənbə günündə onun cülusu baş verdi. Çehelsütün eyvanında böyük bir şahanə şadyanalıq və ali hökmdar məclisi tərtib olundu. Əmirlər, şahzadələr və dövlətin dayağı olan şəxslər oraya toplaşdılar. İsmayıl mirzə böyük bir cah-calal və əzəmətlə eyvana gəlib, padşahlıq taxtının üzərinə əyləşdi və cənnətməkan şahın mübarək məkanında qərar tutdu. Lakin qəddar və səbatsız zəmanə bu barədə söylədi:

«Xoş tutdular həriflər saqinin zülfünün ucunu,
Fələkləri imkan verərmi ki, bir qərar tutsunlar?!»

Uzun sözün qısası, əvvəlcə şahzadələr, sonra seyidlər, üləmalar və müctəhidlər, onlardan sonra Ələmut qalasından çıxarılıb gətirilmiş gürcü hökmdarlarından Ləvəndin oğlu İsaxan xan və Luarsabın oğlu Simayun, daha sonra isə Şah Rüstəm Lur, yüksək şöhrətli qızılbaş əmirləri və əyanları, vəzirlər və qələm sahibləri, dövlətin əyalətlərinin böyükləri və əhalisi, Nizamşahın elçiləri, İbrahim xan, Mazandaran valisi Mirzə xan, Ərəbistan[923] valisi Seyid Səhhar və

[923] B urada Ərəbistan adı altında ərəb qəbilələri ilə məskunlaşan və Səfəvilərə tabe olan Xuzistan vilayəti nəzərdə tutulur. Ərəbistan (Xuzistan) valiləri yerli Müşəşə sülaləsindən idilər (V.F.Minorsky. «Tadhkirat al-muluk», p.173).

Firəng elçiləri [yeni şahın] ayağını öpmək şərəfinə nail oldular. [İsmayıl mirzənin] qaladan çıxmasının başlanğıcından cülus vaxtınadək fələkdən üstün dərgaha toplanmış olan ətraf hökmdarlar tərəfindən göndərilmiş peşkəşləri, töhfələri və hədiyyələri [şahın] ali nəzəri qarşısına gətirib, ona nümayiş etdirdilər.

Cülusdan sonra, həmçinin məmləkət işlərinin qaydaya salınması yubanırdı, heç bir iş öz həllini tapmamışdı və camaatın intizarı həddini aşmışdı. Əhalinin narazılığını aradan qaldırmaq üçün hökmdar İbrahim mirzəyə tapşırdı ki, Məhəmmədi xan Toxmaq, Mirzə Əli Qacar və ali divanın[924] vəziri Mirzə Şükrulla ilə birlikdə ədalət eyvanında əyləşib, camaatın müşkül məsələlərini və məmləkətlərin xeyriyyə işlərini qaydaya salsınlar, hökm və qərarları hökmdar divanının əmr tuğrası ilə zinətləndirib, bu hökmlər üçün əlahiddə olaraq düzəlmiş və üzərinə əşrəfin divan möhürünün ibarələri nəqş edilmiş mübarək möhürlə möhürləsinlər. [İsmayıl mirzə] «Adili» təxəllüsü ilə şeir yazdığından onun hökmlərinin və qərarlarının ünvanlarında [ərəbcə] «hu əl-adil» («o ədalətlidir») sözləri yazılırdı. [İsmayıl mirzə] məmləkətin yarısının sədarət mənsəbini seyid mənşəli Mirzə Məxdum Şərifiyə, digər yarısının sədarətini isə cənnətməkan xaqanın zamanında qazı-əsgər[925] olan Şah İnayətulla Nəqib İsfahaniyə verib, onlara əmr etdi ki, əhaliyə şəriət ehkamlarını və məsələlərini təlqin etsinlər. Bir-iki ay ərzində hər diyarın camaatının şəriət və haqq-hesab məsələlərinin bir hissəsi ədalət divanında öz həllini tapdı, hökmlərə və qərarlara hökmdarın divan möhürü basıldı. Amma səltənət və padşahlıq karxanasının işlərinin çox hissəsi, əmirlərin və hakimlərin təyin olunması və s. bu kimi məsələlər hələ də gecikdirilir və təxirə salınırdı. Əksər vaxtlarda [İsmayıl mirzə] vəzir Mirzə Şükrullanın bacarıqsızlıq və qabiliyyətsizliyindən şikayətlənib, onu haqsız yerə danlayırdı və heç kəs onun qayğısına qalmırdı.

Bu arada Bəhram mirzənin cənnətməkan şahın fərmanına əsasən Qəndəhar vilayətində hakimlik etməkdə olan oğlu Sultan Hüseyn mirzənin təbii əcəl səbəbindən ömürlə və fani həyatla vidalaşması və əbədiyyət aləminə qovuşaraq vəfat etməsi xəbəri gəldi. Sultan İbrahim mirzə cənabları qardaşının vəfatı xəbərini eşitdikdə matəm libası geyinib, qardaşının təziyəsi üçün lazım olan işləri həyata keçirməyə başladı. İsmayıl mirzə onun çağırışı ilə öz ayaqlarına əziyyət verərək, onun mənzilinə getdi və onu söhbətə tutaraq, könlünü ələ aldı. O, [İbrahim] mirzəyə, onun möhtərəm hərəmi ilə həddi-buluğa çatmamış pak qızına və Sultan Hüseyn mirzənin ulu dərgahda olan oğlu Məhəmməd Hüseyn mirzəyə iftixarlı xələtlər verməklə nəvaziş göstərib, onları matəm libasından çıxardı. Amma bu hadisənin baş verməsindən bir neçə gün sonra [İsmayıl mirzə] İbrahim mirzəyə olan münasibətini dəyişdirdi. Daha şəfqət və iltifatın qoxusu belə [İbrahim mirzənin] burnuna çatmadı və [İsmayıl mirzə] ona qarşı yersiz etirazlar səsləndirməyə başladı. Get-gedə onun İbrahim mirzəyə və digər şahzadələrə qarşı

---

[924] S-129, v.171a.

[925] Qazı-əsgər – orduda şəriət qanunlarına icra edən şəxs.

mənfi münasibəti o həddə çatdı ki, onların yox edilməsini və edam olunmasını qarşıya məqsəd qoydu və bir neçə gün ərzində onların qətlini həyata keçirdi.

## ADLI-SANLI ŞAHZADƏLƏRİN ŞƏHİDLİYƏ QOVUŞMASI VƏ ONLARIN ÖMÜR FİDANLARININ QƏDDAR VƏ FANİ ZƏMANƏNİN QƏHREDİCİ SƏRSƏR KÜLƏYİNDƏN MƏHV OLMASI HAQQINDA

Bütün məxluqların yaradıcısı olan qadir Allah insanların öz aralarındakı qohumluq tellərini qırmalarını rədd olunmuş bir rəzillik, bu telləri qoruyub saxlamağı isə yaxşı əməllərdən hesab etmişdir. İsmayıl mirzənin qəlbi amansızlıq xasiyyətinə malik idi və mütləq olaraq, bu səbəbdən o, xeyirxahlıq xüsusiyyətinə sahib deyildi. Ondan öz qardaşlarına, əmioğlularına və qardaşoğlularına münasibətdə heç bir şəfqət və mehribanlıq baş verməmişdi və o onları öz hakimiyyət bağçasındakı tikanlara bənzədirdi. Onun bəzən Sultan İbrahim mirzə cənablarına münasibətdə göstərdiyi rəsmi xoş rəftara gəlincə, axırda məlum oldu ki, bunun səbəbi onun Qəndəharda olan qardaşı Sultan Hüseyn mirzəyə görə idi. Çünki [İsmayıl mirzə] Xorasanda ondan bir fitnə-fəsadın törənəcəyindən qorxurdu. Buna görə də onun ölümündən sonra bir neçə gün ərzində o, [İbrahim] mirzəyə olan münasibətini dəyişərək, ona qarşı etirazlar səsləndirdi. Əflatunun ağlını və qazanılmış istedadların kamalını özündə cəmləşdirən İbrahim mirzə cənabları iltifatsızlıq qoxusunun iyini hiss etdi. O, [İsmayıl mirzənin] onun həyatının kökünü qırmaqdan savayı heç nə ilə təsəlli tapmayacağını bilsə də, dövləti vəzifəsini və xidmətini tərk edərək, tənhalıq və guşənişinliyə çəkilməyi qərara aldı ki, bəlkə, bu vasitə ilə iki-üç gün öz qüssəli xatirinə təsəlli bəxş edə bilsin. O, öz yanında olan ağalara və mülazimlərə əmr etdi ki, hərə öz mənzilinə getsin və ona xidmət etməkdən əl çəksinlər. Amma o, hər an qətlə yetiriləcəyini gözləyirdi. Nəhayət, [İsmayıl mirzə] iyrənc görünüşlü göygöz çərkəzlərdən on-iyirmi nəfərini göndərdi ki, [İbrahim] mirzənin evinin keşiyini çəkib, oranı mühafizə etsinlər. Çərkəzlər mirzənin evinə gəldikdə o, evin hərəmxana hissəsində idi. Çərkəzlər giriş-çıxış darvazalarını bağlayıb, digər qapıları da qıfılladılar, özləri isə hərəmxanada məskən salıb, keşik çəkməyə başladılar. Dörd-beş gün bu minvalla keçdi.

***Qəzvin daruğası ilə sufilər arasında qalmaqal və sufilərin qətlə yetirilməsi.*** Günlərin birində Səadətabad meydanında [sufi] camaatı ilə Qəzvin daruğası olan Əbdülqəni bəy Ustaclunun mülazimləri arasında qoyun alqı-satqısı üstündə qalmaqal düşdü. Sufilər hücum çəkib, bazar müdirini və daruğanın digər mülazimlərini döydülər. Xəbər daruğaya çatdıqda o, həmin adamların tutulması üçün bir dəstə göndərdi. Sufilər təmkin göstərməyib, ifrat həddə özbaşınalıq etdilər. Daruğa öz adamları ilə bərabər şəxsən atlanıb, meydana gəldi. Sufilər əvvəlcə daruğanı daşa basdılar, sonra isə get-gedə bıçağa və xəncərə əl atıb, o tərəfdən hücuma keçdilər. Daruğa məğlub oldu. Bu xəbər gedib İsmayıl mirzəyə çatdı. Onsuz da o, Xüləfaya bəslədikləri rəğbət və həmrəylik səbəbindən sufilər

təbəqəsindən xatircəm deyildi. O, bütün əmirlərə əmr elədi ki, yaraq qurşanaraq, «şah atı» («əsbi-şahi») meydanında hazır olsunlar. Əmirlər çox-çox yaraq bağlayıb gəldilər. O, onları sufilərin dəf olunması və cəzalandırılması üçün göndərdi və axırda o təbəqənin qətliam edilməsinə hökm verdi. Qoşunun bir çox hissəsi, xüsusən də Müseyib xan Təkəlü və Mürtəzaqulu xan Pornak o camaatın Xüləfanın evi ətrafında yerləşən mənzillərinə sarı üz qoydular. Sufilər vəziyyətin bu cür olduğunu gördükdə əsləhələrini və yaraqlarını atıb qaçdılar. Qızılbaş qaziləri onlara çatıb qətlə yetirdilər və əsir aldılar. Bir göz qırpamında o təbəqədən beş yüz nəfərə qədər adam qətlə yetirildi.

***II Şah İsmayıl adlanan İsmayıl mirzənin göstərişi ilə şahzadələrdən altı nəfərinin qətlə yetirilməsi.*** İsmayıl mirzə [qoşun] camaatını sufilərin üstünə göndərdib, onları bu xidmətlə məşğul etdiyi bir vaxtda şahzadələrin qətlə yetirilməsi barədə də hökm verərək, onların hər birinin mühafizlərinə çatdırdı ki, onlara tapşırılmış işi həyata keçirsinlər. Əvvəlcə çərkəzlər Sultan İbrahim mirzə həzrətlərinin hərəmxanasına daxil olaraq, onu cənnətməkan şahın pak qızı olan möhtərəm zövcəsinin yanından ayırıb, boynuna ip saldılar və boğdular. Həmin dəqiqə [İbrahim] mirzənin evində fəryad və fəğan qopdu. Hamıya aydın oldu ki, onun qətlini icra ediblər. Həmçinin digər şahzadələrə qarşı da bir-bir bu əməli icra etdilər. Şahzadələrin qətli xəbəri [İsmayıl mirzəyə] çatdıqdan sonra o, arxayın olub, sufilərin törətdiyi zəlalət barədə əfv fərmanı imzaladı. Beləliklə, qılıncdan qurtulan [sufilər] nicat tapmış oldular. Bəlli oldu ki, bu dava-dalaş şahzadələrin qətlə yetirilməsi üçün quraşdırılmışdı. Çünki qızılbaş təbəqəsi bu çirkin əmələ qarşı çıxa və fitnə törənə bilərdi. Ona görə də [İsmayıl mirzə] onların başını həmin işlə qataraq, öz fikrindəki gizli niyyəti həyata keçirdi və o gün şahzadələrdən altı nəfəri onun göstərişi ilə Qəzvində şəhidlik şərbəti içdilər.

Sözügedən Sultan İbrahim mirzə çeşidli fəzilət və kamilliklərlə bəzənmiş və incəsənət fənləri ilə zinətlənmiş bir şəxs olub, zəmanənin istedad sahiblərindən idi. O, nəstəliq xətti ilə çox yaxşı yazırdı və incə qələmli bir müsəvvir idi. Musiqi və ədvar elmində zəmanənin öncülü idi. O, musiqi bəstələmək sahəsində Mövlana Qasım Qanuninin şagirdi olmuşdur. Yaxşı saz çalardı. Dülgərlik etmək, saz yonmaq və mozaika («xatəmbəndi») yaratmaq sənətlərində böyük məharətə malik idi. Xorasanda olarkən əksər vaxtlarda şairlərlə, nəzm və bəlağət sahibləri ilə söhbət edərdi və özü də «Cahi» təxəllüsü ilə şeir yazardı[926]. Ondan aşiqanə qəzəllər qalmışdır. O cümlədən bu iki məqtə onun əhvalatını qələmə alarkən xatirimizə gəldi:

**Qitə**

---

[926] İbrahim mirzə Səfəvi (1543-1576) türkcə və farsca 3 min beytdən artıq şeirlər yazmışdır. O, ədəbiyyat, sərf-nəhv, fəlsəfə, tibb, ilahiyyat, həndəsə, hesab, nucum və məntiq elmlərini də bilirdi. Onun orta əsr söz ustadları haqqında yazdığı «Fərhəng-i İbrahim» təzkirəsi məlumdur (Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi, s.103-104).

«Getmək anı yetəndə yar gəlib çıxdı, Cahi,
Gözünü aç ki, əgər görməyə taqət varsa».

**Qitə**

«Min gecədən sonra ki, sən yarla görüşdün,
Cahi, fürsətdir, gözünü ondan ayırma».

Onun yaratdığı böyük kitabxana[dakı kitablar] köhnə ustadların və gözəl yazan xəttatların xətlərindən və misli-bərabəri olmayan qızıl qələmli müsəvvirlərin çəkdikləri təsvirlərdən ibarət idi. Onun mülkiyyətində çoxlu digər töhfələr də vardı. Onun çinixanası Çin və Xəta nigarxanalarını utandırırdı. [İbrahim] mirzənin [ölüm] hadisəsindən sonra onun möhtərəm hərəmi o əsərlərin İsmayıl mirzənin əlinə keçməməsi üçün onların əksəriyyətini suya tökdü, çiniləri sındırdı, qalanlarına isə od vurdu və mirzənin matəmi üçün həddən artıq fəryad və fəğan qopardı. Axırda o, ah-zarının çoxluğu üzündən xəstələnib, yorğan-döşəyə düşdü və elə həmin ay fani dünyaya vida edib, əbədiyyət aləminə qovuşdu.

[İbrahim mirzənin] qabiliyyətli bir cavan olan on yeddi yaşlı qardaşı oğlu Məhəmməd Hüseyn mirzənin isə əvvəlcə gözlərinə mil çəkdilər. Bu dərdin şiddətindən o, coxlu fəryad və ah-zar edərək, sakitləşmək bilmədi. Bu xəbər İsmayıl mirzəyə çatdıqda buyurdu ki, onu da mövcudluq işgəncəsindən xilas etsinlər. Fərman icraçıları əmrə əməl etdilər.

Sultan Mahmud mirzənin bir yaşlı oğlu Məhəmməd Bağır mirzə ilə birlikdə qətlə yetirilməsi. Rumlu camaatının arasında yaşayan Sultan Mahmud mirzə canı sağlam olan qüvvətli bir cavan idi. O, heç bir vaxt böyük vəzifə və mövqe əldə etmək fikrinə düşməsə də, öz namehriban qardaşının göstərişi ilə onu da digər qardaşları kimi boğdular. Lakin qüsl vermə və kəfənləmə vaxtı o, hərəkət edib, gözünü açdı. Məlum oldu ki, boğma zamanı kəndir onun boynunun şah damarlarından birini yaxşı sıxmayıbdır. Bəsirət gözü qəbahətli və biabırçı əməllərdən tutulmuş İsmayıl mirzə bu hadisədən agah olduqda onun işini bitirməyi əmr etdi və onu bir yaşlı körpə oğlu Məhəmməd Bağırla birlikdə digər [şahzadələrin] yanına göndərdilər (öldürdülər).

***İmamqulu mirzənin qətli.*** İmamqulu mirzə ilə Sultan Əhməd mirzənin hər ikisini dövlətxanaya gətirirərək, at meydanı yaxınlığında saxladılar. Onlar elə oradaca şahidlik şərbətini içdilər. [İsmayıl mirzə], həmçinin Sistana adam göndərərək, Bəhram mirzənin övladı Bədiüzzaman mirzəni Bəhram adlı azyaşlı körpə oğlu ilə birlikdə öldürtdü. Gəncədə olan Sultan Əli mirzəni çağırmaq üçün adam göndərdi. Bir neçə gün sonra qacar camaatı həmin şahzadəni gətirib gəldi. [İsmayıl mirzə] rəhm edərək, onu qətlə yetirməsə də, gözlərinə mil çəkdirib, onu görməkdən məhrum etdi.

İsgəndər şanlı nəvvab [İsmayıl mirzənin] doğma qardaşı idi və görmə qabiliyyəti zəif idi. [İsmayıl mirzə] onun adlı-sanlı oğullarından narahat olsa da, Bilqeys[927] məkanlı ülyahəzrət anası Sultanım öz oğlu [Məhəmməd Xudabəndəyə] və onun övladlarına həddən artıq məhəbbət bəslədiyi üçün [İsmayıl mirzə] ondan həya edib, onları öldürmürdü. Amma onların işini bitirmək fikri ilə gecəni gündüz edirdi. Axırda, nəhayət ki, öz batini xəbisliyini onlara münasibətdə də üzə çıxardı. Əvvəlcə İsgəndər şanlı nəvvabın Tehranda olan böyük oğlu Sultan Həsən mirzəni qətlə yetirtdi.

Bu mövzunun açıqlaması, o yaxşı xislətli şahzadənin [ölüm] əhvalatının əvvəli və axırının şərhi belədir ki, hələ cənnətməkan şah onu darüssəltənə Heratdan çağırmışdı və o, ali taxtın ətəklərində iltifatlı nəzərlər altına idi. O, bir neçə il yüksək dərəcəli babasının tərbiyəsinin kölgəsi altında boya-başa çatıb, kamal mərtəbəsinə yüksəlmişdi. Mazandaran valisi Sultan Murad xanın ölümündən sonra cənnətməkan şah Mazandaran vilayətinin yarı hissəsini haqqında bəhs edilən cənab şahzadəyə tapşırdı, o vilayətin qalan yarısını isə Sultan Murad xanın oğlu Mirzə xana verdi. [Şah Təhmasib] həmçinin Mazandaran divləri[928] təbəqəsindən olan və öz ağlı və uzaqgörənliyi ilə seçilən Mirək-divi şahzadənin vəkili təyin etdi. Beləliklə, [Sultan Həsən] mirzə cənabları şahın qayğısı ilə əhatə olunub, böyük bir izzət və etibarla Mazandarana gedərək, o vilayətin yarısının hakimliyi taxtına əyləşdi. Onun vəkili Mirək-div idarəçilik işlərini əlinə aldı və sözsüz ki, onun bu davranışı [Sultan Həsən] mirzə cənablarının ürəyincə olmadı. Mirək-div məsələləri öz rəyi və məsləhəti əsasında həll edirdi və şahzadə cənablarının köhnə mülazimlərinin mütləq surətdə heç bir işə qarışmasına imkan vermirdi. Belə bir şərait şahzadənin xoşuna gəlmirdi və o, axırda Mirək-divin hegemonluğuna və iqtidarına dözümlülük göstərməyib, özünün bir sıra mülazimlərinin təhriki ilə onu cənnətməkan şahın əmri və göstərişi olmadan qətlə yetirdi və Mazandaran divlərinin əllərini o mülkün idarəçilik işlərindən uzaqlaşdırmaq mövqeyini tutdu. Bunun üçün o tayfaya dair yoxlamalar aparıldı. Lakin elə ki vəziyyət barədə həqiqətlər əşrəfin ərzinə çatdırıldı, onun bu cəsarət və özbaşınalıqları əşrəfin xoşuna gəlmədi və könlü ondan incik düşdü. Əşrəfin xatirinə çatdı ki, [Sultan Həsən] mirzə cənabları bu hərəkəti öz doğma dayısı olan və orduda onunla həmsöhbət olan Mir Abdulla xan oğlu Mir Əziz xanın təhriki və qızışdırması ilə etmişdir. Ona görə də adam göndərib, dərhal [Sultan Həsən] mirzənin kağızlarını və əşyalarını gətizdirdi. Kağızların arasından Mir Əziz xanın göndərdiyi məktub çıxdı. Həmin məktubda o, [Sultan Həsən] mirzəni yuxarıda qeyd edilmiş işi törətməyə qızışdırırdı. Bu səbəbdən [Mir Əziz xanı] tutub, İstəxr qalasına

---

[927] Bilqeys - dini rəvayətlərə görə, e. ə. X əsrdə Səba şəhərində hakimiyyət sürmüş Himeri sülaləsinin hökmdarı və sonralar Süleyman peyğəmbərin arvadı olmuş qadın. Şərq ədəbiyyatında ağıllı qadın kimi təsvir olunur (A.M.Babayev. Azarbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi, s.38).

[928] Mazandaran əyanları «div» adlandırılırdı.

yolladılar. Daha sonra [Şah Təhmasib tərəfindən] Mazandaran divlərinin xatirinə təsəlli vermək və onların könlünü almaq üçün [Sultan Həsən] mirzənin köhnə mülazimlərinin oradan kənarlaşdırılması barədə hökm verildi. Bir necə nəfər xidmətçilərdən savayı, şahzadənin xidmətində köhnələrdən heç kimsə qalmadı və cənab mirzə Mazandaranda bir qədər zəif və etibarsız vəziyyətə düşdü. Belə olduqda şahzadə cənabları [Şah Təhmasibə] müraciət edib, bunları bildirdi: «Mirək-div ayağını itaət dairəsindən kənara qoyub, üsyan və tüğyan məqamına gəlmişdi. Əgər onun şər işlərini dəf etmək istəyimizi əşrəfə ərz edib bildirsəydik, o vaxta qədər müxtəlif fəsadlar baş verəcəkdi. Buna görə də özbaşına olaraq, belə bir ədəbsizliyi törətməyə cürət etməli olduq». Onun üzrxahlığı qəbul olunduğuna görə işi yüngülləşsə də, [Şah Təhmasib] onun vəziyyətinin düzəldilməsi üzərində çox da durmadı və [Sultan Həsən] mirzə naqis bir şəkildə hökumət sürməyə davam etdi.

Nəhayət, o, Mazandaran əhalisinin bir çoxunu mülayimlik və iltifatla özünə ram edib, öz vəziyyətini yaxşılaşdırmaq məqamında ikən cənnətməkan şahın vəfatı hadisəsi baş verdi və İran səltənəti və padşahlığı onun doğma əmisi olan İsmayıl mirzənin əlinə keçdi. Sultan Həsən mirzə bu vəziyyətdən xəbər tutduqda İsmayıl mirzənin anası, özünün isə nənəsi olan möhtərəm xanım Sultanımın öz əziz nəvəsinə (Sultan Həsən mirzəyə) hədsiz məhəbbət bəslədiyini nəzərə alaraq, yüksək məqamlı əmisinin hakimiyyəti dövründə ixtiyar və iqtidar sahibi olacağını təsəvvür etdi və əmisinin hələ də oğlu olmadığından, Mazandaran vilayətində aşağı səviyyəli naqis hakimliyə razı olmayıb fikirləşdi ki, yüksək məqamlı əmisinin və nənəsinin hüzurunda istəkli oğul səviyyəsində olacaq, İranın işlərinin ixtiyar sahibinə, bəlkə də, vəliəhd və qaimməqama çevriləcəkdir. Buna görə də o, İsmayıl mirzənin əmri və işarəsi olmadan Mazandarandan çıxmaq fikrinə düşdü. Bu əsnada divlər təbəqəsi Mirək-divin qanını almaq üçün hərəkətə keçdi. Onlar mirzənin evinə hücum etdilər və fitnə-fəsadın səbəbkarları olan Seyid Müzəffərin iki qardaşını və oğlunu mirzənin evindən bayıra çıxararaq, Mirək-divin qanının qisası naminə onları qətlə yetirdilər. O tayfa mirzəyə qarşı hörmətsizlik göstərməyə başladı. Bu hadisənin baş verməsindən sonra Seyid Müzəffər ayağını mirzəyə itaət yolundan kənara qoydu və divlər təbəqəsi ilə sülh bağladı. Onlar bir-birləri ilə müttəfiq olub, mirzənin əleyhinə çıxdılar. Cənab mirzə onların iğtişaş və fitnəsi ucbatından həmin vilayətdə qalmağa macal tapmayıb, böyük bir qəm-qüssə içində, pərişan bir halda Mazandarandan çıxdı və İsmayıl mirzənin xidmətinə yetmək əzmi ilə hərəkətə başladı. Lakin öz sadə-lövhlüyü üzündən[929] onun əsla ağlına gəlmirdi ki, namehriban əmisi ona qarşı amansızlıq edə bilər.

Elə ki o, Tehrana çatdı, İsmayıl mirzə onun gəlişindən xəbər tutdu. [İsmayıl mirzə] malik olduğu bir çox mülahizə və ehtiyatlılıq üzündən onun gəlişinə razı olmasa da, açıq-aşkar ona qarşı hərəkət edə bilmədi. Çünki onun adlı-sanlı atası və qardaşı Şirazda zülqədər tayfasının yanında idilər və həmçinin xalqın nəzərində

929 S-129, v.174a; S-297, v.136b.

anasının hörmətini saxlamaq lazım idi. Buna görə də onun yanına adam göndərib, ona bunları çatdırdı: «Sənin nənən olan möhtərəm anam hal-hazırda Qumda olduğu üçün arzu olunur ki, onu oradan tam izzətlə, ehtişamla və şahanə dəbdəbə ilə gətizdirək. İndi anamın gəlişinə hazırlaşırıq. Sən Tehranda qal ki, anam gəlib yerbəyer olandan sonra səni də dəvət etmək üçün adam göndəriləcəkdir, sənin də gəlişinə hazırlıq görüləcəkdir. O zaman böyük əmirlərdən birini sənin ardınca göndərəcəyik. [Bunları ona görə belə edirik] ki, sənin gəlişinlə anamın gəlişi üst-üstə düşməsin». Bunları eşitdikdə şahzadə dilxor oldu. O, əmrə müvafiq olaraq, Tehranda qaldı. İsmayıl mirzə onu və öz anasını gətizdirməyi yubadırdı və gah imarətlərin təmirini, gah mənzillərin təyin olunmasını və müxtəlif işləri bəhanə edərək, vaxtı uzadırdı. [Sultan Həsən mirzə] Tehranda olarkən orduda məzhəb ixtilafları söz-söhbəti ortaya çıxdı. Bəzi ağzıgöyçəklər İsmayıl mirzəyə xəbər çatdırdılar ki, əksər qızılbaşlar hökmdarın sünni olduğunu güman edərək, o cənabdan üz çeviriblər və Sultan Həsən mirzəni gətirib padşah etmək istəyirlər. [İsmayıl mirzə] bu məsələni bəhanə edərək, o günahsız şahzadənin həyat bağının qırılması haqqında fərman verdi. Əvvəlcə Sultanım xanımın bacısı oğlu, İsgəndər şanlı nəvvabla İsmayıl mirzənin isə xalası oğlu olan Müseyib xan Şərəfəddinoğlu Təkəlü bu xidməti icra etməyə təyin olundu. O, bu göstərişə qarşı tam ikrah hissi ilə yola çıxdı. Dörd-beş gündən sonra xəbər gəldi ki, o, asta-asta hərəkət edir və hələ Savucbulağdan keçməyibdir. [İsmayıl mirzə] tapşırılmış işdən onun bu cür boyun qaçırmasından və etinasızlıq göstərməsindən qəzəblənərək, türkman tayfasının əmiri Kosa Əliqulunu hər oymaqdan iki nəfər olmaqla, qırx-əlli nəfər qorçu ilə birlikdə göndərdi ki, onların 22 nəfəri kəndirin bir ucunu, digər 22 nəfəri isə kəməndin o biri ucunu əllərində tutub, şahzadəni boğsunlar. Müseyib xan bu məsələdən agah olub, geri qayıtdı.

***Sultan Həsən mirzənin əmisi II Şah İsmayılın əmrindən xəbər tutması.*** Həmin adamlar gözlənilməz bir bəla kimi gəlib Tehrana çatdılar. Şahzadə onsuz da Tehranda qalmağın uzun sürdüyünü görüb, özünə qarşı etimadsızlıq göstərildiyinin qoxusunu duymuşdu və onun öz namehriban əmisindən umduğu şəfqət gümanı zay olmuşdu. O, qaçış yolunun bağlı olduğunu görüb, qorçuların gəlib çatması vaxtı evin qapısını qıfıllayaraq, öz tirkeşini kamanı ilə birlikdə götürdü, dama çıxdı və öz-özlüyündə qərar verdi ki, qüvvəsi, gücü və atmağa oxu qalana qədər savaşıb, kişi kimi öldürülsün. Qorçular bu halı müşahidə etdikdə Kosa Əliqulu dedi ki, «əmrə müvafiq olaraq, şahzadəni aparmağa gəlmişik» və «Quran» kitabını əlində tutub, öz dili ilə bu barədə yalandan and içdi. Şahzadə onun andına inanıb, onların yanına gəldi. Tanrıdan xəbərsiz olan o adamlar eyni anda onun üzərinə atıldılar və dərhal onlara tapşırılmış üsulla şahzadənin nazik boğazına kəndir salıb, izzət çəmənində boya-başa çatmış o səltənət arxının sərvini aradan götürdülər.

Elə həmin gün İsmayıl mirzə Qazi bəy adlı bir zülqədər qorçusunu Şiraza göndərdi ki, İsgəndər şanlı nəvvabı və onun oğullarını həbs edib, camaatın [onların yanına] gəliş-gedişinə mane olsun, zülqədər tayfasından və başqalarından heç

kimin onunla görüşməsinə imkan verməsin və fərmanı icra etməklə məşğul olsun. Bu arada xəbər yayıldı ki, nəhayət, [İsmayıl mirzə] kama çatmış Şah [Məhəmməd Xudabəndənin], onun istəkli oğullarının və həmçinin onun Heratda olan oğlunun aradan qaldırılması qərarına gələrək, onların qətlinə hökm vermişdir. Lakin hadisələrin bu cür inkişafı ona uğur gətirmədi və o, bu çirkin işlər həyata keçirilməzdən öncə əcəlin mütləq qəzavü-qədərinə düçar olub, həyata vəda etdi. Bu əhvalatın təfsilatı öz yeri gələndə qeyd olunacaqdır.

Şanlı və ulu Allahın kölgəsi olan əlahəzrət şahın müqəddəs zatında neçə-neçə yaxşı əməllər əmanət qoyulduğundan və onun səltənət və padşahlıq fərmanı «[ey mülkün sahibi olan Allahım], sən mülkü dilədiyin şəxsə verərsən» ayəsi[930] ilə möhürlənib tale lövhəsində qeyd olunduğundan [İsmayıl mirzənin] bu hökmünün icrası baş tutmadı. Bu iş həyata keçməzdən öncə qəddar zəmanə öz xətm fərmanı ilə onun (İsmayıl mirzənin) hakimiyyət tuğrasına son qoydu və o, sahib olduğu ömürdən və dövlətdən bir fayda görmədi.

## İSMAYIL MİRZƏNİN HAKİMİYYƏTİ GÜNLƏRİNDƏ ONUN ÖLÜMÜNƏ QƏDƏR BAŞ VERMİŞ BƏZİ HADİSƏLƏR VƏ ƏHVALATLAR HAQQINDA

İsmayıl mirzə öz qardaşlarının və əmioğlularının işini həll edib, bu barədə arxayın olduqdan sonra məmləkət məsələləri ilə məşğul olmağa başladı. Vəzir Mirzə Şükrullanın davranışı [İsmayıl mirzənin] xoşuna gəlmirdi və həmişə ondan gileylənirdi. Buna görə də onu ali divanın vəziri vəzifəsindən azad edib, həmin ali mənsəbi nazir Mirzə Salmana tapşırdı və onun səviyyəsini son dərəcə yüksək mərtəbəyə qaldırıb, ona göstəriş verdi ki, yüksək şöhrətli əmirlərdən heç birisinin qarşısında əyilməsin. Sözügedən şəxs sərbəstcəsinə həmin vəzifəni icra etməyə başladı. Amma İsmayıl mirzə məmləkət məsələlərinin həll olunması ilə az məşğul olur və sərhədlərin işlərinin intizama salınmasına həddən artıq laqeydlik nümayiş etdirirdi. Bir neçə gün ərzində bir işi bir şəxsə tapşırır, daha sonra onu başqası ilə əvəz edirdi. Amma bəzi əmirləri mahal hakimi təyin etmişdi və onlar öz ölkələrinə yollanmışdılar. Qalan əmirlər orduda olarkən onun ölüm hadisəsi baş vermişdi.

İsmayıl mirzə öz xalası oğlu olan Müseyib xan Şərəfəddin-oğlunu əyalət hakimi etdi, onu xanlıq rütbəsinə yüksəltdi və Rey ölkəsini ona verdi. Solağ Hüseyn Təkəlünü Kürdüstan səmtinə göndərib, Əlvəsatı və Əlişəkər qələmrovunun[931] bəzi mahallarını ona verdi. Əliqulu xan Şamlunu və onun atası Sultan Hüseyn xanı da əyalət hakimi vəzifəsinə ucaldıb, Herat hakimliyini Əliqulu xana tapşıraraq, cənnətməkan şahın qızı Zeynəb bəyimi ona nişanladı və əmr etdi ki, növbəti il onu Herata yola salsınlar. Mürtəzaqulu xan Pornaka şanlı və

[930] "Qurani-Kərim», «Ali-İmran» surəsi, 26-cı ayə.

[931] Qələmrov – bir hökumətin idarəsi altında olan yer, ölkə mənasındadır. Əlişəkər qələmrovu Həmədan vilayətini əhatə edirdi.

müqəddəs Məşhədin hakimliyini tapşırmaqla onu əzizləyib başıuca etdi. Cənnətməkan şahın Yusif xəlifə Ziyadoğluya verdiyi Gəncə əyalətini və Qarabağ əmirülüməralığını onun əmisi oğlu Peykər sultana həvalə etdi. Bu sonuncu adı çəkilən şəxsin ağlına gəldi ki, Yusif xəlifə Sultan Heydər tərəfdarları ilə dostluq etməklə töhmətləndiyi üçün onun qətlə yetirilməsi öz şövkətinin və etimadının artmasına səbəb olacaqdır. Buna görə də fürsətdən istifadə edərək, bir səhər çağı o, hamamdan çıxıb paltarını geyinərkən öz mülazimlərindən bir neçə nəfərlə birlikdə qılınclarını sıyırıb, hamamın üstünə gəldi və onu qətlə yetirdi. [Peykər sultan] bununla kifayətlənməyərək, onun anasını və qardaşlarını da öldürdü. Lakin bu məsələ İsmayıl mirzənin xoşuna gəlmədi. Buna görə də onu vəzifədən uzaqlaşdırıb, Gəncə əyalətini İmamqulu xan Qacara verdi. Kirman hakimi Allahqulu bəy Əfşarı[932] qorçubaşı vəzifəsinə təyin etdi. Kirman hakimliyini Mahmud sultan Əfşara tapşırdı, Şiraz əyalətini isə Vəli xan Qalxançıoğluya həvalə etdi.

***İsmayıl mirzənin oğlu Şah Şücanın doğulması.*** İsmayıl mirzənin cariyələrindən biri hamilə idi və bu əsnada onun doğuşu baş verdi. Bu doğuşdan bir oğlan dünyaya gəldi. İsmayıl mirzə onun gəlişindən sevindi və hədsiz şadlıq nümayiş etdirdi. O, əmirlərdən hər birinin yanına bu təvəllüdün müjdəsini çatdırmaq üçün adamlar göndərdi. Bir neçə gündən sonra onu Şah Şücaəddin Məhəmməd adlandırıb, onun lələliyini Şiraz hakimi Vəli sultan Zülqədərə tapşırdı ki, Müzəffərilər sülaləsinin məkanında tərbiyə olunub, boya-başa çatsın və həmin vilayətdə Şah Şüca Müzəffərinin[933] dəbdəbəsini təzələsin. Vəli sultan öz mənzilini şahanə təmtəraq və xosrovanə bər-bəzəklə tərtib edib, şahzadənin beşiyini dövlətxanadan çıxararaq, at üzərində öz qarşısında tutdu və cəmi əmirlər və dövlət ərkanı əmrə uyğun olaraq, piyada surətdə şahzadənin beşiyinin arxasınca addamlayıb, onu Vəli sultanın mənzilinə çatdırdılar. Bunun nəticəsində Vəli sultanın rütbəsinin səviyyəsi hamının nəzərlərində ən yüksək zirvəyə qaldırılmış oldu. Onun [İsmayıl mirzə tərəfindən] yüksəldilməsinin səbəbi bu idi ki, Şirazda onunla İsgəndər şanlı nəvvab arasında narazılıq yaranmış və zülqədər tayfası sufilik yoluna uyğun olaraq, İsgəndər şanlı nəvvabın tərəfini saxlayıb, ona (Vəli sultana) qarşı qaba rəftar etməyə başlamış, onu sıxışdırmışdılar. Nəticədə, onun vəzifəsi nüfuzdan düşmüş və etibarsız bir vəziyyətdə qalmışdı. Buna görə də o, Şirazdan çıxıb, ali taxtın ətəklərinə gəldi. İsmayıl mirzə məhz öz təbiətində qardaşına qarşı möhkəm yer tutmuş çoxlu inadkarlıq üzündən onu yüksətdi və ona qarşı qaba rəftar etmiş zülqədər ağalarını, xüsusilə də Əli bəyi və Şirazın sabiq hakimi Məhəmmədcan ağa Şadıbəylinin[934] qardaşlarını və oğullarını etibarsız edib, onlan tənqid hədəfinə çevirdi.

---

[932] Bu şəxs daha çox Qulu bəy kimi tanınmışdı və «Ahmara»nın əksər yerində bu adla adlandırılmışdır.

[933] Şah Şüca Müzəffəri - 1364-1384-cü illərdə Müzəffərilər dövlətinin hökmdarı olmuşdur. O, Müzəffərilər sülaləsinin banisi olan Mübarizəddin Məhəmməd ibn əl-Müzəffərin (1314-1358) oğlu idi.

[934] S-129, v.l76a. Tehran çapının bu yerində (s.213) Məhəmmədxan ağa Şadıbəyli yazılmışdır.

***İsmayıl mirzənin şiə məzhəbinə etiqadının zəif olması və onun sünnilik məzhəbinə meyil etməsi barədə.*** Bu əsnada xalq arasında məzhəb ixtilafı söz-söhbəti ortaya düşdü. İsmayıl mirzənin davranışlarına və onun şiə inancı barədə gizlində dediyi sözlərə əsasən, camaat onun şiəliyə etiqadının zəif olduğunu aşkar edib, sünni olduğunu güman etdi. Bu şübhənin birinci səbəbi o idi ki, o, Aişəyə tənə vurulmasından narahatçılıq keçirərək, bu narahatlığın təhqiq və araşdırma yolu ilə aradan qaldırılması üçün öz xidmətində olan islam üləmalarına, xüsusilə də Xoca Əfzəl Tərkəyə bunları bildirmişdi:

- Görəsən, şiə camaatı hansı dəlilə əsasən Tanrı Rəsulunun möhtərəm hərəminə tənə edilməsini caiz hesab edir? Halbuki onun şəninə ismət və paklıq ayəsi nazil olmuşdur. O, həzrət [peyğəmbərlə] bir yastığa baş qoymaq şərəfinə nail olmuş, onunla baş-başa qalmış və həmin sərvərin məhbubəsi olmuşdur. Axı necə ola bilər ki, o, axirətin alovuna və cəzasına layiq olsun? Bəsrədə Təlhə və Zübeyrin qızışdırması və təhriki ilə onunla Həzrət Əmirülmöminin Əli ibn Əbu-Talib arasında [münaqişə] baş versə də, Həzrət Əmir-ülmöminin onun qadınlara xas olan düşüncə zəifliyini və ağlının nöqsanını əsas tutaraq, onu əfv etdi[935]. Bu əfvin sübutu belədir ki, onu izzət və ehtiramla Mədinəyə göndərdi, Tanrı Rəsulunun hörmətini saxlayaraq, ona tənə etmədi və bir neçə mənzil Həzrət [Əli] özü şəxsən Həzrət Həsən və Həzrət Hüseynlə birlikdə onu müşayiət etdi. Buna görə də [Aişəyə] edilən tənə o sərvərdən (Həzrət Əlidən) qaynaqlanmır. Şiə üləmaları bu barədə nə söyləyirlər?

O, bu hekayəti bir neçə məclisdə bəzən üstüörtülü, bəzən isə açıq-aşkar şəkildə izhar etdi. Üləmalar etiraz etmək və qənaətbəxş cavab vermək mövqeyini tutmadılar və hər dəfə münasib məqam düşdükcə bu barədə öz aralarında gizlincə söhbət edirdilər.

Cənnətməkan şah zamanında sünnilikdə ittiham olunmuş Mirzə Məxdum Şərifi İsmayıl mirzənin sözünə qüvvət verən dəlillər deyib, günü-gündən yüksəlməyə başladı. Artıq [İsmayıl mirzə] məsələni pərdə altından üzə çıxararaq, sünnilik məzhəbini möhkəmləndirməyə və ilk üç xəlifənin tənə olunmasını aradan qaldırmağa çalışaraq, üləmalarla mübahisələr və müzakirələr aparırdı. Üləmalar isə əksər vaxtlarda buna göz yumub, onunla mübahisə etməkdən yayınırdılar. Bir gün İsmayıl mirzə yüksək xüləfalıq mənsəbi ilə əzizlənmiş və başucalığı tapmış Bolğar xəlifəyə söylədi:

- Xəlifə! Əgər bir kəs sənin zövcənin adını camaat arasında çəksə və onu söysə, sənin acığına gələr, ya yox?

O, cavab verdi ki, bəli! Onda [İsmayıl mirzə] dedi:

---

[935] Təlhə və Zübeyr Məhəmməd peyğəmbərin səhabələrindən və islam sərkərdələrindən olmuş, lakin Həzrət Əli xilafət rəhbərliyinə keçdikdə onlar peyğəmbərin dul qadını Aişəni də özlərinə müttəfiq edərək, Həzrət Əliyə qarşı qiyam qaldırmışdılar. Nəticədə, 656-cı ilin dekabrında Bəsrə şəhəri yaxınlığında baş vermiş «Cəməl döyüşü»ndə Təlhə və Zübeyr qətlə yetirilmişdi.

- Bəs, nə üçün adamlar Tanrının Rəsulunun möhtərəm hərəmini lənətləyirlər?

Bolğar xəlifə onun cavabında dedi:

- Söyüş söymək haramdır. Amma lənət Tanrının rəhmətindən uzaqlaşanlara aid olunur və qarğış kimidir. Yəni hər kəs ki pis əməl edibdir, onun işini Tanrıya həvalə edirsən. Bu işdə bir qüsur yoxdur.

İsmayıl mirzə soruşdu:

- Sən sadəlövh bir türk kişisisən. Bu məsələni sənə kim öyrədib?

O dedi:

- Cənnətməkan şahın zamanında üləmalardan eşitmişəm. Lakin ağzıgöyçəklər əşrəfin ərzinə çatdırdılar ki, «o, yalan deyir; bundan bir neçə gün öncə şahlıq eyvanında Sultan İbrahim mirzənin hüzurunda bu məsələ üləmaların arasında danışılmış və orada Mir Seyid Hüseyn Müctəhid və Xoca Əfzəl ona bu barədə xatırlatmışlar». Bu sözləri eşidən [İsmayıl mirzə] qəzəbləndi və qorçulara bildirdi ki, «bir xəlifə ki, öz mürşidi-kamilinə yalan deyir, cəzaya layiqdir». Sufilər hücum etdilər və onu təpiklərinin altına salıb elə döydülər ki, o, həyatdan ümidini üzdü. Hamı güman etdi ki, o ölmüşdür. Onun cəsədini keçəyə büküb, mənzilinə apardılar ki, dəfn etsinlər. Təsadüfən, bir qədər sonra onun huşu özünə qayıtdı və yalnız iki-üç aydan sonra hərəkət etməyə qüvvət tapdı.

***İsmayıl mirzənin müxalifləri lənətləmək və onlara qarşı təbərra demək kimi işləri şiələrə qadağan etməsi.*** İsmayıl mirzə onun (Bolğar xəlifənin) mənsəbini Dədə Xüləfa Ustacluya verdi, sonra isə üləmalara qarşı etiraz səsləndirib dedi:

- Həzərat! Bəzi adamlar var ki, hər gün məclis təşkil edib, pis-pis sözlərlə qızılbaşların mənə olan inamını sarsıdırlar və hiyləgərliklə, fırıldaqla mənə qarşı məkrli oyun qururlar. Mən onların qarşısından geri çəkilməyəcəyəm.

Bundan sonra o, üləmalara, xüsusən də Mir Seyid Hüseynə və xalis şiə olan astarabadlı [ruhanilərə] qarşı nalayiq sözlər dedi və onların ziddinə gedərək, hökm etdi ki, təbərra mərasimi küçələrdən və məhəllələrdən yığışdırılsın və bundan sonra təbərradeyənlər bu əməli tərk etsinlər[936]. Daha sonra əlavə etdi ki, lənəti özləri üçün qazanc mənbəyinə çevirmiş təbərradeyənlər təbəqəsinə mənim heç bir etimadım yoxdur. O, Mirzə Məxdum Şərifi, Mövlana Mirzəcan Şirazi və Mir Məxdum Lalə kimi sünnilikdə şübhəli bilinən üləmaları yüksəltdi və onlara nəvaziş göstərdi. Bəzi vaxtlar moizələr oxuyan Mirzə Məxdum Şərifi, İsmayıl mirzəyə ərz etdi ki, təbərradeyənlər moizə məclisində təbərra edib, mənə qarşı kinayəli sözlər

---

[936] Təvəlla və təbərra - şiə əqidəsinə görə, vacib dini əməllərdən bəhs edən füruiddinin 10 prinsipi sırasına daxildirlər. Təvəlla Məhəmməd peyğəmbərin Əhli-beytinin dostları ilə dost olmağı, təbərra isə Əhli-beytin düşmənləri ilə düşmən olmağı nəzərdə tutur. Təbərradeyənlər - Səfəvi dövründə sünniliyin əsaslarını sarsıtmaq üçün ictimai yerlərdə ilk üç xəlifəni, yəni sünnilərin pərəstiş etdikləri Əbu-Bəkri, Öməri, Osmanı ucadan lənətləyən xüsusi qrupdur (daha ətraflı bax: Rosemary Stanfield-Johnson. The Tabarra'iyan and the Early Safavids // Iranian Studies; March 2004; Volume 37, No. 1, p.47 -71).

deyirlər. İsmayıl mirzə on iki nəfər qorçunu təyin etdi ki, onlar moizə məclisində hazır olub, təbərra demək üçün ağzını açan hər kəsi tənbeh edib cəzalandırsınlar. Cümə gününün axşamında camaat üçün moizə məclisi təşkil olundu. Məclisin sonunda Dərviş Qənbər Təbərrayi bu beyti oxudu:

**Beyt**

«Əliyə və nəslinə canü-könüldən salavat,
Əli düşmənlərinə həmişə lənət olsun!»

Mirzə Məxdum onun bu sözlərindən bir qədər əsəbiləşdi. Qorçular ona çoxlu kötək vurub, başını bir neçə yerdən partlatdılar. Bu halın baş verməsi səbəbindən şiələrin gözlərindən həsrət yaşları axmağa başladı. Bu hadisənin ortaya çıxması nəticəsində camaatın İsmayıl mirzə barədə şübhələri əvvəlkinə nisbətən daha da artdı. Bu söz-söhbət xalq arasında yayıldı və gizlində onun əleyhinə danışmağa başladılar. Qızılbaşların ona olan inamı bütünlüklə sarsıldı. Amma heç kəsin cürəti yox idi ki, bu mövzuya dair bir söz deyə bilsin.

İsmayıl mirzə üləmaların hamısına qarşı bədgüman olub, şiəlikdə və təbərrada həddən artıq möhkəm olan Mir Seyid Hüseyn Müctəhidə, Mir Seyid Əli Xətibə və astarabadlı ruhanilərə qarşı digərlərinə olduğundan daha artıq iltifatsızlıq nümayiş etdirdi və bəzilərini ordudan xaric etdi. O, əmr etdi ki, Mir Seyid Hüseynin bütün elmi kitablarını bir evə qoyub möhürləsinlər, onu sahib olduğu mənzildən çıxarıb, evini müsadirə etsinlər və həmçinin ömrü boyu «əşəreyi-mübəşşirə»ni[937] lənətləməmiş olan islam əhlinin salehlərinə nəzir məbləği versinlər. Mirzə Məxdum Şərifi bu qismdən olan adamların siyahısını müəyyənləşdirdi. Tamah əhlindən bir çoxları pul almaq üçün sünnilik töhmətini öz üzərlərinə götürsələr də, bu, sonralar onlara uğur gətirmədi. Qəzvinin maddi ehtiyacı olan bütün sakinləri ömrü boyu səhabələri, xüsusilə də «əşəreyi-mübəşşirə»ni lənətləmədiklərini bildirərək, öz adlarını siyahıya yazdırdılar. Qəzvin əhlinin çox hissəsi keçmiş zamanlarda şafei məzhəbində olduğuna və o təbəqənin böyük bir hissəsinin yenə də öz əqidəsində qalması ehtimalının mövcudluğuna görə Mirzə Məxdum onların etirafını təsdiq etdi. İki yüz tümənə yaxın olan nəzir məbləği o camaata paylanıldı. Amma İsgəndər şanlı nəvvabın zamanında o pulu onlardan geri aldılar və sünnilik bədnamlığından savayı, onların etibar kisəsində heç bir nağd pul qalmadı.

[937] «Əşəreyi-mübəşşirə» - ərəbcə «müjdələnmiş onluq» deməkdir. Sünni rəvayətlərinə görə, Məhəmməd peyğəmbər özünün on nəfər səhabəsini (Əbu-Bəkr ibn Əbu-Kuhafə, Ömər ibn Xəttab, Osman ibn Əffan, Həzrət Əli ibn Əbu-Talib, Səəd ibn Əbu-Vəqqas, Zeyd ibn Sabit, Təlhə ibn Übeydulla, Zübeyr ibn Avvam, Əbu-Übeydə ibn Cərrah və Əbdürrəhman ibn Avf) sağlıqlarında ikən cənnətlə müjdələmişdir (F.Devellioğlu. Osmanlıca - Türkçe ansiklopedik luğat, s.46).

Uzun sözün qısası, türkdən tutmuş tacikə qədər bütün əhali arasında xəbər yayıldı ki, İsmayıl mirzə sünnilik məzhəbinə tam rəğbət göstərir. O, qorxulu və sərt bir adam olduğu üçün heç kimin həddi və ixtiyarı yox idi ki, bu məsələ barədə ağzını açıb söz deyə bilsin. Cənnətməkan şahın zamanında təbərrada həddini aşmış və həmin qaydaya riayət etmiş bəzi üləmalar əhəmiyyətsiz və etibarsız bir vəziyyətə düşüb, hökmdarın yanında xidmət etməkdən məhrum edilmişdilər və çağırılmadan onun hüzuruna gələ bilmirdilər. Bəzi digərləri isə ağıl və dözümlülüklə rəftar edərək, Xoca Əfzəl Tərkənin təşkilatçılığı ilə gizlincə yığışıb danışır, onun məclisinə gedib-gəlirdilər. Amma bir gün öz aralarında məzhəbçilik söhbəti və danışığı əsnasında [Xoca Əfzəl] on iki imam - onlara salam olsun - məzhəbinin həqiqiliyi və sünni əqidəsinin yanlışlığı barədə xoşagəlimli sözlər ərz etdikdə [iştirakçıların] çoxusu səhabələrə bnət etməkdən və onlara qarşı çıxmaqdan çəkinib, bu barədə heç nə demədilər. Bəziləri bu işi etməyi qeyri-mümkün hesab edib, padşahın məsləhətlərinə və insanların könüllərinin ələ alınmasının zəruriliyinə istinad etdilər.

Qızılbaş əmirləri və əyanları bu hadisənin baş verəcəyini mütləq surətdə ehtimal etmirdilər. Nəhayət, bir gün hökmdarın məclisində deyildi ki, məscidlərdə şeir oxumaq və yazmaq haram olsa da, Qəzvin məscidlərinin dər-divarları adamlar tərəfindən yazılmış aşiqanə şeirlərlə doludur. İsmayıl mirzə fitri şiəliyin mövcudluğu barədə həmişə zarafat edən Mir Zeynalabidin Möhtəsib Kaşiyə buyurdu ki, məscidlərə gedib, şeirləri məscid tavanlarından və divarlarından silsin. O, məscidlərə gedib, İsmayıl mirzəyə xoş gəlmək üçün Əmirülmömininin yüksək adını və məsum imamlar həzrətlərinin - onların hamısına Allahın salamı olsun - haqqındakı mədh və tərifləri də tamamilə aradan qaldırdı. Bu hadisə də insanlara ağır gəldi. Bu söz-söhbət sadə camaatın arasında dolaşan şayiə və deyimlər çərçivəsindən kənara çıxaraq, türklər arasında yayıldı. Bəzi əmirlər və əyanlar Səadətabad bağının qapısı yaxınlığında yığışıb, öz aralarında dedilər;

- Cənnətməkan şahın doğma oğlu, Şeyx Səfinin törəməsi və Əli ibn Əbu-Talibin - ona salavat və salam olsun - nəslindən olan mürşidimizin və vəlinemətimizin məzhəbi barədə əcaib və qəribə sözlər dolaşmaqdadır. Onu Şahi-Mərdanın düşmənlərinə dost olmaqda ittiham edirlər. Allah eləməsin ki, bu, doğru olsun. Bilmirik ki, əhalinin bu barədə söz-söhbətlərinin səbəbi nədir və nə baş vermişdir ki, əhalidə belə bir şübhə yaranmışdır. İndi ixlas və sufilik yolunda bizim üzərimizə müşkül bir iş düşmüşdür. Cürətimiz yoxdur ki, mürşiddən öz müşkülümüzün həllini xahiş edək. Bəzi ağsaqqallar və aqillər dedilər:

- Bu hadisə qızılbaşların bu sülaləyə münasibətdə göstərdikləri sədaqət və etiqad qaydasına küfrdür. Axı nə üçün bu şübhəyə ehtimal verilməlidir?! Əgər əşrəfdən pis sözlü adamların tənəsinə səbəb olan bir hərəkət baş veribsə də, bu, məsləhətsiz deyildir. Biz ilk növbədə bu söz-söhbətləri etməkdən çəkinməliyik. Çünki bizim kimi bəndələrin bu məsələni padşahın hüzurunda izhar etməsi

tamamilə ədəbsizlikdir. Həm də kimin həddi və ixtiyarı var ki, bu suah ona verə bilsin?

İsmayıl mirzənin sufilərindən və tərəfdarlarından olan və onun qayğısı və himayəsi ilə əhatələnən Ərdoğdu xəlifə Təkəlü malik olduğu iradə üzündən dedi:

- Allah eləməsin ki, bu məsələ doğru olmuş olsun. Əgər bu barədə xatircəm olmaq istəyirsinizsə, cəmi qazilər və sufilər böyük əmirlərdən biri olan Əmir xanı qabağa salıb, hökmdarın hüzuruna gəlsinlər. Onda mən o həzrətə müraciət edib, sizin müşkülünüzün həllini xahiş edərəm.

Həmin camaat arasında olan və [İsmayıl mirzənin yanında] izzətlərinin artmasını istəyən bəzi riyakarlar o saat özlərini İsmayıl mirzənin hüzuruna yetirib, xəlvətcə ona bunları söylədilər:

- Bir sıra türkman və təkəlü əmirləri Əmir xanın və Ərdoğdu xəlifənin sərkərdəliyi altında bir-birləri ilə ittifaq edib deyirlər ki, bizim padşahımız haqq məzhəbini tərk etmişdir. Onlar şah həzrətlərini ortadan qaldıraraq, İsgəndər şanlı nəvvabın Tehranda olan oğlu Sultan Həsən mirzəni gətirib padşah etmək üçün birləşiblər. Ərdoğdu xəlifə qızılbaş camaatı arasında deyibdir ki, Əmir xan mənə himayəçilik etsin, mən qabaqda gedib, padşahla danışaram.

Bir çoxları bu söhbətin [İsmayıl mirzəyə] Xəlifə Ənsar tərəfindən ərz olunduğunu güman edirlər və onun keçmişdə olanları unutdurmaq üçün İsmayıl mirzəyə bu məsələni izhar etdiyini bildirirlər. Doğrusunu Allah bilir.

İsmayıl mirzə bu bihudə hadisəni eşidən kimi pərişan oldu. Onun xatirində həmin camaatın barəsində qəzəb şöləsi alovlandı. O, Əmir xanı çağırtdırıb, ona sərt sözlərlə müraciət etdi və dedi:

- Siz məni qızılbaşlar arasında bədnam edib deyirsiniz ki, mən sünnilik məzhəbini qəbul etmişəm və camaatın mənə olan inamını sarsıdırsınız.

Əmir xan mərdanə surətdə cavab vermək mövqeyində durub dedi:

- Allah eləməsin ki, bizim etiqadımız bundan ibarət olsun və şah həzrətləri barədə səhv gümana düşmüş olaq. Biz deyirik ki, əgər bəzi hallarda şərəfli hökmdardan məzhəb barəsində laqeydlik baş versə də, bu, dövlət işlərinin zərurəti ilə bağlıdır və düşmənlərin qəlblərini rahatlatmaq üçündür. Amma Mirzə Məxdum Şərifi bu işin üzərindən pərdəni götürərək, şərəfli hökmdarı bədnam edib, camaata açıq-aydın deyir ki, şah həzrətləri sünnilik məzhəbinə meyil edir və şiə üləmaları ilə sünnilik məzhəbinin həqiqət olduğu barədə münaqişə edir. Əgər şah həzrətləri bu məsələni yanlış hesab edirsə, onda onu tənbeh etsin. Axı bizim nə günahımız var?

İsmayıl mirzə Ərdoğdu xəlifəyə xitab edib dedi:

- Budur, Əmir xan sənin arxanda dayanıb sənə himayədarlıq edir. Nə sözün varsa, de!

O, inkar etdi. Əmir xan ərz etdi:

- Nə üçün şah həzrətləri bizim kimi dövlətsevərlərin barəsində qərəzli adamların dediyi sözlərə inanaraq, həmin sözlərin doğru və yalan olmasını aydınlaşdırmadan, bizim kimi fədakar tərəfdarlarını nifaq əhli hesab edir?

İsmayıl mirzə dedi:

- Siz mənim qızılbaşlara padşahlıq etməyə ləyaqətimin olmadığını düşünüb, bir-birinizlə razılaşaraq, Sultan Həsəni Tehrandan gətirib padşah etməyi qərara almısınız.

Əmir xan təlaşsız və etinasız bir surətdə ərz etdi:

- Biz iyirmi ildir ki, sizin şərəfli zatınızın tərəfdarlığı və dostluğu təbilini döyəcləyirik. İndi ki, mətləbimizə çatmışıq, bunun bərabərində Sultan Həsəndən nə fayda tapa bilərik?! Onun padşahlığı heç kimin xəyalından da keçməmişdir. Axı biz bundan özümüzə nə fayda uma bilərik?!

Xülasə, söhbət sona çatdı. Ərdoğdu xəlifəni tutub, zindana saldılar. Dəftərxana daruğası Əlixan bəyi də onunla tamam ədavəti olan qardaşı Babur bəyin qızışdırması və təhriki əsasında, Ərdoğdu xəlifəyə tərəfdarlıq və dostluq etməkdə ittiham edib, həbsə aldılar. Daha sonra [İsmayıl mirzə] Əmir xana və Müseyib xan Təkəlüyə dedi:

- Əgər doğru deyirsinizsə, onda məni Sultan Həsən barədə xatircəm edin.

Onlar çar-naçar onun sözünə razılıq əlaməti olaraq başlarını əydilər. Əmirlər zümrəsindən olan Kosa Əliqulu Türkmanı qırx dörd nəfər qorçu ilə birlikdə bu yaramaz əməlin icrasına təyin etdilər. Necə ki, bundan öncə yuxarıda yazılmışdır, onlar Tehrana gedib, dövlətin bəzəkli çəməninin izzət arxının suyu ilə boy atmış o xoşbəxt fidanını aradan qaldırdılar.

Bu hadisələrdən sonra [İsmayıl mirzə] türkman və təkəlü tayfalarından bir qədər etimadsız olub, ustaclu tayfasına nəvazişlər göstərdi və Yegan Ustaclunun oğullarını himayə etdi. Yuxarıda qeyd olunduğu kimi, o, Mürşüdqulu sultanı Sistan hakimi etdi, onun qardaşı İbrahim sultan isə əmisi oğulları ilə birgə əziz və möhtərəm oldular. Həmçinin Məhəmmədi xan Toxmağa Çuxursəəd əyalətinin idarəçiliyi verildi. Məhəmmədi xanın yerinə Çuxursəəd hakimi təyin etmək istədiyi Əbu-Turab sultanı isə Şirvan əyalətinə hakim təyin etdi. Ustaclu tayfası bununla rahatlıq tapıb, onları bürümüş xof və qorxudan azad oldular. Elə həmin günlərdə İsmayıl mirzə camaatın etiqadını pozduğuna görə Mirzə Məxdum Şərifini məzəmmət və danlağa məruz qoydu. Bu halı müşahidə edən sadə xalq və qara camaat bu sonuncu adı çəkilmiş şəxs barəsində təhqirlər və söyüşlər yağdırmağa başladı. Aşağı səviyyədən olan adamlar ona qarşı son dərəcə biabırçılıq və rüsvayçılıq törətdilər. Bu hadisə xalq tərəfindən bəyənildi. Bununla da camaatın şübhələri yox olub getdi və hökmdar məclisində bir daha məzhəb mövzusu barədə bir söz deyilmədi.

***II Şah İsmayılın hakimiyyəti dövründə dirhəm və dinar sikkələrinin zərb olunması.*** [İsmayıl mirzə] hələ də öz adına qızıl zərb etdirmədiyindən və alış-veriş köhnə üsulla aparıldığından zərrabçılar yeni sikkələrin zərb olunmasını və

zərbxanaların mənafeyinin gözlənilməsini xahiş edirdilər. [İsmayıl] mirzə sikkənin bir tərəfində «La ilahə illəllah, Məhəmmədən rəsulullah, Əliyyən vəliyullah» sözlərinin nəqş olunub-olunmaması barədə götür-qoy etdi və dedi: - Dirhəm və dinarlar[938] ticarət mübadiləsi zamanı yəhudilərin, ermənilərin, məcusların[939], hindlilərin və s. kafirlərin əllərinə düşürlər və avam camaat «yalnız pak olanlar toxuna bilərlər» ayəsinə[940] zidd olaraq, natəmiz halda Allahın isminə toxunurlar.

Buna görə də o, tərəddüd edirdi ki, həmin ifadələrin əvəzində hansı ibarələri nəqş etdirsin ki, xalqın nəzərində xoşagəlməz olmasın. Bir gün o, camaatın arasında dedi:

- Bir halda ki, dostlar məni bədnam etmişlər, indi bu məsələ barədə də deyəcəklər ki, bu ifadələrin aradan qaldırılmasında məqsəd «Əliyyən vəliyullah» sözünün sikkələr üzərindən silinməsi olmuşdur.

Çox götür-qoydan sonra axırda qərara alındı ki, sikkənin bir üzündə bu beyt nəqş olunsun:

«Nə olsun ki, şərqdən qərbə imamdır?!
Əli ilə nəsli bizə tamamdır».

Sikkənin digər üzündə isə [İsmayıl mirzənin] adının və zərb olunan yerin adının nəqş edilməsi qərara alındı. Beləliklə, dirhəmlərin və dinarların tərtibatı bu yazılarla zinətləndirildi.

Bu hadisədən sonra Məşhəd hakimi təyin olunmuş Mürtəzaqulu xan Pornaka rüxsət verdilər ki, cənnətməkan şahın mübarək cəsədini götürərək, yola düşsün. Günahları [Allah tərəfindən] bağışlanmış o cənazənin yolboyu keşiyini çəkmək və onu çiyinləri üstündə daşımaq vəzifəsi üç yüz nəfər qorçuya tapşırıldı. Herat hakimi və bəylərbəyisi təyin olunmuş Əliqulu xan Şamluya da rüxsət verib yola saldılar ki, müqəddəs Məşhədədək cənazəni müşayiət etsin və oradan da Herata getsin. Camaat arasında yayılmış söz-söhbətə görə, [İsmayıl mirzə tərəfindən] bu adı çəkilən şəxsə (Əliqulu xana) göstəriş verilmişdi ki, Herata çatdıqda Allahın kölgəsi olan əlahəzrət şahın o vaxt yeddi yaşında olan şərəfli vücudunu həyat lövhəsindən silərək, o iqbal bürcünün dürrünün mövcudluğu ucbatından hökmdarın xatirində yaranmış narahatçılığı aradan qaldırsın. [İsmayıl mirzə] həmçinin Şiraza da adam göndərib tapşırmışdı ki, Qazi bəy Zülqədər İsgəndər şanlı nəvvab Məhəmməd mirzəni və [Şah Abbasın] qardaşlarını həbs edib nəzarət altında saxlasın və Şiraz hakimi Vəli sultan Qalxançıoğlu gəlib çatdıqda onları da aradan götürsün. [İsmayıl mirzənin] ağlına gələn qərar bundan ibarət idi ki, səltənət ailəsindən onun özündən və oğlu Şah Şücadan savayı heç kim

---

[938] Dinar - Səfəvilər dövründə mis pul. Dirhəm - gümüş pul.
[939] Məcus - atəşpərəst, zərdüşti deməkdir.
[940] «Qurani-Kərim», «Vaqiə» surəsi, 79-cu ayə.

qalmamalıdır. Lakin o bilmirdi ki, «qədəri Allah müəyyənləşdirir» [ayəsinin][941] zərurəti ilə Ulu Yaradanın təqdiri yaradılmışların fikirləşdiklərinin əksinə idi.

«Ürəyindən hər nə keçir, olmayır,
Nəyi ki, Tanrı istəyir, o olur».

***Zuzbabə kometinin zühur etməsi.*** Bu hadisələr cərəyan edən vaxt asimandakı Qövs bürcündə Zuzbabə adlı bir komet göründü. Onun quyruğu səmanın ortasından məğribə tərəf uzanırdı. İsmayıl mirzə nücum elminə bələd olduğundan bu vəziyyəti müşahidə etdikdə onun qəlbində böyük bir həyəcan baş qaldırdı. O, gün ərzində münəccimləri çağırtdırdı və onlardan Zuzbabənin ehkamı və təsirləri barədə soruşdu. Münəccimlər həmin vaxta münasib olan sözlər dedilər. O, nücum elminin dəlillərinə əsasən belə düşündü ki, bu hadisənin baş verməsi padşahlardan birinin zavala uğrayacağının nişanəsidir. Münəccimlər dedilər ki, onun quyruğu məğribə tərəf uzandığı üçün onun ən böyük təsiri Rum vilayətində və qərb torpağında baş verəcəkdir. O, münəccimlərin sözlərindən bir qədər təsəlli tapsa da, ürəyi yenə də həyəcanlı idi. Doğrudan da, onun bu narahatçılığı yersiz deyildi. Çünki nücum qaydaları ona dəlalət edir ki, əgər Zuzbabə bir kəsin taleyinin sahibi olan səyyarənin ətrafında görünərsə, şübhəsiz, onu məhv edər. İsmayıl mirzə Əkizlər bürcündə doğulmuşdu və onun taleyinin sahibi Ütarid (Merkuri planeti) idi. Görünən Zuzbabə məhz onun tale sahibinin ətrafında meydana çıxmışdı. Münəccimlər isə ona yanlış məlumat verib, onu bunun mənasını aşkarlamaqdan uzaq salmışdılar. Bu hadisədən bir neçə gün sonra [İsmayıl mirzə] öz mövcudluğunun arabasını yoxluq atına bağlayıb, axirət səfərinə yollandı.

***II Şah İsmayılın ölümü.*** Bu əhvalatın təfsilatı və bu mövzunun şərhi bundan ibarətdir ki, İsmayıl mirzə yekşənbə gününə təsadüf edən mübarək ramazan ayının 13-cü (24 noyabr 1577) gecəsində onunla böyük bir mehribançılıq və dostluq münasibətləri saxlayan və gecə-gündüz ona həmdəm və həmsöhbət olan Həsən bəy Halvaçıoğlu və öz yaxın adamlarından bir neçə nəfərlə birlikdə gəzib-dolaşmaq istəyi ilə dövlətxanadan çıxıb, gecənin üçdə iki hissəsi ərzində küçələrdə və məhəllələrdə gəzdi. Daha sonra o, dövlətxana səmtinə gələrək, sözügedən Həsən bəyin dövlətxanaya bitişik olan və qapılarından biri şah atı («əsbi-şahi») meydanına açılan evində yuxuya getdi. O, qəddar dünyanın səbatsız arzularını müşahidə etməkdən pozulmamış gözlərini yumub, yoxluq dünyasına tələsdi. Həsən bəy qapıları içəridən bağlayıb, onun böyründə yatmışdı. Çaşt zamanına qədər qapı bağlı qaldı. Müqərrəblər və xidmət əhli orada cəmləşib, qapının açılmasının intizarını çəkirdilər və heç bir canlının ixtiyarı yox idi ki, onun yataq otağına yaxın düşə bilsin. Lakin yatmaq və dincəlmək zamanının sürəkliliyi həddən aşdıqda vəzir

[941] «Qurani-Kərim», «Müzəmmil» surəsi, 20-ci ayə.

Mirzə Salman və qorçubaşı günortaya yaxın evin qapısına gəldilər. Onlar yuxunun müddətinin uzanmasından narahat olub, «Kiçik həkim» ləqəbi ilə tanınan və həkimlər zümrəsi arasında yüksək ixtisas dərəcəsinə malik olan Həkim Əbülfəth Təbriziyə təklif etdilər ki, yataq otağının yanına qədər gedib, hansı hadisənin baş verməsi səbəbindən bu vaxtadək yuxuda qaldıqlarını aydınlaşdırsın. «Kiçik həkim» cürət edib, onların yatdıqları otağadək getdi. Lakin o, heç bir səs eşitmədiyindən bir söz deməyə cürət etməyib, geri qayıtdı. Yenidən onu tam təkidlə göndərdilər ki, bu dəfə gedib, onlara səslənsin. Sözügedən şəxs qapının arxasına gəlib, dua və yalvarış üsulu ilə səslənməyə başladı. Bu zaman Həsən bəy Halvaçıoğlu fəryad edib dedi:

- Mənim hərəkət etməyə qüvvətim yoxdur ki, qapını açım. Qapını o tərəfdən mümkün olan tərzdə açıb içəri girin. Burada əcaib bir hadisə baş vermişdir.

«Kiçik həkim»də vahimə və həyəcan yarandı. O, geri qayıtdı və hamını vəziyyətin mahiyyətindən xəbərdar etdi. Mirzə Salman bir sıra müqərrəblərlə birgə gedib, qapını açaraq, içəri girdilər və gördülər ki, İsmayıl mirzə hərəkətdən düşmüşdür, amma hələ də son nəfəsi gedib-gəlməkdədir. Həsən bəyin isə aşağı ətrafları hərəkətsiz vəziyyətə düşmüşdü və dili pəltək vururdu. Hamı çaş-baş qaldı və qorxuya düşdü. Qorçubaşını içəri çağırıb, Əmir xanın, Pirə Məhəmməd xanın və digər əmirlərin ardınca adam göndərdilər. Elə həmin vaxt İsmayıl mirzə öz həyat əmanətini əcəl zərurətinə tapşıraraq vəfat etdi. Həsən bəy dili pəltək vura-vura, yüz təşviş içərisində bunları bildirdi:

- Axşam iftar vaxtında xalis tiryək atdı, mənə də ondan verdi və xörək yedikdən sonra küçələri gəzmək arzusuna düşərkən yenə də tiryək atdı. Amma mənə verdiyi [tiryəki] mən yemədim. Gəzib-dolaşıb, bir hamamın qapısına çatdıq. Orada bir halvasatan oturmuşdu. [İsmayıl mirzə] onun halva-çörəyindən çox yedi. Biz mənzilə gəldikdə isə mənə dedi ki, səhərə az vaxt qalmışdır, gəl bir tiryək də ataq və yataq. Onun tiryək qutusunun üstünü həmişə mən möhürləyirdim. Qutunu çıxardıqda gördüm ki, onun üzərindəki möhür əlaməti zay olmuşdur. Dedim ki, bu qutunun üstündə mənim möhürüm və nişanım yoxdur. Lakin o, mənim sözümə əhəmiyyət verməyərək, tiryəki qutudan götürüb, özü adət etdiyindən daha artıq atdı və tam təkidlə mənə də ondan verdi. Amma mən onun çox az hissəsini uddum və biz yatdıq. Çaşt vaxtında mən yuxudan oyandım və özümü indi sizin müşahidə etdiyiniz halda gördüm. Şah həzrətlərinin isə nitq qüvvəsi yox idi, amma əl-ayaq atırdı. Bir qədər sonra hərəkətsiz vəziyyətə düşdü və nəfəsinin gedib-gəlməsi daraldı. Nəhayət, mən «Kiçik həkim»in səsini eşidib fəryad etdim. Əhvalat barədə həqiqət bundan ibarətdir. Gerisini özünüz bilərsiniz.

***İsmayıl mirzənin ölüm səbəbi barədə fikir müxtəlifliyi.*** Əmir xan və Pirə Məhəmməd xan gəlib bu vəziyyəti gördükdə onları heyrət bürüdü. Əmir xan Həsən bəy Halvaçıoğlunu qətlə yetirməklə təhdid edib, ona dedi:

- Düzünü de! Əgər bizim padşahımızı zəhərləyiblərsə, bu, heç də sənin köməyin və yardımın olmadan baş verməyibdir.

O, bunun cavabında dedi:

- Mən padşahın hakimiyyəti sayəsində bütün qızılbaşların böyüyü idim. Ondan sonra mənim yaşamağa gümanım yoxdur. Eyni zamanda, bu vəziyyətdən sağ çıxıb-çıxmayacağım məlum deyildir. Mənə məlum olan hər nə var idisə, sizə dedim.

Əmir xan təhqiqat və araşdırmam böyütmək istədi. Lakin Mirzə Salman və əmirlər mane olub dedilər:

- Axı bu işi şişirtməyin nə faydası olacaqdır? İndi ki, artıq bu cür bir hadisə baş vermişdir, gərəkdir ki, din və dövlət cəhətdən hüzn tutulsun.

Həkimlər onun bədənində süstlük hiss etdilər. Camaat arasında belə bir söhbət yayıldı ki, o, Pərixan xanımı əhəmiyyətsiz və etibarsız bir vəziyyətə saldığından xanım hərəmxana kənizləri ilə dilbir olmuş, onun tiryəkinin tərkibinə zəhər qatmışlar. Bəzi digərləri deyirdilər ki, onun hərdənbir özünü büruzə verən sancısı vardı Həmin sancı bundan öncə bir dəfə də baş qaldırmış və hətta ölüm həddinədək gəlib çatmışdı. Lakin o zaman təbiblər onu müalicə etmiş və o, xilas olmuşdu. Bu dəfə isə sancı daha şiddətli olmuş və yanında həkim olmadığı üçün bu, onun ölümü ilə nəticələnmişdi. Bəzi digərləri deyirdilər ki, o, dalbadal çoxlu tiryək atmış, çoxlu yemək ycmiş və nəticədə, mədəsində böyük bir ağırlıq yığılıb, nəfəs yolunu tutmuşdur.

Xülasə, hadisənin hansı cür baş verməsinin mahiyyəti aydınlığa qovuşmadı. Gözlənilmədən belə bir əcaib və qəribə hadisənin üz verməsi səbəbindən əhali və qara camaat heyrət dəryasına düşdülər. Amma aqillər və bilik sahibləri bu mövzuda halın dili ilə dedibr:

«Ta ulduzlaracan kimsə bilməz demək,
Sabah hansı oyun quracaq fələk.
Bu zərnigar qutunun nilgünündən,
Nə möhrə çıxarar ruzigar bilsən.
Agah deyil tale sirrindən insan,
Bu sahədə ağıl acizdir yaman».

Nə isə, bu hadisənin baş verməsindən sonra əmirlər bu xəbərin dərhal yayılmasının qarşısını almaq üçün buyurdular ki, xəbərin bayıra çıxmaması üçün qapıçılar at meydanının qapılarını bağlasınlar. Çünki oymaqlar arasında təzəlikcə inad qapıları açılmışdı, təkəlü və türkman tayfaları tərəfindən şamlu və ustaclu tayfalarına qarşı çoxlu pis hərəkətlər törədilmişdi, qanlar tökülmüşdü və [sonuncu adı çəkilmiş iki tayfa] öz əleyhdarlarına məğlub olmuşdular. İndi bu böyük hadisənin baş verməsindən sonra kin qılınclarının intiqam qınından sıyrılacağı və tərəflər arasında fitnə və düşmənçilik atəşinin alovlanacağı qorxusu var idi. Ona

görə də əvvəlcə Mirzə Salman və ağsaqqal, dövlətmənd, nəcib fikirli bir kişi olan Xəlil xan Əfşar razılığa gəldilər ki, yüksək şöhrətli əmirlər əbədi dövlətin mənafeyi naminə düşmənçilik büsatını bir kənara qoyub, göz nuruna and içsinlər ki, keçmiş və sonrakı düşmənçiliyi və oymaq təəssübkeşliyini beyinlərindən çıxarıb, bir-birləri ilə dost olacaqlar. Türkman tayfasının böyüyü və ağsaqqalı olan Əmir xan itaət qədəmi ilə önə çıxıb, Pirə Məhəmməd xanla ata-oğul sazişi bağlayıb and içdilər. Bu söhbətdən sonra səltənət və padşahlıq mövzusunu ortaya gətirdilər. Şiraz hakimi Vəli sultan Qalxançıoğlu Zülqədər dedi:

- Atanın mirası oğula çatmalıdır. Gəlin, Şah Şücanı padşah edək.

Əmirlər ona etiraz etdilər:

- Sən vəkilüssəltənə olmaq və qızılbaşların böyüyünə çevrilmək istəyirsən. Axı səkkiz aylıq tifil İrana padşahlıq etməyə necə layiq ola bilər?!

Əmirlərin və dövlət ərkanının hamısı Pərixan xanımın hökmünə itaət boyunlarını əydiklərindən Vəli sultan xanıma xoş gəlmək üçün dedi:

- Qoy səltənət işlərini Pərixan xanım idarə etsin və qızlar sultanlıq rütbəsinə münasib olmadıqlarına görə sikkə Şah Şücanın adına vurulsun.

Lakin heç kim bu təklifə razılıq vermədi. Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan və cəmi əmirlər dedilər:

- İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşah cənnətməkan şahın böyük oğludur və bir neçə kama çatmış xoşbəxt şahzadənin atasıdır.

Elə o saat [Allahın] yüksək divanından «[ey mülkün sahibi olan Allahım], sən mülkü dilədiyin şəxsə verərsən» [ayəsinə][942] əsasən səltənət və padşahlıq fərmanı onun adına yazıldı.

Bəsirət gözləri əzəli [Allahın] təqdirlərini müşahidə etməyə bağlı olan bir sıra az düşüncəli adamlar izhar etdilər:

- Onun görmə qabiliyyəti zəifdir. Hərbi və mülki məsələləri nizama salmaq üçün görməkdən özgə bir çarənin olmadığı halda, o, səltənətin mühüm işlərinin öhdəsindən nə cür gələ biləcəkdir? Gərəkdir ki, onun adlı-sanlı oğullarından birini padşahlığa yüksəldək.

Orada hazır olan qızılbaş əyanlarının hamısı qeybdən gələn ilhamla səsləndilər:

- Bizim padşahımız Sultan Məhəmməd padşahdır. Onun oğulları hələ kiçikdirlər. İnşallah, onlar bir neçə il öz yüksək mənsəbli atalarının dövləti sayəsində boya-başa çatıb, kamal mərtəbəsinə yetişərlər və onlardan hansı biri vəliəhdliyə layiq olarsa, o həzrətin razılığı və icazəsi ilə vəliəhd olar.

Heç kəsin buna qarşı bir söz deməyə macalı olmadı. Sultan Məhəmməd mirzə cənablarına qarşı Şirazda çoxlu hörmətsizliklər etmiş olan Vəli sultan böyük bir narahatçılığa düşdü. O, bu məsələyə razı deyildi. Amma heç kəs onun sözünə əhəmiyyət vermədi. Buna görə də o, etiraz edə bilmədi. Orada hazır olanlar «dövlət

[942] «Qurani-Kərim», «Ali-İmran» surəsi, 26-cı ayə.

- Sultan Məhəmməd padşahın dövlətidir» deyə qışqırdılar və qızılbaş tayfalarının sevimli deyimi olan, onların hər bir işə girişdikdə uğurlu və bərəkətli olması üçün mübarək ifadə olaraq dilə gətirdikləri «Allah, Allah» şüarını səsləndirdilər. Əmirlər oradan çıxıb, [Pərixan] xanımın hərəmsarayının qapısına gəldilər. O, onları mülayimcəsinə sorğu-sual etdi. Onlar əhvalatın həqiqətini ərz etdilər. [Pərixan] xanım özünü padşah təsəvvür edib, özlüyündə belə qərara gəldi ki, Sultan Məhəmməd mirzə gəlib çıxanda şahlıq adı ona aid olsa da, əslində səltənətin işlərini xanım özü idarə edəcək.

O saat Əliqulu xanın atası Hüseyn xan Şamlu Əliqulu xanın dövlət işlərindən ötrü orduda qalmış Mahmud bəy adlı vəkilini Herata göndərdi ki, İsmayıl mirzənin ölüm xəbərini çatdırsın və əgər kama çatmış adlı-sanlı şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın aradan qaldırılması kimi bir pis hadisə hələ baş verməyibsə, həmin işin törədilməsini qadağan edib, şahzadənin nicat tapdığını bildirsin. Əmirlər Həzrət [Sultan Məhəmməd mirzənin] padşahlığı barədə bir vəsiqə yazıb, hamısı oraya möhür vurdular və [həmin sənədi] o həzrətin dayısı oğlu olan Əlixan bəy Mosullu Türkmanın vasitəsilə Şiraza göndərdilər. Onun ardınca, həmçinin İsgəndər şanlı nəvvabın tərəfdarlarından və Vəli sultanın əleyhdarlarından olan Məhəmmədcan ağanın oğlu Əli bəy Zülqədəri də göndərdilər ki, İsmayıl mirzənin ölümü və əşrəfin (Sultan Məhəmməd mirzənin) hakimiyyətə gəlməsi xəbərini oraya çatdırsın.

Günün axırında at meydanının qapısını açdılar və carçılar atlanıb, iftar vaxtı əhaliyə İsmayıl mirzənin o biri dünyaya köçdüyü barədə məlumat verdilər. Səhərisi gün [Pərixan] xanım hökm buyurdu ki, istər Sultan Heydər tərəfdarı olmaq üstündə, istərsə də digər səbəblər üzündən həbsdə və qazamatda olan bütün əmirlər və əyanlar sərbəst buraxılsınlar. Bundan bir neçə gün öncə ishal xəstəliyindən qazamatda vəfat etmiş Hüseyn bəy Yüzbaşıdan savayı, Məsum bəy Səfəvinin oğlu Sədrəddin, Seyid bəy[943] Kəmunə və hər tayfadan olan bütün digər məhbuslar azadlığa çıxdılar. Mirzə Məxdum Şərifi onun anasına şəfqət bəsləyən [Pərixan] xanımın mərhəməti sayəsində təqiblərdən xilas olsa da, İranda qalmağı qeyri-mümkün hesab edib, imamların məzarını ziyarət etmək məqsədi ilə Bağdada yollandı və Rum padşahı tərəfindən himayə tapıb, neçə il Məkkeyi-müəzzimənin qazı əl-qüzzatı (baş qazısı) olaraq, yanlış [sünni] məzhəbinə müvafiq hökmlər verdi. O, axırda əcəlin mütləq qəzavü-qədərinə düçar olub, şərəfli Məkkə [şəhərində] öz həyat əmanətini əcəl zərurətinə təslim etdi. Amma bir çoxlarının dilindən eşidilmişdir ki, o, vəfat edərkən belə vəsiyyət etmişdi:

- Məni imamiyyə məzhəbinə uyğun surətdə qüsl edib kəfənə tutarsınız. Mən isna-əşəriyəm və bu müddət ərzində dünya məsələlərindən və vəzifəcə yüksəlməkdən ötrü bəzi yanlış işlərə bulaşmışam.

---

943 S-129, v.182a; S-297, v.l43b.

Hər halda, belə deyirlər. Doğrusunu Allah bilir. Əksər camaat İsmayıl mirzənin pis əməllərindən narazı olduğuna görə [onun ölümü nəticəsində] onların xatirinə çox da pərişanlıq yol tapmadı və heç bir durğunluq baş vermədi. Xidmət əhlindən və büyutat ağalarından kimlər ki, Şiraza getməyi və padşahın xidmətinə yetməyi arzulayırdılar, əmirlərin yanına gəlib, icazə istəyirdilər, onlar da bunu [Pərixan] xanıma ərz edirdilər və o, icazə verdikdən sonra onlar yola düşürdülər. Heç kimsənin qüdrəti yox idi ki, xanımın və əmirlərin rüxsəti olmadan çıxıb gedə bilsin.

## SULTAN MƏHƏMMƏD PADŞAH XUDABƏNDƏ CƏNABLARININ HAKİMİYYƏTƏ GƏLMƏSİNİN, İRAN SƏLTƏNƏTİNİN VƏ HÖKMRANLIĞININ TAXTINA ƏYLƏŞMƏSİNİN VƏ ONUN HAKİMİYYƏTİ ƏYYAMINDA HƏR İL BAŞ VERMİŞ HADİSƏLƏRİN ŞƏRHİ HAQQINDA

Bundan öncə bəyan qələmi ilə yazılmışdı ki, İsmayıl mirzə Qazi bəy adlı zülqədər qorçusunu İsgəndər şanlı nəvvabı və onun oğullarını nəzarət altında saxlamaq və heç bir canlının onlarla görüşməsinə imkan verməmək üçün [Şiraza] göndərmişdi. Həmin qorçu [Sultan Məhəmməd] mirzə cənablarına qarşı çox kobudluqlar etmişdi. İsmayıl mirzənin ölüm hadisəsi baş verdikdə böyük əmirlər Əlixan bəy Mosullu Türkmanı və Əli bəy Zülqədəri Şiraza yolladılar. Lakin öz tayfasının əmirzadələrindən olan İsgəndər bəy Şamlu rüxsətsiz olaraq, Əli bəylə Əlixan bəydən öncə Şiraza yollanıb, fələklər fələyi kimi bir an belə hərəkətdən qalmadan gecə-gündüz məsafəni qət edərək, Əli bəydən iki gün əvvəl Şiraza çatdı. O, qan-tərə batmış atını İsgəndər şanlı nəvvabın dövlət sarayının qapısına çapıb, müjdə verdi ki, İsmayıl mirzə dünyadan köçdü və haqq öz mərkəzində qərar tutdu. Həmin vaxt Qazi bəy orada deyildi. İsgəndər şanlı nəvvabın xidmətçiləri həyəcanlı bir şəkildə hərəmxanaya qaçıb xəbər verdilər ki, qorçu gəlib və belə bir müjdə gətirib. [Sultan Məhəmməd] mirzə cənabları comərd olması və dünya bağlılıqlarından gözünü çəkməsi və ya vaxtın məsləhətinə əməl etməsi səbəbindən əsla həmin xəbərə rəğbət göstərmədi. Onun nurlu xatirinə belə bir fikir gəldi ki, bəlkə, İsmayıl mirzə onu sınamaq və imtahana çəkməkdən ötrü bilərəkdən adam göndərib və onun səltənətə yiyələnmək xəyalma malik olub-olmadığını özü üçün aydınlaşdırmaq istəyir.

Xülasə, Qazi bəy Zülqədər dərhal hazır olub, İsgəndər bəylə söhbətləşməyə başladı və onu qətlə yetirməklə təhdid etdi. İsgəndər bəy dedi:

- Burada təəccübə yer yoxdur. Dünya Məhəmməd Rəsulullaha qalmadı, İsmayıl mirzəyə də qalmamışdır. Mənim doğru, yoxsa yalan dediyim üç gün sonra bəlli olacaqdır. Əgər səhv demiş olsam, sən istədiyin cəzanı mənə qarşı icra edərsən.

Xülasə, bu xəbərdən şəhərə böyük bir qalmaqal və çaxnaşma düşdü. Camaat dövlət sarayının qapısına hücum çəkdi. İsgəndər şanlı nəvvab Qazi bəyə xitab edib dedi:

- Deyəsən, bu yüngülbeyin özündə deyil və nə dediyini özü də bilmir. Onu tutub məhbus et! Əgər xəbər qəti surətdə təsdiqlənərsə, onda olacağa çarə yoxdur. Əks təqdirdə onu ən ağır cəzaya məruz qoyarsan.

Amma Şiraz əhlindən və zülqədərlərdən bir çoxları şadlıq izhar etmişdilər. Qazi bəyin isə belə etməyə cürəti yox idi. O, [İsgəndər bəyi] təhdid edir, hər saat onu sorğu-suala tutur, o isə həmin cavabı təkrarlayırdı. Lakin həmin gün ərzində bir xəbər gəlib çatmadı. Qazi bəy bundan bir qədər rahatlıq tapdı. Amma ikinci günün axırında Əli bəy gəlib dəqiq xəbər gətirdi və [Sultan Məhəmməd mirzənin] ayağını öpmək şərəfinə nail oldu. Əli bəylə müttəfiq olan və Vəli sultana ədavət bəsləyən şəhər zülqədərlərindən bir çoxları dərhal hazır oldular və [Sultan Məhəmməd mirzənin] hakimiyyətə gəlişini təbrik edib, ona «mübarək olsun!» dedilər. İsgəndər bəy əmirlik rütbəsinə layiq görülüb, «Xoşxəbər xan» ləqəbi aldı. Zülqədərlər sufilik mövqeyini tutaraq, Qazi bəyi söyüb biabır etdilər.

Lakin İsgəndər şanlı nəvvab buyurdu:

- Onun mənə qarşı çoxlu kobudluqları yaddaşımda qalsa da, mənə üz vermiş bu ilahi qayğının müqabilində şükür əlaməti olaraq, mən onu əfv edirəm. O, işə yarayan bir zabit olduğuna və öz padşahının əmri, göstərişi əsasında mənimlə bu cür rəftar etdiyinə görə yüksəldilməyə layiqdir.

Bir sözlə, [Sultan Məhəmməd mirzə] eşikağası mənsəbini ona verdi. O, bir neçə gün həmin vəzifədə qaldı. Lakin daha sonra onun əvvəlki kobud davranışlarından və ədəbsiz sözlərindən çox incimiş Xanım Məhdi-Ülya tab gətirməyib, onu tutdurdu və tam rüsvayçılıqla onu İstəxr qalasına göndərdi. O, həmin qalada həyat zirvəsindən ölüm uçurumuna düşüb, torpağın altının məhbusu oldu.

Səhəri gün Şirazın cəmi seyidləri, böyükləri, əyanları və zülqədər ağsaqqalları fələk bünövrəli sarayın qapısına toplaşıb, [yeni hökmdarın] ayağını öpmək şərəfinə nail oldular. Əli bəy Şiraz hakimliyinə və xan rütbəsinə ucaldıldı. [Sultan Məhəmməd] mirzənin dövlətxanasında olan böyük seyidlərdən Şah Müzəffərəddin Əncu qazı-əsgər mənsəbinə layiq görüldü. Bir neçə il ərzində, xüsusilə də İsmayıl mirzənin hakimiyyəti əyyamında [Sultan Məhəmməd mirzəyə] layiqincə xidmət etmiş Mirzə Əhməd Küfrani «nəzarət-i sərkar-i xasse-yi şərifə» kimi ali bir mənsəbə təyin olundu. Nəvvabi-əşrəfin (Sultan Məhəmməd mirzənin) xəzinəsi sərvətsiz qaldığından sözügedən Əli xan və cənab nazir Mirzə Əhməd Küfrani şahın xassəsinə zəruri olan məbləği öz var-dövlətlərindən, zülqədər tayfasının və [Şiraz] məmləkətinin divani vəsaitindən təşkil etdilər. Bütün gün ərzində yüzbaşılardan, eşikağasılardan və xidmət əhlindən, türklərdən və taciklərdən çox-çox adamlar darüssəltənə Qəzvindən gəlib çatdılar və [Sultan Məhəmməd mirzədən] nəvaziş gördülər.

Şiraz mustovfisi Mir Qivaməddin Hüseyn hələ Vəli sultanın zülqədər ağaları ilə münaqişəsi yaranan zaman sonuncularla müttəfiqlik etmişdi. Buna görə də Vəli sultan Qəzvində İsmayıl mirzəyə ondan şikayət edərək, onu sandıq içərisində saxlatdırmış və məhbus etdirmişdi. Bu əsnada o, xilas olub Şiraza gəldi və İsgəndər şanlı nəvvabın möhtərəm hərəmi olan xurşid hicablı Xanım Məhdi-Ülya Xeyrannisa bəyimin[944] vəzirliyi vəzifəsinə yüksəldildi. Xanım Məhdi-Ülya dövlət işlərinin tərtibçisinə və yönləndiricisinə çevrildi. Heç bir məsələ onun ali əmri və göstərişi olmadan həllini tapmazdı və İsgəndər şanlı nəvvab onun şərəfli xatirinin hörmətini çox saxlayırdı. Xanım Məhdi-Ülya İstəxr qalasında məhbus olan öz yaxın qohumu, Gilan valisi Xan Əhməd xanın azad olunması barədə arzusunu dilə gətirdi. İsgəndər şanlı nəvvab Xanım Məhdi-Ülyanın şərəfli xatirinin arzusuna uyğun olaraq, Xan Əhmədi qaladan çıxardı və ona çoxlu hörmət və şəfqət göstərib, Gilan əyalətinin hakimliyini ona verəcəyini vəd etdi.

Cənnətməkan şah Şahrux bəy Tatıoğlu Zülqədəri İsmayıl mirzəyə dost olmaq üstündə tutdurmuşdu vo o, qalada məhbus idi. İsmayıl mirzə öz hakimiyyəti əyyamında onu özünün və ali divanın vəkili vəzifəsinə namizəd edərək, hər gün onu azad edəcəyi barədə söz versə də, bu vədlər həyata keçirilmədi. Nəhayət, İsgəndər şanlı nəvvab onu [həbsdən] çıxarıb, ona əyalət bəxş etdi, xan rütbəsi verdi və yüksək möhürdarlıq mənsəbinə təyin elədi, bununla da ona asimani yüksəliş qazandırdı.

Bu əsnada vəzir Mirzə Salman [Şiraza] gəlib, əvvəlcə Əliqulu xanın mənzilinə getdi, ondan yardım istədi və həm onun, həm də dostluq münasibətlərinə malik olduğu cənab nazir Mirzə Əhmədin vasitəçiliyi ilə əşrəfin ayağını öpmək və Xanım Məhdi-Ülyaya səcdə etmək şərəfinə nail oldu. O, Qəzvindəki vəziyyət və xəbərlər haqqında məlumat verərək, Pərixan xanımın davranışları və əmirlərin ona itaəti və tabeçiliyi haqqında dövlətsevərcəsinə sözlər dedi. Bunun nəticəsində o, özünə himayə əldə edərək, elə həmin məclisdə ali divanın vəziri təyin olunub, əvvəlki kimi vəzir və etimadüddövlə oldu. Amma Qəzvində hadisələr belə cərəyan etmişdi ki, Pərixan xanım xoşbəxtlik və səadətlə iqtidar taxtı üstündə əyləşib, səltənətin bütün məsələlərini öz üzərinə götürmüşdü. Yüksək şöhrətli əmirlər onun hökmünə boyun əyib, hər gün onun ali astanasına cəmləşirdilər. Onlar qərar verdilər ki, hər oymaqdan bir nəfər ağsaqqal və böyük etimada malik bir şəxs təyin olunsun ki, həmin tayfanın camaatı onun sözündən çıxmasın. Türkman tayfasından Əmir xan, ustaclu [tayfasından] Pirə Məhəmməd xan, şamlu [tayfasından] Durmuş xanın nəvəsi Sultan Hüseyn xan, təkəlü [tayfasından] Müseyib xan Şərəfəddinoğlu, əfşar [tayfasından] Qulu bəy Qorçubaşı, zülqədər [tayfasından] ali divanın möhürdarı [Məhəmmədqulu xəlifə Qoruqlu] və bu minvalla bütün oymaqlardan ağsaqqallar təyin olundular ki, zəruri məsələləri [Pərixan] xanımın dayısı Şamxal sultan Çərkəzin vasitəsilə xanımın ərzinə çatdırsınlar və hər nə hökm olunarsa, ona

944 Tehran çapının bu yerində (s.223) Fəxrünnisa bəyim yazılıb.

əməl etsinlər. Həmçinin göstəriş verildi ki, ali əmrə uyğun olaraq Şiraza gedənlərdən savayı, başqa heç bir kəs rüxsətsiz çıxıb getməsin ki, şahın müzəffər məiyyəti Qəzvin yaxınlığına çatanda bütün əmirlər [Pərixan] xanımın kəcavəsini müşayiət edərək, onu qarşılamağa tələsib, onun ayağının qədəm qoyduğu torpağı öpmək şərəfini əldə etsinlər.

[Pərixan] xanıma və Şamxal sultana çox da etimad bəsləməyən Mirzə Salman öz işinin xeyrinə olaraq, Qəzvini tərk edib, özünü alı hökmdarın müqəddəs üzəngisinin həndəvərinə çatdırmağı qərara aldı. O, Əmir xanı dilə tutaraq razı salıb, özü şəxsən hərəmxana pəncərəsi arxasına getməyə nail oldu və izzətli və cah-calallı hərəmxananın məhrəmləri vasitəsilə [Pərixan] xanımın ərzinə bunları çatdırdı: «İndi dövlət üçün münasib olan budur ki, yad adamların əşrəfin xasiyyətinə təsir edib, yüksək şöhrətli qardaşla mehriban bacı (Sultan Məhəmməd mirzə ilə Pərixan xanım) arasında fəsad salmasının qarşısı almaq naminə mənim timsalımda bir sədaqətli bəndə sürətli və təcili bir şəkildə Şiraza gedib, əşrəfin üzəngisinin həndəvərində olsun». [Pərixan] xanım şahın və qoşunun onun razılığının əksinə olan bir xəyala düşməsini hərçənd ehtimal etməsə də, [Mirzə Salmanın] sözlərindəki həqiqət yükünü öz ağlının tərəzisi ilə çəkib, belə bir hadisənin baş verə bilməsi ehtimalını etiraf edərək, ona rüxsət verdi. Mirzə Salman elə həmin an hərəmxanadan çıxıb, Şiraza yollandı və qeyri-ənənəvi bir yolla irəlilədi. Ertəsi gün əmirlər Mirzə Salmanın rüxsət alıb getməyindən xəbərdar oldular. Onun getməyi onların ürəyincə deyildi. Şamxal sultan istədi ki, adam göndərib, onu geri qaytarsın. Lakin Əmir xan buna mane oldu. [Mirzə Salman] gecə-gündüz hərəkət edərək, hələ hökmdarın məiyyəti Şirazdan hərəkətə başlamamış, özünü Şiraza çatdırıb, hadisələri qeydə alan qələmin yuxarıda yazdığı kimi, [Sultan Məhəmməd mirzənin] hüzuruna çıxmağa nail oldu. O, İsgəndər şanlı nəvvabın hərəmi olan Məryəm şanlı Xanım Məhdi-Ülyanın mütləq ixtiyar sahibi olduğunu müşahidə etdi və istər dövlətdə mövqe tutanların, istərsə də vəzifə və yüksəliş arzusunda olanların onunla hesablaşmaqdan özgə çarəsinin olmadığını düşündü. O, onların qəlblərini ələ almaq üçün Qəzvindəki vəziyyət barədə həqiqətləri və [Pərixan] xanımın əzəməti və iqtidarı, qızılbaş əmirlərinin və əyanlarının ona göstərdikləri itaət və tabeçilik barədə bəzi məlumatları olduğu kimi ərz etdi. Danışanların sözlərindən və müdriklik sahiblərinin ağıllarının zərurətindən İsgəndər şanlı nəvvaba və Məhdi-Ülyaya aydın oldu ki, [Pərixan] xanım dövlətxananın banusu və səltənət məsələlərinin idarəedicisi olacağı təqdirdə şərəfli hökmdarın quru addan savayı heç bir padşahlığı olmayacaqdır və Xanım Məhdi-Ülya da hərəmxananın adi qadınlarından biri olacaqdır. Buna görə də onlar öz hakimiyyətlərini [möhkəmlətməkdən] ötrü [Pərixan] xanımı ixtiyarsız bir vəziyyətə salmağı qərara aldılar. Bu iradə onların şərəfli xatirlərində qərar tapdı və onlar onun işini bitirmək fikrinə və düşüncəsinə qapıldılar. Onlar Qəzvindən gələn hər kəsdən [Pərixan xanımın] əhvalını soruşurdular və aldıqları cavablar məsələyə daha da aydınlıq gətirirdi. Xülasə, [Pərixan] xanımın aradan qaldırılması fikri

İsgəndər şanlı nəvvabın və Məhdi-Ülyanın nurlu ürəklərində qətiləşdi. Onlar həm də ona görə narahat olmuşdular ki, [Pərixan xanım] İsmayıl mirzəyə qarşı da [onun ölümü zamanı] məkr və hiylə işlətməkdə şübhəli bilinirdi. Həqiqətən də, bu şübhələr əsassız deyildi.

Beləliklə, Mirzə Salman səltənət məsələlərinin məsul şəxsinə çevrilib, günbəgün nəvaziş və yüksəliş qazandı. Xülasə, onlar bir aya qədər Şirazda qaldıqdan sonra hərəkət yüyənlərini darüssəltənə İsfahana sarı çevirdilər. Onlar həmin cənnət nişanəli şəhərə çatdıqda isfahanlılar onların qarşısına layiqli payəndazlar və peşkəşlər çəkdilər və təqdirəlayiq xidmətlər yerinə yetirdilər. Sözügedən darüssəltənə (İsfahan) dünyanı qoruyan nəvvab Sultan Həmzə mirzəyə verildi. Həmin şahzadə cənabları isə oranın daruğalığını Xanım Məhdi-Ülyanın qardaşı oğlu Əmir Hüseyn xan Mazandaraniyə həvalə etdi. Sonra oradan yola düşüb, üç gün Kaşan şəhərində qaldılar və Kaşandan da çıxıb, möminlər şəhəri olan Quma getdilər. Həmin xoşagəlimli şəhərdə onlar İsgəndər şanlı nəvvabın anası olan xurşid hicablı xanım Sultanımla görüşmək şərəfindən feyzyab oldular. Sözügedən xanım öz adlı-sanlı igid oğlu İsmayıl mirzənin ölümü və istəkli Sultan Həsən mirzəyə üz vermiş bəla səbəbindən matəm və kədər içərisində olmasına baxmayaraq, bir müddət ayrı düşüb uzaq qaldığı böyük oğlu İsgəndər şanlı nəvvabın sevimli didarına baxıb rahatlıq tapdı və əziz nəvələrini görən gözlərinin işıqları ilə müşahidə etdikdə onun möhnəti və qəmi sevinc və şadlıqla əvəz olundu.

Eşikağasıbaşı Hüseynqulu sultan Şamlu bəzi padşah büyutatını, yaraqlarını və əşyalarını özü ilə gətirib gələrək, izzət büsatının müqərrəblərindən ibarət bir dəstə ilə bu məkanda özünü yetirib, [hökmdarın] qədəm qoyduğu torpağı öpmək səadətindən feyzyab oldu. [Sultan Məhəmməd mirzənin] gəlişi xəbəri ilə yanaşı, darüssəltənə Qəzvindəki böyük əmirlərin qulaqlarına belə bir məlumat da çatdı ki, [Pərixan] xanımın iqtidarı və onların onun ətrafına toplaşmaları və onunla ittifaq etmələri əşrəfin və Məhdi-Ülyanın xoşuna gəlməmişdir. Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan, qorçubaşı və digər yüksək şöhrətli əmirlər və xanlar hər biri öz oğulları, qohumları və öz oymaqlarının əyanları üçün rüxsət alıb, onları qarşılanma mərasiminə göndərdilər. Get-gedə iş o yerə gəlib çatdı ki, əmirlər və əyanlar [Pərixan] xanımın rüxsəti olmadan, özbaşına şəkildə, ayrı-ayrılıqda [hökmdarı] qarşılamağa yollandılar. Qumda qaldığı bir neçə gün ərzində əksər əmirlər və əyanlar onun hüzuruna gəldilər. Buna görə də Pərixan xanım özünə qarşı iltifatsızlığın qoxusunu hiss etdi və Şamxal sultanla tərəfdarları bir qədər pərişan oldular.

Xülasə, padşahın qalibiyyətli bayraqları möminlər şəhəri olan Qumdan çıxıb, səltənətin mərkəzinə doğru hərəkət etdilər və Savədən keçərək, Xüşkruda çatdılar. Əmir xan, Pirə Məhəmməd xan, Xəlil xan, qorçubaşı, Məhəmmədi xan Toxmaq və Qəzvində qalmış bir sıra digər [əmirlər] əvvəlcədən qərarlaşdırıldığının əksinə olaraq, [Pərixan] xanımın ali məiyyətində və onun səadətli kəcavəsinin müşayiətində [hökmdarı] qarşılamağa getməyib, öz mənafeləri naminə belə

məsləhət bildilər ki, [Pərixan] xanımın xidmətindən ayrılaraq, hər biri öz tabeçiləri və öz adamları ilə birlikdə qarşılanma mərasiminə yollansınlar. Onlardan bəziləri rüxsət alaraq, bəziləri isə rüxsət almadan yola düşüb, Xüşkrud ətrafında [hökmdarın] hüzuruna yetmək səadətinə feyzyab oldular. Bu zaman xəbər çatdı ki, Şamxal sultan çərkəz camaatı və [Pərixan] xanımın tərəfdarları ilə birlikdə döyüş əsləhəsi və yarağını qurşanıb, [Pərixan] xanımın evində qərar tutub və onun başında çaxnaşma salmaq və fitnə-fəsad törətmək sevdası vardır. Darüssəltənə Qəzvinin yaxınlığında İsmayıl mirzənin qatı tərəfdarlarından biri olan Əmiraslan xan Ərəşlü Əfşarı təlimatlandıraraq, Şamxal sultanın dəf olunmasını onun öhdəsinə qoydular və o, bu xidməti öz boynuna götürdü. Eyni zamanda, Şamxal sultanın adına yüksək ləqəblər və mənsəblərlə əşrəfin fərmanı yazıldı və bunun məzmunu belə idi: «Cənnətməkan şahın zamanında Şəki vilayəti bir neçə il Şamxal sultanın ölkəsi olmuşdur və o, həmişə oranın arzusunu çəkmişdir. Buna görə də biz Şəki vilayətinin hakimliyini və rəhbərliyini ona bəxş edirik. İndi uğurlu bir saat olduğundan öz adamları ilə birlikdə mərama doğru üz tutub şəhəri tərk etsin, öz qoşununu şəhərdən kənarda qoyaraq, biz cah-calalla dövlətxanaya daxil olduqdan sonra gəlib ayağımızı öpmək şərəfinə nail olsun və ondan sonra dərhal yola düşsün».

Şamxal sultanla dost və yekdil olan Əmiraslan xan şəhərə gəlib, əşrəfin fərmanını gətirdi və ona atlanmağı təklif etdi. Şamxal sultan bu məsələnin heç də şəfqətdən qaynaqlanmadığını anlamasına baxmayaraq, özü üçün başqa bir çarə görməyib, Şəkiyə gedəcəyinə və özünü bir guşəyə çəkəcəyinə şənləndi və sevindi. O, istər-istəməz Əmiraslan xanla bərabər atlanıb, şəhərin bir fərsəxliyində olan Şəntən mövqeyinə gedərək, orada dayandı. Səhəri gün, yəni zilhiccə ayının ilk günündə (9 fevral 1578) padşahın səadətli məiyyəti cah-calalla gəlib, Qəzvinin bir fərsəxliyində yerləşən Pirəsufiyanda dayandı. Pərixan xanım qübbəsi daş-qaşla bəzənmiş zərnigar kəcavədə oraya gəlib çatdı. Onu müşayiət edən və ümumi sayları dörd yüz-beş yüz nəfərə qədər olan hərəm qorçuları və xanımın xüsusi mülazimləri piyada vəziyyətdə kəcavəni çiyinlərində tutub, şanlı ordugaha gətirdilər. Onu hərəmxana çadırına gətirdikdə xacəsaraylar[945] xidmət mərasiminə başladılar. Hərəmxana çadırında olarkən onun kama yetmiş möhtərəm qardaşı və adlı-sanlı şahzadələrlə görüşü baş verdi. Bəzi xacəsaraylardan eşidilmişdir ki, onların arasında cənnətməkan şahın və öz qardaşlarının təziyəsi mərasimindən bəhs edildikdən və İsmayıl mirzədən, onun xoşagəlməz hərəkətlərindən və öz qohumlarını aradan qaldırmaq istiqamətindəki səylərindən şikayət olunduqdan sonra Xanım Məhdi-Ülya ədəb-ərkan üzündən Pərixan xanımın əlini öpməyə feyzyab olduqda [Pərixan] xanım təəccüb aləmində olması və düşüncəsizlik qüruruna bürünməsi ucbatından Məhdi-Ülyaya çox da əhəmiyyət vermədi.

---

[945] Xacəsaray - hərəmxanada xidmət göstərən axta nökərlər.

Beləliklə, ud ilinin [başlanğıcından] on bir ay keçdikdə, seşənbə günü, zilhiccətül-həram ayının 3-də (12 fevral 1578) münəccim Mövlana Əfzəl Qəzvini [astroloji cəhətdən uğurlu] saatı müəyyənləşdirdi və İsgəndər şanlı nəvvabla ali məkanlı şahzadə (Sultan Həmzə mirzə) səadətlə atlanıb, o mənzildən şəhərə və mübarək dövlətxanaya yollandılar. Xalq və sadə insanlar qrup-qrup, dəstə-dəstə onları qarşılamağa tələsib, Pirəsufiyandan səadətli dövlətxananın qapısına qədər çox-çox və səf-səf düzülərək, dua və alqış mərasimini icra edirdilər. İsgəndər şanlı nəvvab böyük bir sevinc və şadlıq içərisində dövlət və iqtidar meracına yüksələrək, səadətli dövlətxanaya daxil olub, sanki bir günəş kimi izzət və iqbal taxtı üzərində əyləşdi. Cənnətməkan şahın möhtərəm qızları, onun pak zövcələri və hərəm xidmətçiləri [hökmdara] təzim etmək şərəfinə nail oldular. Bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi) həmin vaxt Qəzvində idi və İsgəndər şanlı nəvvab şəhərə daxil olan gün o da onu qarşılamağa getmişdi. Seşənbə günü, zilhiccə ayının 3-ü idi. Lakin Həsən bəy Rumlu [bu hadisənin] pəncşənbə günü, həmin ayın 5-də baş verdiyini yazmışdır. Ehtimal ki, ya bu həqir zərrə (İsgəndər bəy Münşi) səhv edib, ya da o (Həsən bəy Rumlu) yanlış yazıbdır[946].

***Şamxal sultanın, Pərixan xanımın və Şah Şücanın öldürülməsi.*** Amma [Pərixan] xanımın əhvalı bu cür oldu: İsgəndər şanlı nəvvab mübarək dövlətxanaya yollandığı vaxt hökm olundu ki, cənnətməkan şahın zamanında bir müddət [Pərixan] xanımın lələsi olmuş Xəlil xan Əfşar onu öz mənzilinə aparsın və xanım bundan sonra onun mənzilində qalsın. İsgəndər şanlı nəvvabla Nəvvabi-Cahanbani atlandıqdan sonra böyük qorçular əmrə əsasən, hökmdar sülaləsinə mənsub olan o xanımın kəcavəsini çiyinlərində tutub irəliləməyə başladılar və Xanım Məhdi-Ülya ilə səltənətin örtüklü qadınları atlanaraq, kəcavənin ardınca hərəkətə gəldilər. Onlar mübarək dövlətxananın qapısına çatdıqda gördülər ki, [hökmdarı] qarşılamağa gələnlərin yaratdığı qələbəlik və izdiham ucbatından gediş-gəliş yolu bağlıdır. [Pərixan] xanımın ali işarəsinə uyğun olaraq, onun qorçuları və mülazimləri kəcavəni [Pərixan] xanımın evinə tərəf apardılar ki, səltənət sülaləsinin digər xanımları ilə birlikdə oradan keçməklə hərəm bağçasına daxil olsunlar. Lakin elə ki onlar sözügedən xanımın evinin qapısına çatdılar, Xəlil xanın mülazimləri hücum çəkib, kəcavəni Xəlil xanın evinə tərəf apardılar. [Pərixan] xanımın şəxsi mülazimləri əvvəlcə hadisənin mahiyyətini başa düşməyib, getməkdən imtina etsələr də, Xəlil xan onlara açıq-aydın dedi ki, bu, padşahın zəruri hökmüdür. Belə olduqda onlar bu cümləyə əməl etdilər. Kəcavənin icərisində oturmuş [Pərixan] xanım yaranan keşməkeşi görüb, hadisənin mahiyyətindən agah olaraq, Allahın qəzavü-qədərinə boyun əydi və heç vaxt xəyalından keçməmiş bir işə tabe olmaq məcburiyyətində qaldı. Xülasə, [Pərixan] xanımı Xəlil xanın evinə apardılar.

Elə həmin gün Əmiraslana əmr olundu ki, Şəntən mövqeyinə gedib, Şamxal sultanı qətlə yetirsin. Sözügedən şəxs [Şamxal sultanı] müşayiət etmək və ona

[946] S-129, v.186a-b; S-297, v.147a.

«xeyirli olsun!» demək bəhanəsi altında böyük bir dəstə ilə Şəntən mövqeyinə getdi. O, [Şamxalla] görüşərkən əfşar camaatından bir neçə nəfər hücum çəkib, [Şamxalı] qılıncladılar və qətlə yetirdilər. Çərkəzlər əsla özlərində əl-qol atmaq qüdrəti tapmadılar. Əmiraslan xan onun başını uca dərgaha gətirib, xan rütbəsi əldə etdi və [hökmdarın] nəvazişini və qayğısını qazandı. Elə həmin gecə Xəlil xanın mülazimlərindən bir neçə nəfər əmrə uyğun olaraq, [Pərixan] xanımı boğub həlak etdilər və xanımın mülkiyyətində olan, camaatın fikrincə, təxminən on min tümən ümumi dəyərə malik bütün mallar və əşyalar bu xidmətin müqabilində Xəlil xana ənam verildi. İsmayıl mirzənin hələ bir yaşı tamam olmamış oğlu Şah Şüca da gedər-gəlməzə göndərildi. Həmçinin Vəli sultan Qalxançıoğlunu tutub, onun düşmənləri olan Şiraz zülqədərlərinin əllərinə təslim etdilər və o, öz cəzasına çatdı.

Elə ki bu hadisələr baş tutdu, Məryəm şöhrətli Xanım Məhdi-Ülya tamam-kamal əzəmət və istiqlal ilə səltənət və padşahlıq məsələlərinin məsuliyyətini öz üzərinə götürdü. Heç bir məsələ onun ali göstərişi və işarəsi olmadan həll edilməzdi. Eyni zamanda, Nəvvabi-Cahanbani ali divanın vəkaləti mənsəbinə təyin olundu və qərara alındı ki, o, padşahın hökm və fərmanlarına vəzirin möhüründən yuxarıda möhür vursun. Xoca Şücaəddin Şirazinin oğlu və Əliqulu xan Şamlunun dayısı olan Hüseyn bəy, Nəvvabi-Cahanbaninin vəziri vəzifəsinə yüksəldildi və vəkalət möhürünü saxlamağı ona tapşırdılar. Onun bacısı Xanican xanım Məhdi-Ülyanın və adlı-sanlı şahzadənin yanında böyük etibara malik idi. Xanım Məhdi-Ülyanın ailəsinin dostu olan münəccim Molla Əfzəl Qəzvini etibar və iqtidarda kamal dərəcəsinə çatdı, Qəzvinin kələntərliyi və divanın hesabdarlığı ona həvalə olundu. Mirzə Salman isə təkbaşına rüknüssəltənə və etimadüddövlə olub, məmləkət məsələlərini həll etməyə başladı. Ali sədrlik mənsəbi fəzilətli, gözəl əxlaqlı, alicənab və dərviş xilqətli bir seyid olan mərhum Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmaniyə tapşırıldı. Sözügedən şəxsin sədr təyin olunmasının səbəbi budur ki, İsgəndər şanlı nəvvab Heratdan Şiraza gedən zaman Xəbis qəsəbəsində Həzrət Mir (Şəmsəddin Məhəmməd) onun hüzuruna gəlib, ona rəğbət doğuran xidmətlər göstərmişdi. Həzrət Mir [Şəmsəddin Məhəmmədin] fəziləti, kamalı və söhbəti İsgəndər şanlı nəvvaba xoş gəlmişdi. Nəticədə, [Sultan Məhəmməd mirzə] onun ləyaqəti və istedadı barədə həqiqətləri cənnətməkan şahın ərzinə çatdırıb, onu sədri-əzəm mənsəbinə yüksəltmək xahişi ilə çıxış edəcəyinə dair söz vermişdi. O zaman bu işi həyata keçirmək baş tutmasa da, səltənət və padşahlıq hökmü [Sultan Məhəmmədin] şərəfli zatına məxsus olduğu vaxtda o, şahanə
kamal, vəfa, uzlaşma, mərhəmət və şəfqət üzündən sözügedən seyidə bu böyük və şərəfli vəzifəni bəxş etdi. Darülmülk Şirazdan həmin əziz şəxsin çağırılması barədə hökmdar fərmanı göndərildi və Həzrət Mir (Şəmsəddin Məhəmməd) tamam-kamal izzət və etibarla ali taxtın ətəyinə tələsib, təkbaşına olaraq sədr vəzifəsini icra etməyə başladı.

Həmçinin «məmaliki-məhrusə» qızılbaş tayfalarının böyük əmirləri arasında bölüşdürüldü. Darüssəltənə Qəzvinin əyaləti Əmir xan Mosulluya mənsub edildi. Əmir xanın məsləhəti ilə İsmayıl sultan, Əmir xanın qardaşı Şahqulu sultan, onun oğlu Sultan Murad xan və İbrahim sultan Piyada Türkman əmirlik rütbəsinə yüksəldildilər və onların hər birinə Azərbaycanda ölkə verildi. Cənnətməkan şahın əmri ilə Məhəmmədi xan Toxmağa verilmiş Çuxursəəd əmirülüməralığı və İsmayıl mirzənin əmri ilə İmamqulu xan Qacara verilmiş Qarabağ əmirülüməralığı əvvəlki kimi yenə də həmin şəxslərə həvalə edildi. Şirvan əmirülüməralığı və hakimliyi Araz xan Rumluya məxsus olundu. Eyni zamanda, Ərdoğdu xəlifə Təkəlüyə və bir neçə nəfər rumlu əmirinə və digərlərinə Şirvanda ölkələr verildi. Vəli xan Təkəlü Həmədan[947] əyalətinə [hakim] təyin olunub, o tərəfə yollandı. Ustaclu əmirlərindən Mürşüdqulu xan Yegana Baxərzdə[948] və Xorasanın bəzi mahallarında, onun qardaşı İbrahim xana isə İsfərayində[949] ölkə verdilər. Turşiz [mahalını] Mahmud xan Sufioğluya, Xəvaf [mahalını] isə Vəli xan Çərxçibaşıya bəxş etdilər. Xəbuşan və Xorasanın bəzi mahalları Budaq xan Çəkəniyə həvalə edildi. Ağzıvar xan Şamlunun oğlu Əbülfəth xana və Xoşxəbər xana Kusuyədə və Quryanda ölkə verdilər. Darülaman Kirman qorçubaşının qohumu olan Vəli xan Əfşara tapşırıldı. Kuhi-Giluyə isə əvvəlki kimi Xəlil xan Əfşara məxsus olundu. İraq mahallarının əksəriyyəti ulu dərgahın əmirlərinə paylaşdırıldı. Kaşan Əmir xanın qohumlarından və qüdrətli dövlətin əmirlərindən olan Məhəmməd xan Mosulluya bəxş olundu. Qum ölkəsi əvvəlki qaydada Heydər sultan Çabuq Türkmanın, Savə isə Əbülməsum sultan Tərxan Türkmanın öhdəsinə buraxıldı. Rey ölkəsi Müseyib xan Təkəlüyə, Xəvar və Simnan Şahqulu sultan Təbətoğlu Zülqədərə, Savucbulağ, Cuşqan və bəzi ətraf ərazilər Şahrux xan Möhürdara, Tarom, Xalxal və bəzi [digər] mahallar Pirə Məhəmməd xana tapşırıldı. Fars vilayəti zülqədər əmirləri arasında bölüşdürüldü. Astarabad İbrahim xanın əmisi oğlu Məhəmməd xan Hacılar Zülqədərə verildi. Həmçinin hər tayfadan olan əmirlərin hər birinə onların öz vəziyyətlərinə münasib ölkələr verib yola saldılar.

Verilmiş vədə uyğun olaraq, Xan Əhməd Gilani Gilanın Biyepiş əyalətinin hakimi vəzifəsinə qaytarıldı və hökmdar onu «qardaş» adlandıraraq şərətləndirdi. Bundan əlavə, o, bu [Səfəvi] sülaləsi ilə qohum olmaq bəxtəvərliyinə ucaldıldı və cənnətməkan şahın möhtərəm qızlarından Məryəm-sultan bəyim ona ərə verildi. Bu münasibətlə darüssəltənə Qəzvində layiqli bir tərzdə toy təşkil edildi və sözügedən Xan Əhməd sevinc və şadlıq içərisində səadətin kamına çatıb, Gilana yollandı.

---

[947] S-129, v.187b; S-297, v.148a. Tehran çapında (s.227) Bəndan yazılıb.

[948] S-129, v.187b; S-297, v.148a. Tehran çapında (s.227) Baxərz əvəzinə səhvən Tacir yazılıb. Əlyazmada isə Baxərzlə yanaşı, yanlış olaraq Xəvafin da adı çəkilir. Lakin əslində, mətnin sonrakı cümləsindən də göründüyü kimi, Xəvaf Vəli xan Çərxçibaşıya verilmişdi. Bu məsələni araşdıran F.Sümer belə qənaətə gəlir ki, Baxərz və Xorasanın bəzi digər yerləri Mürşüdqulu xana, Xəvaf isə Vəli xan Çərxçibaşıya verilmişdi (F.Sümer. Safevi devletinin kuruluşu, s.120).

[949] İsfərayin - İranın şərqində, indiki Bocnurd şəhristanına daxil olan beş bəxşilikdən biri.

Ləvənd xanın oğlu İsa xan Gürcü və Luarsabın oğlu Simayun xan hər ikisi əvvəllər Ələmut qalasında məhbus olmuş və İsmayıl mirzənin hakimiyyəti zamanında azadlığa buraxılmışdılar. [Sultan Məhəmməd] cənnətməkan şahın qardaşı Sam mirzənin qızını İsa xana verib, onu Şəki əyalətinə göndərdi. Simayun xan isə islamı qəbul etmək şərəfinə qovuşub, Sultan Mahmud xan adlanmağa başladı. O da «bütün möminlər qardaşdır» kəlamına uyğun olaraq, hökmdar tərəfindən şərəfli «qardaş» ləqəbinə layiq görüldü və izzətlə, ehtiramla Gürcüstana yollanıb, öz irsi ölkəsinə sahib oldu.

İstər cənnətməkan şahın zamanında sarayda olmuş, istərsə də İsmayıl mirzənin zamanında ali taxtın ətəklərinə toplaşmış məmləkətlərin uca seyidləri, zadəganları və əyan-əşrəfləri malik olduqları mətləb və istəklərə nail edilib, hərəsi öz vəziyyətinə münasib mənsəblər əldə edərək, şah tərəfindən iftixar bəxş edən xələtlərlə mükafatlandırıldılar və [öz vilayətlərinə] getməyə rüxsət aldılar. O cümlədən, islam məmləkətlərinin bəyənilmişi Mirmiran Yəzdiyə bir daha dəyərli soyurğallar bağışlanıldı, İsmayıl mirzənin onun (Mirmiranın) bacısı ilə nikahından dünyaya gəlmiş qızı Sultanbəyim onun (Mirmiranın) kiçik oğlu Şah Xəlilullaya, cənnətməkan şahın qızı Xanış xanım isə onun böyük oğlu Şah Nemətullaya ərə verildi və [Mirmiran] əziz və möhtərəm bir şəkildə darülibadə Yəzdə yola düşdü. O da hökmdar tərəfindən şərəfli «qardaş» ləqəbinə layiq görüldü.

Uzun sözün qısası, İsgəndər şanlı nəvvab dərya qədər səxavətli əlini pay və ehsan vermək üçün açdı, xəzinələrin qapıları aralandı və bəxşişlər israfçılıq həddinə çatdırıldı. Dövlətin dayağı olan şəxslər və vəzir Mirzə Salman camaatın və var-dövlət tamahkarlarının qəlblərini cəlb etməkdən ötrü dövlət malından əl çəkib, məmləkətlərə göndərilmiş bütün böyük əmirlərə, onlar üçün nəzərdə tutulanın əksinə olaraq, bir və ya iki illik xərc və məvacibləri əvvəlcədən ödədilər. Belə ki, Əmir xana və onun tabeçilərinə yeddi min tümən verildi. Digər əmirlərə də bu kimi ödənişlər təqdim olundu. Cənnətməkan şahın zamanında ağzınacan xələtlə dolu olan və əmlakı illərlə toplanıb, sanki bir dənizə və mədənə çevrilmiş qayçaçıxananın malları əmirlərə, mənsəb və əməl sahiblərinə, məmləkətlərin böyüklərinə və əyan-əşrəflərinə xələtlərin bağışlanmasına sərf olundu. Heç elə gün olmazdı ki, İsgəndər şanlı nəvvab şəxsiyyəti məchul olan kimsələrə on-iyirmi xələt verməmiş olsun. Həmçinin əksəriyyəti on il, bəlkə, daha da artıq bir müddətdə məvacib almamış böyük qorçulara həmin illərin məvaciblərinin verilməsi hökm olundu. Hər gün dövlət xəzinəsindən sandıq-sandıq nağd qızıllar çıxarıb, onları ətək-ətək qorçulara verirdilər ki, cənnətməkan şahın borcu ödənilib qurtarsın. Şəxsi mənafe qapıları divan mənsəblərinin sahiblərinin üzünə açılmış və rüşvətxorluq rəvac tapmışdı. Oymaqların ağsaqqallarının himayəsi ilə qızılbaş tayfaları qarşıya müxalif niyyətlər qoyaraq, vəzirləri və dövlətin dayağı olan şəxsləri rüşvətlə ələ alıb, istədiklərini həyata keçirirdilər.

Bu işlərdən savayı, hər bir oymağın içindən yeni əmirlər təyin olundu. Artıq ölkələr və məmləkətlər bölüşdürüldüyündən bu yeni əmirlərə dövlət xəzinəsindən

məvacib verirdilər. Hər oymağın təəssübkeşləri qalmaqal və fitnə-fəsad törətməyə başlayıb, rəqiblərinə üstün gəlmək yolu ilə öz hegemonluq bayraqlarını dalğalandırmaq mövqeyi tutdular. Xülasə, qızılbaş tayfaları öz mətləblərinə çatmağı qarşıya məqsəd qoyub, dinin və dövlətin maraqlarını az nəzərə aldılar. Bütün bunların nəticəsində qısa vaxt ərzində dövlət xəzinəsindəki nağd pullar və mallar tükəndi, toz edilib göyə sovruldu və əlli il müddətində toplanmış var-dövlət yerlə yeksan edildi. Özbaşınalıq və hərc-mərclik ucbatından o vəfakar [qızılbaş] qövmünün işi uzlaşmadan kənar olub, nifaqa və qalmaqala doğru üz çevirdi. Qoşun arasında ikitirəlik rəvac tapdı. Qızılbaşların arasında ixtilaf və parçalanmanın mövcudluğu və onların vəziyyətində nizam-intizamın yox olması barədə xəbərlər yayıldı. Bu səbəbdən dövlətə ağır ziyanlar dəydi. Belə bir günün arzusunda olan zəmanə padşahları və düşmənlər bu fürsəti qənimət bilib, şərqdən və qərbdən Əcəm məmləkətlərinə tamah saldılar. Sultan Muradın Azərbaycan və Şirvan məmləkətlərinə tamahı düşdü. Başlarını illərlə itaət çənbərində saxlamış ətrafdakı başqaldıranlar istiqlaldan və istibdaddan dəm vurub, öz zorakılıq və təcavüzkarlıq əllərini [Səfəvi] məmləkətlərinə uzatdılar.

İsgəndər şanlı nəvvab qoşunun ittifaqsızlığı və ikitirəliyi, əmirlərin arasındakı nifaq, oymaqların bir-birləri ilə düşmənçiliyi, ordudakı özbaşına adamların əmrə tabe olmaması və öz mülayimliyi üzündən güclü düşmənlərə qarşı müdafiə olunmağa qüdrət tapa bilmədi. O, çox həlim adam olduğu üçün fitnəkarlar bundan istifadə edirdilər. Axırda işlər o yerə gəlib yetişdi və o həddə çatdı ki, dövlətin mötəbər məmləkətləri, xüsusən də Şirvan və onun ətrafı, darüssəltənə Təbriz və hökmükeçən padşahların taxtgahı olmuş Herat qızılbaşların ixtiyarından çıxıb, düşmənlərin əlinə keçdi. Dövlətdə tamam hərc-mərclik yarandı. Camaat sanki çaşqınlıq və əlacsızlıq dənizinə düşənlər və ya səhrada susuzluqdan dodağı quruyanlar kimi çarəsiz qalmışdı. Hamı ümidlə Allahın lütfünü gözləyirdi. Nəhayət, Allahın qayğıkeşlik küləyi əsməyə başladı, Allahın kölgəsi olan əlahəzrət şahın cahangirlik bayrağının təntənəsi Xorasan tərəfdən yüksəldi və gəlib səltənətin paytaxtına çatdı. İran mülkünün taxtı onun fələyi bürüyən bayrağının ayparasının parıltısı səbəbindən nurlu günəş kimi işıqlandı. Onun (Şah Abbasın) uğurlu taleyinin gücü, tədbirinin gözəlliyi və qdıncının şöləsi ilə məmləkətin qarşısında duran çətinliklər qısa bir zaman ərzində həll olundu. İnşallah, bu hadisələrin hər biri bu dəftərin sonrakı hissələrində öz yerləri gəldikdə bəyan qələmi ilə qeydə alınacaqdır. Uzun sözün qısası, baş vermiş birinci hadisə Cəlal xan Özbəyin Xorasana gəlməsidir[950].

[950] S-129, v.189a-b.

## CƏLAL XAN ÖZBƏYİN XORASANA GƏLMƏSİ VƏ ONUN MÜRTƏZAQULU XAN TÜRKMANIN SƏYİ İLƏ QƏTLƏ YETİRİLMƏSİ HAQQINDA

İsmayıl mirzə zamanında şahzadələrin qətlinin baş verməsi və səltənət xanədanının təməlinin laxlaması və sarsılması barədə səs-soraq ətraflara və kənarlara çatmış, uzaqlara və yaxınlara belə məlum olmuşdu ki, əbədiyyət sahibi olan behişt məskənli xaqan Şah İsmayıl Bahadır xanın - Allah onu cənnət bağlarının sakini etsin - yüksək məqamlı övladları sırasında İsmayıl mirzə və oğlundan savayı heç kimsə qalmayıbdır. Ona görə də İsmayıl mirzənin ölüm hadisəsindən sonra bu sülalənin səltənətinin əsasının xaraba qaldığını və qızılbaşların vəziyyətinin pozulduğunu zənn edən düşmənlər ayaqlarını əndazədən kənara çıxarıb, təcavüzkarlığa başladılar. O cümlədən, Əbülməhəmməd xanın ölümündən sonra Ürgəncin digər sultanlarından öz şücaətinin və cəsurluğunun çoxluğuna görə üstün olan Din Məhəmməd xanın oğlu Cəlal xan imansız özbəklərdən ibarət altı-yeddi min nəfərə yaxın bir dəstə ilə yağmalamaq və dağıntı törətmək məqsədi güdərək, Nisa, Əbivərd və o hüduddan Xorasana soxulub, müqəddəs Məşhədin yaxınlığına gəldi. Böyük əmirlərdən heç biri ayrı-ayrılıqda ona müqavimət göstərmək qüvvəsində olmadıqlarından onların hərəsi öz qalasına sığınıb gözləyirdilər ki, bəylərbəyilərdən hansısa biri [Cəlal xanla] döyüşməyə təşəbbüs göstərərsə, onlar da onun başına toplaşıb, düşmənin dəf edilməsi işi ilə məşğul olsunlar.

Cəlal xan o ətrafda çoxlu talanlar və qarətlər törədib, Cam vilayətinə getdi və o vilayətdə də mal-qara və davarlar ələ keçirib, Sərəxs yolundan geri qayıtmaq və Xorasanda toplayıb götürdüyü saysız qənimətləri öz ölkəsinə çatdırmaq istədi. Müqəddəs Məşhədin bəylərbəyisi Mürtəzaqulu xan Pornak ətrafa və yan-yörəyə adam göndərib, ona kömək etməyə məmur olan əmirlərə xəbər çatdıraraq, onlardan qoşun tələb etdi. Lakin o, Cəlal xanın vilayəti işğal etməyin qeydinə qalmadığını, soyğunçuluq və qarətlə kifayətləndiyini və geri qayıtmaq istədiyini eşitdikdə, köməyin gəlib çatmasını və qoşunun toplanmasını gözləmədən, öz mülazimlərindən və müqəddəs Məşhəddə hazır olan əmirlərdən və qorçulardan ibarət məhdud bir qüvvə ilə Məşhəddən çıxaraq, onu təqib etməklə Cam vilayətinə gəldi. Əmirlərdən və o hüdudun camaatından bir sıra digərləri də ona qoşuldular və onun başına təxminən üç minlik qoşun cəmləşdi. Mürtəzaqulu xanın və qızılbaş qoşununun gəlişindən Cam Aşqabadında xəbər tutan Cəlal xan yüyənini [öz ölkəsinə] qayıtmaqdan geri çevirdi. Təcrübəli özbək atalıqlarından və ağsaqqallarından bəziləri məsləhət bildilər ki, əgər yağmalamaq məqsədi ilə gəlmişiksə, döyüşə atılmaqdan vaz keçib, qarət etdiyimiz malları etibarlı bir yerə çatdırmalıyıq.

Lakin Cəlal xan dikbaşlıq və qürurunun çoxluğu ucbatından qızılbaş qoşununa saymazyana münasibət bəsləyib, orada qalaraq, davaya və döyüşə

hazırlaşdı. İş o yerə gəlib çatdı ki, hər iki tərəfdən döyüş səfləri quruldu və gərənay səsi fələyin qulaqlarına qədər gedib çıxdı. Hər iki tərəfin igidləri döyüş meydanına ayaq qoydular və günəşin günortadan keçməsindən ta qürub etməsinə qədər döyüşmək və vuruşmaqla məşğul oldular. Hər iki tərəfdən şücaət və mərdanəlik nümayiş etdirildi. Cəlal xan qızılbaş qazilərinin apardığı savaşın və döyüşün bu cür şiddətli olmasını və onların ayaqlarının döyüş meydanında bu qədər möhkəm durmasını təsəvvür etməmişdi. O, bunu müşahidə etdi və həmin azsaylı qoşunun onun müqabilində göstərdiyi cürətə və cəsarətə təəccüblənərək, onlarla müharibə etdiyinə peşman oldu. Cahana işıq saçan günəşin şüaları yer səthinin arxasında gizləndikdən və hava Abbasilər [sülaləsinin qara] libası kimi[951] zülmətə büründükdən sonra müharibədən yorulmuş hər iki qoşun döyüşdən və vuruşdan əl götürüb, hər biri bir tərəfə çəkilərək, öz düşərgələrinə tələsdilər. Sübhədək hər iki tərəf özünə gözətçilər təyin etdi.

Qızılbaş qaziləri özbək ordusunun zərbələrindən və igidcəsinə həmlələrindən elə xoflanmış və qorxmuşdular ki, yenidən müqavimət göstərməyə tab gətirməyi öz qüdrətlərinin çərçivəsinə sığmayan bir iş hesab edirdilər. Lakin Mürtəzaqulu xan çox mərdanəliklə özbək qoşununun məğlub edilməsinə səy göstərdi. Səhəri gün həm sabit, həm də səyyar göy cisimlərinin (bütün ulduzların və planetlərin) sultanı (günəş) baş qaldırıb, öz atəş yağdıran qılıncının şüaları ilə ulduzlar dəstəsini məğlub etdikdə [Mürtəzaqulu xan] qızılbaş qazilərini müharibəyə həvəsləndirərək, döyüş meydanına yollandı. O tərəfdən Cəlal xan da öz səflərini düzəltdi. Hər iki tərəfdən baş verən ardıcıl həmlələrdən sonra [Cəlal xan] şücaətinin çoxluğuna və təəssübkeşliyinin qüvvətinə qapılaraq, özü şəxsən döyüşə qatılmaq üçün igidlik atını savaş meydanında cövlana gətirdi. Döyüşün qızğın çağında Ümmət bəy Ustaclu ilahinin təqdiri üzündən Cəlal xana çatıb, onu tanımadan öz canalan nizəsinin zərbəsi ilə yerə sərdi və atdan enib onun başını bədənindən ayırmaq istədi. Bu əsnada Cəlal xanla at üstündə durmuş özbəklərdən biri fəryad etdi: «Onu öldürməkdən əl çəkin! O Cəlal xandır». Qızılbaşlar Cəlal xanın adını eşidəndə türkmanlardan və çəkənilərdən bir neçə nəfər onun üzərinə hücum çəkib, onu Ümmət bəyin və ustaclu camaatının əlindən alaraq, darta-darta Mürtəzaqulu xanın nəzərləri qarşısına apardılar. Həmin döyüşün iştirakçılarından eşidilmişdir ki, ustaclu qaziləri Cəlal xana qarşı müharibədə mərdanəliklər nümayiş etdirmişlər. Ustaclularla türkmanlar və çəkənilər arasında Cəlal xanın tutulması zamanı münaqişə baş vermişdi. Bu dəstələrdən hər biri [Cəlal xanın] tutulmasını özlərinə aid edirdilər. Mürtəzaqulu xan onun qətlə yetirilməsini məsləhət bildi. Onun təkəbbür və lovğalıqla dolu olan başını bədənindən ayırdılar. Özbəklər Cəlal xanın əsir düşməsindən xəbərdar olduqda qaçış yoluna üz tutdular. Qılıncdan qurtulanlar yarımcan halda qaçıb aradan çıxdılar. Zəfər şüarlı qoşunun əlinə saysız qənimətlər düşdü. [Mürtəzaqulu xan] Cəlal xanın başını ələ keçirilmiş yaraq və

[951] Qara rəng Ərəb xilafətində hökmranlıq etmiş Abbasilər sülaləsinin rəmzi sayılırdı.

«axtarma» ilə birlikdə ulu dərgaha göndərib, mükafatlara və ənamlara layiq görüldü.

Mürtəzaqulu xan bu şanlı qələbədən sonra Xorasanda istiqlal bayraqlarını dalğalandırdı. O, bu cür böyük bir işi Herat bəylərbəyisi Əliqulu xan Şamlunun yardımı və köməyi olmadan həll etdiyi üçün daim bu hadisənin baş verməsi ilə öyünüb, həm Heratın bəylərbəyisi, həm də cavanbəxt və bəxtəvər şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın ləlləsi vəzifələrini tutan Əliqulu xana çox da məhəl qoymurdu. O, həmişə Əliqulu xanın istəklərinin ziddinə gedərək, özünü ondan üstün bilirdi. Nəhayət, get-gedə onların arasında araqarışdıranların fitnəsi ilə düşmənçilik münasibətləri baş qaldırdı, vəhşət doğuran səbəblər günbəgün daha da artdı, axırda bu məsələ döyüş həddinə çatdı və dəfələrlə onlar bir-birlərinin üzərinə qoşun çəkdilər. İnşallah, bu hadisələr öz yen gələndə qeyd olunacaqdır.

## SİSTAN ƏHLİNİN ÜSYANI, TÜĞYANI VƏ ONLARIN CƏFƏR SULTAN ƏFŞARLA MÜHARİBƏSİ

Cənnətməkan şahın dəhşətli [vəfat] hadisəsindən sonra məmləkətlərdə bir sıra fitnə-fəsad əmələ gəldi. Xorasan əhlindən törənmiş ilk müxalif hərəkət Sistan camaatından haş verdi. Bu əhvalatın həqiqəti belədir ki, cənnətməkan şahın vəfatı zamanı mərhum Bəhram mirzənin oglu Bədiüzzaman mirzə ali əmrə uyğun olaraq, Nimruz vilayətinin valisi idi və Teymur xan Ustaclu onun ləlləsi idi. Sistan əmirləri Teymur xanın və ustaclu tayfasının pis rəftarı və saymazlığı üzündən qızılbaşlara itaət etməkdən boyun qaçırdılar. O tayfanın mötəbər şəxsləri toplaşıb, Teymur xanı Sislandan çıxardılar. Bir müddət o vilayətin ərazisi qızılbaş qoşunundan xali oldu. Hər təbəqənin dikbaşları üsyan və tüğyan üçün baş qaldırıb, Səffari sultanları[952] nəslindən olan məliklərdən birinin [Sistanda] hakimiyyət başına keçməsini təmin etməyə çalışdılar və bu vəzifəyə layiq olan həmin böyük məliklərdən bir neçəsinə öz niyyətlərini ərz etdilər. Lakin onlardan bəziləri öz aqibətlərini düşünərək, bu təklifi qəbul etmədilər. Elə bu əsnada İsmayıl mirzənin [ölüm] hadisəsi baş verdi və İran səltənətinin taxtı İsgəndər şanlı nəvvabın ixtiyarına keçdi. Sistanın qalmaqal salan iğtisaşçıları əvvəlkindən daha artıq dərəcədə rəislik və rəhbərlik həvəsinə düşərək, qızılbaşlara rəiyyət olmaqdan tamamilə imtina etdilər. Onlar özləri üçün səltənət və hökmranlıq xalçasını döşəyərək, məliklər zümrəsindən cavan, hörmətli, cəsur və çalışqan bir adam olan Məlik Mahmudu hakimiyyət başına gəlməyə həvəsləndirdilər. Məlik Mahmud öz qüruru, nəfsi, cəsarəti və lovğalığı üzündən məmləkətə rəhbərlik və başçılıq etməyə razılaşıb, hakimiyyəti qəbul etdi.

---

[952] Səffarilər - əsası Yaqub ibn Leys (867-879) tərəfindən qoyulmuş fars sülaləsi. Sistan hakimləri özlərini Səffarilər sülaləsindən sayırdılar (Малик Шах-Хусайн Систани. Хроника воскрешения царей, с.10).

Amma hələ onun işləri o mülkün əmirlərinin və əyanlarının ürəkləri istəyən kimi qaydasına düşməmiş, padşahın ulu dərgahında Sistan əyaləti Cəfər sultan Ərəşlü Əfşara verildi. Onun gəlisi xəbəri Sistana çatdı. O vilayətin qiyamçı əmirlərinin və məliklərinin tərəfdarlarından olan şəhərətrafı («bölükat») camaatın bir hissəsi adalara və möhkəm yerlərə sığındılar. Lakin Sistanın qalan əhalisi öz aqibətini düşünüb, Məlik Mahmudun və onun adamlarının tərəfini saxlamadı. Onlar və hətta bir sıra əmirlər və məliklər Cəfər sultanı qarşılamağa çıxıb, ona öz itaət və tabeçiliklərini bildirdilər və sultanla birlikdə səhərə gəldilər. Cəfər sultan Sistandakı vəziyyətlə yaxından tanış oldu. O, bəzi şəxslərin qiyamçılarla əlbir olduğundan şübhələnirdi. Lakin qiyamçıları dəf etmək üçün yetərincə qüvvəsi olmadığından və bu cəhdin böyük bir fitnə-fəsada aparıb çıxaracağını ehtimal etdiyindən onlarla dostluq və sülh tərzində rəftar etməyə başladı. O, camaatın əksəriyyətinə rüxsət verdi ki, öz evlərinə getsinlər. Məliklərdən Məlik Qiyasəddin Mahmud və əmirlərdən Əmir Mübariz Əli şəhərdə [Cəfər] sultanın yanında qaldı. Yerdə qalan camaatın isə hamısı, dost və düşmən olmasından asılı olmayaraq, öz mənzillərinə getdilər. O vilayətin şəhərətrafı əhalisindən və şəhər camaatından olan bəzi ağalar və rəiyyətlər [Cəfər] sultana səmimiyyətlə itaət edib, onun tərəfinə keçdilər. Digər məliklər isə xof və ümid içərisində günlərini keçirirdilər. Altı ay ərzinə [Cəfər] sultanla Sistan əhalisi arasında sülh və anlaşma hökm sürdü.

Bu əsnada Məlik Qiyasəddin Mahmud təbii əcəllə vəfat etdi. Onun oğulları və tabeçiləri rüxsət alıb, öz qohumlarının yanına getdilər. Elə ki onun adamları öz qohumlarına qovuşdular, adalara sığınmış sistanlılar iğtişaş və üsyan üçün baş qaldırdılar. Onlar hər gün Məlik Mahmudun təhriki ilə şəhərin yaxınlığına gəlib, soyğunçuluq və qarətçilik edirdilər. Axırda Sistan qiyamçılarının yöndəmsiz əməlləri və təcavüzkarlıqları son həddi aşdı. Cəfər sultan əşrəfin hökmünə əsasən ona kömək etməli olan Gərmsir hakimi İnad sultan Əfşarla birlikdə üsyançıları və qiyamçıları cəzalandırmaq və tənbeh etmək üçün iki minlik mükəmməl qızılbaş süvarisi ilə şəhərdən çıxdı. [Cəfər] sultana tabe olmuş və itaət göstərmiş Sistan əhalisindən də min nəfərə qədəri, bəlkə, daha artığı sultanın harayına çatıb, şəhərdən çıxaraq, qızılbaş qoşununa birləşdilər. Qiyamçılar tərəfdən də Məlik Mahmud Sistanın digər məlikləri və əmirləri ilə birlikdə öz məkanından hərəkətə başlayıb, çoxlu qoşunla Hirmənd çayını keçdi. İki tərəf arasında vuruşma başladı. Cəfər sultan savaş meydanında adi bir döyüşçü kimi vuruşaraq, özü şəxsən qoşun başçısına xas olmayan cəsur həmlələr edirdi. Döyüş əsnasında qəzavü-qədər ucbatından sistanlılar tərəfindən atılmış bir ox [Cəfər] sultanın atına dəydi və at yerə yıxddı. [Cəfər] sultan döyüş meydanı içində atdan aşmışdı və yıxılarkən aldığı zədələr üzündən tərpənə bilmirdi. Dərhal sistanlılardan biri onun başının üstünü alaraq, onu qətlə yetirdi. Əsgərlər sultanın ölümündən xəbər tutdular. Onların arasına dağınıqlıq və pərakəndəlik düşdü və məğlub olaraq, şəhərə doğru qaçmağa başladılar. Amma Məlik Mahmud öz döyüşçülərinin qızılbaşları və onların tərəfdarlarını təqib etməsinə mane oldu və qoymadı ki, Sistan qoşunundan kimsə

qaziləri təqib etsin. [Bu döyüşdə] o qədər də çox adam qırılmadı. [Məlik Mahmud] şəhərə, [Cəfər] sultanın tabeçilərinin yanına adam göndərdi [və onlara bildirdi] ki, rahatlıqla öz mallarını və əşyalarını toplasınlar və çıxıb getsinlər. Qızılbaş qaziləri böyük bir qüssə və pərişanlıq içində yola çıxıb, o vilayəti tərk etdilər.

Qızılbaşların çıxıb getməsindən xatircəm olan Məlik Mahmud onların şəhəri tərk etməsindən sonra tamam-kamal şövkət və iqtidarla şəhərə daxil olub, hökumət kürsüsündə əyləşdi. Onun hökmranlığının səs-sədası Xorasanın hər tərəfinə yayıldı. Hər təbəqənin əyanlarından olan şəxslər onun xidmətinə cəmləşdilər. O vaxtadək qızılbaş hakimlərindən bir balaca hörmət və izzət gördükdə razı qalan Məlik Mahmud indi Nimruz vilayətinin valisinə çevrildiyindən və belə bir rifahlı və abad məmləkəti öz iqtidarı altına aldığından ehsan süfrəsi açıb, ehsanlar və bəxşişlərlə camaatın könlünü xoş etdi. Əlinə düşən hər şeyi səxavətlə paylayırdı. Fəsadçılar və ağzıgöyçəklər tamahkarlıq qüvvəsi ilə hərəkətə gəlib, mal-mülk sahibi olmaq üçün onu qızışdırıb deyirdilər:

- Siz «dünyanın məliki» («məlik əd-dünya») ləqəbi daşıyan Yaqub ibn Leysin nəslindənsiniz. Axı nə üçün siz Sistanla kifayətlənməlisiniz?

Ağılsız boşboğazların bu hədyan söhbətlərinin təsirindən onun beyninə pozğun xəyallar yol tapdı və o, istiqlaldan və istibdaddan dəm vurmağa başladı. Amma aqibəti düşünən bəzi uzaqgörən şəxslər Məlik [Mahmuda] nəsihət verərək, onu müqəddəs nişanəli Səfəvi sülaləsinə qarşı müxalif olmaqdan daşındırddar və çəkindirdilər. O, etdiklərindən peşman olaraq və utanaraq, İsgəndər şanlı nəvvabın ulu dərgahına adam göndərib, sədaqətini və bəndəliyini izhar etdi və cənnətməkan şah zamanında Sistan hakimi və Bədiüzzaman mirzənin lələsi olmuş Məhəmməd xan Türkmanın vasitəçiliyi ilə Nimruz məmləkətinin hakimi olmaq xahişini [Şah Məhəmməd Xudabəndəyə] çatdırdı. Onun göndərdiyi adamlar ali taxtın ətəyinə gələrək, gətirdikləri töhfə və hədiyyələri təqdim etdilər. O vaxtlar rüknüssəltənə olan Məhəmməd xan təsəlliverici üslubda danışıb, Məlik [Mahmudu] himayə etdi və ali divanda Sistan əyalətinin hökmünün Məlik [Mahmudun] adına yazılmasına nail oldu. İsgəndər şanlı nəvvab və qüdrətli dövlətin dayaqları olan şəxslər zamanın tələbinə uyğun olaraq, Cəfər sultanın ölümünün üstündən keçib, Məlik (Mahmud) üçün hakimlik fərmanının göndərilməsindən boyun qaçırmadılar. Məlik Mahmud hökmə əsasən hakimlik kürsüsündə əyləşib, əvvəlkindən daha artıq dərəcədə istiqlal əldə etdi. Günbəgün onun dövlət bayrağı daha da yüksəyə qalxdı. Allahın kölgəsi olan şahın cülusu əyyamının hadisələri daxilində bəyan qələmi ilə yazılacağı kimi, Qəndəharda olan şahzadələr, yəni Bəhram mirzənin oğlu Sultan Hüseyn mirzənin övladları və digərləri öz əmiləri Bədiüzzaman mirzənin hökumətgahı olan o mülkü (Sistanı) ələ keçirməyi qarşılarına məqsəd qoyub, onun (Məlik Mahmudun) üstünə qoşun çəkdilər. Onlar arasında bəzi vaxtlarda hərb, bəzi vaxtlarda sülh oldu. Nəhayət, Rüstəm mirzə əlahəzrət [Şah Abbasın] hakimiyyətinin əvvəllərində Məlik Mahmuda qalib gəldi və onu qətlə yetirdi. Sistandakı hadisələrin ardı və Məlik Mahmudun oğlu Məlik Cəlaləddinin əhvalatı

Allahın kölgəsi olan əlahəzrət şahın uğurlu hakimiyyəti zamanının hadisələrinə həsr olunmuş ikinci cilddə, Qəndəhar şahzadələrinin halından bəhs edilən fəsildə qələmə alınacaqdır, inşallah[953].

## AZƏRBAYCAN VƏ ŞİRVAN HADİSƏLƏRİ, RUM SULTANININ O HÜDUDA VƏ ÖLKƏYƏ QOŞUN GÖNDƏRMƏSİ VƏ BU ZAMAN BAŞ VERMİŞ ƏHVALATLAR HAQQINDA

Söz ustadlığı meydanının cəngavərləri qələmin müşksaçan ucunu hadisələri təsvir etmək cıdırında cilvələndirərək, belə qeyd edirlər ki, Azərbaycan və Şirvan diyarının sakinlərinin əhvalının pozulması Allahın iradəsində qərar tutduğu üçün İsmayıl mirzənin ölüm hadisəsindən sonra o xalqın həyatının üzünə möhnət və bəla qapıları açıldı, o diyarın əmin-amanlığı aradan qalxdı, alovlanmış fitnə və tənəzzül odları asimana ucalıb, o diyarın hərbçilərinin və rəiyyətinin ömür və mal xırmanını yandırdı, o könül oxşayan vilayətin saf adamları hadisələrin təpikləri altında qalıb, pərişanlıq məhəlləsinin avaralarına çevrildilər və onların pənah və dinclik tapmaları mümkün olmadı. Behişt asudəliyinə malik bostanlar tikanlığa çevrilmək bəlasına mübtəla oldular, güllər və reyhanlar quraqlıq ucbatından pəjmürdəlik bədbəxtliyinə düçar qaldılar. Sözün qısası, iki ilə yaxın bir müddətdə dalbadal və ard-ardına yaramazlıq əsgərləri o diyara üz tutub, qətl və qarət bazarına rəvac verdilər. O çağadək heç zaman görünməmiş bir iş, yəni islam əhlinin əsir aparılması məsələsi də həmin vaxt baş verdi. O vilayətin seyidlərinin və zadəganlarının qadınlarından və qızlarından bir çoxları zorla köləliyə giriftar olundular. Taleyin icazəsi ilə həmin hadisələrin təfsilatını bu dəftərin sonrakı hissələrində qələmə almağı ümid edirik.

İran mülkünün əmniyyəti, nizam-intizamı və iranlıların əhvalının düzəlməsi ədalətli [Allahın] uca divanında Allahın kölgəsi olan kama çatmış şah (Abbas) cənablarının cahanı bəzəyən rəyindən asılı və bağlı edildiyi üçün səltənət və hökmranlığın səadətli taxtı o həzrətin şəxsiyyətinin mövcudluğu ilə rahatlıq tapmayana qədər həmin qarmaqarışıqlıq azalmağa üz qoymadı. Allaha həmd və şükür olsun ki, o həzrətin uzaqgörən ağlının seçdiyi düzgün istiqamət və onun məşəl kimi atəş yağdıran qılıncının şüaları sayəsində bədbəxtlik zülmətini xoşbəxtlik sübhü əvəz etdi, yaramaz düşmənlər öz əməllərinin cəzasına çatdılar və əldən getmiş məmləkətlər geri qaytarıldı. Onun ədalət günəşi rəiyyətin əmin-amanlığını və arzu-diləklərini işıqlandırdı, xalqın yaşayışı dövlətin baharı kimi İrəm gülzarının təravətini əldə etdi və bir-birinə zidd olan dörd sütün ədalətli memarın köməyi ilə möhkəmləndirilib, bir-birləri ilə ixtilaf və nifaqa malik olan tayfalar yekdillik və birlik şüarını əldə rəhbər tutdular. Bu gün İran məmləkətləri cahan şahənşahının ədalətinin uğuru sayəsində cənnət bağçasına həsəd bəxş edir.

[953] S-129, v. 191a-192b; S-297, v.l50a-151b.

Ümid odur ki, onun dövlətinin müddəti əmr sahibinin (qeybdə olan on ikinci imamın) zühuruna qədər gedib çatsın, dünya adamları onun zavalagəlməz səadətinin uğuru ilə mehribanlıq və minnətdarlıq kölgəsi altında asudə vəziyyətdə yaşasınlar və onun cahan sakinlərinin asayişinə səbəb olan mübarək xüsusiyyətlərə malik zatı dövranın xoşagəlməzlikləri və müsibətləri qarşısında Tanrının amanının hifzi altında olsun.

### Nəzm

«Allah, özün hifz et bu ali mənşəli şahı,
Həmişə onun ürəyi cahanda xoş olsun.
Özün saxla onu şahənşahlıq taxtı üstündə,
Zəmanə onun ədalətindən məhrum olmasın.
Dünya daim onun ədaləti ilə abad olsun,
Xalqın könlü onun iqbalı ilə şad olsun»[954].

Sübhanallah, gör bir tale rəhbəri ixtiyarsız olaraq müşksacan qələmi haradan haraya çəkib apardı!

Sözün qısası, kürd fəsadçılarının bəziləri, xüsusən də Vanla Azərbaycan arasında məskən tutmuş Qazi bəy, Şahqulu Bülbülanın digər övladları və Qaziqıran[955] torpaq sahibləri kimi vaxtın və zamanın tələblərinə uyğun olaraq, padşahlardan birinin itaəti altına girib, özlərini onun mülazimləri sırasına mənsub edərdilər Lakin onlar eyni zamanda fitnə-fəsadı da qızışdırıb, ortalıqda öz işlərini görərdilər. İsmayıl mirzənin hökmranlığının səs-sədası bas qaldıran vaxt onlar onun hüzuruna gəlib, itaətlərini bildirmiş və onun tərəfindən nəvaziş və qayğıkeşlik əldə etmişdilər. Onlar İsmayıl mirzənin ölümündən sonra dövlətin intizamsızlığı və qızılbaş qoşununun ittifaqsızlığını müşahidə edib, Van tərəfə getmiş və fitnə-fəsad törətmək qərarına gəlmişdilər. Onlar Van hakimi Xosrov paşanı təhrik edib, aranın qarışmasına bais oldular. Xosrov paşa ya özbaşına, ya da ki, Rum padşahının əmri ilə, hər halda, bu ikisindən biri əsasında behişt məqamlı şahla Sultan Süleymanın - onların hər ikisinə rəhmət və cənnət qismət olsun - zamanında aralıqda möhkəmləndirilmiş və and içməklə təsdiqlənmiş əhdü-peymanı və Sultan Süleymanın öz xətti ilə qeyd olunan və nəsilbənəsil aralıqda mövcud olan sülh müqaviləsini unutqanlıq tağının üzərinə qoyaraq, o hüdudun əsgərlərini sərhəddəki kürd əmirləri ilə birlikdə Xoya, Səlmasa və o ətrafdakı digər

---

[954] S-129, 193b; S-297, v.l52a.

[955] Bu şəxs kürdlərin beradost əşirətinin bəylərindən idı. O, I Şah İsmayıl zamanında Urmiyaya hücum edərək, qızılbaş qoşununu təlafata məruz qoymuş və bu səbəbdən «Qaziqıran» ləqəbi almışdı. O, bir müddət sonra Şah İsmayıla itaətkarlıq göstərsə də, daha sonralar ikiüzlü siyasət yürüdür, gah Osmanlıların, gah da Səfəvilərin hakimiyyəti altına keçirdi (Шараф-хан Бидлиси. Шараф-наме. Перевод, предисловие, примечания и приложения Е.И.Васильевой, т. I, Москва, 1967, с. 345).

həmsərhəd ərazilərə basqın etməyə göndərdi. Bununla o, illərlə yuxuya getmiş fitnə-fəsadı oyadaraq, Allahın lənətini qazanmış oldu.

Xülasə, baş vermiş əvvəlinci hadisə bu oldu ki, Azərbaycan bəylərbəyisi Əmir xan və onun yoldaşı olan əmirlər darüssəltənə Təbrizə getməzdən öncə kürdlərin və rumilərin qoşunu tamam qələbəlik və izdihamla qəflətən Urumi qalasında, Səlmas və Xoy hüdudunda məskən salmış Hüseynxan sultan Xınıslunun və Mahmud sultan Rumlunun üzərinə gəldilər. Neçə illər ərzində tərəflər arasında sülh və dostluğun hökm sürməsinə əsaslanan və Rum sultanının əhdü-peymanı pozacağını güman etməyən qızılbaş qaziləri bu səbəblər üzündən qətiyyət və ehtiyat yolundan kənarda qalıb, arxayınlıqla oturmuşdular. Onlar kürd tayfalarının hamılıqla üsyan və tüğyan yolunu tutduqlarını və rumilərlə birlikdə qızılbaşları qırmağa gəldiklərini öyrəndikdə şirin canlarından əl çəkib, müdafiə olunmağa başladılar. Düşmənlər qat-qat çox olduqlarına görə qızılbaşların səylərinin və çarpışmalarının bir faydası olmadı və kürdlər hiylə ilə onlara qalib gəldilər. Qızılbaşlar məğlub oldular. Onların əksəri ailələri ilə birlikdə olduqları üçün öz arvad-uşaqları uğrunda səy göstərib, mərdanəliklə şəhidlik dərəcəsinə çatdılar. Onların qadınları və qızları əsir alındı, əşyaları və malları isə tarac olundu. Bu hadisədən sonra Göyərçinlik[956] qalasının və Urumi qalasının yarağı kürdlərin ixtiyarına keçdi.

Əmir xan Təbrizə çatdıqdan sonra bu məsələnin yoluna qoyulması istiqamətində çalışaraq, özünə yoldaş olan əmirlərlə və Azərbaycan qoşunları ilə birlikdə on-on beş min nəfərlik qüvvə toplayıb, o tərəfə hərəkət etdi. Kürd əmirləri müqavimətə tab gətirməyib, bəziləri qalalara sığındılar, bəziləri isə öz doğma mahallarına getdilər. Lakin ölkə qarət olunduğundan və rəiyyət pərən-pərən düşüb var-dövlətini itirdiyindən qızılbaş əmirlərindən heç biri o diyarda qala bilmədi. Əmir xan o qalaları fəth etmək və o məmləkəti ələ keçirmək məqamında dura bilməyərək, geri qayıdıb, Təbrizə gəldi. Bu hərbi əməliyyatlar o mülkdə çoxlu xarabalıqların törənməsinə bais oldu. Xoy, Səlmas və Uruminin əksər rəiyyətləri oradan köçmək qərarına gəldilər. Döyüşlərdən sonra tədricən öz yerlərinə qayıtmış əhali isə çarəsizlik ucbatından düşmənlərə itaət etdi və o yerlər düşmənin əlində qaldı.

Ərzurum paşası da o sərhədin qoşunundan altı-yeddi min nəfəri şaxtanın şiddətli vaxtında Şüregeh, Qaraxan sultan Bayhurdlunun üzərinə göndərdi. Rumilər qəflətən oraya çatıb, Qaraxan sultanın çadırına od vurdular və fitnə-fəsad alovunu alışdırdılar. Amma Qaraxan sultan öz adamlarını cəmləyib, iki-üç min nəfərlə onlara qarşı müdafiə olunmağa başladı və tərəflər arasında böyük bir döyüş baş verdi. Üç yüz nəfərə qədər rumi qətlə yetirildi, qılıncdan qurtulanlar isə savaş meydanından çıxıb, öz diyarlarının yolunu tutdular. Qazilər onları təqib etdilər və qarın içində düşüb qalmış bir çoxlarını yoxluq diyarına göndərdilər (öldürdülər).

[956] Göyərçinlik qalası – Urmiya gölünün şimal-qərb sahilində qala.

Bayburdlu [tayfasının] qaziləri son dərəcə mərdlik nümayiş etdirdilər. [Bu döyüşdə] onlar tərəfdən ölənlərin sayı qırx-əlli nəfərdən çox deyildi. Lakin buna baxmayaraq, həmin hadisədən sonra onlar (bayburdlular) daha Şüregeldə qalmağa macal tapmadılar[957].

Sərhəddə qarışıqlıq yaranması, rumilərin düşmənçiliyə başlaması və kürdlərin o hüdudda üsyan və tüğyan etməsi barədə xəbərlər yayılan kimi, o vaxtadək başlarını ədəb dairəsi daxilinə soxmuş hər tayfanın fəsadçıları ədəbsizlik ayaqlarını uzadıb, çaxnaşma və fitnə-fəsad törətməyə başladılar. İllərlə bu [Səfəvi] sülaləsinin nemətləri ilə bəslənmiş olan və Sulduz hüdudunda, Marağa Miyandüabında[958] yaşayan mükri tayfası da[959] nankorluğu özünə şüar seçdi. Onlar özlərinin Əmirə bəy adlı başçılarına Əmirə xan adı qoyub, Marağa hüduduna gəldilər və cənnətməkan şahın şəxsi («xassə») mülkiyyətinə aid olan Qaraçapuq ilxısını o hüduddan qovub, özləri ilə on minə qədər bədöv ərəb atını, kiçik və böyük madyanları apardılar. Əmir xan bu xəbəri eşitdikdə onların ardınca yollansa da, onların heç tozuna da çata bilmədi. Onlar ilxının yalnız az hissəsini qoşunun gəlib çatması qorxusu ucbatından apara bilməmiş və yarı yolda buraxmışdılar. [Əmir xanın adamları] yollarda qalmış həmin atları geri qaytarıb, Təbriz ətrafına gətirdilər.

Şirvan vilayətinin camaatının da başına [Səfəvilərə qarşı] yağı çıxmaq havası düşdü. Onlar keçmiş Şirvan sultanları nəslindən olan və qızılbaşların qorxusundan Dağıstanda, Çərkəzdə və o hüdudda başını itirmiş və var-dövlətsiz bir vəziyyətdə gəzib-dolaşan Bürhan oğlu Əbu-Bəkr mirzəni bu işə təhrik etdilər. Ləzgilərdən və Şirvan hərbçilərinin qalıqlarının nəslindən olan qarabörk tayfasından ibarət iki-üç min nəfər onun başına cəmləşib, vilayətin hüduduna soxuldular. Sözügedən [Əbu-Bəkr mirzə] Rum xondgarının hüzuruna adam göndərib, ondan kömək və imdad istədi ki, rumilərin yardımı ilə Şirvan məmləkətini ələ keçirərək, xondgarın vassalları silkinə daxil olsun. Şirvan əhalisindən də bir dəstə İstanbula gedib, [Osmanlılarla] həmməzhəb olduqlarını bildirərək, qızılbaşların zülm və istilasına qarşı kömək istədilər. Bu hadisələrin baş verməsi üzündən Rum valisi Sultan Murad öz ata-babasının əhdü-peymanını pozmağı rəva gördü. Necə ki bu beytdə deyilmişdir:

«Bir iqlim mülkünü tutarsa padşah,
Digər iqlimə də salacaq tamah».

O, Azərbaycan və Şirvan vilayətinin işğalını qarşısına ən birinci məqsəd kimi qoyub, «Lələ paşa» [adı] ilə tanınan öz lələsi Mustafa paşanı sayı təxminən

---

957 S-129, v.194a-b; S-297, v.152b.

958 Miyandüab - Cənubi Azərbaycanda. Marağadan cənubda yerləşən şəhər.

959 S-129, v.194b; S-297, v.152b. Mükri tayfası kürd mənşəlidir. Tehran çapında (s.232) mükri tayfası (taifeyi-mükri) əvəzinə «digər bir tayfa» (taifeyi-digan) yazılmışdır.

yüz min nəfərdən artıq olan güclü bir ordu ilə bu vilayətə göndərdi. O, həmçinin Cuci xan ibn Çingiz xanın nəslindən olan, Bağçasarayda[960] oturan, Cuci nəslindən olan yüz min ailəyə yaxın tatar tayfasına rəhbərlik edən və Rum sultanına məhəbbət və dostluq bəsləyən Dövlət Gərayın oğlu Məhəmməd Gəray xan Tatara[961] təklif etdi ki, tatar qoşununun çoxsaylı bir dəstəsi ilə Dəşti-Xəzər[962] yolundan Şirvan vilayətinə yürüş etsin. Qarətkar tatar qoşunları hər yanda şöhrət tapmış o diyarın mallarını talan etmək və yağmalamaq həvəsi ilə bu hökmü qəbul etdilər.

Bu xəbərlər darüssəltənə Qəzvində yayılıb, İsgəndər şanlı nəvvabın ərzinə çatdıqda əmirlər və dövlətin dayaqları («ərkani-dövlət») bunu məsləhət bildilər ki, əvvəlcə münaqişənin aradan qaldırılması məqsədi ilə xondgara dostluq üslubunda bir məktub göndərib, əhdü-peymanın pozulmasının və sərhəd hakimlərinin törətdikləri cürət və cəsarətlərin səbəblərini soruşub öyrənsinlər. Əmirlərin məsləhəti ilə Rum xondgarı həzrətlərinə bu tərəfdən riayət olunan və əməl edilən sülhün təməllərinin möhkəmləndirilməsi əsasında bir dostcasına məktub yazıldı. Məktubu Məhəmmədi xan Toxmağın mülazimi Vəli bəy Ustaclu ilə göndərdilər. Lakin [Osmanlıların] sərhəd hakimləri və paşaları onu saxlayıb, İstanbula getməyə qoymadılar.

Nəhayət, Lələ paşa Ərzurumdan keçib, Çuxursəəd və Ərzurum vilayətləri arasında yerləşən Qars vilayətinə gəldi. Cənnətməkan şahla Sultan Süleyman arasında bağlanmış sülhün şərtlərindən biri də bu idi ki, adı çəkilən ölkə (Qars) ortalıqda qalıb dağıdılsın və tərəflərdən heç biri oranı abad etməsin. Bu şərtə əsasən ora yetərincə xaraba vəziyyətə düşmüşdü. Lələ paşa əvvəlcə həmin ölkəni abadlaşdırmağa girişib, oranın qalasını təmir edərək, oraya kutval və haris təyin etdi. Daha sonra o, Gürcüstanın bölgələrindən olan və bu tərəfin (Səfəvilərin) sərhədi daxilində yerləşən Axısqa vilayətinə gəldi. Bu vilayət Simayun xanın kürəkəni olan Mənuçöhr xan Gürcünün ölkəsi idi[963]. O, rumilərə itaət etməkdən boyun qaçırıb, onlara qarşı çıxdı və öz qalasını möhkəmlədərək, özünü Simayun xanın yanına yetirdi. Lələ paşa onun qalasını mühasirəyə alıb, toplarla atəşə tutdu, qalanı zor və güc tətbiq etməklə ələ keçirdi və orada haris və yeniçərilər qoyub, Simayun xanın ölkəsinə yollandı.

---

[960] Bağçasaray - Krım yarımadasında şəhərdir və Krım xanlığının paytaxtı olmuşdur.

[961] Krım xanlığı Qızıl Orda dövlətindən 1443-cü ildə ayrılaraq, müstəqil xanlığa çevrilmiş, lakin 1475-ci ildə Osmanlı dövlətindən vassal asılılığına düşmüşdü. Burada adları çəkilən I Dövlət Gəray xan 1551-1577-ci illərdə, onun oğlu II Məhəmməd Gəray xan isə 1577-1584-cü illərdə Krım xanlığına başçılıq etmişlər.

[962] Dəşti-Xəzər - Şimali Qafqazın düzənlik hissəsi.

[963] Mənuçöhr xan Gürcü - əsl adı Manuçardır. Mesxi atabəyləri nəslindən idi. O, qardaşı V Kvarkvarenin (1573-1582) ölümündən sonra 1582-1614-cü illərdə II Manuçar adı ilə Mesxi atabəyi olmuşdu. Manuçar Kartli çarı Simonun qızı Yelena ilə evlənmişdi (Вахушти Багратиони. История царства грузинского. Перевел, снабдил предисловием, словарями и указателем Н.Т.Накашидзе. Тбилиси, 1976, с. 207-208).

Çuxursəəd bəylərbəyisi Məhəmmədi xan Ustaclu, Lələ paşanın gəlişi barədə həqiqəti ulu dərgaha çatdırdı. Səltənət mərkəzindən Əmir xanın, Məhəmmədi xan Toxmağın və Qarabağ bəylərbəyisi İmamqulu xanın adlarına itaət olunması vacib olan hökmlər yazıldı ki, Azərbaycan qoşunlarını toplasınlar, bir yerdə cəmləşsinlər və məsləhət bildikləri qayda ilə kütləvi surətdə düşmən qoşununun dəf edilməsini həyata keçirsinlər. Yenidən «kəngaş» məclisi quruldu və belə qərara alındı ki, Rum padşahı özü şəxsən yürüşə çıxmadığına görə onun sərdarının qarşısına qızılbaş padşahının getməsi hökmdarlıq rütbəsinə yaraşmaz və bu səbəbdən, qoy, Nəvvabi-Cahanbani Həmzə mirzə İraq, Fars və Kirman vilayətlərinin qoşunları ilə Azərbaycana hərəkət edərək, Azərbaycan qoşununa qoşulub, mühafizə və müdafiə üçün lazımi tədbirlər görsün. Adam göndərib, Azərbaycan əmirlərini adlı-sanlı şahzadənin və zəfər şüarlı əsgərlərin gəlişindən xəbərdar etdilər.

Lələ paşa Qars qalasını təmir etdirməklə məşğul olan vaxt Məhəmmədi xan Əmir xanın və İmamqulu xanın yanına adam göndərib, onlara bildirdi: «Düşmənlər Çuxursəəddən keçib getmək istədikləri üçün yaxşı olar ki, siz də bu hüduda gələsiniz, bir yerdə cəmləşərək, hər nə məsləhət olarsa, bir-birimizlə razılaşdırıb, həyata keçirək». Türkmanlarla ustaclular arasında ziddiyyət və narazılıq çox idi və Əmir xan o təbəqədən (ustaclulardan) ortalıqda bir vücud sahibinin sağ qalmamasını istəyirdi. Buna görə də o, getməyi təxirə salaraq, laqeydliyi və başdansovduluğu həddən aşırdı. İmamqulu xan Qarabağ qoşunu ilə Çuxursəəd vilayətinə gəlib, Çıldır gölü[964] yaxınlığında Məhəmmədi xanla birləşdi və onlar Əmir xanın gəlişinin intizarını çəkməyə başladılar. Lakin o gəlib çıxmadı. Lələ paşa Qars qalasının təmirini başa vurub, Axısqa qalasını fəth etdi və aydın oldu ki, o, Gürcüstanın içərilərinə irəliləyir. Buna görə də [Məhəmmədi xan və İmamqulu xan] onun yolunun üstünü kəsib, ona zərbə endirmək istədilər. Onlar öz lovğalıq və qürurlarının bolluğu ucbatından rumilərə qarşı müharibəni yüngül və asan iş hesab edib, sərəncamlarında olan on beş minlik Çuxursəəd və Qarabağ qoşunu ilə birlikdə döyüş əzmi ilə atlandılar.

Qızılbaş qoşununun yaxınlıqda olmasından xəbər tutan Lələ paşa hər gün paşalardan və mötəbər bəylərbəyilərdən birini sancaqbəyilərdən və sərhəd qoşunlarından ibarət on minlik qüvvə ilə qaravul kimi irəli göndərirdi. O, malik olduğu saysız-hesabsız qoşuna arxayın olduğu üçün qızılbaş qoşununa çox da əhəmiyyət vermirdi. Kürd əmirləri və bu tərəfdən [Səfəvilərə qarşı] yağı olub dönük çıxmış bir sıra şəxslər qızılbaş əmirlərinin arasında nifaq və ziddiyyətin mövcud olması və qızılbaşların bir-birləri ilə ittifaq etməmələri barədə məlumatları Lələ paşaya çatdırmışdılar.

---

[964] Çıldır gölü – Türkiyənin şimal-şərqində, Allahu-əkbər silsiləsindən şimal-şərqdə və Qars şəhərindən şimalda. Türkiyənin Gürcüstan və Ermənistanla sərhədləri yaxınlığında, Gölebakan şəhəri yanında göl. Burada haqqında bəhs olunan Çıldır vuruşması 5 cəmadiüs-sani 986-cı / 9 avqust 1578-ci ildə baş vermişdir (B.Kütükoğlu. Osmanlı - İran siyasi münasehetleri /1578-1612/. İstanbul, 1993, s.56).

Xülasə, qızılbaş qoşununun çərxçiləri rumilərin çərxçilərinə və qaravullarına çatan kimi sürətlə onların üzərinə çaparaq, elə ilk həmlədəcə onları geri oturtdular və rəqibin qaravulunun özəyinə soxuldular. Osmanlı dəstəsinin əsgərləri döyüş meydanından geri çəkilib, qaçış yoluna üz qoydular. Düşmənin basılması xəbəri böyük əmirlərin ordusunun mərkəz («qol») hissəsinə çatdı və mərkəz qoşununun da əksəriyyəti mərdanəlik göstərmək həvəsi ilə ehtiyatsızcasına öz igidlik atlarını döyüş meydanında cövlana gətirərək, özlərini düşmənlərə yetirib, çoxusu sərhəd kürdlərindən ibarət olan iki-üç min nəfəri canaları nizələrin zərbəsi ilə ölüm torpağına saldılar, bəzilərinin başlarını bədənlərindən ayırdılar, bəzilərinin isə əl-qolunu kəməndlə bağladılar. Qızılbaş qazilərindən kimlər ki özlərini döyüş meydanına yetirdilər, heç düşünmədən, ad-san qazanmaq və digərlərinin gözü önündə qeyrət göstərmək naminə düşmənlərin ardınca çapdılar. Qızılbaş qoşununun çox uzaqlaşdığından agah olan böyük əmirlər onlara bir xətər dəyə biləcəyindən ehtiyat edərək, özləri də əsgərlərin ardınca irəlilədilər.

Qızılbaş qoşununun igidliyi və Rum əsgərlərinin basılması haqqında xəbər [Osmanlı] padşahının lələsinə çatdıqda o, çox özündənrazılıq və tamam-kamal inadkarlıqla, əhvalına heç bir həyəcan yol tapmadan, paşaların və bəylərbəyilərin arasından bir neçə mötəbər sərdarı iyirmi-otuz min nəfərlə qızılbaş basqınını dəf etməyə göndərdi. Rumilər dəstə-dəstə, hissə-hissə, bölük-bölük öz ordularından çıxıb, döyüş meydanına yollandılar. Onların gözü qızılbaş ordusuna düşdükdə onlardan on min nəfərə yaxını eyni vaxtda atlarını irəli çapdılar və əmirlərdən iki-üç fərsəx uzaqlaşmış qızılbaş ordusuna çəkinmədən hücum etdilər. Nizamsız və pərakəndə surətdə irəliləyən [qızılbaşlar] düşmən ordusunun hücumu müqabilində durmağa tab gətirməyib, geri qayıtmaq yolunu tutdular. Qızılbaşların atları çoxlu yol gedib yorulduğundan onların çoxusu qaçaqaç zamanı arxada qaldılar. Hər kəsin ki yanında əsiri vardı, onu buraxıb, öz canını qurtarmaq üçün qaçırdı. Beləliklə, qızılbaş ordusuna böyük bir məğlubiyyət üz verdi. Rumilər öz yorulmamış atları ilə gəlib onlara çatdılar. Qızılbaş qoşunundan bir çoxları o vuruşmada həlak torpağı üzərinə düşdülər və onlardan min nəfərə qədəri qətlə yetirildi. Bu ölənlərin əksəriyyəti Məhəmmədi xanın adamları və Çuxursəəd qoşununun əsgərləri idilər.

[Qızılbaş] qoşununu məğlub edən [rumilər] özlərini əmirlərə yetirdilər. Əmirlərin dəstəsinin nizamı pozulduğundan və ordunun səfi viran olduğundan onlar toparlanmağa fürsət tapmayaraq, yüyənlərini döyüşdən döndərib, məğlub və pərişan bir halda öz ordugahlarına çatdılar. Məhəmmədi xanın ordusundakı zərərçəkmişlərin naləsi və fəryadı asimana yüksəlirdi.

Qızılbaş əmirlərinin Rum qoşunu qarşısında müdafiə olunmaq barədə yol verdikləri birinci səhv bu idi ki, onlar bir-birlərinə qarşı inadkarlıq və nifaq bəsləyirdilər, bir-birlərinə itaət etmirdilər və öz aralarında birləşməyin, ittifaq etməyin qeydinə qalmadan, on-on beş min nəfərlə yüz min rumiyə qarşı müharibə etmək fikrinə düşmüşdülər. Bu isə Lələ paşanın ad-sanının ucalmasına və qızılbaşların itkilər verməsinə səbəb oldu. Əgər qızılbaş əmirləri ittifaq etsəydilər

və bir-birlərinə itaət göstərsəydilər, Azərbaycanın və Şirvanın ümumi sayı əlli min nəfərdən çox olan qoşunları birləşsəydilər və Gürcüstan sultanları da onlara qoşulsaydılar, onda Lələ paşanın o vilayətə gəlişi çox çətin olardı. Lakin əmirlərin ittifaqsızlığı və oymaqların inadkarlığı və tədbirsizliyi üzündən həm məmləkət əldən çıxdı, həm mötəbər qızılbaş sərdarları tədricən qətlə yetirildilər, həm də Azərbaycan ordusu zay və məhv oldu, onların illərlə toplanmış malları və əşyaları qarət və tarac olunmağa məruz qaldı.

Xülasə, [qızılbaşların] Çıldır vuruşmasındakı məğlubiyyətindən sonra Lələ paşa Axısqa qalasını həmin iki-üç gün içərisində fəth edib, orada azuqə və qoşun qoyaraq, həmin yolla Simayun xanın ölkəsinə doğru irəlilədi. Məhəmmədi xan öz ölkəsində qaldı, İmamqulu xanla Qarabağ qoşunu isə ondan ayrılıb, öz yerlərinə qayıtdılar. Lələ paşa adam göndərib, Gürcüstan sultanları olan Simayun xanı və Aleksandr xanı Rum xondgarına itaət və tabeçilik göstərməyə dəvət etdi. Onların da öz aralarında nifaq vardı və bir-birləri ilə ittifaqa malik deyildilər. Simayun xan açıq-aydın bir şəkildə bu [Səfəvi] sülaləsinə itaətini möhkəmlədib, rumilərə düşmən olduğunu izhar etdi və dağ keçidlərində özünün gürcü dəstələri ilə düşmən qoşununun yolunu kəsib, onlara qarşı güclü həmlələr etdi. Amma Aleksandr xan öz aqibətini düşünən hiyləgər bir adam idi. O, öz vəziyyətinin xeyrini güdüb, rumilərlə anlaşdı. O, Lələ paşanın ordusuna peşkəşlər göndərib, öz tabeçiliyini izhar etdi. Bu hadisə Lələ paşanın könlünü rahatlatdı. O, Gürcüstan çətinliyini yüngül və asan qət edib, Tiflis qalasına çatdı. Bu qala möhkəmliyinə və istehkamına görə fələklərin fələyi ilə bərabərlik iddiası edirdi və cənnətməkan şahın zamanında Simayun xanın qardaşı Davud xanın ixtiyarında idi. Rum qoşunu o hüduda gəldikdə Davud xan qardaşı ilə arasında olan ziddiyyət səbəbindən qardaşına heç bir köməklik və yardım göstərməyərək, qalanı müdafiə etməkdən vaz keçib, qaladan çıxdı və o qala asanlıqla rumilərin ixtiyarına keçdi. Onlar oraya kutval və haris təyin etdilər, həmçinin Gürcüstan hakimlərinin paytaxtı olan Qoridə bir qala düzəldib, oradan Şirvana yollandılar.

Aleksandr xanın Şəkidə olan qardaşı Əli xan Gürcü orada qalmağa qüdrət tapmayıb, özünü bir guşəyə çəkdi. Lələ paşa rahat bir şəkildə Şirvana çatdı və Dağıstan hakimləri ilə ləzgi camaatı ümumən ona tabeçilik göstərdilər. Rəiyyət qızılbaşlara qarşı üsyan və tüğyan qaldırdı. Şirvan bəylərbəyisi Araz xan Rumlu ağıllı və tədbirli bir kişi idi. O, Rum qoşununa müqavimət göstərməyin və rəiyyət üsyanı şəraitində bir qalaya sığınıb müdafiə olunmağın öz qüdrəti və qüvvəti çərçivəsinə sığmadığını görüb, ailəsi və tabeçiləri ilə birlikdə Şirvandan çıxaraq, Kür çayı kənarında düşərgə saldı. Şirvan məmləkəti rumilərin əlinə keçdi. Lələ paşa Osman paşanı Şirvan bəylərbəyisi təyin etdi, Qaytas paşanı Ərəşdə qoydu, Şirvan vilayətlərinin hər birinə hakim təyin etdi və Şamaxı, Ərəş və Badikubə qalalarını möhkəmləndirdikdən sonra geri qayıtmaq təbilini səsləndirdi. O, getməzdən öncə Şirvan hakimi olmaq və Rum xondgarına bac-xərac vermək arzusuna düşən Bürhan oğlu Əbu-Bəkr mirzəni Şirvanı zəbt etməkdə rumilərə

köməklik göstərmək üçün Şirvanda qoydu və ona təsəlli verərək bildirdi ki, xondgarın hüzuruna gedib, onun Şirvan hakimi təyin olunmasını təmin edəcəkdir.

Rumilər geri qayıdarkən Qarabağ bəylərbəyisi İmamqulu xan Simayun xanla birlikdə Gürcüstanın meşələrində və cəngəlliklərində özlərini dəfələrlə qabaqdan və arxadan rumilərə yetirdilər, fürsət tapdıqca onlara basqınlar etdilər və çoxlu qənimətlər ələ keçirdilər.

Bütün bu yürüş ərzində iyirmi min nəfərə yaxın ruminin məhv olmasına və yox edilməsinə baxmayaraq, Lələ paşa saysız-hesabsız qoşunla gəldiyi üçün bu itkilər onun əhvalına əsla üzücü təsir göstərmədi, O, müzəffər və qalib bir şəkildə geri qayıtdı.

Təbriz bəylərbəyisi Əmir xan on min nəfərlə birlikdə Məhəmmədi xan Toxmağa kömək etmək məqsədi ilə Təbrizdən çıxmışdı. Lakin Məhəmmədi xan Toxmağın məğlubiyyəti və Lələ paşanın Gürcüstan və Şirvan tərəfə keçməsi xəbəri gəldikdən sonra o, Çuxursəədə getməkdən vaz keçib, yüyənini döndərərək, Qarabağa yollandı. Orada İmamqulu xan Qarabağ qoşunu ilə ona qoşuldu. Onlar birlikdə Kür çayını keçib, Qabırrı çayı sahilində, Gürcüstanın bölgələrindən birində rumilərə çatdılar. Onlar bir dəfə fürsət tapıb, ərzaq əldə etmək üçün öz ordularını tərk etmiş dörd-beş min nəfərə qədər ruminin üzərinə həmlə etdilər və görkəmli bir döyüş göstərdilər. Qızılbaşlar rumilərin qoşunundan iki min nəfəri qətlə yetirib, bolluca mallar və əşyalar ələ keçirdilər. Bir sıra rumi əmirləri əsir düşdülər. Əmir xan bu basqından təsəlli tapdı. O istədi ki, geri qayıdaraq, Qarabağda düşərgə salsın və orada qışlaq edərək, bu tərəfə doğru hərəkətə başlamış adlı-sanlı xoşbəxt şahzadənin, yəni Nəvvabi-Cahanbaninin, qalibiyyətli əmirlərin və əsgərlərin gəlişini gözləsin. Lakin Əmir xanın oğlu Sultan Murad xanın başçılıq etdiyi qızılbaş cahillərindən və dava axtaranlarından ibarət bir dəstə yeni basqın həyata keçirmək həvəsinə düşdü. Onlar Qabırrı çayını keçib, döyüş nizamı tutdular. Qızılbaşlara qarşı müharibədə cəsarətlənmiş rumilər heç düşünmədən Qabırrı çayının bu tərəfinə adlayaraq, [Sultan Murad xanın] dəstəsinin arxasına keçdilər. Bununla da onlar qızılbaş qoşununun iki-üç min nəfərini mühasirəyə aldılar və zəfər nişanələrini zühura gətirərək qalib gəldilər. Nəticədə, Əmir xanın və digər əmirlərin qoşunundan iki-üç min nəfərə qədər adam bu vuruşmada qətlə yetirildilər və əsirə çevrildilər. Əmir xan bu məğlubiyyətdən sonra döyüş əməliyyatlarını davam etdirməyi sərfəli və münasib hesab etməyərək, öz vəziyyətinə uyğun gələn ən doğru çıxış yolu kimi geri qayıtmağı qərara alıb, Təbrizə döndü. Beləliklə, Lələ paşa öz məramına nail olaraq, o səfərdən geri qayıtdı və Ərzuruma çatıb, orada qışlaq etdi.

## ZƏFƏR BAYRAQLI ŞAHZADƏ HƏMZƏ MİRZƏNİN VƏ ƏMİRLƏRİN QARABAĞ VƏ ŞİRVAN TƏRƏFƏ HƏRƏKƏT ETMƏLƏRİ VƏ TANRININ KÖMƏYİ VƏ QAYĞISI SAYƏSİNDƏ ORADAN MÜZƏFFƏRCƏSİNƏ VƏ QALİBCƏSİNƏ QAYITMALARI HAQQINDA

Elə ki rumilərin əhdü-peymanı pozması və Rum xondgarı Sultan Muradın Azərbaycana və Şirvana qoşun göndərməsi xəbəri darüssəltənə Qəzvində bəlli oldu və Nəvvabi-Cahanbani Sultan Həmzə mirzənin Azərbaycana gedəcəyi qətiləşdi, əmirlər və dövlət ərkanı kama yetmiş şahzadənin müqəddəs üzəngisinin həndəvərində, uğurlu bir saatda səltənət mərkəzindən hərəkətə başlayıb, Azərbaycana doğru yollandılar. Məryəm şöhrətli Xanım Məhdi-Ülya öz möhtərəm oğlundan ayrı düşməyi özü üçün çətin bilib, bu səfər zamanı xilafət sülaləsinin göz bəbəyi [olan Həmzə mirzəyə] yoldaşlıq etməyi qərara aldı. İtaət etmək barədə qüdrətli qoşunlara hökmlər yazılıb, dövlət ərazisinin ətraflarına və ucqarlarına göndərildi. Şahzadənin ali məiyyəti Gərmrud Miyanəcinədək[965] məsafələri yavaş-yavaş qət edib, bir neçə gün Miyanəc çəmənində qoşun toplanması üçün düşərgə salaraq, orada qaldı. Onlar orada olarkən yuxarıda bəhs olunmuş Gürcüstan və Şirvan hadisələri barədə məlumat aldılar. Məşvərət və məsləhətdən sonra dövlətin yaxşılığını istəyənlər Qarabağ tərəfə yollanmağı daha düzgün və daha doğru hesab etdilər. Ali məiyyət o tərəfə doğru hərəkətə başladı. Bəxtiyarlıq və səadətlə darülirşad Ərdəbilə çatıb, övliyalar sultanı olan həzrətin mələikələrin sığınacaq tapdıqları məqbərəsini ziyarət etdikdən sonra onlar Şirvan üzərinə getməyi və o vilayəti düşmənlərin əlindən xilas etməyi qarşılarına məqsəd qoydular. [Sultan Həmzə mirzə] Allahın cənnət bəxş etdiyi Səfəvi nəslinin kəramətli şeyxlərinin müqəddəs ruhlarından imdad diləyib, Qarabağa yollandı və o vilayətin ərazisi izzət və cəlala büründü.

Qərara alındı ki, zəfər bayraqlı şahzadənin və Xanım Məhdi-Ülyanın ulu ordugahı Qızılağacda qurulsun, qalibiyyətli əmirlər və əsgərlər isə vəzir Mirzə Salmanla birlikdə Kür çayını keçib, Şirvana getsinlər. Kama yetmiş şahzadənin və zəfər şüarlı əsgərlərin yaxınlıqda olması xəbəri Araz xana və Şirvan əmirlərinə çatdıqda onlar rumilərlə müharibə etmədən məmləkətdən əl çəkdikləri üçün divan adamlarının və qızılbaş tayfalarının danlaq hədəfinə çevriləcəklərindən ehtiyat edərək, şahzadənin ali məiyyətinin gəlib çatmasından öncə Şamaxı üzərinə gedib, qalanı mühasirə etməyi qərara aldılar. Onlar bu işi uğurlu başa vuracaqları halda, təqsirlərini yuyub alnıaçıqlıq əldə edəcəklərini düşünürdülər. Bu səbəbdən öz ordularını çayın o biri tərəfinə keçirdilər və səba küləyi kimi [sürətli] bir qoşunla Şamaxıya yollandılar.

Rumlu tayfası neçə-neçə illər ərzində Şirvanda rahatlıq və rifah içində yaşayıb, çoxlu var-dövlət toplamışdı. Buna görə də o tayfaya zəmanənin bəd nəzəri

---

[965] Orta əsrlərdə Cənubi Azərbaycanın Miyanə (Miyanəc) şəhəri ətrafındakı bölgə Gərmrud adlanırdı.

dəydi və gedənlərin əksəri qətlə yetirildilər. Onların topladıqları saysız-hesabsız mallar isə tarac olundu. Bu mövzunun təfərrüatı belədir ki, yuxarıda bəyan qələmi ilə qeyd olunduğu kimi, Rum padşahı Sultan Murad xan, Tatar ulusunun padşahı Məhəmməd Gəray xan ibn Dövlət Gəray xana tatar qoşununun bir dəstəsi ilə Dərbənd yolundan qızılbaşlar üzərinə getməyi təklif etmişdi. O da öz növbəsində qardaşı Adil Gərayı qeyri-məhdud və saya-hesaba gəlməyən tatar qoşununun qaranlıq gecədə qarışqaları öz ilan əmləlli oxları ilə bir-birinə tikə biləcək qədər məharətli olan iyirmi min əsgəri ilə rumilərə kömək etmək üçün sözügedən vilayətə göndərdi. Adil Gəray rumilərə yardım və kömək göstərmək üçün kəmər bağlayıb, Şirvan vilayətinə qədəm qoydu. Xülasə, Araz xan və Şirvan əmirləri də müharibə ahəngini kökləyib, igidlik və mərdlik nümunələri göstərməkdə idilər ki, tatar qoşununun ön dəstəsi görünərək, dağı və çölü bürüdü. Bu halı müşahidə edən qızılbaş qaziləri iztirab dənizinə qərq oldular. Əmirlərdən bəziləri geri qayıtmağı və döyüşə-döyüşə özlərini dal-dalanacaq bir yerə çatdırmağı məsləhət gördülər. Lakin Araz xan fərar etmək ayıbını özünə sığışdıra bilmədi. Həmçinin buna heç fürsət də olmadı. Onlar ürəklərini ölümə qoyub, döyüş dəryasına atıldılar. Bir tərəfdən Rum qoşunu, bir tərəfdən tatar qoşunu, digər bir tərəfdən isə ləzgilər, qarabörklər və şirvanlı qiyamçılar qızılbaşları mühasirəyə aldılar. Araz xan və qoşunun əksər əmirləri və əyanları ayaqlarını yerə möhkəm dirəyib, bu dövlətin yolunda canlarını mərdliklə qurban verdilər. Araz xan və bir çoxları əsir düşüb öldürüldülər. Bəzi digərləri isə döyüş meydanında çətin həzm olunan həlak şərbətini içdilər. Qılıncdan qurtulanlar yarımcan halda, yüz fəlakətlə aradan çıxıb, Araz xanın ordugahınadək yüyənlərini geri çəkmədilər.

Bu hadisədən sonra Osman paşa Şamaxı qalasına qayıtdı. Adil Gəray xan və Bürhanın oğlu Əbu-Bəkr mirzə isə Araz xanın ordugahını yağmalamaq məqsədi ilə Kür çayının kənarına gəldilər. Vuruşmadan sağ çıxıb öz ordugahlarına çatmış Ərdoğdu xəlifə Təkəlü, bəzi əmirlər və Araz xanın oğulları vəziyyət barədə həqiqətləri Nəvvabi-Cahanbaniyə, Mirzə Salmana və Qarabağa gəlmiş əmirlərə çatdırdılar. Qərargahdan hökm olundu ki, Talış əmirləri və o hüdudda olan dəstələr Araz xanın ordugahına getsinlər, Kür çayı kənarından xəbərdar olub, ordugahı mühafizə etsinlər və bilsinlər ki, qalibiyyətli əsgərlər düşmənlərin dəf edilməsi üçün Şirvana gəlməkdədirlər. Onlar göstərişə uyğun olaraq, bir neçə gün oranı qorumaqla məşğul oldular və Cavad körpüsünü qızılbaş yaralılarının keçidi üçün qoruyub, çay kənarını nəzarət altında saxladılar. Elə bu zaman tatar və ləzgi qoşununun gəlməsi xəbəri çatdı. Əmirlər toplanıb, müdafiə olunmaq üçün çay kənarına getdilər və körpünü kəsdilər. Çayın kənarına çatıb körpünü kəsilmiş görən yağılardan bir dəstəsi heç düşünmədən özlərini suya vurdular və çayı keçib, qızılbaşlara qarşı döyüşə girdilər. Qazilər dərhal müdafiə olunmağa başladılar. Döyüş və vuruş əsnasında bəlli oldu ki, düşmənlərin digər bir dəstəsi də şirvanlı qiyamçıların bələdçiliyi ilə yaxınlıqdakı bir yerdən çayı keçib, [qızılbaş] qoşununun arxasından gəlirlər. Buna görə də qızılbaş qoşunu pərən-pərən düşdü və

hərə öz başının hayında qaldı. Döyüş meydanından qaçanların bir dəstəsi Araz xanın və əmirlərin ordugahına çatıb, həqiqi vəziyyət barədə xəbərləri oradakılara çatdırdılar. Həmin camaatın arasında məhşər gününün əlamətləri peyda oldu. Ordugahdakı adamlar matəmə qərq olmuş və pərişan vəziyyətə düşmüş bir halda, qorxu və iztirab içində özlərini etibarlı bir yerə çatdırmaq üçün köç etməyə başladılar. Lakin hələ ordugah adamlarından bəziləri öz yüklərini tutmamış, ləzgi və tatar qoşununun ön dəstəsi göründü. Ordugahdakı adamlar pərən-pərən düşdülər. Qadınlar və qızlar əsir alındı, mallar və əşyalar tarac edildi. Hər bir tatarın əlinə bir qatar yük düşdü. İllər boyu toplanmış saysız var-dövlət düşmənlərin əlinə keçdi.

Xülasə, Adil Gəray xanla tatar və ləzgi qoşunu bolluca qənimət əldə etdilər və elə həmin gün geri dönüb, Şirvana getdilər. Amma bu zaman Mirzə Salman və böyük əmirlər Qarabağın Qarakütəl[966] mövqeyindən sürətlə hərəkət edərək, Qoyun-ölümü keçidindən Kür çayını adlayıb, Şamaxı qalasını mühasirə etdilər. Elə bu əsnada onlar tatar qoşununun fəaliyyətindən və Araz xanın ordugahının qarət edilməsindən xəbər tutdular və tatar qoşununun şər əməllərinin dəf olunmasını qarşıya ən mühüm məqsəd qoydular Qüdrətli qoşunların bir hissəsi bəzi əmirlərlə birlikdə [Şamaxı ətrafında] qaldılar, Mirzə Salman, qorçubaşı, Şahrux xan Möhürdar Məhəmməd xan Türkman, Pirə Məhəmməd xan Ustaclu, Durmuş xanın nəvəsi Sultan Hüseyn xan, Vəli xəlifə Şamlu, Müseyib xan Şərəfəddinoğlu Təkəlü, İmamqulu xan Qacar, Abdulla xan Ustaclunun oğlu Əmir Həmzə xan və s. adlı-sanlı əmirlər isə tatar qoşunu ilə döyüşməyə yollandılar. Adil Gəray xan və qardaşları qızılbaşların gəlişindən, Şamaxının mühasirəsindən və onların qoşunlarının keyfiyyət və kəmiyyətindən xəbər tutduqda qızılbaşlara qarşı döyüşdə cəsarət tapdıqları üçün onları hesaba almadılar və qorxusuz-hürküsüz bir şəkildə Osman paşaya kömək etmək üçün Şamaxıya tərəf yollandılar. Ağsu [çayı] kənarındakı[967] Molla-Həsən adlı yerdə iki qoşun üz-üzə gəldi. Adil Gəray xan yanında olan on iki min tatar və dörd-beş min ləzgi, qarabörk və şirvanlı ilə birlikdə igidcəsinə öz qətiyyət və qərarlılıq ayağını möhkəmlədib, müzəffər [qızılbaş] ordusunun bərabərində səf çəkdi. Bu tərəfdən də qalibiyyətli ordunun çərxçisi olan Əmir Həmzə xan Ustaclu bəzi ustaclu və s. tayfaların əmirləri ilə birlikdə irəli getdi. Hər iki tərəf silaha əl atdı. Öldürülənlərin qanlarından döyüş meydanı sanki laləzara döndü. Şamaxı ətrafında qoyulmuş bəzi əmirlər də tatar qoşununa qarşı müharibə aparmağı mərdlik baxımından daha önəmli hesab edib, böyük əmirlərin icazəsi olmadan, ad-san qazanmaqdan ötrü döyüş əzmi ilə qoşuna qatılıb, savaş meydanında hazır olmuşdular.

---

[966] Kütəl - əski türkcə gədik, təpə deməkdir. H.H.Zərinəzadə Qarakütəl adlı yerin Qarabağdakı dağ keçidlərindən birinin adı ola biləcəyini ehtimal edir (H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, s.372-373).

[967] S-129, v.199b; B-589, v.18b.

***Tatarların məğlubiyyətə uğraması və Adil Gəray xanın əsir düşməsi.*** Qızılbaş ordusunun dalbadal həmlələrinə baxmayaraq, tatar qoşunu öz yerində möhkəm durub, sübhün başlanğıcından günün axırınadək döyüşdü və cəsurluq, mərdik nümayiş etdirdi. Lakin axırda tatarlar döyüşü davam etdirməyə aciz qaldılar. Bu zaman Adil Gəray xan tatar qoşununda zəiflik və düşkünlük əlamətləri müşahidə edib, öz qoşununun dilavərlərini savaşa və döyüşə həvəsləndirdi və özü şəxsən igidlik ayağını mübarizə meydanına qoydu. Tatar qoşunundan çoxları piyada olub ox atmağa başladılar və [qızılbaşları] ox yağışına tutdular[968]. Müzəffər ordunun tərkibində olan Baba xəlifə Qaramanlu[969] döyüş və vuruş əsnasında özünü Adil Gəray xana yetirərək, onu canalan nizənin zərbəsi ilə yıxıb torpağa saldı. O, (yəni Adil Gəray) öz adını və kim olduğunu söylədi, lovğalıq və qüruru üzündən heç vaxt təsəvvür etmədiyi, bəlkə, adına belə gətirmədiyi bir vəziyyəti müşahidə etdi və başını dustaqlıq və əsirlik çənbərinə salmaq məcburiyyətində qaldı. Tatar tayfası məğlub və pərişan halda fərarilik vadisinə doğru qaçmağa üz qoydu. «Onları tutduğunuz yerdə öldürün» [ayəsinə][970] müvafiq olaraq, əzəmətli qazilər o tayfanın əksəriyyətinin ömür xırmanını ildırım kimi qılınc və nizələrin şöləsi ilə yandırıb-yaxdılar. Lakin Səadət Gəray və Əsgəri Gəray aradan çıxa bildilər[971]. Qılıncdan qurtulanların əksəriyyəti o əraziyə bələd olan ləzgilər və şirvanlılar idilər. Onlar dağlara və meşələrə səpələndilər.

Fəth və zəfər yeli qalibiyyətli bayraqları dalğalandırdı. Əsgərlərin gözləri tatarların qarət etdikləri yüklərə düşdükdə onlar düşməni təqib etməkdən əl çəkib, hərbçilərə xas olan tamahkarlıqla qarət olunmuş malların üstünə hücum çəkdilər. Tatarların Araz xanın ordugahından ələ keçirib mənimsədikləri mallar, əşyalar, əsirlər və əksər dəvə qatarları qazilər tərəfindən geri alındı. Malların sahibi mövcud olmadığı üçün onlar qazilər tərəfindən bölüşdürüldülər. Mirzə Salman və əmirlər bu aşkar qələbədən sonra Şamaxıya sarı üz tutdular. Tatarların məğlubiyyətindən və Adil Gərayın əsir düşməsindən xəbər tutan Osman paşa yardımdan və köməkdən ümidsiz qaldı. O, orada dayanmağı lazım bilməyib, fərar etməkdən başqa çarə görmədi və Şamaxı qalasını başlı-başına buraxıb, Dərbənd səmtinə getdi. Böyük əmirlərin bir qisminə onu təqib etmək tapşırığı verildi. Onlar Şabranadək getdilər və onun topxanasından və yaraqlarından bəzilərini ələ keçirib geri qayıtdılar. Osman paşa özünü Dərbənd qalasına çatdıraraq, Dağıstan və ləzgi camaatının himayəsi ilə orada qaldı.

Əmirlər qələbənin qazanılması və Adil Gərayın əsir alınması xəbərləri barədə bir ərizə hazırlayıb, Nəvvabi-Cahanbaninin və Məhdi-Ülyanın hüzuruna

---

968 S-129, v.199b-200a; S-297, v.157a.

969 Bu şəxsin soyadı Tehran çapında (s.238) və B-589 (v,18b) nüsxəsində Danqaralu, S-129 əlyazmasında isə Zalqaralu deyə yanlış formada yazılmışdır. Əslində isə onun adı Baba xəlilə Qaramanlu olmalıdır (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.161).

970 «Qurani-Kərim», «Nisa» surəsi, 89-cu ayə.

971 Burada və bundan əvvəlki cümlədə kursivlə verilmiş parçalar aşağıdakı əlyazmalardandır: S-129, v.200a; S-297, v.l57a. Bu döyüş 28 ramazan 986 / 28 noyabr 1578-ci ildə baş vermişdir.

göndərdilər. Bu xəbərlərin gəlib çatması ilə ordugahda şadlıq nağaraları çalındı və Adil Gəray xanı ordugaha gətirmək üçün bir neçə min qorçu göndərildi. Həmçinin göstəriş verildi ki, əmirlər Osman paşanın darmadağın edilməsi və Dərbənd qalasının fəth olunması üçün hərəkətə başlasınlar. Amma Mirzə Salman və əmirlər Xanım Məhdi-Ülyanın məsləhətinin əksinə olaraq, bir dəstəni Şirvanda qoyaraq, özləri ilə Adil Gərayı da götürüb, Qarabağa gəldilər və Nəvvabi-Cahanbaninin hüzuruna gəlmək izzətinə və şərəfinə nail oldular.

Ağıllı və tədbirli şəxslər məsləhət bildilər ki, tatarların hakim sülaləsi ilə dostluq münasibəti yaradıb, tatar təbəqəsinə təltif və yaxşılıq etməklə onları Rum qoşununa yardım göstərməkdən çəkindirmək və bununla da Şirvan vilayətini onların təcavüzkarlığından xilas etmək lazımdır. Bu fikir həm sadə adamların, həm də əyan-əşrəflərin xoşuna gəldi. Adil Gəray xana izzət və ehtiram göstərildi və tatar tayfasının əsirlərindən bir neçə nəfəri azad olunaraq, onun mülazimləri təyin edildilər. Həmçinin qorçulardan ibarət bir dəstə də onu qorumağa və xidmətində durmağa məmur edildi. Əmirlər belə məsləhət gördülər ki, Şirvan əyaləti Həmzə xana həvalə olunsun. Lakin Xanım Məhdi-Ülya, özbaşına hərəkət edərək Dərbəndə getməyib geri qayıtmış olan əmirlərdən incimişdi. Buna görə də o, onların bu barədə məsləhətini nəzərə almayıb, İsgəndər şanlı nəvvabın bu haqda əmr və göstərişinin olmasını zəruri hesab etdiyini bildirdi. Bununla da ədəbsiz və dikbaş əmirlərlə Xanım Məhdi-Ülya arasında hər məsələ üstündə bir az söz-söhbət baş qaldırdı. Bu xoşagəlməz qalmaqal ona səbəb oldu ki, Xanım Məhdi-Ülya Azərbaycanda qalmayıb, geri qayıtmaq qərarına gəldi və heç kimin qüdrəti çatmadı ki, bu vaxtsız hərəkətə mane ola bilsin. Həmin zaman qışın oğlan çağı və soyuğun şiddətli dövrü idi. Dey ayının[972] şaxtasının qorxusundan dağlar və çöllər qaqum[973] kürkünə bənzər qar örtüyünü üzərlərinə çəkib, sincab dərisindən hazırlanmış külaha oxşayan buludları başlarına qoymuşdular. Ordubehişt gülzarının arzusundan, buludun gözündən civə yaşları gecə və gündüz axırdı. Onlar məhz belə bir məqamda bir aya qət olunması mümkün olan həmin uzaq məsafəni on dörd gün ərzində keçib, on beşinci gün darüssəltənə Qəzvinə daxil oldular. Böyük əmirlər o ədəbsiz söz-söhbətin xəcaləti üzündən Məhdi-Ülyadan və zəfər sahibi olan şahzadənin müqəddəs üzəngisindən aralanmadan Qəzvinə çatdılar və İsgəndər şanlı nəvvabın astanasını öpməyə nail oldular. Adil Gəray xana mübarək dövlətxananın divanxana hissəsindəki mənzillərdə yer verildi. Qorçulardan bir neçə nəfərə tapşırıldı ki, onun xidmətində keşik çəksinlər. Onunla mülazimlərinin geyimdən, içməkdən və yeməkdən ibarət ehtiyacları layiqli vəsaitlər əsasında sərəncam edildi və qərara alındı ki, o, öz adından qardaşı Məhəmməd Gəray xanın və anasının yanına adam göndərərək, salamat olduğunu, ona göstərilən hörmət və ehtiramı onlara bildirsin. O, bu məqsədlə etimad bəslədiyi mülazimlərindən on

[972] Dey ayı - İran günəş təqviminə əsasən, 22 dekabr-20 yanvar tarixlərini əhatə edən aydır.
[973] Qaqum - çox qiymətli ağ xəzi olan və şimalda yaşayan heyvan, sincabın bir növü.

nəfəri yolladı. Kama yetmiş şərəfli hökmdar da öz tərəfindən qorçularından birini bir dostyana məktubla oraya (Baxçasaraya) göndərdi.

İsgəndər şanlı nəvvab Şirvan əyalətini cənnətməkan şahın zamanında Astarabad hakimi olmuş, lakin həmin ərəfədə yaka-türkmənlərinin iğtişaşı və tüğyanı ucbatından Astarabadda qalmağa macal tapmayaraq Qəzvinə gəlmiş Məhəmməd xəlifə Hacılar Zülqədərə həvalə etdi və digər mahalları da əmirlər arasında bölüşdürüb, onları oraya yolladı. Məhəmməd xəlifə və əmirlər Şirvana getdilər və hər biri öz ölkəsində qərar tutdu.

**[Misra]**

«Əgər fələk qoysa, qərar tutarlar».

Amma Adil Gəray xanın əhvalatı belə oldu ki, o, bir müddət dövlətxanada qaldıqdan sonra əmirlərin və dövlət ərkanının onun barəsindəki rəyləri dəyişdi. Onlar qərara gəldilər ki, onu dövlətxanadan çıxarıb, başqa bir yerdə yerləşdirsinlər və ya rəğbət doğuran mənzillərə malik olan qalalardan birinə göndərsinlər. Onlar bu fikri belə əsaslandırırdılar ki, qarşıda ordunun Azərbaycana yürüş edəcəyi gözlənilir, bu yürüş zamanı onu yanımızda gəzdirmək münasib deyildir və buna görə də onu saraydan çıxarıb digər bir yerə göndərmək lazımdır ki, gedib orada rahatlıqla yaşasın. Lakin İsgəndər şanlı nəvvab buyurdu:

- Cənnətməkan şah hətta özgə dindən olan gürcü Simayunu, onun tabeçiləri olan gürcülərin könlünü almaqdan ötrü, bir müddət dövlətxanada saxlatdırmış və ona ehtiram göstərmişdi. Bir halda ki, biz əvvəldən tatar padşahzadəsi ilə izzət və hörmətlə rəftar etmişik, indi onu, hər nə qədər yaxşı məkan olmasından asılı olmayaraq, hansısa bir qalaya göndərmək bədnamlıqdır və bizə yaraşan iş deyildir. Hələlik, yürüş vaxtınadək əvvəlki kimi dövlətxanada qalsın. Ondan sonra hər nə məsləhət olarsa, əməl ediləcəkdir. Əslində, onun dövlətxana daxilində olmağı, adi insan libasında məhbusluq və dustaqlıq kimi bir şeydir. Çünki onun gəzmək və ata minmək ixtiyarı yoxdur. Qorçulardan ibarət bir dəstə gecə-gündüz onun mühafizəsi ilə məşğuldur.

Böyük əmirlər bu tövsiyəyə əməl etməyib, [Adil Gərayı] mənzildən bayıra çıxarmaq üçün bir dəstə göndərdilər. Qızılbaşların nə üçün gəldiklərini anlamayan tatar xanı başqa bir xəyala düşüb, yanında olan bir neçə nəfər tatarla birlikdə tərslik etdilər. Yanlarında ox və yay olduğundan onlar döyüşməyə başlayıb, iki-üç nəfəri oxla vurdular və söz deməyə, danışmağa macal verməyərək, vuruşmadan əl çəkmədilər. Bu tərəfdən də cahillər və avaralar hücum çəkib, onların şər əməllərini dəf etməyə başladılar. Tatarlar cəhalət və azğınlığı həddən aşırıb, bir neçə nəfəri ox yarası ilə yerə sərdilər. Bayırdakılar da onlara ox və tüfəng atmağa başladılar. Bu arada tatar xanı bir yara alıb qətlə yetirildi. O, qətlə yetirildikdən sonra onun yanında olan digərləri də sağ buraxılmadılar. Bu hadisə təsadüfən üz verdi.

Sözügedən əhvalat əmirlərin Mazandarandan qayıtmasından sonra baş versə də, Şirvan səfəri hadisələri ilə əlaqədar olduğu üçün burada təqdim olundu.

## DÖVRAN MƏLİKƏSİNİN İSTƏYİ VƏ RAZILIĞI İLƏ MAZANDARAN ÜZƏRİNƏ QOŞUN GÖNDƏRİLMƏSİ VƏ O BEHİŞT NİŞANƏLİ DİYARIN VALİSİ OLAN MİRZƏ XANIN ƏLƏ KEÇİRİLMƏSİ HAQQINDA

Cənnətməkan şahın zamanında Mazandaran hökuməti həm irsi cəhətdən, həm də şəxsi ləyaqətinə görə Xanım Məhdi-Ülyanın atası Mir Abdulla xana məxsus idi. Onun əmisi oğlanlarından Mir Sultan Murad sözügedən şəxslə düşmənçiliyə və münaqişəyə başlayıb, [Mazandaranda] hakimiyyəti ələ keçirmək iddiasına düşdü. Mazandaranlıların Mir Abdulla xandan heç bir fayda görməmiş bir qismi onun başına cəmləşdilər və o, şahın dünyanın pənahı olan dərgahına yalvar-yaxar edərək, öz sədaqətini, bəndəliyini və xidmətkarlığını izhar etdi. Mir Abdulla xan bəzi vaxtlarda dikbaşlıq edib avarecat və xəracdan yayındığı üçün cənnətməkan şah Sultan Murad xanın himayə olunması məqamında durdu. Buna görə də onun vəziyyəti günbəgün tərəqqi etdi. Nəhayət, Mir Abdulla xan öz xidmətinin nöqsanlı olmasından peşmançılıq keçirib, acizliyini və bəndəliyini izhar etdi. Cənnətməkan şah Mazandaran ölkəsini onların arasında böldü. Hər ikisi öhdəlik götürdü və qərara alındı ki, onlar bir-birləri ilə qardaşcasına rəftar edəcəklər və bir-birlərinin məmləkətlərinə təcavüz etməyəcəklər. Amma Mir Abdulla xan, Əmir Sultan Murad xanın nüfuzuna və iqtidarına qarşı dözümlülük göstərməyərək, əşrəfin razılığının əksinə olaraq, onun etibarını sarsıtmağa çalışırdı və əvvəllər özünə məxsus olmuş bir vilayətdə onun rahatlıqla hakimiyyət sürməsinə imkan vermək istəmirdi. Dəfələrlə bu macəralar barədə həqiqətlər ali taxtın ətəklərinə ərz olundu və oradan onlardan hər birinin adına hökmlər yazıldı. Axırda Mir Abdulla xan qarmaqarışıqlıq salmağa başladı. Bu, onunla nəticələndi ki, Mir Sultan Murad ona qalib gəlib, onu ələ keçirdi və bütün Mazandaran əhalisinə təklif etdi ki, ittifaq edərək, onu təqsirkar bilib, aradan qaldırsınlar. Bununla da bütün Mazandaranın hökuməti Sultan Murad xana məxsus oldu. Amma qəddar dünyanın qədim adətinə uyğun olaraq, onun iqtidarı və xoşbəxtliyi uzun sürmədi. Zəmanənin ona bəd nəzəri dəydi, ömürdən və hakimiyyətdən bir fayda görmədi və qısa müddət ərzində mülkünə və malına vida edib, canını tapşırdı.

Sözün qısası, Mir Abdulla xanın [ölüm] hadisəsindən sonra cənnətməkan şah özünün dağ boyda mərhəməti üzündən onun ailəsinin əhvalının qayğısına qalıb, onun pak qızı Xanım Məhdi-Ülyanı dünya sakinlərinin şahzadəsinə, yəni İsgəndər şanlı nəvvab Sultan Məhəmməd mirzəyə nikahladı və onun istəkli oğulları o möhtərəm xanımdan təvəllüd tapdılar. Onun (Mir Abdulla xanın) oğlu Mir Əziz xan isə müqərrəblər silkinə daxil edilib, ulu dərgahda əziz və hörmətli

oldu. Mazandaran vilayətinin ona (Mir Abdulla xana) aid olan yarı hissəsinin hökuməti, bundan əvvəl qeyd olunduğu kimi, kama yetmiş şahzadə Sultan Həsən mirzəyə tapşırıldı. [Mazandaranın] digər yarısı isə Mir Sultan Muradın Mirzə xan [adı] ilə məşhur olan oğlu Sultan Mahmuda mərhəmət edildi. Amma cənnətməkan şahın [vəfatı] hadisəsi baş verdikdən və Sultan Həsən mirzənin oradan çıxmasından sonra bütün məmləkət Şəmsəddin divin səyi ilə Mirzə xanın ixtiyarına keçdi. Xanım Məhdi-Ülya yeri-göyü yaradan [Allahın] iradəsinə uyğun olaraq İran mülkünün məlikəsi olduqdan sonra bunu münasib bildi ki, o vilayət ali xanımın irsi mülkü olduğundan Mirzə xan öz sədaqət üzünü ali taxtın ətəklərinə tutub gəlsin, atasının əməllərinə görə üzrxahlıq etsin, ali xanımın müqəddəs xatirinin istəyinə əməl edib, ondan izin və rüxsət alaraq, Mazandarana qayıtsın və əgər onun orada hakimlik etməsi ali xanımın ürəyincə olmasa, ağlın zərurəti əsasında oradan əl çəksin və imkanı daxilində olmayan bu işə müdaxilə etməsin.

**Şeir**

«Hər tərəfə at çapmağın nə demək?
Oturub bir küncdə qalmağın gərək!»

Həmçinin ona xəbərdarlıq edildi ki, o, özbaşına olaraq istiqlaldan dəm vurub çaxnaşma salmaq fikrinə düşərsə, qeyrət və təəssüb mədəni olan ali xanım onu cəzalandırmağa səy göstərəcəkdir. Mirzə xan sadəlövhlük üzündən, araqarışdıranların, xüsusən də ali xanımın sülaləsinin üzvlərinə qarşı pisliklər etmiş Şəmsəddin-divin fitnə-fəsadı ilə doğru yoldan azdı və ali xanımın xidmətinə gedib ona yalvar-yaxar etmədi, bəlkə də, dikbaşlıq etdi. Bu hadisə ali xanımın xatirinə ağır gəldi, intiqam almaq mövqeyini tutdu və atasının qanını tələb etməyə başladı. O, Mazandaran əyalətinin öz qohum-əqrəbalarından olan Mir Əli xana verilməsinə nail oldu və onların sülaləsi ilə qohum olmaq şərəfinə nail olmuş Vəlican xan Türkmana ona köməklik göstərmək haqqında tapşırıq verib göndərdi.

Mirzə xan dərviş təfəkkürlü və sülhpərvər bir cavan idi. O, cahanın pənahı olan dərgaha gəlməyə cürət etməyərək, xof və qorxu içərisində öz həyatını qorumaq üçün Mazandaranın mətin qalalarından olan Firuzkuh[974] qalasına sığındı. Mir Sultan Murad xanın mülazimlərindən ibarət bir dəstə ona yoldaşlıq etdi. Adı çəkilən qalanı fəth etmək mümkün olmadı və Mir Əli xanın işləri Mazandaranda qaydasınca getmədi. O qalanı asanlıqla əl keçirmək müyəssər olmadı. Lakin Xanım Məhdi-Ülya Sultan Murad xanın nəslinin həm ömrünün, həm də onların hakimiyyətinin bünövrəsinin darmadağın olunmasında qəti idi. Onun səyi ilə günbəgün bu barədə daha artıq iş görülürdü. Bir dəfə o, dövlətin dayaqlarından biri olan Pirə Məhəmməd xanı Qorxmaz xan Şamlu və əmirlərdən bəziləri ilə birlikdə

---

[974] S-129, v.202b-də Firuzcah yazılmışdır.

bu xidmətə məmur edib göndərdi. Bir müddət keçdikdən sonra qalanın fəthi xəbəri gəlmədikdə Xanım Məhdi-Ülya dözümsüzlük nümayiş etdirib, o qoşunun oraya getməsi ilə təsəlli tapmayaraq, Şahrux xan Möhürdara da Mazandarana getməyi təklif etdi. Sözügedən şəxs dövlətin dayaqlarından biri idi və öz səviyyəsini bu cür kiçik işlərin icrasına təyin edilməkdən daha üstün bilirdi. O, bu xidmətdən boyun qaçırıb bildirdi:

- Bu xidmətə Pirə Məhəmməd xanın məmur edilməsi kifayətdir. Əgər Xanım Məhdi-Ülya indi digər bir kimsəni bu işə təyin edirsə, bu hadisə onun (Pirə Məhəmməd xanın) ürəyində incikliyin yaranmasına səbəb olar. Bu, heç yaxşı düşməz. Əgər sözügedən şəxsin yardıma və köməyə ehtiyacı olarsa, nə lazımsa göndərərik.

Xanım Məhdi-Ülya bu sözlərdən inciyib, İsgəndər şanlı nəvvabı təhrik etdi ki, Şahrux xanı çağıraraq danlasın və onu zorla və məcburi surətdə [Mazandarana] göndərsin. Sözügedən xan hər nə qədər ürəyəyatan üzrxahlıqlar edərək bu işdən imtina etmək istəsə də, xeyri olmadı. Mirzə Salman, qorçubaşı və əmirlər könül oxşayan nəsihətlərlə ona təsəlli verib, getməyə razı saldılar. Xülasə, sözügedən şəxs tamam ikrah hissinə qapılaraq, məcburiyyət üzündən Mazandarana yollandı. O, Firuzkuh qalasının ətəyində Pirə Məhəmməd xanla və Qorxmaz xanla görüşdü, qalanın istehkamını və Mirzə xanın qalanı müdafiə etmək istedadını müşahidə etdi və bu qalanın tezliklə fəth olunmayacağını, qızılbaş qoşununu böyük bir yorğunluq və təşvişin bürüyəcəyini anladı. Şahrux xan Mirzə xanla dostluq münasibəti yaratmağa çalışdı. Tərəflər arasında elçilərin gediş-gəlişi baş verdi. [Şahrux xan] ona təsəlli verib, bunları çatdırdr. «Əgər İran padşahı Mazandaranın hakimini dəyişmək mövqeyi tutubsa, sizin onunla toqquşmağınız sizin xanədanınızın kökünün kəsilməsinə və böyük bir fitnə-fəsada səbəb olar. Mühasirə lap bir il və ya iki il uzansa da, sizə heç bir tərəfdən kömək gəlməyəcəyi təqdirdə, nəticə etibarilə bu qala fəth olunacaq və ələ keçiriləcəkdir. Bir halda ki, siz müxalif çıxmaqda və qalanı müdafiə etməkdə bu qədər qətiyyət göstərirsiniz, qalanın fəthindən sonra vəziyyətinizin nə cür olacağı məlumdur. Ona görə də sizin üçün yaxşısı bu olardı ki, müxalifətçiliyi tərk edəsiniz və o dərgahın mötəbər qulamlarından və padşahın dövlətinin dayaqlarından olan bizlərlə birlikdə o astanaya doğru sədaqət üzünüzü çevirəsiniz. Siz belə etsəniz, bəlkə də, ali xanım sizin bu mülayimliyinizdən, təvazökarlığınızdan və itaətinizdən təsəlli tapıb, sizi təltif etmək məqamında dura bilər. Yox, əgər o, sizin Mazandaranda qalmağınıza razı olmasa, o zaman harada məsləhət görülərsə, orada məskunlaşıb, rahatlıqla yaşayarsınız».

Adı çəkilmiş şəxs (Mirzə xan) malik olduğu ağıla və biliyə əsaslanaraq, belə etməyə razı olsa da, bunları əlavə etdi: «Mazandaran camaatı öz qan düşməninin qətlindən savayı, digər bir cəriməyə razı olmaz. Əgər Xanım Məhdi-Ülya mənim atamı öz atasının qatili bilirsə, şübhə yoxdur ki, öz atasının qanının qisası üçün məni qətlə yetirmək istəyəcəkdir. Mənim bu təlaşım heç də mülk və mal uğrunda

deyildir. Mən, sadəcə olaraq, bir neçə günlük ömrümü qoruyub saxlamaq niyyətindəyəm».

Şahrux xan və əmirlər onun mətləbinin və müddəasının təmin olunacağına zamin durub, Allah-taalanın zatına and içdilər ki, birincisi, özləri onu qətlə yetirməyəcək, onun gözlərini kor etməyəcəklər və ikincisi, İsgəndər şanlı nəvvabın və Xanım Məhdi-Ülyanın hüzurunda onun qanının bağışlanmasını xahiş edib, heç bir vəchlə ona xətər toxunmasına imkan verməyəcəklər. Adları çəkilmiş əmirlər dövlətin dayaqlarından olduqlarına və irili-xırdalı heç bir işin onların məşvərəti və razılığı olmadan həll edilmədiyinə görə Mirzə xan onların andına etimad bəsləyib, qalanı təslim edərək çıxıb gəldi.

Mazandaran hakimi Mirzə xanın Məhdi-Ülyanın əmri ilə öldürülməsi. Əmirlər sözügedən şəxsi (Mirzə xanı) arxayın etmək üçün onun mallarının və əşyalarının ətrafında belə dolaşmayaraq, qalanı Xanım Məhdi-Ülyanın adamlarına tapşırdılar və onu özləri ilə götürüb, ali taxtın ətəklərinə yollandılar. Onların heç ağlının ucundan da keçməzdi ki, Xanım Məhdi-Ülya onların xahişini rədd edəcəkdir.

Amma qalanın fəthi və Mirzə xanın ələ keçirilməsi xəbəri olduğu kimi Xanım Məhdi-Ülyanın ərzinə çatdırıldıqda o, bu əhdü-peymandan narazı qaldı. Bəlkə də, o istəyirdi ki, qala güc tətbiq etmək nəticəsində qələbə ilə fəth olunsun və Mirzə xan zorla ələ keçirilsin. Elə olacağı təqdirdə o, Mirzə xanın canını bağışlayıb onu əfv edərdisə, Mirzə xan canü-dildən ondan məmnun qalardı. Lakin indi ki, hadisələr belə cərəyan etməmişdi, [Məhdi-Ülya] əmirlərə məhəl qoymayaraq, onu qətlə yetirməyi qərara aldı. Elə ki Şahrux xan və əmirlər Qəzvinin bir fərsəxliyinə çataraq, səhəri gün şəhərə daxil olmağı qərara aldılar, Xanım Məhdi-Ülya böyük qorçulardan otuz nəfəri göndərdi ki, əmirlərin ordusuna gedərək, Mirzə xanı onların əlindən alıb, özləri mühafizə etsinlər və qorçulara göstəriş verdi ki, Mazandaran xanı onların əlinə təhvil verilərsə, elə həmin gecə əmirlərdən xəbərsiz olaraq, onu həlak etsinlər. Qorçular əmirlərin ordusuna çatıb, Mirzə xanı tələb etdilər. Əmirlər bu işə razı olmayıb, əvvəlcə onu verməkdən boyun qaçırdılar və dedilər ki, bu xidməti biz həyata keçirmişik və sabah onu [yanımızda olan] qızılbaşların hamısı ilə birlikdə ulu saraya gətirib, padşahın hüzuruna çatdıracağıq. Qorçular fərmana uyğun olaraq, onların üzrünü qəbul etməyib, padşahın hökmünün icra olunmasında təkid etdilər. Qorçuların onu qətlə yetirəcəklərini güman etməyən böyük əmirlər padşahın hökmünə qarşı çıxmağı özlərinə açıq-aşkar layiq bilməyib, onu qorçuların əllərinə təhvil verdilər ki, gecə həmin yerdə saxlayıb, sabah birlikdə onu şəhərə gətirsinlər. Qorçular əmrə əsasən, həmin gecə onu həlak etdilər.

Şahrux xan, Pirə Məhəmməd xan, Qorxmaz xan və böyük əmirlər bu hadisənin baş verməsindən olduqca çox incidilər. Onların Xanım Məhdi-Ülyaya olan kinləri daha da artdı. Lakin bir əlacları olmadığı üçün bu məsələ barədə bir də ağızlarına söz gətirmədilər. Onlar şəhərə gəldilər və saraya daxil olmaq şərəfinə

yiyələndilər. Lakin Məhdi-Ülyanın qarşısında səcdə edib dua ərz etdikdə o, onların gözlədikləri hörmət və ehtiramı onlara göstərmədi və bu hadisə də, əlavə olaraq, əmirlərin incikliyinə səbəb oldu. Get-gedə onların Xanım Məhdi-Ülyaya olan kin-küdurətləri daha da artdı. Bu iş axırda onunla nəticələndi ki, əmirlər Kaşan hakimliyindən uzaqlaşdırılmış Məhəmməd xan Türkmanın təhriki ilə onu aradan qaldırmağı qərara alaraq, tezliklə öz xatirlərində gizli olan bu niyyəti üzə çıxardılar. Həqiqətən də, saleh və günahsız bir seyidzadə olan Mirzə xanın fələklərin zərurəti, əmirlərin tədbirsizliyi, qadın cəhaləti və qüruru və şeytanın vəsvəsəsi ucbatından baş vermiş qətl hadisəsi Xanım Məhdi-Ülya üçün pis nəticələndi. Bu məsələnin şərhi Xorasan hadisələrinin təsvirindən sonra bəyan qələmi ilə yazılacaqdır.

Mir Əli xan da Mazandaran hakimi vəzifəsindən bir fayda görmədi. O, həmin əyyamda cavan yaşında ikən ömrünə vida etdi. Mazandaranı hərc-mərclik bürüdü. Oranın tayfalarının başçılarının hər birinin başında bir sevda baş qaldırdı. Axırda Övlad qalası və Mazandaranın yarı hissəsi Ağa Əlvənddivin, vilayətin digər yarısı isə Seyid Müzəffər Mürtəzayinin ixtiyarı və iqtidarı altına keçdi. Onların hər ikisi Mazandaran əmirlərindən idilər. O mülkün əyanları da iki firqəyə bölündülər. Onların bir hissəsi Əlvənd-divə itaət etdilər, digər qismi isə Seyid Müzəffərə tabe oldular. Qızılbaşların öz arasında məşğuliyyətlərin və hadisələrin çox olması üzündən böyük əmirlərdən və padşahın dövlət ərkanından heç kəs Mazandarandakı vəziyyətə baş qoşmadı.

## XORASAN MÜLKÜNDƏ BAŞ VERMİŞ SƏADƏT SAÇAN BİR ƏHVALAT BARƏDƏ SÖHBƏT

Bundan öncə hadisəyazan qamış tuş qeyd etmiş və gözəl iz buraxan qələm yazmışdı ki, İsmayıl mirzə dövlət və səadət baxçasının ağacını kəsərək, qardaşlarının və əmisi oğullarının qətlini həyata keçirdi və bununla kifayətlənməyərək, qohumlarını başdan-başa məhv etməyi rəva görüb, özü ilə bir anadan olan adlı-sanlı böyük qardaşı İsgəndər şanlı nəvvabın və öz qardaşı oğullarının da edam olunmasını mümkün saydı. O, bu zalım işi də özünün əvvəlki əməllərinin üstünə əlavə etmək istədi. Buna görə də ilahi qeyrət hərəkətə gəldi və onun bu istəyi baş tutmadı. Sözün qısası, o, Durmuş xanın nəvəsi Əliqulu xan Şamlunu darüssəltənə Heratın hakimi və [Xorasanın] əmirülümərası təyin edərək, ona tapşırmışdı ki, Herata çatdıqda dövlət və səadət çəmənini bəzəyən o mübarək fidanı, yəni Allahın kölgəsi olan əlahəzrət şahı aradan qaldırsın və bununla da [İsmayıl mirzə] öz könlünü narahatçılıqdan xilas etsin.

Axı İsgəndər şanlı nəvvabın nökərzadəsi olan və illərlə o həzrətin ali sülaləsinin çörəyini yemiş Əliqulu xanın ürəyi necə razı ola bilərdi ki, Allah eləməmiş, öz vəlinemətinin cəmi-cümlətanı bir neçə yaşı olan oğluna münasibətdə belə bir xətanı rəva bilsin?! Əliqulu xanın anası əlahəzrət [Abbas mirzənin] dayəsi

və həqiqətən də, o həzrətin (Abbas mirzənin) və onun qardaşları olan digər adlı-sanlı şahzadələrin süd anası idi. Həm Əliqulu xan, həm də onun möhtərəm anası bu hökmdən kədərlənmişdilər və tamam hüzn və qüssə içində idilər. Amma sözügedən xan İsmayıl mirzə tərəfindən yüksəldilərək böyük xan mənsəbinə və əmirülümara rütbəsinə çatdırıldığı üçün onun padşahın əmrini yerinə yetirməkdən savayı bir əlacı yox idi. Onun və şamlu ağalarının könlündə qərar tutmuşdu ki, şəhərə daxil olan kimi o fərmanı icra etsinlər. Bu işi bir gün də olsun təxirə salmaq və yubatmaq heç kimin ağlına da gəlmirdi.

O zamanlar Heratda olmuş etibarlı adamların verdikləri şifahi məlumatlardan belə aydın olur ki, Əliqulu xan ali mənsəb və yüksək rütbə olan xan adını əldə etməsinə baxmayaraq, bu yaramaz əməli yerinə yetirməkdən çəkinərək və tamam hüzn və kədər içinə qərq olaraq, məsafələri yavaş-yavaş qət edib, çaharşənbə günü, mübarək ramazan ayının 26-da[975] (7 dekabr 1577) gözəl Herat şəhərinə çatdı. Müsəlmanların bir qisminin etiqadına görə, ramazan ayının 27-si axşamı qədir gecəsi olduğu üçün Əliqulu xanın möhtərəm anası onu bu mübarək gecədə məsum və günahsız bir seyidzadəni qətlə yetirməkdən çəkindirdi. O, bu işi səhəri günə saxladı. Lakin səhərisi gün cümə axşamı olduğuna görə həmin şərəfli axşamda da bu əmri icra etməyi təxirə salmağı lazım bildi və o gecədə də qətl baş vermədi. Həmin günlərdən sonra ortalığa bayram düşdü. [Əliqulu xan] istəmədi ki, eyş və şadlıq zamanı olan bayram günlərinə zəhər qatıb qanqaraçılıq yaratsın. Buna görə də bayram günlərinin sona çatmasını gözlədilər. Sanki asimandan gələn bir ilham o adamların xatirinin aynasına zühur şəfəqləri salaraq, onlara təlqin etmişdi ki, tezliklə qeyb pərdəsi arxasından qəribə və təəccüblü bir hadisə üz verəcəkdir. Elə bil, qeyb aləmindəki Süruşun təlqini ilə övliyaların şahı, möminlərin sərvəri, müşkülləri çözən açar və «mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır» [hədisinin] xəzinəsi olan Həzrət [Əlinin] möcüzəvi təfəkküründən doğmuş bu beytlər sübut kimi onların xatirindən keçirdi:

«Gör, Allahın nə qədər gizli lütfü vardır ki,
Bu gizli lütfləri yalnız zəkanın köməyi ilə anlamaq olur.
Hər nə qədər çətinliklər arxasınca çətinliklər gəlsə də,
Axırda qurtuluş və aydınlıq peyda olur.
Həyatda o qədər işlər var ki, səhərdən onunla məşğul olursan,
Amma onun səmərəsinin sevinci sənə axşam hasil olur».

Xülasə, bayramdan sonra, şəvval ayının 2-ci günündə (13 dekabr 1577) padşahın qəzəb dənizinin dalğalarının təlatümə gələcəyinin qorxusu altında həmin pis əməli törətmək rəiyyətin və hərbçilərin xəyalına düşmüşdü və onlar bu işi həmin gecə yerinə yetirmək niyyətində idilər. Lakin günün axırında Əliqulu xanın

---

[975] S-129, v.204b-də səhvən «ramazan ayının 23-də» yazılmışdır.

bəzi işləri həll etmək üçün sarayda qalmış vəkili Sultan Mahmud bəy Baharlu gəlib çatdı. O, İsmayıl mirzənin ölümündən sonra bu xəbəri yetirmək üçün Herata yollanmışdı. O, İraq darvazasından şəhərə daxil olduqda darvazabanlardan xəbər alaraq aydınlaşdırdı ki, şərəfli şahzadənin (Abbas mirzənin) zatı sağ və salamatdır. Darvazabanlar ona şahzadənin zatının salamat olması müjdəsini verdikdən sonra o, xanın hüzuruna gəlib, hadisə barədə məlumat verdi. Əliqulu xan və şamlu ağaları cəmi bir neçə gün idi ki, o mülkə gəlmişdilər, hələ orada öz hökumətlərini lazımınca bərqərar etməmişdilər və qalanı müdafiə etmək üçün zəruri intizama və sərəncama malik deyildilər. Buna görə də onlar İsmayıl mirzənin faciəvi [ölüm] hadisəsinin baş verməsindən sonra ətrafdakı hakimlərin asi olacaqlarından və özbəklərin tüğyan edəcəklərindən qorxdular və vahiməyə düşdülər. Amma buna baxmayaraq, onlar kama yetmiş şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın xoşbəxtlik xüsusiyyətlərinə malik zatının salamat olmasına sevinib şadlandılar, Allaha şükür səcdəsi etdilər, o xilafət və səadət bağçasının yeni fidanının əziz vücudunu məmləkətin əmin-amanlığının və mətinliyinin [təminatı] hesab edib, səmimi-qəlbdən onun ali astanasının mülazimi və qulamı olmağa könül verdilər və Tanrının bəxş etdiyi dövlət və iqbal sayəsində ümidlərini o həzrətə bağladılar. O diyarın xalqı hal dili ilə bu mövzunu belə tərənnüm edirdi:

**Rübai**

«Ey cahan şahı, hər kim ki, sənin bədxahın oldu,
Zəmanə onun ömrünü mövcudluq mülkündən sildi.
Fələk qovuşdurdu kama şahidlik sahiblərini,
Qeybdən qəribə bir sirr üzə çıxdı».

Əliqulu xan ali məclis tərtib edərək, xilafət və hökmranlıq fərmanının misilisiz dürrünü (Abbası) öz sədaqət çiyinləri üzərinə götürüb, lələlik və xidmətkarlıq işlərinə zamin oldu. Hərbçilərdən rəiyyətdən, oymaq əmirlərindən, bəluc, qıpçaq və s. tayfaların dəstəbaşılarından ibarət bütün camaat hissə-hissə gəlib, şahzadənin hüzuruna çıxmaq və onun büsatını öpmək şərəfinə nail oldular və əşrəf tərəfindən iftixarlı bəxşişlərə layiq görülüb, ilahinin onlara bəxş etdiyi bu töhfənin və [şahzadənin] müqəddəs zatının salamatlığının müqabilində Tanrıya şükür səcdəsi edərək, canlarını nağd surətdə ona qurban və nəzir dedilər. Amma Şahqulu Yeganın qatilləri və onun mallarının qəsbediciləri olan əfşar əmirləri şəhərin xaricində, Məlik darvazası səmtində məskən salmışdılar və bundan bir qədər əvvəl onlarla [Əliqulu] xanın vəkilləri arasında sözügedən malların təftişi üstündə söz-söhbət olmuşdu. Lakin bu mərasimdən sonra onlar da rüxsət alıb, öz tiyullarının yerləşdiyi Fərah və İsfərayin tərəfə getdilər.

***Məhdi-Ülyanın şahzadəni Qəzvinə gətirmək üçün öz qulamı Ağa Nəzəri Herata göndərməsi.*** Əliqulu xan [Abbas mirzənin] müqəddəs zatının salamat

olduğu barədə müjdəni darüssəltənə Qəzvinə göndərdi. İsgəndər şanlı nəvvab, Məhdi-Ülya və adlı-sanlı şahzadələr bu sevindirici xəbərdən şadlandılar və şənləndilər. O həzrətlə görüşmək arzusunun alovu onun valideynlərinin nurlu batinini şölələndirdi. Onların şərəfli xatirinin iradəsində qərar tapdı ki, öz sevimli oğullarını Heratdan ali taxtın ətəyinə gətirib, öz gözlərini onun kimi bir göz bəbəyinin əziz didarı ilə işıqlandırsınlar və qızılbaş cahillərinin fəsad törədəcəklərinin qorxusu ilə adlı-sanlı şahzadələrdən heç birini əyalətlərdə qoymayıb, onları ali taxtın ətəklərində, öz valideynlərinin hüzurunda, bir-birləri ilə birlikdə qalmalarını təmin etsinlər. Xüsusi etibara malik şəxs sayılan, atası Mir Abdulla xanın köhnə qulamı olaraq Xanım Məhdi-Ülyaya miras qalmış və İsgəndər şanlı nəvvabın xidmətində etimada layiq görülərək mötəbər olmuş Ağa Nəzəri bu səbəbdən Xorasana göndərdilər. Hökm olundu ki, Əliqulu xan əlahəzrət [Abbas mirzənin] göndərilməsinin tədarüklərini yerinə yetirib, onu [Qəzvinə] gəlməyə hazır vəziyyətə gətirsin, ondan sonra isə dövlətin dayağı olan şəxslərdən və etimadlı ağsaqqallardan biri [Abbas mirzəni] gətirmək üçün oraya göndərilsin.

Lakin bu xəbər Xorasana çatdıqda o vilayətin böyük əmirləri kama yetmiş xoşbəxt şahzadənin aparılacağından narahat olub, Əliqulu xanı tovladılar ki, bu hökmü qəbul etməkdən və bu əmrə tabe olmaqdan boyun qaçıraraq, bu işə razı olmasın. Onlar Əliqulu xana bildirdilər ki, öz əməlinə bəraət qazandırmaq üçün belə desin: «Xorasan məmləkəti Mavəraünnəhrin yaxınlığında yerləşir.

Bura əksər vaxtlar hadisələrin təpik döydüyü bir yerdir və özbəklə basqınından, qarətindən və fitnə-fəsadından xali olmayıbdır və indi də xali deyildir. Həmçinin darülmülk Herat həmişə zəmanə sultanlarının və nüfuzlu hökmdarların taxtgahı olmuş və Xorasan məmləkətinin ərazisi bu xilafət məkanlı [Səfəvi] sülaləsinin xadimlərinin ixtiyarı və iqtidarı altına keçdiyi tarixdən üzü bəri bu şəhər heç vaxt yüksək şanlı şahzadələrdən hansısa birinin vücudundan məhrum olmamışdır. Ali dərəcəli şahzadələrdən heç birinin burada olmaması şəraitində bu mülkün mühafizəsi və qorunması biz bəndələrin imkanı daxilində deyildir».

Sözün qısası, Xorasan əmirləri arasında Mürşüdqulu xan digərlərindən daha artıq dərəcədə bu barədə israr edərək, Əliqulu xanla əhdü-peyman bağlayıb, bunu öz andları ilə təsdiq etdilər. Ağa Nəzər Xorasan vilayətinə qədəm qoyduqda artıq bu zümzümə və söz-söhbət əmirlər arasında yayılmışdı. Bu məsələ qalxarkən Məşhəd hakimi Mürtəzaqulu xan əvvəlcə zahirən Əliqulu xanı kama yetmiş şahzadənin aparılmasına heç vəchlə razı olmamağa təhrik etsə də, əslində batinən nifaq salaraq, Əliqulu xanın əzəmətinin və iqtidarının artacağı səbəbindən bu işə ehtiyac duymurdu. Bəlkə də, o, sadəcə olaraq, aranı qızışdırırdı. Digər əmirlərin də heç birisi [şahzadənin aparılmasına] razı olmadılar. Ağa Nəzər onların hər biri ilə görüşüb söhbətləşdi. Ona çoxlu hörmət və ehtiram göstərmələrinə, rəsmi iltifat həyata keçirmələrinə baxmayaraq, öz istəklərini dövlətsevərlik libası içinə salıb ona təqdim etdilər və ondan xahiş etdilər ki, Xanım Məhdi-Ülyaya bu arzudan əl çəkməyi, Xorasanı o həzrətin əziz vücudundan məhrum etməməyi və bu işin

qüdrətli dövlətə layiq olmadığını ərz etsin. Onlar Ağa Nəzərə açıq-aydın dedilər ki, əgər Məryəm şöhrətli Xanım Məhdi-Ülya bu barədə israr edib [şahzadəni] tələb etmək üçün adam göndərsə, zərurət üzündən biz bəndələrin müxaliflik etməkdən özgə çarəmiz qalmayacaqdır.

***Ağa Nəzərin məqsədinə çatmadan geri qayıtması.*** Ağa Nəzər Xorasanın vəziyyətini anlayıb, o mülkü tərk etdi və ali taxtın ətəyinə gəlib, halətin həqiqətini ərz etdi. Lakin səltənətin və padşahlığın gözünün qarası [olan Abbas mirzənin] didarının şövqü və arzusu [Məhdi-Ülyaya] qalib gəldi və o, Ağa Nəzərin sözünə və hekayəsinə qulaq asmayıb, Heydər sultan Çabuq Tərxan Türkmanın oğlu olan və mötəbər əmirzadələrdən və qızılbaş əyanlarından sayılan İbrahim bəyi bu xidmətin icrasına təyin edib, Xorasana göndərdilər. Sözügedən şəxs türkman ağalarından əlli nəfərlə birlikdə Xorasana yollandı. İbrahim bəyin gəlməyinin xəbəri Xorasana yayıldıqda Əliqulu xan və Mürşüdqulu xan öz aralarında söhbətləşib, belə qərara gəldilər ki, İbrahim bəyi məqsədinə çatmamış geri gön dərsinlər. Onlar bütün Xorasan əmirlərinin yanına adam göndərib bu barədə kömək istədilər və əhdü-peymana əməl olunmasını tələb etdilər. Müqəddəs və ulu Məşhədin hakimi olan Mürtəzaqulu xan lovğalıq və qürurla dolu olan yekəxana bir adam idi. O istəmirdi ki, Əliqulu xanın şövkəti və iqtidarı çox olsun. Adlı-sanlı şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın lələsi olmaq Xorasanın əmirlərinin əksəri ilə müqayisədə Əliqulu xanın öncüllüyünün böyüklüyünün, şanının, ucalığının və yüksəkliyinin artmasına səbəb idi. Məhz ona görə də bu məsəb barədə yaranmış ittifaq Mürtəzaqulu xanın xoşuna gəlmirdi. Belə bir məqamda o, bu ittifaqa razı olmayıb, əmirlərlə həmrəylik nümayiş etdirmədi və öz tabeçiliyində olan əmirləri Əliqulu xana yardımçı olmaqdan çəkindirdi. Bu hadisə Əliqulu xanın xatirinə möhnət saldı. Get-gedə onların arasındakı ülfət və birgəlik vəhşət və biganəliklə əvəz olundu.

İbrahim bəy müqəddəs və ulu Məşhədə çatdıqda Əliqulu xan, Mürşüdqulu xan və Heratda olan digər əmirlər onun gəlişindən xəbər tutub, ona dostcasına bir məktub yazaraq, rəsmi iltifat nümayiş etdirdilər. Amma buna baxmayaraq, hamısı söz birliyi ilə birbaşa surətdə cavab verdilər ki, «əgər o, bu iradə ilə (şahzadəni aparmaq üçün) Herata gəlirsə, gəlişinə ehtiyac yoxdur; bilmiş olsun ki, malik olduğu mətləb baş tutmayacaqdır və onun gəlişi faydasızdır». Onlar həmçinin bu barədə ali taxtın ətəyinə ərizə yazıb göndərərək bildirdilər ki, «kama yetmiş şahzadənin İraqa aparılmasının özbəklərin düşmənçilik etməyə cürətlənməsinə səbəb olacağını və bu işin qüdrətli dövlətin xeyrinə olmadığını nəzərə alaraq, biz dövlətsevər bəndələr cəsarət edib, buna razı olmadıq».

***İbrahim bəyin də məqsədinə çatmadan geri qayıtması.*** İbrahim bəy istədi ki, bir müddət Məşhəddə qalsın və həmin vaxt ərzində bu ərizə darüssəltənə Qəzvinə çatsın, oradan cavab gəlsin. Mürtəzaqulu xan padşahın hökmünün icra olunmasında və İbrahim bəyə kömək göstərməkdə təkid etdi. İbrahim bəy aqil, sağlam nəfsli və nəcib düşüncəli bir kişi idi. O, Mürtəzaqulu xanın Əliqulu xana

münasibətdə rəftarından nifaq qoxusu hiss etdi və bildi ki, onun bu barədə israr etməsi axırda ümumi fəsada aparıb çıxaracaqdır. Buna görə də o, Quryana gedib, bir müddət orada qaldı və daha sonra Əliqulu xanın və əmirlərin məsləhətinə əməl edərək, cahanın pənahı olan dərgaha yollandı və vəziyyətin həqiqətini ali əşrəfin və yüksək xanımın ərzinə çatdırdı. Xanım Məhdi-Ülya bu hadisədən hiddətlənib, Əliqulu xanın ulu dərgahda təvaçıbaşı vəzifəsini tutan və mötəbər əmirlərdən və qüdrətli dövlətin dayaqlarından sayılan atası Sultan Hüseyn xanı məzəmmət edərək xeyli danladı və təhdid etdi. O, oğlunun adından üzrxahlıq büsatı sərərək ərz etdi ki, əgər bütün Xorasan əmirləri bir iş üçün ittifaq etmiş olsalar, mənim oğlum nə edə bilər?

Sözün qısası, Məryəm şöhrətli Xanım Məhdi-Ülya Əliqulu xana qarşı iltifatsızlığa başlayaraq, onu və tərəfdarlarını etibardan salıb, Mürtəzaqulu xana himayədarlıq göstərmək məqamına gəldi. Sultan Hüseyn xan dövlətin işlərinin yoluna qoyulması üçün hər nə qədər üzrxahlıq etsə də, ona qulaq asmadılar. Nəhayət, o, özü şəxsən Xorasana gedib bu xidməti (Abbas mirzənin gətirilməsini) yerinə yetirməyi öhdəsinə götürdü və qəbul etdi. Ona Xorasana gedərək öz oğlunu bu cəsarətdən və özbaşınalıqdan çəkindirmək və xilafətin göz bəbəyini, yəni Allahın kölgəsi olan əlahəzrət şahı oradan İraqa gətirmək üçün üç ay möhlət verildi. Həmçinin qərara alındı ki, əgər bu dəfə də Əliqulu xan və onunla müttəfiq və həmrəy olan Xorasan əmirləri buna qarşı çıxış edərək padşahın fərmanından boyun qaçırsalar, Sultan Hüseyn xan da Xorasanda qalıb, bir daha ulu dərgaha qayıtmasın və o təbəqə yağı və üsyançı hesab olunsun. Şərəfli hökmdarın və Xanım Məhdi-Ülyanın bu məsələ barədə nə dərəcədə ciddi-cəhd göstərdiklərini görən Sultan Hüseyn xan əlacsız qalıb yola çıxdı və Xorasana getdi. Onun gəlməyinin xəbəri Xorasanda yayılan kimi Əliqulu xanla ittifaq bağlamış Xorasan əmirləri yenidən hay-küy salıb, heç bir vəchlə əlahəzrətin aparılmasına razı olmadılar. Sözügedən şəxs Herata çatdıqda ata və oğul arasında görüş baş verdi. Lakin ata özünə münasibətdə oğlundan umduğu böyük diqqətin şahidi olmadı. Yenə də gizli və aşkar surətdə [Əliqulu xan tərəfdarları] ümumi və xüsusi «canəqi» və «kəngaş» qurdular. Uca şamlu tayfasının aqillərindən və ağsaqqallarından Heratda olan bir çoxları asayişin qayğısına qalmaq və aqibəti düşünmək nöqteyi-nəzərindən padşahın əmrinə itaət etməyi, Sultan Hüseyn xanı məramına lazım olan surətdə yola salmağı və şamlu tayfasının müxaliflik və üsyankarlıqda ittiham olunmasına imkan verməməyi daha düzgün və doğru saydılar. Türklərdən və taciklərdən ibarət digər bir dəstə isə bu fikrin əleyhinə çıxıb, onlarla razılaşmadılar və dedilər:

- Əgər bizim kimi qüdrətli dövləti sevən şəxslər bir işi dövlətin faydasına uyğun hesab edib, onun həyata keçirilməsini qarşıya qoyublarsa, axı nə üçün bu, üsyan kimi başa düşülməlidir? Bizim bu addımımız dövlətsevərlikdən və sədaqətlilikdən irəli gəlir.

Xülasə, bu zümzümə və söz-söhbət uzun çəkdi. Get-gedə ata və oğul arasında pis münasibət özünə yer elədi. Sultan Hüseyn xan dedi ki, əgər məqsədimə çatmadan geri qayıtsam, mənim o dərgahda heç bir hörmətim qalmayacaqdır və belə olan təqdirdə getməkdən vaz keçmək daha yaxşıdır. Amma Mürşüdqulu xan və əhdü-peyman bağlamış əmirlər, öz atasının təkidi və şamlu ağsaqqallarının məsləhəti ilə Əliqulu xanın tutduğu yoldan azıb [Abbas mirzənin aparılmasına] razılıq verəcəyindən qorxaraq, hamısı darül-mömінin Səbzəvarda, oranın hakimi vəzifəsini tutan və əhdü-peyman bağlamış əmirlərdən biri olan Qubad xan Qacarın yanında toplaşdılar və cənnətməkan şah zamanında Azərbaycanın və Şirvanın mötəbər vəziri olmuş Mirzə Ətaullanın oğlu Mirzə Əhmədi darüssəltənə Herata göndərdilər. Mirzə Əhməd həmin zaman Mürşüdqulu xanın mütləq ixtiyarlı vəziri və bu hadisələrin baş qaldırmasının qızışdırıcısı idi. Əmirlər onun vasitəsilə şamlu tayfasının böyük xanlarına və mötəbər şəxslərinə xəbərdarlıq etdilər: «Bu düşüncəni (Abbas mirzənin təhvil verilməsini) xatirinizdən silin və faydasız səy və çalışqanlıq nümayiş etdirməyin! Əgər fərz olunsa ki, bütün şamlu camaatı kama yetmiş şahzadənin göndərilməsinə razıdır, onda biz canımız və malımızla səy göstərərək, bu işin həyata keçirilməsinə imkan verməyəcəyik. Biz indi İraq yolunun üstündə yerləşən Səbzəvarda həmin sağlam təməlli iradə ilə toplaşmışıq və gözləyirik ki, əgər şamlu tayfası səltənətin və padşahlığın dəyərli gövhərini əldən verərsə, biz yüksək çalışqanlıq və bəxt qüvvəsi ilə onu ələ keçirib, Xorasanda öz iftixar bayraqlarımızı dalğalandıraq».

Əliqulu xan bu xəbərdarlıqdan narahat olub, atasının məqsədinə çatmadan göndərilməsinə səy etdi. Sultan Hüseyn xan Xorasan əmirlərinin və hərbçilərinin bu dərəcədə israr etdiyini görüb, zərurət üzündən yüyənini geri qayıtmaq üçün döndərib, çar-naçar yola üz qoydu. O, Səbzəvarda böyük əmirlərlə görüşüb, bu məsələ ilə əlaqədar danışıqlar apardı, bu işin faydasını və fəsadını onlarla müzakirə etdi və ulu dərgaha getmək barəsində götür-qoy edib fikirləşdi ki, danlaq və məzəmmət hədəfinə çevrilməmək, oğlunun etibarının aradan qalxmasına yol verməmək və özünə zidd olan şəxslərin tənəsinə tuş gəlməmək üçün bu məsələni sarayda necə ərz etsin. O, hələ Səbzəvarda əmirlərlə danışıqlar apararkən Xanım Məhdi-Ülyanın əmirlərin sui-qəsdi nəticəsində qətlə yetirilməsi hadisəsi baş verdi. Həmin hadisədən sonra dövlətin dayağı olan şəxslər belə məsləhət bildilər ki, əlahəzrətin gətirilməsini təxirə salsınlar və o, əvvəlki kimi darüssəltənə Heratda qalmış olsun. Onlar Sultan Hüseyn xana məktub yazaraq, onu vəziyyətdən agah etdilər və onun geri çağırılması barədə padşah fərmanı yazılaraq, Səbzəvarda ona çatdırıldı. Sözügedən şəxs İraqa yollandı. [Səbzəvarda toplanmış] əmirlərin də hər biri öz hakimi olduğu yerlərə tələsdilər. Amma Əliqulu xan və Mürşüdqulu xan bu xəbərin eşidilməsindən sonra əksəriyyəti şamlulardan və ustaclulardan ibarət olan bütün Xorasan əmirləri ilə yenidən «kəngaş» edərək, əhdü-peymanın şərtini təzələdilər. Yeni şərtə əsasən, onlar əlahəzrət [Abbas mirzəni] Xorasanda öz sərmayələrinə çevirəcək, əksəriyyəti təkəlülərdən və türkmanlardan ibarət olan və

şamlularla ustaclulara ədavət bəsləyən dövlət ərkanının göstərişlərinə riayət etməyəcək və Əliqulu xanın sözündən və məsləhətindən çıxmayaraq, onu özləri üçün «xanlar xanı», böyük və ağsaqqal hesab edəcəkdilər. Mürtəzaqulu xandan və onun tabeçilərindən savayı, əksər Xorasan əmirləri itaət və tabeçilik qədəmi ilə irəli gəlib, Əliqulu xanla ittifaq bağladılar. Xülasə, Xorasan əmirləri iki dəstəyə bölündülər. Heratda və müqəddəs, ulu Məşhəddə iki yüksək şöhrətli xan lövbər saldı və onlar arasında günbəgün vəhşət və düşmənçilik səbəbləri inkişaf etdi. Axırda bu iki firqə arasındakı gərginlik dava və döyüşlə nəticələndi. Bu məsələ öz yeri gələndə qeyd olunacaqdır.

## ARAQARIŞDIRANLARIN FƏSADI NƏTİCƏSİNDƏ MƏRYƏM ŞÖHRƏTLİ XANIM MƏHDİ-ÜLYANIN ÖLDÜRÜLMƏSİ KİMİ BİABIRÇI BİR HADİSƏNİN BAŞ VERMƏSİ HAQQINDA

Qəzavü-qədərin zərurətinə, asimanın təqdirlərinə və dövranın təcrübələrinə əsasən, hər kamilliyin bir zavalı vardır və hər sevincin ardınca bir kədər gəlir. Cənnətməkan şahın zamanında hərbçilərin və rəiyyətin rahatlığı və dincliyi, məmləkətin firavanlığı və abadlığı, şəhərlərin asudəliyi və bəndələrin asayişi kamil dərəcəyə çatsa da, bütün bunlar dövranın hadisələri və camaatın şükürsüzlüyü ucbatından zavala məruz qaldı. Müqəddəs nişanəli Səfəvi sülaləsi ilə müridin öz pirinə rəftar etdiyi kimi münasibət bəsləyən və əqidə, ixlas yolunun yolçusu olan qızılbaş tayfaları şeytanın vəsvəsələri, özlərinin nəfsani istəkləri və öncüllük, üstünlük kimi müxtəlif arzuları səbəbindən bir-birləri ilə çəkişmə və nifaq yolunu tutub, uzlaşma və ittifaq məsləyindən uzaq düşdülər. Get-gedə o vəfalı təbəqənin və saf niyyətli sufilərin işi sədaqətsizliyə sirayət etdi və onlar əqidənin, ixlasın və ədəb-ərkanın ziddinə olan işlərə cəsarət etdilər. O gözəl əqidəli camaatın bəd xislətli, yöndəmsiz, xətakar cahillərindən və fəsadçılarından xoşagəlməz əməllər baş verdi. Axırda onlar bu səbəbdən giriftar olub qaldılar, növbənöv bəlalar onların nəsibi oldu və neməti, ədəb-ərkanı itirməyin nəticəsində bu bəlalar sələflərdən xələflərə ötürülüb, bütün oymağa yayıldı. Necə ki, bu mənada deyilmişdir:

«Çün bir qövmdən biri nadanlıq etdi,
[O qövmdən] heç kimin nə səviyyəsi qaldı, nə böyüklüyü».

Buna görə də o tayfaların halına tamam qarışıqlıq yol tapdı və indi bu dəftərin yazılması zamanı olan 1025-ci (1616) ilə qədər o hadisələrdən qırx beş ilə yaxın bir müddət keçməsinə baxmayaraq, hələ də o ədəbsizliklərin təsiri o tayfaların xələfləri arasında mövcuddur və onlar öz atalarının yanlış əməllərinin əzabına və acısına giriftardırlar.

Bədniyyət fəsadçılar tərəfindən törədilmiş bu olduqca qəbahətli və çox şiddətli cinayət - zəmanə məlikəsi, dövran iffətlisi, Zəhranın Zöhrəsi[976], qadınların ən üstününün pak törəməsi, yəni Məryəm şöhrətli Xanım Məhdi-Ülya Xeyrannisa bəyimin qətlidir. O ismətə bürünmüş saf seyyidə kama yetmiş hökmdarın möhtərəm hərəmi və ali dərəcəli şahzadələrin şərəfli anası olmasına baxmayaraq, [qatillər] ağlın və sağlam düşüncənin doğru yolundan azdılar, öz mənfəətlərindən və bir neçə günlük rütbələrini qorumaqdan ötrü onların gözləri o yaramaz əməlin qəbahətini görməz oldu və onlar bu ədəbsizliyin nəticəsindən və dünyada və axirətdə köməksiz qalmaqdan çəkinməyərək, o qəbahətli işə cürət etdilər. Bu mövzunun təfsilatı belədir ki, Xanım Məhdi-Ülya adlı-sanlı ərinin görmə zəifliyi, xoşbəxt şahzadələrin kiçikliyi və yaşlarının azlığı səbəbindən səltənətin və padşahlığın namusunun kəməndini öz qeyrət əlinə alıb, dövlət işlərinin idarə olunmasında, mülk və millət məsələlərinə intizam verilməsində çalışıb, iqtidarlı sultanların qaydasına və ədəb-ərkanına uyğun olaraq, cah-calallı saraydan yazılıb çıxan hər bir əmrin və fərmanın təxirə salınmadan və yubadılmadan yerinə yetirilməsini istəyirdi. Bu isə özbaşına əmirlərin xoşuna gəlmirdi. Üstəlik, Mazandaran hadisələri zamanı Şahrux xanın, Pirə Məhəmməd xanın və Qorxmaz xanın razılığının əksinə olaraq, Mirzə xanın qətlə yetirilməsindən qaynaqlanan narazılıq və küskünlük əvvəlki incikliklərin üzərinə əlavə olunmuşdu. [Əmirlər] öz izzət və etibarlarının azalmasının, qüdrət və iqtidarlarının yox olmasının əndişəsi içərisində idilər.

Bu əsnada Kaşan əhalisi divana gəlib, oranın hakimi vəzifəsini tutan və tamahkarlığının qüvvəsi həddən aşıb-daşan Məhəmməd xan Türkmanın kobud rəftarından şikayət etdilər. Səltənətin qərargahından onların məsələsinə dair təhqiqat aparılması barədə hökm verildi. Divan adamları bunu araşdırdılar və onun zülm və özbaşınalıqla məşğul olduğunu aşkara çıxardılar. O, danlaq və məzəmmət hədəfinə çevrildi və onun ölkəsinin dəyişdirilməsi barədə hökmdar fərmanı yazıldı. Məhəmməd xan böyük əmirlərdən və dövlətin dayaqlarından idi. Bu hadisənin baş verməsi onun etibarının azalması və aradan qalxması demək idi. O, buna qatlaşmayaraq, tay-tuşları arasında bu xiffətin ona rəva görülməməsi üçün hər nə qədər çalışsa da, Xanım Məhdi-Ülya da dövlətin və səltənətin namusunu nəzərə alaraq, onun əfv olunmasının dövlətin naqisliyinin və padşahın iqtidarının yoxluğunun əlaməti hesab edib, heç bir vəchlə onun xahişini yerinə yetirmədi. Məhəmməd xan bu hadisədən incik düşərək, düşüncəsi nifaq olan digər fəsadçı əmirlərlə dilbir olub, məkr və nifaq qapılarını açdılar. Onlar dövlətin dayaqlarının dayağı olan və camaat arasında sağlam nəfsi, nəcib fikri, ağlı və bacarığı ilə tanınan qorçubaşı Qulu bəy Əfşarı da hiyləgər sözlərlə yoldan çıxarıb, bu yöndə

---

[976] Zəhra (ərəbcə «parlaq», «işıqlı» deməkdir) - Məhəmməd peyğəmbərin qızı Fatimə xanımın ləqəbidir. Zöhrə isə Venera planetinə deyilir və həm də gözəlliyin rəmzi sayılır. Burada Məhdi-Ülya «Zəhranın Zöhrəsi» və bunun ardınca «qadınların ən üstününün pak törəməsi» adlandırılarkən onun seyyidə olmasına, peyğəmbərin qızı Fatimə xanımla Həzrət Əlinin nəslindən gəlməsinə işarə olunur.

tədbirlər tökdülər. Onlar bilirdilər ki, Xanım Məhdi-Ülya həyatda olduğu qədərincə onu öz adlı-sanlı oğullarından və kama yetmiş ərindən uzaqlaşdırmaq mümkün deyildir və o, nə öz tövründən, nə də malik olduğu hakimiyyət və iqtidardan imtina etməyəcəkdir. Buna görə də onlar onu aradan qaldırmağı lazım bilərək, bu işə hazırlaşdılar və xəfifcə, bir-bir hər oymağın nüfuz sahibləri olan əmirləri cəlbedici vədlərlə özlərinə müttəfiq etdilər.

Xülasə, özbaşına əmirlərin və qızılbaş tayfalarının sadəlövhlərinin əksəriyyəti mənasız bəhanələrə, o cümlədən mazandaranlıların himayə olunması, vilayətlərin hökumətinin, mənsəblərin və ənamların onlara verilməsi, hərəm xəzinəsinin Mazandarana nəql olunması kimi tamamilə töhmət və iftiradan ibarət olan və həqiqət yükü daşımayan uydurmalara istinad edərək, bir-birləri ilə ittifaq edib, Xanım Məhdi-Ülyaya zərər vurmaq üçün əsas yaratdılar. Hər tayfanın əyanlarından, əmirlərindən və böyüklərindən ibarət bir dəstə Çehelsütun eyvanına toplaşıb, əşrəfin hüzuruna belə bir xəbər göndərdilər: «Məryəm şöhrətli Xanım Məhdi-Ülyanın əmirlərə və padşahın dövlət ərkanına qarşı bəd rəftarı və onun mazandaranlılara himayədarlıq göstərməsi qızılbaşların təbiətinə ağır gəlir və onun dövlət işlərinə müdaxilə etməsi sədaqətli qızılbaş tayfalarının ağsaqqallarının xoşuna gəlmir. Hər tayfanın cahilləri və fitnəkarları həmişə bu vəziyyətə qarşı tədbir görməyi tələb edirlər. Kama yetmiş hökmdar həzrətləri gərək bu barədə yaxşıca götür-qoy etsin. Yoxsa tezliklə ümumi fəsad baş verə bilər». Bu məsələ izzətli hərəmin məhrəmləri vasitəsilə hökmdarın ərzinə çatdırıldı.

Lakin Xanım Məhdi-Ülya da qeyrətinin çoxluğundan və təbiətinin odlu-alovlu olmasından əmirlərin cavabında vəhşət doğuran sözlər dilə gətirmiş oldu. Böyük əmirlər bu xəbərdən hirslənərək, cuşa gəlmiş və özlərindən çıxmış bir vəziyyətdə dövlətxananı tərk etdilər və fitnəkarlığa başladılar. Həmin gün sərsərilərdən biri məvacibini tələb etmək bəhanəsi ilə ali xanımın vəziri Əmir Qivaməddin Şirazinin qohumu olan mustovfi Mir Şahqazini qılıncla vurdu. Ertəsi gün özbaşınalıq edən fəsadçı əmirlər Qəzvinin Səadətabad bağında cəmləşərək, bu barədə söhbətləşdilər və sözügedən xanımın aradan qaldırılmasında yekdil və həmrəy oldular. İsgəndər şanlı nəvvabın xalası oğlu olan, şahın etimadına layiq görülən, təkəlü oymağının ağsaqqalı və dövlətin dayaqlarından biri sayılan Müseyib xan Şərəfəddinoğlu Təkəlü bu işdə əmirlərlə müttəfiq deyildi. Hadisələr bu cür cərəyan etdikdə İsgəndər şanlı nəvvab və Məryəm şöhrətli Xanım Məhdi-Ülya onu səadətli dövlətxanaya çağırdılar ki, əgər əmirlər tərəfindən zidd əməllər baş verərsə, o, dövlətxanada «şahısevənlik» edib, ixlas sahiblərini öz başına toplayaraq, fədakarlıq zərurətini yerinə yetirsin. Lakin sözügedən şəxs həlim və sağlam nəfsli bir kişi olduğu üçün bu işin təşkilatçısı ola bilmədi və öz evində ayağını salamatçılıq ətəkləri daxilinə çəkərək, hadisələrə qarışmamağı qərara aldı. Sədaqətsiz əmirlər Çələbi bəy Mehmandar Təkəlünü onu çağırmağa göndərdilər. O, əvvəlcə üzrxahlıq edərək, getməkdən boyun qaçırdı. Nəhayət, əmirlər onun

gəlişində təkid etdilər və təkrarən onun yanına gəlib-getdilər. Müseyib xan əmirlərə qarşı çıxa bilmədi və bağa gedib, onların sırasına daxil oldu.

Onların hamısı dildə və əməldə müttəfiqlik nümayiş etdirərək, səadətli dövlətxanaya adam göndərib, əşrəfin hüzuruna belə ərz etdilər: «Əşrəfin nurlu ürəyinə bəllidir ki, qadınlar öz düşüncə zəiflikləri və tam tərslikləri ilə məşhur və mərufdurlar. Xanım Məhdi-Ülya həmişə dövlətsevərlərin əksinə getmiş, bizim dövlət işlərinin intizamı üçün məsləhət bildiyimiz heç nəyə razılıq verməmiş, qüdrətli dövlətin ağsaqqallarının tövsiyələrinə zidd olan əməllər törətmiş və bizi pərt etmiş, alçaltmış və əhəmiyyətsiz saymışdır. Biz indiyədək nə bir ədəbsizlik, nə də narahatçılığa səbəb ola biləcək bir hərəkət etməmişik. Lakin onun barəsində əmin olmamışıq və deyilik. Bir halda ki, indi onunla bizim aramızda ziddiyyət meydana gəlmiş, hicab pərdəsi ortalıqdan qalxmış, o, tayfaların ağsaqqallarına qarşı məzəmmətli sözlər demiş və bizi nifaq əhli sayaraq böyük təhdidlər etmişdir, axı biz ondan necə əmin ola bilərik? ümumiyyətlə, biz münasib bilmirik ki, qızılbaşların hökmdar sülaləsi daxilində heç kəsin qalmadığı ücün arvadların dövlət işlərinə müdaxilə sahibi olduqları və səltənətin idarəedicisinə çevrildikləri barədə söz-söhbətlər digər dövlətlərin sultanları arasında yayılsın. Sözümüzün canı ondan ibarətdir ki, onun səltənət və padşahlıq məsələlərindəki başçılığı və iqtidarı bütün qızılbaş tayfalarının qəlbində ikrah doğurur və bizim onunla yola getməyimiz heç bir vəchlə mümkün deyildir. Əgər o susdurulmasa, böyük ehtimal var ki, dinin və dövlətin zərərinə səbəb olan bir fəsad üz verəcəkdir».

İsgəndər şanlı nəvvab ali məqamlı əcdadlarından ona yadigar qalmış fəqirlik və dərvişlik aləmindən, sağlam nəfsdən və xeyirxahlıqdan çıxış edərək, övliyaların və Allah əhlinin üslubu olan mülayim moizə tərzli hekayətlərlə əmirlərə belə xəbər göndərdi: «Bir halda ki, onun səltənət işlərinə müdaxiləsinin dövlətin xeyrinə olmadığını düşünürsünüz, onda mən də qərar verərəm ki, bundan sonra o, dövlət işlərinə müdaxilə etməsin. Əgər ondan narahatsınızsa, necə ki, anam «şah babam» tərəfindən Quma göndərilmiş və bir müddət orada qalmışdı, mən də onu Quma göndərərəm ki, müəyyən bir vaxt ərzində orada öz oğlunun yanında qalsın. Əgər onun orada olması məsləhət görülməsə, onda onu Mazandarana göndərərəm ki, öz atasının evində və mülkündə olsun. Yox, əgər bunu da qəbul etməsəniz, onda mən həvəslə və rəğbətlə taxt-tacı tərk edib, öz kiçik oğullarımla Şiraza gedərəm və siz də kimi məsləhət bilsəniz, özünüzə padşah edərsiniz. Çünki mən günahsız bir seyyidənin öldürülməsinə razılıq verə bilmərəm».

O insafsız fəsadçılar zülm və sitəm qapılarını açıb, həyasızlığı son həddən aşırdılar. Amma Xanım Məhdi-Ülyanın qeyrətinin çoxluğundan və təbiətinin odlu-alovlu olmasından, İsgəndər şanlı nəvvabın mülayimliyi onun xoşuna gəlmədi və o, öz qətiyyətli mövqeyindən əsla geri çəkilmədi. O dedi:

- Nə qədər ki, həyatdayam, öz davranışımdan imtina etməyəcəyəm və bu vaxtadək ortaya qoyduğum mövqedən bir saç tükü qədər də geri çəkilməyəcəyəm. Əgər qızılbaşlar padşaha ərz etməyin utancından və ədəbsizliyindən çəkinməyərək,

öz padşahlarının möhtərəm hərəminə qarşı bu zülmü rəva bilib, məni qətlə yetirməyə təşəbbüs göstərsələr, onda bunu bilsinlər ki, mən Allahın hökmü ilə dörd şahzadənin anasıyam və öz qanının intiqamını Allah-taalanın izni ilə öz övladlarıma miras qoyacağam.

***Məhdi-Ülyanın, onun anasının və Mazandaran əhlindən olan bir sıra şəxslərin qətlə yetirilməsi.*** Doğru danışanlardan eşidilmişdir ki, həmin vaxt ali xanımın vəziri Mir Qivaməddin Hüseyn Şirazi onun hüzuruna gələrək, belə bir təklif etmişdi:

- Ali xanım əmr etsin ki, xəzinələrdəki qızıl kisələri Çehelsütun eyvanına gətirilsin və qorçulara qızıl paylanacağı haqqında xəbər verilsin. Bu, qorçuların qızıl almaqdan ötrü dövlətxanaya toplaşmasını təmin edəcəkdir və bununla da əmirlərin ittifaqı arasında təfriqə daşı atılmış olacaqdır.

Lakin böyük qeyrətə malik olan o cəsur qadın ona belə cavab vermişdi:

- Ey doğru tədbirli Asəf! Siz ki bayırdakı vəziyyətdən xəbərdarsınız. Əmirlər bu işə cürət etməzdən öncə bu cür tədbirləri görmək lazım idi. İndi ki, iş bu yerə çatıb, bu kimi əməllər əhəmiyyətsizdir. Həm də ki, padşahlıq iqtidarını qızılla almaq zəbun olmağın bir növüdür. Allahın qəzavü-qədəri necədirsə, eləcə də olsun.

Xülasə, əmirlər hər oymaqdan bir neçə nəfəri bu yaramaz işin icrasına təyin etdilər. Sədrəddin xan Səfəvi, Həsənəli bəy Əlkəsənoğlu Zülqədər və İsgəndər şanlı nəvvabın anası Sultanımın qohumu İmamqulu mirzə Mosullu bu sıraya daxil idilər. Əmirlərin və dövlət ərkanının göstərişi ilə onlar[977] həyasızcasına səadətli dövlətxanaya üz qoydular. Gökcə xəlifənin övladı Əli bəy Şamlu başda olmaqla hərəmxana eşikağasıları onlara mane olmağa cürət etmədilər. Qəsdçilər çəkinmədən hərəmxanaya daxil oldular, o günahsız və mömin seyyidəni ələ keçirib, onu cənnətməkan şahın qızı olan mərhumə Pərixan xanımın hərəm bağçası civarında yerləşən mənzilinə apardılar və orada boğaraq həlak etdilər. Onlar bununla kifayətlənməyərək, Xanım Məhdi-Ülyanın qoca, mömin, abid bir qadın olan və öz qohumlarından bəziləri ilə birlikdə Mazandarandan gəlib dövlətxananın yaxınlığında yaşayan anasının evinə getdilər, günahsız qadını qətlə yetirdilər və həmin yerdə Mazandaran əyanlarından bir neçə nəfəri də öldürdülər. Onlar Xanım Məhdi-Ülyanın bolluca nağd pulları və çoxluca qumaşları hərəmxana xəzinəsindən götürüb öz anasına və qohumlarına verdiyini güman edərək, onun sandıqlarını çölə çıxardılar. O evdə olan bütün mallar və əşyalar qarət və tarac olundu. Sadə camaat da küçələrdə və məhəllələrdə Mazandaran əhli ilə bu cür davranaraq, mazandaranlılardan hansı birisinə ki rast gəlirdilər, onu tutub abır-həya libasından üryan edirdilər. Xülasə, bir dəqiqə də olsun, qəbahət və utanmazlığı əldən qoymurdular. Bu hadisələr zamanı vəzir Mirzə Salman əmirlərin ittifaqına daxil

[977] Bu abzasda kursivlə verilmiş cümlələrin qaynağı: S-129, v.211a; S-297, v.165a. Məhdi-Ülyanın öldürülməsi 1579-cu ilin avqustunda baş vermişdir.

olmamışdı. O, Xəlil xan Əfşarın evinə gedib, zahirən öz halının hifz olunması barədə yalvar-yaxar etdi.

Sözün qısası, aralarında bəziləri sadəlövh, dövlətmənd, xeyirxah və saf etiqadlı adamlar olan nadan və ağılsız əmirlər mötəbər şəxslərdən bir neçə nəfərin vəsvəsəsinə aldanıb, bu yaramaz əməli törətdilər. Günün axırında İsgəndər şanlı nəvvab üləmaları çağırdı ki, öldürülənlərin dəfnini tərtib etsinlər. Həmin gecə üləmalar onları kəfənə tutaraq, İmamzadə Hüseynin - ona və əcdadlarına salam olsun - mübarək astanasında dəfn etdilər. Haqqında bəhs etdiyimiz bu hadisədən sonra əmirlər Xorasana, Sultan Hüseyn xanın və Əliqulu xanın yanına adam göndərib, onları bu əhvalatdan xəbərdar etdilər və bildirdilər ki, xoşbəxt şahzadənin gətirilməsi təxirə salınsın və o, əvvəlki təki Heratda qalmış olsun, Sultan Hüseyn xan isə geri qayıtsın.

Amma Nəvvabi-Cahanbani Sultan Həmzə mirzə bu qalmaqal və qovğa zamanı hələ yaşının kiçik və ömrünün illərinin az olması səbəbindən uzaqgörən ağlın zərurəti ilə anlaya bilmədi ki, onu öz adlı-sanlı atasının vəliəhdi sayan qızılbaş əmirləri öz vəlinemətlərinin ailəsinə qarşı belə bir hörmətsizlik edib, onun möhtərəm anasının qətlinə təşəbbüs göstərərlər. O, öz halını hifz etməyə məşğul olaraq, öz fədakar mülazimlərindən etimad göstərdiyi bir neçə nəfərlə birlikdə hərəmxananın damına çıxdı, oraya ehtiyac hiss olunduğu qədər yemək-içmək daşıtdırdı, damın yolunu uçurtdurub, damın kənarlarında qala kimi istehkamlar qurdurdu, oraya tüfəng və qala müdafiəsi zamanı lazım olan digər əsləhə və yaraqlar apartdırdı ki, özünü bir neçə gün orada qoruya bilsin və əgər əmirlər ona bir pislik etməyi düşünsələr, öz xatirlərindəki bu gizli niyyəti dərhal həyata keçirə bilməsinlər. O, öz-özünə qərar vermişdi ki, onlardan tam arxayın olmayınca oradan aşağı enməyəcəkdir. Onun rəfiqləri cümləsindən olan Vəli xəlifənin oğlu İsmayılqulu bəy Şamlu həmin günlərdə fədakarlıq nümunələri göstərərək, bu xidmətin əvəzində «Yoldaşbaşı» ləqəbini aldı.

Xülasə, Xanım Məhdi-Ülyanın - bundan sonra onun barəsində «mərhumə xanım» təbirindən istifadə olunacaqdır -qətlinin səhərisi günü əmirlər səadətli dövlətxanada cəmləşərək, İsgəndər şanlı nəvvabın yanına, hərəmxanaya adam göndərib ərz etdilər: «Misra: «Dost ilə bağladığımız mehrü-vəfaya sadiqik». Bizim şah cənabları ilə bağladığımız əhdü-peymana xələl gəlməmiş və buna bir zərər vurulmamışdır. Xahiş edirik ki, şərəfli hökmdar qəzavü-qədərin zərurəti ucbatından baş vermiş bu qəbuledilməz hadisəyə görə bizi cəzalandırmasın». Onlar əsassız bəhanələrlə özlərinə haqq qazadırmağa çalışaraq, üzrxahlıq etmək və əşrəfin könlünü ələ almaq məqamında durub, onun qəbuluna düşməklə bağlı xahiş etdilər. Şərəfli hökmdar uzaqgörən ağlın zərurətinə əməl edərək, danlaq və məzəmmət mövqeyi tutmadı. Amma əmirlər iki-üç gün onunla görüşməyə nail ola bilmədilər. İki-üç gün sonra bütün əmirlər dövlətxanaya toplaşaraq, üləmaları və müctəhidləri orada hazır etdilər və yenidən üləmaların iştirakı ilə hər biri əlli bir dənə and içdi ki, İsgəndər şanlı nəvvab həyatda olduğu qədərincə biz digər bir kəsi

padşah hesab etməyəcəyik və ondan sonra da dünya sakinlərinin şahzadəsi olan Sultan Həmzə mirzə cənablarını vəliəhd kimi qəbul edib, bu gündən etibarən onun mübarək xatirinin razılığından üz döndərməyəcəyik. Bu and yazılı surətdə üləmaların və müctəhidlərin möhürü ilə təsdiq edilib, əşrəfin hüzuruna göndərildi. İsgəndər şanlı nəvvab tamam ikrah hissi ilə eyvana gəldi. Onlar onun ayağını öpmək səadətinə nail olub, sözdə batini əqidələri və sufilikləri barədə çox danışdılar. İsgəndər şanlı nəvvab da bu hadisənin baş verməsini faniliyin zərurəti ilə əlaqələndirib, məsləhətamiz sözlərlə öz nurlu xatirinə təsəlli bəxş etdi.

Amma Nəvvabi-Cahanbani fədakar tərəfdarlarından ibarət bir dəstə ilə qaldığı yeri tərk etmədi və əmirlərə etimad bəsləmədi.

Əmirlər yenə də öz əhdü-peymanlarını təntənəli andlarla qüvvətləndirdilər və İsgəndər şanlı nəvvabdan xahiş etdilər ki, Nəvvabi-Cahanbanini onların əqidəsinin saflığına əmin etsin. Kama çatmış hökmdar əmirlərin xahişini yerinə yetirərək, möhtərəm oğlunun şərəfli xatirini könüloxşayan sözlərlə arxayın etdi, ertəsi gün onu özü ilə birlikdə eyvana gətirdi və əmirlər toplaşıb, onun ayağını öpmək səadətinə qovuşdular. Əmirlərin məsləhətinə uyğun olaraq, Mirzə Salman Xəlil xanın evindən gətirildi. Ona iltifat göstərdilər. Sözügedən şəxs mübahisəsiz surətdə vəzirlik və divan sahibliyi («vəzarət və sahibi-divani»)[978] kürsüsünə əyləşərək, əvvəlkindən daha artıq etibar və ixtiyar əldə etdi. Əmirlər həmin bir neçə gün ərzində cidd-cəhdlə şahın və yüksək məqamlı şahzadənin dərgahında durub, layiqli xidmətlər göstərdilər. Amma həqiqi qisasçı (Allah) tədricən o camaatdan elə bir intiqam aldı ki, bəsirət sahiblərinin gözləri bərələ qaldı. Onlar bəlalara düçar oldular. İnşallah, [əsərin] sonrakı hissələrində bunların hər biri yeri gələndə, xüsusən də öz ədaləti ilə cahana sevinc bəxş edən və öz hakimiyyəti ilə hamıya asudəlik verən ədalət şüarlı xoşbəxt şəhriyarın, yəni Allahın kölgəsi olan əla-həzrət şahın dünyanı tutmuş hakimiyyəti zamanından bəhs olunarkən qeyd ediləcəkdir.

## HÖKMDARIN AZƏRBAYCAN TƏRƏFƏ HƏRƏKƏT ETMƏSİ VƏ O SƏFƏR ZAMANIBƏNDƏLƏRİN RƏBBİNİN TƏQDİRİ İLƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Xoy, Səlmas, Urumi və Uşni[979] ölkələri, Marağaya tabe olan ərazilərin bəziləri müxalif kürdlərin ixtiyarına keçmişdi və onlar rumilərin himayəsi ilə məmləkətin ətrafına həmlələr etmişdilər. Gürcüstan hakimlərinin paytaxt şəhərləri olan Tiflis və Qori rumilərin əlinə keçmişdi. Osman paşa Dərbənd qalasında

978 Baş vəzir ali divana rəhbərlik etdiyi üçün "divan sahibi" adlanırdı. (Ş.F.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə, s.53).

979 Uşni (Uşnu) – Cənubi Azərbaycanda, Urmiya gölündən cənub-qərbdə, dağlar arasında yerləşmiş orta əsr şəhəri (Хамдаллах Казвини. Нузхат ал-кулуб /материалы по Азербайджану/. Перевод З.М.Буниятова и И.П.Петрушевского. Баку, 1983, с.48).

məskən salmışdı. Şəki və Şirvan[980] ləzgiləri isə Bürhanın oğlunun başına toplaşaraq, Osman paşanın və Dağıstan hakimlərinin dəstəyi ilə Şirvan məmləkətinə hücum çəkib, qızılbaş əmirlərinin o mülkdə rahat oturmasına imkan vermirdilər. Rumilər o vilayətin işğalını qarşıya məqsəd qoymuşdular. Rum qoşununun sərdarı Ərzurumda oturaraq, Bəhram paşanı otuz min nəfərlə azuqə və yaraqla birlikdə adı çəkilən qalalara göndərmiş, Ərzurum bəylərbəyisi Həsən paşanı isə qırx min nəfərlə İrəvan tərəfə yollamışdı. İmamqulu xan və Qarabağ əmirləri Simayun xan Gürcü ilə birləşərək, azuqə və yaraq gətirən rumilərlə vuruşdular, rumilərdən çox sayda adamı qətlə yetirdilər və xeyli azuqə, yaraq, saysız-hesabsız qənimət ələ keçirdilər. Məhəmmədi xan da Həsən paşa ilə mərdliklə döyüşdü. Belə ki, Həsən paşa İrəvanda bir gecədən artıq qala bilmədi. Lakin bütün bunlara baxmayaraq, onların igidlikləri hadisələrin gedişatına təsir edə bilmədi. Lələ paşa Ərzurumda oturaraq,[981] qarşıdakı yürüşə hazırlıq görməklə məşğul idi.

Belə bir şəraitdə qüdrətli dövlətin dayaqları olan şəxslər məsləhət gördülər ki, qələbə ayətli bayraqlar Azərbaycan tərəfə hərəkətə gəlsinlər, bir müddət darüssəltənə Təbriz əbədi dövlətin qərargahı olsun və öz irsi məmləkətlərini düşmənlərin hücumundan qoruyub meydana gəlmiş münaqişəni tədbirin gücü və qılıncın qüvvəsi ilə həll etsinlər. O vaxt Əmir Həmzə xan Ustaclu, Vəli xəlifə Şamlu, Şahqulu sultan Qarınca Ustaclu və başqaları kimi bəzi məmləkət əmirləri ulu dərgahda idilər. Onlara Xorasanda ölkələr verib yola saldılar. Calal bayraqları uğurlu bir saatda darüssəltənə Qəzvindən çıxaraq, mənzilbəmənzil, yavaş-yavaş məsafələri qət edib, darüssəltənə Təbrizə çatdılar. Əmir xan və ona tabe olan əmirlər tamam-kamal şövkətlə onları qarşılamağa çıxdılar. Təbriz camaatından çox sayda xalq - sahibkarlar və əyanlar, kiçiklər və böyüklər, cavanlar və qocalar padşahın məiyyətini qarşılamağa gəldilər. Şah və adlı-sanlı şahzadə Təbrizin qədim dövlətxanasına təşrif gətirib, dövlətin mərkəzində və ata-babalarının səadətli məskənində qərar tutdular və Əmir xana hər cür hüsn-rəğbət göstərdilər[982]. Tay-tuşları arasında məhz o, bu [Səfəvi] sülaləsinə qohum olmaq şərəfinin imtiyazını qazandı və cənnətməkan şahın pakizə qızı Fatimə-sultan bəyim ona ərə verildi, onların arasında nikah bağlandı.

Bu əsnada Şirvan tərəfdən xəbər gəldi ki, Məhəmməd Gəray xan Tatar oraya gəlib çatmışdır. Bu mövzunun təfsilatı belədir ki, camaat arasında məşhur olduğu kimi, qızılbaş padşahının Adil Gəray xana izzət və ehtiram göstərərək onu öz diyarına göndərmək fikrində olması və hal-hazırda onun tamam-kamal mehribanlıq və cansağlığı ilə padşahın sarayında qalmaqda olduğu haqqında xəbər Məhəmməd Gəray xana çatdıqda o, Adil Gəray xanın anasını etimadlı şəxslərdən

---

[980] S-129, v.212b-də və B-589, v.20a-da Şirvan əvəzinə səhvən Şabran yazılmışdır.
[981] S-129, v.212b; S-297, v.166a-b.
[982] Şah ordusu Təbrizə 27 şaban 987-ci / 19 oktyabr 1579-cu ildə daxil olunmuşdur (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.169).

bir dəstənin müşayiəti ilə şahanə töhfələr və hədiyyələrlə göndərməyi qərara aldı ki, Dərbənd yolundan Şabrana gəlib şəhriyardan izin istəyərək, möhtərəm oğlunu öz vilayətinə aparsın və o gündən etibarən aralıqda məhəbbət və dostluq üsulu ilə münasibət saxlanılsın. Lakin Adil Gəray xanın öldürülməsindən sonra xəbər gəlib çatdı ki, tatar padşahı onun qanının intiqamını almaq üçün və ya Rum xondgarının hökmü və işarəsi ilə və yaxud da ki, qənimət ələ keçirmək məqsədi ilə Cuci mənşəli tatar sultanzadələri sırasından Adil Gəray xanın qardaşları Qazi Gərayı, Səfi Gərayı və Səadət Gərayı öz qardaşlarının qanının qisasını almaq adı altında şücaət nişanəli qoşunla Şirvana göndərmişdir. Onlar Dərbənddə Osman paşanın yanına çatdıqda Məhəmməd xəlifə onların gəlişi barədə həqiqəti xilafət məqamlı taxtın ətəklərinə çatdırdı. Yenidən «kəngaş» qurulub qərar verildi ki, şah və şahzadə həzrətləri səadət və bəxtəvərliklə sözügedən darüssəltənədə [Təbrizdə] qışlaq etsinlər, Mirzə Salman isə qoşunların əmir və əyanları ilə birlikdə Şirvan səmtinə gedərək, tatar qoşununun dəf olunması ilə məşğul olsunlar. Ali dərəcəli əmirlər vəzir Mirzə Salmanla birgə Şirvan səmtinə yollandılar. Xəlil xan Əfşarla bəzi ağsaqqallar və mənsəb sahibləri isə şahın və şahzadənin hüzurunda qaldılar. Məhəmməd xəlifə müzəffər ordunun gəlişindən xəbərdar edildi.

Məhəmməd xəlifənin öldürülməsi və Şirvanda döyüş. Amma hələ əmirlər Qarabağa çatmamışdılar ki, tatar sultanları çoxlu qoşunla Şirvana soxuldular. Məhəmməd xəlifə Zülqədər, həqiqətən də, şücaətli və qəhrəman bir kişi idi. O, fərar etmək ayıbını özünə yaraşdırmayıb, şücaət nişanəli kiçik bir qoşunla düşmənlərin qarşısını almağa tələsdi. Samur çayı kənarında[983] iki tərəf arasında olduqca ağır bir döyüş baş verdi. Düşmən qoşunu qızılbaş qoşunundan sayca çox olduğundan qızılbaşlar məğlubiyyətə düçar oldular. Məhəmməd xəlifə öz qoşununun igidlərindən çoxusu ilə birlikdə həlak oldu. Qılıncdan qurtulanlar Şirvandan çıxdılar. Tatarlar Şirvanda və Qarabağda çoxlu dağıntılar törətdilər, müsəlmanların qadınlarının və qızlarının bir çoxlarını əsir apardılar və bir dəqiqə də olsun, soyğunçuluq və qarətçilikdən əl çəkmədilər. Bu hadisənin baş verməsindən sonra Məhəmməd Gəray xan qızılbaşlara köməyin gəlməsi haqqında xəbəri eşidərək, bolluca qənimət ələ keçirmiş tatarlardan bir dəstə ilə birlikdə geri qayıtmaq təbillərini döyəcləndirdi və onlar öz vilayətlərinə çıxıb getdilər. Lakin Qazi Gəray iki-üç nəfər digər qardaşları ilə bərabər bir dəstə əsgərlə Osman paşaya yardım etmək üçün Dağıstanda və Dərbənddə qaldı. Hadisələrin gedişatı zamanı payimal olmuş Şirvanın əhlinin bir qismi Osman paşanın yanına qayıtdı, Şirvan tüğyançılarının digər bir hissəsi isə Bürhanın oğlunun başına cəmləşib, Xaçmazda[984] toplaşdılar və öz hallarını hifz etməyə çalışdılar.

---

[983] S-129, v.213b. Digər nüsxədə (S-297, v.167a) sadəcə «su (yəni çay) kənarında» yazılmışdır.

[984] Tehran çapında (s.253) Xaçmaz əvəzinə Xaxmir, S-297 nüsxəsində (167a) Cahmir, B-589 nüsxəsində (v.21b) işə Cacmir yazılmışdır. Yalnız S-129 nüsxəsində (v-217a) doğru olaraq Xaçmaz qeyd edilmişdir.

Elə ki Mirzə Salman və əmirlər Şirvana çatdılar, hadisədən agah oldular. Əmir xan Türkman öz tabeçiləri ilə birlikdə Xaçmazda toplaşmış Şirvan və Dağıstan müxaliflərindən ibarət dəstənin üzərinə getsə də, bir iş görə bilməyərək, geri qayıtdı. Bu səbəbdən Şahrux xanın himayəsi ilə şamlulardan və ustaclulardan ibarət bəzi qızılbaş əmirləri sözügedən şəxsə (Əmir xana) qarşı etiraz etdilər. Şahrux xan istədi ki, özü dəstə başçısı olub o tərəfə (Xaçmaza) yollansın. Lakin bu fikir Əmir xana ağır gəldi. Onların arasında inciklik və münaqişə yarandı. Əmir xan bu məsələni qoşun sərkərdəsi olan Mirzə Salmanın təhriki olduğundan şübhələnib, mübahisəyə başladı. Qızılbaş əmirləri iki dəstəyə bölündülər və hər dəstə bir qırağa çəkildi. Hər iki tərəfin cahilləri əsləhə və yaraq qurşanaraq, bir-birlərindən xoflu və ürkək olub, tədbirli və ehtiyatlı davranmağa başladılar. Nəcib fikirli bir adam olan qorçubaşı məsələni yoluna qoymaq mövqeyi tutaraq, onların arasında barışıq yaratdı və Şahrux xan Xaçmaza getməkdən əl çəkdi. Bununla da həmin iki dəstənin arasında düşmənçilik qapıları zahirən bağlansa da, amma nifaq alovu onların içərisindəki manqalda alışmağa davam etdi.

Sözün qısası, böyük əmirlər müxtəlif hadisələr səbəbindən, xüsusilə də ölkənin xarabalığı, azuqənin olmaması, qəhətlik, bahalıq və ən başlıcası, öz aralarında nifaqın baş qaldırması və ittifaqın olmaması ucbatından Dərbənd qalasını ələ keçirməyə, Osman paşanı məğlub etməyə və Şirvanı öz əllərində saxlamağa nail ola bilmədilər. Şirvanı əmirlərdən hansı birinə təklif etdilərsə, qəbul etmədi. Əlacsız qalıb, geri qayıtmağı qərara aldılar. Köç edərək, bir-birləri ilə rəqabət halında darüssəltənə Təbrizə daxil olub, şahın və yüksək məqamlı şahzadənin hüzuruna gəlmək şərəfinə qovuşdular. Bu ildə əksər mahallarda qəhətlik və bahalıq baş qaldırdı. Təbrizdə yoxsullardan və az təminatlı adamlardan bir çoxları çörək çatışmazlığı ucbatından can verdilər. Bütün Azərbaycan, Qarabağ, İraq və Gilan vilayətlərində səfalət və möhtaclıq yayıldı və xalq çoxlu əzab-əziyyət çəkdi.

## SULTAN HÜSEYN XAN ŞAMLUNUN GETMƏSİNDƏN SONRA XORASAN VİLAYƏTİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR VƏ ƏHVALATLAR HAQQINDA

Bundan öncə gözəl yazan qələmlə qeyd olundu ki, Durmuş xanın nəvəsi Sultan Hüseyn xan öz əsilzadəliyinin, mənsubiyyətinin və əvvəlki xidmətlərinin haqqı müqabilində ulu dərgahda uca şamlu tayfasının ağsaqqalı idi və o tayfaya dair heç bir iş onun razılığı və məsləhəti olmadan həll edilməzdi. Amma onun oğlu Əliqulu xanın qiyamı barədə xəbər ali xanımın qulağına çatdıqda Məryəm söhrətli Xanım Məhdi-Ülya onunla danlaq və məzəmmət dili ilə danışmağa başlayaraq, onu Xorasana getməyə və oradan özünün səltənət nişanlı möhtərəm oğlunu (Abbas mirzəni) gətirmək üçün təşəbbüs göstərməyə məcbur etdi. Həmçinin ona qarşı iltifatsızlıq göstərilməyə başlandı. Belə ki, Sultan Hüseyn xanın razılığı alınmadan

Xoşxəbər xan Şamlunu Fuşənc və Quryan hakimi təyin edərək, o tərəfə yolladılar. Bu [sonuncu adı çəkilən] şəxs orada Xanım Məhdi-Ülyanın şəfqətindən faydalanaraq, yekəxanalıq etməyə başlayıb, həddini aşdı və cənnətməkan şahın zamanında hətta böyük xanların və bəylərbəyilərin etməyə qüdrətləri və ixtiyarları çatmayan davranışlar nümayiş etdirdi. Məhdi-Ülyanın onu dəstəkləməsi imkan vermirdi ki, Əliqulu xan ona bir zərər yetirsin. Əliqulu xan onun yekəxana hərəkətləri müqabilində özünü görməməzliyə vururdu.

Nəhayət, Sultan Hüseyn xanın getməsindən sonra Xorasan əmirlərinin əksəriyyəti ali məqamlı şahzadə [Abbas mirzənin] tərəfdarı və Əliqulu xanın müttəfiqi olmağı qərara aldıqlarına görə sözügedən şəxs (Xoşxəbər xan) təkəbbür və lovğalıq bayraqlarını dalğalandıraraq, bütün Xorasan işlərinin yüyənini öz ixtiyarının ovcuna və öz iqtidarının pəncəsinə almaq istədi. Bu səbəbdən Əliqulu xan Xoşxəbər xanın itaətsizliyinə bundan artıq tab gətirməyərək, onu tənbeh etmək üçün Heratdan Quryana getdi. Xoşxəbər xan müqavimət göstərməyə taqət tapmayaraq, Quryandan İsfizara qaçdı. Əliqulu xan onu təqib etmək üçün bir dəstə göndərdi. Yegan sultan tərəfindən İsfizar hakimi təyin olunmuş əfşar tayfasından olan Murad bəy Xoşxəbər xanı himayə etdi. İki tərəf arasında toqquşma baş verdi və neçə nəfər öldürüldü. Şamlular geri qayıtdılar. Yegan sultan Xoşxəbər xana izzət və ehtiram göstərərək, onu İraqa yolladı.

Bu hadisə [Əliqulu xanla müttəfiq olan] əmirlərin kin-küdurətinə səbəb oldu. Əliqulu xan Quryanda olarkən ali xanımın ölümü xəbəri ona çatdı. O, oradan darüssəltənə Herata qayıdıb, qışı başa vurdu və 988-ci ilə (17.02.1580 - 04.02.1581) uyğun gələn luy ilinin əvvəllərində Yegan sultanı və onun tabeçilərini cəzalandırıb tənbeh eləmək məqsədi ilə darüssəltənə Heratdan çıxıb, İsfizara yollandı. [Yuxarıda] adı çəkilmiş Murad bəy onun gəlişindən xəbər tutub fərar edərək, Fəraha getdi və Əliqulu xan İsfizar vilayətini şamlu tayfasına verib, geri döndü.

***Mürşüdqulu xanın Məşhəd hakimi Mürtəzaqulu xana nəsihəti.*** Amma müqəddəs və ulu Məşhədin hakimi və Xorasanın yarısının bəylərbəyisi olan Mürtəzaqulu xan Pornak Türkman öz əzəmət və iqtidar dükanını Əliqulu xandan daha artıq dərəcədə bəzəyərək ona məhəl qoymurdu və onlar arasında vəhşət səbəbləri peyda olmuşdu. O, Sultan Hüseyn xanın getməsindən və möminlər şəhəri Səbzəvarda cəmləşmiş böyük əmirlərin dağılışmasından sonra, oranın hakimi olan, onun tabeçiliyində olmasına baxmayaraq, Əliqulu xanla həmrəylik nümayiş etdirən və ona qarşı iltifatsızlıq göstərən Qubad xan Qacarın tənbeh edilməsi üçün çoxsaylı və izdihamlı bir qoşunla müqəddəs və ulu Məşhəddən çıxıb, darülmöminin Səbzəvara çatdı. Qubad xanın müqavimət göstərməyə gücü çatmadı. O, Mürtəzaqulu xanın qoşunlarının gəlib çatmasından sonra üzrxahlıq etmək məqamına gələrək, qaladan çıxdı. Mürtəzaqulu xan onu danlaq və məzəmmət hədəfinə çevirərək, etibardan saldı və onu özü ilə müqəddəs və ulu Məşhədə aparıb, Səbzəvarı öz adamlarına tapşırdı. Əliqulu xan İsfizardan qayıdandan sonra

bu xəbəri eşitdi. Qeyrət odu onun içindəki manqalı alovlandırdı. O, kama yetmiş cavanbəxt şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın səadətli məiyyətində Mürtəzaqulu xana qulaqburması vermək üçün darüssəltənə Heratdan çıxaraq, özü ilə əhdü-peyman bağlamış əmirlərin yanına adam göndərdi. Əliqulu xanla müttəfiq olmağı qərara almış Mürşüdqulu xan, Mahmud xan Sufioğlu, Vəli xan Çərxçi və s. əmirlər ali məiyyətə qoşuldular.

Bu əsnada ali divanda Xorasan əmirlərinin bəzilərinin öz tiyullarından məhrum edilməsi barədə qərar verilmiş və onların tiyullarına sahib olmaq üçün Vəli xəlifə Ovçu Şamlu, Abdulla xan Ustaclunun oğlu Əmir Həmzə xan, Şahqulu sultan Qarınca və başqaları Xorasana göndərilmişdilər. Bu xəbərin Əliqulu xanın ordusunda yayılması ona səbəb oldu ki, ölkəsi alınmış əmirlərdən hər biri həvəslə və rəğbətlə öz yalvarış əllərini Əliqulu xanın ətəyinə uzadaraq, ona əvvəlkindən daha artıq dərəcədə tabeçilik və itaət göstərdilər. Buna görə də şahzadə Abbasın ordusunda tam birlik meydana gəldi. Mürşüdqulu xan və digər əmirlər Mürtəzaqulu xanı öz yekdilliklərindən və ittifaqlarından agah edib, ona nəsihət göndərdilər: «Biz və siz, hamımız bu [Səfəvi] dərgahının tərəfdarları və dövlətsevərləriyik, İsgəndər şanlı nəvvabı öz mürşidimiz və vəlinemətimiz bilirik və xəyalımızın səhifəsində o dərgaha müxalif çıxmaq barədə bir söz də olsun, yazılmayıbdır. O ki qaldı bizim kama yetmiş adlı-sanlı şahzadə [Abbas mirzənin] və ali mənsəbli [Əliqulu] xanın tərəfdarı olmağımıza, biz bu işi görərkən iki şeyi nəzərə almışıq. Birincisi odur ki, hal-hazırda Rum padşahı əvvəlki nıüqaviləni pozaraq, Azərbaycan və Şirvan məmləkətlərinin işğalına girişmişdir. İndi o sərhəddə çaxnaşma və qarışıqlıqdır və bizim padşahımız İraq və Azərbaycan qoşunları ilə birlikdə onların fitnəsini dəf etməklə məşğuldur. Belə bir şəraitdə ehtimal var ki, özbək sultanları da fürsəti qənimət bilib, Xorasan məmləkətinə basqın edərlər. Darüssəltənə Herat Xorasanın taxtgahı olduğundan, bizim və sizin vəlinemətimiz olan dünya sakinlərinin şahzadəsi [Abbas mirzənin] iqamətgahı o şəhərdə yerləşdiyindən, əsl niyyətimiz odur ki, böyük əmirlər arasında tam uzlaşma və yekdillik mövcud olsun və kin-küdurət, nifaq ortalıqdan götürülsün ki, əgər Allah eləməmiş, bir hadisə üz verərsə, padşah tərəfindən bir kömək göstəriləcəyi təsəvvür olunmadığı səbəbindən hamımız bir-birimizlə yekdil və dilbir olub, öz hökmdarımızın oğlunun başına toplaşaq, onun müqəddəs üzəngisinin həndəvərində duraraq, düşmənin şər hərəkətlərinin dəf edilməsi ilə məşğul olaq və o həzrətin lələsi olan Əliqulu xanı qüdrətli dövlətin xeyri naminə ağsaqqal və «xanlar xanı» hesab edib, onun məsləhətindən və qərarından boyun qaçırmayaq. Çünki əgər bizim aramızdakı nifaq və ittifaqsızlıq barədə xəbərlər bizə müxalif olan özbəklərin qulaqlarına çatarsa, onlar hərəkətə keçməyə cürət edərlər və bunun nəticəsində ehtimal var ki, çeşidli fəsadlar üz verər və bu mülkün vəziyyəti bərbad olar.

Dövlətçilik yaranar ittifaqdan,
Dövlətsizliksə törəyər nifaqdan.

İkincisi isə odur ki, ulu dərgahda səltənət məsələlərinin yüyəninin və dövlət işlərinin idarə olunmasının vəzir Mirzə Salmanın və əmirlərdən bir neçə nəfərin ixtiyarında olduğu hamıya aydındır. Onlar üstəlik bizim öz tiyullarımıza olan hüququmuzu ləğv edərək, bizim etibarımızı azaltmağa çalışırlar. Lakin nə biz, nə də ki siz, istər ata-babalarımızın sabiq xidmətləri, istərsə də əslimiz və kökümüz baxımından onlardan heç də əskik deyilik, bəlkə də, xidmətimizin, sədaqətimizin və ixlasımızın səviyyəsinə görə hamıdan irəlidəyik və say çoxluğu cəhətdən də onlardan üstünük. Bir halda ki, İraqın, Azərbaycanın, Fars və Kirman hüdudlarının məsələlərinin idarəçiliyi onların əlində cəmləşibsə, onda ola bilər ki, Xorasan məsələləri də bizdən asılı olsun və hər barədə nəyi ki, dinin və dövlətin xeyrinə uyğun bilərik, ona əməl edərik. Bu məsələ Xorasandakı böyük əmirlərin xoşuna gəlib və onlar sözügedən «xanlar xanı» ilə əhdü-peyman bağlayıblar. Dövlətə layiq olan odur ki, o cənab (Mürtəzaqulu xan) da digər əmirlərlə həmrəylik nümayiş etdirərək, şahzadənin mülazimi olmaq və «xanlar xanı» ilə görüşmək izzəti ilə əzizlənib, küdurət və nifaq qapılarını bağlasın və bu işin üstündə etibar zinətindən məhrum etdiyi Qubad xana üzrxahlıq edərək, onu Səbzəvara göndərsin».

Amma Mürtəzaqulu xan təkəbbürlü və özündənrazı bir kişi idi. O, bu təklifi qəbul etmədi. Özünün pornak oymağına mənsubluğuna, təkəlü və türkman tayfaları ilə şamlu və ustaclular arasında köhnə ədavət mövcud olduğuna görə o, onlara etimad bəsləmədi onlara cavab olaraq kobud sözlər, yöndəmsiz xəbərdarlıqlar göndərdi, mülayimlik və dostluq qapılarını tamamilə bağladı, onların hərəkətlərini İsgəndər şanlı nəvvaba qarşı üsyan, tüğyan və müxaliflik etmək kimi dəyərləndirib, özünü «şahısevən» elan etdi, onları isə «yağı» və «qiyamçı» adlandırdı və bu əhvalat barədə xəbərləri qəbahətli bir tərzdə ali taxtın ətəklərinə çatdıraraq, bir-birinin ardınca Azərbaycana öz nümayəndələrini göndərdi.

***Məşhəd hakimi Mürtəzaqulu xanın Herat hakimi Əliqulu xanla döyüşü.*** Xülasə, bu iki firqə arasında münaqişənin və ixtilafın bünövrəsi möhkəmləndi. Əliqulu xan və onun ardıcılları Mürtəzaqulu xanı dəf etməyi və müqəddəs Məşhədi ələ keçirməyi qarşılarına məqsəd qoydular. Onlar səy göstərib, tərtibə salınmış qoşunla o tərəfə üz tutdular və bu zaman Xorasana gəlmiş İraq əmirləri arasından ilk olaraq Vəli xəlifə Şamlu müqəddəs Məşhədin yanına gəlib çatdığına görə onun qarşısını almaq üçün onun gəldiyi yolun üstünə qüvvə göndərdilər. Orada iki tərəf arasında döyüş və vuruş baş verdi. Vəli xəlifə məğlubiyyətə uğrayaraq, Mahmud xan Sufioğlunun mülazimlərinin əlinə düşdü və qətlə yetirildi.

Vəli xəlifənin öldürülməsindən sonra Əliqulu xan və onun ardıcılları müqəddəs Məşhədə çatdılar. Mürtəzaqulu xan öz tabeçiliyindəki əmirləri və öz adamlarını, məsələn, Xəbuşan hakimi Budaq xan Çəkənini, Nişapur hakimi Dərviş Məhəmməd xan Rumlunu, Tun hakimi Süleyman xəlifə Türkmanı, Cam hakimi Şahqulu sultan Əfşarı və başqalarını toplayıb, döyüş şəraitini müzakirə etdi.

Şəhərin bayırında iki izdihamlı güruh bir-birinin qarşısında savaş səflərini tərtib etdi. Hər iki tərəfin igidləri mübarizə meydanına ayaq qoydular. Hər iki tərəfdən əmələ gətirilmiş çoxlu səylərdən və qırğınlardan sonra şamlu və ustaclu tayfalarının igidləri şücaət ayaqlarını önə qoyub, türkman qoşununun səfi üzərinə cumdular, qələbə və zəfər əlamətlərini peyda etdilər. Onların (şamlu və ustaclu tayfalarının) igidlərinin zərbələri altında türkman tayfasının əhvalına sarsıntı yol tapdı. Hərçənd Mürtəzaqulu xan öz sabit və dayanıqlı ayağını möhkəmlədərək, öz adamlarını döyüşə həvəsləndirsə də, baş tutmadı. O, zərurət üzündən öz yüyənini müharibə meydanından çevirib, məğlubiyyət vadisinə üz qoyaraq, uduzmuş və bədhal bir vəziyyətdə şəhərə gəldi, bürcləri, qala divarlarını və darvazalarını möhkəmlətməyə məşğul oldu və qalanın müdafiəsi üçün lazım olan avadanlığı hazır etməyə baş qoşdu. Şamlu və ustaclu tayfaları az qala darvazanın ağzınacan gəlib, bir çoxlarını yaraladılar və qətlə yetirdilər. Bu vurhavurda [İmam Rzanın] müqəddəs astanasının mütəvəllisi vəzifəsini tutan və ələmin altında dayanmış olan Mir Əbdülkərim əsgərlər tərəfindən tanınmadan qətlə yetirildi. Türkmanlarla bir yerdə olan Qubad xan Qacar şamluların tərəfinə keçdi. Əmirlərdən Cam hakimi Şahəli sultan Əfşar əsir alındı. Vəli xəlifənin ardınca gəlməkdə olan Əmir Həmzə xan və Şahqulu sultan Qarınca Ustaclu onun öldürülməsinin və Xorasandakı çaxnaşmaların xəbərini aldıqda geri qayıtmaq təbillərini döyəcləyib, İraqa qayıtdılar.

Sözün qısası, Əliqulu xan və Mürşüdqulu xan müqəddəs Məşhəd şəhərini mühasirəyə aldılar. Mühasirənin müddəti dörd ay davam etsə də, fəth və zəfərin surəti görünmədi. Bu zaman Dərviş Məhəmməd xan müqəddəs Məşhədin hakiminin yanında idi və onun hakimi olduğu Nişapur qalası qüdrət sahibi olan bir harisdən məhrum qalmışdı. Əliqulu xan və onun silahdaşları məsləhət bildilər ki, Nişapur şəhərinə yollanıb, oranı ələ keçirərək, Mürtəzaqulu xanın ətrafını və yan-yörəsini onun dostlarından və yoldaşlarından təmizləsinlər və daha sonra onun özünü dəf etməklə məşğul olsunlar. Onlar bu fikirlə müqəddəs Məşhədin mühasirəsindən əl çəkib, Nişapura yollandılar. Dərviş Məhəmməd xan bu məsələdən agah olub, Mürtəzaqulu xandan rüxsət alaraq, Nişapura yollandı və özünü onlardan əvvəl şəhərə yetirdi. O, qalanı müdafiə etmək fikrinə düşdü. Amma Əliqulu xanın və onun silahdaşlarının Nişapura çatdığı vaxt Dərviş Məhəmməd xan qalanı müdafiə etmək üçün lazım olan hazırlıqları hələ tam həyata keçirə bilməmişdi. Buna görə də o, vəziyyətdən çıxış yolunu itaət və tabeçilikdə görərək, mülayimlik qapısını döydü və əhdü-peyman ilə qaladan bayıra çıxıb, kama yetmiş şahzadəyə səcdə etməyə və ali mənşəli xanla görüşməyə feyzyab oldu. Onlar onun Nişapurda qalmasını vəziyyətə müvafiq hesab etməyib, o vilayəti Mürşüdqulu xana tapşırdılar. Bu [sonuncu] adı çəkilən şəxs öz etimadlı adamlarını qalada qoyaraq, Dərviş Məhəmməd xanı da özü ilə birlikdə götürüb, Mürtəzaqulu xanın qardaşı Fərrux xanın ixtiyarında olan Türbəti-Heydəriyyə [qalasına] yollandı. Fərrux xan da Dərviş Məhəmməd xan kimi əhdü-peymanla qalanı təslim edib, müqəddəs

Məşhədə getdi və Əliqulu xan bu vilayəti Nişapurun əvəzində Dərviş Məhəmməd xana verərək, ona tapşırdı ki, adam göndərib, öz camaatını oraya köçürsün.

Bu hadisələrdən sonra Əliqulu xan adlı-sanlı şahzadənin, yəni əlahəzrət Şah [Abbasın] məiyyətində darüssəltənə Herata üz tutdu, digər böyük əmirlər isə rüxsət alaraq, hərəsi öz ölkələrinə getdilər. Əliqulu xan köç edib getdikdən sonra Dərviş Məhəmməd xan onlarla müttəfiq olduğuna və Nişapur ölkəsindən əl çəkdiyinə peşman olaraq, yanında olan rumlu tayfasından ibarət bir dəstə ilə birlikdə Türbəti-Heydəriyyədən sürətlə hərəkət edib, özünü Nişapura çatdırdı və heç düşünmədən şəhərə daxil oldu. Onun əksər adamları hələ Nişapurda idilər. Onlar onun gəlişindən agah olub, onun başına toplaşdılar və o, Mürşüdqulu xanın adamlarını şəhərdən çıxararaq, əvvəlki təki orada hökumət işləri ilə məşğul olmağa başladı. Əliqulu xan [Herata] qayıdan vaxt, yolda ikən bu xəbəri eşitdi. Lakin ordu səpələndiyindən və yol uzaq olduğundan o, zamanın tələbini nəzərə alaraq, Dərviş Məhəmməd xanın törətdiyi bu yöndəmsiz hərəkətə etina etməyib, bu məsələnin yoluna qoyulmasını növbəti ilə saxladı və darüssəltənə Herata çatıb, eyş-işrətlə məşğul oldu.

Mürtəzaqulu xan və müqəddəs, ulu Məşhədin sakinləri mühasirə sıxıntısından xilas olduqdan sonra qoşunların gəliş-gedişi ucbatından müqəddəs və ulu Məşhədin hüdudunda baş vermiş xarabalıqları və dağıntıları bərpa etməklə məşğul oldular. Mürtəzaqulu xan bu vəziyyət barədə xəbərləri ali taxtın ətəklərinə çatdırdı. Şirvandan darüssəltənə Təbrizə qayıtmış Mirzə Salman və əmirlər bu xəbərləri aldıqda onların əhvalı pozuldu. Bu zaman Xorasandan qayıdıb darüssəltənə Qəzvinə çatmış Sultan Hüseyn xan bəzi nalayiq əməllərə baş qoşmuşdu. Belə ki, öz divan vəkilləri onu varlıların mallarını müsadirə etməyə həvəsləndirdilər və tuthatut bazarı rəvac tapdı. O mülkün əhalisindən bir çoxlarının və müxtəlif diyarlardan həmin şəhərə gəlib oraya toplaşmış tacirlərin və zənginlərin əhvalına ziyan dəydi. Cahillərin və bədzatların təhriki ilə o məmləkətin sakinlərindən bolluca nəqd pullar və mallar müsadirə olunaraq, ağılsız məsrəflərə xərcləndi. Lakin onun etibar kisəsində bədnamlıqdan və köməksizlikdən savayı heç nə qalmadı. Üstəlik, o, ulu dərgaha gəlməkdə də gecikərək, yubanmağın müddətini həddən aşırdı. Şanlı ordunun fəsadçıları və bəhanə axtaranları bu yöndəmsiz hərəkətləri əsas gətirərək, onu müxaliflikdə və üsyanda ittiham etdilər və bu dəftərin sonrakı hissələrində aydınlıq gətiriləcəyi kimi, axırda dövranın gərdişi üzündən ona olan oldu.

# LUY İLİ OLAN 988-ci İLİN (17.02.1580-04.02.1581) ƏVVƏLLƏRİNDƏ ULU YARADANIN İRADƏSİ VƏ TƏQDİRİ İLƏ DARÜSSƏLTƏNƏ TƏBRİZDƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Bundan öncə bəyan qələmi ilə qeyd olundu ki, Şirvanda Əmir xan Türkmanla Şahrux xan arasında Xaçmaza getmək üstündə mübahisə baş qaldırmışdı, Pirə Məhəmməd xan Ustaclunun və eşik-ağasıbaşı Hüseynqulu sultan Şamlunun başçılıq etdikləri ustaclu və şamlu tayfaları da Şahrux xanın tərəfini tutub, türkmanlarla münaqişəyə başlamışdılar və axırda bu məsələ qorçubaşının səyi nəticəsində sülh və barışıqla başa çatmışdı. Bu əsnada Xorasandakı hadisələr və Əliqulu xanla Mürşüdqulu xanın gəlib müqəddəs və ulu Məşhədi mühasirə etmələri barədə xəbərlər Təbrizə çatdı. Əmir xan və türkman əmirləri söz-söhbətə başlayıb, şamlu və ustaclu tayfalarını üsyan və tüğyan etməkdə ittiham edərək, o iki tayfaya qarşı danlaq və məzəmmət etməyə başladılar. Həmçinin Sultan Hüseyn xanın xoşagəlməz əməlləri də onların bu iddiaları üçün əsasa çevrildi. Sultan Hüseyn xanın zövcəsi və Əliqulu xanın anası olan qadın, Nəvvabi-Cahanbani Sultan Həmzə mirzənin dayəsi idi. O, Heratdan əri Sultan Hüseyn xanla birlikdə İraqa gəlmişdi. Bu əsnada o qadın ali hərəmdə yaşayırdı və [Sultan Həmzə] mirzə cənablarının xidmətində analıq rütbəsinə malik idi. Onun qardaşı Hüseyn bəy [Sultan Həmzə] mirzə cənablarının vəziri idi və şamlu tayfasından olan bir çoxları mirzə cənablarının mülazimlərindən idilər. Məsələn, [Vəli] xəlifənin «Yoldaş» ləqəbinə malik olan oğlu İsmayılqulu bəy, mötəbər eşikağasıbaşı Hüseynqulu sultanın oğlu Mehdiqulu bəy, əmiraxurbaşı Fulad bəyin oğlu Əbülfəth bəy və Qorxmaz xanın oğlu Təhmasibqulu bəy şahzadənin yaxın adamlarından idilər. Türkmanlar o tayfaya həsəd apararaq, həmişə onların etibarını sarsıtmağa çalışırdılar. Mənsəb sahiblərinin bir-birləri ilə qarşıdurma vəziyyətində olması üçün Mirzə Salman da Nəvvabi-Cahanbaninin vəziri olan Hüseyn bəyin zəiflədilməsinə çalışır və Əmir xanın və türkman tayfasının tərəfini saxlayırdı.

Xülasə, Əmir xan, Məhəmməd xan Türkman, Müseyib xan Təkəlü və onların ardıcılları fürsət tapıb ərz etdilər:

- Bir halda ki, Əliqulu xanla Mürşüdqulu xan üsyan və tüğyan qaldırıblar və İsgəndər şanlı nəvvaba və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzəyə] qarşı müxalif çıxıblar, biz Əliqulu xanın anasının hərəmdə qalmasını lazım bilmirik və qüdrətli dövlətin dayaqları silkində qərar tutmuş şamlu və ustaclu tayfalarının bəd namlıq törətməyəcəklərindən əmin deyilik. Əgər onlar qızılbaşlar arasında saldıqları bu ikitirəliyi aradan qaldırıb şahla və adlı-sanlı şahzadə [Həmzə mirzə] ilə yekdil, dilbir və həmrəy olmasalar, onlara izzət və etimad göstərilməsi dövlətin xeyrinə deyildir.

Pirə Məhəmməd xan Ustaclu və Hüseynqulu sultan Şamlu isə onların dediklərini inkar edib, Xorasandan gələn xəbərləri oymaqlar arasında olan nifaq və ziddiyyətlə izah etdilər və dedilər:

- Allah eləməsin ki, şaha və kamına yetişmiş şahzadəyə qarşı bizim tərəfdən müxaliflik baş qaldırmış olsun. Bəlkə, Xorasan əmirləri Mürtəzaqulu xan Türkmanın Məşhəddə istiqlal davasına girişib Əliqulu xanın nüfuzunu sarsıtmağa çalışdığını və qızılbaşların arasında qarışıqlığın yaranması, rumilərin Azərbaycan və Şirvan məmləkətlərində istilaçılıq etmələri barədə xəbərlərin yayılmasını nəzərə alaraq, müxalif özbəklər tərəfindən də hər hansı bir hərəkətin olacağından və Xorasan əmirlərinin arasındakı nifaq, ziddiyyət və ittifaqsızlıq ucbatından məmləkətin əldən gedəcəyindən ehtiyat edirlər və məhz bu səbəbdən bütün Xorasan əmirlərini adlı-sanlı şahzadə (Abbas mirzə) ilə müttəfiq etməyə çalışırlar ki, əgər bir hadisə üz verərsə, onun başına cəmləşsinlər, nifaq etməsinlər. Onların bundan özgə niyyətləri yoxdur. Yayılmış xəbərlər Mürtəzaqulu xanın yalanlarından və iftiralarından ibarətdir.

Bir neçə gün ərzində bu qalmaqal ortalıqda oldu. Tərəflərin hər ikisi yaraq qurşandılar və münaqişəyə hazırlaşmağa başladılar. Lakin nəcib fikirli sülhpərvərlərin vasitəçiliyi ilə barışıq əldə olundu. Heç bir tərəf layiq görmədi ki, bu məsələ qırğın və döyüşlə nəticələnsin və qan tökülsün. Amma elə ki, Vəli xəlifə Şamlunun öldürülməsi xəbəri aydın oldu, onun oğlu İsmayılqulu bəy özündən çıxıb, atasının qanının qisasını tələb etməyə başladı. Şamluların və ustacluların arasında həmişə anlaşma və dostluq mövcud olduğu üçün Əmir xanla təkəlü və türkman tayfaları onların arasında fəsad törətmək istədilər. Onlar bu fürsətdən yararlanıb, İsmayılqulu bəyə xatırlatdılar ki, Vəli xəlifənin [öldürülməsi] hadisəsi Sultan Hüseyn xanın və onun oğlu Əliqulu xanın buyuruğu ilə baş vermişdir. Onlar şamluların və ustacluların arasına fəsad saldılar, şaha və adlı-sanlı şahzadəyə ürəyəyatan sözlər ərz edərək, onları bu tayfalardan olan bəzi şəxslərdən bədgüman etdilər, Hüseyn bəyin bacısını hərəmdən çıxarıb, o günahsız arvadı boğub həlak etdilər və bu çirkin əməlin yaramazlığından narahat olmadılar. Onlar (təkəlü və türkman əmirləri) həmçinin İsmayılqulu xanı Sultan Hüseyn xanın əvəzinə Qəzvin hakimliyinə, xan rütbəsinə və təvaçıbaşı vəzifəsinə təyin etdirməyə nail oldular və Vəli xəlifənin qanının müqabilində Sultan Hüseyn xanın qətlə yetirilməsini ona həvalə etdilər.

***Hüseynqulu sultanın qətli.*** Bundan başqa, illərlə Vəli xəlifənin xidmətində boya-başa çatmış və ona mülazimlik edə-edə əmirlik dərəcəsinə qədər yüksəlmiş Qorxmaz xan Şamlunu eşikağasıbaşı mənsəbinə təyin etdirərək, Əliqulu xanın tərəfdarlarından olan eşik-ağasıbaşı Hüseynqulu sultanın işini bitirməyi onun öhdəsinə qoydular. Bu iki şəxs (İsmayılqulu bəy və Qorxmaz xan) həm Vəli xəlifənin intiqamını almaq, həm də əyalət və böyüklük sahibi olmaq naminə Sultan Hüseyn xanla Hüseynqulu sultanı onlara zidd olan kəslərin sözləri ilə öldürdülər. Əvvəlcə İsmayılqulu xanın qardaşları Mahmud xan Sufioğlu Ustaclunun qardaşını Surxab dağının[985] ətəyindəki məzarlıqda gəzərkən yaxaladılar və o günahsız insanı

[985] Surxab dağı – Təbriz yaxınlığındadır.

öz atalarının qanının qisası üçün qətl etdilər. Bununla da həmişə bir-birləri ilə müttəfiq olmuş şamlu və ustaclu tayfaları arasında ziddiyyət və münaqişə qapıları açılmış oldu. Gecəyarısı Xəlifə Ənsar Qaradağlu şamlulardan ibarət bir dəstə ilə Hüseynqulu sultanın evinin üstünə göndərildi. Onlar gedib onu qətlə yetirdilər. Vəzir Hüseyn bəy qaçıb aradan çıxsa da, iki-üç gün sonra Mirməftulbənd təkyəsində ələ keçirilib öldürüldü. Şamlu tayfası bu əməlləri türkmanların onları yoldan azdırması nəticəsində törədirdi. Lakin zahirən türkmanların bu işə müdaxiləsi yox idi. Buna görə də Pirə Məhəmməd xan intiqam almaq mövqeyi tuta bilmədi.

Xülasə, ali divan vəzirliyindən əlavə olaraq, şahzadə (Həmzə mirzə) cənablarının divan vəzirliyi mənsəbi də Mirzə Salmana aid olundu. «Yoldaş» ləqəbli İsmayılqulu xanın Qəzvin hakimi təyin olunması barədə hökm yazıldı və qərar verildi ki, o vaxtadək Qəzvində Sultan Hüseyn xanın xidmətində durmuş mülazimlər bundan sonra İsmayılqulu xanın mülazimləri olsunlar və Sultan Hüseyn xanı tutub, dərgaha gətirsinlər. Eşikağasıbaşı mənsəbi Qorxmaz xana tapşırıldı. Nəvvabi-Cahanbaninin eşikağasıbaşısı olmaq isə Piri bəy İnallu Şamluya həvalə edildi. Mustovfi Şahqazi Mirzə Salmana qarşı düşmənçilikdə və xilaf əhli ilə müttəfiqlikdə ittiham olunaraq, həbsə alındı və mustovfi əl-məmalik mənsəbi İsgəndər şanlı nəvvaba sabiq vaxtlarda xidmət göstərmiş Xoca Məhəmməd Bağır Herəviyə verildi.

İsmayılqulu xanın hakim təyin olunması barədə hökm Qəzvinə çatdıqda Sultan Hüseyn xan şəhərdən çıxıb, şəhərin ətrafındakı Çəkicəki yaylağına[986] getdi. Onun mülazimlərinin bir hissəsi şəhərdən çıxsa da, digər bir hissəsi hələ də şəhərdə qalmışdı. Onlar ondan gördükləri bütün yaxşılıqlara baxmayaraq, dünyapərəst adamların acgözlük qaydasına və zəmanə oğullarının adətinə uyğun hərəkət edib, ondan üz döndərdilər. Onun ordusunun cəmiyyəti təfriqəyə və pərakəndəliyə üz qoydu və o camaatın mötəbərləri İsmayılqulu xanın xidmətinə yetişməkdə bir-birlərindən qabağa düşməyə çalışdılar. O, (yəni Sultan Hüseyn xan) öz vəziyyətini müşahidə edib, əsir alınacağının qorxusu altında bir-iki nəfərlə birlikdə məxfi surətdə darülirşad Ərdəbilə yollanaraq, [Şeyx Səfinin] müqəddəs və mübarək məqbərəsinə sığındı. Bir müddət sonra şeyxavənd camaatı, xüsusilə də Şeyxşah bəyin qardaşı Vastar bəy lətif hiylələrlə onu oradan çıxarıb, onun düşmənlərinin əllərinə təslim etdi və o, qətlə yetirildi.

Təbrizdə cərəyan etmiş hadisələrdən sonra Mirzə Salman, qorçubaşı və Şahrux xan Möhürdar, Əmir xanla Pirə Məhəmməd xan arasında yenidən barışıq yaratdılar və onların arasında görüş və gediş-gəliş qapıları açıldı. Əmir xanın toyu təşkil edildi. Üç gün darüssəltənə Təbrizdə eyş-işrətlə məşğul oldular. Ötən il onunla izdivac bağlamış ismətin ən yüksək zirvəsinin Müştərisini (Yupiterini) və səltənət çadırının sakinini, yəni cənnətməkan şahın qızı Fatimə-sultan xanımı

[986] S-129, v.218b; S-297, v.171a.

dəbdəbəli bir tərzdə ər evinə köçürdülər. Əmir xan layiqli peşkəşlərlə şahın və adlı-sanlı şahzadə [Həmzə mirzənin] hüzuruna gəlib, layiqli xidmətlər yerinə yetirdi. O, daş-qaşlı tacdan, xəncər kəmərindən, şəmşirbənddən, daş-qaşlı qəbzə və qılafdan, daş-qaşlı yəhər-yüyənə malik atdan, qızıl toxumalı «çahar-rəğb»dən, qəbadan, «çahar-zəri»dən və s. geyim və paltarlardan ibarət hədiyyələrə layiq görüldü. O da öz növbəsində İsgəndər şanlı nəvvabın və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzə] cənablarının xidmət əhlinə, nədimlərinə və əyləncə sahiblərinə iftixarlı xələtlər bağışladı. Pirə Məhəmməd xanın və ustaclu tayfasının könlünü almaqdan ötrü və onun qızının Əmir xanın oğlu Sultan Murad xanın mənzilində olması (yəni Pirə Məhəmməd xanın qızının Əmir xanın oğlu Sultan Murad xanın arvadı olması) səbəbindən sağduş toyu tərtib etmək ona təklif edildi. Solduş toyunin təşkili isə Müseyib xan Təkəlüyə həvalə olundu. Onların hər biri öz mənzillərində şahanə toy edib, «toy ulusu»nu şahın və adlı-sanlı şahzadə [Həmzə mirzənin] xidmətinə göndərdilər.

Müseyib xan İsgəndər şanlı nəvvaba yaxınlığı cəhətdən özünün [şah nəsli ilə] qohum olmaq mərtəbəsinə ucalmaqda Əmir xandan daha layiq olduğunu düşünürdü və səltənət dənizinin pakizə gövhərini özü ilə bir sapa düzəcəklərini gözləyirdi (Fatimə-sultan xanımı ona verəcəklərini ümid edirdi). Lakin iş elə gətirdi ki, bəzi məsləhətlər üzündən onun bu arzusu baş tutmadı və bu böyük ərməğan Əmir xana nəsib oldu. Buna görə də sözügedən [solduş] toyunun təşkili ona təklif ediləndə o, əlini gözünün üstünə qoyub bu təklifi qəbul etməsinə və hökmdarın göstərişinə uyğun olan ləvazimatın tərtib olunması ilə məşğul olmasına baxmayaraq, bu türkcə rübaini deyib, İsgəndər şanlı nəvvabın hüzuruna göndərdi:

**Rübai**

«Ey şahi-cahan, bi-əsər oldu deməyim,
Tutdu qəm əli, ələm tikanı ətəyim.
Yüz ildəki xidmətimlə dərgahında,
Solduş əməyinə döndü axır əməyim»[987].

Bir sözlə, bu hadisədən sonra əmirlərin və oymaqların arasında münaqişə və düşmənçilik qapıları bağlandı. Həmçinin Şahəli mirzənin oğlu Salman xan da [şah nəsli] ilə qohum olmaq şərəfinə nail olundu və cənnətməkan şahın qızı Şəhrəbanu bəyim onun nikahına daxil edildi. Pirə Məhəmməd xan oymaq təəssübkeşliyi və Abdulla xanın sabiq xidmətləri üzündən onun [xeyir] işinin [təşkilini] öz öhdəsinə götürdü və nikah bağlamaq toyu onun (Pirə Məhəmməd xanın) evində tərtib olundu. Əmir xan da orada iştirak edib, rəsmi iltifat nümayiş etdirdi.

[987] Bakı nüsxələrində birinci misrada «deməyim» sözü əvəzinə «diləyim» yazılmışdır. Həmçinin bu əlyazmaların dördüncü misrasında «solduş» əvəzinə səhvən «sağduş» sözü qeyd olunmuşdur (S-129, v.219a; S-297, 171b).

Şirvan məmləkətini Salman xana və ustaclu əmirlərinə paylayıb, yola saldılar. Onlar Arazbar[988] yolundan gedərək, havanın isti olması səbəbindən Kür çayı kənarında Həmətərə [adı] ilə məşhur olan yaylaqda məskən salıb, qoşun, azuqə və yol ləvazimatı toplamaqla məşğul oldular ki, havalar düzələndən sonra çayı keçsinlər. Sözügedən əmirlərin böyüyü Salman xan idi. O, [Şirvan] bəylərbəyisi və Şamaxı hakimi təyin olunmuşdu. Ondan savayı, «Lələ» [ləqəbi] ilə məşhur olan Nəzər sultanın oğlu Hüseynqulu sultana, Eşik Əvəz Çavuşlunun oğlu Əliqulu sultana, Mustafa sultan Şərəflüyə, Ayğut bəyin oğlu Mehdiqulu sultan Çavuşluya, cagirlü, qaramanlu və s. oymaqlardan olan iki-üç nəfərə də Şirvan ölkəsində tiyullar verib, yola salmışdılar.

Bu ildə öz ölkəsini dörd il öncə tərk etmiş Kuhi-Giluyə hakimi Xəlil xan Əfşar bir qələndərin qiyam qaldırması və Kuhi-Giluyədə baş verən çaxnaşma və fəsad ucbatından Kuhi-Giluyəyə getməyə rüxsət aldı. Bu əhvalat və Xəlil xanla övladlarının başına gələnlər öz yerində qeyd olunacaqdır. Qərara alındı ki, Fars bəylərbəyisi Xəlil xan Zülqədər tabeçiliyindəki əmirlərlə və Kirman hakimi Vəli xan Əfşarla birlikdə Azərbaycan yasağına[989] yollansınlar.

## HÖKMDAR MƏİYYƏTİNİN ƏŞKƏNBƏR VƏ KƏLƏNBƏR YAYLAĞINA YOLLANMASI, QARABAĞDA QIŞLAQ ETMƏSİ, VƏZİRİ-ƏZƏM SİNAN PAŞANIN ELÇİ GÖNDƏRMƏSİ VƏ O ƏSNADA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Elə ki bahar təsirlərinə malik ürəyaçan günlər sona çatdı və Təbrizin havası istiləşməyə üz qoydu, qəhətlik və bahaçılıq əlamətləri şəhərdə sanki bir epidemiya kimi yayıldı. Hökmdarın məiyyəti yaylağa doğru hərəkətə gəldi və müzəffər ordu Əşkənbər və Kələnbərə[990] təşrif gətirdi. Bu vaxt Rum xondgarı «Qoca Sinan paşa» [adı] ilə məşhur olan[991] Sinan paşanı sərdar təyin edib, onu Osman paşaya kömək edərək Şirvan məmləkətinin qalan hissəsini və o hüdudu işğal etməyə göndərdi. Yuxarıda göstərilən şəxs hədsiz qoşunla Ərzuruma gələrək, əvvəlcə ali taxtın ətəyinə elçi gördərib, vəzir Mirzə Salmana mənasız sözlərlə dolu olan bir məktub yazdı. [Məktubun] ümumi məğzi belə idi: «Hansı vilayətə ki, Osmanlı qoşunu

988 Arazbar – Səfəvilər zamanında Qarabağ bəylərbəyiliyinə daxil olan bir nahiyə idi və Qarabağın Araz çayı sahilindəki ərazilərini əhatə edirdi.
989 Yasaq - burada hərbi əməliyyatlarda, müharibədə iştirak etmək üçün əyalətlərdəki qoşunların təyin olunmuş yerə gəlmələri mənasında işlədilmiş termindir. Hərbi toplanış mənasını verir. Ümumiyyətlə, qədim türk sözü olan yasaq bir neçə məna verir: qayda-qanun, cəza, əmr, səfərbərlik və ya hərbi toplanış, nizam-intizam, mühafizə dəstəsi (bax: H.H.Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, s.398). Müasir türk dilində qadağa mənasında da işlədilir.
990 Əşkənbər və Kələnbər yaylaqları Cənubi Azərbaycanın Qaracadağ (Qaradağ) vilayətində yerləşirlər (Хамдаллах Казвини. Нузхат ал-кулуб, с.46).
991 S-129, v.219b.

daxil olub və orada öz padşahının adına xütbə oxudubdur, həmin vilayətdən əl çəkmək Osmanlı qanununa ziddir. Bir halda ki, indi Şirvan və Şəki vilayətləri, Azərbaycanın və Gürcüstanın bəzi mahalları Osmanlı sülaləsinin mənsublarının işğalı altına keçib, əgər bundan sonra qızılbaşlar o mahallara basqın etməsələr, onlar o vilayəti islamın pənahı [olan Osmanlı sultanının] tabeçilərinin ixtiyarına buraxıb münaqişəni tərk etsələr və üzrxahlıq məqamında durub xondgar həzrətlərinə dostyana məktub yazaraq iş bacaran mötəbər elçi göndərsələr, onda bu xeyirxah (Sinan paşa) vasitəçi olacaq və xondgarı sülh etməyə rəğbətləndirəcəkdir. Əks təqdirdə Rum əsgərləri İran məmləkətlərinin işğalını davam etdirməkdən əl çəkməyəcəklər».

Özbaşına qızılbaş əmirləri, xüsusilə də Şahrux Möhürdar saysız-hesabsız Rum qoşununa qarşı durmağın öz qüvvətləri və qüdrətləri səviyyəsində olmadığını bilmələrinə və bununla yanaşı, bir-birləri ilə tam nifaqa malik olub, ittifaqsızlıq etmələrinə baxmayaraq, bu təklifə razı olmadılar və məktubun cavabında yazdılar: «Əgər siz cənnətməkan şahın zamanındakı şərtlərlə sülhə razı olsanız, qəbul edərik. Yoxsa öz razılığımızla heç bir qarış torpağımızı da [sizə] verməik və yüz min qızılbaşdan hətta biri də sağ qalana qədər bu yolda çarpışarıq. Sənin və on sənin kimisinin gəlməsindən qorxumuz yoxdur. O səadət sahibi (Sinan paşa) öz halını Ləlә paşanın halı ilə müqayisə etməsin. Çünki o (Lələ paşa) gələn vaxt bizim padşahımız İraqda idi və Azərbaycan əmirlərinin arasında birlik yox idi. İndi isə bütün qızılbaş qoşunu Azərbaycanda şahın məiyyətinə daxildirlər və döyüşə, vuruşa hazırdırlar. O ki qaldı Şirvan ölkəsinin Osmanlı sülaləsinin işğalı altına keçməsi barədə yazdığınıza, bu yanlışdır. Şirvan əvvəlki təki qızılbaş əmirlərinin ixtiyarındadır və Dərbənd qalasının dörd divarından savayı, [Şirvanın heç bir yeri] rumilərin əlinə keçməyibdir». Həqiqətən də, əgər o vaxt qızılbaşlar arasında birlik olsaydı, düşmənlərin «məmaliki-məhrusə»yə əl uzatmağa qüdrəti çatmazdı.

Nə isə, Sinan paşa sözügedən məktubun cavabından ehtiyatlanaraq, yürüşə başlamağı təxirə saldı və yenidən sülh məsələsini ortaya ataraq, bu dəfə mülayim bir tərzdə məktub yazıb bildirdi: «Osman paşa xondgar həzrətlərinin taxtının ətəyinə ərz edib ki, biz Şirvan məmləkətini zəbt etmişik. Əgər bu belədirsə, dövlətiniz üçün faydalı olan odur ki, bir daha Şirvan mülkünə qızılbaşlar tərəfindən hücum edilməsin. Hərgah siz bu barədə bir qalmaqal törətməsəniz, mən sülhə dair öhdəlik götürərəm». Bu tərəfdən həmin məktuba cavab yazıldı və vaxtın məsləhətinə görə, orada rəğbətli sözlər qeyd olundu. Sinan paşa qərar verdi ki, bu il hər iki tərəfin qoşunu öz yerlərində və öz məqamlarında qışlaq etsinlər və bir nəfər etimadlı şəxs rumilərdən və bir nəfər isə qızılbaşlardan Şirvana gedərək, oranın hər mahalını gəzib, rumilərin, yoxsa qızılbaşların ixtiyarında olduğunu müəyyənləşdirsinlər. O, bu işi yerinə yetirmək üçün Ömər ağa adlı bir şəxsi göndərdi, özü isə Ərzurumda qışlaq etdi.

Şahın səadətli məiyyəti də Naxçıvan yaylağından Qarabağa yollandı. Xorasan tərəfdən həyəcanlı xəbərlər gəlib çatırdı. Mürtəzaqulu xan bir-birinin

ardınca ərizələr göndərərək, Əliqulu xan Şamlu ilə Mürşüdqulu xan Ustaclunun və onların tərəfdarlarının üsyan və tüğyan etməsini bildirirdi. Bu səbəbdən, təcrübəli və bacarıqlı bir adam olan Məhəmməd xan Türkman Əliqulu xanın düşməni olan İsmayılqulu xan Şamlu, Qorxmaz xan Şamlu və s. kimi bir sıra əmirlərlə birlikdə, Xorasan əmirləri ilə danışıqlar aparmaq, onlarla Mürtəzaqulu xanın arasında yaranmış fitnə və fəsad alovunu söndürməyə çalışmaq və onları müxaliflikdən və üsyandan döndərmək üçün Xorasana göndərildi.

Bu əsnada Qazi Gəray xan və Səfi Gəray xan saysız-hesabsız qarətçi qoşunla sürətlə hərəkət edib, Şirvana gəldilər. Hələ qızılbaş bəylərbəyisi Salman xan və əmirlər öz düşərgələrində («yurt»larında) oturub, Şirvana getməmişdilər. Tatarlar Şirvanda qızılbaşlardan bir əsər-əlamət görməyib, qızılbaşların vəziyyətini öyrənməyə çalışdılar. Satqın şirvanlılar onlara xəbər verdilər ki, Şirvana təyin olunmuş qızılbaş bəylərbəyisi və əmirləri filan mövqedə düşərgə salıblar. Tatar qoşunu şirvanlı tüğyançıların bələdçiliyi ilə heç çəkinmədən [Kür] çayını keçdi. Həmin vaxt altı-yeddi gün ərzində qızılbaşların üstünə hədsiz dərəcədə çox yağış yağmışdı. Yağıntının və palçığın çoxluğundan iki nəfərin bir-birilə görüşməsi mümkün deyildi. Məhz belə bir şəraitdə tatarlar qızılbaşların xəbəri olmadan, hər kəsin bilmədiyi bir yolla çayı keçib, əmirlərin ordlusunun üzərinə tökülüşdülər. [Qızılbaş] əsgərlərinin cəbbə və silah qurşanmağa və bir yerə toplaşmağa fürsəti olmadı. Tərəflər arasında döyüş və çarpışma olmadan qızılbaş qoşunu arasında pərakəndəlik düşdü. Onlar əllərini mallarından və əşyalarından üzüb, təşviş içərisində, piyada və süvari vəziyyətdə fərar etdilər. Döyüşə dayanmış az sayda [qızılbaşlar] isə şəhidlik şərbətini mərdliklə içdilər. O [qızılbaş] kütləsinin mülkiyyəti tamamilə qarət və tarac olundu. Ustaclu əmirlərindən Eşik Əvəzin oğlu Əliqulu sultan Çavuşlu qətlə yetirildi, digərləri isə salamatlıqla aradan çıxaraq, tam pərişanlıq və üzgünlüklə Qızılağac hüdudunda məskən saldılar. Tatarlar həmin gün bolluca qənimətlərlə geri döndülər. Osman paşa tatar qoşununun köməyi ilə rumilərdən bir dəstəni Badikubə qalasına göndərdi. Onlar o möhkəm qalaya istehkam verərək, qalanı müdafiə etmək ücün tələb olunan ləvazimatları hazırladılar.

***Rumiyyə və tatar camaatının qızılbaşlarla müharibəsi.*** Qarabağa gələn vaxt bu xəbərlər şanlı orduya çatdı və həm şahın, həm də qoşunun xatirində ikrah doğurdu. Ordu qışlaq yurdu olan Qarabağ Sultanbudunda cah-calal ilə dayandıqdan sonra vəzir Mirzə Salman, Əmir xan, qorçubaşı, Şahrux xan, Pirə Məhəmməd xan Ustaclu və s. əmirlər, qorçular və qələbə nişanlı əsgərlər tatar xanlarını dəf etmək üçün Şirvana yollandılar. Rumiyyə və tatar camaatı qızılbaş qoşununun gəlişi xəbərini eşidib, müharibə məqamında durdular. Molla-Həsən yurdunda onlarla zəfər nişanəli qızılbaş qoşununun çərxçiləri arasında döyüş baş verdi. Qızılbaş əsgərlərinə dalbadal kömək gəlib çatdığından müxaliflər qalibiyyətli orduya qarşı durmağın öz qüdrətləri və qüvvətləri daxilində olmadığını gördülər və döyüşdən əl

çəkdilər. Rumilər əvvəlki kimi Dərbənd qalasına getdilər. Tatarlar isə Dağıstan tərəfdən öz diyarlarına tələsdilər.

Bəylərbəyi Salman xan və ona yoldaş olan əmirlər müzəffər məiyyətin vəziyyətindən və əmirlərin Şirvana getməyindən xəbərdar olduqda tam pərişanlıq və üzgünlüklə Kür çayını keçib, Şirvana yollandılar. Onlar tatarlar qarşısında uğradıqları məğlubiyyətin əvəzini çıxmaq üçün Badikubə qalasını ələ keçirməyi qarşıya məqsəd qoyub, o tərəfə üz tutdular və qalanı mühasirə etdilər. Əmir xan və qızılbaş əmirləri də Şabrandan geri dönüb, Salman xana kömək etmək üçün Badikubə qalası üzərinə gəldilər. On səkkiz gün Badikubə qalasının ətrafında oturub, onu fəth etməyə çalışdılar. Amma buna nail olmadılar. Ölkənin xarabalığı və rəiyyətin əhvalının alt-üst olması üzündən qoşun arasında azuqə tapılmaz oldu. Bir neçə gün ərzində Təbriz daşına (çəkisinə) əsasən, arpa çörəyinin qiyməti altı misqal zərb olunmuş gümüşə bərabər olan altı yüz dinara alınıb-satılmağa başladı. Axırda o da yoxa çıxdı və orada qalmaq mümkün olmadı. Onlar zərurət üzündən mühasirəni tərk edib, köç edərək Qarabağa gəldilər və o qış qızılbaş əmirlərindən heç kəs Şirvanda qalmadı. Bu isə ona səbəb oldu ki, rumilər Şirvanın bəzi mahallarında möhkəmləndilər. Dərbənddə qalan Osman paşa Şirvanın vilayətlərindən olan hər bir vilayətə əl uzadıb, oradan mallar ələ keçirdi. Şirvan əhalisi istər-istəməz ona itaət etdi.

Bu tərəfdən Pirə Məhəmməd xan xəstələnib, axirət səfərinə yollandı. Onun ölümündən sonra ustacluların əhvalına tamam süstlük yol tapdı. Onun oğlu Pirə Murad xan atasının yerinə əyalətə və xanlığa mənsub edilməsinə baxmayaraq, bir o qədər də çox nüfuz qazanmadı. Günbəgün Xorasanda olan Mürşüdqulu xan Yegan Ustaclunun iqtidarının avazı ulu dərgahda bu tayfanın tənəzzülünə səbəb oldu və Əmir xan, türkman və təkəlü əmirləri o tayfaya qarşı əvvəlkindən daha artıq dərəcədə öz etiraz və məzəmmət dillərini uzadıb, onları fəsadçı və fitnəkar adlandıraraq, onların izzət və etibarını sarsıtmağa, bəlkə də, onları tamamilə aradan qaldırmağa çalışdılar. O cümlədən Şahqulu sultan Qarıncaoğlu Ustaclu Xorasandan geri qayıdıb ulu orduya gələrkən Rey [bölgəsinin] Vəramin [adlı yerində] Müseyib xan Şərəfəddinoğlunun mülazimləri olan təkəlü camaatı Qaraca sultanın nəvəsi Məhəmməd bəy Nədaqinin sərkərdəliyi altında onu və onun mülazimləri olan ustaclu camaatını qətlə yetirmək və onların mallarını qarət etmək arzusuna düşüb, onun üstünə üç yüz nəfər yaraq qurşanmış süvari ilə getdilər. [Ustaclular] onların gəlişindən xəbər tutub, nicat və xilas yolunu bağlı gördülər, zərurət üzündən ayaqlarını sabit və möhkəm bir tərzdə yerə basıb, müdafiə olunmağa başladılar, igidlik və mərdlik nümunələri göstərdilər. Məhəmməd bəy Nədaqi azsaylı dəstə qarşısında məğlubiyyətə uğradı və təkəlü qoşunundan bir çoxları qətlə yetirildilər. Şahqulu sultan tədbirinin gözəlliyi və fikrinin düzgünlüyü sayəsində təkəlü tayfası ilə dolu olan Rey vilayətindən mərdanəliklə çıxıb, özünü Qarabağ qışlaq yurdunda ulu orduya çatdırdı və təkəlülərin bu yöndəmsiz hərəkəti xoşagəlməz hesab olundu. Bir çox araqarışdıranlar Müseyib xanı təhrik edirdilər

ki, Şahqulu sultandan intiqam alsın. Lakin Müseyib xan fitnəkar adam olmadığından intiqamçılıq mövqeyi tutmadı.

Ustaclu ağsaqqalları İsgəndər şanlı nəvvabdan kömək diləyib, əşrəfin əmrinə əsasən, Şahqulu sultanı Müseyib xanın mənzilinə apardılar. Qohumları və əqrəbaları həmin vuruşmada qətlə yetirilmiş olan təkəlülər təhdidə başlayaraq, qarışıqlıq salmaq istəyirdilər. Amma təkəlülər bu toqquşmanın səbəbkarı olmuş, özləri onun üstünə hücum çəkmişdilər və basqınçıları dəf etmək ustaclu camaatı üçün vacib olmuşdu. Buna görə də haqq Şahqulu sultanın tərəfində idi. Müseyib xan haqqın tərəfini saxlayıb, cahillərə mane olaraq, padşahın xatirinə tamam-kamal qüdrət və iqtidarla iki yüz nəfər təkəlünün qanının üstündən keçdi və sözügedən şəxsə (Şahqulu sultana) qarşı qisasçılıq mövqeyi tutmadı. Çünki onsuz da bir-birləri ilə müttəfiq olan türkman və təkəlü tayfaları ulu dərgahda tam izzətə və etibara malik idilər və yuxarıda qeyd olunmuş məsələ (Mürşüdqulu xanın qiyamı) ucbatından ustaclu tayfasının bir o qədər də çox abır-hörməti qalmamışdı. Bu səbəbdən Müseyib xan Şahqulu sultan Qarıncadan, onun övladlarından və əqrəbalarından intiqam almadı. Həqiqətən də, sözügedən şəxsin göstərdiyi bu haqpərəstlik xoşagələn bir iş idi.

## İLİN AXIRLARINDA QARABAĞIN SULTANBUD QIŞLAQ YURDUNDA ÜZ VERMİŞ BƏZİ ƏHVALATLARIN XATIRLANMASI VƏ İBRAHİM XAN TÜRKMANIN RUM PADŞAHININ YANINA ELÇİ GÖNDƏRİLMƏSİNİN BƏYAN EDİLMƏSİ

Elə ki ustacluların nüfuzunun baisi və səbəbkarı olan Pirə Məhəmməd xan öldü, Salman xanın və ona yoldaş olan əmirlərin Şirvanı mühafizə etməyə qüdrəti qalmayaraq, Şirvanı tərk etdilər. Şirvan vilayətinə gedib hansı bölgənin kimin ixtiyarında olduğunu yoxlamaq üçün Sinan paşa tərəfindən göndərilmiş Ömər ağa ulu orduya gəlib çatdı. Əmirlər və qüdrətli dövlətin dayaqları olan şəxslər belə məsləhət gördülər ki, Şirvan vilayətinin mühafizəsi Qarabağda yaşayan şanlı qacar tayfasından, otuziki el və oymağından və qeyrilərindən ibarət böyük bir dəstənin öhdəsinə qoyulsun və bu işin həyata keçirilməsi İmamqulu xanın qeyrətinə həvalə olunsun. Onlar İsgəndər şanlı nəvvab və Nəvvabi-Cahanbani ilə birlikdə qərar verib, İmamqulu xanı istər-istəməz bu xidmətə məmur və məcbur etdilər. Onun (İmamqulu xanın) məsləhətinə əsasən, Peykər bəy Ziyadoğlu Qacarı əyalət və xanlıq rütbəsinə yüksəldib, Şirvan bəylərbəyisi [təyin] etdilər və qacar əmirlərindən bir neçə nəfərə Şirvanda ölkə verib, onunla birlikdə Şamaxı tərəfə göndərdilər. Onların gedişindən sonra isə bir nəfəri Ömər ağa ilə birlikdə Şirvana yolladılar.

Həmçinin bir dəstəni də Tiflis qalasını fəth etməyə, oranın valisi Simayun xana yardım göstərməyə məmur etdilər və Murad bəy Topçubaşını da topxana ustaları və toptökmə ləvazimatı ilə birgə oraya göndərdilər ki, qalanın fəth

olunmasına çalışsınlar, elə etsinlər ki, Ömər ağa oradan keçərkən o yüksək əsaslı qala başı fələyə dəyən dərgahın mənsublarının əlində olsun. Amma onlar bu tapşırığı (Titlisi tutmağı) yerinə yetirməyi bacarmadılar və bir iş görə bilmədilər.

Uzun sözün qısası, Peykər xanla Şirvan əmirləri isə hər biri onlara verilmiş bölgələrə gedib yerbəyer oldular. Ömər ağa onları orada görüb əmin oldu ki, Dərbəndin və Badikubənin dörd divarından savayı, heç bir yer Osman paşanın ixtiyarında deyildir. Şahqulu sultan Təbətoğlu Zülqədər, İsgəndər şanlı nəvvab tərəfindən Ömər ağa ilə birlikdə elçi kimi Sinan paşanın yanına göndərildi ki, vəziyyətin həqiqətini onun ərzinə çatdıraraq, sülh bağlanmasından söz salsın. Şirvan əhalisinin bir qismi adından dürüst bir biçimdə bildirildi ki, Şirvan vilayətinin bəzi yerləri «Hərəmeyni-şərifə»nin[992] vəqfləridirlər və xondgar həzrətləri «xadimül-hərəmeyn»[993] olduğu üçün Şirvan əhalisi bu səbəbdən «hərəmeyni-şərifə»nin məsrəflərinə sərf edilməkdən ötrü bir neçə xərvar həcmində ipəyi o vilayətə göndərməyi öz öhdəsinə götürür, o şərtlə ki, rumilər oraya basqın etməyib, oranı qızılbaşlara buraxsınlar. Təbətoğlu layiqli töhfələr və hədiyyələrlə Ərzuruma yollandı.

Sinan paşa ilə Osman paşa arasında nifaq meydana gəldiyindən Sinan paşa sülh yaradılmasını öhdəsinə götürüb, Təbətoğlunu rəğbətli və sülhpərvər üslubda yazılmış məktubla geri qaytardı. O, belə qərarlaşdırdı ki, yüksək dərəcəli qızılbaş əmirlərindən biri dostyana bir məktubla göndərilsin ki, Sinan paşa ilə birgə xondgarın hüzuruna gedib, sülh qaydalarını möhkəmləndirsin. Təbətoğlu qayıdandan sonra, ağıllı, nəcib fikirli və bacarıqlı bir adam olan Qum hakimi, Heydər sultan Çabuq Tərxan Türkmanın oğlu İbrahim xan Ruma elçi getməyə təyin olunaraq, layiqli töhfələr və hədiyyələrlə yola salındı. Amma sözügedən şəxs İstanbula gedib, Rum hökmdarı Sultan Murad xondgarın hüzuruna çatdıqda qərəzçilik sahibləri, xüsusən də Şirvanın Dərbəndində olan Osman paşa Sinan paşanı təqsirkarlıqda ittiham edərək, sülhün qəbul edilməsinin yolverilməzliyi barədə xəbərdaredici sözlər ərz etdilər. Buna görə də İbrahim xan İstanbulda uğur qazana bilmədi. [Sultan Murad] növbəti il Fərhad paşanı sərdar təyin etdi. Onun səyi nəticəsində Çuxursəəd və Qarabağ vilayətləri yə Azərbaycanın əksər mahalları qızılbaşların əlindən çıxdı. İbrahim xan isə yeddi ilə yaxın İstanbulda qalmalı oldu. Nəhayət, o, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında rüxsət alıb, geri qayıtdı. Əgər tale imkan verərsə, bu əhvalatların hər birinin şərhi öz yeri gələndə əksini tapacaqdır.

[992] Hərəmeyni-şərifə (ərəbcə: «iki şərəfli ziyarətgah») - müsəlman aləminin ən müqəddəs ziyarətgahı olan Məkkə və Mədinə şəhərləri nəzərdə tutulur.

[993] Xadimül-hərəmeyn («iki ziyarətgahın xadimi») - Məkkə və Mədinə şəhərləri 1517-ci ildən etibarən Osmanlı dövlətinin tərkibinə daxil olduqları üçün Osmanlı sultanları bu titulu daşıyırdılar.

## ULU TANRININ İRADƏSİ İLƏ BU İLDƏ ÜZ VERMİŞ MÜXTƏLİF ƏHVALATLARIN VƏ TALE HADİSƏLƏRİNİN BƏYAN EDİLMƏSİ

Bu ildə (988 /-1580-ci ildə) baş vermiş ibrətli hadisələrdən biri Gilanın Beye-pəs [vilayətinin] valisi Müzəffər sultanın nəvəsi və cənnətməkan şahın kürəkəni olan Cəmşid xanın özünün bəzi nankor mülazimlərinin xəyanəti və təhriki sayəsində Mirzə Kamran Kuhdəminin əli ilə öldürülməsidir. Bu qəribə hadisənin icmalı belədir ki, iki sülalənin (Gilanın Biye-pəs və Biye-piş hakimləri sülalələrinin) arasında olan köhnə ədavət səbəbindən Cəmşid xanla Gilanın Biye-piş [vilayətinin] valisi Xan Əhməd arasında fitnə-fəsad mövcud idi. Onlar həmişə bir-birlərinin məmləkətləri üzərinə qoşun göndərirdilər və biri digərinin hakimiyyətini sarsıtmağa çalışırdı. Bu iki ölkə arasında yerləşən Kuhdəm valisi Mirzə Kamran vaxtın məsləhətinə əsasən, yüksək əsil-nəsəbi səbəbindən seçkin və bəyənilmiş olan Xan Əhmədin xatirini xoş tutmağa çalışaraq, ona münasibətdə çoxlu ülfət və dostluq nümayiş etdirirdi. Adı çəkilmiş [Biye-pəs və Biye-piş] vilayətlərindən hər biri onu (Mirzə Kamranı) öz tərəfinə çəkmək və özünə müttəfiq etmək istəyirdi. Bu ildə Cəmşid xan sözügedən şəxsə münasibətdə mülayimlik və insaniyyətçilik qapılarını açaraq, ona düşmənçilikdən əl çəkib ittihad yaratmağı təklif etdi və ondan öz hüzuruna gəlməyi xahiş edərək, ona dostcasına mehribanlıq və qardaşcasına iltifat göstərdi, dalbadal töhfələr və hədiyyələr göndərib, onunla yaxşı münasibətlər yaratdı. Nəhayət, hər iki tərəfdən etimadlı adamların gəliş-gedişi baş verdi. Onlar hiyləgərlik və xəyanət etməyəcəklərinə dair təntənəli andlar içərək bir-birilərini arxayın etdilər və müəyyən bir məkanda onların arasında görüş baş tutdu. Cəmşid xan onu (Mirzə Kamranı) özü ilə birgə Rəştə aparıb, ona şahanə iltifat göstərdi. Cəmşid xanın əsl məqsədi o idi ki, Kuhdəm və Biye-pəs qoşunları bir-birləri ilə müttəfiq olsunlar və Xan Əhmədin onların qarşısında qüdrəti və üstünlüyü olmasın. Elə ki onların arasında mehribanlıq və dostluq münasibətləri bərqərar oldu, Cəmşid xan [Xan Əhmədlə aralarındakı] düşmənçiliyin səbəbi olan Kuçesfəhan ölkəsini ələ keçirdi. Bu zaman Xan Əhməd onların qorxusundan heç nə edə bilməyib, sakitcə Lahicanda oturdu.

Elə ki Mirzə Kamran Biye-pəs adamları ilə qaynayıb-qarışdı, Cəmşid xandan narahat olan bir sıra şəxslər ona Biye-pəs ölkəsinin səltənətinin müjdəsini verməklə onu azdırdılar və o, Cəmşid xana qarşı xəyanət mövqeyini tutdu. Bu əsnada [Cəmşid xan] öz qoşununun sipəhsaları və həmin fəsadın xəmirinin mayası olan Qara Bahadır adlı bir şəxsi Mirzə Kamranla birlikdə Xan Əhmədin üzərinə göndərdi. Cəmşid xanın əmirlərindən biri olan Çırağ sultan adlı birisi o vaxtlar yüksəlişdə idi və sipəhsalarlıq iddiasına düşmüşdü. O, onların hiyləgərliyi və xəyanəti barədə [Cəmşid] xana məlumat verdi. Cəmşid xan Mirzə Kamranla aralarında olan əhdü-peymana inamının və etimadının çoxluğu üzündən [Mirzə Kamrana] bu məsələni izhar etdi. Mirzə Kamran isə ürəyəyatan rəğbətli sözlərlə Cəmşid xanı özündən arxayın saldı.

Amma bu hadisədən sonra [Mirzə Kamranla Qara Bahadır] özləri Cəmşid xandan [onlara bir zərər dəyəcəyindən] qorxaraq və narahat olaraq, [ona qarşı] tədbir görmək fikrinə düşdülər. Mirzə Kamran Biye-pəs qoşunu ilə birlikdə Kuçesfəhanda olarkən Qara Bahadır və ona dost olan Biye-pəs böyüklərindən bir çoxları canlarının qorxusundan Mirzə Kamranla müttəfiq olub, Cəmşid xanın dəf edilməsi məsələsində onunla həmrəylik göstərdilər. Onlar tezliklə fürsət tapıb, Çırağ sultanı Kuçesfəhanda qətlə yetirdilər və oradan qayıdıb, Rəştə gəldilər. Rahatlanmağı sevən və dinclik arzulayan əsgərlər döyüş təhlükəsinin sovuşduğuna görə xeyli sevincək oldular və geri qayıtmağın səbəbini qətiyyən soruşmayaraq, yola düşdülər.

***Cəmşid xanın qətlə yetirilməsi.*** Sözün qısası, Mirzə Kamran, Qara Bahadır və onlarla birlikdə olan adamlar əvvəllər içdikləri anda xilaf çıxaraq, çəkinmədən Cəmşid xanın evinə gəldilər. O, sadəlövhlüyünün və onlara olan etimadının çoxluğu ucbatından onların xəyanət və nifaqından xəbərsiz və məlumatsız qalıb, onların geri qayıtmasının zəruri bir məsələ ilə əlaqədar olduğunu düşündü. Mirzə Kamran dərhal onun otağına girdi və onu tutub, öz etimadlı adamları ilə birgə Kuhdəmə yolladı ki, onu orada bir yerdə həbsdə saxlasınlar. Cəmşid xan ibrət gözü ilə nə qədər baxa-baxa qalsa da, onun sülaləsinin nankor mülazimlərindən heç kəs onu xilas etmək mövqeyində durmadı. O, çarəsiz qalıb, bu qəribə hadisəyə boyun əydi. Onun cənnətməkan şahın qızından doğulmuş Məhəmməd Əmin mirzə və İbrahim mirzə adlı iki azyaşlı oğlu vardı[994]. Mirzə Kamran bu oğlanları öz yanında saxladı. Bütün Biye-pəs camaatı Qara Bahadırın səyi ilə Mirzə Kamranın hakimiyyətinə razı oldu. O vilayətin sipəhsalarları və zadəganları onunla əhdü-peyman bağladılar. O, onların razılığından xatircəm olaraq, onların əhdü-peymanında bir süstlüyün əmələ gəlməməsi üçün iki ay sonra Cəmşid xanın qətlinə fərman verib, onu Kuhdəmdə qətlə yetirtdi. Amma axırda öz əməlindən feyz ala bilmədi. Az bir zaman ərzində o günahsız padşahın qatilləri öz əməllərinin əvəzində giriftar olub, ömürdən və dövlətdən bir fayda tapmadılar.

Nə isə, Mirzə Kamran Cəmşid xanın işini həll edib, Biye-pəs vilayətində öz hökumət və iqtidar bayraqlarını qaldırdıqdan sonra o da həmçinin Xan Əhmədlə düşmənçilik və münaqişə etməyə başlayaraq, işğalçılıq və istilaçılıq əlamətləri nümayiş etdirdi və öz etibarlı adamlarını padşahın (Məhəmməd Xudabəndənin) ali taxtının ətəyinə göndərib ərz etdi: «Cəmşid xan üsyan və tüğyan törətmiş, [şahın] hökmünün ziddinə olaraq digərlərinin məmləkətinə basqın etmiş və padşahın əmrlərinə itaət göstərməmişdir. Ona görə də mən dövlətsevər bir şəxs olaraq, onu tutmuşam və onun qaldırdığı fitnə-fəsadı yatırmışam. Əgər şəhriyar bu dövlətsevərə şəfqət göstərib Biye-pəs məmləkətinin hökumətini ona tapşırarsa, mən ali taxtın ətəklərinə müəyyən məbləğdə peşkəş göndərərək, hər il bac və xərac ödəməyə təminat verərəm». O, Cəmşid xanın mallarından və pullarından bir

[994] S-129, v.224a; S-297, v.175a-b. Tehran çapında (s.266) Məhəmməd İbrahim mirzə və Məhəmməd Əmin mirzə deyə qeyd olunub.

miqdar göndərmişdi. Mirzə Salman, əmirlər və dövlət ərkanı [bu təklifi] qəbul elədilər və təvəqqe etdilər ki, cənnətməkan şahın Cəmşid xana arvad olmuş qızını ona (Mirzə Kamrana) ərə verib, Biye-pəsi ona həvalə etsinlər.

Amma Xan Əhməd cəsur, ağıllı, düşüncəli və tədbirli bir kişi olan Mirzə Kamrandan Cəmşid xana nisbətən daha çox çəkinirdi və onun kobud hərəkətlərindən qorxuya düşmüşdü. Buna görə də o, ulu dərgaha dalbadal ərizələr göndərib, [Mirzə Kamranın] xahişinin rədd olunmasına dair çox təkid etdi və bildirdi: «Biye-pəs məmləkəti yüksək dərəcəli qızılbaş əmirlərindən yeddi-səkkiz nəfərin məkanı ola bilər. Oranın Mirzə Kamrana aidiyyəti yoxdur. Əgər qızılbaş əmirləri gəlsələr, mən o vilayəti qəsbkarların əlindən alıb, qızılbaşların ixtiyarına verməyi öhdəmə götürürəm». Mirzə Kamranın yüksəlişi və iqtidarı heç bir vəchlə Xan Əhmədin xoşuna gəlmirdi.

İsgəndər şanlı nəvvabın Xan Əhmədə tam rəğbəti vardı və onun xoşuna gəlməyən bir işə razılıq verməzdi. Həm də Cəmşid xanı qətlə yetirmiş Mirzə Kamranın cürətinə və cəsarətinə göz yummaq səltənət rütbəsinə münasib deyildi. Bu səbəblərdən Mirzə Kamranın xahişi qəbul olunmadı. Bu vaxt orduda olan Salman xan və ustaclu əmirləri ölkəsiz qalmışdılar. Qüdrətli dövlətin faydası naminə Rəşt hökuməti Cəmşid xanın kürəkəni olan Salman xana həvalə olundu. Biye-pəs [vilayəti] ustaclu və bəzi başqa tayfaların əmirləri arasında bölüşdürüldü. Şahqulu sultan Qarınca Ustaclu isə Salman xanın lələsi və ağsaqqalı [təyin] edildi. Həmçinin Biye-pəs və Biye-piş hakimləri arasında düşmənçiliyin səbəbi olan Kuçesfəhan ona verildi. [Biye-pəsə] təyin olunmuş əmirlər arasında ustaclulardan Nəzər sultan Lələnin oğlu Hüseynqulu sultan, Mustafa sultan Şərəflü, Ayğut bəyin oğlu Mehdi sultan Çavuşlu, Əhməd sultan Asayişoğlu, Cəfər sultanın oğlu Tanrıverdi xəlifə Kəngərlü və Pirə Məhəmməd xanın qohumu Əbülqasim sultan Çavuşlu digər oymaqlardan isə Aslan sultan Əlibəyli Zülqədər, Fərman sultan Rumlu və Şahverdi sultan Cəlaloğlu Çepni vardı[995].

Mirzə Kamranın Cəmşid xanın malından peşkəş kimi göndərdiyi qızılı əmirlərin xərcinə sərf edərək, onları Gilana yolladılar. Bayandur xan Talışın, onun oğlu Əmir Həmzənin və Gəskər hakimi Səyavuşun adlarına hökmdar hökmləri yazıldı ki, onlar sözügedən əmirlərə yardım və kömək göstərsinlər.

Salman xan və onun yoldaşları Gilan hüduduna yaxınlaşdıqda Şahqulu sultan Qarınca Lahicana, Xan Əhmədin yanına getdi ki, onunla «kəngaş» etsin və Biye-pəs məsələsində nəyi məsləhət görsələr, birlikdə həyata keçirsinlər. Amma, elə ki qızılbaş qoşununun gəlməsi xəbəri Gilana çatdı, Fumən vilayətinin əyanlarından Şirzad adlı birisi qələndər bir oğlanı Cəmşid xanın oğlu kimi təqdim edərək, onu Cəmşid xanın atasının adı ilə Sultan Mahmud xan adlandırdı və onu öz

[995] S-129, v.225a. Tehran çapında (s.267) Cəfər sultan Ustaclu səhvən Rumlu kimi, Şahverdi sultan Cəlal oğlu Çepni isə Çəkəni kimi qeyd olunmuşdur. Həmçinin çapda Tanrıverdi (Tenqrivirdi) xəlifənin adı yanlış yazılmışdır və bu səhvlər əlyazma əsasında düzəldilmişdir.

sərmayəsinə çevirərək, Mirzə Kamrana qarşı çıxdı. O, Fumən qoşununun bir hissəsini özünə müttəfiq edib, oradan qəflətən Mirzə Kamranın üzərinə Rəştə gəldi. Mirzə Kamran bu hadisədən agah olduqda onunla (Şirzadla) Rəşt camaatı arasında birliyin olması və onun təhriki ilə Rəşt camaatının ayağa qalxacağı ehtimallarını göz önünə gətirərək, müdafiə olunmadı və heç buna fürsət də tapmadı. O, Cəmşid xanın oğullarını özü ilə götürüb, qorxmuş və iztirablı bir halda yüklərini və əşyalarını ataraq, hər kəsin bilmədiyi bir yolla Kuhdəmə gəldi. Qara Bahadır və onunla həmrəy olan adamlar da Mirzə Kamranla birlikdə Kuhdəmə gəldilər. Şirzad müzəffər və qalibcəsinə Rəştə daxil olaraq, Sultan Mahmud xanı Şah [Təhmasibin] qızı və Cəmşid xanın möhtərəm [dul] arvadı olan xanımın hüzuruna apardı ki, onun əlini öpmək şərəfinə nail olsun. Şahzadə xanım Cəmşid xanın iki oğlundan savayı başqa oğlunun olmadığını bilsə də, vaxtın məsləhətinə uyğun olaraq, Şirzadın sözünə əməl edib, onu Gilanın Biye-pəs [vilayətini] zəbt etməsini və tutmasını rəğbətlə qarşıladı.

Həmin bu Şirzad, Xan Əhmədin yanına adam göndərib, sabiq [Biye-pəs] hakimlərinin əksinə olaraq, ona münasibətdə itaət və tabeçilikdən dəm vurdu və ona yalvar-yaxar etdi. Xan Əhməd, Mirzə Kamranın məğlub edilməsindən xəbər tutduqda bu hadisəni böyük uğur bilib, qızılbaş qoşununu çağırdığına görə peşman oldu və özü [Mirzə Kamranla] haqq-hesabı çürütmək fikrinə düşüb, onun üzərinə qoşun göndərdi. Biye-piş qoşunu Mirzə Kamranın məskunlaşdığı Kuhdəm qəsəbəsinə gedib, çoxlu dağıntı törətdi və onu Rüstəmabada və Tarom ətrafınadək təqib etdi.

Amma bu əsnada Salman xan Məncilə çatmışdı. Mirzə Kamran, Salman xanın gəlişi barədə məlumat alıb, özünün Xan Əhmədin əsgərlərindən xilas olmasının çarəsini qızılbaşlarla uzlaşmada gördü və [Salman xanın] yanına adam göndərib, görüşmək istədiyini bildirdi. Hüseynqulu sultanın vəkili olan Məhəmmədi bəy Sarısolağ iki yüz-üç yüz nəfər qızılbaşla birlikdə Kuhdəmə getdi və onu Qara Bahadır və yoldaşları ilə birgə Məncilə gətirdilər. O, çox fikir edirdi ki, birdən Xan Əhmədin qoşunu həmin gecə onun evinin üstünə gedər. Buna görə də o, Salman xanın lütfkarlıq göstərməsini xahiş edərək, həmin gün böyük xahiş-minnətlə [Salman] xanı köç etməyə razı saldı və onu Kuhdəmə apardı.

Xan Əhməd, Salman xanın gəlişindən və Mirzə Kamranın onun yanına getməyindən xəbər tutub, öz adamlarına geri dönməyi əmr etdi. Bununla yanaşı, o, Salman xana çatdırdı ki, «Mirzə Kamran hiyləgər, fitnəkar və qəddar adamdır. Onun sözlərinə aldanmayın. İlk növbədə onu Cəmşid xanın qanını [tökdüyü] üçün cəzalandırıb məhbus edin və əvvəlcə onun ölkəsini ələ keçirib orada məskən salın. Daha sonra isə ağacların yarpaqdan və bar-bəhərdən məhrum olduqları payız gəlib çatacaqdır və həmin şəraitdə Biye-pəs qoşununun müdafiə olunmağa və döyüşməyə macalı olmayacaqdır. Məhz o vaxt biz birlikdə həmin ölkəyə gedib, oranı ələ keçirərik».

Mirzə Kamran aqil, sözünün yerini bilən, hazırcavab və dilə tutmaq bacarığına malik bir adam idi. O, öz şirin dilini işə salıb, Salman xana belə bir fikir təlqin etdi:

- Xan Əhməd mənim iqtidarımın və ağalığımın qorxusundan qızılbaş qoşununun gəlməyini xahiş etmişdi. İndi isə məni zay təsəvvür etdiyindən sizin gəlişinizə razı deyildir. O, başa düşür ki, Gilanın Biye-pəs [vilayətinə] yiyələnmiş Şirzad və Cəmşid xanın oğlu kimi təqdim olunan Sultan Mahmud xan hər ikisi onun aşağı dərəcəli mülazimləri hökmündədirlər və əslində, bundan sonra hər ıkı Gilan ona məxsus olacaqdır. Sizin onun köməyinə əsla ehtiyacınız yoxdur. Sizin üstünüzdə onun minnəti olmamalıdır. Mən Biye-pəs ölkəsini fəth etməkdə və ələ keçirməkdə sizə yardımçı olaram.

Salman xan Cəmşid xanın oğullarını onun əlindən alıb, Qəzvinə göndərdi və Xan Əhmədin yanına getmiş Şahqulu sultanın gəlişini və öz tabeçiliyində olan əmirlərin cəmləşməsini gözlədi. Bir neçə gün sonra Şahqulu sultan gəlib dedi:

- Xan Əhməd deyir ki, meşələrin yarpaqla örtülü olduğu və ağaclıqların qala kimi keçilməz olduğu indiki məqamda Gilanın [Biye-pəs vilayəti] üzərinə getməyin vaxtı deyildir. Gərək səbir edək ki, qış gəlsin.

Bu hadisə bütövlüklə Mirzə Kamranın sözünə qüvvət verdi. Orada toplaşmış böyük əmirlərin hamısı [Biye-pəsə] getməyi məsləhət bilib, Rəhmətabaddan köç etdilər. Mehdiqulu sultan Çavuşlunu çərxçi etdilər, Tanrıverdi xəlifə Kəngərlünü isə birinci dəstənin başçısı qoydular və onları irəli göndərdilər.

***Şirzadın əsir alınması.*** Şirzad və Sultan Mahmud xan isə Əli bəyi və cənnətməkan şahın zamanında Cəmşid xanın lələsi və vəkili olmuş Karkiya Fumənin oğlu Məhəmməd bəyi qızılbaş qoşununun qarşısını almaqdan ötrü irəli göndərib, Rəşt şəhərinin ənənəvi yolu olan Bicarpəs yoluna çıxdılar. Mirzə Kamran qeyri-ənənəvi bir yolla getməyi qərara alıb, qızılbaş qoşunundan bir dəstə ilə birlikdə Rəştə yollandı. Qızılbaşların başqa yolla Rəştə getdikləri barədə məlumat alan Şirzad ehtiyat üzündən öz əsgərlərini xan elan etdiyi oğlanın yanında qoyaraq, özü məhdud sayda qoşunla Rəştə gəldi ki, şəhərdən xəbər tutsun. Onun Cəmşid xanın evinin yanında yerləşən Siyah-gurab meydanına çatması vaxtı qızılbaş qoşununun çərxçilərindən bir neçə nəfəri artıq Rəştə gəlib çıxmışdılar. Şirzad adı çəkilən meydanda bir neçə nəfər qızılbaş görüb, [atını] onların üzərinə çapdı. Çərxçi qazilərlə onların arasında döyüş baş verdi. Qazilərdən biri onu tanımadan nizə zərbəsi ilə yəhərin üstündən aşırıb, yerə saldı və qızılbaşlar bir-birinin ardınca atılıb, onu tutdular. O, öz adını deyib, əsir oldu. Onun on-on beş nəfər yoldaşlarından bəziləri əsir düşdülər, bəziləri isə qətlə yetirildilər. Salman xan və qızılbaş əmirləri Şirzadın əsir düşməyindən agah olub, müzəffər və qalibcəsinə Rəştə daxil oldular və Siyah-gurab meydanında məskən salıb, orada alaçıqlar qurdular.

Bicarpəs yolunda qızılbaşların gəlişini gözləyən Gilan qoşunu günün axırında onların şəhərə daxil olmasından və Şirzadın əsir alınmasından xəbər

tutdular və döyüş əzmi ilə oradan hərəkət edib, şəhərə gəldilər. Onların gəlməyi barədə qazilərin qulaqlarına məlumat çatan kimi Salman xan və əmirlər özləri həmin yerdə qalıb, onların üzərinə bir dəstə göndərdilər. İki tərəf arasında döyüş baş verdi. Gilanlılar qısa zamanda təlaşa düşüb, fərar vadisinə üz qoydular və ətrafdakı meşələrdə və cəngəlliklərdə sığınacaq tapdılar Qızılbaş süvariləri onları təqib edə bilmədilər. Kuhdəm piyadaları isə onları təqib etdilər, bir çoxlarını ələ keçirdilər və Mirzə Kamranın əmri ilə heç kimi sağ buraxmadılar. Xülasə, əsir düşmüş çoxlu adamlar qətlə yetirildilər. Gilanlılar pərən-pərən düşdülər. Məhəmməd bəylə Əli bəy Fumənə qaçdılar. Salman xan və əmirlər vəziyyət barədə həqiqətləri ulu dərgaha ərz etdilər. Əşrəfin əmrinə uyğun olaraq, Cəmşid xanın hərəmi olan şahzadə xanımı [şah] ordusuna göndərdilər. Salman xan Cəmşid xanın mənzilində məskunlaşdı. Əmirlərin hər biri münasib mənzillərdə yerbəyer oldular. Qara Bahadır, Salman xanın vəkili oldu. Onlar rəiyyəti özlərinə cəlb etməyə çalışdılar.

***Şirzadın qətli.*** Amma Gilan rəiyyəti heç vəchlə qızılbaşlara ram olmurdu. Onlar meşələrə və cəngəlliklərə çəkilib, müxaliflərlə birləşirdilər və hər gecə əmirlərdən biri Kuhdəm camaatından bir dəstə ilə qaravula gedib, tədbirlilik və ehtiyatlılıq zərurətlərini yerinə yetirirdilər. Bir dəfə Məhəmməd bəy və Əli bəy çoxlu nərdivan düzəltdirib, gecə ikən şəhərə üz qoydular ki, nərdivanlarla Cəmşid xanın mənzilinə daxil olub, Salman xanı qətlə yetirsinlər. Lakin Qara Bahadır Salman xanın həmin gecə gözətçilik edən mülazimləri ilə birlikdə onları darmadağın etdi. Gilanlı yağılardan bir neçə nəfər ələ keçirildi və o camaatın qalanları qaravul dəstəsinin bu məsələdən agah olduğunu və hazır vəziyyətdə durduğunu görüb, nərdivanları ataraq fərar etdilər. Ertəsi gün əmirlər Şirzadı saxlamağı məsləhət bilməyib, onu qətlə yetirdilər. Bayandur xan Talış, Əmir Səyavuş və Əmir Həmzə xan Gəskər və Talış tərəfdən gəlib, Rəştə çatdılar və Salman xanla görüşüb, zahirən sevinc və şadlıq izhar etdilər. Amma batinən onlar qızılbaş əmirlərinin Gilana daxil olmalarına və oranı ələ keçirmələrinə razı deyildilər və bu işin uğursuzluğa düçar olmasına çalışırdılar.

Rəiyyət meşələrə və cəngəlliklərə pərakəndə olub, geri qayıtmırdı və bu üzdən əmirlərə bir mənfəət qazanmaq nəsib olmadı. Talan və qarət həvəsi ilə gəlmiş mülazimlər təfriqəyə düşdülər, qüdrətli dövlətin dayaqları olan şəxslərdən də bir dəstək gəlmədi. Əmirlər qaravul və keşik çəkməkdən təngə gəlib, Gilanda işlərin yaxşı getmədiyini müşahidə etdilər və orada hökumət sürməkdən əl çəkib, oranı tərk etmək qərarına gəldilər. Salman xan bu fikrə şərik deyildi və heç bir vəchlə oradan çıxmağa razı olmurdu. Lakin huna baxmayaraq, aqil və təcrübəli bir şəxs olan Şahqulu sultan Qarınca bu barədə israr edib, Gilandan çıxmağın onun özünün və ustaclu tayfasının vəziyyəti üçün düzgün və zəruri bir iş olduğuna onu inandırdı. O, Mirzə Kamranla, Bayandur xanla və Əmir Səyavuşla da məsləhətləşdi. Onlar da bu işə rəğbətlə yanaşdılar. Bu məsələ əmirlər arasında yayıldı. [Gilanı tərk etmək üçün] təyin olunmuş günün sübh çağında Gəskər və

Kuhdəm piyadalarını qabaqdan və arxadan, soldan və sağdan göndərdilər ki, cəngəlliyin və meşənin içində qızılbaş süvarilərini gilanlıların mümkün basqınlarından qorusunlar. Belə bir vəziyyətdə Rəşti tərk etdilər. Gilan camaatı artıq həmin gecə bu barədə xəbər tutmuşdu. Həmin səhər bu tərəfdən qızılbaşlar atlanıb şəhərdən çıxan kimi o tərəfdən gilanlılar şəhərə daxil oldular və qızılbaşları təqib edərək, onlara basqın etdilər. Böyük əmirlər iki-üç fərsəx döyüşə-döyüşə getdilər və günün axırında Kuhdəmə çatdılar. Həmin gün Mirzə Kamran, Bayandur xan, Əmirə Səyavuş və Qara Bahadır ön və arxa mühafizə dəstələri ilə əmirlərdən ayrılaraq, günün axırında bir-birləri ilə sağollaşmadan, bir-birlərinə qarşı inamsızlıq göstərərək, hərəsi öz bildikləri yolla öz yerlərinə və məkanlarına getdilər. Qızılbaş əmirləri pərişan və üzgün bir halda darüssəltənə Qəzvinə gəldilər. Bu əsərin müəllifi (İsgəndər bəy Münşi) həmin səfərdə Salman xana yoldaş olduğu üçün sözügedən hadisələri öz gözləri ilə müşahidə etdiyindən, təfərrüata varmaqdan çəkinməyərək, təfsilatı ilə qələmə aldı.

## AZƏRBAYCAN VƏ ŞİRVAN HADİSƏLƏRİNƏ VƏ QAZİ GƏRAY XAN TATARIN SƏXAVƏTLİ TANRININ TƏQDİRİ İLƏ ZƏFƏR NİŞANƏLİ QAZİLƏRİN ƏLİNDƏ ƏSİR OLMASINA DAİR SÖHBƏT

Qışlaq yurdunda luy ilinin qışı başa çatdıqdan sonra dünyanı işıqlandıran Novruzun gəlişi ilə türklərin yılan ili uğurla və xoşbəxtliklə qədəm qoydu, baharın ənbər qoxuyan yeli zəmanə gülüstanına təravət bəxş etdi və [qışın] qarətçi qoşunu [yazın] səadətli ordusunun hücumundan darmadağın olunub fərar etdi[996]. [Yuxarıda] qeyd olunduğu kimi, İbrahim xan Türkman sülh büsatını hazırlamaq üçün İstanbul tərəfə yollanmışdı.

Həmişə bu «vilayət» nişanəli [Səfəvi] sülaləsinin vassallarından olmuş Kaxet Gürcüstanının valisi Aleksandr xan [bir müddət] rumilərlə dostluq edib, onlara kömək göstərsə də, sonra yenə də [Səfəvilərə] tabeçilik və itaətini izhar etmişdi. Onunla özünü bu əbədi [Səfəvi] dövlətinin tərəfdarları silkindən sayan Kartil Gürcüstanının valisi Simayun xan arasında ziddiyyət və inad baş qaldırdı. Aleksandr xan onu da gizlin şəkildə rumilərlə dost və əlbir olmaqda ittiham edirdi. Hərçənd Simayun xan bu şübhədən uzaq bir adam idi. Çünki [müharibənin] əvvəlində Ləlǝ paşa Şirvan üzərinə gələrkən o, rumilərə qarşı düşmənçilik etmiş, inadkarlıq göstərmiş və dəfələrlə onunla Osmanlı əsgərləri arasında böyük döyüşlər üz vermişdi. Haqqında söhbət etdiyimiz bu ildə də rumilər Tiflis, Qori və s. qalalara ləvazimat göndərərkən o, Qarabağ bəylərbəyisi İmamqulu xanla birlikdə rumilərin yolunu kəsib, onlara qarşı vuruşmuşdu və bitməz-tükənməz mallar və əşyalar ələ keçirmişdi.

[996] Burada 1581-ci ildə baharın gəlişindən söhbət gedir.

Amma qəlbləri rahatlatmaqdan ötrü İsgəndər şanlı nəvvabın və əbədi təməlli dövlətin dayaqları olan şəxslərin ağlına belə bir fikir gəldi ki, Simayun xanın qızını Nəvvabi-Cahanbani üçün istəyərək, onun dostluğa sadiq qalacağından büsbütün arxayın olsunlar və Aleksandr xanın işini onun rəyi və məsləhəti ilə həll etsinlər. Bu xidməti yerinə yetirmək üçün Müseyib xan Şərəfəddinoğlu Təkəlünü Simayun xanın yanına, Gürcüstana göndərdilər. Simayun xan zahirən bu vüsaldan iftixar edib, sevinc nümayiş etdirdi və ölçüyə-gəlməz şadlıq göstərdi. Amma batinən gürcülər dini fərqlilik və digər məsləhətlər ucbatından bu işə razı deyildilər və zəruri avadanlıq və ləvazimatları tədarük və sərəncam etmək bəhanəsi ilə vaxtı uzadaraq, [toyu] təxirə salırdılar.

Qazi Gəray xan Tatarın qacar qazilərinin əlinə əsir düşməsi. Bu əsnada Qazi Gəray xan Tatarın və Səfi Gəray xanın Şirvana gəlişi barədə xəbər yayıldı. Qarabağ bəylərbəyisi İmamqulu xan tatar qoşununun gəlib çatmasından öncə Peykər xan üçün Şirvana çoxlu kömək göndərmişdi. Osman paşa da Dəlduvancı Rumini[997] Rum qoşununun bir dəstəsi ilə birlikdə Dərbənddə tatarlara qoşub, onları qızılbaşların üstünə göndərdi. Onlar Şamaxı ətrafına çatdıqda, bu tərəfdən də Peykər xan Şirvanda olan qacar, cagirlü, qaramanlu və s. [tayfaların] əmirləri ilə birgə tatar və Rum qoşununu dəf etməyə tələsdi. Şamaxı ilə Şabran arasında iki tərəf bir-birilə döyüşdü. Qızılbaşlara qarşı [əvvəlki] döyüşlərdə cəsarət qazanmış Qazi Gəray xan onlara saymazyana yanaşırdı. O, öz şücaət atını savaş meydanında cövlana gətirib, mübarizlik və igidlik nümunələri göstərdi və həmlə edib geri çəkilərkən qacar qazilərindən ibarət bir dəstəyə rast gələrək, xilas və nicat yolunun bağlı olduğunu görüb, Tanrının təqdiri ilə dustaq və əsir oldu. Onun əsir düşməsi nəticəsində fəth və zəfər yeli Peykər xanın və qızılbaş əmirlərinin bayraqlarının pərçimini dalğalandırdı. [Qızılbaşlar] zəfər və qələbə qazandılar və müxaliflər məğlub və pərişan bir halda geri çəkilməyə başlayıb, fərar vadisinə üz qoydular. Səfi Gəray xan yüz təşviş içərisində canını döyüş meydanından sağ çıxararaq, öz doğma vətəninədək yüyənini geri çəkmədi. Peykər xan bu görkəmli xidmətinə görə tay-tuşları arasında başucalığı tapıb, padşahın nəvazişlərinə və iltifatına tuş gəldi. Amma zəmanənin ona da gözü dəydi və o, həmin il böyrünü ölüm yatağına qoyub, təbii əcəllə vəfat etdi.

Bir müddət Xəlifə Ənsar Qaradağlu Şirvan əyalətinin hakimi oldu. Amma əzəli [Allahın] iradəsində Şirvan vilayətinin rumilərin işğalına məruz qalması və o təbəqənin büsatının bir müddət həmin diyarda sərilmiş olması qərar tutduğundan qızılbaş qoşununun səyi və əziyyəti bir səmərə vermədi. Xəlifə Ənsar Şirvanda bir iş görə bilməyib, tezliklə [axirətə] köçmək təbilini döyəcləyərək, əbədiyyət aləminə yollandı:

---

[997] Dəlduvançı Rumi - bu şəxsin adı Bakı nüsxələrində Dəlü (Dəli) Ancı Rumi kimi yazılmışdır. Əslində isə onun adı Dəli Kayqı bəy olmalıdır. O, Osman paşanın komandanlığı altında olan Osmanlı dəstələrindən birinin başçısı idi (bax: F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.333).

«O getdi ki, o biri dünyanın mülkünü tutsun».

Xəlifə Ənsarın vəfatı, hökmdar məiyyətinin İraqa qayıtması və növbəti il baş vermiş Xorasan səfəri səbəblərindən qızılbaş əmirlərindən heç kəs Şirvanda qala bilmədi. Osman paşa Dərbənddən Şamaxıya gəlib, oranın qalasını möhkəmlətdi və o vilayət üzərində hakimiyyəti ələ keçirdi. Bu hadisələrin hər biri öz yerində bəyan qələmi ilə yazılacaqdır.

Nə isə, Qazi Gəray xanı [şah] ordusuna gətirdikdən sonra onu etimadlı adamlardan ibarət bir dəstənin müşayiəti ilə Qəzvinlə Gilan arasında yerləşən, zəmanənin məşhur qalalarından olan və neçə illər ərzində İsmailiyyə[998] hökmdarlarının səltənət mərkəzi olmuş Ələmut qalasına göndərdilər və onu qala hakiminə tapşırdılar.

Simayun xanın öz qızını göndərməsinin yubanma vaxtı həddini aşdıqda Mirzə Salman və böyük əmirlərdən bəziləri iyirmi minə yaxın qoşunla Gürcüstana yollandılar ki, Aleksandr xanla Simayun xanın məsələsini qüdrətli dövlətin xeyrinə olan bir tərzdə həll etsinlər. Gürcüstan hakimləri qızılbaş qoşununun gəlişindən qorxaq və ürkək olub, üzrxahlıq etmək mövqeyi tutdular. Aleksandr xan rumilərə «tərcümani-itaəti»[999] versə də, ondan sonra hələ də qızılbaşlara xərac verməmişdi. O, [xərac verməyi] öhdəsinə götürdü. Mirzə Salmana və əmirlərə yalvar-yaxar etdi. Onlar belə məsləhət bildilər ki, onun da qızım kama yetmiş şahzadə [Həmzə mirzənin] nikahına daxil edərək, onu bu xilafət məqamlı [Səfəvi] sülaləsinə dost, rumilərə isə düşmən olmağa and içdirsinlər. Tərəflər arasında gediş-gəliş baş verdi. Aleksandr xan Mirzə Salmanın və əmirlərin hiylə və məkr işlətməyəcəyindən əmin olduqdan sonra onların yanına gəldi. Tərəflər arasında görüş baş tutdu. Simayun xan da Müseyib xanla birlikdə oraya gəldi. Tərətlər arasında əhdü-peyman şərtləri müəyyənləşdirildikdən sonra böyük əmirlər Simayun xanı gətirdilər. Onlar (Aleksandr xanla Simayun xan) bir-birləri ilə sülh bağladılar və xristian («məsiha») millətinin adətinə uyğun olaraq, gürcülərin dilində «xaç» adlanan səlibə və «İncil»ə and içdilər ki, bu gündən etibarən vilayət nişanlı [Səfəvi] sülaləsinin dostluğunda möhkəm duracaqlar və hər ikisi birlikdə rumiyyə qoşununun dəf edilməsi işində qızılbaş qoşunu ilə müttəfiq olacaqlar. Mirzə Salman və əmirlər onların yalnız qızlarını gətirməyə razı olmayıb tələb etdilər ki, onların hər biri öz oğullarının birini Nəvvabi-Cahanbaninin xidmətində dayanıb ali üzənginin mülazimləri olmaq üçün əmirlərlə birlikdə ulu orduya göndərsinlər. Gürcü xanları itaət etmək və tabe olmaqdan savayı çarə tapmadılar. Aleksandr xan o vaxt on iki yaşı olan oğlu Küstəndil (Konstantin) mirzəni, Simayun xan isə həmin yaşda olan Luarsab mirzə adlı oğlunu ali [şahzadənin] mülazimi olmağa göndərdilər. Mirzə

[998] İsmailiyyə - VIII əsrdə islamın şiə cərəyanından ayrılmış təriqət. 1090-1256-cı illərdə mərkəzi Ələmut qalası olmaqla İsmaililər dövləti mövcud olmuşdur.

[999] Tərcümani-itaəti (itaət tərcümanı) - bir hökmdarın digər bir padşahın vassallığına keçdiyini bildirmək üçün təqdim etdiyi vergi.

Salman və əmirlər onlara İsgəndər şanlı nəvvabın və Nəvvabi-Cahanbaninin adından iftixarlı, şahanə xələtlər verdilər.

Aleksandr xan neçə il ərzində ödəmədiyi bac və xəracın ödəniləcəyinə dair iltizam verib, üç min tümən tədavüldə olan İraq şahisi «sərkar-i xasse-yi şərifə» üçün, min tümən Nəvvabi-Cahanbani üçün və min tümən Mirzə Salmanın, əmirlərin və dövlət ərkanının xərcləri ücün ödəməyi qəbul edərək, özünün zəngin, var-dövlətli və etibar sahibi olan yəhudi mənşəli vəziri Xoca Yaqubu onlarla göndərdi ki, Gəncə şəhərində həmin məbləği ödəsin və xahiş etsin ki, [Aleksandr xanın] qardaşı İsa xanı Gürcüstanda qoysunlar, [Aleksandr] özü ona maaş verib saxlasın. Həmçinin Simayun xan Aleksandr xanın yanında olan qardaşı Davud xanın ona təhvil verilməsini istədi. Onların hər ikisi öz öhdələrinə götürdülər ki, qardaşları ilə xoşagələn tərzdə rəftar edib, vəfasızlıq etməsinlər və hər biri öz ölkələrindən bir mahalı öz qardaşının ixtiyarına versin ki, onlar rahat dolanıb, yaşayış çətinliyi çəkməsinlər. Amma onların heç biri öz qardaşı ilə bağlı əhdinə və vədinə vəfa etmədi. Onlar qısa müddət ərzində həmin qardaşlarını aradan qaldırmaqla məşğul olub, onların öldüklərini elan etdilər. Münasib vaxt olmadığından heç kəs onları bu əməllərinə görə cəzalandırmadı.

Sözün qısası, Mirzə Salman və böyük əmirlər Gürcüstan işlərini [yuxarıda] yazıldığı üsulla həll edib yoluna qoydular, gürcü hakimlərinin məsələsindən xatircəm olub, oradan geri qayıtdılar və sözügedən [gürcü xanlarının] oğulları və qızları ilə və nisbətən aşağı əyarlı qızıllarla birlikdə ulu orduya çatıb, etdikləri işlərin həqiqətini İsgəndər şanlı nəvvabın və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] ərzinə çatdırdılar. Bu, onların şərəfli könüllərinin sevincinə səbəb oldu. Oradan Meydancuq yaylağına gedib, bir müddət yaylaqda xoşbəxtlik, işrət və istirahət içində oldular. Sinan paşanın İstanbula qayıtması xəbəri doğru çıxdığından o il rumilər tərəfindən bir narahatçılıq olmadı. İbrahim xan sülh işi üçün [İstanbula] getmişdi. Gürcüstan məsələləri [yuxarıda] yazıldığı tərzdə öz həllini tapmışdı. O vaxt qızılbaş qoşunu Şirvanda məskən salmışdı. Belə bir şəraitdə Xorasandan şamlu və ustaclu tayfalarının üsyan və tüğyan etməsi barədə xəbərlər çatırdı və narahatçılıq vardı ki, birdən, Gilandan çıxmış ustaclu əmirləri Xorasan tərəfə gedib fitnə törədərlər (üsyançılara qoşularlar). Bu səbəblərdən hökmdar məiyyətinin səltənətin mərkəzinə dönməsi məqsədəuyğun sayıldı. Payız vaxtı yaylaqların havası soyuqlaşdıqda qalibiyyətli bayraqlar İraqa yollanıb, salamatlıqla səltənət mərkəzinə çatdılar və o qışda qışlaq darüssəltənə Qəzvində baş tutdu.

## KUHİ-GİLUYƏDƏ QƏLƏNDƏRİN QİYAM QALDIRMASI VƏ ULU HAKİM [OLAN ALLAHIN] QƏZAVÜ-QƏDƏRİNİN ZƏRURƏTİ ÜZÜNDƏN O PİS TALELİ ŞƏXSİN BAŞINA GƏLƏNLƏR HAQQINDA

Bu ilin hadisələrindən biri də Kuhi-Giluyədə baş vermiş qələndər qiyamıdır. Bu qəribə hadisənin icmalı belədir ki, bu ilin əvvəllərində bir qələndər Kuhi-Giluyə lurları arasına gedib, hiylə və saxtakarlıq qapılarını açdı. O, İsmayıl mirzəyə tamamilə oxşayırdı və onun da İsmayıl mirzə kimi qabaqdan iki dişi yox idi, yaxud, bəlkə də, Allah bilir, şübhələri aradan qaldırmaq üçün özü onları çəkib çıxarmışdı. O izhar etdi ki, «Mən İsmayıl mirzəyəm. Bir dəstə nankor bir-birləri ilə müttəfiq olub, mənim qətlimə qəsd etmişdilər. Mən qeybə çəkilmək və fərar etməkdən başqa bir çarə görmədim. Ramazan ayının gecələrindən birində Halvaçıoğlunun evində yatmışdım. Gördüm ki, ürəklərində mənə ədavət bəsləyən bir dəstə şəxs mənim yataq otağımın yanına gəlib, içəri soxulmaq istəyirlər. Mən o evin pəncərəsini sındırıb, özümü bayıra atdım və səltənət və padşahlıq paltarlarımı soyunub, dərviş və qələndərlərin libasını geyindim, bir guşədə gizləndim. O camaat (sui-qəsdçilər) mənə bənzəyən bir qulamı gətirib xəbər verdilər və yaydılar ki, Şah İsmayıl vəfat etmişdir. Mən iki il ərzində qələndər geyimində İran mülkündən gedib, aləmin ətraf və kənar yerlərində, xüsusilə də Rum vilayətində gəzib-dolaşdım və o mülkün yaxşısını-pisini gözdən keçirdim. Ta indiyə kimi bu gizli sirri kimsəyə izhar etmədim və səbir elədim ki, mənim düşmənlərimin əksəri bir-bir öz əməllərinin cəzasına çatsınlar. İndi isə mənim zühur etmək vaxtım gəlib çatmışdır. Düşmənlərimin zərərindən və mənə zidd olanların məkrindən bütünlüklə arxayın olmuşam. Ona görə də özümü aşkara çıxarmışam. İnşallah, qalan düşmənlərimdən də intiqamımı alıb, Rum məmləkətinin müxtəlif yerlərində olan sadiq tərəfdarlarını və müvafiq ardıcıllarımla birlikdə Rum mülkünü fəth etməyə yollanacağam və filan-filan işləri görəcəyəm».

O, ortaya çıxması ilə biganə lütləri bəng kimi sərxoş etdi. Onun beyninin sarayına pozğun xəyallar yol tapmışdı, mənasız sözlər danışırdı və hamıya şirin vədlər verib, onları İran, Turan və Rum şəhərlərindən hansısa birinin hakimliyinə və başçılığına namizəd edirdi. Səhrada məskun olan o nadanlar bu əbləhin əsassız sözlərinə inanıb, ağıl yolundan azdılar və aldandılar. İsmayıl mirzənin vəfat hadisəsi gözlənilmədən baş verdiyi üçün işin məğzindən xəbərsiz olan ucqar yerlərin əhalisi o hədyanları və yalan hekayətləri doğru saydılar. Get-gedə onun barəsində məlumat lur qəbilələri arasında yayıldı və bu məsələ gizlinlik mərtəbəsindən aşkarlıq dərəcəsinə gəlib çatdı. O hüdudun əhalisi ətrafdan və yan-yörədən axışıb gəldilər və nəzirlər, peşkəşlər gətirdilər. Sözügedən qələndər öz işinin o ağılsız camaat arasında rəvac tapacağını görüb, öz padşahlıq bünövrəsini və xosrovluq büsatını qurdu. Onun hüzuruna gələn hər kəs ənənəvi qaydada səcdə etmək və ayaq öpmək adətini yerinə yetirirdi. Hər qəbilənin hüsnü-camal sahibi

olan qızlarını ona xidmət göstərmək şərəfinə nail olmaq üçün nəzir və ehsan kimi gətirib gəlirdilər.

Xülasə, özünü ağıllı göstərən bu divanə fırıldaqçılıq və əbləhliklə özü üçün səltənət və padşahlıq dükanı düzəltdi. O, hər obanın əsilzadələrini ali mənsəblərə namizəd edib, qoşun tərtib etmək haqqında fərman verdi. Onun caki, cəvanəki, bəndani qəbilələrindən və s. lur qəbilə və əşirətlərindən toplanmış qoşununun sayı iyirmi min nəfərə çatırdı. O, başına toplaşmış bu böyük qoşunla Kuhi-Giluyə hakiminin oturduğu yer olan Dehdəşt[1000] üzərinə gəldi. Əfşar tayfası qələndərin qiyamı barədə həqiqəti o vilayətin hakimi olan və həmin vaxt ulu orduda bulunan Xəlil xana çatdırdı. Əfşarlar qələndəri dəf etməkdən ötrü Xəlil xanın oğullarının başına toplaşdılar. Xəlil xanın oğlu Rüstəm bəy onların sərkərdəsi idi. İki tərəf arasında dəfələrlə böyük döyüşlər baş verdi. Qələndərin adamları gah qalib, gah məğlub oldular. Bu vurhavurda əfşarlardan və lurlardan bir çoxları qətlə yetirildilər. İlahi qəzavü-qədər üzündən Xəlil xanın oğlu Rüstəm bəy qətl olundu. Onun qətli qələndərin ağalığına və istilaçılığına şərait yaratdı. Əfşar tayfası müqavimət göstərməyə aciz qaldı və o tayfadan çoxları bu hadisələrdə həlak oldular. Qələndərin adamları o tayfanın qadınlarından və qızlarından çoxusunu əsir tutdular.

[Qələndər] Fars və Xuzistan vilayətlərinə hökmlər və fərmanlar göndərib, [camaatı] ona tərəfdar çıxmağa çağırdı. Həmin vaxt padşahın ali məiyyəti uzaqda, Azərbaycanın sərhədlərində böyük işlərlə məşğul olduğu üçün [qələndərin] hökmü hər yerə gedib catdı. Əksər yaxın mahalların əhalisi itaətdən özgə çarə görməyib, vaxtın məsləhətinə əməl edərək, peşkəş göndərdilər. Amma qələndər ağılsız və əbləh bir şəxs idi. Necə ki, bu misrada deyilmişdir: «Yalan çırağının nuru olmayır». Günlər keçdikcə onun yalançı sözləri lurlara aydın olmağa başladı. O qövmün aqilləri onun barəsində tərəddüdlərə düşdülər. Eyni zamanda, Xəlil xanın gəlişi barədə xəbər yayıldı. Qələndər lurların bəzilərindən bədgüman və etimadsız olub, müharibədən əl çəkərək, Hüveyzə və Dizful tərəfə getdi ki, Müşəşə nəslindən olan və o zamanlar Hüveyzədə və bəzi Ərəbistan bölgələrində valilik edən Seyid Şücaəddindən kömək istəsin. O, lurlara öz evlərinə getməyə rüxsət verdi və əmr etdi ki, lazım olan vaxtda hazır olsunlar.

***Xəlil xanın qələndərin qoşunu ilə müharibə etməsi və onun öldürülməsi.*** Amma ulu dərgahda olan Kuhi-Giluyə hakimi Xəlil xan Əfşar qələndərin qiyamının sorağını aldıqda rüxsət istəyib, o tərəfə yollandı və o ətrafa çatdıqda lur camaatı qiyamçı qələndərə tərəfdar çıxıb, onun yolunun üstünü kəsərək, ona qarşı müharibə etməyə başladılar. Oraya getmək üçün dağın arasındakı dərədən keçən bir yoldan savayı, başqa bir yol yox idi. Lurlar həmin dərədə pusqu qurub. Xəlil xanın keçidi vaxtı dağın başından böyük daşları üzüaşağı diyirlətdilər və ona ox və tüfəng atdılar. İlahinin qəzavü-qədəri üzündən bir ox Xəlil xana dəyərək, onu

[1000] Dehdəşt - İranın Behbehan şəhərindən 41 km. şimal-şərqdə yerləşən kənd.

öldürdü. Onun öldürülməsindən sonra əfşar qaziləri pərişan vəziyyətə düşdülər və lur camaatı qətl və qarətə əl atdı. Bu hadisə lurların tüğyanının və cəsarətinin artmasına bais oldu.

Xəlil xanın qətli barədə xəbər qələndərə çatdıqda o, Dizfuldan yenə də Kuhi-Giluyəyə yollandı və yenidən onun başına çoxlu adam toplaşdı. O, Dehdəşt üzərinə gəldi və istədi ki, nə qədər ki, işin üstü açılmayıbdır, nəfsani ləzzətlərdən kam alıb, zəmanədən zövq götürsün. Amma, elə ki Xəlil xanın öldürülməsinin və qalibiyyətli əfşar tayfasının qırılmasının avazı yaxın və uzaq yerlərə yayıldı və hökmdarın qulağına çatdı, o, Xəlil xanın qardaşı İsgəndər xanı Kuhi-Giluyə əyalətinə hakim təyin edib, onu o tərəfə yolladı. Həmçinin Fars [vilayətində] hakimlik edən zülqədər əmirlərinə qələndəri dəf etmək və İsgəndər xana yardım göstərmək haqqında göstəriş verildi. Növbəti il calal bayraqları Xorasana yollanarkən Fars hakimi Ümmət xan, Duraq xəlifənin sərkərdəliyi altında Fars [vilayətinin] qoşunundan bir dəstəni Kuhi-Giluyə tərəfə göndərdi. İsgəndər xan və əfşar tayfası ona qoşulub, birlikdə Dehdəştə üz qoydular. Əvvəllər qələndərin başına yığışmış cəmiyyət və izdiham təfriqəyə düşüb, pərən-pərən oldu. Fars [vilayətinin] qoşunu onun üzərinə gələn vaxt onun işinin üstündəki pərdə tamamilə açılıb düşdüyündən və lurların say-seçmə adamlarının onun barəsindəki fikirləri nöqsana uğradığından ətrafdan və yan-yörədən heç bir kəs onun imdadına gəlmədi. O, əlacsız qahb Divarbəst qalasına sığınaraq, müdafiə olunmağa başladı. Onunla birlikdə olan az adam iki-üç gün ərzində əbəs yerə çarpışdılar. Bu tərəfdən zülqədər qaziləri hücum edib, Divarbəstə daxil olaraq, müqavimət göstərən dəstəni məhv etdilər və qələndəri qaldığı evdə tutub, onu çəkə-çəkə bayıra çıxardılar. Zülqədər tayfası onu diri-diri ulu dərgaha göndərmək istədi. Lakin əfşar qaziləri hücum çəkib, onu zülqədərlərin razılığının xilafına olaraq qətlə yetirdilər və onun başını ulu dərgaha göndərdilər. Hökmdarın məiyyəti Xorasandakı Türbəti-Heydəriyyəyə çatıb Türbət qalasının mühasirəsi ilə məşğul olan zaman [qələndərin kəsilmiş başı] əşrəfin nəzərinə çatdırıldı. Bununla da bəng düşkünü olan o əbləhin fitnə atəşi Kuhi-Giluyədə söndürülmüş oldu.

***Kuhi-Giluyə hakimi İsgəndər xanın qətli.*** İsgəndər xan Kuhi-Giluyə əyalətində hakimlik etməyə başladı. Amma bir qədər sonra əfşar fəsadçılarından ibarət bir dəstə Xəlil xanın oğlu Şahqulu bəyin başına cəmləşdi. O, Kuhi-Giluyə hakimi olmaq həvəsi ilə qəflətən İsgəndər xanın üstünə gəlib, onu qətlə yetirdi və özünə «Şahqulu xan» adını qoyub, öz hökumət bayraqlarını dalğalandırdı. Lakin Xəlil xanın əqrəbalarından və əfşar tayfasının əmirzadələrindən olan Əbdüllətif bəy Əfşarın oğlu Həsən bəy ona qarşı düşmənçilik mövqeyi tutub, özünü «Həsən xan» adlandırdı. İki tərəf arasında ziddiyyət və münaqişə baş qaldırdı və onlar bir-birlərindən qorxa-qorxa həmin vilayətdə yaşamağa başladılar. O mülk onların ikisi arasında parçalandı və bölündü. Nəhayət, əla-həzrət [Şah Abbas] zamanında hər ikisi Şirazda [hökmdarın] hüzuruna gəldilər. Həsən xan öz əli ilə Şahqulunu qətlə yetirdi və Kuhi-Giluyə hökuməti ona verildi.

Sözün qısası, haqqında bəhs etdiyimiz qələndərin hadisəsindən sonra bəng düşkünü olan digər qələndərlər də «İsmayıl mirzə» olmaq həvəsinə düşdülər. Bir neçə mahalda bu səbəbdən qovğa və iğtişaş baş verdi. Hər neçə gündən bir hansısa vilayətdə bir «İsmayıl mirzə» peyda olurdu və adamlar onun başına cəmləşir, daha sonra isə pərən-pərən düşürdülər. Bunlardan biri Luristanda və Çəmçalda peyda oldu. Əlişəkər qələmrovunun kürd və lur qiyamçıları onun başına cəmləşdilər və onun əsgərləri on min nəfərə çatdılar. O, əmirlər və mənsəb sahibləri təyin edib, həmin sərhəddə fitnəkarlığa başladı, Solağ Hüseyn Təkəlünün yanına adam yollayıb, onu öz hakimiyyətinə tabe olmağa çağırdı və onun ücün vəkalət hökmü göndərib, ona təklif etdi ki, Çuxa sultan Təkəlünün yerinə rüknüssəltənə olsun. Solağ Hüseyn ağlın zərurəti əsasında yalandan itaət və tabeçilik göstərməklə onu aldadıb ələ keçirmək qərarına gəldi, onun sözlərini qəbul edib, onun İsmayıl mirzə olduğunu təsdiq etdi, sədaqətini izhar elədi, bir-birinin ardınca hədiyyə bağlamaları göndərərək, ondan öz hüzuruna təşrif gətirməyi xahiş etdi və onun üçün şahanə çadırlar, yaraqlar və əşyalar göndərib, özü onu qarşılamağa çıxdı. Biçarə qələndər ona inanıb, tamam-kamal şövkət və iqtidarla Çəmçala yollandı. Solağ Hüseyn və təkəlü əyanları Seyf sultan Bayatla birlikdə[1001] onun hüzuruna çatıb, səcdə etmək və ayaq öpmək qaydasını yerinə yetirdilər, daha sonra isə ağıl və zəka ilə hərəkət edərək, onun başına toplaşmış çoxluğu izdihamı bir-birlərindən ayrı salıb pərakəndə etməklə fürsət qazanaraq, onu tutub məhbus etdilər. Qələbə ayətli bayraqlar Xorasan səfərindən qayıdıb, darüssəltənə Qəzvində yerbəyer olduqdan sonra onu ulu dərgaha göndərdilər. Nəvvabi-Cahanbaninin göstərişi ilə at meydanı xiyabanında ona barıtlı qəba geyindirərək od vurdular. Buna baxmayaraq, bu hadisə sərgərdan qələndərlərə ibrət olmadı.

Onlardan digər birisi Talış [bölgəsində] bu arzuya düşdü. Bir dəstə aqibətsiz nadan onun başına cəmləşərək, darülirşad Ərdəbilə gəlib, orada öz əməllərinin cəzasına çatdılar. Digər birisi isə Qur [vilayətində] və Xorasanın Fərah hüdudunda zühur etdi və o sərhədin fitnəkar araqarışdıranlarından ibarət çoxlu xalq onun başına toplanıb, fitnə-fəsad törətməyə başladılar.

***Hüseyn sultanın və onun qardaşı Əlixan sultanın Xorasanın Fərah [bölgəsində] qələndərlə döyüşdə öldürülmələri.*** Fərah hakimi Hüseyn sultan Əfşar onun fitnəsini dəf etməyə yollandı. İki tərəf arasında müharibə baş verdi və qurlar[1002] qalib gəldilər. Rəbbin qəzavü-qədərindən Hüseyn sultan döyüşdə öldürüldü. Əfşar tayfası məğlub vəziyyətdə Fəraha gəldi. Onlar həqiqəti ali taxtın ətəyinə ərz etdilər. Ulu dərgahda əfşar qorçuları zümrəsinin yüzbaşısı olan Əlixan sultan öz qardaşı [Hüseyn sultanın] yerinə təyin edilib, Fəraha gəldi və qardaşının qanının intiqamını almaq üçün qələndərin üstünə Qur [vilayətinə] getdi. Qələndərin tərəfdarları müharibə ahəngini sazladılar. Tərəflərin göstərdikləri çoxlu səylərdən

---

[1001] S-129, v.232a; S-297, v.181a.

[1002] Qurlar - Əfqanıstanın mərkəzi hissəsində, Hərirud çayı boyunda yerləşən Quristan adlı tarixi vilayətin əhalisi.

sonra o (Əlixan sultan) da qətlə yetirildi. Əfşar tayfası bu dəfə də bir iş görə bilmədi. Onlarm (Hüseyn sultanla Əlixan sultanın) qohumu Yegan sultan Fərah hakimi oldu. O, oraya çatdıqda qiyamı yatırmağın qayğısına qaldı. Elə bu vaxt qələndərin yalanı onun tərəfdarlarına aydın oldu və axırda [qələndər] qətlə yetirildi.

Xülasə, İsgəndər şanlı nəvvabın hakimiyyətinin ilk dörd-beş ilində İsmayıl mirzə cənabları barədə dedi-qodu və söz-söhbət əhalinin dilindən düşmək bilmədi.

## XORASAN HADİSƏLƏRİ VƏ ƏLAHƏZRƏT IŞAHABBASINI 989-cu İLƏ (05.02.1581-25.01.1582) MÜVAFİQ OLAN YILAN İLİNDƏ O VİLAYƏTİN SƏLTƏNƏT TAXTINA KAİNATIN HÖKMDARI [OLAN ALLAHIN] TƏQDİRİ İLƏ ƏYLƏŞMƏSİ HAQQINDA

Ötən (988/1580-cı) ilin hadisələri arasında bəyan qələmi ib yazıldı ki, müqəddəs Məşhədin hakimi Mürtəzaqulu xan Pornak Herat bəylərbəyisi Əliqulu xan Şamlunun, Mürşüdqulu xan Yegan Ustaclunun və onların tabeçilərinin üsyanını və tüğyanını, onların müqəddəs Məşhədin və Nişapurun üzərinə gəlmələrini ard-ardına və dalbadal ulu dərgaha ərz etdikdə Əmir xan və türkman əmirləri oymaq təəssübkeşliyi cəhətindən bu barədə söz-söhbətə başlayıb, Mürtəzaqulu xana kömək və yardım göstərməyin qeydinə qaldılar. Qüdrətli dövlətin dayağı olan şəxslər Xorasan məsələlərinin intizama salınmasını Məhəmməd xan Türkmanın səylərinin öhdəsinə qoyub, onu öz atasının qanının qisasını tələb edən İsmayılqulu xan Şamlu, Qorxmaz xan və bəzi əmirlər və əsgərlərlə birlikdə Xorsana göndərdilər ki, gedib ağıl və bilik yolu ilə o fitnə atəşini söndürsünlər, Xorasan əmirlərini İsgəndər şanlı nəvvaba və dünya sakinlərinin şahzadəsi Sultan Həmzə mirzəyə müxalif olmaqdan çəkindirsinlər və əgər mümkün olarsa, onlarla Mürtəzaqulu xan arasındakı düşmənçiliyi islah etsinlər, əgər mümkün olmasa, onda vaxtın zərurətinə və dövlətin mənafeyinə uyğun hərəkət edərək, bu məsələni elə bir tərzdə həll etsinlər ki, qızılbaşlar arasında baş qaldırmış ikitirəlik ortadan götürülsün və onların hamısı bir mövqedən çıxış etsinlər.

Onlar fərmana uyğun olaraq yola düşüb, bir neçə gün İraqda öz qoşunlarını və dəstələrini tərtibə saldılar və daha sonra hərəkət yüyənlərini Xorasana doğru yönəltdilər. Onların gəlişinin xəbəri Xorasanda yayıldıqda Əliqulu xan və Mürşüdqulu xan da müqəddəs Məşhədə getməyi qərara alaraq, öz tabeçilərinə xəbər verib, kama yetmiş adlı-sanlı səadətli şahzadənin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın məiyyətində darüssəltənə Heratdan çıxdılar. Bu təbəqə ilə əhdü-peyman bağlamış əmirlərin hamısı hazırlıqlı qoşunlarla ali orduya cəmləşib, tamam şövkət və iqtidarla müqəddəs Məşhədin hüduduna gəldilər.

Mürtəzaqulu xan istədi ki, pay-püşk veriləcəyi barədə xəbər yaymaqla çoxlu qoşun yığaraq, o çoxsaylı qüvvəyə qarşı müqavimət göstərsin. O, müqəddəs

Məşhədin hasilat və mədaxilindən çoxlu [məbləğ] xərcləyib, qeyri-məhdud ənamlar verdi və tayfalara, oymaqlara və əsgərlərə qızıl paylamaq vədi verib, bu məqsədlə müqəddəs Məşhədin varlılarından, neçə müddətdən bəri o mübarək şəhərə gəlib orada məskunlaşmış tacirlərdən və sövdəgərlərdən zorla [pul] tələb etdi. Onun müsadirə və qəsbetmə əməlləri həddini aşdı. O, sağına-soluna baxmadan, öz cəsarət əlini müqəddəs [İmam Rza] astanasının mülkiyyətindəki abad xəzinəyə və o mübarək məqbərənin bəzək və zinət əşyalarına uzadıb, oradakı bütün qızıl və gümüş qəndilləri və şamdanları ələ keçirib, öz əsgərlərinin ülufə və maaşına sərf etdi. Bu səbəbdən elə oldu ki, onun arzuları səmərəsiz qaldı və özü üçün düşündüyü mətləblər əks-nəticə verərək. təsdiqini tapmadı.

Sözün qısası, Məhəmməd xan, İsmayılqulu xan və onlarla birlikdə getməyə təyin olunmuş əmirlər və əsgərlər müqəddəs Məşhədə çatdılar. Onlar o mübarək şəhərin yanına gəldikdən sonra Məhəmməd xanla Əliqulu xan arasında nəsihətamiz məktublaşma baş verdi. Amma onlar (Əliqulu xan və tərəfdarları) Məhəmməd xanın türkman oymağının təəssübkeşliyi, İsmayılqulu xanın isə Vəli xəlifənin qanının qisası baxımından qalmaqal və fitnə-fəsad törətməyi düşündüklərini güman etdiklərindən və özləri ilə Mürtəzaqulu xan arasındakı gərginliyin sülh yolu ilə həllini mümkün hesab etmədiklərindən bu [məktublaşmanın] heç bir təsiri olmadı. Əliqulu xanın müddəası bundan ibarət idi: «Bizimlə Mürtəzaqulu xan arasındakı fitnə və düşmənçilik atəşi elə bir tərzdə alışıb ki, öyüd-nəsihət suyu ilə sönən deyildir və bizim onunla yola getməyimiz heç bir vəchlə mümkün deyildir. Əgər onu [başqası ilə] dəyişdirsələr və öz yüksək dərəcəli atasının hökmü ilə bu sərhəddə olan kama yetmiş şahzadə [Abbas mirzəyə] itaət göstərən, əhvalatlar və hadisələr zamanı lələnin və bəylərbəyinin (Əliqulu xanın) sözündən və məsləhətindən çıxmayan digər bir şəxsə müqəddəs Məşhədin hökumətini versələr, onda sülh və asayiş bərqərar olar. Biz əvvəllər olduğu kimi, yenə də elə həmin dövlətsevər bəndələrik».

Lakin lovğalıq və qürur badəsindən məst olan Məhəmməd xan və Mürtəzaqulu xan türkman tayfasının [say] çoxluğuna və ulu dərgahda malik olduqları ali mərtəbələrə güvənib, məsələnin bu yolla həllindən imtina etdilər. Onlar elçi və məktub mübadiləsini dayandıraraq, öz tabeçilərini ətrafdan və yan-yörədən cəmləşdirdilər. Bunun nəticəsində müqəddəs və ulu Məşhəddə böyük bir [qoşun] kütləsi toplaşdı.

Amma Əliqulu xanla Mürşüdqulu xan müqəddəs Məşhədə getməyi sərfəli bilməyib, Dərviş Məhəmməd xanın keçən il törətdiyi hərəkətdən incidiklərinə görə əvvəlcə Dərviş Məhəmməd xanı tənbeh etməyə və cəzalandırmağa getməyi vaxta münasib bildilər. Onlar qərara aldılar ki, əgər Məşhəd əmirləri ona kömək etmək üçün şəhərdən çıxarlarsa, onda səhrada iki tərəfin üz-üzə gəlməsi baş verər və qeyb aləminin pusqusunda gizli qalmış həqiqət aşkar olar. Yox, əgər belə olmazsa, onda Nişapur məsələsini həll edib, daha sonra müqəddəs Məşhədin üzərinə gələrlər.

Buna görə də hərəkət yüyənlərini Məşhəd səmtindən çəkib, Nişapur tərəfə yollanaraq, o şəhərin kənarına çatdılar.

***Əliqulu xanın Nişapur qalasını zəbt etmək əzmi ilə gəlməsi.*** Dərviş Məhəmməd xan istehkam qurmağa və qala müdafiəsi üçün zəruri olan işləri görməyə baş qoşdu və şəhər darvazalarını bağlayıb, maneə sipərlərini hazır etdi. Onlar qalanı mühasirəyə alıb, qalanı tutmaq üçün lazım olan tədbirləri həyata keçirməklə məşğul oldular. Onların Nişapura getməyindən xəbər tutan Məhəmməd xan və Mürtəzaqulu xan müqəddəs Məşhədi boş qoymaq kimi bir xətalı və yanlış tədbiri düzgün hesab etməyib, bu hadisənin dəf edilməsinin asan olduğunu düşündülər və özləri şəhərdə qalıb, əsgərlərdən bir dəstəsini İsmayılqulu xanla Budaq xan[1003] Çəkəninin sərkərdəliyi ilə Dərviş Məhəmməd xana yardım və kömək göstərməyə məmur edərək, onları o tərəfə göndərdilər. Nişapur hüdudunda iki tərəf arasında döyüş baş verdi. Səadət küləyi Abbas tərəfdarlarının dövlət bayrağını dalğalandırdı. Əlahəzrətin mənsubları fəth və zəfər qazandılar. İsmayılqulu xan, Budaq xan və onların tabeçiləri qaçış yolunu tutub, məğlub və bədhal bir vəziyyətdə müqəddəs Məşhədə çatdılar. Bu hadisə Abbas tərəfdarı olan əmirlərin şövkət və qüdrətinin artmasına səbəb oldu. Məhəmməd xan, Mürtəzaqulu xan və Məşhəd əmirləri isə büsbütün hörmətdən düşdülər. O təbəqə (Abbas tərəfdarları) cəsarət əldə etdi. Məşhəd qoşunu isə həmin hadisədən sonra onlara qarşı vuruşmağa özündə qüdrət tapmadı. Onlar öz başlarını şəhərdə gizlətdilər və get-gedə onların çoxluğu və izdihamı azalmağa üz qoydu.

Abbas tərəfdarları olan əmirlər, xüsusilə də ustaclu tayfası Məşhəd qoşununun məğlubiyyətə uğramasından və onların acizliyinin və zəbunluğunun aydın olmasından sonra qəzavü-qədərin zərurəti üzündən bu cür hadisələrin baş verdiyini və İsgəndər şanlı nəvvabın qüdrətli dövlətinin dayaqları olan şəxslərin onların hərəkətlərini müxaliflik və üsyan kimi dəyərləndirdiyini nəzərə alaraq, öz itaət əllərini Allahın kölgəsi olan əlahəzrət şahın ətəyinə birdəfəlik vurmaq və o həzrəti padşah elan edib, Xorasan səltənətinin taxtına əyləşdirmək fikrinə düşdülər ki, bununla da onların göstərdikləri səy və xidmətlərin o həzrətin yolunda olduğu hamıya zahir olsun və onlar dost-düşmənlərini ayıra bilsinlər. Bu barədə Əliqulu xan Lələ ilə söhbətləşdilər. O həzrətin (Abbasın) xilafət və padşahlıq formanı təqdir qələmi ilə qəzavü-qədər lövhəsi üzərində qeyd olunduğundan onun tərəfkeşlərinin hamısı bu fikri alqışlayaraq, bu ali mətləbi həyata keçirməyə başladılar.

[1003] S-129, v.234a; S-297, v.182b.

## ALLAHIN KÖLGƏSİ OLAN ƏLAHƏZRƏT ŞAHIN XORASAN SƏLTƏNƏTİNİN TAXTINA ƏYLƏŞMƏSİ HAQQINDA

989-cu ilə (05.02.1581 - 25.01.1582) müvafiq olan türklərin yılan ilində, səma cisimlərinin uğurla düzüldüyü bir gündə padşahsayağı məclis tərtibləyib, uca səltənət və padşahlıq kürsüsünü bəzədilər, o iqbal ölkəsinin şahənşahını sultanların tövründə və qaydasında o kürsüyə əyləşdirdilər və onun o vaxtadək camaat arasında Abbas mirzə kimi məşhur olan şərəfli adı Şah Abbas deyə çağırılmağa başlandı. Hərçənd o həzrətin azyaşlılığı və kiçikliyi səbəbindən bu işə dəxli yox idi və o, adlı-sanlı atasının və böyük mənsəbli qardaşının xoşuna gəlməyən bu əmələ razı deyildi, amma qəzavü-qədərin işgörənlərinin köməyi ilə bu böyük iş ixtiyarsız olaraq baş tutdu. Fərmanlar və hökmlər padşahlıq tuğrası ilə zinətləndirildi. Xorasanda onun səadətli adına və ləqəbinə sikkə vuruldu və xütbə oxundu. Sadə xalq və əsilzadələr təbrik etmək və mübarəkbaşlıq demək üçün dilə gəldilər. Xorasanın əksər əyanları, əsilzadələri, sahibkarları və əhalisi ali dərgaha üz tutub, itaət və fədakarlıq nümunələri göstərdilər. O vilayətin böyüklərindən olan və atası Mir Şahhüseyn ulu orduda münşi əl-məmalik vəzifəsini tutan Mir Məhəmməd Yusif Nişapuri dövlətsevərlik mərasimində digərlərindən daha artıq səy göstərdi və əmirlik mərtəbəsinə tərəqqi edərək, Mir Məhəmməd Yusif xan adını qazandı.

Həqiqətən də, o həzrətin səltənət və padşahlığının tarixi [əbcəd hesabı ilə] «in sal fərxəndəfal əst» («bu il uğurlu ildir») cümləsi oldu. Bu xəbər müqəddəs və ulu Məşhədə çatdıqda Məhəmməd xanın və Məşhəd qoşununun üzgünlüyünə və pərişanlığına səbəb oldu. Onlar bu halın həqiqəti barədə ulu dərgaha ərizə yazıb, səba [küləyi] kimi sürətli qasidlərlə Azərbaycana göndərdilər.

Allah-taala o həzrətin (Şah Abbasın) vücudunun cövhərini parlaq xilqətin rüşeymindən xəlq etdiyi və onun bəxtinin ulduzunu məsud və parlaq yaratdığı üçün hələ həyatının başlanğıcından və uşaqlıq çağlarından etibarən o həzrətə münasibətdə hüsn-rəğbət bütün adamların ürəklərində qərar tutmuşdu. Xalq təbii surətdə onun hakimiyyətinə sevgi bəsləyirdi. Onun hakimiyyətə yüksəlməsi xəbəri haraya çatdısa, sevinc və şadlığa səbəb oldu. Qeyb aləminin əlamətlərinin nişanələri dünya adamlarına onun xoşbəxt cülusunun müjdəsini verirdi. O cümlədən, bu səadət səmərəli xəbər [Şah Məhəmməd Xudabəndənin] ordusunda da yayıldı və hamının heyrətinə səbəb oldu. Çünki o vaxtadək Səfəvi sülaləsində belə bir iş baş verməmişdi. Bu sətirlərin müəllifi olan mən (İsgəndər bəy Münşi) sədri-əzəm Qazıxan əl-Hüseynidən bunları eşitmişəm: «İsgəndər şanlı nəvvab Qarabağda qışlaq edən ildə Aleksandr xanın müşrifi olan Xoca Ziyaəddin Kaşi [şah] ordusuna gəlmişdi. O, məndən sual etdi ki, kama yetmiş şahzadə [Abbasın] Xorasanda padşah olması xəbəri doğrudur, ya yox? Mən cavabında ona dedim ki, bəli, belə bir söhbət dolaşmaqdadır, amma hələ dəqiqləşməyibdir. Bu vaxt Kamal

İsmayılın «Divan»ı ortada idi. Sözügedən Xoca [Ziyaəddin] şahzadə [Abbasın] əhvalını o kitabdan fal etdi və əvvəlinci səhifənin sağ tərəfində bu qitə gəldi:

**Qitə**

«Tac bəxş edən xosrov, cahanın şahı
Ki, qılıncından zəmanə həzərdir.
Taleyin ona verdiyi töhfələr,
Hər dəm, hər an səadətdir, zəfərdir.
Düşüncəsi müdrik, dövləti gəncdir,
Bəhrdir əli, xəncəri gövhərdir.
Dün gecə bunları dedi asiman:
«Bizim yanımızda böylə xəbərdir,
Tutacaq günəşə bənzər qılıncla,
Nəyin ki üstünə günəş güzərdir.
Ağıl nə qədər təsəvvür edirsə,
Onun mülkü elə həmin qədərdir.
Onun şahlığıyla müqayisədə,
Göyün yeddi qatı da müxtəsərdir.
Qoy sübh olsun, dövləti yüksələcək,
Nəticəsi olar haçan səhərdir».

***Əliqulu xanın öz məqsədinə çatmadan Nişapurdan qayıtması.*** Xülasə, bu hadisədən sonra Abbas tərəfdarı olan əmirlər tamam cidd-cəhdlə [Nişapur] qalasını tutmağa yollanaraq, çoxlu səy göstərdilər və zəhmət çəkdilər. Amma Dərviş Məhəmməd xan ağlının çoxluğu, mərdanəliyi və yaxşı tədbirləri sayəsində qalanı mühafizə və müdafiə etmək işində lazım olduğunca çalışdı. Bayırdakılar nə qədər səy göstərsələr də, qala süqut etmədi. Nəhayət, mühasirənin müddəti uzandı və qış fəsli yaxınlaşdı. Eyni zamanda, İraq qoşununun gəlişi barədə xəbər çatdı. [Abbas tərəfdarı olan əmirlər] zərurət üzündən köç etmək qərarına gəlib, darüssəltənə Herata üz tutdular. Böyük əmirlərin hər biri rüxsət alaraq, öz iqtalarına getdilər.

Amma Xorasan hadisələri barədə xəbərlər olduğu kimi, Qarabağın Meydancuq [adlı yerində] İsgəndər şanlı nəvvabın ordusuna çatdıqdan və sərdar Sinan paşa ilə sülh söhbəti ortaya gətirilib, yuxarıda xatırladıldığı kimi, İbrahim xan Türkman elçi sifəti ilə İstanbula göndərildikdən sonra İraqa getmək qərara alındı. Onlar köçhaköçlə səltənət mərkəzinə gəldilər və qışı darüssəltənə Qəzvində keçirib, yunt ilinin əvvəlində[1004] Xorasanda baş qaldırmış fitnə səbəbindən oraya səfər etməyin tədarükünü görməklə məşğul olaraq, əmirlərin və əsgərlərin hazır

[1004] Həmin tarixdə yunt ili 1582-ci ilin Novruzundan 1583-cü ilin Novruzuna qədərki zamana təsadüf etmişdir.

olması üçün ətrafa və yan-yörəyə qorçular göndərdilər. Bu əsərin sonrakı vərəqlərində o ilin hadisələri şirin sözlü bir qələmlə yazılacaqdır.

## İSGƏNDƏR ŞANLI NƏVVABIN ZƏFƏR NİŞANLI MƏİYYƏTİNİN XORASANLILARIN FİTNƏ VƏ FƏSAD ALOVUNUN SÖNDÜRÜLMƏSİ ÜÇÜN XORASAN SƏMTİNƏ YOLLANMASI HAQQINDA

Türklərin yılan ilinin qışı bərəkət və səadətlə sona çatıb, yazın və fərvərdin ayının məşşatəsi[1005] təzə gəlin olan reyhanların rüxsarından örtüyü götürdükdə və könül oxşayan bahar qocaya və cavana eyş və səfa çağırışını verib, şadlıq və şənlik bayraqlarını zəmanə səhnəsində dalğalandırdıqda şah və kama yetmiş adlı-sanlı şahzadə (Həmzə mirzə) davamlı səltənətin mərkəzində eyş-işrətlə və istirahətlə məşğul idilər. Nəvvabi-Cahanbani zövq və xoşbəxtliklə Mirzə Salmanın qızını istəməyə həvəs göstərib, tamam hüsn-rəğbətlə onu öz nikahına keçirdi. Mirzə Salman şahanə bir ziyafət qurdu. Layiqli bir şəkildə kəbin bağlandı. Tərəflər bir-birlərinə münasibətdə bu işə yaraşan rəsmi iltifatlar göstərdilər. Qərara alındı ki, bu il o izzət çadırının pərdəsi arxasında oturan xanımın (Mirzə Salmanın qızının) zəruri ləvazimatlarının, avadanlığının və zinət əşyalarının tərtib edilməsi ilə məşğul olsunlar və Allahın köməyi ilə növbəti il gəlin köçdü və zifaf mərasimi baş tutsun. Bu fəxrdən Mirzə Salmanın iftixar başı Keyvan eyvanına qalxdı. O, vəzirlik vəzifəsində və işlərin icrasında əvvəlkindən daha artıq iqtidar və istiqlal qazandı.

Hərçənd əmirlər və dövlət ərkanı bu qohumluğa və bu izdivaca razı deyildilər. Amma onlar şahzadənin könlünün arzusunu nəzərə alaraq, buna qarşı açıq-aydın etiraz etmədilər. Elə ki [yuxarıda] yazılmış Xorasan xəbərləri yayıldı, Xorasan əmirlərinin işinin üzərindən pərdə qalxdı, Allahın kölgəsi olan əlahəzrət şahın Xorasandakı səltənət və padşahlığının avazı İraqa yetişdi və kamal dərəcəsinin yəqinlik sərhədinə çatdı və Məhəmməd xan, İsmayılqulu xan və Xorasana getmiş [digər] əmirlər müqəddəs Məşhəddən geri qayıdaraq, [şahın] astanasını öpmək şərəfinə nail olub, Xorasanın vəziyyəti barədə həqiqətləri olduğu kimi ərz etdilər, Mirzə Salman, İsgəndər şanlı nəvvabın digər dövlətsevərləri və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] mənsubları və yaxınları qalmaqal etməyə, söz-söhbət salmağa başlayaraq, xorasanlıların fitnə-fəsad alovunun söndürülməsi üçün Xorasan yürüşünə hazırlaşmağa başladılar. Lakin hadisələrin bu cür cərəyan etməsi qorçubaşının, Şahrux xanın və əmirlərin xoşuna gəlmədi. Onlar «canəqi» məclisində belə dedilər:

- Rumilərin sözünə etibar yoxdur. Birdən, hökmdarın Xorasana getməsi rumilərin qulağına çatar, Sinan paşa da fürsəti qənimət bilib, bizim olmadığımız bir şəraitdə Azərbaycan üzərinə hərəkətə keçər və o diyarda fitnə və çaxnaşma baş verər. Hökmdarın Azərbaycana getməsi və yad düşmənin şər işlərinin dəf olunması

---

[1005] Fərvərdin ayı - İran günəş təqviminin Novruz bayramı ilə başlayan birinci ayıdır. Burada 1582-ci ilin yazının başlanğıcı nəzərdə tutulmuşdur. Məşşatə - gələnləri və qızları bəzəyən qadın.

daha yaxşı və qüdrətli dövlətin faydası baxımından daha layiqli olardı. Əgər kama yetmiş adlı-sanlı şahzadənin Xorasanda nüfuzu və iqtidarı bir qədər artıq olarsa, müxalif özbəklər bunu hesaba alsalar və Xorasan əmirləri ona tabe olsalar, əbədi dövlətimizə bundan bir nöqsan dəyməz.

Mirzə Salman və özlərini Nəvvabi-Cahanbaninin tərəfkeşliyi yolunda sabitqədəm sayan bir sıra şəxslər isə sözügedən əmirləri nifaq əhlindən hesab etdilər və Xorasana getməkdə tərəddüd edənləri:

«İkibaşlı oyun boş bir həvəsdir,
Eşqin qibləgahı bir olsa bəsdir»

deyiminin məzmununa uyğun bir şəkildə, nifaq törətməkdə və xilaf çıxmaqda ittiham edərək, xəlvətdə və aşkarda İsgəndər şanlı nəvvabın ərzinə bunları çatdırdılar:

- Xorasan səfərini təxirə salmaqda əmirlərin mətləbi odur ki. qızılbaşlar arasında ikitirəlik qızışdığı bir vaxtda [Abbasın] Xorasanda qurulmuş səltənətinin bünövrəsi xaraba qalmasın və bu minvalla onların özlərinin ulu dərgahdakı etibarı möhkəmlənsin.

Bu söz-söhbət ona bais oldu ki, əmirlər bu işə mane olmaqdan əl çəkib, Xorasan səfərinə yollanmaqda müttəfiq oldular. Darüssəltənə Təbrizdə olan Əmir xan Mosullu da ya Nəvvabi-Cahanbaninin fikrini nəzərə aldığına görə, ya da ki, Mürtəzaqulu xana yardım etmək üçün bu yürüşə razılıq verdi.

Xülasə, Xorasan üzərinə getmək məsələsi bütün qızılbaş əyanlarının xatirində qərar tapdı. Ustaclu tayfasının könlünü ələ almaqdan ötrü Abdulla xan Ustaclunun nəvəsi və Şahəli mirzənin oğlu olan Salman xan divanbaşı mənsəbinə yüksəldildi. Qərar verildi ki, o, öz mərhum əcdadı kimi padşah fərmanlarının ortasına möhür vursun. Həmçinin onunla nişanlanmış olan cənnətməkan şahın qızı Şəhrəbanu bəyim layiqli bir tərzdə gəlin köçürülüb, onun mənzilinə göndərildi. Şanlı orduda olan ölkəsiz qalmış ustaclu əmirlərindən bir neçə nəfər, xüsusilə də Şahqulu sultan Qarınca, Əhməd sultan Asayişoğlu və digərləri şahanə şəfqətlərə layiq görüldülər. Onlara yürüş xərcini ödəyərək. Xorasan səfərində iştirak etməyi əmr etdilər. Bu tədbirlər ona görə həyata keçirildi ki, Mürşüdqulu xan və Xorasanda olan ustaclu əmirləri qiyamçılıq yolunda möhkəm dursalar, onların dəf edilməsindən sonra [yuxarıda] adları çəkilmiş əmirləri onların əvəzinə təyin etsinlər. Salman xan, ustaclu əmirləri və ağsaqqalları öhdələrinə götürmüşdülər ki, öz etimadlı adamlarını Xorasana göndərsinlər və oradakı ellilərinə və tayfadaşlarına öyüd-nəsihət verərək, onları müxaliflik və üsyan məsləyindən döndərib, itaət yoluna yönləndirsinlər. Bu işin icrası üçün o tayfanın böyüklərindən sayılan və cənnətməkan şahın xidmətində nüfuz və hörmət sahibi olmuş Şahverdi bəy Yeganı seçdilər. O, Mürşüdqulu xanın əmisi idi. Cəlal bayraqlarının yola düşməsindən öncə onu bu xidmətə məmur edib, Xorasana göndərdilər.

Fars [vilayətinin] bəylərbəyisi Əli xan Zülqədər hərbi toplanış («yasaq») zamanı təqsirə yol vermişdi. Belə ki, Azərbaycanda hərbi əməliyyatların getdiyi iki-üç il ərzində Fars [vilayətinin] qoşunu Kuhi-Giluyədə qələndərin zühur etməsi və qiyam qaldırması bəhanəsi ilə müharibədə iştirakdan boyun qaçırıb gəlməmişdi. Buna görə də onun və Fars [vilayətinin] bir neçə nəfər digər zülqədər əmirlərinin vəzifədən çıxarılması barədə fərman verildi. Zülqədər tayfasının böyüklərindən və ağsaqqallarından olan Ümmət bəy Yüzbaşıya «xan» rütbəsi verib, Süleyman taxtgahı və Kəyan darül-mülkü olan o vilayətin hakimliyini və əmirülümərалığını ona mənsub etdilər. O vilayətə yenidən əmirlər təyin olundu. Hökm edildi ki, Ümmət xan, Fars [vilayətinin] qoşununun bir dəstəsini qələndərin dəf olunması və İsgəndər xana kömək göstərilməsi üçün Kuhi-Giluyəyə göndərsin, özü isə qalan qoşunla Xorasana yollanıb, [şahın] müzəffər məiyyətinə qatılsın. Bundan başqa, itaət olunması vacib olan bir fərman yazıldı ki, Əlişəkər qələmrovunun bəylərbəyisi olan Həmədan hakimi Vəli xan Təkəlü və o sərhədin əmirləri, həmçinin darülaman Kirmanın hakimi Vəli xan Əfşar öz vilayətlərinin qoşunları ilə birlikdə Xorasan yürüşünə yollanaraq, bu səfərdə hökmdarın məiyyətində olsunlar.

Xülasə, [şah və Həmzə mirzə] baharın üçüncü ayını da darüssəltənə Qəzvində eyş-işrət və səadətlə keçirdilər. Əbədi dövlətin dayağı olan şəxslər isə Xorasan yürüşünün hazırlıqlarını görməklə məşğul oldular. Məhsulların artımı vaxtı yürüşə çıxdılar. Ay kimi gəzən qorçular vasitəsilə Xorasan əmirlərinə istimalətnamələr[1006] göndərdilər ki, sədaqət və şahısevənlik üzündən Mürtəzaqulu xanın başına toplaşıb, onunla birlikdə [şahın] ali məiyyətinə birləşsinlər. [Xorasana yürüş üçün] qısa bir zamanda o qədər qoşun toplaşdı ki, qızılbaş ordusunun sayının bu dərəcəyə çatdığını hələ görən olmamışdı. Yol əsnasında Şahverdi bəy Yegan Xorasandan qayıdaraq, Mürşüdqulu xanın adından bəzi üzrxahlıqlar ərz etdi. Lakin danışıq və söhbət zamanı o, kobud xasiyyətini büruzə verib, axırda danlaq və məzəmmət hədəfinə çevrildi və cəzaya məruz qaldı. Həsən bəy Çavuşlunun tir və kaman qorçusu («qorçi-yi tir ü kəman») olan və ustaclu tayfasının böyüklərindən sayılan oğlu Mehdiqulu bəy də oymaq təəssübkeşliyi və öz elinin, əşirətinin himayədarlığı mövqeyində dayanaraq, əmirlər arasında bu yöndə cəsurcasına sözlər danışdı. O da iddia sahibi olduğuna və etimada qabil şəxs olmadığına görə cəzalandırıldı. Salman xan və ustaclu ağsaqqalları rəqiblərin yoldan çıxarması və təhriki ucbatından və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzəyə] öz dostluqlarını göstərmək cəhətdən onların hər ikisini qətlə yetirdilər.

Amma Əliqulu xanla Mürşüdqulu xan İraq qoşununun gəlməsi xəbərini eşidib, kainatın şahzadəsinin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın müqəddəs üzəngisi həndəvərində darüssəltənə Heratdan çıxdılar. Onlarla əhdü-peyman bağlayaraq, əlahəzrət [Abbasa] kömək etməyi və İsgəndər şanlı nəvvaba müxalif olmağı qərara almış böyük əmirlərin hamısı onların başına toplaşıb,

[1006] İstimalətnamə - hansısa şəxsi öz tərəfinə cəlb etmək üçün yazılan məktub.

mənzilbəmənzil irəliləyərək, möminlər şəhəri Səbzəvara gəldilər. Şahın səadətli məiyyəti Damğana çatan zaman onlar Səbzəvarda idilər. Sayı onların dəstəsindən qat-qat çox olan İraq qoşununun qüvvət və şövkətinə baxmayaraq, xorasanlıların igidliyi və onların Səbzəvaradək gəlmələri [şah ordusunda] kədər və pərişanlıq yaratdı[1007]. Adamlar güman edirdilər ki, həmin bir neçə gün içində o iki qoşun arasında böyük bir döyüş və vuruş baş verəcəkdir. Lakin əksər böyüklər və ağsaqqallar belə bir döyüşü arzuolunmaz hesab edirdilər. Çünki qızılbaş tayfalarının bir-birlərinə əqrəbalığı və qohumluğu vardı və onların bir dəstəsi o tərəfdə, bir dəstəsi isə bu tərəfdə idi. Nəcib fikirli əmirlər, xüsusilə də Qulu bəy Qorçubaşı və Şahrux xan düşmənçiliyin aradan qaldırılmasının lazım olduğuna dair sözlər dedilər.

Amma Mirzə Salman və Nəvvabi-Cahanbani həmin əmirləri nifaq əhlindən hesab edərək, onları ikitirəlik salmaqda ittiham etdilər. Bu səbəbdən də [həmin əmirlər] vaxtın məsləhətinə əməl edərək, öz fikirlərini izhar edib dilə gətirə bilmədilər. Hökmdarın ordusu Məzinanda cah-calalla dayanan gün xorasanlıların geri dönmələri barədə xəbər orduda yayıldı. Bu mövzunun təfərrüatı belədir ki, Əliqulu xan və Abbas tərəfdarı olan əmirlər Səbzəvara çatıb, padşahın səadətli məiyyətinin gəlişindən və İraq qoşununun çoxluğundan və izdihamından xəbər tutduqda onlara qarşı döyüşməyin öz qüvvətləri və qüdrətləri çərçivəsindən kənarda olduğunu anladılar və öz vəziyyətləri üçün onu məsləhət bildilər ki, müharibədən üz döndərib, hər biri öz ölkəsinə gedərək, öz qalasını möhkəmlətsin, Həqiqətən də, o vaxt bundan başqa dürüst fikir və məqsədəuyğun tədbir yox idi.

Mürşüdqulu xan Türbət qalasına çəkilməyi qərara alıb, o səmtə yollandı. Əliqulu xanla Heratın, Quryanın və o hüdudun əmirləri cahan şahzadəsinin səadətli üzəngisi həndəvərində darüssəltənə Herata getdilər. Qələbə ayətli bayraqlar onları təqib edərək, hərəkətə gəldilər. Mürtəzaqulu xan və Xorasan əmirlərinin əksəri müzəffər məiyyətə qoşuldular. Mürşüdqulu xanın Türbət qalasına sığınması xəbəri hökmdarın qulağına çatdıqda qüdrətli dövlətin dayağı olan şəxslər məsləhət gördülər ki, əvvəlcə onun işini bitirsinlər və o, həmin qalada olduğu müddətdə [oranı mühasirədə saxlayaraq] başqa bir işlə məşğul olmasınlar. Buna görə də Türbət qalası üzərinə hərəkətə gəldilər. Onlar qalanın həndəvərinə çatdıqda qalanın ətrafını və yan-yörəsini dövrəyə aldılar, oymaqların əmirləri və əsgərləri səngərlərdə («sibə») mövqe tutdular və qalanı fəth etmək işinə girişdilər. Bir neçə gün ərzində böyük toplar tərtib olunaraq, qalaya tuşlandı. Mirzə Salman, təkəlü və türkman əmirləri digərlərindən daha artıq səy göstərir və zəhmət çəkirdilər. Mürşüdqulu xan və qala əhli qalanı mühafizə etmək və qorumaq işində necə lazımdırsa səy göstərib, müdafiə olunmağa çalışırdılar və səngərlər üzərinə basqınlar təşkil edib, şücaət nümunələri göstərirdilər. Onlardan bir dəstəsi igidcəsinə səngərə basqın edib, öz tayfasının mötəbər əmirlərindən olan Ərdoğdu

[1007] Burada «İraq qoşunu» və «xorasanlılar» dedikdə İraqi-Əcəmdəki və Xorasandakı qızılbaş qoşunları nəzərdə tutulur.

xəlifə Təkəlünü qətlə yetirmişdilər. Həmçinin Nəvvabi-Cahanbaninin eşikağasıbaşısı vəzifəsini tutan və Qorxmaz xan Şamlunun oğlu olan Təhmasibqulu bəy səngərdə qətlə yetirildi.

Xülasə, altı ay ərzində iki tərəf arasında müharibə və çarpışma davam etdi. Mühasirədəkilər bayırdakıların bəzilərinin yardımı ilə mərdanə səy göstərdilər. Buna görə də bayırdakıların çoxlu cəhdləri heç bir fayda vermədi. Həqiqətən də, dövlət adamlarından bəziləri, xüsusilə Qulu bəy Qorçubaşı və Şahrux xan qan tökülməsi qorxusundan razı deyildilər ki, qala zorakılıq və qələbə ilə fəth olunsun. Onlar gizlində oymaqların ağalarına və ağsaqqallarına söhbət əsnasında deyirdilər:

- Ümidvarıq ki, qızılbaşların qılıncları bir-birinin üzünə qalxmayacaqdır, məsələ sülh və asayişlə həll olunacaqdır və səy göstərənlərin səyləri ilə baş qaldırmış fəsad sülhlə sona çatacaqdır.

Amma rəqiblərin və paxılların tənəsinin qorxusundan onlar əmirlərin yığıncağında bu barədə danışmaqdan çəkinərək, bir-birlərinin xofundan bu məsələni izhar etməyə qüdrət tapmırdılar. Nəhayət, qışı qalanın ətəyində başa vurdular. Aləmi nurlandıran Novruzun gəlişi ilə türklərin quy ili xoşbəxtliklə varid olub, dörd fəslin sultanı əzəmət və səadətlə bayraqlarını dalğalandırdı[1008]. Mühasirə müddəti uzun çəkib, tərəfləri bezdirdi. Qüdrətli dövlətin hər bir oymaqdan, xüsusilə də şamlu, ustaclu və s. tayfalarından olan ağsaqqalları bu mövzuda Mirzə Salmanın və dövlət əyanlarının hüzurunda söhbət saldılar. Sülh bağlanmasına könüllərdə bir qədər rəğbət yarandı. Əvvəlcə bu söhbət ortaya atıldıqda qüdrətli dövlətin dayaqları olan şəxslər əmirlər zümrəsindən Seyid bəy Kəmunəni və seyidlərdən, üləmalardan qazı-əsgər Mir Əbülməali Əncunu bir neçə nəfər xeyirxah ağsaqqallarla birlikdə qalaya göndərdilər ki Mürşüdqulu xana nəsihət versinlər və onu müxaliflikdən əl çəkməyə, İsgəndər şanlı nəvvaba və Nəvvabi-Cahanbaniyə itaət göstərməyə dəvət etsinlər.

Sözügedən şəxs (Mürşüdqulu xan) göndərilənləri qalada saxlayaraq, öz əmisi Şahverdi bəy Yeganın qətlə yetirilməsi hadisəsindən çox incidiyini bildirdi və o həzrətlərin sözlərinə və dövlət ərkanının əfv və bağışlama barədə vədlərinə etimad göstərmədi. Nəhayət, möhürdar Şahrux xan Zülqədər və Fars [vilayətinin] hakimi Ümmət xan bütün zülqədər tayfası ilə birlikdə ona zamin duraraq, əşrəfin və Nəvvabi-Cahanbaninin hüzurunda Mürşüdqulu xanın zəlalətinin və təqsirinin əfv olunmasını xahiş etdilər və razılıq aldıqdan sonra Şahrux xan qalaya gedib, Mürşüdqulu xanla görüşdü.

Mühasirədəkilər qalanı müdafiə etməkdən təngə gəldikləri üçün vaxtın məsləhətinə əməl edərək, barışıq və anlaşma qapılarını açıb, dava-dalaş qapılarını bağladılar. Təkrar gediş-gəlişdən sonra Mirzə Salman, əmirlər və əyanlar da qala civarında Mürşüdqulu xanla görüşdülər və o, İsgəndər şanlı nəvvaba və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzəyə] sədaqət göstərmək və qulamlıq etmək

[1008] Burada söhbət 1583-cü ilin Novruz bayramından gedir.

barədə əhdü-peymanını təzələdi, bunu öz andı ilə möhkəmləndirdi. Qərara alındı ki, şanlı ordu qala ətəyindən köç etsin və bir neçə gün ona möhlət versinlər ki, peşkəş toplayıb, ulu dərgaha gəlsin. O vaxta qədər isə o, anlaşmaya əsasən, öz qohumlarından və ağsaqqallarından bir neçə nəfəri Mirzə Salman və əmirlərlə bərabər ali taxtın ətəyinə göndərdi ki, onun təqsirinin əfv olunmasını xahiş etsinlər. Onun göndərdiyi şəxslər əmirlərin və sülhyaradanların vasitəsilə şərəfli hökmdara və Nəvvabi-Cahanbaniyə səcdə etmək şərəfinə nail olub, öz məramlarına yetərək, geri qayıtdılar. Digər tərəfdən Mürşüdqulu xanın adına onun zəlalətinin əfv olunması və sözügedən şəxsin atası olan, İsgəndər şanlı nəvvabın və onun səadətli möhtərəm oğlunun lələsi vəzifəsini tutmuş Şahqulu sultan Yeganın neçə illik xidmət hüququnun xatırlanması barədə bir hökmdar fərmanı yazıldı. Həmin fərman iftixarlı xələtlərlə birlikdə [Mürşüdqulu xana] göndərildi. Bundan sonra [şah qoşunları] qala ətəyindən köç edərək, darüssəltənə Heratla müqəddəs və ulu Məşhəd arasındakı yolda yerləşən münasib bir yerdə cah-calalla düşərgə salıb, Mürşüdqulu xanın gəlişini gözləməyə başladılar. Lakin elə bu vaxt gözlənilmədən Herat üzərinə yürüş baş verdi.

## HÖKMDAR MƏİYYƏTİNİN DARÜSSƏLTƏNƏ HERAT ÜZƏRİNƏ GETMƏYİNİN XATIRLANMASI, İRAQ VƏ XORASAN QOŞUNLARI ARASINDA QURYANDA BAŞ VERMİŞ DÖYÜŞÜN VƏ XORASAN QOŞUNUNUN ALƏMİ YARADAN [ALLAHIN] TƏQDİRİ İLƏ MƏĞLUBİYYƏTƏ UĞRAMASININ BƏYANI

Şanlı ordu qala ətrafından köç edib Heratla müqəddəs Məşhəd arasında dayandığı zaman Xoca İxtiyar Münşinin qohumlarından olan Xoca Əbdülmömin Herəvi darüssəltənə Hcratdan gələrək xəbər gətirdi ki, gözəl Herat şəhərində olan Əliqulu xan və onun tabeçiliyindəki əmirlər cahan şahzadəsinin, yəni Allahın kölgəsi olan əlahəzrət şahın müqəddəs üzəngisi həndəvərində şəhərdən çıxıb, Quryanda düşərgə salmışlar. Ona onların qoşununun keyfiyyəti və kəmiyyəti barədə sual verdilər. O, onların sayının yeddi-səkkiz min nəfərdən artıq olmadığını bildirdi. Mirzə Salmanı və əmirləri təəccüb bürüdü ki, axı bu qədər az saylı adam onlardan on dəfə çox olan qələbə nişanlı əsgərlərin üzərinə nə cür gələ bilərlər və Mürşüdqulu xana nə kömək göstərə bilərlər? Sözügedən Xoca [Əbdülmömin] izhar etdi:

- Onların bu hərəkətinin məqsədi budur ki, hökmdar məiyyəti onlarla döyüşmək üçün Türbət qalası ətrafından köç etsin və Mürşüdqulu xan mühasirə sıxıntısından xilas olsun. Onlar istəyirdilər ki, padşahın səadətli məiyyəti Quryana yaxınlaşdıqda oradan köç edib, özlərini Herat qalasına yetirsinlər. Aydındır ki, əgər Türbət qalası altı aya fəth olunmayıbsa, dünyanın məşhur qalalarından biri olan Herat qalasının alınması bir il ərzində müyəssər olmayacaqdır. Həm də rumilərin istilası və Azərbaycan sərhədindəki böyük təhlükələr üzündən İraq qoşununun

Xorasanda [uzun müddət] qalmaq imkanı yoxdur. Buna görə də onlar düşünürlər ki, bu məsələ zərurət üzündən özlərinin istədikləri şəkildə həll olunacaqdır. Bu tədbir aqillərin nəzərincə bəyənilmiş bir tədbirdir.

Amma ilahi qəzavü-qədər onlara zidd olduğu üçün hadisələr başqa cür cərəyan etdi. Bu əhvalatın təfsilatı belədir ki, Mirzə Salman və Nəvvabi-Cahanbaninin tərəfdarları, xüsusilə də Vəli xəlifənin qətli üstündə Əliqulu xanla düşmənçilik edən İsmayılqulu xan və o təbəqənin əyanlarından biri, şamlu və ustaclu tayfaları ilə köhnə ədavətə malik olan Vəli xan Təkəlü Abbas tərəfdarı olan əmirlərin vəziyyəti ilə tanış olduqdan sonra düşündülər ki, Əliqulu xan hələ müzəffər ordunun Türbət qalası ətrafından köç etməsindən xəbərdar olmadığı üçün öz hərəkət yüyənlərini Quryana tərəf çevirib, sürətli yürüş edərək, özlərini onlara yetirsinlər və bəlkə, o həzrətin (Abbasın) müqəddəs zatını və Əliqulu xanı ələ keçirsinlər. Ehtimal vardı ki, [şah ordusunun] Türbət qalası ətrafını tərk etməsi xəbəri Əliqulu xana çatarsa, o, onların Herata doğru gələcəyini güman edib, özünü Herata çatdırar və [Herat] qalasını müdafiə etməyə hazırlıq görər. Buna görə də həmin şəxslər dərhal bu məsələni Nəvvabi-Cahanbaniyə bildirib təkid etdilər ki, elə həmin gün öz adlı-sanlı atası ilə birlikdə «üğar» etmək qərarı versin və bir an belə bu işin təxirə salınmasına yol verilməsin. Nəvvabi-Cahanbani əmirlərin yığıncağında bu niyyəti İsgəndər şanlı nəvvaba izhar etdi və «ilğar»a hazırlaşdılar. Əmirlər və dövlət ərkanı iftiracıların qorxusundan buna mane olmaqdan çəkinib, razılıq əlaməti olaraq başlarını tərpətdilər. Həmin məclisdə Vəli xan Təkəlü türkman, təkəlü və s. tayfaların bir sıra əmirləri ilə birlikdə çərxçi təyin olundu. Bu xəbər orduda yayıldı. Əsgərlər sürətli yürüşün zəruri hazırlıqlarını yerinə yetirdilər. Qoşun dəryası Bəhri-Əxzər[1009] kimi dalğalanmağa başladı. Böyük əmirlər istər-istəməz İsgəndər şanlı nəvvabın və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] şərəfli üzəngisi həndəvərində yola üz qoyub, ta Tirpül kənarınadək səhər-axşam dincəlməyin nə olduğunu bilmədilər və həmin uzaq məsafəni üç gecə-gündüz ərzində qət etdilər. Dördüncü günün sübhündə hələ hava açılmamış müzəffər qoşunun qaravulları Tirpül kənarına çatdılar. Əliqulu xanın ordusunun qaravulları bundan agah olub, qoşunun gəlişi xəbərini çatdırdılar. Əliqulu xan əvvəlcə bu xəbəri yalan hesab etdi. Çünki o, İraq qoşununun Türbət qalası ətrafında olduğunu güman edirdi və oradan Tirpül kənarına qədər uzaq məsafə vardı.

***İraq və Xorasan qoşunlarının Quryanda baş vermiş döyüşü və xorasanlıların məğlubiyyəti.*** Amma, elə ki alatoranlıq sübh işıqlı səhərlə əvəzləndi və Tirpül kənarında qoşunun keçidinin səs-küyü qalxdı, Əliqulu xan və ona yoldaş olan əmirlər atlanaraq, çərxçi təyin etdilər, sağ və sol cinahları tərtib edib, döyüşə və vuruşa hazır oldular və öz ordugahlarını köçürüb, arxa tərəfdə yerləşdirdilər. Bu tərəfdən müzəffər qoşunun bəzisi körpü üzərindən, bəzi digərləri isə sudan

---

[1009] Bəhri-Əxzər (ərəbcə «yaşıl dəniz» deməkdir) - klassik müsəlman coğrafiyaşünaslarının Atlantik okeanına verdikləri ad (bax: A.Quliyev. Azərbaycanın görkəmli səyyah və alimi Hacı Zeynalabdin Şirvani. Bakı, 1964, s.62).

keçməklə bu taya gəldilər. Hər iki tərəfin mübarizləri bir-birlərinə yaxınlaşdılar və döyüş mərəkəsi qızışdı. Şamlu tayfası və onların tərəfdarları dərhal müdafiəyə məşğul olub, igidlik nümunələri göstərdilər və İraq qoşununun xorasanlılardan on dəfə çox olmasına baxmayaraq, ayaqlarını yerə möhkəm basıb, mərdanə səylər nümayiş etdirdilər. Amma İsgəndər şanlı nəvvabın iqbal ulduzu və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] xoşbəxtlik çətiri hazırlıqlı qoşunlarla birlikdə göründükdən və Əliqulu xanla onun əsgərlərinin gözü o saysız-hesabsız qoşuna sataşdıqdan sonra onların əlləri işdən üzüldü, işləri isə əldən çıxmış oldu. Mübarizlərin hücumundan və əsgərlərin izdihamından [Əliqulu xanın] ordusunun səfləri viran oldu. Onlar məğlubiyyətə uğrayaraq, pərakəndəlik vadisinə üz qoydular. Qızılbaş qaziləri bir-birlərinə çatdıqda qızılbaş təəssübkeşliyi baxımından bir-birlərini öldürməyə elə də səy göstərmirdilər.

Amma digər oymaqlardan fərqli olaraq, təkəlü tayfası şamlu və ustaclu tayfalarına qılınc vurub, o tayfalardan bir çoxlarını intiqam qılıncından keçirdilər və onların ordugahı qarətə və taraca məruz qaldı. Türkmanlarla təkəlülər özlərini onların mallarına və əşyalarına yetirdikdən sonra təqibdən bir qədər əl çəkib, qarətçiliklə və yağmalamaqla məşğul oldular. İsgəndər şanlı nəvvabla Nəvvabi-Cahanbani döyüş meydanına çatdılar və havanın hərarəti və sürətli yürüşün məşəqqəti ucbatından piyadaların və süvarilərin taqətinin qalmadığını, atların yorulub əldən düşdüklərini nəzərə alaraq, elə həmin yerdəcə düşərgə qurdular. O gecə Mürtəzaqulu xanı və bir sıra əmirləri darüssəltənə Herata göndərdilər ki, özlərini şəhərə yetirsinlər və şəhəri zəbt edib, cah-calallı bayraqların gəlişini gözləsinlər.

Amma Əliqulu xan məğlubiyyətdən sonra fələk ehtişamlı şahzadədən, yəni əlahəzrət [Abbasdan] ayrı düşərək, digər bir yolla çıxıb getmişdi. Əlahəzrət (Abbas) isə ondan öncə başqa bir yolla Herata üz qoymuşdu. O həzrətin müqəddəs üzəngisi həndəvərində olan əksər mötəbər əmirlər ölüm şərbətini içərək, canlarını o qaniçən dəhşətdən xilas edə bilmədilər. Onların böyüklərindən və mötəbərlərindən bir neçə nəfər o döyüşdə qətlə yetirildilər: Ağzıvar xanın oğlu Əbülfəth xan Şamlu, Qubad xan Qacar, «Kutval» ləqəbi ilə məşhur olan Hacı sultan Cağatay, qələm əhlindən əvvəllər Sultan Hüseyn xanın vəziri olmuş, həmin vaxt isə əlahəzrət [Abbasın] vəziri olan Mirzə Məhəmməd Kirmani. Əsir tutulanların arasında isə Mürşüdqulu xanın qardaşı İbrahim xan, Xoşxəbər xan, Xoca Əlixan Kələntər və başqaları vardı. Mirzə Salman əmirlərin razılığının ziddinə olaraq, əsir düşmüş əmirzadələrdən bir çoxlarının qətlə yetirilməsində israr edib, bu işi təxirə salmadan icra etdirdi. Əmirlər [Əliqulu xanın] qoşununa qatılıb əsir düşmüş hansısa bir qohumlarının öldürülməməsini xahiş etdilərsə də, o, əmirlərin bu istəklərinə baxmayaraq, qətl hökmü verdi və bu səbəbdən yenidən Mirzə Salmanla əmirlər arasında nifaq baş qaldırdı.

Beləliklə, adlı-sanlı sahibqıran və fələk iqtidarlı şahzadə cənabları, yəni əlahəzrət (Abbas) canından keçən neçə nəfər fədailərlə birlikdə Herata doğru üz

tutdu. Yaşının azlığına və kiçikliyinə baxmayaraq, Allahın ona bəxş etdiyi ağlın dəlaləti ilə sədaqətsizliyindən şübhələndiyi adamlardan ayrı düşüb, nifaq sahiblərini özündən uzaq etdi. O həzrətin dövlət və iqbalının fərmanı «[ey mülkün sahibi olan Allahım], sən mülkü dilədiyin şəxsə verərsən» [ayəsinin][1010] parlaq tuğrası ilə bəzənmiş və zinətlənmiş olduğu üçün heç gecənin yarısı olmamış salamatlıqla Herat qalasına daxil oldu. Qalanı qorumaq üçün şəhərdə qalmış şamlu fədailərindən ibarət bir dəstə vardı. Onlar əlahəzrətin gəlişindən sevinc və şadlıq izhar edib, onun şərəfli zatının salamat olmasına görə şükür etdilər. Əliqulu xandan ayrı düşdüyü üçün o həzrətin şərəfli xatiri sakitlik tapmırdı və aydın deyildi ki, onun başına nə gəlmişdir. Tamam ürək nigaranlığı içində onun intizar gözləri yolda qalmışdı. Lakin həmin gecə qala darvazalarının gözətçiləri [Əliqulu] xan cənablarının gəlişinin müjdəsini çatdırdılar. Bu, böyük bir sevincə və xoşhallığa səbəb oldu. Xan cənabları şəhərə çatıb, [Abbasın] hüzuruna gəldi və onun şərəfli zatının salamatlığı üçün Allaha şükür səcdələri edərək, fərəhini və sevincini izhar elədi. Xoca Əfzəl və döyüşdən qaçanlardan ibarət böyük bir dəstə Herata toplaşıb, bürcləri və darvazaları möhkəmlətməyə çalışdılar və qalanı müdafiə etmək üçün hazırlıq görməyə başladılar.

O gecə əlahəzrət [Abbasın] və [Əliqulu] xan cənablarının gəlişindən sonra Mürtəzaqulu xan Pornak və İsmayılqulu xan Şamlu ilə birlikdə darüssəltənə Herata yollanmış digər əmirlər və qoşunlar «ilğar» edərək, gec saatlarda darüssəltənə Herata çatıb, mərhum padşah Sultan Hüseyn mirzənin mədrəsəsində yerləşdilər. Yol getməyin və «ilğar»ın sürəkliliyi üzündən onların atları əldən düşmüş, nə atlılarda, nə də atlarda yol getmək və hərəkət etmək qüvvəsi qalmamışdı. Buna görə də onlar həmin gecə [Sultan Hüseyn] mirzənin mədrəsəsində istirahət etdilər ki, sübh çağı qalaya daxil olsunlar. Lakin onlar sübh vaxtı qalaya daxil olmaq istəyəndə qapıların bağlı, bürclərin isə [Əliqulu xanın əsgərləri tərəfindən] möhkəmləndirilmiş və tutulmuş olduğunu gördülər. Məsələnin həqiqəti İsgəndər şanlı nəvvaba və əmirlərə ərz olunduqda onlar Mürtəzaqulu xana və onun yoldaşlarına qarşı etiraz etdilər ki, nə üçün həmin gecə şahzadə (Abbas) cənabları gəlməzdən öncə siz yuxunu özünüzə haram edib qalaya daxil olmamışsınız? Lakin, əslində həmin vaxt bu işi həyata keçirmək onların taqətinin fövqündə idi və onların hərəkət etməyə təpərləri qalmamışdı. Çünki onların atlarının əksəriyyəti bir neçə günlük «ilğar»dan, döyüş meydanında ora-bura qaçmaqdan və havanın istiliyi və hərarəti ucbatından əldən düşərək, nə «ilğar» etmək, nə də yol getmək qüdrətinə malik deyildilər. Belə bir şəraitdə onların bir gecədə Quryandan Herata çatması necə mümkün ola bilərdi?!

Beləliklə, şanlı ordu onların ardınca köç edib, sözügedən darüssəltənəyə çatdı. [Sultan Hüseyn] mirzənin mədrəsəsi şahın, Nəvvabi-Cahanbaninin və onun şəxsi büyutatının dövlətxanası təyin olundu. Mirzə Salman dövlətxana civarında

[1010] "Qurani-Kərim", "Ali-İmran" surəsi, 26-cı ayə.

özünə mənzil seçdi. Hər tayfanın böyük əmirləri öz tabeçilərindən ibarət bir dəstə ilə hərəsi bir darvazanın qarşısına gedib, orada qərar tutdular və Herat şəhərini mühasirəyə aldılar. Mirzə Salman Herat qalasının zəbt olunması yönündə tamam cidd-cəhd göstərirdi və əmirlərə qarşı danlaq və məzəmmət dilini uzadaraq, onları Nəvvabi-Cahanbaniyə qarşı nifaq və ixtilaf mövqeyi tutmaqda ittiham edirdi. Nəhayət, əmirlər onun əlindən və dilindən cana gəlib, onu qətlə yetirmək barədə öz aralarında razılığa gəldilər. Beləliklə, o, bir neçə günlük iqtidar və böyüklük naminə başını qurban verib, həmin günlərdə əmirlərin əlində qətlə yetirildi.

## MİRZƏ SALMANIN ÖLDÜRÜLMƏSİ, ƏLİQULU XANLA SÜLH BAĞLANMASI VƏ ZƏFƏR NİŞANƏLİ ORDUNUN ƏBƏDİ BÜNÖVRƏLİ SƏLTƏNƏTİN MƏRKƏZİNƏ QAYITMASI HAQQINDA

Mirzə Salman öz qızını Nəvvabi-Cahanbaniyə ərə verdikdən sonra Təbriz hadisələri, vəzir Hüseyn bəyin və onun bacısının qətlə yetirilməsi və dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] xoşuna gəlməyən digər hadisələr səbəbindən Nəvvabi-Cahanbaninin ona pis münasibət bəslədiyi gümanından xilas olmuşdu. Onun böyük oğlu Mirzə Abdulla Nəvvabi-Cahanbaninin vəziri, kiçik oğlu Mirzə Nizaməddin isə müqərrəbül-həzrət olmuş, şahzadə ilə oturub-durmağa başlamışdı. [Mirzə Salman] özünü Nəvvabi-Cahanbaninin fədailərindən sayır və ona tərəfdar və havadar olmaqda digərlərindən daha artıq çalışırdı. O, həmişə əmirlərin və qüdrətli dövlətin dayağı olan şəxslərin arasındakı böyükləri, xüsusilə də Qulu bəy Qorçubaşını, Şahrux xan Möhürdarı və Məhəmməd xan Türkmanı təqsirdə, nifaqda və ixtilafda ittiham edirdi və Nəvvabi-Cahanbaniyə təlqin edirdi ki, bu üç tədbirli şəxsin həyatda olduğu müddətdə Nəvvabi-Cahanbaninin gülüstanının təravəti və rövnəqi olmayacaqdır. Bəzən o, məclisdə kinayə ilə bu mövzuda danışardı və özünü tərifləyərdi. Ordudakı araqarışdıranlar, xüsusilə də iddia sahibi olan taciklər əmirlərlə xəlvətcə söhbət edərək, bu məsələni onlara çatdırmışdılar.

Quryan qələbəsindən sonra [Mirzə Salman] ağlın ipini əldən buraxıb, əmirlərə hökm verirdi və onları açıq-aşkar nifaqda ittiham edirdi. Əmirlər narahat olurdular ki, tezliklə onun sözləri Nəvvabi-Cahanbaniyə təsir edib, onlara qarşı mənfi münasibət yaradacaqdır. Onlar Mirzə Salmanı bu işin hərəkətvericisi hesab edərək, onu aradan qaldırmağı qərarlaşdırdılar və fürsət gözləməyə başladılar. Bu əsnada Mirzə Salman Gazərgah [adlı yeri][1011] seyr etmək həvəsinə düşüb, yüksək səviyyəli bir ziyafət qurmaq üçün oraya ləvazimatlar göndərdi və ulu ordunun nədimlərindən, mütrüblərindən, müsahiblərindən və təb əhli olan şəxslərindən (şairlərdən) ibarət bir dəstəni dəvət etdi ki, vəd olunan gün şahanə bir ziyafət təşkil edərək, onlarla söhbətləşsin. Böyük əmirlər ordunun cahilləri və dəliqanlıları

[1011] Gazərgah - Heratın şəhərətrafı rayonu.

sırasında olan öz oğullarına və qardaşı oğullarına qərar verdilər ki, Mirzə Salman Gazərgaha gedən kimi oraya gedib, onun işini bitirsinlər. Vədələşdirilən gün Mirzə Salman öz dəstəsi və qoşunu ilə atlanıb, Gazərgaha yollandı. Əmirlərin təyin etdiyi adamlar qorçubaşının oğlu Yusif xanın, Məhəmməd xanın oğlu Vəlican xanın, Şahrux xanın qardaşı oğlu Xəlil sultanın və s. bu kimi şəxslərin başçılığı altında çoxsaylı bir dəstə ilə digər bir yoldan irəliləyib, onu qətlə yetirməyə tələsdilər.

Bir nəfər Gazərgah ətrafına gəlib, Mirzə Salmanı bu məsələdən agah etdi. O, dərhal yüyənini çevirib, böyük bir iztirab içərisində şəhərə üz qoydu. Onun yanında olan mülazimlərindən bir çoxları pərən-pərən düşərək qaçmağa başladılar. Böyük əmirzadələr Gazərgaha çataraq, Mirzə Salmanın geri qayıtmasından agah oldular və bir dəstəni göndərdilər ki, əgər yolda ona rast gəlsələr, onun işini bitirsinlər, əks təqdirdə isə bu məsələni həll etməyi başqa bir vaxta saxlasınlar. Lakin onların göndərdiyi dəstə ona çata bilmədi və Mirzə Salman dolama yolla dövlətxanaya gedib, İsgəndər şanlı nəvvabın və Nəvvabi-Cahanbaninin hüzuruna yetərək, onları əmirlərin sui-qəsdindən xəbərdar etdi. Şah cənabları əmirlərin öz hüzuruna gəlməsini əmr etdi. Bütün əmirlər və dövlət ərkanı cəmləşdikdən sonra [şah] əmirlərdən sual etdi:

- Səbəb nədir ki, bizim vəzirimiz və etimadlı şəxsimiz olan Mirzə Salmana qarşı belə bir mövqe tutmusunuz?

Əmirlər əvvəlcə inkar edib dedilər:

- Bizim ondan şikayətimiz yoxdur. Əgər qızılbaş cahilləri və lotuları ona qarşı ədəbsizcəsinə davranıblarsa, biz özümüzü onlara yetirib, bu fəsadın rəğbətləndiriciləri olan kəsləri cəzalandırarıq.

Bu əsnada [Mirzə Salmana qəsd etməyə cəhd göstərmiş] həmin camaat [Sultan Hüseyn] mirzə mədrəsəsində toplaşıb, böyük bir qalmaqal və hay-küy saldılar və içəriyə adam göndərib bildirdilər:

- Mirzə Salman dövləti xarab edən və qızılbaşlara düşmən olan bir kimsədir. Qızılbaşlar arasındakı ixtilaf və düşmənçiliyin səbəbkarı odur. Xorasan əmirlərinin üsyan və tüğyanı məhz onun bəd rəftarından qaynaqlanmışdır. Nə qədər ki o, dəf edilməmişdir, bu ikitirəlik qızılbaşların arasından yox olub getməyəcəkdir.

İş bu yerə çatdıqda böyük əmirlər də bu mövzuda bir qədər danışdılar və bunları ərz etdilər:

-Mirzə Salman bir tacik kişidir; hesab və divan işlərinin icrasından savayı, ondan başqa heç nə təvəqqe olunmurdu. Ordu və qoşun toplayaraq özbaşına surətdə səltənət işlərinə müdaxilə edib fitnə-fəsada bais olmaq onun işi deyildi. İndi ki, qızılbaşlar işin üzərindən pərdəni götürərək, ona qarşı belə bir məqama gəlmişlər, görüləcək işlərin əvvəlincisi odur ki, o, vəzirlik mənsəbindən əl çəkib, [dövlət] işlərini tərk etsin.

Sözügedən şəxs ağıllı adam idi və bilirdi ki, bu işi düzüb-qoşan əmirlər onun qətlindən savayı heç nəyə razı olmayacaqlar. Amma bu məsələnin şahın və

şahzadənin hüzurunda danışıldığını nəzərə alaraq ona ümid etdi ki, heç olmasa onun həyatına son qoymazlar və razı oldu ki, onu həbs edib, bir yerdə saxlasınlar.

Belə olduqda böyük əmirlər padşahın dövlətinə dua deyib qalxdılar və əmirlərdən birini bir dəstə ilə birlikdə təyin etdilər ki, bu gecə Mirzə Salmanın keşiyini çəksin, sabah isə onun barəsində xoşbəxt və şərəfli hökmdar tərəfindən hər nə hökm olunarsa, icra etsinlər. Mirzə Salman Nəvvabi-Cahanbaninin yüksəlişi və iqtidarı üçün səy göstərmişdi, öz zahiri xidmətlərinə görə özünü onun fədailərindən sayırdı və istəyirdi ki, o həzrətin məmləkətdə heç bir şəriki və ortağı olmasın. Buna görə də [Həmzə mirzənin] şərəfli xatirində narahatçılıq meydana gəldi. O, özünün bir etimadlı adamını böyük əmirlərin yanına göndərib, onların fikrindən nə keçdiyini soruşdu. Onlar Allah-taalanın zatına and içib dedilər:

- Bizim sədaqətimizdə və bəndəliyimizdə əsla bir zəiflik meydana gəlməmişdir. Bizim şah və şahzadə cənabları ilə bağladığımız əhdü-peyman daimidir və möhkəmdir. Mirzə Salman isə həmişə ara qarışdıraraq, sizin mübarək xatirinizdə bizim kimi dövlətsevər şəxslər haqqında yanlış təsəvvür yaradırdı. Qızılbaş ağsaqqalları onun vəzirliyinə və iqtidarına razı deyildirlər və onun barəsində [hökmdarın] ali əmri və göstərişi nə olarsa, biz buna müti və itaətkar olacağıq.

***Vəzir Mirzə Salmanın Heratda qətlə yetirilməsi.*** Beləliklə, İsgəndər şanlı nəvvab və dünya sakinlərinin şahzadəsi (Həmzə mirzə) öz şərəfli xatirlərini əmirlərin onlara qarşı hiyləgərlik və nifaq etməyəcəklərindən arxayın saldılar. Əslində, heç onlar özləri də Mirzə Salmandan çox da razı deyildilər. Buna görə də onlar razılıq verdilər ki, onun barəsində əmirlərin istəyinə uyğun rəftar edilsin. Ertəsi gün bütün əmirlər Qulu bəy Qorçubaşının evində toplaşıb, əşrəfin yanına adam göndərdilər və Mirzə Salmanı aparıb, qorçubaşının evində məhbus edərək, onun mallarını və əşyalarını müsadirə etdilər. Onun oğulları olan Mirzə Abdullanı və Mirzə Nizamı da həbs edib, nəzarət altında saxladılar. Bir neçə gün onun var-dövlətini təftiş edib, bu barədə xatircəm olandan sonra, onun əhəmiyyətsiz bir vəziyyətə salınmasına baxmayaraq, onun sağ qalmasının özlərinə qarşı təhlükə törədə biləcəyindən narahat olub, onu qorçuların əllərinə təslim etdilər. Ülyacənab Sultanımın qohumu olan[1012] Yüzbaşı Təhmasibqulu bəy Mosullu Türkman ona ilk yaranı vurdu. Digərləri isə onun işini tamamilə bitirdilər.

«Çox-çox soyuq idi bu gözəl qəsr,
Yerini qızdıran kimi dedilər ki, qalx!»

Sübhanallah! Adəm övladı nəyi özünə xeyir bilirsə, şər nəticə verir və öz əməl bostanında hər nə qədər özü üçün faydalı olan toxumlar səpməyə çalışsa da, axırda qarşısına bəla tikanlığı çıxır, xəta və yanılma güllərini dərməli olur. Eləcə də

[1012] S-129, v.243a; S-297, v.189b.

Mirzə Salman öz dövlət qəsrinin təməlini möhkəmlətmək məqsədi ilə tədbir töküb, Nəvvabi-Cahanbanini özünə kürəkən etsə də, axırda bu qohumluq ucbatından dövlət gəlininə üç təlaq[1013] deyərək, özü öz həyatının kökünün qırılmasına bais oldu. Onun cəsədi böyük bir rüsvayçılıq və zillət içərisində rəzalət torpağı üzərində düşüb qaldı. Axırda sədrlərin və üləmaların təşəbbüsü ilə həmin meyit müqəddəs və ulu Məşhədə aparılıb, [İmam Rzanın] müqəddəs rövzəsində dəfn olundu.

Sözügedən şəxs (Mirzə Salman) Cabiriyyə nəslindən və İsfahanın əyan-əşrəflərindən idi. Onun nəslinin mənşəyi Cabir ibn Abdulla Ənsariyə[1014] gedib çatırdı. Onun həyatının bir hissəsi hələ cənnətməkan şah zamanının vəzirlərinin və qələm sahiblərinin tərcümeyi-halları yazılarkən qələmə alınmışdı. O, həqiqətən də, qabiliyyətinin, istedadının və biliyinin çoxluğuna görə öz həmkarlarından və tay-tuşlarından üstün idi. İsgəndər şanlı nəvvabın zamanında o, uğurlu bəxt ulduzunun müsaidəsi ilə dövlət və iqbal meracına ayaq qoyub, vəzirlərin mərtəbəsindən daha artıq iqtidar və istiqlal əldə etmişdi. Hadisələrdə, vaqiələrdə və əhvalatların baş verməsində nökərlərin, xidmətçilərin, süvarilər dəstəsinin və məiyyətin say çoxluğunun qəzavü-qədər qılıncını dəf edəcəyinə və tale qarşısında sipər rolu oynaya biləcəyinə inanaraq, bu xəyalla ayağını qələm sahibləri dairəsindən kənara çıxarıb, nəfsinə tabe olaraq, əmirlik həvəsinə düşdü, qoşun və ləşkər, təbil və ələm sahibinə[1015] çevrildi və uca şanlı əmirlərə yuxarıdan aşağı baxaraq, özünü onlardan üstün və yüksək tutdu. Axırda yanlış əməllərinin nəticəsində özünü öz ehtiraslarına qurban verdi. O, şairlik və söz ustadlığı sahəsindəki səviyyəsini kamillik dərəcəsinədək yüksəltmişdi. Ali fəhm və fitrətə, yaxşı təbə və düzgün zehnə malik idi. Onun tərəfindən bədahətən söylənən çoxlu məlahətli şeirlər yaradılmışdır. Əksər vaxtlarda vəzirlik işləri ilə məşğul olduğu zaman və ehtiyac sahiblərinin çoxluğu və izdihamı əsnasında əhalinin ərizələrinə nəzmlə cavab yazıb, bədahətən qitə və qəsidələri təb qələmi ilə təfəkkür və düşüncə, deyiliş və məna bəlağətinin və təmtərağının kamalı əsasında bəyan səhifəsi üzərinə qeyd edərdi. Qətlə yetirilməsi ərəfəsindəki günlərdə bir qəzəl demişdi. Həmin qəzəlin məqtəsi belədir:

«Ey gözəllər, istəsəz öldürəsiz Salmanı,
Yaxşısı budur ki, tez alasız ondan canı».

Bu iki-üç beyt də onun şeirlərindəndir və Türbət [qalasının] mühasirəsi zamanı deyilmişdir:

**Beyt**

---

1013 Üç təlaq demək - şəriət qanunlarına görə, kişinin öz arvadını boşamasını bildirir. Burada məcazi mənada işlənmişdir.
1014 Cabir ibn Abdulla Ənsari - Həzrət Əlinin tərəfdarlarından biri.
1015 Təbil və ələm sahibi olmaq böyük əmirlərin rəmzləridir.

«Ürək çırpınmadadır ki, nə zaman yar gələr,
Görəsən, yardan haçan vədeyi-didar gələr?
Bir bəla bu işdən sənə dəysə, bil ki, Salman,
Aşiqin qarşısına daim ahu-zar gələr».

Bu qəzəli Mövlana Möhtəşəm Kaşinin qəzəlinin cavabında çox yaxşı deyibdir. Burada həmin qəzəlin ilk beytləri verilir:

**Qəzəl**

«Yaxşılığın yüyənini acgöz adamlara vermə!
Fitnəkar adamlara ixtiyar vermə!
Lalətək rüxsarın üstünə zülfdən pərdə salma!
Səadət xəzinəsinin açarını ilanın əlinə vermə!»

Sözün qısası, bu hadisənin baş verməsindən sonra böyük əmirlər öz aqibətlərini düşünərək, Nəvvabi-Cahanbanidən xahiş etdilər ki, onların qəlblərinin arxayınlaşması üçün [Mirzə Salmanın] qızını boşasın. Nəvvabi-Cahanbani əmirlərin xahişini yerinə yetirib, [onun qızına] təlaq verməyə razı oldu. [Mirzə Salmanın] mallarından və əmlakından bəziləri ali divana mənsub edildi, bəzi digərləri isə böyük qorçulara paylanıldı.

Əliqulu xanın əmirlərlə sülh bağlaması. [Mirzə Salmanın öldürülməsindən] sonra əmirlər daha bir-iki ay ərzində mühasirə işində zahirən səy və çalışqanlıq göstərdilər. Bu əsnada Azərbaycandan qorxulu xəbərlər gəldi ki, Fərhad paşa adlı birisi Rum sultanı tərəfindən sərdar təyin olunub, Azərbaycana qoşun çəkib və o sərhəddə qətl alovu alışıb. Qüdrətli dövlətin dayağı olan şəxslər bu xəbərdən narahat olub məsləhət gördülər ki, Əliqulu xanla sülh bağlayaraq, öz hərəkət yüyənlərini İraq və Azərbaycan tərəfə yönəltsinlər. Şahrux xan Möhürdar ixtilafın, ikitirəliyin və düşmənçiliyin aradan qaldırılması məqamına gələrək, özü bir dəfə qalanın ətəyinə gedib, Əliqulu xanla görüşdü və sülh söhbətini ortaya atdı. Sözügedən [Əliqulu] xan özü də bu (sülh) işinin həyata keçməsini istəyirdi. Beləliklə, qilü-qaldan sonra tərəflər arasında aşağıdakı qaydalar əsasında sülh bağlandı:

- Əliqulu xan o vaxt on iki yaşı olan böyük oğlu Vəlixan mirzəni [qaladan] bayıra göndərib, onun vasitəsilə əşrəfin hüzuruna itaətkar ruhda yazılmış ərizə göndərsin;
- Həmin ərizədə bildirsin ki, bütün bu fəsadın xəmirinin mayası Mirzə Salman idi və bir halda ki, o, aradan qaldırılmışdır, indi biz əvvəllər olduğu kimi bu dərgahın qulamları və qulamzadələriyik;
- Əliqulu xan keçmiş təqsirlərinə görə üzr istəsin;

• Ədəb-ərkana riayət etmək, Səfəvi sülaləsinin sufilərindən olduğunu sübut etmək və [Abbasın] adlı-sanlı atasının və yüksək məqamlı qardaşı [Həmzə mirzənin] hörmətini saxlamaq baxımından Xorasanda əvvəlki təki səltənət və padşahlıq xütbəsi İsgəndər şanlı nəvvabın adına oxunsun və onun böyük oğlu olan Nəvvabi-Cahanbani vəliəhd sayılsın;

• Xorasan məmləkəti əvvəlki qaydada kainat şahzadəsinə, yəni əlahəzrət [Abbasın] öhdəsinə tapşırılmış olsun və o, layiqli peşkəşlər göndərərək, nə xahişi olarsa, ərz etsin ki, xeyirxahların vasitəsilə [hökmdara] çatdırılsın.

Təkəlü əmirləri, xüsusən də Vəli xan bu işə razı deyildilər. Amma bu sülhün bağlanmasına müxtəlif nəcib fikirli adamlar qarışdıqlarından, onlar o tayfanın ağsaqqalı, əsilzadəsi olan və sağlam nəfsə, sülhpərvər düşüncəyə malik bir kişi olan Müseyib xan Şərəfəddinoğlu Təkəlünü bu sülhün bağlanmasına razı saldılar və o, Vəli xanı inadkarlıqdan və tərslikdən döndərdi. Əliqulu xanla İsmayılqulu xan arasında sonuncunun atası olan Vəli xəlifənin qətli üstündə ziddiyyət və düşmənçilik baş qaldırmış, onun əvəzində Əliqulu xanın atası Sultan Hüseyn xan öldürülmüş, Quryan döyüşündə ifrat dərəcədə qətllər baş vermiş və hər iki tərəfin qohum-əqrəbası olan şamlu tayfasının ovçu («ovci», «avcı») qəbiləsindən çoxlu adamlar qətlə yetirilmişdilər. Bir sözlə, onların inadı və tərsliyi fəsaddan və ziyandan başqa bir nəticə verməmişdi. Bu səbəbdən İsmayılqulu xanı da sülh bağlanmasına razı sala bildilər. Əliqulu xan da bu gedişata tabe olmağı faydalı bilib, [yuxarıda] qeyd olunmuş şərtləri qəbul etdi. Amma xahişini bildirdi ki, onlarla Mürtəzaqulu xan arasında inad və ziddiyyət həddini aşdığından onların arası əsla düzəlməyəcəkdir və buna görə də onu (Mürtəzaqulu xanı) İraqa aparsınlar, müqəddəs və ulu Məşhədin hökumətini isə böyük əmirlər içərisindən dövlətmənd və xeyirxah bir kişiyə bəxş etsinlər.

Xülasə, Şahrux xan sülh yaratmaq meydanına ayaq qoyub, əvvəlcə əmirlərin vəsatəti əsasında əqli dəlillərlə kama yetmiş İsgəndər şanlı nəvvabı və Nəvvabi-Cahanbanini sülh bağlanmasına razı saldı. Onlar səltənət mərkəzinə qayıtmağı və Azərbaycandakı məsələləri nizam-intizama salmağı dövlətin faydası baxımından daha münasib və düzgün hesab etdilər. Şahrux xan onlardan icazə aldıqdan sonra İsmayılqulu xanı özü ilə birlikdə o qalaya aparıb, Əliqulu xanla sülh bağladı. Ertəsi gün Əliqulu xan Nəvvabi-Cahanbaninin hüzuruna öz acizliyinin bəyan edilməsindən, yalvarışlarından və keçmiş xidmətlərinin xatırlanmasından ibarət olan sədaqət ərizələri göndərdi, baş vermiş hadisələrə görə öz üzrxahlığını bildirərək, qüdrətli dövlətin dayağı olan şəxslərin ona qarşı şəfqətsizliyindən, Mirzə Salmanın hegemonluğundan və Mürtəzaqulu xanın pis rəftarından şikayətləndi və sülhün şərtlərini öz andı ilə möhkəmləndirdi. Amma Allahın kölgəsi olan əlahəzrət şahın xilafət və hökmranlığının fərmanı «Biz səni yer üzünün xəlifəsi etdik» ayəsinin[1016] məzmununa əsasən bəzək və zinət tapdığına

---

[1016] «Qurani-Kərim», «Sad» surəsi, 26-cı ayə.

görə qeyd olunmuş şərtlərin heç bir nəticəsi olmadı və o şərtlər quru söz olaraq qaldı.

***Şah Sultan Məhəmmədin Heratdan geri qayıtması.*** Beləliklə, əmirlərin və dövlət ərkanının xahişlərinə əsasən, Əliqulu xanın mətləbləri və iltimasları məramına uyğun qəbul edildi. Ona qiymətli xələtlər bağışlanıldı və o, İsgəndər şanlı nəvvab tərəfindən şərəfli «oğul» ləqəbinə layiq görüldü. Əlahəzrət (Abbas) üçün yüksək məqamlı atası və gözəl bəxtli qardaşı (Həmzə mirzə) tərəfindən hədiyyələr və nadir əşyalar göndərildi. Əliqulu xanın oğlu Vəlixan mirzə Nəvvabi-Cahanbaninin ulu dərgahının mülazimləri silkinə daxil olundu. O ilin Novruz bayramından dörd aya yaxın vaxt ötdükdən sonra[1017] köç təbili vuruldu və [şah qoşunları] darüssəltənə Heratdan köçdülər. Müqəddəs və ulu Məşhəddə cah-calalla dayanaraq, İmam Rzanın - ona və əcdadına salam və mədh olsun - məqbərəsinin mələikələrin sığınacaq tapdıqları astanasını ziyarət etmək şərəfinə feyzyab oldular. Əliqulu xanın istəyinə uyğun olaraq və Mürşüdqulu xanla ustaclu tayfasının könüllərini almaq məqsədi ilə Mürtəzaqulu xanı Məşhəd hakimliyindən uzaqlaşdırıb, o vilayəti Abdulla xanın nəvəsi və sözügedən [ustaclu] tayfasının əsilzadəsi olan Salman xana verdilər. Mürtəzaqulu xan Astarabad əyalətinə təyin olundu və Damğan, Bistam, Biyarcümənd, Ərəb-amiri və Həzarcərib vilayətləri də ona həvalə edildi. Ustaclu [tayfasının] böyüklərindən sayılan və uzaqgörən, təcrübəli bir şəxs olan Şahqulu sultan Qarınca isə Salman xanın lələsi və atalığı təyin edildi və Cam vilayəti ona mənsub olundu.

Xülasə, qüdrətli dövlətin dayağı olan şəxslər Xorasanın və xorasanlıların məsələlərini vaxtın zərurətinə uyğun bir şəkildə həll edib, İraqa sarı üz tutdular. Dövlət və agahlıq büsatının uzaqgörənləri onların geri qayıtmasından belə nəticə çıxardılar ki, Xorasan mülkünün səltənəti yenidən cahan şahzadəsinə, yəni əlahəzrət [Abbasa] məxsus olacaq, tezliklə onun hakimiyyət bayraqları yüksələcək və onun səadət günəşi [Səfəvi] məmləkətlərinin bütün ərazisinin üzərinə düşəcəkdir. Əmirlərdən və Xorasan camaatından o kəslər ki, calal bayraqlarının gəlişi vaxtı İsgəndər şanlı nəvvaba tərəfdarlıqlarını izhar etmişdilər, indi məyus olaraq, öz aqibətlərinin qayğısına qaldılar və öz əməllərini ört-basdır etmək və bəraət qazanmaq fikrinə düşdülər. Həmin vaxt Xorasan əmirlərindən [şaha qarşı] itaət və tabeçilik darvazalarını bağlayıb, müxaliflik qapısını açan ilk şəxs Sevindik bəy Qorçubaşının oğlu Hüseyn bəy Əfşar oldu. O, darülmöminin Səbzəvarın hakimi idi. Hələ hökmdarın məiyyəti Xorasana daxil olub Səbzəvara çatarkən o, «şahısevənlik» izhar edib, ali məiyyəti qarşılamağa tələsmiş və İsgəndər şanlı nəvvab və dünya sakinlərinin şahzadəsi (Həmzə mirzə) ilə görüşüb, Qulu bəy Qorçubaşının səyi nəticəsində əvvəlki kimi Səbzəvar əyalətinə [hakim] təyin olunmuşdu. Lakin bu əsnada o, müxaliflik və üsyan mövqeyi tutaraq, şəhərin və

[1017] Yəni 1583-cü ilin iyul ayında.

qalanın darvazalarını bağladı və tüfəng atmaqla öz qalasını müdafiə etmək məqamında durdu. Nəvvabi-Cahanbani böyük əmirlərə xitab edib buyurdu:

- Biz xeyirxahlıq göstərərək, Xorasan məsələsini barışıq yolu ilə həll etdik. Lakin indi, bir halda ki, Hüseyn bəy kimi birisi sizin padşahınızın üzünə ağ olub qalanı bağlayır və ədəbsizlik əlini uzadaraq hökmdarın ordusuna top və tüfəng atır, artıq səhlənkarlıq yeri deyildir. Özümüzü görməməzliyə vuraraq onu başlı-başına buraxmaq dövlətə layiq və səltənətin namusuna münasib olmaz.

Əfşar tayfasının ağsaqqalı və dövlətin mühüm dayağı olan Qulu bəy Qorçubaşı o səadətsiz bədbəxtin (Hüseyn bəy Əfşarın) məsələsinə zamin durmuş bir şəxs olaraq xəcalət başını aşağı əyib, o həzrətin ürək oxşayan kəlmələrinə tabe oldu və o ağılsız və huşsuzun tənbeh edilməsini və cəzalandırılmasını vaxtın məsləhətincə zəruri olduğunu anlayıb, bu işə razılıq verdi. Nəvvabi-Cahanbani bütün zəfər nişanlı qoşunların adlı-sanlı əmirlərini, xüsusilə də Vəli xanı və təkəlü əmirlərini şəhəri və qalanı zəbt etməyə məmur etdi. Fərman icraçıları buyuruğa əməl edib, elə həmin gün layiqli bir tərzdə şəhər və qala üzərinə hücum çəkdilər. Qala camaatı günəşin qürub etməsinədək müdafiə olunmaqla məşğul oldu. Lakin qürub çağı o qaragünlü bədbəxtlərin talesizlik axşamı oldu. Həmin vaxt onlar dava-dalaşda aciz qaldılar və ali məiyyətin bahadırları böyük səy göstərərək, özlərini qalanın ətəklərinə yetirib, qalanın bürclərinə qalxdılar və sanki yoxuşdan enişə doğru axmaqda olan bir sel kimi gecənin zülmətində şəhərə tökülüşərək, şəhərin iç («ərk») qalasını da istila etdilər.

***Səbzəvar hakimi Hüseyn bəyin qətlə yetirilməsi.*** O təbəqəyə (qala müdafiəçilərinə) talesizlik üz verdi və onlardan bir çoxları fanilik qılıncına qurban getdilər. Hüseyn bəy də iç qalanın qapısında əsir düşdü. Ali üzənginin mülazimlərindən olan səbzəvarlı beldarlardan[1018] biri ona belin sapı ilə elə vurdu ki, hərəkət etməyə qüvvəsi olmadı və bel zərbəsinin təsirindən xəcalət və utanc başını ixtiyarsız olaraq önə əydi. Onun cəzalandırılmasına hökm verildi. Nəzər salanlara ibrət olsun deyə, onu şəhər darvazasından asdılar. Amma o ağılsız və huşsuzun itaətsizliyinin uğursuzluğu və onun pis tədbiri ucbatından o qorxunc gecədə əsgərlər və ordu əhli tərəfindən Səbzəvarın şiə əhalisinin və əyanlarının başına bəlalar gətirildi.

Xülasə, soyğunçuluq, qarət, qırğın və s. bu kimi əməllər bir dəqiqə də olsun səngimək bilmədi. Nəvvabi-Cahanbaninin alovlanmış qəzəb odu söndükdən sonra onun əmirlərə heç bir kəsin Səbzəvar rəiyyətinə və camaatına qarşı təcavüzkarlıq etməməsini tapşırmasına baxmayaraq, gecə düşdükdən sonra hərbçilərin rəiyyətə qarşı hərəkətləri davam etdi. Acizlərə və təbəələrə çoxlu xətər və zərər dəydi. Ertəsi gün rəiyyətin əhvalının qayğısına qalıb, onların mətləblərini və istəklərini həll etməyə çalışdılar və o vilayətin hakimliyini Əhməd sultan Təkəlüyə tapşırdılar. Daha sonra oradan köç edə-edə İraqa yollandılar. Mürtəzaqulu xanı

[1018] Beldar - ordunun tərkibinə daxil olan və hərbi əməliyyatlar zamanı mühəndis-istehkam tədbirlərində fəhləlik edən, qazıntı işlərini həyata keçirən şəxslər.

Damğanda qoydular ki, Astarabad səfərinə hazırlıqlarını sona çatdıraraq, o səmtə yollansın. Hökmdarın məiyyəti bəxtiyarlıq və uğurla darüssəltənə Qəzvinə çatıb, əbədi səltənətin mərkəzində cah-calalla qərar tutdu. Şiraz hakimi Ümmət xan, Kirman hakimi Vəli xan, Həmədan hakimi Vəli xan və Xorasan səfərində iştirak etmiş digər məmləkət əmirləri və hakimləri öz yerlərinə qayıtmaq üçün rüxsət alıb, hər biri öz ölkələrinə getdilər.

Bu ilin hadisələrindən biri də şanlı ordu Xorasanda olan zaman bayat və təkəlü camaatları arasında baş vermiş müharibədir. Bu əhvalatın icmalı belədir ki, Həmədan hakimi olan Vəli xan Təkəlü Xorasan səfərinə yollanmışdı və Bağdad sərhədinin mühafizəsi Kürdüstan və Çəmçal hakimi olan Solağ Hüseyn Təkəlünün öhdəsində qalmışdı. Seyf sultan Bayat da onun yanında xidmət edirdi. Lakin yuxarıda qeyd etdiyimiz qələndərin qiyamından və ələ keçirilməsindən sonra araqarışdıranların fəsadı nəticəsində onların arasında narazılıq və münaqişə yaranmışdı. Hökmdarın Xorasanda qalmasının uzun çəkdiyini və vəziyyətin dolaşıq olması haqqında ardıcıl xəbərlərin gəldiyini görən Seyf sultan Bayat hərəkətə keçmək tamahına düşdü. O qərara aldı ki, həmin sərhəddə qalmış və Xorasana getməmiş Solağ Hüseyni və təkəlü camaatını sıradan çıxarsın və onun ölkəsini ələ keçirsin. Bu məqsədlə o, bayat tayfasından çoxlu qoşun toplayıb, Solağ Hüseynin üstünə getdi. Solağ Hüseyn də təkəlü tayfasını cəmləyib, ona qarşı çıxmağa tələsdi. Bayat camaatı təkəlülərdən çox olmasına baxmayaraq, onların təzyiqinə tab gətirə bilmədi və elə ilk həmlədəcə məğlub olub qaçmağa başladı. Seyf sultan əsir düşdü. Solağ Hüseyn onu qələndər «şah»la eyni zəncirə bağladı. Onunla bir yerdə olmaqdan hiddətlənən qələndər qəflətən onu öz caynağına keçirib, o biri dünyaya göndərdi[1019].

## İSGƏNDƏR ŞANLI NƏVVABIN SƏADƏTLİ MƏİYYƏTİNİN OLMADIĞI ƏYYAMDA AZƏRBAYCANDA BAŞ VERMİŞ HADİSƏLƏR VƏ İRƏVANIN RUMİLƏRİN ƏLİNƏ KEÇMƏSİ HAQQINDA SÖHBƏT

Şüurluluq məclisinin taxtını bəzəyənlərin ürəklərinə gizlin qalmamışdır ki, bundan öncə qeyd olunduğu kimi, sərdar Sinan paşa [yuxarıda] yazıldığı tərzdə sülh məsələsinə qərar vermişdi və bu tərəfdən elçi sifəti ilə Rum məmləkətlərinin hökmdarı Murad xanın hüzuruna göndərilən İbrahim xan Türkmanı[1020] özü ilə götürüb, İstanbula yollanmışdı. Lakin Osman paşa Dərbənddən ərz etdi ki, «Sinan paşa öz qorxaqlığı və ağciyərliyi ucbatından Azərbaycana gəlməyə cürət etmədi. Mən bütün Şirvan vilayətini fəth etmişəm və [bu vilayət] indi Osmanlı əsgərlərinin nəzarəti altındadır. O ki qaldı Sinan paşanın Dərbənd qalasından savayı heç bir yerin rumilərin ixtiyarında olmadığı barədə dediklərinə, bu fikir həqiqətə ziddir. Əgər qızılbaş padşahının Xorasanda olduğu bu ildə başqa bir sərdar təyin olunarsa,

[1019] S-129, v.246a-b; S-297, v.191b-192a.
[1020] Tehran çapında (s.292) Türkman əvəzinə yanlışlıqla Təkəlü yazılmışdır.

həm əlimizə yeni vilayətlər keçər, həm də ki, Şirvan vilayəti qızılbaş basqınından xilas olar». Rum sultanı Sinan paşanı danlaq və məzəmmətə məruz qoyub, ikinci vəzir olan Fərhad paşanı sərdar [təyin] edərək, böyük bir qoşunla bu lərəfə yolladı və İbrahim xanı İstanbulda saxladıb, sülh bağlamaq təklifini qəbul etmək üçün [qızılbaşların qarşısına] şərtlər qoydu: «Hansı yerlərə ki, Osmanlı əsgərləri ayaq basıblar və orada Rum padşahının adına xütbə oxudulubdur, o yerləri Osmanlı sülaləsinin mənsublarının ixtiyarına buraxsınlar və münaqişədən əl çəksinlər. Əgər qızılbaş padşahı bu şərtə razı olmazsa, onda biz sizin məmləkətinizi işğal etməkdən əl çəkməyəcəyik».

İbrahim xanın adamı Xorasanda dövlət taxtının ətəyinə gəlib, onun bu məsələyə dair ərizəsini [Şah Məhəmməd Xudabəndənin] nəzərinə çatdırdı. [İbrahim xan], doğrudan da, dövlətsevərlik üzündən həmin ərizədə belə qeyd etmişdi: «Ağıl belə fitva verir ki, bu işdə inad və tərslik göstərmək dövlətin zərər çəkməsinə səbəb olacaq və axırda çeşidli peşmançılıqlarla nəticələnəcəkdir. Bu gedişlə hər il bir məmləkətimiz əldən gedir. [Osmanlıların irəli sürdükləri] sülh şərti isə dəyişməz olaraq qalır. Belə olan təqdirdə, nə qədər ki, hələ vilayətlərin çoxusu əlimizdədir, tamamilə Osmanlı sülaləsinin əsgərlərinin tabeçiliyi altına keçmiş Şirvan məmləkətini onlara verməklə sülh bağlamaq dövlətimiz üçün nisbətən sərfəli və faydalı olardı».

Lakin özbaşına qızılbaş əmirləri tayfalar, oymaqlar arasında mövcud olan ikitirəliyə, nifaqa və ittifaqsızlığa baxmayaraq, öz tədbirsizlikləri ucbatından bu təklifə razı olmadılar. İbrahim xanın ərizəsinin cavabı bu şəkildə qələmə alındı: «Əgər bundan öncə tərtib olunmuş şərtlər[1021] daxilində sülh bağlanması baş verərsə, qoy olsun. Əks təqdirdə, əzəldən yazılmış tale nədirsə, eləcə də olacaqdır».

Xülasə, Fərhad paşa böyük bir qələbəlik və izdihamla Ərzuruma gəldi və sərhəd qoşunları ilə kürd əşirətlərinin əmirlərini toplayıb, Qars yolu ilə Çuxursəəd üzərinə irəlilədi. Çuxursəəd bəylərbəyisi olan Məhəmmədi xan Toxmaq, Əmir xanı və İmamqulu xanı vəziyyətdən xəbərdar edib, tabeliyindəki əmirləri və o sərhədin camaatını yığaraq, bu hadisəni həll etməyə, tədbir görməyə və dəf etməyə getdi. Sözün qısası, Azərbaycanda və Qarabağda olan qızılbaşların böyük xanları, əmirləri və bəylərbəyiləri o saysız-hesabsız qoşuna qarşı vuruşmağın öz qüvvətləri və qüdrətləri xaricində olduğunu anlayırdılar və İraqdan kömək və yardım gələcəyinə ümidləri yox idi. Buna görə də onlar heç vəchlə bu hadisəni dəf edə bilmədilər və onların heç bir tədbiri baş tutmadı.

Məhəmmədi xan İrəvandan çıxaraq, yanında olan adamlarla birlikdə rumilərin ətrafında və yan-yörəsində şücaət nümunələri göstərib, onlara qarşı basqınlar həyata keçirdi. Amma bunun onlara heç bir təsiri olmadı. Fərhad paşa

[1021] «Bundan öncə tərtib olunmuş şərtlər» dedikdə 1555-ci il Amasya sülh müqaviləsinin şərtləri nəzərdə tutulur.

İrəvana çatıb, bir neçə gün orada qaldı[1022]. O, orada mükəmməl dərəcədə möhkəm, mətanətli və istehkamlı bir qala tərtib etdi, orada ehtiyac duyulduğu qədərincə gözətçi və yeniçəri qoydu, oraya illik azuqə, topxana yarağı və qala müdafiəsinin ləvazimatını yığaraq, geri qayıtdı. Məhəmmədi xan istər-istəməz o məmləkətin hökumətindən əl çəkib, Naxçıvana gəldi, qazilərin arvad-uşaqlarını Əlincəq qalasında yerləşdirdi. Əmir xan və türkman əmirləri bu dəfə də Məhəmmədi xana qətiyyən bir yardım göstərmədilər və onlar darüssəltənə Təbrizin mühafizə edilməsini və qorunmasını daha əhəmiyyətli və vacib bilib, kürdlərin yaxınlıqda olmasını əsas gətirərək, [Təbrizdən] kənara ayaq qoymadılar. Beləliklə, Kiçik Ərməniyyənin («Ərməniyyeyi-suğra») böyük bir hissəsini təşkil edən abad Çuxursəəd vilayəti düşmənin ixtiyarına keçdi[1023]. Həmçinin Şirvan vilayətində də

[1022] Fərhad paşa İrəvan şəhərinə 2 şaban 991 /21 avqust 1583-cü ildə daxil olmuşdu (B.Kütükoğlu. Osmanlı - İran siyasi münasebetleri, s.136).

[1023] Burada Ərməniyyənin xatırlanması anlaşılmazdır və ziddiyyətlidir. Çünki fəslin sərlövhəsindən aydın surətdə görünür ki, söhbət Azərbaycanda baş vermiş hadisələrdən gedir və deməli, Çuxursəəd də Azərbaycana aiddir. Həm də onu qeyd etmək lazımdır ki, «Tarix-i aləmara-yi Abbasi»nin çoxsaylı nüsxələrinin heç də hamısında bu cümlə daxilində Ərməniyyə sözü əksini tapmamışdır. Məsələn, S-297 şifrəli Bakı əlyazmasının bu yerində (v.192b) Ərməniyyənin adı çəkilmir. Tehran nəşrində «Ərməniyyeyi-suğra» («Kiçik Ərməniyyə») yazılsa da, mənbənin Bakı nüsxəsində «Ərməniyyə» əvəzinə «arəmənde» («rahatlıq bəxş edən»), «suğra» əvəzinə isə «həsri» («əhatə olunmuş») sözləri qeyd edilmişdir. Beləliklə, Tehran çapında (s.293) əksini tapmış «Kiçik Ərməniyyənin böyük bir hissəsini təşkil edən abad Çuxursəəd vilayəti» ifadələri əvəzinə, Bakı əlyazmasında «[ərazi-cə] böyük, rahatlıq bəxş edən. [dağlarla] əhatə olunmuş abad Çuxursəəd vilayəti» yazılmışdır. Fikrimizcə, Bakı nüsxəsindəki bu məlumat daha səhihdir. Ümumiyyətlə, İsgəndər bəy Münşi həmişə Çuxursəəddə və İrəvanda baş verən əhvalatlardan bəhs edərkən onları Azərbaycan hadisələri daxilində qeyd edir, İrəvanı Azərbaycan ərazisi kimi göstərir (Tehran çapı, s.75, 292, 296, 305, 1113). Mənbənin bəzi nüsxələrində birinci cildin yalnız bircə yerində, bu cümlə daxilində Ərməniyyə sözünün qeyd edilməsi «Tarix-i aləmara-yi Abbasi»nin bütün üslubu və strukturu ilə təzad təşkil edir. Zənnimizcə, İsgəndər bəy Münşinin öz əsərində qeyd etdiyi «arəmənde» sözü sonralar onun əsərinin üzünü köçürən katiblərin xətası nəticəsində «Ərməniyyə» sözünə çevrilib. Çünki «arəmənde»nin «Ərməniyyə»yə çevrilməsi üçün cəmi bir hərfin yanlış yazılması («d» səsini ifadə edən «dal» hərfinin «y» səsini ifadə edən «yey» hərfi ilə əvəzlənməsi) kifayət edir. Səfəvilər dövrünün inzibati bölgüsündə Ərməniyyə adlı hər hansı bir vilayət və mahal olmamışdır. Mərkəzi İrəvan şəhəri olan Çuxursəəd vilayəti Səfəvilər zamanında Azərbaycan coğrafiyasının ayrılmaz tərkib hissəsi idi. Səfəvilərin dövlət quruluşuna və idarəçilik sisteminə aid ən mötəbər mənbə olan Mirzə Səmianın «Təzkirətül-müluk» əsərində Səfəvi dövlətinin inzibati bölgüsü haqqında məlumat verilərkən ilk növbədə Azərbaycan ölkəsinin adı çəkilir və Azərbaycanın dörd bəylərbəyilikdən ibarət olduğu göstərilir: Təbriz, Çuxursəəd, Qarabağ və Şirvan (Mirzə Səmia. Təzkirətül-müluk, s.72-78; V.F.Minorsky. «Tadhkirat al-muluk», p.39). Məşhur türk səyyahı Evliya Çələbi İrəvanın Azərbaycana aid olduğunu göstərir Fərhad paşa İrəvan şəhərinə 2 şaban 991 /21 avqust 1583-cü ildə daxil olmuşdu (B.Kütükoğlu. Osmanlı - İran siyasi münasebetleri, s.136). XVII əsrin fransız səyyahları Tavernye və Şarden İrəvan əhalisinin «müsəlmanlardan» və «təmiz qanlı Səfəvilərdən» (yəni azərbaycanlılardan) ibarət olduğunu etiraf etmişlər. 1720-1725-ci illər arasında Səfəvilər dövlətində olmuş polşalı səyyah Y.T.Kruşinski İrəvanın Azərbaycan ərazisi olduğunu göstərmişdir (Y.T.Kruşinski. Xristian səyyahın tarixi. Farscadan tərcümə edəni və çapa hazırlayanı: Şahin Fazil. Bakı, 1993 s.19). Rus zabiti S.D.Burnaşev Azərbaycan vilayətlərinin təsviri haqqında 1783-cü ildə Tiflisdə qələmə aldığı əsərdə İrəvan xanlığını Azərbaycan vilayətlərindən biri hesab etmişdir (Описание областей Адребижанских в Персии и их политического состояния сделанное пребывающим при его Высочестве Царя Картлинском и Кахетинском Ираклии Темуразовиче,

qızılbaş əmirlərindən heç kimsə qalmağa macal tapmamışdı və o vilayətin də hamısı rumilərin işğalı altına düşmüşdü.

Bu ilin hadisələrindən biri də odur ki, Əmir xan Türkmanın möhtərəm hərəmi olan cənnətməkan şahın qızı Fatimə-sultan bəyim Təbrizdə əlil və xəstə olub, axırda öz həyat vədəsini əcəl zərurətinə tapşırdı. Onun cəsədini darülirşad Ərdəbilə aparıb, öz ali dərəcəli əcdadlarının pak rövzəsində dəfn etdilər. [Onun ölümü] Əmir xanın könlünün pərişan olmasına səbəb oldu.

## İSGƏNDƏR ŞANLI NƏVVABIN SƏADƏTLİ MƏİYYƏTİNİN ÇIXIB GETMƏSİNDƏN SONRA XORASANDA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Bundan öncə hadisələri yazan qələmlə xəbər səhifələri üzərinə qeyd olundu ki, Əliqulu xanın xahişinə əsasən və Mürşüdqulu xanla Xorasan əmirlərinin könlünü almaq məqsədi ilə Mürtəzaqulu xan müqəddəs və ulu Məşhədin hökumətindən uzaqlaşdırılmış və o vilayətin hakimliyi Abdulla xanın nəvəsi, cənnətməkan şahın bacısı oğlu və Şahəli mirzənin övladı olan Salman xana həvalə edilmişdi. [Salman xan] ustaclu tayfasının əsilzadəsi idi və bu [Səfəvi] sülaləsi ilə qohum olmaq şərəfinə nail olmuşdu. O tayfanın böyüklərindən olan Şahqulu sultan Qarınca isə onun lələsi və atalığı təyin olunmuş, Cam vilayəti ona verilmiş və qərarlaşdırılmışdı ki, o, həmişə müqəddəs Məşhəddə Salman xanla bir yerdə olsun, əhvalatların baş verməsi və hadisələrin törənməsi zamanı sözügedən şəxs (Şahqulu sultan) onun üçün (Salman xan üçün) tədbir görsün.

İsgəndər şanlı nəvvabın məiyyəti Xorasandan İraqa qayıtdıqdan sonra Mürşüdqulu xan Mürtəzaqulu xanın getməsindən və Salman xanın qalmasından sevinc və şadlıq izhar edib, xofsuz və qorxusuz bir şəkildə müqəddəs və ulu Məşhədə getmək və cinlərlə insanların imamı olan həzrətin (İmam Rzanın) behişt rahatlığına malik rövzəsini ziyarət etmək şərəfinə nail olmaq iradəsi nümayiş etdirdi. O, sədaqətdən və yekdillikdən dom vuraraq, Salman xana belə bir xəbər göndərdi: «Bu müddət ərzində Mürtəzaqulu xanın və türkman tayfasının düşmənçiliyinin və inadkarlığının uğursuzluğu səbəbindən himmət sahibi olan imamın mələikələrin sığınacaq tapdığı astanasını ziyarət etmək səadətindən

---

Полковником и Кавалером Бурнашевым в Тифлисе в 1786 г. Курск, 1793, с.17-19). Məşhur azərbaycanlı coğrafiyaşünas və səyyah Hacı Zeynalabidin Şirvani (1780-1838) İrəvan və Çuxursəədin «Azərbaycana aid olduğunu» və «oranın əhalisinin türkdilli və şiə məzhəbli olduqlarını» yazır (H.Z.Şirvani. Bustanüs-səyahət. Tehran, 1315, s.124). Çar Rusiyasına aid arxiv sənədləri İrəvan xanlığının Rusiyaya birləşdirilməsi zamanı oranın əhalisinin 73,8 %-ni müsəlman türklərin təşkil etdiyini bildirirlər (Azərbaycan tarixi üzrə qaynaqlar. S.Əliyarov və Y.Mahmudovun redaktəsi ilə, Bakı, 1989, s.299). Beləliklə, dövrün tarixi qaynaqları İrəvan şəhəri mərkəz olmaqla Çuxursəəd vilayətinin Azərbaycan anlayışına daxil olduğunu və oranın əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu göstərirlər.

məhrum idik. İndi Allaha həmd və şükür olsun ki, Xorasan məsələləri dostlarımızın ürəklərinin istəyinə uyğun tərzdə yoluna qoyuldu. Bu xeyirxah və sədaqətli şəxs (Mürşüdqulu xan) indiyədək İsmayıl mirzə zamanında baş vermiş hadisələr ucbatından payimal olmuş və rəqiblər tərəfindən məğlub edilmiş ustaclu elinin və əşirətinin vəziyyətini, izzətini və etibarını qorumaq üçün şamlu elindən olan Əliqulu xana itaət və tabeçilik göstərirdim və onun üzəngisindən yapışmışdım. Lakin indi bir halda ki, sizin timsalınızda bütün ustaclu tayfasının köhnə ağalarından olmuş bir şəxsin oğlu buradadır, biz sizin qulluğunuzda durmağı özümüzə iftixar və etibar sərmayəsi hesab edirik və sizə nökərçilik və xidmətçilik etmək niyyətindəyik. Sizinlə görüşmək istəyirəm ki, elimizin və oymağımızın asudəliyinə səbəb ola biləcək hər barədə nə fikriniz və məsləhətiniz olarsa, onlara əməl edim».

Salman xan hələ o mülkdə öz mövqeyini möhkəmləndirməmişdi və onun qoşunu və ləşkəri tərtibə düşməmişdi. Onun yanında olan azsaylı dəstənin üzvləri isə pərakəndə və səriştəsiz adamlar idilər. O, Mürşüdqulu xana və onun yalançı sözlərinə inam və etimad boslo-mirdi və onun gəlişinə razı deyildi. Lakin şəraiti götür-qoy edərək, nə onun əleyhinə bir söz deyə bildi, nə ona mane olmağı qüdrəti çat-dı. Ağıllı adamlardan və köhnə hərbçilərdən biri olan Şahqulu sul-tan Qannca isə həmin vaxt Cam səmtinə getmişdi və Məşhəddə de-yildi ki, bu məsələ barədə doğru bir çıxış yolu fikirləşib tapa bilsin.

Mürşüdqulu xanın Məşhəd hakimi Salman xana üzr-minnət etməsi. Sözün qısası, Mürşüdqulu xan çox düşünmədən və icazə almadan, məhdud bir dəstə ilə məqsədə doğru yollandı. O, şəhərin yaxınlığına çatdıqda Məşhədin böyük seyidləri və əyanları qalanın mühasirəyə alınacağı təhlükəsinin qorxusu və təşvişi altında sülhpərvərlik nümayiş etdirərək, cənab Salman xanı [Mürşüdqulu xana] ülfət və həmrəylik göstərməyə rəğbətləndirib, qarşılama mərasiminə hazırlaşmağa başladılar. Salman xan onun öz adamları ilə gəldiyini eşitdikdə zərurət üzündən xələt göndərib, dostluğunu izhar etdi və qonaqları qarşılamağa hazırlaşdı. (Mürşüdqulu xanın) şəhərə gəldiyi gün seyidlər, (İmam Rza) astanasının xadimləri və müqəddəs Məşhədin əyanları yola qədər çıxıb, onu qarşıladılar və onu şəhərə gətirib gəldilər. Mürşüdqulu xan Salman xanla ədəbli rəftar edərək, onun qarşısında özünü bir nökər kimi apardı, daha sonra isə [İmam Rzanın] müqəddəs və mübarək astanasına gedib, ziyarət şərtlərini yerinə yetirdi, o feyz bəxş edən məqbərənin qonağı oldu və ehtiyatlı davranaraq, bir neçə gün astanada qalıb, oradan kənara çıxmadı. Salman xan hər gün müqəddəs astanada onunla görüşür, qonaqpərvərlik mərasimini icra edir və rəsmi iltifatlar göstərirdi. Mürşüdqulu xan fərasətlə onun könlündəki tərəddüdləri anlayaraq, məkr və hiylə qapılarını açdı, yağlı dilini işə salaraq, yaltaqcasına sözlərlə ona sədaqətini bildirdi və onun könlündəki tərəddüdləri aradan qaldırdı.

Nəhayət, bu müddət ərzində Mürşüdqulu xanın adamlarının hamısı ayrı-ayrılıqda gəlib, şəhərə cəmləşdilər. Həmçinin bölükat (şəhərətrafı) camaatından

bəzi şəxslər vardı ki, hələ də Salman xanın yanına gəlməmişdilər və onlar həmin bir neçə gün ərzində Mürşüdqulu xanla görüşdülər. Bunların nəticəsində Mürşüdqulu xanın könlündə həmişə özünə yer tapmış müqəddəs və ulu Məşhədin hakimi olmaq həvəsi yenidən baş qaldırdı və o, zahirən Salman xanla görüşmək məqsədi ilə, əslində isə [Məşhəddə] hakimiyyəti ələ keçirmək niyyəti ilə tam bir qələbəlik və şövkətlə hökumət iqamətgahının yerləşdiyi və Salman xanın yaşadığı şəhər Çaharbağına gedib, orada qərar tutdu. Salman xan əvvəlki təki ziyafət və qonaqpərvərlik mərasimini həyata keçirməklə məşğul oldu. Onlar hər barədə söz salıb danışdılar. Salman xan qəti olaraq İsgəndər şanlı nəvvabın və dünya sakinlərinin şahzadəsi olan Sultan Həmzə mirzənin tərəfində durduğunu bildirdi. Mürşüdqulu xan əvvəlcə öz tabeçiliyini izhar etsə də, axırda öz ürəyindəkiləri açıb, Salman xana dedi:

- Xorasan camaatının həm hərbçiləri, həm rəiyyətləri əlahəzrət [Abbasa] itaət etməyə və tabeçilik göstərməyə könül veriblər və o həzrətin lələsi və Xorasanın bəylərbəyisi olan Əliqulu xan Şamlu ilə əhdü-peyman bağlayıblar. İsgəndər şanlı nəvvab da yenidən Xorasan məmləkətini Xorasanda olan səadət nişanəli möhtərəm oğlu [Abbasa] tapşırıbdır. Əgər xan cənablarınızın Xorasanda qalmağa meyili varsa, əlahəzrət [Abbasa] itaət və tabeçilik göstərməkdən və Əliqulu xanla uzlaşmaqdan özgə çarəniz yoxdur. Siz heç bu vilayətin hakiminin öhdəsinə düşən işləri icra etmək və bölükatın sözə baxmayanlarını, Məşhəd hüdudunun inadkarlarını ram etmək üçün hazırlıqlı qoşuna və ləşkərə də malik deyilsiniz. Belə olan halda yaxşısı bu olardı ki, bu vilayət mənim ixtiyarıma keçsin və xan cənablarınız mənə məxsus olan Xəvaf və Baxərz tərəfə gedib, o vilayətdə rahatlıq və asudəliklə yaşasın.

Salman xanın itaət və tabeçilik göstərməkdən savayı çarəsi yox idi. O, həmin vilayətə getməyə razı oldu. Mürşüdqulu xan öz etimadlı şəxslərini ona yoldaş etdi ki, sözügedən şəxsi aparıb, Xəvaf və Baxərzə çatdırsınlar. Məşhəd hakimi olduğu üçün Salman xanın başına toplaşmış əksər adamlar ondan ayrılıb şəhərdə qaldılar və o, məhdud bir dəstə ilə yola düşdü. Xorasanın vəziyyəti və Mürşüdqulu xanın rəftarı ürəyinə yatmadığı üçün və İsgəndər şanlı nəvvabla Nəvvabi-Cahanbaninin ona etdikləri yaxşılıqlar üzündən Xorasanda qalmağı məqsədəuyğun bilmədi, yol əsnasında ov etmək bəhanəsi ilə atlandı, yüklərini və əşyalarını atdı və fərar yolunu tutub, sürətlə İraqa yollandı. Onun getməyindən agah olan Mürşüdqulu xan bu hadisənin öz mətləbinə uyğun olduğunu hesab edib, tamam-kamal şövkət və iqtidarla müqəddəs və ulu Məşhədin hakimi vəzifəsinə əyləşərək, Herata muştuluqçular göndərdi və məhz əlahəzrət [Abbasın] xoş taleyi səbəbindən baş vermiş bu hadisənin həqiqətini Əliqulu xana elan etdi.

Mürşüdqulu xan müqəddəs Məşhədin ətrafında yaşayan, çoxsaylı qüvvəyə malik olan Budaq xan Çəkəni və onun övladları, Baba İlyasın övladları, bayat qəbiləsi, cağatay əmirləri və qoşun başçıları ilə dostluq münasibətləri yaratdı. O, Budaq xanın qızını istədi və o diyarın ümumən əhalisinin könlünü aldı. Onun

hökmü orada və oranın ətrafında nüfuz qazandı. Əksər əmirlər öz ayaqlarını ona itaətkarlıq dairəsinin içərisinə qoydular. O, vaxtın məsləhətinə əməl edərək, ələ keçirdiyi həmin vilayəti hadisələrin cərəyan etdiyi vaxt ona layiqli xidmətlər göstərmiş ustaclu və başqa tayfaların nümayəndələrinə paylaşdırdı. Onun şövkəti və iqtidarı günbəgün artdı və şamlu tayfası ona həsəd aparmağa başladı. Amma o, Əliqulu xanla ülfət, dostluq, sədaqət və yekdillik üsulu ilə rəftar etməyə davam edirdi. O, həmin qışı rahatlıqla müqəddəs və ulu Məşhəddə keçirib, o vilayətin işlərinin nizama salınması ilə məşğul oldu.

***Şah Təhmasibin qızı Şəhrəbanu bəyimin vəfatı.*** Salman xan onunla birlikdə olan mülazimlərindən ibarət bir dəstə ilə Tun və Təbəs yolundan İraqa gəldi və darüssəltənə Qəzvində İsgəndər şanlı nəvvabın və Nəvvabi-Cahanbaninin hüzuruna yetməyə feyzyab olub, baş vermiş hadisələrin həqiqətlərini [yuxarıda] bəyan qələmi ilə yazıldığı tərzdə onlara ərz etdi. Sözügedən şəxsin gəlişindən bir neçə gün öncə onun möhtərəm arvadı və cənnətməkan şahın qızı ülyahəzrət Şəhrəbanu bəyim xəstələnmiş, təbiblərin müalicəsi ilə sağalmamış və haqqın dəvətinə boyun əyib, axirət aləminə getmişdi. Salman xan Qəzvin hüdudunda ikən bu qəmli xəbəri eşitdi və bu, onun kədərinin və qüssəsinin artmasına səbəb oldu. İsgəndər şanlı nəvvab ona münasibətdə şahanə şəfqətlər və xosrovanə mehribanlıqlar nümayiş etdirdi, onun xatirinə təsəlli bəxş etdi və onun könlünü almaqla, iltifat göstərməklə çərxi-fələyin gərdişi üzündən ona nəsib olmuş kədəri aradan qaldırdı.

## HÖKMDAR MƏİYYƏTİNİN İKİNCİ DƏFƏ AZƏRBAYCANA YOLLANMASI, ƏMİR XAN TÜRKMANIN HƏBS OLUNMASI, ƏLİQULU XAN FƏTHOĞLU USTACLUNUN YÜKSƏLDİLMƏSİ VƏ TÜRKMANLARIN ÜSYANI VƏ TÜĞYANI HAQQINDA

Şahın müzəffər məiyyəti darüssəltənə. Qəzvinə çatıb, qışı başa vurdu və səyyarələr sultanı (günəş) şərəf və səadətlə həməl bürcünə daxil oldu, yəni 992-ci (1584) ilə müvafiq gələn türklərin piçi ilinin dünyanı nurlandıran Novruzu könül xoşluğu və kam almaq bağçasına oyanış bəxş etdi, cahanın abadlığının zövqü bahar mövsümünün qədəmlərindən rövnəqlik və təzə təravət tapdı. Cavanlığının başlanğıcını yaşayan Nəvvabi-Cahanbaninin nəfsani ləzzətləri və kam almağı anlayan dövrü idi. O, öz vaxtını seyr etməyə və söhbətləşməyə sərf edir, həmişə özünə yaxın olan adamlarla və öz həmsöhbətləri ilə xəlvətdə məclis tərtib edib, dostları ilə birlikdə reyhani şərabın nəşə saçan qədəhlərini qurtumlayırdı və lalə yanaqlı, ay üzlü gözəllərin vüsal gülzarından şadlıq gülləri dərirdi.

Azərbaycan bəylərbəyisi Əmir xan öz vəziri Qasım bəyi Təbrizdən ali taxtın ətəyinə göndərib, Azərbaycandakı vəziyyətlə bağlı həqiqətləri, rumilərin istilasını və onların İrəvanı keçirmələrini ərz etdi və calal bayraqlarının o tərəfə gəlməsini xahiş etdi ki, müzəffər üzəngini müşayiət edərək, İrəvan qalasını tutmaqla məşğul

olsun. Böyük əmirlər və dövlət ərkanı «canəqi» edib, Azərbaycana doğru hərəkət etməyi qərara aldılar. Yay fəslinin əvvəllərində darüssəltənə Qəzvindən çıxıb, Azərbaycana sarı irəlilədilər. Məhəmməd xan Türkman öz qoşununu tərtib etmək və daha sonra gəlib müzəffər məiyyətə qoşulmaq üçün Kaşana getməyə icazə aldı. Müseyib xan Təkəlü də öz qardaşı oğlu Muxtar sultanla birlikdə öz ölkəsi olan Reyə getdi. Miyanəc çəmənində iqbal alaçıqları qurulduqda Nəvvabi-Cahanbani övliyaların sultanı, safların sübutu [olan Şeyx Səfiəddinin] və kəramətli Səfəvi şeyxlərinin - Allah onların ruhlarını müqəddəsləşdirsin - məlaikələr üçün sığınacaq yerinə çevrilmiş astanalarını ziyarət etmək məqsədi ilə hökmdar ordusundan və adlı-sanlı atasından ayrılıb, darülirşad Ərdəbilə yollandı.

Nəvvabi-Cahanbani qayıdıb gəlməmiş, Əmir xan hökmdarın ali məiyyətini qarşılamaq mərasimini icra etmək üçün əksəri qardaşlarından, oğullarından və qohum-əqrəbalarından ibarət olan öz əmirləri, tabeçiləri və onların mülazimləri silkinə daxil olan türkman oymağından və digər tayfalardan on iki min nəfərlə birlikdə tamam bər-bəzək, zinət və dəbdəbə içərisində darüssəltənə Təbrizdən gəlib çataraq, hökmdar ordusunun yaxınlığında düşərgə saldı. Nəvvabi-Cahanbani hələ orduya təşrif gətirmədiyindən [Əmir xan] sözlədi və Nəvvabi-Cahanbaninin gəlişindən sonra əvvəlcə o həzrətin hüzuruna yetib, başucalığı qazandı, daha sonra isə onun vasitəsilə İsgəndər şanlı nəvvabın ayağını öpmək şərəfinə nail oldu. Ona göstərilən hüsn-rəğbət və iltifat həddən aşdı. Onun şövkəti və əzəməti, qoşununun və ləşkərinin dəbdəbəsi, şahanə zinətləri və ağayana rəftarı qarşısında əşrəfin üzəngisi həndəvərində olan əksər əmirlərin və mülazimlərin içərisindəki manqalda paxıllıq və həsəd alovları şölələndi. [Həmin əmirlər və mülazimlər] hər nə qədər bol hövsələli və ağıllı olsalar da, bu [paxıllıq və həsəd] xüsusiyyətlərindən heç də məhrum deyildilər.

Nəvvabi-Cahanbani, təbii olaraq, Təbrizə doğru hərəkət etməyə rəğbət duyduğundan Miyanəc çəmənindən köç edərək, məsafələri və mərhələləri qət etdikdən sonra uğurlu bir saatda darüssəltənə Təbrizə daxil oldular. Təbrizin əhalisi və sahibkarları, ümumi bir şəkildə böyüklü-kiçikli bütün təbrizlilər onları qarşılamağa çıxaraq, sevinc və şadlıq nümayiş etdirdilər. İsgəndər şanlı nəvvab və dünya sakinlərinin şahzadəsi (Həmzə mirzə) həşəmət və səadətlə Təbriz dövlətxanasına daxil olub, öz ata-babalarının dövlət və səltənət mərkəzində əyləşdilər. [Əmir] xan cənabları qonaqpərvərlikdən irəli gələn işləri həyata keçirib, xidmətkarlıq nümayiş etdirdi və həmişə onun əhvalı üzərində hüsn-rəğbət, lütfkarlıq nurları parlayaraq, günbəgün tərəqqidə və yüksəlişdə oldu. Nəhayət, zəmanənin zərurəti ucbatından onun dövlətinin büsatı uğursuzluğa düçar qaldı və heç zaman xəyalının aynasına gəlməmiş bir surəti öz ibrət görən gözləri ilə müşahidə etməli oldu. Bir sözlə, axırda ona olan oldu.

Bu mövzunun şərhi və bu icmalın təfsilatı belədir ki, hökmdar (Şah Məhəmməd Xudabəndə) darüssəltənə Təbrizə birinci dəfə gəlib orada qışlaq edən ildə Nəvvabi-Cahanbaninin yaşı hələ az idi. Əgər o vaxt Əmir xandan və

əmirlərdən bir xoşagəlməzlik baş versəydi, gizlinlik niqabında məxfi olaraq qalardı. Bu dəfə isə [Həmzə mirzənin] şərəfli ömrü artıq on yeddi yaşa çatmış, o, yetkinliyin və seçkinliyin sərhədinə qədəm qoymuş, onun cavanlıq qüruru səltənət və hökmranlıq badəsinin keyfiyyətinin üstünə gəlmiş, həmçinin içdiyi qırmızı şərabın nəşəsi Allahın ona bəxş etdiyi o iki keyfiyyətin (yetkinliyin və hökmranlığın) üzərinə əlavə olmuşdu. Əgər o, özünə qarşı bir balaca namülayim hərəkət görsəydi, onun mübarək xatirinin aynası qübara qərq olardı. Cah-calalla Təbrizə gəldikdən sonra o həzrət əvvəlcə istədi ki, ayağını ədəb dairəsindən kənara qoymuş, dikbaşlıq göstərmiş və onun şərəfli xatirinin inciməsinə səbəb olmuş bəzi qızılbaş fəsadçılarını ortadan qaldırsın. [Həmzə mirzənin] anasının öldürülməsi vaxtı Əmir xan şanlı orduda olmadığı üçün zahirən öz sədaqət ətəyini o cür ədəbsizliyin çirkabına bulaşdırmamış kimi görünürdü. Nəvvabi-Cahanbaninin istəyi bu idi ki, onu bütün məsələlərdə özünə müttəfiq edərək, öz xatirindəki gizlin fikirləri onun vasitəsilə həyata keçirsin. Buna görə də o, Əmir xana və onun mənsublarına əvvəlkindən daha artıq mehribanlıq nümayiş etdirdi və ona hüsn-rəğbət və hörmət göstərməkdə ifrata vardı.

Amma sözügedən şəxs (Əmir xan), həqiqətən də, xeyirxah və nəcib fikirli bir adam idi və o, Rum sultanının öz sözünün üstündə durmayaraq [Səfəvi] ərazilərinin işğalına səy göstərdiyi bir məqamda hər biri böyük bir [qızılbaş] oymağının ağsaqqalı olan şəxslərə zərər vurmağı vaxta görə münasib bilməyib, bu işə razı olmadı. O, [Həmzə mirzəni] çoxlu şərab içməkdən çəkindirməyə çalışır, işrət günlərinin zərurəti ucbatından cavanlıq edib günah işlərlə məşğul olan Nəvvabi-Cahanbaninin bu hərəkətlərini xoşagəlməz hesab edərək, ona bəzən dövlətsevərlik üzündən atasayağı nəsihətlər verir və bu məsələdə riyakarlıq nümayiş etdirən əmirləri və dövlət ərkanını məzəmmət edirdi. Lakin bu zaman [Əmir xanın] qardaşlarından, oğullarından və qohumlarından ibarət bir dəstə adam cahillik və qürur badəsindən sərxoş oldular və ədəbsizlik etməyə başladılar. O həzrət (Həmzə mirzə) hövsələsinin genişliyi səbəbindən dövlətin qorunması və Əmir xanın məqamının və səviyyəsinin mühafizə edilməsi mövqeyindən çıxış edərək, onların hərəkətlərini görməməzliyə vururdu.

Amma axırda iş o yerə çatdı ki, onların kobud hərəkətləri [Həmzə mirzənin] nurlu xatirinin qeyzlənməsinə səbəb oldu. Hamısı cahil cavanlardan ibarət olan və dövlət üçün nəyin yaxşı, nəyin pis olduğunu bilməyən və anlamayan ali məclis iştirakçıları, xüsusən də ustaclu tayfasından olan, [Həmzə mirzənin] izzət büsatının müqərrəbləri və məxsusları silkində qərar tapan və türkman tayfasına köhnə ədavət bəsləyən Əliqulu bəy Fəthoğlu və onun qohumu Məhəmmədi Sarısolağ şərab içmək və məstlik qəlyanı çəkmək əsnasında fitnə-fəsad alovunu qızışdıraraq, ürəyəyatan sözlər dedilər və o həzrətin şərəfli xatirini [Əmir xandan] incik saldılar. Onun töhmətləndirilməsinə və məzəmmət edilməsinə imkan verən xoşagəlməz əməlləri cümləsindən biri onun şahın rüxsəti olmadan, öz rəyi və fikri ilə öz evinin ətrafında qala bina etməsi, yüksək bürclər ucaltması və istehkam qurması idi. Onun

rəqibləri bu əməlin onun üsyan və tüğyan arzusunda olmasından qaynaqlandığını irəli sürüb, bu barədə əşrəfin ərzinə qorxunc sözlər çatdırdılar və aranı qızışdırmağa səy göstərdilər. Nəhayət, bu yöndə canfəşanlıq göstərən adamların səyləri nəticəsində get-gedə aralıqda ziddiyyət və kin-küdurət meydana gəldi. Əmir xan şahzadənin ona qarşı münasibətinin dəyişdiyini anladı və öz qüruruna əsasən, o həzrətin pis rəftarının iqtidarsızlıqdan irəli gəldiyini zənn edib, vüqar ayağını ətəklərinə çəkərək, padşahın ali astanasının mülazimliyindən yayınmağı qərara aldı, gediş-gəlişi tərk etdi.

Nəvvabi-Cahanbani bu işin üzərindən birdəfəlik pərdə götürmək istəmirdi. Buna görə də onun çəkingənliyini aradan qaldırmaq üçün onun hərəmxanasının və qalasının yanında yerləşən Sahibabad meydanında çövkən oyunu və hədəfə ox atmaq yarışı («qabaq-əndazi») təşkil edib, kef məclisi qurdu və bütün qızılbaş əmirləri, əyanları və əmirzadələri hazır olub, şənlik, sevinc, şadlıq və kef etməklə məşğul oldular. Əmir xan o yerin yaxınlığında olmasına baxmayaraq, o məclisə gəlməkdən yayındı və bu hadisə [Həmzə mirzə ilə onun arasında] narazılığın daha da artmasına səbəb oldu.

Bu əsnada məhərrəm ayı və aşura mərasimi günləri gəlib çatdı[1024]. «Vilayət» nişanəli [Səfəvi] sülaləsində sürəkli olaraq belə bir qayda var ki, aşura günündə padşah, bütün əmirlər və qoşun başçıları şəhidlərin ağası [olan İmam Hüseynə] və Kərbəla döyüşündə qətlə yetirilmiş şəhidlərə təziyə tutmaqla məşğul olurlar və hökmdarın hüzurunda əzadarlıq mərasimi və hönkür-hönkür ağlamaq ənənəsi yerinə yetirilir. Həmin aşura günündə bu mərasim Sahibabad meydanının şimal tərəfində yerləşən mərhum Həsən padşahın məscidində yerinə yetirilirdi. Bütün əmirlər oraya gəlmişdilər. Əmir xan isə yenə də gəlməkdən boyun qaçırdı. Böyük əmirlər tam qəbahətli olan bu imtinanı layiq görməyib, onun ardınca adam göndərdilər. Lakin o, öz evində təziyyə yığıncağı təşkil etmiş və türkman tayfasından böyük bir dəstə oraya cəmləşmişdi. Bu məsələ dünyanın ağası [Həmzə mirzəyə] çatıb, onun mübarək xatirindəki incikliyin çoxalmasına səbəb oldu və o, əmirlərin arasında [Əmir xandan] şikayətləndi.

Qulu bəy Qorçubaşı batinən Əmir xanla ittifaqa malik idi. Əksər əmirlər bir-birlərinə kömək edirdilər. Qorçubaşı Nəvvabi-Cahanbani ilə Əmir xan arasındakı məsələni sülh yolu ilə həll etmək istədi. O, Əmir xanın adından [Həmzə mirzəyə] əqidət və sədaqət izhar edərək, Əmir xanın çəkingənliyini aradan qaldırmaqdan ötrü [Həmzə mirzənin] öz səadətli qədəmləri ilə təşrif aparıb onun evini öz hüzurunun nuruna qərq etməsini xahiş etdi və bu barədə ifrat dərəcədə təkid göstərdi. Nəvvabi-Cahanbani qorçubaşının və əmirlərin xahişlərinə əməl edərək, [Əmir xanın] mənzilinə təşrif gətirdi. [Əmir xan] bu münasibətlə yüksək səviyyəli bir ziyafət tərtib edib, şahanə məclis qurdu, necə lazımdırsa o cür

[1024] İsgəndər bəyin əsərindən görünür ki, burada söhbət 992-ci il başa çatdıqdan sonra növbəti ilin, yəni 993-cü ilin ilk ayı olan məhərrəm ayının daxil olmasından gedir. H. 993-cü ilin aşura günü, yəni məhərrəm ayının 10-u miladi təqvimlə 12 yanvar 1585-ci ilə təsadüf edir.

qonaqpərvərlik göstərdi və Nəvvabi-Cahanbaninin müqərrəblərinə və məxsusi adamlarına, xüsusən də Əliqulu xan Fəthoğluya insanpərvərcəsinə ehtiram və ata-oğul mehribançılığı göstərdi.

Amma Əmir xanın əksəriyyəti əmirlər silkinə daxil olan, hərbi qüvvə və qoşun sahibi olan, cahillik və qürur badəsindən sərxoş olan qardaşları, oğulları və qohumları kobud hərəkətlər törədib, o həzrətin (Həmzə mirzənin) müqərrəblərinə, xüsusilə də ustaclu və şamlu əyanlarına qarşı həm kinayə ilə, həm də açıq-aşkar təhdidedici sözlər söylədilər və onlar da öz növbələrində bunlara qarşı üstüörtülü şəkildə hörmətsizlik nümayiş etdirdilər. Nəticədə, bu gediş-gelişdən heç bir fayda əldə olunmadı. Əksinə, bəlkə də, narazılığın səbəbləri daha da artdı.

[Həmzə mirzənin yanında] içki məclisi rəvac tapmışdı. Şahrux xan [Həmzə mirzənin] ali məclisində piyalə yoldaşı olub, şahzadənin ona göstərdiyi iltifatın təsirindən məst olmuşdu. O, həzrətin şərəfli xatirinin Əmir xana və onun nəslinə qarşı incikliyinin yüksək nöqtəyə çatdığını və onun təbiət camının Əmir xana qarşı hiddət badəsi ilə dolub daşdığını anlayaraq, Əmir xana zərbə vurmaq məsələsində digərləri ilə əlbir olub, bu işə razılıq verdi və Nəvvabi-Cahanbaninin [Əmir xana qarşı] niyyətinin həyata keçirilməsi məsələsini qorçubaşı ilə müzakirə elədi. Sözügedən [qorçubaşı] ali şahzadəni bu fikirdən daşındırmaq və onu bu işi başqa bir vaxta saxlamağa razı salmaq üçün nə qədər səy göstərsə də, faydası olmadı. Əmir xan və lovğalıq, qürur badəsindən sərxoş olmuş türkman dəlisovları hələ gizlinlik pərdəsi daxilində qalmaqda olan bu məsələdən xəbər tutaraq, bu barədə səmərəsiz xəyallar qurdular və Əmir xanın evində böyük bir toplanış etdilər. Onlar oymaq tərəfkeşliyini və təəssübkeşliyini bəhanə etdikləri üçün [türkman] tayfasının hamısı, hətta «xasseyi-şərifə»nin qorçuları, yüzbaşıları və mülazimləri də onların sıralarına qoşuldular. On min nəfərə qədər türkman əsləhə və yaraq bağlayıb, iğtişaş və fəsad qapılarını açmışdı.

Türkmanların iddialarının məğzi o idi ki, «Nəvvabi-Cahanbaninin hüzurunda özlərinə mövqe qazanmış cahillər, xüsusilə də Əliqulu Fəthoğlu, Məhəmmədi Sarısolağ, İsmayılqulu xan Şamlu və başqaları o həzrətin mübarək xatirini bizim kimi dövlətsevərlərdən incik salıblar və salmaqdadırlar. Onlar o həzrətə xidmət etməyə layiq deyillər. Könüllərin rahatlıq tapması üçün onları xidmətdən uzaqlaşdırmaq lazımdır».

Əqidə və sədaqət sahiblərinin belə bir cəsarət göstərməsi bəsirətə malik olanların nəzərində ədəbsizlik olduğu üçün türkmanların yöndəmsiz hərəkətləri şahzadənin mübarək xatirindəki qübarın çoxalmasına səbəb oldu, onun şərətli xatirinin sobasında alışmış qəzəb atəşinin şöləsi daha da alovlandı və o, bu məsələnin üzərindən pərdəni götürüb, öz fikrindəki gizli niyyəti aşkara çıxararaq, [türkmanların] tənbeh edilməsi və cəzalandırılması barədə qərarını qətiləşdirdi.

***Azərbaycan əmirülümərası Əmir xan Türkmanın vəzifədən çıxarılması.*** Əvvəlcə Əmir xanın şövkətini azaltmaq üçün onun vəzifədən çıxarılması barədə hökm verildi və Təbriz ölkəsi ondan geri alındı. Bu fərmanı Təbriz sakinlərinə

oxudular. Türkmanların ağalıq və iqtidarından, Əmir xanın tələb və istəklərindən cana doymuş təbrizlilər, təbii olaraq, bu işə sevindilər və bu fərmanı bəyənərək, [Əmir xana] qarşı saymazyana davranmağa başladılar. Məmləkət əhalisinin Əmir xanın evinə gəliş-gedişi kəsildikdən sonra o, heç vaxt xəyalına gətirib təsəvvür etmədiyi bir vəziyyətlə üz-üzə qalıb, qəflət yuxusundan oyandı və öz qalasının qapısını bağlayıb, öz halını mühafizə etməklə məşğul oldu. O, bürclərin və divarların üstünə top və tüfənglər yerləşdirib, qalanı müdafiə etmək üçün hazırlıqlar gördü və Sahibabad meydanı tərəfdə yerləşən, hökmdar dövlətxanasına yaxın olan bürcdən neçə dəfə top atdırdı. Üç gün ərzində hər gün davamlı olaraq bu minvalla top və tüfəng səsləri eşidildi. Onun bu cəsarəti qarşısında Nəvvabi-Cahanbaninin qeyrət damarı hərəkətə gəldi və şahısevənlik çağırışı edərək hökm buyurdu:

- Türkman tayfasından kimlər ki bu [Səfəvi] sülaləsinin qulamları və tərəfdarlarıdırlar, dövlətxanada hazır olsunlar. Hər kəs ki Əmir xana və onun düşmənçilik həvəsinə dostdursa, bu dövlətdən əlini üzüb, Əmir xanın ətəyindən tutsun.

Türkman tayfası şahısevənlik çağırışım eşitdikdə onların birliyinin bünövrəsinə bir sarsıntı düşdü. Onlar xilaf çıxmağı özlərinə yaraşdırmayıb, dəstə-dəstə gələrək, hökmdar dövlətxanasının qapısına yığışdılar və şahısevənlər kütləsinə daxil oldular. Axırda Əmir xan öz oğullarını və qardaşlarını göndərdi ki, onlar da şahısevənlər zümrəsindən xaric olmasınlar. Amma özü şəxsən gəlməkdən boyun qaçırdı. Beləliklə, ilkin mərhələdəki toplanışlarına və izdihamlarına baxmayaraq, türkmanlar təfriqəyə düşüb, pərən-pərən oldular. Əmir xan düşdüyü vəziyyətə mat-məəttəl qaldı. Onun yanında olan ziyalılar və nədimlər cürət edib bildirdilər:

- Şahısevən olan hər kəsin dövlətxanaya gəlməyi hökm edildiyi üçün münasib budur ki, heç kimsənin vasitəçiliyi və vəsatəti olmadan siz də oraya yollanıb, özünüzü hicab pərdəsindən bu yolla çıxarasınız.

Lakin Əmir xan onun yaxşılığını istəyənlərin sözünü rədd edib, bu işə cürət etmədi. Hökmdar dövlətxanasına toplaşmış böyük əmirlər adam göndərib, onu qalanı bağlamaqdan və top-tüfəng atdırmaqdan çəkindirməyə çalışaraq bildirdilər:

- Əgər belə etməsəniz, öz təbəələrini sevən şahın bəndələri olan bizlərə sənin qalanı fəth etmək üçün səy göstərmək vacib olacaqdır. İş o yerə gəlib çatsa, nə nəticə verəcəyi məlumdur.

O, əvvəlcə bunun cavabında kobud və yekəxana sözlər söylədi. Ali şahzadə bütün qızılbaş tayfalarına və təbrizlilərə əmr etdi ki, yaraq qurşanıb, yürüş ləvazimatlarını hazırlasınlar və gecə vaxtı onun qalasına yürüş etsinlər. Camaat fərmanı qəbul etdi. Hökmdar dövlətxanasında böyük bir qələbəlik yarandı. Nəvvabi-Cahanbani hücuma hazır vəziyyətdə idi. Əmir xanın kobud hərəkətləri və yöndəmsiz əməlləri ucbatından böyük əmirlərin [Həmzə mirzədən] onun bağışlanmasını istəməyə imkanları qalmamışdı. Onlar İsgəndər şanlı nəvvabın

mərhəmətinə doğru əl uzadaraq, məhrəm bir adamı o həzrətin hüzuruna göndərib xahiş etdilər ki, o, cümə gecəsi olan həmin gecədə qırğının baş verməsinə və böyük bir fəsadın törədilməsinə yol verməmək üçün Nəvvabi-Cahanbanini həmin gecə bu əməliyyatı yerinə yetirməkdən yayındırsın və əgər sabah Əmir xan gəlib təslim olmazsa, onda [Həmzə mirzənin] şərəfli xatirindəki niyyət həyata keçirilsin.

İsgəndər şanlı nəvvab öz möhtərəm oğlunu çağırıb, onu [həmin gecə hücuma keçmək] niyyətindən daşındırdı. Ertəsi gün yenə də eyni kütlə və izdiham hökmdar dövlətxanasına toplaşdı. Əmirlərlə Əmir xan arasında təkrarən elçilərin göndərilməsi və gediş-gəlişi baş verdi. İtaət və tabeçilikdən savayı çarə tapa bilməyən Əmir xan [qaladan] çıxmaq qərarına gəldi. Əmir xanın yanında çalışan və «Kiçik həkim» ləqəbi ilə məşhur olan Həkim Əbülfəth Təbrizi gələrək, onun [qaladan] çıxacağına dair xəbər gətirdi. Qorçubaşı, Şahrux xan və əmirlər qalanın yanınadək getdilər və o, [qaladan] çıxıb gəldi. Onların arasında Sahibabadda yerləşən şah məscidinin qapısında görüş baş verdi və əmirlər onu özləri ilə birlikdə hökmdar dövlətxanasına gətirib gəldilər. O, dövlətxanaya daxil olduqda qılıncını belindən açıb, boynundan asdı. Bir tərəfdən qorçubaşı, digər tərəfdən isə Şahrux xan onun əlindən tutub, onu bir günahkar kimi Nəvvabi-Cahanbaninin mübarək nəzərləri qarşısına gətirdilər. O, [Həmzə mirzənin] ayağını öpmək şərəfinə nail oldu. Nəvvabi-Cahanbani yüksək dərəcəli əcdadlarından yadigar saxladığı comərdlik və abır-həya ilə dərhal qılıncı onun boynundan götürdü. Bu vaxt Əmir xan riqqətə gəlib ağladı. Nəvvabi-Cahanbani onun bağışlanması haqqında müjdə verib dedi:

- Sənin törətdiyin bunca yöndəmsiz hərəkətlərə və sənə qarşı ürəyimdə yer tapmış incikliyin qübarına baxmayaraq, sənə münasibətdə mərhəmət və iltifatdan savayı heç bir iş görülməyəcəkdir.

Hökm olundu ki, o gecə Şahrux xan Nəvvabi-Cahanbaninin divanxanasında Əmir xanı qonaq etsin. Türkman əmirlərindən olan Ədhəm xan qalaya göndərildi ki, Əmir xanın evini qorusun və onun namusunu və yaxın adamlarını mühafizə etsin.

Əmir xan gecəni divanxanada keçirdi. Səhəri gün Həştbehişt imarətinin üst otaqlarında ona yer təyin olundu. Onun mallarını və əmlakını müsadirə etdilər. Bir neçə gün sonra o, Qəhqəhə qalasına göndərildi. Əmir xanın Binəzir adında bir məhbubəsi vardı və xan ona böyük bir sevgi və eşq bəsləyirdi. O xahiş etdi ki, Binəziri də onunla birlikdə göndərsinlər və onları bir-birlərindən ayırmasınlar. Nəvvabi-Cahanbani onun xahişini qəbul etdi və Binəziri də onunla birlikdə göndərdilər.

Bu hadisələr Əliqulu bəy Fəthoğlunun səyləri ilə baş verdiyindən Nəvvabi-Cahanbani ona hüsn-rəğbət nümayiş etdirib, darüssəltənə Təbrizin əyalət [hakimliyini] ona verdi və onu «xan» rütbəsinə yüksəltdi. Bütün əmirlər və dövlət ərkanı ona həsəd aparmağa başladılar. Onun yüksəldilməsi böyük əmirlərin ürəyinə pis gəlsə də, onlar bu barədə öz gizli düşüncələrini bəyan edə bilmirdilər və onların

hamısı sözügedən şəxsə iltifat göstərib, onun üzünə mülayimlik və dostluq qapılarını açıq saxlayırdılar. İsmayılqulu xan «yoldaş» ləqəbinə malik olduğundan Nəvvabi-Cahanbani Əliqulu xanı «qardaş» deyə çağırdı və o, şərəfli «qardaş» ləqəbini qazandı. Bu işlərin tədbirçisi və gizli sirlərin sahibi olan Məhəmmədi Sarısolağ isə «sirdaş» adlandırıldı. Bir vaxtlar süstlük zaviyəsinə qısılmış ustuclu tayfası yenidən başını dik qaldırıb, rəğbət və iltifatla əhatə olundu. O tayfadan ibarət çoxsaylı bir dəstə darüssəltənə Təbrizə cəmləşib, Əliqulu xana mülazimlik etməyi özləri üçün izzət və nüfuz sərmayəsi hesab etdilər. Mötəbər ustaclu əmirləri onun xidmətində durmağa başladılar. Əmir xanın oğulları, qardaşları və tabeçiləri isə Nəvvabi-Cahanbaninin hüsn-rəğbətindən və iltifatından məyus qaldılar. Onların rəqibləri olan ustaclu tayfası tamam etibar qazandı. Buna görə də [türkman tayfasının] digər əmirləri özlərinə qarşı həqarət və xarlıqdan başqa heç nə görməyib, hər biri bir guşədən çıxıb getdilər və İraqa sarı üz tutdular.

Bu xəbərlər Kaşanda Məhəmməd xan Türkmana çatdıqda o, heyrət dənizinin içinə düşüb, öz vəziyyətinin fikrini çəkməyə başladı. Əmir xanın qızı Vəli xan Təkəlünün arvadı olduğundan Əmir xanın qardaşları, övladları və qohumları tədricən Həmədana gedib, onun yanına cəmləşdilər. Məhəmməd xan fitnəkarlıq məqamına gəlib, Kaşandan Həmədana gedərək, Vəli xanla görüşdü və onu könül aldadan sözlərlə sədaqət yolundan sapdırdı. O istəyirdi ki, bütün türkman və təkəlü tayfaları birləşərək Təbrizə getsinlər, Əmir xanın düşmənlərindən intiqam alsınlar və Əliqulu xan Fəthoğlu ilə Məhəmmədi Sarısolağı Nəvvabi-Cahanbaninin xidmətindən xaric edib, ustaclu əmirlərini gözdən salsınlar. Bu xəbərlərin Təbrizə çatması Əmir xanın vücudunun mövcudluq lövhəsi üzərindən silinməsinə bais oldu. Qəhqəhə qalasına adam göndərərək, Əmir xanı aradan götürdülər[1025]. Onun qətli xəbəri İraqda yayıldı. Məhəmməd xanın təhriki ilə Vəli xan Əmir xanın qanının intiqamını tələb etməyə başladı. Onlar Müseyib xanı da özlərinə müttəfiq edib, müxaliflik və düşmənçilik qapılarını açdılar.

Nəvvabi-Cahanbani bu zaman artıq boya-başa çatdığından dövlət və padşahlıq məsələlərinə zamin olmuş və bu işlərin məsuliyyətini öz üzərinə götürmüşdü. O, onların qaba hərəkətlərinə tab gətirməyib, Əliqulu xanla və qələbənin mənsub olduğu üzənginin həndəvərində olan dövlətsevərlərlə birlikdə öz iqtidarını nümayiş etdirmək qərarına gəldi. Məhəmməd xanın fitnə-fəsada başlayıb Həmədana getməsi, yenidən təkəlü tayfası ilə əhdü-peyman bağlaması və onların beyinlərinin sarayına pozğun xəyalların yol tapması barədə xəbərlər gələn zaman ustuclu və şamlu tayfaları onun əhvalının alt-üst olması üçün Kaşan vilayətinin onun əlindən alınmasını məsləhət gördülər. Qərara alındı ki, [Həmzə mirzənin] xidmətində olan Şahverdi xəlifə Şamlu Kaşana gedib, o şəhəri zəbt etsin.

---

[1025] Əmir xan 993-cü ilin cəmadiül-əvvəl / 1585-ci ilin may ayında qətlə yetirilmişdir (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.186).

Məhəmməd xanın oğlu Yusif bəy ali divanın dəvatdarı idi və həmin vaxt Kaşanda atasının canişini kimi qalmışdı. O, qalaya sığındı. Hər gün tərəflər arasınla döyüş və vuruş baş verdi. Bu hadisələr zamanı Yusif bəy qətlə yetirildi. Məhəmməd xan bu xəbərdən narahat olub, birdəfəlik işin üstündən pərdəni götürdü və öz oğlu Vəlican xanı o hadisələrin dəf olunması üçün Kaşana göndərdi. [Caşan əhalisindən bir dəstəsi türkmanlara qarşı müdafiə olunmaq üçün şəhərdən çıxıb, piyada halda onların çadırları üzərinə tökülüşdülər və qarət etməyə başladılar. Lakin türkmanlar atlanıb, [kaşanlı] piyadalara qarşı hücuma keçdilər. Şamlu camaatı [Kaşan əhalisinə] heç bir köməklik göstərmədi. Kaşan əhalisindən təqribən üç yüz nəfər qətlə yetirildi ki, bunların da əlli nəfəri seyidlər zümrəsindən idi. Xülasə, şamlu camaatı türkmanlara qarşı müqavimət göstərməyə tab gətirmədi. Şahverdi xəlifə [Kaşanın] iç («ərk») qalasını ələ keçirə bilmədi və axırda köç edib, Nətənzə getdi. Daha sonra o, Vəlican xanın qorxusundan oradan İsfahana gedib, təkəlü və türkmanların fitnəsinin dəf olunmasına qədər İsfahanda qaldı. Vəlican xan həmin zaman çoxlu ədəbsizliklər törətdi[1026].

Məhəmməd xan yaralı ov heyvanı kimi ora-bura cummağa başlayıb, iğtişaş salmağa çalışdı. Bir müddət təkəlülərin və türkmanların fitnə-fəsadı davam etdi və onlar Nəvvabi-Cahanbaniyə qarşı müxalifcəsinə rəftar etdilər. Nəhayət, axırda iş müharibə ilə sona çatdı və həmin camaat öz yanlış əməllərinin cəzasını aldı. Onların başlarına gələnlər bir qədər sonra, Xorasan və Azərbaycan hadisələrinin xatırlanmasının ardınca qələmə alınacaqdır.

## XORASANIN VƏZİYYƏTİ BARƏSİNDƏ VƏ MƏRHƏMƏTLİ ALLAHIN TƏQDİRİ İLƏ DÖVRANIN HADİSƏLƏRİ ÜZÜNDƏN O DİYARIN YÜKSƏK ŞÖHRƏTLİ ƏMİRLƏRİ ARASINDA BAŞ VERMİŞ İŞLƏR HAQQINDA

Bundan öncə bəyan qələmi ilə qeyd olundu ki, Mürşüdqulu xan müqəddəs və ulu Məşhədə yiyələnib, Xorasanın əksər mahallarının başqaldıranlarını öz uzaqgörən ağlının gücü sayəsində yoldaşlıq və mülayimliklə özünə müti və tabe etdi. O, öz yanına cəmləşmiş qızılbaş tayfalarından əmirlər təyin edib, o vilayəti özünün qoyduğu hakimlərin arasında paylaşdıraraq, həmin il bu işlərin intizama salınması ilə məşğul oldu və bu məsələ ilə bağlı həqiqətləri Əliqulu xana elan edib, əlahəzrət [Abbasın] yolunda göstərdiyi təqdirəlayiq xidmətlər barədə məlumatları ona çatdırdı. Piçi ilinin əvvəlində[1027] o, qabaqlar İsfərayin hakimi olmuş, Quryan döyüşündə əsir düşərək İraqa gətirilmiş, daha sonra isə fərar edib Darülmərz[1028] yolu ilə Xorasana getmiş qardaşı İbrahim xanı darüssəltənə Herata göndərdi ki, əlahəzrət [Abbasın] üzəngisinin həndəvərində olsun və Əliqulu xanı əlahəzrət

[1026] Bu abzasda kursivlə verilmiş cümlələr Bakı əlyazmalarındandır (S-129, v.254a; S-297,v.197b).
[1027] 1854-cü ilin yazı nəzərdə tutulur.
[1028] Darülmərz - Gilan vilayətini bildirir (V.F.Minorsky. «Tadhkirat al-muluk», p.170).

[Abbasın] dünyanı fəth edən məiyyətinin Heratdan çıxıb müqəddəs Məşhədə və oranın hüdudlarına gəlməyə təşviq etsin ki, oradan birlikdə hərəkətə gələrək, Damğana, Bistama və darülmöminin Astarabada qədər gedib, İraqın sərhədinədək uzanan bütün Xorasanın mahallarını zəbt etsinlər. Sözügedən şəxs əlahəzrət [Abbasın] hüzuruna çıxmaq və [Əliqulu] xan cənabları ilə görüşmək səadətinə feyzyab olub, bu mətləbi ərz etdi. Mürşüdqulu xanın ixtiyar və iqtidar sahibi olmasını gözləri götürməyən bəzi şamlu ağsaqqalları bu fikrə qarşı zidd mövqedə durub, onunla mübahisə etməyə girişdilər. Onun sözü bu oldu:

- Hələ [Abbasın] səltənət qəsrinin təməli möhkəmlənmədiyi üçün Mürşüdqulu xan vaxtın məsləhətinə əsasən, dövlətsevərlik və qəlblərin rahat olması üzündən ittihad və vəhdət mövqeyi tutubdur. O, məhz Əliqulu xan cənablarının himayəsi ilə bu işlərə cürət edibdir. O, öz səyi ilə ələ keçirilmiş məmləkətin bəzi məsələlərini öz rəyi ilə həll edib və etməkdədir. Lakin məmləkət işlərinin nizama salınmasından arxayın olduqdan sonra o, itaət və tabeçilikdən savayı bir iş görməyəcəkdir.

Xülasə, şamlularla ustaclular arasında bu mövzuda söz-söhbət uzandı. Araqarışdıranlar isə ortalıqda fəsad salırdılar. Mürşüdqulu xan bu xəbərləri eşitdikdən sonra Əliqulu xanın və şamlu tayfasının könlünü almaq üçün Herat səmtinə yollanmaq meyilinə düşüb, çox fikirləşmədən və çəkinmədən Herata gedərək, əşrəfin ayağını öpmək şərəfinə nail oldu. [Əliqulu] xan cənabları onu mehribancasına qarşılayıb, dostyana iltifatlar göstərdi. Hərçənd şamlu tayfası onun məhv edilməsinə və ortadan qaldırılmasına çalışıb, onu aradan götürmək barədə Əliqulu xanı təhrik etsələr də, [Əliqulu] xan cənabları razı olmadı və Heratda ona xətər vurulmasını qonaqpərvərliyə zidd gələn və doğru yoldan uzaq olan bir əməl hesab edib, özünü o cür bədnamlığa bulaşdırmadı.

Amma Mürşüdqulu xan heç bir günahdan xali olmayan bəzi sözgəzdirənlərin dedi-qodusu ucbatından şamlu əyanlarından xoflanmağa başladı. Bir gün o, hamama getmişdi. Birdən, əlində sıyırılmış qılınc tutan bir şəxs hamama girib, Mürşüdqulu xana oxşayan dəlləklərdən birini qətlə yetirdi və çıxıb getdi. Mürşüdqulu xanın adamları zənn etdilər ki, həmin şəxs xanı qətlə yetirmək məqsədi ilə gəlmiş və o dəlləyi yanlışlıqla öldürmüşdür. Onlar səbirsizliklə hamama girib, xanı bədgüman etdilər və onun canını bürümüş xof və qorxu daha da artdı. O, ixtiyarsız şəkildə böyük bir iztirabla oradan çıxıb, qaldığı evə getdi. Bu xəbər Əliqulu xana çatdıqda Mürşüdqulu xanın könlünü arxayın etmək üçün onun evinə gedib, vaxtın məsləhətinə uyğun olan bəzi dostcasına sözlər söylədi və dəlləyin öldürülməsini belə izah etdi ki, ola bilsin, o dəlləyin bir düşməni var imiş və fürsət tapıb, onu qətlə yetirmişdir.

Amma şamlu tayfasının gizli niyyəti Mürşüdqulu xana aydın oldu. Onun onlara bəslədiyi etimad zay oldu. O, daha Heratda qalmağı məsləhət bilməyib köç edərək, müqəddəs Məşhədin yolunu tutdu və fəlakətlər dənizində qərq olan zaman özlərini var qüvvə ilə nicat sahilinə çatdırmağa səy göstərənlər kimi, hərəkət

etməkdə tələsərək, özünü müqəddəs və ulu Məşhədə yetirdi. Onun qardaşı İbrahim xan Heratda idi. Əliqulu xan onun bu kobudcasına gedişindən narazı qalıb, incikliyini izhar edərək, İbrahim xana qarşı iltifatsızlıq göstərməyə başladı. Aranı qatmağa səy göstərənlər fürsət tapıb, fəsad qapılarını açdılar və Əliqulu xanla Mürşüdqulu xan arasında bir-birlərinə qarşı qorxu-hürkü yer tapdı. Hər iki tərəf bir-birinə qarşı etimadsız oldu. İbrahim xan da şamluların ona qarşı qəsd edəcəklərindən qorxub, fərar yolu ilə Heratdan müqəddəs Məşhədə getdi. Bu hadisə tərəflər arasındakı qorxu-hürkünün artmasına səbəb oldu. Doğrudur, tərətlərin bir-birlərinə elçilər göndərməsi baş tutsa da, lakin günbəgün tərəflər arasında ziddiyyət və kin-küdurət artmaqda idi.

Nəhayət, şamlu ağsaqqalları Əliqulu xanı təşviq etdilər ki, [Mürşüdqulu xanı] tənbeh etsin və cəzalandırsın. O, bir dəstə fəsadçının təhriki ilə Xorasanın işlərini intizama salmaq adı altında əlahəzrət [Abbasın] dünyanı fəth edən məiyyətində darüssəltənə Heratdan çıxdı. Onun xatirində qərar tutmuşdu ki, Xorasanın bütün işlərini öz əlinə keçirsin və Mürşüdqulu xanın mənsubları arasından məsləhət bilmədiyi kəsləri aradan qaldırıb, onların yerinə öz adamlarını təyin etsin. Mürşüdqulu xanın fikrincə, bu fitnənin hərəkətvericisi Əliqulu xanın vəziri Xoca Əfzəl idi.

Əliqulu xana çatdırmışdılar ki, Qain hakimi olan Fulad[1029] sultanın qardaşı oğlu Sultanəli xəlifə gizli surətdə Mürşüdqulu xanla dostluq və müttəfiqlik edir. Buna görə də Əliqulu xan Qain tərəfə yollanıb, onu həbsə aldı, onun mallarını və əşyalarını müsadirə edib, Türşiz vilayətinə getdi və istər Mürşüdqulu xanın mənsubları olsun, istərsə də qeyriləri olsun, Xorasanın bütün əmirlərinin hüzuruna qorçular vasitəsilə itaət etmək barədə hökmlər göndərib bildirdi ki, özünü əlahəzrət [Abbasın] tərəfdan və ardıcılı sayan və onun lələsi olan bəylərbəyi [Əliqulu xana] tabeçilik göstərən hər bir kəs müzəffər əsgərlərə qoşulub, [Abbasın] şahlıq bayraqları altında hazır olsun.

Bu məsələdən xəbər tutan Mürşüdqulu xan da öz tərəfdarlarını çağırmaqdan ötrü adamlar göndərib, müqəddəs və ulu Məşhəddən çıxdı. Sözlərinə etimad olan etibarlı adamların dediklərindən belə məlum olur ki, Mürşüdqulu xan heç bir vəchlə döyüşmək düşüncəsinə və münaqişə fikrinə malik deyildi və istəyirdi ki, dövlətməndlərin səyi ilə iş barışıqla nəticələnsin, hər iki tərəfin şübhələri aradan qaldırılsın, bir-birləri ilə görüşsünlər, əvvəlki təki [Abbasın] səadətli məiyyətində durub, haraya məsləhət bilərlərsə, oraya yürüş etsinlər. Lakin tərəflərdən heç birinin ağsaqqalları onun bu fikrinə şərik deyildilər. Mürşüdqulu xan hərçənd adam göndərib, danışıqlar aparmaq üçün Xoca Əfzəli və bir-iki şamlu ağsaqqalını çağırsa da, onlar [bu təklifi] qəbul etmədilər. Xoca Əfzəl getməyə cürət etmədi və bu fəsadın islah olunmasına rəğbət göstərmədi. Çünki o, Mürşüdqulu xana xətər yetirilməsi üçün səy göstərən şəxslərlə açıq-aşkar həmrəy idi. Nə isə, bu iki qoşun

[1029] S-129, v.255b-də Fulad əvəzinə Polad yazılmışdır.

bir-birlərinə yaxınlaşıb, Turşizin Susfənd kəndinin yanında bir-birinin bərabərində mövqe tutdular, alaçıq və çadırlarını qurdular və bir-birlərinə elçilər, məktublar və ismarışlar göndərdilər.

Bir gün Mürşüdqulu xanın qohumlarından olan və hazır olmaq barədə hökm almış İbrahim sultan Şərəflü orduya gəlib çatdı. O gördü ki, Mürşüdqulu xanın və ustaclu əmirlərinin ordusu əlahiddə yerləşibdir və oymaq təəssübkeşliyi cəhətindən o, öz təbili, ələmi və tərtibə salınmış süvari dəstəsi ilə Mürşüdqulu xanın ordusuna getdi. [Mürşüdqulu xan] onu qarşılamaq üçün bir dəstə göndərdi. Silahlı süvarilərin və təbil səslərinin müşahidəsi nəticəsində şamlu ordusunda xəbər yayıldı ki, Mürşüdqulu xan tərtibə salınmış qoşunu ilə silahlanıb, vuruşa və döyüşə hazırlaşır və savaş təbillərini vurdurur. İşlərin bu cür cərəyan etdiyini görən Əliqulu xan da ehtiyat tədbirlərinə əl ataraq, bu tərəfdən atlandı və öz ordusunun mərkəzini, sağ və sol cinahlarını tərtib edib, savaşa hazır oldu.

***Əliqulu xanla Mürşüdqulu xan arasında qəflətən döyüşün baş verməsi.*** Bu xəbər Mürşüdqulu xanın ordusuna çatdı. O da zərurət üzündən «tip» (səf) bağlayıb, döyüşə hazırlaşmaqla məşğul oldu. Bu vaxt, Əliqulu xanın həbs edərək bir neçə gün məhbus saxladığı və daha sonra təqsirindən keçib azadlığa buraxdığı Sultanəli xəlifə Əliqulu xanın rəftarından incidiyi üçün döyüşün başlanğıcında ordunun səfini viran qoyub, öz adamları ilə birlikdə Mürşüdqulu xana qoşuldu. Bu hadisə şamlu ordusunun arasında sarsıntı yaranmasına səbəb oldu və ustaclu tayfasını cəsarətləndirdi.

Xülasə, hər iki tərəfin mübarizləri qılınca və nizəyə əl atdılar və tozanağın çoxluğundan havanın üzü tutuldu. Əliqulu xanın gözü bir dəstəyə sataşdı və o, Mürşüdqulu xanın da o dəstənin arasında olduğunu təsəvvür etdi. O, tədbirlilik və ehtiyatlılıq yolundan xəbərsiz bir şəkildə özü şəxsən döyüşə atıldı və o döyüşdə onun özü ilə yanaşı at çapan bir sıra şamlu igidləri ilə birlikdə o dəstənin üzərinə həmlə edib, onları pərən-pərən saldı. O, həmin dəstəni təqib edən vaxt öz tabeçilərindən ibarət müəyyən saylı bir dəstə ilə birlikdə digər tərəfdə olan Mürşüdqulu xanın gözü [Abbasın] padşahlıq bayraqlarına düşdü. Sözügedən şəxs (Mürşüdqulu xan) səy göstərdi ki, məhdud sayda adamla mərkəzdə qərar tutmuş xilafət və hökmranlığın o misilsiz dürrünü (Abbası) öz tərəfinə keçirsin. Bu məqsədlə o, həmin tərəfə bir dəstə göndərdi. Onlar şamlu xanlarının qoşunu içində [Abbasın] səadətli məiyyətini tapıb, fürsəti qənimət bilərək, müzəffər bayraqların kölgəsi altında dayanmış azsaylı dəstəyə həmlə etdilər. Həmin camaat bu həmləyə tab gətirməyib, təlaşa qapıldılar və pərən-pərən düşdülər. Mürşüdqulu xanın tabeçilərindən olan və mötəbər əmirlərdən sayılan Əbu-Müslüm xan Çavuşlu əlahəzrət [Abbasa] çatıb, o dövlət və iqbal taxtının bəzəyinin fələyə bənzər boz yüyənini təqdir sahibinin minlərlə yetkin hikməti özündə əks etdirən fərmanı ilə ələ keçirdi.

***Əliqulu xanın məğlub olması.*** Qəzavü-qədərin icraçıları səadət saçan o müjdəni [ustaclu] tayfasına verdilər. Şərəfli [Abbasın] bəyənilmiş xüsusiyyətlərə

malik zatını şəfqətli Allahın amanı altında Mürşüdqulu xanın ordusuna gətirdilər. Şamlu tayfası açıq-aşkar məğlubiyyətə uğradı. Vəzir Xoca Əfzəl o tayfadan olan dörd yüz-beş yüz nəfər adamla birlikdə əsir düşdü. Onların malları və əşyaları qarət və tarac olundu[1030]. Əliqulu xan qovduğu dəstənin təqibindən geri qayıdan zaman öz ordusunun «qol» (mərkəz) qoşunundan və əlahəzrət [Abbasın] fələyi bürüyən çətirinin əlamətindən heç bir nişan görmədi. O, vəziyyətdən xəbər tutub, heyrət və təəccüb barmağını dişləyərək, düşdüyü qəflətə görə gözündən peşmançılıq yaşları axıtmağa başladı və son dərəcə məyusluq və nakamlıqla yüyənini döyüş meydanından döndərib, öz səadətinin sərmayəsini əldən verdiyi üçün ah-naləyə qərq olmuş, böyük bir yanılma və ümidsizliyə düçar qalmış, xəcalətli və mat-məəttəl bir vəziyyətdə Heratın yolunu tutdu.

Mürşüdqulu xan əbədi səadətə qovuşdu və ilahi dərgahda ona kəramət olunmuş bu böyük hədiyyə səbəbindən onun şadyanalıq külahı asimanın üst qatına dəyməyə başladı. O, əlahəzrət [Abbasa] qiymətli bir dürr kimi öz canının dürsədəfində yer verdi və gəldiyi yolla müqəddəs və ulu Məşhədə qayıtdı. Bu əhvalatın baş verməsi öz tifilliyinin əvvəllərindən şamlu tayfası arasında böyümüş, Əliqulu xandan və onun adamlarından həmdəmlik və ülfət görmüş əla-həzrət [Abbasın] şərəfli xatirinə xoş gəlmədi. Amma iqbal ilhamının dəlaləti ilə qəm-qüssənin təsirlərini öz mübarək alnından silib, cinlərin və insanların imamı, «vilayət» və imamət taxtının sultanı olan Əbül-Həsən Əli ibn Musa ər-Rzanın - ona Allahın salamı olsun - ziyarəti şərəfinə nail olmaq və o müqəddəs rövzəyə gecə-gündüz xidmət etmək səadətini qazanmaqla öz möhtərəm xatirinə rahatlıq bəxş edərək, bu böyük töhfədən şad-xürrəm oldu.

Mürşüdqulu xan, həqiqətən də, şamlu tayfası ilə insancasına davranıb, araqarışdıranların tənbeh olunmasından sonra əsirlərin azad edilməsinə dair hökm verərək, hamısını əzizlədi və ehtiram göstərdi. O hökm etdi ki, [əsirlərdən] hansısa biri [ustaclu] qoşununun ələ keçirdiyi qənimətlər arasında özünün atını, dəvəsini və yarağını tanıyarsa, həmin mallar dərhal ona təslim edilsin. Mürşüdqulu xan, həmçinin onların Herata getmək və ya ali səadətə malik [Abbasın] üzəngisinin həndəvərində qalmaq məsələsində seçim etməkdə ixtiyar sahibi olduqlarını bildirdi və o vaxtadək Əliqulu xanın vəziri olan Xoca Əfzəl əlahəzrət [Abbasın] vəziri vəzifəsinə ucaldıldı. Şamlu camaatından kimlər ki qalmağı qərara aldılar, onlar əlahəzrət [Abbasın] xidmətində durmağa təyin olunaraq, onun şərəfli üzəngisinin qorçuları, yüzbaşıları və mülazimləri silkinə mənsub oldular. Mürşüdqulu xan Əliqulu xana əvvəlki itaətkar ruhda bir məhəbbətamiz məktub yazıb, ona dostcasına giley-güzar etdi və sözügedən hadisələrin məsuliyyətini qəzavü-qədər zərurətinin və asimandan gələn alın yazısının üzərinə qoydu.

Amma vəzir Xoca Əfzəl və şamlu ağaları könüllərini Heratdan üzə bilməyərək, ustaclu tayfası arasında rahatlıq tapa bilmədilər. Bir neçə gündən sonra

---

[1030] S-129, v.256b; S-297, v.199b.

onlar dəstə-dəstə fərar edib, Herata getdilər və «xasseyi-şərifə»nin cilovdarı olan və həmin döyüş günündə ali məiyyətdən ayrılmayan Hüseyn bəy Əbdüllüdən və döyüş meydanından qaçış zamanı Əliqulu xanın dəstəsindən geridə qalıb, şərəfli [Abbasın] mülazimi olmaq məqsədinə çatmaq üçün özünü müqəddəs Məşhədə yetirən Şahəli bəy Kəramətlünün oğlu Əli bəydən savayı, şamlu tayfasından heç kəs müqəddəs və ulu Məşhəddə [Abbasın] ali məiyyətində qalmadı. Mürşüdqulu xan əlahəzrət [Abbasın] səltənət və padşahlıq işlərini qaydaya salıb, o həzrətin adından mənsəb sahiblərini təyin etdi və təkbaşına surətdə vəkillik və lələlik kürsüsünə oturdu. Cəmi Xorasan əhli ona üz tutaraq, təbrik və mübarəkbaşlıq etdilər. O, Xorasan məmləkətində əvvəlkindən daha artıq iqtidar və istiqlal əldə etdi.

## AZƏRBAYCAN HADİSƏLƏRİ, RUM SƏRDARI OSMAN PAŞANIN TƏBRİZ ÜZƏRİNƏ QOŞUN ÇƏKƏRƏK, O CƏNNƏT NİŞANƏLİ GÖZƏL ŞƏHƏRİ İŞĞAL ETMƏSİ VƏ DÖVRANIN ZƏRURƏTİ ÜZÜNDƏN, DÜNYA SAKİNLƏRİNİN PƏRVƏRDİGARI [OLAN ALLAHIN] TƏQDİRİ İLƏ O GÖZƏL ŞƏHƏRDƏ BAŞ VERMİŞ DAĞINTILAR HAQQINDA

Bundan öncə Azərbaycan hadisələrinin içində bəyan səhifəsi üzərinə ənbər qoxulu qələmlə yazıldığı kimi, Şirvanın Dərbəndində olan Osman paşa bütün Şirvan və Gürcüstan məmləkətini istila və zəbt etdiyini və Dərbənd qalasından savayı heç bir yerin [Osmanlıların] ixtiyarı altında olmaması barədə Sinan paşanın dediklərinin yanlış olduğunu xondgarın hüzuruna çatdırmışdı. Bu məsələ Fərhad paşanın sərdar təyin edilib, Azərbaycan üzərinə gəlməsinə səbəb olmuşdu və necə ki [yuxarıda] qeyd olunmuşdur, calal bayraqları Xorasanda olan zaman o, İrəvanı istila edərək, orada qala tikdirmişdi. Osman paşa isə tamam Şirvan və Şəki vilayətini zəbt edib, öz etimadlı adamlarına tapşırdı, özü İstanbula yollanaraq, xondgarın hüzurunda bütün Azərbaycanı, bəlkə, həm də İraqı ələ keçirmək barədə öhdəlik götürüb, vəzirlik və sərdarlıq rütbəsinə yiyələndi və Azərbaycanı işğal etmək əzmi ilə saysız-hesabsız qoşunla Ərzuruma yollandı.

Piçi ilinin qışı sona çatdı və 993-cü (1585) ilə müvafiq gələn türklərin toxaquy ilinin kef saçan Novruzunun əlamətləri, Xotay türkləri kimi, vəfa sahiblərinin könüllərini yağmalamaq qəsdi ilə tamam bər-bəzəklə cilvələnib, ortaya çıxdı və yeni açılıb sevinc yayan reyhanlar bahar məclisinin yaraşığına çevrildilər. Bu zaman Nəvvabi-Cahanbani bahar əyyamının və cavanlıq dövrünün zərurətinin təsiri altında reyhani şərabı qurtumlamaqla və eyş-işrət etməklə məşğul olub, gül üzlülərdən və lalə yanaqlılardan kam alır, baharın nəşə bəxş edən günlərini Təbrizin işrət məkanında şadyanalıq və rahatlıq içərisində keçirir və Əliqulu xan Fəthoğlu tərəfindən İsfahandan gətizdirilmiş olan və həqiqətən də, atəş saçan çöhrəsi dəmirçi kürəsi kimi par-par parlayan Şeytan adlı bir dəmirçi oğlanla sevgi və eşq macərasına başlayıb, onun vüsal bağından murad almağın güllərini yığırdı.

Şahqulu bəy Qürəba[1031] oğlu Rumlu o [Şeytan adlı oğlanın] barəsində bu türkcə beyti yaxşı demişdir:

**Beyt**

«Könlüm quşun ol nərgizi-fəttan apara,
Kimdür ki, onun qəmzəsindən can apara?!
Şeytan, şeytan dedikləri əgər bu olsa,
Mən razıyam imanımı şeytan apara».

İncə [şeir] deyənlərdən bir digəri demişdir:

**Rübai**

«Gül üzünü görcək aşiq şipşirin candan keçər,
Kirpiyin oxtək uçub, sineyi-büryandan keçər.
Zövqü-şövqündən sənin, ey Xaliqin xəlq etdiyi,
Yoxdur heç bir şübhə ki, həqq cürmi-şeytandan keçər».

O günlərin hadisələrindən biri də budur ki, Şirvanda qələbə nişanəli əsgərlər tərəfindən əsir tutulan və Ələmut qalasında məhbus olan tatar padşahzadəsi Qazi Gəray xan şairlik peşəsinə malik xoşsima bir cavan idi və bacarığının, istedadının çoxluğu ilə tanınmışdı. O, təşəkkür və mədh üslubunda türkcə bir qəzəl yazıb, Nəvvabi-Cahanbaninin hüzuruna göndərmişdi. Həmin qəzəlin ilk beytləri bunlardır:

«Nəmiz bar, bir gədayuz, bir nəmd, bir buriyamız bar,
Dəxi sultana layiq bir duayi-bi-riyamız bar.
Əgərçi padişahın eyni birgə eyni-izzətdür,
Vəli sultanımın dərgahına səbük ricamız bar».

Nəvvabi-cahanbani onun söhbətinə rəğbət göstərərək, onu qaladan çıxartdırdı. O, [Həmzə mirzənin] ali hüzurunda əziz və möhtərəm bir şəxsə çevrildi və əksər vaxtlarda xüsusi məclislərdə [Həmzə mirzəyə] yaxın yoldaş və həmdəm oldu. Bu məsələ Əliqulu xan Fəthoğlunun və izzətli büsatın müqərrəblərinin könüllərində həsəd və ikrah doğurdu. Sözügedən şəxs (Qazi Gəray xan) onların davranışındakı bu mənanı hiss etdi və onun ürəyini qorxu bürüdü. Bir gecə o, darüssəltənə Təbrizdən fərar etməyə qərar verib, özünü Ərzuruma yetirdi və Osman paşanın ordusuna daxil oldu[1032].

[1031] S-129, v.257b. Tehran çapında (s.306) Ərəba yazılmışdır.
[1032] S-129, v.258a.

Sözün qısası, bahar günləri və çiçək açılması müddəti sona çatdı, havalar istiləşməyə doğru üz qoydu və dağlar, düzlər laləgülü bitkiləri ilə zinətləndi və bəzəndi. Hökmdarın məiyyəti Əşkənbər və Kələnbər yaylaqlarına yollanıb, oradan Bazarcahiyə[1033] təşrif apardı və üç ay yaylaqlarda qaldı. İşrət və şadyanalıq qapıları şahın və ordunun amalı və amanlığı üzünə açıldı. Çuxursəəd vilayəti üzərindəki hakimiyyətini itirən və o hüdudda avara-sərgərdan dolaşan Məhəmmədi xan Toxmaq öz qoşunu ilə birlikdə Sağəri-bulağı adlı yerdə fələk şövkətli orduya qatıldı.

Bu əsnada Osman paşanın gəlişi xəbəri yayılıb, könüllərdə pərişanlıq yaratdı. «Məmləkəti-məhrusə»nin əmirlərinin və əsgərlərinin hüzuruna itaət edilməsi vacib olan hökmlər yazılaraq, sürətdə Bəhrama tay olan qorçular vasitəsilə göndərildi ki, İraqdan, Farsdan və Kirmandan bütün qələbə nişanlı qızılbaş əsgərləri qeyrət və mərdlik üzündən ali taxtın ətəklərinə yollanıb, fələk şövkətli orduya birləşsinlər. Nəvvabi-Cahanbaninin fikri-zikri o idi ki, həddi-buluğa çatma dövrü hakimiyyət və hökmranlığın başlanğıcı olduğu üçün o, qızılbaşların öz sədaqəti ilə seçilən tayfalarını və müzəffər əsgərlərini din təəssübkeşliyi və məzhəb qeyrəti ilə toplasın və qarşıdakı illərdə onlar o həzrətin üzəngisinin yanında dayanıb, düşmən ordusunun əleyhinə mərdliklə vuruşsunlar. Buna görə də onun tərəfindən Məhəmməd xanın, Vəli xanın, Müseyib xanın və bütün təkəlü və türkman tayfalarının əmirlərinin adlarına bu məzmunda rəğbətli fərmanlar və cəlbedici məktublar yazıldı: «Qızılbaş tayfaları bu vilayət nişanəli [Səfəvi] sülaləsinin sufiləri və ardıcıllarıdırlar və onlar öz vəlinemətləri yolunda canlarını təhlükəyə atmağı sədaqət mərtəbələrinin ən aşağı pilləsi hesab edirlər. Əmir xan sədaqət yolundan sapmışdı və əşrəfin xatirinin qeyzlənməsinə səbəb olan bir neçə işlər törətmişdi. Buna görə də o, öz cəzasına çatdı. Lakin başqa heç kəsin bu məsələyə dəxli yoxdur və xatirimizin lövhəsində digər türkman əmirlərindən və qazilərindən heç bir narazılıq mövcud deyildir. Belə ki, o tayfanın böyüklərindən olan Ədhəm xan Türkman o həzrətin (şahın) mülazimliyində əziz və möhtərəm bir şəxsdir və [şahın] şəfqətli nəzərləri onun üzərindədir. Siz pozğun xəyalları beyninizdən çıxarın və özünüzü vəlvələyə salmayın. Axı sizin bu davranışlarınız ata-babalarınızdan sizə irsən miras qalmış iradə və sədaqət məramı ilə ziddiyyət təşkil edir və məhz bu səbəbdəndir ki, düşmənlər İran mülkünü işğal etmək və qızılbaş tayfalarını aradan qaldırmaq üçün kəmər bağlayaraq, hal-hazırda qızılbaşların yüzillik gorxanası olan və İran sultanlarının taxtgahı olmuş şöhrətli Təbriz şəhəri üzərinə irəliləyirlər. Uzaqgörən ağlın zərurətinə əməl edib, bu işlərin nəticəsini götür-qoy edin və iradə, ixlas, dövlətsevərlik və sədaqət üzündən birləşərək, hazırlıqlı qoşunlarla səltənətin qərar tutduğu taxtın ətəyinə yollanın. Nəslinizin yüzillik iradə və sədaqət ətəklərini üsyankarlıq çirkabına bulaşdırmayın və möhtəşəm üzəngimizin ətrafında mərdliklə döyüş meydanına atılaraq,

[1033] Bazarcahi - əslində Bazarçay olmalıdır. Bazarçay Zəngəzur mahalında yerləşən yaylaq adıdır (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.219).

düşmənlərin dəf etmək məqsədi uğrunda səy göstərin. Yad düşmənin dəf edilməsindən sonra hər nə xahişiniz olarsa, ərz edərsiniz ki, mətləblərinizin yerinə yetirilməsinə çalışaq. Çünki aydındır ki, əgər Təbriz şəhəri və onun vilayəti qızılbaşların əlindən çıxsa və İran məmləkətlərinin əsası və qoşun mənbəyi olan Azərbaycan məmləkəti düşmənlərin ixtiyarına keçsə, onda bu [Səfəvi] dövlətinə büsbütün nöqsan yol tapacaq və bu fitnə digər məmləkətlərimizə də sirayət edəcək. Belə olan təqdirdə məlumdur ki, qızılbaşların halı nə ilə nəticələnəcək».

Haqqında bəhs etdiyimiz cəlbedici hökmlərin qorçular vasitəsilə göndərilməsindən sonra ordu Osman paşanın Qarabağa yürüş edəcəyindən ehtiyatlanaraq, bir ay o həndəvərdə qalıb, bir aydan sonra isə Təbriz səmtinə yollandı. Orduda olan böyük əmirlər behişt bəzəkli məclisdə cəmləşib, Təbrizin mühafizəsi və qüvvətli rəqibin dəf edilməsi barədə «kəngaş» yığıncağı qurdular. Dövranın vəziyyətindən məlumatlı olan bir sıra aqillər və tədbir sahibləri təklif etdilər ki, cənnətməkan şahın zamanındakı üsulla Təbriz şəhəri və düşmənin yolunun üstü boşaldılsın, rəiyyət və şəhərin əhalisi yaxşı möhkəmləndirilmiş bir mahal olan Qaracadağa göndərilsin, şəhərdə azuqə qalmasın, türkman və təkəlü tayfalarının gəlişinədək döyüş təxirə salınsın, düşmən ordusuna heç tərəfdən azuqə gedə bilməməsi və düşmən ordusundan heç kəsin azuqə əldə etmək üçün çıxa bilməməsi üçün yollar zəbt olunsun və nəhayət, [qızılbaş] qoşunları cəmləşdikdən sonra harada məsləhət olarsa, döyüş və vuruş baş versin.

Lakin cahillərdən və qürur badəsinin sərxoşlarından bəziləri bu doğru rəyi xəta hesab edib, belə məsləhət gördülər:

- Təbriz şəhərində yüz min kişi vardır ki, bunun da heç olmasa yarısı işə yarayan cəld cavanlardırlar. Qoy onlar öz arvad-uşaqlarının və mallarının keşiyini çəkib vuruşsunlar və şəhərdə küçəbəndlər (barrikadalar) qursunlar. Əmr olunmalıdır ki, təbrizlilər küçəbəndlərin başında dayanıb, müdafiə ilə məşğul olsunlar və düşmənin şəhərə daxil olmaq yolunu bağlasınlar. Beləliklə, [şəhərin] içərisindən Təbriz əhli, bayırdan isə qızılbaşlar döyüşə girib, [Osmanlıların] dəf olunmasını yerinə yetirsinlər.

Əksəriyyət bu rəyi bəyəndi. Nəvvabi-Cahanbaniyə xoş gəlməyə çalışan təbrizli divanələrdən bəziləri boş-boş sözlər danışdılar və qoymadılar ki, Təbriz boşaldılsın. Beləliklə, hamı bu yanlış rəyi doğru bilib, Təbriz əhalisinin qalmasına razılıq verdi. Təbrizin əyanlarına və əsilzadələrinə əşrəfin hökmü yazıldı: «Düşməni dəf etmək işində mərdanə olun! Öz evlərinizi, ailələrinizi, canlarınızı və mallarınızı onların şərindən qoruyun! Sizin ailələrinizin və köçlərinizin [şəhərdən] bayıra çıxarılması qarmaqarışıqlığa səbəb ola bilər. Buna görə də heç kim ailəsini və köçünü [şəhərdən] bayıra çıxarmasın! Biz də öz növbəmizdə bu tərəfdən tərtibə salınmış qoşunlarla düşmənə qarşı müharibəyə kəmər bağlamışıq və düşmənlərin sizə zərər vurmalarına imkan verməyəcəyik».

Böyük əmirlərdən bir-iki nəfər, xüsusən də Pirqeyb xan Ustaclu öz qoşunu və ləşkəri ilə birlikdə şəhərə göndərildi ki, Əliqulu xanın qardaşı olan və Əliqulu

xanın öz əvəzinə şəhərin hakimi və məmləkətin harisi təyin etdiyi Hüseynqulu sultanla ittifaqda yolların üstündə küçəbəndlər qurub, istehkamlar düzəltsinlər, şəhər camaatını küçəbəndlərin mühafizəsinə və düşmən hücumunun dəf olunmasına rəğbətləndirsinlər, heç bir kəsin öz ailəsini və köçünü [şəhərdən] bayıra çıxarmasına imkan verməsinlər və əgər belə bir hal baş verərsə, həmin ailənin başçısını cəzalandıraraq, onun mallarını və əşyalarını qarət və taraca məruz qoysunlar.

[Yuxarıda] yazılmış məzmuna malik ali hökm Təbrizə çatdıqda o çoxsaylı [Osmanlı] ordusunun gəlişi ucbatından ürəklərə yol tapmış üzgünlük və pərişanlıq bir qədər sakitləşməyə doğru üz qoydu. Təbrizlilər sədaqət və ixlas üzündən bu işə razılıq verib, bu böyük hadisəyə hazırlaşmağa başladılar və küçəbəndlər qurmağa girişdilər. Məhəllələr bölüşdürüldü, hər məhəllənin hər bir giriş yolunun qorunmasına rəhbərlik etməyi o məhəllənin pəhləvanlarından birinə tapşırdılar və hər küçəbəndin üstünə qızılbaşlardan bir mötəbər şəxsi işə yarayan bir dəstə adamla birlikdə təyin etdilər. Amma bəla selinin yolunun üstünü və inad atəşinin ziyanının qarşısını çör-çöplə almağın faydası olmadı. Əzəli (Allahın) iradəsində o şərəfli şəhərin xarab olunması, Təbriz əhalisinin asayişinin pozulması və onların pərişanlığa, təfriqəyə və pərakəndəliyə məruz qalması qərar tutduğundan onların səylərinin və çalışmalarının heç bir nəticəsi olmadı.

**Beyt**

«Nəyi ki, qəzavü-qədər qələmi yazıbdır,
Heç kəs onu dəyişməyə çalışmasın.
Cahanı yaradan [Allahın] təqdirindən,
O nəciblərin əhvalı bərbad oldu.
Buna görə də onların səy və tədbirlərinin,
Heç bir faydası və səmərəsi olmadı».

Bu məqamda münasib olardı ki, Təbrizin və təbrizlilərin əhvalının bir qismini incə yazan qələmlə qeydə alıb, daha sonra mətləbə keçək. Dünyanın gəliş-gedişindən xəbərdar olanların qəlblərinə gizli deyildir ki, gözəl Təbriz şəhəri uzun müddət ərzində İranın paytaxtı və hökmü keçən padşahların səltənət mərkəzi olmuşdur. Zəmanə sultanları, vəzirlər və hakimlər tərəfindən o şəhərdə məscidlərdən, mədrəsələrdən, xeyriyyə mərkəzlərindən («bəqa əl-xeyr») ibarət ali imarətlər tərtib olunmuş və bunlara xoşagələn tarlalar və taxıl anbarları vəqf edilmiş, ürək oxşayan bağlar və bostanlar yaradılmışdı. Bunların sayı o qədər çoxdur ki, dili qırılmış qələm bunların heç cüzi bir hissəsini də qeyd edə bilməz. Təbriz camaatı mənzil və məskənlərin tikilməsində və onların zinətləndirilməsində, mənzillərin avadanlıqlar və bər-bəzəklə doldurulmasında o qədər ifrata varır ki, ən aşağı səviyyəli bir bazar adamının evi bir əmirin qalması üçün layiqdir.

Cənnətməkan və behiştməskən şahın uğurlu zamanında bir-iki dəfə Rum padşahı Sultan Süleyman o mülkün işğalı arzusu ilə gəlmiş və fitri şiəliyə malik olan və müqəddəs nişanəli Səfəvi xanədanına meyil göstərən Təbriz camaatı bu dövlətin yolunda layiqli xidmətlər nümayiş etdirmişdi. Bu səbəbdən də cənnətməkan şahın o şəhərin əhalisinə tamam hüsn-rəğbəti və iltifatı vardı və həmin gözəl şəhərin sakinlərinin əksəriyyəti tacirlər, peşə əhli və sənətkarlar olduqları üçün o, «mali-möhtərifə»ni onlara bağışlamış, şəhəri divan mükəlləfiyyətlərindən azad etmiş və o camaatın könlünü almaqdan ötrü qəti surətdə buyurmuşdu ki, daruğalar məhkəmə işlərini qazı-ehdasın[1034] hüzurunda şəriət qaydasına uyğun tərzdə sorğulayıb, günahkarlara qarşı şəriət hökmünü icra etsinlər və heç kimdən cərimə tutmasınlar.

Neçə illər ərzində o şəhərin əhalisi rahatlıqla yaşayıb, öz imarətlərini qurmağa, evlərini avadanlıq və bər-bəzəklə doldurmağa və qadınlarını zinətlər və zivərlərlə təmin etməyə necə lazımdırsa çalışdılar. Ümumiyyətlə, o şəhərin firavanlığı, abadlığı, sakinlərinin çoxluğu və əhalisinin izdihamı o yerə çatmışdı ki, bütün islam şəhərləri arasında o cür əzəmətə, o qədər əhaliyə və o sayaq abadlığa malik başqa bir şəhər nişan vermirdilər. Lakin axırda [Təbrizə] dövranın bəd nəzəri dəydi və o firavanlığa xarabalıq yol tapdı. Oranın adamları soyğuna, qətlə və qarətə məruz qaldılar. Qılıncdan qurtulanlar yüz həsrət və rəzillik içində vətənlərindən ayrı düşdülər. Oranın əyan-əşrəfləri və [sadə] əhalisi möcüzə bəyan edən «hökmdarlar girdikləri şəhəri xaraba qoyarlar, oranın nüfuzlu adamlarını alçaldarlar» ayəsinə[1035] uyğun olaraq, izzət zirvəsindən zillət və xarlıq çökəkliyinə düşdülər.

Elə ki Fərhad paşanın Təbriz səmtinə gəlməsi xəbəri təsdiqləndi, şahın və adlı-sanlı şahzadənin qızılbaş tayfalarına, xüsusən də təkəlü və türkman tayfalarına hər nə qədər məsləhətamiz hökmlər göndərərək bu hadisənin dəf olunmasında onlardan kömək istəmələrinə və vəziyyətin mahiyyəti barədə onları məlumatlandıraraq onların gəlişinin intizarını çəkmələrinə baxmayaraq, heç bir faydası olmadı və heç bir səmərə vermədi. Təkəlü və türkman tayfaları inadkarlıqda və tərslikdə israr etdilər. Bu iki tayfadan, Fars, Kirman və İraq qoşunlarından heç kim hökmdar ordusuna qoşulmadı.

İsgəndər şanlı nəvvab ordunun yükləri ilə birlikdə Üzümdül və Dizmar[1036] səmtinə yollandı. Nəvvabi-Cahanbani isə şərəfli üzənginin həndəvərində olan əmirlərdən, dövlət ərkanından, qorçulardan və «xasseyi-şərifə» mülazimlərindən ibarət azsaylı bir qoşunla Rum ordusuna qarşı müharibə etmək üçün səadətli məiyyətdən və adlı-sanlı atasının hüzurundan ayrıldı. Qorçubaşı bir dəstə qorçu ilə birlikdə İsgəndər şanlı nəvvabın xidmətində qaldı. Şahzadə cənablarının ali

---

[1034] Qazı-ehdas və ya qaziyi-ehdas - cinayət qazısıdır. Mülki və ailə-məişət məsələləri barəsində fitva verən qazılardan fərqli olaraq, qazı-ehdaslar cinayət işlərinə dair təhqiqat aparılmasında və hökm çıxarılmasında iştirak edirdilər.

[1035] «Qurani-Kərim», «Nəml» surəsi, 34-cü ayə.

[1036] Tehran çapında (s.309) Dizmar əvəzinə Zəmar getmişdir.

məiyyəti isə sayları on-on iki min nəfərdən[1037] çox olmayan iqbal əsgərləri ilə birgə Mərənd istiqamətindən Təbriz dağının ətəyini tutub, Təsuc[1038] yolundan gəlməkdə olan ölçüyəsığmaz Rum qoşununun gəlişini və keçişini müşahidə və mülahizə edərək, fürsət gözləməyə başladı.

[Həmzə mirzə] iki dəfə qoşun şücaətlilərindən və döyüşkən mübarizlərdən bir dəstəsinə əmr etdi ki, [Rum ordusunun] yaxınlığına gedib, onlarla vuruşsunlar, ancaq ehtiyatı əldən verməsinlər və əgər qələbə düşmən tərəfdə olarsa, onda özlərini dağın arxasına çəkib, [şahzadənin] ali məiyyətinə qoşulsunlar. Elə ki rumilər qızılbaş qoşununun qaraltısını müşahidə etdilər, Rum ordusu içindən çoxsaylı bir dəstə ayrılaraq, qalibiyyətli [qızılbaş] qoşunu ilə savaşmağa tələsdi. Tərəflər arasında döyüş baş verdi. Rumilər tərəfdən çox adam müzəffər qazilərin qılınclarına yem oldu. Rum ordusunun əsas hissəsinin hücuma keçməsindən sonra adlı-sanlı şahzadənin əmrinə əsasən, [qızılbaşlar] döyüşə-döyüşə özlərini kənara çəkdilər. Qızılbaşların məşhur igidlərindən neçə nəfəri bu döyüşlərdə çətin həzm olunan ölüm şərbətini içdilər[1039]. Lakin Rum qoşunu saysız-hesabsız olduğundan ali üzənginin ətrafında olan bu qədər az adamla birlikdə onlara qarşı döyüşmək və vuruşmaq mümkün deyildi. Buna görə də [qızılbaşlar] onlara həmlə edə bilmədilər və Osman paşa köçhaköçlə Təbrizin Şurab (Acısu) çayının yaxınlığınadək gəlib, orada dayandı.

Təbriz əhalisinin gözü o böyük qoşuna düşdükdə onların ürəklərinə müqayisəyəgəlməz bir xof və qorxu hakim kəsildi. Rumilər iki-üç dəfə şəhərin küçəbəndləri üzərinə hücum etdikdən sonra dövlətxananın yaxınlığınadək gəlib çıxmağa nail oldular. Bu tərəfdən [Təbriz əhalisi] onlara qarşı müdafiə olunmaqla məşğul idi. Tərəflər arasında bir qədər döyüş baş verdi. Axırda rumilər qalib gəlib, küçəbəndləri toplar və zərbzənlərlə dağıdaraq, Sahibabad meydanınadək irəlilədilər. Bununla da həm hərbçilərə, həm də rəiyyətə aydın oldu ki, bu hadisənin dəf olunması onların qüdrətinin fövqündədir. Onlar təlaşa düşdülər və bir yerə cəmləşib müdafiə olunmaq üçün özlərində qüdrət tapa bilmədilər. Hüseynqulu sultan, Pirqeyb xan və şəhərdə olan [digər] qızılbaşlar elə həmin gecə [şəhəri] tərk edib, ali məiyyətə qoşuldular.

Qızılbaşların köməyindən məhrum olub, iztirab şəbəkəsinə düşmüş təbrizlilər öz hallarının və əhlü-əyallarının qorunması üçün qazı vəzifəsini tutan Kamran bəy Əvhədini və müfti[1040] və şeyxülislam olan Mövlana Məhəmməd Əli Mövlana İnayət oğlunu Osman paşanın yanına xahiş etməyə göndərib, öz itaət və tabeçiliklərini izhar etdilər. Osman paşa əvvəlcə onları bir qədər danlayıb

---

[1037] S-297 nüsxəsində (v.202a) 10 min nəfər yazılsa da, B-589 nüsxəsi (v.24a) Tehran çapındakı (s.309) rəqəmi təsdiq edərək, qızılbaş qoşununun 10-12 min nəfər olduğunu göstərir.

[1038] Təsuc - Cənubi Azərbaycanda, Urmiya gölünün şimal sahillərində qəsəbə (Хамдаллах Казвини. Нузхат ал-кулуб, с. 43).

[1039] S-297, v.202a, B-589, v.24a.

[1040] Müfti - şəriət əsasında fitva verən yüksək vəzifəli ruhani.

məzəmmət etsə də, Təbriz əhalisinin çoxlu şücaət və döyüşkənlik göstərdiyini müşahidə etdiyindən və onlardan tamamilə çəkinib ehtiyatlandığından ağlın gücü və həmin mülkü əldə saxlamağın zərurəti əsasında hərəkət etdi, Təbriz əhalisini arxayınlaşdırdı və onlara buyurdu:

- Öz halınızda qalın! Xatirlərinizə pərişanlıq salmayın! Bundan sonra siz xondgarın qoşununun rəiyyətisiniz.

Onlar (Kamran bəy və Mövlana Məhəmməd Əli) şəhərə qayıdaraq, görüb-eşitdiklərini Təbriz əhlinə bildirdilər. Amma aqillər və dərrakə sahibləri rumilərin ürəklərində Təbriz əhlinə qarşı kin saxladıqlarını və məzhəb fərqliliyi cəhətdən onlarla yola getməyəcəklərini bilərək, öz vəziyyətlərinin qayğısına qalıb, mallarını və əşyalarını malik olduqları zirzəmilərdə, evlərdə[1041] və quyularda gizlətdilər və özləri bir-bir, iki-iki öz əhlü-əyallarının əllərini tutub, piyada və süvari şəkildə gecələr şəhəri tərk edərək, fərar vadisinə üz qoyurdular. Əgər onların yanında nağd pul vardısa, belə bir günün intizarında olan hər təbəqənin əclafları, alçaqları və iğtişaşçıları yolların üstündə onları tutaraq, çılpaq və üryan edib buraxırdılar.

Osman paşa rahatlıqla şəhərə daxil olub, Təbriz dövlətxanasını qala üçün münasib yer hesab etdi[1042]. Daha sonra o, Şurabdan köç edib, Təbrizin qiblə tərəfində olan Çərəndaba gedərək, orada düşərgə saldı və qalanın layihəsini çəkib, əsgərlərə payladı ki, onlar [qala tikmək üçün] iş görməyə başlasınlar. Rumilərin qala tikintisi ilə məşğul olduqları qırx gün ərzində Surxab dağını öz sığınacaqları etmiş olan qızılbaş qaziləri əksər vaxtlarda gecələr və gündüzlər özlərini rumilərin ordusunun ətrafına yetirib basqınlar törətsələr də, Rum əsgərlərinin çoxluğu və Rum qoşununun izdihamlı olması ucbatından bunlar bir nəticə vermədi. Rumilər qalanın [tikintisi] işi ilə məşğul olub, onu öz istədikləri kimi tamama yetirdilər və şəhərdə ələ keçirmiş olduqları bol azuqəni, öz toplarını, zərbzənlərini və qala müdafiəsi yaraqlarını qalaya daşıdılar. Axta Cəfər paşa qalanın harisi və Təbrizin hakimi təyin olundu. Qalanın tikintisi əsnasında Osman paşa Təbrizdə qətliam törətdi. Bunun zahiri səbəbi o idi ki, Təbriz əhli rumilərlə yola getmirdi və gecələr əclaflar və alçaqlar rumilərin alaçıqlarına gedib, oradan əşyalar və mallar qarət edib gətirirdilər, fürsət tapan kimi [rumilərdən] kimisə qətlə yetirirdilər və qala üzərinə gedərək, [rumilərin] gündüz tikdiklərini gecələr uçururdular. Təbrizlilərın belə işlərlə məşğul olması Osman paşaya yaxşı məlum idi.

Bir dəfə kiçik bir hamamda hamamçılar fürsət tapıb, bir rumini qətlə yetirərək, hamamın quyusuna atmışdılar. Osman paşa bu xəbəri eşitdikdə onu qəzəb şöləsi bürümüş və o, türkcə demişdi ki, «Təbriz xəlqi əcəb qırmalu taifədürlər»[1043], yəni «fitnəkar tayfa olan Təbriz əhli tamam qırılmalıdırlar, çünki

---

1041 Bakı əlyazmalarında evlər («xaneha») əvəzinə gizli yerlər («nihanxaneha») yazılmışdır (S-297, v.202b; B-589, v.24b).

1042 Osman paşanın ordusu Təbrizi 20 sentyabr - 29 oktyabr 1585-ci il tarixləri arasında işğal altında saxlamışdı (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.188-191).

1043 Osman paşanın bu sözləri orijinalda türkcə verilmişdir.

onların görkəmindən üsyan və tüğyan görsənir». Beləliklə, qəzavü-qədər zərurətinə uyğun olaraq, Osman paşa tərəfindən bu barədə hökm verildi. Rumilər o kəlməni eşidən kimi sıyırılmış qılıncları ilə şəhərə tökülüşüb, baş kəsməyə başladılar. Təbrizlilər gecə yarısınadək özlərini gizli yerlərdə mühafizə edib, gecə vaxtı öz başlarına çarə qılmaqdan savayı çıxış yolu tapa bilmədilər. Rumilər bayırda gördükləri hər kəsi qətlə yetirirdilər. Daha sonra isə onlar evlərə soxulmağa başlayıb, daxil olduqları evlərdə kişiləri bəla qılıncına yem etdilər, malları və əşyaları talan və qarət etdilər, bir çox qadınları və qızları isə əsir etdilər. Uşaqların və arvadların fəryadı və fəğanı asimana çatdı. Axırda rumi camaatının arasından Osman paşanın yanında söz demək hüququna malik olan bir sıra nəcib fikirli və Allahı tanıyan adamlar xahiş edərək, onu bu yaramaz işin davam etdirilməsindən daşındırdılar.

Sözügedən [Osman paşa] axırıncı gün əsgərləri qətl və qarətdən çəkindirdi. Qılıncdan qurtulanlar canlarının qorxusundan öz mallarını və var-dövlətlərini tərk edib, əhlü-əyallarının əllərindən tutaraq, gecə vaxtı şəhərdən çıxıb getdilər və yaxınlıqdakı yerlərə və ərazilərə səpələndilər. O cür firavan və abad bir şəhər düşmənlərin əlinə keçdi. Evlərdə və sığınacaqlarda gizlədilmiş sonsuz dərəcədə çox mallar və əşyalar, saysız-hesabsız azuqələr və dəfinələr rumilərin əlinə düşdü. [Rumilər] malları axtarıb tapmaqda o qədər təhqiq və təftiş edirdilər ki, sakinlərin öz ev avadanlıqlarını gizlədərək öz evlərini və divarlarını onun üstünə uçurtduqları iyirmi zər dərinliyindəki quyulara yol tapıb, o malları quyunun içindən çıxarırdılar. Lakin bu əməllər Osman paşaya uğur gətirmədi. O, «insanlara rəhm etməyənə Allah da rəhm etməz» [hədisinin] zərurəti üzündən, məzlumların və Əhli-beyt şiələrinin çəkdikləri ah-nalələrin təsiri ilə Allahın qəzəbinə düçar oldu və onun namübarək zatında heç bir naxoşluq əlaməti olmadığı halda, birdən-birə xünaq[1044] xəstəliyinə tutulub, öz mövcudluq paltarını fanilik küləyinə verdi (vəfat etdi).

Rumilərin Təbriz şəhərində qaldıqları qırx-əlli gün ərzində qıraq-bucaqda baş vermiş kiçik döyüşlərdən savayı, qızılbaşlarla rumilər arasında üç dəfə böyük vuruşma oldu və bunların hər üçündə müzəffər [qızılbaş] qoşunu qələbə qazandı.

Osman paşanın bu sözləri orijinalda türkcə verilmişdir. Xünaq xəstəliyi - difterit (yoluxucu boğaz xəstəliyi).

## QIZILBAŞ QOŞUNU İLƏ RUMİLƏR ARASINDA BAŞ VERMİŞ DÖYÜŞLƏR HAQQINDA. QULU BƏY QORÇUBAŞININ SƏRDARLIĞI ALTINDA APARILMIŞ BİRİNCİ DÖYÜŞ

Bu mövzunun təfərrüatı belədir ki, rumilər Təbrizi istila etdikdən, qızılbaşlar şəhəri tərk edib şahzadənin ali məiyyətinə qoşulduqdan, rumilərin iqtidarlı olması üzə çıxdıqdan və [Həmzə mirzənin] yanındakı bu qədər az adamla

---

[1044] Xünaq xəstəliyi – difterit (yoluxucu boğaz xəstəliyi).

birlikdə saysız-hesabsız [Osmanlı] qoşununa qarşı döyüşməyin imkan xaricində olması aydın olduqdan sonra Nəvvabi-Cahanbani geri dönüb, Üzümdüldəki hökmdar ordugahına gəldi və aqil, düşüncəli və tədbirli bir adam olan və hökmdarın yanında qalan qorçubaşı Qulu bəy Əfşarın iştirakı ilə məşvərət etdi. Aydın oldu ki, bu əhvalatın əvvəlində şəhəri boşaltmamaq yanlış addım olmuşdur. Aqillər belə bir fikir irəli sürdülər:

- Şəhərin rumilərin əlinə keçdiyi və təbrizlilərin pərakəndə olduğu indiki şəraitdə [qızılbaş] qoşununun azlığı, yardımçı və köməkçilərin olmaması və düşmənlərin çoxluğu ucbatından döyüşə və vuruşa atılmaq sərfəli deyildir. Səbir etməliyik ki, onlar qala [tikintisini] tamamlayıb köç etsinlər. Onlar köç edən vaxt biz quldursayağı tərzdə onların arxasınca düşüb, hər mənzilbaşında fürsətdən yararlanaraq, onlara imkanımız çatan qədər ziyan vurarıq. Onlar öz ölkələrinə çatdıqdan sonra isə biz geri qayıdıb, qalanın üstünə gələrik və Azərbaycanın hərbçilərini və rəiyyətlərini cəmləşdirib. Allah-taalanın köməyi ilə qalanı ələ keçirərik. İndiki halda bundan başqa bir tədbir görmək vaxta münasib deyildir.

Lakin Nəvvabi-Cahanbani nurlu xatirində yer tapmış qeyrət və ləyaqət hissi üzündən, fəaliyyətsiz qalaraq rumilərin rahatlıqla qalanın [tikintisi] işinə məşğul olmalarına imkan verməyə razı olmadı. O qərara aldı ki, öz nəfis vücudu ilə onlara qarşı müharibəyə yollanaraq, «necə dəfə olub ki, Allahın izni ilə azsaylı dəstə çoxsaylı dəstəyə qalib gəlib» ayəsinin[1045] mənasına müvafiq surətdə Allahın köməyinə arxalanıb, mümkün qədər səy və çalışqanlıq nümayiş etdirsin. Amma qorçubaşı və ağsaqqallar razı olmadılar ki, o həzrət öz şərəfli vücudu ilə döyüşə atılsın. Qorçubaşı xahiş edib dedi:

- Döyüşə gedib qoşunu sınaqdan çıxarmaq üçün mənə bu dəfə rüxsət verin. Əgər döyüşmək sərfəli olarsa, növbəti dəfə Nəvvabi-Cahanbani özü döyüş meydanına yollanar. Yox, əgər bu dəfə mənim rəhbərliyim altında aparılacaq döyüşdə fəlakət üz verərsə, qoy, onun təsiri sizə deyil, dərgahınızın mülazimlərinə dəymiş olsun.

Aqillər bu rəyi bəyəndilər. Hökmdar ordusu köç edərək, şəhərin dörd fərsəxliyində yerləşən Nəhənk dərəsinə[1046] gəlib, orada düşərgə saldı və Nəvvabi-Cahanbani qorçubaşını qoşunun sərdarı təyin edib, yola saldı. Məhəmmədı xan Toxmaq isə ali məiyyətdə qaldı.

Qorçubaşı bəzi əmirləri və işə yarayan şəxsləri çərxçi təyin cdib, irəli göndərdi. Onlar şərq tərəfdə, İraq yolunun üstündə olan Fəhusfənc çayından keçdilər. Onların qaraltısını görən rumilər qızılbaş qoşununun gəlişindən xəbərdar oldular. Osman paşa o vaxtlar rumilərin şücaətlisi olan Ciğaloğlunu sərdar təyin edib, onu bir sıra əmirlər və sərhəd paşaları ilə birlikdə [qızılbaşları] dəf etməyə göndərdi. Onlar qızılbaş qoşununa çox da məhəl qoymurdular. Qızılbaş qoşununun əsas hissəsi hələ çayı keçmədiyi üçün Ciğaloğlu onları görmədi və çərxçiləri

---

1045 "Qurani-Kərim", "Bəqərə" surəsi, 249-cu ayə.

1046 S-297 nüsxəsində (v.203b) Səhənd dərəsi yazılmışdır.

qızılbaş qoşununun əsas hissəsi hesab etdi. O, topxanadan və ərradələrdən[1047] ayrılaraq, igidcəsinə irəli şığıdı və döyüşə girdi. Bu tərəfdən isə qızılbaş qoşununun igidləri çaydan keçərək, rumilərin qoşununa nəzər saldılar və atlarını o güruhun üstünə çaparaq, bir həmlədəcə o yaramaz qövmdən on min[1048] nəfərə qədərini ölüm torpağına töküb qəllə yetirdilər. Qızılbaş qoşununun qəhrəmancasına zərbələrindən Ciğaloğlunun əsgərlərinin dayanıqlılıq binası sarsıldı və onlar qaçmağa başladılar. Qızılbaş qaziləri fəth və zəfər qazandılar və [rumilərin] bir sıra mötəbər adamlarını diri-diri ələ keçirdilər. Qaçaqaç zamanı Ciğaloğlu belə bir gün üçün saxlatdırmış olduğu madyana özünü yetirib, ona minərək aradan çıxdı. Kor Seydi Çavuşlu[1049] nizə ilə Ciğaloğlunu vurduğunu iddia etsə do, onun bu sözləri sübuta yetmədi.

Döyüşün gedişi zamanı Osman paşa xəbər gətirənlər vasitəsilə saatbasaat məlumat alırdı ki, qızılbaşlar üstün gəlirlər və buna görə də o, köməyə dəstə-dəstə əlavə qoşunlar göndərirdi. Düşmənin məğlubiyyətindən və onların sərdarı Ciğaloğlunun qaçmağından sonra qorçubaşı [Osmanlıların] döyüş meydanına əlavə qüvvələr yeridəcəklərindən narahat olub, belə olan təqdirdə bir bəlanın üz verə biləcəyini mülahizə edərək, qızılbaşlara geri qayıtmağı əmr etdi. Gün axıra çatdığından onlar geri qayıdaraq, həmin çayın kənarında qərar tutdular və növbəti gün orduya gəlib, başları, «axtarma»ları və əsirləri şahzadənin mübarək nəzərləri qarşısına gətirərək, şahanə təltiflərə layiq görüldülər.

Osman ordusunun törətdiyi qətliamdan sonra [qızılbaş] ordusuna gələn Təbriz sakinlərindən eşidildi ki, həmin döyüş nəticəsində rumilər qızılbaşlarla hesablaşmağa başlamışdılar və Osman paşa, Ciğaloğlunu danlamış, onu qorxaqlıqda, çəkingənlikdə və tədbirsizlikdə ittiham etmişdi.

## DÜNYA SAKİNLƏRİNİN ŞAHZADƏSİ HƏMZƏ MİRZƏNİN SƏRDARLIĞIALTINDA APARILMIŞ İKİNCİ VƏ ÜÇÜNCÜ DÖYÜŞLƏR

***Qızılbaşların rumilərlə ikinci döyüşü və düşmənlərin yenə də məğlub olması.*** Qoşun dörd-beş gün dincəldikdən sonra Nəvvabi-Cahanbani özü şəxsən nəfis vücudu ilə rumilərə qarşı müharibəyə yollandı. O, şanlı orduda olan on-on iki min nəfərlə birlikdə yola düşdü. Rumilər qızılbaş qoşununun təlayəsinin[1050] gəldiyini müşahidə etdikdə Osman paşa bu dəfə Qaraman bəylərbəyisi Murad paşanı və Diyarbəkr bəylərbəyisi Məhəmməd paşanı sərdar təyin edib, onları Anadolu qoşunu ilə birlikdə qızılbaş qoşununa qarşı döyüşə göndərdi. Fəhusfənc çayı kənarında iki tərəfin çərxçiləri bir-birləri ilə üzləşdilər. Döyüş və vuruş

---

[1047] Ərradə - üzərinə top qoyulmuş araba.

[1048] S-297 nüsxəsində (v.203b) hətta 12 min yazılmışdır. Lakin əslində bu döyüşdə öldürülən Osmanlı əsgərlərinin sayı 2 min nəfər idi saxlamışdı (О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.190).

[1049] S-297, v.204a. Tehran çapında (s.312) Çavuşlu əvəzinə Xəbuşlu yazılmışdır.

[1050] Təlayə - visual kəşfiyyat dəstəsi.

mərəkəsi qızışdı. Hər iki tərəfdən ardıcıl həmlələr baş verdi. Rumilər üstün gəlməyə başladılar. Nəvvabi-Cahanbani onların qələbə və üstünlüyünə səbir edə bilməyib, öz igidlik atını mübarizə meydanında cövlana gətirdi. Hərçənd qorçubaşı və dövlətsevər ağsaqqallar tədbirlilik və ehtiyatlılıq mülahizəsi ilə şahzadənin əzmkarlıq yüyənini maneçilik əli ilə saxlayıb, onun irəli getməsinə əngəl olmaq istəsələr də, faydası olmadı. Nəvvabi-Cahanbani səadətli ordunun mərkəz («qol») hissəsini irəli apardı və ali məiyyətin tayı-bərabəri olmayan cavanları o dövlət və iqbal taxtının bəzəyinin mübarək nəzərləri altında canyaxan nizələrin zərbələri ilə rumilərdən bir çoxusunu yəhərin üstündən aşırıb, həlak torpağına tökdülər və günəş batanadək döyüşlə və vuruşla məşğul oldular. Dünya sakinlərinin şahzadəsi rumilərin səfini dağıdıb məhv etməyə səy göstərdi. Hava qaralsa da, qızılbaş qoşunu döyüşdən əl çəkmirdi. Paşalar ayaqlarını yerə möhkəm basıb, məşəllər yandırdılar.

Bu əsnada Nəvvabi-Cahanbani sol cinahdan Şahrux xanı qoşununun mərkəz hissəsindən ayırıb, ona əmr etdi ki, düşmənin sağ cinahına həmlə etsin. Sözügedən şəxs zülqədər əmirləri və qoşunu, Qaracadağ və şeyxavənd tayfaları və sol cinahda olan digər camaatla birlikdə ali məiyyətdən ayrılıb, çayın lap qırağınadək irəliləməyə nail olaraq, rumilərin mərkəzinin arxasına keçdi. Rumilər öz mərkəzlərinin arxasında [qızılbaşların] şeypur sədasını eşitdilər və eyni zamanda, ali məiyyətin mülazimləri şahzadə ilə birlikdə atlarını irəli çapdılar. Rumilərin sayının çox, döyüşkən qazilərin isə sayının az olmasına baxmayaraq, [qızılbaşların] şeypur səsinin [rumilərin] mərkəzinin arxasından gəlməsi və [qızılbaş] igidlərinin cəsurluqla irəli atılması rumiləri çaş-baş saldı və onların sabit və mətin ayaqları sarsıldı, onların qoşununun mərkəz hissəsi bir-birinə dəydi. Qoşunun mərkəzində qərar tutmuş paşalar hər nə qədər müdafiədə durmağa səy göstərsələr də, faydası olmadı və onlar döyüş meydanına arxa çevirib, fərar yolunu tutdular. Amma onların arxasınca düşən qızılbaş qoşunu çox olduğundan, qaçış vaxtı [qızılbaşlar] onlara çatdılar. Diyarbəkr bəylərbəyisi Məhəmməd paşa və Qaraman bəylərbəyisi Murad paşa hər ikisi əsir alındılar. Ağır yara almış və yaşamaq ehtimalına malik olmayan Məhəmməd paşanın başını bədənindən ayırdılar. Əlixan bəy Şəmsəddinlü tərəfindən tutulmuş Murad paşanı isə xondgarın çaşnigirbaşısı Yusifağa və[1051] digər əsirlərlə birlikdə diri-diri [Həmzə mirzənin] nəzərləri qarşısına gətirdilər. Bu döyüşdə rumilərdən çoxları çətin həzm edilən ölüm şərbətini içdilər. Qızılbaş qaziləri rumilərin ordugahının yerləşdiyi Çərəndaba qədər qaçanları təqib etdilər və hətta bir neçə nəfəri alaçıqların arasında tutub gətirdilər.

Qaranlıq gecə rumilərlə qızılbaşlar arasında çəpər çəkdiyindən böyük əmirlər və Bəhram kimi intiqamçı əsgərlər fələk ehtişamlı şahzadənin ali məiyyətində döyüş meydanından kənara gedib, ertəsi gün isə kəsilmiş başları, ələ keçirilmiş «axtarma»ları və hər kəsin törətdiyi mərdanəliklərin nişanələrini

---

[1051] S-297, v.204b.

nəzərdən keçirməklə məşğul oldular. Murad paşanı [əsirlərdən] sağ saxlanmağa qabil olan bir neçə nəfərlə birlikdə hökmdar ordugahına göndərdilər və oradan da Qəhqəhə qalasına apardılar. [Həmzə mirzənin qoşunları] iki-üç gün Fəhusfənc çayının kənarında qaldılar ki, qaça-qovdan yorulmuş atlar dincəlsinlər və yenidən döyüşə getmək bacarığında olsunlar. Rumilər tərəfdən isə Osman paşa qırx-əlli min nəfər[1052] təyin etdi ki, öz ordugahlarının ətrafında keşik çəkib, irəli getməsinlər. Az adamla onlara təlaş bəxş edən Nəvvabi-Cahanbaninin igidlik və mərdanəliyi onları heyrətə salmışdı. Amma onların çoxluq və izdihamlarının yetərli dərəcədə olması səbəbindən onlar bir tərəfdən hərblə və döyüşlə məşğul olur, digər tərəfdən isə qala tikirdilər.

Xülasə, [qızılbaş] qoşunu və onların atları üç-dörd gün tamamilə yorğunluqlarını çıxarıb rahatlaşandan sonra yenidən döyüşə hazırlaşdılar. Qərar verildi ki, «Osman paşanın savaşa yollanmaması üzündən həlledici döyüş baş vermədiyi üçün əgər Allah-taalanın köməyi ilə bu dəfə bizə qarşı döyüşə göndərilmiş dəstəyə qalib gəlsək, onda rumilərin ordugahının ortasınadək yüyənlərimizi geri çəkmədən gecə basqını üsulu ilə onların ordusunun üzərinə tökülüşərik. Döyüşməyin bizimçün sərfəli olduğu müddət ərzində mümkün qədər səy və çalışma həyata keçirib, qiyamət gününün əlamətlərini nümayiş etdirərik və hərgah qələbə düşmənin tərəfində olarsa, özümüzü döyüşə-döyüşə kənara çəkib, ondan sonra hər gün qalmaqal atəşini alovlandıraraq, düşməni asudə buraxmarıq». [Qızılbaşlar] bu məramla Allaha təvəkkül edib, fələk kimi gəzən kəhərlərinə mindilər və zəfər bayraqlarını dalğalandırdılar. Səadətli çətir dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] başı üzərində açıldı. Müzəffər məiyyətin bahadırları şücaət cıdırının süvarisi [olan Həmzə mirzənin] əjdaha görünüşlü ələminin kölgəsi altında toplaşıb, layiqli bir tərzdə döyüş meydanına yollandılar. Müzəffər qoşunun çərxçiləri rumilərin ordusuna çatdılar. Ordugahın mühafizəsinə və gözətçiliyinə məmur edilmiş rumilər öz ordugahlarının kənarında mövqe tutub, irəli gəlmirdilər. Bu tərəfdən də [qızılbaşlar] tədbirlilik və ehtiyat mülahizəsi ilə arxanı və önü gözlədilər ki, məbada, rumilərdən bir məkr və hiylə baş verər. Xülasə, bu minvalla gündüz dönüb gecə oldu, lakin tərəflər arasında döyüş və vuruş baş vermədi.

***Osman paşanın xünaq xəstəliyindən ölməsi.*** [Qızılbaşlar] günün axırında həmin civarda mövqe tutub, ətrafa və yan-yörəyə qaravullar göndərdilər və zəruri hökm verildi ki, bu gecə əsgərlər gözdə-qulaqda olub, sübhə yaxın ordugaha tökülüşərək, rumilərin qoşununun özünü toparlamasına qədər onları qətlə yetirməkdən və öldürməkdən bir dəqiqə də əl çəkməsinlər. Gecədən bir qədər keçmişdi ki, qaravuldakı qazilər igidlik ayaqlarını önə qoyub, ordugahın kənarına çatdılar, özlərini rumilərin alaçıqlarından olan bir alaçığa saldılar və oradan bir-iki nəfəri tutub çıxararaq, onları dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] mübarək nəzərləri qarşısına gətirdilər.

---

[1052] Bakı nüsxəsində sadəcə 50 min nəfər yazılmışdır (S-297, v.204b).

Nəvvabi-Cahanbani onlardan sual etdi:

- Nə üçün dünən rumilər döyüşməkdən ötrü irəli gəlmədilər? Onlar məchul adamlar idilər və işin məğzindən xəbərləri yox idi. Amma məsələni belə izah etdilər:

- Zahirən, sərdari-əzəm xəlvətə çəkilərək, köç etmək barədə bir neçə məşvərət keçiribdir. Paşalar və əsgərlər ordugahın mühafizəsindən savayı heç bir xidmətə məmur edilməyiblər.

Bu əsnada rumilərin ordugahında çoxlu atəş alovlandı. Elə bil ki, xırmanlara od vuruldu. Atəşin şöləsi hər yerdən yüksəldi. Məlumatlı adamlar dedilər:

- Bu, köç etmək əlamətidir. Hər kəs öz alaçığına topladığı odunlara od vurmuşdur.

Bu hadisə əsirlərin sözünü təsdiq etdi. Gecə yarısı olarkən, rumilərin ordusundakı say-seçmə adamlardan birinin himayəsinin kölgəsi altında başını saxlamış, həmin rumidən insancasına münasibət görmüş və onun sayəsində əsgərlərin zərərindən və ziyanından qorunmuş bir təbrizli şəxs gəlib bunları söylədi:

- Osman paşa iki gün idi ki, xünaq xəstəliyinə tutulmuşdu və eşiyə çıxmırdı. Nəhayət, dünən gecə o, əcəlin mütləq qəzavü-qədərinə düçar olub, vəfat etdi. Gündüz bu xəbəri camaatdan gizli saxladılar. Ciğaloğlu komandanlığı öz üzərinə götürüb, günün axırında paşaları və ağsaqqalları yığaraq, onlara hal-qəziyyənin mahiyyətini izah etmiş və hamının rəyi köç etməyin üzərində qərar tutmuşdur. Səhər köç edib gedəcəklər.

Bu təbrizlinin daha sonra dediklərindən aydın oldu ki, bu hadisədən bir neçə gün öncə Cəfər paşa qalaya göndərilmiş və [qala üçün] birillik azuqə tədarük edilmişdi. [Məşvərət zamanı] bir sıra paşalar demişdilər:

- Hələ qalanın mühüm işləri intizama salınmayıb. Bizim gedişimizdən sonra qızılbaşlar qalanı asanlıqla tuta bilərlər. Belə olan təqdirdə nə üçün iki-üç min adamı ölümə verək?

Ciğaloğlu, Cəfər paşanı qalmaq və ya getmək məsələsində ixtiyar sahibi etmiş, sözügedən şəxs (Cəfər paşa) isə buna belə cavab vermişdi:

- Əgər mən qalaya daxil olmasaydım, çıxıb gedərdim. Lakin indi ki, daxil olmuşam, Osman paşanın vəfatının ardından buradan çıxıb getmək bizim padşahımızın dövləti üçün nöqsandır. Mən Allahın qəzavü-qədərinə razılıq verib qalacağam. Siz isə köç edib gedin. Qoy nə olursa, olsun. Hökm şanlı və ulu Allahındır.

[Sözügedən təbrizlini himayə edən] o adam «kəngaş» məclisindən öz evinə gəlib, hadisənin mahiyyətini bu təbrizli şəxsə anladaraq, ona demişdi:

- Biz sabah köç edəcəyik. Qızılbaş qoşunu yaxınlıqda olduğu üçün ehtimal vardır ki, sabah tərəflər arasında böyük bir döyüş baş versin. Belə olan təqdirdə sən aralıqda zay olarsan. Əgər bacarsan, nə qədər ki, gecədir, özünü qızılbaş ordusuna yetir.

Təbrizlinin dediyinə görə, həmin rumi bir neçə nəfəri ona qoşub göndərmiş və qızılbaş qaravullarının qaraltısı görünən kimi onu müşayiət edən rumilər geri qayıtmışdılar. O (təbrizli) şəxs söyləyirdi ki, Osman paşanın vəfatı hadisəsi, dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] igidlik və mərdanəliyi və qızılbaşların qoçaqlığı rumilərin əhvali-ruhiyyəsini sarsıtmışdır, onlar yeniçəri qüvvələrinin və qalanı qorumağa məmur edilmiş digər dəstələrin qalada qala biləcəklərini müşkül sayırlar və əgər [qalanı qorumalı olanlar] orada qalmaq istəməsələr, onda Cəfər paşa da zərurət üzündən çıxıb gedəcəkdir.

Onun dedikləri gerçəklikdən uzaq görünmədiyi üçün hamı bu fikri qəbul etdi. Bir sözlə, bu xəbərlər üzündən [qızılbaş] qoşunu arasında sevinc qışqırıqları düşdü. [Qızılbaşlar] sevinc və şadlıq əlamətlərini nümayiş etdirdilər. Sübh vaxtı isə hərb ləvazimatını hazırlayıb döyüş səflərini tərtib edən qazilər öz saylarının azlığına və düşmənlərin çoxluq və izdihamına baxmayaraq, döyüş meydanına yollandılar. [Osmanlı] ordusunun komandanlığını öz üzərinə götürmüş Ciğaloğlu öz ölkəsinə qayıtmaq əzmi ilə köç edib, böyük bir dəstəni öndə, qüvvətli bir dəstəni də arxada təyin edərək, tamam tədbirlilik və ehtiyatlılıqla geri qayıtmağın yolunu tutdu. Qalibiyyətli [qızılbaş] qoşununun çərxçiləri rumilərin «yurt»u (düşərgəsi) olan Çərəndabdan keçib, Şənbi-Qazan yaxınlığında rumilərə çataraq, döyüş ləvazimatlarına əl atdılar və o tərəfdən də [rumilər] dəstə-dəstə müdafiə ilə məşğul olub, döyüşə-döyüşə məsafələri qət etməyə başladılar.

Nəvvabi-Cahanbani səadətli qoşunun mərkəz («qol») hissəsini Çərəndabdan irəli aparıb, qaziləri müharibəyə həvəsləndirirdi. İqbal məiyyətinin bahadırları atlarını irəli çaparaq, düşmənlərə çatıb, mərdlik nümunələri göstərdilər və düşmənləri arabaların, dəvələrin və yüklərin («ağruq») arasına doğru qovdular. Həqiqətən də, Osman paşanın vəfat etdiyi və Rum qoşununun sərdarsız qaldığı həmin gündə qızılbaş qoşununun sayı bir qədər də artıq olsaydı və döyüşmək üçün daha artıq səy göstərilsəydi, rumilərin ordusunun böyük bir məğlubiyyətə düçar edilərək birdəfəlik məhv edilməsi mümkün olardı. Lakin bu hadisə üç səbəbdən baş vermədi. Birincisi odur ki, qızılbaş qoşunu çox az idi və rumilər onların qoşununun keyfiyyət və kəmiyyətindən xəbərdar olub bildilər ki, dünya sakinlərinin şahzadəsi olan cənabın yanında on-on iki min nəfərdən artıq adam yoxdur. Bununla yanaşı, böyük əmirlərin arasında nifaq mövcud idi. [Həmzə mirzə tərəfindən] yüksəldilən Əliqulu xan Fəthoğluya digərləri həsəd aparırdılar, əksər əmirlər ona qarşı mənfi münasibət bəsləyirdilər və istəmirdilər ki, onun adamları qızılbaşlar arasında şöhrət tapıb, fəth və zəfər sahibi kimi tanınsınlar. Digər bir səbəb o idi ki, qızılbaşlar fikirləşmədən dəvələrin, yüklərin və əşyaların arasına gedib düşdükdə və onların əli qənimətə çatdıqda qoşunun əksərinin təbiətinə xas olan mal-dövlət hərisliyinə malik ləyaqətsiz tamahkarlar malları qarət etməyə başladılar. Dəvədən və yaraqdan kimlərin əlinə nə düşürdüsə, həmin qənimətlərin oradan aparılmasına səy göstərib, müharibədən əl çəkirdilər. Bunun nəticəsində get-gedə qoşun azaldı və qazanılmış üstünlük sarsıldı. Başqa bir səbəb isə bundan

ibarət idi ki, Ciğaloğlu yarım fərsəx yol qət edib, Çərəndabdan Şənbi-Qazana çatdıqda gördü ki, qızılbaşlar cəsarətlə irəli atılırlar, rumilərin qoşunu bir-birinə dəymişdir və tezliklə darmadağın olunma ehtimalı vardır. Buna görə də o, kamil ağıla və məqsədəuyğun tədbirə əməl edib, dərhal həmin yerdə mövqe tutdu, alaçıqları və arabaları öz ordusunun ətrafına çəkib, yeniçəriləri arabaların arxasına yerləşdirərək, müdafiə olunmağa başladı. Qızılbaşlar tərəfindən daha artıq bir hərəkət baş vermədiyindən və onlar arabaların üzərinə həmlə etmədiklərindən, qaçmağa meyillənən rumilər öz ürəklərinə toxtaqlıq verərək, xofdan və qorxudan uzaqlaşdılar. Bu vəziyyəti müşahidə edən və qızılbaş qoşununun təfriqə düşməsindən agah olan Nəvvabi-Cahanbani bütün bunlara baxmayaraq, irəli atılıb, mərkəzdə hazır olan qoşunla birlikdə tam fədakarcasına həmlə etmək istədi ki, təqdir pərdəsi arxasında gizli olan surət üzə çıxsın. Lakin böyük əmirlər və dövlətsevərlər arabalar üzərinə hücum etməyi məsləhət görməyib, adlı-sanlı şahzadənin səba rəftarlı atının yüyənini tutaraq, bu əzmkarlığın qarşısını almaqdan ötrü təkid və xahiş etdilər. Nəvvabi-Cahanbani zahirən mətləblərinin yalnız o həzrətin misilsiz vücudunu qorumaqdan ibarət olan bu dövlətsevərlərin məsləhətinə əməl edib, müharibədən əl çəkərək, Çərəndab ətrafında mövqe tutdu. Bu döyüşdən [kəsilmiş düşmən] başlarının və «axtarma»ların az gətirilməsinə baxmayaraq, əsgərlərin əlinə qənimət çox keçmişdi[1053]. Rumilər Şənbi-Qazandan köç etdikdən sonra Nəvvabi-Cahanbani ali məiyyətin mülazimləri ilə öz düşərgəsindən («yurt»undan) atlanaraq, rumilərin qoşununun arxasınca düşdü ki, döyüşə girməyin sərfəli olduğu hər yerdə onlara qarşı vuruşsun və yolun heç bir mənzilində onları rahat buraxmasın. Ta Təsuc qəsəbəsindək rumiləri bu qaydada təqib etdilər. Qazilər fürsətdən yararlanıb, özlərini rumilərə yetirərək, onlarla döyüşə girdilər və bir çoxlarını qılınca yem edib, qətlə yetirdilər. Kəsilmiş başlarla «axtarma»lar [Həmzə mirzənin] mübarək nəzərlərinə çatdırıldı. Ta Mayan mövqeyinədək böyük döyüş baş verdi. İsmayılqulu xan və şamlu tayfası igidlik atını irəli çapdı. Lakin rumilərin böyük bir dəstəsi onlara qarşı zor göstərdilər və onları dəf edib, geri oturtdular. Allahın qəzavü-qədərindən o çöldə bir bataqlıq vardı. Şamlu tayfasının güzarı oraya düşdü və onların atları sinəyədək gilə batdılar. Rumilər onları qırmağa çalışdılar. Əgər bir an kömək gəlməsəydi, döyüşə yararlı olan şamlu cavanları gilin içərisində qətlə yetiriləcəkdilər. Bu zaman çərxçi olan Pirqeyb xan Ustaclu kömək üçün irəli atılıb, rumiləri geri oturtdu və şamlu qaziləri yüz təşviş və yorğunluqla çirkabdan çıxdılar. Ali məiyyət mülazimlərindən Zeynal bəy Şərbətdarın oğlu Şahhüseyn bəy[1054] və müqərrəblər silkinə daxil olan Div sultan Zülqədərin oğlu Qorxmaz xan Cəbbədar bu döyüşdə qətlə yetirildilər. Ümumiyyətlə, o gün bir o qədər də çox nailiyyət əldə olunmadı.

[1053] «Axtarma» döyüş meydanında öldürülmüş düşmənlərin üzərindən axtarılaraq yığılan əşyaları, qənimət isə düşmən ordugahından ələ keçirilən və ya düşmənin atıb qaçdığı malları nəzərdə tutur.
[1054] Bakı nüsxəsində Hüseyn bəy yazılmışdır (S-297, v.206b).

Əliqulu xan Fəthoğlu mənsəb sahiblərinin və dövlət büsatı müqərrəblərinin bir-birlərinə olan paxıllığı və həsədi üzündən İsmayılqulu xana mənfi münasibət bəslədiyi üçün Pirqeyb xana kin-küdurətlə dedi:

- Nə üçün şamlu [tayfasına] kömək edib qoymadın ki, o, (yəni İsmayılqulu xan) öz tay-tuşları arasında xəcalətə düçar olmuş bir şəkildə məğlub edilsin?!

Əgər qızılbaş qoşununun əyanları arasında nifaq və ittifaqsızlıq bu qədər rəvac tapmasaydı, aydındır ki, o zaman nə [çox] işlər görmək mümkün olardı. Xülasə, Nəvvabi-Cahanbani Təsucadək təqibdən əl çəkmədi və imkanı çatdığı qədər səy və çalışqanlıq nümayiş etdirdi. Həqiqətən də, bu döyüşlərdə və vuruşmalarda Nəvvabi-Cahanbanidən bir təqsir baş vermədi. Hərb və döyüşə yollandıqları gündən etibarən o, on dörd gün ərzində savaş paltarlarını («zireh və xəftanı») əynindən çıxarmadı və hər gün sübhdən şama qədər öz vaxtını [rumilərin] ovlanmasına sərf edib, o tayfanın yox olunmasına və məhv edilməsinə cəhd göstərdi. Amma düşmənlər saysız-hesabsız idilər və onların ölçüyəsığmaz qoşununa müqavimət göstərmək ali məiyyətin mülazimlərinin qüdrəti fövqündə idi. Bir yandan da öz aralarında nifaq etməklə məşğul olan qızılbaş başçılarının bəsirət gözləri bu halın axırının necə nəticələnəcəyini görməz olmuşdu. Onların xilqətində şeytani vəsvəsələri öz ürəklərindən çıxarmaq və ixlas yoluna qədəm qoymaq istiqamətində heç bir çalışqanlıq yox idi. Onlar tərslik və inadkarlıq üzündən kələfin ucunu əldən verib, belə bir [ağır] şəraitdə hamısı birlikdə həmrəylik və yoldaşlıq nümayiş etdirmədilər.

Sözün qısası, rumilər öz ölkələrinə yaxınlaşdıqlarından [qızılbaşlar] geri qayıtmağı və qalanın ələ keçirilməsi ilə məşğul olmağı ən önəmli vəzifə hesab edib, hərəkət yüyənlərini geri qayıtmaq səmtinə döndərərək, [Təbriz] şəhərinin yaxınlığına, Şənbi-Qazan ətrafına gəlib, orada dayandılar. [Həmzə mirzə] öz adlı-sanlı atasının hüzuruna adam göndərib, əhvalatın təfərrüatını ona ərz etdi. İsgəndər şanlı nəvvab da ordunun yükləri («ağruq») ilə birlikdə köç edib, [Təbriz] şəhərinə gəldi, hökmdarın dövlətxanası olaraq sədr Mir Əsədulla Şüştərinin mənzilləri təyin edildi və hökmdar orada məskunlaşdı. Əmirlərdən və dövlət ərkanından hər biri o şəhərin yarımuçuq-yarımabad mənzillərindən birində məskən saldı. Həmin vaxt bu sətirlərin müəllifi şanlı orduda idi. Biz ertəsi gün şəhərə gəldikdə nəzərlərimizə qəribə bir şəhər dəydi. Qızılı və lacivərdi rəngdə bəzədilmiş bütün evlər xarab olmuşdu. Naxışlı qapılar və pəncərələr sökülüb, odun yerinə yandırılmışdı. Ağaclar, bağlar və bağçalar qırılıb, illik odun kimi qalaya daşınmışdı. Ürəyə yatan neçə min evin arasından ortabab adamlardan birinin yaşayış yeri olmağa qabil olan bir ev də salamat qalmamışdı. Bütün dükanlar, kaşı ilə işlənmiş ikimərtəbəli emalatxanalar və hamamlar viran olmuşdu. Həmçinin öldürülmüş təbrizlilərin cəsədləri küçələrdə, evlərdə və bazarlarda düşüb qalmışdı. Xülasə, sevinc bəxş edən Təbriz şəhəri malik olduğu bütün şadlıq və şənliklə birlikdə viranə qalmış vəziyyətdə nəzərə gəlirdi. Onu müşahidə etməkdən könüllər həyəcana gəlir və

hətta daşürəkli insanların da halı pərişan olurdu. Mövlana Vüqui Təbrizi[1055] o vəziyyətə münasib olaraq bu beyti deyibdir:

**Beyt**

«Kərbala hadisəsini dərdimə təskin verirəm, çünki
Təbrizə həsrət ürəyim Təbrizdən də viranədir».

İsgəndər şanlı nəvvab və dünya sakinlərinin şahzadəsi tərəfindən möhtəsib əl-məmalik Mir Cəfər ibn Mir Rastiyə əmr olundu ki, neçə gün ərzində vaxtını qətlə yetirilmişlərin kəfənə tutulmasına sərf edib, öldürülmüşlərin dəfni ilə məşğul olsun. Həmçinin küçələri və məhəllələri yemin olmaması ucbatından tələf olub bir-birlərinin üzərinə yıxılmış atların və qatırların leşlərindən təmizlədilər. Ətraf kəndlərə və tarlalara səpələnmiş Təbriz camaatı tədricən şəhərə gəlib, öz evlərini viran, azuqə və dəfinələrinin isə talan olunduğunu gördülər. Əmirlərin, dövlət ərkanının, mənsəb sahiblərinin və başqalarının hərəsi bir mənzildə məskunlaşdı. Müxtəsər, insanların sakin ola biləcəyi yerlər təmir olundu, Təbriz şəhərində ordunun və Təbriz əhlinin əzizləməsi sayəsində bərpa işləri aparıldı və həmin qışda hökmdarın qışlağı o cənnət görkəmli şəhərdə baş verdi.

## TƏBRİZ QALASI UĞRUNDA VURUŞMA VƏ BU İLİN AXIRINA QƏDƏR QALANIN ƏTƏYİNDƏ VƏ MÜHASİRƏNİN GEDİŞİNDƏ BƏNDƏLƏRİN YARADICISI [OLAN ALLAHIN] TƏQDİRİ İLƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA

Əzəli və əbədi [Allahın] iradəsində və istəyində qərar tutmuşdu ki, fərəh bəxş edən Təbriz bölgəsi rumilərin ixtiyarına keçsin, o şəhərdə çoxlu dağıntılar törədilsin və oranın neçə il rahatlıq və asudəlik içində yaşayaraq qürur badəsindən sərxoş olmuş əhalisi vətəndən ayrı düşüb, çeşidli bəlalara və möhnətlərə giriftar qalsınlar. Ondan ötrü ki, bərbad şəraitin nə olduğunu bilməyən o camaatın düşdüyü vəziyyət dünya adamlarına ibrət olsun və bu gün öz feyz bəxş edən vücudu ilə İranın xoşbəxt taxtına asiman parlaqlığını və iki cahanın zinətini yiyələndirən bəxtiyarlıq və səadət bürcünün ulduzunun, yəni misilsiz şəhriyar, tərifəlayiq xislətli hökmdar, Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti və hökmranlığı zamanında vəziyyət yaxşılaşmağa doğru üz tutsun, hadisələrin alçaqlığı və xarlığı ucbatından sevinc və şənlikdən məhrum olmuş o ürək oxşayan bağça (Təbriz) taleyin uğuru ilə cəlal sahibi olan həzrətin (Şah Abbasın) zavalagəlməz dövlətinin valilərinin ixtiyarına keçsin, tənəzzül zülmətinə qərq olmuş o ərazi atəş yağdıran

[1055] S-297, v.207a. Tehran çapında (s.316) Mövlana Füruği Təbrizi yazılmışdır. Əslində isə Bakı əlyazmasında qeyd olunduğu kimi, bu şair Mövlana Vüqui Təbrizidir. Onun əsl adı Məhəmməd Şərif olmuş, h. 1018-ci (m. 1609) ildə vəfat etmişdir (M.Tərbiyət. Danişməndani-Azərbaycan, s.60).

qılıncın məşəlləri altında işıqlanıb, əmin-amanlıq aləminə nur saçsın. Məhz bu səbəbdən o zamanlar həmin fəlakəti dəf etmək üçün hər nə qədər səy göstərib çalışsalar da, nəticəsi az oldu və gizlinlik pərdəsi altında olan bəzi işlər üzə çıxaraq, vəziyyəti mürəkkəbləşdirdi.

Müxtəsər, səadətli ordu Təbrizə daxil olduqdan sonra böyük əmirlər ehtiyat nöqteyi-nəzərindən qalanın ətrafını və yan-yörəsini əhatələyib, neçə yerdə səngərlər («sibə»lər) yaradılmasını təyin etdilər. Sahibabad meydanı və Həsən padşah məscidi tərəfində yerləşən şərq səmtində Nəvvabi-Cahanbaninin, o həzrətin şəxsi mülazimlərinin, Əliqulu xan Fəthoğlunun, onun tabeçilərinin və Təbriz camaatının səngəri qərar tutdu. Səhharan («sehrbazlar») məhəlləsinin yerləşdiyi ön tərəfdə bir səngər qorçubaşıya, qorçulara və bəzi əmirlərə, bir səngər isə Şahrux xana və zülqədər tayfasına məxsus oldu. Məhəmmədi xan Toxmağın tabeçiləri, İmamqulu xan Qacar və Qarabağ camaatı da digər bir səngəri öhdələrinə götürdülər. Amma qalanın iki tərəfi, yəni qərb və şimal istiqamətləri boş qaldı və qoşunun azlığı səbəbindən o tərəfləri mühasirəyə almaq mümkün olmadı. Bəzən türkman, təkəlü [tayfalarının] və Fars [vilayətinin] qoşunlarının gəlişi xəbəri çatdığından, qərara alındı ki, əgər onlar gəlib xidmətkarlıq məqamında dursalar, onda həmin istiqamətlərdə mövqe tutarlar.

Qala əməliyyatı üçün yerqazan («beldar») və külüngdar adamların sorağı ilə Azərbaycan məmləkətində fərman verildi və top ləvazimatı tərtib olunaraq, Murad bəy Topçubaşı top tökməyə başladı. Topun tamamlanmasına qədər Həsən padşah mədrəsəsinin ortasından lağım atmaq qərarına gəldilər ki, bu lağım qalanın ortasına gedib çatmış olsun. Dəmir pəncəli lağımçılar («nəqbçi»lər) lağım atmaq işinə başladılar.

Amma mühasirə zamanı ümumi qoşunun zəifləməsinə və pərişanlığına səbəb olan hadisələr baş verdi. Şahın və ordunun könlünü qəmləndirən, qızılbaşların sarsılmasına və mühasirədəkilərin cəsarətlənməsinə səbəb olan hadisələrdən birincisi dövlətin böyüklərindən və zülqədər tayfasının rəislərindən Şahrux xan Möhürdarın Tanrının təqdiri ilə əsir düşməsi oldu. Bu ibrətverici hadisənin şərhi belədir ki, sözügedən şəxs şücaətli, igid, mərdanə bir kişi idi və qeyrət, ləyaqət cəhətdən ona ağır gəlirdi ki, bütün əmirlərin və böyük dövlət ərkanının burada olduqları bir halda, qızılbaşların yüz illik evi sayılan Təbriz şəhərinin ortasında axta bir adam olan Cəfər paşa hökmdar dövlətxanasında və Həşt-behişt sarayında oturub, Rum xondgarının adına xütbə oxutdursun. Buna görə də [Şahrux xan] qalanın ələ keçirilməsi yolunda iztirab çəkib, hər gün bildirirdi ki, ta bu qala fəth olunmayınca, yuxu, yaşayış və asayiş bizə haramdır. Qeyrətinin çoxluğu ucbatından tədbirlilik və ehtiyatlılıq yolundan uzaq düşüb, birinci həftədə öz mövqeyini irəli çəkdi və qala divarı yaxınlığında yerləşən bir evə gəldi. Nəvvabi-Cahanbani bu igidliyi, mərdanəliyi və tələskənliyi məqsədəuyğun saymırdı və iki dəfə adam göndərib, ona belə bir xəbərdarlıq etmişdi:

- Oradan qayıdaraq, daha sonra öz mövqeyini yavaş-yavaş irəli çək və hər nə qədər irəli gedərsənsə, öz arxanı köməkçi qüvvələr və tüfəngçilərlə istehkam edib, xatircəm olduqdan sonra irəliləməyə davam et!

Lakin sözügedən (Şahrux) xan ona bu cür cavab göndərdi:

- Dünyanı bəzəyən rəyiniz məqsədəuyğundur və əvvəlcədən belə etmək gərək idi. Amma bir halda ki, gəlib buraya çıxmışam, buradan geri qayıtmağı özümə layiq bilmirəm. Rəbbin qəzavü-qədəri, uğurlu çalışqanlıq və səadətin müvəffəqiyyəti ilə bu iki-üç gün ərzində:

«Ya murad ilə fələyin üzərinə ayaq qoyarıq,
Ya da ki, mərdliklə qeyrət naminə baş qoyarıq».

Onun əsir düşməsinin fərmanı qəzavü-qədər lövhəsində yazıldığından o, orada qalmaqda israr etdi. Nəvvabi-Cahanbani ertəsi gün eşikağasıbaşı Piri bəy Şamlunu onun yanına göndərdi ki, öyüd-nəsihət verərək, onu oradan çıxarsın. Sözügedən şəxs onun yanına gəldi. Onlar bu məsələ barədə söhbət edərkən rumilər əksər əsgərlərin və gecə keşikçilərinin çıxıb getdikləri və gündüz keşikçilərinin hələ gəlib çıxmadıqları bir məqamda qəflətən qaladan çıxdılar və o mövqeyin üstünə tökülüşdülər. Bir dəstə yeniçəri gəliş-gediş yeri olan küçənin giriş yolunu tutaraq, tüfəng atəşlərinin köməyi ilə gəliş yolunu bağladılar. Digər bir dəstə isə o evi mühasirəyə alıb, qapıdan və pəncərədən içəriyə çoxlu ox və tüfəng atdılar. Axırda onlar evə daxil oldular.

***Şahrux xanın rumilərin əlinə əsir düşməsi.*** Şahrux xan, onun «Zəhrimar» [ləqəbi] ilə məşhur olan və mötəbər əmirlərdən, zamanənin şücaətlilərindən sayılan oğlu Əbülqasim sultan, Piri bəy Eşikağasıbaşı və orada olan neçə nəfər digərləri mərdliklə vuruşdular. Şahrux xan yaralanıb, əsir düşdü. Digərləri isə şəhidlik şərbətini içdilər. Rumilər onun Şahrux xan olduğunu öyrəndikdə dərhal geri qayıdıb, onu qalaya çatdırdılar. Şəhərdə rumilərin [qaladan] çıxması və Şahrux xanın mövqeyində döyüş baş verməsi xəbəri yayıldı. Hər tərəfdən qızılbaşlar oraya hücum çəkdilər. Lakin onlar çatana qədər rumilər geri qayıdıb, onu qalaya aparmışdılar.

Bu hadisənin baş verməsi səbəbindən qaladan sevinc qışqırtıları yüksəldi. Bayırdakıların ürəyini isə qəm-qüssə bürüdü. Mühasirədəkilər qalanı müdafiə etməyə cəsarətləndilər. Qızılbaşların isə əhvalı pərişan oldu. Nəvvabi-Cahanbani bu hadisəyə baxmayaraq, öz misilsiz xatirinə kədəri və qəmi yaxın buraxmadı və buyurdu:

- Hər kim ki, artıq dərəcədə özbaşınalıq edib öz vəlinemətinin sözünü eşitməsə, bunun nəticəsi heyifsilənmək və peşmançılıqdan savayı bir şey olmayacaqdır.

Amma bununla yanaşı, [Şahrux xan] din və dövlət yolunda çalışmış bir adam olduğundan onun xələflərinə nəvaziş göstərildi. Möhürdarlıq mənsəbi onun

oğlu Əsləməs xana verildi. Həmçinin Əbülqasim sultanın mənsəbi onun oğlu Təhmasibqulu sultana mərhəmət olundu. Piri bəyin oğlu Rzaqulu bəy hüsn-camal sahibi olan bir yeniyetmə idi. O da öz atasının yerinə eşikağasıbaşı [təyin] edildi. Zülqədər tayfasının əvvəlki qaydada həmin səngərdə qalması müəyyənləşdirildi. Amma onlar öz səngərlərinin keşiyindən, qorunmasından və mühafizəsindən savayı bir iş görə bilmədilər.

Bu zaman daha bir ikrah doğuran hadisə baş verdi. Belə ki, «kəluquş» adı ilə məşhur olan, on beş batman ağırlığında daş atan və cənnətməkan şahın topxanasına məxsus olub, qalalardan birində saxlanılan bir topu qalanın ətəyinə gələrək, ön tərəfdən bürclərdən birinə nişan alıb atdılar və bürcün yarısı onun güllələrinin təsirindən töküldü. Lakin rumilər günün günorta çağı səngərə tökülüşüb, oradakı adamları tüfəng atəşləri ilə pərən-pərən salaraq, topun halqalarına kəndir saldılar, daha sonra isə adamların cəmləşməsinə qədər təcili surətdə geri çəkilib, topu [qala] divarlarının ətəyinə çəkdilər, oradan da qalaya apardılar.

Hadisələrdən digər birisi bu idi ki, iki aydan sonra toptökmə işinə hazırlıqlar tam başa çatdırılmışdı və qızılbaş oyanları bu işin icra olunması üçün toplaşmışdılar. Lakin qışın şiddətindən və günəş şüalarının zəif düşməsi səbəbindən top qəlibləri yaxşı qurumamışdı və rütubətə malik idi. Buna görə də kürədə əridilmiş misi qəliblərə tökdükdə həmin ərinmiş mis fışqıraraq, qəliblərdən havaya sıçrayıb, ətrafa və yan-yörəyə dağıldı. Az qala zati-aliləri [Həmzə mirzənin] müqəddəs vücuduna ondan xətər toxunacaq və o, ərinmiş misin ziyanından zərər çəkəcəkdi. Ulu Yaradan onu hifz etdi. Amma müqərrəblərdən və müqəddəs büsatda hazır olan şəxslərdən neçə nəfəri əridilmiş misin ziyanından zərər çəkdilər və yandılar. Beləliklə, iki ay ərzində top tökməyin intizarım çəksələr də, əmələ gəlmədi.

Bu hadisədən sonra müqərrəblər zümrəsindən olan Hüseyn bəy Ənisin oğlu Barxudar bəy Topçubaşı top tökməyə məmur edildi. O, qırx beş gün ərzində bu işin ləvazimatını hazır etdi. Münəccimlərin qərarlaşdırdıqları uğurlu bir saatda ali məclis tərtib olundu və bu dəfə taleyin qüvvəsi ilə iyirmi beş batman daş atan böyük bir top arzu olunan şəkildə tökülüb hazırlandı. Həmin topu Nəvvabi-Cahanbaninin səngərinə aparıb, orada quraşdırdılar və topçular öz işləri ilə məşğul olmağa başladılar.

Lağım işi də irəliləməkdə idi. Məlumatlı adamlar təxmin və müqayisə ilə müəyyən etdilər ki, [lağım] qalaya çatıbdır. Gecə ikən üç yüz nəfərə qədər işə yarayan cavan təyin edilib göndərildi ki, lağımı dəlib qalaya soxulsunlar, bunu bildirmək üçün gərənay çalsınlar və gərənay sədası gələn kimi bütün səngərlərdən [qala üzərinə] hücum başlasın, Lakin o zaman həmin qalanın ələ keçirilməsi tale qələmi ilə yazılmadığından və bu işin həyata keçirilməsi kama yetmiş hökmdar, Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti və dünyanı bəzəməsi zamanına qədər təxirə salınmalı olduğundan o vaxt qalanın alınmasına imkan verməyən bir

hadisə baş verdi. Xülasə, lağımdakı igidlər lağımı tez başa çatdırmağa çalışdıqlarından təxmin və müqayisədə səhvə yol verib, Şirhacı [adlı yerdə] lağımı dəlib baş qaldırdılar. Məlum oldu ki, qalaya çatmaq üçün hələ bir neçə gün də iş görmək lazımdır. Buna görə də onlar dəliyi qapayıb, öz işlərinə davam etdilər. Bu əsnada dövlət ərkanının böyüklərindən olan qorçubaşı Qulu bəy Əfşarın və onun qardaşı oğlu, Nəvvabi-Cahanbaninin qorçubaşısı Cabbarqulu bəyin qalaya fərar etməsi hadisəsi baş verdi və bu hadisə qalanın alınmasının təxirə düşməsinə səbəb oldu.

**Qorçubaşının fərar etməsi və rumilərin qalasına getməsi.** Bu mövzunun icmal yolu ilə izahı belədir ki, Qulu bəy Qorçubaşı bütün işlərdə Məhəmməd xanla və s. əmirlərlə müttəfiq olmuş və Nəvvabi-Cahanbaninin möhtərəm anasının qətlə yetirilməsi, Mirzə Salmanın öldürülməsi və zati-aliləri [Həmzə mirzənin] xatirində təbii olaraq ikrah doğuran digər əməllər məhz onların iradəsi və qərarı əsasında baş vermişdi. Həmişə zati-alilərinin xatirinin mərkəzində belə bir düşüncə mövcud idi ki, macal düşəndə o təbəqədən intiqam alsın. Lakin rumilərin gəliş-gedişi hadisələri onun bu düşüncəsinin gerçəkləşməsinin yubanmasına və təxirə düşməsinə səbəb olurdu. Məlumatlı və təcrübəli bir şəxs olan qorçubaşı bu məsələni anlayıb, həmişə xoflu və ürkək vəziyyətdə idi. Nəvvabi-Cahanbani də ondan bədgüman idi.

Bu vaxt Məhəmməd xanla Vəli xan fitnəkarlıq mövqeyini tutub, Əmir xanın qanının intiqamını almaq məqsədi ilə bir-birləri ilə ittifaq edərək, şanlı orduya doğru yollanmış və Təbriz yaxınlığına çatıb, üsyan və tüğyan nümayiş etdirməyə başlamışdılar. Həmin zaman [Həmzə mirzənin] nurlu xatirinə gəldi ki, birdən, dövlətin ümdə dayaqlarından olan qorçubaşı gizli surətdə türkman və təkəlü tayfaları ilə müttəfiq olar və onların gəlişi vaxtı o, növbənöv fəsadlar törədə bilər. Əmir xanın qanına bais olmuş Əliqulu xan Fəthoğlu və Məhəmmədi Sarısolağ aranı daha da qızışdırıb, Nəvvabi-Cahanbaninin beyninə bunları yeritdilər:

- O təbəqənin gəlişindən öncə qorçubaşını aradan qaldırmaq lazımdır və bunun təxirə salınması caiz deyildir. Çünki o camaatın gəlişindən sonra onlar bir-birlərinin köməyi ilə nə istəsələr həyata keçirə bilərlər.

Bu sözlər [Həmzə mirzənin] ürəyində özünə yer tapdı. O güruhun (türkman və təkəlü tayfalarının) gəlişinin avazı yayıldıqda, qala mühasirəsi əsnasında [qorçubaşının] işini bitirmək qərara alındı və neçə gün bundan əvvəl ərəşlü tayfasından üç yüz nəfərlə ulu dərgaha gəlmiş Əmiraslan xan Ərəşlü Əfşarın oğlu Təhmasibqulu sultan qorçubaşılıq mənsəbinə namizəd edilib, belə bir əmr aldı ki, [Qulu bəy Əfşan] aradan qaldırsın. O, bu tapşırığı icra etməyə yollandı.

Qorçubaşı da xain adamlar kimi xoflu idi. Türkman və təkəlülərin gəlişi barədə dalbadal xəbərlərin gəlib çatdığı o bir neçə gün ərzində olduqca narahatçılıq keçirirdi və səngərdən evə gəlib, özünü xəstəliyə vuraraq, neçə gün evdə oturmaqla bu təbəqənin gəlib çatmasının intizarını çəkirdi. Təhmasibqulu xanı bu xidmətə təyin etdikləri gün qorçubaşının qardaşı oğlu Cabbarqulu bəy zati-alilərinin

hüzurunda və behişt bəzəkli məclisdə idi və o, bu məsələni fərasətlə anlayıb, dərhal oradan [əmisinin] yanına gələrək, onu bu hadisədən agah etdi. Onlar bu çətin məqamda rumilərin qalasına getməkdən savayı çarə tapmadılar və Təhmasibqulu sultanın qoşun və ləşkərlə onun evinin qapısına çatdığı vaxt hər ikisi birlikdə bağça yolundan özlərini bayıra atıb, öz səngərlərinə gedən yolla qalaya doğru üz tutdular. Onlar qalanın ətəyinə çatdıqda öz [qızılbaş] taclarını başlarından götürüb, xəndəyə atdılar. Qalanın üstündən bu halı müşahidə edən rumilər qapını açaraq, onları qalaya gətirdilər və bu hadisəni qızılbaş tayfası üçün bədbəxtlik, özləri üçün isə xoşbəxtlik bilərək, sevinc qışqırtılarını Keyvan eyvanına çatdırdılar.

Həmin gün Cabbarqulu bəy qalada lağımın üstünə gedib, rumiləri lağım vurulması barədə məlumatlandırdı və lağımın Şirhacıda açılmış dəliyini onlara nişan verdi. Rumilər lağımın üstünü açıb, tüfəng atəşləri ilə lağımdakı işçiləri həlak etdilər və lağım yolu ilə qəflətən Həsən padşah mədrəsəsinə çıxdılar. O səngərdə böyük bir dava-dalaş baş verdi. Bu barədə Nəvvabi-Cahanbaniyə və Əliqulu xana xəbər çatdıqda ətrafdan və yan-yörədən oraya hücum çəkildi və tərəflər arasında böyük bir döyüş getdi. Hər iki tərəfdən bir çoxları həlak oldular. Rumilər lağımdan öz məqsədləri üçün istifadə edib, həmin lağımdan tüfəng ataraq, «sibə» əhlinə zərər vururdular. [Qızılbaşlar] əlacsız qalıb, lağımı bir neçə yerdən dəldilər, gah oraya torpaq tökdülər, gah tüstü buraxdılar və axırda lağımın ortasına su buraxıb, oranı doldurdular. Bununla da yol bağlandı və üç ay ərzində qalanın fəth edilməsinin müyəssər olması ümidi ilə lağımın qazılması üçün çəkilmiş zəhmət tamamilə zay və əbəs oldu.

Türkman və təkəlü tayfaları yaxınlığa çatmışdılar. Günbəgün onların fitnə-fəsad xəbərləri gəlməkdə idi. Buna görə də [Həmzə mirzə] qala əməliyyatından əl çəkib, onların işini həll etməyin fikrinə düşdü. Təbrizlilərdən və Azərbaycan camaatından ibarət bir dəstə təyin olundu ki, səngərlərdə oturub, qalanın darvazalarını gözləsinlər ki, rumilər bayıra çıxa bilməsinlər və bu müddətdə Nəvvabi-Cahanbani ilə əmirlər [türkman və təkəlülərin] dəf edilməsi ilə məşğul olsunlar.

***Sədr Mir Şəmsəddin Məhəmməd Xəbisinin vəfatı.*** Bu ilin hadisələrindən biri də [günahları] bağışlanmış sədr Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmaninin ölüm hadisəsidir. O, Təbriz qalasının mühasirəsi əsnasında «sur əl-ğəniyyə» xəstəliyindən vəfat etdi. Sözügedən şəxs böyük məqamlı, yüksək şöhrətli və yaxşı əxlaqlı bir seyid idi və çoxlu qabiliyyət və istedada malik idi. Riyaziyyat, heyət (astronomiya), rəml və nücum (astrologiya) elmlərinə vaqif idi. Səmimi təbiətli və çox xoşsöhbət bir adam idi. Yaxşı şeir deyərdi. [Şeirdə] təxəllüsü Fəhmi idi. Sədarət (sədr) kürsüsündə qərar tutduğundan İsgəndər şanlı nəvvab onun hörmət və ehtiramının saxlanmasında və ona iqtidar və ixtiyar verilməsində ifrata varmışdı. İrili-xırdalı bütün şəriət məsələləri onun rəyinə və düşüncəsinə həvalə olunmuşdu. Sözügedən şəxs dərya qədər səxavətli əlini bəxşiş və ehsan vermək məqsədi ilə açıb, məmləkətlərin vəqf vergilərindən, cənnətməkan şahın nəzirlərindən, firuzə

mədənlərinin xüms vergisindən və s. gəlirlərdən dövlət xəzinəsinə toplanmış yüz min tümənə yaxın nağd qızılı və firuzə tozunu iki-üç il ərzində seyidlərə, üləmalara, salehlərə, füqəralara, elm tələbələrinə və ehtiyacı olanlara paylayıb, bu təbəqənin məşhurlarına böyük hörmət göstərmiş və bir çoxları onun vasitəsilə padşahın ehsan süfrəsindən bəhrə götürmüşlər. Rəngarəng şeirləri vardır. Onun qəzəllərindən və rübailərindən bir neçə beyt burada qeyd olunur:

**Qəzəl**

«Eşq şərabı hər içən üçün bir başqa cür keyfiyyətə malikdir,
O, Şirin üçün Fərhada dağ sökdürər, Xosrovu haldan-hala salar.
Badə bardağı başda gedər Fəhmi meyxanəyə,
Mehrabına gəlməsin baş aşağı, xoş himmətə malikdir».

**Rübai**

«Onun meyxanəsində şərab digərdir,
Məhəbbət şəriətində ihtisab digərdir.
Sənin sərxoşların xəbərsizdir hesab günündən,
Bu tayfadan məhşərdə hesab digərdir».

**Rübai**

«Öz gözəlliyi ilə yüz huridən üstün olan xristian balası,
Elə bil, atəşpərəst məbədinin yanan atəşi kimidir.
Rizvan sanki odunçu kimi, onun atəşkədəsi üçün
Bütün tuba ağaclarını kəsib, cənnətdən gətirir»[1056].

Ölüm vaxtı bu rübaini demişdi:

«Biz bu fani dünyadan gedəcəyik,
Məzarın içində taqətsiz yatacağıq.
Dilsizlik dili ilə torpağın qulağına
Fələyin vəfasızlığı barədə söz deyəcəyik».

---

[1056] Rizvan - islam mətnlərinə görə, cənnətin gözətçisi və qapıçısı olan mələyin adı.

## TƏKƏLÜ VƏ TÜRKMAN TAYFALARININ TƏBRİZƏ GƏLMƏSİ, DAHA SONRA O FİTNƏKAR CAMAATIN GERİ QAYITMASI VƏ O ƏSNADA ÜZ VERMİŞ DÖYÜŞLƏR VƏ VURUŞLAR HAQQINDA

Bundan öncə bəyan səhifəsi üzərinə dili qırıq qələmlə yazıldı ki, Əmir xanın həbsindən sonra Məhəmməd xan Türkman bu hadisənin baş verməsindən, Əliqulu xan Fəthoğlunun tərəqqi edib yüksəldilməsindən, şamlu və ustaclu tayfalarının etibar və iqtidar qazanmasından narahat olaraq, Kaşandan Həmədana getmişdi. Əmir xanın qardaşları və övladları da oraya cəmləşib, Vəli xan Təkəlünü özlərinə müttəfiq edərək, fitnə-fəsad qaldırmağa hazırlıq gördülər və həmin iki tayfanın (şamlu və ustacluların) etibarını zay edib sındırmaq mövqeyini tutdular. Rum qoşununun gəlməsinə, gözəl Təbriz şəhərinin işğal olunmasına və səltənət qərargahından onların gəlməyi barədə əməl edilməsi vacib olan hökmlər yazılmasına baxmayaraq, onlar gəlməkdən boyun qaçırdılar. Onların bu hərəkətlərindən ictimaiyyət arasında belə məlum oldu ki, türkman və təkəlü əmirləri və əyanları bir-birləri ilə əhdü-peyman bağlayaraq qərara almışlar ki, kütləvi şəkildə şanlı orduya gedib, Nəvvabi-Cahanbanini onların istəklərinə uyğun hərəkət etməyə, Əliqulu xan Fəthoğlunu, Məhəmmədi Sarısolağı və Əmir xanın digər qatillərini qisas alınması üçün [Əmir xanın] oğullarına təslim etməyə, şamlu və ustaclu tayfalarını nüfuzdan salıb, bu iki oymaqdan heç bir vücud sahibini öz xidmətinə buraxmamağa məcbur etsinlər və bununla da dövlət işləri əvvəlki təki onların rəyindən və razılığından asılı olsun. Onlar məhz bu batil düşüncə və bihudə anlaşma ilə bir-birlərindən ayrılıb, hər biri öz ölkəsinə və iqtasına getdi ki, öz qoşun və ləşkərlərini tərtib və təchiz etsinlər, daha sonra isə müəyyənləşdirdikləri vaxtda yola çıxıb, bir yerə toplaşsınlar.

Öz tayfasının mötəbər əmirlərindən sayılan və Əlişəkər qələmrovunda ölkə sahibi olan Solağ Hüseyn Təkəlü bu məsələnin əleyhinə çıxdı və Vəli xanı bu işdən çəkindirməyə çalışaraq, ona xəbər göndərdi: «Sən türkmanların təhriki ilə fəsad törətmək yolunu tutma və sədaqət ipinin ucunu əldən vermə! Bir halda ki, sən Bağdad sərhədinin mühafizəsinə məsulsan və sənin oradan çağırılmağınla bağlı əşrəf tərəfindən hökm verilməyibdir, sən Məhəmməd xanın sözü ilə öz məkanını tərk etmə! Padşahlar öz qoşunlarının başı və malı üzərində ixtiyar sahibidirlər. Bizim öz padşahımıza və padşahzadəmizə qarşı etiraz dilimizi uzadaraq Əmir xanın qətli barəsində söz deməyimiz sədaqət və itaət yolundan uzaq olan bir hərəkətdir». Bu xəbərdarlıqdan sonra Vəli xan ondan vahimələndi və narahat oldu ki, o, təkəlü ağalarının [qiyam barəsindəki] düşüncələrini korlaya bilər. Buna görə də [Vəli xan] ona qarşı inadkarlıq məqamına gəldi. Tərəflər arasında müxtəlif narazılıqlar üz verdi. Axırda iş o yerə gəlib çatdı ki, Vəli xan təkəlü tayfasının əksərini özünə müttəfiq edərək, Məhəmməd xanla birlikdə onun üstünə getdi və tərəflər arasında döyüş baş verdi. Solağ Hüseynin adamları dünyasevərlik göstərib, müdafiə məqamında çox durmadılar. Hərb və zərb əsnasında Solağ Hüseyn ağır bir

yara alıb, müdafiə olunmağa aciz qaldı və əsir düşdü. Vəli xan onu ələ keçirib, Təbrizə doğru hərəkət zamanı onu aradan qaldırdı.

Xülasə, Osman paşanın qayıtması, Təbrizdə qala tikilməsi və calal bayraqlarının qalanın ətrafına gəlib oranı mühasirəyə alması barədə xəbərlər İraqa çatdıqda türkman və təkəlü əmirləri öz zahirlərini xidmətkarlıq libası ilə bəzəsələr də, batinən öz məqsədlərinə çatmaq üçün Təbriz səmtinə üz tutdular. Məhəmməd xan Kaşanda, Qumda və Savədə olan türkman tayfası ilə, Müseyib xan Şərəfəddinoğlu Təkəlü Tehrandan, onun qardaşı oğlu Muxtar sultan Vəramindən, Vəli xan Təkəlü, onun oğlu Əli sultan Pakmal və Əmir xanın qardaşları, oğulları və tabeçiləri Həmədandan yola çıxıb, tərtib olunmuş qoşunlarla bir yerə cəmləşdilər və İraqın hər tərəfinə adam göndərib, türkman və təkəlü tayfalarından hər bir kəs hansısa bir mahalda yaşayırdısa, onların hamısını toplayıb hazır etdilər. Nəticədə, onların ordusunda böyük bir izdiham yarandı.

Fars [vilayətinin] əmirülümərası Ümmət xan Zülqədər və onun tabeçiliyindəki əmirlər Xorasan yürüşündən qayıtdıqdan sonra Azərbaycan yürüşünə tədarük və hazırlıq görmək üçün öz ölkələrinə getməyə rüxsət almışdılar. Bu zaman onlar hazırlıqlarını sona çatdıraraq, yola çıxmışdılar və İraqa gəlib çatmışdılar. Orada Məhəmməd xan onunla görüşərək, onun və zülqədər tayfasının üzünə mülayimlik və dostluq qapılarını açdı və onlara uzlaşma təklif etdi. Ümmət xan düşündü ki, üz vermiş bu fəsadı öz sülh niyyətli vasitəçiliyi ilə islah edə bilər və bunun nəticəsində əşrəfin və hamının könlü ondan razı qalar. O, məhz bu niyyətlə onlara qoşulmağı qəbul etdi və onlar birləşərək, birlikdə yola çıxdılar. Get-gedə Məhəmməd xan və yoldaşları incə hiylələrlə Ümmət xanı öz xatirlərində gizli olan məsələlərdə özlərinə müttəfiq etdilər. Ümmət xan aqil, təcrübəli, düşüncəli və tədbirli adam olmasına baxmayaraq, vəsvəsə və əfsun sayəsində doğru yolu azıb, xəta istiqamətini tutaraq, onlara rəfiq oldu.

Bu xəbərlər darüssəltənə Təbrizə çatdıqda onların toplaşmağının və ittifaqının fitnə-fəsada dəlalət etdiyi aydın olsa da, amma Nəvvabi-Cahanbani istədi ki, onların könlündəki gerçək niyyəti, onların dost, yoxsa düşmən olduqlarını hamı arasında aşkara çıxarsın. Hər iki tərəfdən bir-birilərinə elçilər göndərildi. Əvvəlcə İsgəndər şanlı nəvvab tərəfindən onların yanına adam göndərilərək, onların adına bol-bol hüsn-rəğbətə əsaslanan cəlbedici fərmanlar yazılıb göndərildi: «Siz bu yüksək sülalənin tərəfdarları və dövlət-sevərlərisiniz və neçə illik xidmət hüququna maliksiniz. Osman paşanın və Rum qoşununun bu xanədanın (Səfəvilərin) köhnə səltənət mərkəzi olan Təbriz vilayətini işğal etmək üçün bu hüduda və ölkəyə gəldikləri bir vaxtda tərəfdarlıq yoluna, qeyrət və ləyaqət hissinə yaraşan iş o idi ki, siz bu xəbərləri eşidəndən sonra narahat olaraq, sizin çağırılmağınızla bağlı hökmdarın fərmanı yazılmazdan öncə fədakarlıq və sədaqət üzündən, bir-birinizlə birləşməyə və ittifaq etməyə muğayat olmadan, hər biriniz ənənəvi qaydada sürət və tələskənliklə səltənət və səadət taxtının ətəyinə doğru yola düşüb, canfədailik nümunələri göstərəydiniz. Qüdrətli dövlətin

düşmənlərinin dəf edilməsindən sonra isə əgər bir mətləbiniz və iltimasınız vardısa, ərz edərək, öz mətləblərinizin yerinə yetirilməsini xahiş edəydiniz. Lakin siz bu işi etməkdən boyun qaçırdınız. Sizin çağırılmağınız barədə böyük təkidlərlə israrlı hökmlərin göndərilməsinə baxmayaraq, etinasızlığı həddən aşırdınız. İndi sizin hökmdar ordusuna gəlməkdə olduğunuz bir məqamda eşidilir ki, böyük qüvvə toplayıb, kütləvi surətdə gəlirsiniz və buradan sizin fitnəkarlıq və nifaq üçün ittifaq etdiyiniz aydın olur. Əgər siz, həqiqətən də, sədaqət və tərəfdarlıq yolunda sabitqədəmsinizsə və öz itaət boynunuza fərman icraçılığı kəməndini keçirmisinizsə, onda bunun qaydası odur ki, şübhəmizi aradan qaldırmaq üçün bir-birinizlə birgəlik və ittifaq etməyə muğayat olmadan, hər biriniz öz qoşun və ləşkərinizlə əlahiddə surətdə itaət və bəndəlik üzünüzü ali taxtın ətəyinə doğru tutub gələsiniz, büsatı öpmək şərəfinə nail olasınız və hər biriniz hansı xidmətə məmur olunsanız, onun yerinə yetirilməsi ilə məşğul olasınız. Belə olacağı təqdirdə sizə münasibətdə lütf və şəfqətdən savayı heç bir tədbir görülməyəcəkdir».

Bundan başqa, hökmdar tərəfindən Müseyib xan Şərəfəddinoğlu Təkəlüyə ayrıca ismarış göndərilmişdi: «Sənin zati-alimizə çox yaxın münasibətin vardır. Əgər türkman əmirləri Əmir xanın qətli səbəbindən mənim möhtərəm oğlumdan vahiməyə düşüblərsə, sənin bu işlərə nə dəxlin var axı? İrsi sədaqətinizə layiq olan və padşahın sizə göstərdiyi qayğı və mehribanlığa tən gələn hərəkət budur ki, özünü o təbəqənin məcmusuna daxil etmə və var qüvvənlə səy edib, xilafət məqamlı taxtın ətəyinə yollan!»

Sözügedən əmirlər də ulu dərgaha ərizə göndərərək, qulamlıq və fədakarlıqlarını izhar etdikdən sonra bunları bildirdilər: «Şərəfli qəlbinizə aydındır ki, təkəlü və türkman oymaqları ilə şamlu və ustaclular arasında sabiq zamanlarda mövcud olmuş münaqişə bizim Xorasan hadisələri vaxtı Nəvvabi-Cahanbaniyə tərəfdar olmağımız üzündən yenidən təzələnmiş və həmin hadisələrin gedişində o iki tayfadan bir çoxları türkmanların və təkəlülərin əli ilə qətlə yetirilmişdir. İndi isə onlar ali xidmətdə rəğbətə və şəfqətə layiq görülmüşlər və Nəvvabi-Cahanbanini bizim kimi dövlətsevərlərə münasibətdə bədgüman və namehriban etmişlər. Əmir xanın başına gələnlər də məhz onların fəsadlarının nəticəsidir. Əslində o kişi öldürülməyə layiq olan bir iş görməmişdi. Bizim xahişimiz budur ki, o təbəqənin (şamlular və ustacluların) Nəvvabi-Cahanbaninin xidmətində qədir-qiyməti və dərəcəsi olmasın. Bizim toplanmağımız və ittifaqımız bizə zidd olanlardan xoflandığımızdan irəli gəlir». Eyni zamanda, Müseyib xan da onlarla birgəliyini əsaslandırmaq üçün vəziyyətə münasib gələn sözlər bildirdi.

Sözügedən əmirlərin ərizəsi İsgəndər şanlı nəvvaba və dünya sakinlərinin şahzadəsinə gəlib çatdıqda yenidən itaət edilməsi vacib olan hökmlər cah-calal qərargahından onların adlarına göndərildi: «Sədaqətlə zinətlənmiş bütün qızılbaş tayfalarının bu dövlətə xidmət etmək haqqı vardır. Sədaqət sahiblərini padşahın ehsan süfrəsindən məhrum etmək mürvət qaydalarına ziddir. Əgər şamlu və ustaclu tayfalarından ibarət bir dəstə zamanın zərurətinə uyğun olaraq üsyan qaldırıb

Xorasanda fitnəkarlıq salmışdırsa da, lakin elə həmin tayfaların digər hissəsi İraqda və Azərbaycanda bəndəlik yəhərini çiyinlərində və itaət halqasını qulaqlarında daşıyırlar və onlardan, xüsusilə də ustaclu tayfasının böyüklərindən olan Məhəmmədi xan Toxmaqdan və şamlu tayfasının mötəbər əmirlərindən olmuş Vəli xəlifənin oğullarından çeşidli xidmətlər və fədakarlıqlar zühura gəlib və gəlməkdədir. «Heç kəs başqasının günah yükünü daşımaz» [ayəsinin][1057] zərurətinə əsasən, bu camaatın başçılarına cəza verilə bilməz. Əliqulu xan Fəthoğlunun hüsn-rəğbətimizə tuş gəlməsi isə onunla əlaqədardır ki, bu şəxs səadətli cülusumuzun əvvəlindən möhtərəm oğlum [Həmzə mirzənin] ali üzəngisinin mülazimi olmuş, xidmətlər göstərmiş və ondan itaət və sədaqət yoluna zidd olan heç bir iş müşahidə edilməmişdir. Əgər indi o, hüsn-rəğbətimizin nəzərləri altına cəlb olunaraq, bizim tərəfimizdən himayə qazanıbsa, onun nə qüsuru vardır və ona göstərilən qayğıkeşlik nə üçün digər tayfaya qarşı iltifatsızlıq kimi başa düşülməlidir? O ki qaldı Əmir xanın məsələsinə, bu iş məhz Nəvvabi-Cahanbaninin ondan incik düşmüş şərəfli könlünün iradəsi ilə baş vermişdir. Ona görə də sizin bu barədə söz-söhbət qaldırmağınız əqidəyə və sədaqətə ziddir. Odur ki, Təbriz şəhərinin əldən getdiyi və hamının oradakı qalanı ələ keçirmək üçün səy göstərdiyi bir vaxtda fitnə-fəsad yaratmayın! Əgər bu sözlərimizə xilaf olan addımlar atsanız və fitnəkarlıqda israr etsəniz, o zaman sizin cavabınızı vermək bizə borc olacaqdır. Məgər siz bu işlərin axırını görmürsünüz və nankorluğun iyini duymursunuz?»

Bu dəfə sözügedən əmirlər söz birliyi ilə belə bir cavab göndərdilər: «Biz əvvəlki qaydada iradə və sədaqət üslubuna riayət və əməl edirik. Biz yalnız bizə rəqib və zidd olanların zərər və şərinin özümüzdən kənar olması üçün bir-birimizlə ittifaq etmişik və ali taxtın ətəyinə çatdıqda ali əşrəfin və Nəvvabi-Cahanbaninin xatirinin razılığına uyğun olan və düşmənlərin kam almağına səbəb olmayan hər nə olarsa, ona əməl edəcəyik».

Haqqında bəhs etdiyimiz göndərişlər baş verdikdən və o güruhun hərəkətlərindəki ikitirəlik və nifaq qoxusu hamının burnuna çatdıqdan sonra o güruha yoldaş olmuş Fars [vilayətinin] əmirülümərası Ümmət xana və zülqədər tayfasına Nəvvabi-Cahanbani tərəfindən hüsn-rəğbət və lütfkarlıqdan ibarət olan tabe olunması vacib hökm və inayət fərmanı göndərildi: «Biz sizə qayğıkeşlik göstərərək, Şiraz hakimi və Fars məmləkətinin əmirülümərası vəzifəsinə təyin etməklə əzizləyib, başıuca etmişik. Zülqədər tayfası həmişə bu vilayət nişanəli xanədanın sufisi və tərəfdarı olub. Heç zaman onların təkəlü və türkman tayfaları ilə ülfəti, bu tayfaların əleyhdarlarına qarşı isə nifrəti olmayıb. Əgər o camaat (təkəlü və türkmanlar) toplanmağı və ittifaq etməyi qərara alıb, kütləvi surətdə [buraya] gəlirlərsə, bəs, zülqədər tayfasının bu məsələyə nə dəxli var və sizin onlara qoşulmağınızın səbəbi nədir? Əgər sülh yaratmaq və ağsaqqallıq etmək mövqeyindən çıxış edərək, baş vermiş fəsadın sizin vasitəçiliyiniz əsasında dinc

[1057] «Qurani-Kərim», «Ənam» surəsi, 164-cü ayə.

yolla nizamlanacağını nəzərdə tutubsunuzsa, onu bilin ki, digər oymaqların ağsaqqalları və xeyirxah, nəcib fikirli adamları ulu dərgahdadırlar. Siz də cahanın pənahı olan dərgaha gəlin, oymaqların ağsaqqalları ilə müttəfiq olun və qüdrətli dövlətin faydasına uyğun gələn hər hansı bir xahişiniz olsa, ərz edin. Yox, əgər Ümmət xan və Fars [vilayətinin] zülqədər tayfası da sədaqət yolundan sapıb, o təbəqənin (qiyamçıların) fitnə-fəsadına şərik olsalar, onda nemətə nankor çıxanlar nemətə nankor çıxmağın üfunətini tezliklə hiss edəcəklər».

Sözügedən hökmlər Nəvvabi-Cahanbaninin Kor Həbib [adı] ilə məşhur olan söhbət yasavulu Həbib bəy Zülqədərlə göndərildi. O, [qiyamçı] əmirlərin ordusuna çatdıqdan sonra Ümmət xan fərmanın məzmunundan xəbərdar oldu və Məhəmməd xanla and içib bağladığı əhdü-peymana sadiq qalaraq, onun (Məhəmməd xanın) və onun yoldaşlarının məsləhətinə əməl edib, padşahın əmrinə tabe olmadı. Məhəmməd xan və onun yoldaşları olan əmirlər bununla kifayətlənməyərək, Ümmət xana təklif etdilər ki, özünün səmimi-qəlbdən onlarla müttəfiq olduğunu zahir etməkdən ötrü Həbib bəyi qətlə yetirsin. Zülqədər [tayfasının] aqibəti düşünən bəzi nümayəndələri Ümmət xanın bu yaramaz əməli törətməsinə razı olmasalar da, Məhəmməd xan o barədə israr etdi. Ümmət xan istər-istəməz Sultaniyyə çəmənində o günahsızın qətlini həyata keçirdi və onun qətlindən sonra onlar hərəkətə gəlib, köçhaköçlə Təbrizə yollandılar.

Elə ki Həbib bəyin qətli barədə həqiqət şövkətli [Həmzə mirzənin] qulaqlarına çatdı və sözügedən [qiyamçı] əmirlər şəhərə yaxınlaşdılar, Nəvvabi-Cahanbani dəftərxana daruğası vəzifəsini tutan, öz tayfasının böyüklərindən olan və ata-babasının bu dövlət qarşısında köhnə xidmətləri olmuş Fəthi bəy Pərvanəçinin[1058] oğlu Əlixan bəy Türkmanı elçi kimi Məhəmməd xanın yanına göndərdi ki, ona nəsihət verib, bunlan bildirsin: «İxlas və sədaqət yolunun yolçusu olun! Nəvvabi-Cahanbaninin razılığına uyğun hərəkət edin! Əmir xanın qətli barədə əsla söz deməyin! Bu məsələ üstündə Əliqulu xan Fəthoğluya və Məhəmmədi bəy Sansolağa qarşı inad və ziddiyyət nümayiş etdirməyin! Təbriz qalasının alınmasından sonra Əmir xanın xələfləri barədə nə məsləhətiniz olarsa, həyata keçiriləcəkdir».

Sözügedən Əlixan bəy [qiyamçı] əmirlərin ordusuna çatdı və özünü xəstəliyə vurub, geri qayıtmadı. [Qiyamçılar] irəliləyib, daha da yaxına çataraq, şəhərin civarında dayandılar. Heydər sultan Çabuğun oğlu Ədhəm xan Türkman öz tayfasının mötəbər şəxslərindən idi, Nəvvabi-Cahanbaninin xidmətində əziz və möhtərəm idi, Əliqulu xanla da tamam ülfətə malik idi və həmişə ali məclisdə türkmanların yöndəmsiz hərəkətlərindən xəcalət çəkərdi. Nəvvabi-Cahanbani onu bu xəcalət və başıaşağılıqdan xilas etmək məqsədi ilə ona əmr etdi ki, həmin [qiyamçı] camaatın arasına gedərək, öyüd və nəsihətlə onların fitnə-fəsadını aradan qaldırsın, əgər onlar onun nəsihətini qəbul edərlərsə, onda onun vasitoçiliyi ilə

[1058] Pərvanəçi - sarayda fərman yazmaq işi ilə məşğul olan məmur.

hicab pərdəsi altından çıxıb, [Həmzə mirzənin] hüzuruna gəlsinlər və əgər qəbul etməsələr, o zaman Ədhəm xan öz oymağının yanında qalsın. Çünki aydın idi ki, əgər sözügedən əmirlər inad və tərslik yolunun yolçusu olmaqda davam etsələr, onu da Əlixan bəy və digərləri kimi tutub saxlayacaqlar.

Həmin şəxs də bu məsələyə rəğbət göstərib, məqsədə doğru yollandı. O da öz dostlarının getdiyi kimi getdi. Əlbəttə ki, onun sözləri də bir təsir etmədi və Məhəmməd xan onun gəlişini qənimət bilərək, onu da tutub saxladı. Elə ki [qiyamçılar] Təbrizin dörd fərsəxliyində yerləşən Səidabad mövqeyinə çatdılar və onların müxalifliyi və üsyankarlığı tam aydın oldu, təkəlü və türkman camaatından orduda olan hər kəs xoflu və ürkək olub, pərən-pərən düşərək fərar etdilər və gedib onlara qoşuldular. Öz tayfasının əmirzadələrindən olan, yuxarıda xatırlanmış Cabbarqulu bəyin qalaya fərar etməsi hadisəsindən sonra onun əvəzinə Nəvvabi-Cahanbaninin qorçubaşısı mənsəbinə yüksəldilən, ləyaqətli və mərd adam sayılan Keçəl Mustafa Əfşar heç bir zahiri səbəb olmadan fərar edib, tüğyançı əmirlərə qoşuldu. Həmin bir neçə gün ərzində Nəvvabi-Cahanbanidən özünə qarşı mənfi münasibətin olduğunu güman edən hər kəs bir-bir, iki-iki fərar edib, gecə yarısı qaçaraq, o [qiyamçı] təbəqəyə birləşirdi və düşmənçilik, ziddiyyət amilləri daha da qüvvətlənirdi.

Nəvvabi-Cahanbani əksər vaxtlar təhlükəsizlik məqsədi ilə öz səngərinə yaxın olan Əliqulu xanın məskunlaşdığı Əmir xana məxsus qalada qalırdı və o camaatdan qəflətən kütləvi fəsada səbəb olacaq bir iş törənə biləcəyinin mülahizəsi ilə İsgəndər şanlı nəvvaba da oraya gəlməyi təklif etdi. O həzrət, şahzadələr və hərəm əhli hamısı Əmir xanın qalasına köçdü, hökmdar dövlətxanası orada qərar tutdu və Əliqulu xan da xidmət və keşik işlərinin təşkili üçün orada qalıb, qonaqpərvərlik və xidmətkarlığın zərurətlərini həyata keçirməyə başladı. Böyük əmirlərdən, möhtərəm qorçulardan və xalis mülazimlərdən ibarət bir dəstəyə əmr olundu ki, həmişə keşik üçün hökmdar dövlətxanası qapısında hazır dayansınlar və digər bir dəstə isə təyin olundu ki, İraq yolundan gəlib-gedənlərin gediş-gəliş yeri olan şəhər xiyabanının o başına kimi gedib, orada qaravul çəkərək, [qiyamçıların] hərəkətlərindən xəbərdar olsunlar.

[Qiyamçılar] Səidabaddan köç edib, şəhərin iki fərsəxliyində olan Fəhusfənc mövqeyinə çatdıqda onların əsgərlərindən bəziləri yaraq bağlayıb, qaravul üslubunda irəli gəldilər və müşahidə etdilər ki, bu tərəfdəkilər də tədbir və ehtiyat zərurətlərinə riayət edirlər. Ertəsi gün onlar Nəvvabi-Cahanbaninin hüzuruna adam göndərib, əvvəlki mətləblərini təkrar etdilər. Onların kəlamının məğzi bu idi: «Ustaclu tayfası heç bir cinayəti olmayan Əmir xanın qətlinə təşəbbüs etmişdir. Biz Əliqulu xan Fəthoğlunu onun qanının baiskarı hesab edirik. Nəvvabi-Cahanbani qatilləri tutub, Əmir xanın oğullarının əllərinə təslim etsin ki, onlardan qisas alınsın. Əks təqdirdə biz onların bu cür izzət və etibarla ali xidmətdə dövlətin əsas dayaqları olmalarını müşahidə etmək dözümünə və taqətinə malik deyilik». Nəvvabi-Cahanbani də əvvəlki tərzdə cavab verdi və [elçilərin] gəliş-

gedişi təkrarlandı. Aydın oldu ki, o güruh öz mətləbinə nail olmayınca başını itaət və tabeçilik çənbərinə qoymayacaqdır. Bəlkə də, onlar iqtidar və istiqlal üzündən zor və qələbə ilə şəhərə daxil olub, öz niyyətlərini həyata keçirmək iradəsinə malik idilər. Onların mətləbinin baş tutması padşahlığın qeyrət və ləyaqətindən uzaq və ağıl mizanında düşünülməmiş addım olardı. Buna görə də Nəvvabi-Cahanbani vaxtın və zamanın zərurəti üzündən riayət etdiyi barışıq və anlaşma yolundan yüyənini çəkib, danlaq və məzəmmət səmtinə meyil etdi və onun qeyrət alovunun alışması nəticəsində o, öz mübarək dilinə onlara qarşı danlayıcı sözlər gətirdi.

O güruh iki gün Fəhusfəncdə qalıb, üçüncü gün kütləvi surətdə atlanaraq, səf bağladılar və əvvəlcə cərxçini önə salaraq, döyüş əsləhəsi və yaraqları ilə xiyabanın girişinədək gəldilər. Onların bu şəkildə və bu qaydada atlanması xəbəri şəhərə çatdı. Aydın oldu ki, o camaata öyüd-nəsihət təsir etmir və onların fitnə, fəsad və ədəbsizlik atəşi qılınc və nizənin təhriki olmadan sönən deyildir. Səltənət namusu bunu zəruri etdi ki, bu tərəfdən də iqbal əsgərləri o güruhu cəzalandırmaq üçün hazır olsunlar. Bir sıra böyük əmirlər, xüsusən də ustaclu əmirləri və Əliqulu xanın tabeçiləri onların qarşısına göndərildilər. Qiyamçıların zəfər şüarlı əsgərlərə qalib gələ bilmə ehtimalı nəzərə alınaraq, ali məiyyət də onların ardınca hərəkətə gəldi. İsgəndər şanlı nəvvaba da atlanmağı təklif etdilər. [Həmzə mirzə] öz yüksək dərəcəli atasının səadətli rikabının yanında hücum və calal bayraqlarını dalğalandırıb, o alçaqların üstünə tələsdi. O camaatın ədəbsizliyi və tərsliyi həddini aşıb [Həmzə mirzənin] xosrovanə qəzəb odunu alışdırdığından əmirlərdən, dövlət ərkanından və səltənət pilləsinin nəcib fikirli şəxslərindən heç kəsin qüdrəti olmadı ki, Nəvvabi-Cahanbani atlanan vaxt o hərəkatın ləğvinə səbəb ola biləcək bir söz deyə bilsin.

Zəfər ayətli bayraqlar xiyabana çatdıqda ustaclu tayfasının qaravulda olan tək-tək süvariləri müharibə ahəngini sazlayıb, irəli getdilər. O tərəfdən də o güruhun cəhalət və qürur badəsindən sərxoş olan qiyamçıları igidlik göstərib, öz şücaət atlarını irəli çapdılar. Tərəflər arasında toqquşma oldu və iki-üç nəfər yaralandı. Bu an Qarabağ bəylərbəyisi İmamqulu xan Qacar, Məhəmmədi xan Toxmaq, Seyid bəy Kəmunə və Şahqulu xüləfa Rumlu Əliqulu xanı da özlərinə yoldaş edərək, adlı-sanlı şahzadənin üzəngisi qarşısında atdan düşüb, öz itaət və sədaqət başlarını bəndəlik zemininə doğru endirdilər və kama yetmiş şahzadənin səba rəftarlı köhləninin yüyənini dövlətsevərlik əli ilə tutub ərz etdilər:

- Ali səviyyəli padşahların öz üsyançı qulamlarına qarşı döyüşə getməsi dövlətə layiq deyildir. Əgər ali məiyyət bir qədər də irəli hərəkət etsə, çox ehtimal vardır ki, bu gecə nahaq qan axmış olsun. Axı o [qiyamçı] camaatın nə qədir-qiyməti və səviyyəsi var ki, onları cəzalandırmaq üçün əlahəzrət özü şəxsən getsin?! Biz dövlətsevərlərin xahişi budur ki, bu gün yüyəninizi geri qayıtmaq səmtinə döndərib, üsyan əhlini cəzalandırmaq üçün daha bir-iki gün səbir edəsiniz. Ola bilsin ki, onlar biz dövlətsevərlərin vasitəsi ilə zorakılıq və təkəbbür atından enərək, öz başlarını tabeçilik kəməndinə salarlar. Əgər bu dəfə də onlar biz

bəndələrin məsləhətindən çıxsalar, o zaman zati-alilərinin bu işə qarışmağına ehtiyac yoxdur. Çünki onların işi bizim kimi qulamların səyləri ilə həll olunacaqdır.

Nəvvabi-Cahanbani dövlətsevərlərin məsləhətinə əməl etdi və adam göndərib, qaravulları [toqquşmadan] çəkindirdi. O, əmirlərin xahişini adlı-sanlı atasının hüzuruna ərz etdi və onlar bu xahişə əsasən şəhərə qayıtdılar. Səhəri gün təkəlü və türkman əmirləri adam göndərib xahiş etdilər ki, bəzi məsələlər barədə danışıq aparmaqdan ötrü iki-üç nəfər etimadlı ağsaqqal göndərilsin. Nəvvabi-Cahanbani adam göndərməyi mümkün hesab etmədi və onların riyakarlıqları üzündən, səltənət və padşahlıq adından o camaatla danışıq aparılmasını bir o qədər də münasib bilmədi. Lakin İsgəndər şanlı nəvvab onların xahişinə əməl olunmasında fayda görüb, o zamanlar zəfər nişanlı əsgərlərin qazısı («qazı-əsgər-i zəfər-əsər») vəzifəsini tutan seyid mənşəli sədr Mir Əbülvəlı Əncunu, əmirlərdən isə xeyirxah kişilər olan Seyid bəy Kəmunəni və Şahqulu xüləfa Rumlunu göndərdi. Amma onların da Ədhəm xan və digərləri kimi saxlanılmaması üçün şərt qoyuldu ki, xiyabanın başında qaravul dəstəsindən ayrılıb bir az irəli getsinlər, o tərəfdən də Məhəmməd xan və [qiyamçı] əmirlər öz əsgərlərindən ayrılıb, qabağa gəlsinlər və hər nə sözləri olarsa, at üstündə danışıb, geri qayıtsınlar. Sözügedən camaat buyuruğa əməl etdi. O camaatın sözünün məğzi bu oldu:

- Səbəb nədir ki, Nəvvabi-Cahanbani ellərindən, oymaqlarından və əşirətlərindən Xorasanda çeşidli fitnələr törənmiş və indi də törənməkdə olan iki fəsadçı şəxsin könlünün razılığı naminə təkəlü, türkman və zülqədər kimi üç mötəbər qızılbaş oymağını özündən məyus edib onların üzünü geri çevirir? Axı nə üçün rumilərin Təbrizdə qala tikdikləri bir vaxtda qışın bu şiddətinə və şaxtaya rəğmən səfərbərlik («yasaq») məşəqqətinə qatlanıb buraya çatmış on min adam təzədən dağılışıb getməlidir?

[Şah tərəfindən göndərilmiş] izzətli həzrətlər vaxta münasib şəkildə təsdiqləyici cavab verdilər. Çoxlu qilü-qaldan sonra [qiyamçı əmirlər] razı oldular ki, bundan sonra Əmir xanın qətli hadisəsindən və onun qanının alınması məsələsindən bir də söz salmasınlar. Lakin onlar belə bir şərt qoydular:

- Əliqulu xan və Məhəmmədi Sarısolağ bu fəsadın xəmirinin mayası olmuş və zati-alilərinin mübarək xatirini bizdən döndərmişlər. Bir halda ki, səltənət işlərinin və padşahlıq iqtidarının intizamı cəhətinə görə onları etibar dərəcəsindən salmaq istəmirlər, onda heç olmasa indiki məqamda türkman tayfasının və Əmir xanın tabeçilərinin könlünü almaqdan ötrü həmin şəxsləri səadətli dövlətin ərazisindəki bir vilayətə hakim təyin edib göndərsinlər ki, onlar ulu dərgahda qalmamış olsunlar. Ondan ötrü ki, bu hadisə [türkman] tayfasının qəlblərinin rahatlamasına və abır-həyasının təmin olunmasına səbəb olsun və biz də arxayın bir şəkildə gəlib mülazimlik edək. Bir müddət sonra isə bu məsələ öz həllini tamamilə tapar, biz bəndələrin könlü bizə göstərilən ali hüsn-rəğbətdən

təmin olunar və o zaman [Həmzə mirzənin] dünyanı bəzəyən rəyi lazım bilərsə, həmin şəxsləri yenidən dərgaha çağırar.

Sözügedən sülhyaradanlar qayıdıb, bu məsələni ərz etdilər və bir-iki gün bu fikir və əndişə içərisində keçdi. Lakin tale pərdəsi altında gizli qalan bəzi məxfi işlər vardı ki, qəzavü-qədərin zərurəti və fələyin yazısı ucbatından onların baş verməsindən özgə çarə yox idi. Buna görə də həmin söhbətdən heç bir nəticə hasil olmadı və hər iki tərəfin aqillərinin və xeyirxahlarının səy və tədbirləri səmərə vermədi. Qarabağ bəylərbəyisi İmamqulu xan Qacar aranı sakitləşdirməkdən ötrü [Həmzə mirzəyə] ərz edib dedi:

- Əgər qüdrətli dövlətimizin icazəsi və mübarək şəxsinizin razılığı olarsa, mən öz ölıdəmə götürərəm ki, xan həzrətlərinin, yəni Əliqulu xanın xidmətində Şirvana yollanaram, Abdulla xan Ustaclunun hökumətgahı olmuş o vilayəti tutub, onun ixtiyarına verərəm və o, orada rahatlıq və xoşbəxtliklə yaşayar. Hal-hazırda bu camaatı (təkəlü və türkman tayfalarını) mehribanlıq və iltifatla cəlb etmək lazımdır ki, onlar şəhərə gəlib, xidmət göstərsinlər və qalanın ələ keçirilməsi uğrunda çalışsınlar.[1059]

Lakin Nəvvabi-Cahanbani Əliqulu xanı və Məhəmmədini himayə etməkdə və onlara göstərdiyi qayğını qorumaqda qətiyyət göstərdi. Adları çəkilən şəxslərin hər ikisi ali məclisdə dilə gəlib, şəhriyara şükür və lütf əta etdikdən sonra ərz etdilər:

- Sizin mübarək xatiriniz nəyə razıdırsa, sizdən asılı qulamlar olan bizlər ona boyun əyərik və dövlətin nöqsanına səbəb ola biləcək heç bir işə razı olmarıq. Biz on min nəfəri iki nəfərə bərabər etməyi vaxta münasib və dövlətə layiq bilmirik. Bizim heç bir işə qarşı sıxıntımız yoxdur. Dövlətin faydasına və zati-alinizin rəyinin zərurətinə uyğun olan hər şeyə tərəddüd etmədən əməl eləcəyik.

**[Misra]**

«Biz sənin rəyinə əsaslanan hər şeyə könül vermişik».

Nəvvabi-Cahanbani buyurdu:

- Mənim bu məsələdə bu cür qətiyyət göstərməyim heç də sizin xatiriniz üçün deyildir. Mən öz könlümün istəyi ilə sizi himayə edib şəfqət göstərmişəm. Rəqiblərin bu barədə mənimlə söz-söhbət etməsi ədəbsizlikdir. Sizi dərgahdan çıxarmaq səltənətin niyyətinin zəifliyinə və iqtidarının yoxluğuna sübutdur. Ona görə də bu mövqenin üstündə durub, heç vəchlə könlümün istəyinə və razılığına zidd olan bir işə izin verməyəcəyəm. Hakimlərin hakimi olan Allah-taala tezliklə bizimlə o ədəbsiz nankorların arasındakı bu məsələyə öz hökmünü verəcəkdir. Siz öz halınızda qalın!

[1059] S-129, v.268b.

Səhəri gün ulu dərgahın ərazisində heyrət doğuran bir hadisə baş verdi. Hüseynqulu bəy Əlkəsənoğlu Zülqədərin qardaşı oğlu İsmayılqulu qızılbaş fəsadçılarından idi və həmişə fitnə-fəsad törədirdi. O, Şahsuvar bəy Qapıçıbaşının qardaşı Təhmasibqulu bəy Qapıçı Əfşar, Xəlifə Qacar və s. kimi böyük qorçulardan ibarət fitnəkarlar dəstəsi ilə birlikdə özünü dövlətsevərlik libası ilə bəzəyib, riyakarlıq dili ilə söz-söhbət salmağa başladı. Onun kəlamının məğzi bu idi:

- Padşah dərgahının ən ümdə mülazimləri qorçulardır və əgər onlar padşahın dövlətinin işlərindən hansısa bir işə ittifaq edib baş qoşsalar, digərlərinin itaətdən savayı çarəsi qalmaz. İndi bizim bir müşkülümüz düşüb. Bilmirik səbəb nədir ki, Əliqulu xan Fəthoğlunun və Məhəmmədi Sarısolağm könlünün razılığından ötrü qızılbaş tayfaları iki dəstəyə bölünüb və az qalıbdır ki, məsələ hərb və döyüşlə nəticələnsin. Nəyə görə tamam birgəlik və izdihamla gəlmiş təkəlü, türkman və zülqədər əmirləri mülazimlik etmək və rumilərin qalasını ələ keçirmək istiqamətində səy və yardım göstərmək imkanından məhrum olmalıdırlar?!

Qızılbaş sufiləri arasında «pirə» və «xəlifə» adlanan bəzi ağılsız sadəlövhlər bu hərəkətə sufilik və ixlas adı qoyaraq, hamısı o təbəqəyə rəğbət göstərdilər və hamısı bir-birləri ilə yekdil və dilbir olub qərar verdilər ki, Nəvvabi-Cahanbaninin yanına gedərək, pir-mürşid münasibətinin qaydası nə cürdürsə, o cür öz müşküllərini ərz edib, onun həll olunmasını xahiş etsinlər. Onlar qorçu zümrəsinin cahillərini, iğtişaşçılarını və yaramazlarını özlərinə müttəfiq etdilər ki, əgər kama yetmiş şahzadə tərəfindən dərdlərinə şəfa tapılmasa, onda kütləvi surətdə Əliqulu xanın və Məhəmmədinin üstünə gedib, onları bu işə mane olmaq istəyən hər kəslə birlikdə qətlə yetirsinlər. Onlar bu pozğun fikirlə qışqırıq saldılar ki, hər kəs şahısevəndirsə və bu dövlətin mənafeyini güdəndirsə, bizim başımıza toplaşsın! Beləliklə, böyük bir dəstə hərəkətə gəldi və avamların arasına şahısevənlik qovğası düşdü. O camaatın böyükləri Nəvvabi-Cahanbaninin dövlət sarayının qapısına getdilər. Həmin camaatın iradəsi həyata keçməzdən öncə cahillər və şər adamlar Əliqulu xanın rikabxanasına və büyutatına tökülüşüb, onun mülkiyyətinə aid olan çoxlu malları qarət və tarac etdilər. Bu zaman xalq arasında Əliqulu xanla Məhəmmədinin qətlə yetirilməsi haqqında şayiə yayıldı və onların mülazimlərinin və ustaclu əyanlarının məhəllələrdə yerləşən evlərinin əksəri qarət və taraca məruz qaldı. Bu hadisələr barədə təkəlü və türkman əmirlərinə müjdə çatdı və onlar sevinc və şadlıq nümayiş etdirməyə başladılar.

Sözün qısası, şahısevənlərın hay-küyündən, qalmaqalından və qovğasından ali məclis iştirakçılarının əhvalı alt-üst oldu. O camaat pəncərənin önünə gəldi və onların mötəbər şəxsləri öz müddəalarını ərz etdilər, amma üstüörtülü söz deyib, cürət etmədilər ki, bir kəsin adını hallandırsınlar. Nəvvabi-Cahanbani əvvəlcə onlarla yoldaşcasına və mülayimcəsinə söhbət edib buyurdu:

- Bizim və sizin padşahımız və mürşidimiz İsgəndər şanlı nəvvabdır. O, indi öz evində dincəlir. O həzrətin hüzuruna gedib, müddəanızı ərz edin. Mən də padşahın və mürşidin qaimməqamı və vəliəhdiyəm.

[Onlar dedilər:]

- Biz bilirik. Bizim əsl mətləbimiz dövlətsevərlikdən savayı bir şey deyildir.

Nəvvabi-Cahanbani İsmayılqulu xan Şamluya əmr etdi ki, irəli getsin və o camaatla söhbət edib öyrənsin ki, söhbət kimdən gedir, əsl məqsəd nədir. İsmayılqulu xan həmin pəncərədən onlarla söhbətləşdi, danışdı və onlara təsəlli verib dedi:

- İnşallah, dövlətin faydasına olan hər işi həyata keçirib qoymayacağıq ki, qızılbaş əsgərləri arasında fitnə və ziddiyyət baş versin. Nəvvabi-Cahanbani razı deyil ki, eyni dərgahın mülazimləri olan bu iki güruh arasında bir fəsad baş versin. Biz imkanımız çatdığı və əlimizdən gəldiyi qədərincə düşmənçiliyin amilini aradan qaldırmağa çalışırıq.

O qorxmaz camaat səslərini daha da ucaltdı. Nəvvabi-Cahanbani yenidən onların mətləbini soruşub buyurdu:

- Axı siz kimi nəzərdə tutursunuz? Əliqulu xan sözə başlayıb ərz etdi:

- Onlar üstüörtülü şəkildə danışırlar. Amma, əslində məni nəzərdə tuturlar. Onların mətləbi budur ki, mən Məhəmmədi ilə birlikdə qəzəbə tuş gəlim və bununla da tüğyançı əmirlər təsəlli taparaq, xof və dəhşət keçirmədən mülazimlik etməyə gəlsinlər. Biz təkrarən ərz edirik ki, öz həyatımızı sizin mübarək könlünüzün istəyinə təslim edirik və bizim taleyimiz sizin qərarınızdan asılıdır.

Nəvvabi-Cahanbani buyurdu:

- Əgər belədirsə, onların sözü sizə qarşı deyil, bəlkə də, mənə qarşıdır. Çünki Əmir xanın qətli mənim fərmanımla icra olundu və sizin yüksəldilməyinizə mən bais oldum.

İsmayılqulu xan hərçənd istədi ki, onlara yoldaşcasına və mülayimliklə təsəlli verib, geri qaytarsın. Lakin onlar sakit olmayıb, həyasızlığı daha da artırdılar və pərdə altından çıxaraq, uca səslə, açıq-aydın Əliqulu xanla Məhəmmədinin adını çəkib qışqırdılar:

- Nə üçün bu iki fəsadçının vücudu naminə əbədi dövlət qəsrinin bünövrəsi sarsılsın?

Onlar İsmayılqulu xanı da söyüb biabır edərək dedilər:

- Öldürülməli fitnəkarlardan biri də sənsən. Əvvəlcə səni öldürmək lazımdır.

O güruhun həyasızlığı və qalmaqalı bu dərəcəyə gəlib çatdıqda Nəvvabi-Cahanbaninin şərəfli xatiri onun əziz anasının qətlinə səy göstərənlərdən biri olmuş Hüseynəli Əlkəsəndən onsuz da tamam incik idi və o camaatın ədəbsizliyi ucbatından onun qəzəb şöləsi daha da alovlandı. O, fitnəkarları cəzalandırmaq məqsədi ilə çıxdı və qılıncın qəbzəsinə əl atıb, o güruhun içərisinə soxuldu. Əvvəlcə [gözlərini] qan tutmuş Hüseynəli onun qabağına çıxdı və o, bir Heydəri

zərbəsi[1060] ilə onun işini bitirdi. Ondan sonra Təhmasibqulu bəy Qapıçı və tərslik edib orada qalan hər kəs çətin həzm edilən həmin [ölüm] şərbətini içdilər. Qılıncdan qurtulanlar pərakəndə oldular və peşmançılıq zaviyəsində gizləndilər. Bu hadisədən sonra Nəvvabi-Cahanbani rəqiblərin əksinə gedərək, yenidən Əliqulu xanı xosrovanə nəvazişlərlə şərəfləndirdi və onun ciqqəsi, tacı və dəstarı[1061] rikabxanada tarac olunduğundan ona qızıl toxumalı tac, qızıl işləməli məndil və öz şəxsi ciqqəsini bağışladı. Həmçinin hökm olundu ki, bütün ustaclu əmirləri və əyanları Əliqulu xanla birlikdə atlanaraq, şəhərin məhəllələrini gəzməyə çıxsınlar və ta xiyabanın o başınadək getsinlər ki, əvvəlki xəbərlərin yalan olduğu tüğyançı əmirlərə aydın olsun. Əliqulu xan sevinc və xoşbəxtlik içində öz tərəfdarlarından ibarət çoxsaylı bir dəstə ilə atlanıb, şəhriyarın lütfkarlığının səadəti ilə bir qədər özünü göstərib, geri qayıtdı. Növbəti gecə daha əcaib bir əhvalat və daha qəribə bir hadisə üz verdi.

O qəribə hadisənin icmal yolu ilə şərhi budur ki, Məhəmməd xan öz muradının ümidsizlik dalanına dirəndiyini görüb, adlı-sanlı şahzadələrdən birini hiylə və tədbirlə ələ keçirib İraq tərəfə qayıtmağa və orada səltənət ayinini tərtib edib Nəvvabi-Cahanbaniyə qarşı müxaliflik bayraqlarını ucaltmağı qərara aldı. Şahzadələr Əbu-Talib mirzə və Təhmasib mirzənin hər ikisi Əmir xanın qalasında öz adlı-sanlı atalarının və yüksək mənsəbli qardaşlarının hüzurunda idilər və gündüz onların yanında olur, gecə isə hər biri öz lələsi və «dədə»si ilə İsgəndər şanlı nəvvabın xəlvətxanasına yaxın olan öz evlərində dincəlirdilər. Əbu-Talib mirzənin lələsi və «dədə»si təkəlü tayfasından idilər və onun lələsi olan Xəlil bəy Təkəlü İraqda qalmışdı, həmin hadisələr zamanı isə o [qiyamçı] camaatın arasında idi. Amma [Əbu-Talib] mirzə artıq tamamilə ağıl-kamal və həddi-buluğ sahibi olmuşdu və onu aldatmaq çətin olardı. Təhmasib mirzənin lələsi Keyxosrov bəy Gürcü sadəlövh, dar düşüncəli bir kişi idi. Elə [Təhmasib] mirzə özü də azyaşlı idi. Hökmdar dövlətxanasında olan bir-iki nəfər türkman qorçusu sözü-gedən Keyxosrovu əyalət, böyüklük və bolluca ənam vədləri ilə tovlayıb qərarlaşdırdılar ki, fürsət düşən kimi, bir gecə [Təhmasib] mirzəni götürüb, [qiyamçıların] arasına aparsınlar. Beləliklə, həmin qorçular mübarək dövlətxanada o aqibətsiz əbləhi kələk və ofsunla yoldan çıxarıb, razılaşma və sövdələşmədən sonra əlverişli məqam düşən bir gecədə şahzadənin yataq otağına yaxın olan bürclərdən bir bürcün ətəyinə səba rəftarlı (sürətli) atlar gətirdilər və bədzat Keyxosrov o vaxt on yaşında olan şahzadəni uşaqların təbiətinə xas olan yuxu məstliyi halında və ya oyaq vəziyyətdə, hər halda, yataq otağından bürcün üstünə gətirib, onu çuval və kəndirlə yerə endirərək, özü də aşağı düşdü. Həqiqətən də, bununla onlar izzət və dövlət zirvəsindən zillət çökəkliyinə endilər. [Keyxosrov] qorçularla ittifaqda

---

[1060] Heydər (ərəbcə «aslan» deməkdir) - Həzrət Əlinin ləqəblərindən biridir. «Heydəri zərbəsi» dedikdə, Həzrət Əliyə məxsus, onun kimi vurulan zərbə nəzərdə tutulur.

[1061] Ciqqə - bayraqda və ələmdə olan qotaz; baş geyiminə vurulan bəzək. Burada baş geyiminə vurulan dəbdəbəli qotaz, bəzək mənasında işlədilmişdir. Dəstar - əmmamə, çalma.

həmin atlara minib, [Təhmasib] mirzəni qabaqlarına salaraq, qeyri-ənənəvi bir yolla təkəlü və türkman əmirlərinin ordusuna apardılar. Hamının dediyi budur ki, Məhəmməd xanın bu məsələdən xəbəri yox idi və bu hadisə su üstünə bədii naxış vurmuş (qeyri-mümkün bir işi həyata keçirmiş) qorçuların əməli və işi idi.

***Tüğyançı əmirlərin şahzadə Təhmasib mirzəni Qəzvinə aparması.*** Amma sözügedən əmirlərin iradəsi və tədbiri olmadan belə böyük bir işin təsadüfən baş verməsi ağlabatan deyildir. Bəlkə də, müxalifliyin və inadkarlığın başlanğıcından bu fikir onların xatirində qətiləşmiş və bu düşüncə və əndişə ilə gecələrini gündüz etmişlər. Hər halda, Məhəmməd xan həmin gecə özünə yoldaş olan adı çəkilmiş əmirləri bu hadisənin baş verməsindən xəbərdar edib, bu məsələni öz xoşbəxtliyinin nəticələrindən və öz səadətinin sübutlarından saydı. Onlar şahzadənin qədəmlərindən sevincək olub, şənlik və şadlıq əlamətləri nümayiş etdirdərək, onun behiştməskən və cənnətməkan şahın adaşı olması səbəbindən və həmin həzrətin də on bir yaşında səltənət rütbəsinə çatdığını nəzərə alaraq, onun səltənət və padşahlığını öz-özlərində müəyyənləşdirdilər. Lakin onlar bu mənadan qafil qaldılar ki, cənnətməkan şah behişt bağlarında sakin olmuş Süleyman şanlı xaqan həzrətlərinin ən böyük oğlu idi, irsə, törəyə və vəliəhdlik qaydasına görə, o, hökmdarlıq nişanəsinə malik idi və öz şərəfli atasının ölümündən sonra ona miras qalmış səltənət kürsüsünə əyləşmişdi. Bu şahzadənin isə adlı-sanlı atası hələ həyatda idi, dövlət və padşahlıq taxtı üzərində iqtidara malik idi və şahzadənin vəliəhdlik rütbəsinə malik olan özündən böyük qardaşı sağ idi. Belə olan halda necə ola bilərdi ki, onların bu iddiası həyata keçsin və axı ağıl mürşidi və zəka piri nə yolla və hansı cür bu işə razılıq verə bilərdi?!

Müxtəsər, şahzadə [Təhmasib] o güruhun içinə gəldikdə onlar vaxt itirmədən köç etmək təbillərini vuraraq, İraqa doğru üz tutub, hərəkətə başladılar. Səhəri gün İsgəndər şanlı nəvvab, dünya adamlarının şahzadəsi (Həmzə mirzə) və səadət nişanlı dərgahın sakinləri bu hadisədən xəbər tutdular və onların ürəkləri kədərli və pərişan oldu. Bəzi qısır düşüncəli adamların təsəvvürü o oldu ki, bu hadisə İsgəndər şanlı nəvvabın rəyi və razılığı ilə hazırlanmışdır. Ustaclu və şamlu əmirləri bu batil təsəvvürü təsdiq edib, Nəvvabi-Cahanbanini yüksək dərəcəli atasına qarşı bədgüman etdilər. Bu düşüncənin səbəbi və bu şübhənin baiskan o idi ki, İsgəndər şanlı nəvvabın əziz anası türkman tayfasının möhtərəm qızlarından idi, onun qohum-əqrəbalarından bir çoxları o [qiyamçı] güruhun içində idilər və onların həm də İsgəndər şanlı nəvvabla qohumluq münasibəti var idi. İsgəndər şanlı nəvvab həmişə o təbəqəyə hüsn-rəğbət və iltifat göstərmişdi. Müseyib xan Təkəlü o həzrətin xalası oğlu idi. İsgəndər şanlı nəvvab öz şahzadəlik əyyamında Heratda olarkən [Müseyib xanın] atası Məhəmməd xan Şərəfəddinoğlu onun lələsi olmuşdu. O həzrət həmin [təkəlü] tayfasının arasında boya-başa çatmışdı və nə zaman ki, söhbət əsnasında Məhəmməd xan Təkəlünün adı çəkilsəydi, İsgəndər şanlı nəvvab onun yaxşı davranışından razılığını və məmnunluğunu izhar edərdi, ondan sonra lələsi olmuş Şahəli sultan Ustaclunun isə pis rəftarından gileylənər,

təkəlü tayfasına hörmətini bildirərdi. Həmin iki tayfadan (türkman və təkəlülərdən) yanlış əməllər baş verən vaxt İsgəndər şanlı nəvvab həmin tayfalarla yaxşı münasibətlərinə və qızılbaşların iki mötəbər oymağı olan o güruhun Nəvvabi-Cahanbanidən məyus qalmalarını istəmədiyinə görə bəzən tərəfkeşlik kimi anlaşılan sülhpərvər sözlər söyləmişdi. Həmçinin Nəvvabi-Cahanbani bir-iki il idi ki, yetkinlik və kamal yaraşığı ilə bəzənmiş, dövlət və hökmdarlıq işlərini öz öhdəsinə götürmüş, bütün məsələləri öz rəyi ilə sərəncam etməyə başlamış və cavanlıq dövrünün zərurəti olan və yüksək dərəcəli atasının xatirinə xoş gəlməyən işlərə baş qoşmuşdu. Hamının təsəvvürü o idi ki, İsgəndər şanlı nəvvab bütün bu səbəblər üzündən öz möhtərəm oğlundan incik düşmüşdür. Buna görə də ondan şübhələnmişdilər.

Amma həqiqət ondan ibarətdir ki, bütün bu kimi məsələlərə baxmayaraq, İsgəndər şanlı nəvvabın Nəvvabi-Cahanbaniyə o qədər ata-oğul məhəbbəti vardı ki, onun şərəfli könlünün razılığını heç bir böyük işlə bərabər tutmurdu, onun nurlu könlünün iradəsini bütün dövlət məsələlərində üstün sayırdı və ola bilməzdi ki, bütün bu qədər ata-oğul münasibəti, vəliəhdlik rütbəsi verilməsi və möhtərəm oğluna nisbətdə mehribanlıqla davranması ilə yanaşı, ona qarşı xəyanət və nifaq məqamında durmuş olsun.

Hər halda, Nəvvabi-Cahanbani və böyük əmirlər bu hadisə barəsində fikir və əndişə içərisinə düşüb, o güruhun böyük bir qarışıqlığa səbəb ola biləcək şər işlərini və fəsadını dəf etməyi Təbriz qalasının ələ keçirilməsindən daha əhəmiyyətli və önəmli saydılar. O həzrətin doğru rəyi belə qərara gəldi ki, yubanmadan və təxirə salmadan, təcili surətdə həmin aqibətsiz camaatın ardınca yollansın və nə qədər ki, onlar öz mövqelərini möhkəmlətməyiblər, onların şər əməlini dəf etsin. Lakin o, həm də nəzərə aldı ki, o güruhun işini yol əsnasında bitirmək üçün əgər adlı-sanlı atası və zəfər şüarlı əsgərlərin hamısı ilə birlikdə onları təqib etsə, gərək onda Təbriz məmləkətindən, bəlkə də, tamam Azərbaycandan əllərini üzsünlər. Çünki calal bayraqlarının İraqa getməsindən sonra Azərbaycan əmirlərindən biri də o diyarda qala bilməyəcəkdir və əgər bir dəstəni Azərbaycan əmirləri ilə birgə qala mühasirəsində saxlayıb özü gedərsə, bu halda da hökmdar qoşununda o qədər əsgər yox idi ki, həmin [qiyamçı] camaatın işini bitirməyə kifayət etsin. Zərurət üzündən ən doğru görünən rəy bu oldu ki, möhtərəm qardaşı Əbu-Talib mirzəni adlı-sanlı atasının hüzurunda Təbrizdə qoyaraq, Məhəmməd xan Toxmağı, Qarabağ bəylərbəyisi İmamqulu xanı və s. Azərbaycan əmirlərini böyük qorçulardan bir dəstə ilə birlikdə onların mülazimliyinə təyin edib, onları qalanı mühasirə etmək üçün saxlasın və özü isə şəxsi mülazimləri, Əliqulu xan və İraqda ölkəyə malik olan əmirlərlə birlikdə Ərdəbil və Xalxal yolundan gedib, İraq düzənliyinə çıxsın, oradakı tərəfdarlarını cəmləşdirib, fitnəkarların dəf edilməsi ilə məşğul olsun.

O, bu fikirlə səfərə hazırlıq görüb, İsgəndər şanlı nəvvabdan icazə alandan sonra həmin gün İsmayılqulu xan Şamlunu səltənət və hökmranlıq bürcünün dürrü

olan ali mənşəli şahzadə İsmayıl mirzənin lələsi kimi böyük bir mənsəbə yüksəldərək göndərdi ki, Tarom və Xalxal yolundan sürətlə hərəkət edib, o güruhdan öncə özünü Qəzvinə çatdırsın, ailələri və köçləri [Qəzvin] şəhərində olduğu üçün bu həngamədə öz əhlü-əyallarını qorumaqdan ötrü o tərəfə üz tutan əksər qızılbaş tayfalarının hamısını öz başına toplayıb, məhəllələrdə küçəbənd (barrikada) qursun və ali məiyyətin gəlib çatmasınadək şəhəri və mübarək dövlətxananı mühafizə etməklə məşğul olaraq, məsud məiyyətin gəlişini gözləməkdə olsun. Çünki ehtimal vardı ki, əgər İsmayılqulu xanın Qəzvinə gəlişi xəbəri tüğyançılara çatarsa, onlar oraya getməkdən daşınaraq, hər biri öz ölkəsinə və məmləkətinə gedəcəkdir. İsmayılqulu xan ali göstərişə uyğun olaraq, həmin günün axırında şamlu tayfası ilə yola düşdü. Amma şahzadə [İsmayılı] özü ilə aparmadı. Ali məiyyət də Allaha təvəkkül edib, onun ardınca hərəkətə gəldi.

## TÜĞYAN SAHİBLƏRİNİN FİTNƏSİNİ ARADAN QALDIRMAQ ÜÇÜN DÜNYA SAKİNLƏRİNİN ŞAHZADƏSİNİN İRAQ TƏRƏFƏ YOLLANMASI, YARAMAZLIQ NİŞANINA MALİK TƏBƏQƏ İLƏ MÜHARİBƏ ETMƏSİ VƏ ŞƏFQƏTLİ ALLAHIN RƏĞBƏTİNİN KÖMƏYİ İLƏ QƏLƏBƏ ÇALMASI HAQQINDA

İraq tərəfə hərəkət edilməsi, yaramazlıq və nifaq sahiblərinin tənbeh olunması və cəzalandırılması qərarlaşdırıldıqdan sonra Məhəmmədi xan Toxmaq Təbriz hakimi təyin edildi və o, Qarabağ bəylərbəyisi İmamqulu xanla və Azərbaycan ölkəsinin digər əmirləri ilə birlikdə qalanın mühasirədə saxlanılmasına məmur olundu. Həmçinin qorçulardan və dərgah mülazimlərindən ibarət bir dəstə İsgəndər şanlı nəvvabın xidmətinə və dövlətxanının keşiyinə təyin edildi. Əbu-Talib mirzə də öz yüksək dərəcəli atasının hüzurunda qoyuldu. Bu hərəkat qalanın fəthinin ləngiməsinə səbəb olacağından Təbriz sahibkarları böyük həyəcan və iztirab keçirməyə başladılar. Lakin Nəvvabi-Cahanbani könül oxşayan vədlərlə onları arxayınlaşdırdı və Allah-taalanın köməyi ilə tüğyançıların işini bitirib, üç ay ərzində Təbrizə qayıdacağına söz verdi. O, calal sahibi olan qadir [Allahın] dərgahına təvəkkül edib, ümumi sayı üç min nəfərdən çox olmayan şəxsi mülazimlərindən, əmirlərdən və qorçulardan ibarət bir dəstə ilə birlikdə məqsədə doğru üz tutdu. Yeddi mənzil yol gedərək, darülirşad Ərdəbilə gəlib, övliyaların və alimlərin sultanı olan həzrətin (Şeyx Səfiəddinin) və [digər] böyük şeyxlərin və ali məqamlı əcdadlarının qəbirlərini ziyarət etmək şərəfinə nail oldu. İl axıra çatdığından və 994-cü hicri ilinə (1586) müvafiq[1062] gələn it ilinin Novruzu yaxın olduğundan bir həftə o şərəfli bölgədə qalıb, səadətli Novruz günlərini işrət və şadyanalıqla keçirdi və ilahi dərgaha müraciət edənlərin dualarının qəbul olunduğu yer olan o ulu astanada üsyan və tüğyan sahiblərinin günahkar əməllərinin cəzasını

[1062] Mənbənin mətnində səhvən 995-ci il yazılmışdır.

xahiş edib, ilin əvvəlində o yüksək dərəcəli şəxsiyyətlərin müqəddəs ruhlarından imdad diləyərək, Xalxal yolundan İraqa üz tutdu.

Zati-alilərinin əsgərləri son dərəcə az, düşmənlər isə şövkətli və çoxsaylı idilər. Buna görə də [Həmzə mirzə] sürətlə getməyi vaxta münasib və dövlətin faydasına uyğun hesab etməyib, qəmər seyrəngahlı qorçuları dövlətsevərlərin və iradə sahiblərin hazır olması üçün göndərdi və yolun məsafələrini yavaş-yavaş, ləng-ləng getməyə başladı. Amma az adam onlara qoşulmağı qərara aldı. Öz tabeçiləri və mülazimləri ilə birlikdə çoxsaylı bir dəstə olan şeyxavənd camaatı arasından heç kəs nəinki bu xidmətə qoşulmağa razılıq verməyib yoldaşlıqdan boyun qaçırdılar, hətta o hörmətli təbəqənin cahilləri ayaqlarını ədəb dairəsindən kənara çıxararaq, [Həmzə mirzənin] xassə tövləsinin arxadan gələn bəzi atlarına tamah salıb, zorakı yolla ələ keçirdilər. Müxtəsər, [Həmzə mirzə] cah-calalla Tarom ölkəsinə gəlib çatdıqdan sonra bir neçə gün qalibiyyətli əsgərlərin cəmləşdirilməsindən ötrü orada qaldı. Tarom hakimi Pirqeyb xan Ustacluya mühafizə üçün körpünün üstündə mövqe tutmaq əmri verildi. Qızılüzən çayının daşması səbəbindən kəndlilərin ali orduya gediş-gəlişi az baş verirdi. Bunun nəticəsində [orduda] ərzaq azaldı və əsgərlər bir neçə gün qıtlıq çəkdilər. Nəvvabi-Cahanbani öz ali sərkarının bütün qızıl və gümüş əşyalarını parça-parça etdirib, qızılbaş qaziləri arasında bölüşdürdü.

Bu əsnada Təhmasib mirzənin və [qiyamçı] əmirlərin darüssəltənə Qəzvinə gəlişi, İsmayılqulu xanın Rudbar[1063] tərəfə getməyi və onun məğlub və bədhal bir vəziyyətdə Deyləmana fərar etməsi xəbəri [Həmzə mirzənin] ali ərzinə çatdı. Bu hadisənin şərhi belədir ki, İsmayılqulu xan qərarlaşdırılmış şəkildə Tarom və Xalxal yolundan sürətlə hərəkət edib, özünü darüssəltənə Qəzvinə çatdırdı və hərbçilərdən və şəhərlilərdən ibarət şəhər camaatını cəmləyib, məhəllələri küçəbənd edərək, hər küçəbəndin başında qızılbaşların arasından cəld və işə yarayan bir şəxslə birlikdə şəhərli tüfəngçi və kamandarlar təyin etdi. Təhmasib mirzə, təkəlü və türkman əmirləri Əbhər ətrafına çatdıqda onların qulaqlarına dəydi ki, İsmayılqulu xan Qəzvinə daxil olub və müdafiə mövqeyi tutub. Onlar dəftərxana daruğası Əlixan sultan Türkmanı elçi kimi şəhərə göndərib, İsmayılqulu xanı itaətkarlığa və tabeçiliyə dəvət etdilər. Onların göndərişinin məzmunu belə idi: «Allaha həmd və minnət olsun ki, bizim padşahımız və mürşidimiz dövlət və səadət taxtı üzərində əyləşmiş İsgəndər şanlı nəvvabdır. Bizim xatirimizdə o dərgahın qarşısında sədaqət və dövlətsevərlikdən savayı heç bir iş yoxdur. Biz o əzizi dövlətmənd, xeyirxah və nəcib fikirli bir adam kimi tanıyırıq və ondan təvəqqe etdik ki, Təbriz yaxınlığında bizim məsələmizi bir növlə islah etsin. Lakin Nəvvabi-Cahanbani bizim xahişimizə məhəl qoymadı. Buna görə də biz o həzrətdən məyus olduq və onun dərgahında səmərə tapmadıq. Axırda zərurət üzündən belə bir hadisə baş verdi və biz oradan qayıtmalı olduq. İndi də o əzizdən

[1063] Rudbar - hal-hazırda İranın Gilan vilayətinin Rəşt şəhristanının beş nahiyəsindən birini təşkil edən dağlıq rayon.

təvəqqe edirik ki, düşmənçilik büsatını yığışdırsın ki, aralıqda uzlaşma qapıları açılsın və bir-birimizlə dostluq və birlik edərək, hər məsələ barədə din və dövlətin faydasına və o əzizin məsləhətinə uyğun nə olarsa, onu həyata keçirək. Bizim uzlaşma və ittifaqdan savayı heç bir məqsədimiz yoxdur və onun məsləhətindən çıxmayacağıq».

Adı çəkilən elçi bu göndərişlə şəhərə gedəndən sonra sözügedən əmirlər onun geri qayıtmasını gözləmədən onun ardınca at çapıb, şəhərin bir fərsəxliyinə gəlib dayandılar. İsmayılqulu xan o güruhun əməl və fəaliyyətlərinin onların sözlərinə zidd olduğunu görməsinə və onların hərəkətlərinə və sözlərinə etimadının olmamasına baxmayaraq, həmin camaata qarşı müqavimət göstərməyin öz qüdrəti çərçivəsində olmadığını bilirdi. Buna görə də o, Əlixan sultanı geri göndərib, vaxtın məsləhətinə uyğun gələn sülhpərvərcəsinə və dostcasına sözlərlə onlara cavab yolladı. Amma elə həmin gecə [İsmayılqulu xan] öz oğulları, əhlü-əyalı və şamlu tayfası arasından qüdrəti olan hər kəslə birlikdə şəhərdən çıxıb, Rudbar dağlarına üz qoyaraq, çətin keçilən bir yerdə məskən saldı. Qəzvin mütəsəddisi Mir Cəfər Qəzvini, Pəhləvan Sultan Mahmud Əsəsbaşı və Qəzvinin bəzi hörmətli şəxsləri də[1064] Nəvvabi-Cahanbaninin tərəfdarları olduqlarından İsmayılqulu xana yoldaş olub, onunla getdilər. Türkman və təkəlü camaatı maneəsiz və müqavimətsiz surətdə darüssəltənə Qəzvinə daxil olub, hökmdar dövlətxanasını Təhmasib mirzənin iqamətgahı təyin etdilər və əmirlərdən hər biri rəğbət doğuran mənzillərdə yerləşdilər. Nəhayət, bir saat müəyyənləşdirib, Təhmasib mirzəni hökmdarlıq kürsüsünə çıxararaq, onu atasının vəliəhdi elan etdilər və fərraşxanadan[1065], padşah büyutatının ləvazimatından və Nəvvabi-Cahanbaninin mülkiyyətindən («sərkar»ından) şəhərdə və dövlətxanada qalan hər nə vardısa, ələ keçirdilər. Həmçinin Nəvvabi-Cahanbaninin yanında xidmət edərək ona tərəfdar olan bir sıra əmirlərin, vəzirlərin və əyanların mallarını və əşyalarını kimin mənzilində və hansı yerdə tapdılarsa, müsadirə etdilər.

Sədr Şah Təqiəddin Məhəmməd İsfahaninin cənnətməkan şahın vəziri Qazı Cahanın qızından doğulmuş oğlu Şah Qivaməddin Hüseyn İsfahandan çıxıb, Nəvvabi-Cahanbaninin hüzuruna gəlmək məqsədi ilə şanlı orduya doğru gedirdi və həmin vaxt Qəzvinə gəlib çatmışdı. Ona orada çoxlu hörmət və ehtiram göstərib Təhmasib mirzənin vəziri təyin etdilər və ona «etimadüddövlə» ləqəbi verdilər. Cənnətməkan şahın mustovfisi olmuş Mirzə Şükrullanın oğlu Mirzə Məhəmmədi isə mustovfi təyin etdilər. Həmçinin digər mənsəblərə də təyinatlar oldu. Vəkillik

---

[1064] S-129, v.273b; S-297, v.216b. Əsəs - gecələr şəhər küçələrinin mühafizəsi, əsasən də bazarların və sənətkarlıq-ticarət mərkəzlərinin qorunması ilə məşğul olan və daruğanın tabeçiliyində olan silahlı dəstə idi. Bu dəstənin digər bir adı ehdas idi. Əsəsbaşı (və ya əmiri-əsəs) isə şəhərin gecə mühafizəsinin rəisi deməkdir M. X. Гейдаров. Социально-экономические отношения, c.84-85.. Pəhləvan Sultan Mahmud Qəzvin şəhərinin gecə mühalizəsinin rəisi olduğu üçün «Əsəsbaşı» titulunu almışdı. Bizim burada kursivlə verdiyimiz sözlərin əvəzində Tehran çapında (s.333) Pəhləvan Sultan Mahmudbaşı (?) Qəzvini yazılmışdır.

[1065] Fərraşxana – saray xalçalarının toxunduğu və saxlandığı yer.

barəsində təkəlülərlə türkmanlar arasında ixtilaf yarandı. Axırda Məhəmməd xan özünə lələ adını qoydu, vəkillik mənsəbi isə Müseyib xan Şərəfəddinoğlu Təkəlüdə qərar tutdu. Amma mütləq ixtiyar sahibi Məhəmməd xan idi. Onlar darüssəltənə İsfahana, İraqın müxtəlif tərəflərinə və istiqamətlərinə və digər yerlərə xəbər göndərib, şahzadə Təhmasib mirzənin cülusu barədə məlumat verdilər.

**Beyt**

«Xoş tutdular həriflər saqinin zülfünün ucunu,
Əgər fələkləri qoysa ki, bir qərar tutsunlar».

Amma hökmlərdə İsgəndər şanlı nəvvabın hörmətini gözləyib, möhürü Nəvvabi-Cahanbaninin qaydasınca fərmanların aşağı hissəsinə vururdular və yuxarıdan möhürləmirdilər. Nəvvabi-Cahanbaninin ali məiyyətinin Taroma gəlməsi və qoşununun azlığı səbəbindən orada dayanıb qalması xəbəri tüğyançı əmirlərin qulaqlarına çatdıqda əvvəlcə Rudbarda olan İsmayılqulu xanı dəf etməyə yollandılar. Vəli xan Təkəlünün başçılığı ilə bir sıra təkəlü, türkman və s. tayfaların əmirləri sürətlə hərəkət edib, onun üzərinə Rudbara getdilər. İsmayılqulu xanın tutduğu mövqenin bir yoldan savayı yolu yox idi. O, orada qalıb, yolun üstünə tüfəngçi və kamandarlar qoymuşdu. Amma Vəli xan Rudbar əhlindən bir məlumatlı şəxsi ələ keçirib, qeyri-ənənəvi bir yolla qəflətən onun üstünə getdi. İsmayılqulu xan bu haldan xəbərdar olub gördü ki, arxasını və önünü müxalif qoşunu əhatə edibdir. O, heyrət və qorxu içində qərq oldu. Lakin Mövlana Nemətulla Rudbarinin oğulları dövlətsevərlik edib öz öhdələrinə götürdülər ki, əgər o, öz «ağruq»larını, yüklərini və əşyalarını tərk etsə, onu cəngəlliyin ortasından müxaliflərin keçidi mümkün olmayan bir yola çıxararlar. İsmayılqulu xan əlacsızlıqla öz yüklərini, şamluların mallarını, əşyalarını və köçlərini atıb, məhdud saylı bir dəstə ilə cəngəllik yolu ilə Deyləmana getdi. Əksər şamlu qaziləri atdan enərək, hərbçi libasını əyinlərindən soyunub, özlərini cəngəlliyə saldılar və meşənin sıxlığı sayəsində yüz təşvişlə canlarını salamatlıqla xilas edib, Deyləmana çatdılar. Gilan valisi Xan Əhməd xatırladılan hadisədən xəbər tutub, onlar üçün qonaqlara lazım olan hər şeyi göndərdi və bir neçə gün ərzində onlara baxdı. Şamluların mallarının və sərvətlərinin tamamı təkəlülərin əlinə keçdi, bir hissəsi zay oldu, bir hissəsini isə şəhərə gətirdilər. Amma Məhəmməd xan qoymadı ki, şamluların ailələrinə qarşı əl uzadılsın.

Vəli xan qayıtdıqdan sonra [qiyamçılar] Qəzvinin ətrafında və yan-yörəsində yaşayan qızılbaş tayfalarını bu vaxtadək [Təhmasib mirzəni təbrik etmək üçün] Qəzvinə gəlmədiklərinə görə cəzalandırmaqdan ötrü onların üstünə qoşun göndərmək qərarına gəldilər, özlərinin digər tədbirləri kimi, bu xətalı rəyi də doğru sayaraq, bu işə girişdilər və əfşar tayfasının ovsalu və əbərlü elləri üzərinə bir dəstə göndərib, onları qarət və tarac etdilər. Buna görə də digər el və oymaqlar

[qiyamçılardan] uzaqlaşdılar. İstədilər ki, bayat el-obası üzərinə də [qoşun] göndərsinlər. Lakin bu vaxt Nəvvabi-Cahanbaninin Qızılüzən çayından keçib Mahan çəmənliyinə gəlməsi xəbəri onlara çatdı. Onlar digər bir işə fürsət tapmayıb, müharibə əzmi ilə şəhərdən çıxdılar.

Buna qədər isə Nəvvabi-Cahanbani Rudbar hadisəsini eşidib, adam göndərərək İsmayılqulu xanı Deyləmandan öz yanına çağırdı ki, Paradbaba-Mənsuri yolundan Taroma gəlib ali məiyyətə birləşsin. O, göstərişə uyğun olaraq, ali məiyyətə birləşdi. Nəvvabi-Cahanbani İsmayılqulu xanın, onun qardaşlarının və şamlu ağalarının alaçıqlarını, büyutat ləvazimatlarını və ehtiyaclarını ali sərkardan ödədi və piyada qalmış şamlu qazilərini atla təmin etmək üçün hökm olundu ki, bütün əmirlərin, əyanların və hər kəsin ki öz mindiyi atdan savayı atı vardır, onlara versin. Beləliklə, piyada qalanlar atla təmin olundu və onlar üçün əsləhə və yaraq təşkil edildi. Əliqulu xan Fəthoğlu və s. əmirlər də [şamlulara münasibətdə] iltifat nümayiş etdirdilər.

Müxtəsər, onun gəlişindən sonra ali məiyyət çayı keçib, Mahan çəmənliyində dayandı. Onlar orada olarkən Xalxalda və Taromda olan ustaclu tayfasını da öz yanlarına cəmləşdirərək, oradan köç edib, Sultaniyyə çəmənində dayandılar. Rey və Rudbarda yaşayan Məhəmməd Hüseyn sultan başda olmaqla əymür camaatı[1066] bu məkanda tərtibə salınmış qoşunla ali məiyyətə qoşuldular. Türkman və təkəlülərin soyğunçuluğu və qarətkarlığı [Qəzvin ətrafındakı] ellərə və oymaqlara çatıb, onları vahiməyə salmışdı və imkanı olan hər kəs öz eli və ulusu ilə birgə Sultaniyyə çəməninə gəlib, ali orduya qoşulmuşdu.

Ali nəvvab [Həmzə mirzənin] qorçusu olan və qalibiyyətli orduda əmir rütbəsi daşıyan Dövlətyar Siyahmənsur qoşun gətirmək üçün göndərilmişdi. Həmin vaxt o, siyahmənsur [tayfasının] kürdlərindən bir dəstəni özü ilə gətirib gələrək, Sultaniyyəyə çatdı. Onların maldar adamlar olmasına və aralarında yaraqlı şəxslərin az olmasına baxmayaraq, onların gəlişi qoşunun çox görünməyinə səbəb oldu. Beləliklə, Sultaniyyədə bir qədər qoşun yığışdı. Qalibiyyətli məiyyətdəki qoşunun sayı artaraq, yeddi min süvariyədək çatdı. Onların beş min nəfəri işə yarayan [əsgərlər] idilər.

Digər tərəfdən türkman və təkəlü [əmirləri] öz tabeçiləri ilə Təhmasib mirzənin məiyyətində Bahluvar[1067] çəməninə çatdılar. Onların əsgərlərinin sayı on mindən çox idi. Özü də ki, bunların hamısı bacarıqlıvə yaraq-əsləhəli adamlar idilər. Onların əksəriyyətinin iki atı vardı, birini minirdilər, o birisini isə ehtiyatda saxlayırdılar. Müxtəsər, onların gəlişi xəbəri zati-alilərinin qulağına çatdıqda qoşunların bir-birinə yaxınlaşması baş verdi. Nəvvabi-Cahanbani Sultaniyyədən köç edib, Sayinqalanın iki fərsəxliyində dayandı. Həmin gün [qiyamçıların] qaravulları onların gəlişi barədə xəbər çatdırdılar. Nəvvabi-Cahanbani, Pirqeyb xan

---

[1066] Əymür camaatı - zülqədər tayfasının bir obası idi (F.Sümer. Safevi devletinin kuruluşu, s.95,178,180).

[1067] S-129, v.275a-da Baqluvar yazılmışdır.

Ustaclunu qoşunun çərxçisi [təyin] edərək, ustaclu və s. tayfaların əmirlərindən, işə yarayan adamlardan ibarət iki min nəfərlik dəstəni ona yoldaş etdi. Əliqulu xanı isə Əsləməs xan Möhürdar, Əli sultan Tatıoğlu və möhürdar Şahqulu sultan Zülqədərin nəvəsi Əli sultanla birlikdə cəmi sayı iki min nəfər olan bir dəstə ilə çərxçilərdən sol cinahda yerləşdirdi. İsmayılqulu xan, Qorxmaz xan və Şahverdi xəlifə İnallu sayı min iki yüz nəfər olan şamlu qoşunu ilə sağ cinahda mövqe tutdular. Nəvvabi-Cahanbaninin və şəxsi mülazimlərinin zəfərpeykər ayparası mərkəz üfüqlərindən doğdu və Şahqulu sultan Xüləfa, Seyid bəy Kəmunə, Dövlətyar xan Siyahmənsur da o həzrətin yanında qərar tutdular. Taqətsiz atlara malik maldar adamların əksəri də qoşunun çox görünməsi üçün mərkəzdə dayandılar. Beləliklə, dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] ordusunun mərkəz hissəsi azdan-çoxdan iki-üç min nəfərə çatırdı. Onlar layiqli tərzdə döyüş əməliyyatının tərtibi və ləvazimatı ilə ordugahdan çıxıb, bir fərsəx irəlilədilər və əsr[1068] vaxtınadək at üstündə qalıb, üsyan əhlinin gəlişini gözlədilər. Əsr vaxtı xəbər çatdı ki, tüğyançıların ordusu dağlar arasındakı çayın yanında düşərgə quraraq, döyüşü ertəsi günə saxlayıblar. Süruş (məlaikə Cəbrayıl) qeyb aləmindən bu nidanı qulağa çatdırdı:

**Beyt**

«Düşmən qəlbi gəldi belə qərara
Ki, sabah yollansın döyüş yoluna,
Kin meydanında coşub-qaynasınlar,
Öz başlarıyla oyun oynasınlar».

Bu xəbəri dəqiqləşdirdikdən sonra Nəvvabi-Cahanbani öz ordusundakı hər bir tayfanın nümayəndələrindən ibarət iki-üç nəfəri səhrada qoydu ki, [qiyamçıların] hiyləsindən, məkrindən və gecə basqınından vaqif olsun və özü isə ordugaha qayıdıb, o gecə sabahacan bir sıra fədailərlə birlikdə oyaq qalaraq, təkrar-təkrar Allaha dua etdilər: «Ey uca Allah! Qiyamçıların ürəyini yumşaldıb, bu fitnəni xeyir və xoşluqla yoluna qoy!». Həmin vaxt «Rövzətüs-səfa» kitabı ortalıqda idi. Nəvvabi-Cahanbani [həmin kitabla] fal açıb baxdı ki, görsün, açdığı səhifədə nə çıxacaqsa, özünün o [qiyamçı] camaatla əhvalatının necə olacağını onunla müqayisə etsin. Təsadüfən, bəzi əmirlərin Əmir Çobanın və Sultan Əbu-Səid xanın iqtidarını aradan qaldırmaq üçün üsyan qaldırmaları, onların mücadiləsi, Sultan Əbu-Səid xanla Əmir Çobanın zəfər qazanması və üsyançı əmirlərin məğlub olması hadisəsindən [bəhs edən səhifə] açıldı[1069]. Nəvvabi-

[1068] Əsr vaxtı - ikindi zamanı, günortadan sonra.
[1069] S-129, v.275b; S-297, v.217b. Tehran çapında (s.336) bu cümlə belədir: «Təsadüfən, Əmir Sultan Əbu-Səidin Ulcaytu xana qarşı üsyanı, onların mücadiləsi və Əbu-Səid xanın zəfər qazanması hadisəsindən (bəhs edən səhifə) açıldı». Halbuki Hülaku (Elxani) hökmdarı Sultan Əbu-Səid (1316-

Cahanbani başını səcdəyə qoyub nəzir etdi ki, əgər o təbəqəyə qalib gələrəmsə, eşidilənlərin əksinə hərəkət edərək, fəth və zəfərdən sonra bir nəfərin də qətlinə imkan verməyəm və əsirlərlə əfv və mürvət üslubu ilə rəftar edib, kəramətli əcdadlarımın qaydasına riayət edərəm.

Xülasə, dan yeri sökülməzdən öncə o həzrət öz möhtərəm bibisi və ali dövlətxananın banusu olan Bilqeys məkanlı xanım Zeynəb bəyimlə, digər hərəmlərlə və övladları ilə vidalaşdı, Ağacan bəy Əfşarı hərəm qorçuları ilə birlikdə ali dövlətxananı qorumağa təyin etdi və Allahın lütfkarlığına ümid bağlayaraq, düşmənlə döyüşməyə üz tutdu. Əvvəlki gündə olduğu kimi, bu dəfə də çərxçilər, sağ və sol cinahların, mərkəz («qol») hissənin əsgərləri müəyyən olunmuş qaydaya uyğun olaraq, hər biri öz mövqeyində qərar tutdu. Günəşin doğması vaxtına yaxın qiyamçıların qoşunu göründü və tozanağın çoxluğu ucbatından havanın üzü örtüldü.

**Beyt**

«Geniş çöldə süvarilər çaparaq,
Yeri-göyü eylədilər tozanaq.»

Onların bütün qoşunu dağın arxasından çıxıb gələrək, bir təpədə səf bağladılar və iyirmi min nəfərin əlaməti olan böyük bir qaraltı nəzərə çarpdı. Səadətli məiyyətin mülazimləri onların hamısının hərbçilər olduğunu təsəvvür edib, bir qədər pərişan oldular və ürəklərə böyük vahimə düşdü. [Qiyamçılar] bir az o dağın başında dayanıb, oradan çölə qədəm qoydular və irəli gəldilər. Aydın oldu ki, həmin böyük qaraltı onların ordusundakı dəvələrinin qaraltısı sayəsində meydana gəlmişdir. Onlar həmin dəvələri yükləyib, arxalarıyca salaraq, özləri ilə gətirirdilər. Buna görə də ürəklər bir qədər arxayınlıq tapdı. Həqiqətən də, əgər [qiyamçılar] həmin gün də döyüşü təxirə salıb orada qalsaydılar, onda qiyamçı qoşunun çoxluğunun və onların üstünlük və qələbə əldə edəcəklərinin xofu ucbatından dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] ali məiyyətinin mülazimlərinin tamam sarsıntıya düşmə ehtimalı vardı. Bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi) deyir ki, o vaxt mənim ömür mərhələlərimdən iyirmi altı mərhələ arxada qalmışdı (iyirmi altı yaşım vardı) və mən qələm sahibləri zümrəsində və Nəvvabi-Cahanbaninin divan mənsubları silkində qərar tuturdum. Həmin döyüş günündə mən iyirmi altı yaşlı bir kişiyə xas olan nəfsi cahilliyin və

---

1335) heç vaxt atası Ulcaytu xana üsyan etməyib və onlar arasında döyüş baş verməyib. Əslində, Bakı nüsxələrində yazıldığı kimi, burada bir qrup monqol-tatar əmirinin Sultan Əbu-Səidə və ordu komandanı Əmir Çobana qarşı qaldırdığı qiyamdan və hökumət qüvvələrinin qiyamçıları məğlub edib sərt şəkildə cəzalandırmasından söhbət gedir. Bu əhvalat istər Mirxondun «Rövzətüs-səfa» əsərində, istərsə də digər tarixi mənbələrdə aydın surətdə əksini tapmışdır (məsələn, bax: Хафиз Абру. Зайл-и джами ат-таварих-и Рашиди. Перевод с персидского Э.Р.Талышханова. Баку, 2007, с.95-103).

sadəlövhlüyün çoxluğu üzündən zireh geyib, yaraq-əsləhə qurşanaraq, öz düz nizəmlə şücaət sahiblərinin cərgəsində qərar tutmuşdum və Nəvvabi-Cahanbaninin müqəddəs üzəngisindən ayrılmayaraq, qələbə anına qədər onunla birlikdə idim. Ona görə də həmin əhvalatın təfərrüatından xəbərim vardır və bu hadisəni müşahidə etdiyim tərzdə vaqiə yazan qələmlə burada qeydə alıram.

***Nəvvabi-Cahanbaninin yağı əmirlərlə müharibəsi.*** Xülasə, o təbəqə irəli gəldikdə aydın oldu ki, onlar iki «qol» tərtib etmişlər: bir «qol» Müseyib xan, Vəli xan və təkəlülərdən ibarət idi və onların çərxçisi Əli sultan Pakmal idi; digər «qol»da isə Məhəmməd xan, Ümmət xan Zülqədər, Ədhəm xan, Əmir xanın qardaşı oğlu İsmayıl xan, Sultan Məsum xan Türkman və s. türkmanlar dayanmışdılar və onların çərxçiləri Əmir xanın oğlu Gülabi xan, Əmir xanın qardaşı Şahqulu sultan və Şahqulu sultan Piyada Türkman idilər. Şahzadə Təhmasib mirzənin başı üzərində zərnigar çətir qaldırılmış və o, türkmanların «qol»unda qərar tutmuşdu. Tərəflər bir-birləri ilə üz-üzə gəldilər və hər iki tərəfin çərxçiləri döyüşə girdilər. Təkəlü qoşunu şamluların, türkman camaatı isə ustacluların qarşısında idi və onlar bir-birlərinə hücum çəkdilər. Tozanaq qopdu. Hər iki tərəfin cavanları igidlik nümayiş etdirirdilər. Döyüşün əvvəlində [Həmzə mirzənin] səadətli əsgərləri şücaət qədəmləri ilə irəli atıldılar. Şamlu tayfası təkəlü çərxçisinə qalib gəldi və Əli sultan Pakmal qətlə yetirildi. İsmayılqulu xanın vəziri Həmzə bəy Nəvvabi-Cahanbaninin yanına gəlib, Əli sultanın öldürülməsi xəbərini çatdırdı. Həmçinin ustaclu tayfası türkman çərxçisi üzərində qələbə qazandı. Özünü adlı-sanlı mübarizlər zümrəsindən sayan Əliqulu xan Fəthoğlu cahilliyinin çoxluğu ucbatından öz «qol»unda qalmayıb, özü şəxsən irəli atıldı və çərxçilər arasında gedən vuruşmaya qoşuldu. Nəhayət, türkman çərxçiləri ustaclu qoşununun təzyiqin qarşısında geri çəkildilər. Əmir xanın qardaşı Şahqulu sultan qətlə yetirildi. Onun başını nağaraxanası və yaraqları ilə birlikdə gətirib gəldilər. Lakin o tərəfdən təkəlü qoşunu arasından saysız-hesabsız bir dəstə çıxaraq, özünü parlaq ildırım kimi şamlu tayfasına vurub, onları «Binatün-nəş» bürcünün ulduzları kimi pərən-pərən saldı və Qəzvin darugası Şahkərəm bəy Ləngər işə yarayan şamlu cavanlarından neçə nəfərlə birlikdə qətlə yetirildi. Vəzir Həmzə bəy əsir düşdü.

Türkman ordusunun həmləsinin zərbəsi nəticəsində ustaclu qoşununun məğlub olması. Həmçinin türkman ordusundan Əmir xanın bütün qardaşları və tabeçiləri, Şahqulu sultan Piyada və digərləri davakar və döyüşkən bir qoşunla Əliqulu xanı öldürmək və Əmir xanın qanının intiqamını qatillərdən almaq üçün irəli atıldılar və Pirqeyb xanı və ustacluların çərxçi dəstəsini bir igidcəsinə zərbə ilə darmadağın edib, özlərini Əliqulu xanın «qol»una yetirdilər. Əliqulu xan öz «qol»unda olmadığı üçün «qol» adamları bir-birilərinə dəyib, xanı axtarmağa başladılar. Türkman ordusu onlara çarpışmaq və vuruşmaq macalı vermədən bütün ustaclu ordusunu və Əliqulu xanın tabeçilərini darmadağın etdi. Onun və [digər] ustaclu əmirlərinin nağaraxanasını apardılar. Əliqulu xan çoxlu at çapmaqdan və şəxsən iştirak etdiyi saysız toqquşmalardan sonra özünü üç-dörd nəfərlə birlikdə

dağın ətəyinə çəkdi. O camaatın (ustacluların) darmadağın olunması və şamluların məğlubiyyətə uğraması xəbəri Nəvvabi-Cahanbaniyə çatdı. Onun səadətli «qol»unun sol cinahında dayanmış və Əliqulu xana kömək göstərməyə məmur edilmiş möhürdar Əsləməs xan Zülqədər və bir sıra zülqədər əmirləri [ustaclulara] yardım etməyə və döyüşməyə tələsdilər. Lakin bir iş görə bilmədilər. Əliqulu sultan Tatıoğlu Zülqədər qətlə yetirildi. Türkman ordusunun təzyiqi altında o dəstənin hamısı pərən-pərən salındı. Qaçanlar hətta [Nəvvabi-Cahanbaninin] səadətli «qol»unda da qalmağa tab gətirməyərək, fərar yolunu tutdular.

Bu halda zati-alilərinin əhvali-ruhiyyəsi dəyişdi və səadətli «qol»da narahatlıq yarandı. Külək müxaliflərin tərəfindən əsdiyindən və tozanaq qalxdığından bu tozanağın içində Nəvvabi-Cahanbaninin fələyi bürüyən çətiri qiyamçıların nəzərindən gizli qalmışdı. Buna görə də müxalif qoşunu «qol»dan o tərəfə keçsə də, mərkəzə doğru irəliləməyib, geri qayıtdı. Nəvvabi-Cahanbani qoşunun pərakəndəliyinə baxmayaraq, yanında qalan az sayda adamla döyüş meydanında səbat və qətiyyət ayağını möhkəm saxlayıb, Əliqulu xanı şərəfli xidmətə gətirib gəlmək üçün Mirzə Hidayət Nəcmi-Sani İsfahanini göndərdi ki, o gəlib, müqəddəs üzənginin yanında olsun. Sözügedən şəxs gəlib cavab gətirdi:

- Əliqulu xan deyir ki, Nəvvabi-Cahanbaninin xidmətinə gəlməyə üzüm yoxdur. Bizim işimiz uğursuzluğa düçar oldu. Bundan sonra düşmənləri sevindirərək zillət və xarlıq içində yaşamaq nəyə yarayar?! Mən döyüş meydanında qalacağam ki, hərb dəryasında boğulub, fanilik dənizində qərq olum.

Nəvvabi-Cahanbani yenidən [Mirzə Hidayəti] Əliqulu sultan Zülqədər Qoruqlu ilə birlikdə göndərib, [Əliqulu xan Fəthoğluya] belə bir xəbər yolladı:

- Məgər sənin ağlına elə gəlib ki, mən döyüş meydanına arxa çevirib, iki günlük həyatı qənimət sayaraq fərar edəcəyəm? Bu, necə də yanlış bir təsəvvürdür və necə də qeyri-mümkün bir xəyaldır! Buraya gəl ki, bizim başımıza nə gələcəksə, sənin də başına gəlsin.

Onlar gedib tam təkidlə Əliqulu xanı gətirdilər. Bu vaxt müxaliflərin «qol»u irəli gəlməyə başladı. Təhmasib mirzənin mövqeyi olan türkmanların «qol»u yubanmadan irəli gəlsə də, Əli Pakmalın qətlindən qəzəblənmiş Vəli xan və təkəlülər onlardan da qabağa düşmüşdülər. Vəli xanın cilovunun qabağında tüfəng atmaqla məşğul olan dörd yüz-beş yüz nəfərə yaxın tüfəngçi Nəvvabi-Cahanbaninin səadətli «qol»unun üstünə cumdular. Elə vəziyyət yarandı ki, məğlubiyyətə uğramış şamlu qoşunu onların arxasında qaldı. Belə olduqda təkəlü qoşununun birinci dəstəsini təşkil edən Məhəmməd xan və Ədhəm xan Türkmanın başçılıq etdikləri üç yüz-dörd yüz nəfər, şamlu tayfasının onlara arxadan zərbə vurub təkəlü ordusunu sarsıtmaması üçün şamluların önünü kəsməkdən ötrü orada qaldılar. Xülasə, Əliqulu xanla Əliqulu sultan Zülqədər ali məiyyətə çatan vaxt təkəlü qoşunu o qədər irəli gəlmişdi ki, tüfəngçilərin atdıqları güllələr səadətli məiyyətin mülazimlərinə çatırdı. Bu döyüşdə çətirdar olan və Nəvvabi-Cahanbaninin yaxınında at üstündə oturmuş ali nəvvab sərkarının xəzinədarının

qulamı Şahqulu bəy ayağından tüfəng yarası aldı. Nəvvabi-Cahanbani səadətli çətiri bu savaşdan sonra Fərrux Yeketaz[1070] [adı] ilə məşhur olmuş xasseyi-şərifə qulamı Fərrux bəyə tapşıraraq, ona əmr etdi ki, çətiri günəş kimi o həzrətin Fərqədan ulduzlarına[1071] çatan başı üzərində saxlayıb, ali məiyyətdən ayrılmasın.

Amma [Həmzə mirzənin] «qol» qoşunu bir-birinə dəymişdi. Təkəlü ordusunun təzyiqi və tüfəng güllələrinin xətərləri ucbatından orada az adam qalmışdı. Onlar da müxaliflərin hücumundan qorxaraq, əksəriyyəti fərar yolunu tutdular. Allahın himayəsi altında olan Nəvvabi-Cahanbani güllələrin qorxusundan çiynindən asdığı günəş misallı qalxanını mübarək əlinə götürüb, onu gah üzünün qarşısına, gah qabağına, gah da arxasına tuturdu. Ali məiyyətin mülazimləri də böyürlərini döyüş meydanına çevirərək, fərar əlaməti olan bir neçə addım geri getdilər. Məiyyətdə olanların hamısı məğlub olduqlarını və basıldıqlarını yəqin edib, fəth və zəfərdən ümidlərini üzdülər. Döyüş meydanının ortası tüfəng güllələrinin yaratdığı dəşhət səbəbindən mübarizlərdən xali oldu və döyüşdə heç kəs qalmadı. Nəvvabi-Cahanbaninin arxasında bir fərsəxə qədər məsafədə səadətli qoşundan qaçanlar səhrada pərakəndə olub, bəxtsizlik yoluna çıxmışdılar. Belə şəraitdə ali məiyyətin mülazimlərinin canına həyəcan və iztirab düşdü və carçıbaşı Əlixan bəy Rumlu qorxunun çoxluğu üzündən atdan yerə enərək, əli ilə Nəvvabi-Cahanbaninin atının yüyənindən tutub dedi:

- Döyüşün nəticəsi həmişə eyni cür olmur. Şücaət ərləri və döyüş igidləri gah qalib olurlar, gah da ki məğlub. Əgər bu vuruşmada qəzavü-qədərin zərurəti ucbatından zəfər bizim tərəfimizdə olmazsa, biz Sizin müqəddəs zatınızı cəhalət və bihudə inadkarlıq üzündən bada verə bilmərik. İndi artıq iş işdən keçib. Yanımızda yardımçı və köməkçi qalmayıb. Vəziyyətin düzələcəyinə ümid yoxdur. Hələ gecə düşüncəyədək on fərsəx yol getmək olar. Biz bəndələrin işi asandır. Siz isə tezliklə özünüzü salamatlıqla Azərbaycana, yüksək şöhrətli atanızın hüzuruna yetirib, o tərəfin dövlətsevərlərini cəmləyərək, yenidən hökmranlıq bayrağınızı dalğalandırın.

Nəvvabi-Cahanbani ona etirazını bildirib, kəskin və sərt tərzdə buyurdu:

- Axı bu cür fərarın rüsvayçılığı ilə yaşamaq nəyə yarayar?! Aləm əhli arasında yayılacaq ki, filankəs öz kiçik qardaşının qabağından qaçdı. Mən bu döyüşdə şəhidlik şərbətini içəcəyəm və bu utancın yükünü daşımayacağam.

O, iti qaçan atının yüyənini sözügedən carçının əlindən alıb, öz düz nizəsini mübarək əlində tutaraq, ilham dili ilə bəyan etdi:

- Kim şəhid olmaq meylindədirsə, mənə yoldaş olsun! Kim bədəninin asudəliyini üstün tutursa, Tanrı ona yar olsun!

O, bunu dedi və tikan kimi batan mahmızını atın tərkinə vurub, sahibqiranlığın şücaət atını cövlana gətirərək, özünü akula (köpəkbalığı) kimi savaş atəşinin dəryasına vurdu və bir göz qırpımında, «Allahın mərhəmətindən ümidinizi

---

[1070] Yeketaz – farsca “misilsiz süvari”.

[1071] Fərqədan ulduzları - Şimal qütbünə yaxın, Kiçik Ayı bürcündə iki parlaq ulduz.

kəsməyin» ayəsinə[1072] əsasən, fəth və zəfər yeli əsməyə başladı. O vaxta kimi külək qiyamçıların tərəfindən əsirdi, döyüş meydanının toz-torpağı səadət əsgərlərinin başına tökülürdü və [Həmzə mirzənin] uzaqgörən gözü qələbə və bəxtiyarlıq əlamətlərini müşahidə etməkdən məhrum qalırdı. Bu əsnada isə Allahın köməyi ilə baş vermiş gözəl bir təsadüf üzündən külək səadət əsgərləri tərəfindən əsməyə başladı. Vəli xan və təkəlü qoşunu dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] səadətli «qol»u üzərinə şığıyan zaman məğlub və pərakəndə olaraq müxalif qoşunun arxasında qalmış İsmayılqulu xan və şamlu tayfası bu halı müşahidə edib, narahatçılığa düşərək, fədailər kimi onların (təkəlülərin) arxasından həmlə etdilər. [Təkəlü] qoşununun birinci dəstəsinə başçılıq edən və pərakəndə şamlu qoşununun qarşısını almaq üçün dayanmış olan Ədhəm xan Türkman onlara müqavimət göstərməyə tab gətirməyib qaçdı. Şamlu tayfası onlara qalib gələrək, özünü təkəlülərə yetirdi.

***Nəvvabi-Cahanbaninin zəfər qazanması, türkman və təkəlü ordusunun darmadağın edilməsi.*** Nəvvabi-Cahanbani öz şərəfli vücudu ilə [təkəlülərin] qarşısında həmlə edərkən bu sətirlərin müəllifi də onun yanında idi və Nəvvabi-Cahanbaninin ətrafında at çapanların sayının əlli nəfərdən çox olmadığı gözə dəyirdi. Amma yaxşıca müşahidə etdikdən sonra gördüm ki, bütün [döyüşdən] qaçanlar qeybdən gələn ilhamla savaş meydanına doğru üz qoyub gəlirlər. Bu vəziyyətdə atəş açmaqda olan təkəlü qoşununun tüfəngçilərinin atdığı bir güllə ilahi qəzavü-qədər üzündən döyüşün ən qızğın çağında Vəli xana dəydi. Solağ Hüseynin oğullarından Bayram xan adlı birisi bu məsələdən xəbər tutub, atını sürətlə çapdı və gözü səadətli nəvvab [Həmzə mirzənin] simasına düşdükdə atdan yerə endi. Nəvvabi-Cahanbani onun gəlişini fəth və zəfərin müqəddiməsi bilib, ona dayanmağa fürsət vermədi və buyurdu ki, atlansın. Həmlə edib, özlərini təkəlülərin mərkəzinə vurdular.

Beləliklə, düşməni məğlub etmiş, beyinlərinin qəsrinə lovğalıq və qürur tikanı batmış, qüdrət və iqtidarla irəli gəlməkdə olan və qarşılarına bir kəsin çıxa biləcəyini güman etməyən təkəlü qoşunu arxadan və öndən hücuma məruz qalıb, bəla dənizində qərq oldular və öz sərdarlarını yaralayıb, yorğun və üzgün bir vəziyyətə düşərək, fərar vadisinə üz qoydular. Qorçu Ümmət bəy Ustaclu onsuz da tüfəng yarasından taqətsiz və gücsüz olan Vəli xanı nizə ilə vurub, atdan saldı və onun başını bədənindən ayırdı. Bu vəziyyəti müşahidə edən Məhəmməd xan və türkman tayfası kütləvi surətdə bu tərəfə üz tutdular. [Qoşunlar arasındakı] məsafələr yaxınlaşdı. Sahə mübarizlərə dar gəldi. Nizə atmağa yer qalmamışdı. [Həmzə mirzənin] səadətli əsgərlərinin azsaylı dəstəsi onların çoxsaylı dəstəsinin arasına düşdü və onların ox yağışına məruz qaldı. Allah-taalanın izzətinə and olsun ki, bu sətirlərin müəllifi o vaxtadək özünün bir o qədər də vahiməyə düşməsinə yol verməmişdi. Amma həmin vaxt xeyli vahimə və qorxu keçirdim. Çünki biz

[1072] "Qurani-Kərim", "Yusif" surəsi, 87-ci ayə.

məhdud sayda adamla çoxsaylı bir dəstənin əhatəsində qalmışdıq. Yarım andan da az olan kiçik bir zamanda Nəvvabi-Cahanbani və müqəddəs üzənginin mülazimləri yüyənlərini dartdılar və ali məiyyətdəki dəstə mat-məəttəl qaldı. Bu vaxt Tanrının köməyi imdada və yardıma yetdi. Rəbbin yardımı ilə o şücaət meydanının şahsuvarı [Həmzə mirzə] yenidən igidcəsinə həmlə edib, öz nəfis vücudu ilə atını türkmanların «qol»u üzərinə çapdı və özünü onların mərkəzinə vurdu. Ox atanlardan bəziləri öz oxlarını yarımçıq buraxıb, yenidən ox atmağa fürsət tapmadılar. Onların əksəriyyəti oxqabılarını atıb, təfriqə və pərakəndə olaraq, fərar yoluna çıxdılar.

**Beyt**

«Süvarilər hər tərəfdən başladılar qaçmağa,
Əksəri silahlarını atmağa məcbur oldu.
Heç bilirsənmi, igidlər həmin qorxunc vadidə,
O qədər ox atdılar ki, torpağın üstü doldu.
Neçə-neçə komandan, qoşun başçısı, sərdar,
İtirdi cah-calalını, tam saraldı və soldu.»

Bu tərəfdən ali məiyyətin mülazimləri və əksər ustaclu camaatı türkman təbəqəsini, şamlu tayfası isə təkəlü qoşununu təqib etdilər. Məhəmməd xan Təhmasib mirzənin çətirinin yanında dayanmışdı. Zülqədər tayfasından olan Ruhulla adlı söhbət yasavulu onu atdan saldı, Əliqulu sultan Zülqədər isə özünü onun üstünə atıb, onu tutdu, onun tacını və daş-qaşlı ciqqəsi ilə birlikdə çalmasını Ruhulla bəy mənimsədi, xəncər kəmərini və s. yaraqlarını isə Əliqulu sultan özünə götürdü. Atdan düşmüş Təhmasib mirzəni Mehdiqulu sultan Talış ələ keçirib saxladı. Ustaclu və şamlu tayfaları müxaliflərə qılınc vuraraq, hər kimə çatdılarsa, qətlə yetirdilər.

Amma elə ki «kömək yalnız Allahdandır» ayəsinə[1073] əsasən, fəth və zəfər yeli Nəvvabi-Cahanbaninin fələyi bürüyən bayrağının pərçimini yellətdi, o, öz əhdinə sadiq qaldı, onun şahanə mürüvvət damarı hərəkətə gəldi və onun ali əmrinə uyğun olaraq, carçılar qışqırdılar ki, bundan sonra heç kim qətlə yetirilməsin, əsir düşən hər kəs diri-diri onun şərəfli nəzərləri qarşısına gətirilsin, qaçanlar təqib olunmasın! Qaçanlardan bir sıra türkmanlar özlərini dağa çəkərək, çıxıb getdilər. Ədhəm xan Quma və Sultan Məsum xan Savəyə getdilər. Digər türkman əmirləri və əyanları Damğan tərəfə gedib, Mürtəzaqulu xan Pornaka qoşuldular. Ümmət xan Zülqədər Şiraza getmək iradəsi ilə məhdud saylı bir dəstə ilə Yəzdə qədər gedib çıxdı. Orada Qulu bəy Qorçubaşının oğlu Yusif xan atasının fərar etməsi səbəbindən Nəvvabi-Cahanbanidən üz döndərmişdi, onu qorxu-hürkü

[1073] «Qurani-Kərim», «Ali-İmran» surəsi, 126-cı ayə.

bürümüşdü və əfşar camaatını başına yığıb, Xorasana getmək istəyirdi. İş elə gətirdi ki, Yəzd daruğası Məhəmməd xəlifənin və bəzi başbilənlərin məsləhəti ilə Ümmət xan[1074] orada əfşarların əlində qətlə yetirildi. Əmir xanın qardaşı İsmayıl sultan, Əmir xanın oğulları Sultan Murad xan və Gülabi xan, Əmir xanın qohumu Şahbudaq sultan Rum tərəfə getdilər. İsmayıl sultan Allahın kölgəsi olan əlahəzrət şahın uğurlu hakimiyyəti zamanında Rumdan Qızılbaş tərəfə qayıdıb gəldi. Gülabi xan Bitlisdə Əmir xanın kürəkəni Şərəf xan Kürdün yanına getdi. Onlardan hər birinin əhvalatının sonrası əlahəzrət [Abbasın] xoşbəxtlik nişanəli zamanının hadisələri daxilində bəyan qələmi ilə qeydə alınacaqdır.

Təkəlü tayfası Əbhər səhrasında pərakəndə oldu. Əbu-Talib mirzənin lələsi Xəlil bəy və təkəlü rəisləri qətlə yetirildi. [Təkəlü] qoşununun qalanı Həmədan səmtinə üz çevirdilər və o təbəqədən bir dəstəsi Bağdad tərəfə getdi. Müseyib xan Şərəfəddinoğlunu isə İsmayılqulu xanın qardaşı Mürşüdqulu bəy tutub gətirdi. Qaçanların əksəriyyətini kəndlərin və mahalların rəiyyətləri piyada, çılpaq və üryan edib, heç kəsin görmədiyi bir vəziyyətə saldılar. Onlar həyatı qənimət sayıb, çılpaq və üryan vəziyyətdə nicat və xilas ayağını irəli atdılar. Türkman və təkəlülər özlərinin bütün mallarını, əşyalarını və ləvazimatlarını dağa bənzər dəvələrə yükləyərək, onları döyüş meydanından yarım fərsəx aralıda saxlamışdılar və onlar qazilər tərəfindən qarət və tarac olundular. [Təhmasib mirzənin] vəziri və etimadüddövləsi olmuş Şah Qivaməddin Hüseyn İsfahani döyüş meydanında qətlə yetirildi. Qatil məlum olmadı. Məhəmməd xanı qoşun araya aldı, ona qarşı tənə və lənət dillərini açdılar və ortabab adamlardan yüz nəfərə qədəri onun qətli məqsədi ilə qılınc və nizə uzatdılar. Lakin bu vaxt Nəvvabi-Cahanbani özünü yetirdi, qarışıqlıq salanları süngünün hədəsi ilə ondan kənar etdi və ona əfv və bağışlama nəzəri ilə baxıb, onu etimadlı adamlara tapşırdı ki, salamatlıqla ordugaha çatdırsınlar.

Xülasə, fəth və qələbənin baş verməsindən sonra Nəvvabi-Cahanbani ali nəvvab xəzinəsinin müşrifi olan Xoca Ağaşah Əbhərini ordugaha göndərdi ki, fəth və qələbənin muştuluğunu Nəvvabi-Cahanbaninin möhtərəm bibisi olan Bilqeys məkanlı ali xanıma və digər səltənət örtüklü qadınlara çatdırsın. Sözügedən şəxs vəhşətli xəbərlərin ordugaha çatıb səltənət çadırının qadınlarının könüllərini narahat və əhvallarını iztirablı etdiyi bir şəraitdə özünü oraya yetirərək, fəth müjdəsini və qələbə sevincini onlara bəxş etdi. Ali ordugahda şadyanalıq nağaraları səsləndirilməyə başlanıldı. Nəvvabi-Cahanbani Allahın lütfkarlığına şükür etmək mərasimini yerinə yetirib, şövkət, səadət və qələbə ilə ali ordugaha üz tutdu. Bu zəfərin mübarəkbaşlığının səs-küyü yeri-göyü bürümüşdü və «əhsən», «afərin» sözlərinin avazı Yer kürəsi sakinlərinə və fələklər çadırında yaşayanlara çatırdı. Bu böyük hadisə üçün Nəvvabi-Cahanbani Tanrının lütfündən və

---

[1074] S-129, v.279b-280a; S-297, v.220b.

Pərvərdigarın köməyindən savayı, əmirlərdən və zəfər şüarlı əsgərlərdən heç birinin qarşısında yardım və mədədə görə minnətçi deyildi.

[Həmzə mirzə] ali ordugaha gəlib çatdıqda hərəmə təşrif apardı. Müqəddəs nişanəli sülalənin xanımları onun müqəddəs zatının salamatlığına, fəth və qələbəyə görə şükür edərək, sevincək və xoşhal oldular. O, iki gecə və gündüz idi ki, yatmamışdı. Buna görə də bir qədər istirahət etdi və günün axırında eyş-işrət məclisi tərtib edərək, müxaliflərin başlarını hamıya ibrət olsun deyə bargahın bərabərində yığdırdı. Həmin gecə bu şad xəbərin bildirilməsi üçün söhbət yasavulu Şahverdi bəy Bayburdlu Təbrizə, İsgəndər şanlı nəvvabın hüzuruna göridərildi. Səhəri gün tamam təmtəraq və əzəmətlə bir məclis quruldu. [Həmzə mirzə] daş-qaşla bəzədilmiş bir səndəldə əyləşdi. Yüksək şöhrətli əmirlər və xanlar, xüsusən Əliqulu xan, İsmayılqulu xan, Pirqeyb xan və Əsləməs xan onun sağında və solunda qərar tutdular. Qələbə şüarlı igidlər və şücaət nişanəli tərəfdarlar başları, zinətli tacları və əsirləri bir-bir [Həmzə mirzənin] nurlu nəzərləri qarşısına gətirib gəldilər.

[Həmzə mirzə] əvvəlcə günahsız tifil qardaşı Təhmasib mirzəni mehribanlıq ağuşuna çəkib, ona öz yanında yer verdi. Ali əmrə uyğun olaraq, Məhəmməd xanın və Müseyib xanın əlləri açıldı, onlara məclisdə oturmaq üçün yer verildi və [əsirlərin] əksəriyyətinin zəlaləti üzərinə əfv fərmanı çəkildi. Amma [əsirlər arasından] var-dövlətləri olan bir dəstə şəxs mühəssillərə[1075] tapşırıldı ki, onların sərvəti müsadirə olunub əllərindən alınsın. Lakin bəzilərini bu işdən xilas edərək, onlara qarşı intiqam məqamında dayanmadı. Məhəmməd xan Əliqulu xana, Müseyib xan isə İsmayılqulu xana tapşırıldı ki, onları qonaq kimi əziz və möhtərəm saxlasınlar. Onlar xəcalət dənizinə qərq olaraq, etdiklərindən heyifsilənib peşman oldular və yüksək şöhrətli əmirlərin mənzillərində əziz və istəkli vəziyyətdə yaşadılar. Əliqulu xan Məhəmməd xanla oğulun ataya rəftar etdiyi kimi rəftar etdi.

Lakin şamlu oymağından olmasına baxmayaraq, müxalif qoşuna daxil olduğu üçün Bilməz bəy Asanoğlu[1076] İnallunu və Nəvvabi-Cahanbaninin qorçubaşısı mənsəbini tərk edib, o [qiyamçı] camaatın arasına qaçmış Keçəl Mustafa Əfşarı qəzəbə və cəzaya məruz qoydular. Onları inək dərisi içərisinə saldılar və bir neçə gün inək dərisinin içində saxladılar. Onlar həlak sərhədinə yaxın olduqda Bilməz bəy İsmayılqulu xan Şamlunun şəfaəti, Keçəl Mustafa isə Əliqulu xanın xahişi ilə xilas oldular.

Kama yetmiş sultanların fəthlərinə tən gələ bilən bu qələbədən sonra hərəkət yüyənlərini dövlətin mərkəzinə və xilafətin qərargahına [Qəzvinə] tərəf döndərdilər. Uğurlu bir saatda hökmdar dövlətxanası dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] qədəmlərinin rövnəqi üzündən cənnət bağına həsəd bəxş etmiş oldu. Daha sonra bu döyüşdə mərdlik nümayiş etdirmiş, sədaqət və vəfadarlıq

---

[1075] Mühəssil – vergi məmuru.
[1076] S-129, v.181a-da Asanoğlu əvəzinə İnsanoğlu yazılmışdır.

nümunələri meydana gətirmiş bir sıra şəxslərə böyük nəvazişlər göstərildi. Onlar bol-bol ənamlara layiq görüldülər.

Bir neçə gündən sonra Ədhəm xan Qumdan və Sultan Mosum xan Savədən özlərini səltənət taxtının ətəyinə yetirərək, qılınclarını boyunlarından asıb, günahkarlar üslubu ilə nurlu nəzərlər qarşısına gəldilər. [Həmzə mirzə] Ədhəm xana xüsusi şəfqət bəsləyirdi və bəzən izhar edirdi ki, Ədhəm xan özü istəmədən o təbəqəyə yoldaş olmuşdur. Buna görə də [Ədhəm xanın] indi sədaqətini bildirməsi müqabilində və onun əvvəlki yaxşı xidmətlərini nəzərə alaraq, onun zillətləri üzərinə əfv fərmanını çəkdi və ona münasibətdə bu beytin məzmununa uyğun surətdə rəftar etdi:

«Düşmənlərə mərhəmətin olubdur məlum,
Dostlarını nəyə görə edirsən məhrum?»

Amma Sultan Məsum xan hələ bu hadisədən əvvəl hərbi toplanışa («yasağ»a) gəlməkdən boyun qaçırması, qəbahətli hərəkətlərin mənbəyi olması və rəiyyətin, acizlərin və tabeçiliyindəki sadə insanların onun xoşagəlməz davranışlarından gileyli olması kimi pis əməllərinin, ədəbsizliklərinin və xidmətdə yol verdiyi təqsirlərin səbəbindən töhmətləndirildi və onun malları və var-dövləti divana mənsub edildi. İraqın ən yaxşı mahalı olan Rey ölkəsi [ondan alınaraq] Təbrizin əvəzində Əliqulu xana məxsus olundu.

**Beyt**

«İnsanlıq mədəni, səxavət kanı və şəhərlər şahı,
Rey idi, o Rey ki, onun bütün aləmdə tayı yox idi.»

Həmədan ölkəsi Pirqeyb xan Ustacluya aid edildi. Əliqulu xanın qardaşı Hüseynqulu sultanın, Cəfər sultanın oğlu Allahqulu sultan Kəngərlünün, Əhməd sultan Asayişoğlunun, Ayğut[1077] sultanın oğlu Mehdiqulu sultan Çavuşlunun və başqalarının timsalında digər ustaclu əmirlərinə də rəğbət doğuran ölkələr və vilayətlər verildi. Həmçinin qərar verildi ki, «Yoldaş» ləqəbinə malik olan və təvaçıbaşı kimi bir ali mənsəbi daşıyan İsmayılqulu xan divan hökmlərinin və fərmanlarının altından möhür vursun. Fərəhan ölkəsi onun qardaşı Mürşüdqulu sultana mərhəmət olundu. Möminlər şəhəri olan Qum Şahqulu xəlifə Möhürdann nəvəsi Əliqulu sultan Qoruqluya verildi. Fars [vilayətinin] əmirülüməralığı əvvəlki qaydada Əli xan Şadıbəyli Zülqədərə şəfqət olundu. Əmr olundu ki, böyük əmirlər tezliklə qoşun təchiz edərək, müzəffər məiyyətə qoşulsunlar. Təhmasib mirzə isə

[1077] Tehran çapında (s.342) Ənəut yazılmışdır.

kutvallığı Əliqulu xanın qohum-əqrəbası olan qıclu camaatına[1078] məxsus Ələmut qalasına göndərildi ki, bir müddət orada yaşasın.

Artıq it ilinin Novruzundan iki-üç ay keçmişdi. Daha bir-iki ay sonra Rum qoşununun hərəkət vaxtı idi. Nəvvabi-Cahanbani Təbriz qalası barədə narahat olurdu. Buna görə də o, məmləkətlərin qoşunlarının cəmləşməsini gözləmədən, hərəkət yüyənini darüssəltənə Təbrizə sarı çevirdi.

## NƏVVABİ-CAHANBANİNİN TƏBRİZ SƏMTİNƏ HƏRƏKƏTİ, RUM QOŞUNUNUN GƏLMƏSİ, CƏLAL BAYRAQLARININ QARABAĞA YOLLANMASI, ORADAN DA İRAQA ÜZ TUTMAĞA HAZIRLIQLARIN GÖRÜLMƏSİ VƏ BAŞ VERMİŞ BƏZİ [DİGƏR] HADİSƏLƏRİN ŞƏRHİ HAQQINDA

Nəvvabi-Cahanbani iki aya yaxın darüssəltənə Qəzvində zəruri işlərin nizama salınması və müzəffər qoşunun vəziyyətinin düzəldilməsi ilə məşğul olduqdan sonra Təbrizə doğru üz tutdu. Zati-alilərinin bütün səyləri ona sərf olunmuşdu ki, o, Rum qoşununun həmin hüduda və ölkəyə gəlməsindən öncə Təbriz qalasını ələ keçirib viran etsin və bu dəfə əgər qızılbaş tayfaları öz qeyrət və şərəf hislərini meydana çıxarıb. din və dövlət düşmənlərinin dəf olunmasını ən önəmli vəzifəyə çevirərək, bir-biriləri ilə müttəfiq olub birləşsələr, o da tamam istedadla və layiqli tərzdə qüvvətli düşmənin dəf olunması üçün çalışqanlıq kəməri bağlayaraq, qüdrət və iqtidar ilə o şər güruhunu geri oturtmaqla məşğul olsun. Buna görə də o, bir neçə gün Sultaniyyə çəmənində qaldı ki, bəlkə, fikrində tutduğu qədər qoşun cəmləşsin. Lakin hələ ki, qızılbaşların bəxt ulduzu əzab çökəkliyinə düşüb orada qaldığından və tale səadəti onlardan uzaqlaşdığından [Həmzə] mirzə cənablarının arzuladığı qədər [qoşun] yığışmadı. Təkəlü və türkman tayfalarının əksər başbilənləri o [qiyamçılar] dəstəsi ilə yoldaşlıq edərək qətlə yetirilmiş və əsir düşmüşdülər və o tayfaların qoşunları [Həmzə mirzənin] onlara göstərdiyi xosrovanə mürüwətə və əfvə baxmayaraq, pərən-pərən düşüb, [müxtəlif] tərəflərə və səmtlərə getmişdilər. İsfahan ətrafında, Yəzd, Əbərquh, Kirman, Kuhi-Giluyə və o hüdudda olan əfşar əmirləri və tayfası Qulu bəy Qorçubaşının qalaya fərar etməsi səbəbindən [Həmzə mirzədən] bədgüman və xoflu olmuşdular və bu bəhanəyə əsaslanaraq, öz ayaqlarını dinclik və rahatlıq ətəkləri daxilinə çəkmişdilər. Bir sıra başqa [əmirlərin] gəlmək ehtimalı olsa da, artıq vaxt daralmışdı və qalmağa fürsət yox idi. Bu səbəbdən [Həmzə mirzə] onların gəlməsinə və qoşunun toplanmasına muğayat olmayaraq, ali orduda toplanmış öz adamlarından on min nəfərlə birlikdə Sultaniyyə çəmənindən

[1078] Qıclu camaatı - ustaclu tayfasına daxil olan obalardan biri idi. Əliqulu xan Fəthoğlu Ustaclu da bu obaya mənsub idi (F.Sümer. Safevi devletinin kuruluşu, s.167).

hərəkətə gəlib, köçhaköçlə darüssəltənə Təbrizin yaxınlığına çatdı və uğurlu bir saatda xoşbəxtlik və səadətlə o cənnət misallı şəhərə daxil oldu.

İsgəndər şanlı nəvvab möhtərəm oğlunu qarşılamaq üçün şəhərdən çıxdı və bir fərsəxə qədər təşrif gətirdi. Əvvəlcə yüksək zatlı şahzadə Əbu-Talib mirzə irəli gələrək, atdan endi və bəyənilən görünüşə malik böyük qardaşı ilə görüşmək səadətinə nail oldu. Nəvvabi-Cahanbaninin gözü İsgəndər məqamlı padşahın səadətli çətirinə düşdükdə ədəb üzündən atdan enərək, yüksək dərəcəli atasının budunu və üzəngisini öpdü və hökmdarın məiyyətində şəhərə gələrək, Pirə Məhəmməd xan Çavuşlunun mənzillərində özünə mənzil seçdi. İsgəndər şanlı nəvvab növbəti gün o həzrətin mənzilinə təşrif gətirib, əhvalını soruşdu və könlünü aldı. Nəvvabi-Cahanbani şahanə məclis təşkil edib, payəndazlardan, ehsanlardan, müxtəlif növ yeməklərdən, əlvan içkilərdən ibarət ziyafət və qonaqpərvərlik ləvazimatlarını layiqli bir tərzdə ortaya qoydu və öz var-dövlətini peşkəş kimi təqdim edərək, ali səviyyəli və İsgəndər məqamlı atası ilə «insan və onun əlində olan şeylər onun mövlası üçündür» kəlamının məzmununa uyğun surətdə rəftar etdi. Amma o həzrət öz ali comərdliyi üzündən o hədiyyələrə iltifat göstərməyərək, səadətmənd oğlunun xatirinə təsəlli bəxş etməkdən ötrü onların az qismi ilə kifayətlənib, qalanlarını əvvəlki qaydada onun ali sərkarına məxsus və layiq bildi.

***Qızılbaş ordusunun rumilərin qalasına yürüşü və onların muradının hasil olmaması.*** Ziyafət, şənlik, eyş və şadyanalıq keçirib rahat olandan sonra qalanı tutmaq işinə girişdilər. Həsən padşah türbəsi tərəfində böyük bir top quraşdırıldı və topçular top atmağa başladılar. Sahibabad meydanı tərəfdən mövqeləri irəli apararaq, gecə və gündüz var qüvvələri ilə qalanı ələ keçirmək istiqamətində səy göstərdilər.

Amma dünya sakinlərinin şahzadəsinin təkəlü və türkman tayfaları üzərində zəfər qazanması, Azərbaycan tərəfə qayıtması və Təbriz qalasını ələ keçirmək yolunda çalışması xəbərləri Rum qoşununun sərdarı olan Fərhad paşaya çatdıqda o, qalanın zəbt ediləcəyindən narahat olaraq, Cəfər paşaya kömək və yardım etmək üçün tamam sürət və tələskənliklə hərəkət üzünü Təbrizə doğru tutdu. Müzəffər [qızılbaş] qoşunu qalanı tutmağa çalışdığı vaxt Rum qoşununun hərəkəti və onların Təbriz hüduduna çatmasının yaxın olduğu barədə xəbər gəlib çıxdı. Qələbə nişanəli əsgərlər fikrə getdilər və təlaşa düşdülər. Qoşunun zərər görməsinə səbəb olacağından və hücum hazırlıqlarının hələ başa çatdırılmadığından qala üzərinə hücuma keçmək məsləhət deyildi. Lakin rəy və tədbir sahibləri vaxtın azlığını nəzərə alıb, hücuma razı olaraq, qərar verdilər ki, ətrafdan və yan-yörədən ümumi hücuma keçərək, qala üzərinə yürüş etsinlər və əgər murad aynası üzərində fəth və zəfərin surəti cilvələnərsə, lap yaxşı, yox. əgər baş tutmasa, onda onlar heç olmasa, zəka sahibləri və döyüş meydanının igidləri tərəfindən təqsir və diqqətsizlikdə ittiham edilməzlər. Həm seçkin insanların, həm də sadə adamların razılığına zidd olan bu xam iradəni həyata keçirməyə hazır oldular. Nəvvabi-Cahanbani istər-istəməz müəyyənləşdirilmiş günün sübhündə Həsən padşahın şərəfli məscidinə

təşrif gətirdi və əsgərlərin qərarlaşdırılmış tərzdə hücuma keçməsinə rüxsət və əmr verdi.

Sədaqət şüarlı igidlər və şücaət nişanəli vəfadarlar fədakarlıq zərbxanasında zərb olunmuş nəqd həyat sikkələrini öz ovuclarında, mərdanəlik nərdivanlarını isə çiyinlərində tutub, hər tərəfdən qala üzərinə üz qoydular. Amma rumilər əvvəlki günlərdən etibarən tədbirlilik və ehtiyatlılığa çox riayət edərək, bir an da olsun qala mühafizəsindən qafil və bekar durmurdular. Onlar bürclərdə və divarlarda müdafiəyə və münaqişəyə hazır vəziyyətdə dayanmışdılar və tüfəng gülləsi atəşləri yağdırmağa başladılar. Tüfəng tüstüsündən havanın üzü zülmət və qaranlıq oldu. Döyüş meydanında igidlərin çarpışmasından və dad-fəryadından yaranan hay-küy asimana ucalırdı. Öldürülənlərin, daş və nizə yarası almış yaralıların çoxluğu ucbatından xəndək ağzınacan dolmuşdu. Qan soran Bəhramın ürəyi o döyüş meydanının seçkin və sadə adamlarına yanırdı. Bəhram kimi hiddətli [qızılbaş] qoşununun şücaətlilərindən ibarət bir dəstə tüfəng güllələrinin zərərindən sağlam qalaraq, qalanın ətəyinə nərdivanı çatdırdılar və onu qaldırıb, divara söykədilər. Lakin onlar gürzlərin zərbəsi və süngülərin, nizələrin batması ucbatından nərdivandan yıxıla-yıxıla xəndəyə düşürdülər. Xülasə, qalibiyyətli əsgərlərdən bir çoxları bu hücumda həlak olub, gedər-gəlməzə yollandılar və bir iş görmək mümkün olmadı.

Qüdrətli dövlətin başçılarının könlü qırıldı və əhvalı pərişan oldu. Təbriz əhli həyəcan və iztirab keçirməyə başladı. Cinləri və insanları yaradan [Allahın] iradəsincə, fələk əsaslı bu qalanın fəthi səadət sahibi olan müzəffər şəhriyarın, yəni Allahın kölgəsi olan əla-həzrət şahın uğurlu zamanına müvafiq gəlirdi. Buna görə də dünya sakinlərinin şahzadəsi [Həmzə mirzənin] və qələbə nişanlı qazilərin bu müddət ərzində göstərdikləri səylərin heç bir nəticəsi olmadı.

Xülasə, qalanın ələ keçirilməməsi məyusluq və ümidsizliyə səbəb olduğundan və Rum qoşunu şəhərə yaxınlaşdığından şəhərin əhalisinin və sahibkarlarının köçürülüb darüssəltənə Qəzvinə tərəf aparılmasına və şanlı ordunun əmirlərinin və əyanlarının dəvələr və ulaqlar təmin etməklə bu işin həyata keçirilməsinə kömək etmələrinə dair ali əmr verildi. Yəqinlik sahibləri olan bir dəstə şəxs qəzavü-qədər kimi cərəyan edən [hökmdar] fərmanına uyğun olaraq, əksər seçkin adamlar, sahibkarlar və əyanlarla birlikdə Qəzvinə yollandılar. Lakin ortabab adamların çoxusu şəhərin yaxın və uzağındakı yerlərə və mahallara pərakəndə oldular. Nəticədə o cür əzəmətli bir şəhər bir gecə-gündüz ərzində elə boşaldı ki, «boş qalmış məkan» kəlməsinin məzmunundan savayı, heç bir diyarın vəziyyəti o cənnət misallı bağçanın halını anlatmaq üçün münasib olmadı.

Təbrizlilərin gedişindən sonra cəlal bayraqları da Üzümdül və Dizmar tərəfə yollandılar ki, Rum qoşununun keyfiyyət və kəmiyyətinə dair məlumat əldə etdikdən sonra müharibə işində vaxtın zərurətinə və dövlətin faydasına uyğun surətdə hərəkət etsinlər. Ertəsi gün Fərhad paşa şəhərin ətrafına çatdı və Çərəndabda dayandı. [Rumilər] özləri ilə gətirdikləri bir illik azuqə və yarağı

qalaya yerləşdirdilər. Qala müdafiəsindən usanmış əsgərlərdən ibarət bir dəstə oradan çıxarıldı və onların əvəzinə başqa bir dəstə orada qoyuldu. Bununla da [Fərhad paşa] qala məsələsindən xatircəm olub, geri qayıtdı. Bundan öncə isə o, Təbrizdə olarkən şanlı orduya elçi göndərib, Əliqulu xana və qızılbaş əmirlərinə sülh barədə bir məktub yazmışdı.

***Fərhad paşanın Əliqulu xana sülh barəsində məktubu.*** Məzmunu belə idi: «Araqarışdıranların pozuculuq fəaliyyəti nəticəsində padşahlar arasında çaxnaşma və fəsad baş qaldırdıqdan sonra neçə min insan zay və məhv olmuşdur. Hərçənd bizim tərəfdən ortaya sülh söhbəti salındı və biz sizə bildirdik ki, hansı yerlər Osmanlı nəzarəti altına keçibsə, o yerlərdən əl çəkmək Osmanlı sülaləsinin qanunu deyildir, indi sülh bağlayaraq çalışın ki, bundan sonra bir yer ixtiyarınızdan çıxmasın. Lakin qızılbaş əmirləri tərslik və inadkarlıq etməyə başlayıb, buna razı olmadılar və hər il bir vilayəti əldən verdilər. Nəhayət, İran padşahlarının paytaxtı olmuş Təbriz şəhəri də əlinizdən çıxdı. İndi də əvvəlki qaydada hərəkət edib inadkarlıq və ziddiyyət ortaya qoysanız, onda növbəti il [bizim fəthlərimiz] Ərdəbil və İraqa da sirayət edəcəkdir. Axı siz o sülalənin (Səfəvilərin) duz-çörəyi ilə boya-başa çatmısınız. Ona görə də bizim kimi xeyirxahların nəsihətini qəbul edib, sülhə razı olun və adlı-sanlı şahzadəni sülhə rəğbətləndirərək ona bildirin ki, qızılbaş tayfalarının ittifaqsızlığı və onların vəziyyətinin bərbadlığı Rum əhlinə zahir olduğuna görə İran mülkünün işğalının yüngül və asan iş olduğunu düşünürlər. O yüksək [Səfəvi] xanədanının dövlətinin faydasına uyğun gələn budur ki, tərslikdən və inaddan vaz keçib, xondgar həzrətləri ilə dostluq münasibətləri qursunlar, nə yolla bacarırlarsa, onun xatirinin razılığını əldə edərək, dostluq əlamətlərini nümayiş etdirsinlər ki, bu tərəfin və bu səmtin digər xeyirxah düşüncəli şəxsləri də bu işə girişsinlər və məhz yaxşı ad qazanmaq naminə, camaatın və Allah bəndələrinin vəziyyətinin rahatlaşdırılması üçün sülhü bərqərar edək ki, bundan sonra düşmənçilik, ziddiyyət və döyüş tərk olunsun».

Fərhad paşanın məktubu gəlib çatdıqda cahillik və qürur atının minicisi olan bəzi əmirlər dedilər:

- Bu söz-söhbəti ortaya salmaqda Fərhad paşanın mətləbi odur ki, Rum qoşunu geri qayıtdıqdan sonra qızılbaşlar tərəfindən Təbriz qalasına basqın olunmasın və bu tədbir sayəsində qala sağlam qalsın. Fürsəti əldən vermək lazım deyildir və onların geri qayıtmasından sonra qala ətrafına gedərək, oranı fəth etməyə çalışmaq lazımdır. Qalanın ələ keçirilməsindən sonra isə rumilərin qalalara sığındıqları qış fəslində onların vilayətinə qədəm qoyub, o diyarda talan və qarət atəşini yandırmaq lazımdır.

Lakin Nəvvabi-Cahanbani qızılbaş tayfalarının iltifatsızlığından və onların arasında müttəfiqliyin olmamasından çox incik düşdüyündən, tədbir və götür-qoy nəzərləri ilə mülahizə etdi ki, rumilərin düşmənçilik və döyüş qapılarını açdıqları vaxtın başlanğıcından indiyədək hər il bir məmləkət əldən gedibdir, qızılbaş tayfaları öz aralarındakı nifaq və ikitirəliyin çoxluğu ucbatından bir-biriləri ilə

ittifaq etmək məqamında durmayaraq, rumilərin fəth etdikləri mövqelərdən birini də geri almayıblar və əgər bir-iki il də bu tərzdə davam edərsə, bu [Səfəvi] dövlətinə tamam zəiflik yol tapacaqdır. O, uzaqgörən ağla müraciət edib, bu şərtlərin qəbulunu inadkarlıq və düşmənçilikdən daha vacib bildi, əmirlərin məsləhətlərinin əksinə olaraq, elçiyə dostyana sözlər dedi və müddəaya uyğun gələn cavab yazıb, sülh bağlanmasını qəbul etdi. Lakin belə bir şərt qoydu ki, Təbriz vilayətinin qızılbaşların köhnə gorxanası olduğunu və onların onun uğrunda mümkün gəldiyi və güclərinin yetdiyi qədər çarpışacaqlarını nəzərə alaraq, rumilər oradan əl çəksinlər.

Fərhad paşa yenidən adam göndərib izhar etdi ki, əgər dostluq təməllərinin möhkəmləndirilməsi üçün [Səfəvilər] kama yetmiş şahzadələrdən birini [Osmanlı] padşahının oğulları silkinə daxil olmaqdan ötrü xondgarın hüzuruna göndərsələr, onda mümkündür ki, [xondgar] Təbriz vilayətini o şahzadəyə tapşırar, əks təqdirdə isə bu iş baş tutan deyildir. Başqa çıxış yolu olmadığı üçün Nəvvabi-Cahanbani şahzadə göndərməyə razı oldu. Əliqulu xan Fəthoğlu da bu məsələdə Nəvvabi-Cahanbani ilə həmrəylik nümayiş etdirdi. Qərar verildi ki, Nəvvabi-Cahanbaninin kiçik oğlu olan və lələsinin Əliqulu xan olduğu Sultan Heydər mirzəni xondgarın hüzuruna göndərsinlər. Hərçənd bu məsələ şahın və ordunun təbiətinə zidd idi. Amma o vaxt şiələrin halını mühafizə etmək və qol-qanadı qırılmış rəiyyətin vəziyyətini rahatlaşdırmaq üçün bu işi yerinə yetirmək zərurət mərtəbəsinə çatmışdı.

Fərhad paşa Nəvvabi-Cahanbaninin fikrindən xəbər tutub, qızılbaşların qarşı çıxmasına baxmayaraq, onun xondgarla dostluq və ittihad saxlamaq mövqeyində dayandığını bildikdə o həzrətə alqış edib demişdi ki, kaş, o, Təbrizin fəthindən öncə belə mövqedə durmuş olaydı. Fərhad paşa öz vasitəçiliyi ilə müqəddəs nişanəli Səfəvi sülaləsindən olan bir şahzadənin Rum padşahının hüzuruna getməsinin Osmanlı sülaləsinin hökmdarlarının cah-cəlalının, şan-şöhrətinin və əzəmətinin artmasına səbəb olacağını anladığından bu barədə israr edib, Rumun mötəbər ağalarından olan Vəli ağa Çaşnigirbaşını ali dərəcəli şahzadəni və sülh, asayiş qərarını gətirmək üçün Nəvvabi-Cahanbaninin hüzuruna yolladı. Vəli ağa Gəncə şəhərində ali taxtın ətəyinə gəlib, gəlişinin məqsədi barədə məlumat verdi. Onu Əliqulu xanın mənzilində qonaq edib, böyük izzət və ehtiram göstərdilər. Fərhad paşa isə Ərzuruma gedib, orada qışlaq edərək, elçinin gəlişini və şahzadənin gətirilməsini gözləməyə başladı. O, təkrarən məktub yazıb, bunları bildirdi: «Elə edin, gələn il Rum qoşununun hərəkəti başlamazdan öncə öz elçinizi dostluq məktubu ilə, layiqli töhfələr və hədiyyələrlə və adlı-sanlı şahzadə ilə birlikdə yola salasınız ki, bu tərəfdən də biz geri dönüb çıxıb gedək, ətəklərimizi yığıb, padşahın ali dərgahına yollanaraq, sülh işini möhkəmləndirək və xondgar həzrətlərini Təbriz vilayətini şahzadəyə tapşırmağa bir növlə razı salaq».

Nəvvabi-Cahanbani söz açdığımız şərtlər daxilində xeyirli sülh işinə rəğbətləndi və qərara aldı ki, hərəkət yüyənini İraq tərəfə döndərərək, orada şahzadənin yaraqlarını və əşyalarını hazırlatdırıb tədarük etdirsin, daha sonra isə onu təcrübəli bir elçi və sədaqət bünövrəli bir məktubla məqsədə doğru göndərsin. O həzrət öz ali sərkarına məxsus olan, cahanın gözəl yerlərindən və İranın məşhur şəhərlərindən sayılan İsfahanı seyr etmək həvəsində idi. O, çox istəyirdi və xatirində təsəvvür edirdi ki, İsfahana yollansın, bir neçə gün o könül oxşayan şəhərdə işrət və şadyanalıqla məşğul olsun, şərəfli xatirinə zəmanə məşğuliyyətlərindən asudəlik bəxş etsin, həmçinin əfşar və zülqədər tayfalarının iqtidarı altında olan, hər cür hadisələr səbəbindən qarmaqarışıq bir vəziyyətə düşən, mahalların itaətsiz hakimlərinin özbaşınalıq və tüğyanının cərəyan etdiyi Fars, Kirman, Yəzd [vilayətlərinin] və o hüdudun məsələlərini də intizama salsın. O, İmamqulu xana dəyərli xələtlər bağışlayaraq və bol-bol nəvazişlər göstərərək, ona başucalığı bəxş etdi və Qarabağ sərhədinin idarəçiliyini yenidən onun çalışqanlığının öhdəsinə qoyub, Azərbaycanın digər məsələlərinin həllini isə sülh bağlanmasına qədər təxirə saldı ki, həmin xeyirli iş baş tutandan sonra hər barədə dinin və dövlətin faydasına uyğun gələn nə olarsa, həyata keçirilsin. O, bu fikirlə Gəncə şəhərindən köç edib, Əbu-Şəhmə adlı bir yerdə cah-calalla düşərgə saldı. Bu əsnada oyunbaz çərxi-fələyin fırıldağı ucbatından o kama yetmiş şahzadənin şəhidliyi hadisəsi baş verdi.

## DÖVLƏT VƏ SƏADƏT ÇƏMƏNİNİN O YENİ FİDANININ, YƏNİ NƏVVABİ-CAHANBANİNİN BƏDBƏXT MURDARLARIN ÖNDƏGEDƏNİ OLAN DƏLLƏK XUDAVERDİNİN XƏYANƏT QILINCI İLƏ ULDUZLARIN VƏ FƏLƏKLƏRİN TƏSİRLƏRİ UCBATINDAN ŞƏHİDLİK TAPMASI HAQQINDA

Cəfakar taleyin adəti və bədrəftar fələyin zərurəti həmişə bu olub və indi də bu olmaqdadır ki, izzət və alilik arxından baş qaldırıb arzu bəhrəsi yetirən hər bir murad ağacı tezliklə dövranın hadisələrinin insafsız sərsər küləyinin zərərindən məhv olur və dövlət gəlini ilə qucaqlaşmış hər bir şövkətli şəxs axırda gecə quldurları kimi hiyləgər və məkrli olan dövran hadisələrinin nəticəsində öz amalının nur saçan sevgilisinə üç təlaq deyib, ondan ayrılaraq, əbədi məhrumiyyətə düçar qalır. Bu mövzunun sübutu [günahları] bağışlanmış şahzadənin, yəni Nəvvabi-Cahanbaninin Gəncə hüdudunda qəzavü-qədərin zərurəti ilə baş vermiş faciəvi şəhidlik hadisəsidir.

Bu qəribə və ibrətamiz hadisənin şərhi belədir ki, İraqa yollanmaq məsələsi qətiləşdikdə Gəncədən köç etmək təbili döyüldü və cah-calalla Birəncərd çeşməsi kənarına gəlib dayandılar. Həmin gecə it ilinə müvafiq olan 994-cü ilin zilhiccətül-həram ayının 22-si (4 dekabr 1586) idi. Nəvvabi-Cahanbani Əliqulu xanın mənzilinə təşrif apardı. Gecə yarısına kimi orada qırmızı şərab qurtumlayaraq,

işrətlə və söhbətlə məşğul oldular. [Həmzə mirzə] gecə yarısı sərxoş vəziyyətdə onun mənzilindən çıxıb, xidmətində olan xas mülazimlərdən və qulamlardan bir neçə nəfərlə birlikdə ali dövlətxanaya təşrif gətirdi və hərəmxanaya getmək istədi. Lakin o səltənət və səadət bağçasının sərvinin şəhidlik əhvalatı qəzavü-qədər lövhəsində tale qələmi ilə yazıldığından hadisənin əli o həzrətin yaxasından yapışıb, onu «xassə»nin vəhşi quşlarının saxlandığı quşxana alaçığına apardı və o, orada yorğan-döşək tələb edərək, istirahət yatağında yuxuya getdi.

Dəllək Xudaverdi adlı bir murdar vardı ki, atası məlum olmayan yetim bir oğlan idi və əvvəllər darüssəltənə Qəzvində dəlləklik edərdi. O, hələ uşaq yaşlarında ikən adlı-sanlı şahzadəyə xidmət göstərmək şərəfinə nail olmuşdu. Oğlan uşaqlarının təbiətləri bir-birlərinə münasibətdə ülfətə malik olduğu üçün şahzadə ona hüsn-rəğbət göstərmiş, onun dəlləklik işi şahzadənin ali təbiətinə xoş gəlmiş və o, şahzadənin xidmətində boya-başa çatıb, şahzadə ilə münasibətlərdə tamam-kamal məhrəmliyə malik olmuş, ali şəfqətin uğuru ilə böyüklərin və alilərin müraciət ünvanına, sərvət və var-dövlət sahibinə çevrilmiş, əmirlərin və dövlət ərkanının yanında əziz və istəkli olmuşdu. Batini xəbisliyi və alçaqlığı onu o yerə aparıb çatdırdı ki, bu yaramaz əməlin icraçısı oldu və səltənət, hökmranlıq bağçasında bəy atıb səadət çəmənində bar verməyə başlamış dövlət və xoşbəxtlik bağını bəzəyən o fidanı məhv etdi. Adlı-sanlı şahzadə alaçığa girib böyrünü istirahət yatağına qoyduğu vaxt dəllək Xudaverdi içəridən çıxaraq, həmişə keşikdə duran və indi də yataq məkanının ətrafında keşikçilik və gözətçiliklə məşğul olmaq istəyən ali mülazimlərdən ibarət bir dəstəni oradan uzaqlaşdırmaq üçün onlara belə bir bəhanə uydurdu:

- Zati-aliləri bir cananla xəlvətcə görüşmək arzusundadır. Lakin sizdən utanır.

O, bu bəhanə ilə onları yataq məkanının ətrafından uzaqlaşdıraraq qoymadı ki, onlar orada dayansınlar. Onlar heç nədən şübhələnmədikləri üçün onun dediyinə əməl edib, yataq məkanının ətrafından uzaqlaşdılar. Murdar və nankor dəllək o həzrətin yataq məkanının mühafizə və keşikçilərdən məhrum olduğunu gördükdə o padşahlıq bağçasının sərvinin gövdəsinə xəncər çəkdi. Şahzadə məst olub yataqda yatdığı vaxt o, onun qarnına və böyrünə bir neçə xəncər zərbəsi vurdu və onun işindən xatircəm olub, oradan çıxdı. Əmrə əsasən, xidmətə gəlmiş xidmətkarlardan Fəttah adlı bir oğlan alaçığa daxil olduqda gördü ki, Nəvvabi-Cahanbani qan dəryasına qərq olub, dərd dolu ürəklə soyuq nəfəs çəkməkdədir. O, dərhal çıxıb fəryad etdi. Keşikdə olan qulamlar və [Həmzə mirzənin] şəxsi mülazimləri məsələdən agah olub, heç biri alaçığa daxil olmağa cürət etmədilər. Zeynal bəy Şərbətdar alaçığa girib gördü ki, o səadət bağçasının sərvi dövran hadisələrinin küləyinin sərtliyi üzündən məhv olub. Cərrahları və həkimləri hazır etdilər. Lakin iş artıq müalicədən və dava-dərmandan keçmişdi. Qısa bir an içərisində onun şərəfli ruhunun quşu uca behişt zirvəsinə pərvaz etdi. Ali zümrənin mənsubları bu mövzuda demişlər:

«Torpağın altında tutsan da qərar,
Ərşdir sənin həqiqi məskənin».

O vaxt dövlətin əsas dayaqları olan Əliqulu xanın və İsmayılqulu xanın yanına adam göndərib, onlara bu hadisə barədə məlumat verdilər. Əvvəlcədən qərara alındığı kimi, şübhə yaxın köç edilməli idi və bu hadisədən xəbərsiz olan ordu əhli artıq köç etməyə başlamışdı. Ordu əhlinin bir çoxları köç edib getmişdi ki, bu xəbər yayıldı. İsgəndər şanlı nəvvab və səltənət çadırının möhtərəm qadınları fəryada və fəğana gəldilər. Cavanların və qocaların naləsi və ahı asimana yüksəldi. Böyük əmirlər Əliqulu xanın mənzilinə cəmləşərək, hamısı onunla ittifaq etdilər ki, İsgəndər şanlı nəvvabın dövlət sarayının qapısına gəlib, o faciəvi hadisənin başsağlığını bildirdikdən sonra atlanmağı xahiş etsinlər. Ədhəm xan Türkmanı isə [günahları] bağışlanmış cəsədin yanında qoydular ki, o, cəsədi onların ardınca gətirib, mənzilə çatdırsın. Ədhəm xan [Həmzə] mirzənin şəxsi mülazimləri ilə birlikdə o həzrəti qana bələnmiş paltarla məhfəyə qoydu. Qorçular onu çiyinlərində tutdular. İki-üç min nəfər adam məhfənin önündə yaxası açıq vəziyyətdə, başlarına torpaq tökərək, növhə oxuya-oxuya şah ordugahına çatdılar. Böyük əmirlər onu qarşılamaq üçün ordugahdan çıxdılar. Onların gözləri o dövlət və səadət çəməninin novbaharının Tanrının rəhmətinə qovuşmuş cəsədinə düşdükdə başlarından tac və papaqlarını götürüb, yerə vurdular və fəryad, fəğan səslərini asimanın ən yüksək nöqtəsinə çatdırdılar.

Xülasə, böyük [qiyamət] gününün dəhşəti xalq arasında peyda oldu. Asimandakılar yerdəkilərə müvafiqlik göstərib ağlayırdılar. Cəsədi hərəmxana yaxınlığında quraşdırılmış bir alaçığa apardıqda İsgəndər şanlı nəvvab Yaqub[1079] kimi hönkürə-hönkürə o hüzn evinə girdi. İzzət çadırının sakinləri (yəni hakim sülaləyə mənsub) olan qadınlar üzlərini dırnaqları ilə cırdılar, dözümsüzlük əlləri ilə saçlarını yolub, cəsədin üstünə gəldilər və növhə deməyə, ahu-zar etməyə, ağlamağa və iztirab keçirməyə başladılar. Ondan sonra şahzadənin cəsədi qüsl verilməyə aparıldı. Sədr və üləmalar şəriətə uyğun qüsl və kəfənləmə mərasimini həyata keçirdilər. Bir dəstə adama tapşırıldı ki, cəsədi əvvəlcədən darülirşad Ərdəbilə aparıb, övliyalar sultanının müqəddəs məqbərəsində, öz böyük əcdadlarının civarında dəfn etsinlər.

Əhvalatın qəribəliyi üzündən gecə yarısı o məzlum şahzadənin qanı murdar Xudaverdinin yaxasından tutub, onu çəkə-çəkə cəsədin üstünə gətirdi. Bu hadisənin şərhi və bu icmalın təfsili belədir ki, sui-qəsdin baş verməsindən sonra, o

[1079] Dini rəvayətlərə görə Yaqub peyğəmbər Yusif peyğəmbərin atasıdır. O, öz oğulları arasında ən çox Yusifi istədiyi üçün onun digər oğulları qısqanclıq edərək, Yusifi quyuya atmış və onun canavar tərəfindən öldürülməsi barədə ataları Yaquba yalan məlumat vermişdilər. Sevimli oğlunun ölüm xəbəri Yaquba pis təsir etmiş və ağlamaqdan onun gözləri kor olmuşdu. Bu rəvayət Şərq ədəbiyyatında geniş yayılmış və şairlər, ədiblər oğul dərdi görmüş ataları Yaquba oxşatmışlar.

həzrətin qayğısının qədrini bilməyərək, bu yaramaz əməli törətmiş o murdar bədzat öz mənzilinə gedib, təxminən əlli-altmış tümən olan bir kisə əşrəfi qızılı [Həmzə] mirzə cənablarının şadlığa sərf etməkdən ötrü qızıl tələb etməsi bəhanəsi altında götürdü və böyük əmirlərdən İsmayılqulu xanla münasibəti və dostluğu daha çox olduğu üçün piyada və tək-tənha onun mənzilinə getdi. İsmayılqulu xan bir dəstə həmsöhbəti ilə söhbətləşməklə məşğul olarkən o, əhvali-ruhiyyəsi iztirablı bir vəziyyətdə həmin məclisə gəldi. Onlar rəsmi iltifatdan sonra onun vaxtsız gəlişinin səbəbi barədə sual verdilər. O dedi:

- Böyük bir günah etmişəm. Məndən böyük bir xəta törəmişdir. İndi mənim halım üçün çıxış yolu nədir?

Onu sorğu-suala tutduqdan sonra o, bu yaramaz əməli və əcaib hadisəni izhar etdi və [İsmayılqulu xandan] yardım istədi. Axı comərdliyi olmayan [İsmayılqulu xan] nə üçün elə oradaca qeyri-ixtiyari olaraq onun qanını axıtmadı və aləmin külünü öz başına tökmədi?

[Xudaverdi] bu qəribə hekayəti danışdıqdan sonra [İsmayılqulu xan] onu öz atasının yerinə Nəvvabi-Cahanbaninin eşikağasıbaşısı olmuş Rzaqulu bəy Piri bəy oğlu İnalluya tapşırdı ki, onu mühafizə edib, mənzilə çatdırsın. Sözügedən şəxs onu sandığın içinə qoyub, həmin sandığı pal-paltar sandıqları arasına yükləyərək, öz mənzilinə gətirdi və gecə vaxtı İsmayılqulu xanın əmrinə əsasən, onu öz mülazimlərindən iki nəfərə verdi ki, onu gizlincə və pünhan şəkildə cəngəlliyin içərisinə aparıb, qətlə yetirsinlər. Mülazimlər əmrə uyğun olaraq, onu cəngəlliyin içinə apardılar və ona bir-iki zərbə vurdular. Onun yanında olan qızılları bölüşdürmək məsələsi onları onun işini tamam bitirməkdən yayındırdı. O, özünü qamışlıq basmış bir qara suya salıb gizlənə bildi. Təsadüfən ona vurulan yaralar ağır deyildi və ona elə bir ciddi zərər dəyməmişdi. Onların gedişindən sonra o, qamışlığın və qara suyun içindən çıxdı. Ona bərk şaxta təsir etdi və uzaqdan bir atəş görüb, özünü səbirsizliklə o atəşin yanına çatdırdı. Təsadüfən həmin atəş şahzadənin [cəsədinin olduğu] alaçıqda yanan məşəl idi. Cəsədin yanında olan şahzadənin mülazimlərindən ibarət camaat məşəlin işığında onu gördülər və tanıyıb tutdular. Onun gözü o [günahları] bağışlanmış cəsədə düşdükdə gözündən peşmanlıq yaşları axmağa başladı. Ondan sual etdilər:

- Sən bu şahzadənin dövləti ilə böyüklərin və alilərin başçısı olmuşdun. Nə üçün bu əməli törətdin? O dedi:

- Bəzi adamlar məni təlimatlandırıb vədlər verdilər, məni onun əleyhinə qaldırdılar və mən də ağılsızlıqla aldanaraq, bu əməli törətdim.

Amma o demədi ki, hansı kəslər məni təlimatlandırıblar. Sübh tezdən onun tutulması xəbəri İsgəndər şanlı nəvvaba çatdı. Əvvəlcə onu əmirlərin məclisinə gətirdilər. O, çərənləməyə başladı. Əmirlərin əmrinə əsasən, onun dilinə çuvalduz vurdular (onu lal etdilər) ki. hərzə-hərzə danışmasın və xeyirxah, sədaqətli şəxsləri töhmət və iftira hədəfinə çevirməsin. İsgəndər şanlı nəvvab buyurmuşdu ki, mən ondan öz əlimlə qisas alacağam. Onu əşrəfin hüzuruna apardılar. Onun danışmaq

qüdrəti və nitq qüvvəti olmadı. İsgəndər şanlı nəvvab öz əli ilə onun qarnına bir neçə xəncər zərbəsi vurdu. Onun murdar cəsədini ordubazar camaatı aparıb yandıraraq, külünü fanilik küləyinə verdilər.

Sübhanallah! Adəm övladı nə cür də şeytani vəsvəsələrə uyub, uzaq düşünən ağlın yolundan azaraq, dünyada və axirətdə köməksiz vəziyyətdə qalmağa səbəb olan yanlış işlərə təşəbbüs göstərir?! Təfəkkür dəryasının səyyahları bu düşüncə dənizində şübhələrə qərq olub, bu yaramaz əməlin səbəbinin ənginliyinə baş vurdular. Lakin əsla onların fikirlərinin gəmisi məqsəd sahilinə çatmadı. Tədbir aləminin uzaqgörənləri xəyal peykini hər tərəfə döndərsələr də, işin mahiyyətindən bir xəbər tapa bilmədilər. Xülasə, bu müddəanın surəti xəyal pərdəsində çöhrə etmədi və saatbasaat heyrət üstünə heyrət əlavə olundu. Amma qətiyyən xatirlərin rahatlıq tapmasına bais ola biləcək bir səbəb aşkara çıxmadı. Müxtəlif fərasət sahiblərinin ağzından və dilindən bu barədə eşidilib. Bu fikirlərin qeyd olunması salnaməçi («vaqiənevis») üçün zəruri olduğundan burada onların yazılması ilə məşğul oluruq.

Beləliklə, izzət büsatının haşiyəsinə yol tapmış (yəni Həmzə mirzə ilə münasibət saxlayan) bir dəstə şəxsin sözlərindən belə məlum olur ki, dəllək Xudayerdi saqqalı çıxmayan hüsn-camal sahiblərindən olan Rzaqulu İnalluya ifrat dərəcədə məhəbbət və eşq bəsləyirdi və bəzən ali məclisdə məzə ilə öz gizli niyyətini izhar etməyə cürət edirdi. Nəvvabi-Cahanbani də xoşhal olduğu vaxtlarda bu [Rzaqulu] barədə zarafatla və ya ciddi surətdə hekayətlər danışaraq, [Xudaverdinin] iztirabına və dözümsüzlüyünə səbəb olardı. Xudaverdi Nəvvabi-Cahanbaninin [Rzaqulu ilə] xəlvətcə görüşdüyünü güman edərək, həmişə deyirdi ki, bunun intiqamını səndən alacağam. Lakin [Həmzə] mirzə onun zarafatına və xoştəbliliyinə əhəmiyyət vermirdi. Axırda elə oldu ki, eşq və məhəbbət qeyrəti [Xudaverdinin] təbiətini bürüdü və o, bu cür böyük bir hadisəni törətməyə cürət etdi.

Digər bir dəstə adamlar düşünürdülər ki, [Həmzə] mirzə cənablarının Əliqulu xana münasibətdə göstərdiyi nümayişkaranə şəfqətlər və Əliqulu xanın İsmayılqulu xana nisbətən öncüllük və böyüklük rütbəsi qazanaraq, «xanlar xanı» olması üzündən İsmayılqulu xanı paxıllıq və həsəd bürümüşdü və o, Əliqulu xana zərər vurmaqdan ötrü o növcavan şahzadənin yox edilməsinə və öldürülməsinə razı olub, Xudaverdini bu işə təhrik etmişdi. Onlar qatilin bu hadisədən sonra İsmayılqulu xanın mənzilinə getməsini və [İsmayılqulu xanın da] onu gizlətməsini bu müddəanın dəlil-sübutu kimi irəli sürürdülər.

Bəzi digərlərinin gümanı o idi ki, Əliqulu xan, İsmayılqulu xan və Məhəmmədi Sarısolağ [Həmzə] mirzə cənablarının Mürtəzaqulu xan Türkmanın adına bir hökm yazıb onun Damğandan orduya gəlməsini tələb etdiyinə və bunu gecə-gündüz özü ilə həmsöhbət olan həmin əmirlərdən məxfi saxladığına görə onlar [Həmzə] mirzənin onlara münasibətdə iltifatsızlıq etdiyini və onların dəf edilməsi tikrinə düşdüyünü zənn edərək, çeviklik göstərdilər və bir-biriləri ilə

ittifaq edərək, Xudaverdini bu hadisəni törətməyə təhrik etdilər. Bu fikirdə olanlar öz sözlərinin dəlil-sübutu kimi bunu göstərirlər ki, sözügedən əmirlər həmin hadisədən sonra öz aralarındakı ziddiyyət və nifaqa baxmayaraq, bir-biriləri ilə ittifaq edib, bir-birilərinə qarşı düşmənçilik məqamında durmadılar, İsmayılqulu xan Əliqulu xanın vəkilliyinə və böyüklüyünə razı oldu, onlar bir-biriləri ilə dostluq münasibətini bərqərar etdilər, belə bir böyük hadisəni yüngül və asan qəbul etdilər, Xudaverdini söz deməyə, danışmağa qoymadılar və azyaşlı uşaq olan Əbu-Talib mirzəni o həzrətin yerinə əyləşdirib, onun səltənətinin xəmirini özləri yoğurdular.

Bu sətirlərin müəllifi həmin məsələ barədə Nəvvabi-Cahanbaninin vəziri olan Mirzə Lütfulla Şirazidən bir söhbət eşidibdir. O, [Həmzə] mirzənin [ölüm] hadisəsindən sonra mənə bunları danışmışdı:

- [Həmzə] mirzə cənabları xanlara qarşı iltifatsız və bədgüman olmuşdu. Belə ki, o, Gəncədən çıxdıqdan iki gün sonra məni hamamda yanına çağırıb demişdi: «Axı mən bu iki cavanmərdin yanında nə təqsir etmişəm ki, indi onlar mənim qanıma susayıblar və şərab məclisində məndən qisas alacaqlarını söyləyirlər?! Onlar mənim qəsdimə durublar». Həmin vaxt Xudaverdi onun başını qırxırdı və bu söhbəti eşitdi. Ehtimal ki, o, bu sözləri cəhalət və nadanlıq üzündən onlara söyləyibdir, onlar da belə bir fikrə düşüb, Xudaverdini yoldan çıxarıblar və o aqibətsiz nadan da ağıl yolundan uzaq düşərək, əmirlərin təlimatına əsasən, bu əməli həyata keçiribdir.

Hərçənd ağlabatan deyildir ki, hər ikisi o həzrətin sayəsində mülazimlik dərəcəsindən və nökərlik mərtəbəsindən yüksək əyalət hakimi vəzifəsi və xan rütbəsi əldə edərək dövlətin əsas dayaqlarına çevrilmiş sözügedən əmirlər o həzrətin onlara göstərdiyi qayğının qədrini bilməyib, bir aləmin sərmayəsi olan o cür bahalı gövhəri belə havayı əldən versinlər. Görəsən nəyə görə onlar bu cür nankorluğun nəticəsi barədə ətraflı surətdə götür-qoy etməmişlər? Axı onlar nə üçün ağıl mürşidindən və zəka pirindən rüxsət almadan özlərini dünyada və axirətdə bədnam edib, belə bir qəbahətli işə baş qoşmuşlar?

Beləliklə, bu məsələ barədə yaddaşlarda qərar tutmuş və bu sətirlərin müəllifi tərəfindən yaxınlardan-uzaqlardan eşidilmiş hər nə vardısa, burada öz əksini tapdı. Hər halda, sözügedən əmirlər bu hadisədən sonra heç bircə ili də başa vura bilmədilər. Həqiqi intiqamçı olan Allah-təala Allahın köləsi olan əlahəzrət şaha kömək etdi ki, tezliklə müqəddəs və ulu Məşhəddən təşrif gətirib, pis əməl sahiblərinin cəzasını versin. Bu hadisə barədə öz yeri gələndə məlumat veriləcəkdir.

## SƏADƏTLİ ŞAHZADƏ ƏBU-TALİB MİRZƏNİN VƏLİƏHD OLMASI VƏ YERİ-GÖYÜ YARADANIN QƏZAVÜ-QƏDƏRİNİN ZƏRURƏTİ ÜZÜNDƏN ONUN ƏHVALININ ALT-ÜST OLMASI HAQQINDA

[Günahları] bağışlanmış şahzadənin ölüm hadisəsindən sonra İsgəndər şanlı nəvvab böyük əmirləri hazır edərək, könül oxşayan nəsihətlərin dürrü ilə onların huş qulağını yükləyib, oymaqların arasındakı düşmənçilik və nifaqın dəf edilməsi, onlarm bir-biriləri ilə uzlaşma, ittifaq və yekdillik nümayiş etdirmələri, xüsusilə də şamlular və ustaclularla türkman və təkəlülər arasındakı ziddiyyət və inadkarlığın aradan qaldırılması üçün təkid etdi. Onun şərəfli könlünün istəyi bu idi ki, özü şəxsən səltənət məsələlərini həll etsin və dövlət işlərinin yükünü öz üzərinə götürsün. O, həmin zaman izhar etməyi vaxta münasib bilmədiyi bəzi batini səbəblər üzündən öz oğullarından və adlı-sanlı şahzadələrdən heç birini ali divanın naibliyinə və vəliəhdlik rütbəsinə təyin etmək istəmirdi. Çünki [günahları] bağışlanmış Nəvvabi-Cahanbanidən sonra Allahın kölgəsi olan əlahəzrət şah yetkinliyə çatmış böyük oğul idi və Xorasanda yaşayırdı. Mürşüdqulu xan və Xorasan əmirləri onun mülazimliyində idilər və onlar İraq əmirlərinə qarşı müxaliflik edirdilər. Əbu-Talib mirzə ilə Təhmasib mirzə isə yaşlarının azlığı və tifillikləri cəhətindən o vaxt yüksək vəliəhdlik rütbəsinə layiq deyildilər. Bundan savayı, Təhmasib mirzə türkman və təkəlülərin yetişdirməsi olub, o zaman Ələmut qalasında ustaclu tayfasının əlində məhbus idi.

Lakin əzəli və əbədi [Allahın] iradəsində və qismətində qərar tapmışdı ki, tezliklə Allahın kölgəsi olan əlahəzrət şahın dövlət və fatehlik günəşi Xorasan üfüqündən doğub, İran mülkünün ərazisini ədalət nurları ilə bəzəsin, iranlıların əhvalının bərbadlığını aradan qaldırsın və təbəələrin vəziyyətinin rahatlığı o həzrətin məmləkəti zinətləndirən rəyi ilə təmin olunsun. Qeyb aləminin işgörənlərinin yardımı ilə dövranın axarı onun hakimiyyətə gəlişi üçün zəmin yaratdı.

**[Misra]**

«Vaizin fikri bir başqadır, aşiqin sevdası bir başqadır.»

Buna görə də zəmanə aqillərinin öz mətləblərinə müvafiq fikirləşdikləri hər şey onların mətləblərinin əksinə nəticə verdi. Xülasə, dövlətin ixtiyar sahibləri olan dərgah əmirləri əşrəfin dünyanı bəzəyən rəyinə müxalif çıxıb, bir-biriləri ilə razılığa gələrək, özləri üçün faydalı bunu bildilər ki, möhtərəm atasının hüzurunda tərbiyə almış Əbu-Talib mirzəni [günahları] bağışlanmış şahzadənin yerinə vəliəhd etsinlər və səltənət, hökmranlıq işlərinin cilovunu isə öz ixtiyar ovuclarına və öz iqtidar əllərinə götürsünlər. İsgəndər şanlı nəvvab yuxarıda xatırladılmış amillər üzündən bu [vəliəhdlik] işinin ayırd edilməsini məsləhət bilməyib, onun təxirə salınmasını doğru hesab edirdi. O, ilham dili ilə bəyan etdi:

- Şəhid olmuş oğlumun başına qızılbaş cahilləri ilə həmsöhbət olmaq ucbatından bu hadisə gəldi. Bundan sonra oğullarımdan heç birini başlı-başına buraxmayacağam və qızılbaşların onların yanına gəl-get etməsinə yol verməyəcəyəm.

Dərgah əmirləri söz birliyi nümayiş etdirib, o vaxt mustovfi əl-məmalik olan Mirzə Məhəmmədi vasitəçi edərək bildirdilər:

- Nəvvabi-Cahanbani neçə il idi ki, ali hökmdarın göstərişinə uyğun olaraq, səltənət və padşahlıq məsələlərini həll edirdi və onun iqtidar və etibarının avazı ətrafa və ucqarlara çatmışdı. İndi ona bu cür faciəvi hadisə üz vermiş və bu barədə dosta-düşmənə, uzağa-yaxına xəbər çatmışdır. Əgər bunun ardınca kama yetmiş şahzadələrdən birinin cülusu xəbəri təcili surətdə sərhədlərə çatmasa, onda ehtimal var ki, ətrafda və yan-yörədə dinin və dövlətin nöqsanına səbəb olan tamam qarışıqlıq baş qaldırsın. Qüdrətli dövlət üçün faydalı budur ki, səltənətə və padşahlığa layiq olan adlı-sanlı şahdzadələrdən biri təcili surətdə vəliəhdlik rütbəsi ilə əzizlənsin və onun ixtiyarı və iqtidarı üçün mərhum şahzadədən daha çox səy göstərilsin ki, birbaşa olaraq onun cülusunun avazı sərhədlərə çatsın. Böyük oğul olan ali dərəcəli və fələk iqtidarlı şahzadə, yəni Allahın kölgəsi olan əlahəzrət Xorasanda yaşayır və bundan əlavə, o mülkün əmirləri o həzrəti Xorasan səltənətinə əyləşdirərək, onun ali məiyyətində xidmət edib, o vilayəti əldə saxlamaqla məşğuldurlar. Buna görə də hökmdarın məiyyətində hazır olan Əbu-Talib mirzəni bu şərəfli rütbəyə ucaltmaq gərəkdir.

Mirzə Məhəmməd incə hiyləgərliklərlə bu mövzunu əqli dəlillərin zinəti ilə bəzəyib, İsgəndər şanlı nəvvaba təsir etdi. Əmirlərin və əyanların hamısının təbiət etibarilə bu mətləbi arzuladıqlarını görən İsgəndər şanlı nəvvab tamam ikrah hissi ilə razılıq əlaməti olaraq başını tərpətdi. Sözügedən əmirlərin dövlət işlərinin intizamında yol verdikləri birinci xəta bu idi ki, onlar qətiyyən bu işin aqibəti barədə ətraflıca düşünmədilər. Onların bəsirət gözü Allahın kölgəsi olan əlahəzrət şahın dövlət və səadətini müşahidə etməkdən məhrum idi. Onlar bunu görə bilmirdilər ki, onun mübarək təbiətinin aləmi işıqlandıran günəşinin parlaqlığı qarşısında digər bir kəsin nursuz çırağı xilafət və cahandarlıq sahələrinin üzərinə axı nə rövnəqlik saça bilər və səadət üfüqünün zülməti yandıran günəşinin nurları bərabərində bir işıldaquş axı nə işıqlıq sala bilər?! Gün kimi aydın idi ki, əgər [Abbasın] səadətli məiyyətinin bayrağındakı günəş misallı aypara Xorasan şərqindən doğaraq, İraq və Azərbaycan mülkünün ərazilərinə nur saçarsa, qızılbaş tayfalarından itaət və tabeçilikdən özgə bir iş baş verməyəcəkdir. Lakin onlar elə bilirdilər ki, Xorasan əmirləri, xüsusən də o vilayətdə mütləq hakimlik edən, müqəddəs Məşhəddə əlahəzrətin lələsi və rüknüssəltənəsi olan Mürşüdqulu xan Xorasanda olduğu qədər ali taxtın ətəyində ixtiyar və iqtidarının olmayacağından çəkinərək, İraqa gəlmək iradəsi göstərməyəcəkdir, orada qalıb, əlahəzrət [Abbası] öz sərmayəsi edəcəkdir və Xorasan səltənətinin gəlini onun nəzərində cilvələnərək, onu oradan başqa məmləkətlərə getməyə qoymayacaqdır. Amma onlar belə

düşünərkən bilmirdilər ki, heç kamillik zirvəsinin qartalını ovlamağı özünə layiq bilməyən bir yüksək uçan şahbaz axı necə sərçəni şikar etməyə iltifat göstərə bilər?!

**Beyt**

«Kiçik suda kiçik balıqlar üzərlər,
Akula isə odur ki, dərya ilə vuruşur.»

Xülasə, öz bildiklərini edən əmirlər İsgəndər şanlı nəvvabdan icazə alandan sonra bu işi təcili həll etməyi doğru bilib, şahın və ordunun mərhum şəhid [İmam Hüseynin] şəhidliyinə görə qara geyindikləri aşura günlərində[1080] bir saat müəyyənləşdirərək, Tərtər yurdunda şahzadəni adlı-sanlı atasının hüzuruna apardılar. Şah öz şərəfli əli ilə o vaxtadək öz başına qoyduğu şadlıq dolu tacı onun başına qoydu, daş-qaşlı xəncər və qılınc kəmərlərini onun belinə bağladı, ona dəyərli xələtlər geyindirdi və ona vəliəhdlik rütbəsi verməklə onu əziz və möhtərəm etdi. Əmr olundu ki, mərhum şahzadənin mülazimləri və ali divanın mənsəb sahibləri həmin qaydada bu şahzadənin xidmətində dursunlar. [Həmzə mirzənin] sərkarının malları, əşyaları və büyutatı [Əbu-Talib] mirzə cənablarının sərkarına aid olundu. O vaxt ali taxtın ətəyində olan qızılbaş əmirlərinin, böyüklərinin və əyanlarının hamısı bu [Səfəvi] sülaləsinin adətinə və qaydasına uyğun olaraq, ayaq öpmək mərasimini icra etdilər. Xalqa şahzadənin cülusu barədə xəbər verildi. İmamqulu xan və Qarabağ əmirləri orada rüxsət alaraq, hərəsi öz iqtalarına tələsdilər. Daha sonra [şah ordusu] ordan köç edib, darülirşad Ərdəbilə getdi.

Mirzə Məhəmməd əmirlərin mətləbinin baş tutması üçün çox səy göstərdiyinə görə Əliqulu xan və əmirlər belə qərara gəldilər ki, onu ali divanın vəziri təyin etsinlər və divan məsələlərinin yüyənini onun ixtiyarına versinlər. O, öz öhdəsinə götürdü ki, səltənət işlərinin rəvac tapması və divanın mahiyyət etibarilə ehtiram qazanması istiqamətində çalışaraq, dövlət işlərinə cavabdeh olacaqdır. Bu səbəbdən o, bu möhtərəm dərəcəyə yüksələrək, təkbaşına divan işlərinin idarəedicisinə çevrildi və «etimadüddövlə» ləqəbi əldə etdi.

Sözügedən əmirlər haqq yolundan azıb, Öz nəfsi istəklərinə əməl etdilər və vəziyyəti öz mövqeləri baxımından dəyərləndirib, şəxsi mənafelərini dinin və dövlətin faydasından üstün tutdular. Bununla da onlar əlbəttə ki, qəzavü-qədər işgörənlərinin təhriki ilə öz bədbəxtliklərinin səbəblərini hazırlayaraq, öz dövlətlərinin xarab olmasına çalışdılar, onların atdıqları murad aşığları tərs düşdü və zəmanənin gərdişindən onlara olan oldu. Tezliklə haqq öz mərkəzində qərar tutdu və pis iş törədənlər öz əməllərinin cəzasına çatdılar. Bu barədə irəlidə bəhs olunqacaqdır.

---

[1080] Burada hicri 995-ci ilin aşura günündən söhbət gedir və bu tarix miladi təqvimi ilə 21 dekabr 1586-cı ilə təsadüf edir.

Sözün qısası, hökmdar ordusu mənzilləri və mərhələləri adlayaraq, darülirşad Ərdəbilə gəldi. Şəhid olmuş şahzadənin pak cəsədini öz böyük əcdadlarının məzarları yanında dəfn edərək, o bahalı dürrü torpaq xəzinədarlarına və o müqəddəs ruhu fələklər aləminin sakinlərinə tapşırdılar. İsgəndər şanlı nəvvab öz möhtərəm oğlunun ruhunu şad etməkdən ötrü övliyalar sultanı olan həzrətin (Şeyx Səfiəddinin) müqəddəs rövzəsində hər şeyi bilən [Allahın] kəlamını («Quran»ı) oxutdurub xətm etdirirdi, yoxsul adamların qidalandırılması ilə məşğul oldu və fəqir-füqəraya, ehtiyac sahiblərinə sədəqələr payladı. Daha sonra oradan köç edib, Tarom və Xalxal yolundan darüssəltənə Qəzvinə gəldi və o qışda hökmdar əbədi səltənətin mərkəzində qışlaq etdi.

## GÜNAHLARIBAĞIŞLANMIŞ ŞAHZADƏNİN FACİƏVİ HADİSƏSİNDƏN BAŞLAYARAQ ƏLAHƏZRƏT [ABBASIN] XORASAN ÜFÜQÜNDƏN DÖVLƏT VƏ SƏADƏT GÜNƏŞİNİN DOĞMASINA QƏDƏR İRAQ, AZƏRBAYCAN VƏ KİRMAN ƏMİRLƏRİNİN BAŞLARINA GƏLMİŞ ACINACAQLI ƏHVALATLAR HAQQINDA

Bundan öncə qeyd olundu ki, türkman və təkəlülərin məğlubiyyətindən sonra döyüş meydanından çıxıb getmiş əksər türkman əyanları Damğana, Mürtəzaqulu xan Pornakm yanına cəmləşdilər. Nəvvabi-Cahanbani o camaatın könlünü almaq üçün əmirlərdən xəbərsiz Mürtəzaqulu xana cəlbedici hökm göndərərək, onu ali taxtın ətəyinə çağırdı və onu şahanə vədlərlə dəstəklədi. [Mürtəzaqulu xan] onun himayədarlığına arxalanaraq, İraqa üz tutdu. O, Reyə çatdıqda [günahları] bağışlanmış şahzadənin can odlayan və möhnət verən [ölüm] xəbəri, Əbu-Talib mirzənin yüksəldilməsi və Əliqulu xanla İsmayılqulu xanın ixtiyar və iqtidarı barədə ona məlumat gəldi. O, oraya getməyə cürət etmədi, həm də onların türkman elinə zərər vuracaqlarından narahat oldu və daha çox Qumda və Savədə yaşayan türkman elini və onların əhlü-əyalını köçürmək məqsədi ilə Reydən Qum və Savə ölkəsinə gəldi. O, əli çatdığı hər kəsi zorla və ya xoşla köçürüb, Damğana yollandı. Mürtəzaqulu xanın Qum və Savədə olduğu bir neçə gün ərzində o vilayətin əhalisi onun asi (yağı) çıxdığını və tüğyan etdiyini güman elədi və türkman tayfasının zərərindən canlarını qurtarmaq üçün onlara qonaqpərvərlik göstərdilər.

Məhəmməd xan Türkmanın oğlu Vəlican xanın özü və atası bir neçə il Kaşanda hökumət sürmüşdülər və o, həmişə Mürtəzaqulu xanı təhrik edirdi ki, sakinlərinin əksəri müxtəlif diyarların tacirlərindən və varlılardan ibarət olan Kaşan şəhərininin əhalisindən külli miqdarda peşkəş istəsin. O, özü bu işə təşəbbüs göstərərək, Kaşan əhalisi ilə qiyabi danışıqlar aparmışdı. Kaşan əhalisi əvvəlcə bu təklifin əleyhinə çıxıb, kobudluq göstərdilər. Amma axırda mallarının və canlarının qorxusundan, oranın daruğası olan Behzad bəy Qulamın və vəzir Mirzə Keçəçinin razılığı ilə onunla mülayimcəsinə davranmağa başladılar və Mürtəzaqulu xanın

onlara zərər vunnasının əngəllənməsi üçün [Vəlican xana] minnətçi düşüb, onunla görüşməyi xahiş etdilər. O, Mürtəzaqulu xanın icazəsi olmadan Kaşana gedərək, özünü hiylə və məkrlə şəhərə saldı. Daruğa və vəzir ona çox da məhəl qoymayıb, onun şəhərə gəlişinə mane olmadılar və o, daruğanın mənzilində mehman oldu. Hələ Məhəmməd xanın və onun oğullarının hökuməti zamanından Kaşanda qalmaqda olan və əksəri sözügedən daruğanın mülazimlərinə çevrilmiş köhnə türkmanlardan ibarət bir camaat həmin iki gün ərzində gəlib [Vəlican xanın] başına yığıldılar. O, şəhərdə öz qüvvəsinin daruğa və vəzirin qüvvəsindən artıq olduğunu görüb səy göstərdi ki, şəhəri onların əlindən alaraq, özü üçün zəbt etsin. O, onların bütün işçilərini və xidmətkarlarını türkmanlara tutdurdu, işin axırında onların özlərini də tutub, məhbus etdi və onların məmləkətini hiyləgərliklə ələ keçirdi. Kaşan əhalisi istər-istəməz ona tabe olub, layiqli peşkəşlər gətirdilər. O, əvvəlcə şəhər camaatı ilə xoşagələn tərzdə rəftar etdi. Lakin qüvvətləndikdən sonra isə öz rəftarını [mənfi yöndə] dəyişdi.

Sözün qısası, Mürtəzaqulu xan əlini Vəlican xanın müttəfiqliyindən üzərək, öz yanında olan bir dəstə ilə Damğana yollandı və oradan türkman mötəbərlərindən bir neçə nəfəri müqəddəs Məşhədə, əlahəzrət [Abbasın] hüzuruna yollayıb, Mürşüdqulu xana bunları çatdırdı: «Bu vaxtadək [günahları] bağışlanmış şahzadə (Həmzə mirzə) cənabları həyatda idi və o, İsgəndər şanlı nəvvabın ən böyük oğlu idi, vəliəhdlik rütbəsinə malik idi. Bu səbədən də biz sufilik yoluna, sədaqət və ixlas üsuluna riayət edərək, o həzrətlə müttəfiq olub, zati-aliləri [Abbasın] mülazimlərinə qarşı müxaliflik edirdik. Amma indi ki onun başına bu hadisə gəlmişdir, biz əlahəzrət [Abbası] öz adlı-sanlı atasının vəliəhdi və qaimməqamı hesab edirik və əgər onun qələbə ayətli bayraqları İraqa tərəf hərəkətə gəlsələr, o zaman türkman tayfası da son dərəcə sədaqət və qulamlıq nümayiş etdirəcəkdir».

Vəlican xan onun (Mürtəzaqulu xanın) getməsindən sonra Kaşan hökumətində istiqlal əldə edərək, oranın varlılarından külli miqdarda pul tələb etdi və get-gedə türkman tayfasından çoxsaylı bir dəstə onun xidmətinə toplaşdı. O, beyninə yer etmiş lovğalıq və qürur tikanının təsiri ilə özünü o mülkün müstəqil hakimi hesab etdi, ali taxtın ətəyinə bir ərizə göndərərək, öz itaətini, tabeçiliyini ərz etdi və Kaşanı Mürtəzaqulu xandan qorumaqla yaxşı xidmətkarlıq göstərdiyini bildirdi. Ö gözləyirdi ki, əmirlər və dövlət ərkanı Kaşan mülkünün onun əlində qalmasına mane olmayacaqlar və həmin vilayətin hakimlik hökmü onun adına yazılacaqdır. Lakin qüdrətli dövlətin dayağı olan şəxslər onun bu özbaşınalığını bəyənmədilər və malik olduqları özündənrazılıq və qürurun çoxluğu ucbatından onun xahişinə səhlənkarlıq və laqeydliklə yanaşdılar. Kaşan əyalətinin hökmü ali divanda Əliqulu xanın adına yazıldı. Onlardan məyus olan Vəlican xan Xorasana adam göndərib, özünü Abbas tərəfdarı adlandırdı, Əbu-Talib mirzə tərəfdarlarına itaət və tabeçilik göstərməkdən boyun qaçırdı və dövlət ərkanının «gərək-

yaraq»larını[1081] tutub, onların var-dövlətlərini ələ keçirdi. Onun halının axırı bu dəftərin sonrakı hissələrində hadisələri qeydə alan qələmlə əks etdiriləcəkdir.

Amma əfşar əmirlərinin əhvalatı belə oldu ki, Qulu bəy Qorçubaşının oğlu Yusif xan atasının fərarından sonra Əbərquhdan Yəzdə gəlmiş, oranın daruğası Məhəmməd xəlifə Əfşarla ittifaqda Yəzd qalasını ələ keçirmiş və padşah əmirlərinin mal-dövlətlərinə əl uzatmışdı. Türkman və təkəlülərin üzərində qələbə qazanılmasından sonra Nəvvabi-Cahanbaninin əmrinə əsasən, o, Mirmiranın köməyi ilə dustaq və məhbus edilmişdi. Kirman hakimi Vəli xan öz oğlu Bəktaş xanla ittifaqda Azərbaycandakı hərbi toplanış («yasaq») məqsədi ilə darülaman Kirmandan darülibadə Yəzdə gəlmişdi. Sözügedən Bəktaşın başında igidlik və tüğyan havası vardı. O, özünə «xan» adı qoyaraq, batil iradələr və pozğun xəyallarla üsyan və ədəbsizlik cibindən baş qaldırıb, Yusif xanı dustaqlıq və həbsdən xilas etdi, daruğanı və ali divandan təyin olunmuş «gərək-yarağ»ı tutduraraq, müxaliflik şüarını izhar etdi. Həmin günlərdə Nəvvabi-Cahanbaninin faciəvi hadisəsinin xəbəri onlara çatdı. Vəli xan geri qayıdıb, Kirmana getdi. Bəktaş xan isə Mirmiranla qohumluq əlaqəsi yaradıb, əvəlkindən daha artıq dərəcədə istiqlal və istibdad mövqeyini tutaraq, özünü o vilayətin fərmanı nüfuzlu olan hakimi hesab etdi. Onun razılığı ilə Yusif xan əvvəlki təki Əbərquha gedib, orada öz hökumət bayraqlarını dalğalandırdı. Bu cür əməllər törətdiyinə görə Bəktaş xan da qüdrətli dövlətin əmirlərindən və ərkanından xoflu olub, o da Mirmiranın məsləhəti ilə Xorasana, Allahın kölgəsi olan əlahəzrət şahın və Mürşüdqulu xanın hüzuruna adam göndərib, itaət və tabeçilik izhar edərək, özünü Abbas tərəfdarları zümrəsindən saydı. İsfahan hüdudunda yaşayan ərəşlü və əfşar əmirləri də Bəktaş xanla ittifaq edib, Əbu-Talib mirzə tərəfdarlarına qarşı müxalif mövqedə durdular. Kuhi-Giluyə əfşarları da bir neçə dəstəyə bölünmüş və hər dəstə özünə bir əmir seçmişdi.

Fars [vilayətinin] zülqədərləri hələ [günahları] bağışlanmış şahzadə həyatda olarkən öz hakimləri olan Əli xan Şadıbəyliyə[1082] qarşı münaqişəyə başlamışdılar. O camaatın arasında olan mötəbər ağalar Əli xanın hökumətindən təngə gəlib, layiqli itaət göstərmirdilər. Hakimlə onların arasında kin-küdurət və düşmənçilik baş qaldırdı. Əli xan [günahları] bağışlanmış şahzadənin hüzuruna getmək məqsədi ilə Şirazdan çıxdı ki, gedib şahzadəyə şikayət edərək, öz mövqelərini möhkəmlətsin və zülqədər tayfasının fəsadçılarını cəzaya məruz qoysun. Lakin o,

---

1081 «Gərək-yaraq» - türkcə «gərək» və «yaraq» sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu ifadənin kimisə himayə edən, dəstək verən, müdafiə edən, köməklik göstərən şəxs mənalarında işlədildiyi bildirilir (M.Müin. Fərhəng-e farsi, c.III, s.3263). Gərək-yaraq həm də vergi növü idi. Bu vergi Elxanilər dövründən başlayaraq hökmdarların, şahzadələrin, əmirlərin xeyrinə silah və ləvazimat təchizatı üçün yığılırdı (M.X. Гейдаров. Социально-экономические отношения, c.129). İsgəndər bəy Münşi bu ifadədən köməkçi, dəstəkçi, tərəfdar, hakimiyyətin mənafeyini təmsil edən şəxslər mənalarında, bəlkə də, əmirlər üçün gərək-yaraq vergisini toplamağa məsul olan məmurlar anlamında istifadə etmişdir.

1082 Tehran çapında (s.354) Şadıbəyli əvəzinə Sadıtəkəlü yazılıb.

darüssəltənə Qəzvinə çatdıqda [günahları] bağışlanmış şahzadənin faciəvi hadisəsini eşitdi və orada qalıb gözləyərək, padşahın səadətli məiyyəti Qəzvinə çatdıqda İsgəndər şanlı nəvvabın və Əbu-Talib mirzənin ayağını öpmək şərəfinə nail oldu. Əmirlər və dövlət ərkanı ona ürəyəyatan vədlərlə dəstək verdilər, yenidən darülmülk Şiraz əyaləti ona tapşırıldı, zülqədər ağalarına xəbərdarlıqla dolu olan hökmdar hökmləri yazılıb göndərilərək, tabe olmayanları padşahın cəzası və qəzəbi ilə qorxutdular və Əli xanı iftixarlı xələtlərlə şərəfləndirərək, Fars [vilayətinə] yolladılar.

Onun gəlişi xəbəri Farsa çatdıqda zülqədər ağaları ali divan vəzirliyi arzusunda olan və bu mətləbin həyata keçməsi üçün gecələrini gündüz edib bir an da olsun bu fikirdən və düşüncədən əl çəkməyən Mirzə Salman Cabirinin oğlu Mirzə Abdullanın fitnə-fəsadı ilə toplaşaraq, Fars [vilayətinin] əmirlərini özlərinə müttəfiq etdilər, Əli xana müxalif çıxmağı qərara aldılar və öz aralarından Mehdiqulu xan Şadıbəylini əyalət hakimliyinə və xanlığa seçərək, Əli xanın Şirazda olan bütün əşyalarını və mallarını onun üçün müsadirə etdilər. Hamısı bir-biriləri ilə əhdü-peyman və sövdələşmə bağlayaraq, Mehdiqulu xana müttəfiqlik, Əli xana isə müxaliflik etmək məsələsində həmrəy oldular. Yolda ikən bu xəbəri eşidən Əli xan yanında olan iki yüz-üç yüz nəfər mülazimlə birlikdə qorxusuz və dəhşətsiz surətdə mərhələləri və mənzilləri adlayaraq, igidcəsinə Fars vilayətinə qədəm qoydu və öz gəlişi barədə o camaata xəbər verdi. Onun ümidi bu idi ki, o camaatın arasına pərakəndəlik düşəcək və onlar dəstə-dəstə onu qarşılamağa gələcəklər. O, güman etmirdi ki, zülqədər tayfası padşahın hökmünə qarşı çıxar. Lakin o, Şirazın on iki fərsəxliyindəki Kütəl-Mayinə qədər gəlib çatdıqda Şiraz əhalisindən, nə hərbçilərdən, nə də ki rəiyyətdən bircə nəfər də olsun onu qarşılamağa gəlmədi. O camaatın Mehdiqulu xana tərəfdar və əlbir olmağının və Əli xanın əleyhinə çıxmaq barəsindəki ittifaqının həqiqəti aydın olduqda onu xof və dəhşət bürüdü. Nə irəli getməyə cürəti vardı, nə də geri getməyə üzü vardı.

Amma Mehdiqulu xan və zülqədər ağaları Əli xanın gəlib çıxması barədə məlumat aldıqda öz aralarındakı əhdü-peymanı və sövdələşməni təzələdilər və Əli xanı dəf etmək əzmi ilə tamam qələbəlik və izdihamla şəhərdən çıxdılar. Digər bir əlacı olmayan Əli xan çarəsiz qalıb, ayağını möhkəm və qərarlı bir şəkildə yerə basaraq, malik olduğu az adamla bərabər o camaatla döyüşməyə hazırlaşdı. Qoşunlar bir-birilərinə yaxınlaşdıqda Əli xanın adamlarından qat-qat çox olan şirazlılar[1083] atlarını onun üstünə çapıb, onun dəstəsini darmadağın etdilər. Əli xan məğlub oldu. Əsgərlər bir-birlərinin qohumu, ellisi, tayfadaşı və əqrəbası olduqlarından çox da qətl baş vermədi. Onun ordusunun malları, əşyaları qarətə və taraca məruz qaldı. Əli xanı dustaq və məhbus kimi şəhərə gətirib, Şiraz meydanında alçaqlıqla qətlə yetirdilər. İllərlə onun sülaləsinin çörəyini yemiş adamlar, xüsusilə də sözügedən şəxsin qohumu və yetirməsi olan, onun yanında

---

[1083] Burada «şirazlılar» deyilərkən Şirazdakı qızılbaş qoşunları, xüsusən də zülqədər tayfası nəzərdə tutulur.

həmişə əziz və istəkli olan və onun oğulluğu sayılan Mehdiqulu xan ona və onun nəslinə qarşı yaramaz əməllər törətdi. Həqiqətən də, o camaatdan haqsız yerə əmələ gəlmiş bu iş xoşagəlməz hərəkət idi və çox keçmədi ki, onun əvəzini intiqam alan və cəzalandıran [Allahın] iradəsi ilə qəddar zəmanədən aldılar. Bu məsələ ikinci dəftərdə öz yeri gələndə qeyd olunacaqdır.

Şiraz camaatı bu işə cürət və cəsarət etdiyinə görə padşahın dövlət ərkanından və Əbu-Talib mirzənin tərəfdarlarından xoflu və ürkək olub, Xorasana - əlahəzrət [Abbasın] və Mürşüdqulu xanın hüzuruna adam göndərib, özlərini Abbas tərəfdarları cərgəsinə daxil etdilər və oradan ali divanın vəzirliyi fərmanı Mirzə Salmanın oğlu Mirzə Abdullanın adına, Şiraz əyalətinin fərmanı isə Mehdiqulu xanın adına gəldi. Amma onlar İsgəndər şanlı nəvvabı nəzərə alaraq, Farsda xütbəni və sikkəni dəyişdirmədilər və hər iki tərəflə münasibətdə ehtirama riayət etdilər.

İsfahanda isə Fərhad ağa Qulam neçə il idi ki, [günahları] bağışlanmış şahzadə tərəfindən o mülkün hakimi və ixtiyar sahibi idi və Nəqşi-cahan yaxınlığında olduqca mətanətli və istehkamlı bir qala tərtib edib, oraya ehtiyac olduğu qədərincə azuqə və qala müdafiəsi yarağı yığmışdı. Bu zaman [günahları] bağışlanmış şahzadənin faciəvi hadisəsi baş verdi və Əliqulu xan Fəthoğlu mütləq vəkil, Mirzə Məhəmməd isə padşahın vəziri və etimadüddövlə oldu. Hələ Əliqulu xan İsfahan daruğası olan ildə onunla Fərhad ağa arasında narazılıq və münaqişə baş vermiş və Fərhad ağa onun vəkillərinə işlərə çox da qarışmaq imkanı verməmişdi. Bu səbəbdən indi Fərhad ağa ondan əmin deyildi və həmçinin Mirzə Məhəmməddən özünə qarşı pis münasibətin olduğunu bilirdi. O, ərəşlü tayfasından qorunmaq bəhanəsi ilə qalanı möhkəmləndirib, öz halını mühafizə etməyə səy göstərdi və Əbu-Talib mirzənin dövlət ərkanının əmr və qadağalarına tabe olmaq istəmədi.

Azərbaycanda da [Həmzə] mirzə cənablarından sonra hər bir başçının başına özbaşınalıq sevdası düşdü, padşahın hökmünə və fərmanına riayət etmədilər və hər biri hansı bir vilayəti bacardısa, öz əlinə keçirib, bir-birilərinə itaət etmədilər. Təbriz qalasında olan Cəfər paşa bu fürsəti qənimət bilib, o mülkün ətrafını və yan-yörəsini zəbt etdi və Azərbaycanın əksər mahalları qızılbaşların ixtiyarından çıxdı.

Əmirlər zümrəsindən Qaracadağın nüfuzlu hakimi olan Xəlifə Ənsar oğlu Şahverdi xan rumilərlə dostluq qapısını açaraq, bu məqsədlə öz oğlunu Təbrizə, Cəfər paşanın yanına göndərdi. Daha sonra o, Cəfər paşanın elçilərini qəbul edən gün ata-babalarının bu saflıq nişanlı sülaləyə (Səfəvilərə) olan irsi bağlılığına, sufiliyinə və sədaqətinə baxmayaraq, rumiləri xatircəm etmək və özünə inandırmaq üçün [qızılbaş] tacını başından götürdü və rumilərə xas olan bas geyimini örtdü. Qaracadağlu [tayfasının] əksər xəlifələri və ağsaqqalları da çar-naçar taclarını çıxarıb, iki-üç il ərzində böyük bir qorxu və acı içində yaşadılar. Qəhqəhə qalasının hakimi Məhəmməd sultan Qaracadağlu döyüş meydanında əsir düşmüş bir neçə

nəfər Rum böyüklərinin məsləhətinə əsasən, Cəfər pasanın yanına adam göndərib, itaətkarlığını və tabeçiliyini izhar etdi. O da bir müddət qorxu içində yaşadı. Amma axırda onun mülazimləri olan bir dəstə ustaclu qazisi onun hiylə işlədərək Qəhqəhə qalasını rumilərin ixtiyarına verəcəyindən şübhələndilər və birləsib, onu qalanın ortasında qətlə yetirdilər[1084].

Xülasə, Azərbaycan, İraq, Fars, Kirman, Kuhi-Giluyə və Xuzistan əhalisinin əhvalının intizamı pozuldu, aqibətsiz hərbçilərin istilası ucbatından rəiyyətin vəziyyəti alt-üst oldu və hərbçilər çobansız mal-qara kimi başsız qalıb, qeybdən gələn bir hadisənin intizarını çəkməyə başladılar. Bu vaxt ilahi nəvaziş yeli əsməyə başladı və həmin ilin axırında Allahın kölgəsi olan əlahəzrət Şah [Abbasın] dünyanı tutan bayraqlarının təntənəsinin avazı İraqda yayılaraq, öz hüsn-rəğbət kölgəsini İran mülkünün sakinlərinin başları üzərinə saldı və qarışıqlıq azalmağa doğru üz tutdu. Şah [Abbasın] zavalagəlməz səadətinin uğuru ilə qısa bir zamanda fəlakətlər və bədbəxtliklər ilinin quraqlığı ucbatından şadlıq və sevincə həsrət qalmış İran mülkünün sahələri İrəm gülüstanının təravətini qazandı.

## İSGƏNDƏR ŞANLI NƏVVABIN ƏMİRLƏRİNİN, DÖVLƏT ƏRKANININ VƏ ƏBU-TALİB MİRZƏ TƏRƏFDARLARININ ƏHVALI HAQQINDA[1085]

Amma Əbu-Talib mirzənin və onun dövlət ərkanının əhvalı belə oldu ki, Qəzvinə gəlib, orada qaldıqları ilk vaxtlarda lovğalıq və qürur badəsindən o qədər sərxoş idilər ki, heç kəsi nəzərə almırdılar. Onlar əsla ehtimal etmirdilər ki, onlara müxalif çıxmağın surəti hansısa bir canlının xəyal səhifəsində nəqş oluna bilər və güman etmirdilər ki, Mürşüdqulu xan malik olduğu az adamla birlikdə İraqa gəlməyə cəsarət edərək, kama yetmiş şərəfli nəvvabı (Abbası) özü ilə İraqa gətirər. Elə ki qış başa çatdı, 995-ci (1587) ilə müvafiq olan tonquz ilinin aləmi nurlandıran Novruzu gəldi, zəmanənin burnu bahar bağının güllərinin ətrindən ənbərlə doldu və günbəgün Kaşan, İsfahan, Yəzd, Şiraz və Kirman tərəflərdən həyəcanlı xəbərlər gəlməyə başladı, onlar qəflət badəsindən bir qədər ayılıb, vəziyyəti nizama salmaq və hər diyarda baş qaldırmış qarışıqlığı aradan qaldırmaq mövqeyini tutdular. Amma artıq gec idi. Çünki onların hakimiyyətinin müddəti sona çatmış və Allahın kölgəsi olan əlahəzrət şahın dövlətinin və səadətinin səbəbləri öz sərəncamını tapmışdı. Bu üzdən onların hər arzusu əks nəticə verirdi. Onlar əvvəllər Fərhad ağanın vəziri, sonradan isə Qəzvin işlərinin mütəsəddisi olmuş Mir Cəfər Qəzvinini Fərhad ağanı gətirmək üçün İsfahana göndərdilər və sözügedən [Fərhad ağanın] adına cəzbedici hökmlər yazdılar. Həmçinin Qulu bəy Qorçubaşının nəsli və əfşar camaatı ilə yaxşı münasibəti olan Şahqulu «Səqqa»nın oğlu Pirqulu bəyi

[1084] S-129, v.293b; S-297, v.231b.

[1085] Bu sərlövhə S-129 nüsxəsində (v.293b) bu cür verilib: «İsgəndər şanlı nəvvabın və Əbu-Talib mirzənin əmirlərinin və dövlət ərkanının əhvalı haqqında».

darülibadə Yəzdə, Bəktaş xanın yanına göndərdilər ki, onu müxaliflik vadisindən döndərərək, Əbu-Talib mirzəyə müti və tabe etsinlər.

Hökmdar ordusu Xərrəqan yaylağına gedib, bir müddət yaylaqda qaldı. Sözügedən Mir Cəfər gəlib, özü ilə Fərhad ağanı gətirdi və o, şahın və şahzadənin hüzuruna bir az peşkəş təqdim etdi. Amma Əliqulu xana, İsmayılqulu xana və vəzir Mirzə Məhəmmədə töhfə və ərməğan qaydası ilə bolluca nəğd pul verdi və yenidən İsfahan hökumətinin müjdəsini əldə edərək, geri qayıtmaq üçün rüxsət almaq barəsində tamam tələskənlik göstərdi. Hər gün hər tərəfdən əmirlərin və dövlət ərkanının təbiətinə xoş gəlməyən həyəcanlı xəbərlər gəlirdi və bütün bu məsələlər barədə vəzir Mirzə Məhəmmədin rəyinə və tədbirinə əməl edirdilər. Lakin Allahın kölgəsi olan kama yetmiş şah (Abbas) cənablarının səltənət və padşahlıq məsələlərinin sərəncamına fələk özü zamin durduğundan onların dövlət işlərinin intizamına, mülk və millət qaydalarının təşkilinə dair düşündükləri fikirlərin hamısı mətləbin əksinə nəticə verdi və onların tədbirlərinin heç biri baş tutmadı.

Bu əsnada şamlularla ustaclular arasında bir qədər mübahisə qübarı yayıldı və Məhəmmədi bəy Sarısolağın səyi ilə aradan qaldırıldı. Münaqişənin səbəbi o idi ki, rəhmətlik Nəvvabi-Cahanbani Həmədan vilayətinin hakimliyini Pirqeyb xan Ustacluya tapşırmışdı və indi İsmayılqulu xan Şamlu istəyirdi ki, o vilayətin hakimliyi özünün böyük qardaşı Şahverdi xəlifəyə həvalə olunsun. Əliqulu xan da onun məsləhətindən çıxa bilmədiyi və Pirqeyb xana qarşı mənfi münasibətə malik olduğu üçün bu işə razılıq verdi. Həmədan əyalətinin fərmanı Şahverdi xəlifənin adına yazıldı. Sözügedən şəxs o tərəfə yollandı. Pirqeyb xan bu hadisədən incidi və zahirən itaət göstərsə də, əlini məmləkətin idarəçiliyindən çəkmədi, hakim iqamətgahı olan mənzildə qalmağa davam edərək, oradan çıxmadı. Şahverdi xəlifə dövlətmənd və xeyirxah adam idi. Amma onun qohumları və mülazimləri olan şamlu camaatı söz-söhbətə başladılar və istədilər ki, [Pirqeyb xanı] zorla və güclə Həmədandan çıxarsınlar. Pirqeyb xanın xasiyyəti özündənrazılıqdan və qürurdan yoğrulmuşdu və o vaxt onun qüvvəti və qüdrəti Şahverdi xəlifədən daha çox idi. O, onun ağalıq etməsinə dözmədi, malik olduğu incikliyi boğmadı və iş münaqişə və dava-dalaşla nəticələndi. Sayca çox olan ustaclular üstün gəldilər və bununla da Şahverdi xəlifənin hörməti alçaldılmış oldu.

Bu xəbər orduya çatdıqda İsmayılqulu xan şamlu tayfası ilə birlikdə təcili surətdə atlanaraq, Həmədana getmək və Pirqeyb xanı tənbeh edib cəzalandırmaq iradəsi nümayiş etdirdi. Əliqulu xan İsmayılqulu xanın könlünü almaq və şamlularla ustaclular arasında düşmənçiliyin yaranmaması üçün çeşidli mülayimliklər və itaətkarlıqlar edərək, onu bu iradədən döndərdi və söz verdi ki, özü şəxsən gedib, Şahverdi xəlifəni oranın hökumətinə əyləşdirsin, Pirqeyb xanı isə tutub, ona təhvil versin. İsmayılqulu xan onun xahişini qəbul edib, getməkdən vaz keçdi və Əliqulu xan bir sıra əmirlərlə birlikdə o tərəfə yollandı.

Amma onun gəlişindən öncə hər iki tərəfdən olan sülhpərvərlər və xeyirxahlar bir araya gəlib, [Pirqeyb xanla Şahverdi xəlifənin] arasında barışıq

yaratdılar. Pirqeyb xan Həmədan hökumətini tərk edib, o vilayətdən çıxdı və yolda Əliqulu xanla rastlaşaraq, onunla birlikdə orduya gəldi. Əliqulu xanın onunla çox da yaxşı münasibəti olmadığına, həm də İsmayılqulu xandan qorxduğuna görə o, Xərrəqan yaxınlığında qardaşları və özünün köhnə mülazimləri olan bir neçə nəfər ustaclu cavanları ilə birlikdə yüklərini və əşyalarını atıb, ordudan fərar etdi, Xorasanın yolunu tutdu və neçə gün irəliləməkdən asudə olmadan müqəddəs Məşhədə çatıb, orada Allahın kölgəsi olan əlahəzrət şahın ayağını öpmək və Mürşüdqulu xanla görüşmək izzətinə feyzyab oldu. O, onları İraqa gəlməyə rəğbətləndirdi və onlara dövlətin intizamsızlığı və İraqın vəziyyətinin qarışıqlığı barədə necə vardısa məlumat çatdırdı.

Hökmdar ordusu Xərrəqan yaylağında olan günlərdə Aşur ağa adlı bir nəfər Allahın kölgəsi olan əlahəzrət şahla Mürşüdqulu xan tərəfindən İraqa gəlib, məktub gətirdi. Bu əhvalatın icmal yolu ilə bəyanı bu cürdür ki, rəhmətlik Nəvvabi-Cahanbaninin faciəvi hadisəsi barədə xəbər müqəddəs Məşhədə çatdıqda İraqın, Farsın və Kirmanın müxtəlif tərəflərindən və səmtlərindən [Məşhədə] sədaqət üslublu ərizələr gəlməyə başladı. Aqil və bacarıqlı adam olan Mürşüdqulu xan istədi ki, təcrübəli şəxslərdən birini İraqa göndərib, onun vasitəsi ilə dövlət evinin və onun dayaqlarının vəziyyəti və İraq ordusunun və əmirlərinin halı barədə məlumat alsın və onun qayıdışından sonra dövlətin faydası üçün nəyi məsləhət bilərsə, həyata keçirsin. O, sözügedən Aşur ağanı bu xidmətə məmur edib yolladı. [Aşur ağa vasitəsilə] əlahəzrət (Abbas) tərəfindən onun adlı-sanlı atasına böyük qardaşının faciəvi hadisəsinə görə başsağlığının və arzularının izharı barədə bir ərizə, Mürşüdqulu xanın öz adından da [şaha] sədaqət yönümlü bir ərizə və həmçinin dövlətin dayaqları olan cənablara öyüd-nəsihətdən ibarət bir məktub göndərildi. Bu məktubun xülasəsi belə idi: «Artıq neçə ildir ki, fələyin zərurəti və hər iki tərəfin araqarışdıranlarının fitnə-fəsadları üzündən İraqın və Xorasanın böyük əmirləri arasında münaqişə baş qaldırıb, çeşidli ziddiyyətlər meydana gəlib və bütün bunlar ümumi qarışıqlığa səbəb olub. Qızılbaşların ittifaqsızlığı və tayfa ağsaqqalarının, əmirlərin nifaqı ucbatından düşmənlər öz təcavüzkar əllərini bizim məmləkətlərimizin nahiyələrinə uzatmışlar və səltənət, padşahlıq işlərinə tamam qeyri-sabitlik yol tapmışdır. İndi bir halda ki, qəzavü-qədərin zərurəti ilə [günahları] bağışlanmış şahzadənin faciəvi hadisəsi baş verib və hal-hazırda Məşhəddə əyləşmiş əlahəzrət (Abbas) İsgəndər şanlı nəvvabın böyük oğludur, həddi-buluğa və yetkinlik yaşına çatmışdır, mübarək alnından cahandarlıq nişanələri peydadır. Ona görə də dövlət ərkanından təmənnamız budur ki, bu gündən etibarən müxaliflik büsatını ortadan yığışdıraraq, hamımız eyni mövqedən çıxış edək, bir-birimizlə ittifaq edib, səltənət və padşahlıq işlərində, düşmənlərin dəf olunmasında və məmləkətlərimizin məsələlərinin intizama salınmasında qüdrətli dövlət üçün faydalı və sərfəli olan hər nə varsa, bir-birimizin məsləhəti ilə həyata keçirək və qızılbaşların arasından ikitirəliyi yox edək».

Aşur ağa Qəzvinə çatdıqda dövlətin paytaxtını qorumaq üçün şəhərdə qalmış Qorxmaz xan Şamlu onu saxladı. O, ərizə gətirdiyini bildirdi və icazədən sonra orduya gəldi. Böyük xanlar yazının məzmunu ilə tanış oldular. Lakin onların bəsirət gözləri doğru yola bağlı qaldı. Onlar əlahəzrət [Abbasın] xidmətində vəkil və mütləq ixtiyar sahibi olan Mürşüdqulu xana heç bir etimad bəsləmirdilər. Əliqulu xan Fəthoğlu ali divanda öz səviyyə və dərəcəsini Keyvan eyvanına qədər yüksəltmişdi, səltənət və padşahlığın işlərinin yüyənini öz iqtidar əlinə keçirmişdi, özünü padşah-nişan bir adam hesab edirdi, bir digərini nəzərə almırdı və bilirdi ki, Mürşüdqulu xanla bir məkanda olmasına imkan yoxdur. Buna görə də o, öz şəxsi maraqlarını nəzərə alaraq, [Mürşüdqulu xanın] sözlərinin üzərində hiyləgərlik yükünün olduğunu bildirdi və bu işin baş tutmasını inkar etdi. [Məktubun] cavabında yazdılar: «İsgəndər şanlı nəvvab öz möhtərəm oğlu Sultan Həmzə mirzəni vəliəhd və qaimməqam etmişdi və o da öz növbəsində türkman və təkəlülərlə müharibəyə gedən vaxt vəsiyyət etmişdi ki, əgər bu səfərdə onun başına bir iş gələrsə Əbu-Talib mirzə onun yerinə əyləşmiş olsun. İndi də qızılbaş tayfalarının Sultan Həmzə mirzəyə göstərdikləri iqrara əsasən, onun vəsiyyətini nəzərə alaraq, adlı-sanlı şahzadə Əbu-Talib mirzəyə xidmət etmək üçün kəmər bağlamışlar və başqa bir işə razı deyillər». Bundan savayı, [Əliqulu xan] İraq və Xorasan əmirləri arasında fitnə və münaqişəyə baiskar olmuş Mürşüdqulu xanı məzəmmət etdi, bütün əmirlər və oymaq ağsaqqalları tərəfindən bu barədə bir vəsiqə yazıldı və hər təbəqənin əmirləri və ağsaqqalları oraya möhür vurdular. Aşur ağanı böyük bir xiffət və etibarsızlıqla yola saldılar. Amma Əliqulu xan, İsmayılqulu xan, Məhəmmədi Sarısolağ və vəzir Mirzə Məhəmməddən savayı, digər əmirlər və əyanlar buna razı deyildilər və vəsiqəyə ikrahla möhür qoymuşdular. Onların bir dəstəsi isə hətta [Aşur ağaya] şifahi şəkildə öz fikirlərindəkiləri çatdırmışdılar.

[Aşur ağanın] getməsindən sonra [Əbu-Talib mirzə tərəfdarlarının] rəyləri və tədbirləri bunda qərar tutdu ki, Kaşana yollanıb, o şəhəri Vəlican xanın əlindən alsınlar, oradan da İsfahana və Yəzdə gedib, Farsın, Kirmanın və o hüdudun işlərini yoluna qoyaraq, itaət etməyənləri cəzalandırsınlar və öz etimad bəslədikləri bir dəstəni hər vilayətə təyin etsinlər. Onlar Qum hakimi Əliqulu sultan Zülqədəri və İsmayılqulu xanın qardaşı Mürşüdqulu sultan Şamlunu özlərindən öncə Vəlican xanın üzərinə, Kaşana göndərdilər.

Fərhad ağada bolluca nəğd pulun olduğunu güman etdiklərinə və İsfahan əhalisindən orduda olan bəzilərinin Fərhad ağadan gileyli olmasına görə onun əmlakını müsadirə və qəsb etməyi qərara alaraq, Fərhad ağadan, onun tabeçilərindən və nümayəndələrdən məbləğ tutub, ümumi gəlirlərə qatmağa təşəbbüs göstərdilər. Həmin Xərrəqan yaylağında Fərhad ağanı tutub, onun mallarını və əşyalarını zəbt etdilər. Nazir Mirzə Əhməd Küfrani İsfahanın vəziri və oranın işlərinin sahibi, Mirzə Hidayət Nəcmi-Sani isə oranın müamilat naziri təyin olundu. Fərhad ağanın mallarının zəbt olunması üçün zabitlər təyin etdilər və onun

işçilərindən əlli-altmış nəfərin hər birindən bir məbləğ tutmaq üçün qətiyyətli mühəssillər göndərdilər. İsfahanın daruğalığı Seyid bəy Kəmunəyə tapşırıldı və o, İsfahana göndərildi.

Hökmdar ordusu köç edib, iyirmi gün ərzində Kaşana çatdı. Onlardan məyus olmuş Vəlican xan şəhər darvazalarını bağlayıb, qalanı müdafiə etmək üçün lazımi tədbirlər gördü və tacirlərin, varlıların mallarına əl uzadıb, öz mülazimlərinə bol-bol ənamlar verdi. Get-gedə iş o yerə çatmışdı ki, [Vəlican xan] «insan və onun əlində olan hər şey onun mövlası üçündür» kəlamından çıxış edərək, hər kimin yanında nəyinsə olduğunu güman edirdisə, onu öz qanuni əmlakı sayıb, zorla və güclə onu tutub alırdı. Bayırdakılar şəhəri mühasirə edib, səngərlər («sibə»lər) tərtib etdilər və qalanı tutmağa səy göstərdilər. Axırda səngərlərini xəndəyə qədər aparıb çatdırdılar.

Bu əsnada İsfahan tərəfdən həyəcanlı xəbərlər gəldi. Kəlamın məğzi o idi ki, Fərhad ağanın İsfahan qalasında olan mülazimləri və tərəfdarları onun tutulmasını eşidərək, onunla qohumluq münasibətinə malik olan Xosrov bəy adlı bir qulamın sərkərdəliyi ilə şəhərin darvazalarını örtmüş, qalan müdafiə etməyə qərar vermiş və malları müsadirə etmək üçün gəlmiş zabitlərə və təhsildarlara qatlaşmayaraq, üsyan kəlməsini elan etməyə girişmişlər. Seyid bəy Kəmunə ilə vəzir və «məqtə» sahibi[1086] Mirzə Əhməd Küfrani o mülkün nəqibləri olan ali dərəcəli Hüseyni seyidlərinin camaat arasında «Hüseyniyyə» adr ilə tanınan və malik olduqları ehtirama görə indiyəcən o vilayətin adamları tərəfindən pənah yeri və sığınacaq məkanı kimi bilinən iqamətgahında qərar tutub, şəhər ətrafından («bölükat») tüfəngçi və kamandarlar gətirərək, şəhəri və Hüseyniyyəni mühafizə etdilər. Əksəri avara-sərgərdan qulamlardan ibarət olan qala əhli təcavüzkarlıq etməyə başladı. Şəhər əhalisinin əhvalı pozuldu və o gözəl şəhərdən əmin-amanlıq kənar oldu. Üsyançı qulamlar günbəgün üsyanı və tüğyanı genişləndirdilər. Nəhayət, fürsətdən istifadə edərək, bir gün qəflətən Hüseyniyyəyə gedib, bir neçə yerdən divarları dəldilər və içəriyə tökülüşüb, sonsuz dərəcədə mallar və əşyalar tarac etdilər. Fərhad ağanın dəstəsinin adamları hər birisi islam məmləkətlərinin bəyənilmişləri olan Seyid bəy Kəmunə ilə Mirzə Məhəmməd Əmini tutub, qalaya apardılar. Vəzir Mirzə Əhməd isə bir dəstə ilə fərar edib, pərişan halda Kaşana çatdı və vəziyyət barədə həqiqətləri ərz etdi. Dövlətin dayaqları olan cənablar Allahqulu sultan Kəngərlünü bir sıra əmirlərlə birlikdə İsfahan şəhərini qorumaq üçün göndərdilər. Onlar İsfahan vilayətinə qədəm qoyduqda yağı olmuş ərəşlü əmirləri onların gəlişi xəbərini eşidib, İsfahanın Murçexurt [adlı yerində] onların üstünə tökülüşərək, Allahqulu sultanı, Mirzə Hidayət Nəcmi-Sanini, türk və tacik əyanlarından neçə nəfəri tutub, özləri ilə apardılar.

Dövlətin dayaqları olan cənablar bu hadisənin baş verməsi barədə Kaşanda məlumat alıb, narahat oldular və Kaşan qalasının ələ keçirilməsi istiqamətində

[1086] «Məqtə» sahibi - torpaq mülkiyyətçisi, iqta sahibi.

əvvəlkindən daha artıq səy göstərməyə başladılar. Təcili surətdə İsfahana getmək lazım olduğundan onlar hücuma tam hazırlaşmadan [Kaşan qalası üzərinə] bir neçə yürüş etdilər. Gecə yarısınadək hər iki tərəfdən döyüş və vuruş baş verdi, işə yarayan cavanlardan bir dəstəsi zay oldu, lakin işi irəli aparmaq mümkün olmadı. Həmin döyüşdən sonra İsmayılqulu xan belə məsləhət bildi ki, İsfahan məsələsi daha ümdə, daha mühüm və daha önəmli olduğundan Vəlican xanla sülh görüntüsü yaradaraq, onun işini bitirməyi başqa bir vaxta saxlasınlar. O, özü bu işə təşəbbüs göstərib, içəriyə adam göndərdi və onun məsələsinin yoluna qoyulması üçün özü zamin durdu. Vəlican xan mühasirə sıxıntısından təngə gəlmişdi. O, bu təklifi qənimət bildi, İsmayılqulu xanla razılaşdı, öz məsələsinin yoluna qoyulmasını onun şəfqətinin öhdəsinə buraxdı və özünün bir necə adamını cüzi peşkəşlərlə bayıra göndərib, üzrxahlıq mövqeyini tutdu. Onun göndərdiyi şəxslər İsmayılqulu xanın vasitəsi ilə Əliqulu xanın hüzuruna çıxmağa nail olub, İsgəndər şanlı nəvvaba və Əbu-Talib mirzəyə səcdə etmək və onların ayaqlarını öpmək şərəfini qazandılar və ədəbsizliklərin üzrünü istəyərək, Vəlican xanın adından bildirdilər ki, ona bir-iki ay möhlət verilsin və o, bu müddətdə Kaşanda öz ləvazimatlarını hazırlayıb, ali divandan ona hansı ölkə verilərsə, oraya yollansın. Çoxlu qeylü-qaldan sonra qərar verildi ki, ordu köç edən kimi, o, darvazaları açsın, Kaşanda qalmaq üçün şamlu, bayat və s. camaatdan üç yüz nəfər qoysun və onlar onun gedişindən sonra şəhəri mühafizə etmiş olsunlar.

Hər iki tərəf buna razı oldu, belə bir sülh bağlandı və ordu köç edib, İsfahana yollanaraq, Mirzə Ərəb Münəccim Herəvinin təyin etdiyi saatda [İsfahan] şəhərinə daxil oldu. Hökmdarın dövlətxanası kimi Hüseyniyyə seçildi. Əliqulu xan dövlətxana yaxınlığında məskən tutdu. İsmayılqulu xan Kəlbar məhəlləsinə getdi. Əmirlərdən və dövlət ərkanından hər biri münasib bir mənzildə yerləşdilər. Qulamlar müxalifliyi və qalanı müdafiə etməyi israrla davam etdirdilər. Bu tərəfdən isə [hökmdar ordusu] top tökməyə və qalanı tutmaq üçün ləvazimatları hazırlamağa başladı. Bir neçə gündən sonra Əliqulu xan məsləhət bildi ki, Fərhad ağa və qaladakı qulamlarla mülayimcəsinə davransınlar və bəlkə, bu hiylə ilə qalanı onların əlindən ala bilsinlər. O, Fərhad ağanı öz mənzilinə gətirib, onun boynundan zənciri açdı, onunla qonaq kimi rəftar etdi, gözəl vədlərlə onun könlünə arxayınlıq bəxş etdi və onun işinə zamin durdu. Fərhad ağa qalaya, Xosrov bəyin yanına adam göndərib, öz etimadlı adamlarından bir-iki nəfəri çağırtdırdı və onlara tabe olmağı, itaət etməyi və qalanın qapısını açmağı əmr etdi. Əvvəlcə Xosrov bəy və qulamlar buna etimad etməyib, Fərhad ağaya kobud və qaba cavablar göndərdilər. Amma get-gedə onlar sülhə rəğbətləndilər və çoxlu qeylü-qaldan sonra qətlə yetirilməyəcəklərindən və cəza almayacaqlarından xatircəm oldular. Xosrov bəy qaladan çıxdı və Əliqulu xanla və əmirlərlə görüşüb, qalanın qapılarını açdı. Beləliklə, bir az mülayimlik və gözəl tədbir sayəsində qalanın işi asanlıqla həll olundu.

Qalanın işinin əncamını çəkəndən sonra Mehdiqulu xanın və Şiraz zülqədərlərinin tərəfindən ağsaqqallar gəlib, ərizələr və peşkəşlər gətirdilər və Əli xanın qətli barəsində üzrxahlıqlar deyərək xahiş etdilər ki, əgər qüdrətli dövlətin dayağı olan şəxslər bu hadisəni əfv edib, Mehdiqulu xanı Şiraz əyalətinə mənsub etsələr, onlar itaət və tabeçilik göstərəcəklər, sufilik və sədaqət xüsusiyyətinə malik zülqədər tayfası İsgəndər şanlı nəvvabın könlünün razılığından kənara çıxmayacaqdır və onlar ali divana külli miqdarda tərcüman [rüsumu] verməyə razıdırlar. Həqiqətən də, o zaman onların xahişinin qəbul edilməsi ağıllı hərəkət olardı və çox ehtimal vardı ki, bu bağışlama və əfv sayəsində onların dövlətinə böyük fayda gələcəkdi. Lakin vəzir Mirzə Məhəmməd bunu qəbul etməyi doğru saymadı və orduya gəlmiş olan Darabcərd hakimi Şahqulu xəlifə Zülqədəri Şiraz əyalətinin [hakimliyinə] təyin edərək, onun ölkəsini isə Əli xanın oğlu Təhmasibqulu sultana verdilər. Onların Farsa getməsi müyəssər olmasa da, bu məsələ ona gətirib çıxardı ki, Mehdiqulu xan və zülqədərlər müxaliflikdə israr edib, Abbas tərəfdarı olduqları ilə bağlı şüarlar səsləndirdilər. Həmçinin Əbu-Talib mirzənin dövlət ərkanının əleyhinə çıxaraq, onların istəyinə uyğun hərəkət etməyən digər kəslər də kütləvi surətdə o təbəqədən (Əbu-Talib mirzə tərəfdarlarından) tamamilə əllərini üzüb, onlardan uzaqlaşdılar.

Bu arada Əliqulu xanla İsmayılqulu xan arasında narazılıq meydana gəldi. Bir neçə gün onların arasında kin-küdurət və çəkişmə oldu. Çəkişmənin səbəbi o idi ki, cənnətməkan şahın möhürdarı Şahqulu xəlifənin nəvəsi Əliqulu sultan Zülqədər, Əliqulu xanın həmsöhbəti və yetişdirmələrindən idi və cənnətməkan şahın zamanında onun babasına məxsus olmuş Qum ölkəsi ona aid idi. Əliqulu xan iqtidar sahibi və səltənətin idarəedicisi («müxtarüssəltənə») olduqdan sonra Əliqulu sultan istədi ki, cənnətməkan şahın zamanında atasına və babasına mənsub olmuş möhürdar mənsəbi indi sözügedən şəxsin yardımı ilə ona tapşırılsın və bu mənsəb barəsində xeyli xahiş edib, Əliqulu xandan kömək dilədi. Əliqulu xan da onun xatirinə təsəlli vermək məqsədi və öz atası Şahrux xanın yerinə möhürdar rütbəsinə yüksəldilmiş Ələməs xandan narazı olması səbəbi ilə bu işin hərəkətvericisinə çevrildi. Lakin zülqədər tayfasından Şahrux xanın yetişdirməsi olan bir dəstə adam onun oğlu Ələməs xanın tərəfini saxlayıb, bu məsələyə etiraz bildirdilər və İsmayılqulu xandan yardım istədilər. O (İsmayılqulu xan) da sözügedən [Ələməs xanı] himayə etmək mövqeyini tutdu. Əliqulu xanın onun bu himayədarlığından xoşu gəlmədi və öz niyyətinin baş tutmasında israr etdi. Bu məsələ kin-küdurət maddəsinə çevrildi. Araqarışdıranların fəsadı nəticəsində tərəflər arasında son dərəcə narahatçılıq yarandı. Qızılbaş tayfaları iki dəstəyə bölündülər. Bir dəstə İsmayılqulu xanın başına toplaşdı, digər bir dəstə isə Əliqulu xanın ətrafına yığışdı. Bütün gün ərzində İsfahan şəhərində səngərlər tərtib etdilər, bir-birilərindən xoflu və ürkək oldular və bu hadisə şəhərin və məmləkətin bir-birinə dəyməsinə bais oldu. Heç bir kəs ölkəni idarə etməyə və acizlərin, miskinlərin əhvalını qorumağa səy göstərmirdi. Qızılbaş cahillərinin və

iğtişaşçılarının pozuculuq fəaliyyəti üzündən küçələrdə və bazarlarda gediş-gəliş çətinləşmiş, dükanların qapıları bağlanmış və ticarət mərkəzlərində alış-veriş dayandırılmışdı. Müsadirə və qəsbkarlıq qapıları açılmışdı. İsfahanın «məqtə»si və dövlət ərkanının «düşüllük»ləri[1087] üçün məmləkətdə külli məbləğdə vəsait toplanıb, həvalə sahiblərinin[1088] pul mənbəyinə çevrildi. Biçarə rəiyyət sərt mühəssillərin əllərində giriftar oldu. Sorğu-sual olmadığına görə hər kəsin əlinə bir bərat düşürdüsə, rəiyyətdən artıqlaması ilə qızıl tutub alırdı.

Xülasə, İsfahan əhalisinin əhvalı olduqca pozulmuşdu. Bu əsnada xəbər çatdı ki, özbək padşahı Abdulla xan Xorasanı işğal etmək məqsədi ilə Herat üzərinə gəlib və şəhəri mühasirəyə alıb. Herat hakimi Əliqulu xan Şamlu qalanı bağlayıb, müdafiə olunmaqla məşğuldur; Mürşüdqulu xan isə Allahın kölgəsi olan əlahəzrət şahı Məşhəddən çıxarıb, Təbəs yolu ilə İraqa gəlmək iradəsinə malikdir. Xorasandan İraqa gediş-gəliş az-az baş verdiyindən səhih bir xəbər gəlib çatmadı və aydın olmadı ki, Mürşüdqulu xanın müqəddəs Məşhəddən çıxmaqda məqsədi Abdulla xanın qorxusundandır, yoxsa o, İraqa hərəkət etmək istəyir? Müxtəsər, bu xəbər ona bais oldu ki, sülhyaradanlar ortaya girərək, böyük xanlar (Əliqulu xanla İsmayılqulu xan) arasında barışıq yaratdılar.

Amma xanlar bir-biriləri ilə görüşmək barəsində tərəddüd və ehtiyat etdilər. Şamlu tayfası İsmayılqulu xanı qoymadı ki, Əliqulu xanın mənzilinə gedərək, onun xatirindəki qübarın aradan qaldırılması ilə məşğul olsun. Onların arasında görüşün baş tutduğu gündə isə hər iki tərəf öz qoşununu tərtib etdi. İsmayılqulu xan böyük bir təntənə və iqtidarla Hüseyniyyəyə gəldi. Bu tərəfdən də [Əliqulu xanın adamları] neçə-neçə qapının ağzını qoşunla bəzəmiş, oraya keşikçilər və qapıçılar («hacib»lər) qoymuş, ətrafda və yan-yörədə çoxlu tüfəngçilər yerləşdirmiş və tamam-kamal əzəmət və görkəmə malik bir məclis tərtib etmişdilər. İsmayılqulu xan onun evinin qapısına çatdıqda bu vəziyyəti müşahidə etdi və istər-istəməz dostcasına və insaniyyətçiliklə irəli gəlib, qardaşlarından, əmirlərdən və özü ilə birlikdə olan həm şamlu, həm də digər oymaqların ağsaqqallarından ibarət bir neçə nəfərlə birgə Əliqulu xanın evinə daxil oldu. Lakin onun digər əsgərlərinin daxil olmasına imkan vermədilər. İsmayılqulu xan da bu barədə israr etməyib, əyanlardan bir neçə nəfərlə Əliqulu xanın mənzilinə girdi. Tərəflər arasında görüş baş verdi və onlar bir-biriləri ilə barışıq etdilər.

Hələ onlar arasındakı yara tam sağalmamış, Mürtəzaqulu xan Pornakın ölümü və Mürşüdqulu xanın Damğan yolundan İraqa gəlməsi xəbəri yayıldı. Əliqulu xanın rəyi bunda qərar tutdu ki, ümumi sayları beş min nəfərə yaxın olan

---

[1087] Düşüllük - türk sözüdür. Dövlət aparatının saxlanması üçün nəzərdə tutu-lan və məvacibdən əlavə olaraq, vəzifəli şəxslərə ödənilən bəxşiş məbləğini nəzərdə tutur (daha ətraflı bax: O.A.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. с.276-278; Ş.K.Məmmədova. «Xülasət ət-təvarix» Azərbaycan tarixinin mənbəyi kimi, s.39-40).

[1088] Həvalə sahibləri - burada «həvalə» adı altında pul baratı, vergi sənədi, «həvalə sahibləri» dedikdə isə bu baratlar əsasında vergiləri toplayan şəxslər nəzərdə tutulur.

öz əmirlərindən və tabeçilərindən bir dəstə ilə sürətlə hərəkət edib, öz tiyuluna aid Rey ölkəsinə getsin, oradan da Xəvara və Simnana yollanıb, Damğana qədər yolları zəbt edərək, İraq əhlindən bir nəfərin də Allahın kölgəsi olan əlahəzrət şahın məiyyətini qarşılamağa çıxmasına imkan verməsin, sayı az olan Xorasan camaatının İraqa gəlməyə qüdrəti çatmasın və İsmayılqulu xan isə İsgəndər şanlı nəvvabla Əbu-Talib mirzənin məiyyətində darüssəltənə Qəzvinə gedib, dövlətin paytaxtında yerləşsin. Lakin [Əliqulu xanın] tərəfdarları onu bu düşüncədən daşındırıb dedilər:

- Bir halda ki İsmayılqulu xana etimad yoxdur, o zaman padşahla padşahzadəni ona tapşırmağın və özünü sarayın qapısından uzaq salmağın doğru fikir deyildir.

Eyni zamanda, ehtiyat edirdilər ki, birdən, Mürşüdqulu xan Yəzddən, Kirmandan və Şirazdan onun yanına göndərilmiş və özlərini Abbas tərəfdarları elan etmiş əfşar və zülqədər qoşunlarının köməyi ilə Yəzd yolundan İsfahana gələr. Buna görə də həmin yerdə [İsfahanda] qalmağı daha önəmli və vacib saydılar. Bir neçə gün bu fikir və əndişə ilə yaşadılar. Lakin əzəli [Allahın] iradəsində əla-həzrət Şah [Abbasın] səltənəti və padşahlığı qərar tutduğundan onların heç bir tədbiri özləri üçün yaxşı nəticə vermədi. Bir neçə gündən sonra dünyanı tutan [Şah Abbas] məiyyətinin avazı Damğan yolundan yayıldıqda [Əbu-Talib mirzə tərəfdarlarının] rəyləri darüssəltənə Qəzvinə getməyi qərara aldı. Onlar özlərindən üz çevirmiş bəxt ucbatından öz cəfa və zülm əllərini uzadıb, İsfahanın əksər əhalisini və böyüklərini tutaraq, onların mal-dövlətlərini qəsb və müsadirə etdilər. Şəhər və məmləkət nizamdan və qayda-qanundan uzaq düşdü. Xalq üçün bir pənah peyda olmadı. Xülasə, İsfahanı xaraba günə qoyandan sonra Heydər sultan Çabuqun oğlu İbrahim xan Türkmanı oranın daruğası təyin edib, hərəkət yüyənlərini səltənətin mərkəzinə sarı döndərdilər. Qum hakimi Əliqulu sultan Zülqədəri qabaqcadan göndərdilər ki, Quma gedib, öz qoşununu tərtib etsin və hansı yerə qərarlaşdırılarsa, oraya gəlib, hazır olsun. İlahinin təqdiri və Şah [Abbasın] hakimiyyətinin zühurunun əlaməti üzündən, Əbu-Talib mirzə tərəfdarlarının əsas dayağı və səltənət işlərinin başçısı olan Məhəmmədi Sarısolağ gözlənilmədən xəstələndi və onun nasazlığı səbəbindən on gün müddətində İsfahanın Cəzbərxəvar [adlı yerində] qalmalı oldular. O əsnada əla-həzrət [Abbasın] və Mürşüdqulu xanın Xəvar və Simnan yolundan gəlməsi xəbəri dəqiqləşdi. [Əbu-Talib mirzə tərəfdarlarının] ordusu köç edib, Vəlican xanın yağı olması səbəbindən Kaşan yolundan getməkdən çəkinərək, Cərbədqan yolundan hərəkət etməyi üstün tutdu.

## XORASANIN VƏZİYYƏTİ, ALLAHIN KÖLGƏSİ OLAN ŞAHIN SƏADƏTLİ MƏİYYƏTİNİN İRAQA GETMƏSİ VƏ ONUN İRAN SƏLTƏNƏTİNİN TAXTI ÜZƏRİNDƏ ƏYLƏŞMƏSİ HAQQINDA

Bundan öncə bəyan qələmi ilə yazılmışdı ki, Herat hakimi Əliqulu xan Şamlu ilə müqəddəs Məşhədin hakimi Mürşüdqulu xan arasında Herat qoşununun məğlubiyyəti ilə nəticələnən döyüşün baş verdiyi ildə Allahın kölgəsi olan əlahəzrət şah azyaşlı idi və Əliqulu xan o səadət bağçasının sərvinə lələlik və xidmətkarlıq etmək xoşbəxtliyinə malik idi. Həmin döyüşdə o, qeyb aləminin işgörənlərinin və nəticəsi tezliklə zühura gəlmiş gizli sirlərin köməyi ilə Mürşüdqulu xanın əlinə keçmiş və Əliqulu xan məğlub və pərişan bir halda Herata gəlmişdi. [Əliqulu xan] belə bir sərmayəni əldən verdiyinə, bundan əlavə, Mürşüdqulu xandan tamam xoflandığına və İraqdan özünə bir yardım gəlməsini təsəvvür etmədiyinə görə çıxılmaz vəziyyətə düşərək, özünə bir köməkçi və yardımçı qazanmaq ümidi ilə bir nəfəri Qəndəhar mirzələrinin, bir nəfər digərini isə Buxaraya, Abdulla xan Özbəyin yanına göndərib, onlarla dostluq münasibəti qurdu, onlara sığındı və böyük təvazökarlıqlar göstərərək, özünün onlardan hər birinin vassalı olduğunu bildirdi. Abdulla xan da bu hadisəni böyük bir uğur saydı və onun tərəfindən də zahiri lütfkarlıqlar meydana gəldi. Lakin mirzələr onun itaətkarlığına məhəl qoymadılar.

Amma bu dostluqdan Abdulla xanın tamahkarlıq qüvvəti hərəkətə gəldi və arzusu ilə gecələrini gündüz etdiyi Herat mülkünü işğal etmək həvəsi onun xatirində daha da çoxaldı. O, Xorasan tərəfə hərəkət etməyə qərar verdi və Xorasan yürüşünə hazırlıqlar görməyə başladı. Nəhayət, 995-ci ilə (12.12.1586 - 01.12.1587)[1089] müvafiq olan tonquz ilinin əvvəllərində[1090] o, qeyri-məhdud özbək ordusu ilə Xorasana gəldi. O, əvvəlcə Əliqulu xanın yanına adam göndərib, bunları bildirdi: «Sən bundan əvvəl, ərizə göndərib, mənimlə ülfət və aşnalıq etdiyini bildirmişdin və dostcasına təvazökarlıqlar və itaətkarcasına iltifatlar etmişdin. İndi biz Xorasan mülkünü ələ keçirmək üçün səylərimizi sərf edirik və ali məiyyətimiz o tərəfə irəliləməkdədir. Əgər sən öz sözünə sadiq olub, tərəddüd etmədən ali məiyyətə qoşularaq, təzim etmək səadətinə nail olsan və o mülkdə mənim adıma xütbə və sikkə zinətləndirsən, onda bizim tərəfimizdən hüsn-rəğbət və lütfkarlıq hədəfinə çevriləcəksən və o vilayətin hakimliyi əvvəlki qaydada sənə tapşırılacaqdır. Əgər sən o vilayəti bizim ali divanımızın öhdəsinə versən, o zaman Mavəraünnəhrin, Türküstanın və Bədəxşanın məmləkətlərindən hansı birini istəyərsənsə, sənin ixtiyarına veriləcəkdir. Yox, əgər sən öz sözünə sadiq olmasan və bizə mülazimlik etmək sənin xoşuna gəlməsə, onda bunu bil ki, biz o səmtə hərəkətə başladığımıza görə məqsədə yetmədən geri qayıtmağımız səltənət namusumuza müvafiq deyildir və Herat şəhərini tərk edib, Qızılbaş tərəfə get!».

[1089] Tehran çapında (s.363) səhvən 996-cı il yazılmışdır.
[1090] Tonquz ilinin əvvəlləri 1587-ci ilin yazına təsadüf edir.

Əliqulu xan bu halın baş verməsindən narahat olub, zərurət və çıxılmazlaq üzündən Abdulla xanla öz arasında yaratdığı dostluq münasibətindən peşman oldu. O, qızılbaş tayfasının özbəklərlə qaynayıb-qarışmasının mümkün olmadığını başa düşürdü, İranın böyük şəhərlərindən olan, cənnət bağının həsəd apardığı Heratın hökumətindən əlini üzə bilmirdi və İraq əhlinə də etimadı yox idi. Buna görə də o, zərurət üzündən ilahi qəzavü-qədərə boyun əyib, mühasirədə oturaraq, qalanı müdafiə etmək işinə könül verdi və bu işə hazırlıq görməklə məşğul oldu. Abdulla xan onun itaət və tabeçiliyindən ümidini üzüb, son dərəcə şiddət və hiddətlə Herata çataraq, mühasirəyə başladı. Hər gün tərəflər arasında döyüş və çarpışma baş verirdi. Bu əhvalatın şərhi və bu mövzunun bəyanı ikinci clddə uğurlu bəxtin icazəsi ilə yazılacaqdır.

Mürşüdqulu xan müqəddəs və ulu Məşhəddə bu əhvalatdan agah oldu. Xorasan qoşununun Abdulla xana müqavimət göstərmək qüvvəsi yox idi. Artıq qeyd olunduğu kimi, Mürşüdqulu xan [günahları] bağışlanmış şahzadə Sultan Həmzə mirzənin faciəvi hadisəsi İraqda baş verdikdən sonra İraqa adam göndərmişdi ki, İsgəndər şanlı nəvvabın əmirlərinin və dövlət ərkanının fikrini öyrənsin və əgər onlar əlahəzrət [Abbasın] səltənət və vəliəhdliyinə razı olsalar, müxaliflik və dikbaşlığı uzlaşma və ittifaqla əvəz etsələr, onda İraqa üz tutub, İraq qoşunu ilə birlikdə din və dövlət düşmənlərini dəf etmək üçün comərdlik kəmərini bağlasın. Lakin onun göndərdiyi adam qayıdıb, müddəanın əksinə olan bir cavab gətirdi.

Amma Mürtəzaqulu xan Pornak İraqdan qayıdıb Damğana çatdıqdan sonra öz qardaşı Kazımqulu sultanı Bistam ağa və Məhəmməd xan Türkmanın oğlu Bəktaş bəylə birlikdə müqəddəs və ulu Məşhədə, Mürşüdqulu xanın yanına göndərərək, ittifaq və yekdillik izhar etmiş və onu İraq səmtinə hərəkət etməyə rəğbətləndirmişdi. [Yuxarıda] qeyd olunduğu kimi, Farsdan, Kirmandan və Yəzddən də dalbadal və ardıcıl olaraq [Mürşüdqulu xanın yanına] adamlar gəlib, itaət və tabeçilik izhar edirdilər. Mürşüdqulu xan aqil və işini bilən adam idi. O, türkmanların ustaclulara qarşı olan inadkarlığı səbəbindən Mürtəzaqulu xana bir o qədər də etimad etmirdi və öz hakimiyyəti üçün sərmayə hesab etdiyi əlahəzrət [Abbası] iki-üç min türkman ailəsi arasına aparmaq istəmirdi. O, Damğan yolu ilə getmək barədə tərəddüd edirdi və yanındakı az qüvvə ilə İraqa gəlməyə cürət etmirdi. Lakin eyni zamanda, Abdulla xanın hücum və basqınının qorxusundan o dövlət və səadət bağçasının çəməninin bəzəyini müqəddəs Məşhəddə saxlamağı da məsləhət bilmirdi və öz gecələrini bu fikir və əndişələr içində başa vururdu. Nəhayət, o, əfşar və zülqədər əmirlərinin Yəzddən, Kirmandan və Şirazdan dalbadal elçilər göndərib tabeçiliklərini bildirdiklərini nəzərə alaraq qərar verdi ki, Allahın kölgəsi olan əlahəzrət şahın səadətli məiyyətində Təbəs və Yəzd yolu ilə hərəkət etsin, həmin camaatı özünə qoşub böyük qüvvə ilə İraq vilayətinə qədəm qoysun və Mürtəzaqulu xan da türkman tayfası ilə birlikdə Damğandan Kaşana yollanıb, Vəlican xanı da özünə birlişdirərək, İraqda səadətli məiyyətə qatılsın.

[Mürşüdqulu xan] öz qardaşı İbrahim xanı müqəddəs və ulu Məşhədin hökumətinə təyin etdi, İsfərayin hakimi Əbu-Müslüm[1091] xan Çavuşlunu, Cam hakimi Məhəmməd xan Ayğut sultan oğlu Çavuşlunu və Xəbuşan hakimi Budaq xan Çəkənini onun yanında qoydu və özü, guya, özbək ordusunu dəf etmək üçün Herata getdiyi barədə şayiə yayaraq, əslində isə İraqa tərəf hərəkət etmək məqsədi ilə üfüqlər xosrovu [Abbasın] ali məiyyətində müqəddəs Məşhəddən çıxdı. Elə ki Turşiz ətrafına çatdılar, bəzi xəbərlərin gəlib çıxması üzündən əvvəlki iradəni dəyişmək lazım gəldi və Damğanla Simnan tərəfdən İraqa yollanmaq önəmli və vacib oldu.

Gələn xəbərlərdən birincisi bu idi ki, Mürtəzaqulu xan Damğanda ömrünü başa vuraraq, dünya məkanından axirət sarayına köçmüşdü. Onun vəfatından sonra Mürşüdqulu xanın türkman tayfasından qorxusu və ustaclu camaatının Damğan yolundan getmək barədə tərəddüd və ehtiyatı aradan qalxdı. Digər xəbər o idi ki, İraq əmirlərinin İsgəndər şanlı nəvvabın və Əbu-Talib mirzənin məiyyətində İsfahana gəldikləri və oradan da Fars, Kirman və Yəzdin işlərini intizama salmağa gələcəkləri aydın olmuşdu. Belə olan təqdirdə çox güman ki, əfşar və zülqədər əmirləri onlardan qorxub əndişə edərək, [Abbasın] ali məiyyətinə qoşulmayacaqlar və işlər [Mürşüdqulu xanın] xatirinin mərkəzində tutduğu və ürəyində qərarlaşdırdığı tərzdə baş tutmayacaqdır. Lakin, eyni zamanda böyük xilafət mərkəzi olan darüssəltənə Qəzvin boş qalmışdı və İraq əhlindən, xüsusən də dövlət paytaxtının mühafizəsi ilə məşğul olan şamlulardan Aşur ağaya dövlətsevərlik izhar edilmiş və onlar sədaqət dili ilə [Mürşüdqulu xana] sifariş göndərmişdilər: «İraqa (İraqi-Əcəmə) gəlmək barədə tələsin! Çəkinmədən və tərəddüd etmədən bu səmtə doğru üz tutun ki, Allah-taalanın köməyi ilə arzuladığımız hadisə baş versin». Bunlardan əlavə, Əbu-Talib mirzə tərəfdarları zümrəsindən və Əliqulu xan Fəthoğlunun etimadlı və sadiq yetirmələrindən olan Simnan hakimi Şahverdi sultan Təbətoğlu Zülqədər ölmüşdü.

Dövlətin yüksəliş və üstünlük qazanmasına səbəb olan [yuxarıda] xatırlanmış əhvalatların baş verməsi üzündən Damğandan keçməklə İraqa hərəkət etmək fikri hamının xatirində möhkəmləndi. Şah [Abbasın] tərəfdarları bu layiqli hərəkata qərar verdilər və cah-cəlalla dayandıqları yerdən köç edərək, müqəddəs Məşhədə qayıtdılar. Bir neçə gün qalanın təmirinə, bürc və hasarların istehkam olunmasına vaxt sərf edərək, Məşhəd qalasının zəruri işlərindən xatircəm olub, İbrahim xanla, dmirterlə[1092] və canından keçən mülazimlərdən və sədaqət şüarlı fədakarlardan beş yüz-altı yüz nəfərlə birlikdə cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) - ona və əcdadlarına Allahın salamı olsun - müqəddəs rövzəsindən və pak ruhundan kömək diləyib, ilahi lütfkarlığın qüvvəsi ilə səadət və xoşbəxtliyi bərqərar etmək üçün müqəddəs və ulu Məşhəddən çıxdılar və sürətlə

---

[1091] S-129, v.300a. Tehran çapında (s.364) Əbu-Sələm yazılmışdır. Əslində isə, Bakı nüsxəsində qeyd olunduğu kimi, Əbu-Müslüm olmalıdır (bax: F.Sümer. Safevi devletinin kuruluşu, s.163).

[1092] S-129, v.300b; S-297, v.238a.

hərəkət edərək, heç bir mərhələ və məkanda dayanmadılar. Damğana çatdıqda Mürtəzaqulu xanın qardaşları, oğulları və orada olan türkman əyanları bellərinə xidmətkarlıq kəməri bağlayaraq, Şah [Abbasın] məiyyətinə qoşuldular. Oradan Simnan zülqədərlərinin yanına adam göndərib, əvvəllər Şahverdi sultan Təbətoğlunun vəkili olmuş, onun ölümündən sonra isə ağsaqqalların məsləhəti və Əliqulu xan Fəthoğlunun razılığı ilə [Simnanın] hakimi olmuş Əhməd sultanı itaət və tabeçiliyə dəvət etdilər. Sözügedən şəxs onlarla anlaşmağı məsləhət görüb, öz etimadlı adamlarını səadətli məiyyəti qarşılamağa göndərdi və Simnan qalasının qapılarının bəxt və müvəffəqiyyət kimi qüdrətli dövlətin başçılarının üzünə açaraq, tərtibə salınmış qoşunu ilə [Abbasa] mülazimlik etmək şərəfinə nail olub, şahanə şəfqət və iltifat nəzərlərinə tuş gəldi. Oradan darüssəltənə Qəzvinə adam göndərib, Qorxmaz xan Şamlunu, şəhərin əhalisini və əyanlarını müzəffər məiyyəti qarşılamağa dəvət etdilər. Qorxmaz xan İsmayılqulu xanın qardaşlarını, şamlu ağalarını, darüssəltənə Qəzvində olan tayfa böyüklərini, məsələn, Çərəndab sultanın oğlu Abbasəli sultanı və adı çəkilən şəhərin əyanlarını və əhalisini yığıb, itaət göstərmək, yoxsa müxalif çıxmaq barədə onlarla məşvərət apardı. İsmayılqulu xanın qardaşları, Vəli xəlifənin tabeçiləri və övladları itaət göstərməklə və tabe olmaqla razılaşmadılar. Amma hərbçilərdən və rəiyyətdən olan sadə adamlar hücum çəkib, Şah [Abbasın] mübarək qədəmlərinin müjdəsindən hədsiz sevinc və şadlıq izhar edərək, Abbas tərəfdarı olmaq şüarını əldə rəhbər tutdular.

Xülasə, axırda hamısı tabeçilik məqamına gələrək, müxaliflik qapılarını bağladılar və tale yolgöstərəninin dəlaləti və yönləndirməsi ilə çox-çox adamlar ali məiyyəti qarşılamağa tələsdilər. Əliqulu xanın qardaşı Hüseynqulu sultan Fəthoğlu öz qardaşı tərəfindən Reydə hakimlik edirdi və o, müqəddəs məiyyətin gəlişi və xalqın onu qarşılamaq üçün hücum çəkməsi xəbərini eşidərək, müqayisəyəgəlməz dərəcədə xof və qorxuya bürünüb, Reydə qalmağa macal tapmadı. O, özünün əksər yüklərini və əşyalarını atıb, aradan çıxaraq, öz qohumları olan qıclu[1093] camaatının nəzarətində olan Təhmasib mirzənin saxlanıldığı Ələmut qalasına getdi. [Abbasın] ali məiyəti ilə birlikdə olmaq səadətinə malik olmuş qüdrətli səltənətin tərəfdarları əlahəzrətin müqəddəs üzəngisinin həndəvərində maneəsiz və münaqişəsiz şəkildə darüssəltənə Qəzvinin yolunu tutdular və [Abbas] uğurlu bir saatda şəhərə daxil olub, öz yüksək dərəcəli babasının mübarək dövlətxanasına xoşbəxtcəsinə qədəm qoydu. Səltənət və padşahlıq mərkəzi şahənşahlıq taxtının bəzəyinin mübarək qədəmlərinin işıqlığından günəş kimi parladı və xalqın hal dili bu məqamda belə dedi:

**Şeir**

«Ey kama yetmiş şah, dövran uyğundur sənin kamına,

[1093] S-129, v.301a; S-297, v.238b. Tehran çapında (s.365) Fəthlü yazılmışdır.

Fələk taxtının sultanı çevrilibdir qulamına.
Ad-sanlı şahlar taxtında səadət ilə əyləş ki,
Bu zaman dövlət sikkəsi vurulub sənin namına».

Sözün qısası, dövlət paytaxtına yüksək məqamlı həzrətin səadət saçan şərəfli qədəmlərinin dəyməsi ilə, xələlə uğramış saray yenidən zinətləndi. Mürşüdqulu xan ali divanın vəkilliyini təkbaşına surətdə öz öhdəsinə götürdü. Dövlət ərazisinin müxtəlif tərəflərindən və səmtlərindən qızılbaş tayfalarının əmirləri və ağsaqqalları cahanın pənahı olan dərgaha gələrək, mübarək qədəmlərin gəlişini təbrik etdilər. Kaşandan Vəlican xan sürətlə hərəkət edərək, Rey yolundan Qəzvinə gəlib, [Şah Abbasın] ayağını öpmək şərəfinə nail oldu.

Mürşüdqulu xan Əbu-Talib mirzənin əmirlərindən və xanlarından çəkinirdi, bir an da olsun onların işinin fikrini çəkmək və tədbirini tökməkdən rahat olmurdu və ehtiyatlı tərpənməyə riayət edirdi. O, ümumən türkman əmirlərini Pirqeyb xan Ustaclu və qardaşları ilə birlikdə göndərdi ki, şəhərin kənarında, İsfahan yolunun üstündə yerləşən Pirəsufiyan kəndində dayanıb, o yoldan xəbərdar olsunlar.

Amma Əliqulu xan, İsmayılqulu xan və Əbu-Talib mirzənin tərəfdarları olan digər böyük əmirlər İsgəndər şanlı nəvvabın və [Əbu-Talib] mirzə cənablarının məiyyətində Cərbədqandan keçib, darülmöminin Qumun ətrafına çatdılar. Bu zaman Allahın kölgəsi olan əlahəzrət şahın səadətli məiyyətinin gəlişi xəbəri onlara yetdi. O camaatın əhvalına tamam sarsıntı yol tapdı. Onlar Qum hakimi Əliqulu sultan Zülqədəri çağırmaq üçün adam göndərdilər. Lakin o, gəlməkdən boyun qaçırdı, qala qapılarını bağladı və müxaliflik nümunələri göstərdi. Əliqulu xan heç vaxt onun bu cür hərəkət edəcəyini təsəvvür etməmişdi və onu öz fədailəri sırasından saymışdı. Əliqulu xan bu hadisəni olduqca qeyri-mümkün sayıb, İsmayılqulu xan və əmirlərlə ittifaqda Məsumə xanımın[1094] - ona və əcdadına salavat və xeyir-dua olsun - nurlu məzarını ziyarət etmək bəhanəsi ilə ordudan ayrılıb, Quma gəldilər və yaxşı nitq qabiliyyətinə malik bir adamı göndərdilər ki, şirin dillə onu onlarla müttəfiq olmağa rəğbətləndirərək, qaladan bayıra çıxarsın. Onlar həmin şəxs vasitəsilə ona belə bir xəbər göndərmişdilər: «Biz sənin qonağın olmağa gəlmişik. Sən də öz mülazimlik şərtini yerinə yetir! Bəzi zəruri sözlər var ki, onları üzbəüz danışmaq lazımdır». Adı çəkilən (Əliqulu sultan Zülqədər) cavab göndərdi: «Qoruqlu tayfası mənim gəlməyimə mane olur. Onların başlarında Abbas tərəfdarlığının havası vardır və mənim əlimdə ixtiyar yoxdur».

Əmirlər onun müttəfiqliyindən ümidlərini üzüb, müqəddəs astananı təvaf etdikdən sonra orduya qayıtdılar. O vaxtadək onların beynində o qədər lovğalıq və qürur yer tutmuşdu ki, öz mətləblərinə zidd gələn hadisənin baş verəcəyini əsla düşünmürdülər. Mürşüdqulu xanın və Xorasan camaatının onların nəzərində çox da

[1094] Məsumə xanım - şiələrin yeddinci imamı Musa əl-Kazimin qızıdır və məqbərəsi İranın Qum şəhərindədir.

əhəmiyyəti yox idi. Lakin həmin gün onlar qəflət yuxusundan bir qədər oyandılar, lovğalıq, qürur badəsindən ayıldılar və öz işlərinin fikrinə düşdülər. Onlar Qum ətrafından Savəyə çatdıqda hamısının Qəzvində ailəsi və köçü olan əsgərlər və ordu əhlinin ortabab adamları rüxsətsiz çıxıb getməyə başladılar. Böyük xanlar İsmayılqulu xanın qardaşı Mürşüdqulu xan Şamlunu təyin etdilər ki, öz qoşunu ilə yolun üstündə durub, rüxsətsiz olaraq şəhər səmtinə gedən hər kəsi qətl və qarət etsin. Bu əngəl adamların [Abbasa] rəğbətinin artmasına səbəb oldu və onlar gecələr öz yüklərini və əşyalarını atıb, qeyri-ənənəvi yolla çıxıb getməyə başladılar. İş o yerə çatdı ki, Mürşüdqulu sultan onların qabağını almağa aciz qaldı və qızılbaş əyanları işin üstündən pərdəni götürüb, əmirlərə bildirdilər:

- Böyük qorçuların, xasseyi-şərifə mülazimlərinin və başqalarının əksəriyyətinin ailələri və köçləri darüssəltənə Qəzvindədir. Əgər bu iki dəstə arasında müxaliflik üz versə, iş gedib qətllərə və döyüşə çıxacaqdır. Belə olan təqdirdə çox güman ki, Mürşüdqulu xan və onun tabeçiləri bizim ordumuzun adamlarının ailələrinə və köçlərinə qarşı təcavüz əlləri uzadacaqlar. Camaat məhz bu narahatçılığın aradan qaldırılması üçün Qəzvinə getməkdə səbirsizlik göstərir.

Əmirlər bu iki dəstə arasında müharibə və mücadilənin baş verməsinin əksər qızılbaşların təbiətinə xoş gəlmədiyini bildikdə hər an başqa bir fikrə, hər dəm başqa bir əndişəyə düşməyə başladılar. Bununla yanaşı, Əliqulu xan İsmayılqulu xanın yekdilliyindən və sadiqliyindən əmin deyildi və onlar bir-biriləri ilə razılıq, ittifaq və dostluq əsasında danışmırdılar. Hansı tədbiri ki Əliqulu xan məsləhət bilirdi, İsmayılqulu xan onu doğru saymırdı. Əliqulu xanın müddəası belə idi:

- Qızılbaşlar arasında qarışıqlığın baş qaldırdığı və əksər adamların Qəzvinə üz tutduqları bir halda biz bu qətiyyətsizlik və pərakəndəliklə əlahəzrət Şah [Abbasın] mənsubları olan xorasanlılara qarşı müqavimət göstərə bilmərik. Gəlin, öz padşah və padşahzadəmizlə birlikdə bizim yanımızda olmaq istəyən hər kəsi özümüzlə götürüb, Savədən Həmədana gedək və orada qalaq. Bizim Həmədanda olduğumuza görə İraq camaatının əksəri öz aqibətini düşünərək, Qəzvinə getməkdən çəkinəcəklər. Belə xəbər yayılacaq ki, Xorasandan gələnlər əliboş və pərişan haldadırlar. Biz isə xəzinələri və sərvətləri yanımızda saxlayırıq. Dünyəvi var-dövlətdə gözləri olan hərbçilər get-gedə onlardan məyus olub, bizim başımıza toplaşacaqlar. Bir neçə gün ərzində öz halımızı qoruyaq və «gör ki, bu hamilə gecədən nə doğacaqdır» [kəlamına] uyğun surətdə özümüzü bir guşəyə çəkərək gözləyib görək ki, qeyb pərdəsi arxasından hansı surət üz verəcəkdir.

Lakin İsmayılqulu xan bu məsləhəti rədd edib dedi:

- Bu gün bu orduda olanların hamısının ailəsi və köçü Qəzvindədir və onlar, təbii olaraq, oraya getməyə və öz əhlü-əyallarının başının üstündə durmağa meyil edirlər. Əgər biz Həmədan tərəfə köç etsək, onda bu hadisə bizim məğlubiyyətimizin əlamətlərinin bir növü olacaqdır və çox güman ki, hal-hazırda bizə yoldaş olan camaat bizdən ayrılaraq, bəzi işlər görməyə cəsarətlənəcəklər və

ətrafımızda bir kəs qalmayacaqdır. Elə olan təqdirdə biz tamamilə zay və məhv olarıq. Bizim üçün ən vacibi budur ki, Qəzvin tərəfə gedək. Mürşüdqulu xanın çox adamı yoxdur və eşitmişəm ki, o camaat könülsüz və məcburən ona tabe olubdur. Əgər o, bizim razılığımıza uyğun hərəkət etsə, lap yaxşı; əks təqdirdə isə bizim qüvvətimiz və qüdrətimiz ondan çoxdur və İraq qoşunu xorasanlılardan artıqdır. Onu aradan qaldırarıq və ali səviyyəli şahzadələrdən hansı birini istəsək, səltənət və vəliəhdliyə təyin edərik.

Əliqulu xan heç vəchlə buna razı olmadı və dedi:

- Əgər Qəzvinə gedib öz ixtiyar yüyənimizi Mürşüdqulu xanın əlinə versək, o, elə həmin gün bizi aradan qaldırar və bu işi digər günə saxlamaz. Zəruri tədbir və ehtiyat bundan ibarətdir ki, biz ondan uzaq olaq və bir neçə günü nümayəndə göndərmək və öyüd verməklə keçirək. Nəhayət, görək ki, oyunbaz fələk nə şəbədə çıxaracaqdır.

Xülasə, onlar tədbirin kələfinin ucunu əldən vermişdilər və eyni zamanda bir-biriləri ilə yekdil və həmrəy deyildilər. Onların vəziyyətinin sarsılması hər kəsə aydın oldu. [Sıravi] əsgərlərin və [ordudakı] ortabab adamların fərar etməsi yəqinlik sahiblərinə sirayət etdi. Hər gecə qızılbaş əyanlarından getməyə imkan tapan bir dəstə fərar edirdi və onlar səy göstərirdilər ki, əşrəfin (Şah Abbasın) mülazimi olmaq məsələsində bir-birilərindən qabağa düşsünlər.

Xülasə, əmirlər Qəzvinə getməkdən savayı, digər bir fikrə gələ bilmədiklərindən qərar verdilər ki, qızılbaş tayfalarının orduda olan bütün əmirləri, yüzbaşıları, əyanları və hər oymağın mötəbərləri Əliqulu xan Fəthoğlu, İsmayılqulu xan Şamlu, Şahverdi xəlifə İnallu Şamlu, möhürdar Əsləməs xan Zülqədər, Ədhəm xan Türkman, Şahqulu xüləfa Rumlu, Seyid bəy Kəmunə, İsmayıl sultan Alplu Əfşar, Şiraz hakimi olan Şahəlı xəlifə Zülqədər, Həmzə xəlifənin oğlu Mehdiqulu sultan Talış və s. ustaclu, şamlu və bayat əmirləri və İsgəndər şanlı nəvvabın anası Sultanımın qohumları olan mosullu türkman əmirzadələri və digərləri başda olmaqla bir yerə toplaşıb əhd və şərt kəssinlər ki, hamısı bir-biriləri ilə dost və yekdil olacaqlar, bir-birilərinin sözündən və məsləhətindən çıxmayacaqlar, öz iradələri və ya digər birisinin təhriki ilə bir-birlərinin qəsdinə durmayacaqlar və əgər kimsə onlardan birini aradan qaldırmaq istəyərsə, onların hamısı ittifaq edərək, o kəsin dəf edilməsi ilə məşğul olsunlar.

Bütün qızılbaş əmirləri, yüzbaşıları və mötəbərləri vəzir Mirzə Məhəmmədin evində cəmləşib, ortaya əzəmətli «Quran» kitabını gətirdilər və qeyd olunmuş tərzdə öz aralarında Allah kəlamına and içdilər. Lakin hələ Qəzvinə getmək məsələsi xatirlərdə tam qətiləşməzdən öncə Əliqulu xanın tabeçiliyində olan əmirlər sırasından onun etimadını və himayədarlığını qazanmış Mehdiqulu sultan Talış və Allahqulu sultan Kəngərlü[1095] fərar edərək, rüxsətsiz surətdə çıxıb getdilər və ustaclu tayfasının əksəri fərar yolunu tutdu. Belə ki, Əliqulu xan az

[1095] S-129, v.303a. Tehran çapında (s.368): Allahqulu sultan Talış Kəngərlü.

adamla qaldı. Amma şamlu tayfası sabitqədəmlik edərək, İsmayılqulu xanın başından pərakəndə olmadılar. Bu [sonuncu] şəxsin yardımçıları və köməkçiləri daha çox olduğundan [Əliqulu] xan onun məsləhətindən çıxa bilmədi. O zaman Mürşüdqulu xan [İsmayılqulu xana] belə bir xəbər göndərmişdi: «Əziz cənabınıza bəllidir ki, şamlu və ustaclu tayfaları arasındakı ittifaq qədimdir və onlar həmişə hadisələr və əhvalatlar zamanı bir-biriləri ilə müttəfiq olublar, heç vaxt onların arasında ayrılıq olmayıbdır. Zəruridir ki, bu dövlətdə şamlu əmirlərinin böyüklərindən və o tayfanın ağsaqqallarından biri dövlətin əsas dayaqlarından biri olsun. Bu gün şamlu tayfası içərisində bu işə layiq olan bir şəxs Durmuş xanın nəvəsi, Herat hakimi Əliqulu xandır, digər birisi isə sizin əziz cənabınızdır. Adını çəkdiyim birinci şəxsin (Əliqulu xan Şamlunun) həm bizimlə, həm də sizinlə ədavəti hamıya məlumdur. Məsəl var, deyərlər ki, düşmənin düşməni dost olar. Ona görə də zərurət üzündən sizin əziz cənabınızla bizim məhəbbət və dostluqdan savayı çarəmiz yoxdur. Mənimlə bir oymaqdan olan Əliqulu xan Fəthoğlu vəkillik və ağsaqqallıq məsələləri səbəbindən gəlməkdə tərəddüd edir və narahatçılıq çəkir. Bəs, sizin əziz cənabınız nə üçün gəlməkdən imtina edir?».

Xülasə, [Mürşüdqulu xan] vaxtın məsləhətinə uyğun gələn çeşidli şirin sözlər bildirdi. Baxmayaraq ki, o, bu parlaq kəlmələri səmimiyyətlə demirdi, amma onun dedikləri zahirən gerçəkliyə uyğun gəldiyindən İsmayılqulu xan bu doğru görünən yalanlara aldanıb, Qəzvinə getməkdən başqa bir söz söyləmirdi. Əliqulu xan bu mənanı anlayıb dedi:

- Mürşüdqulu xan mənimlə eyni oymaqdandır və mən onu səndən yaxşı tanıyıram. Onun mülayimliyinə və məsləhətamiz sözlərinə əsla bir etimad yoxdur. Əgər əlinə imkan düşsə, məni və səni bir gün də olsun sağ buraxmaz. Şamlular arasında iddia sahibi çoxdur. O, səni deyil, elə başqa birisini qabağa çəkəcək ki, öz yetişdirməsi olmuş olsun və səni məndən əvvəl aradan götürəcəkdir. Gərək biz öz vəziyyətimizə dair ayrı bir tədbir fikirləşək.

Lakin onun bu çıxışının bir faydası olmadı. Sözün qısası, əla-həzrət [Abbasın] dövlət büsatını bəzəyən qeyb aləminin tərtibçiləri onların bəsirət gözləri qarşısında tədbir yolunu bağlı saxlayırdılar və onlar heyrət çölündə və sərgərdanlıq səhrasında qalmışdılar. Tale yolgöstərəni o camaatın ixtiyar yüyənini onların mətləbinə müxalif olan və ali şərəfli [Abbasın] asiman təməlli dövlətinin başçılarının məqsədinin hasil olunmasına imkan verən bir yola dəlalət etdi. Buna görə də İsmayılqulu xan ixtiyarsız şəkildə getmək qərarına gəlib, başqa bir çıxış yoluna razı olmurdu. Çoxlu qilü-qaldan sonra qərara alındı ki, hər kəs öz etimadlı adamlarından zəka sahibi və təcrübəli birisini Qəzvinə göndərsin ki, orada o, əşrəfə səcdə etmək şərəfinə nail olub, Mürşüdqulu xanla görüşərək bildirsin ki, əmirlər və xanlar əbədi dövlətin sabitliyi naminə öz mətləblərindən vaz keçib, bu iki dəstə arasında çəkişmə və vuruşmaya imkan verməməyi qərara alıblar və xeyirxahların razılıq və məsləhətindən kənar deyillər. Göndərilən adamlar, həmçinin o camaatın (Abbas tərəfdarlarının) vəziyyətini öz bəsirət gözləri ilə müşahidə edərək, onların

xatirindəki gizli niyyətləri fəhm edib, geri qayıtmalı idilər ki, [İsmayılqulu xanla Əliqulu xan] oranın vəziyyəti haqqında məlumat alandan sonra ona uyğun şəkildə hərəkət etsinlər. Əhməd bəy Əliqulu xan tərəfindən və Məhəmməd bəy Bəydili Şamlu İsmayılqulu xan tərəfindən[1096] Qəzvinə getməyə məmur edildilər ki, gedib Mürşüdqulu xanla görüşsünlər, o, onların hər biri ilə ağıl və təcrübə əsasında söhbət edib, hər ikisini çeşidli mülayimlik. təvazökarlıq və şirindilliklə arxayın salıb, geri qaytarsın və onlar gördüklərini və eşitdiklərini gəlib danışsınlar.

Xülasə, istər-istəməz Qəzvinə getmək məsələsi xatirlərdə qətiləşdi. Savədən köç etdilər. Elə ki Xüşkruda çatdılar, Qəzvin tərəfdən Mir Seyid Hüseyn Müctəhid, Abbasəli sultan Şamlu və ustaclu ağsaqqallarından olan Əhməd bəy Eşikağası elçi sifəti ilə gəlib, böyük xanlara Mürşüdqulu xan tərəfindən göndərilmiş məktubu çatdırdılar. Göndərişin xülasəsi belə idi: «İndiyəcən fələyin zərurətindən qızılbaş tayfaları arasında ikitirəlik baş qaldırıbdır, tərəflər arasında müxtəlif çaxnaşma və fəsadlar üz veribdir. Bu vəziyyət din düşmənlərinin cəsarətlənməsinə bais olub, qızılbaşa məxsus olan məmləkətlərdən bir çoxusu Rumdan olan düşmənlərimizin ixtiyarına keçib və indi də Xorasan tərəfdən özbəklər fürsətdən yararlanaraq, o mülkü işğal etmək üçün qoşun çəkiblər. Hamıya məlumdur ki, bu ikitirəliyin mövcud olduğu qədərincə nə Xorasan qoşununun özbəklərə qarşı durmağa qüdrəti və qüvvəti vardır, nə də ki İraq qoşununun rumilərə qarşı müqavimət göstərməyə dözümü var. Əgər iki-üç il də bu minvalla davam etsə, onda dinə və dövlətə tamam nöqsan yol tapacaq. Abdulla xanın Xorasana gəldiyi bir vaxtda layiq bilmədik ki, bu gün İsgəndər şanlı nəvvabın böyük və yetkin oğlu və Qızılbaş dövlətinin ümidi olan, səadətli alnından günəş misallı cahandarlıq nurları parlayıb işıldayan bir padşahzadəni Xorasanda saxlayaraq, onu özbəklərin mühasirəsinə salaq və bu vilayət nişanəli xanədanın bizə verdiyi nemətin haqqını nəzərə alıb, o həzrəti bu tərəfə gətirdik. İttifaqdan, yekdillikdən, dinin və dövlətin qüvvətlənməsindən və düşmənlərin dəf olunmasından savayı, başqa bir məqsədimiz yoxdur. Böyük xanların zati-alilərindən və qüdrətli dövlətin ağsaqqallarından təmənnamız odur ki, tərslik və inadı tərk edib, bir-birimizlə müttəfiq olaq və dövlətə layiq nə olarsa, bir-birimizin məsləhəti ilə onu qarşıya məqsəd qoyaq».

[Mürşudqulu xan] öz göndərdiyi adamlara tapşırmışdı ki, əgər əmirlər və xanlar uzlaşma və ittifaq məsələsinə razı olsalar, onlara Mürşüdqulu xanla dost olacaqlarına və ona qarşı bir hiylə fikirləşməyəcəklərinə dair and içməyi təklif etsinlər. Təşrif gətirən xadimlər əvvəlcə Əliqulu xanın mənzilinə getdilər və İsmayılqulu xan və s. əmirlər və ağsaqqallar da onun mənzilinə toplaşıb, xadimlərlə görüşdülər. İsmayılqulu xan digərlərindən daha öncə razılıqla başını tərpədib, Mürşüdqulu xanın [Qəzvinə] gəlişini alqışladı. Aqil və zəkalı bir cavan olan Əliqulu xan bilirdi ki, özü və Mürşüdqulu xan hər ikisi eyni tayfadan - ustaclu tayfasındandırlar, hər ikisi padşah-nişandırlar və vəkilüssəltənədirlər. Onların bir

---

[1096] S-129, v.303b. Tehran çapında (s.368-369) və S-297 nüsxəsində (v.241a) həm Əliqulu xan, həm də İsmayılqulu xan tərəfindən göndərilən şəxslərin hər ikisinin adı Əhməd bəy kimi yazılıb.

evdə olması mümkün deyildir. Çünki hansı biri qüdrət taparsa, digərini sağ buraxmayacaqdır. Lakin onun başqa əlacı yox idi və İsmayılqulu xanın ona qarşı nifaqı da açıq-aydın idi. Bu səbəbdən o, tamam ikrah hissi ilə həmrəy oldu ki, onlar şəhərə gedib, Mürşüdqulu xana da and versinlər və bir-birilərinin məkr və xəyanət etməyəcəklərindən xatircəm olduqdan sonra şəhərə daxil olaraq, görüş səadətinin şərəfinə nail olsunlar və müxaliflik qapılarını bağlasınlar. Bu hadisənin baş verməsindən sonra əmirlər və xanlar [Mürşüdqulu xanın] göndərdiyi adamlarla birlikdə kütləvi surətdə İsgəndər şanlı nəvvabın hüzuruna getdilər. Abbasəli sultan və zəmanənin müctəhidi olan cənab (Mir Seyid Hüseyn) əlahəzrət (Abbas) tərəfindən onun yüksək dərəcəli atasına dua ərz etdilər, çoxlu şövq və arzular dilə gətirdilər və Mürşüdqulu xan tərəfindən vəziyyətə münasib olan sədaqət üslublu, dövlətsevərcəsinə sözlər ərz etdilər. Bu cür qətiyyətsizlik İsgəndər şanlı nəvvabın şərəfli xatirinə xoş gəlmirdi və artıq o, səltənətin böyük məşğuliyyətlərindən tamamilə təngə gəlmişdi. Bu üzdən o, möhtərəm oğlunun təşrif gətirməsinə görə sevinc və şadlıq izhar edib, Mürşüdqulu xana razılığını bildirdi.

Göndərilmiş cənab xadimlər işləri lazımınca həll edib yerinə yetirdilər və öz məramlarına nail olub qayıtdılar. Məhəmmədi bəy Sarısolağ onlarla birlikdə şəhərə getdi ki, Mürşüdqulu xanla görüşüb, ona and versin ki, Əliqulu xanla qardaşcasına rəftar edib, xəyanət və nifaq mövqeyi tutmayacaqdır. Eyni zamanda, ordu əhlinin hamısı öz adamlarını göndərərək, [Şah Abbasın] mübarək qədəmlərinin gəlişini təbrik etdilər. İraq qoşununun pozulması, həmin qoşundakı əmirlərin əhvalının sarsılması və onların bir-birləri ilə ittifaqsızlığı xəbərləri Mürşüdqulu xana məlum olduqda onun tərəflər arasında müharibə olacağı ilə bağlı qorxusu aradan qalxdı. Beləliklə, o, bu cür böyük bir işi Allahın kölgəsi olan əla-həzrət şahın xətərdən qorunan uğurlu bəxti sayəsində, təsəvvür etmədiyi bir asanlıqla həll etmiş və nizama salmış oldu. Amma o, yenə də narahat olurdu ki, birdən onlar kütləvi surətdə gəlib, görüş vaxtı bir xoyanət edərlər və gecə-gündüz bu fikirdə idi ki, onların cəmiyyətini bir-birilərindən ayrı salsın, əmirləri tək-tək şəhərə gətirsin, mümkün olduqca Əliqulu xan, İsmayılqulu xan və Məhəmmədi Sarısolağ cəm halda gəlib onunla görüşməsinlər və bacardığı yolla tezliklə onların aradan qaldırılması ilə məşğul olub, özünü onların vəlvələsindən xilas etsin. Zəmanənin müctəhidi olan cənab, Abbasəli sultan və Əhməd bəy Eşikağası qayıdıb İraq əmirlərinin əhvalı və Məhəmmədi Sarısolağın gəlişi barədə məlumat verdikdə Mürşüdqulu xan saatın uğursuz olduğunu bəhanə edib tapşırdı ki, Məhəmmədi bəy ox və kaman qorçusu («qorçi-yi tir ü kəman») Məhəmməd Şərif bəy Çavuşlunun evində qalsın və bildirdi ki, uğurlu bir saat olduqda onunla görüşəcəkdir. Əmirlərdən və vəzirlərdən hər birinin adına ali hökmdar [Şah Abbasın] möhürü ilə təsdiqlənmiş hökmlər yazılaraq, onların yolladıqları adamlar vasitəsilə göndərildi ki, bir-birləri ilə yoldaşlığa muğayat olmadan əşrəfin mülazimi olmaq şərəfini qazansınlar. Məhəmmədi bəy vəziyyəti müşahidə edib anladı ki, Mürşüdqulu xanla onların arasındakı yaranın sağalması mümkün deyildir.

Amma İsgəndər şanlı nəvvabın ordusundakı vəziyyət belə oldu ki, Məhəmmədi bəyin gedişindən sonra tamam təfriqəçilik baş verdi. Qoşun təbəqələri böyüklü-kiçikli, heç kimin əmrinə və qadağasına məhəl qoymadan və etina etmədən çıxıb getməyə başladılar. Ordunun əhvalına viranəlik və pərakəndəlik yol tapdı. Hətta padşah büyutatının işçiləri karxanaları atıb getdilər. Nağaraxana işçiləri padşahın gərənay və nağaralarını götürüb şəhərə apardılar və orada onları əlahəzrət [Abbasın] şanlı adına ifa edib səsləndirdilər. Dayandıqları yerdən köç edib irəli gələn gün əmiraxurlardan, cilovdarlardan və at tövləsi işçilərindən iki-üç nəfər qalmamışdı ki, İsgəndər şanlı nəvvab və Əbu-Talib mirzə üçün cilov çəksinlər. Xidmət əhlindən Zeynal bəy Şərbətdardan, bir neçə nəfər peşə şagirdlərindən və qulamlardan savayı, Əbu-Talib mirzənin xidmətində heç kəs qalmamışdı. Həmişə səltənət bargahının sahəsinə cəmləşən, padşahın və padşahzadənin atlanması vaxtı gərəyan çaldıran böyük əmirlər bu dəfəki köçdə dövlətxananın qapısına gəlmədilər və əmirlər bir-birilərindən xoflanaraq, o köçdə bir-birləri ilə görüşmədilər. Onlar o qədər səbirsizlik göstərdilər ki, şəhərə getmiş Məhəmmədi bəydən bir xəbər gəlib çatmamış, [Qəzvinə] gəlməkdə tələskənlik nümayiş etdirərək, şəhərin dörd fərsəxliyindəki Məntərə[1097] mövqeyinə gəlib yerləşdikləri gecə əmirlərin hər biri digərinin xəbəri olmadan şəhərə gedib, əşrəfə səcdə etmək və Mürşüdqulu xanla görüşməkdə bir-birilərindən qabağa düşmək iradəsi göstərdilər.

İsmayılqulu xanın qoşunu və köməkçiləri daha çox olduğundan Əliqulu xan ondan qorxurdu. Əvvəlcə o, gecə vaxtı İsmayılqulu xandan xəbərsiz olaraq, Əhməd sultan Asayişoğlu, Qənbər bəy Gözüböyüklü və öz yanında olan bir dəstə adamla birlikdə şəhərə yollandı. Həmçinin İsmayılqulu xan həmin fikrə düşüb, Şahverdi xəlifə İnallu, öz qardaşı oğlu olan qılınc qorçusu («qorçiyi-şəmşir») Həsən bəy, Piri bəy İnallunun oğlu Rzaqulu bəy Eşikağasıbaşı və şamlu camaatından beş yüz nəfərə yaxın bir dəstə ilə birgə Məntərədən atlanaraq, şəhərə üz tutdu. Fəaliyyətdə olan vəzir Mirzə Məhəmməd, sabiq vəzir Mirzə Lütfi və onun mustovfi əl-məmalik olan oğlu Mirzə Məhəmməd Zaman narahat oldular ki, birdən Əliqulu xanla İsmayılqulu xan başqa bir fikrə düşərək, o taciklərdə qızıl olduğunu güman edərlər və onların mallarına əl uzadıb, başqa bir səmtə gedərlər. Onlar bunun qorxusundan həmin gecə qeyri-ənənəvi bir yolla şəhərə yollandılar, Qorxmaz xan Şamlunun mənzilinə getdilər və ondan xahiş edərək, onunla birgə dövlətxana qapısına getdilər ki, həmin gecə onun vasitəçiliyi ilə əşrəfin ayağını öpməyə nail olub, Mürşüdqulu xanla görüşsünlər. Təsadüf üzündən, adları çəkilənlərin hamısı Qəzvinin mübarək dövlətxanasının qapısında bir yerə

[1097] Bakı nüsxələrində Məntərə əvəzinə Münirə yazılmışdır (S-129, v.305b; S-297, v.242b). R.M.Seyvəri isə bu yerin adını Mənbərə şəklində qeyd edir (R.M.Savory. "Very Dull and Arduous Reading": A Reappraisal of The History of Shah Abbas the Great by İskandar Beg Munshi // Hamdard İslamicus..., III, no. 1, Karachi, 1980, p.34).

toplaşmışdılar. «Hər kimə nəzər salsan, ona dərd mübtəladır» misrasının məzmununa uyğun gələn bir vəziyyət meydana çıxmışdı. Orada onlar bir-birilərinin vaxtsız gəlişindən xəbərdar oldular. Mürşüdqulu xan mübarək dövlətxananın qapılarını möhkəmləndirmiş və həmin qapıları Xorasandan onunla birlikdə gəlmiş etimadlı adamlara tapşırmışdı. O, həmin camaatın gəlişindən xəbər tutdu və onun iddia sahibi olan bu bir neçə nəfəri ələ keçirməkdən ibarət olan əsl mətləbi zati-alilərinin uğurlu bəxtinin qüvvəsi ilə belə bir asanlıqla hasilə gəlmiş oldu.

Necə ki deyilmişdir:

**Beyt**

«Gecə-gündüz arzusunda olduğumuz səadət
Evin yolunu soruşdu və özü qapımıza gəldi».

O, onların bu yolla gəlişini böyük bir uğur sayıb qərar verdi ki, onların hər birini bir mülazimlə dövlətxanaya daxil edin, digər camaata isə rüxsət verin ki, öz mənzillərinə gedib, sabah dövlətxanaya gəlsinlər. Qapıçılar və dərgah mülazimləri dövlətxana qapısını açıb, böyük xanları və onların yoldaşlarını içəri buraxaraq, onların əsgərlərinin girişinə mane oldular. Mürşüdqulu xan adam göndərib bildirdi:

- Bir halda ki həzrətlər sədaqət və sufilik göstərib, öz mənzillərinə getmədən mübarək dövlətxanaya gəlmişlər, sufiliyin yolu budur ki, əvvəlcə əşrəfə səcdə etmək və onun ayağını öpmək şərəfinə nail olmalıdırlar. Lakin indi şərəfli hökmdar yuxuya gedibdir. Bu gecə dövlətxanada dincəlin ki, sabah əşrəfə səcdə etməyə müşərrəf olasınız.

Onları dövlətxana və at meydanı arasındakı yuxarı otaqlara apardılar və həmin gecə bir dəstə onların keşiyini çəkməyə məmur edildi. Əmirlər bildilər ki, həbs olunmuşlar, onlar ali əşrəfə xidmət etmək səadətinə nail olmayacaqlar və onların Mürşüdqulu xanla görüşü baş tutmayacaqdır. Elə ki səhər oldu, gözətçilər gəlib, onlardan qılıncları və yanlarındakı bütün digər kəsici alətləri aldılar. Onların həbsə alınmasının və dustaq edilməsinin əlaməti aşkar oldu.

Amma İsgəndər şanlı nəvvabın ordusunun əhvalı belə oldu ki, digər əmirlər yüksək şöhrətli xanların getməsindən xəbər tutduqda hər birisi öz adamları ilə birgə şəhərə gəlib, öz mənzillərinə gedərək, orada qaldılar. Sabahı gün Qorxmaz xan Şamlunun əmrinə əsasən, Mürşüdqulu xanın vəziri Mirzə Şahəli və ustaclu ağsaqqallarından bir dəstəsi İsgəndər şanlı nəvvabı qarşılamağa getdilər ki. o həzrəti Əbu-Talib mirzə ilə birlikdə şəhərə gətirsinlər. Onlar Məntərəyə gəldilər və çadırda oturub ilahi karxananın işinə məəttəl qalmış İsgəndər şanlı nəvvabı və şahzadə cənablarını ata mindirərək, şəhərə gətirdilər. Onlar dövlətxanaya təşrif gətirdikdə kama yetmiş şərəfli hökmdar (Şah Abbas) öz yüksək dərəcəli atasını qarşıladı, onunla görüşüb, əlini öpmək şərəfinə nail oldu, öz istəkli qardaşını

mehribanlıq ağuşuna çəkdi və adlı-sanlı atasının əlini tutub, birlikdə müqəddəs hərəmxanaya girdilər. Dövranın nahamar vəziyyətindən və səbatsız cahanın məşğuliyyətlərindən təngə gələrək, dinclik və rahatlıq guşəsini arzulayan İsgəndər şanlı nəvvab səadətin yar olduğu möhtərəm oğlu ilə görüşdən çoxlu sevinc və şadyanalıq nümayiş etdirdi, özünü səltənət və padşahlıqdan kənar edib, yüksək səadətli [Şah Abbasın] Fərqədan ulduzlarına ucalan başını şahlıq tacı ilə bəzədi və ata-babasından özünə çatmış olan irşad əmanətini öz möhtərəm oğluna təslim etdi. Onun o vaxtadək İraq qoşununun say-seçmə və sadə adamlarının dilində «Abbas mirzə» olan mübarək ismi ondan sonra «Şah Abbas» adlanmağa başladı. Həmin gecə cənnətməkan şahın pak qızı olan xanımlar xanımı Zeynəb bəyim və İsgəndər şanlı nəvvabın anası Sultanım xanım başda olmaqla səltənət çadırının möhtərəm qadınları digər şahzadə [xanımlarla] birlikdə şəhərə gəlib, müqəddəs hərəmxanaya getdilər və o əziz-istəkli [Şah Abbasla] görüşmək şərəfini qazandılar.

Allahın kölgəsi olan əlahəzrət şahın gündən-günə artan dövlətinin qüvvəsi sayəsində güclü düşmənləri bu cür asanlıqla ələ keçirmiş [Mürşüdqulu xan] onların aradan qaldırılması fikrinə düşdü və o özbaşınaların həyat binasının təcili surətdə dağıdılmasını doğru saydı. Mürşüdqulu xan İsmayılqulu xanı aradan götürmək məsələsində şamlu tayfasından bir qədər narahatçılıq keçirirdi və bu üzdən Qorxmaz xana şamlu [tayfasının] ağsaqqallığını vəd edərək, onu özünə müttəfiq etdi. Səhəri gün o, Çehelsütün eyvanına gəldi, mübarək dövlətxananı bəzətdirdi, bütün əmirləri və dövlət ərkanını hazır etdi. Allahın kölgəsi olan əlahəzrət şah öz adlı-sanlı atasının icazəsi ilə şahlıq kürsüsünə səadətli təbiətinin parlaqlığı ilə asiman yüksəkliyi bəxş etdi və maddi səltənətlə mənəvi xilafəti özündə cəmləşdirdi. Bu yığıncaqda bellərinə dövlətsevərlik kəmərini bağlamış qızılbaş əmirləri və əyanları ali taxtın ətəklərində səf qurmuşdular. [Şah Abbas] Əbu-Talib mirzə tərəfdarları olan xanları öz şəhid edilmiş səadətli qardaşının qanına baiskar bildi və xəlifələrə, ağsaqqallara xitab edərək, qardaşının qanının qisasını tələb etdi. Bütün qızılbaş tayfaları razılıq verib, hökmdarın sözünü təsdiq etdilər. Qərara alındı ki, o camaatı (Əbu-Talib mirzə tərəfdarlarının başçılarını) Çehelsütun eyvanının aşağısında hazır etsinlər və bu yüksək sülalənin sufiləri və ardıcılları onları qisasa yetirsinlər. Əmrə əsasən, o camaatı yuxarı otaqlardan aşağıya gətirdilər. Onlar bildilər ki, hal-qəziyyə nə yerdədir. Onlar bir-bir eyvanın bərabərinə çatdıqca ətrafdan və yan-yörədən onlara qılınc vurulurdu. Nadir təsadüflərdən biri kimi, Əliqulu xanın dediyi tərzdə əvvəlcə İsmayılqulu xanı tikə-tikə etdilər, ondan sonra isə Əliqulu xana da həmin «şərbət»dən içirdilər. Məhəmmədi bəy Sarısolağı da Məhəmməd Şərif bəy Çavuşlunun evindən gətirib, öz yoldaşlarına qatdılar. Öldürülmək ehtimalı olmayan Əhməd bəy Asayişoğlu məhz onlarla yoldaşlıq və həmdəmlik etdiyi üçün öz üzərində gizlətmiş olduğu xəncəri çəkib, bir-iki nəfəri yaraladı və bu səbəbdən onu da öldürdülər. Dəllək Xudaverdi ilə aşnalıq etmiş və onun [günahları] bağışlanmış şahzadəni qətlə yetirməsinə bais olmuş Rzaqulu bəy İnallu da qətlə yetirildi.

Xülasə, qürur səhrasının çaş-başları olan sözügedən əmirlər qəbahətli bir tərzdə öz bəd niyyətlərinin cəzasına çatdılar, öz ümidlərini axirətə çəkib aparmalı oldular və onların mülkiyyəti müsadirə edildi. Digər əmirlərin, vəzirlərin və mənsəb sahiblərinin təqsiri əfv olundu, onların cərimə və tərcüman ödəməsinə qərar verildi və hər birinin adına onların öz hallarına münasib bir məbləğdə tərcüman vergisi qoyulması ilə bağlı hökm verilərək, bunun icrası üçün mühəssillər təyin edildi. Onlardan toplanan vəsaitlər şərəfli üzənginin Xorasandan gəlmiş mülazimlərinə xərclik və ənam verilməsi üçün bölüşdürüldü. Qarışıqlıq və fitnə-fəsad məkanı olan İran mülkünün sahələri şahın ədalət nurlarının vasitəsilə işıqlı günəşin parlaqlığını əldə etdi və hamının hal dili bu mövzuda belə deyər oldu:

**Beyt**

«Vaxtdır, indi şahlıq taxtı qoy eyləsin iftixar,
Ki, üstünə kölgə salmışdır müzəffər hökmdar».

Başlanğıcda bəyan qələmi ilə qeyd olunmuşdu ki, bu cild on iki məqalədən ibarətdir. Həmd olsun Allaha ki, on iki məqalədən o həzrətin şərəfli adına və mübarək isminə əlavə olunmuş kəramətli sələflərin və ali dərəcəli əcdadların yüksək məqamlarının şərhindən bəhs edən birinci məqalə iradə qələmi və sədaqət gözəlliyi ilə yazılıb qurtardı və həmin yaxşı aqibətli əyyamın gedişində baş vermiş o həzrətin səadətli doğum günlərindən başlayaraq ta onun hökmranlıq günəşinin doğması vaxtı sayılan dövlət və səadət taxtı üzərinə əyləşməsi zamanına qədər başına gəlmiş heyrətamiz və qəribə hadisələri bildiyim və bacardığım tərzdə bəyan səhifəsi üzərinə qeyd edib, bu səadət dəftərinin dibaçəsini zinətləndirdim. Lakin hələ ki [bu cild] natamamdır. İndi əvvəlki vədimə əsasən, yaxşı yerişli ata bənzəyən xeyir xəbərli qələmi söz sarayının cıdır meydanında cilvəyə gətirərək, on iki məqalənin o həzrətin gözəl hərəkətlərinin, üstün keyfiyyətlərinin və uğurlu mahiyyətə malik əhvalatlarının xülasəsindən bəhs edən qalan hissələrini də tamamlamaq niyyətindəyəm. Onun zavalagəlməz hakimiyyəti zamanının hadisələri ikinci cilddə Allahın köməyi sayəsində təfsilatlı şəkildə şikəstə qələmlə yazılacağına baxmayaraq, bu cildin axırında o həzrətə aid xüsusiyyətlər müxtəsər surətdə sadalanacaq ki, bu cildi mütaliə edənlər qısaca olaraq ondan məlumat əldə etsinlər və aləm karxanasında müntəzim olanlar, cahana nəzər salanlar o dövran yeganəsinin xilqətini, onun böyük cövhərinin kəşfini, cahandarlığının ədəb-ərkanını, yaxşı xislətlərini, yüksək səviyyəsini anlasınlar və bilsinlər ki, o, nə dərəcədə bir şəxsiyyət olub, cəlal sahibi olan [Allahın] köməyi, səadətli taleyin yardımı və uğurlu bəxt ulduzunun müsaidəsi ilə onun böyük fəthləri necə baş verib, zəmanə tərəqqi qapılarını onun dövlətinin üzünə nə cür açıb və Allahın ona bəxş etdiyi gözəl təbiət, doğru rəy və bilik sayəsində nə yolla insanların işlərini nizam-intizama salıb. Qoy ölkələri idarə edən sultanlar, rəy və tədbir sahibləri bu

təqdir divanının dibaçəsinə nəzər saldıqda onun xoşagələn qaydalarını özləri üçün hərəkət qanununa və fəaliyyət nizamnaməsinə çevirsinlər.

## II MƏQALƏ:

## O HƏZRƏTİN İLAHİ DƏRGAHA OLAN HÜSN-RƏĞBƏTİ VƏ BAĞLILIĞI HAQQINDA

O həzrətin ata-babaları ali seyidlik mənşəyinə və mənəvi səltənət mərtəbələrinə malik olmaqla yanaşı, dərvişliyi, zahidliyi və din yolunda çalışmağı öz ali mərtəbələrinə əlavə etmiş, təriqət başçılarından, şeyxlərdən və Allah əhlindən olmuşlar və o Allah dərgahının seçilmişlərindən həmişə möcüzələr baş vermişdir. O həzrət də bu böyük bəxşişlər, əqidə bolluğu və etiqad paklığı içərisində axirəti düşünən bir insan kimi qeybdən gələn ilhamların aşkar olduğu və şəksiz feyzləri özündə əks etdirən bir şəxsə çevrilmişdir və özündə maddi və mənəvi səltənətləri birləşdirmişdir. O, irsi cəhətdən yüksək dərəcəli əcdadlarının ali məqamlarından tamam bəhrə almışdır və səltənət, cahandarlıq və aləm işlərinə intizam bəxş etməyin gərəkliliyi olan həvəs, təcrübə və dünyagörüşü ilə yanaşı, o həzrətdən çoxlu möcüzələr müşahidə olunub ki, onların burada təfsilatını vermək uzunçuluğa səbəb olar. O, heç vaxt ilahi dərgaha olan hüsn-rəğbət və bağlılıqdan qafil olmayıbdır. O, [Allaha] üz tutub öz halətlərini ərz edən zaman təvhid[1098] dərgahının vüsal dənizinə elə qərq olur ki, sanki onun ruhu bədənindən ayrılır. Bütün dövlət işlərində fal və istixarəyə əməl edib, ilahi məsləhət almadan səltənət işlərindən və məmləkət məsələlərinin intizama salınmasından heç birinə baş qoşmayıbdır və əzəmətli «Quran»ın mətnində qadağan olunmuş işlər barəsində ilahi məsləhəti nəzərə alıb, onlardan uzaq durubdur.

## III MƏQALƏ:

## TANRININ ONA VERDİYİ DÜŞÜNCƏNİN VƏ BİLİYİN DÜZGÜNLÜYÜ VƏ ONUN TƏQDİR SƏHİFƏSİNƏ UYĞUN GƏLƏN TƏDBİRLƏRİNİN GÖZƏLLİYİ HAQQINDA

Məddahlıqdan və sözbazlıqdan uzaq duraraq bildiririk ki, o həzrət bol-bol fəhmə, fərasətə, ali idraka, yüksək fitrətə, kamil biliyə malikdir və hamıya bəlli olan dünya işlərində doğru rəyə və parlaq fikrə sahibdir. Çünki o, rəhbərlik kürsüsündə qərar tutduqdan sonra cahandarlıq üslubunu, hərbçilik, qoşun çəkmək və səf tərtib etmək qaydalarını, insaf və səxavət ədəb-ərkanını zəmanə sultanları arasında təzələdi və onun xoşagələn fərmanları dünyanın iş cədvəlinə və kama

[1098] Tovhid – vahid Allaha inanmaq.

yetmiş xoşbəxt padşahların fəaliyyət nizamnaməsinə çevrildi. Uşaqlıq çağından bu günə kimi onun əbədi dövləti zamanında üz vermiş bunca böyük hadisələr, müharibələr, qalaların zəbti və şəhərlərin fəthi zamanı onun səadətli mülazimliyini edərək dövlət işlərinə intizam bəxş edən aqillərin və təcrübəli tədbir sahiblərinin doğru zəkaya malik olmalarına baxmayaraq, bütün hallarda o həzrətin uzaqgörən rəyi hamıya üstün gəlmiş və xilafət məsələlərində qarşıya çıxan hər çətinlik axırda məhz onun müşkülləri aça bilən düşüncəsinin açarı ilə açılmışdır. Onun hər məsələ barəsində düşündüyü hər tədbir təqdirə müvafiq olmuşdur, onun bəxt işləri qəzavü-qədər oxu kimi murad hədəfinə tuş gəlmişdir və aqillərin nəzərində ilk baxışdan xəta görünən əməllərinin son nəticədə doğru olduğu aşkarlanmışdır. Dünya adamlarına belə bir məna məlum və aydın olub ki, camaatın bütün məsələləri, say-seçmə və sadə insanların işlərinin xırdalıqları, cahandarlıq qaydasının zərurətləri və ölkə idarəçiliyinin lazımlı işləri asimandan gələn ilham və Rəbbin köməyi ilə mütləq surətdə o həzrətin doğru rəyinin, parlaq tədbirlərinin, mətin fikrinin və uzaqgörən düşüncəsinin nəticəsidir və heç bir kəsin ona müdaxiləsi yoxdur.

«Hər nə ki onun nurlu rəyində toplanıbdır,
Hamısı «məbda» və «miad»ın sirlərindəndir[1099].
Dünyanın çətin həll olan müşküllərini,
Heç kəs onun kimi çözə bilməyibdir.
Hələ uşaq yaşlarından yetərincə müdrik olub,
Onun rəyi ustadların düşüncəsinə üstün gəlibdir.»

O həzrət öz nəfis vücudu ilə səltənət və hökmdarlıq məsələlərinə cavabdeh olduqda yaşının azlığı, düşmənlərinin çoxluğu, yardımçı və köməkçilərinin çatışmazlığına baxmayaraq, Allahın lütfü, bəxtin gücü, taleyin müsaidəsi, Tanrının bəxş etdiyi biliyinin və anadangəlmə zəkasının sayəsində dövlət işlərinin intizamsızlığını və səltənətin qarışıqlığını elə nizama saldı ki,

### Misra

«Onun barəsində bəsirət sahiblərinin gözləri mat qaldı».

Çünki on il idi ki, İran məmləkətləri qüvvətli və hökmükeçən bir padşahdan məhrum qalmışdı, qoşun sahiblərinin, ordu başçılarının və tayfa mötəbərlərinin bəziləri cəhalət, nadanlıq və məkrli niyyətlər ucbatından özbaşına olaraq iki dəstəyə bölünmüşdülər, onların əqidəsinin gözəl ətəyi sədaqətsizlik çirkabına bulaşmışdı və hər başda bir sevda baş qaldırmışdı. Bu səbəbdən məmləkətə xələl yol tapmış, qolu zorlu düşmənlər (Osmanlılar) və özbəklər iki tərəfdən İran

[1099] «Məbda» dünyanın başlanğıcını, yaradılışını, «miad» isə dünyanın sonunu bildirmək üçün işlədilən dini terminlərdir.

məmləkətlərinə tamah salmış və hər il bir məmləkət əldən getmişdi. [Şah Abbas] məhz belə bir vəziyyətdə və qarışıqlığın bol olduğu bir şəraitdə İranın əhvalının düzəldilməsinə səy göstərib, əvvəlcə, öz yüksəlişlərini və insafsızlıqlarını tərəqqi etdirərək əmirlik, sultanlıq və xanlıq mərtəbələrinə çatmış, özbaşınalığa adət etmiş və ellər, oymaqlar arasında fəsad salıb həmişə fitnəkarlıqla məşğul olmuş bir sıra araqarışdıran əmirləri, ordu başçılarını və evin daxilindəki düşmənləri aradan qaldırmağı önəmli bilərək, səy çoxluğu və tədbir gözəlliyi ilə bu təbəqədən olanları bir-bir ələ keçirib, yoxluq diyarına göndərdi və onların əvəzində işə yarayan adamları himayə edərək, ali mərtəbələrə və əmirlik dərəcələrinə çatdırdı. Get-gedə insanlar o [fitnə-fəsad] məsələsini unutdular və mövcud olan qarışıqlıq sakitləşməyə üz qoydu, padşahın əmr və qadağaları qoşun arasında nüfuzlu oldu və əldən getmiş məmləkətlər geri qaytarıldı. Bu barədə ikinci cilddə öz yeri gələndə bəhs olunacaqdır.

## IV MƏQALƏ:

## ONA SAHİBQİRANLIQ RÜTBƏSİNİN YARAŞMASI BARƏDƏ VƏ ONUN HƏYATINI TƏHDİD EDƏN TƏHLÜKƏLƏRİN XOŞBƏXT SONLUQLA BİTMƏSİ HAQQINDA

Bəsirət sahiblərinin nəzərlərindən yayınmamışdır ki, əvvəlki sultanların hər birinin ləqəblərinə sahibqiran ibarəsi artırılsa da, bunların əksəri yazı-pozu işləri ilə məşğul olan adamların onlara göstərdikləri iltifatdan irəli gəlmişdir. Lakin bu [sahibqiranlıq] mənası əlahəzrət [Şah Abbasın] ali nişanlı şanına, həqiqətən də, uyğun gəlir. Çünki onun mübarək doğum günündən indiyəcən asimanda müxtəlif ulduz yaxınlaşmaları üz verib ki, bunların ehkamları o şəhriyarın əhvalının sübutudur. Nücum elminin dəlillərinə görə həmin ulduz yaxınlaşmalarından hər biri iqtidarlı bir sahibqiranın meydana çıxmasına və zühur etməsinə dəlalət edir. Ulduzşünaslıq işini bilənlər düşüncə və fikir gözü ilə ona bir nəzər salsalar görərlər ki, sözügedən ulduz yaxınlaşmaları o uca dərəcəli və yüksək mərtəbəli [Şah Abbasın] səltənətinin zühuru və onun dövlətinin möhkəmliyinə dəlalət edir və onun tərifəlayiq xüsusiyyətlərə malik zatı həmin ulduz yaxınlaşmalarının təsirlərini və ehkamlarını özündə təzahür etdirir. Xüsusən də 1012-ci ildə (11.06.1603 - 29.05.1604) baş vermiş səmavi ulduz yaxınlaşması zamanı Müsəlləsə («üç ulduz») qövsü bürcündə bir atəş vaqe olmuşdu. Hələ keçmiş münəccimlər, xüsusilə bu şərəfli elmin incilərindən olan Mövlana Möhyəddin Ənarupiyazi tərəfindən yazılmışdı ki, bu hadisə elə bir dövlət sahibinin zühuruna dəlalət edir ki, onun uğur nişanəli dövründə zəmanənin, müxtəlif məzhəblərin və dinlərin vəziyyətində dəyişikliklər olacaqdır və o məmləkətlərin bəzilərinin əhvalına xarabalıq yol tapacaqdır, əsirlərin aparılması, soyğunçuluq və böyük qətl-qarət hadisələri baş verəcəkdir. Bu məna o həzrətin xoşbəxt zamanında

Azərbaycanda, Şirvanda və Gürcüstanda baş verənlərlə uyğunluq təşkil edir. Belə ki, həmin vaxt əyyamın dəyişkənlikləri nəticəsində o məmləkətlərdə intişar tapmış batil məzhəblər və dinlər ildırımabənzər iti qılıncın parıltısı ilə xələlə uğradı, qiyamət əlamətli qoşunun keçidindən fələyin zərurəti və ulduz yaxınlaşmasının təsiri ilə bəzi islam mahallarına xarabalıq yol tapdı, müsəlmanlardan və qeyri-müsəlmanlardan ibarət çoxsaylı camaat vətənlərindən ayrı düşüb, digər şəhərlərə və ölkələrə pərakəndə oldular, Gürcüstanda böyük bir soyğunçuluq baş qaldırıb, bir dəqiqə də olsun səngimək bilmədi və o diyarın neçə min nəfər qadınları və qızları müsəlmanlıq hövzəsinə daxil oldular.

O həzrət öz südəmərlik vaxtından bu günədək elə iri xətərlər və böyük təhlükələr adlanmışdır ki, bunlar heç bir sahibqiranın başına gəlməyibdir:

Birincisi, tifil çağında ana və atadan ayrı düşmək çətinliklərin və kədərlərin ən böyüyüdür və ömrünün başlanğıcında bu xətər o həzrətin başına gəlmişdir.

İkincisi odur ki, İsmayıl mirzə zamanında şahzadələrin qətlləri baş verirdi və o, bu xoşagəlməz hərəkəti öz mətləbinin son hədəfinə çevirmişdi. Həmin vaxt o həzrətin lələsi Şahqulu sultan Yeganın Heratda qətlə yetirilməsinə baxmayaraq, ilahinin himayəsi [Şah Abbasın] şərəfli zatını mühafizə etdi və saxladı, mənsəb arzusunda olan dünyapərəstlərin çöhrəsi önünə hicab pərdəsi çəkdi və o tale yetişdirməsinin müqəddəs zatı tüğyançıların kin-küdurətindən qorunmuş oldu.

Üçüncüsü onun üzləşdiyi xətərlərin ən böyüyüdür. Bu, ondan ibarət idi ki, camaat arasında yayılmış söhbətə əsasən, doğrusunu Allah bilir, İsmayıl mirzə tərəfindən Əliqulu xan Şamlu bu yaramaz işə (Abbası öldürməyə) məmur edilmişdi. O, mübarək ramazan ayında Herata çatdı və asimandan gələn ilhamla «bax gör bu hamilə gecədən nə doğacaqdır» kəlamının məzmununa əməl edib, [İsmayıl mirzə qarşısındakı] son dərəcə qorxu-hürküsünə baxmayaraq, ramazan ayının sonunadək səbir etdi. O, bu xoşagəlməz işin həyata keçirilməsinə hazırlaşan gecə ay parlaqlığına malik bir qasid gəlib çataraq, İsmayıl mirzənin ölüm xəbərini və [Abbasın] nicat tapması müjdəsini gətirdi. Həqiqətən də, bu əcaib əhvalatın baş verməsi onun sahibqiranlıq vəziyyətinin qəribəliklərindəndir.

Dördüncüsü odur ki, [ilahi] təqdirə əsasən, Xorasan və İraq əmirləri arasında müxaliflik üz verdi. Öz yerində qeyd olunduğu kimi, İsgəndər şanlı nəvvabla ali məkanlı şahzadə Sultan Həmzə mirzə Xorasana qoşun çəkdilər. Quryandakı Tirpül yaxınlığında tərəflər arasında böyük bir vuruşma baş verdi və Xorasan qoşunu məğlubiyyətə uğradı. Əlahəzrət (Şah Abbas) tərəfdarlarının və köməkçilərinin darmadağın olunması əsnasında fədakar mülazimlərindən bir neçə nəfərlə birlikdə o dəhşətli döyüşdən salamatlıqla çıxdı və o hadisədə sağ qaldı.

Beşincisi odur ki, əlahəzrət (Şah Abbas) Heratda yaşayırdı. Qəzavü-qədər lövhəsində qeyd olunmuşdu ki, o şəhər özbəklərin əlinə keçsin, mühasirədəkilər qətlə yetirilsinlər və əsir olsunlar. Lakin bu hadisə baş verməzdən öncə iş elə gətirdi ki, o vaxtadək bir-birləri ilə əlbir olan Əliqulu xan Lələ ilə Mürşüdqulu xan arasında ziddiyyət və inadkarlıq baş qaldırdı, məsələ döyüşlə nəticələndi və ilahi

təqdir səbəbindən o həzrətin səadətli bayrağının kölgəsi altında olan şamlu tayfası güclü bir fəlakətə uğradı. O döyüşdə əlahəzrətin geydiyi zirehə bir neçə yerdən ox zərbəsi və nizə əlaməti toxunsa da, onun müqəddəs zatına heç bir zərər dəymədi və o, cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) pak ruhunun cazibəsinin qüvvəsi ilə müqədəs Məşhədə təşrif gətirib, hər iki böyük təhlükədən sağ qurtuldu.

Altıncısı odur ki, o həzrətə böyük naxoşluqlar üz versə də, Tanrının köməyi ilə müxtəlif xəstəliklərdən şəfa tapmışdır. Şirazda atdan yıxılıb, bir müddət yataqda qalmış və ilahi lütfkarlıq onu saxlamışdır.

Yeddincisi odur ki, Ciğaloğluya qarşı döyüş günündə müqəddəs üzənginin mülazimləri əsirləri [Şah Abbasın] mübarək nəzərləri qarşısına gətirən vaxt [əsirlərin arasında] mükri kürdlərindən olan bir qüvvətli və güclü şəxs uzunboğaz çəkməsinin içindən bir xəncər çıxarıb, o həzrətin üstünə cumaraq, özünü onun bənzərsiz bədəninin üzərinə saldı. O həzrət ilahi hüsn-rəğbətin köməyi və sonsuz mərhəmət pəncəsinin qüvvəsi ilə o bədzatın əlinin üstündən öz mübarək əli ilə tutub, xəncəri onun əlindən aldı və o böyük məkrdən onun mübarək zatına bir ziyan dəymədi. Bu hadisələrin təfsilatının hər biri vahid, əziz və uca Allahın izni ilə öz yeri gələndə qeyd olunacaqdır.

## V MƏQALƏ:

## ONUN ƏDALƏTİ, YOLLARIN ƏMİN-AMANLIĞINI TƏMİN ETMƏSİ VƏ BƏNDƏLƏRİN RİFAHINI YÜKSƏLTMƏSİ HAQQINDA

Səltənət işlərinin ən mühümü məmləkətin sabitliyi və yolların əmin-amanlığıdır. İran məmləkətlərində bu qayda itib-batmışdı və camaatın yollarda hərəkəti və gediş-gəlişi olduqca çətinləşmişdi. O həzrət hakimiyyətinin başlanğıcında bu qarışıqlığın aradan qaldırılmasına girişib, hər vilayətdə ən böyük yolkəsənlərin kimlər olduğunu müəyyənləşdirdi və bu təbəqənin yox edilməsinə və edam olunmasına səy göstərdi. Qısa zaman ərzində bu güruhun əksər başçıları onun gözəl səy və tədbirləri sayəsində ələ keçirildilər. O, öz uzaqgörən rəyinin məsləhəti ilə onların arasından bundan öncə dövlətə itaətsizlik nümayiş etdirən bəzilərini cəzalandırmaqdan vaz keçib, cürbəcür iltifatlarla onların könlünü rahatlatdı və onlar bu hüsn-rəğbətin və əfvin əvəzində hökmdara xidmət etmək və onun qəlbini məmnun etmək məqamına gəlib, xəta yolunu tərk edərək, itaət göstərmək və fərmana tabe olmaq məsləyini seçdilər. Bəzi digərlərini isə heç düşünmədən cəza şihnəsinə tapşıraraq, xalqa o tayfanın şər əməllərindən asudəlik bəxş etdi. Bu tədbirlər yolların əmin-amanlığına səbəb oldu. Tacirlər və sövdəgərlər aləmin müxtəlif tərəflərindən və yönlərindən «məmləkəti-məhrusə»yə gedib-gəlməyə başladılar.

Rəiyyətin rifahının yüksəldilməsi məsələsi həmişə onun nurlu ürəyində qərar tutubdur. Onun haqq niyyəti buna sərf olunur ki, Allahın yaratdıqları və bəndələri onun əbədi dövləti zamanında əmin-amanlıq altında asudə olsunlar və Allahın xəlq etdiklərinin xatirində təşviş oyanmasına bais olan zülm əlləri məmləkətlərdən çəkindirilsin.

O, rəiyyətə divan vergilərindən külli miqdarda yüngülləşdirmələr bəxş etdi. Əvvəla, İraqın (İraqi-Əcəmin) on beş min İraq tüməninə yaxın olan sər-gelle[1100] vergisi o vilayətin əhalisinə bağışlanılaraq (həmin vergi ləğv edilərək), İran torpağının ortası və əbədi təmələ malik səltənətin mərkəzi olan o mülkün sakinlərinə bu böyük hədiyyə sayəsində digər bölgələrin əhalisinə nisbətən imtiyaz verilmiş oldu. Bundan başqa, ramazan ayında məmləkətlərin bütün şiələrini divani mükəlləfiyyətlərdən azad edib, divan işçilərinin əməlləri ucbatından iyirmi min tümənə yaxınlaşmış bütün məmləkətlərin ehdas və mali-yekmahə[1101] [vergilərini] rəiyyətə sədəqə etdi ki, [Allaha] itaət və ibadət əyyamı olan o mübarək ayda onlar divan işçilərinin tələblərindən rahat olub, həqiqi məbud [Allaha] bəndəlik etmək vəzifəsinə məşğul olsunlar.

Həmişə o həzrətin şərəfli təbiəti ona maildir ki, fəqir-füqəra əhlinin əhvalı məşəqqət və əliaşağılıqdan azad olub, sərvət və zənginliklə əvəzlənsin və səadətli dövlətin ərazisində yaşayan ümumi əhali var-dövlət sahibi olub, yoxsulluq əzabından qurtulsun. O, zamanın gərdişindən pərişan vəziyyətə düşmüş bir sıra əyan-əşrəflərə yaxşılıq etməkdən ötrü onlara xasseyi-şərifə sərkarından yardım və xərclik verir ki, məişət qazancları üçün sərmayə edib, öz yaşayışlarını rifah halında keçirsinlər və sonu bəlalı olacaq sələmçilərin qarşısında borclanmağa möhtac qalmasınlar. Dəfələrlə yoxsul vəziyyətdə olan şiələrə, əqidə və ixlas sahiblərinə yardım etmək mənasında külli miqdarda məbləğlər veribdir, sədəqələr paylayıbdır və bu yaxşılıqların əvəzində savab qazanıbdır. Beləliklə, kitabın yazılması vaxtına qədər hər nə ki baş veribdir, burada qeyd edildi. Necə ki bu beytdə deyilmişdir:

«Onun niyyətlərindən sənsən tamamən agah,
Niyyətləri xeyirdir, xeyrini ver, ya Allah!»

---

[1100] Sər-gelle - maldarlıqdan alınan vergidir. Bu verginin digər bir adı «çobanbəyi» vergisidir. I Şah Abbas 1598-ci ildə İraqi-Əcəm vilayətinin çobanbəyi vergisini ləğv etmişdi (И.П.Петрушевский. Очерги, с.271).

[1101] «Mali-yekmahə» - aylıq vergi. «Ehdas» - daruğaya tabe olan və gecələr şəhərdə patrul xidməti çəkən mühafizə dəstəsinə deyilirdi. «Ehdas» vergisi və ya «rəsmi-mühdis» gecə mühafizlərinin xeyrinə toplanan vergi növü idi. (А.А.Рахмани. «Тарих«и алам ара-йи Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с.144; О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке, с.226).

Allahın lütfündən ümid odur ki, saysız illər ərzində hökmranlıq taxtı üzərində əyləşərək, digər xeyirxahlıqlara, yaxşılıqlara və savab əməllərə müvəffəq olsun.

## VI MƏQALƏ:

## ONUN İLAHİ HİKMƏTDƏN İRƏLİ GƏLƏN CƏZA ƏMRLƏRİ HAQQINDA

O həzrət öz xilqətinin başlanğıcından qəzəb və atəşməzaclıq səriştəsinə malik olub, cəzalandırılması vacib olan təqsirkarların cəzalandırılması barədə öz təbiətinin qəhrəman fərmanına əməl edib və komandanlığın, məmləkət idarəçiliyinin və rəiyyətpərvərliyin mühüm tərkib hissəsi olaraq, günahkarlara və dövlətə qarşı çıxanlara cəza vermək barəsində əsla dünyəvi məqsədləri, izzət sahiblərini və digər məsələləri nəzərə almayıb, səhlənkarlığa və təxirə salmağa yol verməyibdir və verməməkdədir. Bu məna onun hakimiyyətinin başlanğıcında böyük faydalar bəxş etmiş, onun qüdrət və mətanəti ətrafa və kənarlara yayılmış, cövr və zülm sahiblərinin əli təbəələrin arzu-dilək yaxasından üzülmüşdü. Onun cəzasının qorxusundan və ədalətinin təsirindən qurd və quzu bir-birinə qarışmış, dostla düşmən eyni yataqda yatmağa başlamış və birinin digərinə zərər vurmayacağından əmin olmuşlar. Hər kimə bir xidmət tapşırıbsa, həmin şəxsin ixtiyarı yoxdur ki, bir an belə o xidməti icra etməkdə təxirə yol vermiş olsun. Məsələn, əgər [Şah Abbas] bir ataya öz oğlunu qətlə yetirməyi buyursa, bu hökm qəzavü-qədərin fərmanı kimi dərhal yerinə yetirilər. Yox, əgər o adam atalıq şəfqəti üzündən öz oğlunun qətlini təxirə salmış olsa, onda [Şah Abbas] bu işin əksini (oğulun öz atasını öldürməsini) hökm edər və əgər o da boyun qaçırsa, digər bir şəxsin vasitəsilə onların hər ikisinin qətlini həyata keçirər. Məhz bu səbəbdən onun əmrinin nüfuzu ali mərtəbəyə çatıbdır.

Heç bir kimsənin cəsarəti yoxdur ki, onun qəzavü-qədər kimi cərəyan edən fərmanından bir an yayına bilsin. Onun hakimiyyətə gəlməsindən öncə bir hərbi toplanış («yasaq») üz versəydi, qızılbaş tayfaları «yasağ»a getməkdən boyun qaçırardılar, mülazim və məvacib sahibi olan bir dəstə adamdan savayı, əksəriyyəti öz evlərində qalıb («yasağ»a) getməzdilər. Bu məna [Şah Abbasın] nurlu ürəyinə şəfəq saldı. O, məmləkətlərin, hərbçilərin, el və oymaqların barəsində təhqiqat aparıb hökm buyurdu ki, əgər «yasaq» baş versə, mülazim olub-olmamasından asılı olmayaraq, bütün hərbçilər din qeyrəti və namus qüvvəti ilə öz ellərinin və əşirətlərinin əhvalını qoruyub saxlamaq üçün hazır olsunlar və əgər kimsə «yasaq» vaxtı evdə qalıb hazır olmazsa və onun barəsində həmin elin adamlarından bir kəs həqiqəti ərz edib deyərsə ki, filan şəxs «yasağ»a gəlmək bacarığına malik olduğu halda gəlməmişdir, o zaman hökmə əsasən, «yasağ»a gəlməyənin qətli icra olunacaq və onun malları, əşyaları və mülkiyyəti xəbər verən şəxsə veriləcək və

əgər o elin adamları tərəfkeşlik edərək, bu məsələni məxfi saxlayıb ərz etməsələr, onda o tayfa ümumən cəza hədəfinə çevriləcəkdir. Bir-iki dəfə «yasaq» baş verdikdə gəlməyən hər kəs cəzaya çatdı və onların əşyaları və malları xəbərçiyə verildi. Bu məna camaatın vahimələnməsinə səbəb oldu və əgər bir «yasaq» üz verərsə, hamı piyada və süvari vəziyyətdə canla-başla gəlib özlərini yetirərlər və heç bir yaradılmışın qüvvəti və qüdrəti yoxdur ki, həmin vaxt evdə qala bilsin.

## VII MƏQALƏ:

## ONUN CAHANDARLIQ ÜSLUBU VƏ HÖKMRANLIQ QAYDALARI MÖVZUSUNDA

Əgər ağılpərvər ziyalılar əlahəzrətə səltənət qanunlarının təsisçisi deyirlərsə, ona uyğundur və əgər cahan sultanlarını onun şagirdi adlandırırlarsa, ona layiqdir. Çünki o həzrət hökmdarlıq ədəb-ərkanında düşünülmüş qaydalar bərqərar edibdir. O cümlədən ixtilaf əyyamında tayfaların özbaşınalıq nümayiş etdirən şəxslərindən çoxlu yöndəmsizliklər baş qaldırmış və onların müqədəs nişanəli Səfəvi sülaləsinə münasibətdə əqidələri pozulmuşdu. Bu cür şəraitdə dünya fatehi [Şah Abbasın] düşüncəsi belə qərara gəldi ki, dövlət işlərini intizama salmaq məqsədi ilə asimandan gələn ilhamla yüksək şövkətli padşahın üzərinə zühur şəfəqləri salan və maddi aləmin zahirpərəstlərinin xəbər tuta bilmədiyi gizli məsləhətlərə əsasən, bu [qızılbaş tayfaları] təbəqəsindən savayı, digər bir dəstəni də hərbçilər silkinə daxil etsin. Bu səbəbdən gürcü, çərkəz və s. bu kimi qulamlardan ibarət çoxsaylı bir dəstəni hərbçilər silkinə daxil edib, bu [Səfəvi] dövlətində adət olmayan yeni bir vəzifəni - qullarağası mənsəbini təsis etdi. Həmçinin cağatay oymaqlarından, ərəb əşirətlərindən və Xorasanın, Azərbaycanın və Təbəristanın əcəm qəbilələrindən[1102] neçə min nəfər [atdıqları güllələrlə düşmən qoşununun] sayını azaldan tüfəngçini şərəfli üzənginin mülazimlərinə çevirdi. Hər vilayətdə elə alçaqlar və əclaflar vardı ki, cəld və işə yarayan adamlar idilər və həmişə o vilayətdə dövlətə itaətsizlik nümayiş etdirib, öz ədalətsizlikləri ilə acizlərə və miskinlərə zərər vururdular. [Şah Abbas] onların əksərini öz tüfəngçiləri silkinə daxil etdi ki, həm rəiyyət və acizlər həmin gündən etibarən onların şər əməllərindən xilas olsunlar, həm də qalibiyyətli üzənginin həndəvərində xidmət göstərib, döyüş meydanlarındakı əməllərinin müqabilində mükafat qazansınlar. Bu təbəqənin məcmusunu qulamların dəftərinə daxil etdilər. Həqiqətən də, onların (tüfəngçilərin) mövcudluğu qalaların və şəhərlərin fəthi baxımından zəruri idi və böyük faydalar bəxş etdi.

Bundan əlavə, əmirlərdən və əyanlardan hər kəsə layiqli hökumət verilərsə və ya yolların mühafizəsi hər kimin öhdəsinə qoyularsa, həmin şəxsin qarşısında şərt qoyulur ki, orada nizam-intizamı iazımınca qorumalıdır və əgər tacirlərdən,

---

[1102] Burada «əcəm qəbilələri» dedikdə, sadalanan vilayətlərin yerli, oturaq əhalisi nəzərdə tutulur.

yolla gəlib-gedənlərdən və hər hansı bir şəhərin sakinlərindən kiminsə malını oğru və quldur apararsa, onda oranın hakimi təhqiqat aparıb, həmin malları aşkar edərək, sahibinə qaytarmalıdır; əks təqdirdə isə [mal sahibinə] dəymiş zərəri [o yerin hakimi] özü şəxsən ödəməlidir. [Şah Abbas] bu qaydanı bütün məmləkətlərdə tətbiq edibdir. Bu səbəbdən də xalqın malları mühailzə altındadır və dünya sakinlərinin «məmaliki-məhrusə»yə gəliş-gediş qapıları açıqdır.

Bundan başqa, [Şah Abbas] komandanlıq qaydaları və tədbirlilik üsulu baxımından zəruri bir şərtə çevirib ki, əgər o həzrət hər kimdən bir sual edərsə, həmin şəxs yalan deməkdən və xəyanət etməkdən çəkinib, doğru və düzgün cavab verməlidir. Bir halda ki hər hansı bir adamla danışanda yalan demək Allahın qarşısında pis və nalayiq bir işdirsə, bəs onda zamanın padşahına və vəlinemətə yalan danışmaq nə cür nalayiq olmasın və nankorluq hesab edilməsin?! O həzrətin əqidəsincə, öz vəlinemətinə yalan demək nankorluğun böyük bir parçasını təşkil edir. Əgər hansısa bir kəs yalan və həqiqətə zidd iradələr işlətsə, yalanın üzə çıxdığı andan sonra onun cəzalandırılması barədə mütləq surətdə təxirə salınmadan hökm verilir, o, rədd olunmuş şəxs elan edilir və bunun nəticəsi sələflərdən xələflərə sirayət edir. [Şah Abbas] bu məsələdə son dərəcə qətiyyətli və kəskindir. Əgər bir şəxs mükafatı qətldən başqa bir cəza olmayan bir neçə pis əməl törədərsə və o həzrət ondan işin həqiqəti barədə soruşarsa, o biçarənin doğru deməkdən savayı əlacı yoxdur. Camaat inanır ki, əgər bir kəs o həzrətə yalan desə, həmin an qeyb aləminin xəbər gətirənləri bu barədə ona xəbər verərlər. Heç bir fırıldaqçının xəyalından keçmir ki, o həzrətə tərkibində bir az da olsun yalan ləkəsi olan bir söhbət ərz edə bilsin. Bu məsələnin cahandarlıq və ədalətlilik işlərində nə dərəcədə faydalı olduğunu bəyan etməyə ehtiyac yoxdur.

## VIII MƏQALƏ:

## O HƏZRƏTİN SADƏLİYİ, DƏRVİŞ XASİYYƏTİNƏ MALİK OLMASI, TƏVAZÖKARLIĞI VƏ BİR-BİRİNƏ ZİDD GƏLƏN XÜSUSİYYƏTLƏRİ ÖZÜNDƏ CƏMLƏŞDİRMƏSİ HAQQINDA

Bu kama yetmiş şəhriyar zəmanə əhlinin qaydalarının əksinə olaraq, su ilə atəşi bir-birinə qarışdıraraq, bir-birinə zidd gələn xüsusiyyətləri özündə cəmləşdirə bilib. Belə ki, o, son dərəcə hiddətli təbiət, odlu-alovlu xasiyyət, qüvvət, əzəmət, şövkət, cah-calal və padşahlıqla yanaşı, özündə olduqca mülayimliyi, yumşaqlığı, dərviş xarakterini və sadəliyi cəmləşdirmişdir.

«Onun elə yaxşı xasiyyəti var ki, onun gözündə
Şahlıq taxtı ilə dərvişlik nəti[1103] eyni biçimdədir.»

[1103] Nət – dəri xalça.

O, mülayim və həlim olduğu vaxtlarda saray adamlarına, nədimlərə, mülazimlərə və başqalarına o qədər təvazökar və məxsusanə tərzdə yaxınlıq göstərər və qaynayıb-qarışar ki, sanki, onlarla dost və qardaşdır. Lakin digər əhvalda olanda, xüsusən də qüvvət, əzəmət, qüdrət və cah-calal halında onun mübarək alnında elə qəzəb əlamətləri parlayır ki, onunla həmsöhbət, yoldaş və həmdəm olmuş və ondan dostcasına, qardaşcasına və təvazökarcasına rəftar görmüş həmin adamların həddi və ixtiyarı olmur ki, azacıq cəsarət, cürət və ədəbsizlik kimi anlaşıla bilən bir nisbətsiz söz dilə gətirə bilsinlər. Hətta əmirlər və sultanlar, bəlkə, şairlər və nədimlər də həmin vaxt kəlmə demək və söz danışmaq cürətini ağlasığan bir iş hesab etmirlər və gözləyirlər ki, görək nə olar. O, bu iki xasiyyəti bir-birinə cəm edərək, yüksəklik tağı üzərinə qoyubdur.

**Beyt**

«Gah təvazökarlıqda sufilik əhli kimidir,
Gah da ki, qəhr odu ilə hökmdarları yandırır.
Lovğalıq yolundan yüyənini çəkibdir,
Təkəbbür və mənəmlikdən ətəyini yığıbdır.
Özündənrazılığa və təkəbbürə meyli yoxdur,
Bu səbəbdəndir ki, aləmdə üstündür.»

## IX MƏQALƏ:

## XİDMƏTKARLARIN HÜQUQLARINI TƏMİN ETMƏSİ VƏ ONLARIN MÜLKİYYƏTLƏRİNDƏN UZAQ DURMASI HAQQINDA

O həzrətin yaxşı xüsusiyyətlərindən biri də sədaqətlə bəzənmiş bütün mülazimlərə münasibətdə şəfqət və mərhəmət göstərməsi, halallıq və doğruluq tərzinə malik xidmətkarların və fədakarların hüquqlarını gözləməsi və onların könlünü xoş tutub hörmət bəsləməsidir. O, bu məsələni əvvəldən indiyəcən nəzərdə və diqqətdə saxlayıb. O, bu tərifəlayiq davranışa o dərəcədə riayət edir ki, zəmanə sultanlarından və comərdlik sahiblərindən heç birinin bu barədə o həzrətlə bərabərlik səviyyəsi yoxdur. Əgər hər kim halallıqla və lazımınca öz məsləyində sabitqədəm olarsa, ondan şahanə hüsn-rəğbət əsirgənməyəcəkdir. Əgər kimdənsə biliksizlik və qəflət üzündən bir xəta, zillət və təqsirkarlıq baş verərsə, onu birbaşa surətdə şəfqət və rəğbət yolundan kənar etməz və hövsələliklə onu şahanə əfv və bağışlanmaya məruz qoyub, öz şərəfli xatirini onun barəsində qübara aludə etməz. Əqidə sahiblərindən və xidmətlər göstərmiş fədakar mülazimlərdən hər biri həyat vədəsini əcəl zərurətinə tapşırdıqda və ya din və dövlət yolunda baş verən bir müharibədə yetərincə dəyərli bir əmlak olan can nəqdini sədaqət yolunda qurban

və fəda etdikdə onların xələflərinə onların özlərinin təvəqqe etdiklərindən də artıq sayğı göstərir və əgər həmin ölən şəxslər ali mənsəblərə sahibidirlərsə, onların oğulları hələ azyaşlı olduqları üçün vəzifəyə layiq olmadıqlarına baxmayaraq, öz zatının comərdliyi və təbiətinin mürvəti ilə onların nəslini dirçəltməkdən ötrü həmin mənsəbləri onların oğullarına həvalə edir.

Dünyəvi mallar və tədarüklər onun alicənablığının aqibəti görə bilən nəzərlərində olduqca dəyərsiz və az etibarlıdır. Əgər sədaqət şüarlı ölülərdən əmlak («alaf və ülufi») qalmış olsa, o, əksər sultanların əksinə olaraq, öz alicənablığının çoxluğu, mürvət qaydasının zərurəti və şəriət ədəblərinin gözlənilməsi baxımından [həmin əmlaka] iltifat nəzərləri ilə baxmadan onun varislərinə təhvil verər ki, Allahın buyruğuna uyğun şəkildə varislər arasında bölüşdürülsün. Həqiqəti görənlərin və işdən agah olanların nəzərində bu gözəl davranış bütün üstün xüsusiyyətlərdən və yaxşı keyfiyyətlərdən öndədir. Çünki yeddi iqlimin əksərində cahan sultanları bu comərdliyi haqqı tanımağın və hüququ gözləməyin ən təməl qaydası hesab edirlər. Bu səbəbdəndir ki, Rəbbin köməyinin və asimandan gələn yardımın sayəsində o, qüvvətli və müfəvvəq olubdur.

## X MƏQALƏ:

## ONUN XOŞ TƏBİƏTİ, ALƏMİN ƏHVALI VƏ İNSAN TƏBƏQƏLƏRİNİN VƏZİYYƏTİ İLƏ TANIŞ OLMASI HAQQINDA

Səltənət və cahandarlıq işlərinin, xilafət və hökmdarlıq karxanasının məşğuliyyətlərindən rahat olduqda şərəfli vaxtını şənlik və şadyanalıqla keçirib, həmişə işrət axtarıb və məclis bəzəyib. Cavanlıq nəşəsinin zərurəti və kama yetmək yığıncağının bəzəyicilərinin təhriki ilə ləzzətli badəni qurtumlamaqdan və gümüş yanaqlıların, gül üzlülərin söhbətindən kam alaraq, həyat və yaşayış çəməninə hüzur və təravət verir. Lakin o, bu hərəkəti son dərəcə fərasət və huşyarlıqla yerinə yetirir, bir an belə məmləkət idarəçiliyi və səltənət məsələlərinin səviyyəsinin saxlanılmasından qafil olmur. İran məmləkətlərində və cahan ərazisində irili-xırdalı hər nə baş verərsə, sanki nurlu könlünə zühur şəfəqləri salır və elə bil, xəbərçilər təyin edib ki, vəziyyətin təfərrüatları barədə ona xəbər versinlər. Belə ki, bir kəsin qüdrəti yoxdur ki, öz mənzilində özünə yaxın adamlarla oturan vaxt deyiləsi mümkün olmayan bir söz deyə bilsin və qorxar ki, birdən bu söz [Şah Abbasın] cəlal qulağına çatar. Çünki dəfələrlə belə hadisə baş veribdir.

O, [dünyanın insanla] məskunlaşmış dörddə bir hissəsinin istər müsəlman, istərsə də qeyri-müsəlman padşahlarının əhvalından, onların qoşunlarının keyfiyyətindən və kəmiyyətindən, onların dinləri, ayinləri və məmləkətlərindən, hər diyarın yollarından, hər vilayətin xaraba və ya abad olmasından həqiqətdə olduğu kimi xəbərdar və məlumatlıdır. Əksər aləm sultanları ilə dostluq münasibətləri yaradıbdır. Ətraf [ölkələrin] padşahları uzaq Firəngdən, Rusdan və

Hinddən o həzrətlə ülfət və dostluq məqamında dayanırlar. Onun məhəbbəti dostların və düşmənlərin, doğmaların və yadların, say-seçmə və sadə adamların qəlbində vətən tutmuşdur. Heç vaxt onun sidrə misallı (uca) dərgahı sultanların elçilərinin gəliş-gedişindən, [dünyanın insanla] məskunlaşmış dörddə bir hissəsindən gələn töhfə və hədiyyələrdən xali deyildir. Bu yöndə o həzrətin mübarək nişanəli zamanında baş verən işlər onun ali dərəcəli ata-babalarının zamanlarında az-az meydana gəlibdir. O həzrətin hər bir təbəqəyə xüsusi mehribanlığı vardır. O, aləmin əksər məşhur və qeyri-məşhur dillərinə vaqifdir və hər tayfa ilə o tayfanın öz dilində danışır. Farsca şeiriyyatın bilicisidir. Şeiri yaxşı fəhm edir və qavrayır. Bəzən şeir nəzm etməyə məşğul olur. Musiqidə, ədvar, qövl və əməl elmlərində zəmanənin öndəgedənidir. O həzrətin təsniflərinin bəziləri mütrüblər arasında məşhur və məruf, saz əhli arasında dillər əzbəridir. O həzrət tərəfindən zarafat və təbiət xoşluğu tərzində çoxlu əlvan lətifliklər, zərifliklər və ürək oxşayan şirin sözlər söylənilmişdir.

## XI MƏQALƏ:

## ONUN XEYİRLİ ƏSƏRLƏRİ VƏ İMATRƏTLƏRİ TİKİB YARATMASI HAQQINDA

Dövran səhifəsində o həzrətdən çoxlu xeyirli əsərlər yadigardır. Təbiətən çeşidli xeyriyyəçilik işlərinə, saf əməllərə, sədaqələr verməyə və imarətlər inşa edib yaratmağa meyli vardır. Ədalətli bir hesabla ümumi qiymətli yüz min tümən olan bütün irsi əmlakını və özünün qazandıqlarını on dörd məsum əlahəzrətlərinə - onlara salam olsun - vəqf edib və onun labüd xərclərdən sonra yeddi-səkkiz min tümən təşkil edən [illik] gəlirini üləmaların, salehlərin, müqəddəs məkanların sakinlərinin ehtiyaclarının ödənilməsinə və s. məsrəflərə sərf edir və sərkari-hümayunun[1104] bütün sərvətinin, mülkiyyətinin və əmlakının üzərinə vəqf fərmanı çəkib, onların öz təyinatları üzrə xərclənmələrinə son dərəcə diqqətlə yanaşır. Sözsüz ki, bu məna sultanlar arasında məhz o həzrətin bəyənilmiş xüsusiyyətlərə malik zatına məxsusdur və sabiq zamanlarda və keçmiş qərinələrdə buna az-az təsadüf olunub.

Əksər məmləkətlərdə məscidlərdən, mədrəsələrdən, xeyriyyə mərkəzlərindən («bəqaül-xeyir»lərdən), fərəh bəxş edən, könül oxşayan mənzillərdən ibarət ali imarətlər tikdirib, cənnət görkəmli bağlar və bostanlar saldırıb və onların tamamlanmasına müvəffəq olubdur. Onların təfsilatı öz yerində qeyd olunacağına baxmayaraq, sözün uzanmasından çəkinməyərək, onların haqqında burada bir icmal təqdim edirik. Sözün qısası, [Şah Abbas] yüksək

[1104] Sərkari-hümayun - hökmdara məxsus mülkiyyət.

dərəcədə səliqəli imarətlərin tikintisində, şəhərlərin firavanlaşdırılması və abadlaşdırılmasında böyük həvəsə malikdir.
Onun müqəddəs və ulu Məşhəddə tərtib etdikləri bunlardır: [İmam Rzanın] müqəddəs astanasının genişləndirilməsi, yüksək eyvanların tikilməsi, onun ətrafındakı imarətlərin inşası, möhtərəm hərəmin nəqqaşlığı və bər-bəzəyi, xiyabanın yaradılması, xiyabanın ortasında nəhr düzəldilməsi, meydanın içində həmişə su ilə dolub-daşan və [İmam Rzanın] sidrə misallı (uca) məqbərəsinin zəvvarlarının və sakinlərinin xeyir-duasına səbəb olan böyük bir hovuzun düzəldilməsi, şəhərin kənarında Allah adamı olan ariflərdən Xoca Rəbi əl-Xisəmin şərəfli türbəsi üçün son dərəcə gözəlliyə və zinətə malik, yaraşıq və qəşənglikdə misilsiz bir memarlıq nümunəsi olan ali günbəzin tikilməsi, Şahpur Kəsri qədəmgahının və ona bitişik eyvan və imarətlərin tikilməsi, suyu yüksək dağlardan fəvvarə vuraraq tökülən bir hovuzun qurulması, xiyabanın yaradılması və ağacların əkilməsi. Bütün bunlar o ulu məkanın elə xüsusiyyətləridir ki, kim görsə, şadlanar.

***Darülirşad Ərdəbildə:*** övliyaların başçısı olan Şeyx Səfiəddin həzrətlərinin yüksək dərəcəli atası və Allahın kölgəsi olan əlahəzrət şahın onuncu əcdadı Seyid Cəbrayılın - Allah onun əziz sirrini müqəddəsləşdirsin - bərəkətli astanasının tikilməsi, [Şeyx Səfiəddinin] mübarək məqbərəsinin bərabərindəki platformada qızıl məhəccərin və gümüş məhəccərin çəkilməsi və mübarək məqbərənin digər bər-bəzəklərinin həyata keçirilməsi, Allah adamı olan ariflərdən Şeyx Zahid Gilani həzrətlərinin bol nurlu məzarının imarətinin yeniləşdirilməsi, övliyaların və din alimlərinin sultanı olan Şeyx Şihabədin Əhəri həzrətlərinin - [Allah] onun sirrini müqəddəsləşdirsin - şərəfli türbəsi üçün ali imarətin tərtib olunması və o feyz bəxş edən məqbərənin behişt asudəliyinə malik bağının salınması.

İsfahanda cənnət nişanəli quruculuq işləri aparmışdır. Əvvəla, şəhərdə ali bir came məscidi tikdirmişdir. [Bu məscid] Nəqşi-cahan meydanının cənub tərəfində yerləşir. Onun gödək tağı sanki Hərəmeynin (Məkkə və Mədinə ziyarətgahlarının) günbəzlərindən bir nişanədir və fələyin doqquz qübbəli tağına oxşardır. Onun üzərində işlənmiş mərmər daşlar o qədərdir ki, dünya ərazisinin səyyahları belə halı az-az nişan vermişlər. Xülasə, o cənnət görkəmli məbəd elə bir gözəlliyə və zinətə malikdir ki, Əqsa məscidi ona həsəd aparır. Dövlətxana dərgahının bərabərində olduqca zinətli və səfalı digər bir məscid, meydan ətrafında mədrəsə, darüşşəfa (xəstəxana), hamamlar, qeysəriyyə və bazargah da tikdirmişdir. Bundan başqa, eyvanlar, ali karvansaraylar, dövlətxanadakı beş təbəqə dərgahı, «Sərvistan», «Nigaristan» və «Güldəstə» adlanan zərnigar xəlvətxanalar, Pənc-təbəqə («beşmərtəbə») imarəti və hovuzxanalar tikdirmişdir. Təxminən bir fərsəx uzanan Çaharbağ adlı xiyaban tərtib etdirmiş, həmin xiyabanın hər iki tərəfində bağlar və bostanlar saldırmış və hər bağın içində ali imarətlər yaratmışdır. Sözügedən xiyabanın ortasından Zayəndərud çayı üzərində qırx sütunlu böyük bir körpü çəkdiribdir ki, dünya ərazisinin səyyahları heç bir vilayətdə ona tay və bərabər ola bilən bir körpü görməmişlər. Həmçinin İsfahan şəhərinin cənub-qərb

kənarında təbrizlilərin məskunlaşması üçün Abbasabad şəhəri saldırmışdır. Ora olduqca səfalı, əyləncəli və şən bir yerdir və orada elə arxlar şəbəkəsi var ki, cənnət bağları onlara həsəd aparırlar və bu arxlar cahan şöhrəti qazanmışlar. Daha sonra, Baği-Kumə («koma bağı») saldırıb ki, sanki onun suyu və gülü eyş-işrətlə yetişdirilib və şadlıq toxumunu orada əkiblər. Bundan başqa, Baği-Vəhş (heyvanxana, heyvanat bağçası) düzəltdirib, Govxanı ribatını[1105] tikdirib və İsfahanın Vərzənə və Rudəştin [məntəqələri] ilə Yəzdin Nəduşən [məntəqəsi] arasında həmişə yolkəsənlərin qorxusundan gedib-gələnlərin xof və xətər yeri olan Xərquşi xiyabanında digər bir ribat tikdirib.

***Darüssəltənə Qəzvində:*** dövlətxana və xəlvətxana dərgahları, Ali Novkarvansaray («yeni karvansaray») adlanan ikimərtəbəli zərnigar bina, Səadətabad meydanının şərqində və qərbində Cahannüma imarətləri.

***Kaşanda:*** bir neçə imarətdən ibarət dövlətxanının behişt asudəliyinə malik mənzillərinin və talvarının tikilməsi, bununla yanaşı, könül açan bağların, hamamların, karvansarayın, Qəhrud bəndinin, Ribati-Səngin («daşlı ribat»), Ribati-Siyahkuh (Siyahkuh ribatı) salınması. Bundan əlavə, Nəməksar və Siyahkuh yolunun düzəldilməsi üçün təxminən on min tümənə yaxın [vəsait] sərf edilmiş, neçə fərsəx yol daş və əhənglə möhkəmləndirlmiş və [həmin yolla] gedib-gələnlərin xeyir-duasına səbəb olmuşdur.

Cənnət nişanəli Mazandaranda, dərya kənarında behişt təbiətli Fərəhabad [şəhərini] saldırmışdır[1106]. Təcinərud çayı onun içindən keçir və o cənnət nişanəli şəhərdən Sari şəhərinədək uzanan dörd fərsəxlik yolda ali körpü və xiyabanlar tərtib etdirmiş və daşla döşətdirmişdir. Onun oradakı hər bağda tikdirdiyi ali imarətlərin sayı-hesabı yoxdur. Həmin cənnət nişanəli şəhərdə fərəh bəxş edən behişt misallı dövlətxana, bazargah, hamamlar inşa etdirmiş və bağlar saldırmışdır. O şərəfli şəhərin zövq-səfasının çoxluğu səbəbindən camaat, ortabab adamlar və sənət sahibləri o gözəl şəhərdə məskunlaşmağa rəğbət göstərmişlər və ətrafdan və qıraq-bucaqdan neçə min müsəlman və qeyri-müsəlman oraya gələrək, əyyamın hadisələri qarşısında hökmdarın ədalətinin kölgəsi altında daldalanacaq axtarmışlar. Bu gün o əzəmətdə, o şövkətdə və o izdihamda bir şəhər məlum deyildir ki, islam ərazilərində olmuş olsun. Həmçinin Saridə və Amolda rəğbət doğuran imarətlər və bağlar, Barfüruş kəndində dəryaça və ali imarətlər, Əşrəf [qəsəbəsində] gözəllik və zinətlə süslənmiş evlər, bağlar, çeşmələr tərtib etdirmişdir. Oradakı bağın eyvanında bir hovuz tikdirib ki, onun suyu hündür məkanlardan qəribə üsullarla gətirilərək, gümüş hovuza tökülür. Bundan başqa, adı çəkilmiş [Əşrəf] qəsəbəsinin yarım fərsəxliyindəki Bağat adlı uca bir məkanda bağlar, hamamlar və imarətlər düzəldilib. Orada zallar, eyvanlar, dəryaçalar,

---

[1105] Ribat - yolçuların gecələyib qalması üçün nəzərdə tutulan bina.

[1106] Fərəhabad şəhərinin yerində əvvəllər Tahunə qəsəbəsi yerləşirdi (bax: Aləmara-ye Səfəvi, s.323; N.S.Musalı. «Tarix-i aləmara-yi Şah İsmayıl» əsərinin yazılma tarixinə dair // AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun «Elmi araşdırmalar»ı, Bakı, 2005, VII buraxılış, № s 3-4, s.224).

fəvvarələr, hamamlar, cənnət görünüşlü bağçalar var ki, onlara nəzər saldıqda ağıl gözünü heyrət bürüyür. İsfahandan Əşrəf qəsəbəsinədək yolun hər dörd fərsəxlik mərhələsində yaşayış evlərindən, büyutatdan və bağçalardan ibarət olan bir imarət tikdirib ki, onların əksərində hamam vardır və oradakı bütün büyutat hökmdarın gəlişi zamanı onun ehtiyaclarını təmin etmək üçün hazırdır.

Astarabad qəsəbəsində dövlətxana imarəti tikdirmiş, Nətənzdə Tacabad bağını, onunla yanaşı dərgah imarətləri, yuxarı otaqlar, bağını saldırmış, Təbrizdə Eynəli və Zeynəli məqbərəsinin taxtgahını inşa etdirmiş və cənnətməkan şahın məscidinin imarətini yeniləşdirmiş, Həmədan hüdudunda yeni Çəmçal şəhərini saldırmış və Bisütun dağının[1107] ətəyində [imamların İraqdakı] ali məqbərələrini ziyarətə gedən zəvvarların qalması üçün bir ribat tikdirmişdir.

Sadalanma yazılıb sona çatdı. Ümid odur ki, onun xeyirli binalarının hər biri xoşbəxtlik və səadət səbəbi olsun və onun əsərləri dövran səhifələri üzərində yadigar qalsın.

## XII MƏQALƏ:

## ONUN SƏADƏTLİ HAKİMİYYƏTİ ZAMANININ HADİSƏLƏRİNİN, MÜHARİBƏLƏRİNİN VƏ FƏTHLƏRİNİN BƏYANI HAQQINDA

Bütün məsələlər barəsində o həzrətin ümidi ilahi dərgahadır. Buna görə də ona həmişə fəth, qələbə və zəfər nəsib olub. Səadət vərdişli hakimiyyətə gəlişinin əvvəlindən bu günə kimi fəth qapıları o həzrətin arzu-dilək üzünə açıq olub. O həzrətin cahandarlıq əyyamında böyük hadisələr və güclü müharibələr baş verib və o, məmləkətləri öz çalışqanlıq qolunun zoru ilə istila hövzəsinə keçirib. Həmin hadisələr bu əsərin sonrakı hissələrində öz yeri gəldikcə qələmə alınacaqdır. Burada isə uğurlu və bərəkətli bir şəkildə həmin hadisələrin icmalına dair məlumat verilir.

Müxtəsər, onun səltənət taxtına əyləşməsinin başlanğıcında dövlət sarayının gül bağçası çör-çöplə və zir-zibillə bulaşıb, şənlik və sevincdən məhrum olmuşdu və bəzi aqibətsiz özbaşınalar qiyamçılıq edərək, zorakılıq və təkəbbür bayraqlarını qaldırmışdılar. Bu üzdən [Şah Abbas] evin içindəki düşmənlərin dəf olunmasını lazım və vacib bilib, səltənətin mərkəzindən İsfahana və oradan da Şiraza hərəkət edərək, İstəxr qalasına sığınmış Yaqub xan Zülqədəri və Kirman qalasına sığınmış Yusif xanı dəf edib, ger qayıtdı. Daha sonra Dövlətyar Siyahmənsurun qalasının zəbt olunmasına və o tüğyançı alçağın dəf edilməsinə səy göstərib, fəth və zəfər qazandıqdan sonra onun qalasını yerlə yeksan etdi və onun özünü də öldürtdü. Ondan sonra Lahican Gilanının valisi Xan Əhməd müxaliflik əlamətləri nümayiş etdirib, Rum padşahına üz tutdu. Bu səbəbdən [Şah Abbas] o vilayətin zəbt olunması üçün qoşun göndərdi, onu məmləkətdən xaric etdi, o vilayəti ələ keçirdi

[1107] Bisütun dağı - Həmədan şəhərindən təqr. 100 km qərbdə yerləşir.

və oranı həmin [Gilan] vilayətinin ümumi ərazisinin üzərinə əlavə edib, bütün Gilan ərazisini tüğyan sahiblərinin zir-zibillərindən pak etdi. Bayandur xanın oğlu Əmir Həmzə xan Talış Səndan qalasını ələ keçirmişdi və istiqlaldan dəm vururdu. [Şah Abbas] oranı öz tədbirinin gözəlliyi və nur saçan qəlbinin düzgün fikir yürütməsi sayəsində zəbt etdi. Bunun ardınca, o, məliklər arasında bölüşdürülən və həmişə çaxnaşma və qovğa yeri olan öz irsi mülkü Mazandaranın və Rüstəmdarın asimana ucalan qalalarının fəthi üçün o qalaların divarları üzərindəki dişlərə çalışqanlıq kəməndini tullayaraq, uğurlu bəxtinin gücü ilə onları «məmaliki-məhrusə»yə daxil edib, əmin-amanlıq məkanına çevirdi. Daha sonra Luristan tərəfə qoşun çəkib, tüğyan və üsyan əlamətləri nümayiş etdirən Şahverdi xan Luri-Abbasini ələ keçirdi və onların sülaləsinin başından tüstü çıxartdı. Məmləkətləri və yolların ətrafını hər tayfadan olan dövlətə qarşı itaətsizlik göstərənlərin çör-çöpündən və zir-zibilindən pak etdikdən sonra Xorasan yürüşünə hazırlaşmağa başladı.

Abdulla xan Özbəyin oğlu Əbdülmömin xan bir-iki dəfə Xorasana gəlib, Nişapur, İsfərayin və s. qalaları zəbt etməyə cəhd göstərmişdi. Bu üzdən qələbə ayətli bayraqlar onu dəf etməyə tələsdi. O, (yəni Əbdülmömin xan) özündə müqavimət göstərmək gücü görmədi və qalibiyyətli qoşuna qarşı döyüşə girmədi. Nəhayət, dünyanı tutan məiyyət darüssəltənə Herata yollandı. [Şah Abbas] Salar körpüsü və Pəriyan ribatı yaxınlığında Canibəy sultanın oğlu, Abdulla xanın isə bacısı oğlu olan və Əbdülmömin xanın öldürülməsindən sonra darüssəltənə Heratda hökmranlıq kürsüsünə əyləşən Din Məhəmməd xana qarşı döyüş aparıb, müzəffər və qalib oldu. Din Məhəmməd xan döyüş meydanında yaralanıb, axirət səfərinə tələsdi. Axırda Xorasan mülkü əbədi təməlli [Səfəvi] dövlətinin valilərinin ixtiyarına keçdi. [Şah Abbas] oradan Astarabad üzərinə hərəkət edib, o vilayətin tüğyançılarını ortadan qaldıraraq, siyahpuşluq adətini ləğv etdi.

Növbəti ildə o həzrətin yardımı ilə öz irsi mülkünün səltənətinə nail olmuş Mərvi-Şahicahan valisi Nur Məhəmməd xan üsyan qaldırıb, müxaliflik əlamətləri nümayiş etdirdi. Müzəffər məiyyət o vilayəti zəbt etməyə yollanıb, oranı ələ keçirdi və Əbivərd, Nisa, Bağbad, Dürun[1108] və Mərv qalalarını Xorasan məmləkətlərinə əlavə etdi. 1010-cu ilə (02.07.1601 - 20.06.1602) müvafiq gələn pars ilində[1109] [Şah Abbas] özbəkləri cəzalandırmaqdan və onların vilayətini xaraba qoymaqdan ötrü Bəlx tərəfə qoşun çəkib, öz mətanət və istehkamına görə cahanda şöhrət qazanmış və onu tutmaq iradəsi göstərən əvvəlki sultanların altı aydan az müddətdə fəth edə bilmədikləri Əndixud qalasını bir gün mühasirədə saxlayıb, ikinci gün fəth etdi və iyirmi gün ərzində Bəlxin kənarında düşərgə qurub dayandı.

---

[1108] Dürun - indiki Türkmənistan ərazisində yerləşmiş orta əsr qalası. Hal-hazırda Aşqabad vilayətinə daxil olan bir qəsəbədir. Aşqabad və Qızılarvad şəhərləri arasında yerləşir.

[1109] Pars ili 21.03.1602-20.03.1603-cü ilə müvafiqdir. İsgəndər bəy Münşi burada və əsərin bəzi digər yerlərində türk təqviminin hicri təqviminə uyğunluğunu göstərərkən türk ilinin başlanğıcı olan Novruz bayramının hicri təqvimlə hansı ilə düşdüyünü bildirməklə kifayətlənmişdir.

Mavəraünnəhr və Türküstan padşahı olmuş Din Məhəmməd xan Özbəyin qardaşı Baqi xan şəhərə sığınaraq, özündə döyüşə atılmaq cürəti tapmadı. [Şah Abbas] o vilayətin ərazisini hadisələrin taracına verib, geri qayıtdı.

Onun şahanə qeyrət mizanında və padşahanə şərəf tərəzinsində heç cür vəznli gəlmirdi ki, qızılbaşların neçə illik gorxanası olan irsi Azərbaycan və Şirvan məmləkətləri rumilərin işğalı altında qalmış olsun. Həmçinin [Osmanlıların] sərhəd əmirləri və paşaları özlərini böyük-böyük apararaq, xoşagəlməz davranışlar nümayiş etdirirdilər. Bunlar əvvəlki əhdü-peymanın nöqsana uğramasına səbəb oldu. 1011-ci ilə (21.06.1602 - 10.06.1603) uyğun gələn tovşqan ilinin payız fəslində[1110] [Şah Abbas] o vilayətin geri alınması əzmi ilə hərəkətə gəlib, Təbriz şəhərinin kənarında Əli paşaya qarşı döyüş apararaq, onu məğlub və əsir etdi, onun qoşununu isə qılınca yem elədi və Təbriz qalasını mühasirədən sonra ələ keçirdi. Oradan Naxçıvana yollanıb, oranın qalasını zəbt edəndən sonra İrəvan qalalarının mühasirəsi ilə məşğul oldu. Mühasirə müddəti yeddi ay çəkdi. Axırda uğurlu bəxtin gücü ilə üç qaladan ibarət olan mətin və möhkəm İrəvan qalasını fəth edərək, Çuxursəəd vilayətini və oraya tabe olan əraziləri ələ keçirdi.

1013-cü ilə (30.05.1604 - 18.05.1605) uyğun gələn yılan ilində[1111] [Şah Abbas] Van bölgəsində yerləşən Rum sərdarı Ciğaloğlunun üzərinə qohun göndərdi. Van şəhərinin kənarında tərəflər arasında vuruşma baş verdi. Ciğaloğlu məğlub olub, fərar vadisinə üz tutdu və Rum məmləkətlərinin qoşunlarını cəmləşdirərək, həmin ilin payızının axırlarında Təbriz səmtinə hərəkət etdi. [Şah Abbas] yanında böyük qoşunu olan Rum sərdarı ilə Təbriz yaxınlığında qarşılaşdı və Rum sərdarına qarşı döyüş aparıb, onun hədsiz və saysız qoşunu üzərində qələbə qazandı. Ciğaloğlu məğlub və pərişan halda Diyarbəkrə qaçıb, orada vəfat etdi.

Bu görkəmli qələbədən sonra [Şah Abbas] Qarabağ tərəfə qoşun çəkib, Gəncə qalasını mühasirə etdi. Dörd-beş aydan sonra o, həmin hündür qalanı ələ keçirdi və qalanı müdafiə etməkdə səy həmin hündür qalanı ələ keçirdi və qalanı müdafiə etməkdə səy göstərmiş qala hakimi Məhəmməd paşanı mühasirədəki [rumilərlə] birlikdə məhv etdi. Oradan Tiflis və Tumanus qalalarının, Gürcüstanın və Lori[1112] qalasının zəbt edilməsinə yollandı. Qiyamət əlamətli qoşunun təzyiqindən o qalaların paşaları və mühafizəçiləri lərzəyə düşüb, aman diləməkdən və qalaları təslim etməkdən başqa çarə tapmadılar. [Şah Abbas] həmin qalaları ələ keçirib arxayın olduqdan sonra Şirvan məmləkətinin qalalarının zəbt olunmasına üz tutdu və Şamaxı qalasını qışın ortasında və qarın, yağışın yağıntısının çoxluğu

---

[1110] Tovşqan (dovşan) ili 21.03.1603-20.03.1604-cü il tarixlərinə təsadüf etdiyindən burada söhbət 1603-cü ilin payızından gedir.

[1111] Yılan (ilan) ili 21.03.1605-20.03.1606-cı il tarixlərini əhatə edir.

[1112] Tumanus - Gürcüstanın cənubunda, Xrami çayının yuxarı axarlarında yerləşən indiki Dmanisi şəhəri. Lori - indiki Ermənistanın şimalında, Samtsxeti silsiləsindən cənubda, Debed çayının sahilində, tarixi Borçalı mahalının ərazisində yerləşən qala.

zamanında mühasirəyə alaraq, tavanının və divarının hündürlüyü barədə fələklər fələyi ilə bərabərlik iddiasında olan o uca təməlli qalanı öz çalışqanlıq qolunun zoru və uğurlu bəxtinin gücü ilə fəth edib, qala hakimi Əhməd paşanı mühasirədəki bütün rumilərlə birlikdə qətlə yetirdi. Daha sonra Dərbənd və Badikubə qalalarını, eləcə də Şirvanın digər qalalarını zəbt etdi.

Rumiyyə camaatı bir neçə dəfə padşahın qalibiyyətli təzyiqi və hücumunu müşahidə edərək bir iş görə bilmədikdə vəziri-əzəm Murad paşa sərdar oldu və Təbrizin üzərinə gəldi. Lakin o da Təbriz qalası ətrafında bir iş görə bilmədi və sülh istədi. Paşalar, xüsusən də Nüsuh paşa nümayəndələr göndərib, bu (Səfəvilər) tərəfdən sülh izhar olunmasını xahiş etdilər. O həzrət (Şah Abbas) da artıq irsi məmləkətlərini ələ keçirdiyinə görə məmləkətin sabitliyinin təmin olunması, hərbçilərin və rəiyyətin əhvalının yoluna qoyulması baxımından sülhə rəğbətlənmişdi. Beləliklə, tərəflər arasında elçilər gəlib-getdilər və cənnətməkan şah zamanının qaydasına uyğun saziş bağlandı.

Bu vilayət nişanəli [Səfəvi] sülaləsinin vassalları olan Gürcüstan valiləri Luarsab və Təhmuraz üsyan qaldırdıqlarından kafir gürcüləri tənbeh etmək və cəzalandırmaq şaha borc oldu və o, cihad və qəzavat niyyəti ilə Gürcüstana qoşun çəkdi. Luarsabın özü və Təhmurazın oğulları ələ keçirilərək, cəzaya çatdırıldılar. [Təhmurazın] özü isə Başıaçıq tərəfə qaçıb, Ruma tabe olan gürcü hakimlərinə pənah apardı. Neçə dəfə rumilərin qeyri-sabit sülhü onun və bəzi Şirvan tüğyançılarının fəsadları nəticəsində pozuldu. Hökmdar məiyyəti geri qayıtdıqdan sonra Təhmuraz islam əhlinə qarşı azğınlıqlar törətdi. [Şah Abbas] yenidən qəzavat və cihad bayraqlarını dalğalandırıb, o diyara qoşun çəkdi və kafir gürcü ölkəsində Təhmurazın vilayətini intiqam qılıncından keçirdi. O [gürcü] tayfasından yüz mindən artıq qadın və qız əsir düşüb, islam şərəfini qazandı. [Şah Abbas] onun vilayətinin cəmiyyətinin firavanlığını xarab və viran etdi. O diyarda nə səssizdən (cansızdan), nə natiqdən (canlıdan) bir nişan qalmadı. Kafirliyin və [kilsə] zənglərinin üslubu alt-üst oldu. Xülasə, [Şah Abbas] o tayfanın başından tüstü çıxartdı. Təhmuraz bəxtsizlik diyarının avarası oldu.

Rumilər əhdə vəfa etməyib, qızılbaşların üzərinə «Öküz Məhəmməd» [adı] ilə məşhur olan vəziri-əzəm Məhəmməd paşanın sərdarlığı altında böyük qoşun göndərdilər. O, İrəvana gəlib, iki ay müddətində İrəvan qalasını mühasirədə saxladı və dəfələrlə [qala üzərinə] güclü həmlələr etdi. Lakin qüvvətli [qızılbaş] dəstələrinin basqınları, qala əhlinin mərdanəliyi və səadətli məiyyətin igidlikləri rumiləri asudə qoymurdu. Bu səbəbdən [rumilər] bir iş görə bilməyib, məyus və uğursuz bir halda geri qayıtdılar. [Bu yürüş zamanı] onların neçə min əsgəri məhv oldu və mötəbər rumiyyə sərdarları qətlə yetirildilər.

Şah Abbasın hakimiyyətə gəlişi tarixindən ta 1025-ci (1616) ilə müvafiq olan bu səhifənin yazılması tarixinə qədər olan müddət o həzrətin hökmdarlığının birinci xoşbəxt qərinəsidir. [Yuxarıda] qeyd olunmuş hadisələr həmin qərinədə baş vermiş hadisələrdir. [Şah Abbasın hakimiyyətinin] birinci qərinəsi [əsərin] ikinci

cildində yerbəyer qələmə alınıbdır. O həzrətin [hakimiyyət] zamanının ikinci qərinəsinin başlanmasından sonra cərəyan edən hadisələr isə ikinci cildin ikinci hissəsində yazılmışdır. İndi həmin ikinci qərinədə baş vermiş hadisələr qısaca olaraq, bu səadətli dibaçəyə əlavə edilib, səhifələrə bəzək vuran qələmlə qeydə alınacaqdır.

Xülasə, rumilər əhdlərini pozmaq fikrinə düşüb, əhdü-peymanın təməllərinin möhkəmləndirilməsindən sonra Əcəm diyarına yenidən qoşun çəkərək öz mətləblərinə çatmadan İrəvandan geri qayıtdıqda bununla kifayətlənmədilər. Onlar Krım padşahı Cani-bəy Gəray xan[1113] başda olmaqla tatar qəbiləsininin onlara kömək göstərməsini tələb etdilər. 1027-ci (1618) ildə yenidən Rum, Misir və Şam məmləkətlərindən və sərhəd kürdlərindən çoxlu qoşun toplayıb, həmin qoşunu vəziri-əzəm Xəlil paşanın başçılığı altında sözügedən Canibəy Gərayın iyirmi minlik tatar ordusu ilə birlikdə qızılbaşlar üzərinə göndərdilər. Üfüqlər xosrovu [Şah Abbasın] səadətli məiyyəti o izdihamlı güruhu qarşılamaq üçün darülirşad Ərdəbildə məskən saldı və qüvvətli dəstələr İran qoşununun sipəhsaları Qarçığay xanın sərdarlığı altında onlara qarşı döyüşə göndərildi. Qalibiyyətli əsgərlərlə Ərzurum bəylərbəyisi Həsən paşanın və Canibəy Gəray Tatarın başçılığı altında Sərab vilayətinə gəlmiş əlli min nəfər rumi və tatar arasında döyüş baş verdi. Bu tərəfdən [qızılbaş əsgərləri] aslanlar kimi döyüş səfləri tərtib etdilər, böyük bir vuruşma oldu və qeyb aləminin ordusunun imdadı ilə müxaliflər məğlubiyyətə düçar oldular. Mötəbər paşaların sərdarı olan Həsən paşa öldürüldü. Bir çox tatar əmirzadələri və saysız-hesabsız kürdlər qətlə yetirildi. Canibəy Gəray yaralı halda aradan çıxdı. Bu qəmli hadisədən qorxuya düşən Xəlil paşa əvvəlki şərtlə sülh bağlanmasını xahiş etdi və xeyirxah düşüncəli adamlar ortalıqda gəl-get etdikdən sonra yenidən sülh bağlandı.

Xorasanın Qəndəhar və Zəmindavər vilayəti Hindistan məmləkətlərinin hökmdarının ixtiyarına keçdiyindən [Şah Abbas] aralıqda olan köhnə dostluğu nəzərə alaraq, bir necə dəfə həmin əraziləri geri qaytarmaq barədə dostcasına təkliflərlə çıxış etdi. Lakin qarşı tərəf bunu qulaqardına vurdu. Bu üzdən şahın şərəf hissi həmin işin daha artıq təxirə salınmasına yol vermədi. 1030-cu ildə (26.11.1620- 15.11.1621) o, həmin vilayətə qoşun çəkib, Qəndəharı və Zəmindavəri Hindistan hökmdarı Cəlaləddin Əkbərin oğlu olan Şah Səlimin əlindən aldı.

Həmçinin həmişə İran şahlarının hakimiyyəti altında olmuş, Süleyman şanlı xaqan Şah İsmayılın zamanında və cənnətməkan şahın zamanının əvvəllərində qızılbaşların ixtiyarında olan və daha sonra rumilər tərəfindən zəbt edilmiş İraqi-Ərəb vilayətini də [Şah Abbas] geri aldı. Belə ki, [Osmanlıların] Bağdad ordusu Rum padşahına yağı çıxdı və oraya (İraqi-Ərəbə) nəzarəti ələ keçirdi. [Şah Abbas] 1031-ci ildə (16.11.1621 - 04.11.1622) Bağdad üzərinə qoşun çəkib, darüssəlam

---

[1113] Canibəy Gəray xan 1610-1623 və 1627-1637-ci illərdə Krım xanı olmuşdur.

[Bağdadın] qalasına yiyələndi və İraqi-Ərəbi öz nəzarəti və ixtiyarı altına salıb, Nəcəf bölgəsində Həzrəti-şahənşahın (İmam Əlinin) müqəddəs rövzəsini, «Ali-əba»nın beşincisi olan şəhidlər ağası [İmam Hüseynin] məzarını və Kazimeyn, Əskəreyn məqbərələrini - onların hamısına salam olsun - ziyarət etmək şərəfinə nail oldu.

Bu zaman dövlətə qarşı itaətsizlik göstərən gürcülərdən Murav adlı birisi qarşıqlıq saldı. O, illərlə əşrəfin xidmətində əziz və möhtərəm vəziyyətdə olmuşdu. 1033-cü ilə (25.10.1623 - 13.10.1624) müvafiq gələn siçqan ilində sipəhsalar Qarçığay xan Gürcüstanın zəruri məsələlərini nizama salmaq üçün Şirvan və Qarabağ əmirləri ilə birlikdə oraya göndərildikdə sözügedən bədbəxt (Murav) da o vilayətin işlərindən məlumatlı olduğuna və etimadlı şəxs sayıldığına görə onlara yoldaş edildi. Lakin o bədbəxt nankorluq edib, bir dəstə gürcü fəsadçısı ilə əlbir oldu, Qarçığay xana və əmirlərə qarşı xəyanət etdi, fürsət tapan kimi, qəflətən, sözügedən sipəhsaları və Şirvan bəylərbəyisi Yusif xanı qətlə yetirdi və üsyan qaldırdı. O sərhəddə onun və üsyançı güruhun tərəfindən çoxlu azğınlıqlar törədildi. O, rumilərdən dəstək axtarıb, Rum padşahına tabeçiliyini bildirdi. Şahənşahın iti qılıncının qorxusundan fərar edən və Ruma tabe olan gürcülər arasında avara və səfil tərzdə yaşayan Təhmuraz Gürcü, Mesx və Axısqa Gürcüstanının valiləri soyundan olan Atabəy[1114] hər ikisi sözügedən Muravın himayəçiliyi və rəğbətləndirməsi ilə gəlib ona qoşuldular. Bu səbəbdən sərhədlərdə fitnə və çaxnaşma baş qaldırdı.

Rumilər əlahəzrət [Şah Abbasla] sülh bağlamış padşahları Sultan Osmanı tutub qətlə yetirdilər və onun Murad adlı kiçik qardaşını padşah etdilər[1115]. Onlar İraqi-Ərəbi zəbt etmək fikrinə düşdülər. Vəziri-əzəm Hafiz Əhməd paşa sərdar təyin olundu və o, çoxsaylı bir ordu ilə bu tərəfə göndərilərək, Diyarbəkrə gəlib çıxdı. Əlahəzrət şah əvvəlcə qüdrətli qoşunların bir dəstəsini, qulamlardan, qorçulardan, tüfəngçilərdən və başqalarından ibarət dərgah mülazimlərini və Azərbaycan əmirlərini İsa xan Qorçubaşının sərkərdəliyi altında Muravın fitnəsini dəf etməyə məmur edib göndərdi. Qalibiyyətli əsgərlər Gürcüstana çatdıqda nankor

---

[1114] Mənşəcə qıpçaq türklərindən olan, lakin xristian dininin pravoslav cərəyanını qəbul etmiş Mesxi Atabəyləri sülaləsi 1267-ci ildən etibarən yarımmüstəqil surətdə Çorox çayının yuxarı və orta axarlarını və Kür çayı boyunun Göle, Ərdəhan, Axısqa, Axalkalaki və Azqur bölgələrini əhatə edən Samtsxe-Saatabaqo ölkəsində (gürcücə «Saatabaqo» sözünün mənası «Atabəy yurdu» deməkdir) hökmranlıq etmişdir. Həmin qıpçaq sülaləsinin hökmdarları «atabəy» tituluna malik idilər (F.Kırzıoğlu. Osmanlıların Kafkas-ellerini fethi, s.85-86).

[1115] 22 noyabr 1617-ci ildə Osmanlı sultanı I Əhməd (1603-1617) vəfat etdi. Hakimiyyətə onun kiçik qardaşı I Mustafa gətirildi. Lakin 26 fevral 1618-ci ildə Osmanlı dövlətinin yüksək vəzifəli şəxsləri onu taxtdan endirərək, Sultan Əhmədin «Gənc Osman» ləqəbli oğlu II Osmanı sultan elan etdilər. II Osman zamanında, 26 sentyabr 1618-ci ildə Səfəvilərlə Osmanlılar arasında Sərab sülh müqaviləsi imzalandı. 19-20 may 1622-ci ildə baş tutmuş dövlət çevrilişi nəticəsində II Osmanın hakimiyyəti devrildi və o, qətlə yetirildi. I Mustafa yenidən taxt-taca sahib olsa da, 10 sentyabr 1623-cü ildə daha bir çevriliş edilmiş və Sultan Əhmədin oğlu, U Osmanın kiçik qardaşı IV Murad (1623-1640) hakimiyyət başına gətirilmişdi (.I.V.Hammer. Osmanlı tarihi, c. II, s.292-334).

Murav, Təhmuraz və Atabəy iyirmi min nəfər süvari və piyadadan ibarət gürcü ordusu toplayıb, zəfər nişanəli qızılbaş qoşunu ilə qarşı-qarşıya gəldilər. Tərəflər arasında böyük bir döyüş və vuruş baş verdi. Uğurlu bəxtin gücü sayəsində o [gürcü] tayfasına məğlubiyyət qismət oldu. Minə qədər piyada və süvari gürcü kafiri zəfər şüarlı qazilərin iti qılıncları ilə ölüm məkanına tələsdilər. Murav qaçıb, Rum tərəfə getdi. Təhmuraz və Atabəy isə hər biri Gürcüstanın meşələrinin və cəngəliklərinin bir guşəsində və bucağında daldalanıb, öz hallarını hifz elədilər.

Hafiz Əhməd paşa saysız Rum ordusu ilə sözügedən Muravın və gürcü fitnəkarlarının azdırması və təhriki ilə yerindən tərpənib, darüssəlam Bağdad üzərinə qoşun çəkdi və yüz əlli min nəfərdən çox qüvvə ilə birlikdə darüssəlama çatıb, oranın qalasını əhatəyə alaraq, onu zəbt etməyə səy göstərdi. Allahın kölgəsi olan əlahəzrət şah bu böyük hadisəni dəf etməkdən ötrü çoxlu çalışqanlıq sərf etdi və hələ qalibiyyətli əsgərlərin əksərinin Gürcüstan yürüşündən geri qayıtmamalarına baxmayaraq, qeyrətinin bolluğu səbəbindən dünyanı tutan bayrağını İraqi-Ərəbə tərəf qaldırdı. Zəfər şüalı əsgərlər hər tərəfdən hökmdarın məiyyətinə qoşuldular. [Şah Abbas] qırx min nəfərə yaxın qoşunla darüssəlam [Bağdada] çatıb, Bəhriz çayının kənarında məskən saldı. Bir neçə dəfə tərəflər arasında şiddətli döyüşlər baş verdi. İçəridən qalanı müdafiə edən mübarizlər və bayırdan müqəddəs üzənginin şücaət şüarlı mülazimləri o saysız qoşuna qarşı vuruşurdular. Rumilər topları qalaya tuşlayıb, bürcləri viran etmək və qalanı tutmaq istiqamətində cəhd göstərərək, dəfələrlə [qala üzərinə] böyük hücumlara keçdilər. Nəhayət, mühasirənin müddəti doqquz aya çatdı və rumilər bir iş görə bilmədilər. Onların əksəriyyətinin bir hissəsi döyüş meydanında və qala uğrundakı vuruşmalarda öldürüldü, digər bir hissəsi isə öldürülmək qorxusu ucbatından pərakəndə oldular. [Rumilərin] qılıncdan qurtulanları döyüşü tərk edib salamatlıqla çıxıb getməyi qənimət bildilər və acizlik, əlacsızlıq üzündən əşrəfin hüzuruna öz adamlarını göndərib, canlarının bağışlanmasını xahiş etdilər. Şahın mürüvvəti bunu zəruri bildi ki, onlara rəhm etsin və onlara qarşı həmlə etməsin. Beləliklə, azacıq səylə o güruhun tamamı müzəffər əsgərlər tərəfindən payimal olunduqdan sonra [rumilərə öz ölkələrinə] geri qayıtmaq üçün icazə verildi. Onların böyük topxananı aparmağa qüdrətləri olmadı və onu yerindəcə qoyaraq, yarımcan halda xilas olub getdilər. Yenidən İraqi-Ərəb qüdrətli dövlətin valilərinin ixtiyarı altında qərar tutdu.

Gürcü Təhmuraz öz keçmiş əməllərindən peşman olub, günahlarının əfv olunmasını xahiş edərək söz verdi ki, bu gündən etibarən bəndəlik halqasını qulağında və qulamlıq yəhərini belində gəzdirəcəkdir. Onun xahişinə dair belə bir təsdiqləyici hökm verildi ki, əgər o, öz iradə üzünü cahanın pənahı olan dərgaha tutub gələrək, astananı örmək şərəfinə nail olsa, şahanə əfvə tuş gələcəkdir. Ona əmr olundu ki, Gürcüstanın əldən çıxması zamanı rumilərin işğalı altına keçmiş Axısqa qalasını İsa xan Qorçubaşının səyi ilə ələ keçirib, oranı qala saxlamaq qabiliyyətinə malik mübarizlərə tapşırsın.

Özbək sultanları o həzrətlə münasibətlərdə tərəfdarlıq və itaətkarlıq məqamına gəlib, ardıcıl elçilər göndərmiş və sədaqət izhar etmişlər. Sözün qısası, günbəgün [Şah Abbasın] dövlət bayrağı ucalmaqdadır və o həzrətin cahandarlıq və böyüklüyünün avazı aləmdə intişar tapmaqdadır. Dostların və düşmənlərin onun itaət olunması vacib fərmanı qarşısında söz demək macalı yoxdur və onun qəzəbindən və sərtliyindən çəkinirlər. Bu hadisələrin şərhi o həzrətin cahandarlıq əyyamının əhvalatlarını ehtiva edən ikinci cilddə müfəssəl surətdə qələmə alınacaqdır.

Allaha həmd və minnətdarlıq olsun ki, bu sətirlərin müəllifi «Abbasın dünyanı bəzəyən tarixi»nin birinci cildini tamamlamağa nail oldu. Dəfələrlə bu cilddə bu şərəfli nüsxənin 1025-ci (1616) il tarixində yazıldığı bəyan qələmi qeyd olunmuş, lakin ondan sonra da neçə il ərzində Allahın kölgəsi olan həzrətin səadətə peyvənd olan hakimiyyətinin zamanında hadisələr baş vermiş və həmin hadisələr ikinci cildin ikinci hissəsində qələmə alınmışdır. Belə lazım bildik ki, bu [birinci cildin] məqalələrinə əlavə şəklində həmin (1025/1616-cı ildən sonra baş vermiş) hadisələrdən bir icmal artırılsın. Ondan ötrü ki, onun (Şah Abbasın) hakimiyyətinin qırx illik əhvalının xülasəsi bu cildin mütaliəsindən məlum olaraq, xəbərlər vadisi üçün susayanların susuzluğunun yatırılmasına gətirib çıxarsın. Buna görə də əskikliyi aradan qaldırmaq üçün, yuxarıda bu barədə işarə olunduğu kimi, təkrarçılıqdan çəkinməyərək. kitabın axırında da bu məsələlərin yazılmasına məşğul olduq ki, tənqidçilərin etiraz hədəfinə çevrilməyək.

Biliksizlik səhrasının məhsulu olan bu natamam və pərakəndə fəqərələr[1116] yazılış (təsvid) və redaktə (təhrir) baxımından siyər və xəbər sahiblərinin[1117] fəzilət və kamal dənizlərindən zühur sahilinə gəlib çıxmış əsərləri ilə eyni tutula biləcək dərəcədə olmasa da, amma necə ki saxsı qab alveri edən aşağı səviyyəli satıcının malları və əmtəələri hər nə qədər kasad olsalar da, o, onlan rastabazarda havayı verməz, mən də o cür öz əsərimi etibar dükançasının sərmayəsi olan baha bir cövhər sayaraq, onu əhəmiyyətsiz hesab etmirəm. Əblxüsus da, ona görə ki, bu əsərdə saflıq nişanəli Səfəvi sülaləsinin əziz-istəkli əhvalının hadisələri və məmləkətləri idarə edən Cəm[şid] səviyyəli xaqanın (Şah Abbasın) uğurlu mahiyyətə malik əhvalatının surəti nəql olunub və qəbmə alınıb və əgər həmin iki böyük səadət üzündən bu əsəri zəmanənin «Mətləüs-səədeyn»i[1118] saysalar, ona

---

1116 Fəqərə - ədəbiyyat termini kimi, bir məqalənin yazının müstəqil bir parçası, fəsli və ya kiçik hekayə, qissə mənasında başa düşülür.

1117 Sivər - tərcümeyi-hal deməkdir. Burada «siyər və xəbər sahiblən» dedik də görkəmli şəxsiyyətlərin tərcümeyi-halını əks etdirən və tarixə dair xəbərlər verən kitabların müəllifləri nəzərdə tutulmuşdur.

1118 «Mətləüs-səədeyn» (tam adı: «Mətləüs-səədeyn və məcməül-bəhreyn», yəni «İki uğurlu ulduzun doğduğu və iki dənizin qovuşduğu yer») - Teymurilərin saray tarixçisi Kəmaləddin Əbdürrəzzaq ibn Cəmaləddin İshaq Səmərqəndinin (1413-1482) iki qismdən ibarət mühüm tarixi salnaməsidir. Bu əsər Elxani hökmdarı Əbu-Səidin h. 704 / m. 1304-05-ci ildə anadan olması ilə başlayıb, 875 / 1470-ci ildə, Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın hakimiyyətinin başlanğıcında sona çatır Ч.А.Стори. Персидская литература, ч. II, с. 820-828).

rəvadır və bu iki ali nisbətə görə onu dövranın «Zəfərnamə»si[1119] adlandırsalar, ona layiqdir. Düşüncə və zəka sahiblərindən iltimasını budur ki, hüsn-rəğbət gözü və mehribanlıq bəbəyi ilə [bu əsərə] nəzər salsınlar, onu mütaliə edərkən hansı yerdə bir səhvə və xətaya rast gəlsələr, onun üzərinə lütfkarcasına və alicənablıqla pərdə çəkib, onu düzəltmək məqamına gəlsinlər və «gərək böyük adamlar kiçiklərin [gördüyü işlər] barəsində xırdaçılığa getməsinlər» kəlamının məzmununa uyğun hərəkət edərək, comərd və mədədkar olsunlar ki, izzətli Rəbbin yardımı və ilahi köməyin mədədkarlığı ilə xəyal dəftərimdə əks olunmuş arzu ən yaxşı bir şəkildə bəyan səhifəsi üzərində çöhrəsini açsın, ikinci cild müddəaya uyğun şəkildə iki hissədə ki, hələ ikincisi tamama yetməyibdir, bəyan qələmi ilə yazılsın və kamalının vəsfi kitabın dibacəsində qeyd olunmuş səadətli şəxsin (Əbu-Talib xan Ordubadinin) vəsatətinin vəsiləsi ilə o Cəm[şid] səviyyəli və Süleyman iqtidarlı [Şah Abbasın] xatir səhifəsində yaxşılıqla qəbul olunsun və bu bəlağət hərəmxanasının təzə gəlini (yəni «Tarix-i aləmara-yi Abbasi» əsəri) o qayda ilə öyrənilsin ki, dövlətimizin cəmi məmləkətlərinin bəzəyi [Şah Abbas] ona vurğun olub, əbədi olaraq yaxşılıqla ondan kam alsın.

«Yayıcıların mədhi ilə əbədi oldu,
Cahanda ad-san salan hər kəsin adları.»

---

1119 «Zəfərnamə» - bu ad altında iki məşhur Teymuri salnaməsi vardır. Bunlardan birincisi, təbrizli tarixçi Nizaməddin Şami tərəfindən yazılmışdır və orada 806/1404-cü ilə kimi Əmir Teymurun qələbələrindən bəhs edilmişdir. Bu adda digər bir əsər isə 828 / 1424-25-ci ildə Teymuri saray tarixçisi Şərəfəddin Əli Yəzdi tərəfindən yazılmışdır Ч.А.Стори. Персидская литература, II, с.787-791,797-807). Hər iki əsərdə Azərbaycan tarixinə dair gərəkli məlumatlar vardır (bax: Nizaməddin Şami. Zəfərnamə. Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar. Tərcümə edəni: Z.M.Bünyadov. Bakı, 1992; Şərəfəddin Əli Vəzdi. Zəfərnamə. Azərbaycan tarixinə dair seçmələr. Tərcümə, ön söz və izahlar V.Z.Piriyevindir. Bakı, 1996).

## GÖSTƏRİCİLƏR

## ŞƏXS ADLARI

**A**

Aba Oxlu
Abbas (Həzrət Əlinin oğlu)
Abbas mirzə (bax: Allahın kölgəsi olan əlahəzrət şah, Şah Abbas I) Abbasəli sultan Şamlu
Abbaslı M.
Abdulla xan Özbək
Abdullaxan Ustaclu
Abdulla ibn Abbas
Abdulla ibn Əbdülmütəllib
Abdulla Seyrafi
Aca sultan Qacar (həmçinin bax: Qaraca sultan Qacar, Qudurmuş sultan Qacar)
Adəm peyğəmbər (Əbülbəşər)
Adi Bahadır - (bax: Əziz ağa Bozcalu)
Adil Gəray xan Tatar
Adili (həmçinin bax: İsmayıl mirzə, Şah İsmayıl II)
Adilşah
Ağa Cəmaləddin Kirmani
Ağa Əlvənd div
Ağa Əsəd Nətənzi
Ağa Kəmaləddin Zeynalibad Kirmani
Ağa Məhəmməd Fərəhani
Ağa Məhəmməd Ruzəfzun
Ağa Məhəmməd Zaman Qəzvini
Ağa Mirək İsfahani
Ağa Mirzə Əli Cabiri İsfahani
Ağa Nəzər
Ağa Rüstəm Ruzəfzun
Ağa Rza Kaşi
Ağa SeyfəlmülukTehrani
Ağa Təlayi Dəvatdar Qəzvini
Ağacan bəy Əfşar
Ağayev R.Ə.
Ağzıvar xan Şamlu
Axsaq Seyfəddin
Axsitan II

Axundov M.F.
Aişə
Akimuşkin O.F.
Aleksandr xan
Aləmşah bəyim (həmçinin bax: Həlimə bəyim)
Allahın kölgəsi olan əlahəzrət şah (həmçinin bax: Şah Abbas I)
Allahqulu bəy Ustaclu 264, 414
Allahqulu sultan Aycəkoğlu Ustaclu
Allahqulu sultan Kəngərlü
Aminə
Amir ibn Ərfəxəşd
Anaxanım (bax: Zeynəb bəyim) Araz xan Rumlu
Arslan Zülqədər
Asəf
Aslan sultan Əlibəyli Zülqədər
Aşur ağa
Aşurbəyli S.B.
Atabəy
Aybə sultan
Ayğut bəy (sultan) Çavuşlu Ustaclu
Ayğut mirzə Ustaclu

**B**
Baba Fəğani
Baba xəlifə Qaramanlu
Baba İlyas Çavuşlu
Baba Süleyman Çavuşlu
Babur (Zəhirüssəltənə Məhəmməd Babur mirzə)
Babur bəy Türkman
Badakul ibn Cuci-Buğa
Badincan sultan Rumlu
Bahadır (Şeybani sultanzadələrindən Heydər sultanın oğlu)
Bahadır xan Özbək
Bahadır ibn Şeyban xan
Bakıxanov A.
Baqi xan Özbək
Baqrat III
Barxudar bəy Topçubaşı
Barik bəy Pornak
Basliq
Bayandur xan Talış

Bayəzid sultan Ustaclu
Bayram xan (bəy) Qaramanlu
Bayram xan Təkəlü
Bayram xan Türkman
Bayram-oğlan
Bayramov Z.H.
Baysunqur Ağqoyunlu
Behzad (Kəmaləddin Behzad)
Behzad bəy Qulam
Bellan L.L.
Benlü Vəli Ərəbgirlü
Bədiüzzaman mirzə Səfəvi
Bədiüzzaman mirzə Teymuri
Bədr xan Ustaclu
Bəhram (Bəhram mirzə Səfəvinin nəvəsi)
Bəhram Gur
Bəhram mirzə Səfəvi (I Şah İsmayılın oğlu)
Bəhram paşa
Bəktaş bəy Türkman
Bəktaş bəy Ustaclu
Bəktaş xan Əfşar
Bərd ibn Məhlayil
Bilqeys
Bilməz bəy Asanoğlu İnallu
Binəzir
Binnət ibn Həməl
Bolğar xəlifə
Bregel Y.E.
Broun F.G.
Budaq xan Çəkəni
Budaq xan Qacar
Budaq xan özbək
Budaq sultan ibn Əbülxeyr xan
Buraq xan ibn Sevincək sultan
Burnaşev S.D.
Burun sultanTəkəlü
Büqrat (Hippokrat)
Bürhan mirzə
Bürhan Nizamşah

**C**
Cabbarqulu bəy Əfşar
Cabir ibn Abdulla Ənsari
Cahangir Abbasi
Cahangir mirzə Ağqoyunlu
Cahi (həmçinin bax: Sultan İbrahim mirzə)
Calut
Canibəy Gəray xan Tatar
Canibəy sultan Özbək
Canvəfamirzə
Cəcnə bəy Gürcü
Cəfər bəy Şərəfəddinoğlu Təkəlü
Cəfər əs-Sadiq (VI şiə imamı)
Cəfər ibn Məhəmməd
Cəfər paşa
Cəfər sultan Ərəşlü Əfşar
Cəfər sultan Kəngərlü
Cəlal xan Özbək
Cəlaləddin Məhəmməd Əkbər padşah
Cəmaləddin Əli
Cəmşid (qədim İran şahı)
Cəmşid bəy Çərkəz
Cəmşid xan (Biye-pəs hakimi)
Cəmşid sultan Özbək
Cənnətməkan şah (həmçinin bax: Şah Təhmasib I
Ciğaloğlu
Cuci ibn Çingiz xan
Cucibuğa ibn Bahadır
Cüneyd bəy Zülqədər

**Ç**
Çayan sultan Ustaclu (Məhəmməd bəy Süfrəçi Ustaclu)
Çəğmini (Mahmud ibn Məhəmməd Ömər Çəğmini)
Çəkürgə sultan Şamlu
Çələbi bəy Mehmandar Təkəlü
Çərəndab sultan Şamlu
Çırağ sultan
Çingiz xan
Çuxa sultan Təkəlü

**D**
Daeyi İsfahani
Damad İbrahim paşa
Dan Sinan (Dan Şosan; Juan III)
Dana Məhəmməd bəy Əfşar
Davud xan Gürcü
Davud peyğəmbər
Dədəbəy
Dədə Xüləfa Ustaclu
Dəlduvançı Rumi (Dəli Kayqı bəy)
Dəli Budaq Rumlu
Dəmri sultan Şamlu
Dərviş bəy Topçubaşı
Dərviş Qənbər Təbərrayi
Dərviş Məhəmməd xan (Şəki hakimi)
Dərviş Məhəmməd xan Rumlu
Dəstqeyb Şirazi
Din Məhəmməd xan (Canıbəy sultanın oğlu)
Din Məhəmməd xan ibn Ulus xan
Div sultan Rumlu
Div sultan Zülqədər
Don Sebastyan
Dorn B.
Dost xan
Dönməz sultan Qazaqlar
Dövlət Gəray xan
Dövləti xanım
Dövlətyar xan Siyahmənsur
Duraq xəlifə Zülqədər
Durmuş xan Şamlu

**E**
Eşik Əvəz Çavuşlu
Evliya Çələbi

**Ə**
Əbdal bəy Dədə Zülqədər
Əbdi bəy Şamlu
Əbdüləziz xan (sultan) Özbək
Əbdülqəni bəy Ustaclu
Əbdüllətif bəy Əfşar

Əbdüllətif sultan Özbək
Əbdülməcid Taliqanlı (dərviş və xəttat)
Əbdülmənaf ibn Qusay
Əbdülmömin xan Özbək
Əbdülmütəllib ibn Haşim (Şeybə)
Əbdülvəhhab Təbrizi
Əbdürrəhman Cami
Əbrürrəhman ibn Avf
Əbdüssəməd Cəbəlamili
Əbi-Məhəmməd əl-Qasim
Əbrəhə ibn Səbah əl-Əşrəm
Əbu-Bəkr ibn Əbu-Kuhafə
Əbu-Bəkr mirzə
Əbu-Müslüm xan Çavuşlu
Əbu-Səid mirzə Səfəvi
Əbu-Səid sultan  Özbək
Əbu-Talib xan Ordubadi
Əbu-Talib İmran ibn Əbdülmütəllib
Əbu-Talib mirzə Səfəvi
Əbu-Turab bəy Ustaclu
Əbu-Übeydə ibn Cərrah
Əbülfəth xan Şamlu (Ağzıvar xanın oğlu) Əbülfəth xan Şamlu (Fulad xanın oğlu)
Əbülxeyr xan ibn Dövlətşeyx-oğlan
Əbülqasim Həmzə
Əbülqasim sultan Çavuşlu
Əbülqasim sultan Zülqədər («Zəhrimar»)
Əbülməhəmməd xan Özbək
Əbülməsum sultan Tərxan Türkman
Əbülmükarim
Ədhəm xan Türkman
Ədhəm sultan Rumlu
Ədnan
Əfəndiyev O.Ə.
Əflatun (Platon)
Əfrasiyab Çəlavi
Əhməd (həmçinin bax: Məhəmməd peyğəmbər)
Əhməd bəy Eşikağası Ustaclu
Əhməd bəy Əfşar
Əhməd bəy Qəzvini
Əhməd bəy Nurkamal
Əhməd bəy Türkman

Əhməd bəy Ustaclu
Əhməd bəy Zülqədər
Əhməd əl-Ərabi
Əhməd paşa
Əhməd sultan Asayişoğlu Ustaclu
Əhməd sultan Biyepəsi
Əhməd sultan Əfşar
Əhməd sultan Sufioğlu Ustaclu
Əhməd sultan Şamlu
Əhməd sultan Təkəlü
Əhməd sultan Zülqədər
Əhmədi bəy Ləşkərnevis
Əxi sultan Təkəlü
Əkbər şah (bax: Cəlaləddin Məhəmməd Əkbər padşah)
Əlaüddövlə Rənaşi
Əlaüddövlə Zülqədər
Əli ağa (Osmanlı elçisi)
Əli ağa Qapıçıbaşı
Əli bəy (gilanlı sərkərdə)
Əli bəy Çaşnigirbaşı
Əli bəy (xan) Şadıbəyli Zülqədər
Əli bəy Şamlu (hərəm eşikağası, Gökcə xəlifənin oğlu)
Əli bəy Şamlu (Şah Abbasın mülazimi, Şahəli bəy Kəramətlünün oğlu)
Əli bəy Türkman
Əli Həddad
Əli xan Gürcü
Əli xəlifə Ağcaqoyunlu (Ağcalu) Qacar
Əli ibn Əbu-Talib (I şiə imamı; Əmirülmöminin, Əsədulla, Heydəri-Kərrar, Həzrət Əli, Mürtəza, Şahi-Mərdan, Şahi-Nəcəf, Şahi-vilayət-pənah)
Əli Nəqi (X şiə imamı)
Əli paşa
Əli paşa (Mərəş hakimi)
Əli sultan Özbək
Əli sultan Pakmal
Əli sultan Tatıoğlu Zülqədər
Əli sultan Təkəlü
Əli sultan Zülqədər (Şiraz hakimi)
Əli Zeynalabidin (IV şiə imamı)
Əlixan bəy Gürcü
Əlixan bəy Mosullu Türkman
Əlixan bəy Rumlu

Əlixan bəy Şəmsəddinlü
Əlixan bəy Türkman (dəftərxana daruğası) Əlixan bəy Ustaclu (Pirə Məhəmməd xanın oğlu)
Əlixan sultan Əfşar
Əliqulu (Şeybani sultanzadələrindən Heydər sultanın oğlu)
Əliqulu bəy Ərəbgirlü
Əliqulu xan Fəthoğlu Ustaclu
Əliqulu xan Şamlu
Əliqulu sultan Çavuşlu Ustaclu
Əliqulu sultan Zülqədər Qoruqlu
Əlişəkər bəy Türkman
Əlişir Nəvai
Əliyar sultan Əfşar
Əlqas mirzə Səfəvi
Əllamə Şah Fəthulla Şirazi
Əllami Əbülfəzl ibn Şeyx Mübarək
Əlvənd xan Əfşar
Əlvənd mirzə Ağqoyunlu
Əminəddin Cəbrayıl (Seyid Cəbrayıl)
Əmini Herəvi (Əmir Sədrəddin Sultan İbrahim əl-Əmini)
Əmir Abdulla Şirazi
Əmir Bahadır
Əmir Cahangir (Lahican sipəhsaları)
Əmir Cahangir Abbasi (bax: Cahangir Abbasi)
Əmir Əbülhamid
Əmir (Mir) Əbülvəli Əncu
Əmir Əli Kiya Zəmandar
Əmir Həmzə xan Talış
Əmir Həmzə xan Ustaclu
Əmir Həsən bəy Ağqoyunlu (Həsən padşah, Uzun Həsən)
Əmir Hüsaməddin
Əmir Hüseyn xan Mazandarani
Əmir Hüseyn Kiya Çəlavi
Əmir xan Mosullu Türkman
Əmir xan Mosullu Türkman (yuxarıda adı çəkilən Əmir xanın nəvəsi)
Əmir Kəmaləddin Sədr
Əmir Qeyb sultan (bəy) Ustaclu
Əmir Qəmərəddin
Əmir Qivaməddin Hüseyn İsfahani
Əmir Qivaməddin Hüseyn Şirazi
Əmir Qiyasəddin Mənsur Şirazi

Əllamatül-üləmayi
Əmir Məhəmməd Yusif Sədr
Əmir Mübariz Əli
Əmir Nəcməddin Rəşti
Əmir Nəcmi-Sani
Əmir Nəsirəddin Hüseyni Şirazi
Əmir Nizaməddin Əhməd
Əmir Osman Mosullu
Əmir Səyavuş (Gəskər əmiri)
Əmir Siracəddin Əli Qumi
Əmir Siracəddin Qasım
Əmir sultan Rumlu
Əmir Şəmsəddin Dilicani (həmçinin bax: Mir Şəms Vəlixani)
Əmir Temur Kürəkan
Əmir Zünnun Ərğun
Əmiraslan sultan Ərəşlü Əfşar
Əmirə bəy Mükri
Əmirə Dibac (Müzəffər sultan)
Əmirə Dəmac
Əmirə Xatəm Rəşti
Əmirə İshaq
Əmirə Qubad Talış
Əmirə Məhəmməd
Əmirə Müzəffər
Əmirə Sasan
Ənan bəy (Amoan)
Ənəs (Bizans imperatoru I Anastasi)
Ənuş
Ənuşirəvan Kosra (Xosrov I)
Ərdoğdu xəlifə Təkəlü
Ərdüvanə bəy Zülqədər
Ərəb Məhəmməd Trabzoni
Ərəd
Ərəstun (Aristotel)
Ərfəxəşd
Əsgəri xan Tatar
Əsgəri mirzə
Əsləməs xan Zülqədər
Əşrəf Seyfəddin Bars bəy
Ətibba İsfahani
Əvəz əl-Xəvas

Əziz ağa Bozcalu (Adi Bahadır)

**F**
Faruq sultan Ustaclu
Fatimə xanım (Fatimeyi-Zəhra; Məhəmməd peyğəmbərin qızı)
Fatimə (Şeyx Zahidin qızı)
Fatimə-sultan xanım
Fəhər ibn Malik
Fəhmi (həmçinin bax: Sultan Məhəmməd Xudabəndə)
Fəlsəfi N.
Fəramərzibn Güştasb
Fəribürz III
Fərhad («Xəmsə» qəhrəmam)
Fərhad ağa Qulam
Fərhad paşa
Fərman sultan Rumlu
Fərrux ağa
Fərrux bəy
Fərrux bəy Gürcü
Fərrux xan Pornak
Fərrux ibn Şeyxşah
Fərrux Yeketaz
Fərrux Yəsar
Fərruxzad I (şirvanşah)
Fərruxzad II (şirvanşah)
Fərruxzad bəy Qaradağlu
Fərzəliyev Ş.F.
Fəthi bəy Pərvanəçi Türkman
Fəthulla bəy Ustaclu
Fəttah
Fil paşa
Firdovsi (Əbülqasim Firdovsi)
Firidun
Firuzşah Zərrinkülah
Frank von Erdman
Fulad bəy Əmiraxurbaşı
Fulad xəlifə Şamlu
Fulad-oğlan ibn Məngu-Teymur
Fulad sultan (Qain hakimi)
Fulad sultan Özbək

**G**

Gəldi Məhəmməd sultan
Gənci Xoca
Gərşəsb
Gəskən Qara sultan
Gəştasb
Gökcə xəlifə Şamlu
Gökcə sultan Qacar
Gövhər sultan (Fərrux Yəsarın qızı)
Gövhər-sultan bəyim (Şah Təhmasibin qızı) Gülabi bəy Mosullu
Gülabi xan Türkman (Əmir xanın babası)
Gülabi xan Türkman (Əmir xanın oğlu) Gülbad Gürcü
Gürgin (Georgi; Ləvənd xanın oğlu)
Güştasb ibn Fərruxzad

**H**

Hacı bəy Dünbüli
Hacı Məhəmməd sultan Kutval
Hacı Üveys sultan Bayat
Hacı Zeynalabidin Şirvani
Hacim xan ibn Əta sultan (Hacı Məhəmməd xan)
Hafiz Cəlacil
Hafiz Əhməd Qəzvini
Hafiz Əhməd paşa
Hafiz Haşım Qəzvini
Hafiz Lələ Təbrizi
Hafiz Müzəffər Qumi
Hafiz Şirazi
Halvaçıoğlu Mirşikar
Haşim ibn Əbdülmənaf
Hatəm bəy Ordubadi
Heydər, Heydəri-Kərrar (bax: Həzrət Əli)
Heydər sultan (Şeybani sultanzadələrindən) Heydər sultan Cabuq Türkman
Heydərov M.X.
Heyrəti Astarabadi
Həbib bəy Zülqədər (Kor Həbib)
Həkim Əbu-Nəsr Gilani
Həkim Əbülfəth Təbrizi
Həkim Əla Təbrizi
Həkim İmadəddin Mahmud
Həkim Kazeruni

Həkim Kəmaləddin Hüseyn Şirazi
Həkim Qiyasəddin Əli Kaşi
Həkim Nurəddin Əli Tehrani
Həkim Nurəddin Əli Yəzdi
Həkim Nurəddin Kaşi
Həkim Şərəf Tehrani
Həkim Yarəli Tehrani (Həkim Xeyri)
Həlimə bəyim (həmçinin bax: Aləmşah bəyim)
Həmdulla Qəzvini
Həməl ibn Qiydar
Həmzə bəy (vəzir)
Həmzə xəlifə Talış
Həmzə sultan Xamuslu Zülqədər
Həmzə sultan Talış
Hənəfi
Həsən (II şiə imamı)
Həsən ağa Çaşnigirbaşı
Həsən bəy (Hüseyn bəyin oğlu)
Həsən bəy (Mahmud bəy Salimin oğlu)
Həsən bəy (Şəki hakimi)
Həsən bəy Çavuşlu
Həsən bəy Əfşar
Həsən bəy Halvaçıoğlu
Həsən bəy Rumlu (tarixçi)
Həsən bəy İnallu Şamlu
Həsən bəy Ustaclu
Həsən Əskəri (XI şiə imamı)
Həsən ibn Məhəmməd
Həsən padşah (bax: Əmir Həsən bəy Ağqoyunlu)
Həsən paşa
Həsən sultan Rumlu
Həsən sultan Şamlu
Həsənəli bəy Əlkəsənoğlu Zülqədər
Hidayət bəy Şirazi
Hinz V.
Hud peyğəmbər
Hurixan xanım
Hümayun padşah
Hümeysə
Hüsam bəy Qaramanlu
Hüseyn (III şiə imam)

Hüseyn bəy
Hüseyn bəy (Şirvan əmiri)
Hüseyn bəy Əbdüllü Şamlu
Hüseyn bəy Əfşar (Səbzəvar hakimi)
Hüseyn bəy Ənis
Hüseyn bəy Lələ Şamlu (Lələ bəy)
Hüseyn bəy Şirazi
Hüseyn bəy Yüzbaşı Ustaclu
Hüseyn xan Şamlu
Hüseyn xan Təkəlü (Burun sultanın oğlu)
Hüseyn sultan Əfşar (Fərah hakimi)
Hüseyn sultan Təkəlü
Hüseynəli bəy Ərəbgirlü
Hüseynəli Əlkəsən
Hüseynxan sultan Xınıslu
Hüseynxan sultan Rumlu
Hüseynqulu bəy Əlkəsənoğlu
Zülqədər
Hüseynqulu xüləfa Rumlu
Hüseynqulu sultan Şamlu
Hüseynqulu sultan Ustaclu
Hüseynqulu Şərəfəddinoğlu Təkəlü

**X**

Xadim bəy Xüləfa
Xaqani Şirvani
Xan Əhməd ibn Sultan Həsən
Xan Əhməd Mazi
Xan-Çöhrə (bax: Gəskən Qara sultan)
Xandəmir (tarixçi)
Xangəldi bahadır
Xanış bəyim (I Şah İsmayılın qızı)
Xanış bəyim (I Şah Təhmasibin qızı)
Xanican xanım
Xanmirzə (Məsum bəy Səfəvinin oğlu)
Xansari S.
Xeyirbəy
Xədiceyi-Kübra
Xədicə bəyim
Xədicə-sultan bəyim
Xəlifə Ənsar Qaradağlu

Xəlifə Qacar
Xəlifə sultan Şamlu
Xəlil (həmçinin bax: İbrahim peyğəmbər)
Xəlil ağa
Xəlil bəy (Zülqədər əmirliyinin başçısı)
Xəlil bəy Təkəlü
Xəlil xan Əfşar
Xəlil xan Zülqədər
Xəlil paşa
Xəlil sultan Siyahmənsur
Xəlil sultan Zülqədər
Xəlil sultan Zülqədər (Şahrux xanın qardaşı oğlu)
Xətai (həmçinin bax: Süleyman şanlı xaqan, Şah İsmayıl I)
Xızır ağa Ustaclu
Xızır Çələbi
Xızır peyğəmbər
Xoca Ağaşah Əbhəri
Xoca Bəkrat
Xoca bəy Şirazi
Xoca Cəlaləddin Məhəmməd Keçəçi
Təbrizi
Xoca Cəmaləddin Əli Təbrizi
Xoca Əbdüləziz Kaka
Xoca Əbdülqadir Kirmani
Xoca Əbdülqəni Cəladəti
Xoca Əbdülmömin Herəvi
Xoca Əbdürrəşid Kirmani
Xoca Əbülqasim Fərəhani
Xoca Əfzəl (Əliqulu xan Şamlunun vəziri)
Xoca Əfzələddin Tərkə
Xoca Əlaəddin Mənsur Kərəhrudi
Xoca Əlixan Kələntər
Xoca Əmir bəy Keçəçi Təbrizi (möhürdar) Xoca Fərrux
Xoca Həbibulla (sahibi-tövcih)
Xoca Həbibulla İsfahani
Xoca Həsən Naxçıvani (Axsaq Müşrif)
Xoca Hidayətulla
Xoca Hüseyn Namsaruni
Xoca Hüseyn Sənayi Xorasani
Xoca İxtiyar Münşi
Xoca İnayətulla Tərkə

Xoca Kəlan Cağatay
Xoca Kəlan Xəvafi
Xoca Kəmaləddin Mahmud Sağərçi
Xoca Kəmaləddin Mahmud Şirazi
Xoca Qasım Əli Təbrizi
Xoca Qasım Nətənzi
Xoca Qiyasəddin Əli
Xoca Mahmud Sərraf Təbrizi
Xoca Mahmud Şərif Tehrani
Xoca Məhəmməd Bitikçi
Xoca Məhəmməd Bağır Herəvi
Xoca Məhəmməd Əmir
Xoca Məlik Xəvafi
Xoca Məlik İsfahani
Xoca Müzəffər Bitikçi
Xoca Nəsir Astarabadi
Xoca Rəbi əl-Xisəmi
Xoca Rəşid bəy Şirazi
Xoca Şahhüseyn Saruni
Xoca Şahmənsur Fərahani
Xoca Yaqub
Xoca Ziyaəddin Kaşi
Xoca Ziyaəddin Salmani İsfahani
Xosrov I (Ənuşirəvan Kosra)
Xosrov II (Pərviz)
Xosrov bəy Qulam
Xosrov paşa
Xosrov sultan Özbək
Xoşxəbər xan (bax: İsgəndər bəy Şamlu)
Xudaverdi (dəllək)
Xudaybirdi bahadır
Xurşah ibn Qubad əl-Hüseyni
Xüzeymə ibn Müdrikə

**İ**

İbn Bəzzaz (Təvəkkül ibn İsmayıl)
İbn Kəmunə
İbn Müğlə 4
İbnihüseyn Firuzcəng
İbrahim bəy (xan) Türkman
İbrahim Ədhəm

İbrahim xan
İbrahim xan (sultan) Yegan Ustaclu
İbrahim xan Zülqədər
İbrahim xəlifə Alpavut
İbrahim xəlifə Qaramanlu
İbrahim ibn Cəfər
İbrahim mirzə (Cəmşid xanın oğlu)
İbrahim mirzə Səfəvi (həmçinin bax: Cahi)
İbrahim-oğlan ibn Fulad-oğlan
İbrahim paşa
İbrahim peyğəmbər
İbrahim sultan Mosullu (Bağdad hakimi)
İbrahim sultan Piyada Türkman
İbrahim sultan Şamlu
İbrahim sultan Ziyadoğlu Qacar
İdris peyğəmbər
İlyas bəy (Osmanlı elçisi)
İlyas bəy Ayğutoğlu
İlyas ibn Müzər
İmam Rza (VIII şiə imamı)
İmamqulu xan Qacar
İmamqulu mirzə Mosullu
İmamqulu mirzə Səfəvi
İmamzadə Hüseyn
İmamzadə Səhl-Əli
İnad sultan Əfşar
İrəc Əfşar
İsa bəy
İsa xan Qorçubaşı
İsa peyğəmbər
İsaxan xan Gürcü
İsfəndiyar («Şahnamə» qəhrəmanı)
İshaq peyğəmbər
İsgəndər (Makedoniyalı)
İsgəndər bəy Münşi Türkman
İsgəndər bəy Şamlu (Xoşxəbər xan)
İsgəndər xan Əfşar
İsgəndər xan ibn Canibəy sultan
İsgəndər paşa
İsgəndər şanlı nəvvab (həmçinin bax: Sultan Məhəmməd Xudabəndə)
İsmayıl xan (sultan) Türkman

İsmayıl ibn Məhəmməd
İsmayıl mirzə (bax: Adili, Şah İsmayıl II)
İsmayıl mirzə (Həmzə mirzənin oğlu)
İsmayıl peyğəmbər
İsmayıl sultan Alplu Əfşar
İsmayılqulu xan Şamlu
İsmayılqulu Zülqədər
İşraq (bax: Mir Məhəmməd Bağır Damad)

**J**

Juan III (həmçinin bax: Dan Sinan) 261

**K**

Kaka-yi Qəzvini
Kamal İsmayıl
Kamran bəy Əvhədi
Karkiya Fuməni
Karkiya Mirzə Əli
Karkiya Sultan Həsən
Karkiya Sultan Məhəmməd ibn Nasir
Kiya
Kazımqulu sultan Pornak
Keçəl Mustafa Əfşar
Keçəl Şahverdi Ustaclu
Keyxosrov bəy Gürcü
Keyxosrov Qurqura oğlu
Keyqubad (qədim İran şahı)
Keyqubad ibn Fərruxzad
Kəəb ibn Lüvey
Kəlab ibn Mürrə
Kəmaləddin Əbdürrəzzaq ibn Cəmaləddin İshaq Səmərqəndi
Kənanə Əbu-Nəsr
Kərxi
Kəsra
Kəsrəvi Ə.
Kırzıoğlu F.
Kiya Xurkiya Talqami
Kiya Rüstəm
Knyaz İvan-i Uluğ (IV İvan Qrozni)
Kor Seydi Çavuşlu
Kor Şahəli Rumlu

Kor Şahrux Zülqədər
Kosa Əliqulu Türkman
Kosa Hacı Bayandur
Kosa Pirqulu
Köpək mirzə Teymuri
Köpək sultan Ustaclu
Kruşinski Y.T.
Kuçum xan ibn Əbülxeyr xan
Kuleyni
Küstəndil (Konstantin) mirzə
Kütükoğlu B.
Kvarkvare IV (həmçinin bax: Qurqura)
Kvarkvare V

**Q**

Qaleğ ibn Şaməx
Qalib ibn Fəhər
Qara Bahadır
Qara Piri Qacar (Piri bəy Qacar)
Qara Uğurlu
Qaraca sultan Qacar (bax: Qudurmuş sultan Qacar)
Qaraca sultan Təkəlü
Qaraxan sultan Bayburdlu
Qaraxan Ustaclu
Qarçığay xan
Qarınca sultan Ustaclu
Qasım (Şirvanşahlar nəslindən)
Qasım bəy (Əmir xan Türkmanın vəziri) Qasım bəy Haləti Türkman
Qasım bəy Pornak
Qasım xəlifə Varsaq
Qasımlı M.
Qayıtmış bəy Mosullu
Qaytas paşa
Qazaq xan Təkəlü
Qazaqsultan Ustaclu
Qazanxan
Qazı Abdulla Xoyi
Qazı Cahan Seyfi Qəzvini
Qazı Əhməd Qəffari
Qazı Əhməd Qumi
Qazı İmad İsfahani

Qazı Nur İsfahani
Qazıxan əl-Hüseyni
Qazi bəy (kürd əmiri)
Qazi bəy Zülqədər
Qazi Gəray xan Tatar
Qazi xan Təkəlü
Qazi xan Zülqədər
Qaziqıran
Qələndər (yalancı «İsmayıl mirzə»)
Qələndər (Şirvan üsyançısı)
Qələndər (Gilan üsyançısı)
Qəmiş-oğlan
Qənbər ağa
Qənbər bəy Özbək
Qənbər bəy Gözüböyüklü
Qəsri bəy Kosa
Qılıc xan Ustaclu
Qılıc xəlifə Pazuki
Qiydar (İsmayıl peyğəmbərin oğlu)
Qiynan ibn Ənuş
Qoca Sinan paşa
Qoç xəlifə Möhürdar
Qorxmaz xan Cəbbədar Zülqədər
Qorxmaz xan Şamlu
Qubad (Sasani şahı)
Qubad xan Qacar
Qudurmuş sullan Qacar
Quduz Fərhad
Quinn Ş.A.
Qulu bəy Əfşar (qorçubaşı)
Qunduz sultan Təkəlü
Qurban sultan Rumlu
Qurbanəli mirzə
Qurqura (IV Kvarkvare)
Qusay ibn Kəlab
Qütbəddin
Qütbşah

**L**
Lambton A.
Levan

Lələ Mustafa paşa
Lələ paşa (Şahzadə Bayəzidin sərkərdəsi)
Ləmək (Nuh peyğəmbərin atası)
Ləvənd xan Gürcü
Luarsab
Luarsab mirzə (Simayun xanın oğlu)
Lüvey ibn Qalib

**M**
Mahmud bəy (Osmanlı tərəfə keçmiş Məmlük əmiri Xeyirbəyin qardaşıoğlu)
Mahmud bəy Salim
Mahmud Çərkəz
Mahmud xan Əfşar
Mahmud xan Sufioğlu Ustaclu
Mahmud xəlifə Çepni
Mahmud sultan Əfşar
Mahmud sultan ibn Əbülxeyr xan
Mahmud sultan Rumlu
Mahmudov Y.M.
Maqsud mirzə Ağqoyunlu
Malik ibn Nəsr
Malqucoğlu
Mehdi Kiya
Mehdi Sahib əz-Zaman (XII imam)
Mehdi sultan Özbək
Mehdiqulu bəy Çavuşlu (Həsən bəyin oğlu) Mehdiqulu bəy Şamlu
Mehdiqulu xan Şadıbəyli
Mehdiqulu sultan Çavuşlu (Ayğut bəyinoğlu)
Mehdiqulu sultan Talış
Mehrabmirzə
Mehtər Camal İsfahani
Mehtər Dövlətyar
Məəd ibn Ədnan
Məhdi-Ülya Xcyrannisa bəyim
Məhəmməd Bağır mirzə
Məhəmməd bəy Bəydili Şamlu
Məhəmməd bəy Fuməni
Məhəmməd bəy Qoyunçuoğlu Əmir-axurbaşı Məhəmməd bəy Nədaqi Təkəlü
Məhəmməd bəy Süfrəçi Ustaclu (bax: Çayan sultan Ustaclu)
Məhəmməd əl-Baqir (V şiə imamı)
Məhəmməd əl-Hafiz

Məhəmməd Əmin İsfahani
Məhəmməd Əmin mirzə
Məhəmməd Gəray xan Tatar
Məhəmməd Hümayun padşah (bax: Hümayun padşah)
Məhəmməd Hüseyn mirzə
Məhəmməd xan (II Səlimin elçisi)
Məhəmməd xan Çavuşlu
Məhəmməd xan (xəlifə) Hacılar Zülqədər Məhəmməd xan (sultan) Mosullu
Məhəmməd xan Şeybani (bax: Şeybani xan)
Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü
Məhəmməd xan Türkman
Məhəmməd xan Ustaclu
Məhəmməd xan Zülqədəroğlu
Məhəmməd xəlifə Əfşar
Məhəmməd ibn Əhməd əl-Ərabi
Məhəmməd ibn Həsən
Məhəmməd ibn İbrahim
Məhəmməd ibn İsmayıl
Məhəmməd ibn Şərəf
Məhəmməd ibn Yaqub Kuleyni
Məhəmməd Kərrə
Məhəmməd Qasım Mustovfi
Məhəmməd Qullarağası
Məhəmməd Mömin
Məhəmməd paşa (Diyarbəkr əmirülüməras) Məhəmməd paşa (Diyarbəkr bəylərbəyisi)
Məhəmməd paşa (Osmanlı vəziri-əzəmi) Məhəmməd paşa (Gəncə hakimi)
Məhəmməd paşa Mək (Məlik?) oğlu
Məhəmməd peyğəmbər (Mustafa, Xatəmül-ənbiya. Xeyrülbəşər)
Məhəmməd Saleh Bitikçi
Məhəmməd sultan Adaşoğlu
Ustaclu
Məhəmməd sultan Cəlaloğlu Çepni
Məhəmməd sultan Qaracadağlu
Məhəmməd Şərif bəy Çavuşlu
Məhəmməd Teymur sultan Şeybani
Məhəmməd Təqi (IX şiə imamı)
Məhəmməd Yusif
Məhəmməd Zaman mirzə
Məhəmmədcan ağa Şadıbəyli Zülqədər
Məhəmmədi (Əmir Siracəddin Qasımın oğlu)

Məhəmmədi (lur əmiri)
Məhəmmədi bəy Ləşkərnevis
Məhəmmədi bəy Sarısolağ
Məhəmmədi bəy Keçəçi Təbrizi
Məhəmmədi Herəvi
Məhəmmədi xan Toxmaq Ustaclu
Məhəmmədi mirzə Mosullu
Məhəmmədqulu xəlifə Qoruqlu Zülqədər Məhəmmədqulu Qütbşah
Məhəmmədqulu sultan (Hacim xanın oğlu) Məhlayil (İdris peyğəmbərin babası)
Məlik Aslan Zülqədər
MəlikbəyXoyi
Məlik Cəlaləddin Sistani
Məlik Qiyasəddin Mahmud
Məlik Mahmud
Məlik Mahmud Sistani
Məlik Rüstəm
Məlik Üveys Rüstəmdari
Məmmədov Ə.
Məmmədova R.M.
Məmmədova Ş.K.
Məngu-Teymur ibn Badakul
Mənsur bəy Pornak
Mənsur bəy Zülqədər
Mənsur Hafiz Babaxan (Babacan) Türbəti
Məntəşa sultan Ustaclu
Mənuçöhr III (Şirvanşah)
Mənuçöhr xan Gürcü (II Manuçar)
Məryəm (İsa peyğəmbərin anası)
Məryəm-sultan bəyim
Məsih (İsa peyğəmbər)
Məsih mirzə
Məsum bəy Səfəvi
Məsuməxanım
Mətuşələx (İdris peyğəmbərin oğlu)
Məzhəri Kəşmiri
Mikluxo-Maklay N.D.
Minorski V.K
Mir Abdulla xan
Mir Büzürg (Seyid Qivaməddin)
Mir Cəfər Qəzvini
Mir Cəfər Möhtəsibül-məmalik

Mir Cəfər Savəci
Mir Cəmaləddin Astarabadi
Mir Əbdülbaqi
Mir Əbdüləzim Seyfi Hüseyni
Mir Əbdülkərim Xadim
Mir Əbdülkərim ibn Seyid Məhəmməd
Mir Əbdülvəhhab Şüştəri
Mir Əbu-Talib
Mir Əbu-Turab Nətənzi
Mir Əbülfütuh
Mir Əbülqasım İsfahani
Mir Əbülqasim Şirazi
Mir Əbülqasim (Təbrizin Əbdül-vəhhabiyyə seyidlərindən)
Mir Əbülqasim (Təbrizin Üskuyə seyidlərindən)
Mir Əbülməali Əncu
Mir Əbülməhəmməd Əncu
Mir Əbülvəli Əncu
Mir Əlaülmülk Mərəş
Mir Əlaünnəbi İmadülmülk
Mərəşi
Mir Əli xan
Mir Əli Təbrizi
Mir Əsədulla Şüştəri
Mir Əşrəf (Ərdəbil mütəvəllisi)
Mir Əziz xan
Mir Fəxrəddin Simaki
Mir Fəsih
Mir Fəzlulla Şəhristani İsfahani
Mir Haşım Qumi
Mir Həbibulla Bərməki
Mir Hidayətulla Məmuri
Mir Hümayun
Mir Hüseyn Astarabadi
Mir Hüseyn Müəmmayi Kaşani
Mir Hüseyn sultan
Firuzcəng
Mir Hüzuri Qumi
Mir İnayətulla Xuzani İsfahani
Mir Kəlan Astarabadi
Mir Kəmaləddin Məhəmməd Astarabadi
Mir Qiyasəddin Mahmud Şəhristani

Mir Qiyasəddin Məhəmməd Mirmiran
Mir Qiyasəddin Şəmşəki
Mir Mahmud Şulistani
Mir Məhəmməd Bağır Damad
Mir Məhəmməd Cəfər ibn Mir Məhəmməd Səid
Mir Məhəmməd Əşrəf Astarabadi
Mir Məhəmməd Gəskən
Mir Məhəmməd Məmuri
Mir Məhəmməd Mömin Astarabadi
Mir Məhəmmad Yusif Astarabadi
Mir Məhəmməd Yusif Nişapuri
Mir Məxdum Lalə
Mir Məsud Cərbadqani
Mir Müizzəddin Məhəmməd İsfahani
Mir Müizzi Kaşi
Mir Müseyib Nəqib
Mir Nemətulla (təbrizli)
Mir Nemətulla (şirazlı)
Mir Nemətulla Hilli
Mir Rasti
Mir Rəhmətulla Pişnamaz
Mir Ruhulla Qazı-Cahani
Mir Seyid Əhməd Şəmriz-i Məşhədi
Mir Seyid Əli Xəlifə Sultan
Mir Seyid Əli Xətib
Mir Seyid Əli Rizəvi Qumi
Mir Seyid Əli Şüştəri
Mir Seyid Hüseyn Cəbəlamili (müctəhid)
Mir Seyid Hüseyn Fərəhani
Mir Seyid Hüseyn Xətib Qaini
Mir Seyid Məhəmməd ibn Mehdi Kiya
Mir Seyid Seyfi
Mir Seyid Şərif Şəhristani
Mir Səbri Ruzbehan İsfahani
Mir Sədrəddin Məhəmməd
Mir Siracəddin Əli Qumi
Mir Sultan Murad
Mir Şahhüseyn Münşi əl-məmalik
Mir Şahqazi İsfahani
Mir Şahmahmud Əncəvi Şirazi
Mir Şahmir

Mir Şəms Vəlixani
Mir Şəmsəddin Əli Mazi
Mir Şəmsəddin Əli sultan
Mir Şəmsəddin Məhəmməd Xəbisi Kirmani Mir Şərif Əllamə Cürcani
Mir Şərif Şirazi
Mir Şücaəddin Mahmud İsfahani
Mir Tahir Kaşi
Mir Təqi Kaşi
Mir Təqiəddin Məhəmməd ibn Əminəddin Hüseyn
Mir Valehi Qumi
Mir Yəhya Ələvi Qəzvini
Mir Yəhya Seyfi Qəzvini
Mir Zeynalabidin (rəssam)
Mir Zeynalabidin Möhtəsib Kaşi
Mir Zəkəriyya Keçəçi Təbrizi
Mir Ziyaəddin Fendereski
Miranşah
Mirək-div
Mirək Nəqqaş
Mirxənd
Mirmiran Yəzdi
Mirzə Abdulla (Əmir Siracəddin Qasımın oğlu)
Mirzə Abdulla (Mirzə Salman Cabirinin oğlu) Mirzə Babayi Şirazi
Mirzə Bədiüzzaman Qəzvini
Mirzə bəy Cünabədi
Mirzə bəy Əbhəri
Mirzə bəy Fendereski
Mirzə Cahanşah Türkman
Mirzə Cəfər Bədiüzzaman oğlu
Mirzə Əbdülbaqi (Zadə Məxdum)
Mirzə Əbdülhüseyn Cahanşahi
Mirzə Əbu-Talib Rizəvi
Mirzə Əbülqasim Rizəvi
Mirzə Əhməd (Mirzə Ətaullanın oğlu) Mirzə Əhməd Küfrani
Mirzə Əhməd Neyrizi
Mirzə Əli(xan) xəlifə Gəraylı
Mirzə Əli sultan Qacar
Mirzə Ərəb Münəccim Herəvi
Mirzə Ətaulla İsfahani
Mirzə Fəthulla
Mirzə Hesabi Nətənzi

Mirzə Həsən İsfahani
Mirzə Hidayət Nəcmi-Sani İsfahani
Mirzə Hidayətulla
Mirzə Hüseyn Münşi
Mirzə Hüseyn Tənburə
Mirzə xan (Mazandaran valisi)
Mirzə İbrahim Həmədani
Mirzə İbrahim İsfahani
Mirzə İbrahim Rizəvi
Mirzə Kamran (Babur şahın oğlu)
Mirzə Kamran Kuhdəmi
Mirzə Keçəçi
Mirzə Qasım Şirazi
Mirzə Lütfulla Şirazi (Mirzə Lütfi)
Mirzə Mahmud Səbzəvari
Mirzə Məhəmməd (Mirzə Şükrullanın oğlu)
Mirzə Məhəmməd Mustovfi
Mirzə Məhəmməd Əmin
Mirzə Məhəmməd Hüseyn
Mirzə Məhəmməd ibn Xoca Əlibəy Sərx-i Kirmani
Mirzə Məhəmməd İsfahani
Mirzə Məhəmməd Kamança
Mirzə Məhəmməd Kirmani
Mirzə Məhəmməd Məxdum
Mirzə Məhəmməd Peşkəş
Mirzə Məhəmməd Şəhristani
Mirzə Məhəmməd Şirazi
Mirzə Məhəmməd Zaman
Mirzə Məxdum İsfahani
Mirzə Məxdum Şərifi
Mirzə Nizaməddin
Mirzə Nurulla Küfrani İsfahani
Mirzə Salman Cabiri
Mirzə Səmia
Mirzə Şahəli
Mirzə Şahhüseyn İsfahani
Mirzə Şərəf Cahan
Mirzə Şərəf ibn Qazı Cahan
Mirzə Şərif
Mirzə Şükrulla İsfahani
Mirzə Şükrulla Mustovfi

Mirzə Uluğ
Misir Qoruqlu Zülqədər
Molla Baqi
Molla Əli Müzəhhəb
Mollayi-Rum (Mövlana Cəlaləddin Rumi)
Mövlana Abdulla Müdərris Yəzdi
Mövlana Abdulla Şirazi
Mövlana Abdulla Şüştəri
Mövlana Babaşah İsfahani
Mövlana Baqi
Mövlana Bəhaəddin Hüseyn
Mövlana Cəlaləddin Məhəmməd
Dəvvani
Mövlana Daeyi Əndicani
Mövlana Dərviş Abdulla
Mövlana Dost Herati
Mövlana Əbdi Nişapuri
Mövlana Əbdülbaqi Kitabənevis
Mövlana Əbdülcabbar Astarabadi
Mövlana Əbdülhəy
Mövlana Əbdürrəzzaq
Mövlana Əbdüssəməd Herəvi
Mövlana Əbu-Bəkr Tehrani
Mövlana Əfzəl Qaini
Mövlana Əfzəl Qəzvini
Mövlana Əlabəy Təbrizi
Mövlana Əli Əsğər Kaşi
Mövlana Əli Rza Təbrizi
Mövlana Fəhmi
Mövlana Fəthi İsfahani
Mövlana Füruği Əttar
Mövlana Hatəm Kaşi
Mövlana Heydər Qissəxan
Mövlana Həlaki Həmədani
Mövlana Həsən Bağdadi
Mövlana Həsən Kaşi
Mövlana Hidayət
Mövlana Hilali
Mövlana Hüzni
Mövlana İmadəddin Əli Astarabadi
Mövlana İnayətulla Təbrizi

Mövlana Qasım Qanuni
Mövlana Mahmud İshaq Siyavuşani
Mövlana Malik Deyləmi Qəzvini
Mövlana Məhəmməd Əli Təbrizi
Mövlana Məhəmməd Əmin Münşi Qəzvini
Mövlana Məhəmməd Hüseyn Təbrizi
Mövlana Məhəmməd Xurşid İsfahani
Mövlana Məhəmməd ibn Hüseyn
Katib Nişati
Mövlana Məlik Qumi
Mövlana Məlik Təyfur Əndicani
Mövlana Mirəli
Mövlana Mirzəcan Şirazi
Mövlana Möhtəşəm Kaşi
Mövlana Möhyəddin
Mövlana Möhyəddin Ənarupiyazi
Mövlana Müzəffər Əli
Mövlana Nemətulla Rudbari
Mövlana Rəziəddin
Mövlana Rüstəməli
Mövlana Sultanəli
Mövlana Şahmahmud Zərrinqələm
Mövlana Şeyx Məhəmməd Səbzəvari
Mövlana Şəmsəddin Lahicani
Mövlana Şərmi
Mövlana Təbxi Qəzvini
Mövlana Ümidi Tehrani
Mövlana Vəhşi Yəzdi
Mövlana Vəli
Mövlana Vüqui Təbrizi
Mövlana Yusif Kitabdar
Mövlana Zəmiri İsfahani
Mövlana Zühuri
Muxtar Səbzəvari
Muxtar sultan Təkəlü
Murad bəy Cahanşahi
Murad bəy Əfşar
Murad bəy Topçubaşı
Murad xan Kəngərlü
Murad xan Süfrəçibaşı Ustaclu
Murad paşa (Qaraman bəylərbəyisi)

Murad paşa (vəziri-əzəm)
Murad sultan Əfşar
Murav
Musa əl-Kazim (VII şiə imamı)
Musa peybəmbər
Musa sultan Mosullu Türkman
Musəvi T.M.
Mustafa bəy Şərəfəddinoğlu Təkəlü
Mustafa sultan Şərəflü
Mustafa sultan Ustaclu
Mustafa sultan Varsaq
Mübarək Gəray xan
Mübarəkşah Təbrizi
Mübarizəddin Məhəmməd ibn Müzəl Tər
Müctəhidüs-Sani Şeyx Əbdüləal
Müdərris Məhəmməd Nabih Əfəndi
Müdrikə ibn İlyas
Mühibbəli
Mümtaz S.
Mürəhhib Mövlana Yari
Mürrə ibn Kəəb
Mürşüdqulu bəy (sultan) Şamlu
Mürşüdqulu xan Ustaclu
Mürtəzaqulu xan Pornak
Müseyib xan Şərəfəddinoğlu Təkəlü
Müslənsir Billah Ələvi
Müzəffər Hüseyn mirzə Səfəvi
Müzəffər Hüseyn mirzə Teymuri
Müzəffər sultan (Əmirə Dibac)
Müzər ibn Nəzar

N
Nahur ibn Saruğ
Nasir Kiya
Nasir mirzə
Nasirəddin Məhəmməd
Nemətova M.X.
Neyney
Nəsirəddin şah Qacar
Nəsirəddin Tusi
Nəsr Qüreyş

Nəvai Ə. (İran tarixçisi)
Nəvvabi-Cahanbani (Sultan Həmzə mirzə)
Nəzar ibn Məəd
Nəzər sultan Asayişoğlu
Nəzər sultan Ustaclu
Nəzərəli bəy Ustaclu
Nizaməddin Şami
Nizami Gəncəvi
Nizamşah
Noxud sultan Mosullu
Nur Məhəmməd xan
Nurəli xəlifə Rumlu
Nüsuh paşa

O
Oğlanpaşa bəyim
Onullahi S.M.
Osman Çələbi
Osman ibn Əffan
Osman paşa

Ö
Öküz Məhəmməd paşa
Ömərağa
Ömər ibn Xəttab
Ömər Qazi sultan
Öməršeyx mirzə Teymuri
Özbək xan ibn Rüstəm sultan

**P**
Parsadanbəy
Petruşevski İ.P.
Peykər xan (sultan) Ziyadoğlu Qacar Pəhləvan Sultan Mahmud Əsəsbaşı Qəzvini
Pəhləvan Yari
Pəhləvanqulu sultan
Pərixan xanım (Şah İsmayılın qızı)
Pərixan xanım (Şah Təhmasibin qızı)
Pir Məhəmməd xan ibn Canibəy sultan Pir Seyid Əhməd Təbrizi
Pirbudaq bəy Qaplan oğlu Şamlu
Pirə Məhəmməd xan Ustaclu
Pirə Murad xan Ustaclu

Piri bəy İnallu Şamlu
Piri bəy Qoçulu
Pirqeyb xan  Ustaclu
Pirqulu bəy (Şahqulu Səqqanın oğlu)

**R**
Ramazan bəy
Rəcəbli Ə.M.
Rəhmani Ə.Ə.
Rizvani M.İ.
Rohrborn K.M.
Romaskeviç A.A.
Römer H.R.
Ruhulla (İsa peyğəmbər)
Ruhulla Zülqədər
Rüstəm bəy Əfşar (Xəlil xanın oğlu)
Rüstəm xan Əfşar
Rüstəm mirzə Ağqoyunlu
Rüstəm mirzə Səfəvi
Rüstəm paşa
Rüstəm sultan ibn Canibəy sultan
Rüstəm Zal
Rza Kiya
Rzaqulu bəy İnallu Şamlu
Rzaqulu xan Hidayət

**S**
Sadiqi (Sadıq) bəy Əfşar
Saleh
Salehi N.
Salman xan Ustaclu
Salman İsfahani
Salman-i Farsi
Sam (Nuh peyğəmbərin oğlu)
Sam («Şahnamə» qəhrəmam)
Sam mirzə Səfəvi
Samiri
Sani xəlifə Rumlu
Saraymülk xanım
Sarı Əli Möhürdar Təkəlü
Sarı Qaplan (Qasım bəy Zülqədər)

Sarı Laçın Ustaclu
Sarı Pirə Qorçubaşı Ustaclu
Saruğ
Sevincək Məhəmməd sultan
Sevindik bəy Qorçubaşı Əfşar
Seydi Əli
Seydim mirzə
Seyf sultan Bayat
Seyid bəy Kəmunə
Seyid bəy Şeyxavənd
Seyid Cəmaləddin (Şeyx Zahidin müəllimi)
Seyid Cəmaləddin İsfahani
Seyid Davud mirzə
Seyid Əliəl-Mərəşi
Seyid Əli ibn Seyid Kəmaləddin
Seyid Əli Kiya
Seyid Haşım
Seyid Heydər Qəndənevis
Seyid Həsən bəy
Seyid Həsən mirzə
Seyid Hüseyn (gilanlı üsyançı)
Seyid Qasım Ənvar
Seyid Mahmud mirzə
Seyid Məhəmməd Damad Astarabadi
Seyid Məhəmməd ibn Seyid Mürtəza
Seyid Məhəmməd Kəmunə
Seyid Məhəmməd Müşəşə
Seyid Məhəmməd Nurbəxş
Seyid Mürtəza ibn Seyid Əli
Seyid Müzəffər (gilanlı)
Seyid Müzəffər Mürtəza
Seyid Səhhar
Seyid Süleyman
Seyid Süleyman mirzə Səfəvi
Seyid Şücaəddin Müşəşəyi
Seyid Zəhirəddin ibn Nəsirəddin Mərəşi
Seyvəri R.M.
Sezar
Səadət Gəray xan Tatar
Sədrəddin xan Şeyxavənd
Sədrəddin xan Ustaclu

Sədrüşşəriə Gilani
Səəd ibn Əbu-Vəqqas
Səfi Gəray xan Tatar
Səid (gilanlı sipəhsalar)
Səlahəddin
Səlahəddin Rəşid
Səncab sultan Əfşar
Səncər mirzə
Səncər mirzə (Bəhram mirzənin nəvəsi)
Səriyyi Səqəti
Səyavuş bəy Gürcü
Siddiq (Yusif peyğəmbər)
Silvester de Sasi
Simayun (Simon)
Sinan bəy
Sinan bəy Miraxur
Sinan paşa (Sultan I Səlimin sərkərdəsi)
Sinan paşa (Sultan Süleyman Qanuninin sərkərdəsi)
Solağ Hüseyn Təkəlü
Söhrab bəy Qaradağlu
Söhrab xəlifə Türkman
Stori Ç.A.
Sufi Xəlil Türkman
Sufiyan xəlifə Rumlu
Suxtə Əsəd Şirazi
Sultan Bayəzid I (Osmanlı)
Sultan Bayəzid II (Osmanlı)
Sultan Bayəzid (Sultan Süleymanın oğlu)
Sultan Cəng (Sultan Həsən)
Sultan Cüneyd Səfəvi
Sultan Əbu-Səid (Hülakü hökmdarı)
Sultan Əbu-Səid Teymuri
Sultan Əhməd (Osmanlı padşahı II Bayəzidin oğlu)
Sultan Əhməd I (Osmanlı)
Sultan Əhməd mirzə Səfəvi (Əlqas mirzənin oğlu)
Sultan Əhməd mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Əhməd mirzə Teymuri
Sultan Əli bəy Cagirlü
Sultan Əli mirzə Səfəvi (Sultan Heydərin oğlu)
Sultan Əli mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Fərrux ibn Şeyxşah

Sultan Fəyyaz Müşəşəyi
Sultan Füqərayi
Sultan Heydər Səfəvi
Sultan Heydər mirzə (Şah Təhmasibin oğlu)
Sultan Heydər mirzə Səfəvi (Həmzə mirzənin oğlu)
Sultan Həmzə mirzə Səfəvi (həmçinin bax: Nəvvabi-Cahanbani)
Sultan Həsən ibn Xan Əhməd I
Sultan Həsən ibn Xan Əhməd II
Sultan Həsən ibn Karkiya Sultan Məhəmməd
Sultan Həsən mirzə Səfəvi (Xudabəndənin oğlu)
Sultan Hüseyn Barani
Sultan Hüseyn Bayqara
Sultan Hüseyn xan Şamlu
Sultan Hüseyn mirzə Səfəvi (Bəhram mirzənin oğlu)
Sultan Xoca Əli
Sultan Xəlil Ağqoyunlu
Sultan Xəlil (Şirvanşah I Xəlilulla)
Sultan Xəlil (Şirvanşah II Xəlilulla)
Sultan İbrahim ibn Sultan Məhəmməd (Şirvanşah I İbrahim)
Sultan İbrahim mirzə Səfəvi (Sultan Heydərin oğlu)
Sultan İbrahim Şeyxşah Səfəvi
Sultan Qansu Quri
Sultan Qazi
Sultan Mahmud bəy Baharlu
Sultan Mahmud xan (Bəkr və Sind valisi)
Sultan Mahmud xan (gilanlı qələndər üsyançı) Sultan Mahmud xan ibn Mir Əbdülkərim
Sultan Mahmud mirzəTeymuri
Sultan Mahmud mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Mahmudxan
Sultan Məhəmməd (Şeyxşah oğlu)
Sultan Məhəmməd ibn Keyqubad (Şirvanşahlar nəslindən)
Sultan Məhəmməd II (Biye-piş hakimi) Sultan Məhəmməd Xudabəndə
Sultan Məhəmməd ibn Mirzə Miranşah
Sultan Məhəmməd Qazi (II Məhəmməd Fateh)
Sultan Məsum xan Türkman
Sultan Möhsün Müşəşəyi
Sultan Murad (Osmanlı şahzadəsi, II Bayəzidin nəvəsi)
Sultan Murad III (Osmanlı)
Sultan Murad IV (Osmanlı)
Sultan Murad Ağqoyunlu

Sultan Murad xan Mosullu
Sultan Murad mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Mustafa I (Osmanlı)
Sultan Mustafa mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Osman II (Gənc Osman)
Sultan Sədrəddin Musa
Sultan Səlim I (Osmanlı)
Sultan Səlim II (Osmanlı)
Sultan Süleyman (Osmanlı)
Sultan Süleyman mirzə Səfəvi (Şah Təhmasibin oğlu)
Sultan Üveys mirzə Teymuri (Xan-Mirzə)
Sultan Yaqub Ağqoyunlu
Sultanbəyim
Sultanəli Əfşar
Sultanəli xəlifə
Sultanım (Şah Təhmasibin arvadı)
Sultanım (Şah Təhmasibin bacısı)
Sulu bəy
Surxab Ərdəlan
Süleyman bəy Topçubaşı
Süleyman bəy Ziyadoğlu Qacar
Süleyman bəy Zülqədər
Süleyman Bicənoğlu
Süleyman xəlifə Şamlu
Süleyman xəlifə Türkman
Süleyman peyğəmbər Süleyman sultan Şikəmoğlu Qacar
Süleyman şanlı xaqan (həmçinin bax: Xətai, Şah İsmayıl I)
Sümer F.

**Ş**

Şah Abbas I (həmçinin bax: Allahın kölgəsi olan əlahəzrət şah)
Şah Əbdüləli Yəzdi
Şah Əbu-Turab Əncu
Şah Xəlilulla Yəzdi
Şah İnayətulla İsfahani
Şah İsmayıl I (həmçinin bax: Xətai, Süleyman şanlı xaqan)
Şah İsmayıl II (həmçinin bax: Adili, İsmayıl mirzə)
Şah Qasım Nurbəxş
Şah Qivaməddin Hüseyn
Şah Məhəmməd Qəlati
Şah Məhəmməd sultan Özbək

Şah Müzəffərəddin Əli Əncu
Şah Nemətulla (Mirmiran Yəzdinin oğlu)
Şah Nemətulla Vəli
Şah Nemətulla Yəzdi (Mirmiran Yəzdinin atası)
Şah Rüstəm Abbasi
Şah Səfi
Şah Səlim
Şah Şüca Səfəvi (II Şah İsmayılın oğlu)
Şah Şücaəddin Məhəmməd Müzəffəri
Şah Təhmasib I (həmçinin bax: cənnətməkan şah)
Şah Təqiəddin Məhəmməd İsfahani
Şahbudaq sultan Türkman
Şahbudaq Zülqədər
Şahəli bəy Kəramətlü
Şahəli bəy Şamlu
Şahəli xəlifə Zülqədər
Şahəli mirzə Ustaclu
Şahəli sultan Çepni
Şahəli sultan Əfşar
Şahəli sultan Ustaclu
Şahhüseyn bəy
Şahi-Mərdan (bax: Əli ibn Əbu-Talib)
Şahibəy (bax: Şeybani xan)
Şahkərəm bəy Ləngər
Şahqubad Təkəlü
Şahqulu bəy (qulam)
Şahqulu bəy Əfşar
Şahqulu bəy Qacar
Şahqulu bəy Qürəba oğlu Rumlu
Şahqulu bəy Ustaclu
Şahqulu Bülbülan
Şahqulu xəlifə Zülqədər (möhürdar)
Şahqulu xəlifə Zülqədər (Darabcərd hakimi) Şahqulu xüləfa Rumlu
Şahqulu Səqqa
Şahqulu sultan Əfşar
Şahqulu sultan Qarıncaoğlu Ustaclu
Şahqulu sultan Mosullu Türkman
Şahqulu sultan Piyada Türkman
Şahqulu sultan Təbətoğlu Zülqədər
Şahqulu sultan Ustaclu
Şahqulu sultan Yegan

Şahqulu Təkəlü (üsyançı)
Şahmənsur (gilanlı sərkərdə)
Şahrudi
Şahrux (şirvanşah)
Şahrux bəy Tatıoğlu Zülqədər
Şahrux xan Zülqədər (möhürdar)
Şahrux sultan Möhürdar Əfşar
Şahsuvar (sazəndə)
Şahsuvar bəy Qapıçıbaşı Əfşar
Şahsuvar Zülqədər
Şahsuvaroğlu Əli bəy
Şahverdi bəy Bayburdlu
Şahverdi bəy Kəngərlü
Şahverdi bəy Ustaclu
Şahverdi bəy Yegan
Şahverdi xan Qaracadağlu
Şahverdi xan Luri-Abbasi
Şahverdi xəlifə İnallu
Şahverdi xəlifə Şamlu
Şahverdi sultan Cəlaloğlu Çepni
Şahverdi sultan Təbətoğlu
Şahverdi sultan Ziyadoğlu Qacar
Şahvəli sultan Zülqədər
Şaməx ibn Amir
Şamxal sultan Çərkəz
Şarden J.
Şatır bəy
Şatır Əli
Şatır Məhəmməd
Şermazan (gürcü sərkərdəsi)
Şeyban ibn Cuci
Şeybani xan (Şeybək xan, Şahibəy xan, Məhəmməd xan Şeybani)
Şeyx Bəhaəddin Məhəmməd
Şeyx Cüneyd Bağdadi
Şeyx Cüneyd Səfəvi (bax: Sultan Cüneyd Səfəvi)
Şeyx Əbu-Əli ibn Sina
Şeyx Əbu-Səid
Şeyx Əli Əbdüləali (Xatəmül-müctəhidin) Şeyx Əli Menşar
Şeyx Feyzi Hindi
Şeyx Fəzlulla Ərəb
Şeyx Heydər Səfəvi (bax: Sultan Heydər Səfəvi)

Şeyx Həsən Davud Xadim Astarabadi
Şeyx Hüseyn Zahidi
Şeyx İbrahim Qətifi
Şeyx İbrahim Təbəsi
Şeyx Lütfulla Təbəsi
Şeyx Məhəmməd Davud Astarabadi
Şeyx Müslihəddin Sədi Şirazi
Şeyx Nəcibəddin Bozquş Şirazi
Şeyx Padar Qorçubaşı
Şeyx Sədrəddin Musa (bax: Sultan Sədrəddin Musa)
Şeyx Səfiəddin İshaq
Şeyx Şihabəddin Mahmud Əhəri
Şeyx Zahid Gilani
Şeyx Zeynalabidin Cəbəlamili
Şcyx Zeynəddin (müctəhid)
Şeyxşah (Şirvanşah II İbrahim)
Şeyxşah bəy Şeyxavənd
Şeyxüm mirzə Özbək
Şeyxzadə Lahici
Şeytan (bir isfahanlı dəmirçi oğlanın ləqəbi) Şəddad
Şəfiə
Şəhrəbanu bəyim
Şəms Fələk Dəvvar
Şəmsəddin-div
Şəmsi Şütürguhi
Şər Sarom (Şir Sarom)
Şərəfxan Bitlisi
Şərəf xan Rudəki
Şərəf ibn Məhəmməd
Şərəfəddin Əli Yəzdi
Şihabəddin Sührəvərdi
Şirzad
Şis (və ya Şit) peyğəmbər
Şüca bəy

**T**
Tanrıverdi xəlifə Kəngərlü
Tarux
Tavernye
Teymur xan Ərdəlan
Teymur xan Ustaclu

Təbət ağa Zülqədər
Təhmasib mirzə Səfəvi (Xudabəndənin oğlu)
Təhmasibqulu bəy Qapıçı Əfşar
Təhmasibqulu bəy Mosullu Türkman
Təhmasibqulu bəy Şamlu
Təhmasibqulu sultan Əfşar 616
Təhmasibqulu sultan Zülqədər (Əbülqasım sultanın oğlu)
Təhmasibqulu sultan Zülqədər (Əli xanın oğlu)
Təhmuraz
Təlhə ibn Übeydulla
Toyğun bəy Qacar
Tülək bahadır

**U**

Uluğ sultan
Uolş C.R.
Ustad Əli Müsəvvir
Ustad Həsən
Ustad Hüseyn Bəlyani
Ustad Qulu bəy Hüseyn
Ustad Məsum Kamança
Ustad Sultan Mahmud Tənburə
Ustad Sultan Məhəmməd
Ustad Sultan Məhəmməd Çəngi
Ustad Şeyxi bəy Topçubaşı
Uzun Həsən (bax: Əmir Həsən bəy Ağqoyunlu)

**Ü**

Übeydulla (Übeyd) xan Özbək
Ülamə sultan Təkəlü
Ümmət bəy Ustaclu
Ümmət xan Zülqədər

**V**

Valhuş (gürcü sərkərdəsi)
Vastar bəy Şeyxavənd
Velyaminov-Zernov V.V.
Vəhəb
Vəli ağa Çaşnigirbaşı
Vəli bəy (xan) Əfşar
Vəli bəy Ustaclu

Vəli xan Çərxçibaşı Ustaclu
Vəli xan Təkəlü
Vəli xəlifə Rumlu
Vəli xəlifə Şamlu (Ovçu)
Vəli sultan (xan) Qalxançıoğlu Zülqədər
Vəli sultan Şərəfəddinoğlu Təkəlü
Vəlican xan Türkman
Vəlixan bəy Rumlu
Vəlixan mirzə Şamlu
Vilayəti Ə.
Vorotınski M.İ.

**Y**
Yadigar Məhəmməd sultan Mosullu
Yadigar Məhəmməd sultan Tərxan
Türkman
Yaqub xan Zülqədər
Yaqub ibn Leys
Yaqub peyğəmbər
Yaqub sultan Əfşar
Yaqub sultan Qacar
Yaraqxan
Yari bəy (Özbək)
Yegan sultan Əfşar
Yelena (gürcü xanım)
Yetim sultan Özbək
Yolqulu bəy Zülqədər
Yunis xan (Xarəzm valisi)
Yusif ağa Çaşnigirbaşı
Yusif bəy Çavuşlu
Yusif bəy Türkman
Yusifxan (Şirvan bəylərbəyisi)
Yusif xan Əfşar
Yusif xəlifə Qacar
Yusif mirzə Ağqoyunlu
Yusif peyğəmbər
Yusif sultan Varsaq

**Z**
Zaxoder B.N.
Zakir Çepni

Zal bəy Gürcü
Zeyd ibn Sabit
Zeynal bəy Şərbətdar
Zeynal xan İbrahim xan oğlu Zülqədər
Zeynal xan Şamlu
Zeynalabidin Əli Əbdi bəy
Zeynəb bəyim
Zeynəddin Qaraca
Zəmiş bahadır (Özbək)
Zərinəzadə H.
Zübeyr ibn Avvam
Züleyxa
Zülfüqar xan Mosullu Türkman
Zülqədər sultan

## COĞRAFİ ADLAR

**A**

Abbasabad bağı
Abbasabad şəhəri
Abxaziya
Acarıstan
Acısu (Şurab)
Adilcevaz
Afruca
Ağqala (Qəleyi-sefid)
Ağmisqal
Ağrıca
Axalkalaki
Axısqa
Aqra
Aqşəhr (Axalkalaki)
Aqşəhr (Akşar)
Aqşəhr (Akşehir)
Aladağ
Albaniya
Alget çayı
Aliqarlı
Allahu-əkbər silsiləsi
Alma-qulağı
Amasya

Amdin(İdin)
Amid (Qara Amid,  Həmid, Qara Həmid)
Amol
Amudərya (həmçinin bax: Ceyhun)
Anadolu
Andhra-Pradeş
Ankara
Araz çayı
Arazbar
Arpaçay
Arran
Artvin
Astara
Astarabad
Aşqabad
At meydanı
Atropatena
Avropa
Azərbaycan

**B**
Baba silsiləsi
Babil
Babül-əbvab (həmçinin bax: Dərbənd)
Badikubə  (həmçinin  bax:   Bakı)
Bagir
Bağat
Bağbad
Bağçasaray
Bağdad
Baği-İrəm
Baği-Kumə
Baği-Vəhş
Bahluvar çəməni
Baxərz
Bakı (həmçinin bax: Badikubə)
Balxaş gölü
Baratlı
Barfüruş
Bargiri
Bastanabad

Başgediklər
Başı-açıq
Bayal qalası
Bayburd
Bayraməli
Bazarcahi
Bazarçay
Behbehan
Benqal
Berlin
Bertis (Birtvisi)
Beyhak
Beyləqan
Beytül-həram
Beytül-müqəddəs
Bədəxşan
Bəhri-Əxzər (Atlantik okeanı)
Bəhri-Fars
Bəhriz çayı
Bəkr
Bəlx
Bəm
Bəndər-Abbas
Bəndi
Bəndi-Əmir
Bərdə
Bərgüşadçayı
Bəsrə
Bhima çayı
Bicapur
Bicarpəs
Biqurd
Binadgan
Birəncərd çeşməsi
Bistam
Bisütun dağı
Bitlis (Bidlis)
Biyarcümənd
Biye-pəs
Biye-piş
Bizans

Bəcnurd
Bombey
Borçalı
Brahmaputra çayı
Buxara
Buməcdkur

**C**
Cahanara bağı
Cahannüma imarətləri
Cahanşahiyyə məqbərəsi
Cam
Cavad
Ceyhan çayı
Ceyhun çayı (həmçinin bax: Amudərya)
Cəbəlamil
Cərbədqan
Cərco (həmçinin bax: Çaharcu)
Cərun
Cəzbərxəvar
Culfa
Cuşqan (Cuzqan)
Cünabəd
Cürcan

**Ç**
Çaharbağ
Çaharbazar
Çaharcu
Çaharsuq
Çaldıran
Çehelsütun
Çəğmin
Çəkiçəki yaylağı
Çəmçal
Çərəndab
Çərkəz
Çıldır gölü
Çin
Çorox çayı
Çuxursəəd

**D**

Dadian
Dağıstan
Daxadayevsk
Damğan
Darülmərz
Daşkənd
Debed çayı
Dehdəşt
Dehli
Delcuyək (Dərcuyə) məhəlləsi
Delican
Derazgisu
Deyləman
Dəclə
Dəkən (Dekan)
Dəkkə
Dəmavənd
Dərbənd
Dərcəzin
Dəryalıq çayı
Dəsti-Bəyaz
Dəşti-Xəzər
Dəşti-Kəvir
Dəşti-Qıpçaq
Dəşti-Lüt
Dəvəboynu dağı
Dirman (Derzabad)
Divarbəst qalası
Div-kəsən
Diyala çayı
Diyarbəkr
Dizful
Dizmar
Dövlətabad
Dunay çayı
Durna dağı
Dürun
Düşənbə

**E**
Edinburq
Elburz dağı
Eynəli və Zeynəli məqbərəsi
Eysər

**Ə**
Əbərquh
Əbhər
Əbivərd
Əbu-Şəhmə
Əcəm
Əfqanıstan
Əhər
Əhər çayı
Əhraz küçəsi
Əhvaz (Hüveyzə)
Əxlat
Əxsi
Əqsa məscidi
Əlbistan
Əl-Cəzirə
Ələmut
Ələskərd
Əli-Ərdəkan
Əlincə çayı
Əlincəq qalası
Əlişəkər qələmrovu
Əl-Milh gölü
Əlvənd dağı
Əndican
Əndicançay
Əndixud (Əndxoy)
Ərak
Ərciş
Ərcüvan
Ərçivan cayı
Ərdəbil
Ərdəhan
Ərdəlan
Ərduvanuh (Ərdanuç, Ardanuç)

Ərəb-amiri
Ərəbistan
Ərəş
Ərjən çölü
Ərqəndab çayı
Ərməniyyə
Ərşəq
Ərzincan
Ərzurum
Əskəreyn
Əstar
Əşkənbər
Əşkur
Əşrəf
Ətrək çayı

**F**
Fars
Fəhusfənc çayı
Fələstin
Fərah
Fərat çayı
Fərəhabad
Fərəhan
Fərəhrud
Fərqanə
Fəryab
Firəng
Firuzkuh
Florensiya
Fumən
Fuşənc

**G**
Gazərgah
Gələsən-Görəsən qalası
Gəncə
Gərmrud
Gərmsir (Gərmsirat)
Gəskər
Gilan

Girem (Qremi)
Govxanı ribatı
Göle
Gölebakan
Göyçə-dəniz
Göyərçinlik qalası
Gözəl dərəsi
Guryal
«Güldəstə» xəlvətxanası
Gülxəndan
Gülüstan qalası
Gümrü
Günbədi-Qabus
Gürcüstan
Gürgan cayı

**H**
Hamun gölü
Herat
Heydərabad
Heydəriyyə məscidi
Həbəlrud
Hələb
Həmədan
Həmətərə
Hərəmeyn (Hərəmeyni-şərifə)
Hərirud
Həsən padşah mədrəsəsi
Həsən padşah məscidi
Həsən padşah türbəsi
Həsənabad
Həsən-keyf (Hısm-keyfa)
Həştbehişt
Həzarcərib
Həzarə
Həzrə
Hicaz
Hillə
Hilyəkəran
Hindiquş dağları
Hindistan (Hind)

Hirmənd (Hilmənd) çayı
Hisari-Şadman
Hörmüz
Hüseyniyyə
Hüveyzə (həmçinin bax: Əhvaz)

**X**

Xaçmaz
Xaldan
Xalxal
Xarəzm
Xarutrud
Xatvan (Xatun) körpüsü
Xavə
Xeybər
Xəbis
Xəbuşan (indiki Kuçan)
Xərquşi xiyabanı
Xərrəqan
Xərzanvil
Xətay (Xəta)
Xəvaf (Xüvaf, Xvaf)
Xəvar (Xüvar, Xvar)
Xəzər dənizi
Xınalıq
Xınıs
Xiyav
Xorasan
Xosrovcərd
Xoy
Xrami çayı
Xuzistan
Xürrəmabad
Xüzar (Quzar)

**İ**

İxtiyarəddin qalası
İlicə
İmamzadə Hüseyn məqbərəsi
İmamzadə Səhl-Əli məqbərəsi
İmereti (həmçinin bax: Başı-açıq)

İraq
İraqeyn
İraqi-Əcəm
İraqi-Ərəb
İran
İrankörfəzi
İrəm (Gülüstani-İrəm)
İrəvan
İrtış çayı
İsfahan
İsfərayin
İsfərəncan
İsfizar
İstanbul
İstəxr
İtaliya
İzədxast

**K**
Kaaxka
Kabil
Kafirnihan
Kaxet
Kalpuş
Kartil (Kartli)
Karun çayı
Kasançay
Kaşan
Kaşğar
Kazimeyn
Kelkitçayı
Kembric
Keym
Kəbə (həmçinin bax: Beytül-həram)
Kəbud-Günbəd
Kəcur
Kəfəl
Kəlbar məhəlləsi
Kələnbər
Kəlxuran
Kəlkətə

Kəlküttə
Kəmax
Kənduman
Kərbəla
Kərkil
Kərkük
Kəşmir
Kəzzaz
Kic
Kiçik Zabçayı
Kiş
Kilidi-Gilan (Gəldi-gələn) qalası
Kirman
Kirmanşah
Konya
Kopetdağ
Koyluhisar
Krım
Krişna çayı
Kuçesfəhan
Kuhbənan
Kuhdəm
Kuhrud
Kuhi-Giluyə
Kuhistan
Kuke
Kuməs (Kumiş, Qaris)
Kunyə-Urgənc
Kusuyə
Kutaisi
Kürdüstan
Kütahya
Kütəl-Mayin
Kvareli
Kvataxevi

**Q**
Qabırrı (İori) çayı
Qafdağı
Qafqaz
Qahirə

Qain
Qalaybuğurd
Qanıq (Alazan) çayı
Qanq çayı
Qanlı-çəmən
Qaradəniz
Qarabağ
Qaracadağ (Qaradağ)
Qaradərə
Qarahəmid
Qarakütəl
Qaraman
Qarasu
Qaratəpə
Qars
Qars-Arpaçayı
Qaşqadərya
Qayakənd
Qaytaq
Qazaxıstan
Qeysəriyyə (Təbrizdə bazar)
Qəbələ
Qəhqəhə qalası
Qəhrudbəndi
Qəlmaq
Qəndəhar
Qərcistan
Qərşi (Karşi)
Qəzneyn (Qəznə)
Qəzvin
Qıpçaq kəndi
Qırğız (Qırğızıstan)
Qırxçıraq
Qız qalası dağı
Qızıl Orda
Qızılağac
Qızılarvad
Qızılbaş (dövlət və ölkə adı kimi)
Qızılçaqçaq
Qızılirmaq
Qızılüzən

Qicduvan
Qodavari
Qolkonda
Qori
Qoyun-ölümü keçidi
Quba
Qum
Qur (Quristan)
Quriyan
Quryan
Quryan  (Xorasanda
Qüds (Qüdsi-Xəlil)
Qülhan

**L**
Lahican
Lahor
Lar
Laryaylağı
Leyden
Leyptsiq
Lənkəran
Lids
London
Luhəs (bax: Kuməs)
Luknou
Lumk (bax: Tümük)
Luri-kuçek
Luristan
Luristani-fili
Lusuyə (bax: Kusuyə)

**M**
Mahan çəmənliyi
Mahanə
Mahidəşt yaylağı
Mahmudabad (Mərvdə)
Mahmudabad (Şirvanda)
Maku
Malan körpüsü
Malatya

Mançester
Manna
Marağa
Mardin
Marı
Mavəraünnəhr
Mazandaran
Mehabad
Mesx (Mesxi)
Meşkin
Meydancuq yaylağı
Meymənə
Mədinə
Mədrəs
Məhvəri-Savucbulağ
Məkkə
Məkran
Məlik darvazası
Məncil
Mənqutay
Məntərə
Mərdanqub (Martkoph)
Mərənd
Mərəş (Maraş)
Mərivan
Mərv (Mərvi-Şahicahan)
Məşhəd
Məzari-şərif
Məzinan
Midiya
Minqreli
Mirzə Pirbudaq bağı
Misir
Miyandüab
Miyanəc (Miyanə)
Molla-Həsən
Molodi
Moncra
Moskva
Mosul
Muğan

Muradbağı
Murçe-xurt
Murğabçayı
Musi çayı
Muş (Muşabad)
Münhen
Müzəffəriyyə

**N**
Naxçıvan
Narman
Nevbancan
Nəcəf (Nəcəfi-Əşrəf)
Nəduşən
Nəhənk dərəsi
Nəqşi-cahan
Nəməksar
Nəmənqan
Nəsriyyə
Nətənz
Niderland
«Nigaristan» xəlvətxanası
Nihas
Nimruz
Nisa
Nişapur
Novkarvansaray

**O-Ö**
Oltu
Oman körfəzi
Ordubad
Orta Asiya
Otrar
Ovcan
Özbəkistan

**P**
Pakistan
Paradbaba-Mənsuri
Paris

Pasin
Pələngan
Pənc-təbəqə imarəti
Pəncab
Pətnə
Pəriyan ribatı
Pirəsufiyan
Portuqal
Püştbəstanı
Püştzərrə

**R**
Rey
Rəbiyə
Rənaş
Rəngin
Rəşt
Ribati-Səngin
Ribati-Siyahkuh
Rioni çayı
Roma
Rudbar
Rudəştin
Rum
Rus (Rusiya)
Rüstəmdar

**S**
Sağəri-bulağı
Sahibabad
Salar körpüsü
Saldəşk
Salyan
Samirə
Samtsxe-Saatabaqo
Samur çayı
Sankt-Peterburq
Sarıqamış
Sari
Savə
Savucbulağ

Sayinqala
Sefid bağı
Serqokalinsk
Səadətabad
Səbzəvar
Səidabad
Səhənd
Səhharan məhəlləsi
Səlmas
Səmərqənd
Səndan
Sərab
Sərəxs
«Sərvistan» xəlvətxanası
Səudiyyə Ərəbistanı
Sığnaq
Sırdərya
Simam
Simgər
Simnan
Sind
Sistan
Sivas
Sintszyan-Uyğur Muxtar vilayəti
Siyah-gurab
Siyahkuh
Siyavrud
Soğanlıdağı
Sulduz
Sultan Hüseyn mirzə mədrəsəsi
Sultan Seyid Əhməd Səfəvi məzarı
Sultanbud
Sultaniyyə
Surxabdağı
Surxab qalası
Suriya
Surluq yaylağı
Susfənd
Suşehri
Süleymaniyyə

**Ş**
Şabran
Şah atı (əsbi-şahi) meydanı
Şah Zeyd məzarı
Şahabad
Şahpur Kəsri qədəmgahı
Şahrud
Şahsavar
Şam
Şamaxı
Şenkaya
Şəhrizur
Şəki
Şəmasi
Şənbi-Qazan
Şəntən
Şərur
Şəttülərəb çayı
Şıxakəran
Şimalabad
Şindand
Şiraz
Şirğan (Şibirqan)
Şirvan
Şirvani yurdu
Şulistan
Şüregel
Şüştər

**T**
Tacabad
Tacikistan
Tahirabad
Talxatanbaba
Talış
Tarom
Taşauz
Tauq çayı
Tehran
Telavi
Təbərrük qalası

Təbərsəran (Tabasaran)
Təbəs (Cəbəlamildə)
Təbəs  (Xorasanda)
Təbriz
Təcinərud çayı
Təngə
Təngiz
Tərcan
Tərtər
Təsuc
Tibçayı
Tiflis
Timur
Tirpül
Toxarıstan
Toqat
Tonakabon
Topqapı sarayı
Tortum
Trablis (bax: Baratlı)
Trabzon
Tsixedidi
Tul-u Nar
Tumanus (Dmanisi)
Turan
Turşiz
Tus
Tümük (Tmoqvi)
Türbət (Türbəti-Heydəriyyə)
Türkiyə
Türküstan
Türkman kəndi
Türkmənistan
Türüşt
Tyanşan

**U**
Ucan
Urfa
Urgənc (Ürgənc)
Urmiya gölü

Urumi (Urmiya)
Usta qalası
Uşni

**Ü**
Üləng-neşin
Üləngi-Qoruq
Üskuyə
Üzümdül

**V**
Van
Vəlvələ çayı
Vəramin
Vərzənə
Vəzir
Vostan
Vyana

**Y**
Yaft
Yan silsiləsi
Yaşılirmaq
Yevlax
Yəmən
Yəsrib
Yəzd
Yusufeli

**Z**
Zabilistan (Zabul)
Zağan bağı
Zaqatala
Zayəndərud çayı
Zəgəm
Zəmindavər
Zəmzəm
Zəncan
Zəncanrud
Zərənc
Zurabad

## SÜLALƏ, TAYFA, XALQ VƏ İCMA ADLARI

**A**
Abbasilər sülaləsi
Ad qövmü
Adilşahlar sülaləsi
Ağqoyunlu sülaləsi
Alpavut tayfası

**B**
Baharlu tayfası
Bayanduri tayfası
Bayat tayfası
Bayburdlu tayfası
Beradost tayfası
Bəndani qəbiləsi
Bəni-Muxtar nəsli
Böyük Moğollar sülaləsi

**C**
Cabiriyyə nəsli
Cagirlü tayfası
Cağatay tayfası
Caki qəbiləsi
Cəlairilər sülaləsi
Cəlalilər
Cəvanəki qəbiləsi

**Ç**
Çavuşlu qəbiləsi
Çepni (çəpni, çəpəni) tayfası
Çəkəni tayfası
Çəlavilər sülaləsi
Çərkəzlər
Çingiziyyə sülaləsi

**D**
Dəstəgi nəsli
Diyamidze ailəsi

**E**
Eldənizlər (Azərbaycan Atabəyləri)
Elxanilər (Hülakülar)
Erməni

**Ə**
Əbdülvəhhabiyyə seyidləri
Əbərlü eli
Əfşar tayfası
Əlaqəbənd seyidləri
Əl-Vəşiyyət seyidləri
Ərəb
Ərəbgirlü tayfası
Ərəşlü qəbiləsi
Əymür qəbiləsi

**F**
Fars

**G**
Gəraylı tayfası
Gözüböyüklü tayfası
Gülüstanə seyidləri
Gürcü

**H**
Haşimilər nəsli
Həsəniyyə seyidləri
Hüseyni seyidləri
Hindli

**X**
Xakiyyə nəsli
Xəlifə seyidləri
Xınıslu (xunuslu) tayfası
Xristianlar (nəsrani, məsihi)

**İ**
İmamlar (şiə imamları)
İshaqilər sülaləsi

**K**
Kafirlər
Kəngərlü tayfası
Kəyan sülaləsi
Kürd

**Q**
Qacar tayfası
Qarabörklər tayfası
Qaraqoyunlu sülaləsi
Qaramanlu tayfası
Qazaqlar tayfası
Qəriblü tayfası
Qıclu qəbiləsi
Qıpçaq
Qızılbaşlar
Qurlar
Qüreyş tayfası
Qütbşahlar sülaləsi

**L**
Ləzgi
Lurlar

**M**
Mahi-fəqihlü oymağı
Mahmudi tayfası
Məcuslar (atəşpərəstlər)
Məmlük sülaləsi
Məmuriyyə seyidləri
Mərəşi seyidləri
Moğol (monqol-tatar)
Mosullu tayfası
Musəvi seyidləri
Mükri tayfası
Müsəlmanlar
Müşəşə ərəbləri
Müzəffərilər sülaləsi

**N**
Nizamşahlar sülaləsi

Nurbəxşiyyə nəsli
Nurkamaliyyə nəsli

**O-Ö**
Oxlu tayfası
On dörd məsum
Ordustan seyidləri
Osmanlı sülaləsi
Otuziki oymağı
Ovçu (ovci, avcı) qəbiləsi
Ovsalu qəbiləsi
Özbək
Pişdadilər sülaləsi
Pornak tayfası

**R**
Rəvvadilər sülaləsi
Rizəvi seyidləri
Rumilər
Rumlu tayfası

**S**

Sacilər sülaləsi
Salarilər sülaləsi
Sayinxani tayfası
Seyfi Hüseyni seyidləri
Səfəvilər sülaləsi
Səffarilər sülaləsi
Siyahpuşlar tayfası
Sünnilər

**Ş**
Şahsevən tayfası
Şamlu tayfası
Şeybanilər sülaləsi
Şeyxavənd tayfası
Şeyxlər qəbiləsi
Şəddadilər sülaləsi
Şərəflü qəbiləsi
Şiələr

Şirvanşahlar

**T**
Tacik
Talış
Tatar
Teymurilər sülaləsi
Təbətəbayi seyidləri
Təkəlü tayfası
Tərkə nəsli
Türk
Türkman
Türkmən

**U-Ü**
Ustaclu tayfası
Üskuyə seyidləri

**V**
Varsaq tayfası

**Y**
Yaka türkmənləri
Yəcuc və Məcuc
Yəhudi

**Z**
Ziyadoğlular nəsli
Zülqədər tayfası

## TERMİNLƏR

**A**
Adinə
Ağruq
Axtarma
Alidivan
Ali-əba
Amannamə
Aşura
Atalıq

Atəşək
Atəşkədə
Avaraca
Avaracanevis
Aznavur

**B**
Bac
Baqqal
Bargah
Batman
Beldar
Bəhram ulduzu
Bəhrami kaman
Bəqaül-xeyrat
Bəlağət
Bəng
Bərangar
Bəst
Binatün-nəş
Binəbər
Bölükat
Bukavul
Büqa əl-xeyr
Büsatöl,
Büyutat

**C**
Canəqi
Canişin
Carçı
Carçıbaşı
Cəfr
Cəldu
Cərrah
Cəvangar
Cihad
Ciqqə
Cilovdar
Cizyə
Cülus

**Ç**
Çalçıbaşı
Çarşı (çaharsuq)
Çaşnigirbaşı
Çaşt
Çəng
Çərxçi
Çərxçibaşı
Çətirdar
Çobanbəyi

**D**
Daruğa
Darülxilalət
Darülibadə
Darüliman
Darülinşa
Darülirşad
Darülmöminin
Darülmülk
Darüssəlam
Darüssəltənə
Darvazaban
Davudi zireh
Dəvatdar
Dəvatdari-ehkam
Dəvatdari-ərqam
Dinar
Dirhəm
Div (Mazandaranda əyan titulu)
Divan
Divanbaşı (divanbəyi)
Divannevis
Dövlətxana
Düldül
Düşüllük

**E**
Ehdas
Elçi

Eşikağası
Eşikağasıbaşı
Etimadüddövlə

**Ə**
Əbcəd
Əbləğ
Ədvar
Əhli-beyt
Ələmançı
Əliallahilik
Əllamətül-üləmayi
Əmiraxur
Əmiraxurbaşı
Əmirülümə̈ra
Əmri-məruf
Ənqaquşu
Ərbabi-əmaim
Ərəbiyyət
Ərk
Ərkani-dövlət
Ərradə
Əsəs
Əsəsbaşı
Əsnaf
Əsr vaxtı
Əşəreyi-mübəşşirə
Əşrəf (Səfəvi şahlarını bildirən ifadə)
Əşrəfi
Ətəbati-aliyat
Əttar

**F**
Fəqərə
Fəqih
Fənayi-mütləq
Fərqədan ulduzları
Fərraşxana
Fərsəx
Fəthnamə
Fiqh

Flori
Füruiddin

**G**
Gərənay
Gərək-yaraq
Gəz

**H**
Hacib
Hafiz
Haris
Heyət
Həbbə
Həcc
Həcv
Hənbəli
Hənəfi
Hənif dini
Hərəmxana
Hərz xidməti
Həvalə sahibləri
Hidayət
Hikəmiyyat
Huri

**X**
Xacəsaray
Xadimbaşı
Xadimül-hərəmeyn
Xanəgah
Xansalar
Xanlar xanı
Xasseyi-sərifə
Xassə
Xatəmbəndi
Xəftan
Xəlifə
Xəlifətül-xüləfa
Xəndək
Xərac

Xərvar
Xətai nəqşi
Xətib
Xəttat
Xəzaneyi-amirə
Xəzinədar
Xilafət
Xirqə
Xondgar
Xoşnevis
Xüldi-bərin
Xüms
Xünaq xəstəliyi
Xütbə

**İ**
İctihad
İqta
İqtida
İlğar
İmal elmi
İmamət
İrfan
İrşad
İshal xəstəliyi
İslimi nəqşi
İsna-əşəri İstixarə
İstimalətnamə
İstisqa

**K**
Kamandar
Karxana Karvansaray
Katibüs-sultani
Keşikçi
Kətxuda
Kəhhal
Kələntər
Kəngaş
Kiliddar
Kilsə

Kurkə
Kutval
Künyə

**Q**
Qabaq-əndazi
Qaqum
Qapıçı
Qapıçıbaşı
Qapıqulu (Qapıxəlqi)
Qaraçapuq ilxısı
Qasid
Qayçaçıxana
Qazı
Qazı-ehdas
Qazı əl-Qüzzat
Qazı-əsgər
Qazi (ğazi)
Qeysər
Qələmrov
Qələndər
Qəsidə
Qəzavat
Qiblətül-Küttab
Qissə
Qissəxan
Qitə (xəttatlıqda)
Qitə (poeziyada)
Qitənevis
Qol
Qorçiyi-şəmşir
Qorçi-yi tir ü Kəman
Qorçiyani-daş
Qorçiyan-i divan-i ali
Qorçiyan-i evoğlu
Qorçu
Qorçubaşı
Qövl və əməl
Qurxana
Qüsl

**L**
Ləl
Lələ
Ləşkərnevis

**M**
Maddeyi-tarix
Mali-Möhtərifə
Mali-yekmahə
Maliki
Meymənə
Meysərə
Məbda
Mədinətül-Möminin
Mədrəsə
Məqtə
Məqtə sahibi
Məmaliki-Məhrusə
Mənqəlay
Mərai
Mərce
Mərəkəgir
Məscid
Mərrix ulduzu
Mərsiyə
Məsnəvi
Məşşatə
Mətlə
Məvaşi
Miad
Minbər
Mirşikar
Mirşikarbaşı
Misqal
Misri qılınc
Moizə
Möhtəsib
Möhtəsib əl-Məmalik
Möhürdar
Muxtarüssəltənə
Mustovfi

Mustovfi əl-Məmalik
Mustovfiyi-bəqaya
Mustovfi-yi ərbab-i təhavil
Mustovfiyi-Mal
Müalic
Mücahid
Mücavir
Müctəhid
Mündərris
Müəmma
Müfridənevis
Müfti
Mühasib
Mühərrir
Mühəssil
Müqərrəb
Müqərrəbül-həzrət
Müqərrəbül-xaqan
Mülazim
Müməyyiz
Münşi
Münşi əl-Məmalik
Mürid
Müsəvvir
Mürşid
Mürşidi-Kamil
Müsəlləsə Qövsü
Müsənna (xətt növü)
Müşrif
Müşrik
Mütəsəddi
Mütəvəlli
Müvərrix

**N**
Nazir
Naziri-büyutat
Nəcəq
Nədim
Nəhyi-Münkər
Nəqib

Nəqibül-nüqəba
Nəqqaş
Nəsxxətti
Nəstəliq xətti
Nət
Nəzarəti-imarət
Nəzarət-i sərkar-i xasse-yi şərifə
Nirəncat
Nücum
Nürə

**O-Ö**
Ovçubaşı
Övliya

**P**
Payəndaz
Peşkəş
Peykan
Pənahgah
Pərvanəçi
Pişxidmət
Pişnamaz
Pişvayi
Pravoslav
Purnavul

**R**
Rafizilik
Raməndi dili
Rəml elmi
Rəsmi-mühdis
Ribat
Rical elmi
Rikabxana
Risalə
Rizvan
Rövzə
Rüknüssəltənə
Rüknüs-səltənətül-Qahirə
Rüqə xətti

**S**
Sağduş
Sahibi-cəm
Sahibi-divan
Sahibi-tövcih
Sahibqiran
Saqi
Sancaq
Sancaqbəyi
Sayəban
Səba küləyi
Səccadə
Sədarət
Sədi
Səqqa
Sər-gelle
Sərdar
Sərkari-hümayun
Sərkeşik
Sərral
Sidrə
Sidrətül-müntəha
Sipəhsalar
Siyaq elmi
Siyasətgah
Siyər
Solduş
Soyurğal
Sufi
Sur əl-ğəniyyə xəstəliyi
Süfrəxana
Süls xətti
Sünnəti touliyyət
Sünnilik
Sürəyya (YeddiQardaş) ulduzları
Süruş

**Ş**
Şalei
Şahısevən

Şahi
Şeyxülislam
Şəhriyar
Şərbətxaneyi-xeyri
Şəriət
Şiəlik
Şihnə
Şikargah
Şikəstə xətti
Şütürxan

**T**
Taqiyə
Tamğa
Tamğaçı
Tasua
Təbbax
Təbərra
Təbərradeyənlər
Təbil və ələm sahibi
Təcrid
Təcvid
Təfsir
Təhsildar
Təqiyyə
Təlaq
Təlayə
Təliq xətti
Tənburi-çahartar
Tərcibbənd
Tərcüman
Tərcümani-itaəti
Tərkibbənd
Tərrah
Təsəddüq
Təvaçı
Təvaçıbaşı 2
Təvaf
Təvəlla
Təzkirə
Tip (Tüp)

Tirkeş
Tiyul
Toqi xətti
Topçubaşı
Touliyyət
Tovhid
Toy ulusu
Tuba ağacı
Tüfəngçi
Tümən
Türk təqvimi

**Ü**
Üləma,
Ülufə və ələfə
Ürfi
Üstürlab
Üsul elmi
Üsuliddin
Ütarid ulduzu

**V**
Vacibi Touliyyət
Vaqiənevis
Vaqiənigar
Vaiz
Vəkalət-i divan-i ali
Vəkalət-i həlaliyyat-i sərkar-i xasse-yi şərifə Vəkil
Vəkilüssəltənə
Vəqf
Vəliəhd
Vəsiyyətnamə
Vəzir
Vəziri-əzəm
Vəzir-i Qorçiyan-i əzəm
Vəzir-i sərkar-i xasse-yi şərifa
Vəziri-Tərxan
«Vilayət» (dini Termin)

**Y**
Yaraqxana
Yasaq
Yasaqkeş
Yasavul
Yeddiiqlim
Yeniçəri
Yəcuc və Məcuc
Yəməni qılınc
Yüzbaşı

**Z**
Zabit
Zabitənevis
Zaviyə
Zər
Zərbzən
Zöhrə ulduzu
Zuzbabə kometi
Zühəl ulduzu

## ƏSƏR ADLARI

«Aldanmış kəvakib»
«Azərbaycan dilinin orfoqrafiya lüğəti»
«Bəhmənnamə»
«Came-yi Abbasi»
«Cəvahirül-əsrar»
«Divan»
«Əhsənüt-təvarix»
«Ərbəe-yi təharət»
«Fərhəng-i İbrahim»
«Fəthname-yi Abbas-i namdar»
«Fütuhat-i Əmini» («Fütuhat-i şahi»)
«Gülüstan-i hünər»
«Gülüstan-i İrəm»
«Haşiye-yi mütəvvəl»
«Haşiye-yi şərh-i işarat»
«Haşiye-yi şərh-i müxtəsər-i üsül»
«Haşiye-yi şərh-i müxtəsər-i üsul və qiyasat-i həqqül-yəqin fi hədisül-aləm»
«Haşiye-yi Təfsir-i Qazi»

«Həbibüs-siyər fi əxbar əfradül-bəşər»
«Həcc»
«Həft kişvər»
«Xəmsə»
«Xülasətül-əxbar fi bəyan əhvalül-əxyar»
«Xülasətül-əşar və zübdətül-əfkar»
«Xülasətüt-təvarix»
«Xüld-i bərin»
«İmazat»
«İncil»
«İsna-əşəriyyat»
«Kəşkül»
«Kitab əl-müləxxəs fil-heyət»
«Kitab-i cəbəlül-mətin»
«Kitab-i çehel hədis»
«Kitab-i Diyarbəkriyyə»
«Kitab-i eynül-həyat fi təfsir-i ayat»
«Kitab-i hədayiqüs-salehin»
«Kitab-i xülse-yi mələkutiyyə»
«Kitab-i kafi və şərh-i Kuleyni»
«Kitab-i məşriqüş-şəmseyn» 334
«Kitab-i novrəs»
«Kitab-i rəvaşeh-i səmaviyyə»
«Kitab-i siratül-müstəqim və üfüqülmübin» «Kitab-i təqdisat»
«Kitab-i tərəssül min münşəat-i Xoca
İsgəndər bəy Münşi»
«Kitab-i zübdətül-üsul»
«Qanunüs-süvər»
«Qəvaid-i xətt-i süls»
«Qəvaid-i şəhidi»
«Quran-i Kərim»
«Qürər və dürər»
«Lübbüt-təvarix»
«Məcməül-xəvas»
«Məxzənül-əsrar»
«Mərkəz-i ədvar»
«Məsnəvi-yi mənəvi»
«Mətləüs-səədeyn və məcməül-bəhreyn»
«Midadül-xütut»
«Miftahül-fəlah»
«Mükatibat-i Əllami»

«Nəfəhatül-üns min həzəratül-qüds»
«Nüsəx-i cahanara»
«Nüsxe-yi mirzə» («Risale-yi Mirzə»)
«Nüzhətül-qülub»
«Risale-yi həzziyyat»
«Risale-yi xülasətül-hesab»
«Risale-yi isbat-i vacib-i qədim və cədid»
«Risale-yi səhifə»
«Risale-yi təşrihül-əflak»
«Rövzətüs-səfa fi sirətül-ənbiya vəl-müluk vəl-xüləfa»
«Rövzətüs-səfa-yi Nasiri»
«Səbe-yi şəddad»
«Səfvətüs-səfa»
«Səhife-yi kamilə»
«Sələvat»
«Sidrətül-müntəha»
«Sovm»
«Süleyman və Bilqeys»
«Şahnamə»
«Şərh-i şəfa-yi Şeyx Əbu-Əli»
«Şərhüş-şərh-i çəğmini»
«Tarix-i aləmara-yi Abbasi»
«Tarix-i cahanara»
«Tarix-i elçi-yi Nizamşah»
«Tarix-i Əkbəri» («Əkbərnamə»)
«Tarix-i Təbəristan u Ruyan u Mazandaran» «Təazat»
«Təfsir-i ayat-i ehkam və əhadis-i səhihə»
«Təkmilətül-əxbar»
«Təzkirətül-müluk»
«Tövrat»
«Tuğra-yi hümayun»
«Ürvətül-vüsqa»
«Üsul-i kafi»
«Üyunul-məsail»
«Yeddi gözəl»
«Yusif və Züleyxa»
«Zeyl-i tarix-i aləmara-yi Abbasi»
«Zəbur»
«Zəfərnamə»
«Zəvabitür-rizae»

## İXTİSARLAR

AMEA - Azərbaycan Milli Elmlər Akademiyası
ASE - Azərbaycan Sovet Ensiklopediyası
BSOAS - Bulletin of The School of Oriental and African Studies
c. - cild
h. - hicri
M. - miladi
Vol. - volume
вып. - выпуск
СИЭ - Советская Историческая Энциклопедия
ССИА - Сборник статей по истории Азербайджана
т. - том
ч.- часть

# MÜNDƏRİCAT


ÖN SÖZ ... 3

İSGƏNDƏR BƏY MÜNŞİ ... 18

«TARİX-İ ALƏMARA-Yİ ABBASİ» ... 18

(«ABBASIN DÜNYANI BƏZƏYƏN TARİXİ») ... 18

MÜQƏDDİMƏ ... 18

ALLAHIN KÖLGƏSİ OLAN ƏLAHƏZRƏT ŞAHIN ... 30

MÜBARƏK NƏSƏBNAMƏSİ VƏ ONUN PEYĞƏMBƏR VƏ ... 30

İMAMLARIN NƏSLİNDƏN TÖRƏMİŞ YÜKSƏK SƏVİYYƏLİ ... 30
ƏCDADLARININ ALİ MƏQAMLARI HAQQINDA ... 30

SULTAN HEYDƏR OĞLU SULTAN ƏLİ PADŞAHIN ... 58

SƏADƏTLİ ƏHVALATI VƏ ULU YARADANIN ... 58

TƏQDİRİ İLƏ O HƏZRƏTİN ŞƏHİD OLMASI ... 58

SÜLEYMAN ŞANLI XAQAN ŞAH İSMAYIL BAHADIR XANIN ... 63

- ALLAH-TAALA ONU CƏNNƏT BAĞLARINDA SAKİN ETSİN ... 63
ƏHVALATININ XATIRLANMASI, O YÜKSƏK RÜTBƏLİ ... 63

SULTANIN ZÜHUR ETMƏSİNİN VƏ MEYDANA ÇIXMASININ ... 63

ŞƏRH EDİLMƏSİ VƏ ONUN DÜNYANI FƏHT ETMƏSİNİN ... 63

BƏYAN OLUNMASI HAQQINDA ... 63

SÜLEYMAN ŞANLIX AQANIN ŞİRVAN VALİSİ FƏRRUX ... 68

YƏSARLA MÜHARİBƏSİNİN ŞƏRHİ, O VİLAYƏTİN FƏTHİ ... 68

VƏ ORADA BAŞ VERMİŞ HADİSƏLƏRİN BƏYANI ... 68

SÜLEYMAN ŞANLI XAQANIN MİRZƏ ƏLVƏND ... 69

TÜRKMANLA MÜHARİBƏSİ VƏ SƏXAVƏTLİ ... 69

ALLAHIN KÖMƏYİ İLƏ QƏLƏBƏ ÇALMASI HAQQINDA ... 69

SÜLEYMAN ŞANLIXAQANIN SULTAN MURADLA MÜHARİBƏSİ.... ... 71

VƏ İRAQİ-ƏCƏMİN, FARSIN VƏ KİRMANIN ALLAHIN ... 71

KÖMƏYİ İLƏ FƏTH EDİLMƏSİ HAQQINDA ... 71

İRAQ ÜSYANÇILARININ CƏZALANDIRILMASI, QALALARIN ... 73
ALINMASI VƏ DÜNYA PADŞAHININ QƏLƏBƏ ÇALMASI HAQQINDA. ... 73

ƏMİR ƏLAÜDDÖVLƏ ZÜLQƏDƏRİN DƏF EDİLMƏSİ ÜÇÜN ... 77
HÖKMDARIN HƏRƏKƏTİ, DİYARBƏKR HADİSƏLƏRİ VƏ ALLAHIN ... 77
KÖMƏYİ İLƏ O DİYARIN FƏTH EDİLMƏSİ HAQQINDA ... 77

MÜBARƏK MƏİYYƏTİN İRAQİ-ƏRƏB TƏRƏFƏ HƏRƏKƏT ... 81

ETMƏSİ, O VİLAYƏTİN FƏTH EDİLİB ALINMASI VƏ ... 81
BU ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ... 81
XORASANIN FƏTHİ DASTANININ BAŞLANĞICI ... 85
SÜLEYMAN ŞANLIXAQANIN ALLAHIN KÖMƏYİ İLƏ ... 93
ÇALDIRAN [DÜZÜNDƏ] RUM PADŞAHI SULTAN ... 93
SƏLİMLƏ MÜHARİBƏSİ HAQQINDA ... 93
I ŞAH İSMAYILIN VƏFATI ... 99
MƏRHƏMƏT PƏNAH, CƏNNƏTMƏKAN VƏ XOŞ ... 100
AQİBƏTLİ ŞAH TƏHMASİBİN - ONA RƏHMƏT VƏ ... 100
BEHİŞT NƏSİB OLSUN – SƏADƏTLİ ƏHVALATI HAQQINDA ... 100
XORASAN HADİSƏLƏRİ VƏ ÖZBƏK XANLARININ SÜLEYMAN ... 108
ŞANLI XAQANIN VƏFATINDAN SONRA O SEVİNC BƏXŞ EDƏN ... 108
SƏADƏT NİŞANLI DİYARA GƏLİB-GETMƏLƏRİ HAQQINDA ... 108
ÜBEYD XANIN BİRİNCİ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA ... 109
ÜBEYD XANIN İKİNCİ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA ... 110
ÜBEYD XANIN ÖZBƏK XANLARI İLƏ BİRLİKDƏ ÜÇÜNCÜ DƏFƏ ... 112
XORASANA GƏLMƏSİ, ŞAHIN SƏADƏTLİ MƏİYYƏTİNİN ORAYA ... 112
YOLLANMASI, CAMIN XOSROVCƏRD [ADLI YERİNDƏ] DÖYÜŞÜN ... 112
BAŞ VERMƏSİ, CƏLAL VƏ KƏRAMƏT SAHİBİ OLAN [ALLAHIN] ... 112
İMDADI İLƏ HƏZRƏT ŞAHIN ZƏFƏR QAZANMASI HAQQINDA ... 112
ÜBEYD XANIN DÖRDÜNCÜ DƏFƏ XORASANA GƏLMƏYİ HAQQINDA ... 119
ÜBEYD XANIN BEŞİNCİ KƏRƏ XORASANA ... 122
GƏLMƏSİ VƏ FƏRAR ETMƏSİ HAQQINDA ... 122
XORASANIN VƏZİYYƏTİ, ÜBEYD XANIN ALTINCI DƏFƏ O ... 127
SƏADƏT NİŞANLI DİYARA GƏLİŞİ, ŞAH MƏİYYƏTİNİN ... 127
ORAYA YOLLANMASI, ÜBEYD XANIN ƏHVALATININ SONA ... 127
YETMƏSİ VƏ BUQƏLƏMUN FƏLƏYİN ZƏRURƏTİNƏ ... 127
UYĞUN SURƏTDƏ BAŞ VERMİŞ MÜXTƏLİF HADİSƏLƏR HAQQINDA ... 127
RUM XONDGARI SULTAN SÜLEYMANIN ƏCƏM ... 134
DİYARINA QOŞUN ÇƏKMƏSİ VƏ ONUN KƏSRA VƏ CƏM ... 134
TAXTINI BƏZƏYƏN [ŞAH TƏHMASİBLƏ] MÜBARİBƏSİ HAQQINDA ... 134
SULTAN SÜLEYMANIN İKİNCİ DƏFƏ [AZƏRBAYCANA] GƏLMƏSİ ... 137
RUM XONDGARI SULTAN SÜLEYMANIN ... 138
ƏLQAS MİRZƏNİN TƏHRİKİ İLƏ ÜÇÜNCÜ DƏFƏ ... 138
BU SƏRHƏDƏ VƏ BU ÖLKƏYƏ GƏLMƏSİ HAQQINDA ... 138

ƏLQAS MİRZƏNİN RUMUN KÖMƏYİ İLƏ İRAQA GƏLİŞİ VƏ....144
QAYITMASI VƏ ONUN ƏHVALATININ SONU HAQQINDA....144

SULTAN SÜLEYMANIN DÖRDÜNCÜ DƏFƏ AZƏRBAYCANA GƏLMƏSİ,....146
HƏMİN ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR VƏ O İKİ YÜKSƏK....146
RÜTBƏLİ PADŞAHIN ARASINDA SÜLH....146

BAĞLANMASI HAQQINDA....146

ŞİRVAN VİLAYƏTİNİN ALINMASI VƏ O SƏFALI VƏ....152

BOL MƏNFƏƏTLİ MƏMLƏKƏTİN CAHAN ŞAHININ....152

UĞURLU TALEYİ İLƏ ƏLƏ KEÇMƏSİ HAQQINDA....152

958-ci İL AYLARINDA ŞƏKİ VİLAYƏTİNİN FƏTHİ BARƏDƏ SÖHBƏT....157

CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN DİNİ MÜHARİBƏLƏRİ,....159
İMANSIZ GÜRCÜ KAFİRLƏRİNİN DARMADAĞIN EDİLMƏSİ VƏ....159
GÜRCÜSTANIN FƏTHİ BARƏDƏ SÖHBƏT....159

UĞURLU MƏİYYƏTİN İLK DƏFƏ ALLAHIN....160

KÖMƏYİ İLƏ GÜRCÜSTANA YÖNƏLMƏSİ HAQQINDA....160

UĞURLU CƏNNƏTMƏKAN ŞAHIN İKİNCİ....161

DƏFƏ GÜRCÜSTANA HƏRƏKƏTİ HAQQINDA....161

FƏLƏK RÜTBƏLİ, SƏMA ASTANALI....162

ŞAHIN ÜÇÜNCÜ DƏFƏ GÜRCÜSTANA HƏRƏKƏT ETMƏSİ....162

CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN....164

DÖRDÜNCÜ DƏFƏ GÜRCÜSTANA QOŞUN ÇƏKMƏSİ....164

KAMINA ÇATAN PADŞAHIN SƏADƏTİNİN GÜCÜ VƏ ƏSAS SƏBƏBKARIN....167
(ALLAHIN) İSTƏK VƏ İRADƏSİ İLƏ LUARSABIN ÖLDÜRÜLMƏSİ HAQQINDA....167

LUARSABIN ÖLDÜRÜLMƏSİNDƏN SONRA GÜRCÜLƏRİN ƏHVALININ....168
DAVAMI VƏ ONUN OĞLU SİMAYUN XANIN ƏBƏDİ DÖVLƏTİN....168
BAŞÇILARININ ƏLİ İLƏ TUTULMASI....168

QƏNDƏHAR VƏ ZƏMİNDAVƏR VİLAYƏTİNİN, HİRMƏND [ÇAYI]....170
KƏNARINDAKI GƏRMSİRATIN FƏTHİ VƏ O VİLAYƏTDƏKİ....170

KEÇMİŞ ƏHVALATLARIN BƏZİLƏRİ HAQQINDA....170

ÜBEYD XANIN ÖLÜMÜNDƏN SONRA XORASAN ƏHVALATLARININ....174
ARDI VƏ CAHANI VƏ CAHAN SAKİNLƏRİNİ YARADAN [ALLAHIN]....174
İRADƏSİ İLƏ O ZAMAN BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA....174

CƏNNƏTMƏKAN ŞAHIN DARÜLXİLAFƏT BAĞDADA....176

VƏ XUZİSTANA UĞURLU HƏRƏKƏTİ VƏ DÜNYA....176

SAKİNLƏRİNİN PƏRVƏRDİGARININ YARDIMI....176

İLƏ ÜSYANÇILARI DƏF ETMƏSİ HAQQINDA....176

CAHAN SULTANLARINDAN OLAN GÜNAHLARI BAĞIŞLANMIŞ....179
HƏZRƏT HÖKMDAR HÜMAYUN PADŞAH KÜRƏKANIN İRAN ƏRAZİSİNİN....179
ŞƏHRİYARININ SƏADƏT NİŞANLI DƏRGAHINA GƏLMƏSİ HAQQINDA....179

RUM HÖKMDARI SULTAN SÜLEYMANIN OĞLU SULTAN....188

BAYƏZİDİN ZƏMANƏNİN QƏHRƏMANI VƏ İRANIN HÖKMDARI....188

[ŞAH TƏHMASİBİN] DƏRGAHINA GƏLMƏSİ HAQQINDA....188

ÇİNGİZİYYƏ SULTANLARININ SƏADƏT....195

DƏSTGAHLI DƏRGAHA GƏLMƏLƏRİ HAQQINDA....195

XARƏZM VALİSİ YUNİS XAN VƏ ONUN....197

QARDAŞI PƏHLƏVANQULU SULTAN HAQQINDA....197

ASTARABAD HADİSƏLƏRİNİN ŞƏRHİ, MƏHƏMMƏD SALEH BİTİKÇİNİN....198
ƏHVALATININ BƏYANI VƏ OXLU TAYFASINDAN OLAN ABANIN....198
XARƏZM ÖZBƏKLƏRİNİN YARDIMI İLƏ TÜĞYAN ETMƏSİ HAQQINDA....198

GİLAN ƏRAZİLƏRİNİN FƏTH VƏ ZƏBT OLUNMASI, BİYE-PİŞ VALİSİ....205
XAN ƏHMƏDİN ÜSTÜNƏ QOŞUN GÖNDƏRİLMƏSİ VƏ ÖZ AQİBƏTİNİ....205
DÜŞÜNMƏVƏN O ŞƏXSİN ƏLƏ KEÇİRİLMƏSİ BARƏDƏ SÖHBƏT....205

CƏNNƏTMƏKAN ŞAHIN ZAMANINDA NANKOR QİYAMÇILARIN BAŞ....212
QALDIRMASI VƏ ONLARIN CƏZALANDIRILMASI HAQQINDA....212

ƏTRAF HÖKMDARLARIN ELÇİLƏRİNİN MƏLƏKLƏRİN TƏVAF....215
ETDİKLƏRİ DƏRGAHA GƏLMƏLƏRİ HAQQINDA SÖHBƏT....215

XAQANIN HAKİMİYYƏTİ ZAMANINDA ASİMANİ ZƏRURƏT ÜZÜNDƏN....219
BAŞ VERMİŞ NADİR HADİSƏLƏR VƏ QƏRİBƏ ƏHVALATLAR....219

BEHİŞT SAKİNİ OLAN CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN VƏFATININ....222
VƏ HƏMİN VAXT TANRININ İRADƏSİ VƏ TƏQDİRİ İLƏ ÜZ VERMİŞ....222
BÖYÜK BİR HADİSƏNİN HAQQINDA....222

XOŞBƏXT ŞAHZADƏLƏRİN, CƏNNƏTMƏKAN ŞAH HƏZRƏTLƏRİNİN....233
ÖVLAD VƏ NƏVƏLƏRİNİN VƏ ONUN ALİ MƏQAMLI QARDAŞI....233
OĞULLARININ ŞANLI ADLARI HAQQINDA....233

BƏZİLƏRİ ULU DƏRGAHDA, BƏZİLƏRİ İSƏ [AYRI-AYRI] MƏMLƏKƏTLƏRDƏ....252
OLAN YÜKSƏK DƏRƏCƏLİ XANLARDAN VƏ SULTANLARDAN İBARƏT....252
ADLI-SANLI ƏMİRLƏR HAQQINDA....252

BÖYÜK SEYİDLƏR, EHTİRAMLI ÜLƏMALAR, VƏZİRLƏR, QƏLƏM....259
SAHİBLƏRİ VƏ BƏLAĞƏTLİ ŞAİRLƏR HAQQINDA....259

SƏVİYYƏSİ, DƏRƏCƏSİ VƏ ŞANI UCA OLAN SEYİDLƏRİN ADLARININ....260
ALLAHIN KÖMƏYİ İLƏ QƏLƏMƏ ALINMASI....260

MÖHTƏRƏM ŞEYXLƏR, BİLİKLİ ÜLƏMALAR, HİKMƏT VƏ EHTİRAM....276
SAHİBİ OLAN FAZİLLƏR HAQQINDA....276

VƏZİRLƏR, MUSTOVFİLƏR, QƏLƏM ƏHLİ,....283

CAMAAT ARASINDA TACİKİYYƏ [ADI] İLƏ TANINAN BU....283

TƏBƏQƏNİN MƏŞHURLARIVƏ S. BU KİMİ ŞƏXSLƏR HAQQINDA....283

BÖYÜK MUSTOVFİLƏR VƏ DƏFTƏRXANA İŞÇİLƏRİ ........ 287
MƏSİH NƏFƏSLİ HƏKİMLƏR HAQQINDA ........ 296
O DÖVRDƏ ZƏMANƏNİN MİSİLSİZLƏRİ ........ 300
OLAN XOŞNEVİSLƏR (XƏTTATLAR) HAQQINDA ........ 300
DÖVRANIN MƏHARƏTLİLƏRİ OLAN, GÖZƏL RƏSMLƏR ÇƏKƏN VƏ ........ 306
O VAXTLAR ZƏMANƏNİN VƏRƏQLƏRİNİ ÖZ MÖVCUDLUQLARI İLƏ ........ 306
BƏZƏYƏN VƏ ZİNƏTLƏNDİRƏN NƏQQAŞLAR HAQQINDA ........ 306
CƏNNƏTMƏKAN ŞAHIN VƏFATI ZAMANI ........ 312
SÖZ USTADLIĞI SAHƏSİNDƏ ÇALIŞAN ŞAİRLƏR ........ 312
TƏBƏQƏSİ VƏ NƏZM SAHİBLƏRİ HAQQINDA ........ 312
XOŞA VAZLILARIN MÜTRÜBLƏRİN ........ 330
VƏ NƏĞMƏ ƏHLİNİN ADLARI ........ 330
MƏRHUM ŞAHZADƏ SULTAN HEYDƏR MİRZƏNİN ŞƏHİD OLMASI, ........ 332
İSMAYIL MİRZƏNİN SƏLTƏNƏT VƏ PADŞAHLIQDA QƏRAR TUTMASI ........ 332
VƏ ONUN ƏHVALATI HAQQINDA ........ 332
İSMAYIL MİRZƏNİN İRAN TAXTINA ƏYLƏŞMƏSİ VƏ ONUN HAKİMİYYƏTİ ........ 342
ZAMANINDA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ........ 342
ADLI-SANLI ŞAHZADƏLƏRİN ŞƏHİDLİYƏ QOVUŞMASI VƏ ONLARIN ........ 357
ÖMÜR FİDANLARININ QƏDDAR VƏ FANİ ZƏMANƏNİN QƏHREDİCİ ........ 357
SƏRSƏR KÜLƏYİNDƏN MƏHV OLMASI HAQQINDA ........ 357
İSMAYIL MİRZƏNİN HAKİMİYYƏTİ GÜNLƏRİNDƏ ONUN ........ 363
ÖLÜMÜNƏ QƏDƏR BAŞ VERMİŞ BƏZİ HADİSƏLƏR VƏ ƏHVALATLAR HAQQINDA ........ 363
SULTAN MƏHƏMMƏD PADŞAH XUDABƏNDƏ CƏNABLARININ ........ 377
HAKİMİYYƏTƏ GƏLMƏSİNİN, İRAN SƏLTƏNƏTİNİN VƏ HÖKMRANLIĞININ ........ 377
TAXTINA ƏYLƏŞMƏSİNİN VƏ ONUN HAKİMİYYƏTİ ........ 377
ƏYYAMINDA HƏR İL BAŞ VERMİŞ ........ 377
HADİSƏLƏRİN ŞƏRHİ HAQQINDA ........ 377
CƏLAL XAN ÖZBƏYİN XORASANA GƏLMƏSİ VƏ ........ 388
ONUN MÜRTƏZAQULU XAN TÜRKMANIN SƏYİ ........ 388
İLƏ QƏTLƏ YETİRİLMƏSİ HAQQINDA ........ 388
SİSTAN ƏHLİNİN ÜSYANI, TÜĞYANI VƏ ONLARIN ........ 390
CƏFƏR SULTAN ƏFŞARLA MÜHARİBƏSİ ........ 390
AZƏRBAYCAN VƏ ŞİRVAN HADİSƏLƏRİ, RUM SULTANININ ........ 393
O HÜDUDA VƏ ÖLKƏYƏ QOŞUN GÖNDƏRMƏSİ VƏ BU ........ 393
ZAMAN BAŞ VERMİŞ ƏHVALATLAR HAQQINDA ........ 393
ZƏFƏR BAYRAQLI ŞAHZADƏ HƏMZƏ MİRZƏNİN VƏ ƏMİRLƏRİN ........ 402
QARABAĞ VƏ ŞİRVAN TƏRƏFƏ HƏRƏKƏT ETMƏLƏRİ VƏ TANRININ ........ 402

KÖMƏYİ VƏ QAYĞISI SAYƏSİNDƏ ORADAN MÜZƏFFƏRCƏSİNƏ VƏ....................................402
QALİBCƏSİNƏ QAYITMALARI HAQQINDA ......................................................................... 402

DÖVRAN MƏLİKƏSİNİN İSTƏYİ VƏ RAZILIĞI İLƏ MAZANDARAN ÜZƏRİNƏ.....................408
QOŞUN GÖNDƏRİLMƏSİ VƏ O BEHİŞT NİŞANƏLİ DİYARIN VALİSİ OLAN.........................408
MİRZƏ XANIN ƏLƏ KEÇİRİLMƏSİ HAQQINDA ................................................................ 408

XORASAN MÜLKÜNDƏ BAŞ VERMİŞ ................................................................................ 412

SƏADƏT SAÇAN BİR ƏHVALAT BARƏDƏ SÖHBƏT ............................................................ 412

ARAQARIŞDIRANLARIN FƏSADI NƏTİCƏSİNDƏ MƏRYƏM ŞÖHRƏTLİ.............................419
XANIM MƏHDİ-ÜLYANIN ÖLDÜRÜLMƏSİ KİMİ ................................................................ 419

BİABIRÇI BİR HADİSƏNİN BAŞ VERMƏSİ HAQQINDA ........................................................ 419

HÖKMDARIN AZƏRBAYCAN TƏRƏFƏ HƏRƏKƏT ETMƏSİ ................................................. 425

VƏ O SƏFƏR ZAMANIBƏNDƏLƏRİN RƏBBİNİN TƏQDİRİ .................................................. 425

İLƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ........................................................................ 425

SULTAN HÜSEYN XAN ŞAMLUNUN GETMƏSİNDƏN SONRA..............................................428
XORASAN VİLAYƏTİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR VƏ ƏHVALATLAR HAQQINDA ..... 428

LUY İLİ OLAN 988-ci İLİN (17.02.1580-04.02.1581) .................................................................. 434

ƏVVƏLLƏRİNDƏ ULU YARADANIN İRADƏSİ VƏ TƏQDİRİ İLƏ.......................................434
DARÜSSƏLTƏNƏ TƏBRİZDƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ................................ 434

HÖKMDAR MƏİYYƏTİNİN ƏŞKƏNBƏR VƏ KƏLƏNBƏR YAYLAĞINA.............................438
YOLLANMASI, QARABAĞDA QIŞLAQ ETMƏSİ, VƏZİRİ-ƏZƏM SİNAN PAŞANIN..............438
ELÇİ GÖNDƏRMƏSİ VƏ O ƏSNADA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ..................... 438

İLİN AXIRLARINDA QARABAĞIN SULTANBUD QIŞLAQ YURDUNDA ÜZ..........................442
VERMİŞ BƏZİ ƏHVALATLARIN XATIRLANMASI VƏ İBRAHİM XAN TÜRKMANIN..........442
RUM PADŞAHININ YANINA ELÇİ GÖNDƏRİLMƏSİNİN BƏYAN EDİLMƏSİ ...................... 442

ULU TANRININ İRADƏSİ İLƏ BU İLDƏ ÜZ VERMİŞ MÜXTƏLİF ƏHVALATLARIN.............444
VƏ TALE HADİSƏLƏRİNİN BƏYAN EDİLMƏSİ ................................................................... 444

AZƏRBAYCAN VƏ ŞİRVAN HADİSƏLƏRİNƏ VƏ QAZİ GƏRAY XAN TATARIN.................450
SƏXAVƏTLİ TANRININ TƏQDİRİ İLƏ ZƏFƏR NİŞANƏLİ QAZİLƏRİN...............................450
ƏLİNDƏ ƏSİR OLMASINA DAİR SÖHBƏT .......................................................................... 450

KUHİ-GİLUYƏDƏ QƏLƏNDƏRİN QİYAM QALDIRMASI VƏ ULU HAKİM............................545
[OLAN ALLAHIN] QƏZAVÜ-QƏDƏRİNİN ZƏRURƏTİ ÜZÜNDƏN O PİS...............................545
TALELİ ŞƏXSİN BAŞINA GƏLƏNLƏR HAQQINDA............................................................. 454

XORASAN HADİSƏLƏRİ VƏ ƏLAHƏZRƏT IŞAHABBASINI 989-cu İLƏ.................................458
(05.02.1581-25.01.1582) MÜVAFİQ OLAN YILAN İLİNDƏ O VİLAYƏTİN..........................458
SƏLTƏNƏT TAXTINA KAİNATIN HÖKMDARI [OLAN ALLAHIN] TƏQDİRİ.........................458
İLƏ ƏYLƏŞMƏSİ HAQQINDA ............................................................................................... 458

ALLAHIN KÖLGƏSİ OLAN ƏLAHƏZRƏT ŞAHIN XORASAN SƏLTƏNƏTİNİN......................461
TAXTINA ƏYLƏŞMƏSİ HAQQINDA ...................................................................................... 461

İSGƏNDƏR ŞANLI NƏVVABIN ZƏFƏR NİŞANLI MƏİYYƏTİNİN.......................................463
XORASANLILARIN FİTNƏ VƏ FƏSAD ALOVUNUN SÖNDÜRÜLMƏSİ...............................463
ÜÇÜN XORASAN SƏMTİNƏ YOLLANMASI HAQQINDA ...................................................... 463

HÖKMDAR MƏİYYƏTİNİN DARÜSSƏLTƏNƏ HERAT ÜZƏRİNƏ........................................468
GETMƏYİNİN XATIRLANMASI, İRAQ VƏ XORASAN QOŞUNLARI ARASINDA...................468
QURYANDA BAŞ VERMİŞ DÖYÜŞÜN VƏ XORASAN QOŞUNUNUN ALƏMİ......................468
YARADAN [ALLAHIN] TƏQDİRİ İLƏ MƏĞLUBİYYƏTƏ UĞRAMASININ BƏYANI ............. 468

MİRZƏ SALMANIN ÖLDÜRÜLMƏSİ, ƏLİQULU XANLA ......................................................... 472

SÜLH BAĞLANMASI VƏ ZƏFƏR NİŞANƏLİ ORDUNUN ƏBƏDİ ............................................ 472

BÜNÖVRƏLİ SƏLTƏNƏTİN MƏRKƏZİNƏ QAYITMASI HAQQINDA ...................................... 472

İSGƏNDƏR ŞANLI NƏVVABIN SƏADƏTLİ MƏİYYƏTİNİN OLMADIĞI.................................480
ƏYYAMDA AZƏRBAYCANDA BAŞ VERMİŞ HADİSƏLƏR VƏ İRƏVANIN.............................480
RUMİLƏRİN ƏLİNƏ KEÇMƏSİ HAQQINDA SÖHBƏT ........................................................... 480

İSGƏNDƏR ŞANLI NƏVVABIN SƏADƏTLİ ............................................................................. 483

MƏİYYƏTİNİN ÇIXIB GETMƏSİNDƏN SONRA ........................................................................ 483

XORASANDA BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ............................................................ 483

HÖKMDAR MƏİYYƏTİNİN İKİNCİ DƏFƏ AZƏRBAYCANA YOLLANMASI,........................486
ƏMİR XAN TÜRKMANIN HƏBS OLUNMASI, ............................................................................ 486

ƏLİQULU XAN FƏTHOĞLU USTACLUNUN YÜKSƏLDİLMƏSİ ............................................. 486

VƏ TÜRKMANLARIN ÜSYANI VƏ TÜĞYANI HAQQINDA ...................................................... 486

XORASANIN VƏZİYYƏTİ BARƏSİNDƏ VƏ MƏRHƏMƏTLİ .................................................. 494

ALLAHIN TƏQDİRİ İLƏ DÖVRANIN HADİSƏLƏRİ ÜZÜNDƏN ............................................. 494

O DİYARIN YÜKSƏK ŞÖHRƏTLİ ƏMİRLƏRİ ARASINDA ........................................................ 494

BAŞ VERMİŞ İŞLƏR HAQQINDA ................................................................................................ 494

AZƏRBAYCAN HADİSƏLƏRİ, RUM SƏRDARI OSMAN PAŞANIN TƏBRİZ....................499
ÜZƏRİNƏ QOŞUN ÇƏKƏRƏK, O CƏNNƏT NİŞANƏLİ GÖZƏL ŞƏHƏRİ İŞĞAL.....................499
ETMƏSİ VƏ DÖVRANIN ZƏRURƏTİ ÜZÜNDƏN, DÜNYA SAKİNLƏRİNİN..........................499
PƏRVƏRDİGARI [OLAN ALLAHIN] TƏQDİRİ İLƏ O GÖZƏL..................................................499
ŞƏHƏRDƏ BAŞ VERMİŞ DAĞINTILAR HAQQINDA ................................................................ 499

QIZILBAŞ QOŞUNU İLƏ RUMİLƏR ARASINDA BAŞ VERMİŞ DÖYÜŞLƏR.........................507
HAQQINDA. QULU BƏY QORÇUBAŞININ ................................................................................. 507

SƏRDARLIĞI ALTINDA APARILMIŞ BİRİNCİ DÖYÜŞ ............................................................ 507

DÜNYA SAKİNLƏRİNİN ŞAHZADƏSİ HƏMZƏ MİRZƏNİN SƏRDARLIĞI...............................509
ALTINDA APARILMIŞ İKİNCİ VƏ ÜÇÜNCÜ DÖYÜŞLƏR ....................................................... 509

TƏBRİZ QALASI UĞRUNDA VURUŞMA VƏ BU İLİN AXIRINA............................................. 516

QƏDƏR QALANIN ƏTƏYİNDƏ VƏ MÜHASİRƏNİN GEDİŞİNDƏ...........................................516
BƏNDƏLƏRİN YARADICISI [OLAN ALLAHIN] TƏQDİRİ ....................................................... 516

İLƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA ............................................................................. 516

TƏKƏLÜ VƏ TÜRKMAN TAYFALARININ TƏBRİZƏ GƏLMƏSİ, DAHA SONRA ..................523
O FİTNƏKAR CAMAATIN GERİ QAYITMASI VƏ O ƏSNADA ÜZ VERMİŞ..........................523
DÖYÜŞLƏR VƏ VURUŞLAR HAQQINDA ................................................................................. 523

TÜĞYAN SAHİBLƏRİNİN FİTNƏSİNİ ARADAN QALDIRMAQ ............................................... 537

ÜÇÜN DÜNYA SAKİNLƏRİNİN ŞAHZADƏSİNİN İRAQ TƏRƏFƏ............................................537
YOLLANMASI, YARAMAZLIQ NİŞANINA MALİK TƏBƏQƏ İLƏ MÜHARİBƏ....................537
ETMƏSİ VƏ ŞƏFQƏTLİ ALLAHIN RƏĞBƏTİNİN ..................................................................537

KÖMƏYİ İLƏ QƏLƏBƏ ÇALMASI HAQQINDA .......................................................................537

NƏVVABİ-CAHANBANİNİN TƏBRİZ SƏMTİNƏ HƏRƏKƏTİ, RUM QOŞUNUNUN................552
GƏLMƏSİ, CƏLAL BAYRAQLARININ QARABAĞA YOLLANMASI, ORADAN....................552
DA İRAQA ÜZ TUTMAĞA HAZIRLIQLARIN GÖRÜLMƏSİ VƏ BAŞ VERMİŞ.................552
BƏZİ [DİGƏR] HADİSƏLƏRİN ŞƏRHİ HAQQINDA .................................................................552

DÖVLƏT VƏ SƏADƏT ÇƏMƏNİNİN O YENİ FİDANININ, ......................................................557

YƏNİ NƏVVABİ-CAHANBANİNİN BƏDBƏXT MURDARLARIN ÖNDƏGEDƏNİ....................557
OLAN DƏLLƏK XUDAVERDİNİN XƏYANƏT ........................................................................557

QILINCI İLƏ ULDUZLARIN VƏ FƏLƏKLƏRİN TƏSİRLƏRİ UCBATINDAN..........................557
ŞƏHİDLİK TAPMASI HAQQINDA ............................................................................................557

SƏADƏTLİ ŞAHZADƏ ƏBU-TALİB MİRZƏNİN VƏLİƏHD OLMASI VƏ.............................563
YERİ-GÖYÜ YARADANIN QƏZAVÜ-QƏDƏRİNİN ZƏRURƏTİ ÜZÜNDƏN...........................563
ONUN ƏHVALININ ALT-ÜST OLMASI HAQQINDA ..............................................................563

GÜNAHLARIBAĞIŞLANMIŞ ŞAHZADƏNİN FACİƏVİ HADİSƏSİNDƏN................................566
BAŞLAYARAQ ƏLAHƏZRƏT [ABBASIN] XORASAN ÜFÜQÜNDƏN DÖVLƏT......................566
VƏ SƏADƏT GÜNƏŞİNİN DOĞMASINA QƏDƏR İRAQ, AZƏRBAYCAN VƏ KİRMAN.........566
ƏMİRLƏRİNİN BAŞLARINA GƏLMİŞ ACINACAQLI ƏHVALATLAR HAQQINDA...............566

İSGƏNDƏR ŞANLI NƏVVABIN ƏMİRLƏRİNİN, DÖVLƏT ƏRKANININ.................................571
VƏ ƏBU-TALİB MİRZƏ TƏRƏFDARLARININ ƏHVALI HAQQINDA .....................................571

XORASANIN VƏZİYYƏTİ, ALLAHIN KÖLGƏSİ OLAN ŞAHIN SƏADƏTLİ............................580
MƏİYYƏTİNİN İRAQA GETMƏSİ VƏ ONUN İRAN SƏLTƏNƏTİNİN..............................580
TAXTI ÜZƏRİNDƏ ƏYLƏŞMƏSİ HAQQINDA .........................................................................580

II MƏQALƏ:.................................................................................................................................594

O HƏZRƏTİN İLAHİ DƏRGAHA OLAN .....................................................................................594

HÜSN-RƏĞBƏTİ VƏ BAĞLILIĞI HAQQINDA............................................................................594

TANRININ ONA VERDİYİ DÜŞÜNCƏNİN VƏ BİLİYİN .............................................................594

DÜZGÜNLÜYÜ VƏ ONUN TƏQDİR SƏHİFƏSİNƏ .....................................................................594

UYĞUN GƏLƏN TƏDBİRLƏRİNİN GÖZƏLLİYİ HAQQINDA ....................................................594

IV MƏQALƏ: ...............................................................................................................................596

ONA SAHİBQİRANLIQ RÜTBƏSİNİN YARAŞMASI BARƏDƏ ..................................................596

VƏ ONUN HƏYATINI TƏHDİD EDƏN TƏHLÜKƏLƏRİN ............................................................596

XOŞBƏXT SONLUQLA BİTMƏSİ HAQQINDA ...........................................................................596

V MƏQALƏ:.................................................................................................................................598

ONUN ƏDALƏTİ, YOLLARIN ƏMİN-AMANLIĞINI TƏMİN .....................................................598

ETMƏSİ VƏ BƏNDƏLƏRİN RİFAHINI YÜKSƏLTMƏSİ HAQQINDA .........................................598

VI MƏQALƏ: ...............................................................................................................................600

ONUN İLAHİ HİKMƏTDƏN İRƏLİ ........ 600
GƏLƏN CƏZA ƏMRLƏRİ HAQQINDA ........ 600
VIII MƏQALƏ: ........ 602
O HƏZRƏTİN SADƏLİYİ, DƏRVİŞ XASİYYƏTİNƏ MALİK ........ 602
OLMASI, TƏVAZÖKARLIĞI VƏ BİR-BİRİNƏ ZİDD GƏLƏN ........ 602
XÜSUSİYYƏTLƏRİ ÖZÜNDƏ CƏMLƏŞDİRMƏSİ HAQQINDA ........ 602
IX MƏQALƏ: ........ 603
XİDMƏTKARLARIN HÜQUQLARINI TƏMİN ETMƏSİ VƏ ........ 603
ONLARIN MÜLKİYYƏTLƏRİNDƏN UZAQ DURMASI HAQQINDA ........ 603
X MƏQALƏ: ........ 604
ONUN XOŞ TƏBİƏTİ, ALƏMİN ƏHVALI VƏ İNSAN ........ 604
TƏBƏQƏLƏRİNİN VƏZİYYƏTİ İLƏ TANIŞ OLMASI HAQQINDA ........ 604
XI MƏQALƏ: ........ 605
ONUN XEYİRLİ ƏSƏRLƏRİ VƏ ........ 605
İMATRƏTLƏRİ TİKİB YARATMASI HAQQINDA ........ 605
XII MƏQALƏ: ........ 608
ONUN SƏADƏTLİ HAKİMİYYƏTİ ZAMANININ HADİSƏLƏRİNİN, ........ 608
MÜHARİBƏLƏRİNİN VƏ FƏTHLƏRİNİN BƏYANI HAQQINDA ........ 608
GÖSTƏRİCİLƏR ........ 617
ŞƏXS ADLARI ........ 617
COĞRAFİ ADLAR ........ 657
SÜLALƏ, TAYFA, XALQ VƏ İCMA ADLARI ........ 677
TERMİNLƏR ........ 681
ƏSƏR ADLARI ........ 694
İXTİSARLAR ........ 697

# İSGƏNDƏR BƏY MÜNŞİ TÜRKMAN

# TARİX-İ ALƏMARA-Yİ ABBASİ
# (ABBASIN DÜNYANI BƏZƏYƏN TARİXİ)

## I CİLD

**Bakı, "TƏHSİL", 2009.**


**Bədii və texniki redaktoru:** ***Abdulla Ələkbərov***
**Kompyuter tərtibatçıları:** ***Səadər Quluzadə***
**Korrektoru:** ***Sevinc Hacıyeva***

**Çapa imzalanmışdır 02.12.2009. Kağız formatı 60x90 $^{1/}{}_{16}$**
**Fiziki çap vərəqi 49,5. Sifariş 131. Tiraj 500.**
**Qiyməti müqavilə yolu ilə.**
**«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC Bakı,**
**AZ 1052, F.Xoyski küç., 121$^{A}$**



"Tarix-i aləmara-yi Abbasi"nin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan S-129/15093 şifrəli nüsxəsinin ilk səhifəsi



“Tarix-i aləmara-yi Abbasi”nin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan S-129/15093 şifrəli nüsxəsinin son səhifəsi



“Tarix-i aləmara-yi Abbasi”nin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan S-129/5313 şifrəli nüsxəsinin ilk səhifəsi



"Tarix-i aləmara-yi Abbasi"nin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan S-129/5313 şifrəli nüsxəsinin son səhifəsi



AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan B-589/10505 şifrəli məcmuə daxilidə “Tarix-i aləmara-yi Abbasi”dən bir fraqment.